Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür... Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir... Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyevin liderliyi altında Azərbaycan Respublikasının atdığı addımları Türkiyə təqdirlə izləyir. Azərbaycan xalqının xoşbəxtliyi Türkiyə xalqının da xoşbəxtliyidir.

Əhməd Necdət Sezər
Türkiyə Respublikasının Prezidenti

HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ

Altı cilddə

TÜRKİYƏ

Üçüncü kitab

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2004-cü il tarixli 898 saylı əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.

ÇAŞIOĞLU
2005

AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ƏZİZ VƏ NURLU XATİRƏSİNƏ İTHAF OLUNUR

Müəllif-tərtibçilər: ***Qaley Allahverdiyev***
XİN-in müşaviri,
filologiya elmləri doktoru

Vəhdət Sultan-zadə
XİN-in müşaviri

Məsləhətçi-rəyçi: ***Novruz Məmmədov***
Azərbaycan Respublikası Prezidenti Aparatının şöbə müdiri, Fövqəladə və Səlahiyyətli Səfir

Redaktoru: ***Mübariz Qurbanlı***
Milli Məclisin deputatı, tarix elmləri namizədi, dosent

"Tekfen Holding" *in qurucu rəhbərləri* ***Nihat Gökyiqitə, Necati Akçağlılara, Feyyaz Berkerə,*** *prezidenti* ***Erhan Önerə*** *və Azərbaycandakı təmsilçisi* ***Bataçar Baysala*** *"Heydər Əliyev və Şərq" kitabının I-V cildlərinin çapa hazırlanmasında göstərdikləri əvəzsiz köməklik üçün dərin minnətdarlığımızı bildiririk.*

Müəlliflər

H 0803010100-983
082-05

© "Çaşıoğlu" nəşriyyatı, 2003
© "Çaşıoğlu" nəşriyyatı, 2005

TÜRKİYƏNİN RƏHBƏRLƏRİ VƏ İCTİMAİ-SİYASİ XADİMLƏRİ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV HAQQINDA

Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Bu, dünyaya elan edilmişdir. Bu iki dövlət qardaşdır və dostdur, bu qardaşlıq və dostluq əbədidir. Bütün bunların arasında hörmətli Heydər Əliyevi böyük bir lider olaraq görürük...

***

Dəyərli qardaşım, hörmətli Cümhurbaşqanı Heydər Əliyevin Azərbaycanın istiqrarını, əmin-amanlığını, sakitliyini, daxili sabitliyini əsas tutmaq və bu gözəl ölkəni yüksəltmək üçün sərf etdiyi səylərin ən yaxın şahidi mənəm. O, hər birimiz üçün, Azərbaycanın hər guşəsi üçün, hər insanı üçün çalışdı və çalışmaqda davam edir. Onun üçün ən önəmli məsələ sizin yaxşı olmağınızdır. Ona inandınız və ölkə bugünkü vəziyyətə gəldi. Bu gün Azərbaycan bir dünya dövlətidir.

***

Biz Azərbaycan Prezidentinin, möhkəm əzmlə və inamla öz ölkəsinin gələcəyə doğru irəliləməsi yolunda atdığı addımları görürük.

***

Hörmətli Heydər Əliyev dünya siyasətində möhtərəm bir şəxsdir.

***

Heydər Əliyevi hər görəndə sevinirəm, onunla birlikdə, bərabər olmaqdan xüsusi xoşbəxtlik duyuram. Onunla eyni havada nəfəs almaq mənə xüsusi zövq verir.

***

Biz Azərbaycan Prezidentinin, möhkəm əzmlə və inamla öz ölkəsinin gələcəyə doğru irəliləməsi yolunda atdığı addımları görürük.

***

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılmışdır. Hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələlərdən biri də möhkəm sabitlikdir.

***

Azərbaycan dünya tərəfindən tanınmış, dünyaya qovuşmuşdur. Avropanın bütün qurumlarının üzvüdür. Lissabonda 54 dövlətdən 53-ü Azərbaycanın lehinə səs verdi. Azərbaycan Avropada və Amerikada çox böyük rəğbətlə qarşılanır. Sayın Əliyev haraya gəlsə, ən böyük səviyyədə hörmət görür.

***

Hörmətli Heydər Əliyev şübhəsiz ki, XX əsrdə iz qoymuş şəxsiyyətlər arasında haqlı yerini tutmuş dövlət və siyasət adamıdır. Əsasən

XX əsrin iki super gücündən biri olan Sovetlər Birliyinin tənxini yazarkən hörmətli Heydər Əliyevdən bəhs etmədən ötüşmək mümkün deyildir.

Hörmətli Heydər Əliyev Sovetlər Birliyi dövründə Azərbaycanın çiçəklənən Respublikaya çevrilməsi üçün uzun illər boyunca böyük fədakarlıqla çalışmış, ölkəsinin haqq və nüfuzunu qorumağa səylər göstərmişdir

***

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxtı yaradılmışdır. İndi yenidən canlanma gedir. Amma hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsəl sabitlikdir.

Hörmətli Heydər Əliyev Azərbaycan üçün şəxsiyyətdir. Bunu onunla yaxın olduğuma görə söyləmirəm. Azərbaycan xalqının rifahı və səadətli baxımından söyləyirəm.

Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman Şirakla, istədiyi zaman Buşla, istədiyi zaman istənilən adamla danışır. Azərbaycan dövlətini dünyada əlibarlı şəkildə təmsil etməkdədir.

***

Hörmətli Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsi ölkəniz üçün bir şansdır. İnsanların qiymətli gəldikdən sonra deyil, vaxtında, xalqa xidmət etdiyi zaman bilinməlidir Vəzifədən getdikdən sonra insanları qiymətləndirmək artıq gecdir. Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.

***

Qardaş və qonşu Azərbaycanın möhtərəm Prezidenti, əziz dostum, sevimli qardaşım Heydər Əliyev dünən Klivlendda həyata vida etmişdir. O, Azərbaycanın, Türkiyənin və bütün türk dünyasının böyük dövlət adamı olaraq daim xatırlanacaq, görkəmli lider kimi yad olunacaqdır Azərbaycandakı qardaşlarına, Azərbaycan xalqına, türk xalqına və ümumiyyətlə, türk dünyasının mənsublarına başsağlığı verir, mərhuma Allahdan rəhmət diləyirəm.

***

Azərbaycanı 10 illik zaman ərzində dünyaya tanıdan, böyük dünya dövləti səviyyəsinə yüksəldən məhz Heydər Əliyevdir. Azərbaycanın müstəqil bir dövlət kimi əbədiyyətə qədər əyəqda dura bilməsini vəsiyyət edən də məhz Heydər Əliyevdir. "Türkiyə-Azərbaycan dostluğu daim yaşayacaqdır, heç bir şey buna mane ola bilməz" - deyən də Heydər Əliyevdir Bu gün onu minnətdarlıq və təşəkkür hissləri ilə yad edirik. Qurulması üçün çox böyük əmək sərf etdiyi müstəqil Azərbaycan dövləti əbədi yaşayacaq, Türkiyə ilə Azərbaycan arasındakı dostluq da əbədi yaşayacaqdır. Azərbaycan xalqına deyirəm: "Sizin dərin hüznünüzə şərik oluram. Bir tək təsəllimiz odur ki, iki dost və qardaş ölkə bundan sonra əl-ələ, çiyin-çiyinə verəcək, bir-birinə yardım edəcək, dəstək olacaqdır. Azərbaycan doğru, düzgün bir yoldadır. Prezidenti, böyük siyasi xadim Heydər Əliyevə Allahdan bir daha rəhmət diləyirəm. Torpağı nur-

ilə dolsun! Ruhu şad olsun! Azərbaycandakı qardaşlarımı salamlayır, onlara hörmət və ehtiramlarımı çatdırıram!".

Süleyman DƏMİRƏL,
Türkiyə Cümhuriyyətinin doqquzuncu Prezidenti

***

Uca şəxsiyyətinizin tənələyiq liderliyi altında müstəqil, demokratik bir dövlət olan Azərbaycan bütün dünyada hörmət qazanmışdır. Genc Azərbaycan dövlətinin tanınmasında və öz iqtisadiyyatı ilə sıx bağlamasında Sizin kimi böyük bir şəxsiyyətin əvəzsiz xidmətləri olmuşdur.

***

Heydər Əliyevin liderliyi altında Azərbaycan Respublikasının atdığı addımları Türkiyə təqdirlə izləyir Azərbaycan xalqının xoşbəxtliyi Türkiyə xalqının da xoşbəxtliyidir.

Əhməd Necdət SEZƏR
Türkiyə Cümhuriyyətinin Prezidenti

***

Baş komutan Heydər Əlirza oğlu dünya şöhrətli bir liderdir. O, Atatürkün mənəvi övladıdır!

Dəniz BAYKAL,
Türkiyə Cümhuriyyətinin Cümhuriyyət Xalq Partiyasının lideri

***

Böyük siyasi xadim və dünyada tanınan dövlət rəhbəri Heydər Əliyevin yüksək səviyyədə Türkiyə - Azərbaycan əlaqələrinin formalaşmasında xidmətləri ölçüyəgəlməzdir. Onun bizim keçmiş Prezidentimiz Süleyman Dəmirəllə, indiki Prezident Əhməd Necdət Sezərlə dostluğu yuxarıdan-aşağıya hamı üçün bir örnəkdir.

Yavuz Büləndi BAKİLƏR

***

Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür! Heydər Əlirza oğlu min ildə bir yetişən dahilərdəndir!

Büləndi ECEVİT,
Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri

***

Türk millətı tarix boyunca zaman-zaman böyük sərkərdələrini meydana çıxarmışdır. Heydər Əlirza oğlu da o böyük sərkərdələrdən biridir. Mustafa Kamal Paşa Türkiyəni düşdüyü girdabdan çıxardığı kimi, Heydər Paşa da Azərbaycanı bu bəladan qurtaracaqdır!

Doğan GÜREŞ,
Türkiyə Cümhuriyyəti ordu generalı

***

Heydar Əliyev baxışlarına və təkliflərinə böyük əhamiyyət verdiyimiz bir liderdir. Onun istərsə Qafqaz məsələlərinə, istər sa də regiondakı digər məsələlərə verdiyi qiymətli öyrənməkdən məmnun olacağam.

Dövlət rəhbərliyi sayəsində zəngin təcrübəsi olan Heydər Əliyevin ötən çətin dövrdə respublikaya başçılıq etməsinin həm Azərbaycan,

həm də Qafqaz üçün böyük əhəmiyyəti var

Məsud YILMAZ,
Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri

***

Heydər Əliyev hazırda dünyada tanınan və sayılan liderlər sırasındadır.

Mustafa ƏLƏMLİ,
Türkiyə Böyük Millət Məclisinin sabiq sədri

***

Cümhurbaşqanı Heydər Əlirza oğluna Azərbaycanın sabahına inandığım qədər inanıram Sizin uğurlarınız bizim uğurlarımızdır.

***

Prezident Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün bölgənin sülh və sabitliyinin güvəncidir. Onun tez-tez dediyi kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir.

***

Azəri xalqının Cümhurbaşqanı Heydər Əliyevin liderliyi ilə Azərbaycan öz müstəqilliyini, suverenliyini möhkəmləndirərək bölgənin önəmli bir dövləti olmaq yolundadır. Sayın Cümhurbaşqanı eyni zamanda mənim yaxın dostumdur. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Sayın Heydər Əliyevin öndərliyi ilə siyasi sabitliyə qovuşmuş Azərbaycanın bərşi də sürətli hala gətirildikdən sonra neft yataqları, digər sərvətləri ilə bölgənin ən inkişaf etmiş dövlətlərindən biri olacağına inanıram.

***

Prezident Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün bölgədə sülhün və sabitliyin qarantıdır. İnanıram ki, Azərbaycan öz prezidentinin müdrik siyasəti sayəsində keçid dövrünün çətinliklərini aradan qaldıracaq

***

... Sizin "Bir millət iki dövlət" kəlamınız indi Türkiyədə məşhurdur. Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığımızın hazırda çox böyük uğurla davam etməsi məhz Sizin diqqət və qayğınız sayəsində mümkün olmuşdur

Hikmət ÇƏTİN
Türkiyə Böyük Millət Məclisinin sabiq sədri

***

Azərbaycanın zəngin sərvəti olan neftini əldə edə biləcək və belə ağır və çətin işləri həyata keçirə biləcək qabiliyyətə malik olan Azərbaycan Prezidenti Heydər Əliyevə haqq qazandırmaq lazımdır.

N.CEFHƏRİ
Sabiq Dövlət Naziri

***

Türkiyə-Azərbaycan əlaqələrində, Azərbaycan-Türkiyə qardaşlığında hörmətli Cümhurbaşqanım (Heydər Əliyev) ən böyük rola sahibdir və bu dostluğun təməlində, bu dostluğun gələcəyində hörmətli Cümhurbaşqanı hamımıza örnək olmuşdur və örnək olmağa da davam etməkdədir. Hörmətli Heydər Əliyev ilə görüşüm mənim üçün yolgöstəricidir.

İsmayıl CEM
Türkiyənin sabiq Xarici işlər naziri

***

Hörmətli Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hər sahədə inkişaf etməkdədir. Beynəlxalq aləmdə üzərinə düşən öhdəlikləri yerinə yetirən müstəqilliyini daim qoruyan, sərbəst bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrə sülh və təhlükəsizliyin tərəfdarı olan Azərbaycan ilə qonşu olmaq bizim üçün böyük məmnuniyyətdir.

***

Hörmətli Prezident Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan hçr sahədə inkişaf etməkdədir. Beynəlxalq aləmdə üzərinə düşən öhdəlikləri yerinə yetirən, müstəqilliyini daim qoruyan, sərbəst bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrə sülh və təhlükəsizliyin tərəfdarı olan Azərbaycan ilə qonşu olmaq bizim üçün böyük məmnuniyyətdir.

Abdulxaliq Mehmet ÇAY
Türkiyənin sabiq dövlət naziri

***

Azərbaycanda Sizin kimi görkəmli Cümhurbaşkanı olduğu üçün biz çox sevinirik. Sizin zəkanız bizə də lazımdır. Allaha şükür edirik ki, Sizi bizə vermişdir, uzun müddət Azərbaycanın rəhbəri olmağınızı arzulayırıq. Bu. Türkiyə və Azərbaycan üçün vacibdir və bunu söyləməkdən fəxr duyuram.

Namiq Kamal ZEYBƏK,
Türkiyə Baş nazirinin sabiq Baş müşaviri

***

Heydər Əliyevin həm ölkədə, həm də bölgədə sülhün bərqərar olunmasında oynadığı rol bu gün daha yaxşı anlaşılır. Bölgə ölkələri ilə qarşılıqlı əməkdaşlığa əsaslanan xətt yeridən Heydər Əliyev, böyük dövlətlər arasında tarazlaşdırılmış siyasətə üstünlük verərək, Azərbaycanın dünyanın nüfuzlu ölkələri arasına daxil olmasında mühüm rol oynamışdır.

Süleyman DOĞAN

***

Prezident Heydər Əliyevin son mənzilə böyük bir izdihamla yola salınması onun öz xalqı üçün necə böyük şəxsiyyət olmasının göstəricisidir.

Nevzat YALÇINTAŞ

***

Heydər Əliyev əsrimizin yetişdirdiyi nadir dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyat boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, xalqının xoşbəxtliyi üçün çırpışmışdır. Azərbaycanın ən çətin anlarında vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir.

O, fırtınalı həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük bir şəxsiyyətdir. Ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır.

***

Mən həyatda çox mükalatlar almışam. Amma Sizinlə dostluğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundanyüksək mükafat ola bilməz. Siz həm təcrübəli, həm də orcinal adamsınız. Sizin sağlığınız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

İhsan DOĞRAMACI

Bilkənd Universiteti idarə heyətinin sədri, məşhur ictimai xadim

***

Möhtərəm Heydər Əliyev təkcə Azərbaycan dövlətinin prezidenti deyil, eyni zamanda bütün bölgənin dayağıdır. Canlı əfsanə olan möhtərəm Heydər Əliyev bütün bölgəmizdə, Avrasiyada sülhün bərqərar olması sahəsindəki xidmətləri ilə yanaşı, türk dünyasında cərəyan etməkdə olan münasibətlərin böyük öndəri və memandır. Əsrin müqaviləsi adlandırdığımız Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri layihəsinin məmar da məhz Prezident Heydər Əliyevdir.

Məni valeh edən başqa bir məqam da vardır. Bu da möhtərəm Heydər Əliyevin Avrolpa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Lissabon sammitində ortaya qoyduğu mövqeyini müdafiə etməsidir. Çətin şəraitə, böyük təzyiqlərə baxmayaraq, siyasi müdrikliyi sayəsində Prezident Heydər Əliyev çox əhəmiyyətli beynəlxalq sənədə Azərbaycanın ərazi bütövlüyü müstəqilliyi və gələcəyi üçün həyati məna daşıyan fikirləri daxil etməyə müvəffəq olmuşdur. Yüksək siyasətin mahiyyəti, böyük dövlət adamı xüsusiyyəti də məhz belə şəraitdə meydana çıxır.

Möhtərəm Heydər Əliyevi yalnız, siyasi xadim, təkcə Azərbaycanın Prezidenti, ölkəsinin lideri kimi görmək mənca kifayət deyildir. O, XX əsrdən XXI əsrə keçən bir xəzinədir. Çox böyük dövlət adamıdır. Əsrimizin, dövrümüzün nadir siyasi xadimlərindəndir.

Möhtərəm Heydər Əliyev bütün çətinliklərə sinə gərərək, bölgəyə sülhü gətirən bir şəxsiyyətdir. Özünün və xalqının yaşadığı haqsızlıq və ədalətsizliklər vardır. Prezident Heydər Əliyev Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ problemini hər zaman və xüsusi ilə də son dövrdə müharibə yolu ilə də həll edə bilər. Ancaq belə bir gücü və imkanı olmasına baxmayaraq, Prezident Heydər Əliyev özündən 80 il əvvəl yaşayan başqa bir böyük dövlət adamı - Mustafa Kamal Atatürk kimi, "Yurda sülh, cahanda sülh" prinsipi ilə hərəkət edərək, xalqının haqlı, ədalətli mövqeyini danışıqlar masası arxasında müdafiə edir. Bu işdə də uğurlar əldə olunmuşdur. Həm BMT-nin, həm də Avropa Şurasının və ATƏT-in rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyünün tanınması öz əksini tapmışdır. Bu, diplomatiya nöqteyi nəzərindən böyük bir müvəffəqiyyətdir. Bu, insanlıq, humanizm baxımından böyük uğurdur.

Biz -Türkiyə türkləri Prezident Heydər Əliyevin dərin mənalı "bir millət, iki müstəqil dövlət" sözlərini zərb-məsəl kimi əzbərləmişik. Bu mənalı sözlərin sahibi Heydər Əliyev söylədiklərini əməli fəaliyyəti ilə də isbat edir.

Akkan SUVER,

Türkiyənin Məmarə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri

***

"Azərbaycan Qafqazda ən önəmli ölkə və islamın mərkəzi, buradakı mədəniyyətin mərkəzidir. Lakin Zati-alinizi nitqinizdə bizə böyük üfüqlər açdınız. Sizin dünyada tanınan dövlət təcrübənizlə yanaşı, tarix, mədəniyyət barəsindəki dərin təcrübənizi və biliyinizi də öyrənmək imkanı qazandıq. Qurulma halında olan bir dövlətin quruculuğunun dilindən təkcə sırf keçmişə aid fikirləri, təcrübələri deyil, gələcəyə aid fikirləri də eşitmək məndən ötrü, qardaşlarımın bir çoxu üçün ən böyük bəxtiyarlıq olmuşdur. Bu, bəndəniz və qardaşlarınız üçün ən gözəl xatirədir".

Əkməddin İHSANOĞLU,

İslam Konfransı Təşkilatının İstanbuldakı İslam, Tarix, Sənət və Kültür Mərkəzinin baş direktoru

***

Dost və qardaş Azərbaycanın demokratiya, sülh birlik və bərabərlik içində inkişafı, yalnız siyasi sahədə deyil, həm də iqtisadi baxımdan tərəqqisi türk xalqının ürəkdən gələn arzusudur. Müstəqil və suveren Azərbaycandan umduğumuz bu müvəffəqiyyəti Heydər Əliyevin müdrik rəhbərliyi altında həyata keçirə biləcəyinə əminəm

***

Genc Azərbaycan Respublikası hazırda bütün dünyaya örnək ola biləcək addımlar atır. Demokratik və sivilizasiyalı camiyyət quruculuğu yolunda böyük işlər görür. Prezident Heydər Əliyevin bu sahədə gördüyü işləri bütün Türk dünyası müdafiə edir

Tansu ÇILLƏR,

Türkiyənin sabiq Baş naziri

***

Heydər Əliyev Sovet İttifaqının tarixində uzun illər sovetlər rejiminin, Kremlin zirvəsində oturmuş yeganə türkdür.

Kamal AKIN,

Türkiyənin ictimai xadimi

***

Bu gün Azərbaycanın başında siyasi intuisiyası olan, dünya siyasətini çox gözəl bilən, dünyada baş verən və baş vermək də olan prosesləri, qüvvələr nisbətini çox dəqiq dəyərləndirən təcrübəli bir siyasətçi dayanır. Türkjə çox gözəl danışan Azərbaycan Respublikasının Prezidenti sayın Heydər Əliyev araşdırmalarımızın nəticələrinə görə Azərbaycan xalqının böyük əksəriyyəti tərəfindən sevilən və inanılan bir liderdir.

Harun QAYAÇI,

Türkiyə jurnalisti

***

Xoşbəxtsiniz ki, Heydər bəyə inanırsınız. Heydər bəyi çox sevirəm və onun böyüklüyünə inanıram.

Alparslan TÜRKEŞ,

Milliyyətçi Hərəkat Partiyasının mərhum lideri

***

Heydər bəyi çox sevirik. Bir zamanlar babam İsmət Paşaya "həyatdakı Atatürk" deyirdilər. Heydər Əlirza oğlu da həyatdakı Atatürkdür

Ərdal İNÖNÜ,
Türkiyə Baş nazirinin sabiq müavini

***

Heydər Əliyev Atatürk kimi beynəlmiləlçidir. Heydər Əliyev Azərbaycanda demokratiyanın həm ideoloqu, həm təşkilatçısı, həm də icraçısıdır. Görüntü budur və buna qəlyyətlə, millətcə inanmaq lazımdır ki, Prezident Heydər Əliyevin heç bir zaman alternativi yoxdur.

***

Azərbaycanın da Atatürkü olan övladı vardır. Bu övlad və ata ömrünü Azərbaycana xidmət eşqi ilə sürüb gedən, özü üçün heç bir umacağı, tamannası olmayan, insanlığa xidmət naminə günde 18-20 saat işləyən, ölkəsinin unitar və demokratik, müstəqil dövlət olduğunu hamıya qəbul etdirən, sülhsevərliyi, humanistliyi ilə beynəlxalq siyasətin zirvəsinə ucalan Heydər Əliyevdir.

Yəhya TAŞDƏLƏN,
professor, doktor, Türkiyədəki Azərbaycan Lobbi klubunun rəhbəri

***

Daxildə və xaricdə mübarizə aparıldığı bir vaxtda Zati-alinizin dövlət rəhbərliyi sahəsindəki zəngin təcrübəsi bütün azərbaycanlı qardaşlarımızın dadına çatmışdır.

Hüsaməddin CİNDORUQ,
Türkiyə Böyük Millət Məclisinin sabiq sədri

***

Biz Sizi, sadəcə, Azərbaycanın dəyərli Cümhurbaşqanı deyil, eyni zamanda türk dünyasının çox dəyərli lideri olaraq salamlayırıq.

İstemihan QALAY
Türkiyənin sabiq Mədəniyyət naziri

***

Həyatımda Sizin kimi güclü yaddaşa malik ikinci bir şəxsiyyət görməmişəm.

Başa vurduğumuz əsrdən də əvvəl bu məmləkətdə ilk teatr olmuş, ilk qəzet çıxmışdır, ilk dəfə latınalifbasını biz azərbaycanlılardan götürmüşük. Cümhuriyyət ideyası, cümhuriyyət, demokratiya nədir, -türk və islam dünyasında ilk dəfə bunları biz Azərbaycandan götürmüşük. İslam dünyasında ölüm hökmü ilk dəfə Sizin başçılıq etdiyiniz ölkədə ləğv edilib.

Qədri Ecvet TEZCAN
Türkiyə Cümhuriyyətinin Azərbaycandakı sabiq səfiri

***

Prezident Heydər Əliyevin beynəlxalq sülh uğrunda və bölgəmizdə əmin-amanlığın, sabitliyin yaradılması istiqamətində göstərdiyi səylər çox böyük əhəmiyyətə malikdir. Biz əminik ki, beynəlxalq münasibətlərə dərindən bələd olan görkəmli dövlət xadimi Heydər Əliyevin nüfuzu və səyləri sayəsində Cənubi Qafqazda tezliklə sülh bərqərar olacaqdır. Cənab Heydər Əliyev apardığı uğurlu, uzaqgörən siyasətlə həm Türkiyənin mövqeyini daim dəstəkləmiş, həm də istər Azərbaycanın, istərsə

də Türkiyənin beynəlxalq aləmdə rolunun artmasına nail olmuşdur

Nüsrət ARAS,
professor

***

Biz dost, qardaş Azərbaycanın rəhbərliyində Heydər Əliyev kimi şəksiz lideri görməkdən şərəf duyuruq

İsmayıl Həqqi QARADAYI
Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının sabiq rəisi, ordu generalı

***

Türkiyə xalqı əmindir ki, zəngin təcrübəyə malik Heydər Əliyev kimi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyinə görə bu ölkənin müstəqilliyi daimi olacaqdır.

Necati ÇƏTİNQAYA
Türkiyə Böyük Millət Məclisinin sabiq üzvü

***

Azərbaycan müstəqillik qazandıqdan sonra ciddi daxili və xarici problemlərinə baxmayaraq, çox qısa müddətdə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycanın hörmətli Prezidenti olaraq qabiliyyətli şəxsiyyətsiniz, bəsirətiniz və vətənpərvərliyiniz sayəsində Siz Azərbaycana, bölgəmizə, türk dünyasına və beynəlxalq birliyə böyük xidmətlər göstərmisiniz. Azərbaycanda sabitlik və əmin-amanlıq bərqərar olmuşdur. Ölkəniz demokratiya yolu ilə irəliyir, müstəqilliyiniz və dövlətçiliyiniz günbəgündən möhkəmlənir. Azərbaycanın beynəlxalq aləmdə etibarlı yeri vardır və Azərbaycan beynəlxalq birliyin ən çox maraq göstərdiyi ölkələrdən birinə çevrilmişdir.

Siz Türkiyə və Azərbaycan arasında münasibətlərin inkişaf etməsi üçün çalışmış, böyük xidmətlər göstərmişsiniz. Biz bunları minnətdarlıq hissi ilə qeyd edirik. Türkiyə Cümhuriyyəti və xalqı Sizi və Azərbaycanı ürəkdən sevir, alqışlayır.

Osman Faruq LOĞOĞLU
Türkiyənin Azərbaycandakı sabiq səfiri

***

Sizin liderliyinizlə Azərbaycanın haradan haraya gəldiyini çox yaxşı gördüm. İnsan bir şeyi hər an görürsə, böyük dəyişiklikləri duymur, amma onillik fasilədən sonra Azərbaycanı gördüyüm zaman heyrət içində qaldım və qəlbim təqdir duyğuları ilə doldu. Hər şey o qədər gözəl olmuşdur ki, insanların üzündən məmnuniyyət, əsgərlərin özlərinə güvənmələri, iş görmələri, Silahlı Qüvvələrin gücü - bütün-bunlar hər sahədə çox böyük dəyişikliklər baş verdiyini aşkar göstərir. Bunların Zati-alinizin böyük öndərliyi ilə əldə olunduğunu hər kəs bilir.

Hilmi ÖZKÖZ
Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının komandanı, ordu generalı

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında

Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün türk xalqlarının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədilə qərara alıram

1. Azərbaycanda Atatürk Mərkəzi yaradılsın.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Prezidenti Atatürk Mərkəzinin fəxri sədridir.

3. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbərinə tapşırılsın ki, Atatürk Mərkəzinin statusu, strukturu və ştat vahidlərini müəyyən etməklə onun Nizamnaməsini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Dövlət Əmlakı Nazirliyi Bakı şəhər İcra Hakimiyyəti ilə birlikdə Atatürk Mərkəzi üçün bina ayrılması məsələsini bir ay müddətində həll etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 9 mart 2001-ci il
№ 641

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİMİZİ MÖHKƏMLƏNDİRİR VƏ GENİŞLƏNDİRİR

Türkiyə bizim üçün qardaşdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

ÇIXIŞLAR, MÜSAHİBƏLƏR VƏ GÖRÜŞLƏR

1999-2003-cü illər

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ I QEYRİ-RƏSMİ SƏFƏRİ

17-31 yanvar 1999-cu il

1999

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyəyə müalicə olunmaq üçün səfər etmişdir...

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 17-31 yanvar 1999-cu ildə Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunmuşdur.

***

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə Fəxri doktor adının verilməsi haqqında qərar

Xataydakı Mustafa Kamal Universitetinin Elmi Şurası Türkiyə Cümhuriyyətinə və onun qurucusu ulu öndər Atatürkə olan sevgisinə, Azərbaycan türk dövlətində dünyəvi və demokratik sistemin qurulması, ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin inkişafı və xalqlarımızın bir-birinə yaxınlaşması sahəsindəki böyük xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə sosial elmlər üzrə Fəxri doktor adının verilməsi barədə yekdilliklə B.30.2.MKÜ. 0.70.00.00/17-3-2231 saylı qərarı qəbul etmişdir.

22 mart 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN TRT-1 TELEVİZİYA KANALINA MÜSAHİBƏSİ

6 aprel 1999-cu il

Sual: Hörmətli Cümhurbaşkanım, bəllidir ki, Mustafa Kamal Atatürkün ölümündən 60 il keçdiyi halda, millətimiz bu gün də onu ehtiramla yad edir, ona ilham qaynağı kimi baxır. Baxmayaraq ki, onunla eyni dövrdə, XX yüzillikdə yaşayan Lenin kimi başqa şəxsiyyətlər də vardı. Onlarla müqayisədə Mustafa Kamal Atatürkün bu daimi dəyərini necə izah edərdiniz və bizə bu barədə nə deyə bilərdiniz?

Cavab: Bu, təbiidir. Çünki Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru, düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, öz xalqına böyük xidmətlərinin nəticəsini göstərir.

Mən istəməzdim ki, böyük Mustafa Kamal Atatürkü digər şəxsiyyətlərlə müqayisə edim. Çünki Türkiyə qədim bir ölkədir, qədim bir dövlətdir, xalqdır. Osmanlı imperatorluğunun 700-cü ildönümü olacaqdır. Bu dövlət 700 il yaşayıbdır və dünyanın bölgələrinə öz təsirini göstəribdir, böyük izlər qoyubdur. Ancaq bütün imperatorluqlar kimi, Osmanlı imperatorluğu da dağılmağa məcbur edildi. Ola bilər, bəzi imperatorluqlar daha da çox yaşadı, bəzisi ondan az yaşadı. Bunların səbəbləri çeşidlidir, fərqlidir.

Ancaq Birinci Dünya müharibəsindən sonra Osmanlı imperatorluğu dağıldı. Türkiyənin torpaqlarını əlinə keçirmək istəyən başqa ölkələr o vaxt çox idi. **Yalnız Mustafa Kamal Atatürkün iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı imperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratdı.**

Ancaq bundan öncə Türkiyə böyük sınaqlardan keçdi. Bilirsiniz ki, Türkiyəni o vaxt parçalamaq istəyirdilər. Mustafa Kamal Atatürkün başçılığı ilə, onun başqanlığı, rəhbərliyi ilə aparılan qurtuluş savaşı türk xalqını bütün bu ölkələrin Türkiyəyə qarşı yönəldilmiş cəhdlərindən xilas etdi. Burada, Türkiyənin torpağında yerləşən yunanlar, italyanlar, oradan ermənilər, onunla bərabər Rusiya Türkiyənin şərq hissəsini əllərinə keçirmək istəyirdilər. Bunların hamısının qarşısı alındı və nəhayət, 1923-cü ildə Türkiyə torpağında, 700 il imperatorluq tarixi olan bir ölkənin üzərində yeni bir dövlət - Türkiyə Cümhuriyyəti yarandı. Bu, çox tarixi bir hadisədir. Şübhəsiz ki, hər bir ölkənin həyatında tarixi hadisələr çoxdur. Ancaq Türkiyənin həyatında 700 il ömür sürən bir imperatorluq dağılan zaman Mustafa Kamal Atatürk belə bir zəka, ağıl göstərib, irada, qəhrəmanlıq göstərib, xalqı bir yerə toplayıb, xalqın önündə gedib və cümhuriyyəti yaradıbdır.

Siz bilirsiniz ki, cümhuriyyətin yaranması da o qədər asan olmayıbdır. Ondan sonra onun yaşaması da o qədər asan olmayıbdır. Ancaq Musta-

fa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı cümhuriyyəti yaşada bilibdir.

Məsələn, 1918-ci ildə Rusiya imperatorluğu dağılan zaman, yəni orada bir inqilab - Oktyabr inqilabı olandan sonra Rusiya dağılmağa başladığı zaman Qafqazda Azərbaycan və digər Qafqaz ölkələri cümhuriyyət yaratdılar. 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Amma o, cəmisi 23 ay yaşadı. Yaşaya bilmədi. Çünki Rusiya imperatorluğunun yerində yeni bir dövlət - bolşevik, kommunist imperatorluğu yarandı. O imperatorluq da Rusiyanın torpaqları içərisində olmuş bütün ölkələri əlindən vermək istəmədi. Bir tərəfindən də Ermənistanla Azərbaycan arasında o vaxt gedən savaş, Azərbaycanın içində sabitliyin olmaması, lider məsələsi var idi. Elə oldu ki, 23 aydan sonra bu cümhuriyyət dağıldı.

1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması bir də ona görə tarixi hadisədir ki, bu, müsəlman aləmində, türk dünyasında ilk yaşayan cümhuriyyətdir. Yenə də deyirəm, yaranması çox əhəmiyyətlidir. Bu, tarixi bir hadisədir. Amma əgər yaranan şey yaşaya bilmirsə, onun əhəmiyyəti də itir. **Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, cümhuriyyəti qaldırdı və ondan sonra da cümhuriyyəti, ölkəsini etibarlı əllərə tapşırdı.**

Sual: Çox hörmətli Cümhurbaşkanım. Atatürkün qurduğu bu cümhuriyyətin bir dünyəviliyi də vardır. Bildiyiniz kimi, təkcə Azərbaycanda və bir-iki başqa türk cümhuriyyətlərindən savayı, bütün islam dünyasında, Pakistandan İndoneziyaya qədər və ərəb ölkələrində - heç birində belə bir dünyəvi dövlət yoxdur. Bu cümhuriyyətin əhəmiyyəti barədəki fikirlərinizi bilmək istərdik.

Cavab: Mustafa Kamal Atatürkün böyüklüyü bir də ondan ibarətdir ki, islam dininin təsiri altında yaşamış və islam dininin hakim olduğu bir dövlətdən çıxan yeni bir dövlət, məhz dünyəvi dövlət qurulubdur. Siz ona layiq dövlət deyirsiniz, biz Azərbaycan dilində buna dünyəvi dövlət deyirik. Bu da Mustafa Kamal Atatürkün o cümhuriyyəti qurarkən ən böyük nailiyyətlərindən biridir.

Şübhəsiz ki, o zaman, islam dininin bütün islam aləmində, o cümlədən Türkiyə torpağında hakim olduğu bir dövrdə bu torpaqda əsrlər boyu islam dininin təsiri altında, onun hökmü altında yaşamış xalq üçün cümhuriyyət yaradaraq onu dünyəvi, layiq cümhuriyyət etmək böyük bir qəhrəmanlıqdır, böyük bir cəsarətdir. Eyni zamanda çox uzaqgörənlikdir. Yəni o, xalqı üçün dünya sivilizasiyası yolunu açıbdır. Geriyə yox, irəliyə. Ona görə də Türkiyə Cümhuriyyətinin dünyəvi cümhuriyyət olması, şübhəsiz ki, onu bütün başqa

cümhuriyyətlərdən fərqləndirir.

Mən sizə deyə bilərəm ki, Azərbaycanın da cümhuriyyəti dünyəvi cümhuriyyət olubdur. 1918-ci ildə də və indi, 1991-ci ildə biz müstəqilliyimizi, istiqlaliyyətimizi əldə edəndən sonra ancaq dünyəvi cümhuriyyətik. Bizim Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Bu, bizim Konstitusiyamızda yazılmış əsas prinsiplərdir.

Mustafa Kamal Atatürk bu barədə çox böyük iş görübdür. Hesab edirəm ki, ötən 75 il ərzində Türkiyə xalqı bu istiqamətdə böyük bir məsafə qət edibdir. Doğrudur, hələ bu gün də problemlər var. Biz də bunu bilirik, siz də bunu bilirsiniz. Bu dünyəvi cümhuriyyətə pis baxanlar, yəni onu qəbul etməyənlər də vardır. Amma mən hesab edirəm ki, onlar geridə qalacaqlar. **Türkiyə xalqını bundan sonra da irəliyə yalnız Mustafa Kamal Atatürkün qoyduğu yol, onun müəyyən etdiyi prinsiplər aparacaq, o cümlədən Türkiyə Cümhuriyyəti dünyəvi dövlət olaraq inkişaf edəcəkdir.**

Sual: Bununla əlaqədar olaraq bizdə Mustafa Kamal Atatürkün dünyəvi bir cümhuriyyət qurmaqla həqiqətən islam dininin demokratiya ilə əlaqəliyini və heç də bundan kənara çıxmadığını sübut etdiyini, göstərdiyini, eyni zamanda islam dininin etibarını yüksəltdiyini də söyləyirlər. Bu barədə fikrinizi bilmək olarmı?

Cavab: Bu da Mustafa Kamal Atatürkün dahiliyidir və eyni zamanda o, bütün islam dünyasına nümayiş etdirib, göstəribdir ki, islam dinindən imtina etmədən, islam dinini xalqın mənəvi dəyərləri hesab edərək dünyəvi bir dövlət qurmaq olar. Yəni bunlar heç vaxt bir-birinə zidd deyildir. Bunu yalnız islam dövlətçiliyini qoruyub saxlamaq istəyən adamlar o vaxt da, indi də sübut etmək istəyirlər ki, guya dünyəvilik islam dininə ziddir. Bu, doğru deyildir.

Azərbaycanda əsas prinsiplərimizdən biri, yəni bizim mənəvi, milli ideologiyamız milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirməkdən, sintez etməkdən ibarətdir. Biz bu yol ilə gedirik. Mustafa Kamal Atatürk bu yolu qoyubdur. Yəni islam dinindən heç kəs imtina etmir. İslam dini bizim mənəvi mənbəyimizdir. Əsrlər boyu bizim xalqlarımız - Türkiyə də, Azərbaycan da islam dininə itaət edibdir. Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra din tamamilə yasaq olundu. Təkcə islam dini yox, bütün dinlər. Yəni ateizm siyasəti aparıldı. Azərbaycanda 70 il din yasaq olundu. Amma din ölmədi. İnsanlar dini saxladı, qorudu - qəlbində qorudu, bütün adət-ənənələrində qorudu. Amma Sovet hakimiyyətindən sonra, yəni o yasaq üzərindən götürüləndən sonra bir ilin içərisində bu din hər yerdə özünü göstərdi. İndi, son illərdə Azərbaycanda çoxlu məscidlər tikilibdir, yaradılıbdır. Özü də bunu xalq edir. Bu, çox gözəl bir haldır. Yəni biz dinimi-

zi heç vaxt unutmamalıyıq. İslam dini bizim xalqımıza böyük dəyərlər veribdir. Amma bu da heç zidd deyil ki, biz başəri dəyərlərdən də istifadə edək və layiqli, öz xalqımız üçün daha da uyğun yol ilə gedək.

Sual: Bir misal çəkmək istəyirəm. Türkiyədə inqilabdan sonra cəmiyyət daxilində qadınlarla kişilər eyni hüquqa sahib oldular. İnqilabın bu töhfəsi barədə fikirlərinizi söyləyərsinizmi?

Cavab: Şübhəsiz ki, bu da Mustafa Kamal Atatürkün böyük xidmətlərindən biridir. Bilirsiniz, bizim üçün, azərbaycanlılar üçün burada qeyri-adi bir şey yoxdur. Çünki Azərbaycanda Sovet hakimiyyətinin nə qədər zərərli cəhətləri olubsa, o qədər də xeyirli cəhətləri olubdur. Azərbaycanda 1920-ci ildə bütün qadınlara tam azadlıq verildi, qadınlarla kişilərin hüquqları bərabərləşdirildi. Qadınlar çadraları atdı. Bu, bir gündə olmadı. Bu proses 20 il getdi. Amma indi bizim qadınlar sərbəst, rahatdırlar. Bir indi deyil, 50 il bundan öncə də belə idi və onlar hər şeydə bərabərhüquqludurlar.

Məsələn, Azərbaycanda təhsil sahəsində çalışanların 70 faizi qadınlardır. Səhiyyə sahəsində çalışanların - həkimlərin, başqa tibb işçilərinin 60 faizi qadınlardır. Yəni bu, bizim üçün yeni bir şey deyildir. Amma əgər biz bütün islam dünyasını, islam aləmini götürsək, o vaxt Mustafa Kamal Atatürkün islam aləminin içində qalaraq, cümhuriyyət quraraq, eyni zamanda islam dininin qadınlara qarşı qoyduğu yasaqları götürməsi də ən böyük, cəsarətli addımlarından biridir. Bu da özünü doğrultdu. İndi, Allaha şükür, Türkiyədə qadın, kişi - hamısı bərabərhüquqludur. Hətta bəzən baxırsan, Fransadan da irəliyə gedibdir.

Sual: Cənab Prezident, Atatürkün iqtisadi siyasətinin üzərində dayanmaq istərdim. Bəllidir ki, Atatürk dövlətçilik siyasəti ilə həm kapitalizmdən, həm də sosializmdən, yəni kollektivləşmədən bəhrələnərək onların əsasında yeni, üçüncü iqtisadi yol yaratmış oldu. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Bu da doğrudur. Bu, tamamilə doğrudur. Məsələn, biz o vaxt Sovetlər Birliyində yaşayan zaman belə düşüncələr var idi ki, Türkiyədə də Mustafa Kamal Atatürk sosializm qurur. Bilirsiniz ki, Mustafa Kamal Atatürkün Leninlə də ünsiyyəti olmuşdur və Sovetlər Birliyi ilə Türkiyənin münasibətləri İkinci Dünya müharibəsi başlayana qədər normal olmuşdur. Çünki burada da sosializm ideyaları yayılırdı və Mustafa Kamal Atatürkün həm siyasətində, həm dövlətçilik işlərində, həm də iqtisadiyyatın qurulmasında bu prinsiplərdən istifadə olunurdu. Amma mən burada Mustafa Kamal Atatürkün müdrikliyini yenə də qeyd etmək istəyirəm. Bu, nədən ibarətdir.

Sovetlər Birliyində kommunizm ideologiyası kapitalizmi tamamilə yox etməyə, yeni bir iqtisadi sistem qurmağa əsaslanırdı. Sosializm sistemi kapitalizmi dağıtdı, kapitalizmdə olan

bütün kapitalı dağıtdı. Kəndlilərdən torpaqları alıb dövlətə verdi. Kəndlini torpaqsız etdi, kollektivləşdirdi. Bu, 30-40 il öz nəticəsini verdi. Amma nəticədə nə oldu?

Məsələn, Sovetlər Birliyində kollektivləşmə başlayanda bu kollektivləşməni həyata keçirmək üçün o qədər zor, güc işlədilirdi, o qədər insanlar repressiya olunurdu, o qədər öldürüldü ki, - milyonlarla. Yəni Sovet hakimiyyəti öz xalqına böyük zərbələr vurdu - o ideyasını həyata keçirmək üçün. Amma ideya da doğru ideya olmadı. Yəni bu cür ola bilməz. Atatürk isə burada yanlışlığa yol vermədi. O, bundan da istifadə etdi və düzgün yol tutdu, öikəsini iqtisadi nöqteyi-nəzərdən çox düz yol ilə apardı. Bu da onun böyüklüyüdür.

Məsələn, 1992-ci ildə mərhum Turqut Özal və mənim dostum, qardaşım hörmətli Süleyman Dəmirəl məni İzmir iqtisadi Konqresinə dəvət etdilər. Mən onda bildim ki, 1923-cü ildə Atatürk birinci İqtisadi Konqresi keçiribdir və iqtisadiyyatın inkişaf etməsinin yollarını göstəribdir. 1992-ci ildə keçirilən üçüncü İqtisadi Konqres idi. Ona görə iqtisadiyyat sahəsində, dövlətçilik sahəsində də o, çox ağıllı yollarla gedibdir.

Sual: Hörmətli Prezident, Mustafa Kamal Atatürkün vaxtilə həyata keçirdiyi yazı, yəni əlifba məsələsi ilə bağlı fikirlərinizi öyrənə bilərikmi?

Cavab: Bu da bizim üçün yeni deyildir. Ancaq mən bunu başqa ölkələrlə müqayisədə deyə bilərəm.

Şübhəsiz ki, Mustafa Kamal Atatürkün ərəb əlifbasından imtina edib latın əlifbasına keçməsi də türk xalqı üçün böyük bir nailiyyət oldu, xalqın gələcəyi, mədəniyyəti üçün böyük yollar açdı. Ancaq mən sizə bildirmək istəyirəm ki, hələ XIX əsrin 70-ci illərində Azərbaycanın böyük yazıçısı Mirzə Fətəli Axundov Azərbaycan xalqı üçün, türk xalqı üçün latın əlifbasına keçmək təşəbbüsünü irəliyə sürmüşdür. Sonra onu çox sıxmışlar. O, İstanbula gəlib, çünki o vaxt mərkəz İstanbul idi, bütün bu alimlərin, üləmaların qarşısında bir neçə dəfə sübut etməyə çalışıb ki, biz artıq latın əlifbasına keçməliyik. Ancaq onu qəbul etməyiblər və Mirzə Fətəli Axundov da bir şey edə bilməyibdir. Yəni görün bu işin başlanğıcı haradadır. Ancaq o vaxt bunu həyata keçirmək mümkün olmadı.

Azərbaycanda Sovet hakimiyyəti qurulanda Azərbaycan çox böyük bir təşəbbüs etdi: 1926-cı ildə Azərbaycanda Türkoloji Konqres oldu və Türkiyədən də oraya böyük insanlar, o cümlədən Fuad Köprülüzadə gəlmişdi. Onlar Bakıda birinci Türkoloji Konqresdə iştirak etdilər. 1926-cı ildə qərar qəbul olundu ki, Azərbaycan latın əlifbasına keçir. Yəni bu, bizim üçün yeni bir şey deyildir. Amma Mustafa Kamal Atatürkün Türkiyədə latın əlifbasına keçməsi, - mən bilirəm, buna dindarlar tərəfindən nə qədər müqavimətlər olubdur, bu nə qə-

dər çətin olubdur. Amma o, bunu həyata keçiribdir, bu da böyük uğurdur.

Sual: Sayın Cümhurbaşkanım. Mustafa Kamal Atatürkün liderliyi ilə aparılan bu inqilabların qardaş türk cəmiyyətlərinə, islam dünyasına, eləcə də Avropa cəmiyyətlərinə nə kimi təsirləri olmuşdur?

Cavab: Şübhəsiz, çox təsir edibdir.

Məsələn, biz Azərbaycanda Mustafa Kamal Atatürkü həmişə böyük bir qəhrəman kimi tanımışıq. Baxmayaraq ki, Sovetlər Birliyinin içərisində olduğumuz zaman bizim sərhədlər bağlı, hər şey qapalı idi və Moskva Azərbaycanda pantürkizm ideyasının olduğunu daim irəliyə sürərək bizi Türkiyədən ayırmağa çalışırdı. Biz öz mədəniyyətimiz, ədəbiyyatımız haqqında bir həqiqəti deyəndə və yaxud öz xalqımıza xas olan bir yazı yazanda deyirdilər ki, bunlar pantürkistlərdir. Yəni Rusiyanı, Moskvanı bir tərəfdən ermənilər qızışdırırdılar, bir tərəfdən də Rusiya qorxurdu ki, Azərbaycan Türkiyə ilə çox yaxın bir dövlətdir, ona görə bunların arasını o qədər kəsmək lazımdır ki, heç kəs qovuşa bilməsin.

· Biz Mustafa Kamal Atatürkü o dövrdə - bizim tarixdə də var, mən özüm bunu çox kitablardan oxumuşam, - həmişə böyük bir şəxsiyyət, qəhrəman kimi tanımışıq. Ona görə indi Mustafa Kamal Atatürkü Azərbaycanda Türkiyədən də çox sevirlər. Mən bilirəm, bəlkə bəziləri, dünyəvi dövlətin əleyhinə çıxan adamlar buna etiraz da edirlər. Amma Azərbaycanda birmənalı şəkildə elə bir insan tapa bilməzsən ki, Mustafa Kamal Atatürkün haqqında pis bir söz desin. Hamı onu böyük sevgi və məhəbbətlə xatırlayır.

Şübhəsiz ki, Türkiyə kimi bir ölkədə dünyəvi cümhuriyyətin yaradılması başqa islam ölkələrinə də təsir edibdir. Ola bilər, birinə çox, birinə az. O cümlədən Avropaya da müəyyən təsir edibdir. Yəni orada da görüblər ki, bu dünyəvilik təkcə Avropaya məxsus deyildir, Şərq xalqlarında, islam dünyasında da bu ola bilər. Yəni avropalılar güman etməsinlər ki, bu, ancaq onlarındır, onlara məxsusdur, başqalarında ola bilməz. Mustafa Kamal Atatürkün gördüyü işlər, şübhəsiz ki, burada da öz təsirini göstəribdir.

Sual: Cənab Prezident, icazənizlə, son sualımı vermək istəyirəm. Mustafa Kamal Atatürkün bu inqilablarının və qurduğu cümhuriyyətin təmsil etdiyi düşüncələrin Türkiyə üçün, islam dünyası üçün ən böyük mirası nədir? - sualına cavab verərdiniz. Əvvəlcədən çox təşəkkürümü bildirirəm.

Cavab: Ən böyük mirası Türkiyə Cümhuriyyətidir. 75 ildən çoxdur ki, Mustafa Kamal Atatürkdən sonra altmış il içərisində onun işinin davamçılarının fəaliyyəti nəticəsində, onların çox böyük işlərinin nəticəsində cümhuriyyət çox yüksəlmişdir. Türkiyə böyük, qüdrətli bir dövlətə çevrilmişdir. Budur Mustafa Kamal

Atatürkün mirası! Qüdrətli, güclü, iqtisadi cəhətdən inkişaf etmiş, dünya miqyasında çox özəl bir yer tutmuş Türkiyə Cümhuriyyəti! Budur Mustafa Kamal Atatürkün mirası!

Təşəkkür edirəm. Mən bu görüşdən çox məmnunam.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ DÖVLƏTİNİN ƏN NÜFUZLU MÜKAFATINA- "ATATÜRK SÜLH MÜKAFATI"NA LAYİQ GÖRÜLMÜŞDÜR

Türkiyə Respublikası Prezidenti mətbuat xidmətinin məlumatı
13 aprel 1999-cu il.

Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipinə uyğun olaraq dünyada sülhün möhkəmlənməsinə, ölkələr arasında dostluq, anlaşma və xoş məramın inkişafına xidmət edən görkəmli şəxslərə təqdim olunan "Atatürk Sülh Mükafatı"nın bu il Azərbaycan Respublikasının Prezidenti hörmətli Heydər Əliyevə verilməsi "Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsi"ndə yekdilliklə qərara alınmış və həmin qərar Türkiyə Respublikasının prezidenti tərəfindən təsdiqedilmişdir. Mükafat mövcud əsasnaməyə uyğun olaraq 19 may 1999-cu il tarixdə Ankarada keçiriləcək təntənəli mərasimdə hörmətli Prezidentimiz tərəfindən hörmətli Heydər Əliyevə təqdim ediləcəkdir.

"Azərbaycan" qəzeti, 14 aprel 1999-cu il.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Anadolu Acansına müsahibəsi

14 aprel 1999-cu il

Sual: Cənab Prezident, Siz Türkiyə dövlətinin ən nüfuzlu mükafatına - "Atatürk beynəlxalq sülh mükafatı"na layiq görülmüsünüz?

Cavab: Cox məmnunam ki, mən Mustafa Kamal Atatürkün mükafatına layiq görülmüşəm. Mənə bu barədə məlumat verilibdir. Mən çox şadam, məmnunam, təşəkkür edirəm.

Türkiyə və Azərbaycan gənclərinə arzum budur ki, öz cümhuriyyətlərini Mustafa Kamal Atatürk kimi qorusunlar. Mən həm Türkiyə Cümhuriyyətinin, həm də Azərbaycan Cümhuriyyətinin daha da yüksəklərə qalxmasını arzu edirəm və bütün bu işlərdə gənclərin daha da fəal iştirak etməsini arzulayıram. Fürsətdən istifadə edib, Türkiyə xalqına, vətəndaşlarına öz hörmətimi, sayqımı, məhəbbətimi bildirirəm.

Sağ olun.

"Azərbaycan" qəzeti - 1999, 15 aprel

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Möhtərəm cənab Prezident!

Əziz dostum və qardaşım!

Dünyanın ən nüfuzlu mükafatlarından olan "Atatürk Beynəlxalq Sülh Mükafatı"na layiq görülməyimdən hədsiz şərəf və qürur hissi duyuram. Bu mükafat XX əsrin ən böyük tarixi simalarından biri - Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıdığına görə mənim üçün daha qiymətli və əzizdir.

Əslində bu ali təltif Azərbaycanın istiqlaliyyətinə və dövlətçiliyinə verilən yüksək qiymətdir. Bu sülh mükafatı ilk növbədə Azərbaycan dövlətinin sülhsevər siyasəti, Ermənistan - Azərbaycan hərbi münaqişəsinin sülh yolu ilə həll olunması uğrunda ardıcıl, gərgin fəaliyyətimizlə bağlıdır və o, müstəqil Azərbaycanda əmin-amanlığın, daxili ictimai-siyasi sabitliyin təmin olunmasında əldə edilən nailiyyətlərə obyektiv münasibətin təzahürü kimi qəbul olunmalıdır.

Azərbaycanın xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir.

Atatürk mükafatı sarsılmaz Türkiyə - Azərbaycan dostluğunun və qardaşlığının parlaq ifadəsi olaraq bizim siyasi-iqtisadi və mədəni əlaqələrimizin daha yüksək mərhələyə çatdırılmasını tələb edir. Əminəm ki, üzümüzə gələn əsrdə Türkiyə - Azərbaycan əlaqələri dünyada gedən iqtisadi inteqrasiya proseslərinə öz layiqli töhfəsini verəcəkdir.

Bu mükafat məni, dövlətimizi, xalqımızı Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə, yaşatmağa, onu əbədi etməyə ruhlandırır.

Atatürk mükafatı ilə mənim fəaliyyətimə verilən yüksək qiymətə, mənə, Azərbaycan xalqına göstərilən qayğı, diqqət və ehtiramınıza görə Sizə, cənab Prezident, komitə üzvlərinə hədsiz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Böyük öndər Mustafa Kamal Atatürkün şəxsiyyətinə, onun yüksək amallarına və bəşəriyyətə bəxş etdiyi ən dəyərli miras olan Türkiyə Cümhuriyyətinə dərin məhəbbət, hörmət və ehtiramımı ifadə edirəm.

Əziz dostum!

Sizə, qardaş türk xalqına səmimi minnətdarlığımı bildirir, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Bakı şəhəri, 16 aprel 1999-cu il

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ, ATATÜRK BEYNƏLXALQ SÜLH MÜKAFATI KOMİTƏSİNİN SƏDRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli Baş nazir!

"Atatürk Beynəlxalq Sülh Mükafatı"nın mənə verilməsindən hədsiz məmnunam. Bəşəriyyətin ən müdrik siyasətçilərindən olan dahi Mustafa Kamal Atatürkün xatirəsini əbədiləşdirən bu mükafat bütün Azərbaycan xalqı üçün xüsusilə qiymətlidir.

Azərbaycan Respublikasının Prezidenti kimi dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan - Azərbaycan hərbi münaqişəsinin sülh yolu həll olunması yolunda səylərimin, respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına və bölgədə sülhün, əmin-amanlığın qorunmasına yönələn fəaliyyətimin belə yüksək mükafata layiq görülməsi mənim üçün olduqca xoşdur.

Bu mükafatı Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlığın parlaq təzahürü kimi qəbul edərək əmin olduğumu bildirirəm ki, bu önəmli hadisə ölkələrimizin və xalqlarımızın daha da sıx əməkdaşlığına, regionda sülhün və sabitliyin bundan sonra da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Hörmətli Baş nazir!

Atatürk mükafatı ilə mənim fəaliyyətimə verilən yüksək qiymətə, mənə, Azərbaycan xalqına göstərilən qayğı və diqqətə görə Sizə və Türkiyənin görkəmli dövlət, elm, ictimai və siyasi xadimlərinin daxil olduğu Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsinin üzvlərinə dərin minnətdarlığımı bildirir, onun hər bir vətəndaşına sülh, səadət və tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Bakı şəhəri, 16 aprel 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ YÜKSƏK MÜKAFATA LAYİQ GÖRÜLMƏSİ MÜNASİBƏTİLƏ TƏBRİKLƏR

- Biz çox sevinirik. Türk qardaşımız, eyni bir millətdən olan Heydər Əliyev kimi Prezidentin Atatürkün adını daşıyan bu mükafata layiq görülməsi Azərbaycanda yaşayan biz türkləri də çox ruhlandırır. Hətta Türkiyədə yaşayan tanışlarımız, yaxınlarımız telefonla zəng edərək qürurlarını bizə söyləyirlər.

Azərbaycan Prezidenti hörmətli Heydər Əliyevin son illər gördüyü işlər türk xalqını və Azərbaycan xalqını bir-birinə daha da çox yaxınlaşdırmışdır. Hörmətli Prezidentimiz gördüyü faydalı, dəyərli işlərlə Azərbaycanı bütün dünyaya tanıtdırmışdır. İndiyə qədər bu böyük mükafatı alan

çox dəyərli insanlar vardır. Amma biz daha çox qürur duyuruq ki, Azərbaycan kimi bir qardaş ölkənin prezidenti də bu mükafatı almışdır. Bu, biz türkləri çox sevindirir. Azərbaycan dövlətinin başçısı hörmətli Heydər Əliyevi bu mükafatı almağı münasibətilə təbrik edir, ona uzun ömür, can sağlığı arzulayıram.

Türkiyəli iş adamı
Alpay Qəhrəman

- Mən Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab Heydər Əliyevin Türkiyənin ən böyük mükafatı olan "Atatürk Beynəlxalq Sülh Mükafatı"na layiq görülməsinə çox şadam. Burada uzun illərdir iş görən bir türkiyəli iş adamı kimi hörmətli Heydər Əliyevin Azərbaycanda, hətta bütün türk aləmində yaratdığı sülhün, ölkə daxilindəki sabitliyin, iqtisadiyyatdakı inkişafın canlı şahidiyəm. Mən bir türk olaraq, hörmətli Heydər Əliyevi türk dünyasının ən böyük liderlərindən biri kimi görürəm. Eyni zamanda, sülhə çox ehtiyacı olan dünya və bütün türk aləmi üçün onun çox böyük işlər görəcəyinə inanıram.

Bildiyiniz kimi, bu mükafat Türkiyədə verilən ən böyük mükafatlardan biridir. Mən Heydər Əliyevi Atatürkü dərindən bilən görkəmli dövlət adamı kimi, Atatürkün "Yurddа sülh, cahanda sülh" prinsipini bu gün ən gözəl yaşadan liderlərdən biri kimi qəbul edirəm. Türk aləminin bir fərdi, insanı kimi mən hörmətli Heydər Əliyevə bu yolda daha çox işlər görməsi, Azərbaycanda sülhün inkişafını davam etdirməsi yolunda uğurlar arzulayıram. Ona uğurlar arzulayıram. Ona uzun ömür diləyirəm və bu böyük mükafata layiq görüldüyü üçün təbrik edirəm.

Türkiyəli iş adamı
Alp Sabunis

- Böyük öndərimiz Atatürk "Yurddа sülh, cahanda sülh" demişdir.

Dünyada sülhə və barışa inanan insanların layiq görüldüyü bu mükafat hörmətli Cümhurbaşkanımız Heydər Əliyevə verilibdir. Bir türk olaraq mən bundan böyük qürur və fərəh duyuram.

Cənab Heydər Əliyev bütün türk dünyasının böyük şəxsiyyətlərindən biridir. Belə bir insanın bu cür mükafat alması məni çox qürurlandırır. Bildiyimə görə, bu mükafat 1986-cı ildən verilir. İndi doqquzuncu dəfədir verilir. Bilirsiniz ki, Türkiyədə bu mükafatın sahibini müəyyənləşdirən bir təşkilat - komitə, qurum vardır. O qurum hörmətli Cümhurbaşkanımızı bu mükafata layiq gördüyünə görə onlara təşəkkürümü bildirirəm. Təbii ki, ən böyük təbrikim hörmətli cənab Prezident Heydər Əliyevədir.

Türkiyə iş adamı Öndər Aşar

- Mən cənab Prezident Heydər Əliyevin belə bir qiymətli mükafat almasına görə çox sevindim. Bildiyiniz kimi, hörmətli Heydər Əliyev bu günə qədər təkcə Azərbaycanda deyil, bütün Qafqazda barışın, sülhün və sabitliyin simvolu olmuş bir insandır. O, Azərbaycanda sülhün bərqərar olmasında, həm də bölgədə sülhün yaradılmasında böyük xidmətləri olan bir şəxsiyyətdir. Təbii ki, bizim kimi iş adamlarının belə sülh şəraitli ölkələrdə iş görməsi təsadüfi deyildir. Bizim buradakı fəaliyyətimiz Azərbaycanda yaradılmış sabitliyin sayəsindədir.

Mən hörmətli Heydər Əliyevi həm Azərbaycanda, həm bölgədə, həm də dünyada sülhün qorunub saxlanması sahəsindəki fəaliyyətinə görə belə bir yüksək mükafata layiq görülməsi münasibətilə təbrik edirəm. **Cənab Heydər Əliyev Azərbaycanın, bölgənin bugünkü Atatürkü hesab olunur.** Mən bundan çox böyük məmnuniyyət hissi duyuram.

Türkiyəli iş adamı
Ərdal Oluzbir

"Azərbaycan" qəzeti, 17 aprel 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab Prezident!

"Keçmiş olsun" deyir və ad gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Hörmətlə,

İlhan AKÜZÜM
Türkiyə Böyük Millət Məclisinin Qars millət vəkili

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli cənab Prezident, son illərdə müstəqil Azərbaycan Respublikasının iqtisadi və siyasi sahələrdəki inkişafının memarı olan Zati-alinizə Azərbaycan xalqının və türk iş adamlarının çox ehtiyacı vardır.

Gənc Azərbaycan demokratiyasının sürətlə inkişafı, Azərbaycan xalqının rifahı, xoşbəxtliyi və qardaş Azərbaycanın uğurlu taleyi naminə Zati-alinizin rəhbərliyi vacibdir.

Bu fikirlərlə və hisslərlə ailəm, əməkdaşlarım adından və şəxsən öz adımdan "keçmiş olsun" deyirəm.

Fürsətdən istifadə edərək, ad gününüz münasibətilə Sizə getdiyiniz demokratiya və sülh yolunda uzun ömür və möhkəm can sağlığı arzu edirəm.

Dərin hörmətlə,

Hüseyn BAYRAQDAR,
"Bayraqdar Holdinq" şirkətinin sədri.
İstanbul, 7 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab Prezident! Bu əziz gündə doğma Azərbaycandan uzaq Vaşinqtonda Sizi - dünya şöhrətli bir siyasətçini, bütün türk dünyasının sevimlisini, fəxrini və əvəzolunmaz bir dahini ad gününüz münasibətilə ürəkdən təbrik edirik.

Həyatını xalqının xoş gələcəyi naminə fəaliyyətə həsr etmiş görkəmli ictimai-siyasi xadimin Azərbaycanın və türk dünyasının tarixində oynadığı həlledici rol təkzibedilməzdir. Odur ki, biz Azərbaycanın nurlu sabahını məhz Sizin azadlıq, istiqlaliyyət və müstəqil dövlətçilik uğrunda apardığınız ardıcıl siyasətdə görürük.

Möhtərəm Prezident!

Bir daha Sizi ad gününüz münasibətilə təbrik edir, Sizə ulu Tanrıdan möhkəm cansağlığı, uzun ömür və xoşbəxt həyat diləyir, ümummilli məqsəd və vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayırıq.

Dərin hörmətlə,

Əhməd ƏRƏNTOK,
Türkiyənin "Partner investment Holdinq" şirkəti idarə heyətinin sədri.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezident, Sizi hörmətlə salamlayır və "keçmiş olsun" deyirəm. Səhhətiniz barədə xəbərləri əvvəldən izləyirəm və yaxşılaşdığınızı eşitdikdə çox sevinirəm. Sizin kimi böyük insanları Allah-Təala bizim üstümüzdən əskik etməsin və Sizə uzun ömür versin.

Hörmətli Prezident, qardaş Azərbaycan ölkəsinin Sizin kimi dəyərli bir qəhrəman prezidenti olduğu üçün biz türklər də qürur hissi keçiririk. Hörmətli Prezident, Siz həmişə mənim və Ərzurum xalqının qəlbindəsiniz. Sizin kimi bir şəxsiyyəti Türkiyədə və Ərzurumda qonaq olaraq görmək mənim üçün bir şərəfdir. Gələn Mahir bəy mənim yaxın adamımdır. Digər şəxslərin hamısı siyasətçidirlər.

Bir daha ehtiramımı bildirərək Sizi bağrıma basıram.

M.Əli ÜNAL,
Ərzurum Bələdiyyə İdarəsinin sədri
Türkiyə, Ərzurum şəhəri, 16 may, 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV LONDONDA TÜRKİYƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

ABŞ-dan Türkiyəyə gedərkən yolüstü Londonda dayanan Azərbaycan Prezidenti Heydər Əliyev mayın 19-da burada onun üçün ayrılmış iqamətgahda Türkiyənin Böyük Britaniyadakı səfiri Özdəm Sanberi diplomatın xahişi ilə qəbul etmişdir.

Səfir Özdəm Sanber Prezident Heydər Əliyevi səmimi salamlayaraq dedi:

- Əziz Cümhurbaşkanım, Sizin səhhətinizin yaxşı olduğunu gördüm, çox məmnun qaldım. Allah Sizi daha gümrah etsin. Sayın Cümhurbaşkanımızın da Sizə gözəl dilərləri var. İnşallah, bu günlərdə onunla görüşəcəksiniz.

Azərbaycan Prezidenti **Heydər Əliyev** diplomata təşəkkürünü bildirərək dedi:

- Biz Vaşinqtona gəldik, orada çox işlər gördük. NATO toplantısında iştirak etdik. Ancaq ondan başqa mən çox görüşlər keçirdim. Cənab Klintonla, xanım Olbrayt la görüşdüm. Sonra xanım Olbrayt Qafqaz Cümhuriyyətlərinin - Gürcüstan, Ermənistan və Azərbaycan Prezidentlərini, bir neçə ölkənin - İngiltərə, Fransa, Almaniya, Norveç və Türkiyənin Xarici İşlər nazirlərini toplamışdı. Biz Qafqazda sülh, əməkdaşlıq yaradılması ilə əlaqədar çox yaxşı toplantı keçirdik.

Sonra xanım Olbrayt Ermənistan Prezidentinin və mənim görüşümü təşkil etdi. Bu, təxbətək görüş idi, ancaq sonra üçümüz bir yerdə görüşdük. Xanım Olbrayt bəyan etdi ki, Ermənistan - Azərbaycan münaqişəsi Lissabon sammitində qəbul olunmuş prinsiplər, yəni Azərbaycanın ərazi bütövlüyü, işğal edilmiş torpaqların azad olunması, qaçqınların öz yerinə qayıtması və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində özünüidarə statusu verilməsi prinsipləri əsasında həll edilməlidir. Ermənistan prezidenti ilə iki saatdan çox təkbətək danışdıq.

Mənim başqa da çox görüşlərim oldu. Çox böyük üç yeni müqavilə imzaladıq. Bunları Senatın binasında, senatorların, konqresmenlərin iştirakı ilə imzaladıq.

Konqresdə, Senatda çox görüşlərim oldu. Bizə qarşı qoyulmuş qadağanı, 907-ci maddəni bilirsiniz. 1992-ci ildə qəbul edilmiş bu maddə ədalətsiz bir şeydir. İndi hələ onu aradan götürə bilməmişik. Bu barədə çox danışdıq. Prezident Klintonla söhbətimiz oldu. Çox məmnunam.

Ancaq səfər sona çatanda ürəyim məni bir az narahat etdi. Məni orada müayinə etdilər. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl 1999-cu ilin yanvar ayından, dörd aydır Ertan Paşanı mənə təhkim edibdir. Bilirsiniz, yanvar ayında mən xəstələnmişdim. Ankaraya getdim. Orada Ertan Paşa məni müalicə etdi. Bakıya gələndən sonra bir neçə dəfə gəlib

mənə baxmış, müayinə etmişdi. Vaşinqtona Ertan Paşa ilə birlikdə getdik. O, həmişə mənim yanımda oldu, dedi ki, geniş müayinə lazımdır və Klivlend klinikasını məsləhət gördü. Çünki Ertan Paşa oranı çox yaxşı tanıyır. Türkiyədə də çox tanınır.

Vaşinqtondan oraya getdik. Məni müayinə etdikdən sonra dedilər ki, əməliyyat lazımdır. Mən də dedim ki, əgər lazımdırsa, edin. Ertan Paşa orada çox xidmətlər göstərdi. Demək olar, yanvar ayından indiyə qədər mənim bütün sağlamlığım Türkiyə Cümhuriyyətinin Prezidentinin nəzarəti altındadır və Ertan Paşa bilavasitə bu işlərlə məşğuldur.

Əməliyyata razılıq verdim. Əməliyyat yaxşı keçdi. Mənim dostum, qardaşım Süleyman Dəmirəl yenə də məni Türkiyəyə dəvət etdi. Sabah buradan təyyarə ilə uçuruq. Gedirəm orada bir az istirahət edim. Bakıya dönüb işə başlayım.

Türkiyə səfiri Özdəm Sanber Prezident Heydər Əliyevə müraciətlə dedi:

- Sizi burada görməyi çox arzulayırdım. Sizə həm öz ehtiramımı bildirmək, həm də Cümhurbaşkanımızın salamlarını yetirmək və Sizi gözlədiyini söyləmək istəyirdim. **Siz Azərbaycan - Türkiyə əməkdaşlığının rəmzisiniz.** Sayın Cümhurbaşkanımızla Sizin aranızdakı dostluq əlaqələri Türkiyə - Azərbaycan münasibətlərinin daha da genişlənməsinə möhkəm təməl yaradır, töhfə verir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr gözəl olduqca Qafqazda və bütün bölgədə əlaqələr daha geniş şəkil alacaqdır. Çünki Türkiyə və Azərbaycandakı sabitlik Qafqazın sabitliyi, bu isə öz növbəsində bölgədə sabitlik deməkdir.

Şükürlər olsun ki, Sizi çox yaxşı görürük. Sizə daha sağlam olmağınızı və uzun illər ömür arzulayırıq. Türk xalqı Sizi çox yaxından tanıyır, Sizə, Azərbaycanın dövlət adamlarına hörmət sonsuzdur. Azərbaycan ilə Türkiyə arasında əlaqələr çox təbiidir. İnşallah, qarşıdakı dövrdə biz birlikdə böyük işlər görəcəyik. Türkiyədə sabitlik olacaqdır.

Burada, Londonda hörmətli səfir Mahmud Məmmədquliyev ilə bizim birgə təşəbbüslərimiz var. Məsələn, son vaxtlar burada Türkiyə, Transqafqaz və Orta Asiya parlament qrupu yaradılıbdır. Bu qrup ingilis və türk iş adamlarımızdan, ingiltərəli dostlarımızdan, parlament üzvlərindən ibarətdir. Mətbuat nümayəndələri də çoxdur. Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Qazaxıstanı təmsil edirlər. Aramızda bir az türkcə, ancaq təbii ki, əsasən, ingiliscə danışırıq. Qrupa İngiltərə parlamentinin deputatı başçılıq edir. Keçirdiyimiz toplantılarda adı çəkilən ölkələrdəki vəziyyət barədə məlumat verilir. Deyək ki, Azərbaycandakı son iqtisadi məsələlər, Türkmənistandakı işlər, Türkiyədəki yeniliklər və sairə haqqında danışırıq. Daha çox hansı məsələ maraqlandırırsa, o barədə söhbət

aparırıq. Məsələn, neft boru kəmərlərindən danışırdıq. Bilirsiniz ki, buradakı bütün neft şirkətlərinin mərkəzi Londondur.

Yəni bununla ölkələrimizi burada daha çox tanıtmaq imkanı əldə edirik. Bu haqda Sizə məlumat vermək istəyirdik.

Azərbaycan Prezidenti **Heydər Əliyev** səfirin dediklərini müsbət qarşılayaraq dedi:

- Çox gözəl təşəbbüsdür, mən bunu bəyənir, dəstəkləyirəm. Siz də, bizim səfirimiz də çox gözəl iş görmüsünüz. Bu işi davam etdirmək lazımdır. Ümumiyyətlə, İngiltərəni Qafqaza daha da yaxınlaşdırmaq, cəlb etmək lazımdır. Keçən il mən burada rəsmi səfərdə olduğum zaman bir çox sazişlər imzaladıq. Baş nazir Toni Bleyer də, Xarici İşlər naziri Robin Kuk da dedilər ki, biz Azərbaycandakı səfirliyimizin işçilərinin sayını iki dəfə artırırıq, çünki orada işlərimiz çoxalıbdır. İndi Vaşinqtonda Robin Kuk ilə görüşəndə mənə birinci sözü o oldu ki, icazə vermişəm, İngiltərənin Azərbaycandakı səfirliyinin işçilərinin sayını iki dəfə artırsınlar. Çünki onlar çox iş görməlidirlər.

Mən də bunu çox məmnuniyyətlə qarşıladım. Orada **Toni Bleyerlə** də görüşdüm, danışdıq.

Səfir Özdəm Sanber: - İndi Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması İngiltərədə yaxşı qarşılanmır. Çünki bu, beynəlxalq hüquq normalarına ziddir. Ona görə biz burada həmişə deyirik ki, bu məsələ Minsk qrupu çərçivəsində sülh yolu ilə həll edilməlidir, bu zaman Qafqazda əmin-amanlıq olacaqdır. Türkiyə bu məsələdə hər vaxt Azərbaycanın yanındadır.

Prezident Heydər Əliyev görüşün sonunda dedi:

- Mən xəstəxanada və sonra oteldə olduğum zaman Prezident Klinton mənə məktub göndərdi, telefonla danışdıq. Xanım Olbrayt məktub göndərdi, telefon etdi, vitse-prezident Qor məktub göndərdi. Oradan yola düşməzdən iki saat öncə xanım Olbrayt mənə yenə zəng etdi, çox geniş danışığımız oldu. Danışıqlarımız əsasən, Qafqazda sülhün yaranması, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məsələləri barədə idi. Ona görə mən ölkəyə daha çox ümidlə qayıdıram. Çünki hiss etdim və dərk etdim ki, artıq Amerika bu məsələlərə daha da çox girişir və güman edirəm, daha da çox çalışacaqdır.

"Azərbaycan" qəzeti, 22 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ORT TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev mayın 19-da Londonda, onun üçün ayrılmış iqamətgahda Rusiya ictimai televiziyasının müxbiri Aleksandr Panova müsahibə vermişdir.

Müxbir: - Siz sabah Türkiyəyə yola düşürsünüz. İnformasiya agentlikləri xəbər vermişlər ki, orada Sizə türk xalqı qarşısında görkəmli xidmətlərə görə Türkiyənin nüfuzlu mükafatını təqdim edəcəklər.

Heydər Əliyev: - İki ay bundan əvvəl mən Türkiyə Respublikasının banisi Atatürkün adını daşıyan mükafata layiq görülmüşəm. Bu, çox nüfuzlu mükafatdır. Zənnimcə, o, 1986-cı ildə təsis olunmuşdur, sülh uğrunda mübarizəyə görə verilir. Bu, sülh mükafatıdır. Mustafa Kamal Atatürkün məşhur sözləri var:

"Yurdda sülh, cahanda sülh". Həmin mükafat bu deviz altında mövcuddur. Orada çox nüfuzlu komitə var. Onlar hər şeyi çox diqqətlə öyrənirlər. Ümumiyyətlə, 1986-cı ildən bəri bütün dövr ərzində onlar 8 belə mükafat veriblər. Mən də bu mükafata layiq görülmüşəm. Yeri gəlmişkən, bu gün, mayın 19-da mən Ankarada olmalı idim. Orada Mustafa Kamal Atatürk tərəfindən Türkiyədə qurtuluş hərəkatının başlanması ilə bağlı bayramdır. Həmin gün qeyd edilir. Mükafat da, adətən, həmin günə iki ay qalmış verilir və o, təqdim olunur. Lakin təəssüf ki, mən bu gün orada deyiləm, həmin mükafatı ala bilməyəcəyəm. Görünür, onu mənə sonra təqdim edəcəklər.

Müxbir: - Sabah isə Siz uçursunuz...

Heydər Əliyev: - Sabah mən Türkiyəyə uçuram. Lakin Türkiyə Prezidenti, mənim dostum Süleyman Dəmirəlin dəvəti ilə gedirəm. Mən xəstəxanada olarkən o mənə çox böyük qayğı göstərmiş, müalicədən sonra məni istirahət üçün təkidlə Türkiyəyə gəlməyə dəvət etmişdir.

Müxbir: - Yəni bu, diplomatların dediyi kimi, "qalstuksuz görüşdür"?

Heydər Əliyev: - Bəli, bəli. Mən Antalyaya, dəniz sahilinə gedirəm.

Müxbir: - Rusiyalılara tanış yerdir.

Heydər Əliyev:- Deyirlər, rusiyalılar Antalyada tez-tez olurlar.

Doğrudur, mən görməmişəm, orada heç vaxt olmamışam. Lakin dəvəti qəbul etmişəm və ora uçuram. Belə ki, orada bir az dincələcək, sonra isə Bakıya, Azərbaycana gedəcəyəm.

"Azərbaycan" qəzeti, 23 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN Bİ-Bİ-Sİ RADİOSUNUN MÜXBİRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 20-də Londonda onun üçün ayrılmış iqamətgahda Bi-Bi-Si radiosunun müxbiri Famil İsmayılova müsahibə vermişdir.

Sual: - cənab Prezident, xahiş edirəm mənim təbriklərimi qəbul edəsiniz. Özü də bu, ikiqat təbrikdir. Çünki Siz taleyin yeni bir sınağından uğurla çıxmısınız. Digər tərəfdən isə Sizi Türkiyədə "Musitafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatı" gözləyir. Siz bu mükafatı nə zaman qəbul etməyə hazırsınız?

Cavab: - Sağ olun. Sizin təbriklərinizə görə təşəkkür edirəm. Minnətdaram. Mən bu gün Türkiyəyə gedirəm. Türkiyənin proqramına görə, onlarda qəbul olunmuş qanuna görə, "Mustafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatı" mayın 19-da verilir. Çünki 19 may Mustafa Kamal Atatürkün Samsundan yürüşə, vuruşa başlaması günüdür. Bu, bayramdır. Ancaq mən o günə çatdıra bilmədim. Görünür ki, müəyyən bir gün təyin olunacaq və mükafat mənə veriləcəkdir. Əsas mükafatla təltif olunmaqdır, onun hansı vaxtda alınması o qədər də əhəmiyyətli deyildir.

"Azərbaycan" qəzeti, 23 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ II QEYRİ-RƏSMİ SƏFƏRİ

19 may-9 iyun 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏDƏ İSTİRAHƏT ETMİŞDİR

19 may - 9 iyun 1999-cu ildə Azərbaycan Prezidenti Klivlenddən sonra Türkiyədə istirahət etmişdir

TÜRKİYƏ RESPUBLİKASI BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB YILDIRIM AKBULUTA

Hörmətli Yıldırım Akbulut, Sizi Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Biz qədim tarixi köklər olan xalqlarımızın əbədi dostluq və qardaşlıq münasibətlərini yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycan ilə Türkiyə arasındakı qırılmaz əlaqələr və əməkdaşlıq xalqlarımızın mənafeləri naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
22 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Türkiyə - "Sabançı Holdinq"in "Temsa" Azərbaycan şöbəsi Azərbaycan Prezidenti hörmətli Heydər Əliyev cənablarını Amerikadakı müalicəsinin uğurla başa çatması münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı diləyir və tezliklə doğma Vətəninə dönməsini arzulayır.

Hörmətlə,

Haşim GÖKSAL

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident, Türkiyənin "Rumeli Holdinq" şirkəti və Azərbaycan Respublikasının Rabitə Nazirliyi ilə yaradılan "Artel" birgə müəssisəsi Sizin Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərində müalicənizlə bağlı narahatlıq keçirmişdir. Allaha şükür ki, ürəyinizdə aparılan cərrahiyyə əməliyyatı və əməliyyatdan sonrakı reabilitasiya dövrü uğurla nəticələndi.

Şirkətimizin rəhbərliyi və "Artel"in bütün işçiləri adından 76-cı ildönümünüzü təbrik edərək, Sizə uzun ömür və cansağlığı arzulayırıq.

Azərbaycan - Türkiyə qardaş əlaqələrinin möhkəmləndirilməsi naminə ölkənizdə yeni iqtisadi layihələrdə iştirak etmək niyyətimizi bir daha Sizin diqqətinizə çatdırmaq istəyirik.

Allah Sizə yar olsun!

Azərbaycana qayıtmağınızı səbirsizliklə gözləyən

Cumali ÇEK,
"Artel" birgə müəssisəsinin baş
direktoru
"Azərbaycan" qəzeti, 22 may
1999-cu il.

TÜRKİYƏNİN BAŞ NAZİRİ BÜLƏND ECEVİT AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyə Respublikasının Baş naziri BüləND Ecevit mayın 22-də Ankarada Çankaya köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir. Dövlətimizin başçısı Heydər Əliyevi hərarətlə salamlayan, onun səhhətindən məmnun qaldığını bildirən cənab Ecevit respublikamızın Prezidentinə Türkiyəyə gəldiyinə görə təşəkkür etdi. Səmimi sözlərə və dostluq münasibətlərinə görə cənab Ecevitə təşəkkürünü bildirən və doğma bir torpağa, öz vətəninə gəldiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev dedi: - Hörmətli Baş nazir, mən Sizi təbrik edirəm. Siz seçkilərdə böyük nailiyyət əldə etdiniz, partiyanız birinci yerə çıxdı. Mən sizin partiyanıza və Türkiyə Cümhuriyyətinə yeni-yeni uğurlar arzulayıram. Bilirəm ki, seçkilərdən sonra hazırda yeni hökumət qurursunuz. Əminəm ki, çox dəyərli bir hökumət qurursunuz. Siz əziz Süleyman Dəmirəl ilə birlikdə Türkiyə Respublikasını daha da yüksəklərə qaldıracaqsınız və inkişaf etdirəcəksiniz. Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı onu tələb edir ki, Türkiyə həmişə güclü, inkişafda və qüdrətli olsun, Türkiyənin dostu, qardaşı olan Azərbaycan Türkiyə ilə əl-ələ verib daha da irəliyə getsin.

Ölkələrimizin əlaqələrinin sürətli inkişafında Prezident Heydər Əliyevin böyük xidməti olduğunu vurğulayan cənab Ecevit imzalanmış neft müqavilələrinin həyata keçirilməsi sahəsində görülmüş işlərə maraq göstərdi. Bakı - Ceyhan boru kəmərinin çəkilişinin əsasən başlandığını nəzərə çarpdıran dövlətimizin başçısı dedi: - Biz keçən ilin oktyabrında Ankarada birgə bəyanamə imzaladıqdan sonra işlər yaxşı gedir. İki ay bundan əvvəl İstanbulda protokol imzalandı, texniki və maliyyə məsələlərinin üç ay müddətində həll edilməsi qərara alındı. Bu kəmərin çəkilişinə edilən maneələr, onun xərcinin guya çox baha olması barədə söz-söhbət artıq geridə qalmışdır. Vaxtilə deyirdilər ki, kəmər 3.7 milyard dollara başa gələcəkdir, amma belə olmadı. Türkmənistan qazının da Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Gürcüstana, oradan da Türkiyəyə nəqli çox faydalı olacaqdır. Bu, məsələ çoxdan müzakirə edilirdi, Qərb də, Amerika da bunu istəyirdi. Ancaq bəzi səbəblərə görə bu alınmırdı. İndi isə bu, tam realdır. Mən Vaşinqtona getməmişdən əvvəl Türkmənistan qaz kəmərinin çəkilişi ilə məşğul olan Amerika şirkətləri Bakıya gəlmişdilər. Mən onlarla görüşdüm. Həmin şirkətlər məndən bir daha icazə istədilər. Dedim ki, biz buna çoxdan icazə vermişik, çünki bu qaz Türkiyəyə gedəcəkdir. Bütün bu məsələlərin həllində böyük xidmətlərinə görə dövlətimizin başçısına təşəkkür edən Ecevit Prezident Heydər Əliyevə Mustafa Kamal Atatürkün şəklini bağışladı. Ulu öndər Atatürkün şəklini məmnunluqla qəbul edən respublikamızın Prezidenti dedi: - Bu, mənim üçün çox dəyərli hədiyyədir. Bu, bir də ona görə dəyərlidir ki, siz mənə "Atatürk Beynəlxalq Sülh Mükafatı"nı vermisiniz. Çox sağ olun.

Sonra görüş davam etdirildi. Baş nazir Büləndi Ecevit Prezident Süleyman Dəmirəlin dəvətini qəbul edib Türkiyəyə gəldiyinə görə Prezident Heydər Əliyevə təşəkkürünü bildirərək, Antalyanın dünyanın ən gözəl istirahət ocaqlarından biri olduğunu nəzərə çarpdırdı. Müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu altı ildən bəri heç vaxt istirahət etmədiyini xatırladan dövlətimizin başçısı dedi ki, əziz dostum, qardaşım Süleyman Dəmirəl məni dəfələrlə Türkiyəyə istirahətə dəvət etmişdi, amma gələ bilmirdim. İndi isə istirahət etməyə məcburam. Vaşinqtona səfərindən söhbət açan Prezident Heydər Əliyev dedi: - Biz orada çox işlər gördük. Prezident Bill Klintonla görüşdük, danışdıq. Dövlət katibi xanım Olbraytla görüşlərimiz oldu. Sonra xanım Olbraytın iştirakı ilə Gürcüstan, Azərbaycan, Ermənistan Prezidentlərinin, bir sıra xarici ölkələrin - Amerikanın, Fransanın, Almaniyanın, İngiltərənin, Norveçin, Türkiyənin Xarici İşlər nazirlərinin Qafqazda barışın, sülhün, əməkdaşlığın, işbirliyinin yaranması barədə

görüşü oldu.

ABŞ-ın Dövlət katibinin iştirakı ilə Azərbaycan və Ermənistan Prezidentlərinin görüşündən, sonra isə Azərbaycan və Ermənistan Prezidentlərinin təkbətək görüşündən söhbət açan dövlətimizin başçısı dedi:

Ermənistan - Azərbaycan münaqişəsi 11 ildir ki, başlayıbdır. 1994-cü il mayın 12-dən atəşkəs elan edilibdir. Yəni beş ildir atəş yoxdur, amma sülh, barış da yoxdur.

Torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan çox qaçqın vətəndaşımız çadırlarda yaşayır. Amerikanın, Fransanın və Rusiyanın Minsk qrupunun həmsədrləri olduğunu xatırladan Prezident Heydər Əliyev dedi ki, onlar bu münaqişənin sülh yolu ilə həll edilməsinə çalışdılar, lakin 1998-ci ildə Ermənistanın o vaxtkı Prezidenti istefaya getdi, yeni Prezident seçildi, nəticədə danışıqlar prosesi müəyyən qədər ləngidi. Ona görə də mən Vaşinqtona getməmişdən əvvəl Amerikanın, Rusiyanın və Fransanın Prezidentlərinə məktub yazdım. Onlara yazdım ki, Siz bu münaqişənin həllini öz üzərinizə götürmüsünüz, amma mən bu işdə çox passivlik görürəm. Mən Bill Klintondan, Boris Yeltsindən, Jak Şirakdan cavab aldım. Vaşinqtonda cənab Klintonla, cənab Şirakla, xanım Olbraytla görüşüb bu barədə söhbət etdim. Mən bir daha bildirdim ki, biz Dağlıq Qarabağa müstəqillik verə bilmərik. Onlar dedilər ki, bu münaqişə ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həll olunmalıdır. Mən Vaşinqtondakı görüşlərdən hiss etdim ki, biz bu münaqinənin həlli məsələsini irəliyə apara bilərik. Senator Sem Braunbekin hazırladığı "İpək yolu strategiyası" qanun layihəsindən, 1998-ci ildə Avropa Birliyinin himayəsi ilə Bakıda keçirilən qədim İpək yolunun bərpası mövzusunda beynəlxalq konfransdan bəhs edən respublikamızın Prezidenti dedi:

- Bu konfransda 35 ölkədən, 15 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, 9 ölkənin Prezidentləri iştirak edirdilər.

TRASEKA proqramı çərçivəsində keçirilən bu konfransda biz çox mühüm sənədlər qəbul etdik. ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi 907-ci düzəlişin ləğv olunması sahəsində görülən işlərdən danışan Prezident **Heydər Əliyev dedi:**

- 1997-ci ildə mən Amerikada rəsmi səfərdə olarkən Prezident Bill Klintonla birgə bəyanat imzaladıq. Orada yazılıb ki, Amerika hökuməti 907-ci düzəlişin ləğv edilməsini istəyir və buna çalışacaqdır. Bu məsələ son dəfə konqresdə müzakirə edilərkən bizim üçün cəmi 28 səs çatmadı. Bu isə o deməkdir ki, biz ABŞ Konqresində də Azərbaycana münasibətdə müsbət dəyişikliyə nail ola bilmişik. Əminəm ki, cənab Braunbekin hazırladığı qanun layihəsi qəbul olunacaq və 907-ci maddə də öz təsir gücünü itirəcəkdir.

Vaşinqtona səfəri zamanı Amerikanın iri neft şirkətləri ilə ARDNŞ arasında 3 yeni müqavilənin imzalanmasını yüksək qiymətləndirən, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi üzrə artıq 19 müqavilə imzalandığını nəzərə çarpdıran dövlətimizin başçısı dedi ki, biz 1997-ci ildə ilkin neftin dünya bazarına çıxarılmasına başladıq. Bu, Gürcüstanda Bakı - Supsa kəmərləri vasitəsilə dünya bazarına çıxarılır. Biz Bakı - Ceyhan kəmərinin çəkilişini də başa çatdıracağıq. Prezident Heydər Əliyev daha sonra ABŞ Konqresində, Senatında keçirdiyi görüşlərdən də atraflı bəhs etdi. Rusiyanın Ermənistana qeyri-qanuni yolla silah verməsindən və həmin respublikada hərbi baza saxlamasından danışan Azərbaycan Prezidenti dedi:

- Mən MDB ölkələri dövlət başçılarının bu yaxınlarda Moskvada keçirilmiş toplantısında bir daha protest verdim ki, nə üçün Rusiya Ermənistanda ordu saxlayır? Mən bu məsələni dəfələrlə qaldırmışam. Yeltsin mənə deyir ki, bu, Azərbaycana qarşı deyil.

Sonra Baş nazir Büləvd Ecevit Türkiyədə hazırkı ictimai-siyasi vəziyyət barədə Prezident Heydər Əliyevə atraflı məlumat verdi.

Dövlətimizin başçısı qardaş ölkənin Baş nazirinə böyük uğurlar arzulayaraq dedi:

- Çox arzu edirəm ki, tezliklə yeni hökuməti qurub, işə başlayasınız.

Cənab Ecevit Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu bildirdi, ona daha möhkəm cansağlığı arzuladı.

"Azərbaycan" qəzeti, 25 may 1999-cu il.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUT AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Yıldırım Akbulut mayın 22-də Çankaya köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir. Cənab Akbulutu səmimiyyətlə qarşılayan, TBMM-in sədri seçilməsi münasibətilə onu ürəkdən təbrik edən dövlətimizin başçısı Türkiyə parlamentinin yeni sədrinin seçilməsini mühüm bir hadisə kimi qiymətləndirdi.

Səmimi sözlərə görə Prezident Heydər Əliyevə təşəkkürünü bildirən cənab Akbulut dedi: - cənab Prezident, Zati-alinizin Türkiyəyə gəlməsindən çox məmnun olduq. Türkiyə Konstitusiyasına və məclisin daxili nizamnaməsinə görə parlamentdə sədrlik və Sədrlik Şurası təşkil olunur. Hazırda ölkədə eyni zamanda yeni hökumət qurulması prosesi gedir. İndi parlamentin yeni sədri çesildi, Sədrlik Şurasına isə yaxın günlərdə seçkilər keçiriləcəkdir. Parlament sədrinin məlumatını diqqətlə dinləyən Prezident Heydər Əliyev Türkiyədəki siyasi həyatın Azərbaycan üçün də daim böyük əhəmiyyət daşıdığını nəzərə çarpdıraraq dedi:

- Biz Türkiyədə seçkilərin gedişini diqqətlə izləyirdik və çox məmnun olduq ki, seçkilər normal, uğurla keçdi.

Seçkilərdən sonra Böyük Millət Məclisi öz işinə başlamış, parlamentin sədrini seçmişdir. Ümid edirəm ki, yaxın vaxtlarda hökumət quruluacaq və Türkiyə Cümhuriyyəti daha da irəliləyəcəkdir.

Ölkələrimizin əlaqələrinin günügündən inkişaf etməsinin çox vacib olduğunu bildirən cənab Akbulut dedi:

- Cənab Prezident, biz istəyirik ki, həm Türkiyədə, həm də qardaş Azərbaycanda çox yaxşı bir əməkdaşlıq olsun, demokratik qaydalar çərçivəsində vətəndaşlarımızın rifah halı daha da yüksəlsin və inkişaf etsin. Türkiyə parlamenti sədrinin fikirlərinə şərik olduğunubildirən respublikamızın Prezidenti dedi:

- Bəli, bu, bizim də diləyimizdir. Türkiyə - Azərbaycan əlaqələri çox güclüdür, möhkəmdir, salsılmazdır. Yaşadığımız hər gün, hər ay bu əlaqələrimizi daha da genişləndirir, inkişaf etdirir. Ümid edirəm ki, Türkiyədə yeni seçkilər keçəndən sonra bu əlaqələrin daha da genişləndirilməsi üçün yeni addımlar atılacaqdır. Şübhəsiz ki, bu uğurların başında əziz dostum, qardaşım, Prezident Süleyman Dəmirəl durur. Onun Azərbaycana olan münasibəti, ölkəmizə göstərdiyi diqqət, qayğı Azərbaycanın daimi inkişafını təmin edir. Prezident Heydər Əliyev ilə həmfikir olduğunu vurğulayan cənab Akbulut dedi:

- Hörmətli cənab Prezident, çox doğru deyirsiniz. Biz Prezident Süleyman Dəmirəlin bu sahədəki fəaliyyətini ürəkdən dəstəkləyirik.

Görüşdə ölkələrimizi maraqlandıran bir sıra məsələlər, beynəlxalq aləmdə vəziyyət, regional problemlər barədə fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı Heydər Əliyev cənab Yıldırım Akbulutu Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

"Azərbaycan" qəzeti, 23 may 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 23-də Türkiyə Prezidenti Süleyman Dəmirəlin Çankaya köşkündə yaşadığı iqamətgaha gəldi. Dost ölkənin rəhbəri Süleyman Dəmirəl və həyat yoldaşı Nəzmiyyə xanım dövlətimizin başçısını iqamətgahın qarşısında hərarətlə, mehribanlıqla salamladılar.

Türkiyə Prezidenti əziz dostu və qardaşı, Azərbaycan Prezidenti Heydər Əliyevi Ankarada görməkdən və onun səhhətinin yaxşı olmasından məmnunluq duyduğunu söylədi. Sonra dövlət başçıları jurnalistlər qarşısında bəyanatla çıxış etdilər.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Hörmətli Prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Mən bu gün Türkiyədə olmaqdan və Sizin çevrənizdə olmaqdan son dərəcə məmnunam. Amerikada NATO-nun toplantısında birgə çalışdıq və Türkiyə üçün də, Azərbaycan üçün də birgə çox işlər gördük. Ondan sonra əməliyyat keçirmək məcburiyyətində oldum. Əziz dostum, qardaşım, ancaq o andan, o gündən indiyə qədər mən Sizin böyük diqqətiniz, böyük qayğınız, böyük hörmətiniz altında yaşayıram. Mən bu dostluğu, qardaşlığı fövqəladə, dünyada insanlar arasında dostluğun nümunəsi hesab edirəm. Əziz dostum, bu dostluğu, qardaşlığı da, Sizin nə qədər insanpərvər, nə qədər sadiq, sədaqətli olduğunuzu da həmişə göstərmisiniz. Amma indi, mən xəstə olduğum zaman bunu xüsusi hiss etdim. Mən bunlara görə Sizə təşəkkür edirəm. Xəstəxanada olduğum zaman Siz daim əlaqə saxlamısınız, əməliyyat aparan və müalicə edən həkimlərlə danışmısınız, halımı soruşmusunuz. Mənim özümlə danışmısınız, mənə ürək-dirək, ruh vermisiniz, məni ruhlandırmısınız. Bunlar hamısı mənim xəstəliyimin tezliklə aradan qaldırılmasına da kömək edibdir. Xəstəliyi sağaldan təkcə dərman, həkim deyil, eyni zamanda insanların, dostların göstərdiyi münasibət, qayğı, diqqətdir. Mən bu gözəl münasibəti, qayğını, diqqəti ilk olaraq, ən yüksək səviyyədə Sizdən görürəm və buna görə də təşəkkür edirəm. Məni Türkiyəyə dəvət etdiyinizə görə bir daha, bir daha təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarında xəstəxanadan çıxandan sonra məhz Türkiyəyə gəlməyim mənim üçün çox böyük əhəmiyyət kəsb edir. Çünki Türkiyə mənim üçün müqəddəs bir torpaqdır. Eyni zamanda, bu, mənim öz məmləkətimdir. Siz görürsünüz ki, mən buraya gələn dəqiqədən vəziyyətim günbəgün yaxşılaşır və sağlamlığım artır. Bu, yenə də Sizin xidmətinizin nəticəsidir. Türkiyədə olan abhavanın, iqlimin, Sizin münasibətinizin nəticəsidir. Bunlara görə təşəkkür edirəm.

Mənə çox yüksək qonaqpərvərlik, müsafirpərvərlik göstərirsiniz. Bu qədər yüksək qonaqpərvərliyi hər adam göstərə bilməzdi. Əziz qardaşım, bu, Sizin nə qədər böyük qəlbə malik olduğunuzu, nə qədər böyük insan olduğunuzu, nə qədər böyük dost olduğunuzu bir daha göstərdi. Bu, təkcə mənim üçün yox, Türkiyə üçün, Azərbycan üçün, bütün dünya üçün göstərir ki, böyük insan nə cür olur. Böyük insan Süleyman Dəmirəldir, böyük qəlbli insan Süleyman Dəmirəldir. Bunların hamısına görə təşəkkür edirəm.

Azərbaycan haqqında, mənim haqqımda, dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm, çox sağ olun. Həqiqətən, Azərbaycan müstəqilliyə qovuşandan sonra çox ağır və çətin bir yol keçir. Amma Türkiyə Cümhuriyyəti və əziz dostum, şəxsən Siz, Azərbaycanın müstəqillik, istiqlaliyyət qazandığı andan indiyə qədər Azərbaycana qayğı, yardım göstərirsiniz, dostluq qayğısı, dostluq yardımı göstərirsiniz. O cümlədən, Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün, bu məsələni həll etmək üçün də Siz daim diqqət, qayğı göstərirsiniz. Türkiyə Cümhuriyyəti Minsk qrupunun üzvüdür. Minsk qrupunun tərkibində çalışır. Minsk qrupu da Ermənistan - Azərbaycan münaqişəsinin sülh, barış yolu ilə həll olunması üçün 1992-ci ildə yaranıbdır. Ancaq, əziz dostum, qardaşım, əziz Cümhurbaşkanı, Siz şəxsən bu məsələ ilə daim məşğul olursunuz. Mən Sizə minnətdaram ki, Klintona və başqa ölkələrin Prezidentlərinə bu barədə xüsusi məktublar, müraciətlər göndərmisiniz. Bunlar hamısı bizə yardımdır. Yəni biz Ermənistanla üz-üzə durduğumuz, torpaqlarımızın 20 faizi işğal olunduğu, bu torpaqlardan çıxarılan insanlar çadırlarda yaşadığı şəraitdə ən böyük dəstəyi, ən böyük yardımı, köməyi biz Türkiyə Cümhuriyyətindən və Türkiyənin Prezidenti Süleyman Dəmirəldən alırıq. Bunlara görə də təşəkkür edirəm. Ümidvaram ki, Sizinlə birlikdə biz bu məsələni həll edəcəyik. Artıq beş ildir ki, biz atəşkəs rejimində yaşayırıq. Nə qədər ağır, çətin olsa da, belə yaşamaq döyüş aparmaqdan, qan tökməkdən daha üstündür. Mən belə hesab edirəm. İndi dünya sülhə, barışa gedir. Biz də çalışmalıyıq ki, bu münaqişəni sülh, barış yolu ilə həll edək. Biz bu barədə daim Sizin fikirlərinizi öyrənirik, onlardan istifadə edirik. Güman edirəm ki, biz bunu həll edəcəyik. Azərbaycanın inkişafı haqqında dediyiniz sözlərə görə də təşəkkür edirəm. Həqiqətən, belə bir ağır şərtlər içərisində, torpaqların 20 faizi işğal olunduğu halda, insanlar çadırlarda yaşadığı bir zamanda biz müstəqil Azərbaycanın inkişafını təmin edə bilmişik. Bu baxımdan, xüsusən 1994-cü ildə imzaladığımız ilk neft müqaviləsi, onu "Əsrin müqaviləsi" adlandırıblar, - ondan sonra gördüyümüz işlər həm Azərbaycan üçün, həm də Türkiyə üçün böyük gələcək açır, böyük zənginlik gətirəcəkdir. Biz bu işlərlə məşğul oluruq və bu sahədə də bərabərik, bir yerdəyik. İndi Türkiyə neft ölkəsi olubdur. Çünki Türkiyənin neft şirkətləri Azərbaycanda bir neçə müqavilədə faizlərini alıblar. 1994-cü ildə biz ilk neft müqaviləsi imzalayanda konsorsiumda "Türk petrolları" şirkətinin 1,7 faizi vardı. Amma indi başqa müqavilələrdə 30 faizə qədər çatıbdır. Bu da bizim istəyimizdir. Çünki

bizə Türkiyədən yaxın ölkə yoxdur. Bakı - Ceyhan boru xətti haqqında. Məlumdur ki, bir neçə ildir danışıqlar gedir. Amma biz və Azərbaycan Prezidenti olaraq şəxsən mən ilk gündən, 1994-cü ildə ilk müqaviləni imzalayandan o müqavilədə əks etdirmişik ki, Azərbaycanın Xəzər neftinin ixrac edilməsi, dünya bazarlarına çıxarılması üçün əsas boru xətti Bakı - Ceyhan xəttidir. Bakı - Ceyhan boru xəttinin tikilməsi üçün biz çox maneələrlə, etirazlarla qarşılaşdıq. Bir çox ölkələr bunun əleyhinə çıxdılar, çalışdılar. Amma bunların heç birisi bizim iradəmizi sındıra bilmədi. Mən çox məmnunam ki, nəhayət, keçən il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin 75 illiyi bayramında biz böyük bir anlaşma imzaladıq və bununla da Bakı - Ceyhan boru xəttini tam reallaşdırdıq. Ondan sonra aparılan işlər göstərir ki, qısa bir zamanda Bakı - Ceyhan boru xəttinin tikilməsinə başlanacaqdır. Amerika Birləşmiş Ştatlarında olduğum zaman bu ölkənin üç şirkəti ilə yeni müqavilələr imzaladıq. 1994-cü ildə biz birinci müqaviləni imzaladıq, indi artıq 19 müqavilə var. Bunlarda 14 ölkədən 32 şirkət iştirak edir. Amerika şirkətləri çoxdur. Bunlar hamısı Xəzər dənizində nə qədər zəngin neft olduğunu göstərir və gələcəkdə Bakı - Ceyhan xəttinin tam tutumu ilə işləməsi üçün neft çıxarılması imkanları yaradır.

Başqa işlərdə də nailiyyətlərimiz var. Bunların hamısını da biz Sizinlə bərabər edirik. Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı, xüsusən Azərbaycan müstəqillik qazandıqdan sonra günü-gündən inkişaf edir, möhkəmlənir, güclənir. Bu dostluğu, qardaşlığı heç bir qüvvə sarsıda bilməz. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, sarsılmazdır və belə də olacaqdır. Biz xalqımızı da bu ruhda tərbiyə edirik, bu ruhda yol göstəririk. Bu yolu elə açmışıq ki, Azərbaycan xalqının bütün gələcək nəsilləri də bu yolla gedəcəklər.

Bizim başqa yolumuz yoxdur və ola da bilməz. Əziz dostum, mən haddən ziyadə xoşbəxtəm ki, Sizin kimi belə bir dostum var. Mən həyatımda çox çətinliklər, çox ağır dövrlər keçirmişəm. İndi isə bu xəstəlik, ürəyimdə əməliyyat aparılması mənim üçün çox ağır dövr oldu. Ancaq Sizin kimi dostumun olması mənə həmişə ürək-dirək verdi, ruh verdi və indi bu xəstəlikdən xilas olmuşam, buradа Sizin qonağınızam. Bütün bunlara görə Sizə bir daha təşəkkür edirəm. Nəzmiyyə xanım, Sizə təşəkkür edirəm. Siz mənim əziz bacımsınız, Süleyman Dəmirəlin də çox sədaqətli xanımısınız. Siyasət adamı üçün böyük bir işdir ki, onun xanımı da çox dözümlü olsun. Çünki siyasət adamının işlərinə dözmək çox da asan deyildir. Amma bilirəm ki, Siz on illərlə bu işlərə dözürsünüz və mənim əziz dostum Süleyman Dəmirəlin əldə etdiyi nailiyyətlərdə Sizin payınız, xidmətləriniz çoxdur. Əziz bacım, mən Sizə təşəkkür edirəm. Sizinlə,

bu ailə ilə bu qədər dost, mehriban olmağımdan həddən ziyadə xoşbəxtəm. Demək istəyirəm ki, övladlarım,- nəvələrim də həmişə bu ailəyə sadiq olacaqlar. Gələcək bizim dostluğumuzla irəli gedəcəkdir. Mən Sizə bir daha təşəkkür edirəm, çox sağ olun, var olun, min yaşayın!

"Azərbaycan" qəzeti, 25 may 1999-cu il.

TÜRKİYƏNİN ANA VƏTƏN PARTİYASININ SƏDRİ MƏSUD YILMAZ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyənin Ana Vətən Partiyasının (ANAP) sədri, millət vəkili Məsud Yılmaz mayın 23-də Ankarada Çankaya köşkünə gələrək Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

Respublikamızın Prezidentini səmimiyyətlə salamlayan, onun səhhətinin çox yaxşı olduğunu görməkdən məmnun qaldığını vurğulayan cənab Yılmaz vaxt tapıb onu qəbul etdiyinə görə ölkəmizin rəhbəri Heydər Əliyevə minnətdarlığını bildirdi.

Sonra o, Türkiyənin yeni hökumətinin qurulması üçün aparılan danışıqlar və bu hökumətdə ANAP-ın iştirakı barədə Prezident Heydər Əliyevə məlumat verdi.

NATO-nun 50 illik yubileyində iştirak etməsindən, Vaşinqtonda keçirdiyi görüşlərdən söhbət açan dövlətimizin başçısı Heydər Əliyev Prezident Bill Klintonla, Dövlət katibi Madlen Olbraytla apardığı danışıqların böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı.

1992-ci ildə ABŞ Konqresi tərəfindən Azərbaycana qarşı qəbul edilmiş ədalətsiz 907-ci düzəlişin ləğv olunması üçün görülən işlərdə xeyli irəliləyiş əldə edildiyini vurğulayan Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Amerika Konqresində, Senatında apardığı danışıqlar öz müsbət nəticələrini verəcəkdir.

Senator Sem Braunbekin hazırladığı yeni qanun layihəsindən, qədim ipək yolunun bərpası üzrə 1998-ci ilin sentyabrında Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində Bakıda keçirilən beynəlxalq konfransdan bəhs edən respublikamızın Prezidenti 35 ölkənin və 15 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, 9 ölkənin rəhbərinin iştirak etdiyi bu beynəlxalq tədbiri müstəqil Azərbaycan dövlətinin həyatında tarixi hadisə kimi qiymətləndirdi. Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Vaşinqtonda Dövlət katibi Olbraytla, Ermənistan Prezidenti ilə keçirdiyi görüşlərin, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişinə müsbət təsir göstərəcəyinə ümidvar olduğunu bildirən Prezident Heydər Əliyev dedi ki, Amerika dövləti həmsədrlərdən biri kimi bu münaqişənin həllində öz fə-

allığını artırmalıdır. Amerika tərəfi bu məsələdə öz mövqeyini bir daha bəyan edərək bildirmişdir ki, Ermənistan - Azərbaycan münaqişəsi ATƏT-in 1996-cı ildə Lissabonda keçirilən Zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında aradan qaldırılmalıdır.

Minsk qrupunun "Ümumi dövlət" yaradılması barədə son təklifinin Azərbaycan tərəfindən rədd edildiyini vurğulayan respublikamızın Prezidenti bir daha xatırlatdı ki, biz Dağlıq Qarabağa heç vaxt müstəqillik verə bilmərik.

Söhbət zamanı Rusiyanın Ermənistana qeyri-qanuni yolla silah verməsi və orada hərbi baza saxlaması, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neft dünya bazarlarına çıxaran kəmərlərin, əsas boru kəməri olacaq Bakı - Ceyhan marşrutunun perspektivləri, bölgədə vəziyyət və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

"Azərbaycan" qəzeti, 25 may 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "NƏRGİZ-TV" TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev mayın 23-də Çankaya köşkündəki iqamətgahında Türkiyənin "Nərgiz-TV" telekanalının Ankaradakı təmsilçisi Murat Yetrinə müsahibə verdi.

Sual: Cənab Əliyev, "Atatürk Beynəlxalq Sülh Mükafatı"na bu il siz layiq görüldünüz. Bu, Türkiyədə böyük önəmə malik olan bir mükafatdır. Hansı hissləri keçirirsiniz?

Cavab: Çox böyük qürur hiss edirəm. Çünki, həqiqətən, "Atatürk adına Beynəlxalq Sülh Mükafatı" Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatlarından biridir. Ancaq eyni zamanda bu mükafat mənim üçün əzizdir ona görə görə ki, Mustafa Kamal Atatürkün xatirəsinə təsis olunubdur və onun adını daşıyır.

Mustafa Kamal Atatürk XX əsrdə dünyanın ən böyük şəxsiyyətlərindən biridir, Türkiyə Cümhuriyyətini quran, qurtuluş savaşında qalib gələn, Türkiyə Cümhuriyyətini yaşadan bir şəxsiyyətdir. O, elə bir cümhuriyyət yaradıbdır ki, ölümündən 60 il keçəndən sonra da yaşayır, Türkiyəni dünyanın böyük, qüdrətli, iqtisadi cəhətdən zəngin dövlətlərindən biri edibdir. Mən çox məmnunam ki, Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yolu ilə gedir. Mustafa Kamal Atatürk bizlər üçün qəhrəmanlıq rəmzidir, müdriklik rəmzidir, dövlətçilik rəmzidir, demokratiya rəmzidir. Bütün bunlara görə də iftixar edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin belə bir mükafatını almaq nəsib olubdur.

Mən həyatımda çox mükafatlar

almışam. Keçmişdə yaşadığımız Sovetlər Birliyi kimi böyük dövlətin ən yüksək mükafatlarını almışam. Başqa dövlətlərin də mükafatlarını almışam. Ancaq bu mükafat - "Atatürk adına Beynəlxalq Sülh Mükafatı" mənim üçün hamısından əziz, indiyə qədər aldığım bütün mükafatlardan üstündür.

Sual: Cənab Prezident, Siz dünyanın bu bölgəsindəki siyasəti uzun illərdən bəri ən fəal şəkildə həyata keçirən, daim siyasətçilərin içində olan bir insansınız. XX əsrin son ilini yaşayırıq. Sizcə, bölgəmizdəki siyasətlər, güc əməliyyatları necə olacaqdır? Rusiyadakı, Balkandakı, Qafqazdakı vəziyyət və s. barədə Sizin fikirlərinizi bilmək istərdik.

Cavab: Əzizim, bu, çox böyük bir mövzudur. Buna qısa cavab vermək mümkün deyildir. Buna cavab vermək üçün gərək 15-20 dəqiqə danışasan. Amma qısa olaraq onu demək istəyirəm ki, XX əsrin son onilliyi dünya üçün çox böyük dəyişikliklər illəri, dövrü olmuşdur.

Birincisi, soyuq müharibə bitmiş, Sovetlər Birliyi dağılmış, Varşava paktı, müqaviləsi, yəni Sovetlər Birliyi ilə bərabər Avropanın bir neçə sosialist ölkəsinin NATO-ya qarşı yaratdığı əsgəri işbirliyi dağılmışdır. Ən önəmli də odur ki, Sovetlər Birliyinin içində olan 15 cümhuriyyət öz istiqlaliyyətinə nail olmuş, dövlət müstəqilliyini əldə etmişdir. Bu, xüsusən bizim Azərbaycan üçün çox əhəmiyyətlidir, önəmlidir. Azərbaycanın XX əsr ərzində ikinci dəfə istiqlaliyyət alması, ancaq birincidən fərqli olaraq bu dəfə istiqlaliyyəti qoruyub saxlaması Azərbaycan xalqı üçün tarixi bir hadisədir.

Sonra baş verən hadisələr, Balkanlarda olan hadisələr, Avropadə olan hadisələr-bu, təbiidir. Çünki bir çox sistemlər dağılmış və xalqlar daha da çox istiqlaliyyət əldə etmək istəmişlər. Bunlar hamısı da bəzi dəyişikliklərə gətirib çıxarmışdır. Mən hesab edirəm ki, əgər böyük dünya tarixini götürsək, bu dövr tarixi cəhətdən önəmli bir dövrdür.

Sual: Cənab Prezident, iyun ayında Azərbaycanda türkdilli ölkələrin Prezidentlərinin Zirvə toplantısı keçiriləcəkdir. Bu zirvə toplantısının əhəmiyyəti nədən ibarətdir?

Cavab: Bilirsiniz, türkdilli dövlətlərin birliyi 1992-ci ildə yaranıbdır. Bunun yaranmasının təşəbbüskarı Türkiyədir, Türkiyənin Cümhurbaşkanı, mənim əziz dostum, qardaşım hörmətli Süleyman Dəmirəldir və Türkiyənin sabiq Cümhurbaşkanı mərhum Turqut Ozaldır. Bu da tarixi bir hadisədir. XX əsrin sonunda dünya tarixinə yazılası bir işdir. Çünki türk xalqları, türkdilli dövlətlər əsrlər boyu birbirindən ayrı düşmüşlər. Bu dövlətlərin Türkiyədən başqa heç birinin istiqlaliyyəti olmamışdır. Ancaq bu türkdilli dövlətlər, cümhuriyyətlər istiqlal əldə etdilər və 1991-ci ilin sonunda istiqlaliyyət əldə edən kimi, bir neçə aydan sonra - 1992-ci ildə Türkdilli Dövlətlərin Birliyinin əsası qoyuldu, ya-

randı. Artıq 7 ildir ki, bu birlik, bu qurum yaşayır və mən Azərbaycanın Prezidenti kimi 1993-cü ildən bu qurumun iştirakçısıyam. İlbəil, yəni hər ildən-ilə bu dövlətlərin işbirliyinin daha da genişlənməsi müşahidə olunur. Buna görə də türkdilli dövlətlərin başçılarının zirvə görüşü hər il bir ölkədə keçirilir. Bu il növbə Azərbaycanındır. Zirvə görüşümüz iyun ayının 14-də keçiriləcəkdir və güman edirəm ki, bu görüş də türkdilli dövlətlərin inkişafı üçün, gələcək istiqbalı üçün çox önəmli olacaqdır.

Bu görüşün böyük əhəmiyyəti, önəmi bir də ondan ibarətdir ki, iyun ayının 15-də bizim hamımızın müştərək milli sərvəti olan "Kitabi-Dədə Qorqud"un 1300 illiyini biz Azərbaycanda yubiley edəcəyik. Türkdilli dövlətlərin başçılarının hamısı bir yerə toplaşaraq tarixi köklərimizə bir daha hörmətimizi və minnətdarlığımızı bildirəcəyik və "Kitabi-Dədə Qorqud"un 1300 illiyini qeyd edəcəyik. Bunlar çox önəmlidir.

Sual: Cənab Prezident, keçmiş 15 sovet ölkəsinin, o cümlədən müstəqillik qazanan ölkələrdən biri kimi Azərbaycanın inkişafı üçün iqtisadiyyatın inkişafının böyük rolu vardır. Bu baxımdan Xəzər neftinin dünya bazarına çıxarılması ilə və Bakı - Ceyhan layihəsinin həyata keçirilməsi ilə bağlı işlər necə gedir?

Cavab: Bunlar çox yaxşı gedir. Biz Azərbaycan, tarixi bir iş görmüşük. 1994-cü ildə böyük bir müqavilə imzaladıq. 7 ölkəyə mənsub olan 11 böyük neft şirkətinin yaratdığı konsorsiumla anlaşma, müqavilə imzaladıq. Bu müqaviləyə görə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" zəngin neft yataqlarından neftin çıxarılması və dünya bazarlarına daşınması nəzərdə tutulmuşdur. Müqavilənin müddəti 30 ildir və bu müqaviləni həyata keçirmək üçün 8 milyard dollar yatırım, sərmayə planlaşdırılmışdır.

Bununla biz Xəzər dənizini dünyaya açdıq. Xəzər dənizinin çox zəngin təbii sərvətləri - neft və qazı vardır. Biz bunun təkcə Azərbaycan üçün yox, təkcə bu bölgədə olan ölkələr üçün yox, dünya ölkələri üçün də istifadə olunmasının əsasını, təməlini qoyduq. O müqavilədən sonra Xəzər dənizi dünyanın bütün ölkələrinin diqqətini cəlb etdi. Bu dünyanın ən zəngin neft, qaz bölgələrindən birinə çevrildi. Yəni bunlar var idi, amma biz bunu dünya üçün açdıq, anlatdıq və böyük neft şirkətləri Azərbaycana gəldilər, yeni-yeni təkliflər irəli sürdülər və 1994-cü ildən indiyə qədər, sentyabr ayında 5 ili tamam olacaqdır. Biz 19 müqavilə, anlaşma imzalamışıq. Bunların da hamısında Azərbaycan Cümhuriyyətinə təxminən 50 milyard dollar sərmayə qoyulması nəzərdə tutulubdur.

Biz 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayarkən o müqavilədə yazılıbdır ki, bu nefti ixrac etmək üçün, dünya bazarlarına çıxarmaq üçün ilkin neftin ixracı üzrə boru xətti yaratmaq lazımdır. Ancaq böyük neftin ixracı üçün əsas neft boru xətti yaratmaq lazımdır. Bu da Bakı - Ceyhandır.

Ötən illər ərzində biz iki neft boru xətti yaratdıq. Biri Bakı - Novorossiysk xəttidir. Rusiyanın Qara dənizdə olan Novorossiysk limanına gedən xətti biz 1997-ci ilin noyabr ayında açdıq, Çünki biz "Çıraq" yatağından neftin çıxarılmasına nail olduq və həmin boru ilə nefti ixrac edirik. Ancaq biz alternativ, ikinci xəttin, boru kəmərinin də tikilmasini lüzumlu bildik və ona da başladıq.

Bu il aprel ayının 17-də biz Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən Bakı - Supsa boru xəttini də açdıq. Neft artıq oradan da dünya bazarlarına ixrac olunur. Ancaq ən böyük neft, əsas neft Bakı - Ceyhan boru xətti ilə getməlidir. Biz dörd ildir çalışırıq ki, Bakı - Ceyhan boru xəttini reallaşdıraq. Bunun qarşısına çox çıxdılar. Yəni guya bu, lazım deyil. Bəzi neft şirkətləri, konsorsiumda olanda, digər ölkələr neftin buradan, Türkiyədən və Ağ dənizə getməsinin əleyhinə olaraq, başqa yollarla getməsini lüzumlu hesab edərək, tələb edərək Bakı - Ceyhan boru xəttinin qarşısına çıxdılar, buna çox maneələr etdilər, müxtəlif təbliğatlar apardılar və s. Ancaq biz bunların hamısının qarşısını aldıq.

1994-cü ildə qəbul etdiyimiz qərarı biz ardıcıl surətdə yerinə yetiririk və Azərbaycan burada da öz iradəsini göstərdi. Burada da Türkiyə ilə Azərbaycanın işbirliyi üçün 1994-cü ildə biz bəyan etdiyimiz Bakı - Ceyhan boru xəttinin tikilməsi, reallaşdırılması üçün hər cür tədbirləri gördük və nəticə də aldıq. Nəticə də ondan ibarətdir ki, keçən il oktyabr ayının 29-da da Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində biz burada, Ankarada böyük bir anlaşma imzaladıq. Bu anlaşmanı Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan imzaladılar ki, yəni Qazaxıstan da, Özbəkistan da öz neftini bu boru xətti ilə keçirəcəkdir. Bu, Gürcüstanın ərazisindən də keçəcək, Türkiyədən Ağ dənizə gedəcəkdir. Ancaq yenə də bizim o konsorsiumda bunun əleyhinə çıxanlar var idi- guya bunun çox baha olduğunu söyləyirdilər.

Bir neçə aydır ki, biz bu barədə danışıqlar aparırıq və Türkiyə ilə Azərbaycan arasında çox böyük tədbirlər, yəni ilişkilər gedir. Nəhayət, onlara da anlatdıq və güman edirəm ki, yaxın vaxtlarda son qərar qəbul olunacaq və Bakı - Ceyhan neft boru xəttinin tikilməsinə başlanacaqdır.

Sual: Cənab Prezident, hazırda bu qərarın qarşısını alan əngəl varmı və varsa, hansıdır?

Cavab: Elə bir əngəl yoxdur. Sadəcə, burada Türkiyənin hökuməti də gərək bəzi şeyləri həll etsin. Çünki o vaxtki konsorsiumun içində olan şirkətlər bəyan etdilər ki, Bakı - Ceyhan boru xəttinin çəkilişi bahadır, bunun dəyəri 3.7 milyard dollardır. Ancaq sonra Türkiyə də bu işə çox dəstək verdi və araşdırmalar aparıldı. Sübut olundu ki, yox, bu, doğru

rəqəm deyildir. Bunun təxminən 2.7 milyard dollar, ya ondan da az olması artıq sübut, isbat edildi. Bunların hamısı, yəni bəzi maliyyə, texniki məsələlər çözülməlidir. Başqa bir şey yoxdur.

Müxbir: Cənab Prezident, mənim soruşmaq istədiklərim bu qədər. Sizin söyləmək istədiyiniz fikir varsa, buyurun.

Prezident Heydər Əliyev: Sağ olun. Mən sizə təşəkkür edirəm. "Nərgiz-TV" kanalı çox gözəl bir kanaldır. Bilirsiniz ki, bu, Azərbaycanda da yayımlanır və onu Azərbaycanda da çox məmnuniyyətlə seyr edirlər.

Mən unutmaram ki, 1997-ci ildə sizin apardığınız sorğulara görə Türkiyənin "NTV" televiziya kanalı Azərbaycanın Prezidentini, Cümhurbaşkanını "dünyanın siyasət adamı" kimi qiymətləndirdi, İstanbulda gözəl bir mərasim keçirildi və mənə mükafat verildi. Mən bunu yüksək qiymətləndirirəm.

Mən Türkiyənin "NTV" kanalına uğurlar, müvəffəqiyyətlər diləyirəm. "Nərgiz- TV"nin seyrçilərinə də, bütün Türkiyə vətəndaşlarına da uğurlar, sülh, əmin-amanlıq, rifah və gözəl istiqbal, gələcək arzulayıram. Mənim ürəkdən gələn salamlarımı bütün Türkiyənin vətəndaşlarına çatdırmağınızı rica edirəm. Sağ olun.

"Azərbaycan" qəzeti,25 may 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV ATATÜRKÜN ÇANKAYA KÖŞKÜNDƏKİ EV-MUZEYİNDƏ OLMUŞDUR

Mayın 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ulu öndər Mustafa Kamal Atatürkün Ankarada Çankaya köşkündəki ev-muzeyində olmuşdur.

Dövlətimizin başçısı Heydər Əliyev muzeyin bütün otaqlarını gəzdi, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün əziz xatirəsini yaşadan eksponatlarla, əşyalarla maraqla tanış oldu.

Respublikamızın Prezidentinə məlumat verildi ki, Mustafa Kamal Atatürk 56 illik ömrünün xeyli hissəsini bu binada yaşamışdır. 1921-ci ilin əvvəllərində bu bina Atatürkə hədiyyə edilmişdir. Mustafa Kamal Atatürk bu binanı türk ordusunun balansına vermiş və onu "Ordu köşkü" adlandırmışdır. 1924-cü ildə memar Məhmət Vədat bu binaya bəzi əlavələr etmişdir. Həmin köşkdən 1932-ci ilin iyun ayına qədər Türkiyə Respublikasının ilk Prezident iqamətgahı kimi istifadə olunmuşdur. Türkiyə Cümhuriyyətinin tarixində mühüm yer tutan bu bina yeni köşk tikilməsindən sonra muzeyə çevrilmişdir.

Muzeyin girişindən soldakı salonda Misir valisi Abbas Hilmi Paşa tərəfindən Mustafa Kamal Atatürkə hədiyyə edilən və deyilənə görə onun çox xoşladığı sədəfli kreslolar, divan, yazı masası və kitab rəfləri vardır.

Yemək salonunda rəssam Hüseyn Lifişin 1922-ci ildə çəkdiyi "Ağlayan qadın" əsəri diqqəti cəlb edir.

Mustafa Kamal Atatürkün layiq görüldüyü medallar, deputat vəsiqəsi və üzərində Atatürkün rəsmi olan ilk markalar, sənədlər və bu dahi insanın istifadə etdiyi əşyalar muzeydə diqqətlə qorunub saxlanılır.

Respublikamızın Prezidenti Heydər Əliyev Mustafa Kamal Atatürkün iş otağı ilə böyük maraqla tanış oldu və Türkiyə Cümhuriyyəti banisinin masasının arxasında əyləşib xatirə şəkli çəkdirdi.

Prezident Heydər Əliyev muzeyin xatirə kitabına öz ürək sözlərini yazdı:

"Böyük Mustafa Kamal Atatürkün ev muzeyini qürur hissi ilə ziyarət etdim. Bu, mənim üçün tarixi hadisədir.

Muzey, Atatürkün həyatının nə qədər sadə və nə qədər də mənalı, zəngin olduğunu gözəl əks etdirir. Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti ona abidə kimi yaşayır. Türk xalqına uğurlar olsun.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
24 may 1999-cu il".

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Azərbaycanın milli bayramı və Azərbaycan Demokratik Respublikasının 81-ci ildönümü münasibətilə Sizi səmimiyyətlə təbrik edirəm.

İki qardaş ölkə arasında mükəmməl bir hala gəlmiş əlaqələr ölkələrimiz üçün faydalı olduğu kimi, regionda sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olmasına və möhkəmlənməsinə də töhfə verməkdədir. Ölkələrimiz arasındakı bu yaxın əlaqələr xalqlarımızı birləşdirən dərin köklərin bir təzahürüdür.

Qısa bir vaxt ərzində beynəlxalq birliyin nüfuzlu üzvünə çevrilmiş qardaş Azərbaycanla əlaqələrimizi hər sahədə daha yüksək səviyyəyə qaldırmaq ən başlıca arzumuzdur.

Fürsətdən istifadə edib, Zati-alinizin şəxsi sağlamlığı və səadəti, Azərbaycanın rifahı üçün ən xoş dileklərimi yetirirəm.

Səmimi ehtiramla,

Bülənd ECEVİT,
Türkiyə Cümhuriyyətinin Baş naziri.
Ankara, 24 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV ANTALYAYA GƏLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 25-də Ankaradan Antalyaya yola düşməzdən əvvəl Çankayanın Camlı köşkündəki fəxri qonaqlar kitabına öz ürək sözlərini yazdı:

"Ankarada Camlı köşkdə yaşamağımdan çox məmnunam. Burada gözəl, mehriban insanlar çalışır. Mənə böyük qayğı və diqqət göstərilir, təşəkkür edirəm.

Burada çalışanlara cansağlığı, səadət, uğurlar diləyirəm.

Heydər Əliyev,
25 may 1999-cu il".

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Hörmətli mətbuat işçiləri, dostlar!

Mən sizin hamınızı salamlayıram. Siz bilirsiniz ki, mən Amerikada cərrahiyyə əməliyyatı keçirmişəm. Orada müalicəm başa çatandan sonra Türkiyənin Cümhurbaşkanı, əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl məni Türkiyəyə istirahətə dəvət edibdir. Mən bu dəvəti çox məmnuniyyətlə qəbul etmişəm və mayın 20-də Ankaraya gəlmişəm. Bu günə qədər Ankarada oldum, bir neçə görüşlər keçirdik. Birincisi, mənim dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl ilə çox söhbətlər etdik.

Mən sizin qarşınızda bir daha bildirmək istəyirəm ki, **Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı bizim xalqımız - Azərbaycan xalqı üçün çox önəmlidir, çox əhəmiyyət kəsb edir.**

Ölkəmiz öz istiqlaliyyətini, müstəqilliyini əldə edəndən sonra Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq əlaqələri, ilişkiləri gündən-günə inkişaf edir. Biz bunu yüksək qiymətləndiririk. Mən dəfələrlə demişəm, bu gün də sizə bəyan edirəm ki, **biz bu dostluğa, qardaşlığa daim sadiqik. Bu dostluğumuz, qardaşlığımız çox yüksək dərəcəyə çatıbdır və əbədidir, salsılmazdır.**

Mən dostum, qardaşım, Cümhurbaşkanı hörmətli Süleyman Dəmirəlin Türkiyə - Azərbaycan dostluğunun yaranmasında və inkişaf etməsində xüsusi xidmətlərini məmnuniyyətlə qeyd edirəm.

Hörmətli Süleyman Dəmirəl mənə çox böyük qayğı, diqqət göstərir. Bilirsiniz ki, bu ilin yanvar ayında mən xəstələnmişdim, rahatsız olmuşdum. O, məni dərhal Türkiyəyə dəvət etdi. Mən iki həftə Türkiyədə müalicə olundum və vətənə döndüm. Prezident Süleyman Dəmirəl mənə çox qayğı, dostluq, mehribanlıq münasibəti göstərdi. İndi məni yenidən Türkiyəyə dəvət edibdir. Amma buna qədər mən Amerikada, Klivlenddə olarkən o, bizimlə hər gün əlaqə saxlayıbdır, mənim həkimlərimlə danışıbdır, səhhətimi, sağlamlığımı daim izləyibdir.

Hörmətli Cümhurbaşkanı ilə bizim bu günlər çox gözəl danışıqlarımız, söhbətlərimiz oldu. Bu söhbətlər Türkiyə - Azərbaycan dostluğunu, qardaşlığını, bizim əlaqələrimizi inkişaf etdirməkdən ibarətdir. Mən bütün bu söhbətlərdən, danışıqlardan çox məmnunam.

Ankarada bir neçə başqa görüşlərim də oldu. Baş nazir hörmətli Bülənd Ecevitlə, Türkiyə Böyük Millət Məclisinin başqanı hörmətli Yıldırım Akbulutla, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə, Ana Vətən Partiyasının sədri hörmətli Məsud Yılmazla və digər şəxslərlə mənim görüşlərim oldu. Mən Türkiyə televiziyası vasitəsilə də bir çox məsələləri söylədim. Güman edirəm ki, siz onları dinləmisiniz.

Mən çox məmnunam ki, Amerikada keçirdiyim rahatsızlıqdan sonra Türkiyədəyəm, öz məmləkətimdəyəm, öz ölkəmdəyəm. **Türkiyə bizim üçün nəinki dost, qardaş, doğma bir yerdir, mənim üçün müqəddəs bir yerdir. Ona görə Türkiyəyə gələndən sonra mənim durumum daha da yaxşılaşıbdır.**

Bu gün də Antalyaya gəlmişəm. Mən burada heç vaxt olmamışdım. Buranı çox gözəl bir yer deyirdilər. Dünyanın hər yerindən buraya turistlər gəlir. İnsanlar buranı çox sevirlər. Azərbaycanda da buranı sevirlər. Ancaq indiyə qədər buraya gəlməyə imkanım olmayıbdır. Cümhurbaşkanı, hörmətli Süleyman Dəmirəl məni buraya hər il dəvət edir. Ancaq imkanım olmayıbdır. İndi isə dincəlməyə, istirahət etməyə müəyyən qədər məcburən gəlmişəm. Buraya gəlməyimdən çox məmnunam. Güman edirəm ki, burada bir neçə gün istirahət edəndən sonra vətənə - Bakıya, Azərbaycana dönəcəyəm.

Mən sizi və sizin şəxsinizdə Antalyanın, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarını bir daha salamlayıram, öz hörmət və ehtiramımı bildirirəm. Türkiyə Cümhuriyyətinə uğurlar arzulayıram. Türkiyə vətəndaşlarının hər birinə cansağlığı, səadət, həyatlarında, işlərində uğurlar arzulayıram. Sağ olun.

Mətbuat işçiləri də hər yerdə - Ankarada da, digər yerlərdə də həmişə mənə çox diqqət göstərirlər. Mən sizə təşəkkür edirəm ki, bu gün buraya, mənimlə görüşməyə gəlmisiniz. Təşəkkür edirəm.

Çox sağ olun.

"Azərbaycan" qəzeti, 27 may 1999-cu il.

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ XANIMI NƏZMİYYƏ DƏMİRƏL ANTALYADA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞLƏR

Mayın 26-da Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl və xanımı Nəzmiyyə Dəmirəl Azərbaycan Prezidenti Heydər Əliyevi ziyarət etmək üçün vertolyotla Antalyaya gəldilər.

Dövlətimizin başçısı Heydər Əliyev əziz dostu, qardaşı Süleyman Dəmirəli və Nəzmiyyə xanımı öz iqamətgahının qarşısında mehribanlıqla, hərarətlə qarşıladı.

Dost ölkələrimizin Prezidentlərinin görüşünə Türkiyə televiziya kanallarının və mətbuatının çoxsaylı nümayəndələri toplaşmışdı.

Cənab Dəmirəl əziz dostu, qardaşı, Prezident Heydər Əliyevin səhhətinin tam yaxşı olduğunu görməkdən məmnun qaldığını bildirdi, ona möhkəm cansağlığı arzuladı.

Türkiyə dövlətinin başçısına təşəkkür edən respublikamızın Prezidenti dedi:

- Əziz dostum, qardaşım Süleyman Dəmirəlin qayğısı, diqqəti nəticəsində mən Türkiyəyə, Ankaraya və dünən buraya gələndən daha da yaxşıyam.

Azərbaycan Prezidenti Heydər Əliyevin Antalyada bir müddət istirahət edəcəyini vurğulayan cənab Dəmirəl dedi:

- **Mən bu sözləri həmişə deyirəm, bu gün təkrar edərək bir daha söyləyirəm ki, Türkiyə əziz qardaşım, hörmətli Cümhurbaşkanı Heydər Əliyevin də məmləkətidir. Biz bir millətin iki dövlətiyik. Atatürk çox gözəl söyləmişdir: "Azərbaycanın ələmi bizim ələmimizdir, sevinci bizim sevincimizdir". Mən isə deyirəm ki, Azərbaycana iynə batsa, bizə çuval bizi batar.**

İki qardaş ölkə, xalq, dövlət arasında münasibətlər yüksək səviyyədədir. Hörmətli Cümhurbaşkanı Heydər Əliyevin müdrik siyasəti sayəsində ötən beş-altı il ərzində Azərbaycan böyük sürətlə inkişaf etmiş və bir dünya dövləti olaraq bütün sahələrdə yüksək nailiyyətlər qazanmışdır. Ümid edirəm ki, Azərbaycanda işlər bundan sonra daha da yaxşı olacaqdır. Hər kəsin çətinlikləri vardır. Amma bu çətinliklər müəyyən zaman içərisində aradan qaldırılır. Bizim ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələr mövcuddur. Bu əlaqələr hər iki ölkə tərəfindən bərabər surətdə davam etdirilir və etdiriləcəkdir.

Səmimi sözlərə görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev dedi:

- Əziz dostum, qardaşım, hörmətli Cümhurbaşkanı, təşəkkür edirəm. Sizin dediklərəniz yüz faiz mənim qəlbimdən gələn sözlərdir. Siz bu sözlərinizlə Türkiyə - Azərbaycan dostluğunu bir daha dünyaya bəyan edirsiniz.

Böyük Atatürk çox gözəl demişdir. Amma böyük Atatürkün işini davam etdirən, onun işini yüksəklərə qaldıran böyük dostum Süleyman Dəmirəl həmin sözlərin üzərinə daha da yaxşı sözlər qoyub Türkiyə - Azərbaycan dostluğunun indi nə qədər yüksəkdə olduğunu göstərir. Biz həqiqətən bir millət, iki dövlətik. Biz köklərimizi bir daha xatırlayırıq.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Azərbaycan üçün dayaq nöqtəsidir. Türkiyə Azərbaycana daim yardım, kömək edən bir ölkədir. Ona görə də bizim vətəndaşlarımızın hər biri - mən, bütün Azərbaycan vətəndaşları Türkiyə Cümhuriyyətinə daim minnətdarıq. Çünki bu müstəqillik dövründə, yəni Azərbaycan müstəqillik əldə edəndən sonra ölkəmizin həyatı çox çətin olubdur. Biz çox çətinliklərlə rastlaşmışıq. Türkiyə Respublikasının, xüsusən əziz dostum, qardaşım Süleyman Dəmirəlin bizə həm mənəvi dayaq olması, həm də hər bir məsələdə məsləhət verməsi və kömək etməsi Azərbaycanın bu yolla getməsinə həmişə yardım edibdir.

Bizim münasibətlərimizin ən gözəl təzahürü Cümhurbaşkanı, hörmətli dostum, qardaşım Süleyman Dəmirəlin mənə göstərdiyi qayğıdır. Mənə göstərilən qayğı bütün Azərbaycan xalqına qayğıdır. Bu, müstəqil Azərbaycana göstərilən qayğıdır. Mən bu qayğını daim duymuşam.

Mən bu ilin yanvar ayında bir balaca xəstələnən kimi dostum, qardaşım Süleyman Dəmirəl Bakıya təyarə, həkimlər göndərdi, məni Türkiyəyə dəvət etdi. Burada məni iki həftə ziyarət etdi.

Mən Bakıya getdim, çalışdım. Biz Süleyman Dəmirəl ilə NATO-nun toplantısında bərabər iştirak etdik, orada görüşlər keçirdik, söhbətlər etdik və birgə işlər gördük. Ancaq həmin tədbirlər başa çatandan sonra mən yenidən xəstəxanaya düşdüm. Mən xəstəxanaya düşən gündən indiyədək mənim həyatım dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirəlin nəzarəti, qayğısı və diqqəti altındadır.

Amerikada cərrahiyyə əməliyyatından dərhal sonra hörmətli Süleyman Dəmirəl cərrah Brus Laytl ilə telefonla danışmış, mənim vəziyyətimi öyrənmişdir. O, bundan sonra da mənə hər gün qayğı, diqqət göstərmişdir. Nəhayət, mən Amerikadan Azərbaycana qayıtmalı idim, amma o, məni Türkiyəyə dəvət etdi. Bu, mənim üçün çox böyük qürur hissidir.

Əlbəttə, Türkiyə qardaş bir ölkə olduğuna və Türkiyəni çox sevdiyimə görə belə bir xəstəlikdən sonra Türkiyəyə gəlmək mənə yeni güc, ruh verdi.

Biz Ankarada bir neçə gün bir yerdə olduq, çox məsələlər barədə söhbət apardıq. Biz dövlətlərimiz arasında olan əlaqələr və xüsusən Azərbaycanın problemləri haqqında çox söhbətlər apardıq. Ondan sonra əziz dostum, qardaşım təklif etdi ki, buraya gəlim. Doğrudan da, dünyada

cənnət var imişsə, buradır. Mən burani heç belə təsəvvür etmirdim. Əziz dostum məni hər il buraya dincəlməyə dəvət edirdi. Ancaq mənim imkanım olmamışdı. Amma qismət imiş, buraya gəldim. Mən dünəndən burada çox gözəl dincəlirəm. Güman edirəm, yeni bir güc ilə Azərbaycana qayıdacağam.

Əziz dostum, qardaşım Süleyman Dəmirəlin bütün işlərini buraxıb buraya, məni ziyarətə gəlməsi də fövqəladə bir insan xüsusiyyətidir, fövqəladə bir dostluq, mehribanlıq xüsusiyyətidir. Çünki Türkiyədə mənə o qədər qonaqpərvərlik göstərilir ki, bilmirəm, bundan yüksək nə ola bilər. Heç istəməzdim ki, mənim dostum bu qədər əziyyət çəksin, təyyarədə, vertolyotda bu qədər yol gəlsin. Ancaq o gəldi. Çünki onun qəlbi belədir. O, böyük qəlbli bir insandır. Mənimlə də dost, qardaş olduğuna görə bunları edir.

Mən bütün qayğıya, dostluğa, mehribanlığa görə ömrüm boyu minnətdaram. Çox sağ olun, əziz dostum. Nəzmiyyə xanım, sizə də təşəkkür edirəm ki, zəhmət çəkmisiniz, buraya gəlmisiniz. Mən sizə çox-çox təşəkkür edirəm.

Çox sağ olun.

Sonra görüş davam etdirildi. Prezidentlər Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, beynəlxalq aləmdə, bölgədə vəziyyət, Azərbaycan - Türkiyə əməkdaşlığının daha da inkişaf etdirilməsi, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil olunan neft dünya bazarına çıxaracaq əsas boru kəməri Bakı-Ceyhanın inşasına başlanması ilə əlaqədar görülən işlər və ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi apardılar.

Görüşdə müstəqil Azərbaycan dövlətinin beynəlxalq maliyyə qurumları ilə əlaqələrindən, bu qurumların respublikamızda həyata keçirdikləri proqramlardan, Dünya Bankının Prezidenti cənab Vulfensonun Azərbaycana qarşıdakı səfərindən və onun Antalyaya gələrək Prezident Heydər Əliyev ilə görüşəcəyindən bəhs edildi.

"Azərbaycan" qəzeti, 28 may 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Əziz qardaşım, hörmətli Prezident!

Sizi Azərbaycanın milli bayramı və Azərbaycan Demokratik Respublikasının 81-ci ildönümü münasibətilə səmimiyyətlə təbrik edirəm.

Azərbaycanın bayramı Türkiyənin də bayramıdır. Ona görə də bu fərəhli gündəki duyğularımız eyni coşğu və həyəcanla Türkiyədə də hiss edilməkdədir.

Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra iki qardaş ölkə

arasında inkişaf etməkdə olan müstəsna əlaqələr ölkələrimiz arasında işbirliyinin və həmrəyliyin gələcəkdə də davam edəcəyinə təminatdır. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr regional əməkdaşlıq baxımından da örnək təşkil etməkdədir.

Zati-alinizin məharətli rəhbərliyi ilə beynəlxalq birliyin nüfuzlu bir üzvünə çevrilən Azərbaycanın indiyə qədər hər sahədə nail olduğu irəliləyişi gələcəkdə də davam etdirəcəyinə əminəm.

Fürsətdən istifadə edib öz adımdan və türk milləti adından ən böyük səmimiyyətlə şəxsən Sizə cansağlığı və səadət, Azərbaycan xalqına firavanlıq arzulayıram.

Süleyman DƏMİRƏL,
Türkiyə Cümhuriyyətinin
Prezidenti
27 may 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "CEYLAN-TV" TELEKANALINA MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev mayın 26-da Antalya şəhərində, onun üçün ayrılmış iqamətgahda Türkiyənin "Ceylan-TV" telekanalının müxbiri Nagəhan Akbuluta müsahibə vermişdir.

Müxbir: Sayın Cümhurbaşkanı, xoş gəlmisiniz. Sağlamlığınız necədir, özünüzü necə hiss edirsiniz?

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Sağlamlığım indi yaxşıdır. Yəni mən Amerikadan Türkiyəyə, Ankaraya gələndən, - Ankaraya mayın 20-də gəldim,- səhhətim gündən-günə daha da yaxşılaşır. Bilirsiniz ki, mən Ankarada həm dincəlirdim, həm də bir çox görüşlər keçirdim, əhəmiyyətli görüşlərim oldu. Buraya gələndən sonra isə daha da yaxşıyam. Bura çox gözəl bir yerdir. Bu gün dünənkindən də çox yaxşıyam. Hər halda mən çox məmnunam.

Sual: Sayın Əliyev, Cümhurbaşkanı Süleyman Dəmirəl Sizi burada ziyarət edəcək. Dəmirəl Sizə "qədim dostum" deyir. Siz isə ona "hörmətli qardaşım" deyirsiniz. Bu iki dövlət adamı arasında dostluq necə yarandı?

Cavab: Bilirsiniz, hörmətli Süleyman Dəmirəl ilə mənim dostluğum həqiqətən qədimdir. Bu dostluğun təxminən 32 yaşı var.

Hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş naziri kimi Sovetlər Birliyinə ziyarətə gəlmişdi. Bu, 1967-ci ildə olmuşdur. O, Moskvaya gələndən sonra istəmişdi ki, Azərbaycanı da gəlib görsün. O, Azərbaycana gəldi, biz onu qarşıladıq və Azərbaycanda, Bakıda olduğu zaman mən hər dəqiqə onunla bərabər oldum. O vaxt biz birbirimizlə tanış olduq. Baxmayaraq ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər birliyinin içində bir cümhuriyyət idi, müstəqilliyimiz, yəni səlahiyyətimiz yox idi, ancaq tanışlıq çox yaxşı, gözəl oldu. Ondan

sonrakı dövrdə bizim əlaqə saxlamağa imkanımız olmadı.

Mən 1990-cı ildə Moskvadan Azərbaycana, Bakıya döndüm, oradan isə Naxçıvana getdim. 1991-ci ildə məni Naxçıvanın başçısı seçdilər. Ondan sonra Süleyman bəy məni axtardı, mən də onunla danışdım.

Bilirsiniz ki, Naxçıvan Azərbaycanın özəl cümhuriyyətidir və torpağı Azərbaycanın böyük hissəsindən ayrıdır. Yəni Azərbaycanın böyük hissəsi ilə Naxçıvan torpağının arasında Ermənistan - Azərbaycan münaqişəsi, savaşı getdiyinə görə Naxçıvan üçün Azərbaycandan, Bakıdan gələn bütün elektrik xətləri, qaz borusu və sairə - Ermənistanın ərazisindən keçən bu xətlərin hamısı kəsilmişdir. Naxçıvan blokada vəziyyətində çox ağır şəraitdə yaşayırdı.

O vaxt hörmətli Süleyman Dəmirəl Naxçıvana çox yardım etdi. Həm Azərbaycan üçün, o cümlədən Naxçıvan üçün, həm də Türkiyə üçün 1991-1992-ci illərdə ən böyük iş ondan ibarət oldu ki, Türkiyə ilə Azərbaycan arasında ilk körpü yarandı. Bu körpünü də Süleyman Dəmirəlin rəhbərliyi ilə Türkiyə yaradırdı. Bu iş qısa müddətdə görüldü, yəni 1991-ci ilin may ayında başa çatdı. Beləliklə bir körpü yaratdıq. Bu körpünü yaradan zaman hörmətli Süleyman Dəmirəl məni Ankaraya dəvət etdi. Mən bir-iki dəfə Ankaraya gəldim, onunla görüşdük. Naxçıvanda vəziyyət çox ağır və çətin idi. Ona görə Naxçıvana maddi yardım lazım idi. Mən müraciət etdim və hörmətli Süleyman bəy Naxçıvana çox yardım etdi - həm kredit ayırdı, həm ərzaq, yeyinti məhsulları - ət, şəkər göndərdi.

May ayının 28-i Azərbaycanın istiqlaliyyət günüdür. 1992-ci ilin bu günündə biz Azərbaycanla, Naxçıvanla Türkiyə arasında olan həmin körpünü açdıq. Bu da tarixi bir hadisə oldu. Hörmətli Süleyman Dəmirəl bir qrup - 10-15 nazirlə, 60 millət vəkili ilə birlikdə təyyarə ilə Naxçıvana gəldi. Naxçıvanın tarixində heç zaman belə bir hadisə olmamışdı ki, Türkiyə Cümhuriyyətinin, yaxud da başqa bir dövlətin Cümhurbaşkanı, yaxud hansısa bir ölkənin böyüyü Naxçıvana gəlmiş olsun. Naxçıvan ayağa qalxdı. Qonaqlara böyük hörmət etdilər, qarşıladılar və birlikdə körpünü açdıq. Körpünün açılışında Naxçıvan camaatı Araz çayının kənarına toplaşmışdı. Buraya Türkiyənin Ərzurum, Qars, İqdır, Diyarbəkir, Muğan və digər vilayətlərindən insanlar axıb gəlmişdi. Orada on minlərlə adam var idi, çox böyük canlanma var idi. Çox da gözəl oldu. Biz bu körpünü açdıq və bundan sonra da bizim əlaqələrimiz həmişə davam edirdi. Bəli, bu şəxsi dostluğumuz bizim dövlətlərimizin, xalqlarımızın arasında olan dostluğun yaranmasına, inkişafına yardım etdi.

1993-cü ildə isə, bilirsiniz, mən Naxçıvandan Bakıya qayıtmalı oldum, Azərbaycanın Prezidenti, Cümhurbaşkanı seçildim. Ondan sonra biz daim əlaqədəyik, çox tez-tez

telefonla danışırıq, görüşürük, mən buraya gəlirəm, hörmətli Süleyman Dəmirəl Azərbaycana gəlir. Hansı bir ölkəyə tədbirdə iştirak etməyə getsək, biz mütləq görüşürük. **Bu dostluq Türkiyə - Azərbaycan dostluğunun rəmzidir. Bu dostluq elə bir dostluqdur ki, mən inanmıram ki, dünyada buna bənzər bir dostluq olsun.**

Məsələn, mən yanvar ayında xəstələnəndə o, gecə ikən Bakıya təyyarə ilə həkimlər göndərdi. Məni Ankaraya gətirdilər. Mən iki həftə burada Gülhanə xəstəxanasında müalicə olunduqdan sonra vətənə getdim.

Sonra isə biz Vaşinqtonda NATO-nun toplantısında iştirak edirdik. Orada da bərabər idik, görüşürdük, danışırdıq. NATO-nun toplantısı bitəndən sonra mənə dedilər ki, müayinədən keçmək lazımdır. Klivlendə gedib bunu edəndən sonra dedilər ki, cərrahiyyə əməliyyatı lazımdır. Mən də dedim ki, əməliyyat lazımdırsa edin. Amma o dəqiqədən də, yəni biz Klivlend klinikasına gedəndən sonra yenə də mənim həyatım hörmətli qardaşım Süleyman Dəmirəlin nəzarəti, qayğısı, diqqəti altındadır. Əməliyyat dövründə də mənim səhhətimə buradan nəzarət etmişdir, əməliyyat bitəndən sonra nəticəni soruşmuşdur. Ürəyimdə cərrahiyyə əməliyyatı aparan cərrah Brüs Laytla bir neçə dəfə telefonla danışmış, mənə çox böyük hörmət və qayğı göstərmişdir.

Nəhayət, məni əməliyyatdan sonra Türkiyəyə dəvət etmişdir.

Bax bizim dostluğumuz haqqında saatlarla danışmaq olar. Amma güman edirəm, bu dediklərim bizim dostluğumuzun mənasını, tarixini Sizin üçün tamamilə aydınlaşdırdı.

Sual: Cənab Prezident, Sizin dövlət adamı olmağınızdan başqa, bizim üçün Əliyevin ailəsi barədə də məlumat almaq maraqlıdır. Bir qədər də ailəniz, nəvələriniz barədə danışa bilərsinizmi?

Cavab: Danışaram. Mənim iki övladım vardır: oğlum İlham, qızım Sevil. Sevilin üç uşağı- bir qızı, iki oğlu vardır. İlhamın da üç uşağı -iki qızı, bir oğlu vardır. Bunlar mənim nəvələrimdir. İlhamın son uşağı 1997-ci ildə anadan olub. O vaxt mən Amerika Birləşmiş Ştatlarına, ABŞ-ın Prezidenti, Cümhurbaşkanı Bill Klintonun dəvəti ilə Vaşinqtona rəsmi ziyarətə getmişdim. Mən Vaşinqtona ziyarətimi bitirdim, sonra Hyüstona getdim. Orada olanda mənə xəbər verdilər ki, İlhamın uşağı olubdur, oğlandır, onun da adını Heydər qoyduq. İndi bizim ailəmizdə iki Heydər vardır. Mən övladlarımı, nəvələrimi çox sevirəm, onlar da məni çox sevirlər. İlhamın uşaqları bu axşam buraya gələcəklər. İndi İlham mənim yanımdadır, uşaqları da gələcəklər və mənimlə burada olacaqlar. Mən onda daha da rahat olacağam. Çünki onları mən çox sevirəm. Onlarla bərabər olanda daha da ruhlanıram, daha da sevinirəm, daha da rahat istirahət edirəm.

Sual: Cənab Prezident, Bakı -

Ceyhan neft boru xəttinin hazırkı vəziyyəti barədə nə deyə bilərsiniz?

Cavab: İndi bu, çox normal vəziyyətdədir. Ən əsası odur ki, biz dörd ildən çoxdur Bakı - Ceyhan boru xəttinin yaranması üçün çalışırıq. 1994-cü ildə biz ilk neft şirkəti müqaviləsini imzaladıq. Dünyanın 11 böyük neft şirkəti bir konsorsium yaradıb Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə, anlaşma imzaladılar. Bu müqavilə Azərbaycanın Xəzər dənizində olan bölgəsində üç zəngin neft yatağından - "Azəri", "Çıraq", "Günəşli" neft yataqlarından 30 il müddətində neft çıxarılmasına bərabərdir. O vaxt biz çalışdıq ki, bu neft dünya bazarlarına Türkiyə ərazisindən keçərək çatdırılsın. Həmin müqaviləni imzalayanda biz müqavilədə yazdıq və hamı da imza atdı ki, bunun üçün bir neft boru xətti lazımdır, bu da Türkiyədən keçməlidir və Bakı - Ceyhan neft boru xətti olmalıdır.

Ancaq sonrakı illər bu layihəni həyata keçirmək o qədər də asan olmadı. Çünki siz bilirsiniz ki, bir çox ölkələr Xəzər dənizinə böyük maraq göstərirlər. Xəzər zəngin bir dənizdir. Xəzər dənizində Azərbaycanın çox zəngin neft-qaz yataqları vardır. Ona görə də bizə qarşı bir çox təzyiqlər oldu və Bakı - Ceyhan boru xəttinin mümkün olmadığını bildirdilər, - yəni bu olmayacaqdır, qoymayacağıq və sair. Ancaq bu illər ərzində biz çox çalışdıq. Mən - bu işə rəhbərlik edən bir adam - Azərbaycanda bütün bu maneələrin, çətinliklərin arasından keçdik, gəldik və nəhayət, keçən il Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi günü - oktyabrın 29-da Ankarada biz - Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın, Özbəkistanın dövlət başçıları böyük bir bəyannamə imzaladıq. Buna Amerika da qoşuldu. ABŞ-ın Enerji naziri cənab Riçardson da bu sənədə imza atdı. Beş ölkənin Prezidentləri, Cümhurbaşkanları bəyannamə imzaladılar ki, biz Azərbaycan neftinin əsas hissəsini Bakı - Ceyhan boru xətti ilə keçirəcəyik və Bakı - Ceyhan boru xətti yaradılacaqdır.

Bu, çox önəmli oldu. Çünki biz bütün mühüm problemləri çözdük, onları həll etdik. Onlar arxada qaldı. Sonra bunun maliyyə, texniki məsələləri vardır. O vaxtdan bu işlər gedir. Güman edirəm, bir-iki aya qədər bu işlər bitəcəkdir. Bakı - Ceyhan boru xətti yaranacaq və Xəzər dənizində olan neft yataqlarından, təkcə Xəzərin Azərbaycan sektorunda yox, Qazaxıstan, Türkmənistan sektorunda da olan neft yataqlarından çıxarılan neft bu boru xətti, kəməri ilə Ceyhan limanına axacaq və oradan da dünya bazarlarına çıxacaqdır. Bu, tarixi bir hadisədir, tarixi bir işdir. Bunu da biz həm indiki nəsillər qarşısında, həm də gələcək nəsillər qarşısında özümüzə borc bilərək edirik, həyata keçiririk.

Sual: Cənab Prezident "Atatürk Beynəlxalq Sülh Mükafatı"nı almağınızdan hansı hissləri keçirirsiniz?

Cavab: Bilirsiniz, bu, mənim üçün böyük iftixar hissidir. Bu, Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatıdır və mənim üçün çox önəmlidir ki, bu, Mustafa Kamal Atatürkün adını daşıyır və Mustafa Kamal Atatürkün adına olan, barış üçün verilən mükafatdır. Məni bu, həddən ziyadə sevindirdi, məmnun etdi. Yenə deyirəm, böyük qürur duyuram. **Mustafa Kamal Atatürk mənim üçün müdriklik rəmzidir, qəhrəmanlıq rəmzidir, mənəviyyat, insanlıq rəmzidir. Mustafa Kamal Atatürk türk dünyası üçün əziz bir insandır. XX əsrdə dünyada siyasət, dövlət adamlarının içində ən böyüklərindən biridir. Biz Mustafa Kamal Atatürklə fəxr edirik ki, ümumtürk dünyasının belə böyük bir insanı vardır və dünya xalqları içərisində ona görə bizim adımız vardır.** Buna görə də Mustafa Kamal Atatürk adına mükafatın mənə verilməsi mənə göstərilən böyük hörmətdir, mənim fəaliyyətimə, o cümlədən sülh, barış fəaliyyətimə verilən böyük qiymətdir. Bu, Türkiyə - Azərbaycan dostluğunun daha da inkişaf etməsi üçün böyük bir hadisədir. Mən bunu böyük qürur hissi ilə qəbul etdim.

Atatürk Mükafatı Komissiyasının üzvlərinə minnətdaram, təşəkkür edirəm. Xüsusən mənim əziz dostum, qardaşım Süleyman Dəmirələ minnətdaram ki, mənə bu qədər hörmət göstərilib, bu qədər mükafat mənə verilibdir. Mən çox məmnunam.

Sual: Hörmətli cənab Prezident, burada istirahətiniz necədir?

Cavab: Bilirsiniz, mən Türkiyəyə hörmətli dostum, Cümhurbaşkanı Süleyman Dəmirəlin dəvəti ilə gəlmişəm. O, məni dəvət etdi ki, Türkiyəyə gəlim və Antalyada dincəlim. Amma o, hər il məni dəvət edir. Deyir ki, burada çox gözəl yerlər vardır, gəl istirahət et. Mən istirahət etməyə gələcəkdim. Ancaq imkanım olmur. İl bitdi, deyiram, gələn il gedəcəyəm. Amma indi qismət bu imiş ki, istəməsəm də, istəsəm də, dincəlməliyəm. Ona görə də mən hörmətli Süleyman Dəmirəlin bu dəvətini məmnuniyyətlə qəbul etdim. Ankaraya gəldim və onunla görüşlər keçirdik. O dedi ki, mütləq Antalyaya getməlisən. Nəhayət, dünən buraya gəldim.

Bura bir möcüzədir, cənnətin bir parçasıdır, gözəl bir yerdir. Mən heç də bunu belə təsəvvür etmirdim. Allah Türkiyə xalqına belə gözəl yerlər bəxş edibdir. Bu da Allahın işidir. Bura çox gözəl bir yerdir. Mən bura gəlməyimdən çox məmnunam.

Ancaq dünyada təbiətin gözəl yerləri çoxdur. Bütün dünyanı, yer kürəsini götürsək, təbiətin gözəl yerləri çoxdur. O gözəl yerləri isə insanlar daha da gözəlləşdirirlər, insanların istifadə etməsi üçün onu daha da yuxarılara qaldırırlar, gözəl, yaxşı edirlər. Bu baxımdan burada Türkiyənin insanları, hökuməti gözəl işlər görüblər və indi Antalyada mənə bu şəhərin valisi, dostlarım söylədilər ki, bura dünyanın hər yerindən nə

qədər insan gəlir, dincəlirlər. O cümlədən, Azərbaycandan da çox gəlirlər. Azərbaycandan gələn adamlar mənə çox söyləmişlər ki, bura dünyanın ən gözəl bir yeridir və burada dincəlmək üçün gözəl imkanlar yaradılıbdır.

Mən buraya gəldim. İndi Antalyanın hər yerini görmüşəm. Amma təsəvvür etmirəm ki, bu Ceylanlar qardaşlarının yerindən də gözəli olsun. Dünən axşam çıxıb burada gəzdik, ətrafa baxdıq, gördük. Otelə baxdım, digər yerlərə baxdım. İnsanın normal, gözəl istirahət etməsi üçün burada bütün şəraitlər vardır, yaradılıbdır və Ceylanlar qardaşları burada çox böyük işlər görüblər, zövqlə görüblər.

Bilirsiniz, bizim üçün - Azərbaycan, Türkiyə üçün Avropa, xarici örnək olubdur. Orada hər şey daha da yüksək keyfiyyətlidir. Tarixən belə olubdur. Biz çox şeyləri də oradan götürmüşük. Amma dünyanın hansı ölkəsindən gəlirsən gəl, hansı padşah, kral gəlirsə-gəlsin, buradan, yəni burada dincəlmək üçün yaranan imkanlardan gözəl yer görə bilməyəcəkdir.

Mən otelə baxdım, necə gözəl bir oteldir! İnsanların dincəlməsi üçün onun ətrafında hər bir şərait yaradılıbdır. Mən yaşadığım bu Ceylanlar qardaşlarının evi də bir xatirədir, gözəl bir şeydir. Ona görə çox məmnunam ki, mən buraya gəlmişəm.

Söyləyim ki, dünən mən buraya gələndən sonra özümü daha da yaxşı hiss edirəm. Əməliyyatdan sonra mən indiyə qədər özümü bu qədər gözəl hiss etməmişdim. Özü də bir günün içərisində. Buranın həm havasından, şəraitindən və ən əsası - burada mənə göstərilən yüksək qardaşlıq, dostluq qonaqpərvərliyindən çox məmnunam. Çox-çox təşəkkür edirəm.

Müxbir: Biz Sizə burada daha uzun müddət xidmət göstərməyə hazırıq və bundan şərəf duyuruq.

Prezident Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Sizin televiziya kanalına uğurlar diləyirəm. Sizin televiziya vasitəsilə bütün Türkiyə Cümhuriyyətinin vətəndaşlarına hörmətimi, sevgimi, ehtiramımı bildirirəm və hər bir kəsə uğurlar diləyirəm.

"Azərbaycan" qəzeti, 28 may 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASINA MÜSAHİBƏSİ

28 may 1999-cu il.

Müxbir: Sevimli tamaşaçılar, axşamınız xeyir olsun. Burada, Antalyada Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin qonağıyıq. Möhtərəm Cümhurbaşkanı, çox təşəkkür edirik ki, bizi qəbul etdiniz. Çətin bir əməliyyata məruz qaldınız, amma çox yaxşı görünürsünüz. İndi sağlamlığınız necədir?

Heydər Əliyev: Yaxşıyam. Türkiyəyə, Antalyaya gələndən sonra günü-gündən yaxşılaşıram. Səhhətim tam yaxşılaşıbdır.

Sual: Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının 81-ci ildönümünü bayram edir. Siz bu münasibətlə xalqa müraciət etdiniz. Bu barədə duyğu və düşüncələrinizi söylərdinizmi?

Cavab: Mən dünən sizin televiziya vasitəsilə buradan birbaşa Azərbaycana və Respublika sarayında toplaşmış Azərbaycan vətəndaşlarına milli bayramımız - 28 May günü, istiqlaliyyət günü münasibətilə təbriklərimi bildirdim, qəlbimdə olan sözləri bütün Azərbaycan vətəndaşlarına çatdırdım. Sizə təşəkkür edirəm ki, "Samanyolu" televiziyası bu işi təşkil etdi. Eyni zamanda Sizin televiziya kanalınız mənim xalqa dünənki müraciətimi Türkiyəyə yaydı, Azərbaycana yaydı. Buna görə Sizə təşəkkür edirəm.

Bu gün bizim istiqlaliyyət bayramımızdır. Mən səhərdən Azərbaycanla, Bakı ilə telefon əlaqəsi saxlayıram. Mənə məlumat verdilər ki, istiqlal bayramı Bakıda, Azərbaycanın bütün şəhərlərində, hər yerdə böyük ruh yüksəkliyi ilə qeyd olunur. İnsanlar sevinir, şadlanırlar ki, artıq səkkizinci ildir Azərbaycan müstəqil dövlətdir və müstəqillik şəraitində yaşayır. Dünən dediyim kimi, bu səkkiz il müddətində bir çox nailiyyətlər əldə olunubdur. Bunlara görə mən bu gün çox xoşbəxtəm, çox sevinirəm, həm də məmnunam ki, sizinlə yenidən görüşmüşəm.

Sual: Sayın Cümhurbaşkanı, çox təşəkkür edirəm. O məmnuniyyət bizə aiddir. Təbii ki, hər bir müstəqillik böyük zəhmətlə əldə edilir. Azərbaycan da müstəqilliyini qazanarkən xalqınız böyük fədakarlıq göstərdi. Azərbaycan müstəqil olaraq dünyada şərəfli yerini tutdu. Biz bundan çox məmnunuq.

Siz bu yaxınlarda "Atatürk Beynəlxalq Sülh Mükafatı"na layiq görülmüsünüz. Bununla əlaqədar duyğu və düşüncələrinizi bilmək istərdik.

Cavab: Mən çox xoşbəxtəm, çox böyük qürur hissi keçirirəm, çox fəxr edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatı - "Atatürk Beynəlxalq Sülh Mükafatı" verilibdir. Mən həyatımda çox mükafatlar almışam. Keçmişdə, Sovetlər Birliyində bu böyük dövlətin ən yüksək mükafatlarını almışam, bir neçə başqa dövlətlərin də mükafatlarını almışam.

Ancaq böyük Mustafa Kamal Atatürkün adını daşıyan bu sülh mükafatı mənim üçün həyatımda aldığım mükafatların hamısından qiymətlidir, üstündür və hamısından şərəflidir. Mən çox məmnunam ki, Türkiyə Cümhuriyyətinin Atatürk Mükafatı Komitəsi böyük araşdırmalardan sonra mənim Azərbaycanda gördüyüm işlərə, Azərbaycanın Prezidenti kimi fəaliyyətimə və xüsusən Azərbaycanda sülhün, əmin-

amanlığın yaranmasında gördüyüm işlərə və fəaliyyətimə yüksək qiymət veribdir və mani bu mükafatla təltif ediblər. Mən çox minnətdaram ki, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl bu komitənin çıxardığı qərarı təsdiqləyib, beləliklə, mənə bu mükafatın verilməsi elan olunubdur.

Bilirsiniz ki, Azərbaycan on bir il bundan öncə Ermənistanın təcavüzü nəticəsində hərbi münaqişəyə qatılıbdır. 1988-ci ildən 1994-cü ilin may ayına qədər Azərbaycan döyüşlər, müharibə içərisində idi. Azərbaycan bu döyüşlərdə çox itkilər verdi, çox qanlar töküldü. 1994-cü ilin may ayında biz Ermənistanla atəşkəs haqqında saziş imzaladıq. Beləliklə, beş ildən artıqdır ki, xalqımız atəşkəs şəraitində yaşayır.

Siz onu da bilirsiniz ki, təkcə atəşkəslə iş bitmir. Bildiyiniz kimi, Azərbaycanın daxilində də çox çarpışmalar, çəkişmələr, toqquşmalar vardı.

Müxbir: Zati-aliniz Cümhurbaşkanı seçildikdən sonra Sizin ilk məqsədiniz Azərbaycanın daxilində sabitlik yaratmaq oldu.

Heydər Əliyev: Bəli. Bilirsiniz ki, 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başladı, insanlar bir-birinə qarşı durdular, qan töküldü. Azərbaycan artıq parçalanırdı. Bu zaman məni Naxçıvandan Bakıya dəvət etdilər. Bakıya gəlib bir həftə məsələləri öyrənəndən sonra razılıq verdim ki, məni Azərbaycan Milli Məclisinin sədri seçsinlər. Bir neçə gündən sonra isə Azərbaycan Prezidentinin səlahiyyətləri mənə verildi. 1993-cü il oktyabr ayının 3-də isə mən Azərbaycanın Prezidenti seçildim.

O vaxt Azərbaycanda vəziyyətin necə olduğunu siz yaxşı bilirsiniz. Çünki bilirəm ki, siz hələ 1992-ci ildən Azərbaycandaydınız - sizi həm Bakıda, həm də Naxçıvanda görmüşdüm. Çox ağır vəziyyət idi. Bir tərəfdən, ermənilərlə müharibə gedirdi. İkinci tərəfdən Azərbaycanın daxilində sabitlik yox idi, ayrı-ayrı qanunsuz silahlı dəstələr, ayrı-ayrı insanlar hakimiyyət uğrunda mübarizə aparırdılar, beləliklə də ermənilərə fürsət verirdilər ki, onlar daha da irəliləsinlər, daha da torpaqlarımızı işğal etsinlər.

Ona görə mənim üzərimə çox böyük vəzifələr düşdü. Bir tərəfdən, mən gərək Azərbaycanın torpaqlarının qorunmasını təmin edəydim. Amma Azərbaycanın daxilində vəziyyəti normallaşdırmasaydıq, yəni ictimai-siyasi sabitlik yarada bilməsəydik, bunu əldə edə bilməzdik. Bu da asan bir şey deyildi. Bunun üçün biz çox çalışdıq. Bir neçə il - 1993-cü ildə, 1994-cü ildə, 1995-ci ilə qədər daxili məsələlərimizin normallaşması, sabitliyin əldə edilməsi üçün çalışdıq. Çünki 1993-cü ildə vətəndaş savaşının qarşısını alandan sonra, 1994-cü ilin oktyabr ayında da Azərbaycanda yeni bir silahlı dövlət çevrilişi cəhdi oldu. Ondan sonra, 1995-ci ilin mart

ayında OMON dəstəsi silahla ayağa qalxdı. Azərbaycanın hakimiyyətini, Prezidentini məhv etmək, devirmək istədilər. Bunların da qarşısını aldıq.

Ondan sonra bir neçə terror, təxribat aktları oldu. Bunların da qarşısını aldıq. Nəhayət, 1995-ci ilin sonundan başlayaraq Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdik. Bu gün, bayram günü mən onu deyə bilərəm ki, bu illərdə bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik yaratdıq. Bu sabitlik də gündən-günə möhkəmlənir və hesab edirəm ki, Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi üçün bu, ən əsas şərtdir. Biz buna nail olmuşuq.

Sual: Yəni ən əvvəl daxili sabitlik gərəkdir. Çünki bütün dünyanın gözü müstəqil Azərbaycan dövlətində idi.

Cavab: Bəli. Ona görə də mən daxildə sülh yaratdım. Həm də ki, ermənilərlə atəşkəs əldə etdim. Böyük Mustafa Kamal Atatürk demişdir: "Yurdda sülh, cahanda sülh". Mən yurdda sülh yaratdım, cahanda da sülhün yaranması üçün bütün səylərimi qoyuram.

Sual: Zati-alilərinin sayəsində Ermənistanla imzalanmış atəşkəs sazişi sülh üçün çox önəmli köməkdir. Hörmətli Cümhurbaşkanı, bundan sonra sülh üçün nə iş görülür?

Cavab: Biz atəşkəs sazişi imzaladıq ki, Ermənistan - Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Beş ildir ki, biz bu barədə çalışırıq.

Bilirsiniz ki, 1992-ci ildə ATƏT Ermənistan - Azərbaycan münaqişəsinin həll edilməsi üçün Minsk qrupu yaradıbdır. Minsk qrupunun da həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon Zirvə görüşündə böyük bir nailiyyət əldə etdik. O da ondan ibarətdir ki, 54 dövlətdən 53-ü səs verdi ki, Ermənistan - Azərbaycan münaqişəsi hansı prinsiplər əsasında həll oluna bilər.

Bu, bizim üçün çox önəmlidir. Azərbaycanın ərazi bütövlüyü o deməkdir ki, Azərbaycanın işğal edilmiş 20 faiz torpağı azad olunmalıdır, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz elinə-obasına qayıtmalıdır. Təhlükəsizlik də ondan ibarətdir ki, daha müharibə olmamalıdır. Dağlıq Qarabağa Azərbaycan dövlətinin daxilində yüksək dərəcəli özünüidarə statusu verilməsi normal bir şeydir.

Ancaq ermənilər bunu qəbul etmədilər. 1997-ci ildə, 1998-ci ildə bunu qəbul etmədilər. Baxmayaraq ki, Lissabonda ATƏT-in 54 üzvündən 53-ü bu prinsiplərə səs verdi, ancaq Ermənistan etiraz etdi.

Ondan sonra yeni danışıqlar aparırıq. Bilirsiniz ki, mən son vaxtlar Ermənistanın Prezidenti ilə də görüşmüşəm. Rusiyanın Prezidenti, Fransanın Prezidenti ilə görüşmüşəm, Amerikanın Prezidenti Klintonla görüşmüşəm və hər biri söz verir ki, onlar çalışırlar və bundan sonra

da çalışacaqlar ki, məsələnin sülh yolu ilə həllinə nail olsunlar. Hətta Amerikanın Prezidenti cənab Bill Klinton Vaşinqtonda mənimlə danışarkən belə bir söz dedi ki, 2000-ci ildə Prezidentlik səlahiyyətim bitir. Hesab edirəm ki, mənim əsas vəzifələrimdən biri Prezidentlik səlahiyyətim bitənə qədər Ermənistan - Azərbaycan münaqişəsini, Qarabağ məsələsini həll etməkdən ibarətdir. Mən bunu sizə söz verirəm.

Mən çox məmnun oldum, çünki onların bu işdə fəallığı, əlbəttə ki, məsələnin həll edilməsinə gətirib çıxara bilər.

Sual: Sayın Cümhurbaşkanı, Azərbaycan çox çətin günlərdən keçərək bu gözəl günlərə gəldi, müstəqil dövlətdir. Bizim indiki canlı yayımımız Azərbaycandakı türk məktəblərinin növbəti dərs ilinin başa çatması münasibətilə Bakıda toplaşan uşaqlar və onların valideynləri tərəfindən də izlənilir. Mən bu barədə də sualımı verəcəyəm.

İndi isə soruşmaq istərdim ki, Azərbaycanın gələcəyini necə təsəvvür edirsiniz?

Cavab: Azərbaycanın gələcəyi mənim üçün çox açıq görünür. Birincisi, Azərbaycanın müstəqilliyi - bu, əsas şərtdir. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və onu dönməz, əbədi etmək bizim əsas vəzifəmizdir. Səkkizinci ildir ki, Azərbaycan müstəqillik dövrünü yaşayır. Altı ildir ki, mən Azərbaycana rəhbərlik, Prezidentlik edirəm. Qürur hissi keçirirəm ki, bu illərdə, ağır illərdə, Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına xalqla, millətlə birlikdə, bütün ölkə ilə birlikdə nail ola bilmişəm. Bu, mənim gördüyüm ən böyük işlərdəndir.

Azərbaycanın gələcəyi də bununla bağlıdır. Azərbaycanın imkanları böyükdür ki, müstəqil yaşayanda iqtisadiyyatı inkişaf etsin, insanların rifah halı yaxşılaşsın, Azərbaycanın mədəniyyəti, elmi, təhsili inkişaf etsin. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm, çox gözəl. Əgər biz Ermənistan - Azərbaycan münaqişəsini tezliklə həll edə bilsək, bölgəmizdə sülh yarada bilsək, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edə bilsək, soydaşlarımızın öz yerinə-yurduna qayıtmasını təmin edə bilsək, ondan sonra Azərbaycanın bütün problemlərini çox gözəl və asanlıqla həll edəcəyik.

Müxbir: Azərbaycanın üfüqü, önü açıqdır...

Heydər Əliyev: Üfüqü açıqdır, önü açıqdır. Azərbaycan irəliyə gedir, dünyanın ən gözəl dövlətlərindən biri olacaqdır. Elə indi də Azərbaycan dünya birliyində, dünya dövlətləri içərisində öz yerini tutubdur. Azərbaycana böyük hörmət edirlər, maraq göstərirlər.

Azərbaycan dünyanın strateji nöqtələrindən biridir. Siz bilirsiniz, biz bu barədə çox işlər görürük. Qədim, tarixi İpək yolunun bərpa edilməsi sahəsində Azərbaycanın gördüyü işlər dünyada bu məsələnin canlanmasına, həll olunmasına gətirib çıxarıbdır. Məsələn, Yaponiya hökuməti İpək yolu haqqında qərar çıxarıb. Yaxud, Amerika senatoru Braunbek İpək yolu haqqında qanun layihəsi hazırlayıbdır ki, Konqresdə İpək yolu barədə qərar qəbul olunsun. Bu işlərin əsasını, təməlini biz Azərbaycanda qoymuşuq.

Sual: Bir az öncə buyurdunuz ki, Azərbaycan dövlətinə etibar edilir. Demək istəyirəm ki, Azərbaycan dövləti Zati-alilərinizin rəhbərliyi sayəsində bu nöqtəyə gəldi. İki gündür ki, Sizin qonağınızıq, təşəkkür edirik. Fikir verirəm ki, Siz hər an, hər dəqiqə bütün dünya ilə əlaqə saxlayırsınız. Mətbuat vasitəsilə, telefonla əlaqə saxlayırsınız. Burada davamlı olaraq Azərbaycanla bağlı yeni layihələr üzərində çalışırsınız.

Cavab: Bəli, tamamilə doğru deyirsiniz. Yeni layihələr üzərində çalışıram və əminəm ki, bu layihələrin hamısını həyata keçirə biləcəyik.

Sual: İnşallah, inanırıq ki, belə də olacaqdır. Sayın Cümhurbaşkanı, Amerikada da bir müddət oldunuz, oraya da işlər görmək üçün getmişdiniz. Hörmətli Klintonla, başqa liderlərlə görüşdünüz.

Bu sualı çox vermişəm, izin versəydiniz, bir də soruşardım. Bakı - Ceyhan boru xətti məsələsində son vəziyyət necədir?

Cavab: Mən Amerikaya NATO-nun toplantısına, Zirvə görüşünə getmişdim. Bu, çox önəmli bir hadisədir. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak edir. Bu proqram çərçivəsində biz NATO ilə çox geniş əməkdaşlıq edirik. Bu əməkdaşlıqdan, işbirliyindən də çox məmnunuq. Məsələn, iki-üç gün bundan öncə NATO-nun böyük bir heyəti, altmış nəfər NATO-nun Baş katibinin köməkçisinin rəhbərliyi ilə Azərbaycana gəlmişdi. Bir neçə gün Azərbaycanda olmuş, 8 ölkənin təmsilçilərini dəvət edib "Sülh naminə tərəfdaşlıq" proqramının irəlilədilməsi üçün tədbirlər görmüşlər. Bunu gəlib Azərbaycanda ediblər. Azərbaycana 8 ölkədən təmsilçilər gəlibdir. Bu, Azərbaycanla NATO arasında əlaqələrin nə qədər yaxşı inkişaf etməsini göstərir.

Mən Vaşinqtonda NATO-nun bütün mərasimlərinə qatıldım, bütün görüşlərdə oldum. NATO-nun Zirvə görüşündə mən Azərbaycan adından söz dedim, münasibətimizi bildirdim, NATO-nun yeni strateji konsepsiyasını dəstəkladım.

Amma NATO-nun toplantısından iki-üç gün öncə də və ondan sonra da Vaşinqtonda çox görüşlər keçirdim. Prezident cənab Bill Klintonla, Dövlət katibi xanım Olbraytla, bir çox senatorlarla, nazirlərlə, konqresmenlərlə görüşdüm. Biz orada Amerikanın böyük şirkətləri ilə üç yeni neft müqaviləsi imzaladıq. Beləliklə, 1994-cü ildən indiyə qədər Azərbaycan neft şirkətləri ilə 19 müqavilə imzalayıbdır.

Sonuncu üç müqaviləni Amerika senatının binasında senatorların,

konqresmenlərin iştirakı ilə imzaladıq. Bu, çox önəmli bir hadisədir.

Başqa görüşlərimiz də oldu. Məsələn, Amerikanın Dövlət katibi xanım Olbrayt Qafqaz dövlətlərinin Prezidentlərini - Gürcüstan, Azərbaycan, Ermənistan Prezidentlərini bir yerə topladı, bir neçə ölkənin Xarici İşlər nazirləri ilə birlikdə Qafqazda işbirliyi haqqında, müştərək işlər görülməsi haqqında məsələlər müzakirə edildi. Sonra Ermənistanın Prezidenti ilə görüşdüm. Bir çox başqa işlər də gördük.

Bunları bitirəndən sonra isə dedilər ki, səhhətimi yoxlamaq lazımdır. Mən o qədər də istəmirdim. Mənim indi bir doktorum var, Ərtan Dəmirtaş. O da Türkiyədəndir, gözəl bir insandır, paşadır, admiraldır, böyük bir kardioloq, professordur. O da Vaşinqtonda mənim yanımda idi və mənə dedi ki, mütləq lazımdır. Mən onun sözənə baxdım, getdim Klivlendə. Orada mənim səhhətimi yoxladılar, dedilər ki, əməliyyat lazımdır. Dedim ki, lazımdır, lazımdır - əməliyyatı keçirdim. Sizə bunları demək istədim.

Sualınız Bakı - Ceyhan boru xətti barədədir. Bakı - Ceyhan neft kəməri haqqında qərarı biz 1994-cü ildə ilk müqaviləni imzalayanda yazmışıq. Amma sonrakı dövrdə bu layihəni keçirmək üçün çox maneələrlə, etirazlarla rastlaşdıq. Bəzi ölkələr tərəfindən bizə təzyiq edildi, çox çətin oldu. Son olaraq konsorsium üzvləri də Bakı - Ceyhan xəttinin baha olduğunu bəyan edərək dedilər ki, Azərbaycandan, Xəzər dənizindən çıxarılan nefti dünya bazarına hələlik iki boru xətti ilə daşımaq olar: biri Bakı - Novorossiysk kəməri ilə Rusiyanın Novorossiysk limanına, ikincisi də, - aprel ayının 17-də biz Bakıdan Gürcüstanın Qara dənizindəki Supsa limanına boru xəttini açdıq,- Bakı - Supsa kəməri ilə çatdırmaq olar.

Ancaq mən dedim ki, Bakı - Ceyhan neft kəməri barəsində 1994-cü ildən çalışıram. Nəhayət, keçən il oktyabr ayının 29-da Ankarada, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə böyük bir toplantıda idik, orada böyük bəyannamə imzaladıq. Onu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxstanın və Özbəkistanın Prezidentləri imzaladılar. Amerika Birləşmiş Ştatlarının Energetika naziri Riçardson da ona imzasını atdı. Beləliklə, biz Bakı - Ceyhan boru xəttinin reallaşmasını həyata keçirdik.

Ondan sonrakı aylarda bəzi maliyyə məsələləri, texniki məsələlər həll olunur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni konsorsium çox böyük qiymət göstərmişdi - 3.7 milyard dollar. Amma indi Türkiyənin bu işlə məşğul olan adamları, maliyyəçiləri, -onlar neçə vaxtdır Azərbaycanla danışıqlar, müzakirələr aparırlar, -bəyan edirlər ki, ola bilər, bunun qiyməti 2.4 milyard dollar olsun. Bu da tamamilə yaxşıdır.

İndi Türkiyədə yeni hökumət quruldu.

Müxbir: Quruldu, əfəndim. Hörmətli Baş nazirimiz Büləndt Ecevit ortaq partiyalarla bir protokol imzaladılar. Hörmətli Cümhurbaşkanımıza təklif ediləcək, yəni "hökumət quruldu" deyə bilərik.

Heydər Əliyev: Hörmətli Prezident Süleyman Dəmirəl bu gün mənə telefon etmişdi. Azərbaycanın istiqlaliyyət günü münasibətilə məni təbrik etdi, eyni zamanda dedi ki, hökumət artıq qurulur. Beləliklə, Türkiyədə hökumət qurulandan sonra Bakı - Ceyhan boru xəttinin bir çox məsələsini də tezliklə həll etmək mümkün olacaqdır.

Sual: Sayın Cümhurbaşkanı, canlı yayımımızdır, bayaq ərz etdiyim kimi, minlərlə Azərbaycan gəncinin də dərs ilinin qurtarması ilə əlaqədar mərasim keçirilir. Böyük Atatürkün göstərdiyi məqsədlər yönündə Azərbaycanda türk kolleclərı açıldı və ötən illərdə Sizin himayənizlə onlar beynəlxalq müsabiqələrdə Azərbaycan dövlətinin bayrağını ən yüksək nöqtədə dalğalandırdılar. Çox birinciliklər qazandılar. Təbii ki, bu gənclər böyük Azərbaycanın gələcəyində çox önəmli xidmətlər göstərəcəklər. Bu məktəblər barədə düşüncələrinizi söyləməyinizi rica edərdim.

Cavab: Bilirsiniz, Azərbaycanda türk məktəblərinin açılmasını mən hələ Naxçıvanda olarkən, hələ 1992-ci ilin əvvəllərində hiss etdim. Sizin adamlar Naxçıvana gəldilər, mənimlə görüşdülər. Naxçıvanda türk məktəbinin açılmasını rica etdilər, mən də bunu dəstəklədim və türk məktəbi açıldı.

Amma bu məktəblər Azərbaycanın başqa yerlərində də açılmağa başlamışdı. 1993-cü ildə mən Bakıya gələndən sonra Azərbaycanda türk məktəblərinin açılması haqqında mənə geniş məlumat verdilər. Mən bunu həmişə dəstəkləmişəm, buna yardım etmişəm, bu gün də edirəm, sabah da edəcəyəm.

Çünki bu məktəblər Azərbaycanın təhsil sistemində bir yenilik yaradır. Azərbaycanın təhsil sistemi keçmiş Sovetlər Birliyinin təhsil sistemidir. İndi biz o təhsil sistemində - həm orta məktəb təhsilində, həm ali, universitet təhsilində bir çox islahatlar həyata keçiririk və bundan sonra da keçirəcəyik. Ona görə də Türkiyənin məktəblərinin, kolleclərinin təcrübəsi Azərbaycan üçün lazımdır. Bu, birincisi.

İkincisi də, sizin bu məktəblərdə Azərbaycanın uşaqları, gəncləri təhsil alırlar, oxuyurlar. Bildiyimə görə, onların təhsil alması üçün çox gözəl şərait yaratmısınız. Onlara yaxşı təhsil verirsiniz. Bunun da nəticəsində onlar dünya olimpiadalarında medallar alırlar, gözəl yerlər tuturlar. Mənə məlumat verdilər ki, sizin məktəbləri bitirənlərin 99 faizi Azərbaycanın universitetlərinə qəbul olunurlar. Bu da böyük işdir, çox böyük işdir. Ona görə də mən sizə təşəkkürümü bildirirəm. Güman edirəm ki, siz Azərbaycanda bu işləri davam et-

direcəksiniz.

Müxbir: Sizin sayənizdə.

Heydər Əliyev: Bəli, mən sizə yardım edəcəyəm. Sizi də təbrik edirəm. Bu gün mənə dedilər ki, Bakıda, Respublika sarayında türk məktəblərinin məzunları toplaşıblar, onlar bizi dinləyirlər. Mən onların hamısını salamlayıram, əldə etdikləri nailiyyətlərə görə təşəkkür edirəm. Bu gənclərin, Azərbaycan gənclərinin hər birinə gözəl gələcək arzulayıram. Ali təhsil almağı, gələcəkdə yaxşı işləməyi və müstəqil Azərbaycanın irəliyə getməsində, inkişaf etməsində iştirak etməyi arzulayıram.

Sual: Sayın Cümhurbaşkanı, yayımımızda iştirak etdiyinizə görə çox təşəkkür edirəm. Bu anda Sizi həm türk xalqı, həm də Azərbaycan xalqı dinləyir. Sizi dinləyən minlərlə azərbaycanlı gəncə, Azərbaycan xalqına sözlərinizi eşitmək istərdik.

Cavab: Sizin televiziyanız vasitəsilə bu gün, Azərbaycanın istiqlaliyyət günü Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını bir daha təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına cansağlığı, səadət, bütün işlərdə uğurlar arzulayıram. Azərbaycanın gənclərini təbrik edirəm, onlara gələcəkdə xoşbəxt həyat, yaxşı təhsil və Azərbaycanın inkişaf etməsində fəal iştirak etmələrini arzulayıram.

Müxbir: Sayın Cümhurbaşkanı, yayımımızda iştirak etdiyinizə görə bir daha çox təşəkkür edirik. Bizə şərəf verdiniz, Sizi sağlam görüb çox sevindik. Bizi qəbul etdiyiniz üçün çox minnətdarıq.

Heydər Əliyev: Sağ olun, mən də bu görüşdən çox məmnunam. Xüsusən ona görə məmnunam ki, mənim buradan, -Türkiyədən, Antalyadan dediyim sözləri sizin televiziya vasitəsilə Azərbaycanda dinləyirlər. Dediniz ki, eyni zamanda Azərbaycan televiziyası vasitəsilə, elədirmi?

Müxbir: Elədir.

Heydər Əliyev: Mən bundan çox məmnunam. Mənim qəlbim Azərbaycandadır. Amma belə əlaqəni bütün Azərbaycanın vətəndaşları ilə yaratmaq dünən də mümkün oldu, bu gün də. Mən bundan çox məmnunam. Sizə təşəkkür edirəm, çox sağ olun.

İRANIN TÜRKİYƏDƏKİ SƏFİRİ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

İran İslam Respublikasının Türkiyədəki səfiri Məhəmməd Həsən Yəvasani mayın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Yəvasani dedi:

- Zati-alilərı, çox məmnunam ki, imkan tapıb məni qəbul edirsiniz. Ölkəmizin Prezidenti cənab Xatəmi Sizin ürəyinizdə cərrahiyyə əməliyyatı keçirilməsi xəbərini eşitdikdən sonra

mənə tapşırıq veribdir ki, Sizi burada ziyarət edim və onun xoş salamlarını Sizə yetirim. Gözləyir ki, mən ona Sizin özünüzü yaxşı hiss etməyiniz və səhhətinizin tam yaxşı olması barədə xəbərlər yetirim. Çox şadam ki, Sizi özünüzü çox yaxşı hiss etdiyiniz vəziyyətdə görürəm.

Cənab Prezident, bilirəm ki, bu gün səhər tezdən çalışırsınız, görüşlər keçirirsiniz. Bu, bir daha onu göstərir və məni də şad edir ki, Siz özünüzü çox sağlam hiss edirsiniz. Mən əminəm ki, bizim Prezidentimiz Sizin özünüzü gümrah hiss etməyiniz barədə xəbəri eşitdikdə çox şad olacaqdır.

Fürsətdən istifadə edərək, qardaşım səfir Məmməd Əliyevə təşəkkürümü bildirirəm ki, gün ərzində mənə qonaqpərvərlik göstəribdir.

İcazənizlə, İran ilə Azərbaycan arasında ikitərəfli münasibətlər barədə bir neçə kəlmə söyləyim. Bizim Xarici İşlər naziri cənab Xərrazi 10 gün bundan əvvəl Azərbaycanı ziyarət edərək, EKO-nun üzvü olan ölkələrin Xarici İşlər nazirlərinin Bakıda keçirilən görüşündə iştirak edibdir. Cənab Xərrazi Azərbaycanın Xarici İşlər naziri ilə görüşüb və Baş nazir tərəfindən qəbul edilibdir. O, mənə zəng edərək bildiribdir ki, Azərbaycandakı görüşlər çox səmərəli və faydalı olubdur.

Bildiyimə görə, Sizin göstərişiniz və razılığınız ilə Azərbaycan parlamentinin sədri İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin parlament sədrlərinin üç həftədən sonra Tehranda keçiriləcək toplantısında iştirak etmək üçün ölkəmizi ziyarət edəcəkdir.

Ölkələrimiz arasında yaradılmış Müştərək Komissiya Bakıda görüş keçirməli idi, lakin Siz Azərbaycanda olmadığınıza görə onun vaxtını bir az dəyişdirdik. İnşallah, Siz Azərbaycana qayıcandan sonra nə vaxt göstəriş versəniz, həmin komissiya Bakıda öz işini davam etdirəcəkdir.

Cənab Prezident, bizim ölkəyə rəsmi səfər etməyiniz barədə rəsmi dəvət artıq Sizə göndərilibdir. Ümid varıq ki, Siz gələn ay İranı ziyarət edəcəksiniz. İranın Azərbaycandakı səfiri Bikdeli də mənimlə əlaqə saxlayaraq Sizi səbirsizliklə gözlədiyini bildiribdir. O dedi ki, İrana səfəriniz barədə yazılı rəsmi dəvəti Siz Bakıya qayıdandan sonra Sizə çatdıracaqdır.

Bütün bunlar onu göstərir ki, iki qardaş müsəlman ölkəsi arasında münasibətlər gündən-günə yaxşılaşır və bu, belə də olmalıdır.

Mənə məlumat veriblər ki, bizim Xarici İşlər naziri Xərrazi bir dəfə Sizinlə görüş zamanı söyləyibdir ki, Azərbaycan ilə İran dost ölkələrdir. Siz onun sözünə düzəliş edərək demisiniz ki, qardaş ölkələrdir. Bu, tamamilə doğrudur - biz qonşuyuq, qardaş ölkələrik, iki müsəlman dövlətiyik.

Mən Sizin səfirinizlə söhbət zamanı da qeyd etdim ki, bizim ölkənin Prezidenti Xatəminin həyata keçirdiyi siyasət İranın bütün qonşuları - Azərbaycan, Gürcüstan, ərəb ölkələri

və digər qonşularla əlaqələrdə gərginliyin aradan qaldırılmasına yönəldilibdir.

Mən bir ildir ki, Türkiyədə səfir kimi fəaliyyətə başlamışam. Bu bir il ərzində bizim Türkiyə ilə də münasibətlərimiz yaxşılaşmağa doğru gedir. Ümidvarıq ki, Sizin köməyinizlə bu münasibətlər də yaxşılaşa bilər.

Cənab Prezident, mən əminəm ki, Zati-alilərinizin xəbəri var,- Xatəminin Səudiyyə Ərəbistanına səfəri çox uğurlu olmuşdur. Bir müddət sərin münasibətlərdən sonra bu, yaxşılığa doğru inkişaf edir. Mən əminəm ki, belə xoş münasibətlər Azərbaycan ilə İran, Türkiyə ilə İran və digər qonşu dövlətlər arasında da mövcud ola bilər.

Xatırlayıram ki, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə görüşümüz zamanı mən Sizə farsca müraciət etdim. Siz mənə farsca cavab verdiniz. Siz fars dilində də bəzi sözləri bilirsiniz.

Məni qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Prezident Xatəminin, İranın lideri Xamneinin Azərbaycanla dostluq və qardaşlıq münasibətlərini inkişaf etdirmək arzularını Sizə yetirirəm.

Səmimi sözlərə görə səfirə təşəkkürünü bildirən Prezident Heydər Əliyev dedi:

- Mən çox məmnunam ki, İran İslam Cümhuriyyətinin Prezidenti cənab Xatəmi mənim səhhətimlə maraqlanır, sizi mənim yanıma göndəribdir və sizin vasitənizlə arzularını, salamlarını mənə çatdırır. Mən buna görə təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü, minnətdarlığımı Prezident cənab Xatəmiyə çatdırasınız.

Mənim səhhətim artıq yaxşıdır. Biz həmişə İran ilə Azərbaycan arasında əlaqələrin yaxşı, müsbət olmasına, daim inkişaf etməsinə çalışırıq və bunu istəyirik.

Sizin Xarici İşlər naziri Xərrazinin EKO-nun üzvü olan ölkələrin Xarici İşlər nazirlərinin Bakıda keçirilən toplantısında iştirak etməsi, Azərbaycanın Xarici İşlər naziri ilə görüşü və bizim Baş nazirin qəbulunda olması mənə məlumdur. Onların hamısı barədə mənə məlumat veriblər. Mənə verilən məlumatlara görə, danışıqlar çox səmərəli olubdur.

Hesab edirəm ki, həm İran, həm də Azərbaycan çalışmalıdır ki, əməkdaşlığımızı inkişaf etdirək və buna mane olan halların hamısını aradan qaldıraq. İran ilə Azərbaycan coğrafi nöqteyi-nəzərdən bir-birinə çox yaxın ölkələrdir. Bizim tarixi keçmişimiz, köklərimiz, adət-ənənələrimiz onu göstərir ki, ölkələrimiz, xalqlarımız arasında dostluq əlaqələri olmalıdır. Biz daim çalışırıq ki, İran ilə Azərbaycanın münasibətləri həmişə müsbət istiqamətdə inkişaf etsin. Biz bundan sonra da buna çalışacağıq.

Mən məmnunam ki, siz dediyiniz kimi, İran Prezidenti cənab Xatəmi qonşu ölkələrlə münasibətləri daha da yaxşılaşdırmaq, sizin sözlərinizlə

demək istəyirəm ki, olan gərginlikləri aradan qaldırmaq məqsədi daşıyır.

Beləliklə, biz hər iki tərəfdən eyni fikirdəyik. Həqiqətən, İran ilə Azərbaycan arasındakı əlaqələr dostluq və qardaşlıq xarakteri daşıyır. Ancaq biz çalışmalıyıq ki, bu əlaqələri daha da genişləndirək, inkişaf etdirək, daha da yüksəklərə qaldıraq. Biz bu fikirdəyik.

Azərbaycan Milli Məclisinin sədri İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin parlament sədrlərinin İranda keçiriləcək toplantısında olacaqdır. Güman edirəm ki, onun orada müəyyən danışıqlar aparmaq imkanı olacaqdır.

Mənim İrana dəvət olunmağım haqqında verdiyiniz məlumata görə də təşəkkür edirəm. Mən Prezident cənab Xatəmini Azərbaycana dəvət etmişəm. Cənab Xatəmi də məni dəvət edir. Biz çalışmalıyıq ki, hər iki dəvət yerinə yetirilsin.

İran - Azərbaycan Müştərək Komissiyasının işini də gücləndirmək lazımdır. Mən Azərbaycana dönəndən sonra, şübhəsiz, münasib vaxtda sizin nümayəndə heyəti gəlib danışıqlar apara bilər.

Mən bir daha təşəkkür edirəm. Prezident cənab Xatəmiyə mənim salamımı, hörmət, ehtiramımı çatdırın, Ayətullah Xamneiyə mənim salamımı çatdırın.

Bir daha deyirəm, biz öz tərəfimizdən çalışacağıq ki, Azərbaycan ilə İran əlaqələrini daha da inkişaf etdirək.

Mən bu görüşümüzdən məmnunam. Cənab səfir, sizə öz fəaliyyətinizdə uğurlar arzulayıram.

Prezident Heydər Əliyevi belə gümrah vəziyyətdə görməkdən məmnun qaldığını bildirən səfir daha sonra dedi:

- Türkiyədə yeni hökumət qurulub. Biz ümidvarıq ki, İran ilə Türkiyənin münasibətləri daha da yaxşılaşacaqdır.

Cənab Prezident, biz ümid edirik ki, bir vaxt Sizin, cənab Xatəminin, cənab Süleyman Dəmirəlin və Baş nazir Ecevitin də birgə görüşünü təşkil edə bilərik.

Prezident Heydər Əliyev dedi:

- Bu, çox gözəl olardı.

DÜNYA BANKININ PREZİDENTİ CEYMS VULFENSON AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı:

-Cənab Prezident Vulfenson! Xanım Vulfenson!

Sizin buraya, mənim ziyarətimə gəldiyinizdən, dəvətimi qəbul edərək Azərbaycana səfər etməyinizdən çox məmnunam. Sizə bir daha təşəkkür edirəm.

Hesab edirəm ki, Sizinlə bu gün Azərbaycan üçün səmərəli və əhəmiyyətli söhbətlər etdik. Bir daha

demək istəyirəm ki, Sizin fikirləriniz, dəyərli məsləhətləriniz, təkliflərniz məni çox sevindirdi.

Mən 1997-ci ildə Vaşinqtonda olarkən Sizi Azərbaycana dəvət etdim. O vaxtdan gözləyirəm. İndi qismət belə gətirdi ki, Siz Azərbaycana gedirsiniz, mən isə Azərbaycanda deyiləm. Ona görə də Sizin buraya gəlməyiniz, Sizinlə görüşüm və xüsusən apardığımız söhbətlər məni çox sevindirdi.

Təsəvvür edə bilməzdim ki, Siz mənim dəvətimlə Azərbaycana səfəri bu qədər gecikdirərək, eyni zamanda çox geniş bir proqramla gələcəksiniz. Bir daha bildirmək istəyirəm ki, Sizin bütün təkliflərinizi, məsləhətlərinizi, çox dəyərli fikirlərinizi məmnuniyyətlə qəbul edirəm. Hesab edirəm ki, bu əməkdaşlıq uzun sürən, daimi və səmərəli olacaqdır.

Mən ümid edirəm ki, sizin təkliflərniz, fikirləriniz əsasında bizim əməkdaşlığımız Azərbaycanın inkişafını güclü surətdə irəliyə aparacaqdır. Bir daha bəyan edirəm ki, Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığı strateji xarakter daşıyır. Biz bu əməkdaşlıqdan indiyə qədər faydalanmışıq və inanıram ki, bundan sonra da çox faydalanacağıq.

Bizim istəyimiz, arzumuz Azərbaycanı demokratik, ədalətli, hüquqi, dünyəvi dövlət etməkdir, ölkəmizdə bazar iqtisadiyyatının inkişafını təmin etməkdir, respubilkamızda özəl sektora geniş yol açmaqdır, özəlləşdirmə proqramını axıra çatdırmaqdır. Güman edirəm ki, sizin köməyiniz və sizinlə əməkdaşlıq nəticəsində biz bunların hamısına nail olacağıq.

Beləliklə, mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Siz də bəyan etdiniz ki, Azərbaycan üçün proqramlar təklif edərək, respublikamıza yardım edərək Azərbaycanı inkişaf etmiş dövlət kimi görmək istəyirsiniz. Güman edirəm ki, müştərək işlərimizlə, sizin yardımınızla biz buna nail olacağıq.

Mən sizə bir daha minnətdarlığımı bildirirəm, sizinlə partnyorluq etməkdən çox böyük qürur hissi duyuram. Sizə, ailənizə və xanımınıza cansağlığı arzu edirəm. Sizə və Dünya Bankına gələcək işlərinizdə uğurlar arzulayıram.

Sizin şərəfinizə, xanımınızın şərəfinə badə qaldırıram. Sağ olun.

"Azərbaycan" qəzeti, 1 iyun 1999-cu il.

ABŞ-ın "ŞEVRON" ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MATSKE AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Mayın 31-də ABŞ-ın "Şevron" şirkətinin Prezidenti Riçard Matske Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan, onun səhhətini çox yaxşı görməkdən məmnun qaldığını söyləyən cənab Matske Prezident Heydər Əliyevlə görüşdən şərəf duyduğunu bildirdi. Antalyada havanın və şəraitin istirahət üçün həqiqətən gözəl olduğunu nəzərə çarpdırdı.

Xoş sözlərə və onu ziyarət etmək üçün Antalyaya gəldiyinə görə "Şevron"un rəhbərinə təşəkkür edən respublikamızın Prezidenti Heydər Əliyev dedi:

- Mən Antalyanın istirahət etmək üçün belə gözəl yer olduğunu bilmirdim. Türkiyənin Prezidenti Süleyman Dəmirəl bir neçə ildir ki, məni istirahət etmək üçün buraya dəvət edir. Ancaq mənim heç vaxt imkanım olmayıbdır. İndi elə oldu ki, mən buraya gəlməyə məcbur idim, çünki cərrahiyyə əməliyyatından sonra istirahət etmək lazımdır.

Mən buraya gəlməyimdən çox məmnunam, gözəl yerdir. Doğrudan da burada istirahət üçün hər bir şərait yaradıblar. Mənə burada həddindən artıq diqqət və qayğı, mehribanlıq göstərirlər.

Dövlətimizin başçısı Heydər Əliyevin burada da çoxlu görüşlər keçirdiyindən xəbərdar olduğunu vurğulayan cənab Matske dedi:

- Cənab Prezident, başa düşürük ki, Sizi istirahət etməyə qoymuruq. Ümid edirik ki, bizimlə bu görüşü bir növ istirahət görüşü kimi qəbul edəcəksiniz. Mən Nigeriyanın yeni seçilmiş Prezidentinin andiçmə mərasimində iştirak etdikdən sonra birbaşa buraya gəlmişəm. Bu ölkənin paytaxtını indi Abuçi şəhərinə köçürüblər. Bu şəhər dəniz səviyyəsindən 1000 metr yüksəkdədir, o qədər də isti yer deyildir. Biz 35 ildir ki, Nigeriyada çalışırıq.

Sonra o, Anqolada da xeyli iş gördüklərini vurğuladı.

Vaxtilə Anqolada olduğunu nəzərə çarpdıran Prezident Heydər Əliyev dedi:

- Mən Moskvada işləyərkən, Siyasi Büronun üzvü olarkən Anqolaya getmişdim. O vaxt Sovetlər İttifaqı nümayəndə heyətinin başçısı kimi Anqolada partiyanın qurultayında iştirak etmişəm. Xatirimdədir, bu təxminən 1985-1986-cı illərdə olubdur. Sovet İttifaqının neftçiləri o vaxt orada dənizdə bir az neft çıxarırdılar. Amma danışıq gedirdi ki, amerikalılar oraya gəlirlər. Sovet İttifaqı isə orada öz mövqeyini əldən vermək istəmirdi.

O dövrdə "Şevron"un Anqolada ən çox neft istehsal edən şirkət olduğunu xatırladan cənab Matske dedi ki, lakin o vaxt ABŞ hökuməti bizim bu fəaliyyətimizdən məmnun deyildi. Onlar bizi ümumiyyətlə Anqolada görmək belə istəmirdilər.

Prezident Heydər Əliyev dedi:

- Çünki Anqola Sovet İttifaqı ilə bağlı idi. Sonra Anqolanın cənubunda UNİTA müharibə aparırdı və Amerika ona kömək edirdi.

O vaxt Sovet İttifaqının Kuba qoşunlarını Anqolaya gətirdiyini xatırladan cənab Matske dedi: Həmin

qoşunlar son məqamda "Şevron" şirkətinin qurğularını müdafiə etməklə məşğul oldular.

Anqolaya səfəri zamanı Kuba qoşunlarının, həqiqətən, orada olduğunu bildirən dövlətimizin başçısı dedi:

- Mən Kuba qoşunlarının komandanı ilə o vaxt orada görüşdüm.

Anqolanın Prezidenti Duş Santuş mənim yaxın dostumdur. O, vaxtilə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil alıbdır. Öz ölkəsinə qayıtdıqdan sonra onu Prezident seçiblər. O, Bakıya gəlmişdi. Mən onunla həm Bakıda, həm Moskvada, həm də Anqolada görüşmüşəm. Beynəlxalq toplantılarda da onunla bir-iki dəfə görüşmüşəm.

Vətəndaş müharibəsi dövründə Anqolada qəribə bir vəziyyət yarandığını vurğulayan "Şevron" isə Kuba qoşunları ilə yaxşı təmaslara malik idi. Amerika hökumətinin mövqeyi isə tamamilə bunların əksinə idi. Hətta deyərdim ki, "Şevron" şirkəti 20 il ərzində ABŞ dövləti ilə Anqola arasında ən əsas diplomatik kanal, xətt olmuşdur. Bizim hökumətin Duş Santuşu dəstəkləməməsinə baxmayaraq "Şevron" şirkəti onun tərəfində idi, onun qalib gəlməsini istəyirdi və nəhayət, o qalib gəldi.

İndi Amerika ilə Anqola arasında münasibətlər normaldır. Həm Amerikada, həm də Anqolada diplomatik nümayəndəliklər vardır. Anqola ABŞ hökumətindən hələ də bir az narazıdır. Çünki UNİTA-nın rəhbəri Savimbi hələ də Duş Santuş üçün problemlər yaratmaqdadır. Duş Santuş istəyir ki, Amerika hökuməti buna bir əncam çəksin. Onlar isə hələ də vuruşurlar.

Antalyaya gəlməyinin məqsədindən söhbət açan cənab Matske dedi:

-cənab Prezident, biz Sizin cərrahiyyə əməliyyatı keçirməyinizdən çox narahat olduq. Amma ondan rahatlıq tapdıq ki, bu əməliyyat çox əla bir xəstəxanada keçdi. Çox məmnun olduq ki, cərrahiyyə əməliyyatından sonra Siz buraya gələrək səhhətinizin tam bərpası üçün istirahət edirsiniz.

Klivlenddəki xəstəxanadan çox razılıq edən respublikamızın Prezidenti dedi:

- Mən oranı tanımırdım. Vaşinqtonda işlərimi qurtarandan sonra məni oraya, sadəcə, müayinə etməyə aparmışdılar. Orada isə dedilər ki, mütləq cərrahiyyə əməliyyatı keçirməlisiniz. Mən istəmirdim, ancaq həkimlər və oğlum İlham mənə bildirdilər ki, lazımdır. Aprelin 29-da əməliyyat keçirildi. ABŞ hökuməti, Prezident Bill Klinton, Dövlət katibi xanım Madlen Olbrayt, nazirlər mənə çox qayğı göstərdilər. Prezident Bill Klinton mənə məktub göndərdi, telefonla danışdı. Xanım Olbrayt da mənə bir neçə dəfə telefon etdi. Onlar mənə çox qayğı göstərdilər. Mənim bütün müalicəm onların nəzarəti altında idi.

Sonra cənab Matske "Şevron" şirkətinin son vaxtlar Bakıda gördüyü işlər haqqında Prezident Heydər Əliyevə ətraflı məlumat verdi. O, dövlətimizin başçısının diqqət və qayğısını daim hiss etdiklərini vurğuladı və bütün bunlara görə ölkəmizin rəhbərinə minnətdarlığını bildirdi.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarına çıxaran Bakı - Novorossiysk, Bakı - Supsa kəmərlərinin hazırkı ixrac imkanlarından, əsas boru kəməri olacaq Bakı - Ceyhan xəttinin perspektivlərindən və bu kəmərin çəkilişi ilə əlaqədar görülən işlərdən də geniş söhbət açıldı.

Cənab Matske ixrac olunan neftin həmçinin yaxın vaxtlarda artırılacağını bildirdi.

Söhbət zamanı Bakı - Batumi istiqamətlərində yeni boru kəmərinin çəkilməsi məsələsi də geniş müzakirə edildi, hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Görüşün sonunda cənab Matske Prezident Heydər Əliyevə San-Fransisko şəhəri barədə kitab-albom bağışladı və dövlətimizin başçısını bu şəhərdə görmək arzusunda olduğunu bildirdi.

Görüşdə Milli Məclisin deputatı, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev iştirak edirdi.

"Azərbaycan" qəzeti, 1 iyun 1999-cu il.

TÜRKİYƏNİN "ENKA HOLDİNQ" ŞİRKƏTLƏR QRUPUNUN PREZİDENTİ ŞARİQ TARA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

Türkiyənin "Enka Holdinq" şirkətlər qrupunun Prezidenti Şariq Tara iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Dövlətimizin başçısını mehribanlıqla salamlayan, onun səhhətinin çox yaxşı olduğunu görməkdən məmnun qaldığını söyləyən cənab Tara vaxt tapıb onu qəbul etdiyinə görə Prezident Heydər Əliyevə təşəkkürünü bildirdi.

Əsasən inşaat işləri görən, Moskvada və MDB ölkələrinin bir çox digər şirkətlərində ucaltdığı binalarla çox məşhur olan "Enka Holdinq"in rəhbəri respublikamızın Prezidenti ilə görüşdən şərəf duyduğunu vurğuladı.

Səmimi sözlərə və onu ziyarət etdiyinə görə cənab Taraya təşəkkürünü bildirən dövlətimizin başçısı "Enka Holdinq"in Bakı beynəlxalq hava limanında apardığı işlərin vəziyyəti ilə maraqlandı.

Bakı beynəlxalq hava limanında bütün işlərin başa çatdığını və obyektin istifadəyə verilmək üçün tam hazır olduğunu bildirən "Enka Holdinq"in rəhbəri dedi ki, cənab Prezident, biz həmişəki kimi bu dəfə də

Sizə verdiyimiz sözə vaxtında əməl etmişik.

Görülən işə görə təşəkkürünü bildirən dövlətimizin başçısı dedi:

- İyunun 14-də bizim Bakıda böyük bir toplantımız vardır. Mən hörmətli Prezident Süleyman Dəmirəli dəvət edəcəyəm, Azərbaycana gəlsin, biz iyunun 13-də açılış mərasimi keçirək. Siz də gəlin.

Dəvətə görə respublikamızın Prezidentinə minnətdarlığını bildirən cənab Tara məlumat verdi ki, "Enka Holding"in Bakı Beynəlxalq Hava Limanında gördüyü işlər dünya standartlarına uyğundur, ən yüksək səviyyədədir.

Həmin hava limanının tikintisinə Azərbaycana bundan əvvəl rəhbərlik etdiyi zaman, 1981-ci ildə başlandığını nəzərə çarpdıran **Prezident Heydər Əliyev dedi:**

- Bakı beynəlxalq hava limanının layihəsi də mən Azərbaycan Respublikasına başçılıq etdiyim zaman mənim rəhbərliyimlə hazırlanıbdır. Biz onun tikintisinə başladıq. Sonra mən Moskvaya işləməyə getdim, bu hava limanının tikintisində işlər dayandı. Mən yenidən Azərbaycana rəhbərliyə qayıdandan sonra onun tikintisini sizinlə birgə başa çatdırdıq. Bu hava limanının bax, belə tarixi vardır.

Bakı beynəlxalq hava limanının tikintisinin vaxtında başa çatdırılmasına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin rəhbərinə bir daha minnətdarlıq edən cənab **Tara dedi:**

- Cənab Prezident, Siz Klivlenddə müalicə olunarkən mənə dedilər ki, bu hava limanında görülən işlərin vəziyyəti ilə maraqlanırsınız. Bu məni çox sevindirdi. Allaha şükürlər olsun ki, ürəyinizdə cərrahiyyə əməliyyatı və müalicəniz böyük uğurla başa çatdı.

Cənab Prezident, mənim də ürəyimdə 8 il bundan əvvəl cərrahiyyə əməliyyatı aparılıb, beş damarımı dəyişiblər. Bundan sonra çox ağır avtomobil qəzasına düşmüşəm, bir neçə il qoltuq ağacları ilə gəzmişəm. Demək istəyirəm ki, çox ağır avtomobil qəzasına düşməyim də ürəyimə heç bir mənfi təsir göstərmədi. Ürəkdə cərrahiyyə əməliyyatının heç bir təhlükəsi yoxdur. Mən hər gün hovuzda ən azı bir saat üzürəm, ürəyimin döyüntüsü qətiyyən artmır. Düzünü deyim ki, ürəyimdə əməliyyat keçirilməndən sonra özümü çox cavan hiss edirəm.

Sonra o, Rusiyada, MDB-nin digər ölkələrində "Enka Holding"in gördüyü işlər barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. Moskva şəhərinin meri cənab Lujkovla dostluq münasibətlərindən söhbət açdı.

Moskva merinin Azərbaycana səfərindən bəhs edən Prezident Heydər Əliyev dedi ki, cənab Lujkov Bakıda olanda məndən sizi soruşdu və sizin haqqınızda xeyli xoş sözlər söylədi.

"Enka Holding"in Moskvada qısa müddətdə xeyli gözəl binalar tikdiyini vurğulayan cənab Şara Azərbaycanla əlaqələrin bundan sonra daha da genişləndirilməsinə xüsusi maraq

göstərdiklərini nəzərə çarpdırdı.

Türkiyənin Ana Vətən Partiyasının sədri ilə dostluq əlaqələrindən danışan cənab Tara həmin partiyanın rəhbəri Məsud Yılmazın səmimi salamlarını, hörmət-ehtiramını və xoş arzularını respublikamızın Prezidentinə çatdırdı.

Prezident Heydər Əliyev də onun salamlarını cənab Məsud Yılmaza yetirməyi "Enka Holding"in başçısından rica etdi.

TÜRKİYƏNİN ENERJİ NAZİRİ CÜMHUR ƏRSÜMƏR AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

İyunun 2-də Türkiyənin Enerji naziri Cümhur Ərsümər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev cənab Ərsüməri mehribanlıqla qarşıladı və yenidən Türkiyənin Enerji naziri təyin olunması münasibətilə təbrik etdi.

Vaxt ayırıb onu qəbul etdiyinə və təbrikə görə təşəkkürünü bildirən, Prezident Heydər Əliyevin səhhətinin çox yaxşı olduğunu görməkdən şərəf duyduğunu söyləyən cənab Ərsümər dedi:

- Cənab Prezident, Türkiyə ilə Azərbaycan arasında əlaqələrin gündən-günə inkişaf etməsində, xeyli müştərək layihələrin birgə həyata keçirilməsində Sizin köməyiniz, yardımınız və dəstəyiniz çox yüksək qiymətə layiqdir. Qardaş ölkələrimizin əməkdaşlığının böyük sürətlə inkişaf etməsi məhz Sizin daimi diqqət və qayğınız sayəsində mümkün olmuşdur. Allahdan arzum odur ki, sağlamlığınız əbədi olsun, Azərbaycan - Türkiyə əlaqələrini daha da möhkəmləndirəcək layihələri başa çatdırmaq nəsibiniz olsun.

Səmimi sözlərə görə nazirə təşəkkürünü bildirən respublikanın Prezidenti dedi:

- Çox sağ olun, biz bu işləri birgə görəcəyik. Keçən ilin oktyabr ayında, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində biz Bakı - Ceyhan boru kəməri barədə böyük bir bəyannamə imzaladıq. Mən Amerikaya getməmişdən əvvəl hörmətli Prezident Süleyman Dəmirəl mənə zəng etdi ki, bir protokol imzalamaq lazımdır. Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndəsi İstanbula getdi və orada bu protokola imza atdı. Lakin sonradan bu iş bir qədər ləngidi. Mənə məlumat verdilər ki, Türkiyənin bir sıra nazirlikləri arasında bu məsələdə müəyyən fikir ayrılığı vardır. Mən hörmətli Prezident Süleyman Dəmirələ telefon etdim. O, mənə dedi ki, yeni hökumət qurulandan sonra bu məsələlərin hamısı öz həllini tapacaqdır. İndi yeni hökumət qurulmuşdur. Həmin məsələlərin həllini sürətləndirmək lazımdır.

Dövlətimizin başçısının iradını razılıqla qəbul edən nazir dedi:

- Cənab Prezident, hazırda bu barədə müzakirələr gedir. İnşallah, iyun ayının sonunadək həmin məsələlər öz həllini tapacaqdır.

Cənab Ərsümərin məlumatından razı qaldığını bildirən Prezident Heydər Əliyev dedi:

- Çox gözəl. Bir neçə ildir hər dəfə məndən soruşurlar ki, Bakı - Ceyhan kəməri çəkiləcəkmi? Mən bizdən asılı olan işi tam başa çatdırdım. İndi Sizdən soruşuram ki, işlər necədir?

Cənab Ərsümər respublikamızın Prezidentini əmin etdi ki, bu məsələlər lap qısa müddətdə öz həllini tapacaqdır.

Dövlətimizin başçısı Türkiyədə yeni hökumətin fəaliyyəti ilə maraqlandı.

Nazir Prezident Heydər Əliyevə bu barədə ətraflı məlumat verdi. O, respublikamızın Prezidentini Ankarada Gülhanə Tibb Akademiyasında müalicə zamanı da ziyarət etdiyini vurğuladı, Prezident Heydər Əliyevin səhhətini tam yaxşı görməkdən çox şad olduğunu bir daha bildirdi.

Klivlenddə cərrahiyyə əməliyyatından sonra Antalyada istirahətinin çox yaxşı keçdiyini nəzərə çarpdıran respublikamızın Prezidenti dedi:

- Bura çox gözəl bir yerdir, gözəl iqlimi vardır. Ceylan qardaşları burada mənim üçün gözəl şərait yaradıblar. Hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl mən Gülhanə xəstəxanasında müalicə olunandan indiyədək mənə daim xüsusi diqqət, qayğı göstəribdir. Mən Amerikada müalicə olunanda da o, mənimlə daim əlaqə saxlayırdı. Sonra Prezident Süleyman Dəmirəl məni Türkiyəyə dəvət etdi. Mən buraya gəldim. Bura mənim vətənimdir. Mən Türkiyədə özümü çox gözəl hiss edirəm. Mən bir neçə gün Ankarada qaldım. Bir həftədir ki, Antalyadayam. Bu bir həftə içərisində səhhətim xeyli yaxşılaşıbdır.

Türk dünyasının görkəmli liderlərindən biri olan Prezident Heydər Əliyevin Türkiyədə istirahət etməsindən çox böyük sevinc hissi keçirdiklərini söyləyən cənab Ərsümər dövlətimizin başçısına daha möhkəm cansağlığı arzuladı.

Görüşdə iştirak edən Antalyanın valisi Hüsnü Tulu Prezident Heydər Əliyevin səhhətinin çox yaxşı olduğunu görməkdən şərəf duyduğunu bildirdi və bu kurort şəhərində çalışan azərbaycanlı incəsənət ustalarının fəaliyyətindən razılıq etdi.

Cənab Tulunun məlumatını diqqətlə dinləyən respublikamızın Prezidenti Azərbaycanda elm, ədəbiyyat, incəsənət, mədəniyyət xadimlərinə və bu sahələrdə çalışan gənclərə həmişə böyük qayğı göstərdiyini, onların fəaliyyətini dəstəklədiyini nəzərə çarpdırdı.

Sonra görüşdə Bakı - Ceyhan kəmərinin tikintisinə aparılan hazırlıq işləri bir daha geniş müzakirə edildi.

Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev bu barədə aparılan danışıqların gedişindən ətraflı söhbət açdı, qarşıya çıxan bir sıra problemlərin həll olunması yollarını şərh etdi.

Söhbət zamanı Bakı - Ceyhan kəmərinin tikintisinə hazırlıq işlərinin qısa vaxtda başa çatdırılması üçün lazımi tədbirlər görülməsi qərara alındı.

Türkiyə Prezidenti ilə iyunun 1-də - dünən görüşdüyünü nəzərə çarpdıran "Ceylan Holdinq" qrupunun rəhbərlərindən biri Zülküf Ceylan cənab Süleyman Dəmirəlin salamlarını dövlətimizin başçısına çatdırdı.

Cənab Ceylana təşəkkürünü bildirən Prezident Heydər Əliyev dedi:

- Bəli, hörmətli Prezident Süleyman Dəmirəl mənə zəng etmişdi. O dedi ki, Mahmud və Zülküf Ceylan qardaşları mənim yanımda oldular və Sizin haqqınızda ətraflı söhbət açdılar.

Hörmətli Süleyman Dəmirəl mənə hər gün telefonla zəng edir. Mən bu qədər diqqətli adam görməmişəm. Biz onunla qardaşıq, 30 ildən çoxdur ki, dostluq edirik. Bu dostluğumuzun böyük tarixi vardır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu dostluq daha da möhkəmləndi. Mən çox məmnunam ki, Türkiyə Cümhuriyyətinin onun kimi Prezidenti vardır. O, çox böyük insandır.

"Azərbaycan" qəzeti, 3 iyun 1999-cu il.

TÜRKİYƏNİN TANINMIŞ DÖVLƏT XADİMİ, SABİQ XARİCİ İŞLƏR NAZİRİ HİKMƏT ÇƏTİN AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyənin tanınmış dövlət xadimi, sabiq Xarici İşlər naziri Hikmət Çətin iyunun 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi Antalyada onun üçün ayrılmış iqamətgahda ziyarət etmişdir.

Cənab Hikmət Çətini mehribanlıqla qarşılayan dövlətimizin başçısı onunla görüşdən məmnun qaldığını bildirdi. Prezident Heydər Əliyevin səhhətinin çox yaxşı olduğunu görməkdən məmnun qaldığını söyləyən, vaxt ayırıb onu qəbul etdiyinə görə respublikamızın rəhbərinə təşəkkür edən cənab Hikmət Çətin dedi:

-Cənab Prezident, Azərbaycan Respublikası Türkiyə üçün dost, qardaş ölkədir. Azərbaycanın Prezidenti kimi Siz ölkəniz üçün, bölgəmiz və dünya üçün çox böyük işlər görürsünüz. Siz Azərbaycana azadlıq, müstəqillik qazandırmısınız. Cənab Prezident, Siz müstəqil Azərbaycan Respublikasını dünyaya tanıtdırdınız, Azərbaycan xalqını yüksəklərə qaldırdınız. İnanıram ki, Sizin müdrik siyasətiniz sayəsində müstəqil Azərbaycan Respublikası daim inkişaf edəcəkdir. Mən bu gün buraya gəlib Sizin səhhətinizin tam yaxşı olduğunu görməyimə çox şadam.

Cənab Prezident, qardaş ölkələrimizin əlaqələrinin gündən-günə sürətlə inkişaf etməcində də Sizin böyük xidmətləriniz vardır. Sizin "Biz bir millət, iki dövlətik" müdrik kəlamınız bu gün Türkiyədə çox məşhurdur. Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əməkdaşlığın hazırda çox böyük uğurla davam etməsi məhz Sizin diqqət və qayğınız nəticəsində mümkün olmuşdur. Mən Sizə möhkəm cansağlığı, işlərinizdə daha böyük uğurlar arzulayıram. Biz fəxr edir və qürur hissi keçiririk ki, Siz müalicədən sonra dincəlmək üçün Türkiyəyə gəlmisiniz.

Türkiyə ilə Azərbaycan, həqiqətən, bir millət, iki dövlətdir. Biz inanırıq ki, ölkələrimizin qardaşlıq əlaqələri və Azərbaycanın müstəqilliyi Sizin uzaqgörən siyasətiniz sayəsində əbədi və dönməz olacaqdır.

Vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

Səmimi sözlərə və onu ziyarət etdiyinə görə cənab Hikmət Çətinə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev dedi:

-Çox sağ olun, əziz dostum, təşəkkür edirəm. Mən sizinlə görüşməkdən çox məmnunam. Çünki Türkiyə Cümhuriyyətində mənim ilk tanış və dost olduğum adamlardan biri də sizsiniz - Hikmət Çətindir.

1992-ci ildə mən Naxçıvanda olanda, ilk dəfə Ankaraya gələndə orada sizinlə görüşdüm. Onda siz Xarici İşlər naziri idiniz. Bundan sonra mən Naxçıvanda olanda biz daim əlaqə saxlayırdıq. Xatirimdədir, siz mənə, mən də sizə telefon edirdik. Hörmətli Süleyman Dəmirəl Naxçıvana böyük yardım göstərirdi. Yadımdadır ki, biz Naxçıvanda "Həsrət körpüsü"nü Türkiyə ilə birgə tikib başa çatdıranda siz də oraya gəldiniz.

O vaxt hörmətli Süleyman Dəmirəl başda olmaqla Türkiyənin 60-a qədər millət vəkili, 15-ə yaxın naziri Naxçıvana gəldi. Çayın kənarında həm Türkiyədən, həm də Azərbaycandan on minlərlə adam var idi. O günlər heç vaxt unudulmaz.

Mən Bakıya qayıdandan sonra da biz sıx əməkdaşlıq etdik. Mənim hörmətli dostum Hikmət Çətin, Azərbaycan ilə Türkiyə arasında əlaqələr qurulmasında sizin böyük xidmətləriniz vardır. Mən bunu heç vaxt unutmuram. Sizinlə mənim aramda bir simpatiya yaranıbdır. Ona görə də harada olsanız, hansı vəzifədə işləsəniz də siz mənim üçün əziz adamsınız. Nazir və yaxud başqa bir vəzifədə olub-olmamağınızın mənim üçün fərqi yoxdur.

Mən vaxtilə sizi Azərbaycana dəvət etdim, siz də söz verdiniz ki, gələcəksiniz. Amma indi sizi Azərbaycana yenə də dəvət edirəm. Rica edirəm, vaxt tapıb respublikamıza gəlin, söhbət edək. Mən dostluqda həmişə çox etibarlı adamam. Mən bilən, siz də dostluqda etibarlısınız. Biz bir-birimizlə əbədi dostuq. Mən sizin bu gün buraya gəlməyinizi çox yüksək qiymətləndirirəm.

Türk dünyasının görkəmli liderlərindən biri olan Prezident Heydər Əliyev ilə dostluğundan böyük şərəf duyduğunu və qürur hissi keçirdiyini söyləyən Hikmət Çətin bu dəvəti məmnunluqla qəbul etdi və Azərbaycana mütləq gələcəyini bildirdi.

Söhbət zamanı Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişi, beynəlxalq aləmdə, o cümlədən Kosovoda vəziyyət, Azərbaycan - Türkiyə əlaqələrinin daha da genişləndirilməsi və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ANTALYADA ZİYARƏT ETMİŞDİR

İyunun 8-də Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmək üçün vertolyotla Antalyaya gəldi.

Dövlətimizin başçısı Heydər Əliyev əziz dostu, qardaşı Süleyman Dəmirəli öz iqamətgahının qarşısında mehribanlıqla, hərarətlə qarşıladı, onu ziyarət etmək üçün bir daha Antalyaya gəldiyinə görə Türkiyə Prezidentinə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Qardaş ölkələrimizin Prezidentlərinin görüşünə Türkiyə televiziyasının və mətbuatının çoxsaylı nümayəndələri toplaşmışdılar.

Türkiyə dövlətinin başçısı Süleyman Dəmirəl əziz qardaşı Prezident Heydər Əliyevin səhhətinin tam yaxşı olduğunu görməkdən məmnun qaldığını bildirdi, respublikamızın rəhbərinə möhkəm cansağlığı arzulayaraq dedi:

-Qardaş Azərbaycan Respublikasının çox hörmətli Prezidenti, əziz dostum, qardaşım Heydər Əliyevi ziyarətə gəlmişəm. Bildiyiniz kimi, o, burada istirahət edir. Mən cənab Heydər Əliyev ilə hər gün telefonla danışıram. Biz dünyada baş verən hadisələr barədə fikir mübadiləsi aparırıq.

Balkan yarımadasında, Kosovoda münaqişənin sülh yolu ilə həll olunmasına böyük bir ümid vardır. Ümid edirik ki, Qafqazda da tezliklə sülh yaranacaqdır. Bilirsiniz ki, Azərbaycan Dağlıq Qarabağ ilə bağlı böyük sıxıntılar keçirmişdir. Bu sıxıntılar davam etməkdədir. Bir milyondan çox azərbaycanlı qaçqın yerindən-yurdundan zorla qovulmuş və onlar neçə illərdir ki, çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Azərbaycan bu münaqişəni əziz dostum, qardaşım Prezident Heydər Əliyevin müdrik rəhbərliyi altında sülh yolu ilə həll etməyə çalışır. Dünyanın nüfuzlu dövlətlərinin iştirakı ilə bu barədə danışıqlar davam edir. Əminəm ki, Azərbaycan bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılmasına nail olacaqdır.

Türkiyə ilə Azərbaycan bir millətin iki dövlətidir. Biz bütün sahələrdə sıx əməkdaşlıq edirik, münasibətlərimiz mükəmməldir, bundan sonra da mükəmməl olaraq davam edəcəkdir. Biz müstəqil Azərbaycan Respublikasının daim inkişaf etməsinə, beynəlxalq təşkilatlarda Azərbaycan xalqının və dövlətinin hüquqlarının qorunmasına həmişə dəstək vermişik və indən sonra da dəstək verəcəyik.

Əziz dostum, qardaşım Heydər Əliyev ilə bu günkü görüşümüzdə dünyada, beynəlxalq aləmdə, bölgədə vəziyyət barədə fikir mübadiləsi aparacağıq. Sonra mən Ankaraya dönəcəyəm.

Səmimi sözlərə, dostluq münasibətlərinə və onu ziyarət etdiyinə görə Türkiyə dövlətinin başçısı Süleyman Dəmirələ minnətdarlığını bildirən Prezident **Heydər Əliyev** dedi:

-Əziz dostum, qardaşım, hörmətli cənab prezident, mən sizə hədsiz minnətdaram. Mən təşəkkür edirəm ki, yenidən özünüzə zəhmət, əziyyət vermisiniz, buraya Antalyaya gəlmisiniz, məni ziyarət edirsiniz.

Mən may ayının 20-dən Türkiyədəyəm. Sabah, iyunun 9-da Bakıya qayıdıram. Mən 20 gündür ki, sizin qonağınızam. Türkiyəyə gələndən indiyədək ölkənizin, əziz dostum, qardaşım, sizin qayğınız və diqqətiniz altındayam. Siz mənə o qədər mehribanlıq, qonaqpərvərlik, dostpərvərlik göstərmisiniz ki, mən, şübhəsiz, belə şey görməmişdim. Ancaq dünyada da belə şeylər nadir haldır. Hörmətli dostum, qardaşım, bu sizin nə qədər böyük insan və nə qədər böyük insanpərvər olduğunuzu göstərir. Bu, eyni zamanda Azərbaycana, Azərbaycan xalqına, respublikasına nə qədər diqqət və qayğı etdiyinizi göstərir. Mən bunlara görə sizə təşəkkür edirəm.

Mən sabah, iyunun 9-da buradan Bakıya yola düşərək, sizə qəlbimdə olan ən yüksək duyğuları bildirirəm və ümid edirəm ki, bizim dostluğumuz, qardaşlığımız bundan sonra da yüksələcəkdir, möhkəmlənəcəkdir.

Bunlar hamısı Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əsasında qurulmuşdur. Mən bu gün bir daha demək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən andan siz, hörmətli dostum Süleyman Dəmirəl, Azərbaycanla birlikdəsiniz. Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etməsində, möhkəmlənməsində və bu günkü duruma gəlməsində sizin daimi dəstəyiniz bizim üçün böyük yardım olubdur. Biz bu məsələlərdə həmişə sizinlə məsləhətləşmişik və çox gözəl məsləhətlər almışıq. Bunlara görə mən sizə təşəkkür edirəm.

Türkiyə - Azərbaycan dostluğunun böyük tarixi vardır. Bu dostluğun inkişaf etməsində sizin böyük xidmətləriniz vardır. Ona görə də Azərbaycanda hər bir insan sizə böyük sevgi, məhəbbət hissi ilə yanaşır, sizi öz doğma insanı hesab edir. Əziz dostum, qardaşım, bütün bunlara görə sizə təşəkkür edirəm. Güman edirəm ki, Türkiyədə olduğum zaman Ankarada və burada apardığımız danışıqlar, söhbətlər Türkiyə - Azərbaycan əlaqələrini daha da inkişaf etdirəcək, möhkəmləndirəcək, Azərbaycanı Ermənistanın təcavüzündən qurtaracaq, işğal edilmiş torpaqlarımızın azad olunmasına və yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının köçkün vəziyyətində yaşamasına biz sizinlə birgə son qoyacağıq.

Ümumiyyətlə, Ermənistan - Azərbaycan münaqişəsi başlayandan indiyədək siz həmişə bu münaqişənin sülh yolu ilə həll olunmasına səylər qoymusunuz. Hamıya məlumdur, mən bunu bir daha demək istəyirəm ki, siz həm beynəlxalq təşkilatlarda, həm dünyanın böyük dövlətləri ilə olan əlaqələrinizdə, xüsusən Amerika Prezidenti Bill Klintona, Fransa Prezidenti Jak Şiraka məktublarınızda və başqa dövlət başçıları ilə danışıqlarınızda Azərbaycan məsələsini, yəni Ermənistan - Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ problemini həmişə ön plana çəkmisiniz. Bu, həmişə sizin danışıqlarınızın gündəliyində olubdur. Bunlar hamısı bizə çox böyük yardımdır. Ümidvaram ki, bu münaqişənin həll edilməsinə biz sizinlə birgə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənəcəkdir.

Mən sizə bir daha, bir daha təşəkkür edirəm. Çox sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirələ minnətdarlıq məktubunu təqdim etdi.

Söhbət zamanı Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi, beynəlxalq aləmdə, bölgədə, Kosovoda vəziyyət, Azərbaycan - Türkiyə əməkdaşlığının daha da inkişaf etdirilməsi və ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezidentlər dost və qardaş kimi görüşüb sağollaşdılar.

"Azərbaycan" qəzeti, 9 iyun 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Bu gün, ilk anlarından Sizin səmimi və mehriban dostluq, qardaşlıq qayğınız altında keçən uğurlu müalicəmi və istirahətimi artıq sona çatdırıb doğma Türkiyə Respublikasından ayrılaraq Vətənə yola düşərkən qəlbimdə dolu olan hədsiz minnətdarlıq hisslərimi sizinlə bölüşmək üçün bir daha Sizə müraciət etməyi özümə borc bildim.

Hər şeydən öncə, Sizin liderliyiniz sayəsində Azərbaycan ilə Türkiyə, iki qardaş ölkə, xalq və dövlət arasında qarşılıqlı faydalı münasibətlərin və hərtərəfli əməkdaşlığın yüksək səviyyədə olmasından çox məmnunluq duyduğumu bildirmək

istəyirəm.

Azərbaycan dövlət müstəqilliyini, azadlığını əldə etdikdən sonra Türkiyə Azərbaycan üçün dayaq nöqtəsinə, güvənc yerinə çevrilmişdir.

Qüdrətli Türkiyə dövlətinin müdrik rəhbəri kimi siz torpaqlarının iyirmi faizi işğal olunmuş, bir milyondan çox vətəndaşı qaçqın düşmüş Azərbaycanın daim yanında olmuş, onun haqq işini yorulmadan müdafiə etmiş, Ermənistanın təcavüzkar hərəkətlərini birmənalı şəkildə pisləmiş, bütün dünya dövlətlərini, beynəlxalq təşkilatları vətənimizə qarşı edilən təcavüzə, ədalətsizliyə, xalqımıza qarşı törədilən soyqırımına, etnik təmizləməyə biganə qalmamağa çağırmış və bütün Qafqaz regionunda sülhün və əmin-amanlığın bərqərar olması üçün davamlı səylər göstərmisiniz.

Sizin rəhbərliyinizlə qardaş Türkiyə Respublikası öz keçid dövrünü yaşayan gənc müstəqil Azərbaycan dövlətinə qarşılaşdığı çətinlikləri aradan qaldırmaq üçün hər türlü yardım göstərmişdir.

Əziz qardaşım Süleyman Dəmirəl!

XX əsrin sonunda öz istiqlaliyyətinə yenidən qovuşan Azərbaycan xalqı müstəqilliyinin ilk anlarından başlayaraq ona mənəvi dayaq olmadığınızı, Türkiyə - Azərbaycan dostluğunun möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün göstərdiyiniz misilsiz xidmətləri yüksək qiymətləndirir. Azərbaycan xalqı yaxşı bilir ki, sizin ürəyiniz Türkiyə ilə bərabər Azərbaycanla da vurur, qəlbiniz bütün türk dünyası ilə döyünür.

Siz "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" deyən böyük Atatürkün yoluna sadiq qaldınız, onun ruhunu şad etdiniz, Azərbaycan - Türkiyə dostluğunu, qardaşlığını əbədi, sarsılmaz edərək gələcək nəsillər qarşısında şərəfli bir iş gördünüz.

Bu dostluğun, qardaşlığın ən gözəl təzahürü Azərbaycan Prezidenti kimi mənə göstərdiyiniz diqqət, qayğıdır. Mən bunu bütün Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə göstərilən qayğı kimi qiymətləndirirəm. Bizim dostluğumuz, Türkiyə - Azərbaycan dostluğunun sarsılmazlığının ən parlaq təcəssümüdür.

Hələ yanvar ayında, xəstələndiyim ilk gündən dəyərli vaxtınızı sərf edib mənim səhhətimlə çox yaxından və ciddi məşğul olmağınız, mənim taleyimə, Azərbaycanın gələcəyinə biganə qalmamağınız, oğlum İlhama ümid, inam dolu təsəlli verərək, bütün əməliyyatları öz əlinizə almağınız, bir-birinin ardınca Ankaradan Bakıya təcili olaraq təyyarələrlə həkimlər qrupu göndərərək ilk tibbi yardımı təşkil etməyiniz, səhhətimə nəzarət etmək üçün şəxsi həkim ayırmağınız və buna qane olmayıb təkid edərək məni Gülhanə Hərbi Tibb Akademiyasına gətirib müalicə etdirməyiniz, oradaca hər gün yanıma gəlməyiniz, məni tək buraxmamağınız, bir an belə mənimlə əlaqəni kəsməməyiniz, sonra isə Amerika Birləşmiş Ştatlarında müalicəmin gedişini tam nəzarətdə saxlamağınız, həm cərrahiyyə əməliyyatından əvvəl, həm də sonra məni müalicə edən həkimlərlə telefon əlaqəsi saxlamağınız, mütəmadi olaraq mənimlə birbaşa ünsiyyəti davam etdirməyiniz, cərrahiyyə əməliyyatının və müalicəmin uğurla nəticələnməsinə bir qardaş kimi sevinməyiniz və tam sağalmağımın qeydinə qalaraq məni Türkiyəyə istirahətə dəvət etməyiniz, Ankarada məni doğma bir insan, əziziniz kimi qarşılayaraq istirahətimin mənalı keçməsi üçün hər cür şərait yaratmağınız, əziyyət çəkərək və böyük alicənablıq göstərərək xanımınızla məni Antalyada ziyarət etməyiniz, hər an, hər dəqiqə yüksək qonaqpərvərlik, qayğı, diqqət göstərməyiniz, mənə böyük hörmət və ehtiram bəsləməyiniz sizin nə qədər humanist, xeyirxah, insanpərvər bir şəxsiyyət, geniş qəlbli böyük insan, sadiq dost və qardaş olduğunuzu bir daha bariz şəkildə nümayiş etdirdi.

İnanın ki, sizə olan inamım, mənə göstərdiyiniz səmimi, mehriban dostluq münasibəti, qardaşlıq məhəbbəti məni çox ruhlandırdı, ürəyimə güc, qoluma qüvvət, canıma enerji, gözümə işıq verdi, müalicəmin uğurla keçməsinə, tez bir zamanda sağalmağıma, səhhətimin tam yaxşılaşmasına müsbət təsir göstərən ən mühüm amillərdən biri oldu.

Bütün bunlara görə, müasir dünyamızda bənzəri olmayan böyük dostluğunuza görə, mənə göstərdiyiniz yüksək səviyyəli münasibətə, diqqət və qayğıya, hörmət və ehtirama görə sizə hədsiz dərəcədə təşəkkür edir və sonsuz minnətdarlığımı bildirirəm.

Bəşəri dəyərləri özündə birləşdirən böyük insan, sarsılmaz Türkiyə dövlətinin yenilməz rəhbəri, əziz dostum və qardaşım Süleyman Dəmirəl, Siz bütün bu nəcib insani hərəkətləriniz və sadiq əməllərinizlə bəşər tarixində əbədi qalacaq möhtəşəm, əzəmətli, monolit bir dostluq abidəsi ucaltdınız. Azərbaycan - Türkiyə dostluğunun daha da möhkəmlənərək əbədi olması üçün təməli möhkəm zəmin yaratdınız və türk birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiniz. Siz bununla sizə minnətdar olan milyonlarla azərbaycanlının məhəbbətini qazandınız.

Sizi əmin edirəm ki, mən və mənim övladlarım bu dostluğa daim sadiq qalacağıq.

Əmin ola bilərsiniz ki, Ankarada və Antalyada Sizinlə dövlətlərimizi və regionumuzu əhatə edən taleyüklü məsələlər barədə apardığımız səmərəli danışıqlar, ölkələrimiz arasında strateji müttəfiqliyin və çoxşaxəli əməkdaşlığın daha da dərinləşdirilməsi ilə bağlı Türkiyənin yeni Baş naziri, böyük Millət Məclisinin yeni sədri, Türkiyə Ordusunun Baş Qərargah rəisi, nazirlər və ictimai-siyasi xadimlər ilə keçirdiyimiz görüşlər və apardığımız faydalı müzakirələr zamanı əldə etdiyimiz uğurlu nəticələri

həyata keçirmək üçün yeni, böyük enerji və tükənməz qüvvə ilə çalışacağam.

Qardaş ölkələrimiz, tarixi köklərlə bağlı olan xalqlarımız arasında qarşılıqlı faydalı əlaqələrin bütün sahələrdə daha geniş vüsətlə inkişaf etməsi, Türkiyə - Azərbaycan dostluğunun və qardaşlığının daha da yüksəklərə qalxması, xalqlarımızın rifahının yüksəlməsi, bölgəmizdə və bütün dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün yorulmadan səy göstərəcək və heç nəyi əsirgəməyəcəyəm.

Əziz qardaşım, bir daha Sizə dərin minnətdarlığımı, hörmət və ehtiramımı bildirirəm. Sizə və ailənizə cansağlığı, uzun ömür, qardaş Türkiyəyə tərəqqi və çiçəklənmə, qəhrəman türk xalqına sülh, əmin-amanlıq, firavanlıq və xoşbəxt həyat arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Antalya, 8 iyun 1999-cu il.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

**Azərbaycan Respublikası
Prezidentinin
FƏRMANI**

Türkiyə - Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin yaranmasında və inkişaf etdirilməsində böyük xidmətlərinə, Azərbaycanın dövlət müstəqilliyini daim dəstəklədiyinə, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində konstruktiv, dəyişməz mövqeyinə və dəyərli fəaliyyətinə, Türkdilli Dövlətlərin Birliyinin yaranmasında və inkişaf etdirilməsində müstəsna xidmətlərinə görə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "İstaqlal" ordeni ilə təltif edilsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Bakı şəhəri, 12 iyun 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 16-da Prezident sarayında Türkiyənin

ölkəmizdəki səfiri Qədri Ecvet Tezcanı qəbul etmişdir.

Səfiri səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Hörmətli səfir, birinci növbədə mən Amerika Birləşmiş Ştatlarında cərrahiyyə əməliyyatı keçirən andan indiyə qədər Türkiyə Cümhuriyyətinin, türk xalqının, Türkiyə hökumətinin və xüsusən, mənim əziz dostum, qardaşım, hörmətli Prezident Süleyman Dəmirəlin mənə göstərdiyi qayğını, diqqəti, qardaşlıq, dostluq münasibətini yüksək qiymətləndirirəm. Bu münasibətlə bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Bilirsiniz ki, mən Amerikada, Klivlend xəstəxanasında olan zaman da, ondan sonra Ankaraya gələndə, sonra Antalyada olduğum zamanda dəfələrlə televiziya, mətbuat vasitəsilə bu fikirlərimi, bu hissiyyatlarımı bildirmişəm. İyun ayının 8-də Antalyada dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl ilə görüşən zaman bir daha bildirdim və ona böyük bir təbrik məktubunu göndərdim. Bu məktub da Azərbaycan mətbuatında dərc olunubdur. Siz onu bilirsiniz. Ancaq bunlarla bərabər mən Bakıya dönəndən sonra, bu gün və hər gün yenə də Türkiyənin, dostum Süleyman Dəmirəlin qayğısını hiss edərək bir daha sizə, Türkiyə Cümhuriyyətinin səfirinə bu sözləri deməyi özümə borc bilirəm.

Bu dövr Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının nə qədər yüksək səviyyədə olduğunu, nə qədər möhkəm və nə qədər sarsılmaz olduğunu bir daha göstərdi. Siz də bunu yaxşı bilirsiniz ki, mənim üçün də o vacibdir ki, mən artıq yanvar ayından öz səhhətimi, sağlamlığımı Türkiyənin həkimlərinə, Türkiyə Cümhuriyyətinə etibar etmişəm. İndi mənim səhhətimlə məşğul olan professor Ərtən Dəmirtaşdır. Bunlar bir daha göstərir ki, Azərbaycan, Azərbaycanın Prezidenti kimi şəxsən mən Türkiyəyə və Türkiyənin hökumətinə, əziz dostum Süleyman Dəmirələ güvənirik, inanırıq, etibar edirik. Bütün xalqımız da bunu görür ki, Türkiyə hökuməti və xüsusən Prezident Süleyman Dəmirəl Azərbaycana nə qədər qayğı, diqqət göstərir və Azərbaycan Prezidentinin səhhəti ilə, onun müalicəsi ilə şəxsən məşğul olur. Bu bir daha sübut edir ki, Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı möhkəm təməllər üzərində qurulmuşdur, möhkəm köklər üzərində qurulmuşdur və bu dostluq, qardaşlıq günü-gündən inkişaf edir. Mənim buna heç şübhəm yoxdur.

Mən Türkiyədə olduğum zaman Ankarada, Antalyada Prezident hörmətli Süleyman Dəmirəl ilə bir çox görüşlər keçirdik, bir çox məsələləri müzakirə etdik. Məsələlərin bir qismi beynəlxalq aləmdə olan vəziyyətə aid idi, biz bunları birgə təhlil edirdik. Digər qismi isə Türkiyə - Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi, Azərbaycanın erməni işğalından xilas olması, Ermənistan - Azərbaycan, Dağ-

lıq Qarabağ münaqişəsinə son qoyulması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi, qaçqın vəziyyətində çadırlarda yaşayan bir milyondan artıq soydaşlarımızın öz yerlərinə, yurdlarına qayıtması idi. Bu məsələ bir neçə dəfə müzakirə olundu, çox geniş fikir mübadiləsi aparıldı.

Mən bunlardan çox məmnunam. Çünki bizim bu məsələni birgə müzakirə etməyimiz, şübhəsiz ki, bundan sonra görəcəyimiz işlər üçün çox vacibdir. Bəlkə də, mənim bu xəstəlikdən sonra Türkiyədə istirahət etməyim çox gözəl bir fürsət oldu ki, bir dəfə yox, iki dəfə yox, -məsələn, başqa vaxt mən Türkiyəyə gələrəm, bir-iki saat danışarıq. Yaxud da ki, dostum Süleyman Dəmirəl buraya, Azərbaycana gələr, bir-iki saat danışarıq, -amma indi nə qədər görüşdük. Siz onları televiziyada görmüsünüz. Bu görüşlərin hamısında Azərbaycan üçün ağır olan bu məsələni müzakirə etdik.

Mən hesab edirəm ki, bu dövr bir də Türkiyə - Azərbaycan münasibətlərinin sınaq dövrü oldu. Dünyaya bir də nümayiş etdirdik ki, biz bir-birimizə nə qədər yaxınıq, nə qədər dostuq, bir-birimizə nə qədər inanırıq. Çünki mən heç təsəvvür edə bilməzdim ki, cərrahiyyə əməliyyatı keçirməyim və müalicə olunmağım dünyada, çox ölkələrdə böyük maraq doğurmuşdur. Çox ölkələrin mətbuatında bu barədə yazılmışdır.

Bilirsiniz ki, mən Klivlenddə olarkən çox dövlət başçılarından, Prezidentlərdən, siyasi xadimlərdən məktublar almışdım. Onlar Azərbaycan mətbuatında dərc olunubdur. Yəqin bunları siz bilirsiniz. Yəni ola bilər, indi hər bir dövlət başçısı müalicə olunsun, amma bu qədər geniş fikir cəlb olunmasını mən hər halda indiyə qədər görməmişdim.

Şübhəsizdir ki, mən bundan məmnunam. Demək, mənim şəxsiyyətimlə, Azərbaycanla çox ölkələr maraqlanırlar. Amma eyni zamanda bu dövrdə hamı gördü ki, Türkiyə ilə Azərbaycan nə qədər yaxındırlar. Çünki mən Amerikada, Klivlenddə olarkən bizim əlaqələrimiz hər gün olubdur və bunların əksəriyyəti bizim mətbuatda gedibdir. Mən Ankarada beş gün qaldım. Beş gündə bizim görüşlərimizin çoxu mətbuatda getdi. Antalyada yenə də cənab Süleyman Dəmirəl hər gün telefon edirdi. İki dəfə də Antalyaya gəldi. Yenə deyirəm, bunlar hamısı mənim üçün nə qədər qiymətli, nə qədər əzizdirsə, eyni zamanda Türkiyə - Azərbaycan əlaqələrinin nə qədər sıx olduğunu göstərir.

Mən Ankarada olarkən yeni seçilmiş Baş nazir, hörmətli Büləncd Ecevitlə də görüşdüm. Çox yaxşı söhbətlər etdik. Çox məmnunam ki, hökumət formalaşan vaxt mən Ankarada oldum, sonra Antalyada oldum və onu təbrik etdim. Bir çox məsələləri müzakirə etdik.

Böyük Millət Məclisinin yeni sədri Yıldırım Akbulutla görüşdük.

Onunla öncə tanış deyildim. Mənə çox yaxşı təsir bağışladı. Onunla da bəzi məsələləri müzakirə etdik.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, hörmətli Hüseyn Kıvrıkoğlu ilə görüşdük, başqa siyasi xadimlərlə görüşdük. Bunlar sizə mətbuatdan məlumdur. Demək olar ki, mən orada həm istirahət etmişəm, həm də böyük işlər görmüşəm və bu işləri də Türkiyənin dövlət, hökumət orqanları ilə görmüşük. Bu, mənim müalicə və istirahət zamanı Türkiyə - Azərbaycan dostluğunun irəliyə getməsi üçün böyük bir işim olmuşdur. Mən bundan çox məmnunam.

Xahiş edirəm, bir daha, bir daha mənim minnətdarlığımı, təşəkkürümü, bizim xalqımızın minnətdarlığını çatdırasınız. Yəqin Siz bilirsiniz ki, bizim xalqımızda Türkiyəyə və xüsusən Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirələ indiyə qədər olan hissiyyatlar bu dövrdə qatqat artmışdır.

Siz bilirsiniz ki, nə qədər məktublar gəlibdir, hörmətli Süleyman Dəmirəlin şəxsiyyətinə nə qədər çox şerlər qoşulubdur. Bunlar hamısı çox böyük işlərdir. Yəni bu, adi şeylər deyildir, böyük işlərdir. Bu işlər əvvəlcədən planlaşdırılmayıbdır. Heç kəs bunu düşünmürdü və heç kəs də bilməzdi ki, belə bir şey olacaq. Amma Allahın işi belə gətirdi ki, mən müalicə olunmalı oldum və bu münasibətlər burada daha da geniş, açıq göründü. Bir daha təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürlərimi çatdırasınız.

Artıq sizə məlumdur ki, mən fərman imzalanan kimi Vəfa Quluzadə vasitəsilə sizə çatdırmışdım, sonra da mətbuatdan bilirsiniz ki, mənim fərmanımla Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl Azərbaycanın "İstiqlal" ordeni ilə təltif olunubdur. Siz burada yaşayırsınız, bilirsiniz ki, bu, Azərbaycanın ən yüksək mükafatıdır. Biz orden deyirik, siz dövlət nişanı deyirsiniz. Bu, ən yüksək ordendir və iş burasındadır ki, bunun adı "İstiqlal"dır. O fərmanda mən göstərmişəm ki, bu orden hansı xidmətlərinə görə verilibdir. Onlardan biri də odur ki, Azərbaycanın istiqlaliyyətini daim dəstəklədiyinə görə hörmətli Süleyman Dəmirəl belə yüksək mükafata layiq olubdur. Fərmanda bunların hamısını geniş yazmaq mümkün deyildir. Çünki onun bir forması vardır. Amma mən dəfələrlə demişəm ki, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olubdur və bunu da məhz hörmətli Süleyman Dəmirəl edibdir. Bunları bizim xalqımız heç vaxt unutmur və unutmayacaqdır.

Mən təltifdən sonra telefon etdim, hörmətli Süleyman Dəmirəllə danışdım. O, çox məmnun olduğunu bildirdi. Mən də çox məmnun oldum ki, cənab Süleyman Dəmirəl bizim ölkəmizin, dövlətimizin mükafatını qəbul edibdir. Güman edirəm ki, indi bir fürsət tapacağıq, o, Azərbaycana gələcəkdir və mən bu ordeni böyük şərəf

hissi ilə ona təqdim edəcəyəm.

Dünən bizim mətbuatda hörmətli Süleyman Dəmirəl haqqında böyük bir məqalə çıxıbdır. Onu da bilirsiniz,- bu, mənim göstərişimlə olubdur. Bizim xalq, millətimiz hörmətli Süleyman Dəmirəli tanıyır. Amma mən istəyirdim ki, onun tərcümeyihalı, keçdiyi həyat yolu, siyasi fəaliyyəti Azərbaycanda daha da geniş məlum olsun. Buna görə də belə bir məqalə dövlət qəzetlərində çıxıbdır.

Beləliklə, mən bu gün sizinlə görüşərkən ilk olaraq bunları sizə demək istədim. Hörmətli səfir, sizə də təşəkkür edirəm ki, bu işlərin təşkil olunmasında daim fəaliyyət göstərmisiniz və Türkiyə - Azərbaycan dostluğunun daha da möhkəmlənməsində xidmətlər göstərirsiniz. Sağ olun.

Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirən Türkiyənin respublikamızdakı səfiri **Qədri Ecvet Tezcan dedi:**

-Hörmətli Cümhurbaşkanım, birinci növbədə mən Sizə öz minnətdarlığımı çatdırmaq istəyirəm ki, məni bu gün qəbul etmisiniz.

Siz, müalicə olunarkən Türkiyənin, Cümhurbaşkanımızın, türk xalqının Sizə olan qayğılarından, ehtiramlarından, diqqətindən bəhs etdiniz. Mən bir Türkiyə səfiri kimi deyil, bir türk insanı kimi Sizə deyə bilərəm ki, bu, çox təbii bir haldır. Başqa cür də ola bilməzdi. Əgər Siz Türkiyəyə gəlməsəydiniz, biz Sizdən ötrü darıxardıq. Sizdən ötrü darıxmamağımız mümkün deyildir. Ancaq deyərdik ki, hörmətli Prezidentimiz Türkiyəyə niyə gəlməyibdir.

Cənab Prezident, Siz çox gözəl bir fikir söylədiniz. Dediniz ki, mən özümü türk həkimlərinə əmanət etmişəm. Bu, bizim üçün ən yüksək şərəfdir. Əgər Azərbaycanın Prezidenti öz sağlığını türk həkimlərinə əmanət etmişsə, onlara bu diqqəti, etimadı, inamı bəsləyirsə, bu, bizim üçün ən yüksək şərəfdir.

Hörmətli Cümhurbaşkanım, icazənizlə, Sizə öz düşüncəmi çatdırmaq istəyirəm. Siz bəhs etdiyiniz məktubu, yəni Sizə göstərilən diqqət barədə Süleyman Dəmirələ yazdığınız məktubu mən iki-üç dəfə oxumuşam.

Heydər Əliyev: Bu, bizim mətbuatda da dərc olunubdur.

Qədri Ecvet Tezcan: Mətbuatda da dərc olundu, özünüz də mənə çatdırmışdınız. Məncə, bu məktub bir ədəbiyyat şah əsəridir. Türk dilinin işlənilməsi baxımından icazə verin Sizə minnətdarlığımı ifadə edim ki, bizə belə bir əsər yazmısınız.

Siz həm Cümhurbaşkanımızın, həm Türkiyədəki digər siyasi xadimlərin, həm xalqımızın Sizə olan diqqətindən, məhəbbətindən danışdınız və bu cərrahiyyə əməliyyatını keçirəndə dünyanın müxtəlif yerlərindən istər Prezidentlər, istər adi adamlar, kişilər, xanımlar olsun, - onlardan çoxlu məktublar aldığınızı söylədiniz, hörmətli Cümhurbaşkanım, bu da təbii bir haldır. Çünki biz belə hesab edirik ki, Siz Azərbaycanı dünyaya açan kişisiniz, Prezidentsiniz, Azərbaycanı dünyaya tanıdan kişisiniz. **Mən belə güman edirəm ki, Azərbaycan adı harada çəkiləndə onunla bərabər Prezident Heydər Əliyevin adı çəkilir.** Bu baxımdan dünyanın Sizə göstərdiyi diqqəti normal və təbii hesab edirik.

Cənab Prezident, Siz Antalyada olanda, istirahət edəndə hörmətli Cümhurbaşkanımız Süleyman Dəmirəllə görüşlər, söhbətlər apardığınızı söylədiniz və Ermənistanla bağlı olan məsələlərdən söz açdınız. Hörmətli Prezidentim, Siz çox yaxşı bilirsiniz ki, Türkiyənin siyasəti eyni olaraq qalır və heç dəyişməmişdir.

Onda siz özünüz Türkiyədə idiniz, bizdə yeni bir koalisyon hökumət quruldu, formalaşdı. Bildiyiniz kimi, bu hökumətin tərkibində üç partiya vardır. Onların dünyagörüşləri birbirindən fərqlidir, iqtisadi baxışları və başqa düşüncələri - hamısı fərqlidir. Amma bilmirəm, Sizin diqqətinizə çatdırdılarmı, -bunların bir koalisyon hökumət proqramı vardır.

Heydər Əliyev: Yox, onu bilmirəm.

Qədri Ecvet Tezcan: İcazə verirsinizsə, mən bunu olduğu kimi ifadə edib çatdıraram. Bu proqramda xarici siyasət bölməsi vardır. Bu bölmədə bir cümlə var: Türkiyə Cümhuriyyəti Azərbaycanın torpaqları işğaldan azad olana qədər Azərbaycanı Ermənitanla olan münaqişədə dəstəkləyəcəkdir. Bu o deməkdir ki, Türkiyədə hansı partiya, hansı hökumət olursa-olsun, biz mütləq Azərbaycanı dəstəkləyəcəyik. Təkcə bu barədə deyil, hər sahədə.

Hörmətli cənab Prezident, bilirəm, vaxtınızı alıram, amma bir türk diplomatı kimi bu duyğumu da Sizə çatdırmaq istəyirəm.

Biz 7-8 il əvvəl hər hansı bir beynəlxalq konfransa gedəndə, -xüsusən Qərb dünyasının yığışdığı NATO, ATƏT olsun, - belə yığıncaqlarda özümüzü həmişə yalqız hiss edirdik. Tək müsəlman ölkə, tək müstəqil Türk Cümhuriyyəti biz idik. İndi Allaha çox şükürlər olsun, hansı türk diplomatı olursa-olsun, dünyanın harasında hansı beynəlxalq toplantıya getsə,- bilirsiniz, beynəlxalq toplantılarda hamısı əlifba sırası ilə oturur, Türkiyə masada bir az uzağa düşür,- amma hər diplomat gedəndə əyilib masanın başına baxar və görər ki, Azərbaycanın nümayəndəsi oradadır. Əgər Azərbaycan nümayəndəsi oradadırsa, biz özümüzü artıq yalqız hesab etmirik. Hesab edirik ki, başqa qardaş ölkələr də, dostlar da orada bizim yanımızda olacaqlar. Zənn edirəm ki, bu, insan üçün ən önəmli şeydir.

Hörmətli Cümhurbaşkanım, bir xüsusi məsələni də çatdırmaq istəyirəm. Siz Türkiyə - Azərbaycan əlaqələrinin günbəgün inkişafından bəhs etdiniz. Bu, yüz faiz doğrudur. Çünki Siz əvvəlki iclaslarda da demisiniz. Dünyada bir iqtisadi böhran mövcuddur. Məsələn, Rusiya Federasiyasında, Uzaq Şərqdə, çox yerdə.

Amma bu çətinliklərə baxmayaraq, Türkiyənin Azərbaycanla ticarət əlaqələri günbəgün daha yüksəyə qalxacaqdır və daha da yaxşı olacaqdır. Bu işdə mütləq Sizin köməyiniz, Türkiyə Cümhuriyyətindəki Prezidentimizin köməyi və digər hökumət rəhbərlərinin köməyi bizi mütləq bu yola gətirəcəkdir.

Hörmətli Prezident, mən Süleyman Dəmirəl ilə bağlı dərc olunan məqalənin onun özünə çatdırmışam. O, dünən evində olmuş və bunlara baxmışdır.

Hörmətli Prezidentim, son olaraq mən Türkiyə səfiri kimi, türk xalqı adından Sizə öz minnətdarlığımı çatdırmaq istəyirəm ki, Siz Azərbaycanın ən yüksək nişanını, ordenini bizim Cümhurbaşkanımıza verdiniz. Əgər səhv etmirəmsə, bu orden ilk dəfədir Azərbaycanda xarici dövlət adamına verilir. Ümumiyyətlə, biz özümüzü yabançı hesab etmirik.

Heydər Əliyev: Yabançı deyil, ancaq yenə də başqa bir dövlətdir. Amma bu, birincidir. İndiyə qədər heç bir dövlət başçısına, heç bir yabançı şəxsə bu orden verilməyibdir.

Qədri Ecvet Tezcan: Hörmətli Cümhurbaşkanım, mən də belə bilirəm. Ona görə də Sizə çox təşəkkür edirik. Bu "İstaqlal" ordeninin qiymətinin nə qədər yüksək olduğunu, bunun Türkiyənin Cümhurbaşkanına Zati-alilərinizin tərəfindən verilməsinin mənasının hər kəs tərəfindən yaxşı dərk edilməsinin gərəkliyini düşünürəm. Bizim üçün deyil, ətrafdakı başqa millətlər, ölkələr üçün bunun nə əhəmiyyəti olduğunu,- iki dost və qardaş ölkənin bir-birinə baxışını, bir-birinə olan əməkdaşlığını, məhəbbətini göstərməsi baxımından,- başa düşürəm. Mən Sizə həm hörmətli Cümhurbaşkanım, həm hökumət, həm də təkcə Türkiyədəki türk xalqı adından deyil, bütün dünyadakı türk xalqları adından öz minnətdarlığımı bir daha çatdırmaq istəyirəm. Çox çağ olun.

Heydər Əliyev: Təşəkkür edirəm.

"Azərbaycan" qəzeti,
17 iyun 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Əziz dostum, qardaşım,

İstanbul ilə Ankara arasında baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntı barədə xəbər məni dərindən sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Bakı şəhəri, 17 avqust 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN MÜRACİƏTİ

Ötən gecə Türkiyədə, İstanbul ilə Ankara arasında baş vermiş zəlzələ bizi sarsıtdı və çox kədərləndirdi. Bütün Azərbaycan xalqını kədərləndirdi, sarsıtdı. Böyük fəlakətdir, böyük faciədir. Bu faciə, Türkiyənin faciəsidir, eyni zamanda Azərbaycanın faciəsidir.

Böyük Mustafa Kamal Atatürk demişdir ki, Azərbaycanın sevinci Türkiyənin sevincidir, Azərbaycanın kədəri Türkiyənin kədəridir. Bu sözləri biz daim təkrar edirik və bu gün də demək istəyirəm ki, Türkiyənin kədəri, Türkiyənin faciəsi Azərbaycanın kədəridir, Azərbaycanın faciəsidir. Biz bundan çox sarsılmışıq. Böyük fəlakətdir. Çünki bizi ən çox sarsıdan, kədərləndirən çoxsaylı insan tələfatıdır.

Təbiidir ki, Türkiyə Cümhuriyyətinə dəymiş iqtisadi zərər də bizim üçün çox ağır bir hadisədir. Ancaq çoxsaylı insan tələfatı, bir çox insanların yaralanması - bunlar bizi daha çox incidir və bizi daha çox sarsıdır.

Mən bu münasibətlə bu gün Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirələ başsağlığı mesajı göndərmişəm, "keçmiş olsun" demişəm. Televiziya vasitəsilə Türkiyə xalqına, Türkiyə dövlətinə, Türkiyə hökumətinə, bizim əziz qardaşlarımıza, bacılarımıza, böyük insan tələfatına görə dərin hüznlə başsağlığı verirəm, "keçmiş olsun" deyirəm. Tələf olan insanların ailələrinə, qohum-əqrəbalarına başsağlığı verirəm. Zəlzələdən yaralananlara, əziyyət çəkənlərə, zərər çəkənlərə tezliklə sağalmağı arzulayıram. Həlak olanların hamısına Allahdan rəhmət diləyirəm.

Türkiyə öz tarixində böyük çətinliklərlə rastlaşmış və onların hamısının öhdəsindən məharətlə, qəhrəmanlıqla gəlmişdir. Heç şübhə yoxdur ki, Türkiyə dövləti, Türkiyə Cümhuriyyəti və Türkiyə xalqı bu ağır sınaqdan da çıxacaqdır və Türkiyənin iqtisadiyyatına, insanlara dəymiş zərərin də öhdəsindən gələcəkdir. Buna heç şübhə yoxdur. Şübhə yoxdur ki, bu müdhiş gecədə həyatlarını qeyb edən insanlar da heç vaxt unudulmayacaqdır.

Biz hər zaman Türkiyə Cümhuriyyəti iləyik, Türkiyə xalqı ilə bir yerdəyik - sevinclı gündə də, kədərli gündə də. Bu gün biz daha çox Türkiyə xalqı ilə bərabərik, bir yerdəyik, bu faciənin sarsıntılarını keçiririk və Türkiyəyə əlimizdən gələn yardımı etməyə hazırıq.

Mən əmr verdim, bu gün bir təyyarə ilə bizim həkimlər, qəzma və başqa işlərdə iştirak edə bilən insanlar, mütəxəssislər Türkiyəyə uçacaqlar. Əmr verdim, Azərbaycandan Türkiyəyə böyük bir qatar, yəni bir tren neft göndərilsin. Əgər bizim başqa köməyimizə ehtiyac olarsa, biz bunların hamısını edəcəyik. Ancaq

ən əsası odur ki, Türkiyə dövləti özü qüdrətli dövlət olaraq bütün bu çətinliklərin öhdəsindən gələcəkdir.

Mən Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə dövlətinə bu gün bu ağır vəziyyətdən məharətlə, uğurla çıxmağı arzulayıram və əminəm ki, bütün bu yaralar hamısı gələcəkdə sağalacaqdır. Bir daha bu faciə münasibətilə Türkiyə xalqı ilə həmrəyliyimizi bildirirəm, dərin hüznlə başsağlığı verirəm, "keçmiş olsun" deyirəm. Həyatlarını qeyb etmiş bütün bacı-qardaşlarımıza Allahdan rəhmət diləyirəm.

"Azərbaycan" qəzeti, 18 avqust, 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev avqustun 26-da Prezident sarayında Türkiyənin respublikamızdakı səfiri Qədri Ecvet Tezcanı qəbul etmişdir.

Səfiri səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Biz indi sizinlə söhbətə başlayarkən hər dəfə "keçmiş olsun" demək lazımdır, başsağlığı vermək lazımdır. Zəlzələ baş verəndən indiyə qədər, məlumdur, - fəlakət o qədər böyükdür ki, bu, həm Türkiyə üçün fəlakətdir, həm də bütün türk dünyası üçün ağır fəlakətdir. Ona görə də bunun ağrısı-acısı hələ uzun müddət insanların qəlbindən, insanların fikrindən çıxmayacaqdır. Odur ki, bir daha deyirəm - keçmiş olsun. Vəfat edənlərə Allah rəhmət eləsin, yaralananlar tezliklə sağalsın.

Ümidvaram ki, Türkiyə Cümhuriyyəti qüdrətli, iqtisadi cəhətdən çox böyük imkanlara malik olan bir dövlət kimi bu zəlzələnin vurduğu bütün zərəri tezliklə aradan qaldıracaqdır. Yəni mən hesab edirəm ki, uçurulan evlər də, dağılan başqa qurğular da bərpa olunacaqdır. Məsələn, orada böyük bir neft emalı zavodu yanıbdır, - o da bərpa ediləcəkdir. Amma insanları geri qaytarmaq mümkün olmayacaq. Bu itkilərin içərisində insanların itkisi çox ağır bir şeydir. Ancaq bizim xalqlarımız tarix boyu çox belə şeylərə dözüblər. Güman edirəm, biz buna da dözəcəyik.

Prezident Heydər Əliyevə dərin təşəkkürünü bildirən səfir **Qədri Ecvet Tezcan** dedi:

- Hörmətli Cümhurbaşkanım, birinci, məni qəbul etdiyinizə görə Sizə minnətdaram. Sizə Türkiyə dövləti adından, Türkiyədə, Anadoluda yaşayan 60 milyon türkün adından və bir də Azərbaycanda yaşayan 5 min türkün adından minnətdarlığımı çatdırmaq istəyirəm.

Başda Zati-alilərinizi olmaqla Azərbaycan xalqının Türkiyədə baş vermiş bu zəlzələ nəticəsində fəlakətə uğrayan insanların acısına göstər-



AZERBAYCAN
CUMHURİYETİ

SÜLEYMAN DEMİREL KÜLTÜR MERKE

diyi yaxınlığa görə mən Sizə minnətdarlığımı çatdırmaq istəyirəm.

Hörmətli Cümhurbaşkanım, bu zəlzələ 17 avqust gecə saat 3-də baş verdikdən çox az bir zaman keçdikdən sonra başda Zati-aliləri, Siz olmaqla, Baş nazir, onun müavinləri, nazirlərin hamısı, zavodların direktorları, komitələrin sədrləri, deputatlar, tanınmış ziyalılar, yüzlərlə kişi, xanım, Dövlət Əmlak Komitəsinin sədri səfirliyə gələrək bizə başsağlığı verdilər. Onlara dedim ki, mən də sizə başsağlığı verirəm, Çünki bu, iki eyni millətdir, iki qardaş və dost dövlətdir.

Hörmətli Cümhurbaşkanım, mən 18-19 aydır ki, burada səfir kimi işləyirəm. Buraya gəlməmişdən əvvəl və buraya gəldikdən sonra da iki qardaş dövlətin, millətin bir-birinə olan məhəbbətinin rəmzlərini görmüşdüm. Amma iki millətin bir-birinə bu qədər məhəbbəti olduğunu bu dəfə öz gözlərimlə gördüm. Zati-alilərinizin başda olmaqla dövlətin yüksək vəzifəli şəxslərinin başsağlığı verməsi, yardım, kömək göstərməsi bu yerdə təbii bir işdir. Amma mən Sizə məlumat vermək istəyirəm ki, artıq zəlzələdən 9 gün keçməsinə baxmayaraq bizim səfirliyin telefonları hələ də susmayıbdır. Minlərlə insan, ağsaqqal, qadın, uşaq, kişi, xanım - hamısı səfirliyimizə özləri gələrək başsağlığı verdilər. Bununla bərabər minlərlə insan qan, pul vermək üçün bizə müraciət etdi. Bizə ən çox təsir göstərən o oldu ki, bəzi insanlar dedilər ki, bizim pulumuz yoxdur, ancaq icazə verirsinizsə, biz fəhlə kimi gedib Türkiyədə zəlzələnin dağıntıları altında qalmış insanları xilas etmək, çıxarmaq istəyirik. Balaca qızlar, oğlanlar gəldilər. Onlar yaxın günlərdə məktəbin açılışı ilə əlaqədar özlərinə aldıqları geyimləri, dəftər-qələmləri, məktəb ləvazimatlarını Türkiyədə zərər çəkən kiçik uşaqlara ərməğan etmək üçün gətirib bizə verdilər. Bəzi uşaqlar içərisinə pul yığdıqları qutuları "Türkiyəyə göndərin" deyə bizə bağışladılar. Belə halların sayı-hesabı yoxdur. Mən bunları təsvir etməkdə acizəm. Bu, bir məhəbbətin göstəricisidir.

Zati-aliləri, yəqin ki, televiziyada görmüsünüz, - müxtəlif ölkələrdən, 50-dən artıq ölkədən Türkiyəyə yardım göstərildi. Amma mən heç sanmıram ki, Bakıda olduğu kimi, başqa yerlərdəki səfirliklərimizdə bu qədər sayda insan özü müraciət etsin. Məncə, bu, iki dövlətin, iki millətin bir-birinə olan yaxınlığının ən gözəl ifadəsidir. Bu baxımdan, bir daha Zati-alilərinizin şəxsində Azərbaycan xalqına öz minnətdarlığımı çatdırmaq istəyirəm.

Mən bu barədə Türkiyədəki televiziyalara və qəzetlərə də müsahibə verdim.

Hörmətli Cümhurbaşkanım, Sizin buyurduğunuz kimi, hesab edirəm ki, orada rəhmətə gedən insanları geriyə qaytarmaq mümkün deyildir. Amma yerdə qalanlara Azərbaycan xalqının bu qədər yaxın olması onların acılarını, kədərlərini hər hal-

da bir az aşağı endirmişdir.

Hörmətli Cümhurbaşkanım, icazənizlə onu da deyim ki, bu fəlakətə düçar olan insanlara kömək etmək üçün Sizin tapşırığınızla Baş nazirin müavini Abid Şərifovun başçılığı ilə bir təyyarə həkimin və xilasetmə işlərinə kömək üçün gedən hərbçilərin Türkiyədə etdikləri yardımlara görə Sizə təşəkkür etmək istəyirəm. Məndə olan məlumata görə, 40-dan artıq insanı dağıntıların arasından xilas edib həyata yenidən qaytarmış o insanların göstərdikləri yardım inanılmaz dərəcədədir. Yenə Sizin tapşırığınızla göndərilən 2 min ton yanacaq bu gün Batumi limanına çatmışdır. Güman edirəm ki, sabah Türkiyədən gələn gəmi onu lazımi yerə çatdıracaqlar.

Hörmətli Cümhurbaşkanım, Sizə özəl bir təşəkkür də etmək istəyirəm. Bunu Daxili İşlər nazirinə özüm demişəm. Amma Sizə də çatdırmaq istəyirəm. Bilirsiniz ki, neft emalı zavodunda böyük bir yanğın baş vermişdi. Bu yanğına texniki baxımdan bəzi ölkələrdən yardım da gəldi. Amma Azərbaycandan Yanğın Təhlükəsizliyi İdarəsinin bir briqadası getmişdi. Mən oradakı zavodun sədri ilə görüşdüm. O mənə dedi ki, bu briqadanın üzvləri canlarından keçərək, özlərini yanğının içinə ataraq ən böyük şücaəti göstərmişlər. Mən Sizə bu sahədə də minnətdarlığımı bildirmək istəyirəm. Bu, çox böyük bir işdir. Dedilər ki, onlar ancaq öz məmləkətlərində bu qədər qəhrəmanlıq göstərə bilərdilər.

Məlumat verim ki, Bakı Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə bu gün dərmanlardan, paltarlardan və digər əşyalardan ibarət yardım təyyarə ilə Türkiyəyə göndərilmişdir. Hörmətli Cümhurbaşkanım, bundan başqa, eşitmişəm ki, Müdafiə Nazirliyinin, Dövlət Yol Polisinin, Elmlər Akademiyasının əməkdaşları, Bakı Dövlət Universitetinin professorları, Respublika Prokurorluğunun, Dövlət Geodeziya və Xəritəçəkmə Komitəsinin bütün işçiləri, eləcə də ayrı-ayrı adamlar və mənim bilmədiyim minlərlə insan müxtəlif banklarda açılan hesablara öz əmək haqlarından Türkiyədə baş vermiş zəlzələdən zərər çəkmiş insanlara yardım üçün pul köçürmüşlər. Bundan əlavə, siyasi partiyalardan, qadın cəmiyyətlərindən, rayonlardan yüzlərlə insan səfirliyə başsağlığı verməyə gəldi.

Mən duyğularımı Sizə çatdırmaqda acizəm. Bunun üçün bir daha Zati-alilərinizin şəxsində Azərbaycan xalqına təşəkkürlərimi bildirirəm. Dostlar, qardaşlar belə gündə tanınır.

Hörmətli Cümhurbaşkanım, bir şeyi də demək istəyirəm. Türkiyə televiziya kanallarına baxdıqda içimdən belə bir duyğu keçdi ki, türk milləti harada olursa-olsun, belə çətin günündə mütləq dözümlülük göstərir, bir araya gəlir. Arzu edirəm ki, təkcə çətin gündə deyil, yaxşı gündə də bir-birimizə belə kömək edək, sevgimizi göstərək, məhəbbətimizi bu şəkildə ifadə edə bilək.

Mən Zati-alilərinizi yüz faiz

əmin edirəm ki, türk xalqı bunun altından qalxacaq. Biz üç min illik tariximizdə neçə belə faciələr keçirmişik. Bu sınaqdan da çıxacağıq. Bizim Anadolu türkcəsində gözəl bir məsəl vardır. Deyirlər ki, hər müsibətdən bir nəticə çıxarmaq lazımdır. Güman edirəm ki, dövlətimiz bu bəladan mütləq bir nəticə çıxaracaq, dərs alacaqdır. İstərdim ki, bundan sonra heç bir yerdə belə bir fəlakət olmasın. Amma əgər olarsa da, bu qədər insan itkisi olmasın. Tam əminəm ki, türk dövləti, milləti bu ağır vəziyyətdən çıxacaqdır. Sizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Səfirə təşəkkür edən Azərbaycan Prezidenti **Heydər Əliyev** dedi:

-Mənə verdiyiniz məlumatlara və bu münasibətlə, zəlzələnin vurduğu ziyanın aradan qaldırılmasında Azərbaycan xalqının gördüyü işlərə verdiyiniz qiymətə görə təşəkkür edirəm.

Bilirsiniz, bu, təbiidir. Çünki bizim xalqımız bir xalqdır. Mən bunu dəfələrlə demişəm. İnsanların hər birinin, o cümlədən bütün xalqın qəlbində olan duyğular, hissiyyatlar, məhəbbət məhz belə günlərdə, belə vaxtlarda özünü büruzə verir.

Biz dəfələrlə demişik, hər dəfə də təkrar edirik: Türkiyə - Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Mən bu sözləri Ankarada da demişəm, İstanbulda da demişəm, bu sözləri burada da demişəm. Bu sözləri təkcə mən demirəm, bizim xalqımız deyir. Eyni zamanda bu sözləri Türkiyə xalqı deyir, Türkiyənin dövlət başçıları deyir. Bax, bunlar buna sübutdur. Yəni artıq bu, söz deyil, real həqiqətdir ki, doğrudan da, bizim dostluğumuz, qardaşlığımız həqiqi dostluqdur, həqiqi qardaşlıqdır. Bu, dövlətlərarası əlaqələrdən qat-qat üstün bir şeydir. Bu günlərdə bunun hamısı özünü göstərdi və nümayiş etdirdi.

Doğrudan da, bizim dövlət tərəfindən nə lazımdırsa, dərhal mən etdim. Siz bunu bilirsiniz. Ancaq mənim dövlət başçısı kimi atdığım addımları xalq nəinki dəstəklədi, kim özü nə mümkündür, onu da etdi. Siz bunların hamısını gözəl ifadə etdiniz. Mən hesab edirəm ki, bu, bizim qardaşlıq borcumuzdur. Başqa cür də ola bilməzdi.

Məsələn, iki gün bundan öncə mən əziz dostum, hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl ilə telefonla danışırdım. Mən Cenevrədən dönəndən sonra o, mənə telefon etmişdi. Mənə söylədi ki, 60-dan çox ölkədən yardım, nümayəndələr gəlmişdir. Bu, təbiidir, çünki fəlakət böyükdür. Dünyada insanlar, ölkələr bir-birinə münasibətdən asılı olmayaraq belə fəlakət zamanı bir-birinə kömək edirlər. Bu 60 dövlətin içərisində bizim köməyimizin miqdarının nə qədər olduğunu deyə bilmərəm, ancaq bu işə səmimi, ürəkdən, candan yardım edən, bu işə qoşulan, yəni orada hər bir işi öz ailəsinin işi kimi, öz xalqının işi kimi görən, şübhəsiz ki, Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir. Mən başa düşürəm, burada siz bu sözləri deyirsiniz və mən də bunu məmnuniyyətlə

qəbul edirəm. Ancaq eyni zamanda bunun əvəzində, bunun müqabilində mən dedim ki, bu, bizim borcumuzdur və başqa cür ola da bilməzdi.

O ki qaldı bizim oraya gedən rəsmi adamlara, məndə də çox məlumatlar var ki, onlar orada çox işləyiblər, yaxşı işlər görüblər. O neftayırma zavodunda yanğının söndürülməsinə köməyi siz dediniz. O yanğını ilk dəfə biz bilmədik. Çünki mən birinci təyyarədə əsas lazım olan adamları, bir də həkimləri göndərdim. Bizim Baş nazirin müavini Abid Şərifovun üzərinə vəzifə qoydum ki, sən get, bu işi təşkil et.

Mən başa düşürəm, orada belə hallarda çox çətin olur. Çünki, dövlətdir, hökumətdir, hökumət orqanlarıdır - bunlar hərəsi öz işi ilə məşğuldur. Amma kənardan gələn bir adamı buraya qatmaq bir qədər çətindir. Ona görə də mən Baş nazirin müavinini bu işə təyin etdim. Onlar da getdilər, tezliklə əlaqələr qurdular və kömək etdilər. Amma sonra mənə xəbər verdilər ki, yanğınsöndürənlər lazımdır və o yanğını söndürmək üçün bir çox ləvazimatlar lazımdır. Biz dərhal onları da göndərdik.

Məsələn, əgər bilsəydik ki, o yanğınsöndürənlər həmin gün lazımdır, o gün də göndərə bilərdik. Biz bunu sonra bildik və onları da göndərdik. Bunlar hamısı bizim borcumuzdur, qardaşlıq borcumuzdur və bundan sonra da nə mümkün olacaq fəlakətin yaratdığı bütün çətinlikləri aradan qaldırmaq üçün Azərbaycan əlindən gələni edəcək və Azərbaycan mənəvi cəhətdən daim türklərlə bərabər olacaqdır. Biz heç vaxt bu hissiyatlardan ayrılmayacağıq.

Məsələn, siz danışdınız. Bunların çoxunu bəlkə mən bilmirəm ki, sadə insanlar gəlib sizə öz yardımlarını göstərirlər. Ola bilər, o işin həll olunması üçün bu yardımın o qədər də gücü yoxdur. Amma bu, insanların münasibətini göstərir. Yəni bu, mənim üçün çox sevindirici haldır. Onu ki, dövlət etdi, hökumət etdi - o aydındır. Amma onu ki, hər bir vətəndaş edir, hər bir azərbaycanlı edir, -bu, mənim üçün ən qiymətlidir. Çünki müstəqil Azərbaycanın dövlət başçısı kimi mənim Türkiyə ilə Azərbaycan arasındakı dostluq əlaqələrində apardığım siyasətin konkret göstəricisi bax, budur. Yəni bu, söz deyildir. Bu, şüar deyildir. Bu, kiməsə xoş gəlmək üçün deyildir. Budur bizim xalqımızın daxilində olan hissiyatlar. Mənim də bir dövlət başçısı kimi bu hissiyyatları bilərək onları təmsil etmək, dünyaya bildirmək borcumdur və mən də bunu edirəm. Yəni mən bunu təkcə özümün fikirlərimlə yox, xalqımın fikirlərini ifadə edərək deyirəm.

Yenə də deyirəm, gərək belə olmasın, fəlakət olmasın. Ancaq belə hallarda insanlar çox böyük sınaqlardan keçirlər. Həm dövlət sınaqdan keçir, həm hökumət sınaqdan keçir, hər bir insan sınaqdan keçir. Həm də ki, dostlar sınaqdan keçir. Bu dostluğun, necə deyərlər, ən gözəl, səmimi, həqiqi olmasını sübut edən, bax, bu

ağır vaxtda olan əlaqələrdir. Ona görə, mən bir daha deyirəm ki, keçmiş olsun. Bundan sonra da biz nə lazımdır, edəcəyik və güman edirəm, Türkiyə hökuməti bu ağır dövrü yaşayıb keçəcəkdir.

Əziz dostum, Cümhurbaşkanı Süleyman Dəmirəl mənimlə danışanda bunu xüsusi qeyd etdi. Dedi ki, sizin yardımınız Türkiyədə çox yararlı oldu. O da mənə xüsusən neftayırma zavodundakı yanğınınsöndürülməsini, həkimlərin işlərini dedi. Onların çoxunu bilir. Bunları xüsusi qeyd etdi və təşəkkürünü bildirdi. Mən də çox məmnunam ki, biz bu günlər bir yerdəyik və bundan sonra da bir yerdə olacağıq.

Qədri Ecvet Tezcan: Axır qəminiz olsun.

Heydər Əliyev: Sizin də son qəminiz olsun. Bir daha deyirəm, keçmiş olsun. Sağ olun.

"Azərbaycan"qəzeti, 7 avqust, 1999-cu il.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem ilə görüşü

10 sentyabr 1999-cu il.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev - "Baltik-Qara Dəniz Əməkdaşlığı: XXI əsrdə ayırıcı xətlər olmayan inteqrasiyalı Avropaya doğru" forumu çərçivəsində keçirilən sammitdə iştirak etmək üçün Yaltaya gəlmiş Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem ilə təkbətək görüş keçirtmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli şərəf başçım!

Əziz Prezidentim!

"Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının işlənilməsinə dair imzalanan və "Əsrin müqaviləsi" adlandırılan müqavilənin beşinci ildönümündə Zati-alinizə və yüksək simanızda Azərbaycan xalqına təqdirimizi və təbriklərimizi yetirdiyimə çox şadam.

Möhtərəm Prezidentimiz!

Bu gün, beşinci ildönümünü sevinclə qeyd etdiyiniz bu bayram günündə inandığımızı bildirmək istəyirəm ki, Siz özünüzün elan etdiyiniz prinsiplərin işığında memarı olduğunuz Bakı - Ceyhan neft boru xəttini də bayramlara səbəb olacaq bir şəkildə gerçəkləşdirəcəksiniz.

Türkiyədən Sizə sevgi, hörmət və bağlılığımızı bildirərək neçə belə beşilliklər keçirməyinizi arzulayırıq. Hörmət və məhəbbətlə,

Akkan SUVER,
Türkiyə Starteji və Sosial Araşdırmalar Vəqfi Mərmərə qrupunun baş direktoru.
İstanbul, 15 sentyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab Prezident, əziz qardaşım.

Azərbaycanın Xəzər dənizində olan "Azəri", "Günəşli" və "Çıraq" neft yataqlarının istismarı ilə əlaqədar 1994-cü il sentyabrın 20-də dünyanın qabaqcıl şirkətləri ilə imzaladığınız və ölkənizin tarixində xüsusi bir əhəmiyyətə malik olan "Əsrin müqaviləsi"nin ildönümü mərasimləri münasibətilə mənə göndərmiş olduğunuz hörmətli dəvətinizlə bağlı böyük məmnuniyyət duyduğumu və təşəkkürlərimi bildirirəm.

Təəssüflər olsun ki, 1999-cu il avqustun 17-də ölkəmizin məruz qaldığı zəlzələ fəlakətinin törətdiyi yaraların sarsılması ilə əlaqədar çalışmalarla bağlı olaraq üzüntü hissi ilə mərasimdə iştirak edə bilməyəcəyəm. Dövlət naziri cənab Abdulxaliq Çay 1999-cu il sentyabrın 20-də keçiriləcək ildönümü mərasimlərində məni təmsil edəcəkdir.

"Əsrin müqaviləsi" qardaş Azərbaycanın rifahının artırılması və hər bir sahədə dünya ilə bütünləşmə səylərinin müvəffəqiyyətlə qovuşması baxımından tarixi bir dönüş nöqtəsi olmuşdur. Bu müqavilənin həyata keçirilməsində Zati-alinizin oynadığı həlledici rol hər cür təqdirə layiqdir.

Keçmiş 5 il ərzində bu müqavilənin həyata keçirilməsi və Azərbaycanın neft istehsalının artırılması istiqamətində mühüm inkişaflar olmuşdur. Bugünkü mərhələdə əlaqədar ölkələr olaraq qarşımızda duran ən mühüm məsələ bu müqavilənin, başda qardaş Azərbaycan olmaqla bölgədə rifah və sabitliyin qəti və daimi olması baxımından həlledici rol oynayacaq Bakı - Ceyhan ana ixrac neft boru xətti ilə bağlı çalışmaların tamamlanaraq layihənin ən qısa zamanda həyata keçirilməsini təmin etməkdir. Məsələ ilə əlaqədar ölkələrin ən yüksək siyasi dəstəyinə sahib olan və bölgədə enerji təhlükəsizliyini təmin edə biləcək yeganə layihə olan Bakı - Ceyhan boru xətti layihəsi XX əsrin ən parlaq sülh layihəsi olacaq, bölgədəki bütün ölkələrin rifahına həqiqətən təsirini göstərəcəkdir. Zati-aliləri, əziz qardaşım bu layihəyə əvvəldən bəri verdiyiniz dəstəyə görə bir daha minnətdarlıq və təşəkkürlərimi ifadə etmək istərdim.

"Əsrin müqaviləsi"nin başda qardaş Azərbaycan olmaqla bütün əlaqədar tərəflər üçün xeyirli nəticələr verməsi arzusu ilə, Zati-aliləri, əziz qardaşımın simasında mərasimlərdə iştirak edən qiymətli qonaqları salamlayır, azərbaycanlı qardaşlarıma ən dərin məhəbbətimi və xoş diləklərimi çatdırmağınızı xahiş edirəm.

Süleyman DƏMİRƏL,
Türkiyə Cümhuriyyətinin
Prezidenti
Ankara, 15 sentyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HÖRMƏTLİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

"Əsrin müqaviləsi"nin imzalanmasının beşinci ildönümü münasibətilə Zati-alinizi və Sizin simanızda bütün qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. "Əsrin müqaviləsi"nin imzalanması və ABŞ-in yaradılması Azərbaycanın tam müstəqilliyinin ən önəmli dönüş məqamlarından biridir.

Bu müqavilənin imzalanması və ötən beş il ərzində əldə etdiyiniz nailiyyətlər Sizin yüksək dövlətçilik qabiliyyətinizin, qətiyyətli və dürüst strategiyanızın gözəl nəticələridir. Mən, ailəm və bütün iş yoldaşlarım Zati-alinizi bir daha ürəkdən təbrik edir, Sizə cansağlığı və qardaş Azərbaycan xalqı ilə birlikdə səadət arzulayırıq.

Hüseyn BAYRAQDAR,
"Bayraqdar Holdinq" şirkəti
idarə heyətinin sədri.
İstanbul, 20 sentyabr 1999-cu il.

İKİNCİ AVRASİYA İQTİSADİ ZİRVƏSİ NÜMAYƏNDƏLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN MÜRACİƏTİ

Hörmətli nümayəndələr! Sizi - Avrasiya Dövlətləri İkinci İqtisadi Zirvə toplantısının bütün iştirakçılarını səmimi qəlbdən təbrik edir və konfransın işinə uğurlar diləyirəm.

Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin təşəbbüsü, Türkiyə Prezidenti Zati-aliləri cənab Süleyman Dəmirəlin himayəsi və bilavasitə iştirakı ilə 1998-ci ilin may ayında İstanbulda keçirilən türk dövlətlərinin birinci iqtisadi zirvəsi əlamətdar bir hadisə olmuş və xalqlarımız, dövlətlərimiz arasında iqtisadi əməkdaşlığın inkişafına əməli təsir göstərmişdir. İstər birinci zirvə görüşünün, istərsə də builki Avrasiya ölkələri zirvəsinin regionda və dünyada böyük nüfuzu, iqtisadi, siyasi potensialı ilə seçilən, iki qitənin kəsişdiyi Türkiyədə keçirilməsinin əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. Məhz elə bunun nəticəsidir ki, builki toplantı türkdilli dövlətlərlə yanaşı, Avropa və Asiyanın əsas dövlətlərinin də marağını cəlb etmiş və onların bu zirvəyə qatılmasına səbəb olmuşdur.

Əsas amalı təmsil etdikləri xalqlara dinc, firavan həyat boxş etmək, regionda və dünyada sülh və əməkdaşlıq şəraitində yaşamaq olan türkdilli dövlətlərin birgə tədbirlərinə

Avrasiya məkanının əsas ölkələrinin qatılması çox əhəmiyyətlidir. Əmin olduğumu bildirirəm ki, zirvədə həm türk dövlətləri, həm də region ölkələri arasında mövcud olan iqtisadi və siyasi əlaqələr hərtərəfli araşdırılacaq, bütün sahələrdə əməkdaşlığın inkişafı və müşahidə olunan problemlərin qaldırılması üçün mühüm təkliflər səslənəcəkdir.

Azərbaycan bu gün həm türkdilli dövlətlər, həm də regionun, Avropa və Asiyanın bütün aparıcı dövlətləri ilə hərtərəfli iqtisadi əlaqələr yaradır və bundan sonra da bu xətti davam etdirəcəkdir. Xəzər regionunun zəngin neft və qaz ehtiyatlarının birgə istismarı, böyük "İpək yolu" adlanan Avropa-Asiya nəqliyyat-kommunikasiya dəhlizinin bərpası və işə salınması, regionda geniş enerji mübadiləsi yaradılması və ümumi regional təhlükəsizliklə bağlı bizim həyata keçirdiyimiz tədbirlər nəinki təkcə Azərbaycan xalqı, eyni zamanda bütün türk dünyası, region dövlətləri və xalqları üçün geniş imkanlar yaratmışdır.

Fürsətdən istifadə edib hər iki zirvənin təşkilatçısı olan, Türkiyənin qabaqcıl iş və düşüncə adamlarını öz sıralarında birləşdirən, xalqlarımızın firavanlığı və tərəqqisinə çalışan Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinə, onun sədri cənab Akkan Suverə öz dərin hörmət və sevgimi çatdırıram. Türkiyə Respublikasının Prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəllə birgə bu Vəqfin fəxri sədri olmağımdan məmnunluq duyuram və bununla bağlı üzərimdə ciddi bir məsuliyyət hiss edirəm.

"Azərbaycan" qəzeti, 13 oktyabr 1999-cu il.

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİK YUBİLEYİ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli xanımlar və cənablar! Hörmətli qonaqlar, dostlar!

Mən sizə bir daha müraciət etmək məcburiyyətindəyəm. Çünki bu gün bizim təntənəli mərasim gedən zaman Türkiyənin Prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl buraya, Naxçıvana telefon etmişdir.

Mən mərasim qurtarandan sonra telefon əlaqəsinə girdim. O söylədi ki, mən bu bayram günü sizinləyəm, Azərbaycanlayam, Naxçıvanlayam, öz təmsilçilərimi - iki dövlət nazirini, millət vəkilini, valiləri oraya göndərmişəm. Mən həm Azərbaycan Prezidentinə, həm Naxçıvan Ali Məclisinin sədrinə təbrik məktubu göndərmişəm. Ancaq təəssüf edirəm ki, gələ bilmədim. Ona görə də mən istədim telefonla, öz səsimlə, öz dilimlə Sizi Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi münasibətilə bir daha təbrik edim.

Təbiidir, Türkiyə kimi böyük bir dövlətin Prezidenti, Cümhurbaşkanı bir çox işlərlə səhərdən axşama qədər məşğuldur. Xüsusən, zəlzələdən sonra orada gedən işlər bütün hökumətin, dövlətin nəzər-diqqətini cəlb edib, onları məşğul edibdir. Belə bir şəraitdə, belə gərgin iş rejimi şəraitində, öz təbrik məktublarını və yüksək nümayəndələrini Azərbaycana, Naxçıvana göndərdiyi halda vaxt tapıb telefon edib öz dili ilə, öz səsi ilə bir daha təbrik etməsi məni həddindən artıq sevindirir və mütəassir edir.

Bu, hörmətli Süleyman Dəmirəlin nə qədər böyük insan, nə qədər qayğıkeş, diqqətli adam olduğunu, Azərbaycana, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana nə qədər böyük məhəbbət bəslədiyini bir daha əyani surətdə göstərir. Mən böyük iftixar hissi ilə deyirəm və iftixar hissi keçirirəm ki, Azərbaycan xalqının Süleyman Dəmirəl kimi belə böyük dostu vardır.

Türkiyə Cümhuriyyətinin 75 illiyini biz keçən il Ankarada təntənəli qeyd etdik. Bütün bu 75 illik tarixə nəzər saldıqda bir nəticə çıxarılır: böyük öndər Atatürk tərəfindən yaranmış, əsası qoyulmuş və onun rəhbərliyi ilə böyüyüb qüdrətli bir cümhuriyyətə çevrilmiş Türkiyə Cümhuriyyəti etibarlı əllərdədir. Bizi ən çox sevindirən odur ki, Türkiyə xalqı, hökuməti, dövləti Mustafa Kamal Atatürkün yoluna sadiqdir və onun qoyduğu böyük yolla gedərək yüksək nailiyyətlər əldə ediblər.

Bütün bu tarixi proseslərdə və Türkiyənin tarixi inkişafında 40 ildən artıq Türkiyənin siyasi səhnəsində olan böyük dövlət xadimi, siyasi xadim əziz Süleyman Dəmirəlin müstəsna rolu vardır.

Hörmətli Süleyman Dəmirəl böyük Atatürkün ideyalarının, onun irsinin, vəsiyyətlərinin, qoyduğu yolun aparılmasında və həyata keçirilməsində liderlik edir, böyük Atatürk Cümhuriyyətinin inkişafında böyük xidmətlər göstərir və xalqı daim Atatürkün yolu ilə aparır.

Qardaş türk xalqının, dost, qardaş Türkiyə Cümhuriyyətinin şərəfinə, müasir türk dünyasının lideri, Türkiyə Cümhuriyyətinin Prezidenti və ən yüksək hörmətə malik olan şəxsiyyəti, Azərbaycan xalqının əziz dostu, hörmətli Süleyman Dəmirəlin şərəfinə sağlıq təklif edirəm.

"Azərbaycan" qəzeti, 15 oktyabr 1999-cu il.

AZƏRBAYCANIN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "SAMANYOLU" TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏSİ

Sual: Cənab Prezident, Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü bayramınızı təbrik edirik. Dörd gündür ki, Naxçıvanda çox coşğun hava mövcuddur. Siz 1993-cü il-

də Bakıya qayıtdıqdan sonra ikinci dəfədir ki, Naxçıvana gəlirsiniz, Naxçıvandakı dəyişiklikləri Siz də gördünüz. Naxçıvanda keçirilən bayram tədbirlərini və bu müsbət dəyişiklikləri necə qiymətləndirirsiniz?

Cavab: Təşəkkür edirəm. Mən əvvəlcə sizin bu televiziyanızdan istifadə edərək, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına, türk xalqına öz salamımı, sayqılarımı, sevgimi, məhəbbətimi bildirirəm. Çox məmnunam ki, biz Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü münasibətilə bu bayram mərasimlərini qardaş Türkiyə ilə bərabər keçiririk. Mən xüsusən sizin televiziyanın - "Samanyolu" televiziyasının da bu sahədə xidmətlərini yüksək qiymətləndirirəm.

Bəli, mən 1993-cü ilə qədər Naxçıvanda işləmişdim. 1993-cü ilin iyun ayında Azərbaycanda yaranmış gərgin vəziyyətə görə, vətəndaş müharibəsi başlandığı və Azərbaycanın artıq dağıldığı bir zamanda xalq tərəfindən və o vaxtkı hakimiyyət tərəfindən xahiş etdilər, Bakıya getdim. Mən o vaxtdan Azərbaycana rəhbərlik edirəm.

Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, muxtar respublikadır. Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, vaxtilə Azərbaycana qarşı ədalətsizlik edilib və Zəngəzur diyarının Ermənistana verilməsi ilə olaqədar Naxçıvan Azərbaycanın əsas torpağından ərazi nöqteyi-nəzərdən ayrı düşübdür. Ona görə də burada muxtariyyət dövründə yaşayış o qədər də asan olmayıbdır. Ancaq Naxçıvanın muxtariyyətinin olması ərazi cəhətdən ayrı düşmüş Naxçıvanın inkişaf etməsinin əsas şərtlərindən biridir.

Naxçıvanın muxtariyyət statusu alması da çox ağır, gərgin bir dövrdə, yəni gərgin mübarizələr nəticəsində olmuşdur. Bu mubarizələrdə Türkiyə Cümhuriyyətinin və böyük Mustafa Kamal Atatürkün də böyük rolu olmuşdur. Xüsusən 1921-ci ildə Türkiyə, Azərbaycan, Rusiya, Ermənistan və Gürcüstan tərəfindən imzalanmış Qars müqaviləsi Naxçıvanın statusunun müəyyən edilməsinə çox böyük yardım göstərmişdir.

Təbiidir ki, bütün bunlara görə də indi Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümündə türk xalqı, Türkiyə Cümhuriyyəti belə yaxından, bizimlə bərabər iştirak edir. Bu təntənəli mərasimi daha da zənginləşdirən, ona daha da böyük ruh verən Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəlin göndərdiyi təbrik məktubudur.

Siz müşahidə etdiniz ki, təntənəli mərasimin keçirildiyi salonda olan insanlar bu məktubu, mesajı nə qədər böyük sevinclə, hərarətlə qarşıladılar və ayağa qalxaraq onu alqışladılar. Türkiyənin böyük nümayəndə heyətinin - dövlət və hökumət nümayəndələrinin, o cümlədən nazirlərin, millət vəkillərinin, qonşu vilayətlərin valilərinin də bu mərasimdə iştirak etməsi göstərdi ki, biz bayramı bir yerdə keçirdik. Yenə də deyirəm, bu sevindiricidir, ancaq təəccüblü də deyil, belə də olmalıdır. Bu, təbiidir, çünki Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bunu tələb edir, belə olmalıdır.

Bu mərasim sırasında çox sevindirici hal bir də odur ki, vaxtilə, 1992-ci ildə mən Naxçıvanda işləyərkən, Türkiyənin hökuməti, dövləti ilə əlaqələr qurarkən, xüsusən Türkiyənin o vaxtkı Baş naziri, indiki Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə bir neçə dəfə Ankaraya gedib Naxçıvanın problemlərini həll edərkən və Türkiyədən gələn nümayəndələrlə burada görüşərkən Türkiyə tərəfindən bir məscidin, camenin tikilməsini də rica etmişdim. O vaxt buna razılıq verdilər, yer seçdik, layihəsinə baxdıq sonra onun inşasına başladılar. Çox məmnunam ki, gözəl bir məscid, came tikildi. Biz Türkiyədən gələn qonaqlarla, o cümlədən hörmətli Diyanət İşləri naziri ilə bu məscidin, camenin açılması mərasimini keçirdik.

Məni çox sevindirdi ki, Azərbaycan üçün, xüsusən Azərbaycanın Naxçıvan bölgəsi üçün adı çox əziz olan Kazım Qarabəkir paşanın qızı da Naxçıvanı ziyarət etdi. O bu mərasimdə iştirak etdi. Bu cameyə Türkiyə xalqının qəhrəmanı, böyük Mustafa Kamal Atatürkün silahdaşlarından biri Kazım Qarabəkir paşanın adı verildi.

Görürsünüz, biz sizinlə birgə qısa bir müddətdə Türkiyə-Azərbaycan dostluğunu, qardaşlığını göstərən, nümayiş etdirən və bir daha təsdiq edən nə qədər hadisələrin iştirakçısı və şahidi olmuşuq. Şübhəsiz ki, mən bütün bunlara görə də sevinirəm və çox məmnunam.

MÜXBİR: Siz buradakı bütün çıxışlarınızda demisiniz ki, Türkiyə ilə Azərbaycan əbədi olaraq qardaşdır və qardaş olaraq da qalacaqdır.

Heydər Əliyev: Bəli.

Sual: Burada ən önəmli hadisələrdən biri də Robert Koçaryanla sərhəddə keçirdiyiniz görüş idi. Qarabağ məsələsini uluslararası beynəlxalq təşkilatın artıq həll edə biləcəyi, ikitərəfli görüşlərin başlanmasının vacibliyi barədə yeni bir tezeist irəli sürdünüz. Sizin səyləriniz sayəsində bu görüşlər baş tutdu. Qarabağ probleminin həlli ilə bağlı ikitərəfli görüşlər necə olacaq və bu, beynəlxalq təşkilatları hansısa şəkildə üzərmi, sıxıntıya salarmı?

Cavab: Yox, nə üzməz, nə də sıxıntıya salmaz. Uluslararası təşkilatlar, yəni ATƏT-in Minsk qrupu və Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu işlərlə məşğul olurlar və məşğul olacaqlar. Onların vasitəçilik, yəni araçılıq fəaliyyəti indiyə qədər olub, indi də olmalıdır.

Mən sentyabr ayının əvvəlində Rusiyanın Xarici İşlər naziri İvanovla görüşərkən, sonra Amerika Birləşmiş Ştatları Prezidentinin ATƏT-in

Minsk qrupundakı xüsusi nümayəndəsi ilə də görüşərkən bəyan etdim, dedim ki, Minsk qrupu fəaliyyətdə olmalıdır, çalışmalıdır və bizə yeni təkliflər verməlidir. Çünki öncə verilmiş təklifdə, yəni təxminən bir il, yaxud 11 ay bundan əvvəl verilmiş təklifdə məsələni sülh yolu ilə həll etmək üçün bir "ortaq dövlət" prinsipi meydana atılmışdı. Biz bunu qəbul etməmişdik, bu gün də qəbul etmirik. Çünki "ortaq dövlət" prinsipini qəbul etmək Dağlıq Qarabağa müstəqillik vermək deməkdir. Sadəcə, bunu üstüörtülü edirlər. Bu, bir az adam aldatmaya bənzəyir. Guya ki, Azərbaycan Dağlıq Qarabağa status verir və Azərbaycanın torpaq bölünməzliyi, yəni ərazi bütövlüyü təmin olunur, amma eyni zamanda Azərbaycanın torpağında bir yeni erməni dövləti meydana çıxır.

Biz bunu qəbul etmədik. Amma keçmişdə də təkliflər olmuşdu, biz bu təkliflərin demək olar ki, əksəriyyətini qəbul etmişdik. Yəni bu təklifləri Minsk qrupu vermişdi, ancaq Ermənistan onları qəbul etməmişdi. İndi ilk dəfədir ki, biz qəbul etmirik, Ermənistan qəbul edir. Minsk qrupunun həmsədrləri də bundan artıq təklif vermək istəmirlər. Bəzi yerlərdə də erməni lobbisinin təsiri ilə bizi günahlandırırlar ki, nə üçün biz bunu qəbul etmirik. Mən deyirəm ki, əcəba, bəs vaxtilə, 2-3 il bundan öncə, hətta 2 il bundan əvvəl Minsk qrupunun verdiyi təklifi biz qəbul edəndə, Ermənistan qəbul etməyəndə siz onları niyə suçlandırmırdınız, günahlandırmırdınız, tənqid etmirdiniz, indi bizi tənqid edirsiniz?

Ona görə də mən bu gün də bəyan edirəm ki, bu danışıqlar davam etməlidir. Bir də ona görə ki, bu danışıqlar, yəni Minsk qrupunun fəaliyyəti sürətləndirilməlidir. Çünki qarşıdakı ayda, noyabr ayının 18-19-da İstanbulda ATƏT-in zirvə görüşü olacaqdır. Belə bir zirvə görüşü 3 il bundan öncə 1996-cı ilin dekabr ayında Portuqaliyada, Lissabonda olmuşdur. İndi yeni zirvə görüşü olacaqdır və o, böyük bir hadisədir. Orada Minsk qrupu hesabat verməlidir ki, nə edib və biz Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin həll olunması üçün nə etdik. Ona görə də o vaxta qədər qalan günlərdə çox çalışmaq lazımdır. Mən bu gün bəyan edirəm ki, biz Minsk qrupundan yeni təklif gözləyirik.

Mənim və Ermənistan Prezidentinin təkbətək görüşməsi heç də beynəlxalq təşkilatların fəaliyyətini dayandırmır və onları uzaqlaşdırmır. Əksinə, mən hesab edirəm ki, onlar da çalışmalıdır, biz də təkbətək görüşərkən bu məsələnin həll olunması üçün öz səylərimizi göstərməliyik.

Məhz buna görə də bu ilin aprel ayında Vaşinqtonda bizim ilk belə görüşümüz oldu. Sonra biz iki dəfə Cenevrədə, bir dəfə Yaltada görüşdük. Bu dəfə burada, Ermənistan-Azərbaycan sərhədində, Sədərək kəndi yaxınlığında görüşdük, danışdıq.

Sual: Cənab Prezident, bu görüşdə bir irəliləyiş əldə edildimi?

Cavab: Şübhəsiz ki, irəliləyiş alınır və mən hesab edirəm, bu görüşlərin faydası vardır. Bizim görüşlərimiz və müəyyən qədər irəliləyiş əldə olunması, ikinci tərəfdən də Minsk qrupunun sürətlə çalışması, ola bilər, ATƏT-nin zirvə görüşünə bizi dəyərli bir təkliflə gətirib çıxarsın.

Müxbir: ATƏT-in zirvə görüşü bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün çox önəmli olacaqdır.

Heydər Əliyev: Bəli.

Sual: İndi Türkiyədən Azərbaycana həm təhsil, həm də ticarət sahəsində iş görməyə xeyli adam gəlir. Azərbaycana dünyanın bir çox ölkələrindən də gələnlər çoxdur. Türkiyədən gələn iş adamları haqqında nələr düşünürsünüz və indən sonra gələnlərə nələri tövsiyə edirsiniz?

Cavab: Türkiyədən gələn iş adamlarına Azərbaycanda yer çoxdur. Azərbaycanda indi ən çox iş görən Türkiyənin iş adamlarıdır. Ölkənizin böyük elçisi bir dəfə mənə dedi ki, indi Bakıda, Azərbaycanda iş görmək üçün gələn 5000 türk yaşayır. Təbiidir ki, mən istəyirəm onlar daha da çox yatırım qoysunlar. Onlar inşaatda, ticarətdə və başqa sahələrdə çalışırlar, bir neçə kiçik fabriklər yaradırlar. Ancaq bunlar azdır.

Mən dəvət edirəm ki, onlar Azərbaycana böyük yatırımlar qoysunlar. Məsələn, biz neft sahəsində Amerika və Avropanın bir çox ölkələri ilə, Qərb ölkələri ilə əməkdaşlığımızla Azərbaycana çox böyük yatırım gətirmişik. Yalnız bu müqavilələrdən Azərbaycana 3 milyard dollara yaxın yatırım gəlibdir. Bunların içərisində Türkiyənin də yeri vardır.

Mən 1994-cü ildə "Türk petrolları" şirkətini birinci müqaviləyə qatdım, o vaxta qədər layihədə Türkiyənin həmin müqavilədə 1,75 faiz yeri var idi. Amma müqavilə bağlanandan sonra mən Azərbaycanın hissəsindən 5 faiz Türkiyəyə verdim və onu 6,75 faiz etdim. Türkiyəyə "Şahdəniz" yatağı üzrə bağlanan müqavilədə 10 faiz, digər yataqlarda da 10 faiz yer vermişik.

Bilirsinizmi, bələliklə, mən Türkiyəni neft ölkəsi etdim. Bu, önəmlidir. Amma başqa sahələrə də yatırım gətirmək lazımdır. Türkiyədə belə imkanlar var. Türkiyənin iş adamları dünyanın çox ölkələrinə yatırımlar qoyurlar. Amma onlar ən çox yatırımı Azərbaycana qoymalıdırlar. Çünki Türkiyəyə Azərbaycan qədər yaxın bir ölkə yoxdur.

Sual: Bütün çıxışlarınızda bəhs etdiyiniz xüsusi bir nöqtə vardır. Zati-alinizin rəhbərliyi altında son 8-10 il ərzində Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində çox böyük işlər görülmüşdür. Siz demokratik və hüquqi dövlət quruculuğu yolunu necə görürsünüz?

Cavab: Yox, biz 10 il deyil, 8 il bundan əvvəl öz müstəqilliyimizi bəyan etmişik. Amma sən bu 8 ilin 3 ilini çıx. Çünki onda dövlət qurmaq mümkün deyildi. O vaxt vətəndaş müharibəsinin qarşısını almaq lazım idi.

Sizə məlum olduğu kimi, 1994-cü, 1995-ci illərdə dövlət çevrilişinə silahlı cəhdlərin qarşısını almaq lazım idi. Azərbaycanın cənubunda "Talış-Muğan Cümhuriyyəti" yaranmasının, bir neçə terror aktlarının qarşısı alınmalı idi.

Ona görə də biz 1995-ci ildən bu işləri daha da sürətlə apardıq. 1995-ci ilin noyabr ayında biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını, Ana Yasasını qəbul etdik. Bu Konstitusiyada Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etmək yolunu müəyyən etdik. İndi bunu həyata keçiririk, dövlət quruculuğu gedir. Amma bu dövlət quruculuğu bir ayın, bir ilin işi deyildir. Bu, böyük bir prosesdir. Biz bu prosesi aparırıq. Azərbaycanda demokratiya inkişaf edir, insan haqları qorunur, insan, mətbuat, söz, fikir, vicdan azadlığı - hamısı təmin olunubdur. Azərbaycan öz inkişaf yolunu belə seçib və belə də gedəcəkdir.

Müxbir: Cənab Prezident, Sizə çox təşəkkür edirəm, yoruldunuz. Sağ olun.

Heydər Əliyev: Mən tamaşaçıları bir daha salamlayır, onlara xoşbəxtlik, səadət arzulayıram və hər kəsə, hər bir türk qardaşıma uğurlar arzulayıram.

"Azərbaycan" qəzeti, 15 oktyabr 1999-cu il.

NAXÇIVANDA "KAZIM QARABƏKİR PAŞA MƏSCİDİ"NİN AÇILIŞ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Möhtərəm xanımlar və cənablar!

Əziz bacılar, qardaşlar, dostlar!

Türkiyə Cümhuriyyətindən Azərbaycana, Naxçıvana gəlmiş çox hörmətli qonaqlarımız, dostlarımız, qardaşlarımız!

Bu günlər biz Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümünü bayram edirik. Çünki Azərbaycanın ən gözəl bir diyarı, eyni zamanda Azərbaycana düşmən olan bəzi qüvvələr tərəfindən 20-ci illərdə Ermənistan ərazisi vasitəsilə Azərbaycan torpağından ərazi nöqteyi-nəzərindən ayrı salınmış Naxçıvanın muxtariyyət alması və 75 il müddətində muxtar dövlət kimi yaşaması böyük hadisədir. Ona görə bu bayram bütün Azərbaycan xalqının bayramıdır.

Bu bayram bizim dostlarımızın, qardaşlarımızın da bayramıdır. O cümlədən bizim dost, qardaş Türkiyə Cümhuriyyətinin, türk xalqının bayramıdır. Təsadüfi deyil ki, bu təntənələrdə Türkiyə Cümhuriyyətinin ən yüksək səviyyəli nümayəndə heyəti iştirak edir. Onlar bizimlə bərabərdir, bu bayram günlərini bizimlə birlikdə keçirirlər.

Bu bayrama Türkiyənin çox yüksək səviyyəli nümayəndə heyətinin gəlməsi ilə bərabər, bu bayramı Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının əziz dostu, mənim qardaşım Süleyman Dəmirəl göndərdiyi çox nəzakətli mesaj ilə təbrik etmişdir. Onun təbrikі dünən bayram təntənəsinə toplaşmış salonda elan edilərkən xalq, insanlar tərəfindən böyük sevinc və məhəbbət hissi ilə qarşılandı.

Dünən bizim təntənəli mərasim keçirilən zaman əziz dostumuz, qardaşımız, Zati-alіləri Süleyman Dəmirəl Naxçıvana telefon etdi, bizi bu bayram münasibətilə bir daha təbrik etdi, mənimlə telefonda danışdı, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovla danışdı və özünün bayram təbriklərini bir daha, bir daha bu xalqa çatdırmağı xahiş etdi.

Mən dünən dedim və bu gün də bildirmək istəyirəm ki, bu bayram günlərini keçirmək haqqında bir neçə ay bundan öncə hörmətli Süleyman Dəmirəllə danışarkən biz razılaşdıq ki, bayrama bərabər gələcəyik və o, Naxçıvanı bir daha ziyarət edəcəkdir. Bu arzularla naxçıvanlılar da yaşayırdı və mən də yaşayırdım. Ancaq Türkiyədə baş vermiş zəlzələ və onun nəticəsində olan faciə, böyük insan itkiləri indi Türkiyə dövlətinin, Türkiyə hökumətinin bütün qayğılarını cəlb edibdir. Türkiyənin Prezidenti bütün xarici səfərlərini ləğv edibdir. Ona görə buraya gəlməsi mümkün olmadı.

Bu gün bu fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyətinin, Türkiyə xalqının üzləşdiyi ağır fəlakət, zəlzələ, faciə ilə əlaqədar Azərbaycan xalqının kədərini, qüssəsini və başsağlığını bir daha bəyan edirəm. Dünən biz təntənəli mərasimdə böyük Atatürkün hörmətli Süleyman Dəmirəlin məktubunda yazılmış sözlərini dərin minnətdarlıq hissi ilə qarşıladıq. O sözlər daim bizim xatirimizdədir. Böyük Atatürk demişdi: "Azərbaycanın aləmi bizim aləmimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir". Biz də, Azərbaycan Prezidenti olaraq mən də Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demişəm: **"Türkiyənin aləmi, dərdi, kədəri bizim dərdimizdir, bizim kədərimizdir, Türkiyənin sevinci bizim sevincimizdir".**

Ona görə o faciə günləri biz bir yerdə keçirdik, bərabər olduq. O günlərdə türk və Azərbaycan xalqlarının birliyi bir daha nümayiş etdirildi. Biz dərhal yardım əlimizi uzatdıq və zəlzələnin vurduğu zərərləri aradan qaldırmaq üçün imkanımız daxilində yardım göstərdik. Bunlar hamısı, o cümlədən bu gün burada Türkiyənin Diyanət İşləri Bakanlığı tərəfindən inşa edilmiş və Naxçıvana, Azərbaycana hədiyyə olunmuş gözəl məscidin, camenin açılması da Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gözəl nümunəsidir.

Bəli, biz dəfələrlə deyirik: "Biz bir millət, iki dövlətik".

Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu

təşkil edir. Bu dostluq, qardaşlıq türk xalqı, Anadolu türkləri ilə Azərbaycan xalqı, Azərbaycan türkləri arasında əsrlərdən-əsrlərə gələn dostluq, qardaşlıqdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra biz 70 il bir-birimizdən ayrı düşmüşdük. Amma bu 70 il bizi bir-birimizdən qəlbən ayırmamışdır. Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi, müstəqil dövlət olaraq dünyaya bəyanat verən kimi, sərhədlər açılan kimi Türkiyə və Azərbaycan bir daha birbirinə qovuşdu və əbədiyyətə qədər qovuşdu.

Azərbaycan xalqı ağır dövrlərdə Türkiyənin və türk xalqının yardımını görüb və daim buna minnətdardır. Xüsusən 1918-19-cu illərdə böyük Atatürkün sərkərdəliyi və başçılığı ilə istiqlal savaşı apararkən, öz torpağını ermənilərdən və başqa düşmənlərdən təmizləyərkən türk xalqı, Türkiyə Azərbaycana, Naxçıvana da öz xidmətini göstərdi.

Bəli, Türkiyə ordusu - Ənvər paşanın, Nuru paşanın başçılıq etdikləri Türkiyə ordusu Azərbaycana gəldi - Gəncəyə, Naxçıvana, Bakıya gəldi və Azərbaycanı o vaxtkı fəlakətlərdən qurtarmağa yardım etdi, şəhidlər verdi. Ən gərgin vəziyyət burada yaranmışdı. Çünki erməni daşnakları hücum edib buranı işğal edirdilər. Yenə də türk qardaşlarımız, türk ordusu, Mustafa Kamal Atatürkün ordusu buranı erməni daşnaklarından, bizim düşmənlərimizdən xilas etdi.

Burada mənim gənc vaxtımda, 13-16 yaşlarımda, orta məktəbi bitirdiyim illərdə mənə dərs verən, ana dili, türk dili, Azərbaycan dili dərsi verən müəllimim oturubdur - Lətif Hüseynzadə. Dünən təntənəli mərasimdə öz müəllimlərimi yada salırdım. 60 il, bəlkə də 65 il bundan öncə mənə dərs deyən müəllimlərdən birinci əziz müəllimim Lətif Hüseynzadənin adını çəkdim. O, dünən mərasimdə yox idi. Amma onu yad etdiyimi televiziya ilə eşidib bu gün buraya gəlmişdir. Mən burada onunla görüşdüm. Çox məmnunam, çox sevinirəm ki, indiyə qədər yaşayır, öz fəaliyyətini davam etdirir və böyük işlər görür.

Xatirimdədir, mən Moskvada Sovetlər İttifaqı kimi superdövlətin başçılarından biri olduğum zaman istefaya getdim və məni Moskvada təqib etdilər. Orada məni çox incitdilər, hətta böyük təhlükələr qarşısında qalmışdım. Türk xalqı onu da bilməlidir ki, mən rus imperiyası tarixində, sovet imperiyası tarixində, sovet superdövlətinin tarixində Kremlda, o dövlətin başında duranlardan ilk azərbaycanlı, ilk türk, ilk müsəlman olmuşam.

Xatirimdədir, 1982-ci ildə, - o vaxt Azərbaycanın başçısı idim, - məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və Baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə mənim fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başında

bir türk oğlu yüksəldi. Bəli, bu, bizi - azərbaycanlıları, türkləri, müsəlmanları çox sevindirdi. Ancaq düşmənlərimizi kədərləndirdi. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Mənim əleyhimə, o cümlədən erməni düşmənlərimiz tərəfindən müxtəlif təxribatlar, fitnələr və yalanlar, böhtanlar edilirdi. Moskvada üç il ağır bir şəraitdə yaşayandan sonra öz vətən torpağıma, Azərbaycana dönməyi qərara aldım. Gəldim Bakıya. Təəssüflər olsun ki, orada da namərdlər, nadürüst insanlar mənim yaşamağıma imkan vermədilər. Buraya, Naxçıvana gəldim. Burada məni qucaqladılar, qoynlarına aldılar, burada məni yaşatdılar.

Bu hekayəti ona görə deyirəm ki, mən o ağır dövrdə Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik komasında yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə, demək olar ki, səhərdən axşama kimi məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə gəldi. O qədər sevindim ki! Çünki ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq, çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi, hamımızı qıracaqdılar. Bu, mənim gözümün qabağında olan hadisədir.

Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi öz tövsiyələrini verdi. Mən ona dedim: əziz müəllimim, mən böyük həyat yolu keçmişəm. Bu gün Naxçıvana məcburiyyətdən gəlmişəm, amma eyni zamanda gəlmişəm ki, sizinlə bir yerdə olum, bərabər olum, öz həmvətənlərimlə bir yerdə olum və vətənimi qoruyum. Əgər qoruya bilərəmsə - qoruyacağıq, qoruya bilməyəcəyəmsə - hamımız bir yerdə şəhid olacağıq.

Türk ordusunun, xüsusən Kazım Qarabəkir paşanın adı Azərbaycanda, ələlxüsus bu bölgədə məşhurdur və həmişə böyük hörmət-ehtiramla yad edilir. 1921-ci ildə də Naxçıvan ətrafında mübarizə gedirdi. Ermənilər buranı öz əllərinə keçirmək istəyirdilər. Ancaq Naxçıvan xalqı öz iradəsini göstərirdi. 1921-ci ildə Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinin altında bizim hörmətli paşamız Kazım Qarabəkir paşanın imzası var.

1988-ci ildə Ermənistan Azərbaycana təcavüz edən zamandan, - Azərbaycan hələ Sovetlər İttifaqının daxilində idi, - Türkiyə Azərbaycanla bir yerdə oldu. Azərbaycana dayaq durdu, erməni təcavüzkarlarını pis-

ləndi, qınadı. Türkiyə Ermənistan kimi dövləti indiyə qədər tanımır, Ermənistanla öz sərhədlərini açmayıb və Azərbaycanla bir yerdədir.

90-93-cü illərdə, mən burada yaşayarkən, Ermənistanla Azərbaycan arasında müharibə gedərkən, Naxçıvan ağır blokada şəraitində olarkən Naxçıvanın başçısı kimi mən yenə də əlimi Türkiyəyə uzatdım. Əziz dostum Süleyman Dəmirələ müraciət etdim, ona telefon etdim. O, dərhal köməyə gəldi. Biz bərabər, bir yerdə körpü tikdik - "Ümid körpüsü", "Həsrət körpüsü" tikdik. O körpü Türkiyə ilə Azərbaycanı birləşdirdi. İndi o körpü vasitəsilə siz, əziz qonaqlarımız, buraya keçib gəlmisiniz, biz Türkiyəyə gedib-gəlirik. 1992-ci il may ayının 28-də bu körpünün təntənəli açılışını da biz - başda Süleyman Dəmirəl olmaqla Türkiyə hökuməti və Naxçıvan hökuməti, mən - bir yerdə bayram etdik.

Əziz dostum Süleyman Dəmirəllə mənim çox söhbətlərim olub. Xüsusən bu bölgə haqqında, Kazım Qarabəkir paşa haqqında. O, bir dəfə mənə dedi ki, bir kitab var - "Suyu arayan adam", onu sənə göndərərəm, oxu. Mənim məlumatlarım var idi, amma o istəyirdi daha da çox olsun. Aldım, oxudum, çox gözəl bir kitabdır, çox gözəl! Buradakı hadisələr, o cümlədən Kazım Qarabəkir paşanın fəaliyyəti, o dövr çox gözəl əks olunubdur. Yəni hörmətli Süleyman Dəmirəllə mənim aramda olan dostluq əlaqələri çərçivəsində biz bu tarixi bir yerdə təhlil etmiş, bir yerdə düşünmüşük.

İndi xoşbəxtlikdir, bəxtiyarlıqdır ki, biz bu günlərə gəlib çatmışıq. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı möhkəm olub, sarsılmazdır və əbədi olacaqdır!

Hörmətli Diyanət İşləri bakanı dedi ki, bu, Heydər Əliyevin əsəridir. Mən buna çox məmnunam, amma eyni zamanda həqiqət də budur ki, mən burada işləyərkən körpünü açdıq, yollar açıldı, getdik-gəldik. Mən rica etdim ki, Türkiyə buraya hər türlü yardımlar edir, amma burada bir məscid, came də yaransın. Çünki xalqımız 70 il dindən ayrı düşüb. Yəni qəlbində dini saxlayıb, amma din yasaq, qadağan olunubdur. Naxçıvanda Allah evi azdır, bunu etmək lazımdır. Mənim bu ricam da qəbul edildi. Diyanət İşləri bakanlığının qərarı ilə bu camenin tikilməsi üçün yer axtarıldı. Biz birlikdə bu yeri tapdıq. Sonra camenin layihəsini gətirdilər, baxdıq və onun əsası qoyuldu.

Sonra mən Bakıya getdim, Azərbaycana rəhbərliyə başladım. Amma daim maraqlanırdım ki, burada inşaat, tikinti necə gedir, nə vaxt qurtaracaq. Çünki tələsirdim ki, gəlib bu cameni görüm və onun açılışında iştirak edim. Allah bu qismət mənə verdi. Ona görə mən böyük iftixar hissi ilə bu təntənəli, hörmətli məclisdə iştirak edirəm və bu hadisə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

Türkiyədən gələn qonaqlarımızın

hamısı bizim üçün əzizdir. Ancaq buraya gələnə və Türkiyənin böyük elçisi mənə məlumat verənə qədər heç bilmirdim ki, hamımız üçün çox qiymətli bir insanın - Kazım Qarabəkir paşanın qızı da buradadır, o da buraya gəlibdir. Əziz bacım, siz bizim üçün çox qiymətlisiniz, Azərbaycan xalqı üçün çox qiymətlisiniz, naxçıvanlılar üçün qiymətlisiniz. Çünki sizin qəhrəman atanız Azərbaycan xalqı üçün, Naxçıvan üçün böyük xidmətlər göstərib və böyük irs qoyub gedibdir. Ona görə də mən təşəkkür edirəm ki, siz buradasınız. Sizi xüsusi salamlayır və öz təşəkkürümü bildirirəm.

Əziz dostlar, sizi bir daha təbrik edirəm. Güman edirəm ki, artıq biz lenti bərabər kəsməliyik. Sağ olun.

"Azərbaycan" qəzeti, 16 oktyabr 1999-cu il.

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ

18-19 oktyabr 1999-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, bizim əziz qardaşımız, Zatialiləri Süleyman Dəmirəl mənim dəvətimlə bu gün Azərbaycana qısamüddətli işgüzar səfərə gəlmişdir. Bu səfər münasibətilə, onun yenidən Azərbaycana qayğı, diqqət göstərib mənim dəvətimi qəbul etdiyinə görə və indi Azərbaycanda olduğuna görə ona Azərbaycan xalqı adından təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. Azərbaycana xoş gəlmisən, səfa gətirmisən!

Əziz və hörmətli prezident Süleyman Dəmirəllə bərabər Azərbaycana Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu da gəlibdir. Mən Silahlı Qüvvələr Baş Qərargahının rəisini ürəkdən salamlayıram, "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini, Enerji naziri hörmətli Cümhur Ərsümər də Azərbaycana gəlibdir və onunla bərabər Azərbaycana Türkiyənin böyük nümayəndə heyəti gəlibdir. Onların hamısını ürəkdən salamlayıram. Qardaş Türkiyədən Azərbaycana əziz dostumuz, Prezident Süleyman Dəmirəllə bərabər gələn dostlarımızın hamısına "xoş gəlmisiniz!" deyirəm.

Əziz dostlar!

Bu gün Azərbaycanın bayram günüdür. Bu gün Azərbaycanın dövlət müstəqilliyini əldə etməcinin, yəni dövlət müstəqilliyini bərpa etməsinin 8-ci ildönümüdür. Bu bayram münasibətilə sizi, bütün Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm və Azərbaycanda əbədi müstəqillik uğrunda irəli getmək arzulayıram.

Əziz dostumuz, qardaşımız Prezident Süleyman Dəmirəlin Azərbaycana məhz bu gün - Azərbaycanın

Dövlət müstəqilliyi günü gəlməsi bir daha onu sübut edir ki, Azərbaycan xalqının milli azadlığı, Azərbaycanın dövlət müstəqilliyi bizim xalqımız üçün nə qədər əzizdirsə, o qədər də Türkiyə üçün əzizdir, türk xalqı üçün əzizdir və bizim qardaşımız Süleyman Dəmirəl üçün əzizdir.

Türkiyə ilə Azərbaycan arasında, bizim xalqlarımız arasında dərin köklərə malik olan, min illik tarixə malik olan dostluq, qardaşlıq əlaqələri vardır. Biz bir kökdənik, biz bir dildə danışır, biz bir millətin şaxələriyik və bizim bu dostluğumuz dərindir. Bu dostluğumuz həmişə olubdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında, Türkiyə xalqı və Azərbaycan xalqı arasında əlaqələr tamamilə başqa sifət almış, başqa səviyyəyə çatmışdır. İndi isə bu dostluq, bu qardaşlıq sarsılmazdır, əbədidir.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı həm siyasi, həm iqtisadi, həm mədəni, həm insani əlaqələr və həyatın bütün digər sahələrində son illər inkişaf edib və yüksəlibdir. Bunu biz özümüz üçün, müstəqil Azərbaycan üçün böyük nailiyyət hesab edirik və bu dostluğa, bu qardaşlığa görə türk xalqına, Türkiyə Cümhuriyyətinə, böyük Mustafa Kamal Atatürk cümhuriyyətinə və onun Prezidenti, Türkiyə xalqının lideri Süleyman Dəmirələ təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

Türkiyənin Prezidenti, bizim əziz dostumuz Süleyman Dəmirəl bu gün Azərbaycana səfərini Bakı hava limanında tikilmiş aerovağzal kompleksinin açılışı ilə başlayır. Sizə məlumdur ki, bu hava limanının aerovağzal kompleksi Türkiyə və Azərbaycan arasında olan iqtisadi əlaqələrin nəticəsində qısa bir müddətdə yaranmışdır. Eyni zamanda onu da bilirsiniz ki, bu binanın, hava limanının aerovağzal kompleksinin tarixi də böyükdür.

1981-ci ildə mən Azərbaycana rəhbərlik etdiyim zaman Azərbaycana, Bakı şəhərinə, bizim doğma respublikamıza bir gözəl hava limanı və onun gözəl aerovağzal kompleksini yaratmaq haqqında qərar qəbul etdim. O qərarın əsasında həmin bu aerovağzal kompleksinin layihəsi hazırlandı və sonra onun inşası başlandı. Doğrudur, o vaxt biz Sovetlər İttifaqının tərkibində idik və belə bir böyük binanı yaratmaq, tikmək üçün mütləq Moskvadan, sovet hökumətindən vəsait almalı idik. Özümüzün buna vəsaitimiz yox idi, bütün vəsaitlər hamısı orada toplanırdı. Böyük çətinliklər vasitəsilə bu vəsaiti aldıq, bu tikintiyə başladıq və tikinti uğurla gedirdi. Ancaq təəssüflər olsun ki, 1988-1989-cu illərdə bu tikinti tamamilə dayandı və Azərbaycan xalqı gözlədiyi bu aerovağzal kompleksini ala bilmədi.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, biz dövlət müstəqilliyimizi möhkəmləndirəndən son-

ra, bəzi iqtisadi məsələlərimizi həll edəndən sonra bu binanın tikintisini davam etdirmək və onu başa çatdırmaq haqqında qərar qəbul etdik. Qəbul etdiyimiz qərar ondan ibarət oldu ki, bunu biz Türkiyə Cümhuryyətinin şirkətləri ilə birgə, müştərək etməliyik. Danışıqlar aparıldı, vəsait tapıldı, kreditlər alındı, o cümlədən Böyük Britaniya banklarından kreditlər alındı, Türkiyənin "Eksimbank" Bankından kreditlər alındı, Türkiyənin "Burc-Enka" şirkəti ilə, Böyük Britaniyanın şirkətləri ilə əlaqələr yarandı və bunların hamısının nəticəsində bu aerovağzal kompleksinin tikintisinə başlandı.

1981-ci ildən 1989-cu ilə qədər burada, demək olar ki, elə bir iş görülməmişdi. Amma bu gün böyük məmnuniyyətlə deyə bilərəm ki, qısa bir zamanda, iki ildən də az bir müddətdə bu aerovağzal kompleksi tikildi və indi istifadəyə verilir. Bu, gözəl bir memarlıq əsəridir. Bu, Azərbaycan xalqı üçün gözəl milli sərvətdir və bu beynəlxalq aerovağzal kompleksi Azərbaycanın dövlət müstəqilliyini bir daha təsdiq edir.

Türkiyə-Azərbaycan əlaqələrinin böyük bir hissəsini iqtisadi əlaqələr, iqtisadi əməkdaşlıq, ortaq, müştərək işlər görmək təşkil edir. Bu gün məmnuniyyətlə deyə bilərəm ki, Türkiyənin iş adamları Azərbaycanda çox sahələrdə çox dəyərli işlər görürlər. Onların içərisində "Burc-Enka" şirkətinin burada yaratdığı əsərlərdən ən gözəli, ən yaxşısı Azərbaycanın, Bakının hava limanında olan aerovağzal kompleksidir.

Məlumdur ki, bütün məsələlərin həll olunmasında hər bir ölkənin hökumətinin, dövlətinin dəstəyi lazımdır. Mən bildirmək istəyirəm ki, bizim bu böyük işimizi görmək üçün Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz Süleyman Dəmirəl bunu dəstəklədi, şirkətləri bu işə başlamaq üçün həvəsləndirdi, öz dəstəyini bildirdi. Ona görə də o, bu gün həmin bu böyük kompleksin müəlliflərindən biridir.

Mən bu gün Türkiyə Cümhuriyyətinin burada çalışan şirkətlərinə, xüsusən "Burc-Enka" şirkətinə, onların rəhbərlərinə gördükləri işlərə görə təşəkkür edirəm. Beynəlxalq banklara - Türkiyənin "Eksimbank"ına, Böyük Britaniyanın şirkətlərinə və banklarına bizə yardım göstərdiklərinə görə təşəkkür edirəm. Ancaq ən böyük təşəkkürümüz, ən böyük minnətdarlığımız Türkiyə Cümhuriyyətinədir, onun dövlətinədir və onun dövlətinin başçısı, Prezidenti, əziz dostumuz Süleyman Dəmirələdir.

Mən çox sevinirəm, çox məmnunam, əziz bacılar, qardaşlar, görürəm, siz də nə qədər sevinirsiniz ki, bizim dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl bu gün Azərbaycandadır, Azərbaycan torpağındadır, Bakıdadır və burada birlikdə böyük bir bayram mərasimi keçiririk!

Əziz dostum, qardaşım!

Mən bir daha Sizin Azərbaycana

gəlməyiniz münasibətilə təşəkkür edirəm. Sizə sevgi və məhəbbət hissi ilə buraya toplaşmış insanların qarşısında söz demək üçün razılıq verdiyinizə görə təşəkkür edirəm. Çox sağ olun.

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın böyük türk xalqı!

Yaşasın Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, Türkiyənin lideri, bütün türk aləminin lideri, böyük insan Süleyman Dəmirəl!

"Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN TƏKBƏTƏK GÖRÜŞÜ

Oktyabrın 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin təkbətək görüşü olmuşdur.

Xalqımızın böyük dostu Süleyman Dəmirəli Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirən dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək respublikamıza qısamüddətli işgüzar səfərə gəldiyinə görə Türkiyə Prezidentinə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev əziz dostu, qardaşı Süleyman Dəmirəlin Azərbaycanın müstəqilliyinin elan edilməsinin 8-ci ildönümü bayramında ölkəmizə gəlməsini Azərbaycanın istiqlalına və azadlığına onun möhkəm bağlılığı kimi qiymətləndirdi.

Prezident Süleyman Dəmirəlin Azərbaycanın daxili və xarici siyasətini dəstəkləməyindən məmnunluqla söhbət açan Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına Türkiyə dövləti başçısının dəstəyinə və bu sahədə göstərdiyi dəyərli fəaliyyətinə yüksək qiymət verdi.

Azərbaycan - Türkiyə əməkdaşlığının xüsusi əhəmiyyət daşıdığını nəzərə çarpdıran dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bütün sahələrdə bu əlaqələr bundan sonra daha da möhkəmlənəcək və inkişaf edəcəkdir. Bakı-Ceyhan əsas neft boru kəmərinin tikintisinə başlanması sahəsində aparılan danışıqlardan razılıqla bəhs edən respublikamızın Prezidenti dedi ki, bizim bu barədə prinsiplərimiz, baxışlarımız dəyişilməzdir və Azərbaycan Respublikası keçən il imzalanmış Ankara bəyannaməsinə sadiqdir.

Dost Azərbaycan Respublikasına gəlişindən, burada ona göstərilən qonaqpərvərlikdən məmnun qaldığını əziz qardaşı Heydər Əliyevə dərin minnətdarlıqla bildirən Süleyman Dəmirəl onu və bütün Azərbaycan xalqını Azərbaycanın müstəqilliyinin 8-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik etdi. Respublikamızın

rəhbəri Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində son illər Azərbaycanda baş vermiş müsbət dəyişiklikləri yüksək qiymətləndirən Türkiyə dövlətinin başçısı əmin olduğunu bildirdi ki, onun Bakıya bu səfəri ölkələrimizin əlaqələrinin daha da sıxlaşdırılmasına yeni, güclü təkan verəcəkdir.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində son vaxtlar göstərilən səylərdən razılıq hissi ilə bəhs edən Prezident Süleyman Dəmirəl bildirdi ki, Türkiyə münaqişənin aradan qaldırılmasında Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.

Türkiyədə baş vermiş fəlakətin Azərbaycan xalqı tərəfindən dərin kədərlə qarşılandığını bildirən Prezident Heydər Əliyev zəlzələ nəticəsində minlərlə insanın həlak olması ilə əlaqədar dost və qardaş ölkənin rəhbərinə bir daha başsağlığı verdi.

Prezident Süleyman Dəmirəl baş vermiş faciənin ilk anlarından Azərbaycanın göstərdiyi qardaşlıq yardımını yüksək dəyərləndirərək ölkəmizin başçısına və xalqımıza öz dərin təşəkkürünü bildirdi. Görüşdə hər iki ölkəni maraqlandıran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

"Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il.

AZƏRBAYCAN - TÜRKİYƏ DANIŞIQLARI

Oktyabrın 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin təkbətək görüşü başa çatdıqdan sonra onların rəhbərlik etdiyi geniş tərkibdə nümayəndə heyətləri arasında Azərbaycan - Türkiyə danışıqları olmuşdur. Dövlətimizin başçısı Heydər Əliyev dost ölkənin Prezidenti Süleyman Dəmirələ müraciətlə dedi:

- Zati-alileri, Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəl!

Mən Sizi Azərbaycan torpağında səmimiqəlbdən salamlayıram. Mənim dəvətimi qəbul edib, vaxt sərf edərək qısa bir zaman içərisində işgüzar səfərə gəlməyinizə görə təşəkkür edirəm.

Mən Sizinlə bərabər silahdaşlarınızın da Azərbaycana gəlməsindən çox məmnunam. Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlunu, Baş nazirin müavini, Enerji naziri hörmətli Cümhur Ərsüməri salamlayıram və sizin bütün heyətin hamısına "xoş gəlmisiniz!" deyirəm.

Sizin Azərbaycana hər gəlişiniz xalqımız, millətimiz, vətəndaşlarımız üçün bir sevincdir, mənim üçün xüsusi sevincdir. Sizin bugünkü səfərinizin ən böyük qiyməti ondan

ibarətdir ki, bu gün Azərbaycanın dövlət müstəqilliyini elan etməsi, dövlət müstəqilliyini bərpa etməsi günündən 8 il keçir, bu böyük tarixi hadisənin 8-ci ildönümüdür. Bu gün Azərbaycanda bayram günüdür. Bu gün Sizin aramızda, bizimlə bərabər olmağınız Azərbaycanın dövlət müstəqilliyinə, azadlığına nə qədər bağlı olduğunuzu bir daha nümayiş etdirir. Biz bu gün Sizinlə bir çox məsələləri müzakirə etdik. Bu müzakirə bir daha onu göstərir ki, Türkiyə - Azərbaycan dostluğu, əməkdaşlığı günü-gündən inkişaf edir. Bizim üçün, müstəqil Azərbaycan, Azərbaycan dövləti üçün Türkiyə Cümhuriyyəti, hökuməti, dövləti ilə əlaqələrimiz bütün sahələrdə xüsusi əhəmiyyət kəsb edir. Allaha şükürlər olsun ki, - mən bunu məmnuniyyətlə qeyd edirəm, - Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr tədricən inkişaf edibdir, son illərdə xüsusən inkişaf edibdir və inkişaf etməkdədir. Biz bu gün Sizinlə bu barədə ətraflı danışdıq və qarşıda duran məsələlərin həll olunması üçün öz fikirlərimizi bildirdik. Bizim fikirlərimiz eynidir. Azərbaycanın daxili və xarici siyasətini sizin dəstəkləməyiniz, Azərbaycanın Ermənistan təcavüzündən xilas edilməsi və bu münaqişənin sülh yolu ilə həll olunması üçün verdiyiniz dəstək, göstərdiyiniz dəyərli fəaliyyətiniz, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesində ölkəmizin gördüyü işlərdə sizin təcrübəniz, məsələhətləriniz, dəstəyiniz bizim üçün həmişə çox böyük dayaq olubdur. Biz bunu həmişə yüksək qiymətləndirmişik və qiymətləndiririk.

Güman edirəm ki, Sizin bu səfəriniz zamanı da danışıqlarımız, apardığımız müzakirələr ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirəcək, yüksəldəcəkdir və dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndirəcəkdir. Onlar onsuz da polad kimi möhkəmdir. Ancaq polad da gərək daim polad olsun. Biz bir çox məsələlərə toxunduq, o cümlədən Bakı - Ceyhan boru xəttinin tikilməsi məsələsinə çox geniş yer verdik, onu müzakirə etdik. Bilirsiniz ki, 1994-cü ilin sentyabr ayında Azərbaycan ilk böyük neft müqaviləsini imzalayarkən bu müqavilənin şərtlərindən biri böyük neft kəməri - Bakı - Ceyhan neft kəmərinin tikilməsi idi. Bilirsiniz ki, ötən beş ildə bu sahədə çox işlər görülüb. Hörmətli Prezident, bu günlərdə Sizin göndərdiyiniz yüksək səviyyəli nümayəndə heyəti ilə bərabər biz "Əsrin müqaviləsi"nin 5-ci ildönümünü bayram etdik. Biz bir daha bəyan etdik ki, bu barədə prinsiplərimiz, baxışlarımız dəyişilməzdir. Yəni Xəzər dənizinin böyük neft və qaz imkanları haqqında hər ay yeni məlumatlar gəlir. Xəzər dənizindəki yataqlardan hasil edilən bu neftin böyük bir hissəsi gərək mütləq böyük neft kəməri ilə getsin. Bu böyük neft kəməri isə Bakı - Ceyhan neft kəməridir.

Keçən ilin oktyabr ayında, Tür-

Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə biz böyük bir bəyannamə imzaladıq. Mən bəyan edirəm ki, biz bu bəyannaməyə bu gün də sadiqik. Türkiyə hökumətinin nümayəndələri ilə Azərbaycan hökumətinin nümayəndələri arasında aparılan işlər artıq onu göstərir ki, biz bu məsələnin tam başa çatmasına gəlib çıxmışıq. Mən hesab edirəm ki, buna çox az qalıbdır. Biz bu barədə danışmışdıq, Siz də öz fikrinizi bildirəcəksiniz. İqtisadi əlaqələrimiz genişdir. Türkiyənin iş adamları burada çalışırlar, çoxlu mənfəət verirlər. Bunların ən böyük bir nümunəsi bu gün Sizinlə bərabər açdığımız Bakı hava limanındakı beynəlxalq standartlara cavab verən aerovağzal kompleksidir. Yaxud, keçən dəfə Siz tarixi İpək yolunun bərpası ilə əlaqədar Bakıda keçirilən beynəlxalq konfransa gələrkən böyük bir otel kompleksini açdıq. O da yenə Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin nümunəsidir. Ancaq təkcə bunlar deyildir. Görülmüş belə işlər çoxdur və daha da çox olacaqdır. Hesab edirəm ki, Türkiyənin iş adamları ilə Azərbaycanın iş adamları arasında işlər getdikcə daha da yaxşı olacaqdır. Bilirsiniz ki, biz iqtisadi islahatları, özəlləşdirmə proqramlarını həyata keçiririk. Bilirsiniz ki, biz bazar iqtisadiyyatını inkişaf etdiririk. Ona görə də ölkələrimizin iqtisadiyyatları bir-birinə uyğunlaşır və şübhəsiz ki, bu da əməkdaşlıq etməyə daha da böyük imkanlar yaradır. Mən Sizi bir daha salamlayıram. Sizə bir daha "xoş gəlmisiniz!" deyirəm.

Səmimi sözlərə görə minnətdarlığını bildirən Prezident **Süleyman Dəmirəl** dedi:

- Hörmətli Cümhurbaşkanı, çox təşəkkür edirəm.

Hər zaman olduğu kimi, bu gün də qardaş, dost ölkənin gözəl torpağına ayaq basdığımız andan etibarən bizə göstərilən sevgi, qonaqpərvərlik və bu böyük qardaşlıq hissləri bizim hamımızı çox xoşbəxt etmişdir. Türkiyədəki 65 milyonluq qardaşlarımız bizə Azərbaycanda göstərilən isti münasibətdən çox məmnun qalacaqdır. Çünki bu, onların özlərinə göstərilən münasibətdir. Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının, Anadolu türkcəsi ilə desək, baxımsızlığının bayram edildiyi gündə Sizinlə birgə olmaq bizim üçün çox xoşdur. Ötən 8 il ərzində Sizin rəhbərliyinizlə Azərbaycanda nə qədər çox böyük dəyişikliklər olduğunu ən yaxşı müşahidə edənlərdən biri də mənəm. Çünki mən 8 ildən bəri Azərbaycana tez-tez gəlib-gedirəm. Mən burada hər şeyin nə qədər gözəl dəyişdiyini, çox yaxşı olduğunu görürəm. Mən hər zaman olduğu kimi, bugünkü görüşümüzün də Azərbaycan - Türkiyə dostluğuna böyük təsir edəcəyinə, ölkələrimizin əlaqələrinin inkişafına yeni təkan verəcəyinə əminəm. Biz istəyirik ki, Azərbaycanın məruz qaldığı böyük haqsızlıq aradan qaldırılsın, daimi sülh əldə edilsin və Qafqazda hər şey yaxşı olsun.

Daimi sülh hamımız, bölgədəki hər kəs üçün fövqəladə dərəcədə önəmlidir, amma Azərbaycan xalqı üçün daha çox vacibdir. Biz ötən bu 8 ildə Azərbaycanın hansı çətinliklərdən keçdiyini bilirik. Azərbaycanda müstəqillik əldə edildikdən sonra böyük uğurlar qazanılmışdır. Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun daim inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir. Əminəm ki, qarşımızdakı onillikdə Azərbaycan iqtisadi və sosial inkişaf sahəsində çox yüksək sürətlə irəliləyəcəkdir. Bölgədəki digər ölkələrlə bərabər Azərbaycanla əlaqələrimiz daha sürətlə irəli gedəcəkdir.

Azərbaycanın təbii sərvətlərinin üzə çıxarılaraq ölkəmizdə əhalinin rifah halının yüksəldilməsinə kömək göstərməsində Bakı - Ceyhan boru xəttinin çox böyük rolu olacaqdır. Onun Türkiyə vasitəsilə dünya bazarlarına çıxarılması ən düzgün yoldur. Bu sahədə apardığımız danışıqlar müvəffəqiyyətlə nəticələnmişdir. Biz bu gün də bu barədə söhbət apardıq, Bakı - Ceyhan boru xəttinin yaxın vaxtlarda tikintisinə başlanması üçün görülən hazırlıq işlərini təsdiq etdik. Biz ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının İstanbul zirvə görüşü zamanı Bakı - Ceyhan boru xəttinin tikilməsi haqqında digər tərəflərin iştirakı ilə son sənədin imzalanacağı barədə razılığa gəldik. Bu, sevindirici bir haldır.

Beləliklə, uzun illərdən bəri üzərində işlədiyimiz bir layihə, azərbaycanca desək, neft kəməri layihəsi meydana çıxacaqdır. Doğrudan da, bu, bir kəmərdir. Yəni bu kəmər insanlarımızı, ölkələrimizi bir-birinə daha möhkəm yaxınlaşdıracaq, bağlayacaqdır.

Türkiyəli iş adamlarının Azərbaycan ilə bağlılığı gündən-günə artmaqdadır. Əminəm ki, ölkələrimizin iş adamlarının əlaqələri bundan sonra daha da möhkəmlənəcəkdir.

Möhtərəm Prezident, məhz Sizin rəhbərliyiniz altında Azərbaycan bir dünya dövlətinə çevrilmişdir. Biz həmişə Sizin yanınızda olmuşuq və yenə də Sizin yanınızdayıq. Çox təşəkkür edirik.

Türkiyə dövlətinin başçısına təşəkkür edən Prezident **Heydər Əliyev** dedi:

- Mən hesab edirəm ki, ayrı-ayrı danışıqlarda - Azərbaycanın Baş naziri ilə Türkiyə Baş nazirinin müavini, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi ilə Azərbaycanın Müdafiə naziri görüşdülər, biz sizinlə təkbətək danışdıq, sonra birlikdə görüşərək - məsələlərin hamısını müzakirə etdik. Burada həll olunа bilməyən heç bir məsələ yoxdur. Ona görə də mən hesab edirəm ki, sizin bu ziyarətiniz çox uğurludur, xeyirlidir və Türkiyə - Azərbaycan dostluğunun, əməkdaşlığının daha da inkişaf etməsi üçün yeni bir mərhələdir. Bunlara görə Sizə təşəkkür edirəm.

Daha sonra Prezident **Süleyman Dəmirəl dedi:** - Hörmətli Prezident, mən Sizi Türkiyəyə dəvət edirəm. Bilirsiniz ki, Sizdən və bizdən asılı olmayan bir sıra uyğunsuzluqlar baş verdi. Zəlzələ nəticəsində Türkiyə böyük acılara qərq oldu. Zəlzələnin nəticələrini aradan qaldırmaq üçün bizə göstərdiyiniz yardıma görə mətbuat nümayəndələri qarşısında Sizə bir daha təşəkkür etmək istəyirəm. Türkiyənin çox önəmli mükafatlarından biri Beynəlxalq Atatürk sülh mükafatıdır. Bu bölgədə, Qafqazda sülhün bərqərar olunması sahəsində gördüyünüz işlərə görə Türkiyədə bu mükafatı Sizə vermək qərara alınmışdır. Bu mükafat Sizə Türkiyədə təqdim edilməlidir. Yəni mükafatımız məndədir. Nə zaman vaxtınız olsa, bu mükafatı Türkiyədə Sizə təqdim etmək istəyirəm. Ən qısa zamanda Sizi Türkiyədə təkrar görmək, qucaqlamaq və mükafatınızı təqdim etmək istəyirəm.

Prezident **Heydər Əliyev** ali qonağa minnətdarlıq edərək dedi:

- Sağ olun.

Hörmətli Prezident, bilirsiniz ki, mən Sizi Azərbaycana geniş bir səfərə dəvət etmişdim. Siz də buna razılıq vermişdiniz. Bu səfər sentyabr ayında olmalı idi. Biz buna çox hazırlaşırdıq. Ancaq Türkiyədə baş vermiş zəlzələ bu səfərin həyata keçirilməsinə imkan vermədi. Çünki, məlumdur, mən bunu bir neçə dəfə demişəm ki, Türkiyənin Prezidenti kimi Siz bu zəlzələ ilə, böyük itkilərlə əlaqədar xarici ölkələrə bütün səfərlərinizi dayandırdınız və ancaq daxili məsələlərlə, xüsusən zəlzələnin vurduğu zərərləri aradan qaldırmaqla məşğul oldunuz. Sizin kimi biz də zəlzələdən o günlərdə də, bu günlər də dərd və kədər içindəyik. Sizə bu barədə bir daha "keçmiş olsun" deyirəm, həlak olanların hamısının ailələrinə və bütün ölkənizə, dövlətinizə başsağlığı verirəm.

Buna görə də siz o zaman Azərbaycana səfər etmədiniz. Amma mən məmnunam ki, siz bu qısa, bir günlük səfərinizə imkan tapdınız.

Bilirəm ki, zəlzələdən sonra Siz heç bir yerə getmirsiniz. Amma imkan tapıb buraya gəlmisiniz. Eyni zamanda, bizim əvvəlki danışığımız öz gücündə qalır. Yəni mən Sizi Azərbaycana böyük bir səfərə dəvət etmişəm ki, təkcə Bakını yox, başqa bölgələrimizi də görəsiniz, bir çox məsələləri müzakirə edək. Mən bu dəvətimi bir də təkrar edirəm. Ümidvaram ki, Siz bunu qəbul edəcəksiniz və uyğun bir zamanda biz bunu birlikdə həyata keçirəcəyik. Böyük Atatürkün adını daşıyan mükafatın mənə verilməsi mənim üçün böyük iftixar hissi doğurur, mənim üçün böyük şərəfdir. Doğrusu, mən bundan çox məmnun oldum, hətta hissiyyatlandım. Bilirsiniz ki, sizdə bu mükafatı adətən aprel ayında verirlər. Siz məni oraya gəlməyə dəvət etmişdiniz. Ancaq məlumdur ki, həmin vaxt mən Amerikada xəstəxanada idim, Sizin diqqətiniz, qayğınızla orada müalicə

keçirdim. Güman edirəm ki, indi, uyğun bir vaxtda Türkiyəyə, Ankaraya mütləq gələcəyəm. Yəqin ki, onda bu məsələni də başa çatdırmaq olar. Təşəkkür edirəm.

Süleyman Dəmirəl: Türkiyədə görüşənədək.

"Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASI PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ "İSTİQLAL" ORDENİ TƏQDİM OLUNMUŞDUR

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Zati-alilər, Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəl!

Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu!

Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini, Enerji naziri hörmətli Cümhur Ərsümər!

Türkiyədən gəlmiş bütün qonaqlar! Mən sizi Azərbaycanda səmimi qəlbdən salamlayır, Azərbaycan xalqı adından sizə "xoş gəlmisiniz!" deyirəm. Bütün Azərbaycan xalqının sizə olan sevgi və məhəbbətini çatdırıram. Bu gün Azərbaycan xalqının böyük bayramıdır. Azərbaycanın dövlət müstəqilliyini elan etməsindən, dövlət müstəqilliyinin bərpa olunmasından səkkiz il keçib, səkkizinci ildönümüdür. Bu bayram günü mən bütün Azərbaycan xalqını, Azərbaycanın vətəndaşlarını ürəkdən təbrik edir, Azərbaycan xalqına, Azərbaycan dövlətinə, Azərbaycan millətinə müstəqillik yollarında yeni-yeni uğurlar arzulayıram. Əziz dostumuz, hörmətli Prezident Süleyman Dəmirəl! Mənim dəvətimlə Sizin qısamüddətli işgüzar səfəriniz və bu gün, oktyabr ayının 18-də - Azərbaycanın müstəqillik günü bayramında olmağımız Sizin və Türkiyə Cümhuriyyətinin, türk xalqının Azərbaycan xalqına, Azərbaycana, onun müstəqilliyinə böyük hörmətinin və ehtiramının rəmzidir. Sizin bu gün Azərbaycana gəlməyiniz bizim bayramımızı ikiqat bayram etdi. Biz böyük bayram keçiririk. Siz bu bayram günü bizimləsiniz, bizimlə bərabərsiniz. Bunun da çox böyük məntiqi var. Çünki Azərbaycan xalqı dövlət müstəqilliyi yolunda nə qədər çalışmışsa, dövlət müstəqilliyi əldə etmişsə, o qədər də türk xalqı bizə dayaq olmuş, xüsusən o qədər də bizim əziz dostumuz Prezident Süleyman Dəmirəl dəyərli fəaliyyət göstərmişdir. Əziz dostumuz, Sizinlə görüş hər dəfə Türkiyə-Azərbaycan əlaqələrinin, şübhəsiz ki, gözdən keçirilməsini tələb edir. Türkiyədə və ya Azərbaycanda, yaxud da başqa ölkələrdə, beynəlxalq təşkilatlarda hər dəfə Sizinlə görüşərkən mən həmişə Türkiyə ilə Azərbaycan arasında olan əlaqələrin keçmişini, tarixini, bu günü-

nü xatırlayıram. Həqiqət bundan ibarətdir ki, xalqlarımız yüz illərlə, min illərlə bir olublar, bərabər olublar. Bizim xalqlarımız bir kökə malikdir, bir dinə malikdir, xalqlarımız bir mədəniyyətə malikdir. **Xalqlarımız əsrlər boyu çətin, amma qəhrəman yol keçiblər. Ona görə də Azərbaycanda hər bir azərbaycanlı Türkiyəni sevir və Türkiyədə hər hansı bir türk vətəndaşı, hər bir türk Azərbaycanı sevir. Yəni bu sevgi-məhəbbət, qədim zamanlardan indiyə qədər ayrı-ayrı insanlar arasında, əcdadlarımız arasında olan sevgi-məhəbbət davam edib və nəhayət, bizi bu xoşbəxt, gözəl günlərə gətirib çıxarıbdır.**

Azərbaycan xalqı 1918-ci ildə müstəqilliyini elan etdi, xalq cümhuriyyətini yaratdı. Ancaq bu cümhuriyyət o dövrün şəraitinə görə 23 ay yaşadı. Sonra isə Azərbaycan Sovet hakimiyyətinin əlinin altına keçdi. Biz 70 il Sovet hakimiyyəti şəraitində, kommunist ideologiyası ilə yaşadıq. Bizim üçün ən yaxın, qardaş olan Türkiyədən 70 il təcrid edildik. Amma qəlbimiz həmişə bir yerdə olub və həmişə ümid etmişik ki, biz nə vaxtsa yenə də birləşəcək, yenə də görüşəcəyik. Bu günlər gəldi çatdı. Hesab edirəm ki, bu günlər əbədiyyətə qədər olacaqdır. Türkiyə Cümhuriyyətinin Azərbaycana, Azərbaycan xalqına marağı, qayğısı həmişə olmuşdur. Türkiyə Cümhuriyyətinin banisi böyük Mustafa Kamal Atatürk türk xalqları haqqında düşünərək, öz fikirlərini həyata keçirməyə çalışarkən Azərbaycana xüsusi diqqət yetirirdi. Onun Azərbaycan haqqındakı fikirləri, dediyi sözlər hamımızın qəlbindədir və biz bunları bir vəsiyyət kimi böyük minnətdarlıqla qəbul edirik.

Azərbaycan hələ Sovet hakimiyyəti dövründə Türkiyəyə çox maraq göstərirdi. Türkiyə də Azərbaycana çox maraq göstərirdi. Ancaq bizim dostumuz Süleyman Dəmirəl həmişə Azərbaycana xüsusi qayğı ilə, maraqla yanaşıbdır. Biz 20-ci ildə birbirimizdən ayrılandan sonra Türkiyədən heç bir dövlət adamı Azərbaycanı ziyarət etməmişdi. Amma 1967-ci ildə, hələ Sovet hökumətinin, Sovet imperiyasının güclü vaxtında hörmətli dostumuz Süleyman Dəmirəl Türkiyənin Baş naziri seçiləndən sonra Sovetlər İttifaqına ziyarəti zamanı mütləq Azərbaycanı görmək, mütləq Azərbaycana gəlmək istəmişdir. Bu istəyinə, arzusuna da nail olmuş və ilk dəfə 1967-ci ildə Azərbaycan xalqının ona və onun simasında Türkiyəyə nə qədər böyük məhəbbəti olduğunu hiss etmişdir. Biz isə dostumuz Süleyman Dəmirəlin Azərbaycana nə qədər böyük marağı, diqqəti və qayğısı olduğunu hiss etmişdik. Bu, Türkiyə-Azərbaycan əlaqələrinin parlaq səhifəsidir. Yəni biz hələ müstəqilliyimizə çatmazdan 24 il əvvəl fürsət tapıb Azərbaycana gəlmək, Azərbaycanı görmək onu göstərir ki, hörmətli Süleyman Dəmirəl öz daxili problemləri ilə bərabər, daim türk dövlətləri

ilə, xüsusən Azərbaycanla da çox maraqlanmışdır.

Sovetlər İttifaqı dağılmağa başlayanda Azərbaycan öz müstəqilliyini əldə etmək üçün daha da canlı hərəkətlər etməkdə idi. Ancaq Ermənistanın Azərbaycana qarşı təcavüzü başladı. Ermənistan Dağlıq Qarabağı ələ keçirmək üçün Azərbaycana təcavüz etdi. Bizim mənsub olduğumuz Sovet hökuməti ədalətsizlik etdi, məsələnin ədalətli həllini təmin etmədi, Ermənistanı dəstəklədi və Azərbaycan ağır günlərə düşdü. O vaxtlar, o günlərdə, Sovet hakimiyyəti zamanında da Türkiyə xalqı, bizim türk qardaşlarımız, dostlarımız oradan öz səslərini qaldırıb, Azərbaycanı müdafiə etmək üçün öz sözlərini dedilər. Xatirimdədir, o vaxtkı qəzetlərdə nə qədər coşğun fikirlər yazılırdı. Yəni biz müstəqilliyimizə yaxınlaşdığımız zaman Türkiyə bunu hiss etdi və bizə öz yardım əlini uzatdı.

Azərbaycana qarşı Ermənistanın təcavüzü başlayandan Türkiyə Azərbaycanla bir olubdur, Azərbaycana dəstək verib, Azərbaycanın haqq işini qiymətləndirib və onu müdafiə edibdir. Beynəlxalq təşkilatlarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunarkən Türkiyə həmişə Ermənistanı təcavüzkar kimi qınamış, pisləmişdir. Azərbaycanın təcavüzə məruz qaldığını bəyan etmişdir.

Ancaq Türkiyə-Azərbaycan əlaqələrinin yeni mərhələsi, yeni tarixi Azərbaycan dövlət müstəqilliyini elan edəndən başlayıbdır. Bundan isə səkkiz il keçir. Azərbaycan dövlət müstəqilliyini bəyan edəndə o vaxt Baş naziri hörmətli Süleyman Dəmirəl olan Türkiyə Azərbaycanı tanıyan ilk ölkə, dövlət oldu. Ondan sonra isə Azərbaycanın müstəqil-lilyini tanımaq üçün yollar açıldı.

O zaman, hələ Ermənistan-Azərbaycan müharibəsi gedən zaman, Azərbaycan ilk müstəqillik addımlarını atan zaman Türkiyə bizə dayaq idi, bizə kömək edirdi. Hörmətli Süleyman Dəmirəlin bu sahədə fəaliyyəti və gördüyü işlər əvəzsizdir və yüksək qiymətlidir.

Bu baxımdan Türkiyə ilə Azərbaycanı birləşdirən Naxçıvan Muxtar Respublikasında həm də Türkiyə tərəfdən, həm də Azərbaycan tərəfdən "Həsrət körpüsü", "Ümid körpüsü" adlanan körpünün qısa müddətdə tikilməsi məhz hörmətli Süleyman Dəmirəlin həm təşəbbüsü, həm də rəhbərliyi, himayəsi ilə başa çatdı. Mənim xatirimdədir, o vaxt blokada şəraitində olan Naxçıvan ağır günlər keçirirdi. O ağır günlərdə bizə qardaş, dost əlini uzadan Türkiyə və onun lideri hörmətli Süleyman Dəmirəl idi. 1992-ci ilin may ayında həmin "Həsrət körpüsü" tikilib başaçatdırılmışdı. Təsadüfi deyil ki, Azərbaycanın müstəqillik günü olan 28 May günü hörmətli Süleyman Dəmirəl hökumətin bir çox üzvləri, 60-a qədər millət vəkili ilə Azərbaycana - Naxçıvana gəldi. Türkiyə təyyarəsi, Türkiyə Baş nazirinin təyyarəsi Naxçıvan tor-

pağına endi və biz "Həsrət körpüsü"nü, "Ümid körpüsü"nü birlikdə açdıq. Türkiyə ilə Azərbaycan arasında ilk yolu açа bildik.

Bütün ötən illərdə Türkiyə-Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Birinci növbədə siyasi əlaqələr, iqtisadi əlaqələr, elmi, insani əlaqələr inkişaf edir. Ən əsası, hər bir türk üçün, hər bir azərbaycanlı üçün önəmlisi odur ki, insanlar bir-birinə qovuşub, bir-birini tapıb, 70 ildən sonra bir-biri ilə görüşüblər. Artıq ortada heç bir sərhəd, heç bir sədd yoxdur. Bütün bu illərdə biz Türkiyənin diqqətini, qayğısını və xüsusən əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin qayğısını həmişə hiss etmişik.

Hörmətli Süleyman Dəmirəl beynəlxalq təşkilatlarda hər dəfə Azərbaycan nümayəndə heyətinə xüsusi diqqət yetirir. Mən olduğum təşkilatlarda biz mütləq görüşürük. Bizim başqa nümayəndə heyətləri olan təşkilatlarda hörmətli Süleyman Dəmirəl mütləq bizim nümayəndələri axtarır, onlara məsləhətlərini verir, sözünü deyir. Onun qəlbi, ürəyi həmişə bizimlə, həmişə Azərbaycanladır. Bizi sevindirən, bizə böyük ruh verən odur ki, Türkiyə Cümhuriyyəti 75 il ərzində böyük, uğurlu yol keçmişdir. Türk xalqı Mustafa Kamal Atatürkün yaratdığı cümhuriyyəti qorumuş, saxlamış, Atatürk ideyalarına sədaqətini daim nümayiş etdirmişdir. Türkiyə Cümhuriyyəti bu gün dünyanın 65 milyonluq, əzəmətli, qüdrətli və iqtisadi cəhətdən inkişaf etmiş bir ölkəsidir. Türkiyə Cümhuriyyəti Atatürkün vəsiyyətlərini yerinə yetirərək, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurubdur. Beləliklə, dünyada, müsəlman aləmində ilk dünyəvi, demokratik dövlət, hüquqi dövlət quran Türkiyə Cümhuriyyətidir.

Biz Türkiyənin bütün nailiyyətləri ilə fəxr edirik. Türkiyənin 75 il ərzində keçdiyi yol bizim üçün, indi dövlət müstəqilliyi yolu ilə gedən Azərbaycan üçün örnəkdir, təcrübə məktəbidir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra özünə yol seçib və bu yolla gedir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycan ölkədə bazar iqtisadiyyatını təşkil edir və iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirir. Azərbaycan qapılarını dünya birliyinə açır və xarici sərmayələrin gəlməsi üçün çox işlər görür. Bunlar hamısı vaxtilə Türkiyənin keçdiyi yollardır. Biz bu gün Türkiyənin bəlkə də, 20, 30, 40 il bundan əvvəl keçdiyi yolu keçirik. Ona görə də bu təcrübə bizim üçün çox əhəmiyyətlidir. Xüsusən ölkələrimizin, xalqlarımızın milli, mənəvi dəyərləri, dini dəyərləri eyni olduğuna görə bu təcrübə bizim üçün bütün başqa ölkələrin təcrübəsindən əhəmiyyətlidir.

Türkiyə Cümhuriyyətinin bu qədər yüksəklərə qalxması, şübhəsiz ki, birinci növbədə türk xalqının qəhrəmanlığı, fədakarlığı, öz dövlətini inkişaf etdirmək əzmi ilə bağlıdır. Eyni zamanda bu, türk xalqının böyük liderlərinin fəaliyyəti ilə bağlıdır. **Dünyaya ən böyük şəxsiyyətlərdən birini - Mustafa Kamal Atatürkü bəxş etmiş türk xalqı elə təkcə bununla fəxr edə bilər. Biz də Azərbaycanda fəxr edirik ki, XX əsrdə türk dünyasının belə böyük, dahi şəxsiyyəti olmuşdur.**

Türkiyə Cümhuriyyətinin 75 il ərzində keçdiyi ağır, çətin və şərəfli yolun əsasını təşkil edən - Türkiyə dövlətinin, hökumətinin və xalqının Mustafa Kamal Atatürk ideyalarına sadiqliyi olmuşudr. Bunu təmin edən Türkiyə Cümhuriyyətinin, hökumətinin çox dəyərli insanları, liderləri olmuşdu. Bizim dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti ilə bərabər bir ömür yaşamışdır. Yəni, 1923-cü ildə Türkiyə Cümhuriyyəti yaranmış və 1924-cü ildə dünyaya bu gün bizim hamımız üçün əziz olan Süleyman Dəmirəl gəlmişdir. Həyatının 45 ilini siyasətə, dövlət işinə həsr edən, xalqa xidmət edən Süleyman Dəmirəl çox ağır və çətin yollar keçmiş, böyük çətinliklərlə üzləşmişdir. Onun tərcümeyi-halı, həyat yolu məlumdur. Bu, şərəfli yoldur, qəhrəmanlıq yoludur. Bu, böyük, dahi insan yoludur! Bu 45 il ərzində hörmətli Süleyman Dəmirəl türk xalqına, Türkiyə Cümhuriyyətinə sədaqətlə xidmət etmişdir.

Məhz bunlara görə o, siyasi fəaliyyəti, dövlətçilik fəaliyyəti dövründə qarşısında duran hər bir çətinliyin öhdəsindən gələ, hər bir maneəni aradan götürə bilmişdir. Bəzən geriyə çəkilməli olmuş, bəzən müxtəlif qüvvələr onun fəaliyyətini dayandırmağa çalışmışdır. Amma onda olan Atatürk ideyası, Atatürk qəlbi onu həmişə yaşatmış, siyasi fəaliyyətdə yüksəltmişdir. On illərdir ki, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin ən yüksək vəzifələrində çox uğurlu fəaliyyət göstərir. 1993-cü ilin may ayında əziz dostumuz Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin doqquzuncu Prezidenti seçilibdir. Birinci Prezident Mustafa Kamal Atatürk, doqquzuncu Prezident Mustafa Kamal Atatürkün sadiq davamçısı hörmətli Süleyman Dəmirəl!

Ötən illər ərzində, Türkiyə Cümhuriyyətinin Prezidenti vəzifəsini öz çiynində apardığı son illərdə dostumuz hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı üçün çox böyük işlər görmüşdür. Həm Türkiyənin dünyada hörmətini qaldırmaq üçün, həm türk xalqının rifahını yüksəltmək, Türkiyənin iqtisadiyyatını inkişaf etdirmək üçün, həm də Türkiyəni daha da əzəmətli, qüdrətli dövlət etmək üçün çox böyük işlər görmüşdür. Buna görə də türk xalqı ona minnətdardır və Azərbaycan xalqı ona minnətdardır.

Sovetlər İttifaqı dağılandan sonra, türkdilli respublikalar öz dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə Cümhuriyyətinin və şəxsən

hörmətli Süleyman Dəmirəlin türk dünyası qarşısında ən böyük xidmətləri ondan ibarətdir ki, Türkdilli Dövlətlərin Birliyi yarandı. Bu birlik bu gün davam edir, türkdilli dövlətləri bir-birinə daha da yaxınlaşdırır, əməkdaşlığı daha da inkişaf etdirir, bizim müştərək tarixi köklərimizin birlikdə araşdırılmasına və onların aşkara çıxarılmasına, dünyaya göstərilməsinə çox kömək edir. Türkdilli Dövlətlər Birliyinin iştirakçısı kimi Azərbaycan dövlətinin başçısı olaraq mən deyə bilərəm ki, bu birliyin yaranmasında və indiyə qədər fəaliyyət göstərməsində hörmətli Süleyman Dəmirəlin rolu və müstəsna xidmətləri var.

Hər bir müstəqil dövlətin özünün problemləri var - daxili problemlər, xarici problemlər və başqa problemlər. Hər bir türkdilli dövlətin, indi Türkdilli Dövlətlər Birliyinə daxil olan dövlətin də öz problemləri var. Bəzən bu problemlər müəyyən ölkələr arasında ziddiyyətlər də yaradır. Bunların hamısı ötən illərin təcrübəsidir. Ancaq bu prosesin daimi iştirakçısı kimi mən onu da deyə bilərəm ki, bütün türkdilli dövlətlərə ağsaqqallıq edən, onları daim birləşdirməyə çalışan və birləşdirən, öz hörməti ilə bütün bu dövlətləri bir-birinə daha da yaxınlaşdıran bizim əziz dostumuz Süleyman Dəmirəldir.

Azərbaycanın ən ağır, ən çətin problemi Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bilirsiniz ki, 1988-ci ildən başlayan bu münaqişə sonra böyük müharibəyə çevrilmişdir. Müharibə nəticəsində Ermənistan silahlı qüvvələri müxtəlif səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Bir milyondan artıq azərbaycanlı öz yerindən-yurdundan didərgin düşmüşdür, köçkün-qaçqın vəziyyətində yaşayır.

Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıbdır. Biz bu sazişi həyata keçirir və atəşkəs rejimini saxlayırıq. Ötən illərdə biz Minsk qrupu tərkibində, beynəlxalq təşkilatlar çərçivəsində, Birləşmiş Millətlər Təşkilatında, İslam Konfransı Təşkilatında, başqa təşkilatların hamısında çox danışıqlar aparmışıq və məsələnin sülh yolu ilə həll olunmasına çalışmışıq. Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti və şəxsən hörmətli Süleyman Dəmirəl həmişə məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarı olub və bu sahədə böyük xidmətlər göstəriblər. Birincisi, Türkiyə Minsk qrupunun üzvüdür, ATƏT-in Minsk qrupunun üzvü kimi öz fəaliyyətini daim göstərir. İkincisi, hörmətli Süleyman Dəmirəl bu məsələni daim öz nəzarəti altında saxlayır. Nə qədər biz bu məsələ ilə məşğuluqsa, o qədər də bizim dostumuz hörmətli Süleyman Dəmirəl bu məsələ ilə məşğul olur. Beynəlxalq konfranslarda, xüsusən üç il bundan öncə ATƏT-in Lissabon zirvə görüşündə məhz bizim müştərək işimizin nəticəsində, hörmətli Süleyman Dəmirəllə apardığımız məsləhətləşmələr və əməkdaşlığımız nəticəsində Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Lissabon sammitinin çox əhəmiyyətli bir sənədi meydana gəldi.

Ondan sonrakı dövrdə, ötən üç il müddətində də biz apardığımız bütün danışıqlarda, gördüyümüz bütün işlərdə Türkiyə Cümhuriyyəti ilə bir yerdəyik. Bir də qeyd edirəm, hörmətli dostumuz, əziz Süleyman Dəmirəl bu məsələni öz ölkəsinin, öz xalqının, şəxsən özünün doğma işi hesab edir və bu məsələnin həlli üçün əlindən gələni etməyə çalışır.

Bütün bunlara görə biz əziz dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirələ hədsiz minnətdarıq və ona qəlbimin dərinliyindən gələn təşəkkürümü bildirirəm. Əziz dostum, qardaşım Süleyman Dəmirəl çox böyük ürəkli, çox humanist bir insandır. Onun həyat yolu bunu dəfələrlə göstəribdir. Bu, Türkiyənin xaricində yaxşı məlumdur. Ancaq mən hörmətli dostum Süleyman Dəmirəlin nə qədər böyük insan, böyük ürəkli insan, nə qədər humanist insan olduğunu bütün dövlət fəaliyyətimlə yanaşı, öz şəxsi həyatımda da hiss etdim, bunun şahidi oldum. Sizə də, bütün dünyaya da məlumdur ki, bu ilin yanvar ayında mən xəstələnən zaman hörmətli Süleyman Dəmirəl dərhal, bir neçə saatdan sonra iki təyyarə ilə Türkiyənin çox hörmətli həkimlərini buraya göndərdi. Ondan sonra mənimlə bir neçə dəfə telefon əlaqəsi saxlayıb məni Türkiyəyə dəvət etdi. Mən orada iki həftə müalicə olundum. Hər gün, hər dəqiqə hörmətli Süleyman Dəmirəlin qayğılarını hiss edirdim. Türkiyənin həkimləri, vətəndaşları - hamısı mənə qayğı göstərdi. Amma bu qayğıların, diqqətin başında duran və hamıya nümunə göstərən hörmətli Süleyman Dəmirəl oldu. Bu ilin aprel ayında biz Vaşinqtonda idik, bərabər idik, NATO-nun 50 illik yubileyinə getmişdik. Birinci onu deyim ki, Vaşinqtona gələn kimi yenə də birbirimizlə əlaqəyə girdik. Bütün mərasimlərdə bərabər olduq. Hörmətli Süleyman Dəmirəl orada gözəl nitq söylədi. Çox məmnunam ki, o, mənim nitqimi də sonra çox məmnuniyyət hissi ilə qeyd etdi. Mərasimləri bir yerdə keçirdik. Eyni zamanda böyük İpək yolunun bərpası ilə əlaqədar böyük toplantıda bərabər olduq, başqa yerlərdə birlikdə olduq.

Ancaq bir gün mən son mərasimə getmədim. Dərhal narahat olmuşdu. Sonra mənə söyləyirdi ki, baxdım, nahar yeməyində Heydər Əliyev yoxdur. Fikirləşdim ki, Heydər Əliyev protokola çox hörmət edən adamdır, necə ola bilər ki, gəlməsin? Dərhal maraqlandım, dərhal da məlumat aldım ki, Heydər Əliyev xəstələnib və sonra da xəstəxanaya gedibdir.

Bu nüansı, bu balaca ştrixi, cəhəti sizə çatdırıram. Orada o qədər adamın içərisində Heydər Əliyevin olmadığını o dəqiqə görüb və düşünüb ki, nə üçün yoxdur - axı, o, hə-

mişə olur, protokola hörmət edir. Sonra isə həkimlərdən məlumat alıbdır. Ondan sonra, mən Klivlend xəstəxanasında müalicə olunan zaman mənə daim diqqət və qayğı göstəribdir. Neçə dəfə telefon edib, həkimlərimlə danışıbdır. Atalıq qayğısı, qardaşlıq qayğısı göstəribdir. Bir insan kimi mən bunu heç vax, heç vaxt unuda bilmərəm! Mən Klivlend xəstəxanasından Azərbaycana dönməli idim. Ancaq əziz dostum Süleyman Dəmirəl yenə də mənə qayğı göstərərək telefon etdi, məni Türkiyəyə dəvət etdi. Ankarada bir neçə gün bir yerdə olduq. Ondan sonra Antalyada oldum. Hər gün mənə qayğı göstərdi, məni ziyarət etdi, hər gün mənə telefon etdi. Bilirsinizmi, mən tarixdə, hətta doğma qardaşın qardaşa bu qədər qayğısını, diqqətini görməmişdim, hiss etməmişdim və təsəvvür də edə bilməzdim. Bu, ancaq böyük şəxsiyyətə, müdrik insana, ancaq böyük qəlbi olan insana, nadir insana xas olan xüsusiyyətlərdir. Hörmətli Süleyman Dəmirəl bu xüsusiyyətləri şərəflə daşıyır. Əziz dostum, qardaşım, Azərbaycanda Sizin haqqınızda şerlər, kitablar yazırlar. Xatirimdədir, mən xəstəxanada olan zaman Siz Azərbaycandan nə qədər məktublar alırdınız. Ondan sonra, Antalyada olduğum zaman nə qədər şerlər alırdınız, gətirib Sizə nə qədər rəsm əsərləri bağışlayırdılar. Nə qədər sadə insanlar Sizi görmək, Sizin əlinizi sıxmaq, əlinizi öpmək istəyirdilər. Bunlar hamısı Sizin Azərbaycana göstərdiyiniz qardaşlıq münasibətinin və Türkiyə - Azərbaycan əlaqələrinin təzahürüdür! Eyni zamanda, Sizin böyük, qayğıkeş insan olmağınızın təzahürüdür! Bu il noyabr ayının 1-də əziz dostum Süleyman Dəmirəlin 75 yaşı tamam olur. O, mənim üçün və bütün türk dünyası üçün ağsaqqaldır. Amma məndən bir yaş gəncdir. Bu da təbiidir, - ağsaqqallıq yaşla, saqqalın uzunluğu-qısalığı ilə təyin olunmur, insani xüsusiyyətlərlə təyin olunur. Mən hörmətli Süleyman Dəmirəli Azərbaycana böyük səfərə dəvət etmişdim. O, razılıq vermişdi ki, bir neçə günlük səfər olsun. Azərbaycan xalqı öz qəlbində olan hissiyyatları ona bildirsin, təntənə ilə qarşılasın, Azərbaycanın başqa bölgələrində də olsun. O, mənim bu dəvətimi qəbul etmişdi və sentyabr ayında bu səfər olmalı idi. Amma təəssüflər olsun ki, Türkiyədə baş vermiş zəlzələ, şübhəsiz, buna mane oldu. Bu zəlzələ Türkiyə xalqının dərdi olduğu kimi, bizim də dərdimizdir. Necə Türkiyə xalqı o dərdi-qəmi keçirdi, elacə də biz keçirdik. Əziz dostum Süleyman Dəmirəl çox hallarda böyük Atatürkün kəlamlarını deyir ki, Azərbaycanın ələmi bizim ələmimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz isə, xüsusən bu zəlzələ baş verəndən sonra, deyirik: Türkiyənin ələmi bizim ələmimizdir, Türkiyənin sevinci bizim sevincimizdir.

Biz bu kədəri türk qardaşlarımızla bir yerdə keçirdik və keçiririk.

Əlimizdən gələn köməyi etdik və bundan sonra da edəcəyik. Bu gün mən bu münasibətlə Türkiyə Cümhuriyyətinə, türk xalqına bir daha başsağlığı verir və "keçmiş olsun" deyirəm.

Əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Sizin gəlişiniz bizi sevindirir. Amma gedişiniz... şübhəsiz, mən istərdim ki, bu gecə də qalasınız, sabah da qalasınız. Amma imkan yoxdur. Bəlkə də, vaxtınızı çox aldım, amma qəlbimdə türk xalqı haqqında, Türkiyə Cümhuriyyəti haqqında, Atatürk Cümhuriyyəti haqqında və bu gün Türkiyənin əvəzsiz lideri Süleyman Dəmirəl haqqında o qədər sözlər var ki, ola bilər, hələ bir neçə saat bunları deyə bilərdim. Sadəcə, biliram ki, yola düşməlidir.

Sözlərimin sonu olaraq onu demək istəyirəm ki, hörmətli Süleyman Dəmirəl Türkiyə üçün nə qədər əziz, qiymətlidirsə, Azərbaycan üçün də bir o qədər əziz və qiymətlidir. Bu gün o, Türkiyənin ən yüksək nöqtədə duran siyasi xadimi, türk xalqının lideridir. Mən cəsarətlə deyə bilərəm ki, hörmətli Süleyman Dəmirəl bütün türk dünyasının lideridir. Mən inanıram, Azərbaycan xalqı inanır ki, türk xalqı 2000-ci ildə də Süleyman Dəmirələ yenə böyük etimad göstərəcək və o, yenidən Prezident olacaq, əbədiyyətə qədər Türkiyənin Cümhurbaşkanı olacaqdır. Azərbaycan xalqının yüzdə yüzü bu arzularla yaşayır, bunu istəyir! Əziz dostum! Azərbaycan xalqının, Azərbaycan dövlətinin, müstəqil Azərbaycan dövlətinin Sizə olan hissiyyatlarını Sizə çatdırmaq üçün Siz Azərbaycanın ən yüksək ordeni, ən yüksək dövlət nişanı - "İstiqlal" ordeni ilə təltif olunmusunuz.

Fəxr edirəm ki, Sizin bu ordenlə təltif olunmağınız haqqında Azərbaycan dövlətinin fərmanını mən imzalamışam. Fəxr edirəm ki, Azərbaycanın bu yüksək "İstiqlal" ordenini Sizə təqdim etmək də bu gün mənə nəsib olubdur. *(Azərbaycan Prezidenti Heydər Əliyev salona toplaşanların gurultulu, sürəkli alqışları altında "İstiqlal" ordenini və onun və siqəsini Türkiyə Prezidenti cənab Süleyman Dəmirələ təqdim etdi. Türkiyə dövlətinin başçısına qızılgül dəstəsi təqdim olundu).*

Azərbaycan televiziyası əziz dostumuz Süleyman Dəmirəlin həyat və yaradıcılığına həsr olunmuş ikiseriyalı televiziya filmi yaratmışdır. Son günlərdə Azərbaycan vətəndaşları, televiziya tamaşaçıları bu filmlə tanış olmuşlar. Mən bunu məmnuniyyətlə Sizə təqdim edirəm.

Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadə Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar "Rekviyem" yazmış, Azərbaycan bəstəkarı Faiq Süleymanov ona musiqi bəstələmişdir. Mən bunun da kasetini məmnuniyyətlə Sizə təqdim edirəm. Yaşasın Türkiyə Cümhuriyyəti! Yaşasın qəhrəman türk xalqı! Yaşasın Türkiyə Cümhuriyyətinin lideri, türk dünya-

sının lideri, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

"Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Cənab Prezident!
Əziz qardaşım!

Yaradılmasının 75 illiyini böyük bir coşğunluqla bayram etdiyiniz dost və qardaş Azərbaycanın ayrılmaz bir parçası olan sərhəd qonşumuz Naxçıvan Muxtar Respublikasının bu tarixi günündə sizlərlə birlikdə ola bilmədiyim üçün üzgünəm. Bayram tədbirlərində məni və Türkiyəni təmsil edəcək dövlət nazirləri cənab Mustafa Yılmaz və cənab Abdulxaliq Çay iştirak edəcəklər. Azərbaycanlı və naxçıvanlı qardaşlarımı bu mənalı ildönümü günündə ən səmimi duyğularla təbrik edərkən, eyni zamanda 65 milyonluq anadolulu qardaşlarımızın sevinclərinə tərcüman oluram. Türkiyə ilə o dövrün Sovet Rusiyası hökuməti arasında 1921-ci il mart ayının 16-da imzalanmış Moskva müqaviləsi ilə Azərbaycanın himayəsinə verilən Naxçıvan Muxtar Respublikası 75 illik tarixi ərzində Türkiyə üçün hər zaman müstəsna bir yerə və xüsusi bir əhəmiyyətə malik olmuşdur. Həmin müqavilənin imzalanmasında mühüm rolu olan cümhuriyyətimizin qurucusu böyük Atatürkün Azərbaycanın və bu çərçivədə Naxçıvanın həyati mənfəətlərinə verdiyi əhəmiyyət tarixin ən parlaq səhifələrində qeyd edilmişdir. Bununla əlaqədar böyük Atatürkü və Naxçıvanı Azərbaycana qovuşduran bu müqaviləni Türkiyə hökuməti adından imzalayan mərhum Xarici İşlər nazirim Yusif Kamal Tengirşenki bir daha rəhmətlə xatırlayıram. Böyük Atatürkün aforizmə çevrilən ifadələri ilə desək, "Azərbaycanın sevinci bizim sevincimiz, qəmi bizim qəmimizdir". Bu, Naxçıvan üçün də eynilə keçərlidir. Naxçıvanlı qardaşlarımız əmin olsunlar: Türkiyə əbədiyyətə qədər Naxçıvana və naxçıvanlı qardaşlarımıza dəstək verəcəkdir. Onların xoşbəxtliyi, rifahı və əmin-amanlığı bizim ən birinci vəzifələrimiz arasında yer almaqdadır. Türkiyə ilə Naxçıvan arasındakı "Həsrət körpüsü" əbədiyyətə qədər sürəcək dostluğumuzun və qardaşlığımızın ən gözəl nişanəsidir. Türkiyə Azərbaycanla əlaqələrini həmişə genişləndirməyə, Azərbaycanın demokratiyanı gücləndirmək və inkişaf səylərinə dəstək verməyə davam edəcəkdir.

Qardaş Azərbaycan müstəqillik qazanandan sonra Türkiyə Cümhuriyyətinin Baş naziri kimi, Naxçıvan Muxtar Respublikasına etdiyim səfəri və həmin səfər zamanı mənə şəxsən göstərmiş olduğunuz qonaqpərvərliyin müstəsna xatirələrini hər zaman ən səmimi duyğularla yad edəcəyəm. Naxçıvanı mümkün olan ən qısa zamanda yenidən ziyarət etməyi arzuladığımı bilməyinizi istəyirəm. Bu mənalı ildönümü münasibətilə Siz əziz qardaşıma ən səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına isə xoşbəxtlik və rifah arzulayıram.

Süleyman DƏMİRƏL
Türkiyə Cümhuriyyətinin Prezidenti
"Azərbaycan" qəzeti, 20 oktyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA KOSOVO TÜRK TABURU GÖREV KUVVƏTİ TƏRKİBİNDƏ KOSOVOYA GEDƏCƏK AZƏRBAYCAN TAQIMININ FƏALİYYƏTİNƏ DAİR SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Kosovo Türk Taburu Görev Kuvvəti tərkibində Kosovoya gedəcək Azərbaycan taqımının fəaliyyətinə dair 1999-cu il iyulun 28-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 oktyabr 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Hörmətli cənab Prezident! Əziz dostum və qardaşım! Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsinin 76-cı ildönümü münasibətilə Sizi və qardaş Türkiyə xalqını ürəkdən təbrik edirəm. Sizin Azərbaycana bu yaxınlardakı səfəriniz zamanı olan görüşləri məmnuniyyətlə xatırlayıram. Onlar Azərbaycan ilə Türkiyə Respublikası arasında həmrəyliyin, dostluq və mehribanlığın güclü və sarsılmaz olduğunu bir daha sübut etdi. Türkiyə Cümhuriyyəti 76 il ərzində şərəfli yol keçmiş və xalqımız böyük Mustafa Kamal Atatürkün ideyalarına daim sədaqət nümayiş etdirərək milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamaqla Türkiyəni dünyanın iqtisadi cəhətdən inkişaf etmiş qüdrətli bir ölkəsinə, demokratik vətəndaş comiyyətinin bərqərar olduğu dünyəvi və hüquqi dövlətə çevirmişdir. Türkiyə Cümhuriyyətinin yüksək nailiyyətləri ilk növbədə türk xalqının qəhrəmanlığı, fədakarlığı, öz dövlətini inkişaf etdirmək əzmi ilə bağlıdır. Türkiyənin bugünkü nailiyyətləri bizi çox sevindirir və qəlbimizdə iftixar hissi doğurur. Sizin keçdiyiniz yol gənc, müstəqil dövlət olan Azərbaycan üçün təcrübə məktəbidir, böyük örnəkdir. Türkiyə ilə Azərbaycanın əlaqələri bütün sahələrdə sürətlə inkişaf edir. Mən ölkələrimizin tarixi dostluq, qardaşlıq əə

əməkdaşlıq münasibətlərinin getdikcə genişlənməsini və möhkəmlənməsini yüksək qiymətləndirirəm. Əminəm ki, eyni mədəniyyətə, milli-mənəvi dəyərlərə, adət-ənənələrə malik olan xalqlarımız həmişə bir-birinə dayaq olduqları kimi, bundan sonra da birgə addımlayacaqlar.

Əziz dostum və qardaşım! Siz Türkiyə-Azərbaycan əlaqələrinin möhkəmlənməsində və regionda sülh yaradılmasında misilsiz xidmətlər göstərmisiniz. Əminəm ki, birgə səylərimiz və şəxsi münasibətlərimiz sayəsində ölkələrimizin uğurla inkişaf edən mehriban dostluq əlaqələri və işbirliyi bundan sonra da kökü, dili və amalı bir olan xalqlarımızın rifahının yüksəlməsinə, regionda sülhün və əmin-amanlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək mən qardaş Türkiyənin məruz qaldığı zəlzələ ilə əlaqədar dərdinizə şərik çıxdığımı bir daha bildirir və fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram. Cümhuriyyət bayramının ildönümündə Sizə, Azərbaycan xalqının və dövlətinin sınanmış dostuna dərin hörmət və ehtiramımı bildirirəm, Türkiyə xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram.

Səmimiyyətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 28 oktyabr 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli cənab Baş nazir!

Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsinin 76-cı ildönümü münasibətilə Sizi, Türkiyə hökumətini və qardaş türk xalqını salamlayır və səmimi-qəlbdən təbrik edirəm. Böyük Atatürkün göstərmiş olduğu yol ilə gedən Türkiyə Cümhuriyyəti ötən illər ərzində bütün sahələrdə yüksək nailiyyətlər əldə etmiş, iqtisadi inkişaf səviyyəsinə, beynəlxalq nüfuzuna görə dünyanın ən qabaqcıl ölkələri sırasına çıxmışdır. Ölkənizdə baş vermiş zəlzələnin nəticələrini aradan qaldırmaqda böyük səbir və mətanət göstərən Türkiyə xalqı dünyaya sübut edir ki, irəliyə yürüşünü davam etdirmək əzmindədir. Mən Türkiyə ilə bütün sahələrdə əməkdaşlığımızın inkişafına böyük əhəmiyyət verirəm və bundan məmnunluq duyuram. Əminəm ki, əlbir səylərlə biz xalqlarımızın və ölkələrimizin dostluğunu və işbirliyini daha da möhkəmləndirəcək, regionumuzda sülhün və əmin-amanlığın bərqərar olmasına nail olacağıq.

Fürsətdən istifadə edib, Sizə və qardaş türk xalqına xoşbəxtlik, Türkiyənin iqtisadi yüksəlişi naminə səylərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 28 oktyabr 1999-cu il.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB YILDIRIM AKBULUTA

Hörmətli cənab sədr!

Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsinin 76-cı ildönümü münasibətilə Sizi, Türkiyə Böyük Millət Məclisinin üzvlərini və bütün qardaş türk xalqını ürəkdən təbrik edirəm. Türkiyə Respublikası ötən illər ərzində türk dünyasının böyük öndəri Mustafa Kamal Atatürkün yolu ilə irəliləyərək sürətlə inkişaf etmiş, xalqın milli-mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub saxlamaqla dünyanın qüdrətli ölkələri sırasına çıxmış, demokratiyanın və insan hüquqlarının bərqərar olmasında dəyərli nailiyyətlər əldə etmişdir. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələr hərtərəfli inkişaf edir. Mən ölkələrimizin tarixi dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin getdikcə genişlənməsini və möhkəmlənməsini yüksək qiymətləndirirəm.

Əminəm ki, Sizinlə birgə səylərimiz sayəsində qardaş xalqlarımız arasında uğurla inkişaf edən mehriban dostluq əlaqələri və işbirliyi daha da sıxlaşacaq və dərinləşəcək, kökü, dili və amalı bir olan xalqlarımızın rifahına və əmin-amanlığına xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək mən Türkiyənin məruz qaldığı zəlzələ ilə əlaqədar dərdinizə şərik çıxdığımızı bir daha bildirir və fəlakətin nəticələrini tezliklə aradan qaldırmağınızı arzulayıram. Əziz bayram günündə Sizə möhkəm cansağlığı və uğurlu fəaliyyət, dost ölkənizə sülh və daimi yüksəliş arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 28 oktyabr 1999-cu il.

"Azərbaycan" qəzeti, 29 oktyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ VIII İŞGÜZAR SƏFƏRİ

31 oktyabr - 2 noyabr 1999-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə oktyabrın 31-də qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür. Dövlətimizin başçısı Binə hava limanında jurnalistlərin bu səfərin məqsədi barədə sualına cavab verərək demişdir:

- Səfərin məqsədi elan olunubdur. Mən Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli dostum, qardaşım Süleyman Dəmirəlin dəvəti ilə həmin ölkəyə iki günlük səfərə gedirəm. Mən bu gün İstanbula, sabah səhər tezdən isə zəlzələ olan yerə - Kocaeli diyarına gedəcəyəm. Orada zəlzələdən zərər çəkmiş yerlərlə tanış olacağam. Kocaeli Universitetində dərslər indiyə qədər açılmayıbdır, sabah orada dərslər başlanacaqdır. Həmin diyarda Süleyman Dəmirəl adına Mədəniyyət Mərkəzi vardır. Biz o mərkəzdə və Kocaeli Universitetində hörmətli Süleyman Dəmirəl ilə bərabər olacağıq. Sonra onunla birgə Ankaraya uçacağıq. Mənim arzum, istəyim o idi ki, noyabrın 1-də Ankaraya gedib Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu hörmətli Süleyman Dəmirəlin doğum gününü - 75 illiyini təbrik edim. Ancaq onlar proqramı dəyişiblər. Sabah gərək ki, saat 17.30-da Çankaya köşkündə mənə Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim edilməsi mərasimi olacaqdır. Ondan sonra isə mən dostum, qardaşım Süleyman Dəmirəli təbrik edəcəyəm. Bunun üçün ayrıca mərasim olacaqdır.

Məqsədimiz bundan ibarətdir. Bundan sonra isə zəlzələdən zərər çəkmiş insanların müalicə olunduğu xəstəxanaya gedəcəyəm, onlara baş çəkəcəyəm, onları ziyarət edəcəyəm. Ayın 2-də isə Bakıya dönəcəyəm.

Məqsədimiz bundan ibarətdir.

Sual: Cənab Prezident, Sizcə, Ermənistanda yaranmış vəziyyət sülh danışıqlarına mənfi təsir edə bilərmi?

Cavab: Bilirsiniz, həm Ermənistan Prezidenti Robert Koçaryan, həm Rusiyanın Xarici İşlər naziri İqor İvanov, həm də Amerika Birləşmiş Ştatları Dövlət katibinin müavini Stroub Telbott artıq neçə dəfə bəyanat veriblər, xüsusən Ermənistan bəyanat veribdir ki, birincisi, Ermənistanda baş vermiş faciəli hadisələrin, terror hadisələrinin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, tənzimlənməsi ilə heç bir əlaqəsi yoxdur. İkincisi, olar eyni zamanda bəyanat veriblər ki, bu hadisə sülh prosesinə mane olmayacaqdır. Siz bunları bilirsiniz, amma mən də sizə deyirəm.

Sual: ATƏT-in İstanbul zirvə görüşündə bir sülh müqaviləsi imzalana bilərmi?

Cavab: ATƏT-in İstanbul zirvə görüşündə çox müqavilələr imzalanacaq, ola bilər bu müqavilə də imzalansın.

Sual: Cənab Prezident, müxalifət qüvvələri son istefaları özlərinə xeyir olan variantda təqdim edirlər. Bu məsələyə münasibətiniz necədir?

Cavab: Onlar hər şeyi tərsinə təqdim edirlər. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İSTANBUL HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidentinin İstanbulda qarşılanması mərasimini işıqlandırmaq üçün hava limanında yerli və xarici ölkələrin mətbuat nümayəndələri, televiziya kanallarının əməkdaşları toplaşmışdılar.

Prezident Heydər Əliyev hava limanının şərəf salonunda jurnalistlərin suallarına cavab verdi.

Sual: Cənab Prezident, Ermənistanda son terror hadisəsinin baş verməsi bir təsadüfdürmü və Siz bu barədə nə düşünürsünüz?

Cavab: Bilirsiniz, bu olaylar artıq hamıya məlumdur. Sizə də məlumdur. Ermənistanda olan olaylar terrordur. Biz hər zaman terrorun əleyhinə olmuşuq, bu gün də terrorun əleyhinəyik. Ancaq bu terror Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə mane olmayacaqdır. Çünki Ermənistanın Cümhurbaşkanı və digər şəxslər belə bəyanat veriblər ki, birincisi, bu terrorun Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə heç bir əlaqəsi yoxdur. İkincisi, bu, onların daxili işidir. Üçüncüsü, bu məsələ, bu olay bizim sülh danışıqlarımıza mane olmayacaqdır və Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi prosesinə maneçilik törətməyəcəkdir. Daha

kimin nə sözü var?

Sual: Ermənistandakı həmin hadisədən sonra bu ölkənin hökumətində bir böhran əmələ gəlmişdir. Ermənistan Prezidentinin istefaya getməsi barədə də iddia var. Əgər Ermənistan hökumətində rəhbərlik dəyişərsə, bu, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına mənfi təsir göstərə bilərmi və bu sahədə problem olacaqmı?

Cavab: Bilirsiniz, insanlar dəyişiblər. İndi kimsə terrordan vəfat edibdir, kimsə yaşayır. Ancaq həyat davam edir. Ona görə də hesab edirəm ki, - mən dedim, bir də bəyan edirəm, - həm Ermənistan rəsmilərinin, o cümlədən, Cümhurbaşkanının, həm Amerika Birləşmiş Ştatlarının, o cümlədən, Dövlət katibinin yardımçısı Telbotun, - hansı ki, indi Yerevandadır, - həm də Rusiyanın Xarici İşlər naziri İvanovun verdiyi bəyanatlardan belə görünür ki, bu, Ermənistanın daxili məsələsidir, Ermənistan-Azərbaycan münaqişəsinə heç bir aidiyyəti yoxdur və bizim sülh prosesinə heç bir maneçilik törətməyəcəkdir.

Amma sülh prosesi uzun bir prosesdir. Neçə ildir, 1994-cü ilin may ayından ətəşkəs yaratmışıq. O vaxtdan da danışıqlar aparırıq. Amma hələ bir nəticəyə gəlməmişik. Danışıqlar bundan sonra da gedəcəkdir. Amma sülh barədə danışıqlar gedəcəkdir. Yəni biz, Azərbaycan bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik.

Sual: Cənab Prezident, noyabrın 18-19da ATƏT-in İstanbulda keçiriləcək zirvə toplantısında Dağlıq Qarabağla bağlı bir anlaşmanın imzalanması mümkündürmü və Siz belə bir sazişin imzalanmasını gözləyirsinizmi? Eyni zamanda bu zirvə görüşü zamanı Bakı-Ceyhan neft kəməri barədə də sazişin imzalanması gözlənilirmi?

Cavab: Birincisi, o günlərə qədər yaşayaq, onda hər şey məlum olacaqdır. İkincisi, mən təəccüb edirəm ki, artıq Bakı-Ceyhan barəsində mənə sual vermirlər. Çünki bir neçə il bundan öncə mən Türkiyəyə - ya İstanbula, ya Ankaraya gələndə mənə hamı sual verirdi ki, Bakı-Ceyhan nə oldu? Allaha şükür olsun ki, ind siz də rahatsınız, biz də rahatıq ki, Bakı-Ceyhan boru kəməri məsələsi çözülüb. Keçən il, düz bir il bundan öncə Ankarada biz böyük bir bəyannamə imzaladıq. Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan Cümhurbaşkanları və Amerika Birləşmiş Ştatlarının Enerji naziri Riçardson bunu imzaladılar. Amma bu bir il müddətində Bakı-Ceyhan boru xətti ilə əlaqədar çox gərgin iş gedibdir. Bəyannaməni imzaladıq, ancaq bu boru xəttinə aidiyyəti olan şirkətlər, - hansı ki, konsorsiuma daxildirlər və Xəzərin Azərbaycan sektorunun bir hissəsində, "Azəri", "Çıraq", "Günəşli" yataqlarında neft istehsalı ilə məşğuldurlar, neft çıxarmaqla məşğuldurlar, - onlar bu boru xəttinin dəyəri haqqında, qiyməti haqqında fərqli fikirdə idilər.

Ona görə də siz onu bilməlisiniz, . o vaxtdan bir ildir ki, Azərbaycan bu barədə çalışır. Azərbaycanın nümayəndə heyəti daim - ya Ankarada, ya İstanbulda, ya Nyu-Yorkda, ya Vaşinqtonda bu məsələnin çözülməsi ilə məşğul olur. Bu gün də bizim nümayəndə heyətimiz Ankaradadır və Türkiyə ilə bərabər bu işləri görürük. Biz istəyirik ki, hazır olsun.

Nəhayət, bir çətin, ağır məsələ var idi. Bu, ondan ibarət idi ki, konsorsiuma daxil olan xarici ölkələrin şirkətləri tələb edirdilər ki, əgər Bakı-Ceyhan boru xəttinin qiyməti, dəyəri 2,4 milyard dollardan artıq olsa, onda bu dəyəri, vəsaiti Türkiyə ödəməlidir. Çünki onlar deyirdilər ki, bu, 3 milyard, yaxud 3,7 milyard dollar olacaqdır. Türkiyə isə hesabladı və dedi ki, 2,4 milyard olacaqdır. Biz də belə fikirdəyik ki, bu, belə olacaqdır. Ancaq sonra belə bir məsələ meydana çıxdı ki, əgər belə olmasa, yəni şirkətlər dedilər ki, əgər tikintinin dəyəri 2,4 milyard dollardan artıq olsa, onda bunu Türkiyə ödəməlidir. Bir neçə ay danışıqlar bundan ötrü gedir.

Sonra hörmətli dostum, Cümhurbaşkanı, əziz Süleyman Dəmirəl oktyabrın 18-də Azərbaycanda olarkən biz bu məsələni bir də müzakirə etdik. Məndən rica etdilər bu şirkətlərlə danışım ki, onlar Gürcüstan və Azərbaycan torpaqlarından keçən boru xəttinin riskini öz üzərinə götürsünlər. Türkiyə isə Türkiyə ərazisindən keçən boru xəttinin riskini, yəni 2,4 milyarddan artıq olanı öz üzərinə götürəcəkdir. Biz də bu işi apardıq və şirkətlər də artıq buna razılıq veriblər. Ona görə də Bakı-Ceyhan məsələsi həll olunubdur və güman edirəm ki, ATƏT-in zirvə toplantısı zamanı burada, İstanbulda bunu tamam imzalayacağıq.

Sual: Cənab Prezident, bu boru xəttinin, yəni Bakı-Ceyhanın yanından Türkmənistan və Azərbaycan qazı üçün paralel bir kəmərin çəkilməsi barədə nə deyə bilərsiniz?

Cavab: O da indi bir mövzudur. Danışıqlar gedir. Sağ olun.

"Azərbaycan" qəzeti, 4 noyabr 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Əziz dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirəl!

Hörmətli mətbuat nümayəndələri!

Mən dünən İstanbula enmişəm, bu gün də buraya, Kocaeliyə gəlmişəm. Mənim dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirəlin dəvəti ilə. Amma buraya gəlməyimin iki səbəbi vardır.

Birinci, mənim arzum, istəyim olubdur ki, bu gün qardaşım, əziz dostum, Azərbaycan xalqının böyük dostu, hörmətli Süleyman Dəmirəlin doğum günü - 75 yaşı tamam olan gün onun yanında olum, onu təbrik edim, onunla bərabər olum və sevincimi bölüşdürüm. Eyni zamanda mən bu gəlişimlə istədim ki, zəlzələ bölgə-

sində olum və burada görülən işlərlə tanış olum, bugünkü vəziyyətlə tanış olum. Hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl başqa bir mərasim də yapıbdır, orada da iştirak edəcəyəm.

Ona görə də mən indi burada, Kocaelidəyəm, zəlzələnin ən şiddətli, ən dəhşətli yerindəyəm. Biz Azərbaycan olaraq, Azərbaycan xalqı, Azərbaycan dövləti olaraq zəlzələ olan kimi Türkiyəyə əlimizdən gələn yardımı etdik. Türkiyəyə nə mümkün idi - bunu etdik və mən məmnunam ki, bizim bu yardımımızdan Türkiyə cəmiyyəti, xalqı, Cümhurbaşkanı Süleyman Dəmirəl məmnun olmuşlar. Xüsusən indi mən hərbi vertolyotla gələrkən neftayırma zavoduna baxırdım. Çox böyük zavoddur. Azərbaycanda da bunlardan vardır. Zavodda yanğının söndürülməsində Azərbaycan vətəndaşlarının, yanğınsöndürənlərin xidmətlərini o vaxt sizin mətbuat da, hamı da yüksək qiymətləndirdi. Mən məmnunam ki, bunu da gördüm. İndi buraya gəlmişik. Bizim burada bir neçə ziyarətimiz vardır. Ancaq bu gün mənim üçün çox əziz gündür. Bu gün mənim dostum, qardaşım, Azərbaycan xalqının böyük dostu, Türkiyə Cümhuriyyətinin Prezidenti, Cümhur-başkanı, türk dünyasının lideri, türk xalqının ən böyük oğlu, təkcə Türkiyə xalqının yox, bütün türk xalqlarının ən böyük oğlu Süleyman Dəmirəlin 75 yaşı tamam olur. Mən çox şadam, çox sevinc içindəyəm ki, bu gün buradayam, Türkiyə torpağındayam, qardaşım, dostum Süleyman Dəmirəlin yanındayam və onu şəxsən təbrik etmək imkanına malik olmuşam.

Əziz qardaşım, Siz burada mətbuat nümayəndələrinə bir neçə dəyərli söz dediniz, onlara tövsiyələrinizi verdiniz. Hansı yaşa gələcəksiniz - yaşayın. Allah hamıya Sizin kimi xoşbəxt həyat bəxş etsin! Allah hamıya Sizin kimi çoxmənalı həyat bəxş etsin! Çünki 75 il yaşamaq, bəlkə də 100 il yaşamaq, təkcə yaşamaq elə bir böyük iş deyildir. İnsan doğulanda onun nə qədər yaşayacağı alnında yazılır. Ancaq bu 75 ilin 50 ilini siyasətdə, dövlət işində, xalqa xidmətdə keçirən Süleyman Dəmirəl xoşbəxt bir insandır. Ona görə də mən arzu edirəm ki, hamı Sizin kimi belə bir xoşbəxt həyat yaşamış olsun.

Mən bu gün Sizə uzun-uzun ömür arzulayıram. Siz bu yaşınızda çox gümrah, çox güclü, çox zəkalı və çox təcrübəli bir insansınız. Ona görə də Siz Türkiyəyə lazımsınız, türk xalqına lazımsınız. Azərbaycana lazımsınız. Hesab edirəm ki, bizim bu sözlərimizi eşidən cənab Allah Sizi qoruyacaq, saxlayacaq və Siz bundan sonra gələcəkdə də bütün xalqlarımıza çox böyük faydalar verəcəksiniz. Mən Sizi təbrik edirəm, Sizə cansağlığı arzu edirəm. Bütün Türkiyə xalqına sevgi, məhəbbətimi bildirirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ BEYNƏLXALQ ATATÜRK SÜLH MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

. Zati-aliləri, Türkiyə Cümhuriyətinin Prezidenti, əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl!

Zati-aliləri, Türkiyə Cümhuriyyətinin Baş naziri, hörmətli Bülənd Ecevit!

Zati-aliləri, Türkiyə Cümhuriyyətinin başqanı hörmətli Yıldırım Akbulut! Zati-aliləri, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu!

Hörmətli nazirlər, millət vəkilləri, ictimai-siyasi xadimlər, elm xadimləri, mədəniyyət xadimləri, mətbuat nümayəndələri! Hörmətli xanımlar və cənablar, bacılar və qardaşlar!

Əziz dostlar! Mən sizi səmimiqəlbdən salamalıyıram və bu gün Türkiyədə, Ankarada sizinlə bərabər, birlikdə olmağımdan böyük işlər görüldüyünün şahidi olmağım mənim üçün çoz əzizdir. Bu gün hər şeydən əvvəl, mən türk xalqına, Türkiyə Cümhuriyyətinə bir daha "keçmiş olsun" deyirəm, fəlakətdə həlak olmuş insanlara Allahdan rəhmət, yaralanmış insanlara şəfa diləyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Türkiyə xalqı, Cümhuriyyəti - əsrlər boyu böyük sınaqlardan, imtahanlardan çıxmış xalq və Atatürk tərəfindən yaranmış cümhuriyyət bu imtahandan, bu sınaqdan da uğurla çıxacaqdır.

Aparılan işlər onu göstərir ki, dağılan, uçulan, pozulan hər şey qısa müddətdə bərpa olunacaq, bəlkə də, bundan yaxşısı yaranacaqdır. Ancaq sizi də, bizi də incidən insanların şəhid, həlak olmasıdır.

Bu gün biz orada fəlakətdən zərər çəkmiş insanlarla görüşdük. Nə qədər böyük fəlakət, faciə içində olsalar da, onlar Türkiyə Cümhuriyyətinin Prezidenti və məni böyük sevgi, məhəbbət hissi ilə qarşıladılar. Onların üzü gülürdü, bu insanlar bizimlə böyük nikbinliklə danışırdılar. Bu, onu göstərir ki, Türkiyə vətəndaşları, türk xalqı öz dövlətinə, hökumətinə inanır, etibar edir və ümidlə yaşayır ki, onların bütün problemləri həll olunacaqdır, onlar əvvəlkindən də yaxşı yaşayacaqlar.

Əziz dostlar!

Mən bu gün böyük həyəcan içindəyəm. Çünki mən böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan beynəlxalq sülh, barış mükafatına layiq görülmüşəm. Bu mükafatı, ödülü belə təntənəli şəraitdə mənə Türkiyə Cümhuriyyətinin ən yüksək vəzifələrində olan şəxslərin iştirakı ilə Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl təqdim etdi. Təbiidir, siz mənim həyəcanımı, duyğularımı hiss edirsiniz.

Mən həyatımda çox mükafatlar almışam. Mənim tərcümeyi-halım, bioqrafiyam burada sizə çatdırıldı. Mən 75 yaşımın 60 ili ərzində çalışmışam, işləmişəm. Keçmişdə Sovetlər Birliyinə xidmət etmişəm, son 8 ildə isə müstəqil Azərbaycana xidmət edirəm. Keçmişdə gördüyüm işlərə görə mən Sovetlər Birliyi kimi fövqəldövlətin ən yüksək mükafatlarını, nişanlarını almışam. Mən bir çox digər ölkələrin də mükafatlarını, nişanlarını almışam. **Ancaq Türkiyə Cümhuriyyətinin mükafatı, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq və xüsusən sülh adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm ki, bu mükafat mənim indiyə qədər aldığım mükafatların hamısından yüksək, qiymətlidir.**

Mustafa Kamal Atatürk Beynəlxalq Sülh Mükafatının yüksək qurumunun bu mükafatın mənə verilməsi haqqında qəbul etdiyi qərar - bu quruma hörmətli Baş nazir rəhbərlik edir - böyük tarixi əhəmiyyət kəsb edən bir qərardır. Ona görə mən bu qurumun üzvlərinin hamısına öz minnətdarlığımı, təşəkkürümü bildirirəm. Mənim fəaliyyətimə və xüsusən sülh sahəsində fəaliyyətimə verilən belə yüksək qiymətə görə minnətdar olduğumu bildirirəm.

Çox sevinirəm, çox şadam ki, mən bu mükafatı əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti, hörmətli Süleyman Dəmirəlin əlindən aldım, bu qızıl nişanı o mənim döşümə taxdı, bu mükafatı o mənə təqdim etdi. Bunlar mənim həyatımda ən yüksək tarixi əhəmiyyət kəsb edən hadisədir.

Əziz qardaşım, dostum, hörmətli Süleyman Dəmirəl, bütün bunlara görə sizə, sizin hamınıza bir daha təşəkkür edirəm.

Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Zaman keçdikcə onun şəxsiyyətinin nə qədər böyük olduğu daha da hiss ediləcəkdir, dərk olunacaqdır, bilinəcəkdir. Mustafa Kamal Atatürkün türk xalqı, Türkiyə qarşısında və eyni zamanda türk dünyası qarşısında, beynəlxalq aləmdə çox böyük xidmətləri olubdur. Məhz bu xidmətlərə görə o bu qədər yüksək hörmətə malik olubdur.

Mustafa Kamal Atatürk böyük istedadlı insan olmuş, onun istedadı gənc vaxtlarından özünü göstərmişdir. O, hələ Türkiyə Cümhuriyyətini qurub-yaradana qədər də böyük qəhrəmanlıqlar göstərmiş, istiqlal savaşına başçılıq etmiş və Birinci dünya müharibəsindən sonra Osmanlı imperatorluğu dağılan zaman Türkiyəni dağıtmaq, parçalamaq, məhv etmək istəyən ölkələrin, qüvvələrin hamısının qarşısının alınmasını təşkil etmiş və buna nail olmuşdu. **Mustafa Kamal Atatürkün ən böyük xidməti Türkiyə Cümhuriyyətini yaratmasıdır.** Biz bəlkə bu gün bunu adi hadisə kimi qəbul edə bilərik, ancaq heç də yox. Bu, heç də adi hadisə deyildi.

Türkiyənin Osmanlı imperatorluğunun 700 illik fəaliyyəti şəraitində, onun təsiri altında yaşamış insanları cümhuriyyət qurmağa sövq etmək, cəlb etmək və bu cümhuriyyətin qurulması fikrini ortaya atmaq, bu cümhuriyyəti qurmaq, yaratmaq və onu yaşatmaq Mustafa Kamal Atatürkün çox böyük xidmətidir, demək olar ki, tarixi xidmətidir. Zaman, əsrlər keçəcək, türk xalqı, türkköklü, türkdilli xalqlar, türk dünyası bunu heç vaxt unutmayacaqdır. 1923-cü ildə böyük öndər Mustafa Kamal Atatürk tərəfindən yaranmış Türkiyə Cümhuriyyəti 76 ildir ki, yaşayır. Başqa tarixi çox böyük insanları meydana çıxarıbdır. Onlar inqilablar edib, dövlətlər yaradıb və millətləri üçün böyük işlər görüblər. Ancaq onların çoxu sonra uğursuz olublar. Onların gördükləri işi davam etdirənlər olmayıbdır. Onların gördüyü iş yəqin ki, gələcək üçün o qədər dəyərli olmadığı üçün yaşamayıbdır. Ancaq Mustafa Kamal Atatürkün ən böyük nailiyyəti bir də ondan ibarətdir ki, onun qurduğu, yaratdığı və ömrünün sonuna qədər başçılıq etdiyi Türkiyə Cümhuriyyəti o, həyatdan gedəndən sonra 60 ildir yaşayır, inkişaf edir və onun vəsiyyətlərini həyata keçirir, işinə sadiqliyini göstərir, onun yolu ilə gedir. Mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün bəşəriyyət üçün böyük irsi, mirası vardır. Onlar çoxdur. Amma bunlardan ən qiymətlisi, ən əzizi onun qurub-yaratdığı və bu günə qədər yaşayan Türkiyə Cümhuriyyətidir - Atatürk cümhuriyyəti, layiq cümhuriyyət, dünyəvi cümhuriyyətdir.

Ötən 70 il ərzində türk xalqı böyük Atatürkün yolu ilə gedərək, onun vəsiyyətlərini yerinə yetirərək böyük nailiyyətlər əldə etmişdir. Birincisi, Türkiyə Cümhuriyyəti dünyanın qüdrətli, inkişaf etmiş dövlətlərindən biri olmuşdur. Türkiyə Cümhuriyyətinin həm iqtisadi, həm hərbi potensialı, həm elmi potensialı indi bu dövləti dünyanın ən qabaqcıl ölkələri ilə yan-yana qoymuşdur.

Türkiyə Cümhuriyyətinin əldə etdiyi ən böyük nailiyyət ondan ibarətdir ki, türk xalqı bilik-almış, savadlanmış, təhsillənmiş, elmlənmişdir. Türkiyədə elm, mədəniyyət inkişaf etmişidr. Türkiyədə yaranmış cümhuriyyət bütün islam aləmində, dünyada, bütün tarixlər ərzində yaranan ilk demokratik, hüquqi, dünyəvi, yəni layiq cümhuriyyətdir. Bu cümhuriyyət bütün başqa xalqlar üçün öz dövlət quruluşu sistemi, siyasəti ilə örnək olmuşdur, təkcə müsəlman dünyasına yox, başqa ölkələrə - Avropaya da öz təsirini göstərmişdir.

Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdi-

rərək öz xalqını daha da yüksəklərə qaldırmışdır. Mustafa Kamal Atatürkün ən böyük xidmətlərindən biri də odur ki, o, Türkiyədə güclü ordu yaratmışdır. Türkiyə ordusu güclü ordudur. Siz özünüz bilirsiniz ki, o nə qədər güclüdür. Bu, bizim üçün də böyük iftixar hissi doğurur. Çünki bizim dost, qardaş Türkiyə Cümhuriyyəti - iqtisadi cəhətdən inkişaf etmiş, dünya miqyasında özünə layiq yer tutmuş, elm və mədəniyyətdə böyük zirvələrə çatmış bir cümhuriyyət gərək özünü qorumağa və saxlamağa da qadir olsun. Belə bir ordu yaranıbdır. Bunu Mustafa Kamal Atatürk yaradıbdır. Mən bu gün böyük məmnuniyyət hissi ilə demək istəyirəm ki, türk ordusu, türk əsgəri Mustafa Kamal Atatürkün ideyalarına, onun vəsiyyətinə, yoluna daim sadiq olmuşdur.

Mustafa Kamal Atatürk təkcə Türkiyə üçün yox, bütün dünya türkləri üçün, türk dünyası üçün də çox düşünmüşdür.

Onun bu barədə çox məşhur kəlamları, sözləri var. O, 30-cu illərdə söyləyirdi ki, Azərbaycanda və Orta Asiyada yaşayan türklər indi çətin problemlər içərisindədirlər. Amma zaman gələcəkdir ki, onlar bu əsarətdən çıxacaqlar. O, bunu 30-cu illərdə demişdir. Belə də oldu. Azərbaycan 1918-ci ildə əldə etdiyi müstəqilliyini cəmisi 23 ay saxlaya bildi. Ondan sonra Sovet hakimiyyəti quruldu. Azərbaycanda Sovet hakimiyyəti, kommunist ideologiyası 70 ildən çox hökm sürdü. Ancaq bu, sona çatdı. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi, onu bərpa etdi. Yəni Mustafa Kamal Atatürkün uzaqgörənliyi bununla da sübut olunur. O, hələ o vaxt görürdü ki, Azərbaycan və türkdilli digər xalqlar - Orta Asiya xalqları daim əsarətdə qalmayacaqlar, öz müstəqilliyinə, öz azadlıqlarına nail olacaqlar. Biz buna nail olduq.

Biz müstəqilliyimizi əldə edən kimi öz dövlətimizi "İnsanlara hürriyyət, dövlətlərə istiqlal!" prinsipləri əsasında qurduq.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkəmizdə hüquqi, demokratik, dünyəvi, yəni layiq dövlət qurmaq yolunu tutubdur. Biz 8 ildir ki, bu yolla gedirik.

Doğrudur, bu yol bizim üçün asan olmayıbdır. Bilirsiniz ki, biz müstəqilliyimizi əldə edəndən artıq 4 il idi ki, Ermənistan Dağlıq Qarabağı ələ keçirmək üçün Azərbaycana təcavüz etmişdi, müharibə gedirdi, qan tökülürdü, şəhidlər verirdik. Bundan sonra isə Azərbaycanın daxilində sabitlik olmadı və bunun nəticəsində də respublikamızda hakimiyyət dəyişikliyi oldu. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başladı. Azərbaycan parçalanmaq təhlükəsi qarşısında qaldı. Ancaq xalqımız öz iradəsi ilə bütün bu ağır dövrləri keçdi və 1996-cı ildən Azərbaycanda daxili istiqrar, yəni ictimai-siyasi sabitlik, rahatlıq təmin olunubdur və

Azərbaycan öz inkişaf yolu ilə gedir.

Azərbaycanın ən böyük problemi - Ermənistanın təcavüzü, Ermənistan - Azərbaycan münaqişəsi, Dağlıq Qarabağın Ermənistanın əlinə keçməsi ilə əlaqədar başlanan müharibədir. Bu müharibədə çox qanlar töküldü, Azərbaycan çox şəhidlər verdi, müxtəlif səbəblərdən torpaqlarımızın 20 faizi işğal olundu. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan zorla çıxarıldı və indi onlar ölkəmizin başqa bölgələrində çadırlarda yaşayırlar. Təsəvvür edin, 5, 6, 7 il çadırda yaşamaq nə deməkdir? Onlar yaşayırlar, dözürlər. Ona görə dözürlər ki, öz torpaqlarına, evlərinə qayıdacaqlarına inanırlar. 1994-cü ilin may ayından bu müharibənin əhəmiyyətsiz olduğunu dərk edərək biz Ermənistan ilə atəşkəs şəraitində yaşayırıq. Müharibə, döyüş yoxdur, ancaq sülh də yoxdur. Ötən illər ərzində biz bu problemi sülh yolu ilə həll etməyə çalışırıq. Bu sahədə çox fəaliyyətlər göstərmişik. Biz, xüsusən, ATƏT-in Minsk qrupu vasitəsilə, beynəlxalq təşkilatlarda və böyük ölkələrin iştirakı ilə keçirilən görüşlərdə bu məsələləri müzakirə etmişik. Bildirmişik ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, o yerlərdən didərgin düşmüş insanlar öz yurdlarına qayıtmalıdırlar. Ermənistan ilə Azərbaycan arasında ədalətli sülh yaranmalıdır. Biz buna nail olmağa çalışırıq. Sülh yolu indi bizim tutduğumuz əsas yoldu. Mən məmnunam ki, elə siz də - Türkiyə də bizim bu sülhsevər siyasətimizi dəstəkləyirsiniz və bizə hər zaman olduğu kimi, indi də dayaq dursunuz.

Azərbaycan müstəqil dövlət olaraq bazar iqtisadiyyatı yolu ilə gedir. Biz qapılarımızı xarici ölkələrin investisiya gətirməsi üçün açmışıq. 1994-cü ildə imzalanmış ilk neft müqaviləsi - "Əsrin müqaviləsi" adlanan müqavilə artıq öz böyük nəticələrini verir. Bilirsiniz ki, bu müqavilədə ilk dəfə Türkiyə də iştirak edir, Türkiyənin 1,75 faizi payı var idi. Ancaq müqavilə imzalanandan sonra mən xüsusi qərarımla Azərbaycanın hissəsindən ona 5 faiz əlavə etdim. Ondan sonrakı müqavilələrdə Türkiyə 5 faiz, 10 faiz yer alıbdır. İndi artıq Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənilməsində bir neft ölkəsi kimi Türkiyə, yəni "Türk petrolları" şirkəti digər xarici ölkələrin şirkətləri ilə yan-yana çalışır. İnanıram ki, bunlar Türkiyə üçün, həm də Azərbaycan üçün çox böyük fayda verəcəkdir.

Bu müqavilə imzalanandan böyük bir məsələ müzakirə olunur. Bu məsələ də neftin dünya bazarına çıxarılmasıdır. O vaxt həm konsorsiumun üzvləri, həm də biz belə hesab edirdik ki, ilkin nefti Bakı - Novorossiysk neft boru xətti vasitəsilə ixrac etmək olar. Ancaq böyük neftin - biz bu böyük nefti ixi ilə gözləyirik - ixracı üçün böyük bir neft borusu la-

zımdır.

Mən bildirmək istəyirəm ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanan zaman biz böyük neft borusunun yaranmasını həmin müqavilədə əks etdirmişik və orada nəzərdə tutmuşuq ki, bu, Bakı - Ceyhan neft kəməri olacaqdır. Bu barədə 5 ildir ki, danışıqlar gedir, müzakirələr aparılır. Bir çox dövlətlər bizə bu məsələdə təzyiq göstərməyə başladılar. Onlar bu müqavilənin həyata keçirilməsinin qarşısını almağa çalışdılar. "Xəzər dənizinin statusu müəyyən deyil", - deyən Xəzəryanı bir çox ölkələr bizim bu müqavilənin qarşısını almağa çalışdılar. Onların ən böyük məqsədi ondan ibarət idi ki, bu böyük neft boru kəməri Bakı - Ceyhan marşrutu ilə, yəni Türkiyədən yox, Rusiyadan keçsin. Ancaq biz bütün bu təzyiqlərin qarşısını aldıq, buna dözdük, Bakı - Ceyhan boru kəmərinin yaranması üçün hər il irəliyə doğru bir addım atdıq. Bir il bundan öncə Ankarada çox əhəmiyyətli bəyannamə imzaladıq. Bu bəyannaməni Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan dövlət başçıları imzaladılar. Sənədi Amerika Birləşmiş Ştatlarının Enerji naziri cənab Riçardson da imzaladı. Ancaq bilirsiniz ki, ötən bir ildə də bu məsələ hələ tamam həll olunmamışdı. Çünki qiymətlərdə müəyyən fərq var idi. Mən sizə açıq demək istəyirəm, konsorsium bu işi ləngidirdi. Çünki hesab edirdi ki, Bakı - Supsa neft kəməri tikiləndən sonra onların xam nefti ixrac etməyə imkanları hələ var. Onların fikrincə, böyük neft hasil ediləna qədər bir neçə il də gözləmək lazımdır və sonra biz Bakı - Ceyhan boru kəmərini tikməliyik. Onlar, balkə də, başqa marşrut seçmək istəyirdilər. Ancaq biz Bakı - Ceyhan boru kəməri layihəsini israrlı olaraq həyata keçirməyə çalışdıq. Ötən bir il içərisində Türkiyənin və Azərbaycanın nümayəndələri konsorsium üzvləri ilə birlikdə həm İstanbulda, Ankarada, Vaşinqtonda, Hyustonda, həm də Bakıda görüşlər keçirdilər və nəhayət, bu məsələ həll edildi.

Hörmətli Prezident Süleyman Dəmirəl oktyabrın 18-də Bakıda olarkən məndən son vəziyyəti soruşdu. Dedim, son durum belədir, konsorsium tələb edir ki, Türkiyə ərazisindən keçən borunun riskini Türkiyə öz üzərinə götürsün. Türkiyə isə tələb edir ki, Türkiyə ərazisindən keçən borunun riskini öz üzərinə götürsün, Azərbaycan və Gürcüstan ərazisindən keçən borunun riskini isə konsorsium öz üzərinə götürsün. Onlar buna razı olurdular. Mən konsorsiumun üzvləri ilə əlavə danışıqlar apardım. Şübhəsiz ki, Amerika Birləşmiş Ştatları da onlara çox təsir etdi. Bunun nəticəsində konsorsiumun üzvləri buna razı oldular. Hesab edirəm ki, noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşündə Bakı - Ceyhan boru xətti haqqında anlaşma tamamilə imzalanacaqdır.

Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının böyük tarixi vardır. Ancaq bizim yeni tariximiz Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra başlayıbdır. Türkiyə həmişə Azərbaycana qayğı göstərib, daim dostluq, qardaşlıq əlini uzadıbdır. Hələ Azərbaycan Sovetlər Birliyi içərisində olan zaman, Ermənistan Azərbaycana təcavüzə başlayan zaman Türkiyə öz səsini qaldırdı, öz etirazını bildirdi, azərbaycanlıları dəstəklədi, təcavüzkarları qınadı, pislədi. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən indiyə qədər bizim bu sahədəki bütün işlərimiz Türkiyə Cümhuriyyəti ilə bərabərdir. Yəni birincisi, Türkiyə Cümhuriyyəti ATƏT-in Minsk qrupunun üzvü, digər tərəfdən bizim üçün ən yaxın dost, qardaş ölkə olduğu üçün bu işlərdə həm bilavasitə iştirak edir, həm də ki, biz məsləhətləşirik, Türkiyənin təcrübəsindən istifadə edirik. Ötən 8 ildə bizim əməkdaşlığımız, dostluğumuz, qardaşlığımız çox yüksək zirvəyə qalxıbdır. Biz iqtisadi sahədə, elm, mədəniyyət sahəsində çox geniş əməkdaşlıq edirik. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsində biz əməkdaşlıq edirik. Mən bu gün sizin qarşınızda, hüzurunuzda bütün bu dostluq, qardaşlıq münasibətinə, Azərbaycana göstərilən hər cür yardıma görə Türkiyə Cümhuriyyətinə, türk xalqına, Türkiyənin vətəndaşlarına, Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyə hökumətinə, Böyük Millət Məclisinə təşəkkürümü bildirirəm. Əziz dostlar! Türkiyə - Azərbaycan dostluğu həqiqətən əbədidir, dönməzdir, sarsılmazdır. Mən bu gün burada, Amerikada sizi bir daha əmin edirəm ki, Azərbaycan xalqı bu yolla, müstəqillik yolu ilə gedir və gedəcək, Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı günü-gündən inkişaf edəcək və möhkəmlənəcəkdir. Əziz dostlar, bu gün mənə bu yüksək Atatürk Mükafatını verməklə üzərimə böyük məsuliyyət qoydunuz və mənim qarşımda böyük vəzifələr durur. Mən bunu hiss edirəm. Mən həm məsuliyyətimi hiss edirəm, həm də vəzifələrimi bilirəm, vəzifələrim bundan ibarətdir: Azərbaycanın Prezidenti kimi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq və inkişaf etdirmək, Azərbaycanda hüquqi, demokratik, layiq, dünyəvi dövlət quruculuğu prosesini inkişaf etdirmək və Azərbaycanda demokratiyanı, hürriyyəti, insan haqlarının təmin olunmasını bərqərar etmək. Azərbaycanda bazar iqtisadiyyatını, sərbəst iqtisadiyyatı inkişaf etdirmək, ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı ilə inteqrasiya etmək. Türkiyə - Azərbaycan dostluğunu bundan sonra daha da möhkəmləndirmək və yüksəltmək. Sülh uğrunda mübarizə aparmaq. Böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" sözləri ilə desək, bu mükafat da məhz bu prinsipi daşıyır və bizim üçün müqəddəsdir. Ona görə də biz yurdda, Azərbaycanda da sülhü təmin etmək istəyirik və daxili is-

taqrarın saxlanması üçün lazımi tədbirlər görürük. Həm Qafqazda və həm də cahanda, dünyada sülhün tamamilə yaranması üçün çalışırıq. Biz belə hesab edirik ki, XXI əsr barış əsri, sülh əsri olmalıdır. Bütün bu münaqişələr, müharibələr aradan götürülməlidir. Artıq dünya tərəqqi yolu ilə getməlidir. Türkiyə Cümhuriyyəti bu barədə böyük örnəkdir. Biz bu təcrübədən də istifadə edirik.

Mustafa Kamal Atatürkün həyatı, yaradıcılığı, onun qoyduğu irs sizin üçün, Azərbaycan üçün də böyük örnəkdir. Biz özümüzü sizdən ayırmırıq. Türkiyə Cümhuriyyətinin 76 il müddətində keçdiyi yol, əldə etdiyi nailiyyətlər və böyük təcrübə Azərbaycan üçün örnəkdir. Biz bu təcrübədən istifadə edirik və bundan sonra da istifadə edəcəyik. Çünki siz artıq bu yolu 76 il müddətində keçmisiniz, çox böyük nailiyyətlər əldə etmisiniz. Biz bu yolun başlanğıcındayıq. Ancaq, əziz dostlar, əmin ola bilərsiniz ki, biz bu yolla əzmlə gedəcəyik. Bizi bu yoldan heç kəs döndərə bilməyəcəkdir. Azərbaycan müstəqil, demokratik dövlət kimi inkişaf edəcəkdir. Əziz dostlar, bu gün mənim üçün tarixi bir gündür. Çünki birincisi, bu qədər yüksək mükafatı - Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı aldım. İkincisi, Türkiyənin ən yüksək vəzifəli şəxslərinin qarşısında nitq söyləyirəm. Bu gün bir də ona görə əzizdir ki, mənim dostum, Azərbaycan xalqının böyük dostu, Türkiyənin Prezidenti, türk dünyasının lideri, hörmətli Süleyman Dəmirəlin doğum günüdür. Bu gün onun 75 yaşı tamam olur. Əziz dostum, qardaşım Süleyman Dəmirəlin həyat yolu, fəaliyyəti haqqında danışmağa imkan versəniz, mən sizi burada iki saat da saxlayacağam. Ona görə sizi yormamaq üçün, sadəcə, demək istəyirəm ki, hörmətli Süleyman Dəmirəl 50 illik siyasi, dövlətçilik fəaliyyəti ilə Türkiyəyə, türk xalqına böyük xidmətlər göstərmiş və türk xalqının hörmət, ehtiramını qazanmış, türk xalqının bu yüksək səviyyəyə çatmasında böyük işlər görmüşdür. Siz bunu bilirsiniz. Amma bəzən adam öz-özünü o qədər də tanımır. Kənardan baxanlar ona daha düzgün, yaxşı qiymət verə bilirlər. İnsan içərisində olanları bəzi proseslərə görə anlaya bilmir. Amma kənardan bunu anlamaq daha da asandır. Bunu ona görə demək istəyirəm ki, siz əziz dostumuz Süleyman Dəmirəlin bu xidmətlərini bilirsiniz. Bilirsiniz, qiymətləndirirsiniz, ona görə də o, Türkiyənin 9-cu Cümhurbaşkanıdır və bu vəzifəni şərəflə yerinə yetirir.

Ancaq siz bilməlisiniz ki, şəxsən hörmətli Süleyman Dəmirəl Türkiyə - Azərbaycan dostluğu və qardaşlığının inkişafında ən böyük xidmət göstərmiş bir insandır. Onun Azərbaycana göstərdiyi daimi qayğı, diqqət, mehribanlıq, dostluq bizi - yeni addım atan gənc bir dövləti daha da gücləndirir, bizə daha da ruh verir, irəli getməyə imkan verir.

Hesab edirəm, hörmətli Süleyman Dəmirəlin bu gün üçün və türk dünyasının gələcəyi üçün ən böyük xidmətlərindən biri odur ki, o, Türkdilli Dövlətlər Birliyinin təşkilatçısıdır və 1992-ci ildən indiyə qədər bu birliyin yaşamasını təmin edən müstəsna şəxsdir. Mən sizə açıq deməliyəm ki, bu birliyin yaranması dünyada müxtəlif fikirlər - yəni bu türkdilli, türkköklü dövlətlər yenə də birləşir, yenə də Turan ileyası meydana çıxır və sair - oyadır. Bu, çoxlarını qorxudubdur. Bununla bərabər, türkdilli dövlətlərdə də bəzi prosesər gedir.

Onu bilməlisiniz ki, siz 76 ildir cümhuriyyətdə yaşayırsınız, amma biz, digər türkdilli dövlətlər bu cümhuriyyətin, demokratiyanın indi ilk addımlarını atırıq. Bizim işimizdə çoxlu problemlər vardır. Bu problemlərə görə, bir tərəfdən də türkdilli həmin bu dövlətlər keçmişdə Sovetlər Birliyinin içində olduğuna görə və Sovetlər Birliyinin yenidən bərpa olunmasını, təşkil edilməsini istəyən qüvvələr get-gedə artdığına görə türkdilli dövlətlərə çox böyük təzyiqlər, təsirlər vardır. Onlardan biri də bundan ibarətdir ki, nə üçün türkdilli dövlətlər belə yaxınlaşırlar, birləşirlər?

Ona görə, işin içində olan adam kimi, mən sizə demək istəyirəm ki, 1992-ci ildən indiyə qədər bizim bu birliyin yolu da o qədər hamar, rahat olmayıbdır. Çox çətinliklər olubdur, proseslər gedibdir. Bəzən müxtəlif səbəblərdən bu dövlətlər arasında da - ixtilaflar deyə bilmərəm - ayrı-ayrı problemlər olubdur. Bilin, Türkdilli Dövlətlər Birliyini yaşadan və bütün Cümhurbaşkanlarını bir yerə, öz başına toplayan məhz Süleyman Dəmirəldir.

Bildirmək istəyirəm, onun şəxsiyyətinə, siyasətinə olan hörmət və türkdilli dövlətlərə onun göstərdiyi qayğı, diqqət, mehribanlıq, şübhəsiz ki, onu bizim üçün lider edibdir. O, həm liderdir, həm də bizim üçün ağsaqqaldır. Yəni ağsaqqal o mənada ki, hamının hörmət etdiyi, saydığı adamdır. Ola ilər ki, bir Cümhurbaşkanı ilə digər Cümhurbaşkanı hansı məsələdəsə bir-biri ilə razılaşmasın. Ancaq hörmətli Süleyman Dəmirəl olan yerdə hamı birləşir, bütün problemlər də aradan götürülür. Bu birliyin bu illər ərzində yaşamasının əsas təşkilatçısı və səbəbkarı əziz dostum Süleyman Dəmirəldir.

Mən Türkdilli Dövlətlər Birliyinə daxil olan Azərbaycan Respublikası adından onu demək istəyirəm ki, bu birlik lazımdır. Biz bu birliyi yaşatmalıyıq. Biz burada çox şeylərə nail olmuşuq. Birliyin əsas məqsədi odur ki, iqtisadi, mənəvi, elmi, mədəni sahələrdə, tarixi köklərimizin, dinimizin, dilimizin bir olduğuna və başqa məsələlərə görə biz bir-birimizlə daha da yaxınlaşaq, qovuşaq. Bu, təbiidir. Ancaq buna kənardan başqa cür baxırlar. Ona görə bu birlik yaşamalıdır. O, öz bəhrəsini, nəticələrini verəcəkdir. Amma onu

yaşadan, bunu təmin edən hörmətli Süleyman Dəmirəldir. Azərbaycan Prezidenti kimi mən bu gün buna görə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Güman edirəm ki, hər bir türkdilli dövlətin Cümhurbaşkanı, Prezidenti də mənim bu fikirlərimlə şərikdir və onlar da hörmətli Süleyman Dəmirələ mənim kimi daim təşəkkür edirlər.

Mən bu əlamətdar gündə əziz dostum, qardaşım Süleyman Dəmirəli 75-ci ildönümü, doğum günü münasibətilə bir daha ürəkdən təbrik edirəm. Əziz qardaşım, sənə uzun ömür arzulayıram. Sənə bundan sonra daha da böyük enerji arzu edirəm. Amma bu enerji var. Biz bu gün 8 saat bir yerdə, ayaq üstə olmuşuq. Süleyman Dəmirəl də yorulmayıb, deyəsən, mən də yorulmamışam. Biz cümhur başqanları, Prezidentlər arasında ona motor kimi bir adam deyirik. Çünki, həqiqətən o, o qədər enerjili, hər bir işlə - səhər bir yerdə, axşam bir yerdə, o biri gün digər yerdə - çalışan adamdır.

O, Türkdilli Dövlətlər Birliyindən başqa, türklərin yaşadığı bütün ölkələri ziyarət edibdir. Mən hesab edirəm ki, Türkiyənin tarixində ikinci belə bir şəxsiyyət yoxdur. Vaxtilə Osmanlı imperatorluğu dövründə dünyanın bir çox qitələrində, ölkələrində yaşamış və indi də yaşayan türklərin yaşadığı yerləri ziyarət etmək, tarixi abidələri görmək və beləliklə, türk tarixini bu gün bir daha canlandırmaq hörmətli Süleyman Dəmirəlin gördüyü ən önəmli, ən şərəfli işlərdən biridir. Əziz qardaşım, hələ qarşıda çox işlər var və çox işlər də görəcəyik. Mən inanıram ki, Türkiyə Cümhuriyətinin Böyük Millət Məclisi və türk xalqı sizi bu vəzifədən hələ buraxmayacaqdır. Əgər onlar buraxsalar da biz buraxmayacağıq, buna etiraz edəcəyik. Siz bu yüksək, şərəfli vəizfənizi hələ bundan sonra da çox illər yerinə yetirəcəksiniz. Bu, Türkiyə üçün lazımdır. Türkiyə Cümhuriyyəti üçün lazımdır, türk xalqı üçün lazımdır. Bu, Azərbaycan üçün lazımdır. Bu, bütün türk dünyası üçün lazımdır.

Əziz dostlar, hamınızın belə müştəşkkil şəkildə bu gün buraya toplaşmağınız məni çox həyəcanlandırdı, sevindirdi. Mən çox məmnunam ki, sizinlə belə bir şəraitdə görüşürəm. Sizə təşəkkür edirəm ki, dözümlü olub mənim nitqimi axıra qədər dinlədiniz. Çox sağ olun, təşəkkür edirəm. Yaşasın Türkiyə! Yaşasın Atatürk Türkiyəsi! Yaşasın türk xalqı! Yaşasın Türk Cümhuriyyəti! Əziz dostlar, mən Azərbaycanda Süleyman Dəmirəl haqqında bir kitab yazdırmışam. Bu kitabın ön sözünü şəxsən mən yazmışam. Qalan hissəsini isə bir azərbaycanlı, bir də türk gənc insanlar yazıblar. Bilmirəm, siz Türkiyədə Süleyman Dəmirəl haqqında çox, yaxud az kitab yazmısınız, hər halda hesab edirəm ki, bu kitab sizin üçün faydalı olar. Mən bu kitabı qardaşım Süleyman Dəmirələ təqdim edirəm. Buradan çıxarkən isə sizin hər birinizə bu kitab təqdim olunacaqdır.

Bilirsiniz ki, Azərbaycan Dövlət Televiziyası Süleyman Dəmirəl haqqında iki seriyalı film yaradıbdır. Bu film Azərbaycan televiziyası ilə bir dəfə göstərilib, bu günlərdə yenidən nümayiş etdirilir. Mən bu filmin kassetlərini hörmətli Süleyman Dəmirələ bir daha təqdim edirəm. Arzu edirəm ki, Türkiyə televiziyası bu filmi başdan-ayağa nümayiş etdirsin. Çox sağ olun.

"Azərbaycan" qəzeti, 6 noyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN ANADAN OLMASININ 75 İLLİYİ MÜNASİBƏTİLƏ TƏBRİKİ

- Zati-aliləri Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəl!

Çox hörmətli, əziz bacım Nəzmiyyə xanım!

Bu gün Sizin ailə üçün, Sizin qohum-əqrəba üçün, Sizin dostunuz - mənim üçün, Azərbaycan xalqı üçün, Türkiyə üçün çox əlamətdar bir gündür. 75 il öncə İslamgöydə Süleyman Dəmirəl dünyaya gəlmişdir və 75 il ərzində İslamgöydən Çankaya köşkünə gəlmişdir. Bu 75 ilin əlli ilini əziz dostum, qardaşım Süleyman Dəmirəl öz xalqına, öz millətinə, Türkiyə Cümhuriyyətinə, Atatürkün qoyduğu yola sədaqətlə xidmət etmişdir. Məhz sədaqətliliyinə görə, ağıllılığına görə, zəkalılığına görə, fədakarlığına görə və ən əsası Mustafa Kamal Atatürk ideyalarına sadiq olduğuna görə əziz dostum Süleyman Dəmirəl Türkiyənin siyasi səhnəsində böyük bir yol keçmişdir. Bu yol o qədər də hamar olmamışdır, bunun enişi-yoxuşu olmuşdur. Bəzi hallarda əziz dostum Süleyman Dəmirəli anlamayanlar da olmuşdur, bəzən paxıllıq edən olmuşdur, bəzən ona öz imkanlarından istifadə edib öz xalqı üçün xidmət göstərməyə mane olanlar da olmuşdur. Bunlar hamısı olmuşdur. Bütün bunların hamısı hörmətli Süleyman Dəmirəlin tutduğu yol ilə uğurla getməsinin qarşısını ala bilməmişdir. Nə üçün ala bilməmişdir? Çünki əziz dostum Süleyman Dəmirəl böyük əqidə sahibli insandır, böyük iradə sahibli insandır və inandığı şeyə xidmət edən insandır. Mən onun həyat və fəaliyyətini öyrənmişəm və bu gün elan etdim, - onun haqqında Azərbaycanda film yaratmışıq, kitab buraxmışıq. Onu mən bu gün sizə ərməğan kimi gətirdim. Ona görə də mən bunu həm dost, qardaş kimi, həm də həyat yolunuzu öyrənmiş bir insan kimi deyirəm. Bəli, hörmətli Süleyman Dəmirəl öz iradəsi ilə, öz mərdliyi ilə, öz cəsarətliliyi ilə, öz ağlı ilə, zəkası ilə xalqına daim xidmət etmək istəmişdir. Onun məqsədi hardasa bir vəzifə tutmaq olmamışdır.

Onun məqsədi xalqına xidmət etmək olmuşdur. Amma xalqına xidmət etmək üçün də lazımdır ki, onun elmi səviyyəsi, onun siyasi potensialı, onun təcrübəsi xalqına çatsın, onu xalqa verə bilsin, xalqa xidmət edə bilsin. Bu yolu hörmətli Süleyman Dəmirəl şərəflə keçmişdir. Ona görə də əziz dostum Süleyman Dəmirəl Türkiyədə böyük hörmət qazanmış və ona görə də dəfələrlə Türkiyənin Baş naziri vəzifəsinə irəli çəkilmiş, seçilmiş və ona görə də 1993-cü ildə Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti, Cümhurbaşkanı seçilmişdir. Bu, böyük şərəfdir. Türkiyənin birinci Cümhurbaşkanı, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkdür. Belə bir cümhuriyyətdə, belə bir ölkədə, belə bir xalqın Prezidenti, Cümhurbaşkanı olmaq, şübhəsiz ki, böyük şərəfdir. Amma xalqın inamını, xalqın ehtiramını, xalqın etibarını qazana bilməyən heç bir insan heç vaxt belə şeyə nail ola bilməz. Yenə də deyirəm, mənim dostumun məqsədi hansısa bir vəzifəyə nail olmaq yox, öz imkanlarını xalqa xidmətə həsr etmək olmuşdur və bu yolu da şərəflə keçmişdir. Dostum, qardaşım Süleyman Dəmirəl Azərbaycanda çox hörmətli, Türkiyə qədər hörmətli bir insandır. Azərbaycan onu sevir. Azərbaycan Sizi sevir, əziz qardaşım, ona görə ki, Siz daim Azərbaycan haqqında düşünmüsünüz.

Mən bunu demişəm, bir də demək istəyirəm. Bu, təsadüfi deyil ki, 1920-ci ildə Sovetlər Birliyinin ideologiyasının əsarəti altında yaşayan Azərbaycan Türkiyədən təcrid olunmuşdu. Yalnız 1967-ci ildə hörmətli Süleyman Dəmirəl ilk dəfə Baş nazir seçiləndən sonra Sovetlər Birliyini Baş nazir kimi ziyarət edərkən öz proqramına Azərbaycana da ziyarəti salmağı tələb etmişdi və bunu da ödəmişdilər. Nəzmiyyə xanım, Siz də onunla bərabər idiniz. Mən o vaxt Sizinlə tanış oldum. O günlər mənim bugünkü kimi gözümün qarşısındadır. O vaxt Siz gördünüz ki, bizim xalqımız küçələrdə, evlərdə, meydanlarda Süleyman Dəmirəli və Sizi nə qədər böyük hörmətlə, böyük ruh yüksəkliyi ilə, böyük ehtiramla qarşılayırdı və insanlar nə qədər sevinirdilər ki, ilk dəfədir Türkiyənin Baş naziri Azərbaycana gəlibdir. Bu, böyük hadisə olmuşdu.

Amma bunun Azərbaycan üçün böyük hadisə olması bir tərəfə, əsas cəhəti ondan ibarətdir ki, nə üçün hörmətli Süleyman Dəmirəl - Sovetlər Birliyinin 15 respublikası var idi - onlardan ancaq Azərbaycanı seçmişdi. Çünki Azərbaycan xalqı haqqında düşünmüşdü və gəlib o vaxt Azərbaycanı görmək istəmişdi. Sonrakı proseslər məlumdur. Ancaq Azərbaycan hələ müstəqilliyini əldə etmədiyi zaman hörmətli Süleyman Dəmirəl yenə də Baş nazir kimi Azərbaycana gəldi və Azərbaycanda müstəqillik yolunda xalqın ruhunu qaldırdı.

Hörmətli Süleyman Dəmirəlin Azərbaycan xalqına etdiyi ən böyük töhfə, ən böyük ərməğan "Həsrət körpüsü"nün, "Ümid körpüsü"nün

tikilməsidir.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz hissəsidir. Ancaq təəssüf ki, 1920-ci ildə Sovet hökuməti xəritələri bölərkən, Azərbaycanın Zəngəzur mahalını alıb Ermənistana verəndə Naxçıvan Muxtar Respublikası Azərbaycanın böyük torpağından ayrı düşübdür. Sovetlər Birliyi vaxtı bunu o qədər də hiss etmirdik. Çünki bir ölkədə yaşayırdıq, - yollar var idi, kommunikasiya, hər bir şey var idi. Ancaq Ermənistan-Azərbaycan münaqişəsi başlayandan sonra Naxçıvan blokada halına düşdü və orada yaşamaq çox çətin oldu. Hörmətli Süleyman Dəmirəlin Azərbaycana etdiyi yardımın ən önəmlisi Naxçıvan Muxtar Respublikasının o illərdə yaşamasını, dayanmasını təmin etməsidir. Araz çayı üzərində qısa bir zamanda həmin o "Həsrət körpüsü" yaranmasaydı, bu, mümkün deyildi. O qışın 40 dərəcə şaxtasında Türkiyədən Naxçıvana elektrik xətti çəkildi, başqa yardımlar edildi. Mən orada yaşadığım dövrdə bunları öz gözlərimlə görmüşəm.

Hörmətli Süleyman Dəmirəl tarixi bir addım da atıbdır. "Həsrət körpüsü"nün açılışı münasibətilə Naxçıvanın tarixində ilk dəfə Türkiyə hökumətinin başçısı Naxçıvanı birbaşa ziyarət etmiş, özü ilə bərabər bir çox nazirlər, 60-a qədər millət vəkili gətirmişdi. Biz Araz çayı üzərində Türkiyə-Azərbaycan dostluğunu nümayiş etdirdik. Türkiyədən və Naxçıvandan oraya on minlərlə adam toplaşmışdı.

Mənim xatirimdədir, Naxçıvanda o körpüyə qədər 75 kilometrlik yolda xalq hörmətli Süleyman Dəmirəli hər kilometrdən bir, bəlkə də bir kilometr keçmədən qarşılayırdı, qurbanlar kəsilirdi. O gün yol boyu yüzlərlə qurban kəsildi. Ona görə ki, Azərbaycan xalqı hörmətli Süleyman Dəmirələ öz sevgisini, məhəbbətini bildirmək istəyirdi, göstərilən yardımlara görə minnətdarlığını bildirmək istəyirdi. Bu barədə çox danışmaq olar. Xüsusən sonrakı dövrdə Azərbaycanın bir müstəqil dövlət kimi inkişaf etməsində, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında, beynəlxalq təşkilatların həmsında Azərbaycanı dəstəkləməsi, Ermənistanı təcavüzkar kimi qiymətləndirməsi və Azərbaycanla daim bərabər olması, şübhəsiz ki, bizim üçün əzizdir və qiymətlidir.

Ona görə də bu gün mən mütləq burada olmalı idim. Nə olur-olsun, burada olmalı idim. Mən gərək burada, Ankarada, Türkiyə Cümhuriyyətinin paytaxtında əziz dostum, qardaşım Süleyman Dəmirəli təbrik etməli idim.

Nəzmiyyə xanım, mən gərək Sizi təbrik etməli idim. Çünki bu 50 il siyasətdə Sizin böyük xidmətləriniz vardır. Mən belə düşünürəm ki, əgər Süleyman Dəmirəlin bu qədər gözəl, bu qədər ağıllı, bu qədər sədaqətli ömür-gün yoldaşı olmasaydı, bəlkə də, onun keçdiyi yol daha da çətin olardı. Bizə məlumdur ki, o vaxt, çevriliş zamanı hörmətli Süleyman

Dəmirələ yasaq edilmişdi. O, ev dustağı edilmişdi. Bizim yaratdığımız filmdə bunlar vardır, bu kadrlar vardır. Siz daim onunla bərabər olmusunuz, bütün dövrlərdə bərabər olmusunuz. Təkcə bərabər yox, həmfikir olmusunuz, eyni fikirdə olmusunuz.

Ona görə də bu gün əziz dostum, qardaşım Süleyman Dəmirəlin günüdür. Sizin də birgə yaşamağınızın, yəqin ki, müəyyən tarixi günüdür. Onu Siz özünüz məndən də yaxşı bilirsiniz.

Əziz qardaşım, mən Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı arzu edirəm və uzun ömür arzu edirəm. Sizə yeni-yeni nailiyyətlər arzu edirəm. Bütün işlərinizdə uğurlar arzu edirəm. Mən əminəm, ümidvaram ki, Siz hələ bundan sonra çox illər, on illər türk xalqına, Türkiyə Cümhuriyyətinə, Azərbaycana, türk dünyasına böyük xidmətlər göstərəcəksiniz və nə qədər insanpərvər olduğunuzu bir daha, bir daha göstərəcəksiniz.

Sizin insanpərvərliyinizi mən heç vaxt unuda bilmərəm. Çünki yanvar ayında mən bir balaca rahatsız olduğum zaman gecə ikən təyyarə ilə həkimlər göndərdiniz, məni Ankaraya dəvət etdiniz. İki həftə burada mənim müayinə və müalicəmə başqanlıq etdiniz. Hər gün məni ziyarət etdiniz. Vaşinqtonda NATO-nun 50 illik yubileyində birlikdə olduğumuz zaman, son gün mən yenə də rahatsız olduğum zaman Klivlend xəstəxanasına getdim. Orada qəlb əməliyyatı aparılan zaman o günlərdə Siz yenə mənimlə bərabər oldunuz. Məni unutmadınız, mənə mənəvi qardaş oldunuz, mənəvi yardım etdiniz.

Bunların hamısına görə təşəkkür edirəm və bunlara görə də deyirəm ki, Siz böyük insansınız. Siz böyük dövlət xadimisiniz. Siz dövlət başçısısınız. Siz böyük siyasi xadimsiniz. Siz həm də böyük insansınız. Böyük insan olmaq bunların hamısından üstündür. Bütün bu işləri görmək olar. Amma böyük insan olmaq hər kəsə nəsib olmur. Allah Sizi belə yaradıbdır. Siz də belə həyat fəaliyyəti keçirmisiniz. Sizin bu xidmətlərinizə görə, Sizin Azərbaycana, şəxsən mənə olan qayğınıza görə, mərhəmətinizə görə, mehribanlığınıza görə təşəkkür edirəm. Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı arzu edirəm.

- Siz həyatınız boyu çox hədiyyələr almısınız. Mən fikirləşdim və belə düşündüm ki, mənim Sizə hədiyyəm ancaq Sizin şəxsinizin və Nəzmiyyə xanımın portreti, yəni rəsmi olmalıdır.

Bu iki böyük rəssamdan biri Azərbaycan rəssamıdır. O, dünyada ən məşhur rəssamlardan biri olan Tahir Salahovdur. Mənim 35 illik çox yaxın dostumdur. Moskvada yaşayır. Ancaq oraya Azərbaycandan gedibdir və dünyada çox məşhur bir rəssamdır. Onun rəsm əsərləri dünyanın bütün muzeylərində vardır.

İkincisi Rusiyanın böyük rəssamı Nikas Safronovdur. O da dünyada məşhur rəssamdır. Onlar böyük şəxsiyyətlərin portretlərini yaratmış rəssamlardır. Mən bunların hər birinə

sifariş etmişdim ki, siz Süleyman Dəmirəlin və onun xanımının portretlərini hazırlamalısınız. Çünki bunların çəkdikləri portret dünya sənət xəzinəsinə daxil olur. Bu, onların çəkdikləri əsərlərdir. Onlar belə böyük rəssamlardır. Onlar bunu ediblər. İndi mən bunları Sizə təqdim edirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

1 noyabr 1999-cu il.

Türkiyənin rəhbəri özünün əziz dostu, qardaşı, Azərbaycan Prezidenti Heydər Əliyevi səmimiyyətlə salamlayaraq onun Türkiyəyə gəlişindən son dərəcə sevinc duyduğunu vurğuladı.

Prezident Heydər Əliyev mehribancasına qarşılandığına və səmimi qonaqpərvərliyə görə Türkiyə Prezidenti Süleyman Dəmirələ dərin minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə dövlətinin başçısı, türk xalqlarının lideri Süleyman Dəmirəli anadan olmasının 75 illiyi münasibətilə səmimi qəlbədən təbrik edərək ona möhkəm cansağlığı, xoşbəxtlik, türk dünyasının rifahı naminə yorulmaz fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl "Beynəlxalq Atatürk Sülh Mükafatı"na layiq görülməsi münasibətilə ölkəmizin başçısını ürəkdən təbrik edərək, onun regionda sülhün, təhlükəsizliyin bərqərar edilməsi yolunda göstərdiyi səyləri yüksək qiymətləndirdiyini nəzərə çarpdırdı.

Prezidentlər Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması sahəsində görülən tədbirlər barədə fikir mübadiləsi apardılar, zəlzələnin mərkəzində - Kocaelidə, İzmitdə çadırlarda müvəqqəti yerləşdirilmiş insanlarla görüşlərindən aldıqları təəssüratlarını bölüşdülər. Türkiyə Prezidenti Süleyman Dəmirəl baş vermiş fəlakətlə əlaqədar Azərbaycanın birincilər sırasında köməyə gəldiyini minnətdarlıqla vurğuladı. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə xalqının belə bir ağır şəraitdə əsl qəhrəmanlıq, vətənpərvərlik, dözümlülük nümayiş etdirməsinə ehtiram hissini ifadə etdi.

Dövlət başçıları Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına yönəldilmiş nizamlama prosesinin vəziyyəti barədə fikir mübadiləsi apardılar. Prezident Süleyman Dəmirəl münaqişənin sülh yolu ilə həlli sahəsində Azərbaycanın və Prezident Heydər Əliyevin səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini bildirdi.

Azərbaycan və Türkiyə Prezidentləri Xəzərin zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün Bakı-Ceyhan əsas neft kəməri

layihəsinin reallaşdırılması sahəsində görülən işləri müzakirə etdilər.

Görüşdə ikitərəfli və regional münasibətlərə dair bir sıra digər məsələlər də nəzərdən keçirildi.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

BÖYÜK ATATÜRKÜN XATİRƏSİNƏ EHTİRAM

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə qısamüddətli işgüzar səfərdə olarkən noyabrın 2-də böyük öndər Mustafa Kamal Atatürkün məqbərə kompleksini-Anıtqəbri ziyarət etdi.

Dövlətimizin başçısı məqbərinin önünə əklil qoydu, Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün xatirəsini bir dəqiqəlik sükutla yad etdi.

Prezident Heydər Əliyev məqbərə kompleksinin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Mustafa Kamal Atatürk bəşər tarixinin XX əsrinin ən böyük şəxsiyyətlərindədir. İstiqlal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmış, Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir. Bu gün mən böyük öndər Mustafa Kamal Atatürkün qəbrini böyük qürur hissi ilə ziyarət edirəm.

Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bundan fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq olacağam. Əminəm ki, Atatürk Türkiyəsi əbədiyyətə qədər uğurla yaşayacaqdır. Bir daha Allahdan rəhmət diləyirəm.

Heydər Əliyev.
Azərbaycan Respublikasının Prezidenti 2 noyabr 1999-cu il."

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə qısamüddətli işgüzar səfəri zamanı noyabrın 2-də Çankaya köşkündə onun üçün ayrılmış iqamətgahda Türkiyənin Baş naziri Büləvd Ecevit ilə təkbətək görüş keçirmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Baş nazir Büləvd Ecevit Prezident Heydər Əliyev ilə görüşündən son dərəcə məmnun olduğunu bildirdi və onu Beynəlxalq Atatürk Sülh Mükafatı alması münasibətilə ürəkdən təbrik etdi. Prezident Heydər Əliyev Prezident Süleyman Dəmirəl ilə birlikdə, Türkiyədə baş vermiş zəlzələnin mərkəzində - Kocaelidə, İzmitdə çadırlarda müvəqqəti yerləşdirilmiş insanlarla görüşləri, zəlzələnin nəticələrinin aradan qaldırılması üçün görülən tədbirlər barədə təəssüratlarını Türkiyə hökumətinin başçısı ilə bölüşdü və ağır fəlakətlə üzləşmiş türk xalqının nümayiş etdirdiyi əsl iradə, vətənpərvərlik və dözümlülüyə ehtiramını ifadə etdi. Baş nazir Büləvd Ecevit zəlzələ ilə əlaqədar Azərbaycanın Türkiyəyə göstərdiyi yardıma görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirdi. Prezident Heydər Əliyev və Baş nazir Büləvd Ecevit ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini bir daha vurğuladılar. Onlar Xəzər nefti üçün çəkiləcək Bakı-Ceyhan əsas neft kəmərinin tikintisi ilə əlaqədar bir sıra məsələləri müzakirə etdilər.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi ətrafında da fikir mübadiləsi aparıldı. Baş nazir Büləvd Ecevit münaqişənin nizama salınması sahəsində Azərbaycanın, Prezident Heydər Əliyevin səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini bildirdi. Səmimilik şəraitində keçən görüş zamanı ölkələrimiz arasında əməkdaşlığın inkişafına dair tərəfləri maraqlandıran bir sıra məsələlər də müzakirə olundu. Dövlətimizin başçısı Heydər Əliyev Türkiyənin Baş naziri Büləvd Eceviti Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul edildi.

"Azərbaycan" qəzeti, 5 noyabr 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BEYNƏLXALQ ATATÜRK SÜLH MÜKAFATI KOMİSSİYASININ SƏDRİ RƏŞAD GƏNC İLƏ GÖRÜŞÜ

Noyabrın 2-də Azərbaycan Respublikası-nın Prezidenti Heydər Əliyev Beynəlxalq Atatürk Sülh Mükafatı Komissiyasının sədri, Atatürk Dil və Tarix Qurumunun rəhbəri, professor Rəşad Gənc ilə görüşdü.

Cənab Rəşad Gənci səmimiyyətlə qarşılayan Prezident **Heydər Əliyev** dedi:

- Rəşad bəy, sizi bir daha salamlayıram. Çox məmnunam.

Dövlətimizin başçısına minnətdarlığını bildirən **Rəşad Gənc** dedi:

- Sayın Cümhurbaşkanım, Sizə hörmət və ehtiramımı bildirirəm. Bir daha xoş gəlmisiniz! Sizi burada görməkdən həqiqətən çox məmnunam. Bizim iki Cümhurbaşkanımız vardır. İkincisini də burada görmək həqiqətən bizi şad etdi. Sizi sağ-salamat gördük və yenə də çox sevindik. Sizə

Allahdan cansağlığı və çox uzun ömür diləyirəm.

Cənab Prezident, Beynəlxalq Atatürk Sülh Mükafatımızı aldığınıza görə də Sizə xüsusi təşəkkür edirəm.

Heydər Əliyev: Çox sağ olun. Siz Azərbaycanın böyük dostusunuz. Biz də Sizi çox sevirik. Mən bizim böyük elçi vasitəsilə Sizə həmişə salamlarımı yetirmişəm.

Rəşad Gənc: Cənab Prezident, Sizin salamlarınızı həmişə alıram. Hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev: Çox təşəkkür edirəm. Atatürk Sülh Mükafatının mənə verilməsi haqqında qəbul etdiyiniz qərar mənim üçün tarixi bir qərardır. Mən bilirəm ki, bu qərarı qəbul etmək o qədər də asan iş deyildi. Çünki Siz bir çox namizədlərdən birini seçməli idiniz. Sizin bu barədə mənə münasibətiniz də, bu işə səs verməyiniz də çox önəmlidir. Bilirəm ki, Sizin bu mükafat komissiyasının başqanı kimi buna Baş nazir rəhbərlik edir.

Rəşad Gənc: Bəli, cənab Prezident. Bu, Atatürk Dil və Tarix Qurumunun qərarı ilə yaradılmış bir mükafatdır. Ona görə də bununla bağlı işləri biz görürük. Nəticədə təkliflərimizi hörmətli Baş nazirin rəhbərlik etdiyi yüksək quruma ərz edirik. Mən də oranın üzvüyəm. Orada da görüşlər keçiririk və nəticədə bir qərar çıxarırıq. Hörmətli Cümhurbaşkanımıza ərz edildikdən, onun təsdiqindən sonra da nəticə tam hasil olur.

Mən burada səmimiyyətlə ifadə etmək istəyirəm ki, Sizin bu sülh mükafatını almağınız üçün namizədliyiniz hörmətli Süleyman Dəmirəl tərəfindən verilmişdi. Təbii ki, Cümhurbaşkanımızın namizədi kimi nəticə hökmən belə olmalı idi. Amma nəticə etibarilə biz də hesab edirik ki, həqiqətən bu mükafat layiq olduğu insana verilir. Onu hörmətli Cümhurbaşkanımızın söylədiyi kimi, XX yüzilliyin tarixində mütləq qeyd olunacaq böyük bir dövlət adamının almasına biz çox şadıq, sevinirik. Bu mükafat, həqiqətən, layiq olan insana verilibdir.

Heydər Əliyev: Çox təşəkkür edirəm. Bizim dostluğumuz, qardaşlığımız çox səmimidir. Mən Sizi Azərbaycanda görmək istəyirəm. Bilirəm, Siz elm adamısınız, böyük elmi işlərlə məşğulsunuz. Amma mən Sizi qonağım kimi Azərbaycana dəvət edirəm. Sizin imkanınız olan zaman bizim böyük elçinin vasitəsilə mənə xəbər verərsiniz. Nə proqram lazım olsa, onu da edərik. Orada görüşüb ətraflı söhbətlər edərik. Çünki Azərbaycan - Türkiyə dostluğunu, qardaşlığını hər gün irəliyə aparmaq lazımdır. Heç bir şey yerində duranda yaramaz. Hər şey inkişafda olmalıdır. Dostluğumuz, qardaşlığımız bu gün çox yaxşı bir vəziyyətdədir.

Rəşad Gənc: Cənab Prezident, bu, Sizlərin sayəsində olmuşdur.

Heydər Əliyev: Sabah bundan da yüksək olmalıdır. Ona görə mən Sizi Azərbaycana dəvət edirəm. Sizi orada qonağım kimi görməkdən məmnun olacağam. Türkiyə - Azərbaycan dostluğuna göstərdiyiniz xidmətlərə görə də Sizə təşəkkür edirəm.

Rəşad Gənc: Mənim üçün həyatımın ən böyük bəxtiyarlılığı Sizin - dünya miqyasında böyük bir liderin, böyük bir dövlət adamının, hörmətli bir Prezidentin dəvətlisi olmaqdır. Bu, həqiqətən, böyük şərəfdir. Mən böyük elçinizlə görüşüb münasib bir vaxtda gələcəyəm. İnşallah, onda Azərbaycanda bir şadlıq vasiləsi olacaqdır. Bakıda Millətlər-arası Beynəlxalq toplantı keçirilən zaman orada Sizi ziyarət etmək mənim üçün şadlıq olacaqdır. Çox təşəkkür edirəm.

ZƏLZƏLƏ ZONASINDA GÖRÜŞLƏR

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Türkiyə Cümhurbaşkanı, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Hörmətli vali!

Hörmətli dostlar, mətbuat nümayəndələri, qardaşlar və bacılar!

Avqust ayının 17-də və 18-də burada, Türkiyədə, İstanbulun yanında, Kocaelidə, İzmitdə baş vermiş zəlzələ Türkiyəni sarsıtdığı kimi, bizi də sarsıtdı. Bu dərdi siz necə çəkmisiniz, Azərbaycan xalqı da elə çəkibdir və bu günə qədər də elədir. Bunu biz faciə - həm Türkiyə xalqının faciəsi, eyni zamanda Azərbaycan xalqının faciəsi kimi qəbul etdik. Ona görə də biz dərhal buraya öz yardımımızı göstərmək istədik. Mən dərhal gəlib burada zəlzələ yerlərində olmaq istədim. Ancaq mənim dostum Süleyman Dəmirəl bildirdi ki, indi imkan yoxdur, sonra, münasib bir zamanda gələrsiniz.

Biz yardımlarımızı etdik, nə mümkündür buraya göndərdik və ən önəmlisi də odur ki, İzmit neftayırma zavodunda yanğının söndürülməsində Azərbaycan yanğınsöndürənləri çox fəal iştirak etmiş və böyük xidmətlər göstərmişlər. Mən məmnunam ki, Türkiyənin bu ağır, çətin günlərində Azərbaycanın Türkiyə ilə bir yerdə olması Türkiyə hökuməti, dövləti tərəfindən, türk xalqı tərəfindən, Türkiyənin bütün vətəndaşları tərəfindən yüksək qiymətləndirilibdir. Bu, böyük öndər Mustafa Kamal Atatürkün dediyi sözləri bir daha təsdiq edir. O demişdir ki, "Azərbaycanın əlami bizim əlamimiz, Azərbaycanın sevinci bizim sevincimizdir". Biz isə deyirik, Türkiyənin əlami bizim əlamimiz, sevinci bizim sevincimizdir. Bu prinsip Mustafa Kamal Atatürk vaxtından yaşayır və bu gün, bu ağır gündə də özünü bütün dünyaya göstərdi. Mən bundan çox məmnunam.

Bu gün mən buraya gəlib, özüm şəxsən ziyarət edib, burada zəlzələdən vəfat etmiş insanların xatirəsi qarşısında baş əyirəm, onların hamısına Allahdan rəhmət diləyirəm. Bütün türk xalqına "keçmiş olsun" de-

yirəm, başsağlığı verirəm. Yaralanmış, xəsarət almış, xəstələnmiş insanların tezliklə sağalmasını arzu edirəm. Arzu edirəm və əminəm ki, Türkiyə Cümhuriyyəti, onun dövləti, hökuməti və türk xalqı zəlzələnin vurduğu zərərlərin hamısına qısa müddətdə son qoyacaqdır. Zəlzələnin baş verməsindən və bir zaman keçən günlərdə artıq burada çox işlər görülübdür. Bunu biz mətbuatdan bilirik və əziz dostum, Cümhurbaşkanı Süleyman Dəmirəl də bu barədə mənə çox geniş məlumatlar veriblər. Mən bu gün buraya gələrək Türkiyə - Azərbaycan dostluğunu, türk xalqı ilə Azərbaycan xalqı arasında olan əbədi, sarsılmaz dostluğu bir daha, bir daha nümayiş etdirmək məqsədi daşıyıram. Buraya gələrək sizinlə birlikdə məhz burada zəlzələdən zərər çəkmiş, zəlzələ nəticəsində indi əziyyət çəkən, matəm tutan, xəstələrini müalicə edən insanlara ürəkdirək vermək, onlarla bir yerdə olmaq məqsədi daşıyıram.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Bu, mənim buraya gəlişim münasibətilə gətirdiyim yardım ərmağanlarıdır. İndi nə mümkündür - onu etmişəm. Ancaq güman edirəm ki, bu, yaraların bir qisminin sağalmasına kömək edəcəkdir. Həlak olanlara Allah rəhmət eləsin. Keçmiş olsun.

Türk xalqı çox böyük sınaqlardan çıxmış bir xalqdır. Türk xalqı böyük bəlalardan çıxmış bir xalqdır. Türk xalqı qəhrəman xalqdır. Türk xalqı qurucu xalqdır, yaradıcı xalqdır. Heç şübhə yoxdur ki, xalq, vətəndaşlar zəlzələnin vurduğu zərərlərin hamısına dövlətin, hökumətin başçılığı ilə qısa bir zamanda son qoyacaq, dağıdılmış binaların hamısı bərpa olunacaq və Kocaeli də, zəlzələdən zərər çəkmiş başqa yerlər də, bəlkə, öncəsindən daha da gözəl olacaqdır. Mən bunu arzu edirəm. Bu fürsədən istifadə edib türk xalqına, Türkiyə vətəndaşlarına - bacılarıma, qardaşlarıma salamımı, sevincimi, məhəbbətimi və hörmət-ehtiramımı bildirirəm.

- Əziz dostlar, bacılar, qardaşlar! Zəlzələnin baş verdiyi ilk gündən Azərbaycan xalqı Türkiyə ilə bir yerdə olubdur. Bu dərdi siz çəkdiyiniz kimi, biz də çəkmişik. O gündən indiyə qədər mümkün olan yardımları etmişik və bu gün də edirik.

Mənim buraya gəlməkdə məqsədim ondan ibarətdir ki, əziz qardaşım, Cümhur-başkanı Süleyman Dəmirəllə bərabər gəlim, sizi görüm, sizin yanınızda olum, bugünkü vəziyyətinizi görüm və "keçmiş olsun" deyim. Ölənlərə, vəfat edənlərə Allahdan rəhmət diləyirəm.

Mən inanıram ki, qəhrəman türk xalqı, çox fədakar türk xalqı, Türkiyə vətəndaşları bu zəlzələnin vurduğu zərəri aradan götürəcəklər. Bunun da əsasını təşkil edən Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirəlin zəlzələ baş verəndən indiyə qədər gördüyü böyük işlərdir. Dövlət, hökumət, bütün xalq bu işlərə səfərbər olubdur. Biz bunu Azərbaycanda

olaraq görürük. Qısa bir zamanda çox işlər görülüb, zəlzələnin vurduğu ziyanın çox hissəsi aradan götürülüb və götürüləcəkdir.

Azərbaycan xalqı sizinlə birlikdədir, bir yerdədir. Bu gün mən sizin yanınıza gəlmişəm. Həyatlarını qeyb edən bütün insanların xatirəsi qarşısında baş əyirəm. Sizin hamınıza cansağlığı arzu edirəm. Ümid edirəm ki, tezliklə siz bu ağır vəziyyətdən çıxacaqsınız. Sağ olun.

"Azərbaycan" qəzeti, 4 noyabr 1999-cu il.

KOCAELİ UNİVERSİTETİNDƏ DƏRS İLİNİN BAŞLANMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Mən bu gün burada və buraya gəlməmişdən öncə Kocaeli Universiteti haqqında çox müfəssəl bilgilər aldım. Mən çox universitetlərin yaranmasının və inkişaf etməsinin tarixini bilirəm. Ancaq 1992-ci il yaranmış və çox az bir zamanda bu qədər böyümüş və inkişaf etmiş Kocaeli Universitetində görülmüş işlər məni heyran etdi, təəccübləndirdi və sevindirdi. Mən bu böyük nailiyyətləriniz münasibətilə sizi ürəkdək təbrik edirəm.

Bu gün bizim burada toplaşmağımızın əsas məqsədi 17 avqust zəlzələsindən sonra çəkdiyi zərərlərə, fəlakətə görə Kocaeli Universitetində dərs ilinə başlanmasının gecikməsi və bu dərs ilinin bu gün başlanması münasibətilədir. Mən sizi - universitetin professorlarını, doktorlarını, dosentlərini, müəllimləri, tələbələri, gəncləri - hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Sizə, universitetinizə bütün işlərinizdə uğurlar arzulayıram.

17 avqust Türkiyə üçün, eyni zamanda Azərbaycan üçün böyük bir fəlakət, faciə gətirdi. Həqiqətən, tarixdə az görünən zəlzələlərdən biri burada - Türkiyədə, Kocaelidə, İzmitdə, bu bölgədə baş verdi. Bu fəlakət, faciə türk xalqını nə qədər iztiraba saldısa, Azərbaycan xalqını da bir o qədər iztiraba saldı. Siz nə qədər dərdə, qəmə, qüssəyə qapandınızsa, o qədər də biz dərdə, qəmə, qüssəyə qapandıq. **Çünki bizim xalqlarımız qardaşdır, dostdur, bir kökə, bir mədəniyyətə, bir dilə, bir dinə mənsub olan millətdir. Biz bir millətik.** Ona görə də sizin dərdiniz bizim də dərdimizdir. Mən böyük öndər Atatürkün çox gözəl kəlamlarını, sözlərini daim xatırladaraq deyirəm ki, Türkiyənin əlaməti Azərbaycanın əlamidir, Türkiyənin sevinci Azərbaycanın sevincidir.

Bizim xalqlarımızın dostluğu, qardaşlığı böyük sınaqlardan çıxıbdır, böyük tarixi yol keçibdir. Ancaq bu fəlakətlə əlaqədar son günlərdə Türkiyə və Azərbaycan xalqlarının, dövlətlətinin nə qədər yaxın, dost olduqları bir daha dünyaya nümayiş

etdirildi.

Əsas ondan ibarətdir ki, bizim xalqımız bu dərdə, qəmə, qüssəyə sizinlə birlikdə qapandı. Biz o günlər əlimizdən gələn yardımı etdik. Mən dərhal buraya gəlmək istəyirdim. Əziz dostum, qardaşım, hörmətli Cümhur-başkanı Süleyman Dəmirəl mənə dedi ki, bunu sonra etmək lazımdır. Biz yardımlar göndərdik. Mən çox məmnunam ki, bizim yardımımız və köməyə göndərdiyimiz insanlar İzmitdəki neftayırma zavodunda yanğının söndürülməsində xidmətlərini göstəriblər. Bu təbiidir, burada təəccüblü bir şey yoxdur. Bu, belə də olmalıdır və bundan sonra da belə olacaqdır. Ancaq yenə də deyirəm, bu fəlakət türk xalqını nə qədər sarsıtdısa da, onun iradəsini sındırmadı, qırmadı. Çünki türk xalqı qəhrəman xalqdır, iradəli xalqdır. Türk xalqı böyük Atatürkün yolu ilə gedən xalqdır. Bu xalq bu sınaqdan da müvəffəqiyyətlə çıxacaq və bu bölgələrdə olan dağıntıların hamısı bərpa ediləcəkdir. Ola bilər ki, əvvəlki binalardan, evlərdən daha da gözəlləri tikiləcəkdir. Bunu türk xalqı, Türkiyə dövləti, Türkiyə hökuməti tikəcəkdir. Dünya birliyinin göstərdiyi yardımlar bu işdə sizə kömək göstərəcəkdir.

Mən bu fəlakət münasibətilə sizə, Kocaeli sakinlərinə, universitetə, bütün türk xalqına, əziz dostum, qardaşım, hörmətli Prezident Süleyman Dəmirələ bir daha "keçmiş olsun" deyirəm, başsağlığı verirəm. Həlak olanların hamısına Allahdan rəhmət diləyirəm. Yaralananların, xəsarət alanların hamısının tezliklə sağalmasını diləyirəm. Tam əminəm ki, türk xalqı, Türkiyə Cümhuriyyəti bu ağır sınaqdan çox uğurla çıxacaqdır və gələcəyə doğru uğurla gedəcəkdir.

Universitetinizin gördüyü işlər həqiqətən yüksək qiymətə malikdir. Sizin universitetin yaranması, qısa bir zamanda keçdiyi yol, əldə etdiyiniz nailiyyət Türkiyə Cümhuriyyətinin elm, təhsil, mədəniyyət sahəsində son onilliklərdə nə qədər böyük məsafə qət etdiyini, yüksəldiyini, inkişaf etdiyini göstərir. Hesab edirəm ki, bu müvəffəqiyyətlər, nailiyyətlər Türkiyə Cümhuriyyətinin bütün sahələrində - iqtisadiyyatda və başqa sahələrdə əldə etdiyi nailiyyətlərdən daha da qiymətlidir, əzizdir. Çünki insanlar, vətəndaşlar gərək təhsil alsınlar, mədəniyyətə, elmə qovuşsunlar, çağdaş dünyamızın düşüncəli vətəndaşları olsunlar. Bunların hamısını təhsil vasitəsilə etmək olar. Mən çox məmnunam ki, Türkiyədə bu universitet kimi böyük universitetlər vardır. Bunlar hamısı bu gün türk xalqının elm, mədəniyyət səviyyəsinin nə qədər yüksək olduğunu göstərir.

Məni sevindirən budur. Siz burada bəyan etdiniz ki, universitetiniz dünyanın böyük universitetləri ilə yarışa girir və onların səviyyəsinə qalxmağa çalışır. Bu, çox sevindirici haldır. Belə bir fikirlə, əzmlə yaşayan universitetin professorları, dok-

torları, müəllimləri, şübhə yoxdur ki, buna nail olacaqlar. Məhz bu yolda sizə uğurlar arzulayıram.

Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrində təhsil, elm, mədəniyyət sahəsi xüsusi yer tutur. Bizim bir çox universitetlərimiz, elmi araşdırma mərkəzlərimiz, professorlarımız Türkiyənin müvafiq təşkilatları ilə sıx əlaqədədirlər, onlarla birlikdə işlər görürlər və Türkiyənin təcrübəsindən istifadə edirlər, eyni zamanda Azərbaycanın da əldə etdiyi təcrübəni bölüşürlər. Bunlar hamısı xalqlarımızın bərabər inkişafını təmin etmək üçün önəmli hallardır. Əziz dostlar, mən bu gün səhərdən burada, Kocaelindəyəm. Əziz dostum, qardaşım Prezident Süleyman Dəmirəllə bərabər biz zəlzələdən zərər çəkmiş insanları çadırlarda, yaxud müvəqqəti qurulmuş yığma evlərdə gördük. İnsanlar nə qədər həyəcanlı, sevincli və inamıdırlar. Bu insanların üzünü, əhval-ruhiyyəsini görərkən, bu insanlarda olan coşğunluğu görərkən düşünürsən - türk milləti, türk xalqı həqiqətən nə qədər qüdrətli, nikbin, gələcəyə inamlı xalqdır. Ona görə də şübhə yoxdur ki, Türkiyə xalqı bütün bu çətinliklərdən uğurla çıxacaqdır.

Əziz dostlar, qardaşlar, bacılar! Bu gün mənim üçün çox əziz və əlamətdar gündür. Ona görə ki, mən Türkiyə torpağındayam. Ona görə ki, mən zəlzələdən zərər çəkmiş yerləri görə bildim. Ona görə ki, mən zəlzələdən zərər çəkmiş insanlarla görüşə bildim. Ona görə ki, mən Azərbaycan xalqının böyük dostu, türk dünyasının lideri, Türkiyə Cümhuriyyətinin Prezidenti, mənim əziz qardaşım Süleyman Dəmirəllə bir yerdəyəm.

Bu gün hörmətli Prezident Süleyman Dəmirəlin doğum günüdür. Onun 75 yaşı tamam olur. O, 76 yaşa qədəm qoyur. Bu, hər bir insan üçün əziz gündür. Eyni zamanda bu, dost, qardaş üçün də çox əziz gündür. Mən Azərbaycan xalqı, milləti, dövləti adından dostumuz, qardaşımız hörmətli Prezident Süleyman Dəmirəli doğum günü, bu doğum gününün 75-ci ili münasibətilə ürəkdən təbrik edirəm. Ona cansağlığı, uzun ömür arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, əziz dostumuz Süleyman Dəmirəl hələ on illər bundan sonra da Türkiyə xalqına, cümhuriyyətinə, bütün türk dünyasına böyük xidmətlər göstərəcəkdir. Şübhəsiz ki, 75 il hər bir insan üçün böyük nailiyyətdir. Amma insanların nə qədər yaşaması onların özündən o qədər də asılı deyildir. Bu, Allahın işidir - kimin alnına nə yazılıbsa, o da olacaqdır. Ancaq bu illəri necə yaşamaq, xalqa, millətə bu illərdə nə fayda vermək - əsas bundan ibarətdir.

Əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti, bu gün türk xalqının böyük lideri Süleyman Dəmirəl 75 illik yaşının 50 ilindən çoxunu xalqına, dövlətinə xidmətə həsr etmişdir. O, böyük işlər görmüş, böyük dövlət işləri aparmış, si-

yasət aləmində olmuş, demək olar ki, canını xalqının, millətinin yolunda fəda etmişdir. Ona görə də türk xalqının, eyni zamanda bütün türk dünyasının böyük hörmət - ehtiramını və məhəbbətini qazanmışdır. Süleyman Dəmirəl türk xalqı üçün çox əziz bir insandır. O, Azərbaycan xalqı üçün də eyni dərəcədə əziz bir insandır. Çünki bizim xalqlarımızın ona gələcəkdə də böyük ehtiyacı vardır. Onun təcrübəsinə, biliyinə, ağlına, zəkasına, siyasi fəaliyyətinə və Türkiyə Cümhuriyyəti qarşısında onun hələ çox işlər görməsinə həm türk xalqının, həm də Azərbaycan xalqının böyük ehtiyacı vardır. Ona görə də mən əminəm ki, əziz dostum Süleyman Dəmirəl bu gün 75 illiyini çox gümrah, gənc şəkildə keçirdiyi kimi, bundan sonra da gənc, gümrah, enerjili olacaqdır və Türkiyə üçün, Azərbaycan üçün, bütün türk dünyası üçün bundan da böyük işlər görəcəkdir.

Əziz dostlar, bu gün Türkiyə ilə Azərbaycan arasında böyük tarixə malik olan dostluq, qardaşlıq salnaməsinə qızıl hərflərlə daha bir yeni səhifə yazıldı. Bu gün biz bütün dünyaya bir daha nümayiş etdirdik ki, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bütün dünya xalqları içərisində dostluq və qardaşlıq üçün örnəkdir. Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, bu dostluğu özümüz üçün böyük dayaq kimi qəbul edirik. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqı bu dostluğa, qardaşlığa əbədiyyətə qədər sadiq olacaqdır. Mən sizi eyni zamanda, böyük Mustafa Kamal Atatürkün qurub yaratdığı və uğurla inkişaf edən cümhuriyyətin 76-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm. 76 il ərzində böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə gedən türk xalqı böyük nailiyyətlər əldə edib. Şübhə yoxdur ki, bu qədər il yaşayan cümhuriyyət və böyük qüdrətə malik, dünyada özünə yüksək bir yer tutan, dünya miqyasında, beynəlxalq aləmdə böyük hörmət qazanan bir dövlət yaşayacaq, quracaq, inkişaf edəcəkdir. Bunların hamısının əsası ondan ibarətdir ki, Türkiyə böyük Atatürkün vəsiyyətlərinə sadiqdir, Türkiyə böyük Atatürkün yolu ilə gedir.

Türk xalqına eşq olsun!

Türkiyə-Azərbaycan dostluğuna eşq olsun!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın Türkiyə!

"Azərbaycan" qəzeti, 5 noyabr 1999-cu il.

GÜLHANƏ HƏRBİ TİBB AKADEMİYASINDA SƏMİMİ GÖRÜŞLƏRİ

Aərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 2-də Ankarada Gülhanə Hərbi Tibb Akademiyasını ziyarət etdi.

Akademiyanın binası önündə

Azərbaycanın və Türkiyənin dövlət bayraqları asılmışdı. Dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Heydər Əliyevi Gülhanə hərbi Tibb Akademiyasının komandanı, general-leytenant Çətin Harmankaya, akademiyanın qərargah rəisi, polkovnik Hümmət Çobanoğlu böyük hörmət və mehribanlıqla qarşıladılar.

Respublikamızın başçısı bu məşhur tibb müəssisəsinin rəhbərliyi və əməkdaşları ilə səmimi görüşdü, fəxri qarovul dəstəsini "Mərhaba, əsgər!" sözləri ilə salamladı.

Sonra Prezident Heydər Əliyev akademiyanın xüsusi cərrahiyyə şöbəsinin ayrı-ayrı palatalarında müalicə olunan zabit və əsgərləri ziyarət etdi.

Terrorçulara qarşı mübarizədə qıçlarını itirərək əlil olmuş Mete Kurt dövlətimizin başçısını salamlayaraq dedi:

- Hörmətli Cümhurbaşkanım, xoş gəldiniz! Bizi yad etdiyinizə görə təşəkkürümüzü bildiririk. Mən Sizə üzərində böyük öndərimiz Mustafa Kamal Atatürkün şəkli olan bu hədiyyəni vermək istəyirəm. Yaralanan bütün qazilər adından bu kiçik ərməğanımızı xatirə olaraq qəbul edin.

Prezident Heydər Əliyev onun hədiyyəsini qəbul edərək dedi:

- Çox sağ olun. Mənim üçün çox dəyərli hədiyyədir. Dünən mən Mustafa Kamal Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı aldım. Bu, mənim üçün iftixar hissidir. Bu gün də Anıtqəbirdə oldum, Atatürkün qəbrini ziyarət etdim. Bu hədiyyəni də səndən qəbul etmək mənim üçün çox önəmlidir. Çox təşəkkür edirəm.

Mən sənin kimi qazilərin hamısına hörmətimi, ehtiramımı, sevgimi, məhəbbətimi bildirirəm. Mustafa Kamal Atatürkün bütün silahdaşları qazilər idilər. Əgər o qazilər olmasaydı, Türkiyə Cümhuriyyəti yaranmazdı, bugünkü Türkiyə olmazdı və türk xalqı bu qədər xoşbəxt olmazdı. Siz isə indi Türkiyə Cümhuriyyətini parçalamaq, dağıtmaq istəyənlərin qarşısını almaq üçün əsgər olaraq xidmət göstərmisiniz və canınızın bir qismini itirmisiniz. Amma siz qəhrəman, yəni qazi kimi bu gün də varsınız.

Bəli, o vaxt da şəhidlər çox olubdur. Mustafa Kamal Atatürkün dəstəsindən də şəhidlər çox olubdur. Sonrakı dövrlərdə də çox olubdur. Bu gün də şəhidlər vardır. Şəhidlər hamısı qazidir və siz hamınız qazisiniz. Sizin kimi qazilərin hesabına qəhrəman türk ordusu yaşayır, Atatürkün qurduğu türk ordusu yaşayır. Bu, bütün türk dünyası üçün böyük bir dayaqdır, böyük dəstəkdir. Biz hamımız bununla fəxr edirik ki, belə bir Türkiyə var, Mustafa Kamal Atatürk Cümhuriyyəti var, Mustafa Kamal Atatürk ordusu var və bu ordunun sizin kimi qəhrəmanları, qaziləri vardır.

Mən sizə cansağlığı, səadət arzulayıram. Ümid edirəm ki, bundan

sonra da Türkiyə xalqı yolunda öz xidmətlərinizi göstərəcəksiniz.

Sənə bir hədiyyə vermək istəyirəm. Ola bilər ki, lazım olsun. Bu, bizim milli palazımızdır. Bunu evində bir yerə qoyarsan və xatırlayarsan. Təşəkkür edirəm.

Sonra Prezident Heydər Əliyev burada müalicə olunan **Samin Altınopa** yaxınlaşaraq dedi:

- Mən gəldim səni ziyarət edim. Sənə türk xalqının yolunda, Türkiyə Cümhuriyyətinin yolunda, böyük qazi Mustafa Kamal Atatürkün yolunda göstərdiyin xidmətlərə görə öz hörmət, ehtiramımı, sevgimi, məhəbbətimi bildirirəm.

Samin Altınop: Hörmətli Cümhurbaşkanım, bu işləri görmək türk gənci olaraq bizim borcumuzdur. Sizə çox təşəkkür edirəm.

Heydər Əliyev: Sən borcunu qəhrəmanlıqla yerinə yetirdin, qazi oldun və Türkiyənin bu günü üçün də, gələcəyi üçün də canından da keçməyə hazır oldun. Ona görə sənin xidmətlərin Türkiyədə heç vaxt unudulmayacaqdır. Mən də Azərbaycan Prezidenti olaraq sənin kimi türk əsgərlərini həmişə qəlbimdə saxlayacağam. Mənim bu kiçik hədiyyəmi qəbul etməyi rica edirəm.

Dövlətimizin başçısı Heydər Əliyev daha sonra yaralı gənc **Hüseyn Ümitə** yaxınlaşaraq dedi:

- Mən səni ziyarət etdim ki, sənə bu qaziliyinə, qəhrəmanlığına görə təşəkkürümü bildirim. Sən türk gəncinin, türk əsgərinin ən gözəl örnəyisən, nümunəsisən. Sənin kimi gənclər, qazilər, qəhrəmanlar Türkiyəni 76 ildə böyük Türkiyə ediblər. Sənin kimi qəhrəmanlar bu gün Türkiyəni parçalamaqdan, PKK-dan, digər terroristlərdən qoruyurlar. Sənin xidmətlərin böyükdür. Sən yaralanmısan, zərər çəkmisən. Amma vətənin yolunda, xalqının yolunda. Vətən yolunda şəhid olan, canını verən, yaralanan xoşbəxt insandır. Sən də onlardansan. Mən səni bu böyük xidmətlərinə görə təbrik edirəm, sənə cansağlığı arzu edirəm, Allahdan şəfa diləyirəm. Əminəm ki, sən bundan sonra da türk xalqına, cümhuriyyətinə, Atatürk Türkiyəsinə xidmət edəcəksən. Məndən sənə xatirə olaraq hədiyyə verirəm.

Respublikamızın rəhbəri Heydər Əliyev akademiyada müalicə alan **Kənan Karakuş** ilə görüşərək dedi:

- Fəxr edirəm ki, sənin kimi qəhrəman insanlarla görüşürəm. Sən türk gənclərinin gözəl bir nümunəsisən, türk əsgərinin gözəl bir örnəyisən. Sən qəhrəmanlığınla, qaziliyinlə bir daha nümayiş etdirmisən ki, türk türkdür. Türk həmişə öz vətənini sevir, öz bayrağını sevir və vətən yolunda, torpaq yolunda həmişə şəhid olmağa hazır olubdur. Sən vuruşmusan, yaralanmısan, xəsarət almısan. Allah yarını tezliklə sağaltsın. Sənə Allahdan şəfa diləyirəm. Sənin kimi əsgərlər, gənclər Türkiyəni bundan sonra daha da irəliyə aparacaqlar. Bu hədiyyəmi də qəbul et. Evinizdə lazım olar.

Azərbaycan Prezidenti Heydər Əliyev yaralı döyüşçü **Əliosman Öztürkə** müraciətlə dedi: Sən çox gəncsən. Neçə yaşın var?

Əliosman Öztürk: Hörmətli prezident, 30 yaşım var.

Heydər Əliyev: Çox gəncsən. Amma nə qədər qəhrəmansan. Qazi olmusan. Bu, ən böyük şərəfdir. Sənin kimi insanlar, gənclər Türkiyəni həmişə təxribatdan, terroristlərdən qoruyur. Türkiyə Cümhuriyyətini sülh yolu ilə irəliyə doğru aparır. Mən səni qaziliyinə, qəhrəmanlığına görə səmimi təbrik edirəm. Səndə olan qüdrət, mənəvi güc sənə imkan veribdir ki, vuruşasan. Zərər də çəkmisən, qazi olmusan. Xalqın, millətin sənə hörməti həmişə olacaqdır. Mən də Azərbaycanın Prezidenti kimi sənə hörmət - ehtiramımı, sevgi və məhəbbətimi bildirirəm. Bu hədiyyəni də məndən qəbul et.

Ölkəmizin rəhbəri Heydər Əliyev daha sonra **Niyami Özcana** baş çəkdi və dedi:

- Mütləq yeriyəcəkdir. Qəhrəman oğlandır, kişidir, qazidir və Türkiyənin qazilərindən biridir. Türkiyədə həmişə qazilər olubdur. Əgər qazilər olmasaydı, Türkiyə Türkiyə olmazdı, Türkiyə yaşamazdı. Mustafa Kamal Atatürk qazi olaraq Türkiyəni xarici düşmənlərdən, parçalamaqdan qurtardı və Türkiyəni inkişaf yoluna qoydu. Ona görə də Türkiyənin sabahı üçün Mustafa Kamal Atatürkün yolunda vuruşmaq, şəhid olmaq şərəfidir. Güman edirəm ki, sənin bu müalicən bitəcəkdir, yenə də çalışacaqsan və türk xalqına, millətinə xidmət edəcəksən.

Niyami Özcan: Çox sağ olun, hörmətli Cümhurbaşkanım! İnşallah! Siz də məqsədinizə çatacaqsınız. Mən dünən Sizin çıxışınızı dinlədim.

Heydər Əliyev: Televiziya vasitəsilə dinlədin? Necə idi?

Niyami Özcan: Bəli, çox mükəmməl çıxış idi. Türkiyənin bir örnək olduğunu söylədiniz. İnşallah, Siz də məqsədlərinizə çatacaqsınız. Biz Sizinlə qürur duyuruq. Burada müalicə olunan qaziləri ziyarət etdiyinizə görə də Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Çox sağ ol. Təşəkkür edirəm.

Azərbaycan Prezidenti ayrılarkən bu gəncə də hədiyyə təqdim etdi.

Sonra dövlətimizin başçısı yaralı gənc Saleh Özürəklə səmimi söhbət edərək dedi: Çox gəncsən. Sənin neçə yaşın var?

Saleh Özürək: Hörmətli Cümhurbaşkanım, 20 yaşım var?

Heydər Əliyev: Sən 20 yaşında qazi olmusan, qəhrəman olmusan. Türkiyənin qəhrəmanı, qazisi olmusan. Bu, böyük şərəfdir. Sənin kimi gənclər Türkiyəni yaşadıb və sənin kimi qəhrəmanlar, qazilər həmişə yaşadacaqlar. Mən Azərbaycanın Cümhurbaşkanı olaraq sənə və sənin kimi insanlara ən böyük məhəbbətimi, sevgimi bildirirəm. Ümid edirəm ki, bundan sonra da Türkiyə Cümhuriyyətinə xidmət edəcəksən. Mən sə-

nə bir hədiyyə vermək istəyirəm. Bu da mənim oğlumdur. O da səni təbrik etməyə gəlibdir. O da sənin kimi gəncdir. Azərbaycanda keçmişdə də, indi də həmişə palaz üzərində oturmuşuq. Bu hədiyyəmdən evində istifadə edərsən. Allah sənə şəfa versin.

Prezident Heydər Əliyev Tibb Akademiyasında müalicə olunan **İlhan Türcələ** müraciətlə dedi: Sənin neçə yaşın var?

İlhan Türcəl: Cənab Prezident, 22 yaşım var.

Heydər Əliyev: Nişanlın var, yoxsa yox?

İlhan Türcəl: Xeyr, hələ subayam.

Heydər Əliyev: İnşallah, olacaqdır. Çox gözəl oğlansan, qəhrəmansan, qazisən. Sənin kimi qazinin, gözəl bir gəncin gözəl bir ailəsi, xanımı olacaqdır. Mən buna şübhə etmirəm. Çox məmnunam ki, səninlə görüşdüm. Sizin ziyarətinizə gəlmişəm. Sizin qaziliyiniz bizə də iftixar, qürur hissi gətirir. Çünki Türkiyə ilə Azərbaycan bir millətdir. Bizim millətin içindən olan hər bir qəhrəman əzizdir, qiymətlidir. Sən vətən, xalq yolunda vuruşmusan, qazi olmusan, zərər çəkmisən. Ancaq özünü yüksəltmisən. Şübhə yoxdur ki, sən gənc insan, vətəndaş kimi bundan sonra da Türkiyə Cümhuriyyətinin Mustafa Kamal Atatürk yolu ilə getməsinə yenidən xidmətlərini göstərəcəksən, ona sadiq olacaqsan.

Sizi Azərbaycana dəvət edirəm. Sağalandan sonra gəlin. Mən hamınızı, bütün qaziləri Azərbaycana dəvət edirəm və rica edirəm ki, mənim dəvətimi qəbul edəsiniz. Onlar tamamilə sağlam olub hərəkət etdikləri zaman gəlib Azərbaycanda istirahət etsinlər. Mən rica edirəm, bu dəvəti Silahlı Qüvvələr Baş Qərargahının rəisinə də deyəsiniz. Sizlərə də deyirəm və Allahdan hamınıza şəfa diləyirəm. Bu da mənim oğlumdur, o da gəncdir. Bu hədiyyəni də qəbul edin.

Respublikamızın rəhbəri Heydər Əliyev daha sonra gənc əsgər **Müslüm Qəncərlə** görüşdü və onun yaşı ilə maraqlandı.

Müslüm Qəncər: Hörmətli prezident, 23 yaşım vardır.

Heydər Əliyev: Nişanlın varmı?

Müslüm Qəncər: Bəli, cənab Prezident.

Heydər Əliyev: Nişanlın gözəldirmi, onu sevirsənmi?

Müslüm Qəncər: Bəli, çox sevirəm. O da məni sevir.

Heydər Əliyev: Güman edirəm ki, sən qazi olandan sonra səni daha da çox sevəcəkdir. Çünki görəcək ki, onun ömür yoldaşı qəhrəmandır. Səni qaziliyinə, qəhrəmanlığına, Türkiyə qarşısındakı xidmətlərinə görə, Mustafa Kamal Atatürkün ordusunun əsgəri olduğuna görə təbrik edirəm. Sənə Allahdan şəfa diləyirəm.

Ümidvaram ki, tezliklə sağalacaqsan. Mən sizin hamınızı - burada müalicə olunanların hamısını Azərbaycana dəvət edirəm ki, gəlib ziyarət edəsiniz, dincələsiniz - mənim, Azərbaycanın qonağı kimi. Bu hədiyyəni də təqdim edirəm. Sən ailə quracaqsan, sənə belə bir palaz lazımdır.

Müalicədən uğurla çıxan **Həmzə Duzdabanı** təbrik edən Prezident Heydər Əliyev dedi:

- Çox gözəl yeriyirsən. Təbrik edirəm. Qəhrəmansan, qazisən. Amma həkimlər də gözəl həkimlərdir - müalicəni çox yaxşı aparıblar. Heç bir şey itirməmisən. Amma qazandığın odur ki, qazi olmusan. Sənin neçə yaşın var?

Həmzə Duzdaban: Cənab Prezident, 21 yaşım var.

Heydər Əliyev: Nişanlın və ya gözaltın varmı?

Həmzə Duzdaban: Hələlik yoxdur.

Heydər Əliyev: İnşallah, olacaqdır. Gözəl oğlansan, qızlar səni sevəcəklər. Təbrik edirəm, sənə cansağlığı arzu edirəm, Allahdan şəfa diləyirəm. Arzu edirəm ki, həmişə qəhrəman olasan. Mənim hədiyyəmi də qəbul et. Evlənəndə lazım olacaqdır.

Dövlətimizin başçısı Heydər Əliyev **Bayram Solmaz** ilə görüşərək onun vəziyyətini soruşdu və dedi:

- Sən bir il orduda xidmət edərək qəhrəmanlıq göstərdin və qazi oldun. Bu, sənin gənc kimi öz vətəninə, torpağına nə qədər sədaqətli, bağlı olduğunu göstərir. Bu qəhrəmanlığına, mübarizliyinə görə səni təbrik edirəm. Ümid edirəm ki, müalicədən sonra yenə də sırada olacaqsan, Türkiyənin inkişafı üçün yenə də öz xidmətlərini göstərəcəksən. Səni də Azərbaycana dəvət edirəm. Qazilərin hamısına dedim, çox məmnun olaram ki, gəlib orada istirahət edəsiniz, sizinlə orada bir daha görüşüm. Mənim bu hədiyyəmi də qəbul et. Mənim oğlum da səni təbrik etmək istəyir.

Prezident **Heydər Əliyev** gənc əsgər Erol Çətinə müraciətlə dedi:

- Sən qəhrəmanlıq göstərib qazi olmusan. Bundan sonra orduda da xidmət edəcəksən, xalqına da xidmət edəcəksən. Səni bu xidmətlərinə görə, qəhrəmanlığına, qaziliyinə görə təbrik edirəm. Sənə cansağlığı arzulayır, Allahdan şəfa diləyirəm. Hələ gəncsən. Gələcək həyatında uğurlar diləyirəm. Səni Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol, bir az istirahət et, oraları gör, tanış ol. Sənə bir hədiyyə verirəm. Bu, evində lazım olacaqdır.

Sonra **Yusif Aygünü** qəhrəmanlığına görə təbrik edən respublikamızın rəhbəri dedi:

- Sən 20 yaşında qazi olmusan. Səni təbrik edirəm. Gənclər üçün çətinliklər keçicidir. Amma əsas qaziliкdir, millətinə, xalqına xidmət etməkdir, qəhrəmanlıq göstərməkdir. Sən bunları etmisən. Çox gözəl oğlansan. Sənə gözəl həyat arzulayıram. Səni də Azərbaycana dəvət edirəm. Gəlin, mənim qonağım olun, istirahət edin. Bu hədiyyəni də qəbul et.

Dövlətimizin başçısı **Heydər Əliyev** Tuncay Yalçına yaxınlaşaraq dedi:

- Mən səni təbrik edirəm. Qazi oldun, millətinə, xalqına xidmət et-

din, yüksəldin. Bundan sonra da yüksələcəksən. Sənə gələcəkdə də uğurlar diləyirəm. Gəncsən, sənin həyatın hələ irəlidədir. Bu yolda sənə uğurlar arzulayıram. Səni də Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol, dincəl, Azərbaycanı gör. Mənim sənə hədiyyəm də var.

Respublikamızın rəhbəri daha sonra **Önvər Tuncla** söhbət edərək ona dedi:

- Sən çox gəncsən. Amma qazi oldun, qəhrəman oldun. Bu, xoşbəxtlikdir, fədakarlıqdır. Səni qəhrəman, qazi olduğuna görə təbrik edirəm. Çətinliklər hamısı keçəcəkdir. Bunlar yaxşı həkimlərdir, mən bunları tanıyıram, hər şeyi çox gözəl bacarırlar. Sən yenə də fiziki cəhətdən sağlam olacaqsan, xalqına, millətinə və Türkiyəyə xidmət edəcəksən. Bu xidmətlərinə, qaziliyinə görə sənə təşəkkür edirəm. Sənə uğurlar diləyirəm. Bu hədiyyəmi də qəbul et. Mənim oğlum da sənin lə görüşmək istəyir.

Hacı Fındıqçı ilə tanış olan Prezident **Heydər Əliyev** soruşdu:

- Sənin neçə yaşın var?

Hacı Fındıqçı: Cənab Prezident, 21 yaşım var.

Heydər Əliyev: Çox gözəl bir gəncsən. Amma ən gözəli odur ki, qazi olmusan. Millətin, cümhuriyyətin, xalqın yolunda vuruşmusan, qəhrəmanlıq göstərmisən. Bu, insanın ən böyük gözəlliyidir. Ən böyük bəxtiyarlığı, xoşbəxtliyidir. Mən səni bu xidmətlərinə, qəhrəmanlığına görə təbrik edirəm. Həkimlərin dediklərі ilə şərikəm ki, hər şey düzələcək və sən yenə də yeriyəcəksən, həyatını davam etdirəcəksən. Səni Azərbaycana dəvət edirəm. Gəl, orada mənim qonağım ol, dincəl, Azərbaycanı gör.

Hacı Fındıqçı: İnşallah, gələcəyəm.

Heydər Əliyev: Gözləyəcəyəm. Sənə hədiyyəm də var, bunu qəbul et. Sənə Allahdan şəfa diləyirəm. Bu da mənim oğlumdur.

Ölkəmizin rəhbəri Heydər Əliyev yaralı gənc **Murat Gökgözün** müalicəsi ilə maraqlanaraq dedi: İndi necə yeriyirsən?

Murat Gökgöz: Hörmətli Cümhurbaşka-nım, yaxşı.

Heydər Əliyev: Çox gözəl, Sən qəhrəmansan, qazisən. Gənc qazi olmaq böyük fədakarlıqdır. Həkimlər hər şeyi ediblər - sən yenə də işləyəcəksən, vuruşacaqsan, həyatda çox böyük müvəffəqiyyətlər qazanacaqsan. Səni qəhrəmanlığına, qaziliyinə görə təbrik edirəm və sənə uğurlar arzulayır, Allahdan şəfa diləyirəm. Bütün qazilər kimi, səni də Azərbaycana dəvət edirəm. Gəlin, orada istirahət edin, mənim qonağım olun.

Prezident Heydər Əliyev gənc əsgər **Bayram Qarabiyikə** yaxınlaşaraq dedi: Sənin neçə yaşın var?

Bayram Qarabiyik: 22 yaşım var.

Heydər Əliyev: Çox gözəl yaşdır. Amma bu yaşda qazi olmaq hər adama nəsib olmur. Yaşından çox-çox yüksəlmisən. Millətinə, Türkiyəyə

xidmət etmisən. Çətinliklər hamısı keçib gedəcəkdir. Həkimlər də hər şeyi edirlər və edəcəklər ki, sən yeriyəsən. Amma qazilik sənin üçün bəxtiyarlıqdır. Sənin baban, nənən, atan, anan üçün, qohumların üçün bəxtiyarlıqdır. Bizim üçün də çox önəmlidir. Səni təbrik edirəm, uğurlar arzulayıram və Azərbaycana dəvət edirəm. Gəl, Azərbaycanda mənim qonağım ol, istirahət et. Bu hədiyyəmi də qəbul et.

Respublikamızın başçısı Heydər Əliyev burada müalicə olunan Ergün Buluta müraciətlə dedi:

- Sən gənc türk oğlu, gənc türk əsgəri, qazi olmusan, yüksəklərə qalxmısan. Bu, ən böyük şərəfdir. Biz də belə insanları yüksək qiymətləndiririk və belə insanlarla həmişə iftixar edirik, qürur duyuruq. Sizin kimi gənclər ölkələri, xüsusən Türkiyə Cümhuriyyətini, Atatürk Cümhuriyyətini yaşadıb və yaşadacaqdır. Mustafa Kamal Atatürk Türkiyəni gənclərə əmanət edibdir. Siz də onun yolu ilə gedirsiniz və sədaqətlə xidmət edirsiniz. Bu, çox gözəl işdir. Bu, təkcə sənin üçün yox, bütün türk xalqı üçün şərəfdir. Sənə Allahdan şəfa diləyirəm. Səni Azərbaycana dəvət edirəm. Gəl, qonağım ol, istirahət et. Ümid edirəm ki, sən bundan sonra xalqın üçün yenə də faydalı olacaqsan. Mənim bu hədiyyəmi də qəbul et.

Ergün Bulut: Çox təşəkkür edirəm, hörmətli Cümhurbaşkanım. Bizə böyük şərəf, ruh verdiniz.

Dövlətimizin rəhbəri **Heydər Əliyev** Yılmaz Boz ilə söhbət edərək soruşdu: Sənin nişanlın, gözaltın varmı?

Yılmaz Boz: Cənab Prezident, vardır.

Heydər Əliyev: Belə gözəl oğlanın dalınca qızlar çox gəzir - biri də, ikisi də, üçü də. Sən ən yaxşısını seçməlisən. Sən xalqına, millətinə, cümhuriyyətinə sədaqətli olduğun kimi, nişanlın da gərək sənə sədaqətli olsun. Mən bunu arzu edirəm. Qazi olmağına görə təbrik edirəm. Sənə gələcəkdə sağlamlıq diləyir və xoşbəxt, bəxtiyar həyat arzulayıram. Bir daha təbrik edirəm. Bu hədiyyəni də qəbul et. Sənə Allahdan şəfa diləyirəm.

Prezident **Heydər Əliyev** Mömin Özcanın müalicəsinin uğurla getməsindən məmnun olduğunu bildirərək dedi:

- Dörd gün içərisində artıq yeriyirsən. Səni qazi olduğuna, qəhrəmanlıq göstərdiyinə görə təbrik edirəm. Xalqına, millətinə, Türkiyəyə sədaqətlə xidmət etdiyinə görə təbrik edirəm. Sizin kimi insanlar bizim hamımızın iftixarıdır, qürurudur. Sən bundan sonra da Türkiyəyə, xalqına, öz millətinə çox faydalı olacaqsan, ümid edirəm ki, çox xeyir verəcəksən. Səni Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol, Azərbaycanı gör. Sənə Allahdan şəfa diləyirəm. Bu hədiyyəni də qəbul et.

Eyni palatada müalicə olunan Türkər Təmiz və Kərim Arslanı qazi olduqlarına görə təbrik edən Prezi-

dent **Heydər Əliyev** dedi:

- Allah şəfa versin! İnşallah, yeriyəcəksiniz. Sizi qazi olduğunuza görə təbrik edirəm. Bundan sonra da uğurlar diləyirəm və sizi Azərbaycana dəvət edirəm. Mənim yanıma gəlin, orada qonağım olun. Bu, hədiyyələrimi də qəbul edin.

Dövlətimizin başçısı **Heydər Əliyev** Gültəkin Orana və Büləndə Çəkirə cansağlığı arzulayaraq dedi:

- Sizi də qazi olduğunuza görə təbrik edirəm. İtkilərinizə görə sıxılmayın. Çünki bu gözəl həkimlər hər bir şeyi yaradırlar. Sizin üçün də ən önəmli odur ki, öz millətinizin, öz xalqınızın yolunda zərər çəkmisiniz, amma qazi olmusunuz, yüksəlmisiniz. Həmişə yüksələsiniz! İnsan üçün bu, hər şeydən ucadır. Sizi təbrik edirəm və Azərbaycana dəvət edirəm. Gəlin, Azərbaycanda mənim qonağım olun. Sizə uğurlar diləyirəm və hədiyyələrimi qəbul edin.

Məsul Aksoya gələcək həyatında uğurlar arzulayan ölkəmizin rəhbəri dedi:

- İnşallah, hər şey yaxşı olacaqdır. Səni qazi olduğuna görə, qəhrəmanlıq göstərdiyinə görə, millətinə, xalqına sədaqətlə xidmət etdiyinə görə təbrik edirəm. Sənə Allahdan şəfa diləyirəm. Səni Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol. Mənim bir hədiyyəm var, onu qəbul et.

Prezident Heydər Əliyev **Alparslan Dağ** ilə görüşərək dedi:

- Çox gözəl ismin vardır, tarixi bir addır. Həmişə Alparslan olacaqsan. Səni qazi olduğuna, göstərdiyin xidmətlərə görə təbrik edirəm. Dərin təşəkkürümü bildirirəm və səni Azərbaycana dəvət edirəm. Sənə uğurlar arzulayıram.

Sağaldıqdan sonra yenidən orduya getmək istədiyini bildirən **İbrahim Dəmirçiyə** təşəkkürünü bildirən dövlətimizin başçısı dedi:

- Sən yenə də ayaq üstə duracaqsan, yenə də xalqına xidmət göstərəcəksən. Səni Azərbaycana dəvət edirəm. Gəl, qonağımız ol. Mənim bu hədiyyəmi də qəbul et.

Respublikamızın Prezidenti Heydər Əliyev **Çingiz Arkana** yaxınlaşaraq dedi:

- Səni qazi olduğuna, qəhrəman olduğuna, xalqına, millətinə çox sədaqətlə xidmət etdiyinə görə təbrik edirəm. Həkimlər hamısını müalicə edəcəklər və sən yenə də sırada olacaqsan. Mən səni Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol, Azərbaycanı gör. Mən sənin üçün fəxr edirəm. Mənim hədiyyəm də var, bunu qəbul et.

Gənc zabit **Hacı İşçi** ilə söhbət edən dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Protezə alışacaqsan. Bundan sonra heç nə hiss etməyəcəksən. Çox gözəl də adın var. Neçə yaşın var?

Hacı İşçi: Hörmətli Cümhurbaşkanım, mənim 21 yaşım var. Sizə çox təşəkkür edirəm. Bizi yad etdiniz.

Heydər Əliyev: 21 yaşında qazi oldun. Təbrik edirəm. Qəhrəmansan, xalqına xidmət etmisən. Xalq da bunu həmişə qiymətləndirəcəkdir, sizi həmişə sevəcəkdir. Mən sənə uğurlar diləyirəm, səni Azərbaycana dəvət edirəm, cəl mənim qonağım ol.

Prezident Heydər Əliyev gənc əsgər **Camal Pektaşa** yaxınlaşaraq dedi:

- Çox gözəl adın vardır. Bunların hamısı keçib gedəcəkdir. Amma ən önəmlisi odur ki, sən qazi oldun. Səni qazi olduğuna, qəhrəman olduğuna, millətinə, xalqına sədaqətlə xidmət etdiyinə görə təbrik edirəm. Səni Azərbaycana dəvət edirəm. Gəl, mənim qonağım ol. Ümid edirəm ki, sən gələcəkdə də türk xalqına faydalı olacaqsan. Mənim hədiyyəm də vardır, onu qəbul et.

GÜLHANƏ HƏRBİ TİBB AKADEMİYASININ RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞ

Dövlətimizin başçısı Heydər Əliyev onları salamlayaraq dedi:

Mən Gülhanədə bir daha olmağımdan məmnunam. Yanvar ayından indiyə qədər çox aylar keçibdir. Ancaq mənə burada göstərilən xidmətləri, aparılan müayinə və müaliconi heç vaxt unutmayacağam və bu da davam edir. Çünki hörmətli Ertən paşa daim mənimlə bərabərdir. Onun həkimliyi sayəsində də mənim Amerika Birləşmiş Ştatlarında hadisə baş verən kimi Klivlendə getməyim və orada cərrahiyyə əməliyyatı keçirməyim mümkün olmuşdu. Ona görə də yanvar ayından başladığımız işlər sonra davam etdi. Mən bunların hamısına görə Gülhanəyə çox təşəkkür edirəm. Sizin hamınıza təşəkkür edirəm və çox məmnunam.

Mən Sizin vaxtınızı çox almaq istəmirəm. Ancaq mən Gülhanədə olandan sonra, buradan gedəndən sonra bizim xalqımızda Gülhanəyə çox böyük məhəbbət yaranmışdır. Ertən Paşa görmüşdü ki, mən buradan qayıdanda xalq məni nə qədər böyük məhəbbətlə qarşıladı. Ona görə də bizim oradakı rəssamlar Sizin şəklinizi götürüb xalçа, xalı üzərində böyük bir portretinizi yaratmışlar. Mən bunu sizə təqdim etmək istəyirəm.

Prezident Heydər Əliyev üzərində Gülhanə Hərbi Tibb Akademiyasının komandanı cənab Çətin Harmankayanın portreti toxunmuş xalçanı ona hədiyyə etdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN MƏTBUAT NÜMAYƏNDƏLƏRİ QARŞISINDA BƏYANATI

Gün aydın, hörmətli mətbuat nümayəndələri!

Siz bilirsiniz ki, mən bu gün üçüncü gündür ki, Türkiyədəyəm. Mənim dünənki proqramım sizə məlumdur, bu barədə bir şey demək istəmirəm. Ancaq bir daha onu demək istəyirəm ki, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatının mənə verilməsi haqqında qərar və dünən Türkiyənin Çankaya köşkündə təntənəli şəkildə, Türkiyənin dövlət, hökumət başçılarının, ordu generalları, millət

vəkilləri, ictimai-siyasi xadimlər, elm, mədəniyyət xadimlərinin, yəni Türkiyənin ən qaymağı hesab olunan insanların hüzurunda bu mükafatın mənə verilməsi mənim üçün böyük tarixi hadisədir. Mən bunu ömrümün sonuna qədər unutmayacağam. Bir ona görə yox ki, mən mükafat aldım. Ona görə ki, mən Türkiyə Cümhuriyyətinin mükafatını aldım. Türkiyə Cümhuriyyətinin mükafatını almaq mənim üçün böyük şərəfdir.

Mən Mustafa Kamal Atatürk mükafatı aldım. Bu, mənim üçün ən böyük şərəfdir. Mən Beynəlxalq Sülh Mükafatı aldım. İndi, dəyişən dünyada gedən savaşlar, münaqişələr olduğu bir zamanda, Azərbaycan özü də 1988-ci ildən Ermənistanın təcavüzü nəticəsində müharibə, savaş içində olduğu bir zamanda mənim barış, sülh sahəsində gördüyüm işlərə verilən bu yüksək qiymət məni çox sevindirir. Bu da mənim üçün çox qiymətlidir.

Mən bu barədə öz fikirlərimi, sözlərimi dünən Çankaya köşkündə söylədim. Amma bu gün bir daha, bir daha təşəkkürlərimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, mənə verilən bu mükafat bütün Azərbaycan xalqına verilən mükafatdır. Azərbaycanın müstəqilliyinə, Azərbaycanın dövlətçiliyinə, Azərbaycanın bu gününə və gələcəyinə verilən mükafatdır.

Türkiyə Azərbaycanın ən yaxın dostu, qardaşıdır. Bizim üçün Türkiyədən yaxın bir ölkə yoxdur. Türkiyənin Azərbaycana hər vaxt dost, qardaşlıq münasibətini biz hiss etmişik və hər gün də hiss edirik. Bu mükafatın verilməsi bir daha Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının rəmzidir. Bizim xalqımız, Azərbaycan vətəndaşları, millətimiz bunu yüksək qiymətləndirirlər və mənim kimi, Türkiyə Cümhuriyyətinə hədsiz minnətdarlıqlarını bildirirlər.

Mən bu gün Gülhanə xəstəxanasına gəlmişəm. Burada müalicə olunan qazilərlə görüşdüm. Bu, mənim borcumdur. Yəni bu, mənim qəlbimin içindən gələn istəklərdir. Türkiyə Cümhuriyyəti yaşamalı, qorunmalı - həm xarici düşmənlərdən, həm də daxili düşmənlərdən qorunmalıdır. Terroristlərdən, PKK-çılardan, digərlərindən qorunmalıdır. 76 ildir yaşayan Türkiyə Cümhuriyyəti dəfələrlə belə hadisələrlə rastlaşmış və böyük sınaqlardan uğurla çıxmış, qəhrəmanlıqla çıxmışdır. Son zamanlar Türkiyəni parçalamaq istəyən bəzi qüvvələr Türkiyədə terrorist hərəkatına başlamışlar. Türkiyənin dövləti, hökuməti və çox qüdrətli, güclü ordusu türk xalqını, Türkiyə Cümhuriyyətini qoruyaraq, müdafiə edərək bu terroristlərin qarşısını almışdır. Bu terroristlərin qarşısını almaq yolunda insanlar şəhid olmuşlar. O şəhidlərin hamısına bu gün Allahdan rəhmət diləyirəm. İnsanların bir qismi yara almış, vücudunun bir qismini itirmiş, ancaq ruhunu, yəni dövlətə, xalqına məhəbbətini, sevgisini heç vaxt itirməmişlər. Onlar mənən

yüksəlmişlər. Onlar Türkiyənin gəncləri olaraq türk gənclərinin, türk əsgərlərinin, türk ordusunun nə qədər qüdrətli, nə qədər qəhrəman, nə qədər cəsarətli olduğunu bir daha nümayiş etdirmişlər. Ona görə bu qazilər türk xalqı üçün əziz olduğu kimi, Azərbaycan xalqı üçün, Azərbaycan Prezidenti kimi mənim üçün də çox əzizdir. Mən bu gün onları ziyarət etdim, onlarla söhbət etdim, onlara ürək-dirək verdim və onların hamısını Azərbaycana dəvət etdim. Gəlsinlər, Azərbaycanda mənim qonağım olsunlar. Gəlib Azərbaycanı öz gözləri ilə görsünlər.

Mənim bu günüm böyük öndər Mustafa Kamal Atatürkün məqbərəsini, yəni qəbrini ziyarətlə başlandı. Mən Türkiyəyə 1992-ci ildən gəlirəm və hər dəfə Türkiyəyə gəldiyim zaman mənim müqəddəs vəzifəm böyük öndər Atatürkün qəbrini, onun məqbərəsini ziyarət etməkdir, onun, böyük şəxsiyyətin qarşısında baş əyməkdir, onun gördüyü işlərin və yaratdığı cümhuriyyətin əbədiyyətə qədər olacağına inamımı bildirməkdir.

Mən bu gün oraya getdim, böyük öndərin qəbri qarşısında bir daha baş əydim, ürək sözlərimi kitaba yazdım. Ən önəmlisi bir də odur ki, Azərbaycan torpağı gətirdim, Mustafa Kamal Atatürkün qəbrinin, məzarının yanına qoydum.

Biz bilirik ki, Türkiyənin hər bir diyarından, hər bir vilayətindən torpaq gətirirlər və böyük Mustafa Kamal Atatürkə hörmət və ehtiram rəmzi olaraq o torpağı qəbrin yanına qoyurlar. Bu, həqiqətən çox böyük bir hadisədir. Bu, xalqın Mustafa Kamal Atatürkə, onun qoyduğu yola, onun irsinə, onun mirasına daim sədaqətli olduğunu bir daha göstərir. İlk dəfə olaraq Türkiyənin xaricindən, xarici ölkədən - yalnız Azərbaycandan torpaq gətirildi və o torpağı mən şəxsən Mustafa Kamal Atatürkün qəbrinin yanına, böyük Türkiyənin bütün diyarlarından gətirilmiş torpaqlarla bir sırada qoydum. Bu, bizim üçün tarixi hadisədir. Çünki ilk dəfədir ki, Türkiyənin xaricindən buraya torpaq gətirilir. Eyni zamanda bu onu göstərir ki, Türkiyənin bütün torpaqları kimi, bütün vilayətləri kimi, Azərbaycan Türkiyə ilə bağlıdır və Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab edir.

Mən bu gün çox məmnunam ki, bu işləri görə bilmişəm və Gülhanədə mənim bugünkü görüşüm və işlərimə son qoyur. Bir neçə saatdan sonra Baş nazir, hörmətli Büləd Ecevit ilə görüşüb ondan sonra Azərbaycana qayıdacağam.

Bu ziyarətimdən, bu səfərimdən çox məmnunam. Mənə göstərilən hörmət-ehtiram-a görə, mənə göstərilən bu isti münasibətə görə Türkiyə dövlətinə, Türkiyə hökumətinə, türk xalqına, əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin başçanı, Prezident Süleyman Dəmirələ bir daha, bir daha təşəkkür edirəm.

Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏTƏNƏ QAYIDARKƏN ANKARANIN "ESENBOĞA" HAVA LİMANINDA MƏTBUAT NÜMAYƏNDƏLƏRİNƏ BƏYANATI

- Hörmətli dostum, qardaşım, Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirəl!

Hörmətli mətbuat nümayəndələri!

Mən iki gündür ki, Türkiyədəyəm. Əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə buraya qısamüddətli səfərə gəlmişəm. Mən Türkiyəyə gəldiyim gündən biz bir yerdəyik, bərabərik.

Çox məmnunam ki, biz səhərdən axşama qədər çox mənalı bir gün keçirdik. Məni ən çox məmnun edən odur ki, biz zəlzələnin baş verdiyi mərkəzə getdik, orada fəlakətdən zərər çəkmiş insanları, dağıntıları gördük, onlarla söhbət etdik, bu insanların vəziyyəti ilə tanış olduq. Bu görüşlər mənim xatirimdə daim yaşayacaqdır. Çünki bu fəlakətdən zərər çəkmiş insanlar - Türkiyə dövlətinin, hökumətinin, xalqının böyük fədakarlığı nəticəsində qısa bir zamanda çadırlarda, yığma evlərdə rahat yerləşdirilmiş insanlar - bu faciə nə qədər böyük olsa da, dövlətdən, hökumətdən və xüsusən dövlətin başçısından, Cümhurbaşkanından çox razıdırlar, onlara minnətdardırlar.

Bu zəlzələ bizi - Azərbaycanı da çox kədərləndirdi, sarsıtdı, sıxdı. Biz bu dərdi sizinlə bərabər çəkdik və onu bu gün də çəkirik. Ancaq ən önəmlisi odur ki, Türkiyə hökuməti, dövləti öz qüdrətini, öz bacarığını bir daha göstərdi. Qısa bir zamanda çox işlər görülübdür və bundan sonra görüləcək işlərin də - nə iş görüləcək, hansı evlər tikiləcək - planı vardır. Bu, Türkiyə Cümhuriyyətinin nə qədər böyük potensiala, imkanlara malik olduğunu və böyük işlər görməyə qabiliyyətli olduğunu göstərdi. Bu məni çox sevindirdi. Türkiyə bizim üçün qardaşdır, dostdur, ən yaxın ölkədir. Ona görə də bu məni çox sevindirdi.

Eyni zamanda, dünən həyatımda böyük həyəcanlı bir gün keçirdim. Çankaya köşkündə, hörmətli Cümhurbaşkanının iqamətgahında Türkiyənin bütün dövlət, hökumət adamlarının, yəni başçılarının hüzurunda Türkiyənin, demək olar ki, qaymaqları - həm dövlət, hökumət başçıları, həm nazirlər, həm də millət vəkilləri, ordu nümayəndələri, generallar, elm adamları, rektorlar, professorlar, ictimai xadimlər, mətbuat nümayəndələri toplaşmışdılar. Mən neçə illərdir ki, Türkiyə ilə dostluq edirəm, burada çox məclislərdə olmuşam. Amma bu qədər yüksək səviyyəli, yüksək durumda olan bir məclis görməmişdim. Belə bir məclisdə hörmətli dostum, qardaşım Süleyman Dəmirəl mənə Türkiyənin, Türkiyə Cümhuriyyətinin Atatürk Sülh Mükafatını təqdim etdi.

Bu mükafatın mənə verilməsi

haqqında qəbul olunan qərar haqqında məlumatı, sonra isə əziz dostum, qardaşım Süleyman Dəmirəlin bu barədə mənə rəsmi məktubunu alarkən çox sevinmişdim. Təkcə mən yox, bütün xalqımız sevinmişdi. Çünki bu bizim üçün böyük bir şərəfdir. Dünən bu mərasimdə, yəni bu toplantıda - Türkiyənin bütün qaymaqlarını təşkil edən insanların toplantısında bu mükafatın mənə təqdim edilməsi və əziz dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirəlin orada çox dərin mənalı, dəyərli nitqi və Türkiyə - Azərbaycan dostluğu, mənim fəaliyyətim haqqında söylədiyi dərin mənalı sözlər, şübhəsiz ki, mənim üçün tarixi hadisədir.

Mən bunu dünən də dedim, bu gün də deyirəm ki, bu, təkcə mənə, mənim fəaliyyətimə verilən mükafat deyil. Bu, Azərbaycan xalqının sülhsevərliyinə, fədakarlığına, Türkiyə ilə dostluq əlaqələrinə verilən mükafatdır. Bu, müstəqil Azərbaycan dövlətinə, artıq 8 ildir ki, öz müstəqilliyini qoruyub saxlayan və inkişaf etdirən Azərbaycan dövlətinə verilən mükafatdır. Bu, bütün Azərbaycan vətəndaşlarına verilən mükafatdır.

Türkiyənin bir neçə televiziya kanalı bu mərasimi, toplantını birbaşa yayıblar. Bu, o cümlədən Azərbaycanda da yayılıbdır. İnsanlar böyük heyranlıqla, böyük həvəslə, həyəcanla bu mərasimi seyr ediblər, ona seviniblər, demək olar ki, bayram edirlər. Mən çox məmnunam ki, mətbuat nümayəndələri də burada çox önəmli işlər görüblər, fəaliyyət göstəriblər, bugünkü qəzetlərdə çox gözəl yazılar veriblər. Bunlar hamısı Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının bir daha çox parlaq nümayişidir, göstəricisidir.

Mən hesab edirəm ki, bu mükafat Türkiyə - Azərbaycan dostluğuna, qardaşlığına, bizim bu əlaqələrimizə verilən yüksək qiymətdir. Mən bunlara görə təşəkkür edirəm.

Bu gün mən Gülhanə Hərbi Tibb Xəstəxanasında müalicə olunan, terrorda zərər almış, yaralanmış qazilərlə görüşdüm. Mənim həyatımda bu da çox böyük, önəmli bir hadisədir. Mən onları ziyarət etdim, həmin insanlarla görüşdüm, söhbət etdim. Onlara Allahdan şəfa dilədim, onları Azərbaycana dəvət etdim ki, gəlib ölkəmizdə olsunlar, dincəlsinlər. Onlar 22, 23, 24, 25 yaşında olan gənc insanlardır, çox gözəl gənclərdir. Mənimlə söhbətdə onların hər biri dedi ki, biz vətənimizin - Türkiyənin qorunması, terroristlərin qarşısının alınması yolundakı fəaliyyətimizlə, yəni qəhrəmanlığımızla fəxr edirik. Əgər bu gün xəsarət almışıqsa, yaramız varsa, bu, bizim üçün çətin bir şey deyil. Əsas odur ki, ölkəmizi, millətimizi, cümhuriyyətimizi müdafiə etmişik və bir də əsas odur ki, bizə qazi adı, qəhrəman adı veriblər. Bu insanlarla görüşüm məni çox müəssir etdi. Mən bundan çox məmnunam.

Mənim Türkiyəyə qısamüddətli səfərim bu gün sona çatır. Əziz dos-

tum, qardaşım Süleyman Dəmirəl mənə təklif etdi ki, burada yenə də qalım. Təbiidir ki, burada nə qədər qalsam, o qədər də yeni-yeni görüşlər, işlər olacaqdır. Ancaq mənim Azərbaycanda işlərim var. Bir də ki, mən əziz dostumun, qardaşımın vaxtını da çox almaq istəmirəm. Çünki mən burada olanda o, həmişə mənimlə bərabər olur.

Hesab edirəm ki, bu ziyarətim mənim üçün tarixi bir ziyarətdir. Təbiidir ki, mən noyabr ayının 17-18-də buraya gələcəyəm, ATƏT-in zirvə görüşündə olacağam. Mən dünən bəyan etdim, bu gün də bəyan edirəm ki, Bakı - Ceyhan boru xətti haqqında saziş burada imzalanacaqdır. Bu da tarixi bir hadisə olacaqdır.

Əziz dostum, mən Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun, məmnunam. Sizi Azərbaycanda bir daha səbirsizliklə gözləyəcəyəm.

7 noyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏDƏN QAYIDARKƏN BAKI HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə qısamüddətli işgüzar səfərini başa çatdıraraq noyağrın 2-də axşam Bakıya qayıtdı. Dövlətimizin başçısı Bina hava limanında onu qarşılamağa gəlmiş jurnalistlərə müraciətlə dedi:

- Siz dünən televiziyaya baxmısınız, keçirdiyim görüşləri görmüsünüz, yaqin ki, hər şeyi bilirsiniz.

Sonra Prezident Heydər Əliyev jurnalistlərin suallarına cavab verdi.

Sual: Cənab Prezident, keçirdiyiniz görüşlər haqqında nə deyə bilərsiniz?

Cavab: O qədər görüşlər keçirmişəm ki, onlar haqqında burada danışa bilmərəm. Bunları televiziyada da görmüsünüz. Mən Türkiyənin Prezidenti cənab Süleyman Dəmirəl ilə birlikdə dünən səhər ertədən Kocaelidə, İzmitdə, yəni baş vermiş zəlzələnin mərkəzində olmuşam, orada zəlzələdən zərər çəkmiş insanlarla görüşmüşəm, onlar üçün tikilmiş müvəqqəti evlərə baxmışam, çadırlarda insanları, onların vəziyyətini, dağıntıları görmüşəm. Orada çox görüşlər olubdur. Kocaeli Universiteti zəlzələ ilə əlaqədar dərs ilinə indiyə qədər başlamımışdır. Dünən onların dərs ilinə başlaması günü idi. Biz - Prezident Süleyman Dəmirəl ilə mən orada iştirak etdik, ikimiz də nitq söylədik.

İki iş adamı orada zəlzələdən zərərçəkənlər üçün müvəqqəti evlər tikib. Amma onlar elə daimi evlər kimi də ola bilər. Biz bu evlərə də baxdıq. İctimaiyyətlə, yəni orada yaşayan insanlarla da görüşlər keçirdik. Əlbəttə, faciə böyükdür, fəlakətdir, xeyli insan həyatını qeyb edib, vəfat edib, həlak olubdur, yaralılar çoxdur. Ancaq insanların ruhu yüksəkdir. Türkiyə Cümhuriyyəti, milləti, hökuməti, xalqı çox böyük işlər görürlər ki, zəlzələnin vurduğu zərərləri aradan götürsünlər, uçqunların yerində yeni evlər tiksinlər. Onların konkret proqramı var. Məsələn, bu ayın axırına qədər bir proqram var, - gərək çox adamlar hazır, yaxud müvəqqəti evlərə köçsünlər. Müvəqqəti evlər nə deməkdir? Müvəqqəti evin içində üç-dörd otaq, hamamı, suyu, televiziyası, radiosu var. Mən gedib bunları gördüm. Həmin işləri bu ayın içərisində görəcəklər. Onların qarşıdakı iki-üç ay üçün də proqramları vardır. Çalışırlar ki, qışın soyuqlarına qədər çox işləri həyata keçirsinlər. Bütün bu görüşlər mənim üçün çox əhəmiyyətli oldu. Onlar da çox sevindilər. Mən onlara yardım apardım. Təxminən 100 min dollar dəyərində olan bu yardımı - gələn yardımların yığılması üçün orada onların mərkəzi vardır - təhvil verdim. Hamı bunu bilir. Sonra mən Ankaraya getdim. Orada beynəlxalq Atatürk Sülh Mükafatının mənə təqdim edilməsi mərasimi oldu. Deyirlər ki, mərasim Türkiyənin 4-5 televiziya kanalı ilə yayılaraq buraya da çatıbdır. Siz bunları bilirsiniz.

Bu gün səhər isə mən terror nəticəsində yaralanmış, xəsarət almış, xəstəxanada müalicə olunan əsgərlərlə gedib görüşdüm. Onların əksəriyyəti Gülhanə Hərbi Tibb Xəstəxanasında müalicə olunur. Mən gedib onlarla görüşdüm. Orada təxminən 61 belə xəstə var idi. Mən, demək olar ki, hamısı ilə görüşdüm, onlara ürək-dirək verdim, hədiyyələr verdim. Onların əksəriyyəti 20, 22, 23, 24, 25 yaşlı gənc insanlardır. Ancaq bu əsgərlərin hamısında böyük ruh yüksəkliyi var. Vətən uğrunda döyüşmüş bu insanların birinin ayağı, birinin qolu yoxdur, birinin gözü görmür. Başqa ağır xəsarətlər alanlar da var. Amma onların ruhları çox yüksəkdir. Çünki bunu vətən yolunda ediblər, qazi olublar və buna görə fəxr edirlər. Mən onları təbrik edərək, xəstəxanadan çıxandan sonra Azərbaycana gəlməyə dəvət etdim ki, gəlib ölkəmizdə dincəlsinlər.

Prezident Süleyman Dəmirəl ilə bizim həm Kocaelidə, həm Ankarada çox danışıqlarımız olubdur. Biz daim bir yerdə olmuşuq. Bilirsiniz ki, dünən onun 75 yaşı tamam olurdu. Mən onu orada təbrik etdim. Ondan sonra o, məni öz ailəsinə dəvət etdi. Onun çoxlu qohumları, qardaşları, böyük bir ailəsi var. Mən və oğlum İlham şəhərdən kənarda onun ailəsi ilə bir yerdə olduq. Biz onun ad gününü bir yerdə, ailə şəraitində - yəni orada başqa bir tədbir keçirilmir - qeyd etdik.

Bu gün mənim Türkiyənin Baş naziri Büləvd Ecevitlə görüşüm, danışığım oldu. Yəni mən onların hamısı ilə dünən axşam görüşmüşəm. Çünki mükafat verilməndən sonra orada bir kokteyl var idi. Burada insanlar bir saat ayaqüstə bir-biri ilə görüşüb danışırlar. Ancaq bu gün xüsusi görüşümüz oldu. Biz çox ətraflı danışdıq, yaxşı söhbətlər etdik.

Türkiyə - Azərbaycan dostluğu yüksəklərdədir və bundan sonra da yüksək olacaqdır. Mənim də, onların da istəyi, arzusu budur. Beynəlxalq Atatürk sülh mükafatı da elə buna görə Azərbaycana, onun müstəqil dövlətinə, xalqımıza və sülh yaratdığıma görə mənə verilibdir.

Atatürkün sözləri var: "Yurddə sülh, cahanda sülh". Mən ilk dəfə 1993-cü ildə yurddə, yəni ölkənin içində sülh yaratmağa çalışdım və bunu yaratdım. Cahanda sülhün isə bir hissəsi Qafqazdadır. Ermənistanla Azərbaycan arasında gedən müharibəni, qan tökülməsini dayandırdım. Bunu Türkiyədə çox yüksək qiymətləndirirlər. Ona görə də məni belə bir yüksək mükafata layiq görüblər.

Sual: Cənab Prezident, ATƏT-in İstanbul sammitinə qədər Robert Koçaryanla görüşünüz planlaşdırılırmı?

Cavab: Bilmirəm.

Sual: Cənab Prezident, Büləndd Ecevitlə görüşünüzdə onun bu yaxınlarda Moskvaya olacaq səfərini dəyərləndirdinizmi?

Cavab: Bilirəm, gedəcək, biz bu barədə söhbət etdik. Sağ olun.

"Azərbaycan" qəzeti, 3 noyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ MÖHTƏRƏM CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Heydər Əliyev cənabları!

Altı ildir ki, keçid dövrünün çox çətin keçdiyi Qafqaz ölkələri arasında yaratdığınız dünyada sülh və xüsusən Azərbaycanda qardaş qırğınının qabağını alaraq ölkədə sülhü təmin etdiyiniz üçün Siz türk dünyasının böyük oğlu Atatürk adına Beynəlxalq Sülh Mükafatına layiq görüldünüz. Bu münasibətlə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Türk dünyasında Sizin də böyük rolunuz vardır. Qoy bu mükafat bütün türk ellərini və dünyasını həmişə birliyə və dostluğa səsləsin. Əslən Azərbaycanlı olduğum üçün mən Sizin bu mükafata layiq görülməyinizdən şərəf hissi duyuram.

XX əsr türk dünyasının iki böyük oğlu vardır: biri Siz, biri də Atatürk Mustafa Kamaldır. Biz bununla fəxr edirik. Hörmətli lider, Sizi səmimi-qəlbdən bir daha təbrik edir, Sizə uzun ömür, cansağlığı arzulayıram. Qoy Sizin sayənizdə bu ölkə irəli və ancaq irəli getsin, daim inkişafda olsun və Allahın sevgisi heç vaxt Sizdən əskik olmasın.

Dərin sevgi və duyğularımla,

Ferudun AYRIM,
Türkiyənin FDK Şirkətinin
Prezidenti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV CƏNABLARINA

Cənab Prezident!

Mən də hörmətli Prezidentimizi, cənab Heydər Əliyevi və dost, qardaş Azərbaycan xalqını bu yüksək mükafat münasibətilə ürəkdən təbrik edirəm. Məlum olduğu kimi, ulu Atatürkün adını daşıyan bu mükafat ən görkəmli şəxsiyyətlərə və qurumlara verilir. Möhtərəm Heydər Əliyev türk dünyasının ən görkəmli dövlət xadimlərindən biridir. O Atatürk Beynəlxalq Sülh Mükafatının bu il hörmətli prezident Heydər Əliyevə verilməsi bizim üçün böyük əhəmiyyət daşıyır. Böyük memar Heydər Əliyevin Qafqazda, eləcə də Azərbaycanda sülhün bərqərar edilməsi sahəsində gördüyü işlər bütün dünya, bölgə üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Qafqazda sülhün bərqərar edilməsində möhtəşəm Heydər Əliyev şəxsiyyətinin böyük rolu bütün dünyaya məlumdur. Hörmətli Heydər Əliyevin Atatürkün adını daşıyan mükafata layiq görülməsinin bizim üçün digər tərəfdən də əhəmiyyəti ondan ibarətdir ki, Heydər Əliyev Atatürkü çox yaxşı tanıyan, dərk edən, onu özü üçün örnək bilən və çıxışlarında bunu dönə-dönə təkrar edən bir prezidentdir.

Bir neçə gün bundan əvvəl Türkiyənin TRT televiziya kanalının "Dünya düşüncələri Atatürkün gözü ilə" verilişində Azərbaycan Prezidenti Heydən Əliyevin müsahibəsini böyük məraqla dinlədim. Mən möhtərəm Heydər Əliyevin Atatürkün ideyalarını, türk tarixini, mədəniyyətini bütün incəliklərinə qədər dərindən bildiyinin bir daha şahidi oldum. Heydər Əliyev həm də bütün bunları dünyaya tanıdan bir liderdir.

"Biz bir millət, iki dövlətik" deyən Heydər Əliyev 65 milyonluq Türkiyə xalqının könlündə özünə layiq yer tutmuş bir xadimdir. Biz qardaş xalqlarımızın əlaqələrinin gündəngünə daha da möhkəmləndirilməsində Heydər Əliyevin xidmətləri əvəzsizdir. Mən hörmətli Prezidentimiz Heydər Əliyevi və Azərbaycan xalqını bir daha təbrik edirəm.

Atatürk beynəlxalq Sülh Mükafatı Komitəsinin üzvü, Türkiyənin ən məşhur alimlərindən oldan professor **Necdət Sərin:**

Atatürk Beynəlxalq sülh Mükafatına layiq görülmək üçün hər il çoxsaylı namizədlər irəli sürülür. Bizim komitəmiz bu namizədlərin hər birinin fəaliyyətinin diqqətlə öyrənilməsi üzərində 9 ay çalışır və onlardan ən layiqsini seçir. Azərbaycan Prezidenti Heydər Əliyev komitənin yekdil qərarı ilə bu mükafata layiq görülmüşdür.

Heydən Əliyev ulu Atatürkü dərindən bilən, onun yolunu davam etdirən görkəmli bir dövlət adamıdır. O Prezident olduğu qısa bir müddətdə Azərbaycanı bütün dünyada tanıtmışdır. İndi Azərbaycan iqtisadi, siyasi cəhətdən beynəlxalq aləmdə nüfuz qazanmış dövlətlərdən biridir. Bütün bunlar möhtərəm Heydər Əliyevin müdrik siyasəti nəticəsində mümkün olmuşdur. Məhz buna görə də biz cənab Heydər Əliyevin nami-

zədliyini yekdillikle qəbul etdik və onu Beynəlxalq Sülh Mükafatına layiq gördük.

professor Rəşad GƏNC,
Atatürk Kültür, Dil və
Tarix Ali Qurumunun rəhbəri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV CƏNABLARINA

Hörmətli Prezident! Heydər Əliyevin Atatürk Beynəlxalq Sülh mükafatına layiq görülməsi həm Türkiyə, həm də Azərbaycan üçün mühüm hadisədir. Mən Heydər Əliyevin TRT kanalı ilə bu günlərdə yayılmış müsahibəsini çox böyük maraqla dinlədim və onun Atatürkü necə dərindən tanıdığının şahidi oldum. Mən möhtərəm Heydər Əliyevin çıxışlarına dəfələrlə qulaq asmışam və bir jurnalist kimi bu barədə öz fikirlərimi, düşüncələrimi yazmışam. Heydər Əliyev bu mükafata çoxdan layiq idi. Mən cənab Heydər Əliyevi ürəkdən təbrik edirəm, ona öz hörmət və ehtiramımı çatdırıram.

Gültay AKTAN
TRT televiziya kanalının "Xəbərlər" redaksiyası baş redaktorunun müavini

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ IX İŞGÜZAR SƏFƏRİ

17-19 noyabr 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN JURNALİSTLƏRLƏ GÖRÜŞÜ

Sual: Cənab Prezident, qardaş Türkiyə Respublikasına növbəti səfəriniz barədə nə deyə bilərsiniz?

Cavab: Mən qardaş Türkiyə Respublikasına həmişə çox böyük həvəslə və məhəbbət hissi ilə gedirəm. Çünki bu, bizim üçün dost ölkədir. Mən çox məmnunam ki, XX əsrin sonunda ATƏT-in zirvə görüşü məhz Türkiyədə - İstanbulda keçirilir. Bu, türk dünyası üçün və Türkiyə Cümhuriyyəti üçün, eləcə də bizim üçün çox böyük, əlamətdar hadisədir. Xalqımız, türk xalqı bununla fəxr edə bilər.

Məqsədimiz aydındır - zirvə görüşündə iştirak etməkdir. Bilirsiniz ki, ATƏT-in zirvə görüşü dünya beynəlxalq təşkilatlarının ən mötəbər görüşlərindən hesab olunur. Çünki, ümumiyyətlə, ATƏT 25 il bundan öncə yarandıqdan indiyə qədər, həqiqətən, dünyada həm sülhün, həm təhlükəsizliyin, həm də insan haqlarının qorunması, demokratiyanın inkişafı üçün çox böyük səylər qoyur və bu prinsiplərin həyata keçirilməsi üçün həddən artıq fəaliyyət göstərir.

Ona görə də Azərbaycanın müstəqil dövlət olaraq inkişaf etməsi, ümumiyyətlə, bu təşkilatda olması və zirvə görüşündə iştirak etməsi - dünyanın ATƏT-ə daxil olan ölkələrinin dövlət başçıları, nümayəndə heyətləri ilə birlikdə iştirak etməsi, əlbəttə ki, bizim millətimiz üçün, Azərbaycan xalqı üçün çox əhəmiyyətlidir. Biz bununla fəxr edə bilərik. Biz fəxr edə bilərik ki, ölkəmiz, millətimiz, dövlətimiz müstəqildir və biz müstəqil dövlət olaraq dünyanın böyük dövlətləri ilə bərabər hüquqda belə bir təşkilatdayıq və bu təşkilatın zirvə görüşündə onlarla bərabər hüquqda iştirak edəcəyik. Məqsəd bundan ibarətdir.

Orada müzakirə olunacaq məsələlər məlumdur. Mən bu yaxınlarda

bir qrup yazıçı və şairlə görüşümdə də bu barədə demişəm. Hər halda ATƏT-in üçüncü zirvə görüşüdür ki, mən Azərbaycanı təmsil edirəm. Birinci zirvə görüşü 1994-cü ilin dekabr ayında Budapeştdə, ikincisi 1996-cı ilin dekabr ayında Lissabonda - Portuqaliyada olmuşdur. Nəhayət, indiki görüş İstanbuldadır. Çox məmnunam ki, Azərbaycan təmsil olunubdur. Azərbaycanın Prezidenti kimi mən Azərbaycanı təmsil edəcəyəm və əvvəlki zirvə görüşlərində olduğu kimi, Azərbaycanın milli mənafelərinə aid olan məsələlərin, şübhəsiz ki, həyata keçirilməsinə nail olacaq və nail olmağa çalışacağam. Azərbaycanın milli mənafeləri tamamilə qorunacaqdır.

Sual: Cənab Prezident, Azərbaycan bu görüşdən nə gözləyir?

Cavab: Hazırda bütün Avropa nə gözləyirsə, Azərbaycan da onu gözləyir. Çox şey gözləyir. Xartiya - Avropa regionunda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi, demokratiyanın, Helsinki sazişinin digər prinsiplərinin inkişafı üçün bir çox vacib müddəaları əks etdirən vacib bəyannamə qəbul olunacaqdır. Yəni çox şey gözlənilir.

Sual: Cənab Prezident, Bakı - Ceyhan boru kəməri haqqında anlaşma imzalanacaqmı?

Cavab: Bakı - Ceyhan boru xətti ilə bağlı anlaşma üzərində bir ildir ki, çalışırıq. Bilirsiniz ki, beş ildir - 1994-cü ilin sentyabr ayından bəri Azərbaycan Bakı - Ceyhan boru xətti layihəsinin qəbul edilməsində aparıcı rol oynayıb, hegemonluq edibdir və buna nail olubdur. Bir il bundan öncə Ankarada bəyannamə imzalanandan sonra biz çox iş görmüşük. Bizim nümayəndə heyəti bu il ərzində, demək olar ki, qısa fasilələrlə iki-üç aylarla Ankarada, İstanbulda Türkiyə ilə, Güncüstanla, xüsusilə Türkiyə ilə birlikdə bu müqavilənin hazırlanması üçün çalışıbdır. Bu iş başa çatıb və müqavilə orada imzalanacaqdır.

Sual: Transxəzər təbii qaz kəməri ilə bağlı hansısa çərçivə anlaşması gözlənilirmi?

Cavab: O da imzalanacaqdır.

Sual: Cənab Prezident, Siz orada Azərbaycanın adi silahlar kvotasının artırılması məsələsini qaldıracaqsınızmı?

Cavab: Sən mənə qulaq asdın. Biz dörd ildir bu məsələni qaldırırıq. Ancaq buna nail ola bilmirik, çünki heç bir ölkənin kvotası qaldırılmır. Mən o vaxt ilk dəfə açıqladım və bir daha sizə deyirəm ki, Azərbaycanda olmuş hərc-mərclik, hakimiyyətsizlik, hakimiyyət uğrunda əsassız mübarizə Azərbaycanı belə bir faciəyə də düçar edibdir.

Bəli, 1992-ci ilin may ayında, Varşava paktı dağıdılandan sonra NATO ilə Rusiya arasında danışıqlar aparılan zaman, şübhəsiz ki, Rusiya başçılıq edərək MDB dövlətlərini Daşkəndə toplamışdı ki, Varşava paktında, o cümlədən Rusiyanın ərazisində olan silahların hansı ölkədə, hansı respublikada nə qədər saxlanması müəyyən edilsin.

Demək lazımdır ki, Azərbaycanın ekspertləri orada çox səmərəli fəaliyyət göstərmiş və yaxşı təkliflər hazırlamışdılar. Amma o vaxt Azərbaycanın dövəltçiliyi haqqında düşünən yox idi. Mütəllibov cinayət etdi, hakimiyyətdən getdi. Tərəfdarları bir-iki ay çalışdılar onu hakimiyyətə gətirsinlər. Bir yerə toplaşmış Xalq Cəbhəsi, Müsavat, başqaları xalqın o dövrdə Azərbaycana qarşı olan ədalətsizliyə, Sovet hakimiyyətinə, kommunist partiyasına qarşı qalxdığı bir zamanda bu fürsətdən istifadə edib hakimiyyəti ələ keçirməyə çalışdılar. Bu hakimiyyət mübarizəsindən də kim uddu, kim uduzdu? Yenə də Azərbaycan uduzdu! Birincisi, Azərbaycanda ictimai-siyasi vəziyyət pozuldu, dağıdıldı, Azərbaycan bərbad bir vəziyyətə düşdü. İkincisi də, belə bir məsələ həll olunduğu zaman Azərbaycandan Daşkəndə normal bir nümayəndə heyəti, düşünülmüş təkliflərlə silahlanmış nümayəndə heyəti getmədi. Bilirsiniz ki, may ayının 7-də ermənilər Şuşanı işğal etdilər, xatirinizdədir. Azərbaycanda böhran başlanmışı, çünki hakimiyyətsizlik idi. May ayının 14-də Mütəllibovun tərəfdarları onu bir daha hakimiyyətə gətirdilər. Bəli, may ayının 15-də camaat, xalq toplaşdı, onu hakimiyyətdən qovdu və düz elədi. Amma o vaxtlar xalqın fikri, məqsədilə hakimiyyət uğrunda mübarizə aparan və bu gün də o fikirlərindən hələ ki, daşınmayan insanlar hərəsi özü üçün düşünürdü. Millət haqqında, ölkəmiz, dövlət haqqında düşünən yox idi. Ona görə də Daşkəndə kim gedib, kim getməyib - heç kəsə məlum deyildir. İki-üç il bundan öncə biz bu məsələni araşdıranda tapa bilmirdik ki, oraya kim gedib və müqaviləyə kim imza atıbdır. İmzaya baxırıq, heç kəs tanıya bilmir. Biri deyir ki, Rəhim Qazıyevin imzasıdır. Abbas Abbasov - o, indi bu adamlardan bizim yanımızda olandır - boynuna aldı ki, oraya gedibdir. Bəs imza kimindir? Deyir, mənimki deyildir. Bəs kiminkidir? Bəlkə, Rəhim Qazıyevindir? Rəhim Qazıyevin imzası ilə tutuşdurdular, dedilər ki, yox, onun imzası deyildir. Nəhayət, tapdılar ki, o vaxtlar Nazirlər Soveti sədrinin müavini olub, Əzizbəyov - hamının yadından çıxmış bir adamdır, yəqin ki, müvəqqəti işləmiş adamdır - o, imza atıbdır.

Ən böyük əhəmiyyətli, dövləti əhəmiyyəti olan məsələni bu cür həll etməkmi olar? Belə nümayəndə heyəti ilə həll etməkmi olar? Ekspertlər indi də sağdır, onlar danışırlar ki, o vaxt təklif hazırlamışdılar ki, Azərbaycanın ərazisi də, əhalisi də Cənubi Qafqazın o biri respublikalarından artıq olduğuna görə bizim kvota da artıq olmalıdır: 400, 415, 420. Buna da razılıq alınmışdı. Amma Rəhim Qazıyev gedib Qraçovla, filanla danışırdı ki, onlar bunu hakimiyyətə gətirsinlər. Mütəllibov Moskvanın xüsusi xidmət orqanlarının əli ilə yenidən hakimiyyətə gələ bilmişdi. Xalq

Cəbhəsi, Müsavat və başqa bu kimi təşkilatlar da birləşib hakimiyyət əldə etmək istəyirdilər. Hərəsi öz mənafelərinə nail olmaq üçün millətin mənafeyini qurban verdilər.

O vaxtdan biz düşmüşük bu tələyə. Mən dedim, bir də sizə təkrar edirəm ki, dörd ildir bu barədə bizimlə danışıqlar aparırlar. Özü də Amerika Birləşmiş Ştatlarının yüksək nümayəndə heyətləri danışıqlar aparır. Üç il bundan qabaq, Lissabon zirvə görüşü ərəfəsində gəldilər, burada danışıqlar apardıq. Nəhayət, Lissabonda mənə müraciət etdilər. Biz buna razılıq vermədik. Amma sonra gördük ki, kvotanı qaldırmaq mümkün deyildir. Lakin adi silahlar haqqında müqavilə də imzalanmalıdır. Çünki imzalanmasa, bu, ola bilər, bizim region üçün daha böyük təhlükədir.

Siz bilirsiniz, Rusiya indi iddia edir ki, yeni müqavilə əsasında ona Qafqazda bu silahları daha çox saxlamağa icazə verilsin. Qafqazda vəziyyət ağırdır. Demək, bu müqavilə imzalanmasa, Rusiya harada nə qədər istəyirsə, gətirib o qədər də silah saxlayacaqdır? Başa düşürsünüzmü? Vəziyyət belədir. Ona görə də biz məcbur olduq, razılıq verdik. Bizə kvotanı heç kəs artırmayacaqdır.

Sual: Cənab Prezident, İstanbulda GUÖAM çərçivəsində görüş keçiriləcəkmi?

Cavab: Ola bilər. Daha nə sözünüz var? Bir belə adam yığışıbsınız, bir dənə əməlli sual verə bilmirsiniz. Siz narahat deyilsinizmi ki, orada bir şey imzalanacaqmı? Görürəm, hamınız sakit olmusunuz. Bəs niyə sakit oldunuz?

Jurnalistlər: Yazıçılarla görüşdə hər şeyi demisiniz.

Heydər Əliyev: Yazıçılarla görüşdə. Mən yazıçılarla görüşməsəydim?.. Bilirsiniz, sizin əksəriyyətiniz müxalifətin hay-küyünə uyursunuz. Müsavat da onların başçılarından biridir. Bəli, hər şeyə uyursunuz. Ona görə də bu hay-küyün təsiri altına düşürsünüz.

Amma hay-küy edən adamlar heç vaxt Azərbaycanın milli mənafelərini qoruyan olmayıblar. Azərbaycanın milli mənafeləri haqqında düşünən olmayıblar. Mən hamısının haqqında deyirəm. Onların hər biri 1988, 1989-cu illərdə Azərbaycanda xalq öz hüquqlarını müdafiə etmək üçün qalxdığı zaman, sadəcə, çevik olublar, üzə çıxıblar. Məqsədləri isə o olub ki, hakimiyyəti ələ keçirsinlər. elə bu günlər də Elçibəy hansısa qəzetdə yazmışdı ki, Primakovla danışanda Primakov dedi ki, nə istəyirsən? Mən dedim ki, seçkilər keçirin - çünki bilirdik ki, o vaxt seçkilər keçirilsə, biz çoxluğu götürəcəyik. Demək, hakimiyyət mübarizəsi aparırdı. Yəni o vaxt Dağlıq Qarabağ məsələsinin, hamı birləşib Azərbaycana qarşı olan hücumun qarşısını almaq üçün yox, belə bir gərgin vəziyyətdə hakimiyyət mübarizəsi aparırdılar. Bunu özləri etiraf edirdilər.

Bunlar budur və on ildir hərdən

bir belə şeyləri ortaya atır, hay-küy salırlar. Siz də düşürsünüz bu hay-küyün təsiri altına. Mən sizə məsləhət görürəm ki, öz ağlınızla işləyin. Həmin o adamlar ki, indi hay-küy salırlar - onlar daim bir-birinə düşmən olublar, bir-biri ilə rəqabət aparıblar. Biri o birisinə deyir ki, sənin əlin qana batıb, o biri bu birisinə deyir ki, sənin əlin qana batıbdır. Biri o birisinə deyir ki, sən günahkarsan, o birisi deyir...

İndi hamısı birləşib, nə var-nə var, fürsət düşüb ki, yenə də özlərini bir az göstərsinlər. O adamlardan indi kimsə Türkiyəyə getmək, orada nümayiş keçirmək istəyir. Mənim xatirimdadır, keçmişdə Azərbaycanda belə bir söz vardı: filankəsi Biləcəridən o tərəfə tanıyan yoxdur. Bu söz yadımızdadırmı? İndi də işlədirlər - Biləcəridən o tərəfə tanıyan yoxdur.

Mən də deyirəm ki, birincisi, bu adamların bir-birinə sevgisi, məhəbbəti əsl sevgi-məhəbbət deyildir. Elə dostluqdur ki, bu gün bunlar dostdurlar, sabah düşməndirlər. Bəzilərinin sevgisi-məhəbbəti də elə adamların sevgi-məhəbbətinə bənzəyir ki, bu gün bununladır, o birisi gün məhəbbətin o birinə bağlayır, dördüncü gün başqasına bağlayır. O adamlar bu qəbildən olan adamlardır. İndi belələri gedib İstanbulda nümayiş keçirmək istəyir. Sən kimsən, səni tanıyan kimdir? Yaxud o birilərin hamısının səsi harada çıxıbdır? Altı ildir ki, biz dünyanın ən mötəbər kürsülərindən bu məsələlər haqqında fikirlər deyirik. Azərbaycanın mənafelərini müdafiə edirik, konkret təkliflər veririk, lazımi qərarların qəbul edilməsinə nail oluruq. Bunları isə nə Biləcəridən o tərəfə tanıyanlar var, nə də bunlarda bir sabitlik var. Məhəbbət sabitliyi də yoxdur, dostluq sabitliyi də yoxdur. İndi belə adamlar düşüblər ortaya. Məsləhət görmürəm ki, onların təsiri altına düşəsiniz. Sağ olun.

1999-cu İL NOYABRIN 17-də İSTANBULDA QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab sədr, Zati-aliləri, xanımlar və cənablar!

Biz Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının əsası qoyulduğu İstanbul şəhərində Türkiyənin təşəbbüsü ilə bu zirvə görüşünün keçirilməsini yüksək qiymətləndiririk.

Türkiyədə baş vermiş dəhşətli dağıdıcı zəlzələ nəticəsində minlərlə adamın həlak olması bizi dərindən kədərləndirdi. Biz qardaş türk xalqının dərdini öz dərdimiz hesab edirik və "keçmiş olsun" deyirik.

Hörmətli həmkarlarım! Təşkilatımızın fəaliyyətinin müəyyən nəticələrini qeyd etmək lazımdır. Yalta zirvə görüşünün bəyannaməsində

göstərilən müddəaların həyata keçirilməsində bəzi irəliləyişlər əldə edilmişdir. Eyni zamanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının fəaliyyətini canlandırmaq üçün hələ istifadə edilməmiş xeyli imkanlar vardır. Ümidvaram ki, bugünkü görüşdə biz yeni minilliyin astanasında regionda yaranmış siyasi-iqtisadi şəraiti nəzərə alaraq, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr arasında əməkdaşlığın gələcək inkişaf istiqamətlərini müəyyən edə biləcəyik.

Zənnimcə, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi həm Azərbaycan üçün, həm də digər iştirakçı dövlətlər üçün ən vacib vəzifədir. 1992-ci il İstanbul bəyannaməsində əksini tapmış məqsədlə nail olmaq yolunda qarşıya çıxan problemlər və çətinliklər təşkilatımızın mövcud olduğu yeddi il ərzində özünü əyani şəkildə göstərmişdir. İştirakçı dövlətlərin mehriban qonşuluq münasibətləri əsasında regionda sülhü və təhlükəsizliyi təmin etmək məqsədilə biz hamımız qəti tədbirlər görməliyik. Bu isə öz növbəsində genişmiqyaslı iqtisadi əməkdaşlıq üçün böyük imkanlar açardır. Bu baxımdan qeyd etmək istəyirəm ki, görüşümüzün ATƏT-in sammiti ərəfəsində keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ümidvaram ki, ATƏT-in sabahkı zirvə görüşünün yekunları hərtərəfli regional əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır. Çıxışımın sonunda bu görüşün təşkilinə görə və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı regionunda sülh, təhlükəsizlik və tərəqqi naminə əməkdaşlığın möhkəmləndirilməsi işinə Türkiyənin verdiyi töhfəyə görə Türkiyə Respublikasının Prezidenti, Zati-aliləri cənab Süleyman Dəmirələ və Türkiyə hökumətinə minnətdarlığımı bildirirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

1999-cu İL NOYABRIN 18-də İSTANBULDA AVROPADA TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Hörmətli cənab sədr!
Hörmətli həmkarlarım!
Xanımlar və cənablar!

Biz ATƏT-in bu əsrdəki sonuncu zirvə görüşünün dünya sivilizasiyasının ən böyük mərkəzlərindən biri olan əzəmətli İstanbul şəhərində keçirilməsinə böyük əhəmiyyət veririk. Bizə göstərilən yüksək qonaqpərvərliyə və sammitin işinin çox gözəl təşkil olunmasına görə Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Süleyman Dəmirələ və Türkiyə hökumətinə xüsusi minnətdarlığımı bildirirəm. Türkiyədə baş vermiş ağır təbii fəlakət, dəhşətli zəlzələ nəticəsində minlərlə adamın həlak olması dost

və qardaş türk xalqı ilə bərabər bizi də qəlbən kədərləndirdi. Biz sizin dərdinizə şərik çıxırıq və "keçmiş olsun" deyirik.

Hörmətli sədr!

İki dağıdıcı müharibənin dəhşətlərindən və "soyuq müharibə"nin sərt sınağından çıxmış iyirminci yüzilliyin sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır. Lakin biz təxminən iyirmi beş il bundan əvvəl Helsinkidə elan edilmiş məqsəd və prinsiplərin tam həyata keçirilməsinə, təəssüf ki, hələ də nail olmamışıq.

ATƏT üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və ümumiyyətlə, təhlükəsizliyi üçün yaranmış qorxu amansız reallağa çevrilmişdir, milyonlarla insana fəlakət və iztirab gətirmişdir. Mən bir daha beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə cəlb edirəm. Altı ildən çoxdur ki, suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsi erməni silahlı qüvvələrinin işğalı altındadır. Həyata keçirilmiş etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvasından qovulmuşdur.

Təəssüf ki, sonuncu zirvə görüşümüzdən sonra sülh prosesi arzu etdiyimiz nəticəni verməmişdir. Minsk qrupunun həmsədrləri Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplərin həyata keçirilməsi üçün lazımi fəallıq və ardıcıllıq göstərmişlər. Minsk prosesi passivləşmişdir. Belə bir şəraitdə Azərbaycan və Ermənistan Prezidentləri arasında birbaşa görüşlər və danışıqlar keçirilməsi zərurəti yaranmışdır. Bir neçə belə görüş keçirilmişdir və bu görüşlər münaqişənin sülh yolu ilə aradan qaldırılmasına ümid verir. Şübhəsiz ki, münaqişənin aradan qaldırılmasının mühüm amillərindən biri də tərəflərin güzəştə getməyə hazır olmasıdır. Lakin güzəştin də beynəlxalq hüquq prinsipləri və normaları ilə müəyyən edilmiş həddi var. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər və azərbaycanlılar sülh və təhlükəsizlik şəraitində birgə yaşaya bilərlər və yaşamalıdırlar. Bu isə Azərbaycan ilə Ermənistan arasında sülhün və normal mehriban qonşuluq münasibətlərinin yaranmasına xidmət edərdi. Bunun üçün Azərbaycanın işğal olunmuş əraziləri azad edilməlidir, bunun üçün Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın müvafiq statusu müəyyən edilməlidir. Qeyd etmək istəyirəm ki, Ermənistan Prezidenti ilə danışıqlarımız Ermənistan - Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün məsuliyyət daşıyan ATƏT-in Minsk qrupunun fəaliyyətini əvəz edə bilməz. Mən Minsk Konfransının həmsədri olan ölkələrin dövlət və hökumət başçılarını Minsk qrupu çərçivəsində danışıqların tezliklə bərpası üçün zəruri səylər göstərməyə çağırıram. Dünya birliyi münaqişənin aradan qaldırılmasına dair bəyan edilmiş prinsipləri ardıcıl surətdə və qətiyyətlə müdafiə etməlidir. Biz üzü-

müzə gələn yüzillikdə ATƏT-in roluna bu problemlərin prizmasından baxırıq. ATƏT öz prinsiplərini müdafiə etmək məqsədilə qətiyyətlə fəaliyyət göstərməli və özünün əməliyyat imkanlarını xeyli gücləndirməli, ilk növbədə çoxmillətli sülhyaratma qüvvələrini inkişaf etdirməlidir. Hesab edirəm ki, Avropada adi silahlı qüvvələr haqqında müqavilənin səmərəliliyi yüksəldilməlidir. Bəyan edirəm ki, regionun hərbiləşdirilməsi və işğal edilmiş Azərbaycan torpaqlarında qanunazidd xarici silahların yerləşdirilməsi Azərbaycanın təhlükəsizliyi üçün qorxu yaratmışdır. Buna baxmayaraq Azərbaycan bu müqavilədən irəli gələn öhdəliklərini tam yerinə yetirir. Bəzi dövlətlərin hərəkətləri isə həm müqaviləni pozur, həm də onun iştirakçısı olan dövlətlərin təhlükəsizliyini sarsıdır.

Cənubi Qafqaz regionu Avropanın ayrılmaz hissəsidir. Mən Amerika Birləşmiş Ştatlarının, Avropa Birliyi ölkələrinin, Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ermənistanın və ATƏT-in marağı olan bütün digər üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək onları regionumuzun problemlərinin həlli üçün qətiyyətli fəaliyyət göstərməyə çağırıram. Mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm. Belə bir pakt dövlətlərarası münasibətlərin və münaqişələri aradan qaldırmağın prinsipial əsaslarını təsbit etməlidir. Onun əsasında regiondan xarici hərbi qüvvələr çıxarılmalıdır. Regionu bölən ayırıcı xətlər aradan qaldırılmalıdır. Təcavüzə, etnik təmizləmələrə, separatçılığa və terrorizmə son qoyulmalıdır. Baş vermiş faktlar əsasında hərəkətlərə və ikili standartlara yol verilməməlidir. Belə bir pakt regionda sülh, sabitlik və təhlükəsizlik yaranmasına, Cənubi Qafqazın suveren, müstəqil demokratik dövlətlərinin iqtisadi tərəqqisinə və əməkdaşlığına gətirib çıxarardı. XXI əsrin astanasında beynəlxalq birliyin Cənubi Qafqazda uğurlu fəaliyyəti azad, bölünməz və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı. Diqqətinizə görə təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 19 noyabr 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞÜ

ATƏT-in İstanbul zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 19-da Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür. Bir-birini dostcasına, qardaşcasına, səmimiyyətlə salamlayan Prezidentlər zirvə görüşünün uğurla keçməsini məmnuniyyət hissi ilə qeyd etdilər. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in İstanbul zirvə görüşünün çox gözəl təşkil olunduğuna və səmərəli iş üçün hər cür şərait yaradıldığına görə Prezident Süleyman Dəmirələ təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Heydər Əliyev Türkiyədə baş vermiş dağıdıcı zəlzələ zamanı minlərlə adamın həlak olmasından kədərləndiyini bir daha bildirdi və bu fəlakətin nəticələrinin tezliklə aradan qaldırılması üçün Türkiyə hökuməti tərəfindən görülən tədbirləri yüksək qiymətləndirdi. Qardaş Türkiyənin ATƏT-in növbəti sammitinin ev sahibi olmasından, zirvə görüşünün Türkiyədə keçirilməsindən, qəbul edilən əsas sənədlərin birinin İstanbul Xartiyası adlandırılmasından iftixar hissi duyduğunu bildirən Prezident Heydər Əliyev İstanbul Bəyannaməsini də böyük əhəmiyyəti olan tarixi hadisə kimi qiymətləndirdi və Bakı - Ceyhan əsas ixrac boru kəmərinin, Transxəzər qaz magistralının inşası barədə sənədlərin imzalanması münasibətilə Türkiyə Prezidenti Süleyman Dəmirəli ürəkdən təbrik etdi, ölkələrimizin iqtisadi tərəqqisi yolunda bu layihələrin əvəzsiz rol oynayacağını bir daha vurğuladı. Bakı - Ceyhan boru kəmərinin tikintisi barədə müqavilənin imzalanması münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevi səmimi-qəlbədən təbrik edən Süleyman Dəmirəl bu layihənin həyata keçirilməsi üçün əziz dostu və qardaşı Prezident Heydər Əliyevin xüsusi rolunu, ardıcıl səylərini və əzmkarlığını yüksək dəyərləndirdi. Dövlət başçıları ATƏT-in İstanbul zirvə görüşünün gedişi, müzakirəyə çıxarılan məsələlər barədə geniş fikir mübadiləsi apardılar. Prezident Süleyman Dəmirəl Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli sahəsində Azərbaycanın mövqeyinin Türkiyə tərəfindən bundan sonra da dəstəklənəcəyini bildirdi.

Prezidentlər ikitərəfli və regional münasibətlərə dair bir sıra məsələlər haqqında ətraflı fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

"Azərbaycan" qəzeti, 23 noyabr 1999-cu il.

"ÇIRAĞAN SARAYI"NDA TARİXİ SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli Prezidentlər!
Hörmətli dostlar!
Hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi keçirirəm. Ona görə ki, beş il bundan öncə 1994-cü ilin sentyabr ayında Bakıda imzalanmış "Əsrin müqaviləsi" adlı böyük neft müqaviləsinə, Xəzər dənizinin neft və qaz ehtiyatlarından müştərək istifadə etmək üçün yaranmış konsorsiumun tərkibinə

Azərbaycan, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri, Türkiyə və Rusiya daxildirlər və bu müqavilənin imzalanmasından beş il keçəndən sonra həmin müqavilə imzalanarkən nəzərdə tutulmuş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin həyata keçirilməsi üçün artıq bu gün bu sənədlər imzalandı. Məlumdur ki, bu, asan iş deyildir. Bizim qarşımızda çox böyük çətinliklər var idi. "Əsrin müqaviləsi"ni imzalayanda da biz böyük çətinliklərlə rastlaşdıq. Sonra da Bakı-Ceyhan neft kəmərini çəkmək üçün bizim qarşımızda çox böyük maneəçiliklər, əleyhimizə çıxanlar var idi. Ancaq biz öz iradəmizi itirmədik, başladığımız işi axıra çatdırdıq. Bu barədə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Ona görə də mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını və Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəli ürəkdən təbrik edirəm. Biz bu boru xəttini Gürcüstandan keçiririk. Şübhəsiz ki, əgər bu xəttin Gürcüstan ərazisindən keçməsi mümkün olmasaydı, bu, baş tutmazdı. Ona görə də Gürcüstan Prezidenti Şevardnadzenin də bu məsələnin həll edilməsi üçün çox böyük səyləri olmuşdur. Mən gürcü xalqını, Gürcüstanı və əziz dostum, qardaşım Eduard Şevardnadzeni ürəkdən təbrik edirəm.

Ancaq onu da bəyan edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı, biz bunların heç birisini edə bilməzdik.

"Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər. Məhz Amerika Birləşmiş Ştatlarının, onun Prezidenti, hörmətli dostum cənab Bill Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab Prezident Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq. Ona görə də mən, biz hamımız birlikdə Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti, əziz dostumuz cənab Bill Klintona təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Hörmətli cənab Prezident Bill Klinton, mən sizi də bu münasibətlə ürəkdən təbrik edirəm. Bu boru xəttirinin, yəni neft kəmərinin istifadə edilməsi layihəsinə indi Qazaxıstan da qoşulubdur. Qazaxıstan da öz neftinin böyük bir hissəsini bu kəmər vasitəsilə keçirəcəkdir. Biz Azərbaycan olaraq - Gürcüstan da bunu qəbul edibdir, - bunu qəbul etmişik və üzərimizə düşən bütün öhdəlikləri həyata keçirəcəyik.

Hesab edirəm ki, Qazaxıstan bu yolla, bu boru xətti ilə neftin ixracında böyük uğurlar əldə edəcəkdir. Ona görə də mən qazax xalqını və Qazaxıstan Prezidenti, əziz dostum Nursultan Nazarbayevi ürəkdən təbrik edirəm.

Mən Türkiyə xalqına, Türkiyənin vətəndaşlarına hörmət və ehtiramımı bildirirəm və onları təbrik edirəm. Beş ildir ki, Türkiyəyə hər dəfə gələndə mənə sual verirdilər: Bakı-Ceyhan boru xətti nə vaxt olacaqdır? Mən də hər dəfə deyirdim ki, olacaqdır, olacaqdır, olacaqdır! Artıq bu gün bu, oldu və saziş imzalandı. Hamınızı ürəkdən təbrik edirəm!

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İSTANBULDAN QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏSİ

Dövlətimizin başçısı Binə hava limanının şərəf salonunda jurnalistlərin suallarına cavab verdi.

Prezident **Heydər Əliyev** dedi: - Güman edirəm ki, siz televiziya vasitəsilə hər şeyi görmüsünüz, hər şeyi eşitmisiniz. Ona görə sizə geniş məlumat verməyə ehtiyac yoxdur. Təyyarədə də məni müşayiət edən televiziya, qəzet jurnalistləri xahiş etdilər, mən təxminən 40-45-50 dəqiqə onlara izahat verdim. Ona görə indi siz məndən tam geniş məlumat almaq istəyirsiniz, bu, mənim vaxtımı çox alacaqdır. Ancaq onu qeyd edə bilərəm ki, İstanbul sammiti dünya tarixində, XX əsrdə ən böyük hadisələrdən biridir və ATƏT-in XX əsrdə son sammitidir, bundan sonra daha olmayacaqdır. Bunun da İstanbulda keçməsi, şübhəsiz ki, Türkiyə üçün və Türkiyənin dostu olan bir ölkə kimi bizim üçün də çox böyük əhəmiyyət kəsb edir. Çünki orada qəbul olunmuş sənədlərartıq İstanbul sənədləri adlanacaqdır. Bu, zahiri tərəfi, yəni xarici tərəfi. Daxili tərəfi də ondan ibarətdir ki, çox məzmunlu bir sammit oldu - həm məsələlərin müzakirə edilməsi, həm qəbul olunan sənədlərin sayı, həm də onların dünya üçün əhəmiyyəti və məzmunu.

Bilirsiniz ki, orada üç sənəd qəbul olundu. Birincisi - İstanbul xartiyasıdır. 1975-ci ildə Helsinki xartiyasından sonra 1990-cı ildə Paris xartiyası qəbul edilmişdir. İndi isə - 1999-cu ildə İstanbul xartiyası qəbul olundu. Bu xartiya dünyada sülhün, təhlükəsizliyin təmin olunması, bu gün dünyada olan reallıqlara söykənərək və Helsinki aktından sonra dünyanın inkişaf etməsi, müstəqil dövlətlərin yaranması - çünki Paris xartiyası qəbul olunanda hələ indiki müstəqil dövlətlər yox idi, nəinki Sovetlər İttifaqından ayrılmış ölkələr, eyni zamanda Şərqi Avropa ölkələri də hələ Varşava paktının içində idilər - ona görə də reallıqlara söykənən bir xartiyadır. Xartiyanın əsas mənası, məqsədi Avropada sülhü təmin etmək, əmin-amanlığı təmin etmək,

ölkələrin ərazi bütövlüyünü qorumaq və baş vermiş ixtilafları, münaqişələri sülh yolu ilə həll etmək, demokratiyanı inkişaf etdirmək, insan haqlarına xüsusi fikir vermək və s. - bax, bu məsələlərdir. Yəqin ki, bizim mütəxəssislər bu xartiya haqqında sonra sizə geniş məlumat verəcəklər.

Bu xartiyanı Azərbaycan imzaladı, mən Azərbaycanın xalqı adından, Azərbaycanın dövləti adından imzaladım. Hesab edirəm ki, imzamı, Azərbaycanın imzasını, tarixi bir sənədə qoymuşam. Çünki Azərbaycanın imzası keçmişdə heç bir yerdə yox idi. Siz bilirsiniz ki, indi, müstəqillik əldə edəndən sonra mən bir çox yerlərdə Azərbaycanın adından belə beynəlxalq sənədlərə imzalar atmışam. Bunların içərisində ən mühümü İstanbul xartiyasıdır.

İkinci sənəd Avropada adi silahlar haqqında sənəddir. Mən bu yaxınlarda Azərbaycanın hörmətli şairləri, yazıçıları ilə görüşərkən bu barədə bir az izahat vermişdim. Çünki bizim ictimaiyyətimizin bu müqavilə haqqında az məlumatı var və ictimaiyyətdə bu barədə heç vaxt müzakirə getməmişdir.

Ancaq biz özümüz Azərbaycan dövləti olaraq dörd ildən artıqdır ki, bu məsələ ilə məşğul idik və öz mövqelərimizi qorumağa çalışırdıq. Avropada adi silahlar haqqında bu müqavilə 1990-cı ildə NATO ilə Varşava paktı arasında imzalanıbdır. Ona görə imzalanıb ki, hər bir tərəf o biri tərəfin adi silahlarının həm miqdarını, həm də yerləşdiyi regionları müəyyən etsin, beləliklə də təhlükəsizlik təmin edilsin. Ancaq Varşava paktı dağılandan sonra və ondan sonra da Sovetlər İttifaqı dağılandan sonra, Sovetlər İttifaqına mənsub olan respublikalar dövlət müstəqilliyini əldə edəndən sonra, şübhəsiz ki, bu müqavilə pozulmuş hesab olunur. Ona görə də Amerika tərəfi, yəni NATO tərəfi çalışırdı ki, bu müqaviləni yeniləşdirsin. Bunun üçün onlar, yəni NATO tərəfindəki kvotalar məlum idi. Ancaq keçmiş Sovetlər İttifaqının ərazisində silahlar harada nə qədər olmalıdır bunu müəyyən etmək lazım idi, bu tələb olunurdu. O vaxt - 1992-ci ilin may ayının 14-15-də MDB üzvü olan dövlətlərin nümayəndələri Daşkənddə toplaşmışdılar və bu məsələni müzakirə edirdilər. Amma bu, elə bir gündə müzakirə olunmamışdı. Bu məsələ müzakirə olunan zaman hər bir dövlət öz nümayəndə heyətini göndərmişdi. Orada bu müqavilənin hazırlanması prosesi gedirdi.

O vaxt Azərbaycanda hakimiyyətsizlik olduğuna baxmayaraq, daxildə hakimiyyət mübarizəsi getdiyinə baxmayaraq Azərbaycanın da ekspertləri gedib Daşkənddə bu barədə işlər görmüşdülər və mənə indi verilən məlumatlardan bəlli olur ki, Azərbaycan ekspertləri - indi onlar aşağı vəzifəli insanlardır - orada vətənpərvərlik göstəriblər, Azərbaycanın mənafelərini müdafiə etməyə çalışıblar və sübut ediblər ki, bu kvotalar müəyyən ediləndə Cənubi Qafqazda Azərbaycan ilə Gürcüstanın və Ermənistanın kvotaları fərqli olmalıdır. Azərbaycan həm ərazisinə görə, həm də əhalisinə görə digər iki respublikadan böyükdür. Ona görə də Azərbaycana daha çox kvota verilməlidir və buna nail olublar. Ekspertlər səviyyəsində Azərbaycana daha təxminən 415, ya 420 tank, o qədər də BMP, o qədər də top, ümumiyyətlə, beş növ silah nəzərdə tutulurdu. Ancaq təəssüflər olsun ki, Azərbaycan bir tərəfdən Azərbaycanın rəhbərləri və ikinci tərəfdən o rəhbərlərə müxalifət çıxıb hakimiyyəti ələ keçirən qüvələr o həlledici dövrdə Azərbaycanın sabitliyini saxlaya bilməmişdir.

Bilirsiniz, o dövr - Sovetlər İttifaqının dağılması dövrü keçmiş Sovetlər İttifaqına daxil olmuş hər bir ölkə üçün, xalq üçün çox əhəmiyyətli idi. Çünki Sovetlər İttifaqının bu qədər tezliklə dağıdılmasını heç kəs gözləmirdi, heç kəs təsəvvür edə bilməzdi. Bu dağılma prosesi gedirdi. Amma heç kəs təsəvvür edə bilməzdi ki, birdən-birə Sovetlər İttifaqı dağıla bilər. Demək, bu, dağılan kimi hər bir ölkə, hər bir dövlət müstəqilliyini aldı. Bu müstəqillik də elan olunmuşdu. Məsələn, Azərbaycan bu prosesi görürdü. Düzdür, Azərbaycan burada təşəbbüskar deyildi. Çünki Azərbaycan 1991-ci ilin mart ayında keçirilən sessiyada Sovetlər İttifaqının, SSRİ-nin saxlanılması haqqında referendumu dəstəkləndi və Azərbaycanda doxsan neçə faiz səs toplandı ki, azərbaycanlılar hamısı istəyirlər ki, Sovetlər İttifaqı yaşasın. Bir neçə başqa respublika isə bunu etmədilər. Amma SSRİ çoxluq əldə etdiyinə görə qərar qəbul etdi ki, SSRİ-yə daxil olan respublikalar SSRİ-nin saxlanılmasını istəyirlər. Bu, mart ayının 17-də oldu. Amma avqust ayında Moskvada qiyam və onunla əlaqədar hadisələr oldu. Ondan sonra isə dərhal bir neçə ölkə öz müstəqilliyini elan etdi. Məsələn, sentyabrda elan edən oldu. Amma Azərbaycan hələ yenə də qorxurdu. Deyirdi ki, hələ bəlkə SSRİ-nin tərkibində qalmaq lazımdır. Ona görə də, demək olar ki, başqa ölkələrdən ən gec - oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya aktı qəbul olundu və o qərarla da təyin edildi ki, dekabr ayının 30-da referendum keçiriləcəkdir. Nə üçün referendum keçiriləcəkdir? Əgər mart ayında bunlar o referendumda Sovetlər İttifaqının, SSRİ-nin saxlanmasına camaatın səsini süni olaraq toplayıb verməsəydilər, indi SSRİ-dən ayrılmaq üçün nə referendum? Müstəqilliyini elan etdin, qurtardı getdi! Bu referendum da dekabrın 30-da keçirildi. Demək, hüquqi nöqteyi-nəzərdən belə çıxır ki, Azərbaycan dövləti öz müstəqilliyini 1991-ci ilin dekabrında aldı. Ancaq biz oktyabrın 18-də Konstitusiya aktının qəbul olunmasını əsas götürürük.

Yəni bu proseslər gedir. Həm hakimiyyətdə olan qüvvələr, həm də müxalifətdə olan qüvvələr gərək Azərbaycanın milli mənafeləri haqqında düşünəydilər, bir-biri ilə vu-

ruşmaq, dava etmək, hakimiyyət mübarizəsi aparmaq haqqında yox. Bu vaxt bir tərəfdən də Ermənistanla müharibə gedirdi, torpaqlarımız işğal olunurdu. Bilirsiniz ki, həmin o may ayında Azərbaycanın başına nə kimi fəlakətlər gəldi. Həmin may ayında müxalifət - Xalq Cəbhəsi, Müsavat və onların ətrafına toplaşan adamlar xalqı öz arxası ilə aparırdılar. Çünki xalq o vaxtlar hakimiyyətdən o qədər narazı idi və həqiqətən müstəqillik istəyirdi - kim meydana çıxırdı, onun dalınca gedəcəkdi və getdi. Amma o vaxt, may ayında bu vuruşmanın nəticəsində nə oldu? May ayının 8-də ermənilər Şuşanı işğal etdilər.

O vaxt da mənə demişdilər və indi də mən Ermənistanın nümayəndələri ilə, xüsusən Prezident Koçaryanla - o zaman Stepanakertdə oturmuş adamdır - danışıqlar aparıram. O dedi ki, Şuşanı biz işğal etmədik. Sadəcə, Şuşanı azərbaycanlılar tərk edib çıxıb getdilər, biz də gəldik ora. O, mənə danışır ki, orada kilsə vardır, - bilirsiniz, o kilsə də bərpa olunmuşdur. O vaxtlar, bizim vaxtımızda bərpa işi qurtarmışdı, - deyir o kilsədə o qədər silah var idi ki, onlarla bütün Stepanakerti dağıtmaq olardı. Biz gəldik, silahların hamısını götürdük və ondan sonra başladıq hərəkət etməyə. Amma Azərbaycanda nə var idi bu vaxt? Hakimiyyət mübarizəsi gedirdi. Mütəllibəbov yenidən hakimiyyətə qayıtmaq istəyirdi, müxalifət onun qarşısını alırdı və nəhayət, ayın 15-də həmin o məlum hadisələr baş verdi. Ayın 15-də də Azərbaycanın müqəddəratı Daşkənddə həll olunurdu. Görün, ona biganə qaldılar. Rəhim Qazıyev satqınlıq etdi, xəyanət etdi. Getdi, Qraçovla sövdələşdi və onlar tələb edən, Rusiya tələb edən - bizim ekspertlərin tələbi qaldı - imza atıldı. Özü də həmin o Əzizbəyov buna imza atdı. Onlar Azərbaycan xalqına böyük xəyanət ediblər.

Bundan üç gün sonra - ayın 17-də yenə də hakimiyyət mübarizəsi gedirdi. Bilirsiniz ki, mayın 18-də Ali Sovetin sessiyası keçirilirdi. Xalq Cəbhəsi Ali Soveti ələinə keçirmək istəyirdi və o vaxt İsa Qəmbəri Ali Sovetin sədri seçdilər. O gün də Laçın işğal olundu. Bəli, həmin o gün Laçın işğal olundu. Çünki onlar hamısı burada hakimiyyət mübarizəsi ilə məşğul idilər, orada da rayonlar işğal edilirdi.

Beləliklə, o vaxt edilən xəyanət, şübhəsiz ki, bizə böyük bir zərbə olubdur, Azərbaycanın hərbi potensialına zərbə olubdur. Bunu sizə ona görə deyirəm ki, dörd il bundan öncə amerikanlar bu müqavilənin yeni şəraitə uyğunlaşdırılması prosesini başlayarkən biz bunun qarşısını alırdıq. Məqsədimiz ondan ibarət idi ki, biz çalışırdıq ki, kvotamızı artıraq. Amma bizim kvotamızı artırmadılar.

Mən keçən dəfə demişdim, - Lissabon sammitindən əvvəl Amerikanın böyük nümayəndə heyəti gəldi. Bizdən nə qədər xahiş etdilər, biz buna razı olmadıq. Mənə Lissabonda

ən yüksək səviyyədə nə qədər müraciət etdilər, mən razı olmadım. Amma ondan üç il keçibdir. Nə edək? İndi bu müqavilənin yeni şəraitə uyğunlaşdırılması, şübhəsiz ki, ümumi təhlükəni daha da artırır. Yəni Rusiya, məsələn, Şimali Qafqazda bu kvotadan artıq silah saxlayır. Amma orada, o müqavilədə cinahlar məsələsi vardır - hansı cinahda nə ola bilər.

Məsələn, cənub cinahında Rusiya nə qədər silah saxlaya bilər. Həddindən artıq silah saxlayır. İndi, bu müqavilə imzalanandan sonra, şübhəsiz ki, hər şey qanunlaşdırılmalıdır. Ona görə də bu müqavilənin imzalanmasına biz razılıq verdik və bu müqavilə imzalandı.

Hesab edirəm, indi biz burada ağır vəziyyətdə olmağımıza baxmayaraq - əgər mənim çıxışımı dinlədinizsə, orada dedim, - Azərbaycan, bizim region hərbiləşdirildiyi halda, hərbi silahla doldurulduğu bir halda və nəzarət olmayan - yəni Dağlıq Qarabağı deyirəm - bölgədə həddindən artıq silah olduğu halda biz kvotamızın az olmasına baxmayaraq belə bir müqavilənin imzalanmasına səs vermişik və imzalayırıq. Demək, bu da əsas sənədlərdən biridir, imzalandı. Hesab edirəm ki, bu da sammitin ən gözəl nəticəsidir.

Üçüncüsü, siyasi bəyanat, siyasi bəyannamə. Bu, hər sammitdə qəbul olunur. Orada bugünkü realhqlar əks olunur - harada hansı münaqişə var, harada hansı məsələlər olmalıdır və s.

Bilirsiniz ki, Lissabon sammitində biz çox mübahisə apardıq ki, bizi qane edən sənəd, maddə qəbul olunsun. Ermənistan buna konsensus vermədi. Mən isə bütün sənədə konsensus vermədim. O maddə, yəni biz istədiyimiz maddə oradan çıxarıldı. Amma mən bütün sənədə konsensus vermədiyimə görə həmin o maddənin məzmunu, müddəaları ondan geniş şəkildə ATƏT-in sədrinin bəyanatında əks olundu. Bu bəyanat da 53 dövlətin səs verməsi ilə qəbul edildi.

Bu dəfə belə bir mübahisə aparmağa ehtiyac yox idi. Orada bizim bugünkü reallığı nəzərə alaraq, hesab edirəm ki, uyğun müddəalar göstərilib və xüsusən indi əsas fikir ona yönəldilibdir ki, Azərbaycan və Ermənistan Prezidentlərinin birbaşa görüşləri yüksək qiymətləndirilir. Onu bir çox natiqlər çıxışlarında da dedilər və orada da yazılıbdır ki, bu, Minsk qrupunun fəaliyyəti ilə bərabər, məsələnin sülh yolu ilə həll olunmasına bizi yaxınlaşdırır.

Mənim çıxışımı siz eşitmisiniz, oxumusunuz. Mən çox sərt çıxış etdim. Eyni zamanda çox konstruktiv çıxış etdim və konstruktivlik də ondan ibarətdir ki, mən təklif etdim ki, Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaransın. Bu, ciddi bir məsələdir. Çünki bu, sadə bir şey deyildir. Mən orada onun şərtlərini də dedim. Yəqin o şərtləri oxumusunuz. Həmin o şərtlər ki, buradan xarici silahlar tamamilə çıxarılmalıdır və ikili standartlara yol verilməməlidir, terrorizmin, ekstremizmin, se-

paratizmin və s. - bunların qarşısı alınmalıdır, münaqişələr sülh yolu ilə həll olunmalıdır, baş vermiş faktlar əsasında qərarlar qəbul edilməməlidir. Mən bunu bir çox belə müddəalarla bağladım. Güman edirəm ki, indi biz bu sahədə öz işimizi aparacağıq. Çünki belə bir paktın qəbul olunması, şübhəsiz ki, Cənubi Qafqazda münaqişələrin aradan götürülməsini təmin etməlidir. Biz bunu edəcəyik. Bu da siyasi bəyannamə - üç əsas sənəd.

Yekunlaşdıraraq onu demək istəyirəm ki, hesab edirəm, bu, çox müsbət nəticəli bir sammitdir. Mən bundan çox məmnunam və hamı, iştirakçılar da məmnundu. Belə bir məmnunluqla da biz bir-birimizdən ayrıldıq. Ancaq orada bizim üçün və Türkiyə üçün, bizim bölgə üçün daha da böyük əhəmiyyət kəsb edən tarixi bir hadisə baş verdi ki, o da Bakı - Ceyhan neft kəməri haqqında müqavilənin imzalanması idi. Müqaviləni Azərbaycan, Türkiyə, Gürcüstan imzaladılar. Sonra dövlətlərin öhdəliyinə dair siyasi bəyannamə imzalandı. Bunu Prezident Klinton imzaladı. Nazarbayev də Qazaxıstanın bizim bu Bakı - Ceyhan xəttinə qoşulması barədə bəyanat verdi, o da imzalandı. Bir çox başqa sənədlər də imzalandı. Beş il bundan öncə bizim başladığımız iş indi öz nəticəsini verdi. Əgər eşitmisinizsə, - mən orada çıxışımda da dedim, - biz "Əsrin müqaviləsi"ni yaratmasaydıq Bakı - Ceyhan olmayacaqdı. Amma Bakı - Ceyhanı da beş il müddətində həyata keçirmək üçün çox böyük maneələrin qarşısını aldıq, çox işlər gördük. Nəhayət, buna nail olduq. Bu, bizim üçün böyük bir hadisədir - həm Azərbaycan üçün, həm Türkiyə üçün. Eyni zamanda əgər Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı və bu barədə fəal iştirakı olmasaydı, bunu etmək mümkün deyildi. Çünki bunun əleyhinə çox qüvvələr var idi. Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə keçməsi barədə Xəzər qaz kəmərinin layihəsi vardır. O da çoxdan hazırlanırdı. Bunu da imzaladıq. Orada da mənafelərimiz təmin olubdur ki, bizim qazımız da o kəmər vasitəsilə keçəcəkdir. Əlavə bir memorandum da imzalandı ki, gələcəkdə Türkiyə həm özü üçün, həm də Avropaya keçirmək üçün Azərbaycandan qaz almağı öz öhdəsinə götürür.

Mənim bir çox ikitərəfli görüşlərim oldu, onları da bilirsiniz. Yəqin ki, qəzetlərdə verəcəklər, yazacaqlar. Prezident Klintonla, Prezident Şirak ilə, Almaniyanın kansleri Şroder ilə, İsrailin Baş naziri ilə, Prezidentlər Şevardnadzde, Kuçma və Nazarbayev ilə - bizim bu dostlarımızın hamısı ilə. Avropa Birliyinin yeni sədri Prodi ilə çox əhəmiyyətli danışıqlarımız oldu, görüşlərimiz oldu. Türkiyə Prezidenti Süleyman Dəmirəllə bir neçə dəfə və dünən axşam da, sammit qurtarandan sonra biz bir yerdə oturduq, çox ətraflı söhbətlər etdik. Bunların hamısı ilə də, bu görüşlərdə

də əsas məsələ Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi idi və burada da mən həm Amerika Birləşmiş Ştatlarının, həm Fransanın həmsədrlər kimi dəstəklərini hiss edirəm. Orada ayrıca bir görüş də keçirildi: həmsədr olan ölkələrin Xarici İşlər nazirləri - ABŞ-ın dövlət katibi xanım Olbrayt, Fransanın Xarici İşlər naziri Vedrin, Rusiyanın Xarici İşlər naziri İvanov və bir də Azərbaycan, Ermənistan Prezidentləri. Orada da biz müzakirə apardıq. Düzdür, bu, qapalı müzakirədir. Hər halda qısa bir zamanda çox işlər gördük və bunların da hamısını Azərbaycan xalqının naminə gördük. Bunları siz daha da dəqiq, daha da ətraflı televiziyada, mətbuatda görəcəksiniz.

Sual: Cənab Prezident, Sizcə, İstanbul sammiti Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması sahəsində aparılan danışıqlara yeni təkan verəcəkmi?

Cavab: Mütləq verəcəkdir. Elə mənim də orada gördüyüm iş bundan ibarətdir.

Sual: İstanbul bəyannaməsində Azərbaycanın ərazi bütövlüyünün qeyd olunmasını necə qiymətləndirirsiniz?

Cavab: Bilirsiniz, birincisi, o, keçən sammitdə qeyd olunubdur. İkincisi, qəbul olunmuş xartiyada bütün dövlətlətin ərazi bütövlüyünün təmin olunması, - indi mən o incəlikləri sizə demək istəmirəm, onu sonra izah edəcəklər, - hətta orada bizim təkliflərimizlə yazılıbdır ki, məsələn, o yerlərdə ki, milli azlıqlar var, özünüidarəetmə, yəni öz hüququnu müəyyənetmə var, bu, heç vaxt ərazi bütövlüyünü pozmamalıdır. Bunlar hamısı vardır. Ona görə burada onun bir daha yazılmasına, sadəcə, ehtiyac yox idi. Görürəm ki, daha başqa bir sualınız yoxdur. Mən təəccüb edirəm. Yəqin ki, mən sizə geniş imkan vermirəm. Gələn dəfə heç bir şey deməyəcəyəm, deyəcəyəm ki, sual verin. Ancaq suallarınıza cavab verəcəyəm.

Sual: Cənab Prezident, Cənubi Qafqazda əməkdaşlıq barədə təklif qəbul olundumu?

Prezident **Heydər Əliyev:** Cənubi Qafqaz ölkələrinin iqtisadi forumu məsələsini Amerika təklif etmişdi. Bu təkliflə mənim yanıma gəlmişdilər - əgər xatirinizdədirsə, bu, televiziya vasitəsilə verildi. Amerikanın nümayəndəsinə mən qəti olaraq etiraz etdim. Amma bu, orada da, o bəyannamədə də var idi. Biz onu çıxardıq.

Sual: Cənab Prezident, İstanbul sammitində Azərbaycan ilə Ermənistan arasında hansısa sazişin imzalanacağı əvvəlcə nəzərdə tutulurdumu?

Cavab: Bilirsiniz, mən çoxdan demişəm ki, heç nə imzalanmayacaqdır. Müxalifət iki-üç ay hay-küy saldı. Bilirəm ki, çoxunuz onlara mənsubsunuz. Qəzetlər yazırdı, o yazırdı, bu yazırdı ki, Azərbaycan batacaq, saziş imzalanacaq, Qarabağ mü-

qavimət hərəkatı yaradaq, qara örpəkli qadınlar küçələrə çıxsınlar, nə bilim, gedib İstanbulda nəsə etsinlər. Mən gedəndə sizə dedim axı, - onların heç birini Biləcəridən o tərəfə heç kim tanımır. Amma mən İstanbulun küçələrində onlardan bir adam görmədim. Mən gedəndə sizə dedim ki, heç bir şey imzalanmayacaqdır. Bu, əvvəldən də nəzərdə tutulmamışdı. Sadəcə olaraq, bunu ayrı-ayrı müxalifət qüvvələri uydurdular, ortaya atdılar ki, özləri üçün bir müddət siyasi məşğuliyyət tapsınlar. İndi bunlar özlərinə məşğuliyyət tapa bilmirlər. Görək bundan sonra hansı məşğuliyyəti tapacaqlar.

Jurnalist: Cənab Prezident, indi də sazişin imzalanmasını onlar öz nailiyyəti hesab edirlər.

Heydər Əliyev: Bəlkə onlar elə dünyanın fırlanmasını da öz nailiyyətləri hesab edirlər ki, onlara görə dünya fırlanır? Sağ olun.

PREZİDENT SARAYINDA RESPUBLİKA İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN ATƏT-in İSTANBUL ZİRVƏ GÖRÜŞÜNÜN YEKUNLARINA HƏSR OLUNMUŞ TOPLANTISINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

- Hörmətli xanımlar və cənablar! Bugünkü respublika toplantısı ATƏT-in İstanbul sammitinin yekunlarını müzakirə etmək üçün çağırılıbdır. ATƏT-in İstanbul sammiti XX əsrin ən böyük hadisələrindən biridir. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının XX əsrin sonunda, XXI əsrin astanasında bir yerə toplaşıb, gələcək haqqında müzakirələr aparıb çox vacib sənədlər qəbul etməsi, təbiidir ki, təkcə Avropa üçün, ATƏT-ə daxil olan ölkələr üçün yox, eyni zamanda bütün dünya üçün, beynəlxalq aləm üçün çox vacibdir. Deyə bilərəm ki, sammit çox yüksək səviyyədə keçdi və onun qarşısında duran vəzifələri uğurla həll etdi. İstanbul sammiti haqqında kütləvi informasiya orqanları geniş məlumatlar veriblər. Türkiyənin və başqa ölkələrin televiziya kanalları, Azərbaycan dövlət televiziyası sammitin gedişini yayıblar və Azərbaycan ictimaiyyətinin bu barədə həm təsəvvürü, həm də məlumatı vardır. Ancaq eyni zamanda bu sammit çox böyük əhəmiyyət daşıdığına görə və sammitdə qəbul edilmiş sənədlərin Azərbaycanda həyata keçirilməsi, icra olunması üçün bizim bugünkü toplantının keçirilməsi, icra olunması üçün bizim bugünkü toplantının keçirilməsi zəruridir. Mən də ona görə sizi dəvət etmişəm.

Bilirsiniz ki, sammitdə keçən dövrə yekun vurulubdur və XXI əsrdə ölkələrin təhlükəsizliyi, sülhün təmin olunması, demokratiyanın inkişaf etdirilməsi və bunlarla əlaqədar olan bir çox məsələlər müzakirə olunubdur. Hər dövlət öz fikrini, mülahizələrini bildiribdir və bunların nəticəsində də sammitin İstanbul xartiyası qəbul edilibdir, Avropada adi silahlar haqqında müqavilə imzalanıbdır, hər sammitdə olduğu kimi siyasi bəyannamə qəbul edilibdir. Bu sənədlərin hər biri öz-özlüyündə tarixi xarakter daşıyır. Dediyim kimi, sammit özü çox böyük tarixi əhəmiyyət kəsb edir. Bizim üçün, Azərbaycan üçün və bizə dost olan bir neçə ölkələr, dövlətlər üçün İstanbul sammiti başqa bir tarixi hadisə ilə də özünü göstəribdir. O da sizə məlumdur: İstanbul sammiti zamanı, sammitin keçirildiyi günlərdə, oradakı şəraitdə Azərbaycan neftinin dünya bazarlarına ixrac edilməsi üçün əsas neft kəməri - Bakı-Ceyhan neft kəməri haqqında müqavilələr imzalanıbdır.

Bununla bərabər, Xəzər qaz kəməri haqqında da, yəni Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə keçməsi haqqında da sənədlər imzalanıbdır. Buna görə də İstanbul sammiti Avropa üçün, dünya üçün böyük tarixi hadisə olaraq, eyni zamanda Azərbaycan üçün ikiqat tarixi hadisədir. Çünki birincisi, şübhəsiz ki, biz ATƏT-in üzvü olaraq, XX əsrin sonunda bu qədər yüksək səviyyəli, məzmunlu və nəticəli zirvə görüşünün keçirilməsini tarixi hadisə hesab edirik. Ancaq Azərbaycan üçün, Türkiyə üçün, Amerika Birləşmiş Ştatları üçün və Azərbaycanla əməkdaşlıq edən başqa ölkələr üçün Bakı-Ceyhan neft kəməri haqqında müqavilələrin imzalanması, təbiidir ki, tarixi hadisədir. Qeyd edim ki, bu barədə sizin və ictimaiyyətin məlumatları vardır. Ancaq hesab edirəm ki, bu gün biz həm sizə, həm də ictimaiyyətə daha da geniş məlumatlar verməliyik, bir çox məsələləri izah etməliyik, eyni zamanda ATƏT-in sammitinin qəbul etdiyi sənədlərin Azərbaycanda icra olunması, həyata keçirilməsi üçün tədbirlər müzakirə etməliyik. Bakı-Ceyhan neft kəməri haqqında müqavilə imzaladığına görə indi onun ixrac mərhələsi başlayır və bunun icrası üçün gələcək işlər barədə fikir mübadiləsi aparmalıyıq. Təbiidir ki, sonra xüsusi sənədlər qəbul olunacaqdır. ATƏT-in zirvə görüşündə qəbul olunmuş sənədlərlə əlaqədar Azərbaycanın görəcəyi işlər barədə də xüsusi sənədlər hazırlanıb imzalanacaqdır. Bütün bunlara görə də bugünkü bu toplantının keçirilməsi çox zəruridir. Hesab edirəm bu, eyni zamanda ictimaiyyətə, vətəndaşlarımıza İstanbul sammiti haqqında və Bakı-Ceyhan neft kəməri haqqında daha da geniş məlumatlar almağa imkan verəcəkdir. Təbiidir ki, bu məsələlərin tarixi əhəmiyyətini hər bir Azərbaycan vətəndaşının qiymətləndirməsi üçün də əsas olacaqdır.

"Azərbaycan" qəzeti, 25 noyabr 1999-cu il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ X İŞGÜZAR SƏFƏRİ

27-29 noyabr 1999-cu il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ X İŞGÜZAR SƏFƏRİ

BİNƏ HAVA LİMANINDA MƏTBUAT KONFRANSI

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin dəvəti ilə noyabrın 27-də qardaş ölkəyə qısamüddətli işgüzar səfərə yola düşmüşdür. Dövlətimizin başçısı Heydər Əliyev yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərə demişdir:

- Mətbuat xidmətinin məlumatı verilibdir. Mən İstanbulda olanda Türkiyənin Prezidenti, əziz dostum Süleyman Dəmirəl məndən xahiş etmişdi ki, bu gün Ankaraya gedim, orada ekologiya və torpaq eroziyası ilə əlaqədar bir toplantı var, onda iştirak edim. Onun vətəni İspartada böyük bir universitet var, sabah onun yeni bir fakültəsinin təməli qoyulacaqdır. İsparta Universiteti mənə Fəxri doktor adı veribdir. İsparta Süleyman Dəmirəlin vətənidir. Onun qardaşı orada bir xəstəxana tikib, bunun açılışı olacaqdır. İsparta Süleyman Dəmirəl adına Mədəniyyət Mərkəzi yaradılıb, o da açılacaqdır.

O, xahiş edib ki, mən bu tədbirlərdə iştirak edim. Mən bunu məmnuniyyətlə qəbul etmişəm, çünki bilirsiniz, bizim şəxsi dostluğumuz var. Bir də ki, Süleyman Dəmirəl təkcə mənim yox, bütün Azərbaycan xalqının dostudur. İspartanı ziyarət etmək, onun vətəninə getmək mənim üçün çox böyük şərəfdir. Ona görə də mən gedirəm və sabah axşam da dönəcəyəm. Başqa məqsəd yoxdur.

"EROZİYA İLƏ MÜBARİZƏ HƏFTƏSİ"NİN AÇILIŞI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl! Şimali Kipr Türk Cümhuriyyətinin Prezi-denti, əziz dostum Rauf Denktaş!

Dəyərli qonaqlar!

Xanımlar və cənablar!

Azərbaycan xalqı adından, öz adımdan sizi sevgi, sayğı ilə salamlayıram!

Hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl, Sizə çox təşəkkür edirəm ki, məni Türkiyəyə dəvət etmisiniz və bu qədər önəmli, mötəbər, möhtəşəm bir toplantıda iştirak etməyimə imkan vermisiniz. Doğrusu, Siz məni dəvət edəndə və söyləyəndə ki, "Eroziya ilə mübarizə həftəsi" ilə bağlı burada bir toplantı var, mən bunu o qədər də dərindən anlaya bilmirdim. Sonra gəlib burada gözəl bir toplantı gördüm. Hörmətli Nihat Gökyigit mənə dedi ki, sizin də toplantıda nitq söyləməyiniz lazımdır. Soruşdum ki, nə danışacağam? Əziz dostum Süleyman Dəmirəl mənə dedi ki, indi oturub dinləyəcəyik və dinlədiklərimizin içərisindən də danışacaqlarımız çıxacaqdır. O, çox doğru və gözəl demişdir. Sizi dinlədikdən sonra mən də bir nitq söyləmək istəyirəm. Əziz dostlar, bu gün TEMA vəqfinin təşkil etdiyi bu toplantı çox əhəmiyyətə malikdir, çox önəmlidir və Türkiyənin həyatında son illərdə görülən böyük işlər haqqında mənim üçün çox dəyərli bilgilər vardır. Mən Türkiyə Cümhuriyyətində hər il yeni-yeni böyük işlər görüldüyünü bilirəm. Türkiyə Cümhuriyyətinin ardıcıl olaraq inkişaf etməsini, türk xalqının rifah halının günü-gündən yaxşılaşmasını və Türkyiə Cümhuriyyətinin dünyada, dövlətlər arasında hörmətinin daha da artmasını görürəm. Eyni zamanda, Türkiyənin içində çox böyük problemlərin də olmasını görürəm. Bilirəm ki, burada çox işlər görülür. Ancaq eroziya, ekologiya məsələsinə, ətraf mühitin mühafizəsinə, torpağın qorunmasına bu qədər böyük əhəmiyyət verilməsini və bu qısa müddətdə bu qədər böyük işlər görülməsini təsəvvür edə bilmirdim. Təbiidir ki, XX əsrdə dünyanın inkişafı, sənayeləşməsi, böyük-böyük şəhərlərin qurulması torpağa, ətraf mühitə zərər gətirir, suyu zəhərləyir və bir çox problemlər meydana çıxır. Demək olar ki, XX əsrin ortalarına qədər bu problemlər dünyada bir o qədər də önəmli yer tutmamışdır. Ancaq təxminən 50 il bundan öncə dünyada insanlar, demək olar ki, oyandı ki, bəli, inkişaf var, - sənaye, texnika inkişaf edir, insanlar həyatın bu imkanlarından daha da səmərəli istifadə edirlər. Amma unudublar ki, həyatın əsası torpaqdır, torpaqsız heç bir şey yoxdur, susuz, çaysız, dənizsiz heç bir şey ola bilməz, insan çeşməsiz, bulaqsız yaşaya bilməz. Ona görə də belə bir hərəkat başlandı. Bu hərəkat dünyanın müxtəlif ölkələrində müxtəlif səviyyədədir. Mən deyə bilərəm ki, Azərbaycanda və bizim keçmişdə yaşadığımız Sovetlər Birliyində də təxminən 70-ci illərdən bu proses, yəni

ekoloji problemlər və onunla mübarizə çox sürətlə inkişaf etməyə başladı. Ancaq dünyada da, bir çox ölkələrdə də bu barədə çox böyük nailiyyətlər əldə edilməyibdir. Deyə bilərəm ki, o cümlədən Azərbaycanda da bu problemlər bizim üçün ən çətin, ən ağır problemlərdir. Amma bu gün sizi dinləyərkən mən anladım ki, qısa bir zamanda, 7 il bundan öncə TEMA vəqfi yaranıb və bu vəqf dövlətlə birlikdə çox böyük işlər görübdür. Həmin işlər haqqında bu gün burada danışıldı. Türkiyə böyük bir əraziyə, gözəl torpaqlara malikdir, ancaq dağları, daşları da var. Türkiyənin yeraltı sərvətləri də var, amma başqa ölkələrdəki kimi o qədər də çox deyildir. Lakin Türkiyənin yerüstü sərvətləri çoxdur. Hər bir ölkənin yerüstü sərvəti onun torpağıdır, meşəsidir, ormanıdır, dənizidir, suyudur, çayıdır, çeşməsidir, bulaqlarıdır. İnsan bunları qoruyub saxlaya bilməsə, şübhəsiz ki, onun həyatı ilbəil daha da çətinləşəcək, zorlaşacaq və insanın ömrü də azalacaqdır. Ona görə də sizin gördüyünüz bu işlər çox əhəmiyyətlidir. Əziz dostum Süleyman Dəmirəl, mən çox məmnunam ki, Siz məni dəvət etdiniz və mən bu gün burada çox böyük bilgilər aldım. Ancaq bu barədə bir neçə kəlmə deməkdən öncə, bildirmək istərdim ki, mən bir həftə bundan əvvəl Türkiyədə, İstanbulda idim. İstanbulda ATƏT-in XX əsrdə sonuncu zirvə görüşü keçirildi. Zirvə görüşü Avropada və bütün dünyada gedən prosesləri təhlil etdi və çox önəmli, dəyərli qərarlar qəbul etdi. Mən hesab edirəm ki, ATƏT-in indiyə qədər keçirilmiş bütün zirvə görüşlərinin içərisində İstanbul zirvə görüşü bu təşkilatı daha da yüksəklərə qaldırdı. Biz hamımız bu zirvə görüşündən sonra çox böyük məmnuniyyətlə ayrıldıq, hərə öz ölkəsinə getdi. Məni sevindirən zirvə görüşünün təkcə bu hissəsi deyil. Məni sevindirən bir də odur ki, XX əsrin sonunda olmuş bu zirvə görüşü məhz Türkiyədə, İstanbulda keçdi. Türkiyədə, İstanbulda bu zirvə görüşü çox gözəl təşkil olunmuşdu. Mən bundan öncə də zirvə görüşlərində - ATƏT-in Budapeşt, Lissabon zirvə görüşlərində olmuşam. Tarixdə onların da hər birinin öz yeri vardır. Ancaq İstanbul zirvə görüşü həm bütün işlərin təşkilinə, həm buraya gəlmiş nümayəndələrin hər şeylə təmin olunmasına, həm də əzəmətli "Çırağan sarayı"nda hər bir dövlətin nümayəndə heyətinin səmərəli çalışması üçün imkanlar yaradıldığına və türk xalqının, Türkiyə vətəndaşlarının gözəl qonaqpərvərliyinə görə çox böyük əhəmiyyət kəsb edir və mənim gördüyüm bütün keçmiş zirvə görüşlərindən çox-çox yüksəkdir. Mən bunları böyük qürur hissi ilə görürdüm, sevinirdim. Siz də bilirsiniz, biz də bilirik, ATƏT-in üzvü olan bütün ölkələr də bilirlər ki, bütün bu işlərin belə gözəl təşkil edilməsində Türkiyə Cümhuriyyətinin Prezidenti, Cümhurbaşkanı hörmətli Süleyman Dəmirəlin xüsusi xidmətləri

olmuşdur. Bunu bütün ölkələrin başçıları söyləmişlər. Mən bir dost kimi, qardaş kimi buna sevinirəm. Son zamanlar məni sevindirən bir də o oldu ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton ATƏT-in zirvə görüşündən öncə Türkiyəni ziyarət etdi. Bildiyimə görə, Amerika Birləşmiş Ştatlarının Prezidenti 10 il idi ki, Türkiyədə olmamışdı. Prezident Bill Klintonun bu ziyarəti də adi bir ziyarət olmadı. O, burada çox vaxt keçirdi. Həm rəsmi görüşlər keçirdi, danışıqlar apardı - Prezidentlə, hökumətin üzvləri ilə görüşdü, Böyük Millət Məclisində oldu, xalq ilə görüşdü, zəlzələ baş vermiş bölgəyə getdi. Türkiyənin tarixi yerləri ilə tanış oldu. Yəni dünyanın ən böyük dövləti olan Amerika Birləşmiş Ştatlarının Prezidentini Türkiyə nə qədər maraqlandırmışdı! Şübhəsiz ki, bu da Türkiyənin hörmətini dünya miqyasında daha da yüksəltdi.

Prezident Bill Klinton burada həm Böyük Millət Məclisində, həm də zirvə görüşündə gözəl nitqlər söylədi. Onun nitqindəki iki fikir məni sevindirdi. Biri odur ki, o söylədi: "Soyuq müharibə"nin bitməsinə, sona çatmasına baxmayaraq, Türkiyə Amerika Birləşmiş Ştatları üçün, Qərb üçün yenə də ən strateji əhəmiyyətini itirməyibdir. İkincisi isə, o dedi ki, Türkiyədə və bütün bu bölgədə Prezident Süleyman Dəmirəlin liderliyi bu ölkələrin, Türkiyənin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Türkiyənin dostu, Süleyman Dəmirəlin dostu olaraq mən bu sözlərə görə çox sevindim və çox şad oldum.

Bugünkü toplantı haqqında onu deyə bilərəm ki, bu, çox gözəl bir işdir. Bu, Türkiyə Cümhuriyyətinin vətəndaşları, gələcək nəsillər üçün çox dəyərli bir işdir. Sevindirici hal odur ki, bu işi həm vəqf, həm də hökumət, dövlət görür. Onlar bütün imkanlarını, qüvvələrini birləşdiriblər. Bu gün burada verilən bilgilərdən anladım ki, 1992-ci ildən, bu vəqfin təşkil olunmasından Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəl ona başçılıq, himayədarlıq edir və bu işin təşkilində öz xidmətlərini göstərir. Elə "Çankaya" köşkündə keçirilən bugünkü toplantı da mənim bu sözlərimi təsdiq edir.

Dediyim kimi, Azərbaycanda bu problemlər daha çox vardır. Çünki birincisi, biz keçmişdə Sovetlər İttifaqının tərkibində yaşayarkən müstəqil dövlət olmadığımıza görə hər bir sahəyə istədiyimiz qədər fikir verə bilməmişik. Bizdə hər bir şey dövlətin olubdur. Əgər dövlət vəsait ayırırdısa, demək, iş görmək olardı. Amma vəsait ayırmırdısa, iş görmək olmurdu. Lakin sizin ölkənizdə həm dövlətin, həm də özəl sektorun vəsaiti vardır. Özəl sektorun qurduğu vəqflər dövlətin və özlərinin vəsaitlərini birləşdirib çox işlər görürlər.

Azərbaycanın torpaqlarında da eroziya problemləri vardır və bunlar çoxdur. Suvarılan torpaqlarımızın duzlaşması, şoranlaşması da, orman-

larımızın, məşələrimizin qırılması da bizi rahatsız edir. Bizi ən çox narahat edən odur ki, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunubdur. İşğal edilmiş torpaqlardan bir milyon azərbaycanlı zorla çıxarılıbdır, didərgin düşübdür, çadırlarda yaşayır. Həmin torpaqlar Azərbaycanın ən məhsuldar münbit torpaqlarıdır. İndi onlar hamısı viran edilibdir, dağıdılıbdır. Bir tərəfdən, istifadə olunmadığına, ikinci tərəfdən isə oradakı şəhərlər, kəndlər, bütün binalar - hamısı dağıdıldığına görə, şübhəsiz ki, torpağa da çox böyük zərər dəyibdir. Ona görə də bizim ölkədə bu problemlər daha da kəskin durur.

Bizim üçün ən kəskin problem suyun zəhərlənməsi, çirklənməsidir. Bilirsiniz ki, Azərbaycana sular, əsasən, Araz və Kür çaylarından gəlir. Həmin çaylar öz mənbayini, başlanğıcını Türkiyənin dağlarından götürür. Ancaq təəssüflər olsun ki, bu sular Azərbaycana çatana qədər Gürcüstanın və Ermənistanın ərazisindən keçir. İndi həm Gürcüstanda, həm Ermənistanda bu çaylara atılan zəhərli tullantılar, kirlər, çirkablar, şübhəsiz ki, bu suyu zəhərləndirir. Bu çaylar - Kür və Araz birləşərək gəlib Xəzər dənizinə tökülür. Bu da bizim üçün çox ağır, çətin bir problemdir. Xəzər dənizi təkcə Azərbaycana məxsus deyildir - Rusiyaya, Qazaxıstana, Türkmənistana, İrana, Azərbaycana məxsusdur. Amma Xəzər dənizi çox zəhərlənir, kirlənir. Xəzər dənizinə ən çox zəhərli sular, maddələr həm Volqa çayından, həm də Xəzərin ətrafında olan sənaye müəssisələrindən tökən Rusiyadır. Bunlar da bizim üçün problemdir. Çünki Azərbaycan üçün Xəzər torpaq qədər əhəmiyyətlidir, dəyərlidir. Biz bu işlərlə məşğul olmuruq. Ancaq, şübhəsiz ki, sizin kimi məşğul ola bilmirik. Siz böyük dövlətsiniz, gözəl quruluşunuz var, demək olar ki, hər şeyi çoxdan təkər üstünə qoymusunuz. Amma biz gənc, müstəqil dövlətik. Müstəqilliyimizi, bağımsızlığımızı 8 il bundan öncə əldə etmişik. Bilirsiniz ki, bu 8 ildə bizim çalışmağımız, vuruşmağımız, birincisi, müstəqilliyimizi qorumaq, ikincisi, işğal edilmiş torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi, torpaq bütövlüyünü təmin etmək uğrunda olubdur. Bir də keçmiş sosialist sistemindən yeni sistemə, yəni sərbəst iqtisadiyyat sisteminə keçmək, bazar iqtisadiyyatı sistemini yaratmaq, demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, demokratiyanı inkişaf etdirmək - bunlar hamısı bizim üçün yenidir. Biz 70 il kommunist ideologiyası altında yaşamışıq. Biz 70 il Sovet İttifaqının qanunları ilə yaşamışıq. Bizdə özəl mülkiyyət olmayıb, hamısı dövlət mülkiyyəti idi. Torpağın da hamısı dövlətin olubdur. Torpaq da dövlətin olduğuna görə onun qayğısına o qədər də qalmayıb, onu eroziyadan, duzlaşmadan, başqa şeylərdən qorumayıbdır.

İndi biz böyük inqilab edirik.

Torpağı kəndlilərə, yəni torpaqda işləyənlərə, çalışanlara veririk. Amma təsəvvür edin, XX əsrdə iki inqilab oldu. Sovet hakimiyyəti qurulandan sonra 20-ci ildən 30-cu ilə qədər həm Azərbaycanda, həm də keçmiş Sovet İttifaqının hər yerində torpaqlar, mal-qara, bütün mülkiyyət insanlardan zorla alındı, ümumiləşdirildi, dövlətləşdirildi. Bu, əzablı bir proses oldu, 10-15 il davam etdi. Buna görə çoxlu insan şəhid oldu. Çünki bu prosesə müqavimət göstərənlər, mülkünü, topağını, malını verməк istəməyənlər də var idi. Amma kim belə mövqe tuturdusa, onlar ya həbs edilirdi, ya da yurdundan uzaq yerlərə sürgün olunurdu. Yəni 10-15 il belə proses getdi. Sonra kolxozlar, sovxozlar quruldu, insanlar buna bir az öyrənişdi. İndi biz yeni bir inqilab apırırıq: dövlətdə olan bütün mülkiyyəti insanlara, xalqa veririk, torpağı kəndlilərə paylayırıq. Ona görə də 40, 50 il, bəlkə də, 60 il torpağın sahibi olmamış adam, gedib ancaq torpaqda işləyib müəyyən miqdarda para almış adam indi gərək bu torpağın sahibi olsun, ondan istifadə edə bilsin. Gərək onun traktoru və başqa şeyləri olsun. Bu, çox ağır bir prosesdir və biz bu proseslərin içindəyik. Amma buna baxmayaraq biz bütün bu problemlərə, yəni ekoloji, eroziya və digər problemlərə də fikir veririk. Ancaq bu gün burada olmağım mənim üçün ona görə çox əhəmiyyətlidir ki, mən sizin təcrübəni öyrəndim. Hesab edirəm ki, bizim müvafiq təşkilatlarımız, nazirliklərimiz, alimlərmiz əgər mümkün olsa gəlib müəyyən müddətdə buradakı təcrübədən istifadə edəcəklər. Çünki şəxsən mən sizin bu gözəl təcrübənizi Azərbaycan üçün, özümüz üçün bir örnək kim qəbul edirəm. Hesab edirəm ki, bunlar bizə yardım edəcək və biz də gələcəkdə sizin kimi bu problemləri həll etməyə çalışacağıq. Mən bir daha bildirmək istəyirəm ki, əziz dostum Süleyman Dəmirəlin dəvətinə əsasən buraya gəlməyimdən çox məmnunam, çox sevinirəm. Çox sevinirəm ki, sizinlə, belə dəyərli insanlarla görüşdüm, çox dəyərli nitqlər, fikirlər dinlədim. Burada otararkən düşünürdüm ki, böyük öndər Mustafa Kamal Atatürk 76 il bundan öncə cümhuriyyət yaradıbdır. Bu cümhuriyyət yaşayır və böyük Atatürkün yolu ilə gedir. Bu cümhuriyyət çox güclü, qüdrətli cümhuriyyətdir.

Türkiyə demokratik, azad, müstəqil ölkədir və dünya birliyində öz yerini tutubdur. Allah isə Anadolu kimi gözəl bir məkanı və onun gözəl torpaqlarını türk xalqına, bizim qardaşlarıza bağışlayıbdır. Mənim arzum odur ki, Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı daim Mustafa Kamal Atatürkün yolu ilə getsin, türk xalqı onun əlində olan bu nemətı, torpağı, bütün imkanları qorusun. Bəlalıklə də Türkiyə Cümhuriyyəti Atatürkün nəsihətlərini yerinə yetirmiş olacaqdır.

Sizə təşəkkür edirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DÜNYA ŞÖHRƏTLİ ALİM İHSAN DOĞRAMACI İLƏ GÖRÜŞÜ

Noyabrın 27-də axşam Azərbaycan Prezidenti Heydər Əliyev öz iqamətgahında - "Çamlı köşk"də Bilkənd Universitetinin banisi və fəxri rektoru, dünya şöhrətli alim, Prezidentlər Heydər Əliyevin və Süleyman Dəmrəlin fəxri sədri olduqları Azərbaycan-Türkiyə Dostluq və əməkdaşlıq Fondunun başçısı, professor İhsan Doğramacını qəbul etdi.

İhsan Doğramacını səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun vəziyyəti, səhhəti ilə maraqlandı. Prezident Heydər Əliyevə dərin təşəkkürünü və minnətdarlığını bildirən **İhsan Doğramacı** dedi:

- Cənab Prezident, "Eroziya ilə mübarizə həftəsi"nin açılış mərasimindəki yarım saata qədər olan nitqiniz çox xoşuma gəldi. Nitqinizdə söylədiyiniz fikirləri çox yüksək qiymətləndirirəm.

Heydər Əliyev: Sən çıxışımı dinlədin?

İhsan Doğramacı: Cənab Prezident, dinləməmək mümkün deyildi. Çünki ən gözəli o oldu ki, Siz bildirdiniz, hörmətli Süleyman Dəmirəl Sizə dedi ki, çıxış edənləri dinləyin, ondan sonra çox gözəl danışacaqsınız. Siz orada, bəlkə də, ona qədər mesaj verdiniz. Ən sonuncu mesajınız isə cənab Klintonun söylədiklərini Sizin də təsdiq etməyinizdir. Yəni çıxışınız çox gözəl oldu.

Heydər Əliyev: Elədir, təxminən yarım saat çıxış etdim.

İhsan Doğramacı: Cənab Prezident, mən saatımı qurmuşdum. Çıxışınız düz 28 dəqiqə oldu.

Heydər Əliyev: Düzü, mən bu qədər danışmaq fikrində deyildim. Sadəcə, bir neçə söz demək istəyirdim. Amma gördüm ki, beynimdə bir neçə fikir var, ona görə də onları dedim.

İhsan Doğramacı: Hər şey çox yaxşı oldu. Dediniz ki, sovet vaxtında hər şey dövlətin idi, xalqın əlində heç nə yox idi. Amma indi baxın, millətlə dövlətin bərabər işləməsi nə qədər faydalıdır. Bir çox belə mesajlar verdiniz. Hörmətli Cümhurbaşkanım, nitqinizin sonunda bir də onu dediniz ki, Azərbaycandan gəlsinlər, eroziyaya qarşı mübarizə sahəsində Türkiyənin təcrübəsini öyrənsinlər və istifadə etsinlər. Mən bunları çox maraqla dinlədim.

Dövlətimizin başçısı Heydər Əliyev görkəmli alimə bir daha təşəkkür etdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 27-də Çankaya köşkündə Türkiyə dövlətinin başçısı Süleyman Dəmirəl ilə görüşdü.

Dövlətimizin başçısını böyük səmimiyyət və mehribanlıqla salamlayan Prezident Süleyman Dəmirəl Prezident Heydər Əliyevin bu dəvəti qəbul edib Türkiyəyə səfərə gəlməsindən son dərəcə məmnun olduğunu bildirdi.

Dost və qardaş Türkiyəyə gəlişindən və Prezident Süleyman Dəmirəl ilə görüşündən xoş hisslər keçirdiyini vurğulayan Azərbaycan Prezidenti Heydər Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin gündən-günə genişlənməsindən və inkişaf etməsindən razılıq ilə söhbət açdı.

ATƏT-in bizim ərsədəki sonuncu görüşünün Türkiyədə keçirilməsindən, sammitdə qəbul edilmiş əsas sənədin tarixə məhz "İstanbul xartiyası" kimi düşməsindən iftixar hissi keçirdiyini bildirən Prezident Heydər Əliyev İstanbul görüşünün çox gözəl təşkil olunduğunu, iştirakçı dövlətlərin nümayəndə heyətlərinin işi üçün hər cür şərait yaradıldığını məmnuniyyətlə xatırladı və İstanbul sənədlərinin üzümüzə gələn XXI-ci əsrdə dünyada sülhün, təhlükəsizliyin, əmin-amanlığın və hərtərəfli əməkdaşlığın mühüm istiqamətlərini müəyyən etdiyini vurğuladı.

Dövlət başçıları Xəzərin Azərbaycan sektorunun enerji ehtiyatlarının dünya bazarına çıxarılması üçün nəzərdə tutulan Bakı-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair İstanbul sammiti gedişində imzalanmış sənədlərdən məmnunluqla söhbət açaraq, bu layihənin neinki region dövlətləri-in, həm də Avropa və dünya ölkələrminin iqtisadi inkişafı üçün böyük rol oynadığını qeyd etdilər və onun gerçəkləşdirilməsi üçün qarşıda duran vəzifələri geniş müzakirə etdilər.

Türkiyə Eroziyaya Qarşı Mübarizə, Yaşıllaşdırılma və Ətraf Mühitin Mühafizəsi Vəqfinin /TEMA/ təşəbbüsü ilə keçirilən Eroziyaya qarşı mübarizə həftəsinin açılışı mərasimi ilə əlaqədar təssüratlarını bölüşən Prezident Heydər Əliyev bu məsələnin böyük əhəmiyyət kəsb etdiyini, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində ölkələrimizin əməkdaşlığı üçün böyük imkanların olduğunu söylədi.

"Eroziyaya qarşı mübarizə həftəsi"nin və Türkiyə Prezidenti Süleyman Dəmirəlin dünyaya gəldiyi İsparta şəhərində bir sıra sağlamlığı mühafizə ocaqlarının açılışı ilə əlaqədar tədbirlərin böyük humansit xarakterini, qardaş türk xalqının rifahı üçün əhəmiyyətini nəzərə çatdıran Prezident Heydər Əliyev bu mərasimlərdə iştirak edəcəyidən məmnunluq duyduğunu bildirdi.

Söhbət zamanı Prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məsələsini üzərində dayandılar. Dövlət başçıları müstəqil Azərbaycanın qarşılaşdığı ən ağır problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradaq qaldırıl-

ması üçün ATƏT-in Minsk qrupunun fəallığının artırılması zəruriliyini yekdilliklə vurğuladılar.

Prezident Heydər Əliyev və Prezident Süleyman Dəmirəl ölkələrimiz arasındakı ikitərfli münasibətlər və bir sıra beynəlxalq məsələlər barəsində də geniş fikir mübadiləsi apardılar.

Görüş ənənəvi dostluq və səmimiyyət şəraitində keçdi.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN İSPATADAKI QARŞILANMA MƏRASİMİNDƏ BƏYANATI

28 noyabr 1999-cu il

- Əziz dostum, qardaşım, Prezident, hörmətli Süleyman Dəmirəl!

Hörmətli mətbuat nümayəndələri!

Mən çox məmnunam ki, bu gün bayram günü Türkiyədəyəm və dostlarımla, qardaşlarımla bir yerdəyəm. Mən buraya Cümhurbaşkanı, dostum Süleyman Dəmirəlin dəvəti ilə qısa bir müddətli işgüzar səfərə gəlmişəm.

İlk öncə, hörmətli dostum, qardaşım Süleyman Dəmirəl, Sizi, Sizin simanızda bütün Türkiyə xalqını, Türkiyənin vətəndaşlarını həm yeni il - 2000-ci il münasibətilə, həm də bizim hamımız üçün, müsəlmanlar üçün çox əziz olan Ramazan bayramı münasibətilə təbrik edirəm və Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına sağlıq, xoşbəxtlik, səadət və işlərində uğurlar arzulayıram.

Mənim buraya gəlməyimin məqsədi və mərəmini dostum, hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl artıq söylədi. Bu, həqiqətən belədir və bunun da səbabi ondan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında mövcud olan əlaqələr yüksək dərəcəli dostluq və qardaşlıq əlaqələridir. Ona görə də biz bir çox məsələlərin-həm dünya, beynəlxalq məsələlərin həll olunmasında, həm bölgəmizdə olan məsələlərin həll olunmasında, başqalarında öz ölkələrimizin, öz dövlətlərimizin siyasətini müəyyən etmək üçün, yaxud da konkret tədbirlərini müəyyən etmək üçün daim məsləhətləşirik, görüşürük. Bu məsləhətlər, bu görüşlər, bu danışıqlar hər iki tərəf üçün fayda veribdir. Mən şəxsən deyə bilərəm ki, bu, Azərbaycan üçün çox faydalıdır və yeddi ilə yaxındır ki, hörmətli dostum, qardaşım Süleyman Dəmirəl Türkiyənin Cümhurbaşkanı olduğu dövrdə mən Azərbaycan Prezidenti kimi bu görüşlərdən, bu danışıqlardan, bu məsləhətləşmələrdən həmişə böyük faydalar almışlar.

Güman edirəm ki, bu müddətdə də biz bir çox məsələləri müzakirə edəcəyik. Həqiqətən bizim bölgəmizdə olan vəziyyəti müzakirə edəcəyik, ümumiyyətlə, Qafqazda indi yaranmış gərgin vəziyyət haqqında fikir mübadiləsi aparacağıq və ən əsası, - Ermənistan- Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi, danışıqlar aparacağıq.

Bilirsiniz ki, bu problem artıq 12 ildir ki, mövcuddur. Beş il bundan öncə Azərbaycan ilə Ermənistan arasında atəşkəs sazişi, anlaşması əldə olunubdur. İndi savaş yoxdur, atəşkəs vardır, ancaq sülh də yoxdur. Azərbaycanın torpaqlarının 20 faizi Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır və bu işğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlılar zorla çıxarılıblar. İndi onların tam əksəriyyəti çadırlarda yaşayır. Bax, burada bu qarı görürəm, soyuğu görürəm. Bilin ki, Azərbaycanda da belədir. Belə bir vəziyyətdə, qışın soyuğunda, yayın istisində, yağışda, yaxud başqa hallarda çadırın içərisində bu qədər yaşamaq çox ağır bir haldır. Amma yaşayırlar, dözürlər və ümid edirlər ki, məsələ sülh yolu ilə həll olunacaqdır. Ümidlərinin də çoxu onunla bağlıdır ki, biz Türkiyə ilə bu barədə daim iş birliyi edirik.

Türkiyə birinci bizim dostumuzdur, bizim üçün ən yaxın ölkədir. Ermənistan- Azərbaycan münaqişəsində Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləyibdir, müdafiə edibdir. Bütün beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə hökuməti, Türkiyənin Cümhurbaşkanı həmişə Ermənistanı Azərbaycana təcavüz etmiş bir dövlət kimi qiymətləndiribdir, bildiribdir və eyni zamanda Türkiyə ATƏT-in Minsk qrupunun üzvüdür.

Bilirsiniz ki, bu məsələnin sülh yolu ilə həll olunması ilə ATƏT məşğul olur. ATƏT də bundan ötrü hələ 1992-ci ildə Minsk qrupu yaradıbdır. Bu Minsk qrupunun üzvlərinin biri də Türkiyədir. Bir də ki, məsələnin həll olunmasında təkcə ATƏT-in Minsk qrupunun üzvü kimi yox, Türkiyənin iştirakı olmadan bu məsələlər tamamilə həll edilə bilməz. Çünki Ermənistanla Türkiyənin böyük bir sərhədi vardır və Türkiyə Azərbaycanın yaxın dostudur. Qafqazda olan problemlər Türkiyəsiz həll edilə bilməz.

Məsələn, mən İstanbul Zirvə görüşündə belə bir təklif irəli sürdüm ki, Cənubi Qafqazda təhlükəsizlik, sülh və əməkdaşlıq paktı yaransın. Bu paktın yaranmasında da mən bir neçə dövlətə müraciət etdim. Birinci növbədə Türkiyəyə. Çünki Türkiyəsiz bunları etmək mümkün deyildir.

Bunların hamısına görə də mən buraya gəlmişəm. Azərbaycan xalqının Türkiyə xalqına salamını, hörmət və ehtiramını gətirmişəm və bütün Azərbaycan xalqı adından Sizi və bütün Türkiyə vətəndaşlarını bu bayram günləri münasibətilə ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

"ÜLKÜ" ORTA MƏKTƏBİNİN TƏNTƏNƏLİ AÇILIŞI

Azərbaycan Prezidenti Heydər Əliyev və Türkiyə Prezidenti Süleyman Dəmirəl İspartada "Ülkü" orta məktəbinin təntənəli açılışı mərasimində iştirak etdilər.

Dövlətimizin Başçısı Heydər Əliyev məktəbin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:

"Bu gün İspartada yeni bir okulun açılış mərasimində iştirak etməyimdən çox məmnunam. Okula, öyrəncilərə və öyrətmənlərə uğurlar arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti

28 noyabr 1999-cu il.

Azərbaycan Prezidenti **Heydər Əliyev** məktəblilərə müraciətlə dedi:

- Əziz uşaqlar, Türkiyənin bu günü və gələcəyi, Türkiyənin gəncləri!

Mən bu gün əziz dostum, qardaşım, hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəlin dəvəti ilə İspartaya gəlməyimdən həddən ziyadə xoşbəxtəm. Sizi salamlayıram. Sizə Azərbaycan uşaqları adından salamlar, sayqılar söyləyirəm. Sizə bütün təhsilinizdə, həyatınızda gələcək uğurlar diləyirəm. Sağ olun.

Respublikamızın rəhbəri məktəbə xatirə hədiyyəsi təqdim etdi və dedi:

- Əziz uşaqlar, bu məktəbin sahibləri! Mən Azərbaycan rəssamının bu əsərini, Azərbaycanın mənzərəsini əks etdirən bu əsəri Sizin məktəbə hədiyyə edirəm. İnanıram ki, Azərbaycanla olan əlaqələr daha da artacaqdır. Uğurlu olsun!

Bu baxımdan Azərbaycanda demokratiyanı daha da irəliyə aparmaq, inkişaf etdirmək üçün yeni parlament seçkiləri, Milli Məclis seçkiləri xüsusi yer tutur. Biz buna yaxşı hazırlaşmalıyıq. Yeni seçki qanunu hazırlanmalı və qəbul olunmalıdır, başqa lazımi tədbirlər vaxtında həyata keçirilməlidir. Bunlar hamısı seçkilərin keçən seçkilərə nisbətən daha da uğurla, demokratik şəraitdə, azadlıq, sərbəstlik şəraitində keçirilməsini təmin etmək üçündür. Mən hesab edirəm, bizim dövlətimiz, cəmiyyətimiz artıq elə bir səviyyədədir ki, biz bu vəzifəni yerinə yetirə biləcəyik.

İslahatlar davam edəcəkdir. Biz hüquq islahatları haqqında bir neçə qanun qəbul etmişik. Onların həyata keçirilməsi müəyyən qədər gecikibdir. 2000-ci il hüquq islahatlarının, yəni məhkəmə islahatlarının həyata keçirilməsində çox böyük əhəmiyyət kəsb edir. Qəbul edilmiş qanunların hamısı tətbiq olunmalı, həyata keçirilməlidir. Bunlar hamısı həm demokratiyanı inkişaf etdirəcək, həm dövləti möhkəmləndirəcək, həm də vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Biz bunların hamısını etməliyik və edəcəyik.

Biz 2000-ci ildə nöqsanların, qüsurların aradan götürülməsi ilə gərək ciddi məşğul olaq. Təəssüf ki, bu nöqsanların içərisində dövlət məmurlarının, yüksək vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə edilməsi, qanun pozuntularına yol verilməsi bizim hamımıza böyük zərər gətirir. Cəmiyyətdə, ölkədə apardığımız mübarizəyə baxmayaraq, korrupsiya, rüşvətxorluq hələ mövcuddur. Bu, həm dövlət işinin uğurla aparılmasına böyük əngəllər yaradır, həm Azərbaycanın sərbəst iqtisadiyyatının inkişaf etdirilməsinə maneçilik törədir, həm də insanlara, vətəndaşlara əziyyət verir, onların hüquqlarına toxunur. Ona görə də həm dövlət, hökumət tərəfindən, həm də vətəndaşlar tərəfindən qanun-qaydalara riayət etmək, nöqsanların aradan götürülməsi uğrunda ciddi mübarizə aparmaq, korrupsiyanın aradan qaldırılması üçün yeni ciddi tədbirlər görmək həm dövlətin, hökumətin, həm də cəmiyyətin əsas vəzifələrindən biridir. Ümid edirəm ki, biz bu vəzifənin həyata keçirilməsində də irəliləməyə nail olacağıq.

İctimai-siyasi sabitlik qorunub saxlanılmalıdır. Bu, əsas şərtdir. Çünki ölkəmizin apardığı daxili və xarici siyasət heç də hər yerdə birmənalı, yaxud da müsbət qəbul olunmur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın milli mənafelərini müdafiə etmək, qoruyub saxlamaq məqsədi daşıyır. Biz öz dövlətimizin siyasətini aparırıq. Təbiidir ki, dünyada gedən prosesləri də nəzərə alırıq, ətrafımızda gedən prosesləri də nəzərə alırıq. Ancaq belə müstəqil siyasəti həyata keçirmək heç də asan deyildir. Buna baxmayaraq, Azərbaycanın müstəqil, ardıcıl xarici siyasəti 2000-ci ildə davam etməlidir. Bu, bizim müstəqilliyimizin daha da möhkəmlənməsinə kömək edəcək və beynəlxalq aləmdə ölkəmizin hörmətinin artmasını təmin edəcəkdir.

İctimai-siyasi sabitliyin təmin olunması uğurlu xarici siyasət aparmaq üçün əsasdır. Amma eyni zamanda ölkəmizdə vətəndaş sülhünün, vətəndaş birliyinin təmin olunması üçün də çox vacib əsasdır. Bizim cəmiyyətimiz artıq irəliyə gedib, inkişaf edibdir. Cəmiyyətdə müxtəlif fikirli qüvvələr, siyasi partiyalar, ictimai təşkilatlar var. Bunlar hamısı təbii hallardır.

SÜLEYMAN DƏMİRƏL ADINA UNİVERSİTETİN ARAŞDIRMA VƏ TƏDQİQAT XƏSTƏXANASININ TƏMƏLİNİN QOYULMASI MƏRASİMİ

Noyabrın 29-da Azərbaycan Respublikasının və Türkiyə Respublikasının Dövlət başçıları Süleyman Dəmirəl adına Universitetə gəldilər.

Türkiyə Prezidenti Süleyman Dəmirəl xəstəxananın təməlinin qoyulmasına xeyir-duasını verdi.

Azərbaycan Prezidenti Heydər Əliyevə, Türkiyə Prezidenti Süleyman Dəmirələ xatirə hədiyyələri - plaketlər təqdim olundu.

Respublikamızın rəhbəri Universitetin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı: "Süleyman Dəmirəl Universitetinə yeni uğurlar arzulayıram.

DÖVLƏTİMİZİN BAŞÇISI HEYDƏR ƏLİYEVƏ İSPARTA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİNİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım hörmətli Süleyman Dəmirəl!

Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Rauf Denktaş!

Hörmətli nazirlər!

Hörmətli rektor, professorlar, doktorlar, tələbələr, müəllimlər!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və Azərbaycan xalqı adından, müstəqil Azərbaycan adından Sizə ən dərin, qəlbimdən gələn hörmət və ehtiramımı bildirirəm.

Mən bu gün həyatımın çox tarixi bir gününü yaşayıram. Bilirsiniz ki, mənim həyatım həm Süleyman Dəmi-

rəlin, həm də Rauf Denktaşın həyatından yaşca böyükdür. Onlar məndən gəncdirlər.

Bəli, mən həyatımın tarixi bir gününü yaşayıram, ona görə ki, yenidən qardaş, dost Türkiyədəyəm. Ona görə ki, Türkiyənin qədim diyarı olan İspartadayam. Ona görə ki, xalqımızın böyük dostu, mənim qardaşım Süleyman Dəmirəlin vətanındayam. Ona görə ki, Sizinlə bir yerdəyəm, birəbirəm.

Türkiyənin hər bir diyarı, hər şəhəri, hər vilayəti gözəldir. Biz Azərbaycanda Türkiyəni həmişə sevmişik, indi də sevirik. Ancaq Azərbaycan xalqı doğma türk xalqından 70 il ayrı düşmüşdü. Biz ondan əvvəl Rusiya imperatorluğunun, 1920-ci ildən isə Sovetlər Birliyinin, Sovet imperiyasının tərkibində yaşamışıq. O illər Sovetlər Birliyində heç bir xarici ölkə, xalq ilə əlaqə qurmaq mümkün deyildi.

Təbiidir ki, o vaxt azərbaycanlılar dünyanın hər yeri ilə əlaqə qurmaq arzusunda deyildilər. Türkiyə, türk xalqı isə Azərbaycan üçün əziz, doğma, qardaş, bizim kökümüz, dilimiz, dinimiz, adət-ənənələrimiz bir olduğuna görə biz həmişə çalışırdıq ki, Türkiyəni görək, Türkiyə ilə əlaqə quraq. Ancaq o illərdə bunlar mümkün deyildi. Yəni biz illərlə, on illərlə Türkiyə həsrəti ilə yaşamışıq.

Nəhayət, Sovetlər Birliyi dağıldı, Azərbaycan öz dövlət müstəqilliyini, istiqlaliyyətini əldə etdi və qısa bir zamanda, demək olar ki, bir gündə, bir ayda, bir ildə Türkiyə ilə Azərbaycan arasında elə əlaqələr yarandı ki, sanki biz 70 il bir-birimizdən ayrı olmamışıq. Biz ayrı olarkən ancaq radiodan - televiziya sonra yarandı - Türkiyədə Türkiyənin necə olduğunu dinləyirdik, bilirdik. Sevinirdik ki, bizim dilimiz birdir.

Ancaq qovuşandan, birləşəndən sonra görürsünüz ki, biz nə qədər bir-birimizlə birik. Mən Sizi yüzdə yüz faiz başa düşürəm, Siz isə məni bəlkə yüzdə 95 faiz başa düşürsünüz. Türkiyəyə nə qədər çox gəlsək də, nə qədər çox görüşsək də, biz Türkiyədən doymuruq.

Bugünkü gün mənim üçün çox önəmlidir. Mən bununla fəxr edirəm, sevinirəm. Çünki həm İspartanı gördüm, həm xalq ilə görüşdüm, xalqın öz dövlətinə, öz prezidentinə, onun qonaqlarına və böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yola nə qədər məhəbbətli, sədaqətli olduğunu gözlərimlə gördüm.

Bu gün burada İsparta üçün, təkcə İsparta üçün yox, bütün Türkiyə üçün çox əlamətdar hadisələr baş verdi. Burada qəlb cərrahiyyə əməliyyatı xəstəxanası, mərkəzi açıldı. Gözəl bir orta məktəb istifadəyə verildi. Çox gözəl, möhtəşəm bir mədəniyyət mərkəzi salonları ilə birgə açıldı. Nəhayət, mənim əziz dostum Süleyman Dəmirəlin adını daşıyan Universitetdəyəm. Mən bu Universitetin Fəxri doktoru adını almağa layiq görülmüşəm.

Mən bu ilin aprel ayında Amerika Birləşmiş Ştatlarında qəlb cərrahiyyə əməliyyatı keçirmişəm. Ondan əvvəl nə olduğunu bilmirdim. Bəzən insanlar "qəlb cərrahiyyə əməliyyatı" deyəndə mən fikirləşirdim ki, yəqin hər adamda yox, çox xəstə olanlarda belə əməliyyat aparılır. Amma belə deyilmiş. Mən Vaşinqtona NATO-nun yubileyinə getmişdim. Həmin yubiley tədbirləri başa çatan gün elə oldu ki, mən xəstəxanaya düşdüm və üzərimdə cərrahiyyə əməliyyatı keçirdilər. Bunu ona görə deyirəm ki, bu cərrahiyyə əməliyyatını keçirmiş bir insan kimi mən bilirəm - hörmətli Şövkət Dəmirəlin təşəbbüsü və fədakarlığı nəticəsində ən yüksək səviyyədə, müasir texnologiya ilə işləyən belə bir ürək cərrahiyyə əməliyyatı xəstəxanasının İspartada açılması həqiqətən böyük bir hadisədir. Mən Sizə deyə bilərəm, Azərbaycan müstəqil dövlətdir, ölkəmizin 8 milyon əhalisi var, amma bizdə belə bir xəstəxana yoxdur. Ancaq olacaqdır.

Əgər Türkiyədə, onun böyük şəhərlərində saysız-hesabsız səhlamlıq mərkəzləri, xəstəxanalar varsa və bu gün İspartada belə bir xəstəxana açılırsa, görün Türkiyə qısa zamanda nə qədər böyük bir inkişaf yolu keçibdir.

Əziz dostum Süleyman Dəmirəl dünən Ankarada TEMA-nın gözəl bir toplantısını keçirdi. Bu, həddən ziyadə, çox gözəl bir işdir. Məmnunam ki, mən o toplantıda iştirak etdim, hətta orada mənə nitq söyləməyə də imkan verdilər. Mən orada gördüm ki, Türkiyədə təbiətin - torpağın, suların, ormanların qorunması üçün nə qədər böyük işlər aparılır. Bu, nə üçündür? Bunlar hamısı insanlar üçündür. Əgər dünyada, o cümlədən Türkiyədə bir tərəfdən sənaye, texnologiya inkişaf edir, torpağa kimyəvi gübrələr verilib, sənaye tullantıları çaylara, sulara axıdılıb torpağı zəhərləyirsə, o biri tətəfdən ağacları qırırlarsa, digər tərəfdən isə torpağın eroziyasının qarşısını almağa, torpağı təmizləməyə, sağlamlaşdırmağa çalışırlar, meşələri, ormanları artırılar - nə üçün? Bunlar insanların yaşaması üçündür. Bunlar türk xalqı üçündür. Bunlar hər bir türk üçündür.

Dünən ilə bu gün bir-biri ilə üzvi surətdə bağlıdır. Türkiyənin həyatında bu iki gün, sadəcə onu göstərir ki, Türkiyənin dövləti, xalqı, iş adamları və Türkiyənin prezidenti, əziz dostum Süleyman Dəmirəl ölkənin inkişafı və xalqın rifah halının yaxşılaşması, xalqın günü-gündən sağlamlaşması üçün nə qədər böyük işlər görürlər. Mən Sizi bu nailiyyətlərə görə təbrik edirəm.

Bu gün mənə Fəxri Doktor adı verildi. Bu, mənim üçün həqiqətən böyük şərəfdir. Mən həyatımda çox böyük mükafatlar, dövlət nişanları almışam. Ancaq noyabrın 1-də Ankarada mənə böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatının verilməsini mən həyatımda ən yüksək hadisə hesab ediram və bu nişanı böyük iftixar hissi ilə daşıyıram.

Mən bir çox ölkələrin universitetlərinin Fəxri doktoru adını almışam. Mənə Türkiyə Cümhuriyyətinin bir neçə universitetinin də fəxri doktoru adı verilib. Bizim səfir mənə xəbər verdi ki, onları almışam. Həm də bildirdi ki, bəziləri də var, gedib onları özüm almalıyam. Mən vaxt tapıb bunu edəcəyəm. Amma bu gün burada Süleyman Dəmirəlin adını daşıyan Universitetin Fəxri Doktoru adını al-

maq mənim üçün çox böyük şərəfdir və mən bunu çox yüksək qiymətləndirirəm.

Süleyman Dəmirəlin adını daşıyan Universitet qısa bir zamanda - 7 il ərzində nə qədər yüksəlib, böyüyübdür, inkişaf edibdir. Bunu təsəvvür etmək mümkün deyildir. Bilirsiniz, Siz Türkiyədə öyrənmisiniz ki, çox böyük universitetlər yaranır. Bu universitetləri dövlət də, vaqflar da yaradır. Hətta bəziləri narazı olurlar ki, niyə daha çox yaradılmır. Amma görün, 7 il öncə İspartada bu qədər böyük binalar, ləvazimata, texnologiyaya, cihazlara malik olan universitet yaranıbdır. 7 il içərisində o, nə qədər yüksəlib, inkişaf edib və dünyanın böyük universitetləri ilə yarışa bilən bir universitetə çevrilibdir.

Mən fəxr edirəm ki, əziz dostum Süleyman Dəmirəlin adını daşıyan Universitetin Fəxri doktoruyam və ömrümün sonuna qədər bu adı iftixar hissi ilə daşıyacağam. Mən anlayıram ki, bu mənim üzərimə vəzifələr qoyur. Bu vəzifələr təbii, ondan ibarət deyildir ki, gəlib burada Sizinlə birlikdə dərs deyəcəyəm, yaxud başqa işlər görəcəyəm. Bunları Siz özünüz bizdən yaxşı bilirsiniz. Vəzifə bunu Azərbaycan-Türkiyə dostluğunun rəmzi kimi qəbul edərək, bu dostluğu, qardaşlığı günü-gündən inkişaf etdirməkdən və əbədi, sarsılmaz etməkdən ibarətdir.

Eyni zamanda Azərbaycan universitetləri ilə Türkiyə universitetləri arasında əlaqələr inkişaf edir. Həm milli təhsil naziri, həm də ali təhsil idarəsinin rəhbəri bu gün burada bu barədə danışdılar. Mən bundan çox məmnunam, hesab edirəm ki, bu əlaqələri daha da genişləndirmək lazımdır. Xüsusən, hesab edirəm ki, Bakı Dövlət Universiteti - bu universitet 1919-cu ildə yaranıbdır, onun böyük tarixi, 80 ildən çox yaşı vardır - Süleyman Dəmirəl adına Universitet ilə birbaşa əlaqə qurməlidir, iş birliyi aparmalıdır və onlar bir-birinə yardım etməlidirlər.

Əziz dostlar, mən noyabr ayında üçüncü dəfədir ki, Türkiyədəyəm. Əziz dostum, hörmətli Süleyman Dəmirəlin dəvəti ilə noyabrın 1-də buraya gəldim. Biz zəlzələ olmuş yerlərə birlikdə getdik, Kocaelidə, İzmitdə olduq, insanlarla görüşdük.

Həmin insanlar üçün tikilmiş müvəqqəti evləri, çadırları gördük. Onların dərdi, qəmi, kədəri bizim dərdimiz, qəmimiz, kədərimiz olduğu üçün mən bunları gördükcə daha da kədərləndim, üzüldüm. Amma eyni zamanda məmnun oldum ki, Türkiyə Cümhuriyyəti və Türkiyə hökuməti, xalqı bu böyük sınaqdan, yəni bu ağır fəlakətdən uğurla çıxmışdır və qısa zamanda, birinci növbədə insanların həyatını qurmaq, onların yaşaması üçün şərait yaratmaq işi ilə məşğuldur.

Şübhəsiz ki, dağılan binaların hamısı yenidən bərpa olunacaq, bəlkə də ondan yaxşıları tikiləcəkdir. Dünyada belə zəlzələlər olur. Türkiyədə keçmişdə də bələləri olubdur. Amma nə qədər insan həlak olubdur. Mən bu gün fürsətdən istifadə edib, onlara Allah-taaladan bir daha rəhmət diləyirəm və bütün Türkiyə xalqına "keçmiş olsun" deyirəm.

Dedim ki, biz Ankarada olduq və

mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verildi. Sonra noyabrın 17-də yenə də Türkiyəyə gəldim, ayın 20-dək İstanbulda ATƏT-in Zirvə görüşündə oldum.

Mən ATƏT-in Zirvə görüşlərində avvəllər də iştirak etmişəm. Ancaq ATƏT-in İstanbul Zirvə görüşü ona görə çox önəmlidir, tarixi əhəmiyyət kəsb edir ki, o, XX əsrin sonunda keçirilən Zirvə görüşüdür. Növbəti Zirvə görüşü artıq XXI əsrdə olacaqdır. Bu sammit ona görə önəmlidir ki, həmin Zirvə görüşündə XXI əsrə işıq saçan çox əhəmiyyətli qərarlar qəbul olundu, sənədlər imzalandı. Dövlət başçıları görüşdülər, danışdılar, bir çox məsələlər həll olundu.

Şübhəsiz ki, mən bu Zirvə görüşünü çox uğurlu hesab edirəm. Ancaq eyni zamanda mən bu Zirvə görüşünü Türkiyə üçün daha da çox uğurlu hesab edirəm. Türkiyə Cümhuriyyəti dünya birliyində nə qədər böyük yer tutubdur ki, belə bir beynəlxalq toplantının məhz Türkiyədə, İstanbulda keçirilməsi Türkiyəyə etibar edilibdir. Bu, Türkiyə Cümhuriyyətinin dünyada böyük hörmətini göstərir. Türkiyə Cümhuriyyəti, hökuməti, Prezident, əziz dostum Süleyman Dəmirəl də dünyaya nümayiş etdirdilər ki, Türkiyə Cümhuriyyəti bu gün bundan da gözəl, böyük dünyəvi, beynəlxalq əhəmiyyəti olan toplantılar keçirməyə və həm də uğurla keçirməyə qadirdirlər.

Təbiidir, İstanbul Zirvə görüşü ərəfəsində Amerika Prezidenti Bill Klintonun Türkiyəni ziyarət etməsi, Türkiyəyə çox böyük önəm verməsi və gözəl nitqlər söyləməsi, Türkiyənin dünyada tutduğu yer haqqında gözəl fikirlər deməsi məni türk xalqını sevindirən kimi sevindirir. ATƏT-in Zirvə görüşünün bu qədər gözəl təşkil olunması - yəni hər bir toplantının uğuru onun təşkil edilməsindən asılıdır, şübhəsiz ki, Türkiyə Cümhuriyyətinin və bu işlə şəxsən məşğul olan hörmətli Süleyman Dəmirəlin böyük xidmətləridir. Onun bu xidmətləri hər bir dövlət başçısı tərəfindən yüksək qiymətləndirildi. Onun bu xidmətləri və Türkiyənin bu gün dünyadakı strateji yeri Amerika Prezidenti Bill Klinton tərəfindən bəyan edildi. Bir dost, qardaş kimi, bunlar hamısı məndə Türkiyə üçün iftixar, qürur hissi doğurur.

Bəli, mən dedim, artıq üçüncü dəfədir ki, Türkiyədəyəm. Türkiyəni ziyarət etmək mənim üçün sevindiricidir. Amma eyni zamanda, görün mən Türkiyəni nə qədər sevirəm ki, bir ay içərisində üç dəfə buraya gəlmişəm.

Azərbaycan haqqında Sizin bilgiləriniz vardır. Bilirsiniz ki, Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Artıq qeyd etdim ki, biz bir kökdənik. Dostum Süleyman Dəmirəl çox gözəl bir ifadə işlətdi ki, biz bir böyük çınarın budaqlarıyıq. Həmin budaqlardan biri də Azərbaycandır.

Ancaq keçmişdə də Azərbaycanın həyatında çoxlu problemlər olubdur, müstəqillik, istiqlaliyyət əldə edəndən sonra da onun həyatı çox çətindir. Bizim üçün ən ağır problem Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzdür. Bu hərbi təcavüz 1988-ci ildə başlanıbdır. O vaxt Azərbaycan da, Ermənistan da hələ Sovetlər

Birliyinin tərkibində idi. Bu təcavüz nəticəsində müəyyən səbəblərə görə Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisini, torpaqlarının 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlılar - sizin qardaşlarımız, bacılarımız yeddi ildir ki, öz yerindən-yurdundan qovulub, zorla çıxarılıb və çadırlarda ağır şəraitdə yaşayırlar. Universitetin rektoru mənim tərcümeyi-halım haqqında məlumat verəndə dedi. Bəli, Ermənistan - Azərbaycan münaqişəsi başlananda Azərbaycanda sabitlik olmayıbdır. Xüsusən, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Azərbaycan dağılmaq ərəfəsində idi. Ancaq biz 1993-cü ildən başlayaraq bütün bunların qarşısını aldıq. Ölkəmizdə bir neçə dəfə dövlət çevrilişinə cəhd göstərmək istədilər, biz bunların da qarşısını aldıq. İndi Azərbaycan sabitdir. Ölkəmizdə istiqrar təmin olunubdur. Azərbaycan yaşayır, inkişaf edir. Onun yaşamasının, inkişaf etməsinin səbəblərindən də biri odur ki, biz 1994-cü ildə müharibədə atəşi dayandırdıq. Yəni atəşkəs haqqında Ermənistanla saziş imzaladıq. Biz o vaxtdan indiyədək məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq.

Bildirmək istəyirəm ki, bütün bu illərdə Türkiyə Azərbaycanla birgə olubdur. Azərbaycanın müstəqilliyini, istiqlaliyyətini dünyada tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti olubdur. Ermənistanı Azərbaycana hərbi təcavüz etmiş kimi dünyaya bəyan edən Türkiyədir.

ATƏT-in Minsk qrupunun üzvü olan bir ölkə kimi Türkiyə - təkcə buna görə yox, bizimlə qardaşlıq əlaqələri olduğuna görə - Azərbaycana daim yardım edir və məsələnin sülh yolu ilə həll edilməsi sahəsində nə qədər biz çalışırıqsa, o qədər də Türkiyə Cümhuriyyəti və xüsusən, əziz dostum Süleyman Dəmirəl çalışır. Bilirsiniz, bəzən mənə elə gəlir ki, hörmətli dostum Süleyman Dəmirəl Azərbaycanı ölkəmizdə yüksək vəzifələrdə çalışan bəzi adamlardan daha da yaxşı tanıyır. Çünki o, bizim işlərimizlə maraqlanır, soruşur, məlumat alır və tövsiyələr verir. Bütün bunlara görə xalqımız Türkiyə Cümhuriyyətinə və əziz dostum Süleyman Dəmirələ, Türkiyə hökumətinə minnətdardır.

Mən ümid edirəm ki, Ermənistan - Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunacaqdır. Biz yenidən müharibə etmək istəmirik. Biz müharibə, savaş tərəfdarıyıq. Təsadüfi deyil ki, Beynəlxalq Atatürk Sülh Mükafatı verilibdir. Mən bundan sonra heç vaxt müharibə edə bilmərəm. Ancaq biz torpaqlarımızın ermənilərin əlində qalmasına da imkan verə bilmərik. Biz Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə çalışırıq və bunu edəcəyik, işğal olunmuş torpaqlardan didərgin düşmüş azərbaycanlıları öz yerlərinə-yurdlarına qaytaracağıq. Bu torpaqlar Ermənistan silahlı qüvvələrindən azad olunacaq və Azərbaycan bir müstəqil dövlət kimi daha sürətlə inkişaf edəcəkdir.

ATƏT-in İstanbul Zirvə görüşü zamanı tarixi bir hadisə baş verdi. O da Sizə məlum olan Bakı-Ceyhan əsas ixrac boru kəməri haqqında sazişin imzalanmasıdır. Bu, tarixi bir hadisədir. Çünki Türkiyənin, Azərbaycanın dostları və bu məsələdə bizə ötən beş ildə dəstək verənlər sevinirlər. Ancaq onun əleyhinə olanlar, onu istəməyənlər, Türkiyəni, Azərbaycanı istəməyənlər çox narahatdırlar, rahatsızdırlar. Ona görə də dünyanın müxtəlif ölkələrində indi cürbəcür yazılar yazılır. Biri deyir ki, bu, uğursuz olacaqdır. O birisi deyir, Xəzərdə o qədər neft yoxdur ki, belə bir bahalı boru xətti çəkilsin. Digəri deyir ki, buna imkan verilməyəcəkdir.

Bu yazılar, danışıqlar indi çox dolaşır. Amma biz bu layihənin əsasını 1994-cü ildə qoyduq. 1994-cü ildə Azərbaycan cəmisi üç il müstəqil dövlət olduğu zaman biz cəsarətli bir addım atdıq. Biz burada da Türkiyə ilə əməkdaşlıq edirdik, iş birliyi qururduq. O da ondan ibarət idi ki, 9 ölkədən dünyanın 11 böyük neft şirkətini Azərbaycana dəvət etdik, Azərbaycanın Xəzər dənizində olan zəngin yataqlarının müştərək işlənməsi haqqında böyük bir müqavilə imzaladıq. Bu müqavilə bütün dünyaya səs saldı, onun adına "Əsrin müqaviləsi" dedilər. Biz bununla Xəzər dənizinin böyük neft və qaz sərvətlərindən bütün dünya birliyi üçün istifadə olunmasının təməlini, əsasını qoyduq. Biz bununla Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin əsasını qoyduq. Həmin müqavilədə Türkiyənin hissəsi vardır. Sonrakı müqavilələrdə də Türkiyənin hissəsi vardır.

Biz bu müqaviləni imzalayandan sonra neft haradan-haraya gedəcəkdir? Şərqə, Şimala, Qərbə - haraya gedəcək? Hərə bir tərəfə çəkirdi. Ancaq biz Azərbaycan olaraq birinci gündən qərar qəbul etdik. Mən iftixar hissi ilə deyirəm ki, mən bu işi birinci gündən əziz dostum Süleyman Dəmirəllə birlikdə sona qədər apardım ki, bu, Bakı-Ceyhan boru xətti olmalıdır, bu, mütləq Türkiyəyə getməlidir. Bunun üzərində 5 il çalışandan sonra ona nail olduq. ATƏT-in Zirvə görüşü zamanı bu sazişin yüksək səviyyədə məhz Türkiyədə, İstanbulda, "Çırağan sarayı"nda Amerika Prezidenti Bill Klintonun iştirakı ilə imzalanması və onun altında Amerika Prezidentinin imzasının olması da bunu uğurlu, uzunmüddətli etdi. Bu, bizim - Türkiyənin, Azərbaycanın böyük qələbəsidir. Mən bu qələbə münasibətilə Sizi təbrik edirəm.

Əziz dostum Süleyman Dəmirəl bu gün çox gözəl bir nitq söylədi. O, dünən də çox gözəl nitq söylədi. Hörmətli Süleyman Dəmirəl qısa bir zamanda Türkiyənin inkişafını, yüksəlməsini, sadəcə, sözlə yox, rəqəmlərlə, faktlarla bir daha çatdırdı.

Baxmayaraq ki, Türkiyə bunu bilir, amma insan elədir ki, gərək onu daim insanın beyninə dolduresan. Çünki bunlar bəzilərinin beynindən çıxır.

Əziz dostum Süleyman Dəmirəl gözəl bir nitq söylədi. Onun nitqinin bir hissəsi də odur ki, bəli, Adriatik dənizindən Çin səddinə qədər türkdilli dövlətlər dünyası var və gələcəkdə də olacaqdır. Mən də onu deyirəm ki, bu, pantürkizm deyildir.

Amma bu odur ki, bir kökdən, bir mədəniyyətdən, bir dindən, bir adət-ənənədən olmuş bu xalqlar bir-biri ilə daha da yaxınlaşmalıdırlar.

Məhz bu məqsədlə Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yeniçə müstəqillik, istiqlaliyyət qazanmış Türkdilli Ölkələrin Dövlət Başçılarının İstanbulda toplantısı keçirilibdir. Burada bu təşkilatın əsası qoyulubdur. Bu təşkilat artıq 7 ildir ki, yaşayır. Biz ildə bir dəfə bu toplantıları Türkdilli Cümhuriyyətlərdə keçiririk. Mədəniyyət, iqtisadiyyat, başqa bütün sahələrdə əməkdaşlığımızı edirik və tarixi bir daha təhlil edirik. Müştərək tarixi abidələrimizi yada salır və onların yubileylərini keçiririk. Bu, çox böyük əhəmiyyətə malikdir.

Bəli, bu, türk dünyasının inkişafının təməli kimi bir şeydir. Amma bu, heç də asan deyildir. Çünki onu da qısqananlar və onun əleyhinə olanlar vardır. Amma bu birliyin yaranmasında və bu birliyin 7 ildən bəri yaşamasında Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum və türk dünyasının lideri Süleyman Dəmirəlin xüsusi xidmətləri vardır.

Bəlkə də Siz bunları bilmirsiniz, amma bilməlisiniz. Biz, türkdilli ölkələrin dövlət başçıları, Prezidentləri həmişə görüşürük, danışırıq. Bizim üçün Süleyman Dəmirəl - Azərbaycanda ağsaqqal deyirlər, Siz baba deyirsiniz. O, babadan da babadır, mən ona babadan da yüksək ad arayıram. Ola bilər ki, həmin dövlətlər arasında hansısa bir məsələ birbirinə xoş gəlməsin. Amma hörmətli Süleyman Dəmirəl olan yerdə Türkdilli Ölkələrin dövlət başçılarının hamısı onun ətrafındadır, onların hamısı onunla birdir. Əziz dostum Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin ağırlığını öz çiynində daşıyır və daşıyacaqdır.

Mən çox məmnunam ki, indi Türkiyə Cümhuriyyətinin Süleyman Dəmirəl kimi dünyada tanınmış lideri vardır. Hörmətli Süleyman Dəmirəl 50 ildən çoxdur ki, dövlət, siyasət işi ilə məşğul olur. ATƏT-in İstanbul Zirvə görüşündə bir fikir də qeyd edildi. Deyəsən, bunu Bill Klinton dedi. O dedi ki, 25 il bundan öncə Helsinkidə ATƏT-in əsası qoyulubdur, orada Helsinski yekun aktı qəbul edilibdir. 35 dövlət həmin sənədə imza atıbdır. Orada Türkiyədən Süleyman Dəmirəlin imzası vardır. O sənədə imza atanlardan - bəziləri bu gün həyatda, bəziləri də dünya siyasətində yoxdur - dünya siyasətində olan yeganə şəxs Süleyman Dəmirəldir. Mən bunu bilirdim. Amma mən bunu Bill Klintondan eşidəndə nə qədər sevindim.

Bir məsələni də demək istəyirəm. O vaxt biz Sovetlər Birliyinin tərkibində idik. 1975-ci ildə bunu televiziya vasitəsilə göstərirdilər. Orada Süleyman Dəmirəlin yanında Sovetlər Birliyi kimi bir dövlətin başçısı Brejnev oturmuşdur. Süleyman Dəmirəlin o biri yanında isə o vaxt çox məşhur olan adam - Broz Tito oturmuşdu. O vaxt mən Süleyman Dəmirələ baxırdım. Çünki bunların da kim olduğu əhəmiyyətlidir, amma arayırdım ki, Türkiyə, Süleyman Dəmirəl haradadır. Mən televiziya vasitəsilə ona baxanda sevinirdim ki,

Türkiyənin nümayəndəsi, o vaxtkı Baş nazir həmin 35 dövlətin başçıları ilə oturub birlikdə həmin o ATƏT təşkilatının əsasnaməsini, qərarlarını imzalayırdı. Nə qədər böyük xoşbəxtlikdir ki, bu adam bu gün də yaşayır və Türkiyəyə liderlik edir. Əminəm ki, bundan sonra da hələ çox illər liderlik edəcəkdir.

Əziz dostlarım, ona göra də Süleyman Dəmirəli qoruyun, - gözünüz, canınız kimi qoruyun. Çünki o, Sizə, Türkiyə Cümhuriyyətinə, türk dünyasına lazımdır.

Əziz dostlar, bu gün biz səhərdən indiyədək çalışırıq. Bəlkə kimsə yorulub, amma mən yorulmamışam. Çünki mən bu qədər gözəl qonaqpərvərlik, dostpərvərlik, mehribanlıq görürəm və o qədər hadisələr baş verir ki, mən yorulmamışam. Əgər hörmətli Süleyman Dəmirəlin hələ bir proqramı olsa, bundan sonra 12 saat da çalışa bilərik.

Mənə göstərilən qonaqpərvərliyə, dostluq, qardaşlıq münasibətinə görə Sizə bir daha təşəkkür edirəm. Bir daha bəyan edirəm ki, Azərbaycan-Türkiyə, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir. Mən əmin olduğumu bildirirəm ki, Türkiyə Cümhuriyyəti böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə əbədi olaraq gedəcəkdir. Türk xalqı nə qədər ki, bu yolla gedəcək, o qədər də uğurlar əldə edəcəkdir.

Yaşasın qəhrəman türk xalqı!

Yaşasın Atatürk Türkiyə Cümhuriyyəti!

Yaşasın əbədi, sarsılmaz Türkiyə-Azərbaycan dostluğu!

Respublikamızın Prezidenti Heydər Əliyev Universitetə xatirə hədiyyələri təqdim edərək dedi:

- Əziz dostlar, Siz mənə ərmağan verdiniz. Mənim də Sizə ərmağanım vardır. Birincisi, əziz dostum Süleyman Dəmirəlin 75 illik yubileyi münasibətilə Azərbaycanda mənim himəyəm altında bir kitab nəşr etmişik. Bu kitabın böyük bir hissəsini mən yazmışam. Bu kitab "İslamköydən Çankayaya qədər" adlanır. Mən bu kitabdan on nüxsəsini universitetinizin kitabxanəsına verirəm.

Süleyman Dəmirəl adına Universitetə daha böyük bir ərmağanım var. Onu da Sizə təqdim edirəm. Mən bilirəm ki, İspartada çox gözəl xalılar toxuyurlar. Ona görə də mən böyük risk etmişəm ki, bu əsəri xalıda gətirmişəm. Ancaq Azərbaycan xalçaçıları da gözəl xalçalar toxuyurlar və çox gözəl rəsmlər çəkirlər. Məhz bu xalını Atatürkə, Türkiyə Cümhuriyyətinə və Süleyman Dəmirələ məhəbbət hissi ilə toxuyublar, Türkiyə-Azərbaycan dostluğunun daha da güclənməsi, möhkəmlənməsi üçün yaradıblar. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BAŞ BAKANLIĞININ GÖMRÜK MÜŞTƏŞARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 8-də Prezident sarayında Türkiyə Başbakanlığının gömrük müşteşarı Ramazan Uludağı qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonağı səmimiyyətlə salamladı, gömrük xidmətinin çox önəmli sahə olduğunu vurğuladı. Türkiyə Başbakanlığının gömrük müstəşarı Ramazan Uludağ Prezident Heydər Əliyevə minnətdarlığını bildirərək dedi:

- Hörmətli Cümhurbaşkanım. Biz Bakıya ölkələrimiz arasındakı qarşılıqlı əlaqələrin genişləndirilməsi və gömrük sahəsində dünyada gedən inkişaf barədə müzakirələr aparmaq üçün gəlmişik. Bizi qəbul etdiyinizə görə Sizə dərin hörmət və ehtiramımı bildirirəm. Təbii ki, gömrük işində həm problemlər var, həm də dünyada bu sahədə inkişaf vardır. Dünya ticarəti artıq internet vasitəsilə ticarətə keçir, inhisarlaşmaya keçir. Biz bu sahədə həmkarlarımız, hörmətli nazirinizlə fikir mübadiləsi aparmışıq. Biz iqtisadiyyat üzrə dünyada öndə gedən ölkələr sırasındayıq. Ölkələrimizin coğrafi vəziyyəti, digər ölkələrin gömrük sahəsindəki bəzi nailiyyətləri barədə qarşılıqlı müzakirə aparmaq məqsədilə ziyarətə gəlmişik. Səfərimdən çox məmnunam.

Respublikanın Prezidenti **Heydər Əliyev** qonağa təşəkkür edərək dedi:

- Çox gözəl. Türkiyənin gömrük təşkilatı böyük tarixə malikdir. Amma Azərbaycanda gömrük təşkilatı çox gəncdir. Biz müstəqillik, istiqlaliyyət əldə etməzdən öncə Sovetlər Birliyində özümüzün, yəni Azərbaycanın gömrük təşkilatı yox idi. Ona görə də o, yeni qurulmuş bir təşkilatdır və burada dünya təcrübəsindən, o cümlədən Türkiyənin təcrübəsindən istifadə etməyə çox böyük ehtiyac vardır. Bunun üçün də, təbiidir ki, əlaqələri daha da inkişaf etdirmək lazımdır. Dünyanın bir çox ölkələrində gömrük işi ilə əlaqədar müxtəlif təcrübələr vardır. Amma onlar bir-birinə bənzərdir. Bizim üçün isə Türkiyənin təcrübəsi, qanunları daha da yaxındır. Çünki bizim ölkələrimizin tarixi dostluğu, qardaşlığı və tarixi köklərimiz, ölkələrimizin mentalitetinin bir-birinə yaxın olması Türkiyənin gömrük işləri ilə yaxınlığın vacibliyini göstərir. Mənə verilən məlumata görə, Siz Azərbaycana ilk dəfə gəlmisiniz.

Ramazan Uludağ: Cənab Prezident, ilk dəfədir gəlmişəm. Sizin gömrük təşkilatınızı çox yaxşı gördüm. Mən çox yaxşı təəssüratla ayrılıram. Gömrükdə çalışan həmkarlarım son dərəcə bacarıqlıdırlar. Hətta bu təşkilatınızın bölgəmizdəki bütün gömrük idarələrindən səviyyəli olduğunu deyə bilərəm. Bizim təşkilatımız 75-76 illik təcrübəyə malikdir. Amma Azərbaycanın təcrübəsi 7 il ərzində bizi ötüb keçmişdir. Cənab Prezident, 1991-ci ildə Ankarada nahar zamanı bir şəkil çəkilmişdir. O vaxt Siz bizə Ömər Seyfəddindən danışırdınız. Bu, mənim xatirimdədir. İcazə verin, həmin şəkli Sizə təqdim edim.

Cənab Ramazan Uludağ Prezident Heydər Əliyevə həmin şəkli və

xatirə hədiyyəsi təqdim etdi.

Heydər Əliyev: Biz o vaxt birlikdə olmuşduq?

Ramazan Uludağ: Bəli, cənab Prezident.

Heydər Əliyev: Çox gözəldir. O vaxt məni Şərif Ercan dəvət etmişdi. O da bu şəkildədir?

Ramazan Uludağ: Bəli, cənab prezident.

Heydər Əliyev: Çox gözəldir, sağ olun. Təşəkkür edirəm.

Mən çox məmnunam ki, siz bir yerdə çalışırsınız. Amma mənim əziz dostum, Cümhurbaşkanı Süleyman Dəmirələ də demişəm, - "Həsrət körpüsü"ndə gömrük işləri o qədər də yaxşı deyildir. Bunu siz bilirsiniz. Türkiyənin buradakı səfiri bir-iki ay bundan əvvəl oraya getmişdi. Sonra gəlib dedi ki, o "Həsrət köpüsü"ndə gediş-gəliş çoxdur. Amma Türkiyə tərəfinin gömrük məntəqəsi çox kiçikdir. Türkiyə tərəfi bunu buraxa bilmir.

Biz o körpünü 92-ci ilin mayında açdıq. Süleyman bəy gəldi, bakanlar gəldilər. O, mühüm bir iş idi. Yəni Azərbaycanın Türkiyə ilə bir sərhədi, 11 kilometrlik sərhədi var, bu da oradadır. Bu sərhəddən istifadə etmək üçün körpünü yaratdıq. Amma indi gediş-gəliş də rahat olmalıdır.

Ramazan Uludağ: Cənab Prezident, indi oraya sərmayə qoyulur.

Heydər Əliyev: Çox rica edirəm. Siz bilirsiniz ki, Naxçıvan Ermənistan ərazisi ilə bizdən ayrı düşübdür. Buna görə Naxçıvanın Türkiyə ilə, İranla əlaqələri, gediş-gəlişi onun üçün daha da faydalıdır. Məsələn, İran ilə bir neçə yerdən 24 saat gediş-gəliş var. Amma Türkiyə ilə əlaqə bir yerdəndir, orada da Türkiyə tərəfdən işçilər çox azdır, vaxt məhdudiyyəti vardır. Ona görə də insanlar gəlib körpüdə gözləyir, neçə bilmirlər. Mən bunu Süleyman bəyə demişdim. Bu yaxınlarda onunla bir yerdə olduq. Mən Türkiyədə olanda dedi ki, sabah İqdıra gedirəm. İqdırda da valiyə göstəriş vermişdi. Amma siz bu işi yaxşı bilirsiniz.

Ramazan Uludağ: Cənab Prezident, mən Cümhurbaşkanımızla birlikdə İspartada idim.

Heydər Əliyev: Mən də İspartada oldum. Sən mənim İspartaya getməyimi bilirsənmi?

Ramazan Uludağ: Bilirəm, cənab Prezident. Orada xəstəxana açdınız.

Heydər Əliyev: Xəstəxana açdıq, sonra Süleyman Dəmirəl adına Universitetdə mənə Fəxri doktor adı verdilər. Mən orada bir nitq söylədim.

Ramazan Uludağ: Cənab Prezident, mən də orada idim.

Heydər Əliyev: Çox gözəl. Təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 9 dekabr 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Hörmətli Cənab Prezident!
Əziz dostum və qardaşım!

Sizi və qardaş türk xalqını çox əlamətdar və tarixi bir hadisə - Türkiyənin Avropa Birliyinə üzvlüyə namizəd qəbul olunması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Avropa Birliyi ölkələri dövlət başçılarının Helsinki Zirvə görüşünü biz də televiziya kanalları vasitəsilə dərin həyəcanla izlədik. Türkiyə Respublikasının Avropa Birliyinə üzvlüyə namizəd qəbul olunması xəbəri bütün Azərbaycan xalqını hədsiz sevindirdi. Sizin rəhbərliyinizlə qardaş Türkiyənin uzun illərdən bəri apardığı ədalətli mübarizənin xoş nəticələrini görmək bizi çox şad etdi. Ümid edirik ki, Türkiyə tezliklə Avropa Birliyinin tamhüquqlu üzvünə çevriləcəkdir. Avropa elminə, mədəniyyətinə əvəzsiz töhfələr vermiş Türkiyə və qəhrəman türk xalqı buna layiqdir. Avropa və Asiyanı birləşdirən, qədim tarixə, mədəniyyətə malik, çox böyük iqtisadi, siyasi nailiyyətlər əldə edərək regionda qüdrətli, demokratik, dünyəvi dövlətə çevrilmiş və XX əsrin ikinci yarısında ümumavropa təhlükəsizlik sisteminin buna tam mənəvi haqqı var. Bir daha Sizi və böyük türk xalqını bu tarixi hadisə münasibətilə ürəkdən təbrik edirəm və əmin olduğumu bildirirəm ki, XXI əsrdə qardaş Türkiyə Cümhuriyyəti daha da inkişaf edəcək, iqtisadi cəhətdən daha da güclənəcək, öz hərbi-siyasi qüdrətini daha da artıraraq nəinki Avropa qitəsində, eləcə də bütün dünyada sülhün, əminamanlığın, sabitliyin və təhlükəsizliyin təmin olunmasına, demokratiyanın inkişaf etməsinə və insan haqlarının qorunmasına bundan sonra da öz layiqli töhfəsini verəcəkdir.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti.
Bakı şəhəri, 12 dekabr 1999-cu il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli Cənab Baş nazir!

Sizi, Türkiyə hökumətini və bütün türk xalqını Türkiyənin Avropa Birliyinə üzvlüyə namizəd qəbul olunması münasibətilə ürəkdən təbrik edirəm. Bu tarixi hadisənin sizin Türkiyə hökumətinə başçılıq etdiyiniz bir dövrdə baş verməsi məni çox sevindirdi. Türkiyə hökumətinin, Türkiyə dövlətinin uzun illərdən bəri göstərdiyi səylərin xoş nəticələr verdiyini görmək bütün Azərbaycan xalqının sevincinə səbəb olmuşdur. Arzu edirik ki, Türkiyə Cümhuriyyəti tezliklə Avropa Birliyinin tam hüquqlu üzvünə çevrilsin.

Müstəqil Azərbaycan dövləti qardaş Türkiyənin yeniləşən Avropada oynayacağı əhəmiyyətli rola böyük ümidlər bəsləyir.

Bir daha Sizi bu əlamətdar hadisə münasibətilə təbrik edir, Sizə uzun ömür, cansağlığı, işlərinizdə yeni-yeni nailiyyətlər arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 12 dekabr 1999-cu il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏLİ MÜŞAHİDƏÇİLƏRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 13-də Prezident sarayında ölkəmizdə bələdiyyə seçkilərində iştirak etmiş türkiyəli müşahidəçilər Əli Kamal Başaranı, Əli Günəri, Nurəddin Atiki, Həsən Hüseyn Balakı və Həsən Gülayı qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Sizin gəlişinizin məramı da çox gözəldir. Çünki Azərbaycan öz müstəqil dövlətinin sistemini qurur. Bunlardan biri də bələdiyyələrdir. İndiyə qədər Azərbaycanda bələdiyyə yaranmayıbdır. Ancaq indi onları yaradırıq. Yaratmaq üçün də seçkilər keçirmək lazımdır. Seçkilər də dünən keçirildi və siz də çox sağ olun ki, zəhmət çəkmisiniz, gəlmisiniz, bu seçkilərdə müşahidəçilik etmisiniz. Beləliklə, Azərbaycana yardım etmisiniz.

Bizim Milli Məclisin sədri mənə söyləmişdi ki, sizi dəvət edibdir, siz burada seçkilərdə müşahidəçilik edəcəksiniz. Ancaq sonra eşitdim ki, elə bu gün Türkiyəyə qayıdırsınız. Düşündüm ki, əgər görüşməsək olmaz. Mənə dedilər, mənimlə görüşmək istəyirsiniz. Təşəkkür edirəm.

Türkiyənin Ana Vətən Partiyasından Trabzon millət vəkili **Əli Kamal Başaran** Prezident Heydər Əliyevə təşəkkür edərək dedi:

- Bizi qəbul etməyiniz bizim üçün böyük şərəfdir. Sizə son dərəcə hörmət və ehtiramımızı bildiririk. Məclis başqanımızın, partiya rəhbərlərimizin ən dərin ehtiram və salamlarını Sizə çatdırmaq istəyirəm. Biz baş partiyanı təmsil edirik. Sizlərlə son dərəcə fəxr edirik və sizləri çox sevirik.

Biz buraya öz torpağına, vətəninə gələn insan kimi gəldik. Sizlərin də bizə gəlişinizi belə qəbul edirik, azəri qardaşlarımız Türkiyəyə gələndə də eyni qürurları daşıyırıq. Çox razı qaldıq. Demokratiyanın körpəlik dövrünü yaşayan bir ölkədə ilk dəfə keçirilən bələdiyyə seçkilərini izlədik. Seçkilərin yaxşı nəticəli olacağı qənaətindəyəm. Bu, çox normal şəraitdə keçən bir seçki oldu. Qayəmiz Azərbaycanı çox yüksəklərdə görmək istəyibdir. İnanırıq ki, Sizin keçmişdən gələn təcrübələriniz Azərbaycanı çox gözəl yerlərə çatdıracaqdır. Böyük bir rus dövlətindən sonra kiçik,

amma böyük imkanlara malik Azərbaycan, inanırıq ki, Sizin sayənizdə iqtisadi cəhətdən rahatlıq içərisində olacaqdır. Mən elə uzun bir zaman görmürəm - Azərbaycanın 15-20 illik çətin dövrü ola bilər. Biz millət olaraq ürəyimizlə, hər şeyimizlə hər zaman Azərbaycanın yanında olacağımızı söyləyirik. Təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Çox sağ olun. Əgər sizin də sözünüz varsa, buyurun.

Fəzilət Partiyasının nümayəndəsi, İqdır millət vəkili **Əli Günər** dedi:

- Hörmətli Prezident, Türkiyə Cümhuriyyəti adından, məclis başqanımız və bütün partiyalar adından Sizə salamımızı, hörmətlərimizi və ehtiramımızı ərz edirəm. Biz Sizi gördükcə xoşbəxtlik duyuruq.

Heydər Əliyev dedi:

- Hörmətli dostlar, əvvəla sağ olun ki, zəhmət çəkib Azərbaycana gəlmisiniz və bizim ilk bələdiyyə seçkilərində müşahidəçi olmusunuz, beləliklə də Azərbaycana yardım etmisiniz.

Mən bunu bir neçə dəfə demişəm. Dünən səs verməyə getmişdim, orada xeyli mətbuat nümayəndələri var idi. Onlarla 35-40 dəqiqə söhbət etdim, danışdım. Ondan iki gün əvvəl mən televiziya və radio vasitəsilə Azərbaycan vətəndaşlarına müraciət etmişdim. Mənim sözlərimin əsas məzmunu odur ki, Azərbaycan demokratiya yolu ilə gedir, demokratik, hüquqi, dünyəvi, yəni layiq dövlət qurur. Bilirsiniz ki, bu, böyük bir prosesdir, onu 1-2-3 ildə etmək mümkün deyildir. Amma biz bu yolla tam inamla gedirik. Bizim başqa yolumuz yoxdur. Yəni yollar çoxdur, amma bizim yolumuz budur və bizi bu yoldan heç kəs döndərə bilməz. Çünki Azərbaycan öz müstəqilliyini tam təmin etmək, saxlamaq və qorumaq üçün mütləq demokratik, hüquqi dövlət olmalıdır, dünyanın demokratik, hüquqi cəmiyyətində özünə yer almalıdır. Bu da Azərbaycanın müstəqilliyinin təminatı olmalıdır.

Biz ötən illərdə bir çox işlər görmüşük. Amma gördüyümüz hər bir iş yeni bir addımdır. Yəni biz 1995-ci ildə müstəqillik Konstitusiyası, Ana yasası əsasında Milli Məclisimizə ilk dəfə seçkilər keçirdik. Məsələn, Azərbaycanda 2-3 dəfə Prezident seçkiləri keçirilibdir. Amma bunlar hamısı yeni hadisələrdir. Bələdiyyə seçkiləri isə bizim üçün tamamilə çətin bir prosesdir. Mən bilirəm ki, Türkiyədə bələdiyyə sistemi böyük tarixə malikdir və bu sahədə çox işlər görülür, bələdiyyələrin geniş səlahiyyətləri vardır.

Mən Türkiyənin daxili işləri ilə təxminən 1992-ci ildən tanış olarkən - mən əvvəllər də Türkiyə barədə oxuyurdum, öyrənirdim, amma bunları bilavasitə şəxsən görmürdüm - gördüm ki, bəli, orada bələdiyyələr çox gözəl qurulub, yaranıbdır və xalqın, vətəndaşların özlərinin idarə etdiyi bir orqandır, heç kimə tabe, heç kimdən asılı deyildir. Onlar öz bölgəsində, şəhərində, kəndində bələdiyyə çərçivəsində çox böyük işlər görürlər.

Mən dəfələrlə demişəm, biz bütün dünya təcrübəsindən istifadə etməliyik. Amma bizim üçün ən yaxın, doğma təcrübə Türkiyənin təcrübəsidir. Türkiyənin bələdiyyələrinin səviyyəsinə gəlib çatmaq üçün hələ çox vaxt lazımdır. Bu, bizim ilk addımımızdır. Siz doğru dediniz ki, bu, körpə bir addımdır. Biz bu addımı ataraq bir daha sübut edirik ki, bu yolla gedirik. Bu seçkilərdə hər şeyin istənilən kimi olmaması mümkündür. Mən çox məmnunam ki, sizin müşahidələrinizin hamısı müsbət xarakter daşıyır. Ancaq eyni zamanda, mən belə düşünürəm, ola bilər ki, hər şey istənilən kimi olmasın. Bu gün mənə bilgilər veriblər ki, bəzi yerlərdə, məsələn, bir rayonda icra hakimiyyəti başçısı bu işlərə müdaxilə edibdir. Mən bu məsələyə baxacağam, həmin icra hakimiyyəti başçısı haqqında, bəlkə də, çox ciddi bir qərar qəbul edəcəyəm. Çünki bələdiyyə seçkisinə heç kim müdaxilə etməməlidir, qarışmamalıdır. İnsanlar, vətəndaşlar sərbəst, azad surətdə özləri gəlib istədikləri adama səs verməli, kimi istəsələr onu da seçməlidirlər. Ancaq bu, asan iş deyildir. Bizim Səbayel rayon Bakının mərkəzi rayonudur. Mən dünən ora getdim, həmin rayondan 17 adam seçilməlidir. Ancaq oradakı siyahıda 82 namizədin adı vardı. Mən bunların çoxunu tanımıram, bilmirəm. Siyahıda 3-4 adam olanda tanıyıram, bilirəm ki, kimə səs vermək lazımdır. Amma əgər bu, mənim üçün asan deyilsə, başqaları üçün daha da çətindir. Biz bu yolu keçirik. Çox sağ olun ki, siz də gəlib müşahidə etdiniz və bizə yardım göstərdiniz. Buna görə mən sizə bir daha təşəkkür edirəm.

Türkiyə-Azərbaycan münasibətlərinə gəlincə isə - ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra altı ildir ki, mən respublikamızın Prezidentiyəm -bu əlaqələr çox sürətlə inkişaf edir. Bu sözlər ilk dəfə mənim dilimdən çıxıbdır ki, biz bir millət, iki dövlətik. Bu sözləri indi Türkiyədə də, Azərbaycanda da deyirlər. Bu, həqiqətən də belədir. Ona görə də Türkiyə-Azərbaycan əlaqələri, dostluğu dünyada heç bir ölkənin əlaqələrinə bənzəmir, yəni bələsi yoxdur. Birincisi, bunlar səmimidir, ikincisi, bizim dərin milli köklərimizin, dilimizin, dinimizin, adət-ənənələrimizin üzərində qurulubdur. Ona görə də bunlar tarixi əhəmiyyətə malikdir. Hər şey insanlardan asılıdır - bunu daha yaxşı qurmaq da, pozmaq da olar. İnsanın əqidəsindən, fikrindən, ağlından, daxili mənəviyyatından çox asılıdır. Allaha şükürlər olsun, indi Türkiyəyə də, Azərbaycana da başçılıq edənlər bir-birinə daha da yaxın, dost olmalıdır. Mən keçən ay - noyabr ayında üç dəfə Türkiyədə oldum. Ayın əvvəlində gedib zəlzələ baş vermiş yerlərdə oldum, Ankaraya getdim, Beynəlxalq Atatürk Sülh Mükafatını aldım. Sonra İstanbulda

ATƏT-in zirvə görüşündə iştirak etdim. Aynın 28-də isə İspartaya getdim, əziz dostum, qardaşım Süleyman Dəmirəllə orada bir sıra açılışlarda, tədbirlərdə iştirak etdim. Bu, nəyi göstərir? Bu, bizim nə qədər dost olduğumuzu göstərir. Türkiyə mənim üçün doğmadır. Mən Türkiyənin hansı şəhərinə gedirəmsə, özümü məmləkətimdəki, şəhərimdəki kimi hiss edirəm. Eləcə də siz Azərbaycana gələndə özünüzü belə hiss edirsiniz, bizim üsün ən əziz, qiymətli olan Mustafa Kamal Atatürkün adına Beynəlxalq Sülh Mükafatı verilibdir. Azərbaycanda, Türkiyədə məlumdur ki, bu mükafat nadir adamlara verilir. Bu mükafatı indiyə qədər 4 nəfər alıbdır, beşincisi isə Azərbaycanın Prezidentidir. Bu, sülh, barış, beynəlxalq mükafatdır. Bu, Mustafa Kamal Atatürkün yaratdığı mükafatdır.

Bu mükafat mənə təqdim edilərkən hörmətli dostum Süleyman Dəmirələ dedim ki, mən həyatımda çox mükafatlar almışam. Keçmiş Sovetlər İttifaqının - fövqəldövlətin ən yüksək dövlət nişanlarının hamısından almışam. Yəni mənim sinəm bu mükafatlarla dolu olubdur. O dövrdə mən başqa dövlətlərin də ordenini - siz ona nişan deyirsiniz - almışam. Amma mənim üçün onların hamısından əziz Beynəlxalq Atatürk Sülh Mükafatıdır. Bu, təkcə mənim üçün yox, bütün Azərbaycan xalqı üçün əzizdir. Azərbaycanın hər yerində indiyə qədər bu barədə danışıqlar gedir, insanlar öz fikirlərini söyləyirlər.

Dünən YUNİSEF tərəfindən elan edilmiş uşaqların beynəlxalq televiziya və radio günü idi. Mən də onların bu gününü təbrik etməyə getdim. Oradakıların əksəriyyəti balaca uşaqlar idi. Orada da böyük iftixar, qürur hissi ilə danışırdılar ki, Azərbaycanın dövlət başçısı, Cümhurbaşkanı Beynəlxalq Atatürk Sülh Mükafatı alıbdır. Bu da bizim dostluq əlaqələrimizin böyük bir əlamətidir. Mən sizin dediyiniz məsələyə mütləq fikir verəcəyəm. Çünki 1991-1992-ci illərdə mən Naxçıvana rəhbərlik edərkən əziz dostum Süleyman Dəmirəllə bizim o körpünün yaratdığımız tarixi hadisədir. Həmin körpüyə "Həsrət körpüsü", "Ümid körpüsü" deyirdilər. Bu, həqiqətən belədir. Həmin körpü Naxçıvanın həyatını xilas etdi. Çünki Naxıçıvan hər tərəfdən blokadaya alınmışdı. O vaxt Türkiyədən Naxçıvana elektrik xətti gətirildi, insanlar bu körpüdən gedib-gəldilər, ticarət etdilər. Bu körpü eyni zamanda o bölgəni inkişaf etdirdi. Həmin illərdə mən İqdıra bir neçə dəfə getmişdim. Deyirlər, indi, son beşaltı ildə İqdır tamamilə dəyişibdir. Əziz dostum, Prezident Süleyman Dəmirəl bu yaxınlarda da İqdıra getmişdi, oradan qayıdanda mənə telefon etdi və dedi ki, mən İqdırı tanımadım. İqdıra vilayət adı verilməsi ilə əlaqədar keçirilən tədbirdə mən iştirak etmişdim. Həmin tədbirə Süleyman Dəmirəl və mən gəlmişdik. Çox gözəl bir tədbir keçdi. Bayram

keçirildi ki, İqdır da artıq müstəqil bir vilayət oldu. Bundan əlavə, İqdır Qarə vilayətinin tərkibində idi. İqdırın müstəqil vilayət olması onun inkişafına böyük imkanlar yaratdı. Sən indi mazutdan söhbət açdın. Təkcə mazut yox, benzin, digər yanacaq növlərinin də Azərbaycandan gəlib Naxçıvana, oradan Türkiyəyə keçməsi, yaxud İrandan Naxçıvana keçməsi - bunlar hər iki tərəf üçün - həm Naxçıvan, həm də İdqır, Ərzurum üçün çox faydalıdır. Güman edirəm ki, bu məsələlər həll edilməlidir. Bilirəm ki, orada problemlər var.

Siz bilirsiniz ki, bu məsələyə Türkiyə tərəfi baxır. Yəni Türkiyə tərəfi orada gömrüyü bağlayıbdır. Hörmətli Süleyman Dəmirəl İqdıra gedəndə mən ona dedim ki, sən orada gömrük məsələləri barədə göstəriş ver. O da İqdırdan qayıdanda mənə dedi ki, mən oranın valisinə lazımi göstərişlər vermişəm. Türkiyə baş nazirliyinin gömrük müstəşarı bu günlərdə buraya gəlmişdi. Mən onunla görüşümdə də dedim ki, sən keçid məntəqəsində gömrük işlərini qaydaya sal. Mən öz tərəfimizdən nə lazımsa edəcəyəm. Hörmətli Süleyman Dəmirəllə danışanda sizin bu sözlərinizi də ona çatdıracağam. Amma siz də öz tərəfinizdən lazımi işlər görün.

Mən öz tərəfimdən nə lazımdırsa, edəcəyəm. Hörmətli Süleyman Dəmirəllə danışanda sizin bu sözlərinizi də ona çatdıracağam. Amma siz də öz tərəfinizdən lazımi işlər görün.

Əli Günər: Bilirsiniz, hörmətli Süleyman Dəmirələ yanlış məlumat veriblər: guya bizim şəhərlərin birindən mazut alımır. Lakin 6-7 aydır ki, bu yanacaq gəlmir. Yanacaq, sadəcə, İrandan və Bakıdan gəlir. İnşallah, bu məsələlər həll ediləcəkdir.

Heydər Əliyev: Deməli, yanlış məlumatlar verilib, ona görə də belə qərarlar qəbul olunur. İnşallah, bu məsələlər həll ediləcəkdir. Mən sizə təşəkkür edirəm. Partiya rəhbərlərinizin hər birinə mənim salamımı, hörmət və ehtiramımı, sayğılarımı çatdırın. Türkiyənin demokratiyada ən böyük nailiyyəti odur ki, hər bir iş demokratik yolla aparılır. Türkiyədə güclü partiyalar var və bu partiyalar seçkidə iştirak edirlər. Hansı partiya daha çox səs toplayırsa, hökumət də onun əsasında qurulur. Hökumətə daxil olmayan partiya yenə də çalışır, itirmir. İndi Fəzilət Partiyası hökumətə daxil deyil. Amma İstanbulun bələdiyyə başqanı Fəzilət Partiyasının nümayəndəsidir. Bu, elə demokratiyanın ən böyük göstəricisidir. Fəzilət Partiyası hökumətin tərkibində daxil ola bilməyibdir, amma İstanbul kimi şəhərin bələdiyyə başqanı Fəzilət Partiyasındandır. Ankarada da belədir. Görürsünüz, bu, demokratiyanın yüksək bir zirvəsidir. Mən sizin hamınıza cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Türk xalqına, qardaşlarıma məndən salamlar söyləyin. Sizə yaxşı yol diləyirəm.

"Azərbaycan" qəzeti, 14 dekabr 1999-cu il.

2000

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 6-da Prezident sarayında Türkiyənin nümayəndə heyətini Enerji və Təbii Ehtiyatlar nazirinin müavini Yurdəkil Yıqıtgüdəni, Xarici İşlər nazirinin müavini Mutat Balkanı və Xarici İşlər Nazirliyi Enerji Departamentinin rəisi Hacı Sarıbaşı qəbul etmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** qonaqlara müraciətlə dedi:

- Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən bilirəm ki, siz burada sizi də, bizi də maraqlandıran məsələ barədə danışıqlar aparmısınız. Onu qeyd etmək istəyirəm ki, biz Bakı - Ceyhan neft boru kəməri haqqında qərar qəbul etməyə, yəni anlaşma əldə etməyə 5 il çalışdıq və bunu əldə etdik. Ancaq ondan sonra işlər zəifləyibdir. Ona qədər isə sürətlə, qızğın gedibdir. Məndə belə təsəvvür əmələ gəlir ki, indi hamı rahatlandı. Öncə çoxları fikirləşirdi ki, olacaq, olmayacaq? Mən Türkiyəyə gedəndə hər biri məndən soruşurdu ki, nə üçün gecikdi, niyə olmadı? Mən hər dəfə deyirdim ki, olacaq.

İndi, olandan sonra hamı sakitləşdi. Bu, əlbəttə, məni narahat edir. Çünki biz gərək bu işi indiyə qədər apardığımız sürətlə indi də aparaq. Amma indiyə qədər bir çox problemlər vardı, onları həll etmək lazım idi. Ona görə vaxt çox getdi. Ancaq indi bu problemlər yoxdu. Sadəcə, layihəni hazırlamaq, danışıqlar aparmaq və işə başlamaq lazımdır. Mənim fikrim budur. Amma siz nə danışıqlar aparmısınız, nə qərara gəlmisiniz - mən bilmirəm.

Yurdəkil Yıqıtgüdən Azərbaycan Prezidentinə təşəkkürünü bildirərək dedi:

-Sayın cümhurbaşkanım, bizi qəbul etdiyiniz üçün minnətdarlığımı söyləyirəm. Yeni iliniz mübarək olsun, deyirəm. İcazənizlə, sayın Cümhurbaşkanı Süleyman Dəmirəlin sizə göndərdiyi məktubu təqdim etmək istəyirəm. Sayın Cümhurbaşkanı Dəmirəl sizin böyük səylərinizlə gerçəkləşdirdiyimiz bu böyük anlaşmanın hərəkətə gətirilməsi üçün hansı işlərin görülməsi barədə fikirlərini bəyan edir. Ona görə də bu məktubu sizə təqdim etməyi tapşırdı.

Biz bu gün sizin nümayəndələrinizlə görüşdük. Qarşıdakı günlərdə Gürcüstan nümayəndələrini də çağıraraq bir araya gəlib məsələləri müzakirə etmək istəyirik. Təbii ki, işi sürətləndirmək bizim vəzifəmizdir. Sizin səylərinizlə anlaşma imzalandı deyə rahat otursaq, bu bizə yaraşmaz. Bu sazişin sürətlə gerçəkləşməsi üçün həm Türkiyədə, həm də Azərbaycanda siyasi iradə olduğunu da bilirik. Ona görə də bizim vəzifə-

miz sizin də göstərişləriniz əsasında bu işi ən qısa zamanda gerçəkləşdirmək üçün lazımi addımlar atmaqdan ibarət olacaqdır.

Azərbaycan prezidenti **Heydər Əliyev** qonağı diqqətlə dinləyərək dedi:

- Şübhəsiz. Mən öz fikrimi dedim. Əziz dostum, qardaşım Cümhurbaşkanı Süleyman Dəmirəlin məktubunu da diqqətlə oxuyacağam. Güman edirəm ki, o da burada eyni fikirləri yazıbdır. Amma unutmaq lazım deyil ki, biz bu anlaşmanı imzalamışıq, lakin bu anlaşmanın əleyhinə olan dairələrdə, yəni dövlətlərdə hələ indi də belə fikirlər var ki, bunu həyata keçirmək mümkün olmayacaqdır. Guya başqa alternativ şeylər təklif edəcəklər. Belə fikirlər dolaşır, siz onu bilin. Ona görə də biz vaxtı itirməməliyik. Biz -dövlət başçıları, hökumət başçıları öz borcumuzu yerinə yetirmişik. İndi iş sizin əlinizdədir - yəni sizin, bizim, Gürcüstanın.

Bizim bu işlə məşğul olan adamlarımız mənim qəti əmrimi alıblar ki, bununla ciddi məşğul olsunlar və vaxtı itirməsinlər. Anıma gərək hamı - həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə bu işə eyni sürətlə yanaşsın. Vaxtı itirmək lazım deyildir. Mənim başqa fikrim ola bilməz. Hesab edirəm ki, biz artıq əməli işə başlamalıyıq.

Yurdəkil Yıqıtgüdən: Sayın Cümhurbaşkanım, biz buraya gəlməzdən öncə Gürcüstana səfər etdik. Cənab Şevardnadzeyə də Cümhurbaşkanımızın məktubunu verdik. Biz az sonra bununla bağlı aldığımız məlumatı da, icazə versəniz, sizə bildirmək istəyirik. Bu məsələdə Cümhurbaşkanı Dəmirəlin fikirləri də eynən sizin fikirlərinizlə səsləşir. Hörmətli Şevardnadzenin fikri də bu cürdür. Hesab edirəm ki, bu anlaşmanın əleyhinə olanlar yeni güc toplayıb layihəyə qarşı bəzi fikirləri yaymağa çalışacaqlar.

Prezident Heydər Əliyev: Bəli, bəli. Mətbuatda məqalələr yazırlar, fikirlər söyləyirlər. Bəziləri elə fikir yaradırlar ki, bu, real deyil, bu işi görə, yəni boru xəttini tikə bilməyəcəklər. Bəziləri yenə də deyir ki, kəməri tikə bilməyəcəklər, ona görə ki, o qədər neft yoxdur. Şübhəsiz ki, bu fikirlər bütün məsələlərə mənfi təsir edir. Ancaq neft də var, boru xəttini də tikəcəyik. Amma bunu nə qədər tez başlasaq, bu işin qarşısını almaq istəyənlərin ağzını o qədər tez yumacağıq. Yummaq lazımdır!

"Azərbaycan" qəzeti, 7 yanvar 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XI İŞGÜZAR SƏFƏRİ

9-13 yanvar 2000-ci il

BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ MÜSAHİBƏ

Sual: Cənab Prezident, Türkiyə Respublikasına budəfəki səfərdən məqsəd nədir və səfər zamanı Türkiyə rəhbərliyi ilə hansı məsələləri müzakirə etmək nəzərdə tutulur?

Cavab: Bilirsiniz ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında çox sıx dostluq, əməkdaşlıq əlaqələri var. Bu əlaqələr daim bizim görüşlərimizin və məsləhətləşmələrimizin olmasını tələb edir. Bilirsiniz ki, son zamanlar mən bir neçə dəfə Türkiyədə olmuşam və hər dəfə bütün başqa tədbirlərdə iştirak etməklə yanaşı, ölkələrimiz arasındakı əlaqələr haqqında geniş fikir mübadiləsi aparmışıq.

İndi mənim səfərim Prezident hörmətli cənab Süleyman Dəmirəlin dəvəti ilədir. Bu, qısamüddətli bir səfərdir. Əsas məsələ Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması barədə yenidən məsləhətləşmələr aparmaqdır. Çünki bilirsiniz ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyinə görə Türkiyənin bu ölkə ilə indiyə qədər nə diplomatik əlaqəsi var, nə sərhədlərinin açılmasına yol verirlər, nə yolların açılmasına yol verirlər. Bilirsiniz ki, Türkiyə ilə Ermənistan arasında uzun məsafəli sərhəd var. Burada yollar var: həm dəmir yolu, həm avtomobil yolu var, bu da təbiidir ki, Ermənistan üçün çox lazımdır. Ona görə də bu məsələnin həll olunmasında Ermənistan Prezidenti Koçaryanla mənim apardığım danışıqlar, bu problemlər həmişə durur.

Bu barədə Ermənistanın özü də Türkiyə ilə danışıqlar aparıbdır. Bu məsələləri bir daha dəqiqləşdirmək, mövqelərimizi müqayisə etmək, məsləhətləşmək məqsədilə mən Türkiyəyə gedirəm. Əsas məsələ bundan ibarətdir.

Bilirsiniz ki, Bakı - Ceyhan neft

kəməri haqqında müqavilə artıq imzalanıbdır. Bunun icrasına başlamaq lazımdır. Türkiyə də bunu istəyir, biz də bunu istəyirik. Ancaq biz indiyə qədər bu müqavilələri parlamentdə ratifikasiyaya verə bilməmişik. Çünki bir neçə məsələ Gürcüstan ilə bu günə qədər həll edilməyibdir. Bilirsiniz ki, bu yaxın zamanlarda Türkiyənin nümayəndə heyəti Gürcüstanda və Azərbaycanda olmuşdur. Onlar Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə və mənə Prezident Süleyman Dəmirəlin məktublarını vermişlər. Bu barədə də danışmaq lazımdır. Çünki bunu gecikdirmək olmaz. Türkiyə də maraqlıdır ki, bu gecikməsin. Biz də maraqlıyıq, təbii ki, Gürcüstan da maraqlıdır. Amma Gürcüstan bəzi məsələləri ortaya atıbdır. Bunlar bizim üçün uyğun məsələlər deyildir. Türkiyə üçün də uyğun deyildir. Bu barədə də fikir mübadiləsi aparacağıq. Ümumiyyətlə, ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirmək, genişləndirmək məsələləri də bizim qonşularımızla danışıqların əsas mövzusudur. Görürsünüz, qısamüddətli səfərə gedirəm, amma nə qədər məsələ var.

Sual: Cənab Prezident, Bakı - Ceyhan müqaviləsi imzalanmamışdan əvvəl Gürcüstan indiki şərtlərini irəli sürmürdü. İndi nəyə görə bu şərtlər irəli sürülür?

Cavab: Sürmürdü yox. Siz bunu onlardan soruşun.

Sual: Cənab Prezident, Azərbaycanın Avropa Şurasına üzv olması məsələsi nə yerdədir?

Cavab: Necə nə yerdədir? Biz Avropa Şurası ilə əməkdaşlıq edirik və lazımi danışıqlar aparırıq. Yəqin ki, vaxtı gələndə bunların hamısı həll olunacaqdır.

Sual: Cənab Prezident, Şimali Qafqazdakı vəziyyəti səfəriniz zamanı müzakirə edicəksinizmi?

Cavab: Əlbəttə ki, biz bu barədə fikir mübadiləsi aparmalıyıq. Şimali Qafqazdakı, Çeçenistandakı vəziyyətə nə Türkiyə, nə də Azərbaycan müdaxilə edir. Ancaq təəssüf ki, Rusiyanın mətbuat orqanları, hətta rəsmi dairələri axır zamanlar bir çox əsassız bəyanatlar veriblər. Bu da bizi çox narahat edibdir. Bilirsiniz ki, dünən Azərbaycanın Xarici İşlər nazirliyi Rusiyanın bu hərəkətlərinə görə bu barədə çox sərt bəyanat veribdir. Yəqin ki, biz bu barədə də danışacağıq. Bu mövzu kənarda qala bilməz. Çünki Rusiyanın mətbuat orqanları, rəsmi dairələri də bəzən çalışırlar sübut etsinlər ki, guya bu terrorçular, yaraqlılar Türkiyədən, başqa Şərq ölkələrindən gəlib Azərbaycandan, Gürcüstandan keçirlər və buradan silah-sursat keçir. Bu, tamamilə yalan sözdür, böhtandır, iftiradır. Heç bir belə faxt yoxdur. Kiyevdə olarkən mən bu barədə Baş nazir, indi Prezident səlahiyyətlərini həyata keçirən Vladimir Putinlə də danışdım, ona da dedim. Yəqin ki, biz bu barədə də söhbət edəcəyik.

Sual: Cənab Prezident, Bakı - Ceyhan neft boru kəməri ilə bağlı

Gürcüstanın sərt mövqeyi barədə nə deyərdiniz?

Cavab: Bilirsiniz, siz düzgün demirsiniz. Sərt mövqe yoxdur. Gürcüstanın müəyyən şərtləri var. Hərə istəyir ki, burada öz problemini ölkəsi üçün daha da faydalı həll etsin. Mən elə hesab edirəm ki, burada həll olunа bilməyən elə bir problem yoxdur. Bunların hamısı həll olunacaqdır.

Sual: Cənab Prezident, indiki gərgin münasibətlərdə İrana Sizin qarşıdakı səfəriniz barədə nə deyə bilərsiniz?

Cavab: Nə gərgin münasibətlərdir? İranla bizim gərgin münasibətlərimiz yoxdur. Sən bunu haradan götürmüsən? Mən bəyan etmişəm ki, İranla bizim çox yaxşı münasibətlərimiz var. Bu günlərdə mən Yeni Azərbaycan Partiyasının qurultayındakı çıxışımda hətta qeyd etdim ki, mənim İstanbulda irəli sürdüyüm Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaranmasında İran da iştirak etməlidir. İrana, mən də, şübhəsiz ki, həmin dəvəti bu yaxınlarda həyata keçirəcəyik.

Sual: Cənab Prezident, Aram Sarkisyanın Dağlıq Qarabağla bağlı son təklifinə Sizin münasibətləriniz?

Cavab: Elə bir təklif mənə məlum deyil.

Sual: Cənab Prezident, sammitdə Siz Koçaryanla görüşəcəksinizmi?

Cavab: Görüşəcəyəm. Hələ Moskvada da görüşəcəyəm, lap arxayın olun.

Sual: Cənab Prezident, Cövhərqala alındığı halda rus qoşunlarının Azərbaycana və Gürcüstana girməsi ehtimalı varmı?

Cavab: Bilirsiniz, mən istəyirəm ki, siz bu sualları verməyəsiniz. Çünki bunlar əsassız suallardır. Orada Rusiya öz daxili işi ilə məşğuldur. Nə üçün sən deyirsən ki, Qroznının, nə bilim, alınmasından sonra onlar Azərbaycana müdaxilə edəcəklər? Buna bir əsas yoxdur.

Yaxşı, sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ANKARADA AKKREDİTƏ OLUNMUŞ XARİCİ ÖLKƏLƏRİN JURNALİSTLƏRİ QARŞISINDA BƏYANATI

Əziz dostum, qardaşım, Prezident Süleyman Dəmirəl!

Hörmətli mətbuat nümayəndələri!

Mən çox məmnunam ki, bu gün, bayram günü Türkiyədəyəm və dostlarımla bir yerdəyəm. Mən buraya Cümhurbaşkanı, dostum Süleyman Dəmirəlin dəvəti ilə qısa bir müddətli işgüzar səfərə gəlmişəm.

İlk öncə, hörmətli dostum, qardaşım Süleyman Dəmirəl, Sizi, Sizin simanızda bütün Türkiyə xalqını, Türkiyənin vətəndaşlarını həm Yeni il 2000-ci il münasibətilə, həm də bizim hamımız üçün, müsəlmanlar üçün çox əziz olan Ramazan bayramı

münasibətilə təbrik edirəm və Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına sağlamlıq, xoşbəxtlik, səadət və işlərində uğurlar arzulayıram.

Mənim buraya gəlməyimin məqsədi və məramını dostum, hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl artıq söylədi. Bu, həqiqətən belədir və bunun da səbəbi ondan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasındakı mövcud olan əlaqələr yüksək dərəcəli dostluq və qardaşlıq əlaqələridir. Ona görə də biz bir çox məsələlərin - həm dünya, beynəlxalq məsələlərin həll olunmasında, həm bölgəmizdə olan məsələlərin həll olunmasında, başqalarında öz ölkələrimizin, öz dövlətlərimizin siyasətini müəyyən etmək üçün, yaxud da konkret tədbirlərini müəyyən etmək üçün daim məsləhətləşirik, görüşürük. Bu məsləhətlər, bu görüşlər, bu danışıqlar hər iki tərəf üçün fayda veribdir. Mən şəxsən deyə bilərəm ki, bu, Azərbaycan üçün çox faydalıdır və yeddi ilə yaxındır ki, hörmətli dostum, qardaşım Süleyman Dəmirəl Türkiyənin Cümhurbaşkanı olduğu dövrdə mən Azərbaycan Prezidenti kimi bu görüşlərdən, bu danışıqlardan, bu məsləhətləşmələrdən həmişə böyük faydalar almışam.

Güman edirəm ki, bu müddətdə də biz bir çox məsələləri müzakirə edəcəyik. Haqiqətən bizim bölgəmizdə olan vəziyyəti müzakirə edəcəyik, ümumiyyətlə, Qafqazda indi yaranmış gərgin vəziyyət haqqında fikir mübadiləsi aparacağıq və ən əsası, - Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barəsində fikir mübadiləsi, danışıqlar aparacağıq.

Bilirsiniz ki, bu problem artıq 12 ildir ki, mövcuddur. Beş il bundan öncə Azərbaycan ilə Ermənistan arasında atəşkəs sazişi, anlaşması əldə olunubdur. İndi saziş yoxdur, atəşkəs vardır, ancaq sülh də yoxdur. Azərbaycanın torpaqlarının 20 faizi Ermənistanın silahlı qüvvələrinin işğalı altındadır və bu işğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlılar zorla çıxarılıblar. İndi onların tam əksəriyyəti çadırlarda yaşayır. Bax, burada bu qarı görürəm, soyuğu görürəm. Bilin ki, Azərbaycanda da belədir. Belə bir vəziyyətdə, qışın soyuğunda, yayın istisində, yağışda, yaxud başqa hallarda çadırın içərisində bu qədər yaşamaq çox ağır bir haldır. Amma yaşayırlar, dözürlər və ümid edirlər ki, məsələ sülh yolu ilə həll olunacaqdır. Ümidlərinin də çoxu onunla bağlıdır ki, biz Türkiyə ilə bu barədə daim işbirliyi edirik.

Türkiyə birinci bizim dostumuzdur, bizim üçün ən yaxın ölkədir. Ermənistan - Azərbaycan münaqişəsində Türkiyə həmişə Azərbaycanın haqq işini dəstəkləyibdir, müdafiə edibdir. Bütün beynəlxalq təşkilatlarda, hər yerdə Türkiyə hökuməti, Türkiyənin Cümhurbaşkanı həmişə Ermənistanı Azərbaycana təcavüz etmiş bir dövlət kimi qiymətləndiribdir, bildiribdir və eyni zamanda Tür-

kiyə ATƏT-in Minsk qrupunun üzvüdür.

Bilirsiniz ki, bu məsələnin sülh yolu ilə həll olunması ilə ATƏT məşğul olur. ATƏT də bundan ötrü hələ 1992-ci ildə Minsk qrupu yaradıbdır. Bu Minsk qrupunun üzvlərinin biri də Türkiyədir. Bir də ki, bu məsələnin həll olunmasında təkcə ATƏT-in Minsk qrupunun üzvü kimi yox, Türkiyənin iştirakı olmadan bu məsələlər tamamilə həll edilə bilməz. Çünki Ermənistanla Türkiyənin böyük bir sərhədi vardır və Türkiyə Azərbaycanın yaxın dostudur. Qafqazda olan problemlər Türkiyəsiz həll edilə bilməz.

Məsələn, mən İstanbul zirvə görüşündə belə bir təklif irəli sürdüm ki, Cənubi Qafqazda təhlükəsizlik, sülh və əməkdaşlıq paktı yaransın. Bu paktın yaranmasında da mən bir neçə dövlətə müraciət etdim. Birinci növbədə Türkiyəyə. Çünki Türkiyəsiz bunları etmək mümkün deyildir.

Bunların hamısına görə də mən buraya gəlmişəm. Azərbaycan xalqının Türkiyə xalqına salamını, hörmət və ehtiramını gətirmişəm və bütün Azərbaycan xalqı adından Sizi və bütün Türkiyə vətəndaşlarını bu bayram günləri münasibətilə ürəkdən təbrik edirəm. Sizin hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram.

"Azərbaycan" qəzeti, 12 yanvar 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 9-da "Çankaya" köşkündə Süleyman Dəmirəl ilə görüşmüşdür.

Əziz dostu, qardaşı, Azərbaycan Prezidenti Heydər Əliyevi mehribanlıqla salamlayan cənab Süleyman Dəmirəl respublikamızın rəhbəri ilə hər görüşündən böyük sevinc duyduğunu vurğuladı.

Dövlətimizin başçısını və bütün Azərbaycan xalqını Yeni il və müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edən Prezident Süleyman Dəmirəl onun dəvətini qəbul edərək Ankaraya gəldiyinə görə Prezident Heydər Əliyevə təşəkkürünü bildirdi.

Cənab Süleyman Dəmirəl əmin olduğunu söylədi ki, 2000-ci ildə Qafqazın bütün ölkələrində sülh bərqərar ediləcək, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün səylər daha da artırılacaq və bu münaqişə Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində öz həllini tapacaqdır.

Respublikamızın Prezidenti Heydər Əliyev dəvətə və xoş sözlərə görə minnətdarlığını bildirdi, 2000-ci il və müqəddəs Ramazan bayramı münasibətilə hörmətli cənab Süleyman Dəmirəli, Türkiyə Cümhuriyyə-

tini və xalqını ürəkdən təbrik etdi.

Azərbaycanın haqq işini Türkiyənin daim müdafiə etməsindən, Ermənistanın respublikamıza təcavüzünü qətiyyətlə pisləməsindən məmnunluqla söhbət açan dövlətimizin başçısı Heydər Əliyev Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan geniş bəhs etdi.

Azərbaycan - Türkiyə əməkdaşlığının hazırkı vəziyyətini bir daha yüksək dəyərləndirən Prezidentlər ikitərəfli əlaqələrin bütün sahələrdə daha da möhkəmləndirilməsinin və durmadan inkişaf etdirilməsinin vacib olduğunu nəzərə çarpdırdılar.

ATƏT-in İstanbul zirvə görüşünün nəticələrini və bu sammit keçirilən zaman Bakı - Ceyhan əsas ixrac neft boru kəməri barədə ən yüksək səviyyədə imzalanmış sazişi tarixi hadisə kimi qiymətləndirən dövlət başçıları bu kəmərin tikintisinin sürətləndirilməsi məsələsini ətraflı müzakirə etdilər.

Prezidentlər dünyada, beynəlxalq aləmdə, Qafqazda vəziyyət, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələləri barədə geniş fikir mübadiləsi apardılar.

"Azərbaycan" qəzeti, 12 yanvar 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 10-da "Çankaya" köşkündə Türkiyə Respublikasının Baş naziri Büləvd Ecevit ilə görüşmüşdür.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan **Büləvd Ecevit** dedi:

- Qardaş Azərbaycanın hörmətli Cümhurbaşkanı cənab Heydər Əliyevi Ramazan bayramında Türkiyədə, Ankarada görməkdən böyük məmnunluq duyuram. Möhtərəm cənab Heydər Əliyev ilə tez-tez görüşməyimiz bölgəmizdəki vəziyyət, ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi məsələlərinin vaxtaşırı müzakirə edilməsi baxımından çox dəyərlidir. Bu gün biz bu məsələləri yenidən, bir daha müzakirə edəcəyimizdən çox məmnunuq.

Hörmətli Cənab Prezident, xoş gəlmisiniz!

Səmimi sözlərə görə təşəkkürünü bildirən Azərbaycan Prezidenti **Heydər Əliyev** dedi:

- Hörmətli Baş nazir, əziz dostum!

Mən Ramazan bayramında Türkiyədə olmağımdan həddindən ziyadə məmnunam. Doğrudur, bu bayram günü mənim buraya gəlməyim bayram edənlərə bəlkə bir az problem yaradıbdır. Çünki biz görüşlər keçiririk, danışıqlar aparırıq. Hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl

məni Türkiyəyə dəvət edəndə dedim ki, bayram edirsiniz, bayram günü gəlib sizin işlərinizə mane olacağam. Amma cənab Süleyman Dəmirəl dedi ki, bayram günü sizin gəlməyiniz daha da yaxşı olacaqdır.

Hesab etdim ki, bayram günü Türkiyədə olmaq mənim üçün fövqəladə gözəl bir işdir. Çünki biz də Ramazan bayramını qeyd edirik, amma biz bunu sovet dövləti dağılandan sonra edirik. O vaxta qədər bizdə din yasaq idi, Ramazan bayramını keçirmək olmazdı. Amma mənim anam, atam Ramazan ayında daim bütün ibadətləri keçirərdilər. Gənclər yox, insanların çoxu Ramazan bayramını o vaxt özləri bayram edirdilər. Ancaq həm Ramazan, həm də Qurban bayramları dini bayramlar olduğuna görə 70 il Azərbaycanda yasaq edilmişdi. Mənim anam Ramazan bayramında yeməklər, şirin çörəklər bişirərdi.

Biz bu bayramı Azərbaycan müstəqillik qazandıqdan sonra qeyd edirik. Amma indi biz Ramazanı bir gün bayram edirik, siz isə bu bayramı üç gün qeyd edirsiniz. Türkiyə bu bayramın məkanıdır. Biz isə bu bayramda yeni adamlarıq. Ona görə də bayram günündə Türkiyədə olmaq mənim üçün çox gözəldir.

Mən çox məmnunam, Ramazan bayramı və yeni il - 2000-ci il münasibətilə sizi təbrik edirəm. Sizi və sizin şəxsinizdə Türkiyə Cümhuriyyətinin hökumətini, xalqını, vətəndaşlarını təbrik edirəm. Sizə uğurlar arzulayıram.

Mən Sizinlə yaxın vaxtlarda görüşmüşdüm. Görürəm ki, ötən qısa zamanda Türkiyənin hökuməti - 57-ci hökumət çox bacarıqlı işlər aparır, çox yaxşı nailiyyətlər əldə edir, ölkənin iqtisadiyyatında çox gözəl dəyişikliklər baş verir. Türkiyənin Avropa Birliyinə üzvlüyə namizəd qəbul edilməsi sizi sevindirdiyi qədər bizi də sevindirdi. Bu və bunun kimi bir neçə digər işlər 57-ci hökumətin vaxtında baş vermiş nailiyyətlərdir.

Mən bütün bunlara görə sizi təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin hökumətiniz, Baş nazir olduğunuz hökumət bundan sonra da belə uğurlar əldə edəcəkdir, apardığı işləri sona çatdıracaqdır və öz fəaliyyəti dövründə Türkiyəni daha da yüksəklərə qaldıracaqdır.

Cənab Ecevit səmimi sözlərə və təbrikə görə dövlətimizin başçısı Heydər Əliyevə bir daha minnətdarlığını və təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev və Baş nazir Büləncd Ecevit İsveçrənin Davos şəhərində keçiriləcək iqtisadi forumda görüşəcəklərinə ümidvar olduqlarını vurğuladılar.

Dövlətimizin başçısı Heydər Əliyev və Türkiyənin BAŞ NAZİRi Büləncd Ecevit Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsi, beynəlxalq aləmdə, Qafqazda vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra

digər məsələlər barədə ətraflı fikir mübadiləsi apardılar.

"Azərbaycan" qəzeti, 12 yanvar 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ HÜSEYN KIVRIKOĞLU İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 10-da "Çankaya" köşkündə Türkiyə Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Kıvrıkoğlu ilə görüşmüşdür.

Cənab Kıvrıkoğlunu səmimiyyətlə salamlayan respublikamızın Prezidenti Heydər Əliyev dedi:

- Mən mətbuat nümayəndələrinin yanında sizi və sizin şəxsinizdə qəhrəman türk ordusunu, Türkiyə xalqını Ramazan bayramı, Yeni il münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, sədaqət, türk ordusuna böyük uğurlar arzulayıram.

2000-ci il əsrimizin sonuncu ilidir, biz XXI əsrə, üçüncü minilliyə doğru gedirik. Arzu edirəm ki, bu il də, gələcəkdə də Türkiyə daha da güclü, qüdrətli bir dövlət olsun. Türk ordusu indiyə qədər olduğu kimi, böyük öndər Atatürkün yolu ilə gedərək daha da gücləndirilsin və Türkiyənin təhlükəsizliyinin, bölgədə sülhün, əmin-amanlığın təmin edilməsində öz xidmətlərini göstərsin.

Azərbaycan Prezidenti Heydər Əliyev ilə yenidən görüşündən çox məmnun qaldığını nəzərə çarpdıran cənab **Hüseyn Kıvrıkoğlu** dedi:

- Cənab Prezident, səmimi sözlərinizə görə təşəkkür edirəm. Əziz dost və qardaş Cümhurbaşkanı, hörmətli cənab Heydər Əliyev, mən Sizi Türkiyədə yenidən görməyimdən çox məmnunam. Mən də Sizi və Sizin şəxsinizdə Azərbaycan xalqını və silahlı qüvvələrini Ramazan bayramı, Yeni il - 2000-ci il münasibətilə səmimi qəlbdən təbrik edirəm, ölkənizə sülh arzulayıram.

Söhbət zamanı beynəlxalq aləmdə, Qafqazda vəziyyət, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi məsələləri barədə ətraflı fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev cənab Hüseyn Kıvrıkoğlunu Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

"Azərbaycan" qəzeti, 12 yanvar 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ DÖVLƏT BAXÇƏLİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın

10-da "Çankaya" köşkündə Türkiyə Baş nazirinin müavini Dövlət Baxçəli ilə görüşmüşdür.

Cənab Dövlət Baxçəlini mehribanlıqla salamlayan respublikamızın Prezidenti **Heydər Əliyev dedi:**

- Hörmətli dostum Dövlət Baxçəli, mən sizinlə görüşməyimdən məmnunam. Bilirsiniz ki, mən Cümhurbaşkanı Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə qısamüddətli işgüzar ziyarətə gəlmişəm. Sizinlə görüşüb yaxından tanış olmağımdan çox məmnunam. Mən sizi Ramazan bayramı, Yeni il - 2000-ci il münasibətilə təbrik edirəm. Sizin şəxsinizdə Türkiyə Cümhuriyyətinin hökumətini, xalqını, sizin partiyanın üzvlərini və Türkiyənin bütün vətəndaşlarını Türkiyənin ən yaxın dostu olan Azərbaycan xalqı, vətəndaşları adından təbrik edirəm. Arzu edirəm ki, 2000-ci il Türkiyə üçün, Türkiyə xalqı üçün daha da uğurlu olsun.

Biz görürük ki, Türkiyənin yeni hökuməti çox yaxşı nəticələr əldə edir, bu hökumətin böyük nailiyyətləri vardır. Arzu edirəm ki, belə nailiyyətlər davam etsin, hökumətimiz apardığı işləri sona qədər davam etdirə bilsin və daha yeni nailiyyətlər qazansın.

Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı sizə məlumdur. Bu dostluq, qardaşlıq münasibətləri Azərbaycan üçün çox böyük əhəmiyyət daşıyır və ön sırada durur. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra qardaş Türkiyə ilə əlaqələr daim inkişaf etmiş, möhkəmlənmişdir. Türkiyə dövlətinin hörmətli Prezidenti, Baş nazir, Baş nazirin müavinləri, millət vəkilləri həmişə Azərbaycana dostluq, qardaşlıq münasibətləri göstərirlər. Azərbaycan da Türkiyəyə dost və qardaş münasibətləri bəsləyir. Ona görə də Azərbaycan xalqı Türkiyəni həmişə sevir və sevəcəkdir. Mən bu xoş arzularımı sizə bildirmək istəyirdim.

Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdən çox məmnun qaldığını nəzərə çarpdıran cənab **Dövlət Baxçəli** dedi:

- Hörmətli Prezident, mən Sizinlə görüşümdən böyük şərəf duyduğumu bildirirəm. Zati-aliləri, mən Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını müqəddəs Ramazan bayramı və 2000-ci il münasibətilə təbrik edirəm, Azərbaycan xalqına səadət arzulayıram.

Zati-aliləri, mən onu da deməliyəm ki, bizim qəlbimizdə Azərbaycanın xüsusi yeri vardır. Azərbaycan müstəqil dövlət olduqdan sonra respublikanızda gedən demokratik prosesləri və Sizin rəhbərliyinizlə hüquqi, demokratik dövlət quruculuğu sahəsində görülən işləri biz yüksək qiymətləndiririk. Türkiyə hər zaman Azərbaycanla bərabər olmağı arzulamışdır və bundan sonra da həmişə olacaqdır.

Bizim Azərbaycanda könül bağımız, xan bağımız vardır. Zati-alinizin Cümhurbaşkanlığı dövründə Azərbaycanda irəliyə doğru çox böyük addımlar atılmışdır. Biz cənab Heydər Əliyevin xidmətləri sayəsində İstanbulda imzalanmış Bakı - Ceyhan əsas ixrac neft boru kəməri barədə sazişi yüksək dəyərləndirdik və hesab edirik ki, bu kəmər ölkələrimiz arasındakı əməkdaşlığı daha da möhkəmləndirəcək, bölgədə sülh, əminamanlığın bərqərar edilməsinə kömək göstərəcəkdir.

Zati-aliləri, mən Sizi Türkiyədə görməkdən məmnunluq duyduğumu bir daha bildirmək istəyirəm.

Səmimi sözlərə görə cənab Baxçəliyə təşəkkür edən dövlətimizin başçısı Heydər Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal altında olmasından, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşamasından, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan söhbət açdı.

Görüşdə beynəlxalq aləmdə, Qafqazda vəziyyət, Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi, Bakı - Ceyhan əsas ixrac neft boru kəmərinin tikintisinin sürətləndirilməsi və ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev cənab Dövlət Baxçəlini Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

"Azərbaycan" qəzeti, 12 yanvar 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏTƏNƏ QAYIDARKƏN ANKARADA AKKREDİTƏ OLUNMUŞ JURNALİSTLƏRİ QARŞISINDA BƏYANATI

- Dəyərli mətbuat nümayəndələri, xanımlar, cənablar!

Əziz qardaşım, dostum, Türkiyənin Cümhurbaşkanı Süleyman Dəmirəlin dəvəti ilə mən dünən Ankaraya, Türkiyəyə gəlmişəm və indi də artıq yola düşürəm, Bakıya dönürəm. Mən bu dəvətə görə və burada mənə göstərilən çox böyük dostluq, mehribanlıq, qardaşlıq münasibətlərinə görə dostum, qardaşım, Cümhurbaşkanı Süleyman Dəmirələ təşəkkürümü bildirirəm.

Türkiyəyə hər dəfə gəlmək mənim üçün böyük bir hadisədir, yəni böyük bir sevinc hadisəsidir. Bu dəfə mən Türkiyəyə mübarək Ramazan bayramı günü gəlmişəm. Mən bir tərəfdən rahatsız idim ki, Ramazan bayramı zamanı - insanlar bayram edib, istirahət etdiyi zaman mən buraya gəlib bu istirahətə mane olacağam. Amma eyni zamanda düşündüm ki, bu Ramazan bayramını Türkiyədə çox gözəl keçirirlər. Bizdə, Azərbaycanda Ramazan bayramı 7-8 il bundan öncə bərpa olunubdur. Ondan öncə, Sovetlər Birliyi dövründə Azərbaycanda din qadağan, yasaq olduğu-

na görə. Ramazan bayramı da dini bayram olduğuna görə bu, qadağan idi. İndi isə insanlar çox qısa bir zamanda öz dinini dəstəklədi, aldı və Ramazan bayramı da keçirilir. Amma Türkiyədəki kimi yox.

Mən televiziya vasitəsilə baxdım: insanlar nə qədər sevinirlər, mahnılar söyləyir, rəqslər edirlər. Mən bu gün 10 dəqiqə televiziyaya baxdım. Bir azəri mahnısını çox gözəl oxudular və rəqs etdilər. Mənim ürəyim sevindi. Ona görə də məhz bu gün - Ramazan bayramı günü burada olmağım məni daha da sevindirmişdir.

Ancaq təbiidir, mənim ziyarətim gəzmək üçün, istirahət üçün deyil. Mənim ziyarətim hər dəfə işlər görmək üçündür və dostum, qardaşım Süleyman Dəmirəl də elədir,- gecə də, gündüz də çalışır. Onun üçün bayram da yoxdur, bazar da yoxdur, başqa günlər də yoxdur. Ona görə biz dünən də, bu gün də görüşüb çox dəyərli söhbətlər, danışıqlar apardıq. Mənim ən əsas danışıqlarım, söhbətlərim hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl ilə oldu. O, bəyan etdiyi kimi, biz ölkələrimiz üçün vacib olan bir neçə məsələləri ortaya qoyduq, fikir mübadiləsi apardıq. Bunların içində birinci növbədə Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi və Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması, köçkünlərin, qaçqınların öz yerinə qayıtması məsələsidir. Biz bu məsələni noyabr ayında ATƏT-in İstanbul zirvə görüşündə də çox geniş müzakirə etmişdik - həm hörmətli Süleyman Dəmirəl ilə, həm də Prezident Klinton ilə, Prezident Şirak ilə, digərləri ilə. Ancaq yenidən tələbat var idi ki, Türkiyə ilə Azərbaycan bu gün bu məsələni bir daha dəyərləndirsinlər, bu məsələ haqqında nə ediləcəkdir - eyni fikirdə olsunlar.

Məmnunam ki, həmişə olduğu kimi, indi də Türkiyə Azərbaycanı dəstəkləyir. Biz bu barədə eyni fikirdəyik və fikrimiz də bundan ibarətdir ki, bu il, yəni 2000-ci ildə mütləq sülh yaransın, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ problemi sülh yolu ilə həll olunsun. Mən bu danışıqlardan çox məmnunam və çox məmnunluqla Bakıya dönürəm.

Bakı - Ceyhan boru xəttinin yaranması haqqında biz beş il çalışdıq, beş il vuruşduq - birlikdə, Azərbaycan - Türkiyə, nəhayət, ortaya gətirdik, nail olduq və İstanbul zirvə görüşü zamanı bu anlaşma çox böyük təntənə ilə imzalandı. Bu, dünyada böyük bir hadisə kimi qiymətləndirilibdir. Ancaq indi biz bir mərhələni keçdik. İkinci mərhələ praktiki işlər, yəni bu boru xəttinin inşasına başlanmasıdır. Biz bu barədə də danışdıq, fikir mübadiləsi apardıq.

Bizim heyətlər görüşüblər və bu ayın 21-22-də İstanbulda Türkiyə - Azərbaycan - Gürcüstan heyətləri görüşəcək və güman edirəm, inanıram ki, orada bütün məsələlər həll olunacaq, çözüləcəkdir və biz işə başlayacağıq. Bunu etmək lazımdır. Çünki

nə qədər ki, Bakı - Ceyhan boru xətti haqqında, neft kəmərı haqqında hazırlıq gedən zaman bizlərə çox əngəl edənlər var idisə, indi də var. Bunlar indi tükənməyiblər. Bəziləri də belə şayiə yayırlar ki, "imzalandı, amma həyata keçirilmir. Bu, real deyil, filan deyil". Amma mən bu gün də bəyan edirəm ki, imzalanan anlaşma həyata keçiriləcəkdir və bu əsrin böyük boru xəttini biz yaradacağıq. Buna heç şübhə yoxdur.

Başqa ikitərəfli münasibətləri də danışdıq, müzakirə etdik. Burada heç bir problem yoxdur. Kiçik məsələlər meydana çıxır: hansısa məmur nəsə etmədi, ya etdi, filan. Amma əsas ondan ibarətdir ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri hər gün, günügündən genişlənir, inkişaf edir və insanların bunu inkişaf etdirməsi nə qədər önəmlidirsə, o qədər də dövlətlərin, hökumətlərin bu işi həmişə əlində saxtaması, daha da çox dəstək verməsi və öz tərəflərindən lazımi tədbir görməsi vacibdir. Biz Azərbaycanda bunu edirik. Türkiyə də edir. Amma bir çox məsələləri daha da sürətlə irəliyə aparmaq üçün görüşmək lazımdır, danışmaq lazımdır.

Mən bu gün hörmətli Baş nazir Büləvd Ecevit ilə də görüşdüm. Bu barədə, dediyim sözlər, məsələlər haqqında çox ətraflı söhbət etdik. Sonra Baş nazirin müavini hörmətli Dövlət Bахçəli ilə görüşdük. Onunla da məsələlər ətrafında çox geniş söhbətlər apardıq. Silahlı Qüvvələrin Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə görüşdük. Onunla da bizim işbirliyimiz haqqında danışıqlar apardıq.

Mən bütün bu görüşlərdən, danışıqlardan çox məmnunam. Hesab edirəm ki, bu, Azərbaycan üçün faydalıdır. Düşünürəm ki, Türkiyə üçün də faydalıdır və Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı üçün də faydalıdır.

Sağ olun.

VƏTƏNƏ QAYITDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA PREZİDENT HEYDƏR ƏLİYEVİN JURNALİSTLƏRƏ VERDİYİ MÜSAHİBƏ

Müxbir: Cənab Prezident, xahiş edirəm, səfəriniz haqqında qısa da olsa məlumat verəsiniz.

Heydər Əliyev: Çox gözəl təəssüratım var. Hər dəfə Türkiyəyə gedəndə çox gözəl təəssüratlarla geriyə dönürəm.Bilirsiniz, bu dəfə mən Türkiyədə cəmisi 24 saatdan da az olmuşam. Ancaq bu müddətdə çoxlu görüşlərimiz, danışıqlarımız olubdur. Bunların hamısı da çox əhəmiyyətlidir.

Türkiyədə bayramdır. Azərbaycanda Ramazan bayramı bir gün, amma Türkiyədə üç gün qeyd edilir. Orada bu gün də bayramdır, dünən də bayram idi. İnsanlar orada çox gözəl bayram edirlər, mahnılar oxuyurlar, rəqs edirlər, bir-birini ziyarət edirlər.

Bilirsiniz, yəqin Türkiyə televiziya kanalları veribdir. Türkiyənin Prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəllə çox ətraflı görüşlərimiz, danışıqlarımız olubdur. Türkiyənin Baş naziri, hörmətli cənab Büləndl Ecevitlə, Baş nazirin müavini hörmətli cənab Dövlət Bəxçəli ilə, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, hörmətli cənab Hüseyn Kıvrıkoğlu, Xarici İşlər naziri, hörmətli İsmayıl Cem ilə çox məsələləri müzakirə etmişik. Mən bütün bu danışıqlardan, müzakirələrdən məmnunam. Ona görə də, görürsünüz, yaxşı əhvalruhiyyə ilə gəlmişəm.

Sual: Cənab Prezident, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi barədə danışıqlar hansı səviyyədədir?

Cavab: Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barədə danışıqlar davam edir. Biz bu danışıqları aparırıq və aparacağıq.

Sual: Cənab Prezident, Gürcüstan Neft Şirkəti ilə danışıqlar apara bildinizmi?

Cavab: Gürcüstan Neft Şirkəti ilə danışıqlar aparılmır, ancaq biz - Türkiyə, Azərbaycan və Gürcüstan qərar qəbul etmişik, yanvar ayının 21-22-də nümayəndə heyətlərimiz görüşəcəklər, maneçilik edən məsələləri aradan qaldıracaqlar və Bakı - Ceyhan neft kəməri tikiləcək, vaxtında işə başlayacaqdır.

Sual: Gürcüstanın irəli sürdüyü tələbləri biz qəbul edəcəyik?

Cavab: Dedim ki, nümayəndə heyətlərimiz orada görüşüb danışacaqlar.

Sual: Cənab Prezident, Türkiyə ilə Ermənistan arasında yolların açılması barədə söhbət oldumu?

Cavab: Yox, olmadı və olmaz. Çünki Ermənistan - Azərbaycan münaqişəsi, hələ ki, həll olunmayıb. Türkiyə Ermənistana nə yol açacaqdır, nə diplomatik əlaqələr quracaqdır. Türkiyə bunu dəfələrlə bəyan edibdir. Bu, çox prinsipial məsələdir.

Sual: Cənab Prezident, Şevardnadze Ankaraya niyə gəlmədi, dəvəti qəbul etmədi?

Cavab: Hansı dəvəti?

Sual: Sizə verilən məktub ona da verilmişdi.

Heydər Əliyev: Mən Türkiyəyə o məktuba görə getməmişəm. Elə bilirsiniz ki, mən o məktuba görə oraya getmişəm? Yox. Mən bu məktuba görə oraya niyə gedirəm? Məktuba görə telefonla danışardıq. Siz burada səhv edirsiniz.

Cənab Süleyman Dəmirəl mənə danışdı ki, yanvarın 15-də onun Gürcüstana rəsmi səfəri olacaqdır. Ancaq mənim Türkiyəyə səfərim heç də həmin məktubla əlaqədar deyil. Məktub xırda bir şeydir.

Sual: Cənab Prezident, Süleyman Dəmirəlin Gürcüstana səfəri Bakı - Ceyhan boru kəməri ilə əlaqədar yaranan anlaşılmazlıqla bağlı deyil ki?

Cavab: Yox. Bu, əvvəldən planlaşdırılmış səfərdir.

Sual: Cənab Prezident, üzr istəyirəm, burada çox söz-söhbətlər gəzir ki, Siz Gülhanəyə baş çəkmisiniz, orada həkimlərlə görüşmüsünüz. Siz bunu təkzib edə bilərsinizmi?

Cavab: Birincisi, bunlar yalandır. İkincisi, sən poliklinikaya gedirsən, yoxsa yox? Sən də, o da, başqası da gedir. İndi bunu niyə bir problem edirsiniz?

Müxbir: Biz etmirik, istəyirik ki, Siz təkzib edəsiniz.

Heydər Əliyev: Nəyi təkzib edim? Sizin uydurduqlarınızın hamısını təkzib edirəm.

Müxbir: Cənab Prezident, Təbriz Universitetinin professoru Çəhrəqani müraciət edib və Sizdən incikliyini bildirib.

Heydər Əliyev: Bilirsən, mən sizə deyirəm, o yalanları danışmayın. Azərbaycan ilə İran arasında əlaqələri genişləndirmək istəyəndə bizim içimizdəki bəzi yaramaz tqüvvələr - mən indi bunu əsəbilikdə deyirəm - ortaya problem çıxarırlar. Hansı ki, yoxdur. Prezidentin mətbuat xidməti iki-üç gün bundan əvvəl bu barədə məlumat veribdir. Birincisi, Çəhrəqaninin nə məktubu, nə də buraya gəlmək arzusu var. İkincisi, Azərbaycandan gündə nə qədər adam Təbriz, Tehrana müalicə olunmaq üçün gedir. İndi İranda tibbi xidmət və tibbi işlər çox ölkələrdən yüksəkdir. Azərbaycandan qat-qat yüksəkdir. Buradan gedib Tehranda ürək-damar cərrahiyyə əməliyyatı keçirirlər, başqa müalicələr alırlar. İndi nə olubdur ki, müalicə almaq üçün buraya gəlsinlər? Bunu sizin dostlarınız yayırlar. Sən hansı qəzetdənsən?

Müxbir: Cənab Prezident, mən "Turan" agentliyindənəm, müraciət ediblər.

Heydər Əliyev: Elə bu işlərin çoxunu "Turan" yayır. Bunları "Turan" yayır. Belə bir iş yoxdur, hamısı yalandır. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DAVOSDA TÜRKİYƏNİN BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Türkiyənin Baş naziri Büləndl Ecevit ilə görüşmüşdür.

Respublikamızın rəhbərini böyük səmimiyyət və mehribanlıqla salamlayan cənab Ecevit dost və qardaş ölkənin Prezidenti Heydər Əliyevlə bu görüşdən son dərəcə məmnun qaldığını nəzərə çarpdırdı.

Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq münasibətlərinin gündən-günə genişlənməsindən, inkişaf etməsindən razılıqla söhbət açan dövlətimizin başçısı Heydər Əliyev Davos Dünya İqtisadi Forumunun iştirakçı ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi.

Respublikamızın rəhbəri Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun çərçivəsində və birbaşa aparılan danışıqların gedişindən ətraflı bəhs etdi.

Cənab Ecevit bu münaqişənin aradan qaldırılması üçün Azərbaycanın haqq işini Türkiyənin həmişə mü-

dafiə edəcəyini bir daha vurğuladı.

Prezident Heydər Əliyev və Baş nazir Büləndt Ecevit Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan Bakı - Ceyhan əsas ixrac boru kəmərinin və Transxəzər qaz kəmərinin inşasına dair ötən ilin noyabrında İstanbulda imzalanmış sənədlərdən məmnunluqla söhbət açaraq, bu layihələrin həyata keçirilməsinin nəinki region dövlətlərinin, həm də Avropa və dünya ölkələrinin iqtisadi inkişafında böyük rol oynayacağını bildirdilər və onların gerçəkləşdirilməsi üçün görülən işləri müzakirə etdilər.

Söhbət zamanı Davos İqtisadi Forumunda müzakirə edilən məsələlər, regionda vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

"Azərbaycan" qəzeti,4 fevral 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN DAVOSDA TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CEM İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem ilə görüşmüşdür.

Ölkəmizin rəhbərini mehribanlıqla salamlayan və onunla yenidən görüşməkdən şərəf duyduğunu nəzərə çarpdıran cənab İsmayıl Cem türk dünyasının liderləri Prezident Heydər Əliyevin və Prezident Süleyman Dəmirəlin diqqət və qayğısı nəticəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündəngünə inkişaf etməsindən çox məmnun qaldığını bildirdi.

Cənab Cem Davos İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada Prezident Heydər Əliyevin çıxışını və suallara çox tutarlı cavablarını yüksək qiymətləndirdi.

Xəzərin enerji ehtiyatlarının dünya bazarına çıxarılması üçün ötən ilin noyabrında ATƏT-in zirvə görüşü zamanı İstanbulda məşhur "Çırağan" sarayında Bakı - Ceyhan əsas ixrac boru kəməri barədə sazişlərin görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsi təşəbbüsü və səyləri nəticəsində imzalanmasını böyük tarixi hadisə kimi dəyərləndirən nazir əmin olduğunu bildirdi ki, bu kəmərlərin reallaşması Azərbaycanın və Türkiyənin, eləcə də regionun digər ölkələrinin həyatında silinməz izlər buraxacaq, çox müsbət dəyişikliklər yaranmasına gətirib çıxaracaqdır.

Dost və qardaş Türkiyə ilə əlaqələrin durmadan genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini nəzərə çarpdıran dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunda müzakirəyə qoyulan məsələlərin iştirakçı ölkələrin iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinə yeni təkan verəcəyinə əmin

olduğunu bildirdi.

Söhbət zamanı Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi və ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

"Azərbaycan" qəzeti, 4 fevral 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUTU VƏ TBMM-in NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fevralın 8-də Prezident sarayında ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Yıldırım Akbulutu və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev dedi:**

-Hörmətli sədr!

Hörmətli millət vəkilləri!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli Yıldırım Akbulutun başçılığı ilə Türkiyə Böyük Millət Məclisinin geniş tərkibdə nümayəndə heyətinin Azərbaycana ziyarəti, səfəri bizim üçün çox əhəmiyyətlidir. Türkiyə və Azərbaycan, ölkələrimiz, dövlətlərimiz arasında əlaqələrin sürətlə inkişaf etməsinə əyani sübutdur.

Türkiyə - Azərbaycan əlaqələri dostluq, qardaşlıq, geniş əməkdaşlıq əlaqələridir. Bu əməkdaşlıq daim inkişaf edir və hər iki tərəfdən böyük səylər göstərilir ki, bizim əlaqələrimiz daha da sıx, yaxın olsun. Bəzən düşünürsən ki, biz o qədər doğmayıq, dostuq, qardaşıq ki, bunu bir az da yüksəltməyə imkan yoxdur. Amma bu, belə deyildir. Hələ çox çalışmalıyıq ki, Azərbaycanda da, Türkiyədə də hər bir insan, vətəndaş -Türkiyənin, Azərbaycanın vətəndaşı bu siyasətimizi həqiqətən qəlbən dəstəkləsin, bizimlə həmfikir, bərabər olsun.

Hörmətli sədr, mən Sizinlə Türkiyədəki görüşümüzü məmnuniyyətlə xatırlayıram. Bilirsiniz ki, o vaxt mən Amerikada cərrahiyyə əməliyyatından sonra Sizin ölkədə qısamüddətli istirahətdə idim. Bizimlə sizin çox dəyərli görüşümüz oldu. O vaxt mən Sizə müraciət etdim ki, Azərbaycanı ziyarət edəsiniz. Azərbaycan Milli Məclisinin sədri də Sizi ölkəmizə rəsmi ziyarətə dəvət edibdir. Mən çox məmnunam ki, Siz bizim dəvətlərimizi qəbul etmisiniz, Azərbaycanı ziyarətə gəlmisiniz. Görürəm ki, Türkiyənin Böyük Millət Məclisində bütün partiyaları təmsil edən millət vəkilləri də Sizinlə bərabərdir. Mən bundan çox məmnunam. Bir daha Si-

zə deyirəm ki, Azərbaycana xoş gəlmisiniz!

Qonaqpərvərliyə və qəbula görə Azərbaycan Prezidenti Heydər Əliyevə minnətdarlığını bildirən **Yıldırım Akbulut** dedi:

- Hörmətli cənab Prezident!

Hər şeydən əvvəl, Azərbaycanda olduğumuz müddət ərzində bizə göstərilən qonaqpərvərlik üçün Azərbaycan Milli Məclisinin sədri hörmətli Murtuz Ələsgərova təşəkkür edirəm. Hörmətli Murtuz Ələsgərov ölkənizə qədəm qoyduğumuz ilk andan başlayaraq bizimlə bərabər oldu. Biz Türkiyə - Azərbaycan münasibətləri barədə məsələləri birlikdə müzakirə etdik. Bir sıra görüşlərimizdə parlamentlərarası münasibətlərin daha da gücləndirilməsi haqqında onun fikirlərini öyrəndik. Nümayəndə heyətimiz bütün bunlardan böyük məmnunluq duyur.

Hörmətli cənab Prezident, mən hörmətli Prezidentimiz Süleyman Dəmirəlin salamlarını Sizə çatdırmaqdan şərəf duyuram. Mən buraya gəlməmişdən bir gün əvvəl cənab Prezident Süleyman Dəmirəllə görüşdüm və Azərbaycana səfərim, Sizinlə görüşəcəyim barədə ona məlumat verdim. Cənab Dəmirəl bundan çox məmnun oldu və onun səmimi salamlarını Sizə yetirməyimi xahiş etdi.

Hörmətli Prezident, mən türk millətini təmsil edən Böyük Millət Məclisi üzvlərinin də salamlarını və xoş arzularını Sizə yetirirəm. Biz belə bir kəlamınızı hər zaman təkrar edirik: "Biz bir millət, iki dövlətik". Azərbaycanın müstəqillik uğrunda mübarizəsini Türkiyə həmişə dəstəkləmişdir və onunla birlikdə olmuşdur. Biz Azərbaycanın inkişafı və demokratikləşməsi uğrunda Sizin rəhbərliyiniz və liderliyinizlə aparılan mübarizəni dəstəkləyirik.

Məmnuniyyətlə qeyd etmək istəyirik ki, sərbəst bazar iqtisadiyyatı yolunu seçən və demokratikləşmənin getdikcə bərqərar olduğu Azərbaycanda hər şey yaxşılığa doğru dəyişir. Biz Sizin bu xəttinizi ürəkdən dəstəkləyir, bu sahədə Sizə əlimizdən gələn hər cür köməyi göstərəcəyimizi bəyan edirik. Türkiyənin bu sahədə xeyli təcrübəsi var və biz bu təcrübəni Sizinlə bölüşməyə həmişə hazırıq.

Cənab Prezident, Zati-alinizin təşəbbüsü və səyləri ilə Azərbaycan beynəlxalq birlikdə özünəlayiq yer tutmuşdur. Biz bunu çox yaxşı dərk edirik və bu sahədəki fəaliyyətinizi ürəkdən dəstəkləyirik.

Türkiyə Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasını eyni səmimiyyətlə arzulayır. Biz arzu edirik ki, Azərbaycan Avropa qurumlarında öz layiqli yerini tutsun. Biz bu işdə də Sizə hər cür dəstək verməyə hazırıq.

Biz Prezident Heydər Əliyev ilə Prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqlar nəticəsində Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunacağına inanır, bu görüşləri dəstəkləyir və danışıqların davam etdirilməsini arzulayırıq.

Biz bilirik ki, beynəlxalq hüquq qaydalarına zidd olaraq Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu münaqişənin ədalətli həlli üçün həmin torpaqlar azad edilməlidir.

Bu gün biz qaçqınların məskunlaşdığı yerə getdik, onların dözülməz şəraitdə yaşadıqlarını gördük, həmin insanlarla söhbət etdik. Onların hamısı tezliklə öz doğma ocaqlarına qayıtmaqdan başqa heç bir arzuları olmadığını söylədilər. Biz də onlarla həmfikir olduğumuzu bildirdik. Ən böyük arzumuz budur ki, bu münaqişə tezliklə sülh yolu ilə həll edilsin.

Hörmətli cənab Prezident, biz bu gün səhər Şəhidlər xiyabanında olduq. Vətənin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda edən bu insanların məzarlarını böyük bir ehtiramla ziyarət etdik, onların ruhu qarşısında baş əydik.

Türkiyə vətəndaşları da 1918-ci ildə Azərbaycanın istiqlalı uğrunda mübarizədə iştirak edərkən burada azərbaycanlı qardaşları ilə birlikdə vuruşaraq şəhid olublar. Onların məzarları üzərində xatirə kompleksinin inşasında Sizin böyük əməyiniz vardır. Biz bunu yaxşı bilirik və göstərdiyiniz diqqətə, qayğıya görə Sizə xüsusilə minnətdarıq.

Cənab Prezident, bizim səfərimiz bu gün başa çatır və sabah vətənə qayıdacağıq. Bildirmək istəyirəm ki, bu, son dərəcə faydalı bir səfər oldu. Bu səfər zamanı biz çox duyğulu və xoşbəxt anlar yaşadıq. Bildiyiniz kimi, biz şərqlilər çox hissiyyatlı insanlarıq.

Bu gün səhərdən bəri keçirdiyimiz görüşlər və apardığımız danışıqlar nəticəsində onu deyə bilərəm ki, biz ölkələrimiz arasındakı əməkdaşlığı daha da genişləndirməli və bunu konkret layihələrə çevirməliyik. Çalışmalıyıq ki, bu layihələrin həyata keçirilməsi həm Türkiyəyə, həm Azərbaycana, həm də türkdilli digər ölkələrə faydalar gətirsin. İnanırıq ki, bu, regionda sülhün və sabitliyin bərqərar olunmasına kömək göstərəcəkdir.

Cənab Prezident, bizi qəbul etdiyiniz üçün Sizə bir daha öz səmimi təşəkkürlərimizi bildirmək istəyirik.

Türkiyə Böyük Millət Məclisinin sədri Yıldırım Akbuluta minnətdarlıq edən Prezident **Heydər Əliyev** dedi:

- Hörmətli sədr, təşəkkür edirəm. Sizin bu məzmunlu və xoş sözləriniz elə bizim də qəlbimizdə olan sözlərdir. Azərbaycanın bu günü haqqında sizin fikirləriniz bizim üçün çox əhəmiyyətlidir.

Bizim problemlərimiz, işimizin çətin tərəfləri, xüsusilə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi və köçkün, qaçqın vəziyyətində yaşayan insanlarımız barədə, bu münaqişənin sülh yolu ilə həll olunması, mənim Ermənistan Prezidenti Robert Koçaryanla son bir il içərisində keçirdiyim görüşlər haqqında dediyiniz fikirlər məni sevin-

dirir. Bizim üçün bir daha aydın olur ki, ölkəmiz doğru, düz yolla gedir.

Mən çox məmnunam ki, siz qısa müddətdə Azərbaycanın bugünkü mənzərəsini görmüsünüz. Azərbaycanın öz müstəqilliyini əldə etməsindən artıq 8 il keçibdir. Həmin illərin Azərbaycan üçün çox ağır və bəzən dəhşətli illər olduğunu nəzərə alsaq, bu, tarixi nöqteyi nəzərdən o qədər də böyük zaman deyildir.

Ermənistanın Azərbaycana təcavüzü, 1988-ci ildən münaqişənin başlanması, müharibənin getməsi, qan tökülməsi, şəhidlər verilməsi, torpaqlarımızın işğal olunması və bir milyondan artıq insanın öz yerindən-yurdundan çıxarılması bütün bunların bəlkə də dünyanın heç bir ölkəsində analoqu, bənzəri yoxdur. Çünki 8 milyon əhalisi olan bir ölkənin əhalisinin bir milyonu qaçqın vəziyyətindədir. Bu gün sizin görüşdüyünüz qaçqınlar heç olmasa Bakıda, bir binada məskunlaşıblar. Amma qaçqınların əksər hissəsi yeddi ildir ki, çadırlarda yaşayır. Bu, çox ağır bir həyatdır. Ancaq xalqımız bu illər ərzində sübut etdi ki, çox dözümlüdür, öz istəyinə, arzusuna nail olmaq üçün əzab-əziyyətə də dözür. Eyni zamanda, öz haqqını tələb etmək üçün xalqımızın qüdrəti də, cəsarəti də, ağlı da, zəkası da vardır.

Biz 1994-cü ilin may ayında atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Biz o illərdən indiyə qədər davamlı olaraq, dayanmadan bütün vasitələrdən istifadə edərək münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq ölkəmizin qarşısındakı çətinliklər sizə yaxşı məlumdur. Çünki Ermənistan tərəfi torpaqlarımızı işğal etdiyinə görə, təbiidir ki, bizim üçün məqbul olmayan şərtlər irəli sürür.

Onu da etiraf etmək lazımdır ki, Türkiyə də bunu öz həyatında hiss edir - Ermənistanın dünyada, beynəlxalq aləmdə tərəfdarları həddindən artıq çoxdur. Elə Ermənistanın Türkiyəyə qarşı tam əsassız olaraq "genosid problemi"ni indiyə qədər qaldırması və ayrı-ayrı ölkələrdə parlamentdə, yaxud başqa bir qurumda bu məsələnin müzakirə edilməsi onların bir çox ölkələrdə nə qədər dəstəklənməsini, tərəfdarları olduğunu göstərir. Beləliklə də bir tərəfdən torpaqlarımızı işğal etdiklərinə, ikinci tərəfdən dünyanın bir çox ölkələrində müəyyən dəstəklərə malik olduqlarına görə onlar ədalətli şərtlərə gələ bilmirlər.

Ancaq biz çalışırıq. ATƏT-in Minsk qrupu bu illərdə böyük fəaliyyət göstərib. Türkiyə də ATƏT-in Minsk qrupunun üzvüdür. İndi siz qeyd etdiniz, mən də onu bildirirəm ki, keçən ilin aprel ayından bəri Ermənistan Prezidenti Robert Koçaryanla bir neçə dəfə görüşlər keçirmişəm. Bizim son görüşümüz bu yaxınlarda Davosda olubdur. Bu görüşlər çox əhəmiyyətlidir. Hesab edirəm, bu görüşlər münaqişənin sülh yolu ilə həll olunmasına ciddi təsir göstərə biləcəkdir.

Bax, biz öz müstəqilliyimizi, dövlətimizi belə bir böyük problem içərisində qururuq. Sizin bildiyiniz kimi, Azərbaycanın daxilində bir neçə il müddətində sabitliyin olmamasını, ayrı-ayrı silahlı qüvvələrin burada mübarizə aparmasını və hakimiyyətin güclə devrilməsinə iki dəfə cəhd göstərilməsini və başqa halları əgər buna əlavə etsək, onda təsəvvür edə bilərsiniz ki, bu dövrdə Azərbaycan xalqı nə qədər böyük sınaqlardan keçibdir, amma eyni zamanda uğur əldə edibdir, irəliyə gedibdir.

Biz, demək olar ki, 1995-ci ildə Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirə bildik. Hesab edirəm ki, bu, bizim ən böyük nailiyyətimizdir. Çünki əgər 1988-ci ildə Ermənistan - Azərbaycan münaqişəsi başlayanda Azərbaycanda güclü dövlət, respublikamızın daxilində sabitlik olsaydı, təbiidir ki, Ermənistan Azərbaycana qarşı bu işləri edə bilməzdi. Onlar Azərbaycanın daxilindəki çəkişmələrdən, boğuşmalardan, hakimiyyət mübarizəsindən, qanunsuz silahlı dəstələrin bir-biri ilə toqquşmasından istifadə edərək çox böyük fürsət əldə etdilər və bunu da əldən vermədilər. Ona görə bizim üçün çox vacib idi ki, müharibədə atəşi dayandıraq. Çünki ölkənin belə vəziyyətində müharibəni davam etdirmək, təbiidir ki, uğursuz olacaqdı. Biz atəşi dayandırandan sonra Azərbaycanın daxilində vəziyyəti normallaşdırmaq, sabitləşdirmək lazım idi. Bu da asan iş deyildi.

Bilirsiniz ki, 1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişildi. 1993-cü ildə vətəndaş müharibəsi baş verdi, hakimiyyət dəyişildi. O vaxt Azərbaycan parçalanırdı və artıq parçalanmışdı. Biz vətəndaş müharibəsinin qarşısını aldıq, onu yatırtdıq. Ancaq bəzi insanlar əl çəkmədilər. 1994-cü ilin oktyabr ayında burada silahlı dövlət çevrilişinə cəhd edildi. Xalq bunun qarşısını aldı. Onlar silahlı idilər, amma xalq, millət Prezident Sarayının önünə yığıldı, toplandı və həmin silahlı cinayətkarların qarşısını aldı.

Ancaq bəzi insanlar yenə də öz bəd əməllərindən əl çəkmirdilər. 1995-ci ilin mart ayında biz böyük bir böhran keçirdik. Yəni böyük bir silahlı dəstə müxtəlif xarici ölkələrin xüsusi xidmət orqanlarından dəstək, kömək alaraq Azərbaycanda hakimiyyəti devirməyə, Prezidenti qətlə yetirməyə, onu öldürməyə və hakimiyyəti ələ keçirməyə cəhd edirdi. Biz bunun da qarşısını aldıq. Ondan sonra da Azərbaycanda bir neçə terror cəhdinin qarşısı alındı.

Bunun nəticəsində biz 1995-ci ilin sonundan ölkədə sabitliyi təmin etməyə başladıq. Allaha şükürlər olsun ki, hər il Azərbaycanda daxili vəziyyət daha da sabitləşir, möhkəmlənir və insanlar artıq rahat yaşayır və rahat yaşamağa da öyrənirlər. Cinayətkarlar da - onlar hələ tükənməyiblər- anlayıblar ki, daha o yollara getmək olmaz. Ancaq bəziləri anlamayıblar. Bəziləri bu gün də o fikir-

lə, o hava ilə yaşayırlar ki. Azərbaycanda yenidən hakimiyyəti güclə, silahla devirmək, ələ almaq olar.

Ancaq indi bizim dövlətimiz güclüdür. Xalqımız da dövləti dəstəkləyir. Belə xəyalda olan adamlar da onlardan əvvəl belə işləri görən adamlar kimi öz cəzalarını alacaqlar.

Bu illərdə Azərbaycanda bir çox istiqamətdə işlər gedibdir. Mən sizə deyirəm, birincisi, əsası o idi ki, sabitliyi əldə edək. Bununla bərabər Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesini həyata keçirək. Azərbaycanda bazar iqtisadiyyatına keçmək tədbirlərini təmin edək, islahatlar həyata keçirək. Bunların hər biri özlüyündə çox ağır, çətin problemdir. Çünki əgər insanlar 70 il bir ictimai-siyasi, iqtisadi sistemdə yaşayıbsa, -təkcə insanlar yox, dövlət, bütün millət,- qısa bir zamanda başqa sistemə keçmək asan iş deyildir.

Ancaq biz bu yolla çox inamla gedirik. İnamla getdiyimizə görə uğurlar da əldə edirik. O illərdə ki, Azərbaycanda daxili sabitlik pozulmuşdu, müharibə gedirdi,- və uğursuz müharibə gedirdi,- Azərbaycanın iqtisadiyyatı dağılmışdı. Mən sizə deyə bilərəm ki, keçmiş Sovetlər Birliyinin tərkibində 70-80-ci illərin sonuna qədər Azərbaycanın çox güclü iqtisadi potensialı olubdur. Siz Bakını seyr edərkən yəqin ki, bunun nişanələrini indi də görürsünüz. O dövrdə Azərbaycanın güclü, çox güclü potensialı olubdur. Sizin sözünüzlə desək, altyapı çox güclü olubdur.

Ancaq o illərdə bunların bir qismi dağılıbdır. Dağılmış bir şəraitdə, iqtisadiyyat inkişaf əvəzinə ilbəil tənəzzül etdiyi bir halda bunu dayandırmaq lazım idi. İqtisadi vəziyyəti sabitləşdirmək, sonra da inkişaf etdirmək lazım idi. 1996-cı ildən biz bu yolla gedirik. Həyata keçirdiyimiz tədbirlər, demokratikləşmə, dövlət quruculuğu prosesi, çox dəyərli qanunların qəbul olunması və onların həyata keçirilməsi, iqtisadiyyatda görülən tədbirlər nəticəsində əldə edilən inkişaf göz qabağındadır.

Mən bu gün 1999-cu ilin iqtisadi göstəricilərinə dair rəqəmlərə baxırdım. Biz adətən özümüzü Müstəqil Dövlətlər Birliyində olan ölkələrlə müqayisə edirik,- özümüzü Türkiyə ilə, başqası ilə müqayisə edə bilmərik,- çünki keçmişdə o dövlətlərlə Sovetlər Birliyində, bir iqtisadi sistemdə olmuşuq və indi də onlarla bərabər Müstəqil Dövlətlər Birliyindəyik. Ona görə də iqtisadiyyatımızın vəziyyətini onlarla müqayisə edirik.

Müqayisədən görünür ki, 1999-cu ilin yekunlarına görə Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olan 12 ölkə içərisində çox hallarda birinci yerdədir. Çox hallarda! Təsəvvür edin, bizdə sənaye istehsalı ilbəil 25 faiz aşağı düşürdü. Eləcə də kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsulun həcmi aşağı düşürdü. 1996-cı ildən isə inkişaf edir - ildə 4 faiz, 5 faiz. məsələn, heç gözlənilməyən şeydir - 1999-cu ildə sənaye istehsalı 4 faiz inkişaf edibdir. Baxmayaraq ki, sənayemizin böyük hissəsi dayanıbdır, amma biz başqa sahələri canlandırmışıq, inkişaf edibdir. Məsələn, kənd təsərrüfatında 7 faiz artım var. Ümumi daxili məhsul 7 faiz artıbdır. Bunların nəticəsində bizdə büdcədən verilən maaşlar artır. İstehlak mallarının qiyməti sabitdir, ya da aşağı düşür. Neçə ildir ki, bizdə inflyasiya yoxdur, manatın dəyəri sabitdir. Bunlar belə bir ağır şəraitdə əldə olunan göstəricilərdir.

Təbiidir ki, biz bunların heç biri ilə öyünmürük. Heç birini də böyük nəticə hesab etmirik. Biz hələ çox işlər əldə etməliyik. Xalqın həmisinin rifah halını, yaşayışını yüksəltməliyik. İqtisadi potensialımızı hərəkətə gətirməliyik. Biz bu yoldayıq, bu yolla gedirik. Hesab edirəm ki, bu yolda da uğurlar əldə edəcəyik.

Bir sözlə, mən sizə bildirmək istəyirəm ki, səkkiz illik müstəqillik dövrü bizə qürur hissi gətirir - böyük, tarixi nailiyyətdir ki, biz artıq müstəqil yaşayırıq, istiqlaliyyətimizə çatmışıq. Siz bildirdiyiniz kimi, Azərbaycan dünya miqyasında öz yerini tutubdur, onun öz imzası var, öz səsi var. Eyni zamanda problemlərimiz də çoxdur və bunları həll etməyə çalışırıq.

Yəni müstəqilliyimiz bizim üçün əsas nailiyyətdir. Amma bu müstəqillikdən istifadə edib sosial-iqtisadi inkişafı təmin etmək və müstəqillik şəraitində insanlarımızın həyat tərzini, rifahını keçmiş Sovetlər Birliyində olduğundan daha da yüksəklərə qaldırmaq bizim borcumuz, vəzifəmizdir. Bunu da edirik və edəcəyik.

Biz dünya təcrübəsindən istifadə edirik. Bizim üçün çox gözəl təcrübə mənbəyi Türkiyədir. Təbiidir ki, Türkiyənin keçdiyi yol böyük yoldur. Türkiyə Cümhuriyyəti böyük öndər Mustafa Kamal Atatürk tərəfindən yaranandan bəri 75 ildir ki, yaşayır və böyük nailiyyətlər əldə edibdir. Amma bəzən sizin mətbuatda da oxuyuram, mənim əziz dostum, qardaşım hörmətli Süleyman Dəmirəllə Türkiyənin müxtəlif yerlərində oluram. Məsələn, son vaxtlarda biz zəlzələ olan yerə birlikdə getmişdik. Kocaelidə idik,- deyəsən, burada Kocaelidən millət vəkili var,- oraya getmişdik, çox gözəl görüşlərimiz keçdi. Hörmətli Süleyman Dəmirəl də xitab etdi. Ondan sonra İspartada oldum, orada da bir neçə görüş oldu. Hörmətli Süleyman Dəmirəl İspartada, Süleyman Dəmirəl adına Universitetdə xalqa xitab etdi. Məsələn, hörmətli Süleyman Dəmirəl deyirdi: xatırlayın, cümhuriyyət yarananda 12 milyon nüfusu olan Türkiyənin əhalisi indi 65 milyondur. Yaxud da pulu olmayan o dövlət indi təkcə İsparta şəhərində 2 məktəb açdı, nə qədər universitetlər var, insanlar nə qədər savadlanıblar.

Yəni cümhuriyyət yarandandan indiyə qədər Türkiyənin belə yüksək səviyyəyə çatması üçün, birincisi, zaman lazım idi. İkincisi, əlbəttə ki, Mustafa Kamal Atatürk kimi müd-

rık bir liderin liderliyi lazım idi. Ondan sonra isə böyük Atatürkün qoyduğu yolla sədaqətlə gedən dövlət və dövlət başçıları lazım idi. Bunlar hamısı var. Hesab edirəm, Türkiyənin ən böyük sərvəti ondan ibarətdir ki, onun cümhuriyyəti var, tarixi şəxsiyyət olan Mustafa Kamal Atatürk kimi unudulmaz lideri və onun yolu ilə gedən, demokratiya yolu ilə gedən dövləti, hökuməti və xalqı var.

Bunlara görə də mən deyirəm ki, biz Türkiyənin təcrübəsindən çox istifadə edirik, Türkiyə bizim üçün örnəkdir. Məsələn, xüsusən nə üçün? Ona görə ki, Türkiyə xalqı ilə Azərbaycan xalqı qədər bir-birinə yaxın xalq, millət yoxdur. Siz də bunu ifadə etdiniz, mən də dəfələrlə demişəm ki, biz bir millət, iki dövlətik. Görürsünüz, dilimiz birdir. Türkdilli dövlətlər var, onlarla siz də görüşürsünüz, biz də görüşürük. Biz onlarla rusca danışırıq. Çünki mənim azərbaycanca danışdığımı özbək, ola bilər, 10 faiz anlasın, onun da danışdığını mən 10 faiz anlaya bilərəm. Eləcə də sizin aranızda. Mən bilirəm ki, siz də tərcümansız danışa bilmirsiniz. Amma görürsünüz, mənim dediklərimin hamısı sizin dediyiniz kimidir. Ola bilər ki, 3 faiz sözlərdə fərq var. Bu, birincisi.

İkincisi, bizim adətimiz, ənənələrimiz, mənəvi dəyərlərimiz - bunlar hamısı birdir. Ona görə də Türkiyə bizim üçün hər sahədə örnəkdir və çalışırıq ki, bundan səmərəli istifadə edək.

Bizim xalqımızda Türkiyəyə çox böyük məhəbbət var, siz bunu hiss etdiniz, çox böyük sevgi var. Mən Türkiyədə olarkən dəfələrlə bunu ifadə etmişəm. Hörmətli sədr, bir neçə ay bundan öncə Ankarada mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilərkən orada söylədiyim nitq sizin xatirinizdədir, orada da dedim. Bunun özü Azərbaycan xalqı üçün böyük bir tarixi hadisədir ki, Azərbaycanın Prezidenti böyük öndər Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatına layiq görülübdür. Mən bunu təntənəli şəraitdə aldım, sizin hamınız - dövlət də, hökumət də, Böyük Millət Məclisi də - iştirak edirdiniz. Mən bunu həyatımda ən böyük hadisə hesab edirəm.

Xatirinizdədir, o vaxt mən orada dedim ki, həyatımda çox dövlət nişanları, çox mükafatlar almışam. Sovetlər Birliyinin ən yüksək dövlət nişanlarının, mükafatlarının, demək olar, hamısını almışam. Yalnız Sovetlər Birliyinin yox, bir neçə başqa dövlətlərin də. Ancaq 1996-cı ildə məni Türkiyənin dövlət nişanı ilə təltif etdilər, hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl onu mənə təqdim etdi. 1999-cu ildə isə - qərar aprel ayında qəbul olunmuşdur, ancaq xəstəxanada olduğuma görə təqdimat gecikdi, - mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verildi. Mən o vaxt da demişəm, bu gün də deyirəm: bu, bizim Azərbaycan xalqına Türkiyə dövləti tərəfindən göstərilən qayğıdır. Yəni bu mükafat təkcə mənə aid

deyil, bütün xalqımıza, millətimizə, bütün dövlətimizə aiddir.

Türkiyənin həyatında böyük Millət Məclisinin çox önəmli yeri var. 1996-cı ildə mən Böyük Millət Məclisində geniş nitq söylədim- ola bilər, sizlərdən orada olanı vardı, xatırlayırsınız. Orada mən dedim ki, keçmişdə, Sovetlər Birliyi zamanı qəzetlərdə yazırdılar ki, Türkiyənin Böyük Millət Məclisi bunu etdi, onu etdi. Bu, hər dəfə bizdə böyük qürur hissi doğururdu. Amma eyni zamanda müxtəlif duyğular yaradırdı. Çünki biz Sovetlər Birliyinin tərkibində olaraq qəlbimizdə Türkiyəyə, Böyük Millət Məclisinə, Mustafa Kamal Atatürk şəxsiyyətinə böyük hörmətlə yanaşırdıq. Məsələn, Böyük Millət Məclisi xalqımızın, o cümlədən mənim kimi bir insanın gözündə elə bir anlayış idi ki, o, dünyanın ən böyük məclislərindən biridir. Ona görə mən Böyük Millət Məclisində, bütün millət vəkillərinin qarşısında nitq söyləyərkən bu sözləri dedim. Dedim ki, Türkiyə Böyük Millət Məclisinin böyük tarixi var. Birincisi, bunun əsasını qoyan, bunu yaradan, bunun banisi Mustafa Kamal Atatürkdür. İkincisi, bu, böyük demokratiya yolu keçmiş millət məclisidir və Türkiyənin həyatında çox böyük rol oynayır, böyük təcrübəsi vardır.

Ona görə də biz sizin bu təcrübənizdən daim istifadə edirik. Bu baxımdan parlamentlərarası əlaqələrin də çox böyük əhəmiyyəti var. Mənə dedilər ki, siz bu gün Azərbaycanın Milli Məclisində çox dəyərli nitq söyləmisiniz. Sizin fikirləriniz, bizim millət vəkillərinin bir-biri ilə lazimi əlaqələri təbiidir ki, bizə lazımdır.

Bizim parlament 1995-ci ildə seçilmiş Milli Məclisdir. Bu, gənc parlamentdir. Biz demokratiya qururuq və deyə bilərəm ki, demokratiyanı istənilən səviyyəyə qaldıra bilmişik. Əgər belə desəydik, bu, yanlış, səhv olardı. Çünki qısa bir müddətdə belə ola bilməz. Türkiyə Böyük Millət Məclisinin nə qədər tarixi var - 1923-cü ildən indiyə qədər. Bəlkə parlament ondan da öncə yaranmışdır. Eladir, mən səhv etmirəm ki? Nə qədər böyük tarixi var, nə qədər böyük yol keçibdir.

Amma bu gün də yenə,- bu ifadəmə görə üzr istəyirəm, -qüsursuz deyildir. Eladirmi? Ona görə bizim də Milli Məclisimiz yol keçir. Təbiidir, heç də düşünməməliyik ki, bizə 70 il lazımdır ki, gəlib sizin səviyyənizə çatacağıq. Yox, biz sizin təcrübənizdən və dünyanın digər demokratik parlamentlərinin təcrübəsindən istifadə edərək daha da sürətlə gedəcəyik və tez bir zamanda gəlib çatacaq. Amma bunun üçün zaman lazımdır.

Bu ilin sonunda, noyabr ayında bizdə yeni seçkilər olacaq, çünki beş il bitir. Güman edirəm ki, bu seçkilər daha da demokratik olacaq, Azərbaycan cəmiyyətini daha da geniş təmsil edəcək, Milli Məclisimiz bu beş ildə əldə etdiyi təcrübəni daha da artıracaqdır. Beləliklə, biz müstəqil

Azərbaycanı yaşadacaq, inkişaf etdirəcəyik.

Bizim əlaqələrimiz haqqında çox danışmaq olar. Ancaq hesab edirəm, ən böyük nailiyyətimiz bir də odur ki, biz Azərbaycanın Xəzər dənizindəki böyük sərvətlərini- neft və qaz yataqlarını dünyaya təqdim etdik. 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzaladıq. Bu barədə Türkiyə ilə daim bərabər çalışdıq. Nəhayət, Bakı - Ceyhan neft kəmərinin yaranması haqqında noyabr ayında İstanbulda tarixi bir saziş imzaladıq.

Doğrudur, indi bizə çox sual verirlər ki, nə üçün işə başlamayıbdır? Bunu siz bilirsiniz, biz də bilirik. Türkiyə ilə Azərbaycan bu layihə barədə eyni mövqedədirlər. Amma Gürcüstan bəzi şərtlər qoyubdur. Bu yaxınlarda Ankarada bu barədə danışıqlar getdi. İndi, fevral ayının 12-də Azərbaycanda toplaşacaqlar. Hörmətli Süleyman Dəmirəl Gürcüstanda olarkən orada bu məsələni müzakirə etmişdir. Mən də Moskvada olarkən Gürcüstanın Prezidenti Şevardnadze ilə bu barədə danışdım. Hesab edirəm ki, onlar o şərtləri aradan qaldıracaqlar və ondan sonra biz Bakı - Ceyhan neft kəmərinin tikilməsinə başlayacağıq.

Təbiidir ki, bu, əsrlərə xidmət edən bir xətt olacaqdır. Yalnız Azərbaycan neftinin ixrac olunması üçün xətt yox, eyni zamanda dövlətlərimizin bir-biri ilə sıx bağlanması xəttidir. Yəni bu, böyük hadisədir, bunun böyük siyasi əhəmiyyəti var - bizim bölgədə, Azərbaycanda, Türkiyədə, Qafqazda, xüsusən Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi üçün böyük əhəmiyyəti var. Təbiidir ki, biz bunu da həll edəcək, həyata keçirəcəyik.

Əgər bu məsələlər barəsində danışsaq, neçə saat vaxt lazımdır. Ancaq mən bəzi məsələlərə toxundum. Bir də bildirmək istəyirəm ki, sizin buraya ziyarətiniz, təbiidir ki, bəzi ictimaiyyət üçün çox əhəmiyyətlidir və xalqlarımız, dövlətlərimiz arasında əlaqələrin daha da yüksəklərə qalxmasına yardım edəcəkdir. Buna görə də sizə və sizin bütün nümayəndə heyətinə öz təşəkkürümü bildirirəm.

"Azərbaycan" qəzeti, 9 fevral 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Əziz qardaşım!

Türkiyənin Avropa Birliyinə namizəd ölkə elan edilməsi münasibətilə yüksək şəxsiniz və qardaş Azərbaycan xalqı adından iltifatla göndərdiyiniz təbrik məktubunu aldım. Türkiyənin gələcəyi haqqında dilə gətirdiyiniz və mənim də şərik çıxdığım səmimi diləklərə görə Sizə təşəkkür edirəm.

Türkiyənin Avropa Birliyində öz layiqli yerini tutmasının dünyada və regionda sülhün və sabitliyin qorunub saxlanmasına olduğu kimi, demokratiyanın və insan hüquqlarının inkişafına da kömək edəcəyinə inanıram.

Əminəm ki, Türkiyə ilə Azərbaycan arasındakı tarixi dostluq və qardaşlıq əlaqələri Zati-alinizin rəhbərliyi ilə qarşıdakı dövrdə daha da inkişaf edəcək və dərinləşəcəkdir.

Fürsətdən istifadə edərək, Zati-aliləri əziz qardaşımın cansağlığı və səadəti, qardaş Azərbaycan xalqının rifahı və əmin-amanlığı üçün ən xoş arzularımı yetirirəm.

Süleyman DƏMİRƏL,
Türkiyə Respublikasının
Prezidenti.
Ankara.
"Azərbaycan" qəzeti, 9 fevral
2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VAŞİNQTONDA TÜRKİYƏNİN ABŞ-dakı SƏFİRİ İLƏ GÖRÜŞÜ

Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vaşinqtonda öz iqamətgahında Türkiyənin bu ölkədəki səfiri Baki İlkinlə görüşmüşdür.

Azərbaycan dövlətinin başçısı, dünyanın tanınmış siyasətçisi cənab Heydər Əliyev ilə görüşü özü üçün böyük şərəf saydığını vurğuladı, Türkiyənin dövlət və hökumət rəhbərlərinin səmimi arzularını və qardaşlıq salamlarını ona yetirdi.

Azərbaycan rəhbəri Vaşinqtona səfəri günlərində Türkiyə diplomatı ilə görüşdüyünü xatırlatdı.

Cənab **Baki İlkin** ölkəmizin rəhbərinə müraciətlə dedi:

- O gün Sizin üçün uzun bir gün idi. Çünki bütün günü- səhərdən axşama, gecə yarıya qədər görüşləriniz, danışıqlarınız vardı. Mən də, bütün Ankara da Sizin səhhətinizi izləyirik. Elə bir ciddi şey olmadığını bilirəm.

Prezident **Heydər Əliyev** cavabında dedi:

- Hopkins Universitetinin klinikasında baxdılar və bildirdilər ki, katarakt var, onu götürmək lazımdır.

Baki İlkin: Bizim sayın Cümhurbaşkanı da o göz klinikasına gəlmişdi. Çox yaxşı bir yerdir.

Heydər Əliyev: Bilirəm, mənə söyləmişdi.

Baki İlkin: Hörmətli Prezidentim, mənim sayın Cümhurbaşkanım Süleyman Dəmirəl, məclis başqanımız sayın Ecevit və Xarici İşlər nazirimiz sayın Cem Sizə "keçmiş olsun" deyirlər. Məni qəbul etdiyiniz üçün təşəkkürümü bildirirəm. Onların məktublarını Sizə təqdim etmək istəyirəm. Sizin sağlığınız, səhhətinizin yaxşı olması bizim sağlığımızdır,- deyəm, bu, çox bəsit səslənər. Amma

Sizi sonuncu dəfə gördüyümdən daha da yaxşısınız. O vaxt Sizi Klivlenddə görmüşdüm, cərrahiyyə əməliyyatından sonra idi. İndi isə, maşallah, Sizi çox yaxşı gördüm. İnşallah, Azərbaycan Sizdən neçə-neçə illər xidmət gözləyir.

Azərbaycan Prezidenti **Heydər Əliyev** səfirə təşəkkürünü bildirərək dedi:

-Hörmətli dostum, qardaşım Süleyman Dəmirəl mənə həmişə dostluq qayğısı göstərir. Mən Klivlenddə olanda da o mənə tez-tez telefon edirdi, danışırdıq, görüşdük. Siz oraya xüsusi olaraq gəldiniz, məni ziyarət etdiniz. Mən buraya gələndə də onunla danışmışdıq, söhbət etmişdik. Çünki mən burada Prezident Bill Klintonla, başqa adamlarla görüşlərimdə çox məsələləri müzakirə edirəm. Bu barədə də hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəllə söhbətlərimiz olmuşdur.

Mən burada Klintonla görüşəndən sonra telefon etdim, xüsusən Bakı - Ceyhan boru xətti barədə danışdıq. Çünki burada çox tələsdirirlər, istəyirlər ki, bu iş tez getsin. Biz də istəyirik, Türkiyə də istəyir. Amma gürcülər bəzi problemlər yaradıblar. İndi bizim nümayəndə heyətləri - Türkiyədən, Gürcüstandan gəlmiş və Azərbaycanın nümayəndə heyətləri bunları Bakıda müzakirə ediblər və həll olunacaqdır.

Başqa çox məsələlər də var. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri və şəxsən mənimlə hörmətli Cümhurbaşkanı Süleyman Dəmirəl arasındakı dostluq, qardaşlıq əlaqələri onu tələb edir ki, biz həmişə əlaqə saxlayaq, məsləhətləşək.

Çox məmnunam ki, bu gün siz gəlmisiniz və məni ziyarət edirsiniz, həm də mənim dostlarımdan mesajlar gətirmisiniz. Sizə çox təşəkkür edirəm. Bilirəm ki, burada bizim səfirliklə də sıx əməkdaşlıq edirsiniz. Bu da təbiidir. Çünki hər bir ölkədə bizim elçiliyimizin, səfirliyimizin bir nömrəli dostu Türkiyənin elçisidir. Burada gördüyümüz işlərə görə də təşəkkürümü bildirirəm.

Azərbaycan müstəqillik, istiqlaliyyət əldə edəndən sonra heç bir yerdə elçiliyi yox idi. Elçilikləri yaradanda Türkiyə elçiliklərinin yardımı ilə - burada, Vaşinqtonda da, başqa yerlərdə da belə idi - işləyirdilər. Bu, artıq keçən dövrdür. Amma indi də gərək dost dostla görüşsün, məsləhətləşsin, danışsın. Bizim elçinin də belə təlimatı var ki, daim sizinlə əlaqədə olsun.

Bakı İlkin: Eyni təlimat məndə var. Sizin hörmətli elçi mükəmməl iş görür. Çox yaxın əlaqədəyik. Azərbaycanı da ən gözəl şəkildə təmsil edir. Mən də zaman-zaman onunla məsləhətləşirəm.

Hörmətli Prezident, Siz buraya Azərbaycanın ehtiyaclarını, çətinliklərini, uğurlarını anlatmaq mənasında çox vacib bir vaxtda gəldiniz və zənnimcə, çox da faydalı görüşləriniz oldu, çox işlər gördünüz. İndi Azərbaycanı əvvəlkindən daha yaxşı tanıyırlar və Azərbaycanın əhəmiyyəti də başa düşülür. Doğrudur, səfirlər də müəyyən işlər görürlər, lakin Prezidentlər, Baş nazirlər səfər edəndə ölkəni daha yaxşı tanıdırlar.

Bu baxımdan Sizi burada görməkdən mən özüm də çox məmnunam. Türkiyənin böyük elçiliyi Azərbaycan böyük elçiliyinə qardaşdır və öz adımdan deyirəm ki, nə etmək lazımdırsa, hər zaman buna hazırıq, hörmətli Prezident deyəndə ilk öncə üç kişini düşünürəm: Süleyman Dəmirəl, Siz və sayın Rauf Denktaş.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Burada Prezident Klinton ilə çox dəyərli danışığımız, söhbətlərimiz oldu. Orada xanım Olbrayt da, Semüel Berger də, digərləri də vardı. Yəni böyük bir heyət idilər. Çox dəyərli söhbətlərimiz oldu və bu, indi bizim üçün çox lazımdır. Xüsusən Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, 907-ci maddənin, -onun aradan qaldırılması üçün neçə ildir sizinlə bərabər çalışırıq.

Bakı İlkin: Bu, mənim də problemimdir.

Heydər Əliyev: Sənin də problemindir, -onun götürülməsi, yenə də deyirəm, Xəzər dənizinin enerji ehtiyatlarının daha da geniş işlənilməsi və Bakı - Ceyhan boru xətti barəsində söhbətimiz oldu.

Siz dinlədiniz, mən orada söylədim ki, neftdən başqa biz çoxlu qaz yataqları da açmışıq. Mən mətbuat üçün məlumatlara baxıram, - indi "Bi-Pi/AMOKO"da özləri, heç bir şey gözləmədən Azərbaycandan Türkiyəyə qaz borusu çəkmək, qaz çıxarmaq istəyirlər. Bu şirkət "Şahdəniz" yatağında işləyir. Ancaq başqa bir yerdə Amerikanın "Şevron" Şirkəti işləyir və deyirlər ki, oradan da çoxlu qaz çıxaracağıq.

Bakı İlkin: Allah daha da artıq eləsin.

Heydər Əliyev: Bu, hələ iki yataqdır. Amma bizim belə yerlərimiz çoxdur. 19 müqavilə imzalamışıq. Ona görə də zaman-zaman bunlar artacaqdır.

Bu məsələləri Prezident Klintonla çox ətraflı müzakirə etdim. Çox əhəmiyyətli görüş oldu. Mən bu səfərimdən çox məmnunam, çox lazımlı bir səfər oldu. Davosda mən Prezident Klitonla görüşdüm, qısa danışdıq. Orada razılaşdıq ki, mən buraya gəlim və geniş danışaq. İndi belə imkan oldu. Cons Hopkins Universitetində çox adam toplaşmışdı. Mən geniş nitq söylədim, yəni Azərbaycanın bugünkü gününü tanıtdım. Ticarət Palatasının təşkil etdiyi axşam yeməyində sizinlə iştirak etdik, orada da çox geniş məlumat verdim.

Dünən, o birisi gün çıxan qəzetlərə baxıram. Bütün dünya mətbuatı Heydər Əliyevin Amerikaya səfəri, Prezident Klintonla görüşü, danışıqları, Bakı - Ceyhan, Xəzər dənizi və s. barədə yazır. Təkcə Amerika mətbuatında deyil, Avropa mətbuatında, hər yerdə və təbiidir ki, Türkiyə

mətbuatında da bu barədə yazırlar. Ona görə də bu, çox əhəmiyyətlidir.

Bakı İlkin: Hörmətli Prezident Klinton bizim bölgəmizin, müştərək bölgəmizin əhəmiyyətini daha yaxşı bilərək hər işdə bizə dəstək olmağa çalışır. Bildiyiniz kimi, onun nümayəndələrindən biri bu yaxınlarda Cənubi Qafqaza və Türkiyəyə səfər etmişdir. Həqiqətən, Azərbaycan Qafqazda sülh, sabitlik və əmin-amanlıq olması üçün çox önəmli rol oynayacaqdır. İnşallah, Sizin səylərinizlə Qarabağ məsələniz də həll ediləcək, köçkünlər öz yerlərinə qayıdacaq və Azərbaycanın ərazi bütövlüyü yenidən bərpa olunacaqdır. Azərbaycanın uğurları bizim sevincimizdir. Şəxsən mən Azərbaycanı və Türkiyəni bir evin ayrı-ayrı otaqlarında yaşayan iki qardaş hesab edirəm. Otaqlarımız ayrı olsa da, qəlbimiz birdir.

Sayın Cümhurbaşkanım, mən yaxından izləyirəm, Siz Azərbaycana həqiqətən böyük xidmətlər göstərmisiniz. Bütün arzu və təmənnam budur ki, Azərbaycan xalqına bundan sonra da uzun illər xidmət edə bilәsiniz. Azərbaycan xalqı da Sizin xidmətlərinizdən daim faydalana bilsin.

Gördüyünüz kimi, buraya gəldiyiniz gündən Vaşinqton sayın Heydər Əliyevdən danışır. Bu sevinci sayın Dəmirəllə də yaşadıq. Siz burada da Türkiyənin daim diqqət mərkəzindəsiniz. Məni qəbul etdiyinizə görə təşəkkürümü bildirir və cərrahiyyə əməliyyatı ilə əlaqədar bir daha "keçmiş olsun" deyirəm. İlk fürsət düşən kimi Sizi bir daha görmək istəyirəm. Sağ olun.

Heydər Əliyev: Çox sağ olun. Hörmətli dostum, qardaşım Süleyman Dəmirələ, hörmətli dostum Bülənd Ecevitə, hörmətli dostum Yıldırım Akbuluta, Xarici İşlər naziri, hörmətli İsmayıl Cemə mənim salamlarımı və ehtiramımı çatdırın. Mesajlarına görə onların hər birinə və məni ziyarətinizə görə sizə təşəkkürümü bildirirəm. Sağ olun.

"Azərbaycan" qəzeti, 23 fevral 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 5-də Prezident sarayında Türkiyə Silahlı Qüvvələri Quru Qoşunlarının təlim və doktrina komandanı general-polkovnik H.Baha Tüzünərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Hörmətli general cənab Tüzünər!

Hörmətli generallar, qonaqlar!

Mən sizi Azərbaycanda salamlayıram. Bizim ölkəmizə xoş gəlmisiniz! Türkiyə ilə Azərbaycan arasında

müdafiə məsələləri sahəsində əməkdaşlığın səmərəli olduğunu bir daha qeyd edirəm.

Biz Türkiyə ilə Azərbaycanın əlaqələrini həmişə yüksək tuturuq, həmişə buna yüksək qiymət veririk və bütün sahələrdə bunu özümüz üçün çox əhəmiyyətli hesab edirik. Biz çox məmnunuq ki, bu əlaqələrin içərisində ölkələrimizin müdafiə məsələləri ilə əlaqədar və xüsusən müdafiə nazirlikləri arasında dostluq, əməkdaşlıq əlaqələri yaranıbdır. Bu əlaqələr də təbiidir ki, qarşılıqlı surətdə faydalıdır, amma Azərbaycan üçün çox əhəmiyyətlidir. Çünki Azərbaycan gənc, müstəqil dövlətdir - həm dövlətini qurur, həm də dövlətinin bütün təsisatlarını yaradır, o cümlədən öz Milli Ordusunu da yaradır.

Milli Ordu yaratmaq qısa bir zamanda əldə oluna bilməz. Ona görə də biz gördüyümüz işləri, təbiidir ki, özümüz qiymətləndiririk. Ancaq hesab edirəm ki, hələ çox işlər görülməlidir ki, bizim Milli Ordumuz yüksək standartlar səviyyəsinə gəlib çatsın. Ona görə də sizin ordunun təcrübəsindən istifadə etmək və sizinlə əməkdaşlıq etmək, bir də qeyd edirəm, bizim üçün çox əhəmiyyətlidir. Bu baxımdan sizin Azərbaycana ziyarətinizi mən bəyənirəm, qiymətləndirirəm və güman edirəm ki, bu ziyarətiniz həm əməkdaşlığımızın inkişaf etdirilməsi üçün, həm də Azərbaycanda ordu quruculuğu işlərində məsləhətlər, tövsiyələr verilməsi üçün çox səmərəli olacaqdır. Sizə təşəkkür edirəm.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən general-polkovnik **H.Baha Tüzünər** dedi:

- Hörmətli dövlət başqanım, sağ olun. Qiymətli vaxtınızı ayırdığınız və bizi qəbul etdiyiniz üçün öncə Sizə çox təşəkkür edirəm. Türkiyə ilə Azərbaycan arasındakı mövcud işbirliyi anlaşması çərçivəsində təlim və doktrina komandanı kimi Bakıya gəlmişəm. Daha əvvəl həyata keçirilən qarşılıqlı təlim işbirliyi çərçivəsində əlaqələrimizi daha da inkişaf etdirmək, bir-birimizi tanımaq, təcrübəmizdən istifadə edərək nöqsan tərəflərimizi qarşılıqlı surətdə aradan qaldırmaq məqsədilə burdayıq.

Azərbaycan ordusunun modernləşdirilməsi, inkişaf etməsi bizim ən böyük arzumuzdur. Qardaş Azərbaycanın güclənməsi, rifah içərisində yaşayan bir dövlət olması hamımızın ən böyük diləyidir. Bu diləyimizin yaxın gələcəkdə gerçəkləşəcəyinə ümid edirik. Burada olduğumuz zaman qarşılıqlı görüşlər keçirdik, gələcəkdə nə kimi işlər görə biləcəyimizi müzakirə etdik. Bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Çox sağ olun.

Prezident **Heydər Əliyev** cənab Tüzünərə təşəkkür edərək dedi:

- Sağ olun, təşəkkür edirəm. Mən bizə xüsusən təhsil sahəsində verilən yardımlara görə sizə bir daha təşəkkür edirəm. Mənim salamlarımı, hörmət və ehtiramımı dostum, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi cənab Hüseyn Kıvrı-

kоğluya çatdırmanızı xahiş edirəm. Ümumiyyətlə, mənim Türkiyədə olan dostlarımın hamısına. Orada mənim dostlarım çoxdur, o cümlədən orduda da, generalların içərisində də.

Gördüyünüz işlərə görə sizə bir daha təşəkkür edirəm. Sağ olun.

"Azərbaycan" qəzeti, 6 aprel 2000-ci il.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLƏ "AZƏRBAYCAN RESPUBLİKASININ FƏXRİ VƏTƏNDAŞI" ADININ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Türkiyə - Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin inkişafında və genişləndirilməsində böyük xidmətlərinə, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə və ümummilli problemlərinin həllinə xüsusi diqqət və qayğısına, xalqımıza bəslədiyi sədaqətli dost münasibətinə görə Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirələ "Azərbaycan Respublikasının Fəxri vətəndaşı" adı verilsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 8 aprel 2000-ci il.

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN RESPUBLİKASINA II İŞGÜZAR SƏFƏRİ

9-10 aprel 2000-ci il

TÜRKDİLLİ DÖVLƏTLƏRİN VI ZİRVƏ GÖRÜŞÜ

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Bizim əziz dostumuz, qardaşımız, ən əziz qonağımız, hörmətli Prezident Süleyman Dəmirəl yenə də Azərbaycandadır. Bütün Azərbaycan xalqı bu gəlişi, bu səfəri gözləyirdi. Mən çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl bizim dəvətimizi qəbul edib, vaxt tapıb gəlibdir.

Bu gün Bakıda türkdilli dövlətlərin başçılarının VI zirvə görüşü keçiriləcəkdir. Bizim hamımızın tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud"un 1300 illiyi sabah təntənəli surətdə bayram ediləcəkdir. Ancaq bütün bu tədbirlərin, təntənəli mərasimlərin hamısına ən yüksək qiymət verən və onların hamısını daha da yüksək səviyyəyə qaldıran - Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin bu tədbirdə iştirak etməsidir. Ona görə də mən sizə təşəkkür edirəm, bundan məmnunam və xalqımız sizi səbirsizliklə gözləyir.

"Azərbaycan" qəzeti 9 aprel 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRK DÖVLƏTLƏRİ BAŞÇILARININ VI ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün "Kitabi-Dədə Qorqud"un 1300 illiyi, həqiqətən, xalqımızın milli bayramına, türk dünyasının, türkdilli xalqların bayramına çevrildi və türk xalqlarının sarsılmaz birliyini bir daha nümayiş etdirdi.

Dövlət başçıları, məclis başçıları və YUNESKO-nun Baş direktoru

"Kitabi-Dədə Qorqud"un yubileyi ilə əlaqədar burada çox dəyərli sözlər dedilər və çox dəyərli fikirlər ifadə etdilər. Bu münasibətlə onların hamısına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının böyük dostu, mənim əziz qardaşım Süleyman Dəmirəlin bu gün "Kitabi-Dədə Qorqud" haqqında, türk xalqlarının birliyi haqqında, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı haqqında söylədiyi böyük nitq bizim hamımızda böyük ruh yüksəkliyi yaratdı və çox yüksək qiymətə malikdir.

Əziz dostumuz!

Mən bugünkü bu parlaq, dərin məzmunlu, çox dəyərli tarixi nitqinizə görə sizə xüsusi təşəkkür edirəm. Sizi əmin edirəm ki, nitqinizdəki sözlər, məsləhətlər, fikirlər bizim gələcək işlərimizdə daim öz əksini tapacaqdır.

Türkiyə Cümhuriyyətindən əziz dostumuz Süleyman Dəmirəllə bərabər bizim bir çox başqa dostlarımız da burada iştirak edirdilər. Türkiyə Cümhuriyyətinin böyük nümayəndə heyətinin "Kitabi-Dədə Qorqud" yubileyində iştirak etməsi Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının yeni parlaq bir nümunəsidir.

Dünən biz Türkdilli Dövlətlər Birliyinin zirvə görüşündə birliyin gördüyü işlər haqqında danışarkən Türkiyə Cümhuriyyətinin Prezidenti əziz Süleyman Dəmirəlin xidmətlərini yüksək qiymətləndirdik. Bu gün isə mən bir daha bildirmək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının yaranmasında və ötən illər ardıcıl surətdə inkişaf etməsində əziz dostumuz Süleyman Dəmirəl xüsusi xidmətlər göstərmişdir.

Hörmətli dostumuz Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin, bütün türk dünyasının ən görkəmli şəxsiyyətlərindən biridir. 50 illik gərgin siyasət və dövlət işlərində fəaliyyəti dövründə o, öz xalqına, Türkiyəyə, öz millətinə sədaqətlə xidmət etmiş və bu gün də xidmət edir. Türkiyə Cümhuriyyətində böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə türk xalqının böyük uğurlar qazanmasında, Atatürk irsinin davam etdirilməsində hörmətli Süleyman Dəmirəlin xüsusi rolu vardır. Ona görə də həm öz əksində, həm Azərbaycanda, həm türkdilli digər dövlətlərdə, həm də bütün dünyada əziz Süleyman Dəmirəl böyük hörmət qazanmış, dünyanın ən böyük siyasi xadimlərindən biri kimi tanınmışdır.

Ötən illər biz hörmətli Süleyman Dəmirəlin qardaşlıq, dostluq münasibətini daim hiss etmişik. Onun Azərbaycan xalqına olan məhəbbətini, sevgisini hiss etmişik. Onun bizim xalqa göstərdiyi qayğını və diqqəti daim hiss etmişik. Azərbaycanın ağır illərində, Ermənistan Azərbaycana hərbi təcavüz etdiyi zaman, xalqımız öz torpaqlarının müdafiəsinə qalxdığı vaxt əziz dostumuz Süleyman Dəmirəl daim Azərbaycan xalqı ilə bir yerdə olmuşdur.

Sonrakı illərdə Azərbaycanda ictimai-siyasi sabitlik yarananda, ölkəmiz müstəqillik yolu ilə gedərək hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini apararkən hörmətli Süleyman Dəmirəlin dəstəyini daimi hiss etmiş, onun məsləhətlərindən bəhrələnmiş, qayğı və diqqətini hiss etmişdir.

Türkiyə xalqı bizim qardaş xalqımızdır. Türkiyə Cümhuriyyəti - böyük Atatürkün yaratdığı cümhuriyyət yaşadığı illərdə bütün türkdilli xalqlar üçün örnək olmuşdur, o, Azərbaycan xalqı üçün böyük örnəkdir. Biz bunları həmişə yüksək qiymətləndirmişik. Bütün bu dostluğun, qardaşlığın səbəbi ondan ibaratdir ki, - bu gün dəfələrlə deyildiyi kimi, - biz eyni kökə, eyni milli-mənəvi ənənələrə, eyni mədəniyyətə, eyni tarixə mənsub olan xalqlarıq. Eyni zamanda, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tarixi keçmişimizi bərpa etmək, tarixi köklərimizi araşdırmaq və bir-birimizə yaxınlaşmaq, təbiidir ki, Türkiyə-Azərbaycan əlaqələrində yeni bir mərhələ yaratmışdır.

Biz Türkiyədə Azərbaycana nə qədər sevgi, məhəbbət olduğunu hiss edirik. Bizim qardaşlarımız - Türkiyə Cümhuriyyətinin bütün vətəndaşları da bilirlər və mən bu gün də bəyan edirəm bilsinlər ki, Azərbaycan xalqı Türkiyə Cümhuriyyətini, hər bir türkü ürəkdən, qəlbdən sevir, ona öz hörmət və ehtiramını bildirir.

Bu gün Türkiyə Cümhuriyyətində türk xalqının ən görkəmli, ən dəyərli, ən hörmətli ictimai-siyasi, dövlət xadimi kimi tanınan bizim dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Biz Azərbaycana olan dostluq münasibətinə görə ona hədsiz minnətdarıq. Dəfələrlə Azərbaycana gəlib bizimlə bərabər olduğuna görə ona hədsiz minnətdarıq. Həmişə Azərbaycanın qayğıları ilə yaşadığına görə ona hədsiz minnətdarıq. Bu gün yenidən Azərbaycana gəlib "Kitabi-Dədə Qorqud" yubileyində fəal iştirak etdiyinə və söylədiyi çox dəyərli nitqinə görə ona bir daha hədsiz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Bütün bu əlaqələrimizi, əziz dostum, qardaşım Süleyman Dəmirəlin Azərbaycan xalqına göstərdiyi diqqəti, qayğını yüksək qiymətləndirərək mən Süleyman Dəmirələ "Azərbaycan Respublikasının Fəxri vətəndaşı" adı verilməsi haqqında dünən fərman imzalamışam.

Əziz dostumuz, qardaşımız, Azərbaycan sizin doğma vətəninizdir. Siz Azərbaycanın əbədi dostusunuz. Sizə olan sevgimiz, məhəbbətimiz hər bir azərbaycanlının, bütün Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Biz sizi daim Azərbaycanda görmək, Azərbaycanda sizə daim öz qonaqpərvərliyimizi bildirmək istəyirik. Biz sizinlə daim əlaqədə olmuşuq, bu gün də əlaqədəyik, gələcəkdə də əlaqədə olacağıq.

Mən mustəqil Azərbaycanda "Azərbaycan Respublikasının Fəxri vətəndaşı" adı verilməsi haqqında ilk dəfə fərman imzalamışam. Bu ad indiyədək heç kəsə verilməyibdir. Bu ad Süleyman Dəmirələ, Azərbaycan xalqının böyük dostuna verilibdir.

Əziz qardaşım!

Mən Azərbaycanın Fəxri vətəndaşlığı haqqında sənədləri təqdim edərək sizə möhkəm cansağlığı, uzun ömür, səadət, xoşbəxtlik və bütün gələcəyə işlərinizdə yeni-yeni böyük uğurlar arzulayıram. Bu, Azərbaycanın Fəxri vətəndaşlığının nişanıdır. Bu, fərmandır, bu da onun vəsiqəsidir. Mən bunları sizə təqdim edirəm, buyurun.

"Azərbaycan" qəzeti, 11 aprel 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏLİ QONAQLARI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 10-da Prezident sarayında Türkiyə Atatürk Yüksək Qurumunun sədri, professor Rəşad Gənci, Bilkənd Universitetinin rektoru, professor Əli Doğramacını, Azərbaycan - Türkiyə Dostluq Fondu sədrinin müavini, professor Yüksəl Bozəri qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı dedi:

- Bir daha deyirəm, xoş gəlmisiniz! Çox məmnunam ki, siz mənim dəvətimi qəbul edib gəldiniz, "Dədə Qorqud"un yubileyini bir yerdə keçirdik və siz burada elmi konfranslarda iştirak etdiniz, ölkəmizi bir daha gördünüz. Əsas da odur ki, həmişə bir yerdəyik. Dədə Qorqud bizim babamızdır və onun vəsiyyəti də odur ki, həmişə bir yerdə olun, birbirinizdən ayrılmayın. Keçmiş vaxtlarda ayrı düşmüşük, amma indi artıq birləşirik. Ona görə də mən sizinlə görüşməyimdən çox məmnunam. Hər üçünüz mənim çox hörmət etdiyim adamlarsınız. Siz Türkiyənin çox görkəmli alimlərisiniz, professorlarısınız. Mən əziz dostumu xatırlayıram, 1994-cü ildə mən ilk dəfə Türkiyəyə gələndə Hacəttəpə Universitetinin rektoru idi.

Yüksəl Bozər: Hörmətli Prezident, onda bizə böyük şərəf verdiniz.

Heydər Əliyev: Türkiyə universitetlərində mənə çox fəxri doktor adı veriblər. Amma ilk dəfə Fəxri doktor adını 1994-cü ildə Hacəttəpə Universitetindən aldım. Çox-çox məmnunam.

Mənim dostum Rəşad Gənc də, bilirəm ki, Azərbaycanı çox sevən adamdır, çox böyük professordur, alimdir və eyni zamanda Atatürk Beynəlxalq Sülh Mükafatı Komissiyasının başında duran adamdır. Çox gözəl bir haldır ki, gəlib. Siz Azərbaycana birinci dəfədir gəlirsiniz, yoxsa əvvəllər gəlmisiniz?

Rəşad Gənc: Hörmətli Cümhurbaşkanım, dördüncü dəfədir gəlirəm.

Heydər Əliyev: Dördüncü dəfə. Amma mənim gördüyüm birinci dəfədir. Ola bilər ki, digər vaxtlar gələndə məni görməmisiniz.

Rəşad Gənc: Hörmətli Prezident, birinci dəfə 1991-ci ildə gəldik. O zaman mərhum Ziya Bünyadov Şərqşünaslıq İnstitutunun direktoru idi. Biz onun dəvəti ilə 35 nəfər tarixçi ilə birlikdə gəldik. O zaman Atatürkün anadan olmasının 110-cu ildönümü və türk-sovet əlaqələrinin yaranmasının 70-ci ili münasibətilə burada beynəlxalq konfrans keçirildi. Uzun fasilədən sonra, Sizin Prezidentliyiniz zamanı iki dəfə - bir dəfə ötən il Bakıda milli özünüdərk mövzusunda keçirilən beynəlxalq simpoziuma, bir də Almatıya gedərkən yolüstü buraya gəldim. Bu isə dördüncü dəfədir.

Heydər Əliyev: Çox gözəl, çox məmnunam. Əli bəy ilə də biz çox görüşmüşük. Hamımızın ağsaqqalımız İhsan Doğramacı və onun oğlu Əli bəy Doğramacı hazırda Bilkənd Universitetinə başçılıq edir. Çox məmnunam ki, sən də buradasan. Hamınızı görməkdən çox məmnunam.

Professor **Yüksəl Bozər** dövlətimizin başçısı Heydər Əliyevə təşəkkür edərək dedi:

- Hörmətli Prezidentimiz, "Kitabi-Dədə Qorqud" təntənələrini təşkil etməklə bütün türk cümhuriyyətlərində yaşayan hamımıza yeni işıq tutdunuz. Çünki gələcəyimizin nə olduğunu daha yaxşı bildikcə hara gedəcəyimiz daha aydın olur. Siz bizi bir-birimizə yaxınlaşdırdınız, keçmişimizi xatırlatdınız və keçmişimizi daha yaxşı araşdırmaq üçün bizə əsas verdiniz. Sizə dərin təşəkkür edirik.

Hörmətli Cümhurbaşkanım, eyni zamanda dünən hamımızın gözləri sevincdən yaşardı. Tədbirlərdə Sizi Cümhurbaşkanımız hörmətli Süleyman Dəmirəl ilə birlikdə görmək bizi çox sevindirdi. Allaha şükür etdik ki, Türkiyənin başında Süleyman bəydir, burada da siz. Böyük şəxsiyyətlər olan sizlər türk millətlərinə və dövlətlərinə böyük şərəf gətirdiniz.

Biz şükür edirik ki, Azərbaycan - Türkiyə Dostluq Fondu üçün də yer ayrılmışdır. Bir çox layihələrimiz vardır. Hörmətli səfiriniz bunların hamısını yaxşı bilir. İnşallah, yaxın zamanda o gözəl evi də tamamlayıb Sizə ərz edəcəyik.

Türkiyə Atatürk Yüksək Qurumunun sədri, professor **Rəşad Gənc** Prezident Heydər Əliyevə minnətdarlıq edərək dedi:

- İcazənizlə, mən də bir neçə kəlmə söz demək istəyirəm. Birincisi, mən öz minnətdarlığımı bildirmək istəyirəm ki, Zati-alilərinin xüsusi qonağı kimi Azərbaycana gəldim, "Dədə-Qorqud" təntənələrində iştirak etmək fürsəti qazandım. İndi də bizi qəbul etdiniz. Bu, mənim həyatımda nail olduğum ən böyük şərəfdir. Bunun üçün Sizə təkrar-təkrar təşəkkür edirəm.

İkincisi, "Kitabi-Dədə Qorqud" ilə bağlı Azərbaycanda, Türkiyədə, başqa türk cümhuriyyətlərində, dünyanın digər ölkələrində bir çox beynəlxalq toplantılar oldu, tədqiqat

aparıldı, məqalələr, kitablar çap edildi. Amma "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin qeyd olunması barədə fərmanı ilk dəfə Prezident Heydər Əliyev imzaladı. Üç ildir tədbirlər həyata keçirilir və bu günə qədər görülənlərin, həm elmi toplantı, simpozium kimi qeyd olunanların ən böyüyü Sizin rəhbərliyiniz, himayənizlə oldu. Mən bu təntəntənələr, simpoziumlar, tamaşalar musiqilər, tədqiqatlar ilə ölkədə milli özünüdərkin bina inşa edilən kimi, necə anlanıldığını gözlərimlə daha yaxından gördüm, tanıdım. Həqiqətən, Azərbaycana bu dördüncü gəlişim hamısından üstün oldu. Sizin gördüyünüz bütün işlər böyük dövlət adamlığınızın, böyük dövlətçilik təcrübənizin, böyük milli özünüdərk anlayışının çox gözəl nümunələrini bizə göstərdi.

Mən burada Türkiyə Atatürk Yüksək Qurumunun alim üzvlərinə bu sözləri dedim: "Şahnamə" əsərini yazmış Firdovsidən Sultan Mahmud Qəznəvi "bu işlə nə yapdın?" deyə soruşduğu zaman Firdovsi cavab vermişdirki, "bu farsdilli əsərlə əcəm xalqını, İran millətini diriltdim. Çünki onların dilləri unudulurdu".

Demək olar ki, Siz "Dədə Qorqud"un 1300 illik yubileyi ilə Azərbaycanda milli özünüdərki yenidən diriltdiniz, Azərbaycan insanlarına özlərini tanımalarını anlatdınız. Buna görə də Sizə minnətdarlığımı bildirirəm.

Üçüncüsü, **Akkan Suver** axşam Sizə hörmətli Prezidentimiz Süleyman Dəmirəl ilə bağlı dedi ki, Türkiyədə Süleyman Dəmirəl bəyə qarşı bizim göstərdiyimiz anlayışsızlığın, vəfasızlığın əksinə olaraq, Siz burada ona qat-qat ehtiram göstərdiniz. Hava limanından şəhərə gələnə qədər, burada Sizin qonağınız kimi və təkrar hava limanında təyyarəyə mindirilib yola salana qədər ona göstərilən yüksək hörmət və ehtiramdan gözlərimiz sevincdən yaşardı. Biz bunu qürur hissi ilə izlədik. Siz Beynəlxalq Atatürk Sülh Mükafatını aldığınız həmən mərasimdə söylədiyiniz nitqdə "Süleyman bəyə sahib çıxın, Süleyman bəyi buraxmayın, Siz buraxsanız belə, biz buraxmayacağıq" demişdiniz. Siz gerçəkdən də buraxmadığınızı bu dəfə çox böyük vəfa örnəyi kimi göstərdiniz, Türkiyəyə çox böyük bir alicənablıq və qədirbilənlik dərsi verdiniz. Ona görə Sizə təkrar-təkrar minnətdarlığımı ifadə edirəm.

İcazənizlə, bir məsələni də söyləmək istəyirəm. Mən 1993-cü ildən Atatürk Yüksək Qurumuna sədrlik edirəm. Çox məmnunam ki, 1993-cü ildən bu günə qədər, 1999-cu ildə Beynəlxalq Atatürk Sülh Mükafatı həm Atatürkü bütün fikirləri ilə çox yaxından bilən, həm Atatürkün milli özünüdərk, milli dil, milli tarix, milli kimlik sahəsində bütün icraatlarını Azərbaycanda tətbiq edən, Azərbaycan Cümhuriyyətini idarə edən və gələcəkdə idarə edəcək kadrları da bir çiçək yetişdirən kimi əlinin altında yetişdirən bir böyük atatürkçüyə, Azərbaycan dövlətinin Atatürkünə, Azərbaycan Respublikasının Atatürkünə nəsib oldu. Bu mükafat ən layiqli insana verildi. Mən bundan çox şadam, çox qürur və çox iftixar hissi duyuram. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm.

Bilkənd Universitetinin rektoru, professor **Əli Doğramacı** respublikamızın rəhbərinə müraciətlə dedi:

· **Hörmətli Prezidentim!**

Bu səfərimiz zamanı Bakıdakı universitetlərin rektorları ilə görüşdük və bəzi fikir mübadiləmiz oldu. Əgər icazə versəniz, bunu Sizə qısa şəkildə ərz edim.

Heydər Əliyev: Buyurun.

Əli Doğramacı: Bundan əvvəlki illərdə Bilkənd Universitetinin Azərbaycandakı qardaşlarımıza xidmətləri belə olmuşdur:

Buradan müəllimlər Bilkəndə gəlib ingilis dili və digər ixtisaslar üzrə xüsusi kurslar keçmişlər və onların bütün xərclərini öz üzərimizə götürmüşük. Banklarda, fabriklərdə çalışan orta səviyyələ insanları Bilkəndə gətirib onlara maliyyə, mühasibat və digər dərslər keçmişik.

İndiki səfərimiz zamanı apardığımız danışıqlarda bəzi yeni məsələlər müzakirə olundu. İngilis dili üzrə müəllimlər magistr proqramı almaq üçün buradan Bilkəndə gələcəklər. Onlara bir il təhsil almağa yer, ayda 130 dollar xərclik veracəyik. Amma onların bir az ingilis dilini bilmələri lazımdır. Bununla bağlı təkliflərimizi Bakı Dövlət Universitetinə, digər ali təhsil ocaqlarının rektorlarına bildirdik. Onlar da bunu arzu etdiklərini söylədilər. Önümüzdəki bir ay ərzində oraya ingilis dili müəllimlərini aparacağıq. Bu proqramı amerikalılarla bərabər həyata keçiririk.

Bilkənd Universitetinin kitabxanasından Türkiyədəki digər universitetlər - Ərzurum, Ədirnə universitetləri və başqaları istəyirlərsə, onlara bir ay ərzində kitablar göndəririk. Biz pul almırıq, yol xərclərini özləri verirlər və bir ay oxuduqdan sonra geri qayıdırlar. Biz bu xidməti Türkiyənin hüdudlarında edirik. Bu gün Bakı Dövlət Universitetinin rektoru ilə görüşümüzdə belə bir xidməti onlara da göstərə biləcəyimizi söylədik. Biz Bakı Dövlət Universitetində internetə bərabər daxil olmuşuq. Yəni Bilkənd kitabxanasında nə varsa, onlar barədə məlumat almaq mümkün olacaqdır. Biz dedik ki, tələbələr Bakı Dövlət Universitetinin kitabxanasına gəlib Bilkənddən hansı kitabların gətirilməsini istəyirlər, həmin kitabları hazırlayıb həftədə bir dəfə Ankarada Azərbaycan Hava Yolları Dövlət Konserninin nümayəndəliyinə verə bilərik. Əgər Azərbaycan Hava Yolları bunu Bakıya təmənnasız gətirərsə, işimiz yaxşı olar. Çünki biz pul almayacağıq və Bakı Dövlət Universiteti həmin kitablardan bir ay istifadə edib geri göndərəcəkdir. Ümumiyyətlə, biz bir ildə 18 min kitabı bu şəkildə Türkiyəyə paylayırıq. Be-

lə olan halda, yəni Azərbaycan Hava Yolları Konserninin nümayəndələri bu işə dəstək verərlərsə, qardaş ölkənin müəllimləri və tələbələri də bu imkanı qazanacaqlar.

Biz tələbələrə təbii elmlər, iqtisadiyyat və başqa ixtisaslar üzrə magistr və doktorantlıq üçün xüsusi kurslar təşkil edə biləcəyimizi söylədik. Bunu da bir ay ərzində tətbiq edəcəyik.

Cənab Prezident, başqa bir məsələ də vardır, amma ona Sizin yol göstərməyinizə ehtiyacımız vardır.

İngilis dilində dərs deyənlər üçün Kembric Universitetinin beynəlmiləl orta təhsil proqramı və beynəlxalq bakalavr hazırlayan proqramı vardır. Biz Bilkənddə bunu çox yaxşı tətbiq edirik. Bu proqramı bəyənənlərin universitetə daxil olduqdan sonra geniş perspektivləri olur. Belə bir işin tələbələrdən gələn gəlir hesabına həyata keçməsi mümkün deyildir. Bilkənddə bunun üçün bir hissəsi tələbədən gəlir, yerdə qalanı vəqflər tərəfindən verilir. Əgər belə bir sistemin Azərbaycanda olmasını arzu edirsinizsə, bu, belə ola bilər. Yəni hər hansı ərazi bir vəqfə verilsin və orada tikiləcək binadan əldə olunan gəlir bu məktəbə xərclənsin.

Həmçinin burada bir peyk antenası qurmaq lazımdır. Buna 150-200 min ABŞ dolları sərf olunar və biz bunu edə bilərik. Bu peyk antenası vasitəsilə internetə girməklə dünyaya yeni bir qapı açılır. Demək, məktəbin ayrıca interneti olur və bu, bütün Azərbaycana xidmət göstərəcəkdir. Buradan əldə edilən gəlir məktəbin olacaqdır. Təbii ki, məktəbi yaşatmaq üçün əlavə gəlir lazımdır. Belə bir sistem olarsa, bu, uzun illər Azərbaycanın gələcək nəsillərinə fərqli bir təhsil imkanı verər. Bu sahədə məsləhətinizi və təkliflərinizi eşitməyə və qəbul etməyə hazırıq.

Qonaqlara dərin minnətdarlığını bildirən Prezident **Heydər Əliyev** dedi:

- Sağ olun. Təşəkkür edirəm. Sizin bu fikirləriniz çox dəyərlidir, əhəmiyyətlidir. Siz bizim universitetlərlə danışmısınız.

Dövlətimizin başçısı Prezidentin köməkçisi Dilarə Seyidzadəyə müraciətlə dedi: Sən lazımi şəxslərlə əlaqə saxlayıb öyrənərsən, bizim tərəfimizdən nə lazımdırsa, onu edərik.

Mən bunların hamısını çox dəyərli hesab edirəm, qəbul edirəm. Ancaq bunu əməli surətdə həyata keçirmək üçün gərək mənə bizim universitetlərdən bu barədə məlumatlar versinlər.

Rəşad Gənc: Cənab Prezident, icazə verin, bir cümlə ilə digər bir fikrimi çatdırım.

Sizin ev sahibliyinizlə türkdilli ölkələrin dövlət başçılarının VI zirvə toplantısı keçirildi. Bununla bağlı həm bədii proqramda, həm dünən axşamkı ziyafətdə Siz ifadə etdiniz ki, bu işlərin bu günə qədər gəlib çatmasında cənab Süleyman Dəmirəlin böyük əməyi vardır. Ancaq Siz VI zirvə görüşündə "Türkdilli Dövlətlər Birliyi" deyə çıxış etdiniz. Mən buna

görə də Sizə dərin təşəkkürümü, minnətdarlığımı ərz edirəm. Yəni indiyə qədər bunun rəsmən adı "Türkdilli Dövlətlər Birliyi" kimi ifadə olunmamışdı, ilk dəfə Siz səsləndirdiniz. Yəni bunun içim babası, fikir babası Siz oldunuz. Mən inanıram ki, inşallah, bunun memarı da Siz olacaqsınız.

Mən Zati-alinizə Ankarada da demişdim, - Sizin gözəl sözünüzlə biz bir millət, iki dövlətik. O halda bizim iki Cümhurbaşkanımız vardır. 35-40 gündən sonra Cümhurbaşkanı kimi təkcə Siz qalacaqsınız və bu bayrağı VI zirvədən Türkdilli Dövlətlər Birliyinə Siz aparacaqsınız. Buna görə də təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm. Sizin bu yubiley mərasimləri haqqında dediyiniz çox dəyərli və xoş sözlərə görə hamınıza çox təşəkkür edirəm.

Həqiqətən, bu günlər Azərbaycanda olan hadisələr tarixi bir əhəmiyyət, tarixi bir xarakter daşıyır. Çünki biz - türkdilli dövlətlərin başçıları yenidən toplaşdıq və çox dəyərli bir bəyannamə qəbul etdik. O, mətbuatda veriləcəkdir, bununla tanış olacaqsınız. Çox dəyərlidir.

Biz son dəfə 1998-ci ildə Astanada toplaşmışdıq. Ondan sonra bizim yenidən toplaşmağımız çox əhəmiyyət kəsb edir və bütün dünyaya nümayiş etdirdik ki, bəli, türkdilli dövlətlər, bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə, bir tarixə malik olan dövlətlər fürsət tapıblar ki, müştərək işlər görsünlər, birlikdə olsunlar. Biz bunu dünyaya nümayiş etdirdik. Bu, çox gözəl keçdi. Ancaq həqiqətən mən bunu orada, bizim simpoziumda da dedim, "Dədə Qorqud" yubileyində də dedim, - bunun təşkilatçısı Türkiyə Cümhuriyyətidir və 1992-ci ilin oktyabr ayında bu dövlətlərin başçıları ilk dəfə Ankarada toplaşıblar. Mən birinci zirvə görüşündə olmamışam. Çünki onda mən dövlət başçısı deyildim. Amma ikinci zirvə görüşündən mən varam. Bəli, bu, ilk dəfə Ankarada toplanıbdır. Mərhum Turqut Özal və Prezident Süleyman Dəmirəl bu işin başında durublar. Təşəbbüs ediblər. Ancaq ondan sonrakı dövrdə ikinci zirvə görüşünə artıq Süleyman Dəmirəl başçılıq edirdi. İkinci zirvə görüşünü biz İstanbulda keçirdik. Bu illərdə hörmətli Süleyman Dəmirəlin bütün bu dövlətlərin özünü dərk etməsi, inkişaf etməsi, yaxınlaşması sayəsində xidmətləri həqiqətən həddindən çox böyükdür.

Bəlkə bunu Türkiyədə bilmirlər. Mən çalışdım ki, bunu Türkiyədə öz çıxışlarında - həm Atatürk mükafatını mənə verəndəç, sonra mən gedib İspartada Süleyman Dəmirəl adına universitetdə böyük bir nitq söylədim, başqa vaxtlarda dedim. Türkiyə Cümhuriyyəti həm böyük bir dövlət olaraq, həm qədim bir dövlət olaraq, təbiidir ki, bizim hamımız üçün örnəkdir. Biz, yəni digər türkdilli dövlətlər müstəqilliyimizi 8-9 il bundan öncə, 1991-ci ilin sonunda almışıq.

Biz ondan öncə heç vaxt birləşə bilməzdik. Ona görə də bizim hələ çox böyük problemlərimiz vardır. Amma bu yolu Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün başçılığı ilə və sonra onun işinin davamçıları ilə birlikdə keçibdir. Biz isə bunu hələ indi keçirik. Bütün bu səbəblərə görə də Türkiyə həmişə bu işlərin başındadır, bu gün də başındadır və hörmətli Süleyman Dəmirəl burada həqiqətən çox xidmətlər göstəribdir. O, dəfələrlə bütün bizim ölkələrdə olubdur: bir dəfə yox, iki dəfə yox, bəlkə on dəfə Azərbaycanda da, Türkmənistanda da, Qazaxıstanda da, Özbəkistanda da. Təkcə rəsmi ziyarətlər deyil, müəyyən hadisələr münasibətilə olubdur.

Yaxud da, elə bir müddət bundan öncə dedi ki, mən Türkməsintana gedirəm. Yəni orada nə bir bayram var idi, nə bir rəsmi tədbir var idi. Amma getdi, bir də görüşdü - bir neçə məsələni müzakirə etmək lazım idi. Yəni onun bu dinamik xarakteri ilə və çox dinamik fəaliyyəti ilə Türkiyədə gördüyü işlərlə bərabər, təbiidir ki, bizim ölkələrimizdə xalqlarımızın özünü dərk etməsində və xüsusən də Türkdilli Dövlətlər Birliyinin həqiqətən birliyə çevrilməsində çox böyük xidmətləri olmuşdur. Ona görə də biz qəbul etdiyimiz bəyannamədə bunu əks etdirdik və orada öz nitqlərimizdə dedik, sonra da mən "Kitabi-Dədə Qorqud" yubileyində də bu fikirləri dedim.

Süleyman Dəmirəl Türkiyə üçün çox işlər görübdür. Mən bunu dünən də, o birisi gün də demişəm. Təkrar etmək istəmirəm. Keçmişdə də, amma son on il ərzində də - məsələn, bizim bu dövlətlər müstəqillik alan zaman Süleyman Dəmirəl Baş nazir idi. 1993-cü ilin may ayından o, Prezidentdir. Bu müddət bizim ölkələrimiz üçün çox ağır bir dövr olubdur, çətin dövr olubdur. Ona görə bizə bir dayaq lazım idi, belə bir arxa lazım idi. Bu da həmişə Türkiyə olubdur və Türkiyədə də bu işləri hamıdan çox bilən, hamıdan çox qəlbində saxlayan, bunun gələcək üçün nə qədər əhəmiyyətli olduğunu hamıdan çox bilən məhz Süleyman Dəmirəldir. Ona görə də Azərbaycan xalqının, şəxsən mənim səfəri zamanı ona göstərdiyimiz hörmətimiz, sevgimiz, məhəbbətimiz tamamilə təbiidir. Bu, elə bu gün deyil, hər dəfə belədir.

Bir neçə ay bundan öncə hörmətli Süleyman Dəmirəl baş qərargah rəisi Kıvrıkoğlu ilə birlikdə buraya gəlmişdi. Onu eyni hörmət, eyni təntənə ilə qarşıladıq. Mən onu Azərbaycanın yüksək ordeni - şiz dövlət nişanı deyirsiniz - "İstiqlal" ordeni ilə təltif etdim və bunu təntənəli şəraitdə, yenə də böyük toplantıda təqdim etdim və ürəyimdə olan sözləri ona dedim.

Mən dünən ona "Azərbaycanın Fəxri vətəndaşı" adını verdim. Doğrudur, bu, ilk dəfə verilir. İndiyə qədər heç bizim fikrimizdə də yox idi ki, bəlkə belə bir ad təsis edək. Ancaq mən bu adı məhz hörmətli Süleyman Dəmirəl üçün təsis etdim. Çünki onun Türkiyə Cümhuriyyətində gördüyü bütün işlərə görə və son on ildə gördüyü işə görə, Azərbaycanla Türkiyə əlaqələrindəki böyük fəaliyyətinə görə və böyük uğurlarına görə, təbiidir ki, onun "Azərbaycanın Fəxri vətəndaşı" adı almaq hüququ var. Onu bizim hava limanından şəhərə qədər xalqın böyük məhəbbətlə qarşılamasını, yola salmasını siz gördünüz. Yaxud, dünən bizim Respublika sarayında ona insanlar nə qədər hörmət, nə qədər sevgi-məhəbbət göstərirlər.

Dünən biz burada 1918-ci ildə şəhid olmuş türk əsgərlərinin abidəsini açdıq. O abidəni də çoxdan yaratmışdıq. Bilirəm, Türkiyədə belə bir istək var idi. Ancaq bu, indiyə qədər yerinə yetirilməmişdi. Mən isə bu barədə qərar qəbul etdim. Mən ən gözəl ərazidə yer verdim. Onlar keçmişdə elə orada torpağa veriliblər. Ona görə bu yeri ayırdım. Belə bir gözəl abidə yarandı. Amma bu abidə 1999-cu ilin əvvəlində yaranıbdır. Mən dedim ki, ancaq Süleyman Dəmirəl bura gələndə onunla birlikdə açacağıq. Keçən dəfə gələndə onun vaxtı, fürsəti olmadı. Başqa işləri var idi. Mən ona dedim. Ona görə də bu dəfə abidəni bir yerdə açdıq. Bu da böyük bir hadisədir. Yəni bu, Azərbaycan - Türkiyə əlaqələrinin qədimliyini göstərir və Türkiyənin vaxtilə Azərbaycanı erməni qırğınından xilas etməsini xatırladır. Ümumiyyətlə, 1918-ci ildə Azərbaycanı dağıdırdılar, parçalayırdılar. Əgər bu olmasaydı, bəlkə də bu gün Azərbaycan yox idi. Başa düşürsünüz, o vaxtlar Azərbaycanı dağıtmaq istəyirdilər.

Bütün bunlara görə o təbiidir ki, Süleyman Dəmirəl bizim xalqımızın qəlbindədir. Mənim üçün isə o, - demişəm, - əbədi qardaşdır.

Mən o vaxt Türkiyədə həm Atatürk mükafatını alarkən, həm başqa yerlərdə çıxış edəndə demişdim ki, siz bilin, Süleyman Dəmirəli qorumaq lazımdır. Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinə bundan sonra da lazımdır, Türkiyə xalqına lazımdır. Ancaq eyni zamanda dedim ki, o, bizə də lazımdır. Sizdən də çox bizə lazımdır, türkdilli dövlətlərə lazımdır. Onu qoruyun, onu saxlayın, onu əlinizdə möhkəm saxlayın.

Amma mən yenə də nikbinəm. Heç bir şey olmayıbdır. Süleyman Dəmirəl türk dünyasında, Türkiyə Cümhuriyyətində, Azərbaycanda, başqa türkdilli dövlətlərdə var və olacaqdır. Süleyman Dəmirəl hələ çox işlər görəcəkdir. Mən buna inanıram. Ona görə heç mən də narahat deyiləm, bundan siz də narahat olmayın.

Sizin burada çox gözəl sözləriniz, gözəl fikirləriniz oldu. Təbiidir ki, bunlar hamısı məni sevindirir. Yenə də deyirəm, sizinlə söhbətimə başlayanda da dedim ki, hər biriniz böyük alimsiniz, Türkiyənin çox tanınmış insanlarısınız. Sizin dediyiniz sözlərin qiyməti, çəkisi çox ağırdır.

Yəni hər birinin əhəmiyyəti vardır. Ona görə də bunların hamısı bizim gələcəyimizə xidmət edir.

Bizim bu "Dədə Qorqud" yubileyinin də keçirilməsinin - bunu mən dünən də iki-üç dəfə dedim - böyük əhəmiyyəti odur ki, biz kökümüzü bir də gördük və dünyaya göstərdik, gələcəyimizin işığını açdıq. Gələcəyimiz də "Kitabi-Dədə Qorqud" işığı altında olacaqdır, onun şüaları alında olacaqdır, onun günəşi altında olacaqdır. Bunların hamısını bir yerdə etdik və çox məmnunam ki, Türkiyədən çoxsaylı nümayəndələr gəlmişdir. Bir çox valilər gəlmişdilər, - dünən axşam onlarla görüşdüm, - alimlər gəlmişdilər. Bu da təbiidir. Çünki bizim, yəni Türkiyə ilə Azərbaycanın yaxınlığı qədər başqa ölkələrin belə yaxınlığı yoxdur.

Ona görə mən sizə bir də təşəkkür edirəm və ümidvaram ki, bizim bu günlərdə bir daha təməlini qoyduğumuz, - yəni təməli çoxdan qoyulubdur, o təməlimizi bir az da möhkəmləndirdik, siz dediyiniz kimi, sementlədik, ora bir az da sement artırdıq, - dostluq, qardaşlıq daha da çox yaşayacaqdır. Mən buna əminəm.

Professor **Yüksəl Bozər** Prezident Heydər Əliyevə bir daha təşəkkür edərək dedi: bizi qəbul etdiyinizə, vaxt ayırdığınıza görə minnətdarlığımızı bildiririk. Sizi o gözəl tədbirlərə görə təbrik edirik, hörmət və ehtiramımızı ərz edirik.

Heydər Əliyev: Sağ olun.

"Azərbaycan" qəzeti, 12 aprel 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN "MƏRMƏRƏ QRUPU" VƏQFİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev aprelin 11-də Prezident sarayında Türkiyənin "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyində iştirak etmək üçün Bakıya gəlmiş cənab Akkan Suveri qəbul etmişdir.

Prezident **Heydər Əliyev** hörmətli qonağı salamlayaraq dedi:

- Mən bir daha təşəkkür edirəm ki, siz gəldiniz: hamımızın ulu babamız Dədə Qorqudun yubileyində iştirak etdiniz. Mən gördüm ki, doğrudan da, daxildən gələn qərarla iştirak etdiniz. Yenidən Azərbaycandasınız, Azərbaycanın bu günü ilə tanış olusunuz. Mən bundan çox məmnunam, təşəkkür edirəm.

Vəqfin sədri cənab **Akkan Suver** dövlətimizin başçısına minnətdarlıq edərək dedi:

- Sayın Cümhurbaşkanı, Siz bizim vəqfin fəxri sədrisiniz. Mən hər zaman görürəm ki, çiynimdə iki böyük yük var: biri bizim Cümhurbaşkanımız Süleyman Dəmirəlin qarşısında, digəri isə Azərbaycanın böyük övladı, Zati-alileri Heydər Əliyevin qarşısında məsuliyyətimdir. Bunu nəzərə alaraq, əgər izin verirsinizsə, fəaliyyətimiz barədə Zati-alinizə məlumat vermək istəyirəm.

Biz ötən il bir Baş nazirin, doqquz nazirin və 17 ölkənin nümayəndələrinin iştirakı ilə 2-ci Avrasiya iqtisadi zirvəsini böyük uğurla keçirdik. Azərbaycan bu toplantıya 20 nəfərlik bir heyətlə qatıldı. Nümayəndə heyətinə o zaman Ticarət naziri işləyən cənab Fərhad Əliyev və respublika Prezidentinin İcra Aparatından hörmətli Əli Həsənov başçılıq edirdilər.

Siz bu toplantıya çox gözəl bir təbrik göndərdiniz. İqtisadi zirvəyə həsr etdiyimiz kitabda həmin təbriki və Sizin şəklinizi bizim Cümhurbaşkanının təbriki ilə birlikdə dərc etmişik. İzin versəniz, mən əvvəlcə, bu kitabı Zati-alinizə təqdim etmək istərdim.

Heydər Əliyev: Sağ olun. Çox gözəl kitabdır.

Akkan Suver: Neft şirkətindən də İlham bəyin tapşırığı ilə Valeh Ələsgərov gəlmişdi. Bizim Böyük Millət Məclisinin sədri Yıldırım Akbulutun, Enerji və Təbii Qaynaqlar naziri Cümhur Ərsümərin də iştirak etdikləri toplantıda Valeh Ələsgərov gözəl çıxış etdi.

Osmanlı imperatorluğunun 700 illiyi ilə bağlı tədbirimizi biz zəlzələdən əvvəl keçirdik. Həmin toplantıya Yunanıstandan, ABŞ-dan, İsraildən, Fransadan və Vatikandan tarixçilər çağırdıq. Türkiyənin qocaman, 97 yaşlı tarixçisi Camal Qutay və professor İldar Ortaylı da dəvət olunmuşdular. Camal Qutay Atatürkü görmüş bir insandır. Toplantıda Türkiyə ermənilərinin patriarxı Mutafyan da vardı. Həmin toplantıda bir qərar qəbul etdik, günümüzün ən tolerant şəxsiyyəti kimi Zati-alileri Heydər Əliyevi seçdik. Mutafyan da heç bir söz demədi, ona da imza etdirdik. Bu, 1999-cu il iyulun 10-da olmuşdur. Həmin qərarı Zati-alinizə təqdim edəcəyəm.

Bu qış bir iftar məclisi təşkil etdik. Oraya bir çox dinlərin rəhbər xadimləri dəvət olunmuşdular. Onlara da iftar açdırdıq.

Sizin də şərəfləndirdiyiniz ATƏT-in zirvə görüşündən bir gün əvvəl toplantı keçirilmişdi. Orada çıxış edərək 16 yaşından aşağı uşaqların zorla əsgərliyə çağırılmasını pisləidm.

"Mərmərə qrupu"nu təmsil edən xanımlarımız yanvar ayında Surixdə dünya qadınlar konfransında iştirak etmişlər. Orada bizim Cümhurbaşkanımızla bərabər, sizin adınızı da vurğulayıblar.

Sizə hörmətli və sayğı ilə xəbər vermək istəyirəm ki, ötən həftə BMT-nin iqtisadi və sosial komissiyası "Mərmərə qrupu" Vəqfini üzvlüyə qəbul etmişdir. Bu barədə rəsmi xəbəri alanda sizə məlumat verəcəyik.

Azərbaycandakı 20 Yanvar faciəsi və Xocalı soyqırımı ilə əlaqədar konfrans keçirdik. Konfransa İstanbul Universitetindən alimlər, mətbuat nümayəndələri gəlmişdilər.

Anadolunun şərqindən birinci sinifdə oxuyan uşaqların bir qrupunu hərbçilərimiz tətil günlərində İstanbula gətirmişdilər. Biz də onları bir günlüyə götürüb yedirdik, paltar verdik, söhbət etdik. Söhbətdə bizim generallarımız da vardı. Mən onlara bildirdim ki, bizim vəqfin iki başkanı var - sayın Süleyman Dəmirəl və Zati-aliləri Heydər Əliyev.

Dünən sizin Cgənclər və İdman naziri Əbülfəz Qarayevlə görüşərkən mənə təklif etdi ki, türk olimpiadası keçirək. Mən bunu bizim idman işlərinə baxan dövlət nazirimizə bildirəcəyəm.

Heydər Əliyev: Yaxşı olar.

Akkan Suver: Bu gün mən cənab İlham Əliyevi ziyarət etdim. Əgər izin versəniz, iyun ayında onu "Mərmərə qrupu" Vəqfinə qonaq dəvət etmək istəyirik. Gəlsin və bizə neft haqqında, Bakı - Ceyhan haqqında məlumat versin. "Mərmərə qrupu" Vəqfində "Heydər Əliyev salonu" yaratmışıq. İstərdik ki, İlham bəy həmin salonun açılış lentini kəssin.

Bu gün Bədən Tərbiyəsi və İdman Akademiyasında çıxış edib "Mərmərə qrupu" Vəqfi haqqında məlumat verdim. Sizin barənizdə, bizə göstərdiyiniz yüksək diqqət barədə bacardığım qədər danışdım.

Sayın Cümhurbaşkanım, səmimi sözlərimdir, siz türklərin qədirbilənlik, insansevərlik, dostluq, qardaşlıq keyfiyyətlərini bazar günü misilsiz şəkildə göstərdiniz. Mən ağladım. Bu gün səhər bizim böyük elçimizin yanında idim, dedi ki, mən ağladım. Çox narahat oldum ki, Süleyman bəy də ağlayacaq.

Siz misilsiz nitq söylədiniz. Bizi çox məmnun etdiniz. Zati-alinizdən tutmuş Azərbaycanın ən kiçik övladına qədər hamınıza minnətdaram. Dostluğu çox gözəl şəkildə göstərdiniz. İnanın, biz haqlıyıq ki, Sizə "başkanımız" dedik. Bir müddət sonra tarix həqiqi başkanımızı niyə seçdiyimizi bizə göstərdi. Sizə minnətdarıq. İzin versəniz, builki kitabımızı da Sizə təqdim edərdim. Burada da Zati-alinizin "Mərmərə qrupu" haqqında dediyi sözlər, fotoşəkilləriniz var.

Türkiyədə pensiyaçı generalların bir dərnəyi var - Mustafa Kamal dərnəyi. 1947-ci ildə yaradılıbdır. Dərnək Zati-alinizə bir məktub və Atatürkün qeyri-adi şəkli olan hədiyyə göndəribdir. Lütfən qəbul edin. Mən 1974-cü ildə "Köylü Başbakan Dəmirəl" adlı bir kitab yazmışdım. Onu Sizə təqdim etmək istəyirəm. O, Sultan Əbdülhəmid dövründən bəri işləyən zavodda hazırlanmışdır.

Heydər Əliyev: Çox gözəl. Süleyman Dəmirəl 1968-ci ildə, Baş nazir olanda Sovetlər Birliyinə, Azərbaycana da gəlmişdi. O vaxt biz burada onunla dost olduq.

Əziz dostum, siz "Mərmərə qrupu"nun son vaxtlar gördüyü işlər haqqında mənə çox geniş məlumatlar verdiniz. Bunlar həqiqətən müstəsna əhəmiyyətə malik olan işlərdir.

Sizin vəqflə tanış olduğum ilk gündən mən hiss etdim ki, təşkilatınız nə qədər mötəbər, geniş fəaliyyət göstərən bir təşkilatdır, faydalı işlər görən təşkilatdır. Yəni gördüyünüz hər bir işin faydası var. Siz Türkiyə Cümhuriyyəti üçün, Türkiyə ilə digər ölkələr arasında dostluq əlaqələrinin yaranması üçün, xüsusən Türkiyə - Azərbaycan əlaqələrinin inkişafı üçün çox iş görmüsünüz. Ona görə çox məmnunam ki, vaxtilə məni İstanbulda "Mərmərə qrupu"nuza dəvət etdiniz. Mən o günü xatırlayıram. Məni öz sıralarınıza aldınız və seçdiniz. Son dəfə keçirdiyiniz tədbirdə, təbiidir ki, imkanım olmadı iştirak edim. Ancaq mən məktub göndərdim, mənim məsul işçim Əli Həsənov da gəlmişdi.

Məmnunam ki, siz artıq ikinci kitabı da buraxmısınız. Çox sağ olun. Hesab edirəm ki, indiyə qədər sürətlə inkişaf edən əlaqələrimiz bundan sonra səmimilikla, etibarlılıqla davam edəcəkdir. Mən "Mərmərə qrupu" Vəqfinin bütün üzvlərinə təşəkkür edirəm, hörmət və ehtiramımı hamısına yetirin. Hesab edirəm ki, siz Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının daha da möhkəm olması üçün çox işlər görürsünüz. Bu, çox vacibdir.

Təbiidir ki, Azərbaycan üçün Türkiyə dost, qardaş ölkədir. Ancaq dövlətlərarası, xalqlararası, millətlərarası əlaqələr elədir ki, bunu gərək daim və daim inkişaf etdirəsən. Əgər az müddət fasilə versən, nə isə unudula bilər. Yəni bu, elə bir işdir ki, daim inkişafda olmalıdır. Təbiidir ki, bu da bir yolla, iki yolla olmur, çox yollar var. Məsələn, Türkiyə Cümhuriyyətinin Prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəllə şəxsi əlaqələrim, - bir var ki, rəsmi olaraq iki Prezidentin əlaqəsi var, bir də var ki, şəxsi dostluq əlaqələri, - bax, bu şəxsi dostluq əlaqələri Prezidentlər kimi bizim əlaqələrimizin çox səmimi olmasına, eyni zamanda cümhuriyyətlərimizin, xalqlarımızın daha da səmimi olmasına çox böyük imkanlar yaradır.

Siz həm mənim dostum, çox əziz dostum Süleyman Dəmirəli çox sevirsiniz, - o sizin vəqfin yaradıcısı, başçısıdır, - sonra da məni özünüzə yaxınlaşdırmısınız, öz sıralarınıza almısınız. Mən çox məmnunam. Verdiyiniz kitablara görə təşəkkür edirəm. Vaza, doğrudan da, nadir bir şeydir. Çox təşəkkür edirəm ki, zəhmət çəkib bunu mənim üçün yaratmısınız. Ancaq mənim üçün hamısından əziz, təbiidir ki, Atatürklə bağlı hədiyyədir. Bunun adını da bilmirəm. Bir var ki, heykəl deyirlər, barelyef deyirlər, amma bunu içəridən ediblər. Xüsusi ustalıqla ediblər. Doğrudan da, elə bil, hər tərəfdən sənə baxır. Çox orijinaldır. Birincisi, ona görə ki, hamımızın ən böyük atamız, ən böyük insan saydığımız şəxsiyyətin, türk dünyasının öndəri olan Mustafa Kamal Atatürkün surətidir. İkincisi də, onu yaradanlar bu

işi çox böyük sevgi-məhəbbətlə görüblər və bu cür orijinal bir formada hazırlayıblar. Bu, asan bir iş deyildir, bunu hər adam edə bilməz. Deyirsən ki, bunu pensiyaçı generallar ediblər bu, daha da mühümdür.

Akkan Suver: Bütün hərbi qışlalarda bu, var. Bizim Cümhurbaşkanının sarayında da bunu görə biləcəksiniz, yenicə verilmişdir. Buraya ziyarətim ərəfəsində generallardan belə bir şey istəmək ağlıma gəlməmişdi. Onlar özləri məndən soruşdular ki, aprelin ilk həftəsi keçiriləcək toplantıya gedəcəksənmi? Dedim ki, Azərbaycana "Dədə Qorqud"un 1300 illiyinə gedəcəyəm. Dedilər ki, sayın Cümhurbaşkanını görmək şansın varmı? Dedim ki, həm var, həm yox. Yəni, iş olar, tədbirləri olar, görə bilmərəm. Amma çalışacağam. Dedilər ki, sənə bir əmanət verəcəyik, Cümhurbaşkanına verdiyimiz hədiyyədən birini apararsanmı? Dedim ki, şərəflə götürərəm.

Heydər Əliyev: Çox sağ olun. Mən bir daha qeyd edirəm ki, siz Türkiyə - Azərbaycan dostluğu və qardaşlığının inkişafında, möhkəmlənməsində çox böyük xidmətlər göstərirsiniz. Ona görə bir daha təşəkkür edirəm. Mən bu dostluğa sadiqəm və sadiq olacağam, sizin mənə göstərdiyiniz bu hörmət-ehtirama görə həmişə "Mərmərə qrupu" ilə bir yerdəyəm.

Akkan Suver: Allah qismət edərsə, bu ilin oktyabrında 3-cü Avrasiya iqtisadi zirvəsini keçirəcəyik. Oraya yenə yüksək səviyyədə bir heyət göndərilməsinə izin versəniz, bizi bəri başdan sevindirərsiniz. Keçən toplantıda Sizin hörmətli böyük elçi əvvəldən axıra qədər bizimlə bir yerdə oldu.

Bir məsələ barədə də təşəkkürümü bildirirəm. Siz məni ilk dəfə tanıdığınız vaxt, toplantıya getməzdən əvvəl, "Homo" otelində Vaqif bəyi gördünüz. Dediniz ki, haradan tapdınız? Dedim ki, əgər izin versəniz, bizim Avrasiya katibliyinə Vaqif bəy başçılıq etsin. Sizə minnətdaram ki, hörmətli və mükəmməl bir yoldaş qazandıq.

Heydər Əliyev: Doğrudur, Azərbaycanın çox dəyərli adamlarından biridir.

Akkan Suver: Sayın Cümhurbaşkanım, mənim boksla da bir az əlaqəm var, doqquz ildir Türkiyə Boks Federasiyasının vitse-prezidenyəm. Sizin İdman Akademiyasının rektoru da Azərbaycanın Boks Federasiyasının rəhbəridir. Bu gün oradakı çıxışımı da o təşkil etdi. Dünyanın hər yerində idmançılara bir hədiyyə verirlər, adətdir. Mənim 58 yaşım var, çox hədiyyələr almışam. Amma bugünkü kimi hədiyyəni həyatım boyu almamışdım. Mənə üzərində Zati-alinizin portreti olan xalça verdilər. Mən bunu vəqfimizin ən gözəl yerində asacağam. Ağacan bəy onu mənə hədiyyə etdi.

Sizinlə bugünkü görüşümdən çox təsirləndim. Siz hər zaman bizi sevindirirsiniz. Mən də deyirəm ki,

cənabi Allah da Azərbaycanı və onun böyük övladı Heydər Əliyevi hər zaman sevindirsin.

Heydər Əliyev: Çox sağ olun. Bilirsiniz ki, **İlham Əliyev** də Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidentidir. Boksçulara, başqa idmançılara da çox yardımlar edir.

Akkan Suver: Bizdə yeni Cümhurbaşkanı seçildikdən sonra İlham bəyin gəlməsini gözləyirik.

Heydər Əliyev: Mən bunu mütləq təmin edəcəyəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏLİ QONAQLARI QƏBUL ETMİŞDİR

11 aprel 2000-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Samanyolu" telekanalının Qafqaz və Orta Asiya üzrə səlahiyyətli nümayəndəsi Naci Tosun və bu TV-nin Azərbaycan təmsilçisi Tahir Karanfil, "Çağ" Öyrətim İşlətmələri MMM-in Prezidenti Adem Öcal rəhbərlik etdiyi Azərbaycan-Türkiyə özəl liseylərinin bu ölkədə gördüyü işlər haqda Heydər Əliyev məlumat verdikdən sonra Qubadakı özəl liseyinin yeni binasının tikintisinin başa çatdığını bildirmişdir.

"Çağ" MMM-in Prezidenti Azərbaycanda fəaliyyət göstərdikləri 7 il ərzində qazandıqları nailiyyətlər və bu iki respublika fənn olimpiadalarında 27 birinci yerdən 18-ni bu liseylərin şagirdlərinin tutması haqda ölkə rəhbərinə geniş məlumat vermiş və Heydər Əliyev cənablarına özəl türk liseylərinin "Fəxri Baş Müəllimi" diplomunu təqdim etmişdir. Bakıda fəaliyyət göstərən özəl türk liseylərindən birinə "Dədə Qorqud" adının verilməsi təklifini razılıqla qarşılayan Azərbaycan prezidenti "Çağ" MMM-in Azərbaycanda açdığı təhsil ocaqlarının fəaliyyətindən məmnun olduğunu bildirmişdir.

TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, XALQIMIZIN BÖYÜK DOSTU İHSAN DOĞRAMACININ 85 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Əziz dostum, qardaşım İhsan Doğramacı!

Türkiyə Cümhuriyyətindən bu təntənəli mərasimə təşrif gətirmiş qonaqlarımız!

Hörmətli xanımlar və cənablar!

Bu gün bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına qəlbimdən gələn səmimi salamlarımı göndərirəm.

Bu gün möhtəşəm Respublika sarayındakı təntənəli mərasim Azərbaycan xalqının böyük dostu İhsan

Doğramacının 85 illik yubileyinə həsr olunmuşdur.

Mən çox məmnunam və təşəkkür edirəm ki, dostum, qardaşım İhsan Doğramacı, Ayser xanım, ailə üzvləri və onların dostları, həmkarları, professorlar, ictimai-siyasi xadimlər onunla birlikdə bu gün Türkiyədən, Ankaradan Azərbaycana gəliblər. Bu, qeyri-adi bir hadisədir. İhsan Doğramacının təyyarəsində qardaş Türkiyə Cümhuriyyətindən yüzdən çox dostumuz, İhsan Doğramacının dostları Azərbaycana, Bakıya gəliblər və bu yubiley şənliklərində bizimlə bərabər iştirak edirlər.

Bunlar heç də təsadüfi deyildir. Çünki İhsan Doğramacının 85 illiyinə həsr olunmuş bu yubiley onun şəxsiyyətinə, türk xalqı, türkdilli xalqlar, türk dünyası qarşısında göstərdiyi xidmətlərə, bəşər tarixinə yazdığı səhifələrə olan hörmətin, ehtiramın təzahürüdür.

Alimlərimiz, nazirlərimiz bu gün İhsan Doğramacı haqqında ürək sözlərini dedilər. Onların çıxışlarında İhsan Doğramacının həyat yolu, fəaliyyəti, əldə etdiyi nailiyyətlər və göstərdiyi xidmətlər bu gün Azərbaycan vətəndaşlarına çatdırıldı. Amma bu, bizim üçün yeni deyildir. Biz hörmətli İhsan Doğramacının beş il bundan öncə 80 illik yubileyini Azərbaycanda təntənə ilə qeyd edərkən onun xidmətləri haqqında geniş məlumatlar verilmişdi.

Bu nadir şəxsiyyətin həyat yolunu, fəaliyyətini və bəşəriyyət qarşısında göstərdiyi xidmətləri bu gün yenidən yada salarkən düşünürsən - o, nə qədər böyük insandır, nə qədər nadir bir şəxsiyyətdir, bizlər üçün, türk dünyası üçün, bəşəriyyət üçün dəyərli bir sərvətdir.

Hörmətli İhsan Doğramacı həqiqətən öz işləri, öz elmi və ictimai fəaliyyəti ilə, elm, təhsil, səhiyyənin inkişafındakı xidmətləri, vətənpərvərliyi, türk dünyasına daim göstərdiyi sədaqət ilə özü-özünə bir abidə yaratmışdır. İndi baxırsan, bu salonda bizim dostumuz, qardaşımız İhsan Doğramacıdır. Eyni zamanda, ona baxarkən düşünürsən ki, o, yüksək məna daşıyan abidədir.

Hörmətli İhsan Doğramacı, həqiqətən gənc yaşlarından öz fitri istedadından məharətlə istifadə edərək həyatını xalqa, millətə, cəmiyyətə, bəşəriyyətə xidmət etməkdə görübdür. O, bu xidməti edibdir, yorulmadan, ardıcıl olaraq, dayanmadan, usanmadan bu gün də edir və sabah da, gələcəkdə də, yüz yaşına qədər edəcəkdir.

Hörmətli İhsan Doğramacı Türkiyədə böyük hörmətə malikdir. O, dünyanın əksər ölkələrində böyük şöhrət qazanıbdır. Türk dünyasında, türkdilli dövlətlər birliyində çox böyük hörmət, ehtiram qazanıbdır. Azərbaycanda isə hörmətli İhsan Doğramacıya xüsusi məhəbbət və sevgi vardır. Düşünürəm ki, bu da qarşılıqlıdır.

Hörmətli İhsan Doğramacının qəlbi çox genişdir. O geniş qəlbdə

milyonlarla-milyonlarla səmimi hissiyyatlar yaşayır. Onların içərisində Azərbaycana olan sevgi, məhəbbət də görkəmli yer tutur. Bunu hiss edən Azərbaycan xalqı hörmətli İhsan Doğramacıya öz sevgisi, məhəbbəti ilə cavab verir və öz hörmət, ehtiramını göstərir.

İhsan Doğramacının 85 il ərzində - gənclik dövründən başlayaraq - fəaliyyəti çoxsahəlidir, çoxşaxəlidir. O, alimdir, həkimdir, ictimai xadimdir, maarifçidir, maarif-təhsil qurucusudur, dünyanın bir çox mühüm problemlərinin həll olunmasında iştirak edir, sülh, əmin-amanlıq uğrunda mübarizə aparır. Onun həddindən artıq çoxsahəli fəaliyyəti vardır. Bunun da səbəbi odur ki, bu böyük zəkalı insan təkcə əvvəlcədən seçdiyi sənət çərçivəsində yaşaya bilməzdi. Zəkası, iradəsi, böyük qəlbi onu bu qədər böyük işlər görməyə sövq edibdir. Hörmətli İhsan Doğramacı bunları da müvəffəqiyyətlə həyata keçiribdir.

Ancaq bütün bu işlərin içərisində burada daha çox səslənən pediatriya haqqında danışmaq istəyirəm. Biz buna uşaq həkimi deyirik. Həkimlik sənəti insan cəmiyyətində ən yüksək qiymətə, hörmətə malik olan bir sənətdir. Çünki bu, hər bir insan üçün, demək, cəmiyyət, dövlət, bəşəriyyət üçün lazımdır. Ona görə də bu sənət Azərbaycanda həmişə hörmətli, şöhrətli olubdur, bu gün də belədir və gələcəkdə də belə olacaqdır. Ancaq həkimlik sənəti də çoxsahəlidir. Hesab edirəm ki, həkimlik sənəti içərisində uşaq həkimi ən vacib və hörmətli sənətdir.

Elə bir insan yoxdur ki, uşağı sevməsin. Hər bir insan, hər bir ata, hər bir ana özündən çox övladını, uşağını sevir. Bu, ailə çərçivəsində olan anlayışdır. Ancaq millət üçün, dövlət üçün, ölkə üçün, xalq üçün, uşaq, gənclik hər şeydən qiymətlidir. Uşağın dünyaya gəlməsi, onun sağlam böyüməsi, gənc nəslin yaxşı təhsil alması hər bir millətin, xalqın ən dəyərli sərvətidir. Çünki o, millətin, xalqın gələcəyidir, millətin, xalqın daimiliyidir, əbədiliyidir.

Hörmətli İhsan Doğramacının məhz bu sahəyə lap gənc vaxtlarından maraq göstərməsi və ömrü boyu başqa fəaliyyətlərlə yanaşı, bu sahəni həmişə özü üçün böyük bir vəzifə etməsi bir insan kimi onun nə qədər böyük mənəviyyata malik olduğunu, eyni zamanda xalq, millət üçün, onun gələcəyi üçün bu sahənin nə qədər əhəmiyyətli olduğunu göstərir.

İhsan Doğramacı haqqında burada deyilən sözlər, əlbəttə ki, onun fəaliyyətinin hamısını əhatə etmir. Bu barədə kitablar, əsərlər yazılır və yazılacaqdır. Ancaq mən bir sözü cəsarətlə deyə bilərəm ki, bəşəriyyətin nadir şəxsiyyətlərindən biri də bizim əziz dostumuz, qardaşımız İhsan Doğramacıdır.

Azərbaycanın dövlət başçısı olaraq mən məhz buna görə 1995-ci ildə qərar qəbul etdim ki, dostumuz hörmətli İhsan Doğramacının 80 illik

yubileyi ölkəmizdə təntənəli şəkildə qeyd olunsun və biz bunu etdik. Həmin mərasim Opera və Balet Teatrında keçirildi. Təkcə bu mərasim deyildi, o zaman çoxlu görüşlər oldu, başqa tədbirlər keçirildi.

Bəli, burada dedilər, o vaxt mən arzu etdim ki, dostum, qardaşım İhsan Doğramacı yüz il yaşasın. Amma bu gün düşünürəm ki, bir səhv etmişəm, ona az yaş vermişəm, onun üçün yüz il azdır. Nə üçün? Çünki beş il bundan əvvəl sizin də, bizim də gördüyümüz İhsan Doğramacı eyni şəkildə bu gün də bizim qardaşımızdır. Bu beş il müddətində onun yaşı artıbdır. Amma bu insanın həyatında, yəni işləmək qabiliyyəti, fikirləşmək qabiliyyəti, fiziki qabiliyyəti - hamısı yerindədir. Mən bu gün dedim ki, bu beş il müddətində bəlkə də o, daha da gənc leşibdir, cavanlaşıbdır. Ona görə də mən bu gün vaxtı artırıram və deyirəm: yüz yaşa, yüz yaşdan sonra daha bir yüz il də yaşa!

İhsan Doğramacı çox böyük insani keyfiyyətlərə malik olan bir şəxsdir. O, çox diqqətlidir, çox qayğıkeşdir, dostluqda çox sədaqətlidir. Həm Türkiyədə, həm Azərbaycanda bunu çoxları yaxşı bilir. Çünki hər kəs bunu öz həyatında hiss edibdir. Bizim Azərbaycandan nə qədər alimlər, incəsənət xadimləri - bəstəkarlar, musiqiçilər 1991-1992-ci illərdən başlayaraq Türkiyədə İhsan Doğramacının himayəsi altında işləyiblər və bu gün də çoxları Bilkənd universitetində onunla bərabər çalışır. O, hər bir kəsə qayğı göstərir, çox diqqətlidir.

Bunu mən öz şəxsi həyatımda da hiss etmişəm. Bilirsiniz ki, bir il bundan öncə, mən Amerika Birləşmiş Ştatlarında olarkən ürəyimdə cərrahiyyə əməliyyatı aparmaq zəruriyyəti meydana çıxdı. Bu cərrahiyyə əməliyyatı keçən il aprelin 29-da oldu. Azərbaycandan mənim yanıma çoxlu adamlar gəlmək istəyirdi.

Mən göstəriş verdim ki, heç kəs narahat olmasın. Çünki bu, müalicədir, mən müalicəni qurtarıb gələcəyəm. Dostum İhsan Doğramacı da mənə müraciət etdi. Mən çox xahiş etdim ki, siz narahat olmayın, tezliklə gələcəyəm. Həkimlər mənə belə deyirlər. Amma o, mənim sözlərimi qəbul etmədi. Türkiyədən 18 saat fasiləsiz olaraq təyyarə ilə uçub Klivlendə gəldi, məni ziyarət etdi.

Biz 1999-cu il may ayının 10-nu əziz dostum, qardaşım İhsan Doğramacı ilə birlikdə Klivlend xəstəxanasında keçirdik. Bəzən gənclər də bu cür böyük səfərə çıxa bilmirlər. Amma İhsan Doğramacı keçən il bunu etdi. Ona görə də deyirəm ki, o, günü-gündən gənc leşir. Əgər 18 saat təyyarə ilə Klivlendə gəldi və oraya çatan kimi mənimlə görüşdüsə, hesab edirəm ki, indi o, kosmonavtlarla da yarışa bilər, lazım olsa kosmosa da uça bilər.

Bilirsiniz ki, Azərbaycanda elmə, mədəniyyətə, təhsilə, incəsənətə həmişə böyük hörmət olubdur. Biz bu ənənəni bu illərdə də saxlayırıq, yaşadırıq, inkişaf etdiririk. Baxmayaraq ki, həyatımızda bir çox problemlər vardır. Baxmayaraq ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman, 1991-ci ilin sonunda Ermənistan ilə müharibə vəziyyətində idi, ölkəmizin torpaqları işğal olunurdu və bu işğal da davam edirdi.

Baxmayaraq ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur və işğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız zorla çıxarılıb, ağır vəziyyətdə çadırlarda yaşayır.

Biz 1994-cü ilin may ayında atəşi dayandırmışıq, atəşkəs haqqında saziş imzalamışıq. Atəş yoxdur. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Bu, asan deyil, çətindir, bilsəniz ki, çox çətindir. Biz çox yollardan istifadə etmişik və bu gün də istifadə edirik, edəcəyik. Bu gün bəyan edirəm ki, biz münaqişənin mütləq sülh yolu ilə həll edilməsinə nail olacağıq. Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır və doğma yurdundan çıxarılmış soydaşlarımız öz yerlərinə, Qarabağa qayıdacaqlar və biz İhsan Doğramacı ilə Qarabağda da görüşəcəyik.

Bizim bir çox başqa problemlərimiz, çətinliklərimiz də vardır. İndi iqtisadiyyatımız inkişaf edir. Amma biz xalqımıza istədiyimiz səviyyədə həyat tərzi yarada bilməmişik. Keçid dövrü yaşayırıq. Amma Azərbaycan xalqının çox gözəl gələcəyi vardır. Biz bu keçid dövrünü uğurla keçirik, keçəcəyik və Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş, xalqının rifah halı yüksəklərə qalxmış bir ölkə olacaqdır. Buna əmin ola bilərsiniz.

Ancaq biz indi bu çətinliklər şəraitində mədəniyyətimizə, elmimizə, irsimizə, xalqımızın tarixinə həmişə qiymət verməyi, onu qeyd etməyi özümüzə borc bilirik. Bu da lazımdır. Çünki yaşayış nə qədər çətin olsa da, gərək insan mənəviyyatı yüksək olsun. Mənəviyyatın yüksəkliyi də insanın millət kimi mənliyindədir, məziyyətindədir, vətənpərvərliyindədir. Ona görə də gərək insan öz tarixini, millətinin kökünü, öz millətinin keçmişdə yaratdığı abidələri bilsin. Ona görə bilsin ki, öz milləti, xalqı ilə daim fəxr etsin, vətənpərvər olsun , xalqına, millətinə, torpağına, dövlətinə sədaqətli olsun. Ona görə belə tədbirlərin çox əhəmiyyəti vardır.

Biz ulu babamız, Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyini aprelin 9-da Bakıda, bu salonda türkdilli dövlətlərin başçılarının, nümayəndə heyətlərinin, bir çox ölkələrdən gəlmiş ictimai-siyasi xadimlərin, alimlərin, qorqudşünasların, şərqşünasların iştirakı ilə təntənə ilə keçirdik. Xalqımızın böyük şairi, dahi insan Məhəmməd Füzulinin yubileyini bir neçə il bundan öncə burada keçirdik. Biz vaxtilə burada böyük şair Nəsiminin 600 illik yubileyini, Nizami Gəncəvinin yubileyini keçir-

mişik. Biz Azərbaycan xalqının mədəniyyətini, elmini son dövrdə inkişaf etdirmiş insanların - dünyasını dəyişmiş insanların da, bu gün yaşayanların da yubileylərini keçirmişik. Biz bu salonda ancaq ən yüksək qiymətə layiq olan insanların yubileyini keçirmişik. Bu gün İhsan Doğramacının 85 illik yubileyinin Azərbaycanın möhtəşəm Respublika sarayında təntənəli şəkildə keçirilməsi İhsan Doğramacını bəşər tarixinə qızıl hərflərlə səhifələr yazmış həmin o insanlara bərabər edir, onların səviyyəsinə qaldırır.

Hörmətli İhsan Doğramacı Türkiyə - Azərbaycan əlaqələrinin yaranmasında, inkişaf etməsində böyük xidmətlər göstərmiş və göstərməkdədir. Hamıya - bütün dünyaya, bizim xalqlarımıza məlumdur ki, Azərbaycan xalqı ilə Türkiyə xalqı arasındakı tarixi köklər, tarixi birlik - dilin, adət-ənənələrin, milli dəyərlərin, din birliyi - hamısı birlikdə tarixən bizi həmişə bir yerdə, bir-birimizlə bağlı edibdir. Zaman olubdur ki, biz bir-birimizdən məcburən ayrı düşmüşük. Ancaq 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi Türkiyə - Azərbaycan əlaqələri, demək olar ki, şimşək sürəti ilə inkişaf etməyə başladı. Bu əlaqələr inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir.

Azərbaycan üçün Türkiyə Cümhuriyyəti ilə olan əlaqələr xüsusi əhəmiyyət daşıyır. Bunu Türkiyədə də belə qiymətləndirirlər, biz də belə qiymətləndiririk. Biz keçid dövründə olduğumuz zaman, bazar iqtisadiyyatı yolu ilə gedərkən, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət qurarkən, ölkəmizi dünyanın inkişaf etmiş dövlətləri sırasına çatdırmağa çalışarkən Türkiyənin təcrübəsindən istifadə edirik.

Biz böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yoldan, Türkiyə Cümhuriyyətinin bugünkü nailiyyətlərindən istifadə edirik. Böyük Atatürk bizə örnək olduğu kimi, onun yaratdığı Türkiyə Cümhuriyyəti də bizim üçün örnəkdir, iftixar mənbəyidir.

Bizim ölkələrimizin bütün sahələrdə - siyasi, iqtisadi, elmi, mədəni sahələrdə əlaqələri inkişaf edir. Bu, bizim strateji yolumuzdur. Biz onu inkişaf etdiririk və etdirəcəyik.

1998-ci ilin oktyabr ayında bir çox ölkələrin dövlət başçıları ilə birlikdə biz Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin 75 illik yubileyini qeyd etdik. Mən həmin yubiley mərasimlərində böyük iftixar hissi ilə iştirak etdim.

Bilirsiniz ki, məhz o vaxt ilk dəfə Ankarada Bakı - Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi ilə əlaqədar "Ankara bəyannaməsi" imzalandı. Türkiyə cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəl, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev bəyannamə imzaladılar. Həmin bəyannaməni Amerika Birləşmiş Ştatlarının enerji naziri cənab Riçardson da imzaladı. Bununla da biz 1994-cü ilin sentyabr ayında ilk dəfə Azərbaycanda "Əsrin müqaviləsi"ni yaradarkən Bakı - Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi barədə qəbul etdiyimiz qərarı artıq beynəlxalq səviyyəyə qaldırdıq.

Bu günlərdə Türkiyə böyük Millət Məclisinin 80 illik yubileyi qeyd olunur. Bu Millət Məclisinin də yaradıcısı, qurucusu böyük Mustafa Kamal Atatürkdür. Milli Məclisin sədri Murtuz Ələsgərovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti bu yubiley mərasimlərində iştirak edib, ölkəmizin hörmətini, məhəbbətini, sevgisini orada nümayiş etdiribdir. Onlar bu gün İhsan Doğramacının təyyarəsindən istifadə edərək Azərbaycana dönüblər.

Bəli, bu da böyük hadisədir. Çünki Türkiyədə Cümhuriyyəti yaratmaq üçün həmin o böyük Millət Məclisini yaratmaq lazım idi. Mustafa Kamal Atatürk çox dahi bir insan idi. O, Türkiyəni ağır vəziyyətdən çətinliklərlə çıxardı. Onun birinci addımı bu oldu ki, 80 il bundan əvvəl Türkiyənin böyük Millət Məclisini yaratdı. Sonra isə - 1923-cü ildə o, Türkiyə Cümhuriyyətini yaratdı, həyatının sonuna qədər də həmin Cümhuriyyətin Cümhurbaşkanı, Prezidenti oldu.

Biz bu gün çox məmnunuq və çox sevinirik ki, Türkiyə Cümhuriyyəti, xalqı böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə gedir, onun yoluna sadiqdir və bundan sonra da sadiq olacaqdır. Əziz dostum, qardaşım İhsan Doğramacının həyat fəaliyyəti, Türkiyədə təhsilin inkişafı, maarifçiliyin, səhiyyənin və xüsusən pediatriyanın inkişafı sahəsində göstərdiyi xidmətlər məhz Mustafa Kamal Atatürkün yoluna olan sədaqətin təzahürüdür.

Türkiyə - Azərbaycan dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrinin yaranmasında, inkişaf etməsində birinci növbədə, bizim xalqlarımızın - Türkiyə və Azərbaycan xalqlarının iradəsi vardır. Bununla bərabər, təbiidir ki, ictimai xadimlərin, siyasi xadimlərin, dövlət, elm və mədəniyyət xadimlərinin böyük xidmətləri vardır. Ona görə də Türkiyə - Azərbaycan əlaqələrinin yaranmasında, inkişaf etdirilməsində Türkiyədə xidmət göstərmiş hər bir şəxsə, insana mən bu gün hörmət və ehtiramımı bildirirəm, təşəkkür edirəm.

Ancaq Türkiyədə bu sahədə ən çox xidmət göstərmiş, zəhmət çəkmiş insan Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycanın böyük dostu, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl olmuşdur.

Bəli, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Türkiyə Cümhuriyyəti, hökuməti Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olmuşdur. Həmin hökumətin başında da hörmətli Süleyman Dəmirəl durmuşdur. O vaxtdan indiyə qədər Türkiyə - Azərbaycan əlaqələrinin inkişaf etdirilməsində onun

xidmətləri əvəzsizdir. Ona görə də əziz dostum, qardaşım Süleyman Dəmirəl müstəqil Azərbaycanın ən yüksək mükafatı olan "İstiqlal" ordeninə layiq görülübdür. Həmin ordeni - "İstiqlal" ordenini burada, bu salonda mən böyük fərəh hissi ilə ona təqdim etmişəm.

Bugünkü təntənəli mərasim də təkcə dostumuz, qardaşımız İhsan Doğramacının 85 illiyinə həsr olunmayıbdır. Bu mərasimin mənası genişdir. Onun mənası ondan ibarətdir ki, türkdilli xalqların, Azərbaycan xalqının, Türkiyə xalqının böyük oğlu İhsan Doğramacının 85 illiк yubileyi eyni zamanda Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafına, türk dünyasının birliyinin daha da inkişafına xidmət edir. Bax, bunlar hamısı bir-biri ilə bağlıdır. Ona görə də mən çox məmnunam ki, biz dostumuz hörmətli İhsan Doğramacının yubileyini Azərbaycanda təntənəli şəkildə keçiririk. Beləliklə, Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün yeni bir addım atırıq.

Əziz dostum İhsan Doğramacı!

Hörmətli Ayser xanım!

İhsan Doğramacı ailəsinin üzvləri!

Burada olanlar və buraya gəlib çata bilməyənlər!

Türkiyədən gəlmiş hörmətli qonaqlarımız!

Sizi bir daha salamlayıram.

Əziz dostum, 85 illiк yubileyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm. Heç şübhə etmirəm ki, 90 illiк yubileyinizi, 95 illiк yubileyinizi burada edəcəyik və 100 illiк yubileyinizi də burada edəcəyik.

Əziz dostum, sən o illəri yaşayacaqsan, o yubiley günlərinə çatacaqsan, mən isə, Azərbaycan Prezidenti Heydər Əliyev həmin yubileyləri təşkil edəcəyəm.

Artıq burada deyildi və mətbuatda da dərc olunubdur ki, Azərbaycan Prezidentinin fərmanı ilə hörmətli İhsan Doğramacı Azərbaycanın ən yüksək mükafatı - "İstiqlal" ordeni ilə təltif olunubdur. Bu gün mən böyük iftixar hissi ilə müstəqil Azərbaycan dövlətinin bu yüksək mükafatını dostum, qardaşım, hörmətli İhsan Doğramacıya təqdim etmək istəyirəm.

Əziz dostum, qardaşım, mən səni yubiley münasibətilə bir daha təbrik edirəm.

Ayser xanım, sizi də təbrik edirəm.

Əziz dostum, sənə cansağlığı arzu edirəm, işində yeni-yeni uğurlar arzulayıram. Bütün arzularınızın yerinə yetirilməsini istəyirəm. Yəni 90, 95, 100 yaş - ondan sonra davam edəcəyik. Təbrik edirəm.

"Azərbaycan" qəzeti, 25 aprel 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, XALQIMIZIN BÖYÜK DOSTU İHSAN DOĞRAMACINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Prezident sarayında türk dünyasının görkəmli oğlu, dünya şöhrətli alim, xalqımızın böyük dostu İhsan bəy Doğramacını və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Nümayəndə heyətinə İhsan bəy Doğramacının ailə üzvləri, millət vəkilləri, Türkiyənin bir sıra universitetlərinin hazırkı və keçmiş rektorları, professor və müəllim heyəti, iş adamları, mətbuat nümayəndələri daxildirlər.

Dövlətimizin başçısı Heydər Əliyev İhsan Doğramacını və onun ailə üzvlərini, bütün qonaqları mehribanlıqla salamladı, nümayəndə heyətinin hər bir üzvü ilə səmimiyyətlə görüşərək dedi:

- Əziz dostum, qardaşım İhsan Doğramacı!

Əziz bacım Ayser xanım!

Əziz dostlarımız, qardaşlarımız!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram və bu gün sizinlə Azərbaycanda görüşdüyümə görə çox məmnun olduğumu bildirmək istəyirəm.

Təbiidir ki, bugünkü hadisə həm sizin, həm də bizim üçün, mənim üçün və xalqımız, müstəqil Azərbaycan üçün çox əlamətdar bir hadisədir. Azərbaycan xalqının böyük dostu, mənim şəxsi dostum, qardaşım İhsan Doğramacının 85 yaşı tamam olur. Biz bu münasibətlə, onun 80 yaşı tamam olanda danışmışdıq ki, İhsan Doğramacının 85 illiyini Azərbaycanda qeyd edəcəyik, keçirəcəyik. Buna görə də mən qardaşım İhsan Doğramacını ailəsi, dostları ilə birlikdə Azərbaycana dəvət etdim. Məmnunam ki, siz hamınız dəvəti qəbul etmisiniz. Azərbaycana gəlmisiniz.

Proqram məlumdur. Bu gün biz Azərbaycanın ən mötəbər salonu olan Respublika sarayında hörmətli İhsan Doğramacının 85 illiк yubileyi münasibətilə böyük bir mərasim keçirəcəyik. Hörmətli İhsan Doğramacı mənim fərmanımla müstəqil Azərbaycanın ən yüksək mükafatı - "İstiqlal" ordeni ilə təltif olunubdur. Mən bu "İstiqlal" ordenini - Azərbaycanın ən yüksək mükafatını böyük şərəf hissi ilə hörmətli İhsan Doğramacıya təqdim edəcəyəm.

Bilirsiniz ki, orada müəyyən təbriklər olacaqdır. Azərbaycanın incəsənət ustaları, xadimləri bu münasibətlə bir konsert hazırlayıblar. Bu konsert məhz sizin üçün - İhsan Doğramacı üçün, sizin 85 illiк yubileyinizə həsr olunmuş konsertdir. Həmin salonda 2500 yer vardır. Azərbaycanın çox görkəmli insanları orada iştirak edəcəklər.

Sonra axşam yenə də bərabər olacağıq. Siz sabah da, o birisi gün də buradasınız. Azərbaycanla daha da yaxından tanış olacaqsınız.

Sizlərdən kimsə, bəlkə də, Azərbaycana ilk dəfədir gəlir. Hesab edirəm ki, Azərbaycanın bugünkü gününü görmək onlar üçün daha maraqlı olacaqdır. Amma kimsə buraya ilk dəfə deyil gəlir. Bu səfər onlar üçün də maraqlı keçəcəkdir, çünki respublikamızdakı dəyişiklikləri görəcəklər. Məsələn, kimsə buraya 1990, 1991, 1992-ci illərdə gəlibsə, indi bu gün - 2000-ci ildə görəcəkdir ki, Azərbaycanda nə qədər böyük dəyişikliklər olubdur, tərəqqi, inkişaf vardır. Onlar bunu görəcəklər. Baxmayaraq ki, bizim problemlərimiz də vardır.

Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında olan hərbi münaqişə hələ sona çatmayıbdır. Biz 1994-cü ildə atəşi dayandırmışıq ki, atəş olmasın. Ancaq o vaxta qədər Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Həmin torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla çıxarılıbdır. Onlar çadırlarda ağır şəraitdə yaşayırlar.

Biz münaqişəni sülh yolu ilə həll etmək üçün danışıqlar aparırıq. Ancaq bu danışıqlar hələ son nəticəyə gətirib çıxarmayıbdır. Bu, bizim ən böyük, ən ağır problemimizdir. Təsəvvür edin, indi səkkiz milyon əhalisi olan ölkənin vətəndaşlarının səkkizdə bir hissəsi, yəni bir milyonu qaçqın vəziyyətində çadırlarda, ağır şəraitdə yaşayır.

Başqa problemlərimiz də vardır. Biz 70 il Sovet hakimiyyəti dövründə, tamamilə sosialist quruluşunda yaşamışıq. İnsanların şüuru da, psixologiyası da, xarakteri də, iş üslubu da - hər şey bu 70 ildə həmin ideologiyanın, sosialist quruluşunun, sisteminin qanunları, tələbləri əsasında formalaşıbdır, yaranıbdır.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyi əldə edəndən sonra biz həmin sistemdən, kommunist ideologiyasından, sosialist sistemindən imtina etdik, Qərbdə, Türkiyədə, dünyanın inkişaf etmiş ölkələrində olan sistemə - həm siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən -keçdik. Amma bu elə deyil ki, çayın bu tərəfinə gəldin, körpü də olmasa, yaxşı tullana bilirsənsə, o tərəfə keçə bilərsən. Bu, elə deyil.

Biz çay deyirik, siz nəhr deyirsiniz,- İhsan Doğramacı bizim dilimizi, yəni şivəmizi, ləhcəmizi yaxşı bilir. Yəqin siz də bilirsiniz,- amma bu çay geniş və dərindir. Onu keçmək üçün zaman lazımdır. Bunu keçmək üçün təkcə zaman yox, iradə lazımdır, bir sıra böyük islahatları, dəyişiklikləri həyata keçirmək lazımdır. Biz bunları edirik. Məhz bunların nəticəsidir ki, ölkəmiz artıq inkişaf edir, irəli gedir.

Vaxtınızı çox almaq istəmirəm. Ölkəmizin bir sıra problemləri vardır,- yəqin siz bunları bilirsiniz. Ancaq bu problemlərlə yanaşı, bizim

çox yaxşı nailiyyətlərimiz də vardır. Azərbaycanda bazar iqtisadiyyatı inkişaf edir, insanlara sərbəstlik, azadlıq verilibdir. Ölkəmizdə siyasi plüarizm təmin olunubdur.

Biz dünyanın böyük neft şirkətləri ilə bir sıra mühüm müqavilələr imzalamışıq. Bu müqavilələr artıq öz nəticəsini verir. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Ancaq biz indi Azərbaycanın neft yataqlarının, sərvətlərinin, demək olar ki, "ikinci nəfəs"indən istifadə edirik. Həkimlər bu "ikinci nəfəs" məsələsini yaxşı bilirlər. Bəzən görürsən ki, bir şey tükənir, amma "ikinci nəfəs" əmələ gəlir.

Biz Xəzər dənizinin Azərbaycana məxsus sektorunda böyük neft yataqları aşkar etmişik. Amma bu, indinin işi deyildir. Həmin neft yataqlarının hamısını məhz Azərbaycan alimləri, neftçiləri, geoloqları 1950-1960-1970-ci illərdə axtarıblar, tapıblar. Biz bu yataqlardan bir qismini Sovet hakimiyyəti dövründə işlətmişik. Məsələn, burada afsanəvi Neft daşları adası vardır. Vaxtilə sahildən 100 kilometr məsafədə, Xəzər dənizinin içində bəzi daşlar olduğu müşahidə edilibdir. Orada axtarış işləri aparılanda neft tapılıbdır və neft hasil olunubdur. Gətirib həmin daşların üzərində - biz estakadalar deyirik - dəmirdən platformalar qurublar. 50 il bundan öncə orada bir şəhər yaradılıbdır. Yəni Azərbaycanda Xəzər dənizindən 50 il bundan əvvəl ilk neftin hasil edilməsinə başlanıbdır. Bilin ki, dünyada ilk dəfə dənizdən, yəni suyun dərinliyindən neftin hasil olunmasına Azərbaycanda başlanıbdır.

Ötən 50 il müddətində Azərbaycanın alimləri, geoloqları, neftçiləri Xəzər dənizinin başqa hissələrində də araşdırmalar aparmışlar, çoxlu neft yataqları aşkar etmişlər. Onların bir qismindən Sovetlər İttifaqı vaxtında istifadə etmişik, amma çox hissəsi qalıbdır. Biz indi dünyanın böyük neft şirkətlərini dəvət edərək həmin yataqları işlətməyə çalışırıq.

Biz 1994-cü ildə ilk müqavilə imzalamışıq. Bü müqaviləyə "Əsrin müqaviləsi" deyirlər. O vaxtdan Türkiyədə çox məşhur olan Bakı - Ceyhan əsas ixrac neft kəməri işi ilə məşğuluq. Şükürlər olsun ki, onu da başa çatdırırıq. Keçən ilin noyabr ayında - siz ona qasım ayı deyirsiniz - ATƏT-in İstanbul zirvə görüşü keçirilən zaman biz son sazişi imzaladıq. İndi onun bəzi kommersiya, iqtisadi məsələləri həll olunur. Güman edirəm ki, bir-iki aydan sonra biz Bakı - Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlayacağıq. Xəzər dənizindən hasil edilən neft Türkiyənin Ceyhan limanına çatdırılacaqdır.

Azərbaycanda neft həddindən artıq çoxdur. Biz 1994-cü ildə ilk müqaviləni imzalayanda proqnoz verilmişdi, yəni bildirilmişdi ki, həmin üç yataqdan - "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən bir ildə 60 milyon ton neft hasil olunacaqdır.

Ona görə də biz o vaxt Bakı - Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi haqqında qərar qəbul etmişdik.

Biz ondan sonra 18 müqaviłə imzalamışıq. İndi təsəvvür edin, nə qədər neft hasil olunacaqdır. Bilirdik ki, "Şahdəniz" adlanan yataqda xeyli qaz var, amma neft də çoxdur. Biz həmin yataqda müəyyən işlər apardıq. Məlum oldu ki, bu yataqda həddindən çox qaz var. İndi biz düşünürük ki, dünya bazarına neftlə bərabər qaz da çıxarmalıyıq. Biz bunu birinci növbədə Türkiyəyə çıxarmaq istəyirik. Çünki Türkiyənin qaza ehtiyacı vardır.

Biz bu işləri görmüşük və onlar Azərbaycana böyük mənfəətlər gətiribdir. Eyni zamanda, Azərbaycan dünya iqtisadiyyatı ilə bağlanıbdır. Biz bununla da gələcək üçün çox böyük təməl yaratmışıq. Təsəvvür edin, 2005-2010-cu illərdə Azərbaycanda hasil ediləcək neftin və qazın miqdarı o qədər olacaqdır ki, bu, təkcə Azərbaycanı yox, bir çox ölkələri də təmin edəcəkdir.

Bu işlərlə yanaşı, başqa işlər də vardır. Mən qısaca olaraq demək istəyirəm ki, bizim problemlərimiz, çətinliklərimiz vardır. Amma gözəl işlərimiz də çoxdur. Bunların hamısının üstündə elm, mədəniyyət, təhsil durur.

Keçmiş Sovetlər İttifaqına məxsus olan, indi müstəqillik qazanmış ölkələrin hər birində keçid dövründə problemlər vardır. Həmin problemlərdən biri də təhsil, elm, mədəniyyət məsələsidir. Həqiqəti bildirmək lazımdır ki, Sovetlər İttifaqı zamanı bu sahələrə dövlət büdcəsindən çoxlu vəsait ayrılırdı. Bütün təhsil pulsuz idi. Elmin nəticəsi olsa da, olmasa da bu sahəyə çox böyük vəsait ayrılırdı. Mədəniyyət xadimlərinə çox böyük vəsait ayrılırdı. O vaxt Azərbaycanda teatr, balet, musiqi sahəsində çalışan adamlar, yazarlar, əbədiyyətla məşğul olan insanlar ən zəngin insanlar idilər. Amma bu keçid dövründə onlara tələbat azalıbdır, ona görə onların maddi vəziyyəti də əvvəlki kimi deyildir. Bu məsələdə əsas ağırlıq dövlətin üzərinə düşübdür və dövlət də lazımi tədbirlər görür. Biz mədəniyyətimizi inkişaf etdiririk. Böyük alim, böyük insan, böyük şəxsiyyət İhsan Doğramacının 85 illik yubileyinin Azərbaycanda keçirilməsi elmə, mədəniyyətə, təhsilə nə qədər yüksək diqqət göstərməsinin gözəl nümunəsidir, təzahürüdür.

Beləliklə, istərdim ki, siz Azərbaycanı, Bakını - Azərbaycanın hər yerini görə bilməyəcəksiniz - mümkün qədər çox görəsiniz. Siz ölkəmizi nə qədər çox görsəniz, o qədər də çox inanacaqsınız ki, Azərbaycan müstəqil, hüquqi, demokratik, dünyəvi - biz "dünyəvi" deyirik, siz "laiq" deyirsiniz - dövlətdir.

Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Siz buna "piyasa ekonomisi", yəni "iqtisadiyyat" əvəzinə, "ekonomi", "bazar" əvəzinə "piyasa deyirsiniz. Azərbaycan dünyanın iqtisadi, siyasi cəhətdən inkişaf etmiş

ölkələri ilə - Qərb, Şərq ölkələri, Amerika ilə əlaqələrini genişləndirir. Azərbaycan - Türkiyə əlaqələri bunların arasında xüsusi yer tutur, əhəmiyyət daşıyır.

Biz belə hesab edirik ki, dünyanın bir çox ölkələri ilə Azərbaycanın çox yaxşı əlaqələri vardır. Amma Türkiyə - Azərbaycan əlaqələri səviyyəsində bizim heç bir ölkə ilə əlaqəmiz yoxdur. Bu da təbiidir. Çünki biz bir kökdənik, bir dinə, dilə, mədəniyyətə mənsubuq, bir millətik. Təbiidir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra bir-birimizə qovuşan zaman biz həm insani nöqteyi-nəzərdən, həm də ki, dövlət nöqteyi-nəzərindən daha tez yaxınlaşmışıq. Ona görə də Türkiyə ilə əlaqələrimiz xüsusi xarakter daşıyır. Siz bunların hamısını - Türkiyəyə, Türkiyə Cümhuriyyətinə olan münasibəti burada görəcəksiniz.

Mən sizin hamınızı bir daha salamlayıram. Əziz dostum, çox məmnunam ki, sən bu il də çox gəncsən, 80 yaşında da belə idin, ötən beş ildə heç dəyişməmisən. Dəyişmisən, - bir az da gəncləşmisən, gözəlləşmisən.

Dövlətimizin başçısına minnətdarlığını bildirən **İhsan Doğramacı** dedi:

- Hörmətli Prezident!

Öz adımdan və Azərbaycana gəlmiş nümayəndə heyəti adından Sizə təşəkkür edirəm. Bizi buraya dəvət etdiyiniz və qəbul etdiyiniz üçün təşəkkür edirik. Siz buyurdunuz ki, biz bir millətik. Əlbəttə, Türkiyə də, Azərbaycan da, hətta digər türkdilli ölkələr də ayrılıqda müstəqil dövlətlərdir. Ancaq hamımız bir millətik. Buna heç bir şübhə yoxdur. Mən özüm də bu fikirdəyəm. Mənca, buradakı dostlarım, həmkarlarım, həmvətənlərim və burada olmayan milyonlarla həmvətənim də mənimlə həmrəy olar ki, Türkiyə ən çox Azərbaycana yaxındır.

Bundan beş il əvvəl, 1995-ci ildə mənim 80 illik yubileyim müxtəlif yerlərdə qeyd edildi. Siz bu yubileyin Azərbaycanda da qeyd olunmasını istədiniz. Azərbaycana gəldik, yubiley Opera və Balet Teatrında böyük təntənə ilə qeyd edildi. Həmin il heç bir yerdə Bakıdakı kimi möhtəşəm, təntənəli yubiley tədbiri olmadı. O zaman Siz öz nitqinizdə arzuladınız ki, mən 100 il yaşayım. Mən də Sizin əmrinizi yerinə yetirmək üçün, 100 il yaşamaq üçün çalışıram.

Bundan sonra mən Türkiyədə və çoxlu dostlarım olan xarici ölkələrdə 85 illik yubileyimin keçirilməməsini xahiş etdim. Onlar da hamısı bu xahişimi qəbul etdilər. Siz burada yenə istisna oldunuz. Dediniz ki, 100 ilə hələ çox var, biz hər beş ildən bir bunu qeyd edək. Ona görə də indi buradayıq.

Həqiqətən də, Sizin buyurduğunuz kimi, elmdə, mədəniyyətdə irəliləmək bir ölkənin müvəffəqiyyəti üçün birinci şərtdir. Mən həyatım boyunca bütün vaxtımı, işlərimi və fəaliyyətimi iki şeyə həsr etdim: insan, uşaq sağlamlığına və təhsilə,

maarifə. İndi, bu yaşımda da bütün günü bu işlərlə məşğul oluram.

Mən təxminən 25 il Ümumdünya Pediatrlar Cəmiyyətinin sədri vəzifəsini daşımışam. Orada gördüm ki, bu təşkilatın bir çox regional bölmələri var: Avropa, Amerika, fransızdilli ölkələr regionu, ərəb regionu və sair. Mən də bundan istifadə edərək, həmin cəmiyyətin türkdilli ölkələr üzrə regionunu yaratdım. Zənnimcə, bu, çox faydalı oldu. Çünki beləliklə, türkdilli region və beynəlxalq miqyasda öz yerini tutmuş oldu. Bu münasibətlə hər il bir türkdilli ölkədə uşaq həkimlərinin iştirakı ilə tədbir keçiririk. Bu işə Ankarada başladıq, sonra Daşkəndə, Almatıda, Bişkekdə və əlbəttə, Bakıda Sizin rəhbərliyiniz altında toplaşdıq. Bununla da eyni dilə və dinə, eyni kökə və mədəniyyətə mənsub olan bu millətləri yalnız diplomatiya səviyyəsində deyil, həm də xalq səviyyəsində, həkimlər səviyyəsində bir yerə toplamağa nail olduq. Bunun sayəsində mənim həmkarlarım, yəni uşaq həkimləri gördülər ki, aramızda çox yaxınlıq var və bir-birimizdən çox şeylər öyrənə bilərik.

Mən sovet dövründə də Bakıda olmuşdum. təxminən 20 il bundan əvvəl. Ondan sonra da bir neçə dəfə Bakıya gəlmişəm. 3-5 illik fasilə bir yana, hər il əvvəlki ildən daha çox inkişaf olduğunu şəxsən görmüşəm. Buna da inanıram ki, Sizin liderliyinizlə bu gözəl ölkə daha çox xoşbəxtliyə nail olacaqdır.

Bayaq dediniz ki, mənə bu gün "İstiqlal" ordeni təqdim edəcəksiniz. Bu, əslində bir insanın əldə edə biləcəyi ən yüksək şərəfdir. Bu səviyyədə olmasa da, mənə bəzi ordenlər verilibdir. Ancaq bu ordenin mənə öz millətimin təmsilçisi, Prezident tərəfindən verilməsi həmin ordenin qiymətini dəfələrlə artırır. Bizi qəbul etdiyiniz üçün Sizə çox təşəkkür edirəm. Əminəm ki, yanımdakı dostlarım, həmkarlarım mənim bu hisslərimi paylaşırlar. İmkan olsaydı, buraya bəlkə də min adam gələ bilərdi.

Heydər Əliyev: Gərək gələydi. Bizim qəlbimiz genişdir.

İhsan Doğramacı: Onu bilirəm. Ancaq orada işlər dayanardı. Ona görə də buradakı nümayəndə heyətinə daxil olanlar onların təmsilçiləridir. Bunlar hazırda rektor olanlar və ya vaxtilə rektor işləmiş insanlardır. Biz onlara "köhnə rektorlar" deyirik.

Bundan beş il əvvəl buraya gələrkən qrupumuzda həm rektorlar, həm də əski rektorlar vardı. Mən əski rektorları kiminləsə tanış edəndə deyirdim: "Əski rektor filankəs". Deyirdilər: "Hə, köhnə rektor". Mən isə deyirdim: "Yox, canım, köhnə deyil, sağlam rektordur".

Heydər Əliyev: İhsan bəy, biz köhnə rektora "köhnə" demirik, "keçmiş rektor" deyirik.

İhsan Doğramacı: Mən onları təqdim edəndə bu ifadə çox xoşumuza gəldi. Anladıq ki, "köhnə" pis bir söz deyil. Ondan sonra Ankaraya getdik, istəyirsiniz inanın, istəyirsiniz yox,- orada "köhnə rektorlar klubu" yaratdıq. O vaxt mənimlə birlikdə Bakıda olan həmkarlarım, yəni köhnə rektorlar 2-3 aydan bir həmin klubda toplaşaraq, beş il əvvəlki Bakı xatirələrini dilə gətirirlər. Bundan sonra hazırda iş başında olan bəzi rektorlar "Biz nə vaxt köhnə olub sizə qoşula bilərik?" deyə soruşurlar. Mən də onlara dedim ki, gərək biz toplaşıb elə bir qərar qəbul edək ki, hər kəs bu şərəfə nail ola bilməsin.

Hörmətli Prezident!

Sizə öz dərin minnətdarlığımı ərz edirəm. Biz Azərbaycanda olduğumuz vaxt ərzində çox xoş təəssüratlar əldə etdik və Türkiyəyə dolu ürəklə qayıdacağıq. Buna tam qayıtmaq demək olmaz, çünki ürəyimizin bir parçası burada qalacaq. Sağ olun.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm.

İhsan Doğramacı: Möhtərəm Prezident! Biz Sizə xatirə olaraq bəzi kiçik hədiyyələr gətirmişik. Mənim dostlarım dedilər ki, bunu axşam adamlar çox olan zaman verməyin, burada, daha səmimi şəraitdə təqdim edin. İcazə versəniz, onları Sizə təqdim edərdim.

Heydər Əliyev: Yox, burada sizin yubileyiniz keçirilir, ona görə də bütün hədiyyələr sizin olmalıdır.

İhsan Doğramacı: Sağ olsunlar, dostlarım buraya gəlməzdən əvvəz mənə iki hədiyyə verdilər. Mənim əsl doğum günüm aprelin 3-dür. Aprelin 3-də xeyli hədiyyə aldım. Biz hər hansı bir yubiley tədbiri keçirmədik. Ancaq yenə də hədiyyələr gəldi. Bu dəfə "biz bilməmişik, sən demə, doğum gününüz aprelin 24-ü imiş" deyə, yenə hədiyyələr verdilər. Mən hədiyyələrimi iki dəfə qəbul etmişəm. Bunlar elə də böyük şey deyil, izin versəniz, Sizə təqdim edərdim.

Heydər Əliyev: Buyurun, bir halda ki, israr edirsiniz...

İhsan Doğramacı: Əfəndim, bu, Osmanlı Xanədanının tuğralarıdır.

Heydər Əliyev: Tuğra nədir?

İhsan Doğramacı: İzah edim: tuğra o zamanın möhürüdür. Hər padşahın öz möhürü vardı. Bunların birincisində osmanlıca ərəb hərfləri ilə "Heydər Əliyev" yazılıb. İkincisində isə müasir türkcə ilə "Heydər Əliyev əl-Müzəffər daima" yazılıbdır. Çünki vaxtilə Osmanlı padşahlarının daim müzəffər olması, zəfər qazanması arzulanıbdır.

Heydər Əliyev: Çox sağ olun. Bunları göstərin, qoy televiziyada görsünlər. Bu hədiyyələrə görə çox sağ olun. Onlar çox gözəldir.

İhsan Doğramacı: Hörmətli Prezident, indi müxtəlif qruplar Sizə öz hədiyyələrini təqdim edəcəklər.

Heydər Əliyev: İhsan bəy, sənin yubileyindir, mənə hədiyyə nə lazımdır? Yaxşı, sən verə bilərsən, amma heç istəməzdim ki, başqaları bunu etsinlər.

İhsan Doğramacı: Bu, Bilkənd Universitetinin Sizə hədiyyəsidir.

Əli Doğramacı: Bilkənd Universitetinin rektoru:

Hörmətli Prezident, su həyatdır.

Siz Azərbaycanın istiqlalına, inkişafına həyat bəxş etdiniz. Bu su qabı Sizin Azərbaycana gətirdiyiniz həyatın rəmzidir. Mən onu Bilkənd Universiteti adından hörmətlə Sizə təqdim edirəm.

Heydər Əliyev: Sağ olun.

İhsan Doğramacı: Hörmətli Prezident, indi isə İstanbul qrupu adından köhnə rektorlarımızdan Möhtəşəm Giray Sizə öz hədiyyəsini təqdim edəcəkdir.

Möhtəşəm Giray: Hörmətli Prezident, bu lövhədə Mustafa Kamal Atatürkün 1933-cü ildə söyləmiş olduğu nitqdən bir parça yazılıbdır. İcazə versəniz, onu oxuyardım.

Heydər Əliyev: Buyurun, oxuyun.

Möhtəşəm Giray (mətni oxuyur): "Bu gün Sovetlər Birliyi dostumuzdur, qonşumuzdur, müttəfiqlərimizdir. Bu dostluğa ehtiyacımız vardır. Fəqət sabah nə olacağını heç kim bilə bilməz. Eynən Osmanlı kimi, eynən Avstriya - Macarıstan kimi parçalana, dağıla bilər. Bu gün əlində möhkəm-möhkəm tutduğu millətlər ovuclarından qaça bilərlər. Dünya yeni bir tarazlığa çata bilər. Bax, o zaman Türkiyə nə edəcəyini bilməlidir. Bu dostlarımızın hakimiyyəti altında bizim dili bir, inancı bir, özü bir olan qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Hazır olmaq yalnız susub o günü gözləmək deyildir. Hazırlaşmaq lazımdır. Millətlər buna necə hazırlaşır? Mənəvi körpülərini sağlam şəkildə quraraq. Dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür. Biz köklərimizə qayıtmalı və hadisələrin yaratdığı tariximizin içində bütövləşməliyik. Xarici ölkələrdə yaşayan türklərin bizə yaxınlaşmasını gözləməməliyik, biz onlara yaxınlaşmalıyıq".

Cənab Prezident, mən Mustafa Kamal Atatürkün kitabını da Sizə təqdim etmək istəyirəm.

Heydər Əliyev: Mustafa Kamal Atatürk çox böyük şəxsiyyətdir. O, Türkiyə kimi bir cümhuriyyət qurub yaratdı. O, eyni zamanda, çox uzaqgörən bir insan idi. Siz oxuduğunuz bu sözlər mənə məlumdur. Ancaq Atatürkün nitqindən bir parçanı burada bir daha səsləndirməyiniz, təkrar etməyiniz onu göstərir ki, Atatürk çox uzaqgörən bir insan olubdur. O, hələ 1933-cü ildə baş verə biləcək hadisələri görüb və nə etmək lazım olduğunu türk xalqına söyləyibdir.

Mən bu hədiyyədən çox məmnunam. O, ən qiymətli hədiyyədir. Sağ olun.

İhsan Doğramacı: Cənab Prezident, Mərmərə Universitetinin rektoru da Sizə bir hədiyyə təqdim etmək istəyir.

Turay Yardımcı (Mərmərə Universitetinin rektoru): Cənab Prezident, inşallah, Azərbaycan və Türkiyə Universitetləri arasındakı əməkdaşlıq davam edəcəkdir. Bu hədiyyə İstanbuldakı universitetlər adındandır.

Heydər Əliyev: Çox sağ olun.

Biz hamımız bir saatdan sonra Respublika sarayında olmalıyıq. Ona görə də mən Sizi burada çox saxlamaq istəmirəm. Sizin bir saat vaxtınız vardır. Bilirəm, yol gəlmisiniz, Ankaradan buraya gəlmisiniz, iki saat on dəqiqə havada olmusunuz, yorulmusunuz. Dincəlin, saat 6-da yenidən bərabər olacağıq. Sağ olun.

"Azərbaycan" qəzeti, 25 aprel 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN NATO-da DAİM NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 25-də Prezident sarayında Türkiyənin NATO-da daimi nümayəndəsi səfir Onur Öymeni qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Sizinlə yenidən görüşməkdən çox məmnunam. Azərbaycana xoş gəlmisiniz. Bilirəm ki, siz bir neçə gündür buradasınız, bizim Xarici İşlər Nazirliyində, başqa nazirliklərdə də görüşlər keçirmisiniz, çox faydalı söhbətləriniz, danışıqlarınız olubdur.

Çox yaxşı ki, bu vaxt gəlmisiniz. Bizim dostumuz, sizin də dostunuz hörmətli İhsan Doğramacının 85 illik yubiley mərasimlərində bir yerdə olduq, iştirak etdik. Çox sağ olun.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin NATO-da daimi nümayəndəsi səfir **Onur Öymən** dedi:

- Hörmətli Cümhurbaşkanım, sağ olun. Bizi lütf edib qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Mən əslində özəl bir ziyarət üçün gəlmişdim. Hörmətli Doğramacının yubileyi münasibətilə təşkil etdiyiniz mərasimdə iştirak etmək imkanı tapdım. Ona görə də bundan xüsusi şərəf duyuram.

Hörmətli Xarici İşlər nazirinizlə, müdafiə nazirinizlə, Milli Məclis sədrinin müavini ilə, parlamentin Beynəlxalq münasibətlər üzrə Daimi Komissiyasının sədri ilə çox yararlı görüşlər keçirdik.

Bilirsiniz ki, mən Ankarada Xarici İşlər nazirliyində işləyərkən çox yaxın təmaslarımız olurdu, işbirliyi qururduq. O dövrə nisbətən indi Bakıda, Azərbaycanda çox böyük inkişaf vardır. Həqiqətən çox sevindik. Hazırda NATO-da Türkiyənin təmsilçisi kimi çalışıram. Orada da çox dəyərli səfiriniz Mirhəmzə Əfəndiyevlə bərabər işləyirik. Azərbaycanın oradakı fəaliyyəti də çox yaxşı, çox fəal şəkildə gedir.

Bilirsiniz ki, NATO-nun 28 ölkə ilə tərəfdaşlıq əlaqələri vardır. Bu ölkələr içərisində Azərbaycan ən əhəmiyyətli olanlardan biridir. Biz bundan qürur duyuruq. Türkiyə olaraq hər bir fürsətdən yararlanaraq Azər-

baycanı dəstəkləyirik. Hörmətli nazirlərlə, digər həmkarlarla bu mövzuda söhbətlər apardıq, daha yaxşı nə işlər görə biləcəyinizi müzakirə etdik. Türkiyə olaraq biz hər zaman yanınızdayıq. Bəlkə də bunu söyləmək gərəksizdir.

Mənim fikirlərim son dərəcə müsbətdir. Sizin liderliyinizlə Azərbaycan çox böyük inkişaf etmişdir. Mən Azərbaycana son dəfə 1996-cı ildə hörmətli Cümhurbaşkanımızla gəlmişdim. Bu dörd il ərzində Azərbaycan tamam başqa bir ölkə olmuşdur. Çox sevindim.

Azərbaycan Prezidenti **Heydər Əliyev** cənab Onur Öymənə minnətdarlıq edərək dedi:

- Çox gözəl. Təşəkkür edirəm. Mən çox məmnunam və bunu dünən də söylədim ki, - burada İhsan Doğramacını və onunla gələn qonaqları qəbul edərkən bu söhbət meydana çıxdı ki, Azərbaycanda çox böyük inkişaf var, dəyişikliklər vardır. Mən dünən orada bir söz dedim. Dedim ki, Azərbaycanın bu günü ilə, gerçəkliyi ilə mümkün qədər tanış olun. Kim ilk dəfə gəlir, onun üçün çox maraqlıdır görsün ki, Azərbaycan nədir. Kim təkrar gəlirsə, yəni əvvəllər də gəlibsə, onun üçün də çox əhəmiyyətlidir - görəcəkdir o gördüyü zamandan bəri Azərbaycan geriyə gedibdir, yoxsa irəliyə gedibdir. Təbiidir ki, biz özümüz bilirik, hər il Azərbaycan nə qədər irəliyə gedir. Mən dünən də dedim, sonra orada, saraydakı nitqimdə də dedim, - Azərbaycanın çox problemləri vardır. Əgər Azərbaycanın ən böyük problemi, yəni Ermənistan - Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemi olmasaydı, indi Azərbaycanda inkişaf bundan neçə dəfə artıq olardı. Amma bu problem var. Bu problem nədir? Torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyon soydaşımız zorla yerindən-yurdundan çıxarılıbdır, çadırlarda yaşayırlar. Sülh yaranmayıbdır, atəşkəsdir. Sülh yaratmaq istəyirik. Torpaqlarımızı yenidən Azərbaycana qaytarmaq istəyirik. Azərbaycanın torpaq bütünlüyünü təmin etmək istəyirik. Bu, bir tərəfdən bizə mənəvi, mənfi təsir edir, ikinci tərəfdən bizə maddi cəhətdən çox böyük çətinliklər yaradır. Bir də ki, məsələn, Azərbaycanın Prezidenti kimi, mənim işimin demək olar ki, 30-40 faizini bu problem alır. İndi təsəvvür edin, əgər bu problem olmasa, sülh olsa, mən bu 30-40 faizi də bizim başqa lazım olan işlərə həsr etsəm, daha nələr olar. Amma təkcə mən yox, mənimlə bərabər çox insanlar bu işlə məşğuldurlar. Bu problemlər içərisində biz yenə də inkişaf edirik.

Bu günlərdə Dünya Bankı, Avropa Bankı, Beynəlxalq Valyuta Fondu buradadırlar, işləyirlər. Biz 1995-ci ilə qədər tənəzzüldəydik. Yəni bizim iqtisadiyyat aşağıya gedirdi, enirdi, geriyə gedirdi. 1995-ci ildə biz sabitlik yaratdıq. 1996-cı ildən inkişafa başladıq. Bu ilin üç ayı içərisində ümumi daxili məhsul yenə də altı faiz artıbdır. Bilirsiniz, inflyasiya yoxdur, üç-dörd ildir inflyasiya yoxdur. Bağışlayın, üzr istəyirəm, Türkiyə çox böyük işlər görür, amma indiyə qədər inflyasiyanı boğa bilmir. Düzdür, son vaxtlar azaldıbdır, amma boğa bilmir. Yəni bununla demək istəmirəm ki, bizim işlərimiz Türkiyədən yaxşıdır. Yox. Amma bu sahəni biz cilovlaya bilmişik, əlimizə ala bilmişik. Başqa şeylər də çoxdur.

Ona görə də mən çox məmnunam ki, siz 1996-cı ildə son dəfə gələndən indiyə qədər, bu dörd il içərisində olan dəyişiklikləri görürsünüz. Yenə də deyirəm, görmək lazımdır. Bizim dostlarımız gərək görsün və arxayın olsunlar ki, Azərbaycanda işlər yaxşı gedir və günü-gündən də yaxşı olacaqdır.

NATO ilə əlaqələrimizə gəldikdə isə, bəli, biz "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak edirik, başqa proqramda da iştirak edirik və bu iştirakımızı, bu işimizi də çox əhəmiyyətli hesab edirik.

İndi Türkiyənin imkanları var. NATO-da xüsusi bir səfir saxlasın, səfir orada fəaliyyət göstərsin. Türkiyə həm də NATO-nun tam üzvüdür. Biz isə "Sülh naminə tərəfdaşlıq" proqramında iştirak edirik. Ancaq təcrübədə belə olubdur. Azərbaycan öz dövlət müstəqilliyini alandan sonra hansı ölkədə bir diplomatik nümayəndəlik yaratmağa çalışırsa, səfirlik açmaq istəyirsə, birinci növbədə Türkiyənin səfirliyinə gedibdir, Türkiyənin səfirliyində yerləşibdir. Ondan sonra özünə bir yer tapıbdır, ondan sonra öz işini qura bilibdir. İndi burada yenə də - düzdür, Brüsseldə bizim səfirliyimiz vardır, ancaq eyni zamanda bizim gərək Brüsseldə üç səfirliyimiz olsun: biri diplomatik - Azərbaycan dövlətinin səfirliyi, biri Avropa Birliyində. Gərək bizim Avropa Birliyində səfirliyimiz olsun. Bu günlərdə mən onu təyin edəcəyəm. Artıq qərar qəbul etmişəm, sadəcə, ora insan axtarılır ki, kimi təyin edim. Onu təyin edəcəyəm. Amma NATO-da bizim işlərimizi yenə də sizdən xahiş edəcəyik ki, aparasınız. Bilirsiniz ki, bizim oraya vaxtaşırı nümayəndələrimiz də gəlirlər.

Bir də deyirəm, NATO ilə işbirliyinə biz xüsusi əhəmiyyət veririk və mən sizə çox təşəkkür edirəm ki, bu günlərdə həm Xarici İşlər Nazirliyində, həm Müdafiə Nazirliyində, həm Milli Məclisdə siz oradakı vəziyyət, problemlər haqqında yaxşı məlumatlar vermisiniz. Bunu mənə dərhal çatdırdılar, bildirdilər. Güman edirəm ki, Türkiyə bizimlə bərabər olan yerdə biz həmişə uğurla irəliyə gedəcəyik.

Dövlətimizin başçısı Heydər Əliyevin fikirləri ilə tam razı olduğunu vurğulayan cənab **Onur Öymən** dedi:

- Hörmətli Cümhurbaşkanım, təbii. Mən Almaniyada səfir olan zaman Azərbaycanın səfirliyi açılırdı. Bizim səfirlikdə bir yer təsis etdik, hörmətli səfir Hüseynağa Sadıqov ilə bərabər çalışdıq. Onunla bərabər biriki il eyni binada işlədik. Sonra binalarına köçdülər. Amma qardaş kimi

çalışdıq.

Heydər Əliyev. Elədir.

Onur Öymən: Azərbaycan ilə bu qədər yaxın işbirliyi qurmaqdan çox məmnun olduq. Dediyiniz doğrudur, Türkiyə NATO-nun daimi üzvüdür. Orada daimi üzv olaraq Türkiyə, təbii ki, NATO ilə bağlı məsələlərdə söz sahibidir.

Bizim ən önəmli işlərimizdən biri də Azərbaycan kimi ölkələrlə yaxın işbirliyi, sülh üçün bu ölkələrin güclərinin artırılması, istədikləri formada NATO ilə nəzəri işbirliyi qurmaları məsələləridir. Bu işlərdə Azərbaycan son dərəcə uğurla çalışır. Biz də Türkiyə olaraq əlimizdən gələn hər cür köməyi göstəririk.

Azərbaycanın bugünkü vəziyyəti bir çox tərəfdaş ölkədən daha yaxşıdır. O, daha çox fəaliyyətə qatılır, təhsil proqramlarında daha yaxından iştirak edir. Ankarada "Sülh üçün ortaqlıq" adlı bir təhsil mərkəzimiz vardır. Azərbaycan orada da çox fəal iştirak edir. Yəni biz Azərbaycanın bu işlərinə çox məmnunuq.

Buyurduğunuz kimi, qaçqınlar məsələsi böyük bir ağrıdır. Yalnız Azərbaycan üçün deyil, dünya üçün ağrılıdır. Başqa bir ölkədə bu qədər qaçqın olsa, bütün dünya - dünya mətbuatı, siyasətçilər, qəzetlər ayağa qalxar. Azərbaycandakı bu böyük faciəni də dünyanın hər gün xatırlaması lazımdır. Yəni xalqın hər səkkiz nəfərindən biri qaçqın olan başqa ölkə yoxdur. Sizin bu qədər böyük bir yük altında bu hadisəni yaşamağınız həqiqətən tarixi bir olaydır. Bunu da davamlı olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırmağımız lazımdır. Dünyanın bütün dövlətlərinin, millətlərarası təşkilatların Azərbaycana yardımçı olması lazımdır. Necə ki, Birləşmiş Millətlər Təşkilatı, digər təşkilatlar başqa ölkələrə yardımçı olurlar. Onlar burada da olurlar, amma bəlkə daha çox işlər görmələri lazımdır.

Əsas məsələ qaçqınların öz evlərinə qayıtmasıdır. Biz istəyirik ki, bir an öncə Sizin də buyurduğunuz kimi, bu məsələnin sülh yolu ilə həlli yolu tapılsın və işğal altında olan bütün torpaqlar boşaldılsın, Azərbaycanın bu məsələdə haqlı olduğu təsdiqlənsin, ölkəniz beynəlxalq aləmdə tanınmış sərhədlərinə yenidən qovuşsun və bütün bu insanlar evlərinə dönsünlər. Həm bu böyük insani məsələ həll edilsin, həm də Azərbaycan hökumətinin çiynindəki bu böyük yük aradan qalxsın və ondan sonra Azərbaycan daha da çox inkişaf etsin.

Hörmətli Cümhurbaşkanım, bu, bizim diləyimizdir. Həqiqətən, bu məsələlərdə Türkiyə həmişə Sizi dəstəkləyir və NATO daxilində də əlimizdən gələn hər cür kömək göstərməyə hazırıq. Bunu bir daha ərz edirəm.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 26 aprel 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN DİNİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 26-da Prezident sarayında Türkiyə Cümhuriyyətinin Dini İşlər naziri Mehmet Nuri Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Hörmətli nazir!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz! Güman edirəm ki, hörmətli şeyx ilə çox işlər görmüsünüz və bizim ölkələrimiz arasında, xalqlarımız arasında, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinə öz xidmətlərinizi bir daha göstərmisiniz. Ona görə təşəkkür edirəm və çox məmnunam ki, sizi qəbul edirəm.

Biz son dəfə Naxçıvanda görüşmüşdük. Orada sizinlə bərabər tikilmiş məscidi, cameni açdıq, böyük bir iş gördük. İndi də buradasınız, Bakıdasınız. Təşəkkür edirəm.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin Dini İşlər naziri **Mehmet Nuri Yılmaz** dedi:

- Hörmətli Cümhurbaşkanım, bizi qəbul etdiyinizə görə öz adımdan və həmkarlarım adından çox təşəkkür edirəm, sizə hörmətimi bildirirəm. Üç gündür buradayıq. Cənab şeyxülislam çox yaxşı münasibət göstərdi. Biz ona da təşəkkür edirik. Bir neçə camemiz var idi, onların açılışlarında iştirak etdik. Bu gün isə Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsini ziyarət etdik. Sizin də qeyd etdiyiniz kimi, bu, ölkələrimiz arasında sevgi tellərinin daha da qüvvətlənməsinə səbəb olacaqdır. Mənəviyyatsız həyat olmaz. Biz də dini dovrü öyrətmək, insanlara ibadətləri dovru öyrətmək üçün yardım göstəririk. Zati-alilərinizin böyük dəstəyini gördük. Buna görə də sizə minnətdarlığımızı bildirir, hörmət və ehtiramımızı ərz edirəm.Təkrar təşəkkür edirəm.

Prezident Heydər Əliyev: Çox sağ olun. Burada camelər açmısınız.

Qafqaz müsəlmanları idarəsinin sədri şeyxülislam **Hacı Allahşükür Paşazadə:** Bəli. Möhtərəm Prezident, icazə verin, qısa şəkildə deyim. Bu camelər çoxdan tikilmişdir. Cənab Nuri Yılmazın müəyyən işləri olduğuna görə bura gəlişi bir az çətinləşmişdi, bunların açılışı olmamışdı. Bir növ bunları qanuniləşdirmək üçün biz ikimiz də həmin camelərə getdik və bu camelərdə camaatla bir yerdə olduq, namaz qıldıq və onların açılışını elan etdik ki, ora bu gündən fəaliyyət göstərir. İnşallah, camaat burada namaz qılacaq, ibadət edəcəkdir.

Həmin camelərin yaxşı cəhəti odur ki, biz onlara iki nəfər - həm

imam, həm də axund təyin etdik. Yəni siz bilirsiniz ki, Azərbaycanda iki məzhəb olduğuna görə, hər ikisinin eyni olmasını nəzərə alaraq qardaşlığı daha da yüksəltmək üçün biz həmin camelərdə belə addımları atdıq. Camaat orada sizin üçün, xalqımız üçün, həm də Türkiyə xalqı üçün, Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının daha da möhkəmlənməsi üçün dualar oxuyurlar. Bu, Qubada, Qusarda, Ağdaş rayonunun Ləki qəsəbəsində, Yevlaxda, Mehdiabadda olmuşdur.

Heydər Əliyev: Yəni Abşeron rayonunda?

Şeyxülislam Hacı Allahşükür Paşazadə: Bəli, Abşeronda. Yəni olmayan yerlərdə. Başqa yerlərdə də var idi, amma hələ qanuniləşməmişdi. Biz açılış keçirərək onları qanuniləşdirdik. Ona görə də sizə bir daha təşəkkürümüzü bildirirəm. Bu məscidlərin hər biri qardaşlıq, dostluq ocağı olacaqdır. Bu, həm də Azərbaycanda vicdan azadlığının rəmzidir. Azərbaycanda kilsələr də tikilir, başqa dini məbədlər də tikilir. Onlardan da xəbərimiz vardır. O cümlədən də məscidlər bərpa olunur, tikilir və biz sizin dövrünüzdə bizə verdiyiniz imkanlardan istifadə edirik. Bu, sizin mənəviyyata verdiyiniz böyük qiymətdir. Onu da deyim ki, bu məscidlər ancaq və ancaq qardaşlıq, dostluq üçündür. Bu, ayırmaq üçün deyil, inşallah, birləşdirici rol oynayacaqdır.

Heydər Əliyev: Təbiidir. Azərbaycanda vicdan azadlığı bizim əldə etdiyimiz istiqlaliyyətin nəticəsidir. Bilirsiniz ki, biz 70 il öz dinimizdən məhrum olmuşuq. Təbiidir ki, bizim keçmiş ölkəmizdə vicdan azadlığı da olmayıbdır. Ancaq istiqlaliyyət, müstəqillik əldə edilən kimi bizim bütün insanların azadlıqları təmin olundu, o cümlədən vicdan azadlığı. Bunların da hamısı ölkəmizi daha da yüksəldir. Çünki insan azad olmalıdır, insan istədiyini etməlidir. Təbiidir ki, qanunsuz iş görməyərək istədiyini etməlidir.

Dünyada olan hər bir insan hansısa bir dinə mənsubdur. Din insan yaranandan yaranıbdır. Ona görə də insanı dindən məhrum etmək olmaz. Əksinə, insan öz dininə inanırsa, buna xidmət edirsə, daha da pak olur, təmiz olur, cəmiyyətdə daha da faydalı iş görür və dövlət üçün də faydalı iş gürür. Ona görə də, təbiidir, - bu məscidlər, camelər məhz insanların mənəviyyatca yüksəlməsinə xidmət etməlidir. Elə Qurani-Kərim də bunu tələb edir, dinimiz də bunu tələb edir və sizin apardığınız işlər də məhz bu tələblər əsasında qurulur. Buna görə də gördüyünüz işlərə görə çox məmnunam. Mən bir daha deyirəm, şeyx həzrətləri də doğru buyurdu ki, bu camelər Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcək, daha da inkişaf etdirəcəkdir.

Cənab Mehmet Nuri Yılmaz: Azərbaycan Prezidenti Heydər Əliyevə müraciətlə dedi:

- Möhtərəm Prezident, bizim bir

xahişimiz vardır. İlahiyyat məktəblərində tələbələr təhsillərini başa vurduqdan sonra məzunların bir qismini Türkiyədə oxutdururuq, bir qismi də magistraturada oxuyur. Bizim məktəblərdə dördüncü, beşinci siniflərdən başlayaraq din dərsi tədris olunur. Yəni həm müsəlmanlıq, həm xristianlıq, həm də yəhudilikdə bağlı təhsil verilir. Arzumuz odur ki, bu məktəblərin məzunu olan gənclər buradakı məktəblərdə din dərsi tədris etsinlər, müəllimlik etsinlər. Bu sahədə cənab Şeyxülislam da böyük səylər göstərir. Tələbələr təhsili bitirdikdən sonra onlara bir iş yeri lazımdır. Onlar ya camelərdə imamlıq edəcək, ya da məktəblərdə dərs keçəcəklər. Yəni müsəlmanlıq, xristianlıq və yəhudilik üzrə. Eynən bizdə olduğu kimi, burada da bu dərslər keçilsə çox faydalı olar.

Şeyxülislam Hacı Allahşükür Paşazadə: Cənab Prezident, sizin gənclərlə görüşünüzdəki çıxışınız bizim üçün, demək olar ki, bir yol açdı. Baxmayaraq ki, çətinliklərimiz vardır. Biz bu sahədə kitablar hazırlayırıq. Bugünkü gündə o kitabları yüksək səviyyədə hazırlayırıq. Yəni dində olan əsaslara - vətən sevgisinə, bayrağa, vətənə, torpağa, millətə, şəhidliyə aid. Həm də insanlar dinin nə olduuunu bilsin deyə, ikinci sinifdən başlayaraq keçilmək üçün belə kitablar hazırlayırıq. İstəyirik ki, bizim müsəlmanlarımız adi şəraitdə özünün kim olduğunu uşaqlıqdan bilsin. Ona görə də həzrətin xahişi ondan ibarətdir ki, yaxşı olardı bizim dövlət məktəblərində, əgər imkan olarsa, ya dərs vaxtı, ya da dərsdən sonrakı dövrdə, artıq saatlarda dini öyrətmək üçün dərs keçilsin. Fərqi yoxdur, xristianlar xristian dinini öyrənsinlər, yəhudilər yəhudi dinini öyrənsinlər, müsəlmanlar islam dinini öyrənsinlər. Yəni hansı dinə mənsub adamlar burada yaşayırlarsa, qoy öz dinindən xəbərdar olsunlar. Bəzi avropa missionerləri və başqa təriqətlər bunları istəyirlər xristian etsinlər, ya da öz dinindən qaytarsınlar. Elə edək ki, insanlar öz haqqını başa düşsünlər. Sizdən bunları rica edərdik və gələcəkdə biz buna hazırlaşırıq. Sizdən bunu xüsusi xahiş edirik. Hələ kitab hazır deyil, amma onun üzərində işləyirik.

Heydər Əliyev: Hazırlaşın, hazırlaşın. Verərsiniz, baxaram. Bir şey çox vacibdir ki, tələbələr məktəbdə dərsdə olarkən dinin tarixini bilsinlər. Həm islam dininin, həm xristian dininin. çünki Sovetlər Birliyində din tamamilə qadağan olunduğuna görə insanların din haqqında məlumatı da yoxdur. O hakimiyyət dini nəinki yasaq etmişdi, hətta belə bir fikir var idi ki, din insanlar üçün tiryəkdir. Bilirsiniz də, tiryək nədir?

Mehmet Nuri Yılmaz: Bəli.

Heydər Əliyev: Leninin bir şüarı var idi ki, din xalqın tiryəkidir. Elə bu sözdən əsas götürülmüşdü. Ona görə də dinlə əlaqədar olan hər bir tarix bizim təhsildən tamamilə kənarda idi. Amma bu da bir tarixdir. Xristi-

an dininin də yaranması, inkişaf etməsi və yayılmasının tarixi, müsəlman dininin də həmçinin, yaxud da buddizmin, yaxud da ki, yəhudinin də, başqalarının da. Cəmiyyəti bilmək istəyən adam, insan cəmiyyətini, insan tarixini bilmək istəyən adam gərək, əlbəttə ki, tarixin bu hissəsini də bilsin. Bunu bilməyən adam tarixi tamamilə bilə bilməz. Keçmişdə dinə qarşı o qədər mənfi münasibət yaradılmışdı ki, insanlar dinə də, dini dualara da, yaxud o dini müəyyən qədər, ola bilər, gizli olaraq icra edənlərə də mənfi münasibət göstərirdilər. Yaxud da onları keçmişin qalığı hesab edirdilər ki, artıq bizim cəmiyyət bunsuz yaşaya bilər. Ancaq mən bilirəm ki, bütün ölkələrdə, eləcə də qərb ölkələrində məktəblərdə din tarixini öyrənirlər. Ona görə biz də buna baxmalıyıq. Siz də fikirlərinizi deyin. Baxarıq, mütləq baxarıq. çox gözəl. Sizə bir də təşəkkür edirəm. Çox məmnunam. Sağ olun.

Mehmet Nuri Yılmaz: Çox təşəkkür edirik, sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Əziz qardaşım!

Türkiyə Böyük Millət Məclisi tərəfindən 1993-cü il mayın 16-da Türkiyənin Prezidenti vəzifəsinə seçildiyim yeddillik müddət 2000-ci il mayın 16-da bitir.

Sizinlə, əziz qardaşımla qurduğumuz yaxın dostluq və qardaşlıq əlaqələrini Beş nazir və prezident sifəti ilə gözəl ölkəniz qardaş Azərbaycana səfərlərimdən aldığım unudulmaz hərarətli xatirələri ən xoş təəssüratla yad edəcəyəm. Biz tarixin yeni dönəmində birlikdə fəaliyyət göstərdik SSRİ-nin öz-özünə dağıldığı bir zamanda Adriatik dənizindən Çin səddinə qədər uzanan geniş bir coğrafi ərazidə böyük Türk Dünyası möhtəşəm bir varlıq kimi yaranmış, Avrasiya məkanı yeni bir siyasi gerçəkliyə çevrilmiş, Avropa ideologiyaların təsirindən qurtularaq, vüsətli bir iqtisadi və siyasi inteqrasiya ilə inkişafa başlamış, demokratiya, insan hüquqlarına hörmət, hüququn aliliyi və sərbəst bazar iqtisadiyyatı beynəlxalq birliyin ortaq dəyərlərinə çevrilmiş, Avrasiya yeni bir siyasi gerçəklik kimi meydana çıxmış, Avropa və Asiya İpək Yolu boyunca yenidən bir-biri ilə əlaqələri möhkəmləndirməyə imkan tapmış, Balkanlarda və Yaxın Şərqdə sülhün bərqərar olacağına ümidlər daha da artmış, iqtisadiyyatda qloballaşma, hüquqda beynəlxalq normalara uyğunlaşma dünyanın simasını hər cəhətdən əsaslı şəkildə dəyişdirməyə başlamış, dünya problemlərinin həlli üçün beynəlxalq səylərə yollar tapılmasının vacibliyi dərk edilməyə başlanmışdır. Tarixin bu dönəmində əməkdaşlığımızın bölgəmizdə və bütün dünyada sabitlik və firavanlıq yaradılmasına kömək edəcəyinə inanıram.

Əziz qardaşım!

Qardaş Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, iqtisadiyyatını inkişaf etdirmək istiqamətində göstərilən səylərin uğurlu olması və ölkənizin öz qüvvəsi ilə dünya sisteminə qoşulması yolunda qət edilən böyük məsafələr onun gələcək parlaq günlərinin müjdəçisidir. Biz qardaş xalqlarımızın rifahı və əmin-amanlığı üçün birlikdə böyük işlər gördük. Bizim birlikdə başladığımız Bakı-Ceyhan boru xətti layihəsi kimi böyük layihələrin həyata keçirilməsinin gedişini mən bundan sonra da həmişə izləyəcəyəm. Türkiyə ölkənizin xoş günlərində də, pis günlərində də hər zaman sizə arxa olacaq, öz dəstəyini sizdən əsirgəməyəcəkdir. Son on il ərzində biz türk dünyasının üzvləri kimi bir-birimizə yenidən qovuşduq və ortaq mədəniyyətimizin, incəsənətimizin sərvətlərinə birlikdə sahib çıxdıq. Bu səylərimiz mütləq davam etdirməli, taleyimizin bağlarını daha da gücləndirməliyik. Qardaş ölkələrimiz arasında həmrəyliyin və əməkdaşlığın hər sahədə inkişaf etməsi naminə davam etdiriləcək əlaqələrimizin əbədiliyinə inanıram.

Fürsətdən istifadə edərək, Sizin simanızda bütün qardaş Azərbaycan xalqına səmimi məhəbbətimi və salamlarımı yetirmək istəyirəm. İstəyirəm biləsiniz ki, ölkənizin və xalqınızın rifahı və əmin-amanlığı naminə səylərimi bundan sonra da davam etdirəcək və hər zaman Sizinlə olacağam.

Böyük Atatürkün ifadəsi ilə desək, Azərbaycanın sevinci daim bizim sevincimiz, dərdi daim bizim dərdimiz olacaqdır. Türkiyə Azərbaycanın dirçəlmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq səylərində hər zaman onu dəstəkləyəcəkdir.

Aramızdakı dostluq, qardaşlıq və yaxınlığı hər zaman qoruyub saxlamaq əzmində olduğumu bildirərək, Zati-alilərı əziz qardaşımın cansağlığı və səadəti, qardaş Azərbaycan xalqının əbədi rifahı və əmin-amanlığı üçün ən xoş arzularımı yetirirəm.

Süleyman Dəmirəl,
Türkiyə Cümhuriyyətinin Prezidenti
5 may 2000-ci il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

Türkiyə Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Xalqlarımız arasında dərin tarixi kökləri olan dostluq və qardaşlıq münasibətlərini Türkiyə - Azərbaycan əlaqələrinin sarsılmazlığının və dönməzliyinin mühüm şərti hesab edirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 6 may 2000-ci il.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Hörmətli Prezident!

Əziz dostum və qardaşım!

Mayın 5-də mənə yazdığınız məktuba görə Sizə təşəkkür edir, dərin minnətdarlığım: bildirirəm. Qafqaz regionunda çoxtərəfli əməkdaşlıq forumunun yaradılması ilə əlaqədar Sizin təşəbbüsünüzə dünyanın bir çox dövlət başçılarının müsbət cavab verməsi barədə məlumatlar məni məmnun etdi.

Hesab edirəm ki, belə bir forumun yaradılması Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya bilər. Eyni zamanda Sizinlə tam razıyam ki, regionda real, səmərəli və uzunmüddətli əməkdaşlığa nail olmaq üçün ilk növbədə Cənubi Qafqazdakı hərbi münaqişələri, xüsusilə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini aradan qaldırmaq, bölgədə daimi sülhü təmin etmək lazımdır.

Bu baxımdan Türkiyənin Cənubi Qafqazda sülhün və təhlükəsizliyin bərqərar olması üçün göstərdiyi davamlı səyləri yüksək qiymətləndirirəm.

Dünyanın aparıcı dövlətlərinin və Türkiyənin Balkanlarda uğurlu əməkdaşlığına istinad edərək beynəlxalq ictimaiyyətin diqqətini Cənubi Qafqazın təhlükəsizlik problemlərinə yönəltmək istiqamətindəki səyləriniz xüsusilə təqdirəlayiqdir.

Cənubi Qafqazın üç ölkəsi ilə yanaşı, Türkiyənin, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Fransanın, İngiltərənin, Almaniyanın, Avropa Birliyinin marağı olan digər dövlətlərinin, habelə nüfuzlu beynəlxalq maliyyə qurumlarının səylərini birləşdirərək regionun bütövlükdə dirçəlişinə və inkişafına nail olmaq, bərpa və quruculuq işləri aparmaq üçün dünya dövlətlərinin başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə müraciətlərinizi alqışlayıram.

Bir daha bəyan edirəm ki, biz bölgəmizdə və bəlalıklə də, bütün Avroatlantika məkanında sülhün və əmin-amanlığın bərqərar olması üçün konstruktiv əməkdaşlığa hazırıq.

Əziz qardaşım Süleyman Dəmirəl, bir neçə gündən sonra Siz Türkiyə Cümhuriyyətinin Prezidenti kimi fəaliyyətinizi başa vuracaqsınız.

Hər şeydən öncə, qardaş Türkiyə dövlətinə rəhbərlik etdiyiniz dövrdə Azərbaycana və Azərbaycan xalqına göstərdiyiniz daimi diqqətə və qayğıya görə xalqımız adından Sizə dərin təşəkkür edirəm.

Türkiyə Cümhuriyyətinin Prezidenti vəzifəsini çiyninizdə daşıdığınız ötən illərdə Türkiyənin dünyada hörmətini qaldırmaq, türk xalqının rifahını yüksəltmək, Türkiyənin iqtisadiyyatını inkişaf etdirmək, həm də Türkiyəni daha əzəmətli, qüdrətli və çiçəklənən dövlət etmək üçün Siz çox böyük işlər görmüsünüz.

Siz bir daha nümayiş etdirdiniz ki, böyük Mustafa Kamal Atatürkün sədaqətli və etibarlı davamçısısınız.

Bütün başqa keyfiyyətlərinizlə yanaşı, Siz böyük dövlət xadimi, böyük siyasət adamı, həm də çox etibarlı, sədaqətli dostsunuz.

Müstəqilliyini əldə etdiyi vaxtdan bəri Siz daim Azərbaycan xalqının yanında olmusunuz, onun haqq işini yorulmadan müdafiə etmiş, xalqımıza qarşı törədilən ədalətsizliyə, soyqırımına, etnik təmizləməyə qarşı öz etiraz səsinizi ucaltmısınız.

Mən Türkiyə - Azərbaycan əlaqələrinin möhkəmləndirilməsi və inkişaf etdirilməsində Sizin xidmətlərinizi yüksək qiymətləndirirəm. Sizinlə birgə fəaliyyətimiz nəticəsində Azərbaycan ilə Türkiyə, iki qardaş ölkə, xalq və dövlət arasında qarşılıqlı faydalı münasibətlər, hərtərəfli əməkdaşlıq ən yüksək səviyyəyə çatmış və Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı dönməz, əbədi və sarsılmaz olmuşdur.

Xalqımız Sizin xidmətlərinizi heç vaxt unutmayacaqdır, Azərbaycana hər gəlişiniz zamanı Sizi öz doğma oğlu kimi təkrar-təkrar bağrına basmağa şad olacaqdır. Mən isə şəxsən Sizinlə dostluğumuzdan qürur duyuram və bu dostluğa daim sadiq qalacağam.

Əziz qardaşım, bir daha şəxsiyyətinizə dərin hörmət və ehtiramımı bildirir, Sizə və ailənizə cansağlığı, uzun ömür, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq, firavan və xoşbəxt həyat arzulayıram.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 may 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

"Qalatasaray" futbol klubunun UEFA kuboku uğrunda yarışlarda parlaq qələbəsi məni ürəkdən sevindirdi.

Bu qələbə münasibətilə sizi və qardaş türk xalqını təbrik edir, sevincinizə qoşulur, "Qalatasaray" futbolçularına yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 may 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Azərbaycanın milli bayramını səmimi qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasında mükəmməl bir səviyyəyə yüksələn əlaqələr regional sülhün və sabitliyin bərqərar olmasına böyük töhfələr verir. Ölkələrimiz arasındakı bu yaxın münasibət xalqlarımızı bir-birinə bağlayan dərin tarixi əlaqələrin təzahürüdür.

Üzləşdiyi çətinlik və məhrumiyyətlərə baxmayaraq, bütün sahələrdə atdığı addımlara qısa bir müddətdə

beynəlxalq birlikdə layiq olduğu yeri tutan Azərbaycanla əlaqələrimizi daha yüksək bir səviyyəyə qaldırmaq başlıca arzumuzdur.

Bu münasibətlə şəxsən Zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının rifahı naminə ən dərin arzularımı bildirirəm.

Bülənd ECEVİT,
Türkiyə Respublikasının Baş naziri
Ankara, 18 may 2000-ci il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

Türkiyənin Qara dəniz sahillərində baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 22 may 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Türkiyə Respublikasının 10-cu Prezidenti vəzifəsinə seçilməyim münasibətilə göndərdiyiniz nəzakətli təbrik məktubunu böyük məmnuniyyətlə qəbul etdim.

Zati-alinizin rəhbərliyi altında dost Azərbaycanın qısa bir zamanda beynəlxalq birliyin layiqli nümayəndəsi olması yolunda qazandığı böyük müvəffəqiyyətlər türk millətini çox məmnun edir və bizlərə qürur verir.

Ölkələrimiz arasında ortaq mədəniyyət, dil və tarix mirasına əsaslanan münasibətlərimizin Prezidentliyim dövründə digər dövlətlərə nümunə ola biləcək şəkildə daha da inkişaf edəcəyinə tamamilə inanıram.

Bu münasibətlə Zati-alinizə ən səmimi duyğularımı bildirir, yenidən təşəkkür edir, qardaş Azərbaycan xalqına rifah və səadət diləyir, dərin hörmət və ehtiramımı çatdırıram.

Əhməd Necdət Sezər
Türkiyə Respublikasının
Prezidenti
Ankara, 23 may 2000-ci il.

"XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ BAKI - TBİLİSİ - CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİ VASİTƏSİLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA SAZİŞ"in VƏ HƏMİN SAZİŞƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏRİN, "İSTANBUL BƏYANNAMƏSİ"nin VƏ "XAM NEFTİN AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN ƏRAZİLƏRİ İLƏ NƏQL EDİLMƏSİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI, TÜRKİYƏ CÜMHURİYYƏTİ VƏ GÜRCÜSTAN ARASINDA SAZİŞ"ə DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ ARASINDA PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsi olan neft strategiyası son illərdə uğurla inkişaf etdirilərək, ölkəmizin dünya birliyinə inteqrasiyasını sürətləndirmiş və müstəqilliyinin möhkəmlənməsinə xidmət etmişdir. Məhz buna görə "Əsrin müqaviləsi" və ondan sonra bağlanmış neft kontraktları böyük siyasi və iqtisadi əhəmiyyətə malik olmuş, Azərbaycan xalqının öz təbii sərvətlərinin əsl sahibi olduğunu nümayiş etmişdir.

Ölkəmizin neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsidir. Bu gün Azərbaycan neft dünya bazarlarına iki marşrutla - Bakı-Novorossiysk və Bakı-Supsa boru xətləri ilə ixrac edilir. Lakin bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığının həyata keçirilməsi, Xəzəryanı regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli, buraxılış imkanı ildə 50 milyon ton neft olan yeni - Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər aparılmış və danışıqlar prosesi uğurla nəticələnmişdir.

Yuxarıda göstərilənlərin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin Prezidentləri tərəfindən 1999-cu il noyabrın 18-də İstanbul şəhərində imzalanmış "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında

sazişʺ təsdiq edilsin;

2. Bu qanunun 1-ci bəndində göstərilən sazişə əlavə edilən aşağıdakı sənədlər təsdiq edilsin;

- Azərbaycan Respublikası hökuməti və əsas ixrac boru kəməri sərmayəçiləri arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş;

- Gürcüstan hökuməti ilə əsas ixrac boru kəməri sərmayəçiləri arasında tranzit ərazisinə malik ölkənin hökuməti ilə saziş;

- Türkiyə Cümhuriyyəti hökuməti ilə əsas ixrac boru kəməri sərmayəçiləri arasında trazit ərazisinə malik ölkənin hökuməti ilə saziş;

- Əsas ixrac boru kəməri iştirakçıları ilə açarlı təhvil podratçısı arasında açarlı təhvil sazişi;

- Əsas ixrac boru kəməri layihəsinin Türkiyə sahəsinin əvvəlcədən müəyyən olunmuş müddət və qiymət əsasında tikilməsi və istismara verilməsinə təminat verən Türkiyə Cümhuriyyətinin xəzinədarlıq katibliyinin zəmanət məktubu.

3. Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının Prezidentləri tərəfindən 1999-cu il noyabrın 18-də İstanbul şəhərində imzalanmış "İstanbul bəyannaməsi" təsdiq edilsin.

4. Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında 2000-ci il 9 may tarixində imzalanmış "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında saziş"ə dəyişikliklər edilməsi haqqında protokol təsdiq edilsin.

5. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər Əliyev
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 26 may 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Azərbaycanın ümummilli bayramını səmimi qəlbdən təbrik edirəm.

Azəri xalqının bayramı eyni zamanda bütün Türk ulusunun da bayramıdır. Bu müqəddəs gündə Sizin duyğularımız eyni coşğunluqla Türkiyədə də paylaşılır.

Azərbaycanın öz müstəqilliyini yenidən qazanmasından sonra ölkələrimiz arasında inkişaf edən müstəsna əlaqələr regional əməkdaşlıq baxımından digər ölkələr üçün nümunədir.

Türkiyə və Azərbaycan arasında mükəmməl bir səviyyədə qurulmuş əlaqələrin bütün sahələrdə daha da irəliləyəcəyinə qəti əminəm.

Zati-alinizin yetkin rəhbərliyi altında bütün sahələrdə əldə olunmuş irəliləyişlərlə beynəlxalq birliyin tanınan nümayəndəsinə çevrilmiş Azərbaycanın bu günə qədər əldə etdiyi uğurlu inkişafı gələcəkdə də davam etdirəcəyinə inanıram.

Bu münasibətlə Zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, dost və qardaş Azərbaycan xalqının rifahı naminə ən xoş arzularımı bildirirəm.

Əhməd Necdət Sezər,
Türkiyə Respublikasının
Prezidenti
Ankara, 28 may 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CEMİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 29-da Prezident sarayında Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemi və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

-Hörmətli nazir!

Hörmətli səfir!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizi səmimi qəlbdən salamlayıram və sizin bu ziyarətinizdən çox məmnun olduğumu bildirmək istəyirəm.

Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı, əməkdaşlığı çox dərin köklərə malikdir və dəmir təməl üzərində qurulubdur. Ona görə də bu, ildən-ilə, on illərlə, əsrlərlə davam edəcəkdir. Ancaq eyni zamanda, müasir dünya çox dinamik dəyişikliklər keçirir və bizim dost, qardaş Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri, münasibətləri həmişə daha da gücləndirməliyik, inkişaf etdirməliyik. Bu baxımdan, belə görüşlər çox əhəmiyyətlidir.

Buna görə də, hörmətli nazir, sizin bu ziyarətinizi həm Azərbaycan üçün, həm də Türkiyə - Azərbaycan əlaqələri üçün çox əhəmiyyətli hesab edirəm. Xoş gəlmisiniz!

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab **İsmayıl Cem** dedi:

- Sağ olun, var olun! Hörmətli Prezident, bu ziyarətiniz vəsilə ilə lütf göstərərək bizi qəbul etdiyiniz üçün çox minnətdarıq. Azərbaycanda çox faydalı, konstruktiv və konkret görüşlər keçiririk. Biz ölkələrimiz və xalqlarımız arasındakı - Sizin sərrast şəkildə dediyiniz kimi, "Biz bir millət, iki dövlətik"- əlaqələrin bugünkü səviyyəsindən məmnunuq. Amma bununla da kifayətlənməməliyik. Bu münasibətləri daha da irəlilətmək, möhkəmləndirmək üçün real şəkildə nədər edə bilərik?

- Görüşlərimizi bu istiqamətdə keçirmişik. Dəyərli həmkarım Quliyevlə birlikdə bu məsələ ətrafında xeyli söhbət etdik. Zənn edirəm ki, gələcəyə istiqamətlənmiş daha təsir-

li, daha planlı məsləhətləşmələr apara biləcəyik.

Hörmətli Cənab Prezident, Türkiyədən ayrılmazdan əvvəl mənim həm hörmətli dövlət başçımızla, həm də keçmiş Prezidentimiz, Sizin çox yaxın dostunuz cənab Dəmirəl ilə görüşüm oldu. Hörmətli dövlət başçımız Sizə öz dərin ehtiram və salamlarını yetirməyi məndən xahiş etdi. Hörmətli keçmiş Prezidentimiz də Sizə olan dərin məhəbbətini bir daha dilə gətirdi, hörmət və sevgilərini Sizə çatdırmağı məndən rica etdi. Mən onları Sizə yetirirəm.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Mən bu salamlara görə çox məmnunam. Süleyman Dəmirəl mənim dostumdur, qardaşımdır. O, yeddi il Cümhurbaşkanı kimi Türkiyə dövlətinə çox sədaqətlə xidmət etdi. Amma ondan əvvəl də, - Siz məndən də yaxşı bilirsiniz,- o uzun illər Türkiyə dövlətinə, türk xalqına xidmət edibdir. Bildiyimə görə, onun dövlət başçısı səlahiyyətləri başa çatanda Siz hamınız onu təntənə ilə yola salmısınız və hörmət edirsiniz. Güman edirəm ki, bu da təbiidir. Azərbaycanda da həmişə olduğu kimi o, hörmətli bir insan, siyasi və dövlət xadimi kimi, Azərbaycanın böyük dostu kimi xalqımızın qəlbindədir.

İndi bizim münasibətlərimiz belədir ki,- təbiidir ki, insanlar bu gün bir vəzifədə, sabah isə başqa vəzifədə ola bilərlər,- bunlar insanlığa olan münasibətləri qətiyyən dəyişmir. Ona görə də çox məmnunam ki, siz mənə hörmətli Süleyman Dəmirəldən salam gətirmisiniz. O, Çankaya köşkündən gedəndən sonra mən onunla bir neçə dəfə telefonla danışmışam. Sizin gətirdiyiniz salamlar da mənim üçün çox əzizdir.

Türkiyənin yeni Prezidentini, Cümhurbaşkanını mən artıq təbrik etmişəm. Əmin olduğumu bildirmək istəyirəm ki, əlaqələrimizin inkişafında gələcəkdə o da özündən əvvəlki dövlət başçısı kimi, yəni Süleyman Dəmirəl kimi, hətta ondan da əvvəlki Prezident Turqut Özal kimi, - mən artıq Türkiyənin üçüncü Prezidenti ilə görüşürəm,- Azərbaycanla münasibətlərdə öz dostluğunu və qardaşlığını göstərəcəkdir. Çünki, yenə də deyirəm, bu, xalqlarımızın, millətimizin qəlbindən gələn tələbatdır. Ona görə də kim dövlət, hökumət işində bu yolla gedirsə, o həm öz ölkəsində, həm də başqa ölkələrlə uğur qazanacaqdır.

Hesab edirəm ki, sizin hamınızın yekdilliklə, birsəslə seçdiyiniz hörmətli dövlət başçısı Əhməd Necdət Sezər də Azərbaycana əvvəlki münasibəti davam etdirəcəkdir. Biz Azərbaycanda bu seçkini böyük ruh yüksəkliyi ilə qarşıladıq. Çünki mən bilirəm ki, Türkiyə Böyük Millət Məclisində məsələlər çox asanlıqla həll olunmur. Sizin Böyük Millət Məclisinin xüsusiyyətləri var. Bunları bilirəm. Prezidentliyə namizədlər də çox idi. Amma sizin bütün partiyaların bu məsələdə bir mövqedə olması hamının bir fikrə gəlməsi və eyni rəyə

görə də dövlət başçısı seçilməsi Türkiyənin həyatında nazir hadisədir. Ona görə də mən sizi təbrik edirəm. Çünki sizin Böyük Millət Məclisində bəzi məsələlərdə tam birlik, yekdillik də ola bilər. Siz bunu qiymətləndirirsiniz, biz də kənardan buna diqqət yetiririk ki, siz doğru yol tutdunuz və bir nəfərin namizədliyi üzərində dayandınız.

Sizin Böyük Millət Məclisində bir neçə partiya təmsil olunduğuna görə,- həm müxalifət, həm də iqtidar,- hökumətiniz isə koalisyon olduğuna görə Prezidentiniz nə qədər bitərəf şəxs olsa, bu, sizin üçün bir o qədər yaxşıdır. Ona görə də belə bitərəf şəxsin, yenə də deyirəm, əvvəllər heç bir adamın Prezident seçilməsi, düşünürəm ki, Türkiyənin hazırkı vəziyyətində çox əhəmiyyətlidir. Bu münasibətlə mən Böyük Millət Məclisini də təbrik edirəm, belə yekdillikllə dövlət başçısı seçdiyi üçün təşəkkür edirəm. Ümidvaram ki, biz onunla görüşəcəyik.

Fürsətdən istifadə edərək, mən hörmətli prezident, dövlət başçısı Əhməd Necdət Sezəri Azərbaycana rəsmi səfərə dəvət edirəm. Hesab edirəm ki, o, xarici ölkələrə ilk səfərini Azərbaycandan başlasa, bu, çox doğru olardı. Türkiyədə və dünyada hamı tərəfindən yaxşı qarşılanardı. Mənim bu sözlərimi hörmətli prezidentə çatdırmağı sizdən xahiş edirəm.

Eyni zamanda, mənim salam və ehtiramımı hörmətli Baş nazir Bülənd Ecevitə də yetirərsiniz. Mən onu bir neçə dəfə Azərbaycana dəvət etmişəm. Hər dəfə də söz verib ki, Azərbaycana gələcəkdir. Lakin bu vadi yerinə yetirməyibdir. Ona görə də mən sizin vasitənizlə bu dəvətimi bir daha təkrar edirəm. Hesab edirəm ki, Türkiyənin daxilindəki məsələləri siz artıq tənzimləmisiniz, qaydaya salmısınız.

Biz sizinlə, hörmətli Bülənd Ecevitlə Davosda görüşürdük. Orada da mən onu Azərbaycana dəvət etdiyimi təkrarən bildirdim. Güman edirəm ki, o da bizim bu dəvətimizi yerinə yetirməlidir. Hər halda biz bunu gözləyəcəyik. Ona görə də qarşıda bizim çox görüşlərimiz olacaqdır. Siz bu cığırı açdınız, yəni Türkiyədə yeni Prezident seçiləndən sonra ölkəmizə ilk səfər edən siz oldunuz.

İndi bu cığır genişlənməli, ondan Prezident də, Baş nazir də, digər şəxslər də keçməlidir. Mən bunları sizdən rica edirəm.

İsmayıl Cem: Baş üstə, mən bunların hamısını onlara çatdıracağam.

Hörmətli Prezident, bu gün mənim həyatımda önəmli və çox da gözəl bir hadisə oldu. Sizin də məzunu olduğunuz Bakı Dövlət Universitetində,- biz orada hansı fənlərdən hansı qiymətlər aldığınızı da gördük,- mənə fəxri doktor adı verdilər. Fövqəladə gözəl, həyəcanlandırıcı və təsirləndirici, səmimi bir mərasim oldu. Həm hörmətli rektor, həm də hörmətli Xarici İşlər naziri - iki hörmətli müəllim çox gözəl sözlər dedilər. Həqiqətən, mənim üçün çox duy-

ğulu, düşündürücü və faydalı bir hadisə oldu. Bunun üçün Siz Zati-alilərinizə təkrarən öz təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Çox məmnunam, mən sizi təbrik edirəm. Bilirsiniz ki, Bakı Dövlət Universiteti 1919-cu ildə yaranıbdır. O vaxt hakimiyyətə gəlmiş, Azərbaycanın dövlət müstəqilliyini ilk dəfə elan etmiş xalq cümhuriyyətinin ilk addımlarından biri Bakı Dövlət Universitetinin yaradılması olmuşdur. Onu da bilirsiniz ki, bu şərq ölkələrində ilk universitetdir. Biz bu günlərdə onun yubileyini də keçirdik. Bu universitet Azərbaycana çox xidmətlər edibdir. Azərbaycanın ali təhsil almış insanlarının çoxu bu universiteti bitiribdir. Ölkəmizdə sonralar yaradılmış universitetlər, biz bunlara çox vaxt ali məktəblər deyirik, - həmin Bakı Universitetindən törəmişdir. Ona görə universitet Azərbaycan ali təhsilinin anasıdır. Bu sahədə böyük işlər görülübdür. İndi Azərbaycanda az adam taparsınız ki, onunla məzunu olmasın. Sağımda, solumda oturanlar da onu bitiriblər. Mən çox məmnunam, Sizi bir daha təbrik edirəm. Çox şadam ki, bu hadisə baş veribdir.

Bilirsiniz ki, Bakı - Ceyhan boru xətti məsələsini biz başa çatdırdıq. Bununla bağlı beş illik işimiz sona yetdi. Siz bilirsiniz ki, İstanbulda ATƏT-in zirvə toplantısı zamanı imzaladığımız müqavilələrdən və bəyanatdan sonra bir neçə problem yaranmışdı. Xüsusən Gürcüstan bir neçə yeni şərt irəli sürmüşdü. Bu bizi çox təəccübləndirdi. Çünki hazırlıq dövründə bu şərtlərin heç biri qoyulmamışdı. Bu da bizim işimizi dayandırdı. Biz - Türkiyə və Azərbaycan Gürcüstanla bir neçə dəfə danışıqlar apardıq ki, bu şərtlər aradan qaldırılsın. Bu şərtlərin hamısını aradan qaldırdılar. Yalnız bircə şərt qaldı: tranzit üçün alacağı tariflər Gürcüstanı qane etmirdi.

Mən nə etdim? Bunu siz bilirsiniz. Mən Gürcüstana, Tbilisiyə getdim və dünyaya bəyan etdim ki, bu məsələnin həll edilməsi, çözülməsi üçün Azərbaycanın tariflərini Gürcüstana bağışlayıram. İndi düzdür, burada məni tənqid edənlər, günahlandıranlar var. Bəziləri deyirlər ki, Azərbaycanın sərvətləri Heydər Əliyevin şəxsi malı, mülkü deyildir, hansı hüquqla, hansı səbəblərə görə o, Azərbaycanın tariflərini Gürcüstana bağışlayıbdır? Kim nə deyir, qoy desin. Bu, mənim üçün əhəmiyyətli deyil. Mən gördüyüm işi bilirəm. Bilirəm ki, Bakı - Ceyhan layihəsini sona çatdırmaq üçün hansısa bir qurban vermək lazımdır.

Bakı - Ceyhan layihəsinin yaranması Azərbaycanla bağlıdır. Əgər Azərbaycanın nefti olmasaydı, nə Gürcüstan, nə də Türkiyə bu marşrutun tarifini ala bilərdi. Deməli, bunun təməlini, əsasını biz qoymuşuq. Bakı - Ceyhan xətti Azərbaycanda, Xəzər dənizində olan neftin dünya bazarlarına ixrac edilməsi üçündür.

Türkiyə və Gürcüstan isə sadəcə,

tranzit ölkələrdir. Ona görə də burada bizim haqqımız da çoxdur. Bu boru xətti ilə biz Gürcüstana çoxlu gəlir gətiririk. Bakı - Supsa neft kəmərindən Gürcüstan xeyli gəlir götürür. Bakı - Ceyhan xəttindən də götürəcəkdir. Amma onlar istədilər ki, daha da çox gəlir əldə etsinlər. Biz də ölçüb-biçdik, fikrləşdik və bu addımı atdıq. Bu ayın 9-da da İstanbulda son protokollar imzalandı. Ondan sonra mən dərhal bu anlaşmaların hamısını bizim parlamentə - Milli Məclisə göndərdim və Azərbaycanın istiqlaliyyət bayramından iki gün öncə, mayın 26-da Milli Məclis bunu müzakirə edərək qanun qəbul etdi. Mayın 27-də mən bu qanunu imzaladım və mətbuata verdim. Qəzetlərin hamısında bu vardır, dərc olunubdur, götürüb baxa bilərsiniz.

İndi söz sizindir - Türkiyənin və Gürcüstanındır. Mən həmişə Türkiyəyə gələndə jurnalistlər, qəzetçilər məni sorğu-suala tutardılar ki, Bakı - Ceyhan nə vaxt olacaqdır? Birinci sual bu idi. Beş ildir mən bu suallara cavab verirəm. İndi isə tamam cavab vermişəm. Siz də Böyük Millət Məclisində bu layihəni təsdiq etsin. Gürcüstan da təsdiq edin. Bizim şirkətlər bunu həyata keçirməyə hazırdırlar.

İsmayıl Cem: Hörmətli Prezident, Gürcüstanda sizin apardığınız danışıqlar bu layihənin son mərhələsinə ən böyük töhfə odluşdur. Sağ olun, var olun! Biz də Türkiyə olaraq əlimizdən gələn hər şeyi etməyə çalışırıq. Xüsusilə iqtisadi məsuliyyəti öz boynumuza götürmək sahəsində əlimizdən gələni etdik. Ümidvaram ki, bu layihə həm bizim ölkələrimizin, həm Gürcüstanın, həm də Orta Asiyadakı qardaş ölkələrimizin mənafelərinə böyük fayda verəcəkdir. Buna inanıram.

Hörmətli Cənab Prezident, bu məsələ ilə bağlı sənədlər, səhv etmiramsə, mayın 25-də bizim nazirlikdən Türkiyə Böyük Millət Məclisinə təqdim etmək üçün Baş nazirə göndərilibdir. Baş nazir öz növbəsində bu sənədləri nəzərdən keçiribdir. Sənədlər ötən cümə günü, ya da bu gün Böyük Millət Məclisinə göndərilməli idi. Biz bu məsələnin əhəmiyyətini başa düşürük. Bildiyimə görə, gələn ayın 10-na qədər Gürcüstan parlamenti bu məsələyə baxacaqdır. Ola bilər ki, Türkiyə həmin məsələyə bir qədər də tez baxsın. Bu, prosedur məsələdir, məclisin gündəliyindən və müzakirələrdən asılıdır. Tezliklə Türkiyə tərəfi həmin sənədi ratifikasiya edəcəkdir.

Şirkətlər məsələsinə gəlincə, deməliyəm ki, dünən "Bi-Pi/AMOKO" şirkətinin rəhbərləri mənimlə görüşərkən öz fəaliyyətləri barədə geniş və faydalı məlumat verdilər. Bu gün də ARDNŞ-in rəhbərliyi böyük nəzakət göstərərək, məni öz toplantılarına dəvət etdilər və ilk sözü mənə verdilər. Qısa bir çıxış etdim. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevlə söhbətimiz zamanı Bakı - Ceyhan kəməri barədə Türkiyənin qərar-

lı olduğunu, ölkəmizin dəstəyini və öhdəliklərini bir daha dilə gətirdim. Bu kəmərin bizim üçün, eləcə də bütün bölgə ölkələri üçün müstəsna rolu olduğunu, iqtisadiyyatımızın başqa sənədləri üçün də əhəmiyyətli digər layihələrə də təməl yaradacağını vurğuladım. Bu, Cənubi Qafqaz ölkələri üçün də eyni dərəcədə əhəmiyyətlidir. Mən bunları anlatdım və Türkiyənin bundan sonra da bütün imkanları səfərbər edəcəyini, layihəyə dəstək verəcəyini söylədim.

Bu fikirləri şirkətlərin hər ikisinə çatdırdım və ayrıca olaraq bunu da dedim ki, bir zamanlar neft ehtiyatları barədə şübhə doğuran söhbətlər gəzirdi. Deyirdilər ki, Bakı - Ceyhan neft kəmərinin tam gücü ilə işləməsi üçün guya kifayət qədər neft yoxdur. Lakin mötəbər mənbələrdən bizə daxil olan məlumatlardan bilirdik ki, bütün bunlar boş söz-söhbətdir. Əksinə, bir çox yerlərdə yeni neft yataqları da tapılmışdır. Aldığımız digər bir məlumata görə, Qazaxıstanda da yeni neft yataqları aşkar edilmişdir. Bu barədə dəqiq məlumat gələn ayın sonunda bizə veriləcəkdir. Şirkətlərlə görüşlərim zamanı mən bunlardan da bəhs etdim. Həqiqətən, şəxsən sizin, hörmətli Süleyman Dəmirəlin böyük dəstəyiniz və köməyinizlə bu layihə özünün müsbət həllini tapdı.

Heydər Əliyev: Mən hörmətli dostum Süleyman Dəmirəlin bu sahədəki xidmətlərini xüsusi qeyd edirəm. Çünki Türkiyə tərəfindən bu işdə onun qədər çalışan ikinci bir adam olmayıbdır. Layihənin lap başlanğıcından o bu işlə məşğul olub, daim onunla maraqlanıbdır. O, Cümhurbaşkanlığından gedəndən sonra da yenə Bakı - Ceyhan layihəsi ilə maraqlanır. Çünki bu, onun doğma işidir, bu yolda neçə illər zəhmət çəkibdir.

Siz "Bi-Pi/AMOKO" şirkətinin rəhbərləri ilə görüşdünüz. Onlar sizə qaz haqqında nəsə dediləmi?

İsmayıl Cem: Bəli, dedilər. "Bi-Pi/AMOKO" bizə çoxlu məlumat verdi. Dedilər ki, bizim apardığımız tədqiqatlardan aydın oldu ki, 2002-ci ildə 2 milyard kubmetr təbii qaz hasil edə biləcəyik. Bu qədər qazı iki quyudan - yəni hər quyudan bir milyard kubmetr - hasil etmək mümkün olacaqdır. Şirkət bu sahədə tədqiqatlarını davam etdirir. Məndən Türkiyənin bu məsələyə münasibətini soruşdular. Mən də bildirdim ki, Türkiyə bu məsələ ilə ciddi maraqlanır və onu öyrənir. Aramızda belə bir söhbət oldu.

Heydər Əliyev: Çox gözəl, 2002-ci ildə 2 milyard kubmetr, ondan sonra isə daha çox qaz çıxacaqdır.

İsmayıl Cem: Onlar da bizə bu cür dedilər.

Heydər Əliyev: Bir neçə il ərzində 25-30 milyard kubmetrə çatdırıla bilməz. Çünki sizin qaza ehtiyacınız var. Biz sizinlə birlikdə Transxəzər qaz kəməri, Türkmənistan qazının Türkiyəyə nəql edilməsi üzərində çalışdıq. İstanbulda həmin o bəyannaməyə hamımız imza atdıq. ABŞ Prezidenti Bill Klinton da, Türkmənistan Prezidenti Saparmurat Niyazov da imza atdı. Amma bu iş, deyəsən, o qədər irəliyə getmir. Bilmirəm niyə. Biz bu işdə tranzit rolu oynayırıq. Qazı satan Türkmənistandır, alan isə Türkiyədir. Biz demişik və bu gün də deyirik: biz bu boru xəttinin yaranmasının tərəfdarıyıq və Azərbaycanda Xəzər dənizində olan bütün imkanlardan istifadə etməyə hazırıq.

İsmayıl Cem: Sağ olun, Cənab Prezident. Bu məsələ Sizin konstruktiv münasibətiniz sayəsində mümkün oldu. Hazırda bizim Türkmənistan ilə bir müqaviləmiz var. Bu müqaviləyə görə, 2002-ci ildə Türkmənistan Türkiyənin sərhədinə qədər həmin xətt vasitəsilə 16 milyard kubmetr qaz verməlidir. Bu rəqəm getdikcə artacaqdır.

Heydər Əliyev: Çox gözəl. Bizim münasibətlərimizdə əsas yer tutan məsələlərdən biri Ermənistan - Azərbaycan münaqişəsi, Dağlıq Qarabağ problemidir. Bu barədə sonra, ola bilər, geniş danışaq. Amma siz bilirsiniz, -mən son dövrdə Davosda sizinlə bu barədə danışmışam,- biz indiyə qədər bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Bilirsiniz, indi ATƏT də hərəkətə gəlibdir. Minsk qrupunun Rusiya, ABŞ, Fransa tərəfindən olan həmsədrləri Cenevrədə toplaşıblar, orada danışıqlar aparıblar. Bunlar haqqında sizin məlumatınız var. İşğal altında olan torpaqlar azad edildikdən sonra bərpa işlərinin görülməsi, bununla bağlı maliyyə məsələlərinə baxıblar. Biz onların bölgəyə gəlməsini gözləyirik.

Ermənistan Prezidenti Koçaryanla mənim danışıqlarımdan da sizin xəbəriniz var, bunu bilirsiniz. Təəssüf ki, ötən ilin oktyabr ayında orada baş vermiş terror hadisəsi bu danışıqları müəyyən qədər dayandırdı. Ancaq bu danışıqlar da davam etməlidir.

Türkiyə həm o danışıqların, həm də bu danışıqların iştirakçısıdır. Türkiyəsiz heç bir şey ola bilməz. Çünki Türkiyə Minsk qrupunun üzvüdür. Türkiyə bu danışıqların içərisindədir, daim də içərisində olmalıdır. Onsuz bu məsələ həll oluna bilməz.

Mən ümid edirəm ki, iyun ayının 20-21-də Moskvada Müstəqil Dövlətlər Birliyi başçılarının toplantısı olacaqdır. Orada görüşlər keçiriləcəkdir. Ondan sonra isə Minsk qrupunun həmsədrləri bölgəyə gələcəklər, danışıqları davam etdirəcəyik. Bilirəm ki, siz bunun üçün hərtərəfli çalışırsınız, öz xidmətlərinizi göstərirsiniz. Vəziyyət belədir. Yəni qaçqınlarımız yenə də çadırlarda yaşayırlar, heç bir şey dəyişməyibdir. Əksinə, humanitar təşkilatlardan, ayrı-ayrı ölkələrdən qaçqınlara gələn yardımlar azalıbdır.

Bir neçə gün bundan öncə Birləşmiş Millətlər Təşkilatının humanitar məsələlər və qaçqınlar üzrə nümayəndəliklərinin, başqanlarının iştirakı ilə Bakıda BMT-nin himayəsi altında beynəlxalq konfrans keçirdik.

Bizə izah edirlər ki, dünyada münaqişələr, qaçqınlar, köçkünlər çoxalıbdır, ona görə də yardımlar azalır. Amma Azərbaycandakı qaçqınlar 7-8 ildir ki, çadırlarda yaşayırlar. Ona görə də biz bu problemi həll etməliyik. Birincisi, Azərbaycanın torpaqları bu qədər işğal altında qala bilməz. İkincisi, bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerinə-yurduna qayıtmalıdır. Sonra bərpa işləri getməlidir. Qarşımızda hələ uzun illər, çox işlər vardır.

İndi əsas məsələ budur ki, danışıqlar aparaq, razılığa gələk, ondan sonra sülh haqqında saziş imzayalaq. Bunu da biz daim sizinlə birlikdə edirik.

İsmayıl Cem: Hörmətli Prezident, əlbəttə, müzakirə etdiyimiz məsələlərin, heç şübhəsiz ki, ən əhəmiyyətlisi elə budur. Biz Türkiyə olaraq bu məsələdə Sizi hər zaman dəstəkləyirik və dəstəkləməkdə də davam edəcəyik. Sizin qəbul edəcəyiniz, razı olacağınız, "oldu" deyəcəyiniz hər bir həll variantını biz ürəkdən dəstəkləyəcəyik. Münaqişənin həlli prosesində də, ondan sonra da biz Sizinlə olacağıq. Bu məsələ ilə bağlı hadisələrin gedişini biz diqqətlə izləyirik. Bu məsələ ilə bağlı müzakirələrdə mən də bir neçə dəfə iştirak etmişəm. Bu barədə Sizin geniş məlumatınız vardır.

Heydər Əliyev: Başqa məsələlərlə bağlı müzakirələri bəlkə biz mətbuat nümayəndələrinin iştirakı olmadan keçirək. Görürəm, siz bunu intizarla gözləyirsiniz.

ƏSKİŞƏHƏRDƏKİ OSMAN GAZİ UNİVERSİTETİNİN ELMİ ŞURASININ PREZİDENT HEYDƏR ƏLİYEVƏ FƏXRİ DOKTOR ADININ VERİLMƏSİ BARƏDƏ QƏRARI

Əskişəhərdəki Osman Gazi Universitetinin Elmi Şurası Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, inkişafı, Türkiyə-Azərbaycan əlaqələrinin gücləndirilməsi sahəsində göstərdiyi böyük xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər üzrə Fəxri doktor adının verilməsi barədə yekdilliklə B.30.2.OGÜ. 0.00.00.00-12 saylı qərarı qəbul etmişdir.

31 may 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 8-də Prezident sarayında Türkiyənin Daxili İşlər naziri Sadətdin Tantanı və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Prezident Heydər Əliyev qonaqlara müraciətlə dedi:

- Hörmətli nazir, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz! Mən sizi səmimi qəlbdən salamlayıram.

Bu gün bir neçə xarici nümayəndələrlə görüşlər keçirirəm. Hesablayıram ki, bunu bir saata edəcəyəm, amma bir də görürsən ki, iki saat çəkir. Avropa Şurasının, ATƏT-in nümayəndələri var idi. sən onları tanıyırsan.

Sadətdin Tantan: Yaxşı tanıyıram.

Heydər Əliyev: Söhbət çox uzandı.

Mən çox məmnunam ki, siz Azərbaycandasınız. Əgər Azərbaycana ilk dəfə gəlirsinizsə, bu, bizim üçün daha əhəmiyyətlidir ki, siz Azərbaycanı görəcəksiniz. İlk dəfə gəlməyənlər də hər dəfə gələndə Azərbaycanda nəsə yeni bir şey görəcəklər.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri bütün dünyaya məlumdur. Biz bu əlaqələri həmişə yüksək qiymətləndiririk. Bu əlaqələr əbədi xarakter daşıyır. Hər bir belə görüş, Türkiyədən Azərbaycana nümayəndələrin gəlməsi, yaxud Azərbaycandan Türkiyəyə nümayəndələrin getməsi, təbiidir ki, bizim əlaqələrimizi daha da genişləndirir, inkişaf etdirir. İndi bizim Maliyyə nazirimiz Türkiyədəlir. Görürsünüz, Türkiyənin də Daxili İşlər naziri Azərbaycandadır. Bu, çox gözəldir. Mən sizi salamlayıram.

Nazir **Sadətdin Tantan** dövlətimizin başçısına minnətdarlığını bildirərək dedi:

- Sayın Cümhürbaşkanım, çox təşəkkür edirəm. Məni və heyətimi qəbul etdiyinə görə minnətdaram.

Hörmətli Prezidentimizin, Baş nazirimizin və partiyamızın sədri Məsud Yılmazın salamlarını Sizə yetirirəm.

İllərdən bəri, uşaqlığımızdan həsrətini çəkdiyimiz Azərbaycanda, Bakıda olmaqdan böyük sevinc duyuruq. Çünki türk millətinin qəlbində Bakının, Azərbaycanın çox böyük yeri var. Gəlib gördük və təxəyyülümüzdə yaşatdığımız Bakı şəhəri həqiqətdə bizi əfsunladı. Bu şəhərin və Azərbaycanın inkişafında Sizin böyük töhfələriniz olduğunu bilirik.

Sizin böyük dəstəyiniz və göstərişlərinizlə hörmətli Daxili İşlər naziri Ramil Usubovun Azərbaycanda ictimai asayişin ciddi şəkildə qorunması sahəsindəki fəaliyyətini biz də təqdir edirik. Onun Türkiyəyə səfəri və bizim bura səfərimiz zamanı gördüyümüz işlər iki ölkənin daxili işlər nazirlikləri arasında yaxşı münasibətlər qurulmasına kömək etmişdir. Bu əlaqələrin daha da möhkəmləndirilməsi üçün sizin dəstəyinizə böyük ehtiyacımız var.

Ümidvaram ki, cinayətkarlığa qarşı mübarizədə yalnız iki ölkəni maraqlandıran sahələrdə deyil, bu bölgə üçün əhəmiyyət daşıyan sahələrdə də görəcəyimiz işlər Sizin dəstəyiniz və göstərişləriniz sayəsində bütün regionda asayişin qorunmasına müsbət təsir edəcəkdir.

Bugünkü söhbətimiz zamanı Azərbaycanın Daxili İşlər nazirinin bizə verdiyi statistik məlumatlarla

tanış olarkən gördük ki, 1992-ci illə müqayisədə 1999-cu ildə cinayətkarlıq çox azalmışdır. Bu da onu göstərir ki, Sizin böyük dəstəyinizlə hüquq-mühafizə səviyyəsinə çatmışdır. Bu, bizi son dərəcə məmnun etdi.

Ölkələrimizin daxili işlər nazirlikləri arasında qarşılıqlı informasiya mübadiləsinin, texnologiya və təlim baxımından bir-birimizi dəstəkləməsinin daha da inkişafı üçün belə qərara gəldik ki, narkotiklərin qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq, terrorizm, iqtisadi və texnoloji cinayətkarlıq ilə mübarizədə praktik tədbirlər görülsün. Əminəm ki, bu işlər davam edərsə, hər iki ölkədə asayişin qorunmasında mühüm uğurlar qazanmaq mümkün olacaqdır.

Möhtərəm Cümhürbaşkanım, bizi qəbul etdiyiniz üçün bir daha təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Sağ olun. Mən çox məmnunam. Türkiyə Cümhuriyyətinin hörmətli prezidentindən və hörmətli Baş nazirindən mənə gətirdiyiniz salamlara görə təşəkkür edirəm. Mənim də Cümhurbaşkanı, hörmətli Əhməd Necdət Sezərə və Başbakan, hörmətli Büləndi Ecevitə salamlarımı, hörmət və ehtiramımı çatdırın.

Bir də deyirəm, əlaqələrimiz çox böyük bir təməl əsasında qurulub və biz bunları daim inkişaf etdiririk. Bu əlaqələrin inkişafında ayrı-ayrı dövlət adamlarının görüşləri və onların bir-birinə olan münasibəti də böyük əhəmiyyət daşıyır.

Bizim Daxili İşlər Nazirliyi ilə sizin birbaşa münasibətləriniz çox əhəmiyyətlidir. Çünki hər bir ölkədə cinayətkarlıqla mübarizə əsas yer tutur. Təəssüflər olsun ki, son illər dünyada cinayətkarlıq artıb, cinayətkarlar çoxalıbdır. Hətta beynəlxalq cinayətkar terrorizm yaranıbdır. Bunlar hər bir ölkəyə böyük zərər vurur.

Siz qeyd etdiniz, Azərbaycanda, məsələn, 1992-ci ilə nisbətən indi vəziyyət tamamilə dəyişilibdir. Əgər 1992-ci ildə burada olsaydınız, görərdiniz ki, küçələrdə gəzmək mümkün deyildi. Təbiidir ki, bu həm insanları narahat edirdi, həm də çoxlu cinayət törədilirdi. Bunların qaşısını almaq, cinayətkarlığı azaltmaq üçün bizə bir neçə il lazım oldu. İndi bizim nazirimiz daim iftixar, qürur hissi ilə mənə raport verir ki, cinayətkarlığın sayına görə Azərbaycan MDB ölkələrində...

Ramil Usubov: Cənab Prezident, ən axırıncı yerlərdən birini tutur.

Heydər Əliyev: Necə yəni axırıncı?

Ramil Usubov: Hər yüz min nəfərə düşən cinayətlərin sayına görə ən sonuncu yerdəyik.

Heydər Əliyev: Sonuncu yer yaxşı deyil, cinayətkarlığın qarşısının alınmasına görə ən birinci yerdəyik.

Yoxsa deyirsən ki, sonuncu yer, - bunu başa düşməzlər. Yəni Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri içərisində ən az cinayət edilən ölkədir.

Təbiidir ki, bu, görülən işlərin nəticəsidir. Çünki vaxt var idi ki, biz çox cinayət törədilən ölkələr içərisində idik. İndi ən az cinayət törədilən ölkələr sırasındayıq. Bu, görülən işlərin nəticəsi, ümumiyyətlə, bizim dövlətimizin güclənməsinin nəticəsidir. Çünki, məsələn, böyük dövlətlərdə, Türkiyə kimi böyük tarixi, böyük ənənələri olan müstəqil ölkədə dövlət həmişə güclüdür. Orada dövlətin gücü var, ancaq cinayətin qarşısını almaq üçün müvafiq orqanların - polisin, jandarmın və başqa orqanların işi lazımdır. Bizim kimi gənc 8 ildir ki, müstəqillik və müstəqillik əldə edən zaman da, birincisi, daxildə çoxlu qanunsuz silahlı dəstələr hakimiyyət uğrunda bir-biri ilə vuruşur, mübarizə aparırdı, digər tərəfdən də Ermənistanla müharibə gedirdi. Ermənistan Azərbaycana təcavüz etmişdi, müharibə gedirdi, - cinayətkarlığın qarşısını almaq üçün təkcə cinayətkarlıqla mübarizə aparan orqanların işi yetərli deyildir. Gərək dövlət möhkəmlənsin, güclənsin, lazımi tədbirlər görsün və bunların həyata keçirilməsi üçün, təbiidir ki, orqanlara, məsələn, Daxili İşlər Nazirliyinə müvafiq imkanlar yaratsın.

Biz bunları yaratdıq. Daxili İşlər Nazirliyinin tərkibində Xüsusi Təyinatlı Polis Dəstəsi var idi. Keçmiş Sovetlər İttifaqında hər bir respublikada polis orqanlarının tərkibində belə bir struktur - Xüsusi Təyinatlı Polis Dəstəsi vardı. Yəni bu, ən mütəşəkkil polis dəstəsi idi, - Rusiyada indi yenə də var, - bu, ən ağır cinayətlərlə mübarizə aparan orqan idi. Azərbaycanda Qarabağ bölgəsində vuruşmaqda yaxşı nümunələr göstərmiş bu insanlar elə oldu ki, sonra, onları cəbhədən geriyə çəkəndə ki, gəlib Azərbaycanın daxilindəki işlərlə məşğul olmağa başladılar.

Məsələn, o dəstənin başçısı nazirin müavini idi, amma nazirə tabe olmurdu. Neçə dəfə onu çağırıb dedim ki, sənin müavinin cinayətkarlıq edir. O da deyirdi ki, doğrudur, edir. Amma qarşısını ala bilmirdi. Çünki artıq o, cinayətkar oldu. Cinayətkarlarla isə adi danışıq ola bilməz. Nəhayət, 1995-ci ildə onlar toplaşdılar, Azərbaycanda dövlət çevrilişi etməyə çalışdılar. 1995-ci ilin mart hadisələri məlumdur. Əgər biz o dəstənin qarşısını almasaydıq, onu dağıtmasaydıq, təkcə Daxili İşlər Nazirliyi heç bir şey edə bilməzdi. Biz onların qarşısını ümumi gücümüzlə aldıq, ordu da burada iştirak etdi.

Amma cinayətkarların bir qismi qaçdı, başqa ölkələrdə - Rusiyada, Ukraynada, Orta Asiyada gizləndi. Amma hüquq-mühafizə orqanlarının böyük xidməti oldu ki, onları axtardılar, aradılar, çox hissəsini tapıb gətirdilər və məsuliyyətə cəlb etdilər. Məhkəmə onların hamısına cəza verib və indi cəzalarını çəkirlər.

Ona görə, yenə də deyirəm, bizim kimi ölkədə bunun üçün bir amil dövlətin güclənməsidir. İndi Azərbaycan dövləti güclənibdir, güclü dövlətdir. Azərbaycanın dövləti ölkənin bütün

ərazisinin həm sahibidir, həm də onu nəzarət altına alıbdır. Bundan əlavə, biz hüquq-mühafizə orqanlarına, o cümlədən Daxili İşlər Nazirliyinə, polisə böyük imkanlar yaratmışıq ki, onlar cinayətkarlıqla daha da cəsarətli mübarizə aparsınlar.

Amma iş təkcə cəsarətdə deyildir. Bu işdə peşəkarlıq, professionalizm, - siz də "professional" sözü işlədirsiniz, - lazımdır. Onlar arıq bunu da əldə ediblər, peşəkardırlar və çox cinayətlərin qarşısını alıblar. Bəziləri hətta cinayətkarlıqla mübarizə aparanda canlarını qurban veriblər.

Amma nə qədər çox iş görülsə də, mən istəmirəm ki, biz burada öyünək, özümüzü tərifləyək. Hər halda Türkiyənin təcrübəsi olduqca çoxdur. Mən həmişə deyirəm, biz Türkiyənin təcrübəsindən bütün sahələrədə istifadə etməliyik. O cümlədən bizim Daxili İşlər nazirliyi də. Çünki Daxili İşlər nazirliyimiz keçmişdə Sovetlər İttifaqı tərkibində idi. İndi müstəqil olmuşuq. Müstəqil olduğumuz zaman da burada bir ilin içərisində iki nazir dəyişilib və onların özləri cinayətkar olublar. Ona görə də Daxili İşlər nazirliyi indiki müstəqil dövlətin gənc qurumudur. Amma Türkiyədə polisin, Daxili İşlər nazirliyinin böyük tarixi və böyük ənənələri, təcrübəsi var. Biz bu təcrübədən daim istifadə etməliyik. Güman edirəm ki, bu görüşləriniz zamanı Usubov sizdən çox şey öyrənməyə çalışmalıdır. Amma siz də ondan bir şey öyrənə bilsəniz, daha yaxşı olar.

Sadətdin Tantan: Sayın Cümhurbaşkanım, o, çox təcrübəli insandır, bu sahədə də böyük səylər göstərmişdir. Bir-birimizin iş təcrübəsini qarşılıqlı surətdə öyrənmək və fikir mübadiləsi aparmaq hər ikimiz üçün faydalıdır. Hər iki ölkənin iqtisadi və mədəni inkişafının rəhni ictimai asayişin sabitliyindədir. Bölgədə bu sabitliyi yarada bilsək, müstəqilliyimiz əbədi olaraq davam edər. Ona görə də asayişin qorunması sahəsində əməkdaşlığımızın davamlı olması təkcə Türkiyə və Azərbaycan üçün deyil, bütün region üçün faydalıdır. Çünki ölkələrimizə qarşı yönəldilən iqtisadi təhdidlər, terror aktları, ideoloji təhdidlər yalnız birgə və sıx əməkdaşlığımız sayəsində puça çıxarıla bilər.

Sizin Türkiyənin keçmiş Prezidenti ilə uzun illər davam etmiş çox yaxın əlaqələriniz ölkələrimiz arasındakı münasibətlərin bütün cəhətlərinə, o cümlədən bizim nazirliklər arasında əməkdaşlığa da öz müsbət təsirini bundan sonra da göstərəcəkdir. Nazirliklərimiz arasında əlaqələrin inkişafına gələcəkdə də verəcəyiniz dəstəyə görə bəri başdan Sizə təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Çox gözəl. Hörmətli nazir, siz həm də Böyük Millət Məclisinin millət vəkilisiniz. Beş ildir ki, biz Bakı-Ceyhan boru xətti haqqında çalışdıq və bütün anlaşmaları imzaladıq. Azərbaycan parlamenti onu təsdiq, ratifikasiya etdi, Gürcüstan parlamenti də ratifikasiya

etdi. Amma Türkiyə parlamenti indiyə qədər ratifikasiya etməyibdir.

Ona görə də mən bunu sizə bildirmək istəyirəm. Bu yaxın günlərdə sizin Xarici İşlər naziri İsmayıl Cem də burada idi. Mən onunla da danışdım. Mənim əziz dostum Süleyman Dəmirəlin hələ səlahiyyət vaxtı qurtarmazdan əvvəl onunla danışmışdım, indi də onunla telefon əlaqələrim var. Biz gözləyirik ki, Türkiyə Bakı-Ceyhan boru xəttinə dair sazişləri nə vaxt ratifikasiya edəcəkdir. Çünki biz işə başlamalıyıq. Türkiyədə bu layihəni daim istəyirdilər. İndi Bakı-Ceyhanı ortaya qoymuşuq, Böyük Millət Məclisi isə onun təsdiqini gecikdirir.

Sadətdin Tantan: Həmin sazişlərə parlamentin komissiyalarında baxılıbdır. Xarici İşlər naziri hörmətli İsmayıl Cem Bakıya səfərindən aldığı müsbət təəssüratı Milli Təhlükəsizlik Şurasında da söylədi. Sazişlər tezliklə Böyük Millət Məclisində təsdiq ediləcəkdir. Bakı-Ceyhan boru xəttinin Türkiyədən keçməsi uğrunda Sizin apardığınız mübarizəni bütün türk milləti çox yaxşı bilir. Keçmiş Prezident Süleyman Dəmirəlin, Türkiyənin müxtəlif nazirlikləri və idarələrinin bu sahədə fəaliyyəti də hamıya məlumdur. Türk milləti yaxşı bilir ki, bu boru xətti təkcə iqtisadi deyil, həm də mədəni əhəmiyyət daşıyır. Gələcəkdə tarixi yazanlar bu cəhəti ayrıca vurğulayacaqlar. Mən buna ürəkdən inanıram.

Heydər Əliyev: Biz bunu gözləyəcəyik. Bu günlərdə Bakıda neft-qaz sərgisi keçirilir. Dünyanın 300-dən artıq neft və qaz şirkəti Bakıya toplaşmışdır. Bu, hər il burada keçirilir, Xəzər hövzəsinin neft-qaz sərgisidir. Artıq yeddinci ildir ki, bunu keçiririk. Biz Xəzər dənizində yeni böyük qaz yatağı açmışıq - "Şahdəniz" yatağı. Bu layihədə "Türk Petrolları Anonim Şirkəti"nin də 9 faiz payı var.

İndi biz oradan hasil ediləcək qazın dünya bazarına çıxarılması barədə düşünürük. Sərgidə şirkətin başçıları mənə dedilər ki, 2002-ci ildə Türkiyəyə milyard kubmetr qaz verə biləcəyik. Bilirəm, siz gözləyirsiniz ki, Türkmənistandan qaz gəlsin, amma o gecikir. Biz də istəyirik ki, gəlsin, amma bilmirəm nəyə görə gecikir. Siz indi başqa yerdən də qaz alırsınız, onu da bilirəm. Amma dostum Süleyman Dəmirəl mənə demişdi ki, 2010-cu ildə Türkiyənin 50 milyard kubmetr qaza ehtiyacı olacaqdır. Biz 2002-ci ildə Türkiyəyə 5 milyard kubmetr qaz verəcəyik, amma sonra hər il artıracağıq.

Demək, beləliklə, biz Türkiyəyə həm Bakı-Ceyhanı, nefti, həm də təbii qazı gətiririk.

Sadətdin Tantan: Burada aldığım məlumatı hörmətli prezidentimizə və ba nazirimizə çatdıracağam. Türkiyənin enerji daşıyıcılarına olan ehtiyacı çox böyükdür. Təbii ki, bu ehtiyacı ödəmək üçün ölkəmiz hər yerdən yanacaq almağa çalışır. Amma Xəzər hövzəsində Türkiyənin payının daha da artırılması bizim üçün son dərəcə yaxşı olardı.

Heydər Əliyev: Yüksəltmişəm, o qədər yüksəltmişəm ki...

Sadətdin Tantan: Daha da yüksəltsəniz, bolgədə təsirimiz də artar. Biz istəyirik ki, Türkiyənin iş adamları Azərbaycana daha çox sərmayə qoysunlar, ölkənizin iqtisadi tərəqqisinə töhfə vermiş olsunlar.

Heydər Əliyev: Biz də bunu istəyirik. Bakı-Ceyhan boru xəttinin tikilməsi ilə əlaqədar işlər çox olacaq, orada Türkiyənin iş adamları da, başqaları da çalışa biləcəklər. Kəmərin çox hissəsi, elə min kilometri Türkiyənin ərazisindən keçəcək, orada çox iş görmək lazımdır. Amma onun bir qismi Azərbaycandan, kiçik bir qismi də Gürcüstandan keçəcəkdir. Yəni Türkiyənin şirkətləri çox önəmli işlər görə biləcəklər.

Biz Türkiyənin hörmətli Cümhurbaşkanı Əhmad Necdət Sezəri Azərbaycanda rəsmi səfərə gözləyirik. Mən nazir İsmayıl Cəmə də demişdim, sizə də deyirəm - güman edirəm ki, Türkiyənin işə yeni başlamış Cümhurbaşkanı gərək ilk xarici səfərini Azərbaycana etsin. Mən onu dəvət etmişəm və belə düşünürəm ki, bu dəvət qəbul olunub, biz onun vaxtını müəyyən edirik. O, gələcək və burada çox məmnuniyyətlə görüşlər keçirəcəyik.

Ötən illər, yeddi il idi ki, hörmətli Süleyman Dəmirəl Cümhurbaşkanı idi, ondan öncə də Baş nazir idi. Azərbaycan - Türkiyə əlaqələrinin yaranmasında, inkişafında, belə yüksək səviyyəyə çatmasında onun çox böyük xidmətləri olubdur. Buna görə də Azərbaycanda onu çox sevirlər, çox hörmət edirlər. Dostu kimi mən də onu çox sevirəm və xahiş edirəm mənim salamımı, hörmət və ehtiramımı ona çatdırasınız.

İnşallah, yeni seçilmiş Cümhurbaşkanı da gələr, əvvəllər yaranmış ənənələr davam və inkişaf edər.

Sadətdin Tantan: Hörmətli Cümhurbaşkanım, mən Sizin salamlarınızı və dəvətinizi Cümhurbaşkanımıza yetiracayəm. Həm də keçmiş Cümhurbaşkanımıza Sizin salamlarınızı çatdıracağam. Əminəm ki, Sizin və Süleyman bəyin başladığınız əlaqələr və səmimi dostluq, qardaşlıq münasibətləri yeni Prezidentimiz tərəfindən də davam etdiriləcəkdir.

Heydər Ədiyev: Çox gözəl. Sağ olun.

"Azərbaycan" qəzeti, 9 iyun 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

"Qalatasaray" futbol klubunun UEFA-nın kuboku uğrunda yarışlarda qalib gəlməsi ilə əlaqədar göndərdiyiniz məktubu böyük məmnuniyyətlə aldım.

"Qalatasaray" klubunun müvəffəqiyyətinin təkcə Türkiyədə deyil, bütün türk dünyasında böyük ruh yüksəkliyi ilə qarşılanması bizi çox sevindirir.

Fürsətdən istifadə edib Zati-alinizə təşəkkür edirəm, qardaş Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik diləyirəm.

Əhməd Necdət Sezər,
Türkiyə Respublikasının
Prezidenti

"Azərbaycan" qəzeti, 18 iyun 2000-ci il.

"AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA HAVA DAŞIMALARI HAQQINDA" SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında hava daşımaları haqqında" 1992-ci il mayın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
"Azərbaycan" qəzeti, 21 iyun
2000-ci il.

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCAN RESPUBLİKASINA I RƏSMİ SƏFƏRİ

11-12 iyul 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

11 iyul 2000-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bina hava limanında Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezəri qarşılamışdır.

İyulun 11-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü olmuşdur.

Ali qonağı Azərbaycanda səmimi qəlbdən salamlamaqdan məmnun olduğunu bildirən dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək respublikamıza rəsmi səfərə gəldiyinə görə Türkiyə Prezidenti Əhməd Necdət Sezərə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Türkiyənin onuncu Prezidenti cənab Sezərin xarici ölkələr arasında ilk dəfə Azərbaycana rəsmi səfərə gəlməsini çox əlamətdar hadisə kimi dəyərləndirən Prezident Heydər Əliyev respublikamız arasında dostluq, qardaşlıq münasibətlərinin, qarşılıqlı əməkdaşlığın dərin köklərə malik olduğunu nəzərə çarpdırdı.

Xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin dəyişməz və pozulmaz olduğunu vurğulayan dövlətimizin başçısı bu əməkdaşlığın Azərbaycan Respublikasının və Türkiyə Cümhuriyyətinin dövlət siyasətinin əsasını təşkil etdiyini bildirdi.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, islahatların müvəffəqiyyətlə aparılması nəticəsində əldə olunmuş uğurlardan danışan Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də ətraflı bəhs etdi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda yaşadığını xatırladan, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan bəhs edən dövlətimizin başçısı Türkiyənin bu sahədə respublikamıza göstərdiyi daimi dəstəkdən razılıqla söhbət açdı.

Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin durmadan inkişaf etməsini məmnunluqla vurğulayan Prezident Heydər Əliyev 1999-cu ildə İstanbulda məşhur "Çırağan" sarayında bir sıra ölkələrin dövlət başçılarının iştirakı ilə Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanmasını çox böyük tarixi hadisə kimi dəyərləndirdi.

Dost ölkədə ona göstərilən qonaqpərvərliyə görə Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab Əhməd Necdət Sezər ilk dəfə Azərbaycana rəsmi səfərə gəlməsindən böyük qürur duyduğunu nəzərə çarpdırdı.

Respublikamızın rəhbəri Heydər Əliyevin düzgün siyasəti nəticəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri yüksək qiymətləndirən dost dövlətin başçısı bölgənin iki mühüm ölkəsi olan Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin böyük sürətlə inkişaf etməsindən, beynəlxalq təşkilatlarda qardaş ölkələrimizin eyni mövqedən çıxış etməsindən, bir-birini daim dəstəkləməsindən məmnunluqla söhbət açdı.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində son vaxtlar göstərilən səylərdən razılıq hissi ilə bəhs edən Prezident Əhməd Necdət Sezər bildirdi ki, Türkiyə bu münaqişənin aradan qaldırılmasında Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.

Görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

Görüşün sonunda cənab Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevi Türkiyəyə rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

"Azərbaycan" qəzeti, 12 iyul 2000-ci il.

AZƏRBAYCAN-TÜRKİYƏ DANIŞIQLARI

Respublikamızın Prezidenti Heydər Əliyev ali qonağı və onu mü-

şəxsiyyət edən şəxsləri səmimiyyətlə salamlayaraq dedi:

- Zati-alilərı, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz, hörmətli Əhməd Necdət Sezər:

Hörmətli qonaqlar, dostlar!

Mən sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Hörmətli cənab Prezident, sizin Azərbaycana bu səfərinizi və bizim bu görüşlərimizi çox əlamətdar hadisə kimi qiymətləndirirəm.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq, qardaşlıq və geniş əməkdaşlıq əlaqələri dərin köklərə malikdir. Ancaq Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr sürətlə inkişaf edibdir. Əlaqələrimiz o qədər yaxındır ki, biz bir-birimizi ayrı bir dövlət, xalq kimi hiss etmirik. Belə bir zamanda, dönəmdə Türkiyənin yeni seçilmiş onuncu Prezidenti Əhməd Necdət Sezərin ilk xarici ölkəyə səfərinin Azərbaycana olması bizim üçün çox əzizdir, hörmətlidir və biz, Azərbaycan xalqı bunu yüksək qiymətləndiririk.

Təbiidir ki, biz bunu belə də düşünürdük və arzumuz da bu idi ki, Türkiyənin yeni seçilmiş Prezidenti ilk səfərini Azərbaycana etməlidir. Belə görünür ki, bizim də, sizin qəlbimizdə eyni fikirdəymiş. Ona görə də belə bir səfər indi mövcuddur, biz sizi qarşıladıq.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr sıx dostluq, qardaşlıq əlaqələridir. Bu əlaqələr heç vaxt dəyişməzdir, əyilməzdir, pozulmazdır. Çünki, birincisi, bu, xalqlarımızın iradəsidir; ikincisi, həm Türkiyə Cümhuriyyətinin, həm də Azərbaycan Respublikasının dövlət siyasətidir. Bu əlaqələr həm dostluq, həm də strateji tərəfdaşlıq əlaqələri xarakteri daşıyır. Ancaq insanlar, xalqlar arasında əlaqələr həmin bu formulalardan daha da çoxdur, genişdir.

Ötən illər biz bu əməkdaşlığımızdan çox faydalar əldə etmişik. Birincisi, 70 il bir-birimizdən ayrı olduğumuza görə keçmiş zamanda itirdiklərimizi bərpa etməyə çalışmışıq. İkincisi də bütün sahələrdə - həm iqtisadi, həm siyasi, həm elmi, həm də mədəni sahələrdə çox əhəmiyyətli işlər görmüşük.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman böyük bir problemlə rastlaşıbdır: 1988-ci ildə Ermənistan Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edibdir, Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana bağlamaq iddiasına düşübdür. Sonra bu proses genişlənib, müharibəyə çevrilib və Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı zorla çıxarılıb ölkəmizin başqa bölgələrində çadırlarda ağır şəraitdə yaşayır.

12 ildən bəri davam edən ağır münaqişə zamanı Türkiyə Cümhuriyyəti, xalqı Azərbaycanla həmişə bir olubdur və ölkəmizə dəstək veribdir, yardım edibdir.

Azərbaycan dövlət müstəqilliyini elan edən kimi onu ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Müstəqillik dövründə bir çox problemlərimizin həll olunmasında biz həmişə Türkiyənin dəstəyindən, yardımından istifadə etmişik.

Məlumdur ki, biz Ermənistan və Azərbaycan arasında olan münaqişəni 1994-cü ildə dayandırmışıq, atəşkəs rejimi yaranıbdır. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu illərdə aparılmış bütün sülh danışıqlarında həm ATƏT-in Minsk qrupunun üzvü kimi, həm də Azərbaycanın yaxın dostu kimi Türkiyə həmişə ölkəmizə yardım edibdir.

Xatirimdədir, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və nəhayət, 1999-cu il İstanbul zirvə görüşündə Türkiyə Cümhuriyyəti, onun dövləti, Prezidenti, əziz dostumuz Süleyman Dəmirəl bu məsələ ilə əlaqədar Azərbaycanın mövqelərini müdafiə etmək üçün, məsələnin həll olunması üçün nə qədər səylər göstərmişdir. Ancaq həmin səylər təkcə bu zirvə görüşləri zamanı deyil. Daim davam edir. Türkiyənin bütün hökumət, dövlət orqanları, Xarici İşlər Nazirliyi və başqa orqanları bu işdə həmişə bizimlə bərabərdirlər.

Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin ən önəmli hissəsi Azərbaycanın təbii sərvətlərinin, neft və qaz yataqlarının dünyanın böyük şirkətləri ilə müştərək işlənilməsinə başladığımız zaman Türkiyə ilə yenə də bərabər olmağımızdan ibarətdir.

1994-cü ilin sentyabr ayında ilk dəfə biz dünyanın 11 böyük neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan müqavilə imzaladıq. Həmin müqavilə imzalanan zaman da biz uzağa, irəliyə baxırdıq. Düşünürdük ki, biz buradan çoxlu neft hasil edəcəyik, dünya bazarlarına çıxaracağıq, onun da yolu ancaq Türkiyədən ola bilər. Ona görə də hələ o vaxt biz bu müqavilədə Bakı-Ceyhan əsas ixrac neft kəməri - indi ona Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri deyirik - haqqında cümlə yazmışdıq. Biz ötən beş ildə bu barədə birgə çox böyük işlər gördük. Nəhayət, keçən ilin noyabrında İstanbulda "Çırağan" sarayında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşa edilməsi barədə yüksək səviyyədə saziş imzaladıq. Bu sazişi Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikasının, Gürcüstanın, Qazaxıstan Respublikasının Prezidentləri imzaladılar. Amma bununla bərabər, Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Bill Klinton da bu sazişə öz imzasını atdı.

Sonrakı dövrdə Türkiyənin Böyük Millət Məclisi, Azərbaycanın Milli Məclisi, Gürcüstanın parlamenti bu sazişi təsdiqləyiblər, ratifikasiya ediblər. İndi biz əməli işə başlamışıq. İyun ayının 27-də Azərbaycan Dövlət Neft Şirkəti Bakı-Ceyhan əsas ixrac neft kəmərinin inşa edilməsi ilə əlaqədar böyük bir təqdimat mərasimi keçiribdir. Burada dünyanın 27 böyük neft şirkəti iştirak edibdir.

Onlara bütün şərtlər elan olunubdur. İndi bu sahədə əməli iş gedir.

Hörmətli cənab Prezident, güman edirəm ki, biz sizinlə təkbətək görüşdüyümüz zaman hörmətli Cümhur Ərsümər və Azərbaycan Dövlət Neft şirkətinin rəhbərləri bu məsələ barədə söhbət ediblər. Hesab edirəm, yəqin ki, burada bütün məsələlər normal vəziyyətdədir, bir problem yoxdur.

Bu məsələlər ondan ibarətdir ki, birincisi, biz birlikdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına başlamalıyıq. İkincisi, bilirsiniz ki, Azərbaycanın böyük qaz yataqları - birinci növbədə "Şahdəniz" qaz yatağı - aşkar edilibdir. Türkiyənin qaza ehtiyacı var.

Ötən ilin noyabrında İstanbulda biz Türkmənistanın Türkiyəyə qaz satması barədə Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə arasında bir anlaşma imzaladıq. Təəssüflər olsun ki, bu anlaşmanın həyata keçirilməsi, hələ ki, görünmür - ya ləngiyir, yaxud da hansı vəziyyətdə olduğunu biz bilmirik. Amma biz o vaxt da hesab edirdik ki, bu qaz kəməri ilə Azərbaycan qazı da Türkiyəyə ixrac olunacaqdır. Ancaq indi biz Azərbaycan qazını müstəqil olaraq Türkiyəyə ixrac etmək üçün tədbirlər görürük. Hörmətli Cümhur Ərsümər, güman edirəm, siz bu barədə də danışıqlar aparmısınız, razılığa gəlmisiniz.

Bunlar böyük layihələrdir. Amma bunlarla bərabər, iqtisadi sahədə çoxlu başqa işlər görülür. Türkiyəli iş adamları Azərbaycanda çoxlu işlər görürlər, ölkəmizə yardım edirlər. Azərbaycanın bir çox elm, mədəniyyət xadimləri Türkiyənin universitetlərində dərs deyirlər. Ölkəmizin çoxlu tələbələri Türkiyədə təhsil alırlar. Türkiyədən gəlmiş çoxlu tələbələr Azərbaycanda oxuyurlar.

Bir sözlə, əlaqələrimiz çox genişdir. Bu günə qədər əldə etdiyimiz nailiyyətlər bizi sevindirir. Ancaq biz irəli baxırıq, gələcəyi görürük. Hesab edirəm, gələcək də, ümumiyyətlə, çox sevindiricidir. Xüsusən, Türkiyə-Azərbaycan əlaqələrinin gələcəyi çox sevindiricidir və daha uğurlu olacaqdır.

Hörmətli dostum, Cümhurbaşkanı, hesab edirəm, sizin Azərbaycana ilk ziyarətiniz bu əlaqələrin inkişaf etməsinə, genişlənməsinə böyük təkan verəcəkdir. Türkiyə ilə Azərbaycan arasında indiyə qədər olan bütün əlaqələr bundan sonra da davam edəcəkdir. Təbiidir ki, buna heç bir şübhə yoxdur və şübhə etməyə əsas da yoxdur.

Mən sizi salamlayıram. Mənim dəvətimi qəbul edib xaricə ilk səfərinizi Azərbaycana etdiyinizə görə sizə təşəkkür edirəm və çox məmnun olduğumu bildirirəm. Sizə bildirmək istəyirəm ki, xalqımız, Azərbaycanın vətəndaşları da sizin bu qərarınızdan - ilk səfərinizi Azərbaycana etməyinizdən çox məmnundurlar.

Sizi bir daha salamlayıram. Buyurun.

Səmimi sözlərə və qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Türkiyə Prezidenti **Əhməd Necdət Sezər** dedi:

. Hörmətli Cümhurbaşkanı!

Cümhurbaşkanı seçildikdən sonra Kıbrısı nəzərə almasaq, xarici ölkəyə ilk səfərim Azərbaycana oldu. Bu qərarımda yanılmadığımı bu gün çox yaxşı görürəm. Bakıya qədəm qoyduğumuz andan bəri bizə göstərilən mehribanlıq xoşbəxtliyimizi daha da artırmırdır. Sizin dəvətinizlə ilk dəfə gəldiyim Azərbaycanın paytaxtı Bakıda olmaqdan xüsusilə şərəf duyuram.

Bir qədər əvvəl Sizinlə çox faydalı və səmərəli danışıqlar apardıq. Bu fürsətdən istifadə edərək, ikitərəfli münasibətlərimizi bütün cəhətləri ilə müzakirə etmək imkanı tapdıq. İki ölkə arasındakı siyasi münasibətlərin dostluq və qardaşlıq əsaslarına söykənən nümunəvi keyfiyyəti əlaqələrimizin gələcəyi baxımından bizə inam təlqin edir. Biz bunu birlikdə gördük və bundan çox şad olduq. Əlaqələrimizin bundan sonra da hər sahədə inkişaf etdirilməsinə bəslədiyimiz inamı eyni şəkildə paylaşdığımızı gördük.

Bunu da bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan münasibətləri Türkiyədə dövlət başçısının dəyişməsi ilə hər hansı bir dəyişikliyə məruz qalacaq əlaqələr deyildir. Buna görə də bu əlaqələr həmişə olduğu kimi, yenə də ahəngdar şəkildə davam edəcəkdir. Bunu bilməyinizi xahiş edirəm.

Beynəlxalq hüquq qaydalarına və Birləşmiş Millətlər Təşkilatının qərarlarına məhəl qoymayan Ermənistan tərəfindən Azərbaycan torpaqlarının beşdə birinin işğal edilməsi bölgədə sülhə və sabitliyə böyük təhlükə yaradır. Türkiyə bu problemin həlli yolunda bu günə qədər göstərilən sülh səylərinə və Azərbaycan Respublikasının müsbət mövqeyinə verdiyi dəstəyi bundan sonra da davam etdirəcəkdir. Biz Azərbaycan xalqının öz azad iradəsi ilə qəbul edəcəyi ədalətli sülhü hər zaman dəstəkləməyə hazırıq. Azərbaycan xalqı münaqişənin hansı həllini qəbul edəcəksə, həmin həll Türkiyə tərəfindən də dəstəkləyəcəkdir. Sanıram ki, bunu bilməyiniz çox faydalıdır.

Azərbaycanda olmaqdan böyük sevinc duyduğumu bir daha təkrarlayır, bizi dəvət etdiyiniz üçün dərin minnətdarlığımızı bildiririk.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm. Biz sizinlə baş-başa çoxlu söhbət apardıq, digər şəxsləri burada gözləməyə məcbur etdik. Amma bizim söhbətimiz, apardığımız danışıq çox faydalı oldu. Biz məsələlərin çoxunu orada müzakirə etdik. Ona görə də həmin müzakirəni burada təkrar etməyə ehtiyac yoxdur. Ola bilər, biz neft məsələləri barədə məlumatları ayrıca dinləyərik.

Əhməd Necdət Sezər: Bəli, necə istəsəniz, elə də edərik.

Heydər Əliyev: Yaxşı oldu. Onda biz protokol üzrə birgə bəyanat imzalamalıyıq. Sonra mətbuat konfransı keçirməliyik. Daha sonra isə protokol üzrə digər tədbirləri keçir-

məliyik.

Sağ olun.

"Azərbaycan" qəzeti, 12 iyul 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Zati-aliləri, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz, hörmətli Əhməd Necdət Sezər!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Bu gün Türkiyə Cümhuriyyəti Prezidentinin Azərbaycana səfəri xalqımız üçün çox əlamətdar hadisədir. Türkiyənin yeni seçilmiş Prezidenti xarici ölkəyə ilk səfərini Azərbaycana edibdir.

Hörmətli cənab Prezident, mənim dəvətimi qəbul etdiyinizə, bu səfərə gəldiyinizə görə sizə təşəkkür edir, minnətdarlığımı bildirirəm. Bütün xalqımızın, millətimizin, vətəndaşlarımızın minnətdarlığını bildirirəm.

Bu fakt, təbiidir ki, Türkiyə-Azərbaycan əlaqələrinin nə qələr yüksək səviyyədə olduğunu nümayiş etdirir. Ancaq bu səfər eyni zamanda gələcək üçün yeni əsaslar yaradır, əlaqələrimizin daha da inkişaf etməsi, genişlənməsi üçün böyük imkanlar açır.

Biz indicə birgə bəyanat imzaladıq. Bu bəyanat indiyə qədər Türkiyə-Azərbaycan əlaqələrinin əsasını təşkil edən sənədlərin hamısında əks olunan fikirləri, maddələri özündə ifadə edir.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında sıx əlaqələr yaranıbdır. Buna görə də çox müqavilələr, sazişlər, anlaşmalar, dostluq, əməkdaşlıq, strateji tərəfdaşlıq xarakteri daşıyan başqa sənədlər imzalanıbdır. Ona görə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişaf etməsi üçün hüquqi-normativ baza yaranıbdır.

Bu gün Türkiyənin yeni, onuncu Prezidenti, hörmətli Əhməd Necdət Sezərlə Azərbaycan Prezidenti arasında imzalanan birgə bəyanat, qeyd etdiyim kimi, indiyə qədər imzaladığımız sənədlər əsasındadır. Eyni zamanda bu, gələcəyə yönəlibdir, gələcəkdə əlaqələrimizin inkişaf etməsi üçün xüsusi əhəmiyyət daşıyır və özündə xüsusi fikirlər əks etdirir.

Beləliklə, bizim dostluğumuz, qardaşlığımız, əlaqələrimiz yaşayır, inkişaf edir və gələcəkdə görəcəyimiz işlər xalqlarımızı daha da birləşdirəcək, daha da yaxınlaşdıracaq və Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədi, dönməz olacaqdır.

Hörmətli cənab Prezident, mənim dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə sizə bir daha təşəkkür edirəm. Ümidvaram ki, bu səfər zaman nöqteyi-nəzərindən qısa da olsa, sizdə Azərbaycanın

gerçəkliyi haqqında müəyyən təəssüratlar yaradacaqdır. Sizə təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ ZİYAFƏTDƏ NİTQİ

- Zati-aliləri, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz, hörmətli Əhməd Necdət Sezər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin Prezidentinin Azərbaycana rəsmi səfəri başlanıbdır. Türkiyə Cümhuriyyətinin yeni seçilmiş Prezidenti hörmətli Əhməd Necdət Sezərin Azərbaycana rəsmi səfəri Türkiyə-Azərbaycan əlaqələrində, ölkəmizin həyatında əlamətdar hadisədir. Yeni seçilmiş Prezident xarici ölkəyə ilk səfərini Azərbaycana etdi. Bu, eyni zamanda, Türkiyə-Azərbaycan dostluğunun, qadaşlığının həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası üçün nə qədər əziz olduğunu nümayiş etdirir.

Əziz dostum, mən sizə təşəkkür edirəm ki, dəvətimi qəbul edib xarici ölkəyə ilk rəsmi səfərinizi Azərbaycana etmisiniz. Bu fürsətdən istifadə edib, Türkiyə Cümhuriyyətinin Prezidenti ilə mənim aramda təkbətək, baş-başa və çox uzun sürən danışıqlar oldu. Bu da təbiidir. Çünki biz dostuq, qardaşıq. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir. Bizim əlaqələrimizin çox dəyərli tarixi var. Buna görə də bu məsələləri bir daha xatırlamaq, bunlar haqqında fikir mübadiləsi aparmaq və fikirlərimizin eyni olduğunu müəyyən etmək lazım idi.

Hörmətli Prezident, mən bugünkü görüşümüzdən, danışıqlarımızdan çox məmnunam. Çünki bizim bu ilk görüşümüz, danışıqlarımız onu göstərir ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, əlaqələri ardıcıl surətdə davam edir, inkişaf edir və bundan sonra da inkişaf edəcəkdir. Bu onu göstərir ki, Türkiyə-Azərbaycan dostluq, qardaşlıq əlaqələrini heç bir hadisə dəyişdirə bilməz. Çünki bu əlaqələr dərin köklərə bağlıdır.

Xalqlarımızın əlaqələrinin qədim tarixi vardır. Biz eyni köklə, dilə, dinə, adət-ənənələrə malik olan xalqlarıq. Biz öz tarixi keçmişimizlə daim fəxr etmişik və fəxr edirik. Eyni zamanda, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonrakı dövr Türkiyə-Azərbaycan əlaqələrində xüsusi yer tutur və böyük əhəmiyyətə malikdir.

Azərbaycan əsrlər boyu azadlıq, müstəqillik arzusunda olubdur. Rus imperatorluğu dağılandan sonra 1918-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bəyan etdi, xalq cümhuriyyəti yarandı. Ancaq bu Cümhuriyyət cəmi 23 ay yaşadı, ondan sonra Rusiyanın mərkəzində möhkəmlənmiş kommunist rejimi vaxtilə rus

imperiyasına tabe olmuş əraziləri, torpaqları ələ keçirməyə çalışdı. Bunun nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ondan sonrakı dövrdə - 70 ildə Azərbaycanın həyatının həm dəyərli, həm də faciəli səhifələri oldu. Bütün çətinliklərə, məhrumiyyətlərə baxmayaraq Azərbaycan xalqı yaşayıb, inkişaf edib, böyüyüb, təhsilləniib, elmini, mədəniyyətini inkişaf etdiribdir.

Azərbaycan məhz XX əsrdə keçdiyi böyük inkişaf yoluna güvənərək bu gün dünyəvi, inkişaf etmiş bir dövlətdir. Ancaq yenə də arzularla yaşayırıq ki, biz daim müstəqil olaq, daim öz taleyimizin sahibi olaq və müstəqil dövlət kimi Dünya Birliyində öz yerimizi tutaq.

Sovetlər Birliyinin dağılması ilə əlaqədar 1991-ci ilin sonunda Azərbaycan öz dövlət müstəqilliyini bəyan etdi. Biz bu gün dövlət müstəqilliyimizin doqquzuncu ilini yaşayırıq. Amma həmin andan, ondan da öncə Türkiyə ilə Azərbaycan arasında əlaqələr artıq genişlənmişdir. Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi Azərbaycanın dövlət müstəqilliyini dünya ölkələri sırasında ilk tanıyan ölkə Türkiyə oldu.

Həmin dövrdə biz hələ dünyanın bir çox ölkələri ilə əlaqələr qurmağa çalışırdıq. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan kimi, ölkələrimiz arasındakı sərhədlər, qapılar dərhal açıldı, əlaqələr quruldu, qohumlar, dostlar birbiri ilə görüşdü, insanlar uzun illərdən bəri çəkdikləri həsrətdən qurtuldular. Beləliklə də Azərbaycan dövlət müstəqilliyini əldə edəndən indiyədək ölkəmizin ən yaxın dostu, Azərbaycanla ən yaxın əməkdaşlıq edən dövlət Türkiyə Cümhuriyyətidir. Azərbaycan da öz xarici siyasətində Türkiyə Cümhuriyyəti ilə dostluğa, əməkdaşlığa, qardaşlığa xüsusi əhəmiyyət verir.

Ötən illərdə bizim əlaqələrimiz inkişaf edibdir. Biz çox şeyə nail olmuşuq. Ən əsası odur ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı əbədidir, dönməzdir. Biz bütün sınaqlardan keçərək həm Türkiyə, həm də Azərbaycan üçün bunu müəyyən etmişik. Bizim gələcək əlaqələrimiz üçün bu, çox gözəl bir təməl yaradıbdır. Biz böyük bir ağacın - palıd ağacının təməlini qomuşuq. Bu ağac, yəni Türkiyə-Azərbaycan dostluğu əbədi olaraq yaşayacaqdır, inkişaf edəcəkdir, onun budaqları artacaqdır və xalqlarımız daha da birgə olacaqdır. Öz müstəqilliyini elan edən kimi, Azərbaycan bəyan etmişdi ki, demokratiya, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə gedəcəkdir. İndi Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Biz bu sahədə çox böyük nailiyyətlər əldə etmişik.

1995-ci ildə Azərbaycanın ilk demokratik Konstitusiyası qəbul olunubdur, parlament seçilibdir. Milli Məclis bu il öz fəaliyyətini başa çatdırır. Bu ilin noyabr ayında parlamentə yeni seçkilər təyin olunubdur.

Şübhə yoxdur ki, yeni seçkilər də tam demokratik, aşkarlıq şəraitində keçəcək, xalqın seçimi ilə Azərbaycanın yeni parlamenti seçiləcəkdir.

Azərbaycanda bütün insan azadlıqları - din, söz, mətbuat, fikir azadlığı təmin olunubdur və bundan sonra da təmin olunacaqdır. Bir sözlə, Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət kimi indi inkişaf mərhələsindədir. Təbiidir ki, qarşımızda hələ çox vəzifələr var. Biz bu vəzifələri yerinə yetirmək üçün əsas yarada bilmişik.

Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi bir çox problemlərlə rastlaşdı. Məlumdur ki, Azərbaycan hələ Sovetlər İttifaqının tərkibində olduğu zaman, 1988-ci ildə Ermənistan ölkəmizə təcavüz etmiş, torpaq iddiası qaldırmış, Azərbaycanın qədim torpağı olan Dağlıq Qarabağı ələ keçirməyə çalışmışdır. O vaxtkı proseslər Azərbaycan üçün xeyirli olmamışdır. Bu gün təəssüflə deyə bilərəm ki, Ermənistan qısa bir müddət Dağlıq Qarabağı işğal edə bilmiş, müharibə başlanmışdır. Bu müharibədə bizim çoxlu itkilərimiz olubdur, qan tökülübdür, torpaqlarımızın müdafiəsi uğrunda şəhidlər vermişik. Təbiidir ki, bu, müstəqil Azərbaycanın gənc müstəqil bir dövlət kimi daha da inkişaf etməsinə çox maneçilik törədibdir.

Digər tərəfdən, vaxtilə Azərbaycan Respublikasının daxilində ictimai-siyasi vəziyyət sabit olmayıbdır. Həm Ermənistanla aparılan müharibə, həm Azərbaycanda ictimai-siyasi sabitliyin olmaması ölkəmizdə dövlət quruculuğu prosesini və müxtəlif islahatların həyata keçirilməsini ləngidibdir.

Azərbaycan ağır bir dövr yaşayıbdır. Vaxtilə 3-4 ilin içərisində Azərbaycanda üç dəfə hakimiyət dəyişibir. Təbiidir ki, bunlar Azərbaycanın həyatının bütün sahələrinə mənfi təsir göstərib. Nəhayət, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Şükürlər olsun ki, biz bunların və 1994-cü ildə, 1995-ci illərdə dövlət çevrilişinə silahlı cəhdlərin qarşısını ala bilmişik. İndi Azərbaycanda möhkəm daxili sabitlik yaranıbdır.

Azərbaycanın iqtisadiyyatı 1990-cı ildən başlayaraq böhran içərisində olubdur. Ümumiyyətlə, 1989-1990-cı illərdə Azərbaycan həm ictimai-siyasi, həm də iqtisadi cəhətdən böhran dövrü yaşayıbdır. Ölkənin iqtisadiyyatı inkişaf etmək əvəzinə, ilbəil tənəzzülə uğrayıbdır. Yəni iqtisadiyyatın bütün sahələri üzrə göstəricilər hər il 20-25 faiz aşağı düşübdür.

Biz 1995-ci ildə bunun da qarşısını ala bildik. Yaxşı bilirsiniz ki, 1994-cü ildə Azərbaycanda inflyasiya 1400-1600 faizə çatırdı. Dediyim kimi, iqtisadiyyat çox bərbad vəziyyətdə idi. Biz 1995-ci ildə sabitlik yaratdıq, 1996-cı ildən Azərbaycanda iqtisadiyyat inkişaf etməyə başladı. Bu inkişaf da hər il artır.

Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, 2000-ci ilin birinci yarısında Azərbaycanın yaxşı iqtisadi

göstəriciləri vardır. Ümumi daxili məhsul 8 faiz artıbdır. sənaye məhsulu istehsalı 4 faiz, kənd təsərrüfatı məhsulu istehsalı 7 faiz artıbdır. Başqa sahələrdə də artım vardır. Azərbaycanda bir neçə ildir ki, inflyasiya sıfır faiz həddindədir. Belə olan halda istehlak mallarının qiyməti aşağı düşür.

Azərbaycanda iqtisadiyyatın, xarici ticarətin liberallaşdırılması, iqtisadi islahatların həyata keçirilməsi ölkəmizə dünyanın hər yerindən müxtəlif növ istehlak mallarının gəlməsini təmin edibdir. Təbiidir ki, bu da insanlar üçün böyük rahatlıq yaradıbdır.

İqtisadi göstəricilərin əsasını Azərbaycan dövlətinin iqtisadi siyasəti təşkil edir. Ölkəmiz bazar iqtisadiyyatı yolu ilə gedir. Təbiidir ki, 70 il sosialist iqtisadiyyatı şəraitində yaşamış bir ölkədə qısa bir zamanda əvvəlki sistemin əksinə olan bir sistemə keçmək asan bir iş deyildir. Ancaq nə qədər çətin də olsa, biz bu yolla gedirik.

Azərbaycanda bir sıra iqtisadi islahatlar həyata keçirilibdir, torpağın hamısı sahibinə-kəndlilərə paylanıbdır. Ölkəmizdə özəlləşdirmə proqramı həyata keçirilir, iqtisadiyyatımızın böyük bir hissəsi özəlləşdirilibdir. Bunların nəticəsində də, məsələn, sənaye istehsalı inkişafının 35-40 faizini özəl sektorun hesabına əldə edirik. Kənd təsərrüfatının təxminən 98 faizi, ticarətin 98 faizi özəl sektorun əlindədir. Başqa sahələrdə də belə yüksək göstəricilər vardır. Mən onların hamısını deyib vaxt almaq istəmirəm. Bir sözlə, bizim həyata keçirdiyimiz bütün islahatlar, struktur dəyişiklikləri çox yaxşı nəticələr veribdir və böyük perspektivlər açıbdır.

Ölkəmizin iqtisadiyyatının böyük bir hissəsini Azərbaycanın yeni neft strategiyası, xarici investisiyanın respublikamıza cəlb olunması təşkil edir. Biz 1994-cü ildən başlayaraq bu işlə ciddi məşğul oluruq. Məlumdur ki, 1994-cü ilin sentyabr ayında dünyanın 11 böyük neft şirkəti ilə ölkəmiz arasında Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi haqqında müqavilə imzalanmışdır. Bu müqavilə həyata keçirilir. Biz 1997-ci ildə həmin müqavilə üzrə neft hasil olunmasına başlamışıq, indi onu iki neft kəməri ilə ixrac edirik. Həmin kəmərlərdən biri Novorossiysk limanına, digəri isə Gürcüstanın Supsa limanına gedir və bu neft oradan dünya bazarlarına çıxarılır. Ancaq "Əsrin müqaviləsi" imzalanan zaman biz böyük neft kəmərinin yaranmasının əsasını qoymuşduq. Bu kəmər Bakı-Tbilisi-Ceyhan neft kəməridir.

Bundan sonra bir çox digər müqavilələr - 19 müqavilə imzalanıbdır. İndi dünyanın 32 böyük neft şirkəti Azərbaycanda fəaliyyət göstərir. Azərbaycana 5 milyard dollardan artıq investisiya gəlibdir. Onun 3 milyard dollardan çoxu neft sektoruna qoyulubdur.

Bizim bu və başqa tədbirlərimiz,

ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatı ilə bağlanması sahəsində gördüyümüz işlər Azərbaycanda iqtisadiyyatın inkişafını, xalqımızın rifah halının yaxşılaşmasını təmin etmişdir.

Biz dövlət büdcəsini tamamilə yerinə yetiririk. İlin ötən altı ay üzrə dövlət büdcəsi tam yerinə yetirilibdir. Əhalinin maaşları, pensiyaları təmin olunubdur. Yeri gəlmişkən onu da deyə bilərəm ki, Dünya Bankının nümayəndəsi ilə bu günlərdəki görüşümdə o, mənə dedi ki, bütün iqtisadi göstəricilərə görə və xüsusən kredit almaq imkanına görə Azərbaycan Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr içərisində birinci yerdədir.

Bütün bu nailiyyətlərin hamısı ölkəmizdə iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinin nəticəsidir. Təbiidir ki, bütün bu proseslərdə Azərbaycan ilə Türkiyə əlaqələri - həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə olan əlaqələr xüsusi yer tutur. Onu deyə bilərəm ki, özünün nefti olmasa da, indi Türkiyə neft ölkəsinə çevrilibdir.

Çünki Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üzrə imzalanmış dörd müqavilədə "Türkiyə petrolları" şirkətinin payı vardır və bu paylar artıq 35 faizə çatıbdır. Beləliklə, biz Türkiyə Cümhuriyyətini də neft islahatına cəlb etmişik. Təbiidir ki, bu da bizim ölkələrin iqtisadi əlaqələri üçün çox böyük əhəmiyyət daşıyır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri barədə biz beş il çətin yollardan keçərək iş apardıq. Çünki bu işə mane olanlar çox idi. Ancaq bizim iradəmiz - Türkiyənin və Azərbaycanın göstərdiyi iradə bütün maneələrin qarşısını aldı. Nəhayət, keçən ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşü keçirildiyi gündə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında saziş imzalandı. Ondan sonra Türkiyənin Böyük Millət Məclisi, Gürcüstanın Parlamenti və Azərbaycanın Milli Məclisi bu sazişi təsdiq etdi. İndi biz bu sahədə əməli işə başlamışıq.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri nəzəriyyədən əməli işə keçibdir. Türkiyədən gələn qonaqlarımıza bildirmək istəyirəm, - mən qardaş ölkəyə hər dəfə gələndə soruşurdular ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri olacaq, ya olmayacaq, nə vaxt olacaq? Mən ATƏT-in İstanbul zirvə görüşü zamanı da dedim, bu gün bir daha bildirirəm ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri var, olacaq və yaşayacaqdır. Bu, elə bir neft kəməridir ki, yüz il, bəlkə də, ondan da çox yaşayacaqdır. Bu da Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsi üçün xüsusi əhəmiyyət daşıyır, rol oynayır. Bu, həm iqtisadi əlaqələrimizi möhkəmləndirir, eyni zamanda xalqlarımızı, ölkələrimizi bütün sahələrdə bir-birinə daha da möhkəm bağlayır.

Azərbaycanın ən ağır, çətin problemi Ermənistanın təcavüzündən xilas olmaq və işğal edilmiş torpaqla-

rımızın azad olunmasıdır. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizi müxtəlif səbəblərdən işğal altındadır. Bir milyondan artıq vətəndaşımız, azərbaycanlılar yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşayırlar. Təbiidir ki, bu da Azərbaycanda həm ictimai, həm siyasi, həm də iqtisadi vəziyyəti ağırlaşdırır. Ancaq ən əsası odur ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulubdur.

Biz 1994-cü ildə müharibədə atəşi dayandırmışıq. İndi müharibə yoxdur. Altı ildən çoxdur ki, sülh əldə etmək istəyirik. Biz bu sahədə də Türkiyə ilə daim əməkdaşlıq edirik. Mən bu gün böyük məmnuniyyət, minnətdarlıq hissi ilə demək istəyirəm ki, Ermənistanın Azərbaycana təcavüzü başlayandan indiyə qədər Türkiyə Azərbaycanla bir yerdə olubdur, ölkəmizi dəstəkləyibdir, müdafiə edibdir. Türkiyə Ermənistanı təcavüzkar bir ölkə kimi dünyada pisləyibdir. Bütün beynəlxalq təşkilatlarda Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi müzakirə edilərkən Türkiyə həmin müzakirələrdə fəal iştirak edibdir. Bu münaqişənin həll olunması, Azərbaycana qarşı təcavüzün aradan götürülməsi üçün Türkiyə əlindən gələni edibdir.

Türkiyə ATƏT-in Minsk qrupunun üzvüdür, Türkiyə Cümhuriyyəti həm ATƏT-in Minsk qrupunun üzvü kimi, həm də dünya birliyində olan hörmətindən, imkanlarından istifadə edərək, Azərbaycanın qarşılaşdığı bu münaqişənin həll olunmasına çalışır. Ona görə də mən bir daha təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Ermənistan - Azərbaycan münaqişəsi çətin, ağır problemdir. Bəzi vaxtlarda biz bu münaqişənin həll olunmasına yaxınlaşırıq, bəzən ayrı-ayrı maneələr meydana çıxır. Ancaq bu gün biz Türkiyənin hörmətli Prezidenti ilə bu barədə çox ətraflı danışdıq. Biz eyni fikirdəyik ki, məsələni sülh yolu ilə həll etmək lazımdır. Bundan sonra da səylərimizi artırıb münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmaq lazımdır. Mən ümidvaram, inanıram ki, biz buna nail olacağıq və şübhə etmirəm ki, Türkiyə həmişə olduğu kimi, bundan sonra da bizimlə bərabər olacaqdır, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bizimlə birgə çalışacaqdır.

• Demokratik dövlət kimi Azərbaycan başqa dəyərləri öz milli dəyərləri ilə birlikdə ölkəmizin hər yerində tətbiq etməyə çalışır. Məhz bunların və Azərbaycanda gedən proseslərin nəticəsidir ki, ölkəmiz Avropa Şurasına daxil olubdur. Avropa Şurasının Parlament Assambleyası Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması barədə iyunun 28-də qərar qəbul etmişdir. Mən bunu deyərək bildirmək istəyirəm ki, dörd ildir Azərbaycan Avropa Şurasında nəmizəd kimi təmsil olunur. Bu illərdə Türkiyə Cümhuriyyəti və onun Avropa Şurasının Parlament Assambleyasında təmsil edilən deputatları Azərbaycana hər dürlü yardım göstəriblər. Məhz Türkiyənin Azərbaycana yardımı ölkəmizin Avropa Şurasına üzv qəbul olunmasına çox kömək edibdir.

Hörmətli Prezident ilə bu gün bizim apardığımız danışıqlar və Türkiyənin yeni Prezidentinin Azərbaycanda rəsmi səfərdə olması Azərbaycan - Türkiyə əlaqələrində yeni bir addımdır. Təbiidir ki, nə Türkiyənin, nə də Azərbaycanın bizim əlaqələrimiz barədə siyasəti dəyişmir və dəyişməcəyəkdir. Ancaq bu əlaqələri inkişaf etdirmək üçün belə görüşlərin, danışıqların, fikir mübadilələrinin çox böyük əhəmiyyəti vardır.

Mən çox məmnunam ki, hörmətli Prezident Əhməd Necdət Sezər ilə apardığımız danışıqlarda və bizim nümayəndə heyətləri ilə birgə apardığımız danışıqlarda bütün sahələr üzrə eyni fikirdə olduq. Biz həm beynəlxalq aləmdə gedən, həm Qafqazda olan proseslər, həm Azərbaycan - Türkiyə əlaqələri, həm də ölkələrimizin əlaqələrinin gələcəyi haqqında eyni mövqedə, fikirdə olduğumuzu bildirdik. Bu onu göstərir ki, biz bundan sonra daha sürətlə irəli gedə biləcəyik. Mən buna əminəm.

Mən çox şadam ki, biz bu gün yenə də bir yerdəyik. Baxmayaraq ki, Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri çox qısamüddətlidir, ancaq bu səfər də çox səmərəlidir, əhəmiyyətlidir. Bir daha bildirmək istəyirəm ki, Türkiyənin yeni Prezidentinin ilk səfərinin Azərbaycana olması bütün dünyaya böyük bir işarə verir. Bu, eyni zamanda bizə göstərilən diqqət, münasibət və qayğıdır. Biz bunu yüksək qiymətləndiririk və qiymətləndirəcəyik.

Hörmətli qonaqlar!

Hörmətli cənab Prezident!

Azərbaycana rəsmi səfərə gəldiyinizə görə mən sizə bir daha təşəkkür edirəm. Sizə, qardaş türk xalqına, Türkiyə Cümhuriyyətinə qarşıda duran bütün məsələlərin həll olunmasında uğurlar arzulayıram. Mən qardaş türk xalqına səadət, sülh, əmin-amanlıq arzulayıram.

Qədəhlərimizi Türkiyə Cümhuriyyətinin, Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostumuz cənab Əhməd Necdət Sezərin, bütün qonaqlarımızın şərəfinə qaldırmağınızı rica edirəm.

"Azərbaycan" qəzeti, 13 iyul 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ CÜMHURİYYƏTİ QURU QOŞUNLARININ KOMANDANINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 17-də Prezident sarayında Türkiyə Cümhuriyyəti Quru Qoşunlarının komandanı, ordu generalı Atilla Atəşi qəbul

etmişdir. Dövlətimizin başçısı Heydər Əliyev qonağı salamlayaraq dedi:

- Hörmətli general, hörmətli dostumuz!

- Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizin Azərbaycana səfərinizdən çox məmnunam. Çünki, Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri bütün sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində də inkişaf edib. Təbiidir ki, sizin Azərbaycan gəlməyiniz və buradakı vəziyyətlə tanış olmağınız bizim əməkdaşlarımızı daha da irəli aparmağa imkan verəcəkdir.

Səmimi qəbul üçün təşəkkür edən Türkiyə Cümhuriyyəti Quru Qoşunlarının komandanı, ordu generalı **Atilla Ateş** dedi:

- Möhtərəm Prezident, sizə məlum olduğu kimi, mən qardaş Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Səfər Əbiyevin dəvəti ilə Azərbaycana gəlmişəm. Təbii ki, burada, sizin sərrast ifadənizlə desəm, "bir millət, iki dövlət"dən biri Azərbaycanda olmaqdan böyük şərəf duyuram. Hədsiz məşğul olmağınıza baxmayaraq, vaxt tapıb məni qəbul etdiyiniz üçün sizə son dərəcə minnətdaram. Bu səfər zamanı biz həm nazir Əbiyevlə ölkələrimiz arasında müdafiə və ordu quruluculuğu sahəsində fikir mübadiləsi aparmaq, həm də burada işləyən dostlarımızın fəaliyyətini görmək imkanı əldə etdik. Vaxt tapıb məni qəbul etdiyiniz üçün bir daha təşəkkürümü bildirirəm. Azərbaycan prezidenti Heydər Əliyev qonağa təşəkkür edərək dedi:

- Çox sağ olun. Bu günlərdə Türkiyənin Prezidenti, hörmətli Əhməd Necdət Sezər Azərbaycana gəldi. O, Türkiyə Prezidenti seçildikdən sonra ilk xarici səfərini Azərbaycana etdi. Biz bunu gözləyirdik, bu səfərdən çox sevindik. Gördük ki, ölkələrimiz arasındakı münasibətlər eyni səviyyədə davam edir. Möhtərəm Prezident Sezər burada bəyan etdi ki, şəxsiyyətlər dəyişsə də, Türkiyə - Azərbaycan münasibətləri dəyişməyəcək. Dövlət öz siyasətini dəyişməz. Türkiyə ilə bizi çox qüvvətli tellər bağlayır. Onlar heç vaxt qırıla bilməz, əksinə, daha da möhkəmlənə bilər.

Səmimi sözlərə görə dövlətimizin başçısına minnətdarlığımı bildirən ordu generalı **Atilla Ateş** dedi:

- Möhtərəm Prezident, Siz son dərəcə təcrübəli siyasətçi və dövlət adamı kimi hər zaman bu həqiqətləri dilə gətirirsiniz. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər birtərəfli deyil, çoxşaxəlidir. Bütün sahələrdə siyasi, iqtisadi, hərbi sahələrdə möhkəm əməkdaşlığımız mövcuddur. Qardaş Azərbaycanın ziyarət etmək bizim üçün həqiqətən bəxtiyarlıqdır. Mənə belə imkan verdiyiniz üçün sizə bir daha dərin təşəkkürümü bildirirəm.

Heydər Əliyev: - Siz Azərbaycana ilk dəfə gəlirsiniz?

Atilla Ateş: - Bəli.

Heydər Əliyev: - Türkiyə ordusunun Baş Qərargah rəisi, hörmətli Hüseyn Kıvrıkoğlu Azərbaycanda olmuşdu. O, keçmişdə bir dəfə hörmətli Süleyman Dəmirələ gəlmişdi. O, Azərbaycanı tanıyır. İndi siz də gəlib tanış oldunuz.

Atilla Ateş: - İcazə versəniz, hörmətli Kıvrıkoğlunun sizə salamlarını yetirərdim.

Heydər Əliyev: - Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ CÜMHURİYYƏTİNİN QAZİLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 15-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin qaziləri Cəmil Fikrəti, Nevzat Sönməzi, Səlami Qaraçobanı, Ərcan Çalışırı, Burak Topraqyaranı, Türkiyənin ölkəmizdəki hərbi attaşesi, general Sadıq Ercanı, Gülhanə Hərbi Tibb Akademiyasının dosenti, hərbi həkim Əli Şehirlioğlunu və tibb bacısı Nesrin Demirarı qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Əziz dostlar, əziz qonaqlar!

Mən məmnunam ki, dəvətimi qəbul etmisiniz, Azərbaycana qonaq gəlmisiniz. Siz gələn gündən burada olmağınız mənim nəzarətim altındadır. Çünki siz mənim şəxsi qonağımsınız. Mənə verilən məlumatlara görə, siz Azərbaycanla bir az tanış ola bilmisiniz, istirahət etmisiniz. İki qardaş xalqın, qardaş və dost ölkələrin bir-biri ilə nə qədər dost, məhəbbət hissiyyatları olduğunu burada hiss etmisiniz.

Bir daha təşəkkür edirəm. Eyni zamanda təbiidir ki, - mən o vaxt Gülhanədə görüşəndə də demişdim, indi də deyirəm, - sizə və sizin simanızda bütün qardaş Türkiyənin, Türkiyə Cümhuriyyətinin qaziləri nə böyük hörmət-ehtiramımı bildirirəm. Siz qazilər və qardaş türk xalqının öz dövlətinin bütövlüyünü qorumaq uğrunda, terrorizmə qarşı mübarizədə, PKK terrorizminə qarşı mübarizədə şəhid olmuş bizim qardaşlarımız, övladlarımız - hamınız birlikdə həm Türkiyə Cümhuriyyətinin, türk xalqının fəxrisiniz, iftixarısınız, eyni zamanda Azərbaycan xalqının iftixarısınız, fəxrisiniz.

Siz bilirsiniz ki, Azərbaycan 12 ildən çoxdur ki, Ermənistanın təcavüzü ilə rastlaşıbdır. 1988-ci ildən Azərbaycana hərbi təcavüz edilibdir. Bundan sonra böyük müharibə olubdur. Bizim xalqımız çoxlu şəhidlər veribdir. Azərbaycanın da qaziləri var. 1994-cü ildə biz döyüşü, yəni atəşi dayandırmışıq, bu münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Ancaq xalqımızın verdiyi şəhidlərin xatirəsi bizim qəlbimizdə həmişə yaşayır və yaşayacaqdır. Həmin o döyüşlərdə, müharibədə qəhrəmanlıq göstərmiş, yaralanmış, xəsarət almış, əlil olmuş Azərbaycan övladları da bizim əziz övladlarımızdır. Biz onlara daim qayğı göstəririk və onlar buna layiqdirlər. Ona görə Azərbaycan üçün bu məsələ bəlkə başqalarına nisbətən daha da məlum, tanış bir məsələdir.

Siz Türkiyə Cümhuriyyətinin içərisində PKK terrorçuları ilə mübarizədə və yenə də deyirəm, Türkiyənin torpaq bütövlüyü uğrunda, Türkiyənin daxili sabitliyini pozmağa çalışanların qarşısını almaqla qəhrəmanlıqlar göstərmisiniz. Şəhidlər də bu yolda şəhid olublar.

Azərbaycanın qəhrəmanları, şəhidləri də Azərbaycanın torpaq bütövlüyü uğrunda, bir müstəqil dövlət kimi ölkəmizin suverenliyi uğrunda döyüşlərdə qəhrəmanlıq göstəriblər, şəhid olublar. Ona görə də bizim xalqlarımızın keçmişi də eynidir, adət-ənənəsi də eynidir, dili də, dini də - hamısı eynidir. İndi burada oturmusunuz, baxırsınız. Kim deyə bilər ki, bu, Anadolu türküdür, yaxud Azərbaycan türküdür? Fərqi yoxdur. Yəni biz bir kökdənik. Ona görə də bizim xarici görünüşümüz də bir-birinə çox bənzəyir. Bizi bir-birimizdən seçmək mümkün deyildir. Amma bizim dərdlərimiz də böyükdür.

Güman edirəm ki, siz Azərbaycanın torpaqları uğrunda aparılan müharibədə şəhid olanların və eyni zamanda, 1990-cı ilin yanvar ayında kommunist hökumətinin, Moskva hökumətinin Azərbaycana qarşı etdiyi təcavüz nəticəsində şəhid olmuş Azərbaycan övladlarının məzarlarını, qəbirlərini Şəhidlər xiyabanında gördünüz. Ora bizim müqəddəs yerimizdir. Bizim bütün bayram günlərimizdə də, yaxud matəm günlərimizdə, kədərli günlərimizdə də, sevincli günlərimizdə də hər bir Azərbaycan vətəndaşı oranı ziyarət etməyi özünə borc bilir. İndi bizim gənclərimiz ailə quranda, yəni evlənəndə öncə gedib o Şəhidlər xiyabanında, orada ucaldılmış əbədi məşəl abidəsi qarşısında bir-birinə sədaqət andı içirlər, sonra evlənirlər. Bu, təbiidir, çünki insanlar, yəni cəmiyyət, xalq, millət, dövlət gərək heç vaxt öz qəhrəmanlarını, şəhidlərini unutmasın.

Mən yaxşı bilirəm ki, Türkiyədə şəhidlərə, onların xatirəsinə və Türkiyənin müdafiəsi yolunda, - harada olur-olsun, yaxud sərhəd savaşı olsun, yaxud da içəridə, dağlarda PKK terroristləri ilə, başqaları ilə mübarizədə, - fərqi yoxdur, qəhrəmanlıq göstərmiş insanlara nə qədər böyük hörmət, ehtiram vardır və şəhidlər, onların məzarları, onların şəhidliyi nə qədər müqəddəsdir. Mən bunu Türkiyədə dəfələrlə öz gözlərimlə görmüşəm, televiziya ilə də seyr etmişəm. Eyni vəziyyət də buradadır. Yəni bu da bizim adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin eyni olduğunu, bir-birinə bənzər olduğunu bir daha göstərir.

Mənim xatirimdədir, 1991-92-93-cü illərdə Naxçıvanda işləyirdim. Bilirsiniz ki, Naxçıvan Muxtar Cümhuriyyətidir. Biz o vaxt Türkiyə ilə Azərbaycanın arasında ilk dəfə bir körpü yaratdıq. Bilirsiniz ki, Araz çayı Türkiyə-Azərbaycan sərhədini təşkil edir. Biz bir olmağımıza baxmayaraq, təəssüflər olsun ki, vaxtilə bu xəritələr elə qurulubdur ki, Azərbaycanla Türkiyənin cəmi 11 kilometrlik məsafədə sərhədi vardır. O da Azərbaycanın Naxçıvan bölgəsindədir. Ancaq bu sərhəddən Azərbaycan da, Türkiyə də heç vaxt istifadə edə bilməmişdir. 1992-ci ildə Türkiyə hökuməti bizimlə birlikdə qısa bir müddətdə o körpünü inşa etdi və buna insanlar "Həsrət körpüsü", "Ümid körpüsü" adı verdilər. Doğrudan da, indi oradan həm Türkiyənin şərq tərəfi - Ərzurumdur, Qarsdır, İqdırdır, Diyarbəkirdir - bunlar hamısı körpü vasitəsilə Naxçıvandan gedib-gəlirlər. Naxçıvandan da oraya təyyarə ilə gəlirlər. Eləcə də buradan. Demək, bu adlar düz verilmişdir: "Həsrət körpüsü" - ona görə ki, bizim xalqlarımız 70 il bir-biri ilə görüşmək həsrətini çəkmişdir, "Ümid körpüsü" - ona görə ki, bilirsiniz, Naxçıvan Azərbaycanın bir parçası olaraq muxtar cümhuriyyətdir.

Təəssüflər olsun ki, 1920-ci ildə Sovet hökuməti Ermənistan - Azərbaycan sərhədini elə bölübdür ki, Azərbaycan torpağı olan Naxçıvan ilə Azərbaycanın bu biri hissəsini birləşdirən Zəngəzur mahalını Ermənistana veribdir. Ora da Azərbaycan torpağıdır, orada da azərbaycanlılar yaşayıbdır, amma Ermənistana verilibdir. Ona görə də Naxçıvan Azərbaycanın böyük torpağından aralı düşübdür.

Vaxtilə, sovet dövründə elə bir problem yox idi. Çünki onda bir dövlət idi. Ancaq sonra Ermənistanla Azərbaycan arasında müharibə başladı və bu, Ermənistanın hərbi təcavüzü nəticəsində başladı. Naxçıvan Muxtar Cümhuriyyəti orada bir ada kimi qaldı. Ona görə də o körpünün açılması, yaranması Azərbaycan üçün, onun bir parçası olan Naxçıvan üçün həm "Həsrət körpüsü" idi, - ona görə ki, o 70 illik həsrətdən çıxdı, ikincisi də "Ümid körpüsü" idi, - çünki ümid də orada idi. Başa düşürsünüz?

O vaxtlar Naxçıvanla Ermənistanın sərhədində də bəzən döyüşlər gedirdi. Yəni Ermənistan silahlı qüvvələri çalışırdılar ki, Dağlıq Qarabağ ətrafında apardıqları savaşla bərabər, orada da bir savaş etsinlər. Bir, iki, üç dəfə belə savaşlar oldu. Bizim gənc övladlarımız vuruşdular, döyüşdülər, şəhid oldular. Amma bəziləri də yaralandılar. Onda Azərbaycanın iqtisadi, siyasi durumu çox çətin idi. Bu, 1992-ci ildə idi. Şəhid olan şəhid oldu, biz onları şəhid kimi torpağa verdik. Amma yaralananları, qaziləri - o vaxt Türkiyənin Baş naziri işləyən, mənim əziz dostum Süleyman Dəmirəl ilə biz telefonla danışdıq, - onları oradan Ərzuruma apardılar. Onları Ərzurum xəstəxanasında müalicə edirdilər. İndi bu, yadıma düşür.

Mən o vaxt iki aydan sonra Naxçıvandan Ankaraya getmişdim. Təbiidir ki, oraya İqdır, Ərzurum vasitəsilə gedirdim. Geriyə dönəndə Ərzurumda xahiş etdim ki, - Ərzurum Universitetinin böyük xəstəxanası var, - oradakı Azərbaycan övladlarını, qazilərini ziyarət edim. Oraya getdim, onları gördüm, danışdım,

onların müalicəsi haqqında yenə də bəzi tədbirlər görüldü və onlar sağaldılar, gəldilər.

İndi mən bunu niyə xatırlayıram? Çünki Ankarada da olanda mən Gülhanədə qaziləri gördüm. Yəni 1992-ci ildə Naxçıvanın, Azərbaycanın qazilərini, yaralananlarını görmüşdüm. 1999-cu ildə Gülhanədə isə bunları gördüm. İndi bunlar mənim beynimdə eyni bir mənzərə kimi görünür. Ona görə də mən deyirəm ki, Türkiyədə olduğu kimi, bizdə də sizlərə böyük hörmət, ehtiram vardır.

Bilirəm ki, Türkiyədə də sizə çox qayğı göstərilir, dövlətin, hökumətin qayğısı altındasınız. Ən əsası da odur ki, Türkiyənin çox güclü ordusu var və çox da intizamlı ordusu vardır. Türk ordusu həmişə güclü olubdur.

İndi bizim bu son illərdəki dostluğumuz, əməkdaşlığımız Azərbaycan müstəqillik əldə edəndən sonra olubdur. Bilirsiniz ki, 1918-ci ildə də Azərbaycan müstəqillik əldə etdi. Amma burada ermənilər yenə də azərbaycanlılara qarşı böyük ədalətsizliklər, savaşlar edirdilər. Onda hələ Osmanlı ordusu idi. Osmanlı ordusunun böyük hissəsi, böyük bir korpusu Nuru Paşanın rəhbərliyi altında buraya gəldi. Onlar burada - Bakıda, Gəncədə ermənilərin törətdiyi qırğınların qarşısını aldılar, şəhid oldular. O vaxt orada şəhid olmuşdular. O vaxt da onları indi bizim şəhidlərin məzarları olan yerdə dəfn etmişdilər.

Təəssüf ki, sonralar - Sovet hakimiyyəti dövründə bu, tamamilə unudulmuşdu və bizim xalqımız da heç bilmirdi. Xalqımızın tarixində Türkiyənin Osmanlı ordusu gəlib Azərbaycanın erməni qırğınlarından xilas olunmasına yardım edibdir. Amma adamlar şəhidlərin məzarlarının, qəbirlərinin harada olduğunu bilmirdilər. Bunu biz aradıq, tapdıq, Sadiq Paşa ilə birlikdə, Türkiyənin buradakı səfirliyi ilə birlikdə orada böyük bir abidə yaratdıq. Siz oranı da ziyarət etdiniz. Bunlar hamısı millətimizin qəhrəmanlarına, millətimizin şəhidlərinə göstərilən qayğımızdır, hörmətimizdir.

İndi XX əsr sona çatır. XX əsrin ilk dövründə də bizim xalqımız birbirinə yardım edibdir. XX əsrin sonunda da biz yenə bir-birimizə yardım edirik. Xüsusən Türkiyənin yardımı bizim üçün əhəmiyyətlidir. Bunları deyərək bir daha onu qeyd etmək istəyirəm ki, türk ordusu keçmişdə də çox güclü ordu olubdur. Amma Mustafa Kamal Atatürk tərəfindən yaradılmış cümhuriyyət və onun ordusu Türkiyəni bütün fəlakətlərdən xilas edibdir.

Siz tarixi yaxşı bilirsiniz. Amma bunu mən bir də qeyd etmək istəyirəm ki, əgər o vaxt Türkiyədə böyük Mustafa Kamal Atatürk kimi şəxsiyyət olmasaydı, bəlkə də Türkiyəni dağıtmaq istəyənlər buna nail ola bilərdilər. Ancaq o vaxt Mustafa Kamal Atatürk və onun silahdaşları, onunla eyni fikirdə olan adamlar birlikdə Türkiyəni xilas etdilər. Türkiyə Cümhuriyyəti yaratdılar. İndi 75 ildir ki, bu Türkiyə Cümhuriyyəti yaşayır və bunun əsasını təşkil edən Mustafa Kamal Atatürk tərəfindən yaradılmış türk ordusudur. Biz buna həmişə - keçmişdə də heyranlıqla baxmışıq, bu gün də o, çox güclü ordudur, çox intizamlı ordudur, çox mütəşəkkil ordudur və bu ordunun da özünəməxsus ənənələri vardır. Ona görə türk ordusunda xidmət edən hər bir türk oğlu üçün bu, böyük şərəfdir. Amma bu orduda şəhid olmaq, yaxud bu orduda qəhrəmanlıq göstərib qazi olmaq ikiqat şərəfdir.

Mən sizi bir də ona görə sevirəm ki, siz bizim qardaş Türkiyə Cümhuriyyətinin ordusunun, Mustafa Kamal Atatürkün yaratdığı ordunun əsgərlərisiniz. Türk əsgəri bizim gözümüzün önündə həmişə qəhrəmanlıq nümunəsidir. Siz də qəhrəmanlardansınız. Ona görə də mən sizin Azərbaycana gəlməyinizi arzu etdim, siz də gəldiniz. Amma mən çox dəvət etmişdim, az gəldiniz. Mən istəyirəm ki, hamısı gəlsin, Azərbaycanı görsünlər.

Güman edirəm ki, gördükləriniz sizin üçün yeni bir şeydir. Azərbaycanı heç vaxt görməmişdiniz. Ümid edirəm ki, siz burada olmağınızdan məmnunsunuz. Sizə bir daha hörmət və ehtiramımı bildirirəm.

Dövlətimizin başçısı Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin Azərbaycandakı hərbi attaşesi, general-mayor **Sadiq Ercan** dedi:

- Möhtərəm Prezident!

Siz Gülhanə Hərbi Tibb Akademiyasında olarkən türk qazilərinə baş çəkdiniz, onlara böyük diqqət və qayğı göstərdiniz. Onları orada bağrınıza basdınız, Azərbaycanda da bağrınıza basmaq istədiyinizi söylədiniz və buraya dəvət etdiniz. Zati-alinizin şəhidlərə, qazilərə və qəhrəmanlara olan sevgisi Azərbaycanda hamıya yaxşı məlumdur. Şəhidlər xiyabanının abadlaşdırılması, 1998-ci ilin oktyabrında açdığınız gözəl türbə-abidə həmin sevginin parlaq nümunəsidir. Sizin məşhur "Biz bir millət, iki dövlətik" kəlamınız bütün türklər tərəfindən həvəslə qəbul edilir. Məhz həmin duyğunu paylaşmaq üçün 1918-ci ildə Azərbaycana köməyə gəlmiş və burada şəhid olmuş 1138 türk övladının, habelə 174 azərbaycanlı şəhidin xatirəsinə ehtiram əlaməti olaraq tikilmiş abidə də türk və azərbaycanlı şəhidlərin xatirəsinə Sizin bəslədiyiniz dərin ehtiramdan xəbər verir. Bunun üçün Sizə təşəkkür edirik.

Sizin dəvətinizlə Azərbaycana gələn qazilərimizə göstərilən böyük qayğı, diqqət və qonaqpərvərlik üçün Sizə xüsusilə minnətdarıq. İcazə versəniz, qazilərimiz öz duyğularını şəxsən söyləyərlər.

Gülhanə Hərbi Tibb Akademiyasının dosenti, tibb xidməti mayoru **Əli Şəhirlioğlu** Azərbaycan Prezidenti Heydər Əliyevə müraciətlə dedi:

- Mən, Zati-alinizin Gülhanə Hərbi Tibb Akademiyasına ziyarət

zamanı Sizi müşayiət edən həkimlərdən biriyəm. Mən hər şeydən əvvəl, bu anda bizimlə birlikdə olmayan qazilərimiz, Gülhanə Hərbi Tibb Akademiyasındakı komandirlərim və müəllimlərim, qəlbi bizimlə bir çarpan türk xalqı adından Sizə salam və sevgimi ifadə etmək istəyirəm. Sizin dəvətinizlə buraya gəldiyimiz andan bəri bizim istirahətimiz üçün son dərəcə gözəl şərait yaradılmışdır. Bu, bizi həddsiz dərəcədə duyğulandırmış, xoşbəxt etmişdir. Bir insanın qürbət ölkədə qəribçilik çəkməsi üçün dili, dini fərqli olmalıdır. Ancaq biz Azərbaycana qədəm qoyduğumuz ilk andan etibarən dili bir, dini bir qardaşlarımızın arasında olduğumuzu gördük. Dalğalanan bayrağın üstündə isə ay və ulduz gördük. Bu göstərdi ki, biz xarici bir ölkədə deyilik, qərib deyilik, buradakı insanlardanıq. Buraya gəldikdən sonra Sizin "Biz bir millət, iki dövlətik" kəlamınızı da eşitdik və o, qəlbimizə nəqş olundu. Kaş ki, vaxtımız çox olaydı, burada öz qardaşlarımızın arasında daha uzun müddət qalaydıq. Amma neyləmək olar, hər şeyin bir sonu var. Azərbaycandan gedərkən, bizə göstərmiş olduğunuz diqqət və qayğıya görə şəxsən Sizə dostlarım adından çox təşəkkür edir, ehtiramımı bildirirəm.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Daha bir söz demək istəyən varmı? Yoxsa hamısını doktor dedi?

Qazi **Cəmil Fikrət** öz duyğularını dilə gətirərək dedi:

- Möhtərəm Cümhurbaşkanı! Bizi Gülhanədə ziyarət etdiyiniz zaman çox xoşbəxt olmuşduq. Buraya gəlməkdən isə daha çox bəxtiyarlıq duyduq. Burada bizə göstərilən qayğı və qonaqpərvərlikdən o qədər razı qaldıq ki, özümüzü xarici ölkədə deyil, lap evimizin içindəki kimi hiss etdik.

Dili bir, dini bir, qəlbi bir qardaşlarımızı burada görmək bizə saadət bəxş etdi. Mən bir ayağımı Türkiyə Cümhuriyyətinin yoluda verdim, o biri ayağımı isə qardaş Azərbaycan Cümhuriyyətinin uğrunda qurban verməyə hazıram. Çox sağ olun.

Heydər Əliyev: Çox sağ ol, təşəkkür edirəm. Daha bir söz deyən yoxdur?

Cəmil Fikrət Azərbaycan Prezidentinə xatirə hədiyyəsi təqdim etdi.

Heydər Əliyev qazilərə təşəkkür edərək dedi:

- Mən bu görüşdən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Bilirəm ki, siz sabah Türkiyəyə dönürsünüz. Türk əsgərinə məndən salamlar, hörmətlər, sayqılar çatdırmağınızı rica edirəm. Bu fürsətdən istifadə edərək, bütün türk xalqına Azərbaycan xalqının sevgi və məhəbbətini bir daha bəyan edirəm. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, sarsılmazdır. Bu ifadələri mən neçə illərdir işlədirəm, nə qədər ki, nəfəsim gedib-gəlir, işlədəcəyəm. Bizim əbədiyyətə qədər davam edəcək bu dostluğumuz, qardaşlığımız həm Türkiyənin, həm də Azərbaycanın inkişafını və bizim birliyimizi təmin edəcəkdir.

Azərbaycan müstəqil dövlətdir və bundan sonra da öz müstəqilliyini əlindən verməyəcəkdir. Bizim əldə etdiyimiz istiqlaliyyət tariximizin ən böyük qələbəsidir, ən böyük nailiyyətidir. Beləliklə, Azərbaycan bir müstəqil dövlət kimi qardaş Türkiyə Cümhuriyyəti ilə dostluğu, qardaşlığı ən əziz nemət hesab edir. Bu, belə də olacaqı Xalqımız da bu fikirdədir, dövlətimiz də bu fikirdədir, mən də bu fikirdəyəm. Xahiş edirəm, bu fikirləri birincisi türk əsgərinə, ikincisi də bütün türk xalqına çatdırasınız. Sağ olun.

"Azərbaycan" qəzeti, 16 avqust 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezident!
Əziz qardaşım!

Azərbaycan Respublikasının ikinci Prezidenti və Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, hörmətli Əbülfəz Elçibəyin Ankarada müalicə olunduğu xəstəxanada 22 avqust 2000-ci il tarixdə vəfat etdiyini böyük hüznlə öyrəndim.

Azərbaycanın müstəqilliyinin qazanılmasında mühüm rol oynamış, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin bütün sahələrdə inkişafına böyük töhfələr vermiş dəyərli dövlət adamı Elçibəyin itkisi tarixi və mədəni təllərlə bir-birinə bağlanan xalqlarımızı dərindən sarsıtmışdır.

Bu kədərli hadisə münasibətilə Zati-alilərinizə və Sizin şəxsinizdə mərhumun yaxınlarına, bütün Azərbaycan xalqına ən dərin başsağlığımı bildirirəm.

Əhməd Necdət Sezər
Türkiyə Respublikasının Prezidenti
22 avqust 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Dəyərli elm adamı və siyasətçi, sabiq Prezident Əbülfəz Elçibəyin vəfatından böyük üzüntü duydum.

Kədərinizi ürəkdən paylaşır, mərhuma Allahdan rəhmət, Sizə, Azərbaycan Respublikasının xalqına və mərhumun kədərli ailə yaxınlarına başsağlığı verir, səbir arzulayıram.

Hüseyn Kıvrıkoğlu
Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı
22 avqust 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Azərbaycan Respublikasının sabiq Prezidenti Əbülfəz Elçibəyin bir müddətdən bəri müalicə olunduğu Ankarada bu gün vəfat etdiyini üzüntü ilə öyrəndim. Qardaş və dost Azərbaycan xalqına Sizin şəxsinizdə başsağlığı verirəm, mərhuma Allahdan rəhmət diləyirəm.

Süleyman Dəmirəl
Türkiyə Respublikasının
doqquzuncu Prezidenti
22 avqust 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezident!

Azərbaycan Respublikasının müstəqillik əldə etməsində böyük əməyi olan dəyərli dövlət adamı, hörmətli Əbülfəz Elçibəyin 22 avqust 2000-ci il tarixdə dünyasını dəyişdiyini üzüntü içində öyrəndim.

Həyatını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, beynəlxalq miqyasda layiqli yerini alması məqsədlərinə həsr etmiş dəyərli siyasətçi Elçibəyə Allahdan rəhmət diləyir, onun yaxınlarına, Zati-alilərinizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına başsağlığı verirəm.

İsmayıl Cem
Türkiyə Respublikasının
Xarici İşlər naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezident!

Azərbaycan Respublikasının ikinci Prezidenti və Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, hörmətli Əbülfəz Elçibəyin vəfatını böyük üzüntü ilə öyrəndim.

Azərbaycanın suverenlik və müstəqilliyinin qazanılması və möhkəmləndirilməsində böyük əməyi olan dəyərli dövlət adamı Elçibəyin itkisi yalnız Azərbaycan xalqını deyil, türk xalqını da kədərləndirmişdir.

Mərhuma Tanrıdan rəhmət, kədərli ailəsinə, Azərbacyan Xalq Cəbhəsi Partiyasının üzvlərinə və Azərbaycan xalqına ən dərin hüznlə başsağlığı verirəm.

Məsud Yılmaz
Türkiyə Respublikası
Ana Vətən Partiyasının sədri
Ankara, 22 avqust 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Azərbaycan Respublikasının yetişdirdiyi dəyərli insan, tanınmış elm və dövlət adamı Əbülfəz Elçibəyin vəfatından böyük üzüntü duydum. Dərdinizə şərik olur, mərhuma Allahdan rəhmət diləyir, Azərbaycan Respublikasının xalqına və mərhumun ailə üzvlərinə, yaxınlarına başsağlığı verirəm.

Atilla Ateş
Ordu generalı, Türkiyə Respublikası Quru Qüvvələrinin komandanı
22 avqust 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 23-də Prezident sarayında Türkiyənin Dövlət naziri Abdulhaluk Mehmet Çayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

- Hörmətli qonaqlar, dostlar!

Adətən, bizim görüşlərimiz işlər üçün olur. Bugünkü görüşümüz isə kədərli bir hadisə ilə bağlıdır. Azərbaycanın keçmiş Cümhurbaşkanı Əbülfəz Elçibəy dünən Ankarada vəfat etdi. Bu, sizi də kədərləndiribdir, bizi də kədərləndiribdir. Əbülfəz Elçibəyin sağalmasını təmin etmək üçün Türkiyədə ən uzun müddət çox sayğılar, diqqət, qayğı göstərilmişdir. Məlumdur ki, onun müalicəsi çox yüksək səviyyədə həyata keçirilmişdir. Müalicəsi ilk vaxtlarda dövlət xəstəxanasında, sonra isə Türkiyənin ən yüksək tibb mərkəzi olan Türkiyə Hərbi Tibb Akademiyasının "Gülhanə" xəstəxanasında aparılmışdır. Ancaq təəssüflər olsun ki, həm həkimlərin, həm sizin, həm də bizim bu barədə cəhdlərimiz öz nəticəsini vermədi və Əbülfəz Elçibəy vəfat etdi.

İnsan həyatı belədir ki, bəzən bütün dünya da yığışsın, hansısa bir xəstəliyin qarşısını ala bilmir. Amma iş orasındadır ki, xəstəliyin qarşısını almaq üçün nə qədər mübarizə aparılıbdır, nə qədər işlər görülübdür. Biz özümüzə onunla təskinlik verə bilərik ki, sizin tərəfinizdən, Türkiyə Cümhuriyyəti, Türkiyə hökuməti tərəfindən Əbülfəz Elçibəyin xəstəlikdən xilas olması üçün, onun sağalması üçün əlinizdən gələni etmisiniz.

Mən də bir dəfə xəstə oldum, Türkiyəyə gəldim. Müalicə etdilər, qayıtdım gəldim. Bu, hər bir insan üçün ola bilər, hər bir insanın başına gələ bilər. Ancaq, yenə də deyirəm, siz, Türkiyə Cümhuriyyəti, hökuməti və Türkiyənin doktorları, həkimləri əlindən gələni ediblər, lakin istənilən nəticə alınmayıbdır, onu xilas et-

mək mümkün olmayıbdır.

Dünən mən bu xəbəri eşidən kimi, səhərdən dərhal həm Azərbaycanda lazımi tədbirlər görülməsi ilə məşğul oldum, həm də ki, Türkiyə Cümhuriyyətinin Prezidenti, Cümhurbaşkanı hörmətli Əhməd Necdət Sezər ilə telefon əlaqəsinə girdim. Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Bülənd Ecevit ilə bir neçə dəfə telefonla danışdım.

Mənim dərhal belə bir fikrim var idi. Mən burada xüsusi təyyarə hazırlamışdım ki, təcili onu göndərək. Ancaq hörmətli Baş nazir Bülənd Ecevit mənə dedi ki, Siz bundan narahat olmayın, hər bir məsələni burada lazımi səviyyədə təşkil edəcəyik, onun cənazəsinin öz vətəninə gətirilməsini təmin edəcəyik. Ona görə də dünən biz bu məsələni izləmişik, bununla məşğul olmuşuq və təşəkkür edirəm ki, siz də onun cənazəsi ilə bərabər Azərbaycana gəlmisiniz.

Mən dünən dərhal bu işlə məşğul olarkən, - hər ölkənin öz qanunqaydası var, - bizim adət-ənənəmiz, qanun-qaydamız belədir ki, yüksək səviyyəli, yəni dəyərli insanlar, böyük dövlət, siyasət adamları vəfat edəndə onların haqqında xüsusi qərar qəbul olunur, onların dəfn edilməsi yeri müəyyən olunur, xüsusi komissiya yaradılır. Bunlara görə də mən dərhal bizim Təhlükəsizlik Şurasını, yəni Güvənlik Şurasını topladım, öz fikirlərimi bəyan etdim. Azərbaycanın sabiq Prezidenti kimi, Əbülfəz Elçibəyin təbiidir ki, yüksək səviyyədə dəfn mərasimi keçirilməlidir. Bizim də ən yüksək səviyyəmiz odur ki, Azərbaycanda hələ 70-80 il bundan öncə xüsusi qəbiristanlıq var, ona Fəxri xiyaban deyirlər, orada Azərbaycanın ən görkəmli adamları dəfn olunur. Qərar verdim ki, dəfn orada keçirilsin.

Azərbaycan Elmlər Akademiyası bizim ən mötəbər elm mərkəzimizdir. Onanın böyük salonu vardır və Azərbaycanın görkəmli alimləri, akademikləri, professorları, yəni ancaq ən görkəmliləri ilə, adətən, o salonda vidalaşma mərasimi keçirilir. Bunun haqqında da əmr verdim. Qərar verdim ki, dəfnin bütün xərcləri Azərbaycan hökumətinin üzərinə götürülsün.

Dəfni təşkil etmək üçün xüsusi komissiya yaratdıq. Komissiyanın tərkibi sizə məlumdur. Onun sədri, yəni başkanı bizim Milli Məclisin sədridir. Orada Xarici İşlər naziri də, Bakı şəhərinin valisi də və başqa yüksək vəzifəli şəxslər də vardır. Eyni zamanda, Xalq Cəbhəsindən Əbülfəz Elçibəyin silahdaşları, onun müavinləri də bu komissiyanın tərkibindədir.

Bunları etməzdən əvvəl və bunu edərkən mən televiziya ilə bütün Azərbaycana - burada Türkiyənin də televiziya kanalları var idi - bəyan etdim. Həm onun vəfatı ilə əlaqədar başsağlığı verdim, həm də qəbul etdiyim qərarların hamısını elan etdim. Onları da biz həyata keçiririk.

Dünən siz onun cənazəsini gətirəndə, bizim yaratdığımız komissiya üzvlərinin hamısı orada sizi qarşılayırdı - məclisin sədri və başqaları. Ondan sonra mərhumun evinə gedibsiz. Bu gün səhərdən də onun evindəsiniz. Yəni Əbülfəz Elçibəy keçmiş Cümhurbaşkanı kimi yüksək dövlət səviyyəsində dəfn edilir.

Mən Türkiyə Cümhuriyyətinə, Türkiyə hökumətinə, Türkiyə dövlətinə, xüsusən Türkiyənin Prezidenti, hörmətli Əhməd Necdət Sezərə, Türkiyənin Baş naziri, hörmətli Bülənd Ecevitə, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, hörmətli Hüseyn Kıvrıkoğluna və sizlərə, dövlət nazirlərinə, nazirlərə, millət vəkillərinə - hamınıza bu kədərli hadisə münasibətilə, Əbülfəz Elçibəyin həm müalicə olunması, həm də o vəfat edəndən sonra cənazəsinin lazımi səviyyədə Azərbaycana göndərilməsi ilə əlaqədar gördüyünüz işlərə görə bir daha təşəkkür edirəm.

Eyni zamanda mən bunu təbii hesab edirəm. Çünki Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı məhz elə səviyyədədir ki, bunu başqa cür təsəvvür etmək mümkün deyildir. Ancaq hər halda hər bir hadisə özünün qiymətini almalıdır. Ona görə də mən təşəkkürlərimi bildirirəm.

Əbülfəz Elçibəy bu gün yüksək səviyyədə Fəxri xiyabanda dəfn olunacaqdır. Mən xalqımıza da başsağlığı verirəm, sizə də başsağlığı verirəm. Əbülfəz Elçibəyin ailəsinə, yaxınlarına, əqrəbalarına başsağlığı verirəm.

Başınız sağ olsun!

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab **Abdulhaluk Mehmet Çay** dedi:

- Hörmətli Cümhurbaşkanı!

Rəhmətlik Əbülfəz Elçibəyin vəfatı ilə əlaqədar Bakıda olduğumuz bu müddətdə bizi qəbul etdiyiniz üçün Zati-alinizə təşəkkür etməyi özümüzə bir borc bilirik.

1918-ci ildəki milli demokratik Azərbaycan Cümhuriyyətini yaşadanlardan biri kimi, rəhmətlik Elçibəy 1990-cı illərdə ilk demokratik yol ilə Cümhurbaşkanlığına gələn və Azərbaycanda Sizin davam etdiyiniz demokratiyanın inkişafına dəstək verən önəmli liderlərdən biri idi. O, bütün türk dünyasında sevilən, qəlbi türklük üçün döyünən və Türkiyə sevgisini, Atatürk sevgisini yaşadığını bizim yaxından gördüyümüz bir insan idi. Onun vəfat etməsinə görə azərbaycanlı qardaşlarımız qədər, sizlər qədər bizlər də üzgünük.

Hörmətli Cümhurbaşkanımızın dediyi kimi, türk millətinin, azərbaycanlı qardaşlarımızın başı sağ olsun! Rəhmətliyə Allahdan qəni-qəni rəhmət diləyirik.

Bu vəsilə ilə, hörmətli Cümhurbaşkanımın qeyd etdiyi kimi, Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq heç bir gücün yıxa bilməyəcəyi dərəcədə qüvvətlidir. Bunun təməlləri çox dərinliyə enmişdir.

Hörmətli liderlərimizin hər zaman bildirdikləri kimi, biz eyni kökdən gələn bir millətik, amma iki ay-

rı dövlətik. Dövlət olaraq bir-birimizin daxili işlərinə qarışmamağa və qardaşlıq içərisində siyasi münasibətlərimizi inkişaf etdirməyə çalışırıq və bizim yaxşı əlaqələrimiz vardır.

Türkiyə ilə Azərbaycan Qafqazda güvənilən bir dost, müttəfiq və Qafqazda sülhün təminatçısıdır. Həmçinin Bakı-Ceyhan boru xəttini yalnız Azərbaycanın deyil, Orta Asiya türk cümhuriyyətlərinin də inkişafına təminat yarada bilən bir boru xətti kimi qəbul edirik. Bu xəttin Türkiyə üçün çox böyük mənfəəti olmayacaqdır. Düzdür, bir çox ehtiyaclarımızı ödəyəcəkdir. Amma biz Kərkük-Yumurtalıq boru xəttindən də istifadə etməliyik. Belə bir xətdən istifadə etmək mümkündür. Ancaq Türkiyənin əsas önəm verdiyi Bakı-Ceyhan xətti Gürcüstanın, Azərbaycanın və Orta Asiya türk cümhuriyyətinin təminatçısı ola bilən və Qərblə inteqrasiya edə biləcək çox önəmli strateji bir layihədir.

Hörmətli Cümhurbaşkanlarımızın, liderlərimizin xidmətləri ilə bu xəttin sürətlə həyata keçirildiyini bildirmək istəyirəm.

Qarabağ məsələsində Türkiyənin baxışı fərqli deyildir. tarixçi olduğum üçün söyləyirəm, - Qarabağda ermənilərin heç bir haqqı yoxdur. Çünki ermənilər oranın qonağıdır, oraya sonradan gəlmişlər. 1828-ci ildə Türkmənçay müqaviləsi ilə İrandan, 1829-cu ildə Ədirnə müqaviləsi ilə Türkiyədən süni olaraq gətirilən ermənilərin hesabına ermənilər orada məskunlaşıblar. Qarabağ bir türk yurdudur. Qarabağla bağlı Azərbaycan türkünün istəyi xaricindəolan hər hansı bir çözümü Türkiyənin qəbul etməsi heç cür mümkün deyildir. Bunu biz Türkiyə olaraq, Zati-alinizə təkrar söyləməkdən məmnunluq duyuruq.

Hörmətli Cümhurbaşkanım!

Bu vəsilə ilə, bir il yarımdır qurulmuş 57-ci hökumətin türk Cümhuriyyətləri ilə bağlı işlərlə məşğul olan naziri kimi, bəzi məsələləri Zati-alinizə ərz etmək istəyirəm.

Ötən on il içərisində türk cümhuriyyətləri arasındakı əlaqələrin müsbət və mənfi yönlərini, yəni yol vermiş bəzi səhvləri, - burada Türkiyənin, digər türk Cümhuriyyətlərinin səhvi nədir, siyasətçilərimizin səhvi nədir, - bunları müzakirə etmək üçün son bir ildə çoxlu görüşlər keçirdik. İnşallah, önümüzdəki illərdə hökumətimiz tərəfindən bu sahədə bir çox işlər davam etdiriləcəkdir və bu, türk Cümhuriyyətlərinin yüksəlməsinə, güclənməsinə, möhkəmlənməsinə, iqtisadiyyatın inkişafına, demokratiyanın güclənməsinə xidmət edəcəkdir.

Biz Azərbaycana gəlib Zati-alinizə bu sahədə vaxtlı-vaxtında məlumat verməyi özümüzə borc bilirik. Bu baxımdan Türkiyə, 57-ci hökumətimiz yeni dönəmdə türk Cümhuriyyətləri ilə daha sıx işbirliyi qurmaq niyyətindədir. Baş nazirimiz hörmətli Büləd Ecevit, Baş nazirin müavini, hörmətli Dövlət Baxçalı ziyarətinizə gələcəklər. Zənn edirəm ki, yeni bir dövr başlayacaqdır. Bu yeni dövrdə keçmişdəki səhvləri düzəldəcək, bir-birimizi daha yaxşı sevəcək bir siyasət aparmaq fikrindəyik.

Hörmətli Cümhurbaşkanım!

Burada iştirak edənlər arasında mən Azərbaycana nazir kimi ən çox gələnlərdənəm. Zati-alinizlə bir çox görüşlər keçirmək imkanı qazanmışam. Mənə göstərdiyiniz nəzakətə görə Sizə təşəkkür edirəm.

Bizim türk cümhuriyyətlərində bir sıxıntımız vardır. Zati-alinizin icazəsi ilə onu xatırlatmaq istəyirəm və bunu deməyi özümə borc bilirəm.

Son siyasi hadisələr çərçivəsində başqa dövlətlərin təşviqi ilə Türkiyənin iş adamlarına qarşı bir xoşagəlməzlik kimi yanaşmalar vardır. Yəni bunu təkcə Azərbaycan üçün söyləmirəm. Digər türk cümhuriyyətlərində - Qazaxıstanda da, Türkmənistanda da, Özbəkistanda da, Qırğızıstanda da bu münasibətin acı nəticələrini görürük.

Hörmətli Cümhurbaşkanım, əlaqələrimizlə bağlı bir təlimat verməyiniz yerinə düşərdi. Biz qanunlara sadiqik, buradakı qanunlara hörmətlə yanaşırıq. Azərbaycanda Azərbaycanın qanunları işləməlidir. Buraya gələn - iş adamı olsun, dövlət adamı olsun, məmur olsun - buradakı qanunlara hörmətlə yanaşmalıdır. Biz sizin bu sahədə qanunlarımıza diqqətliyik. Amma burada çalışan iş adamlarımıza, yəni türk iş adamlarına qarşı mənfi işlərin qarşısının alınması sahəsində Zati-alinizin bir fərman imzalamasını arzu edərdik.

Bizi qəbul etdiyinizə, göstərdiyiniz nəzakətə görə, hörmətli Cümhurbaşkanım, - mən hörmətli Cümhurbaşkanım deyirəm, Siz bizim də Cümhurbaşkanımızsınız, - Sizə çox təşəkkür edirik. Sizlərə təkrar başsağlığı verirəm. İnsanlar fanidir, dövlətlər əbədidir və dövlət hər bir insanın göstərdiyi xidmətlərlə dirçəlir.

Rəhmətlik Əbülfəz Elçibəyə Allahdan rəhmət dilərkən, Sizlərə bir daha başsağlığı verirəm. Biz hər zaman əmrlərinizi yerinə yetirməyə hazır olduğumuzu bildiririk. Bir daha təşəkkür edirəm.

Cənab Abdulhaluk Mehmet Çaya minnətdarlığını bildirən Prezident **Heydər Əliyev** dedi:

- Təşəkkür edirəm. Türkiyə-Azərbaycan dostluğunun kökləri çox dərindir. Azərbaycan-Türkiyə əlaqələri Qafqazda, bütün dünyada çox qısqanclıq, rahatsızlıq yaradıb. Bu gün səhər mən Moskvada çıxan bir qəzetə baxırdım. Orada bu barədə bir məqalə vardır. Belə məqalələri hər gün yazırlar. Çünki böyük bir qorxu yaranıbdır. Baxmayaraq ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edib, bir milyon azərbaycanlı öz yerindən-yurdundan zorla çıxarılıb, çadırlarda yaşayır, erməni lobbisi çox güclü olduğuna görə dünya ictimaiyyətində həm Azərbaycana, həm də Türkiyəyə

qarşı çox böyük təbliğat aparır. Siz bunları yaxşı bilirsiniz.

İndi bir çox ölkələrin qəzetlərində, xüsusən Moskva qəzetlərində çox rahatsızlıq hissi ilə yazırlar ki, Qafqazda, xüsusən Azərbaycanda Rusiyanın və Amerikanın maraqları toqquşur, ziddiyyətdədir, bu işdən udan Türkiyədir. Bu, böyük bir məqalədir, mən ona çox vaxt sərf etmək istəmirəm. Türkiyənin böyük elçisi Moskva qəzetlərinə baxırsa, - əgər baxmırsa, baxmağı məsləhət görürəm, çünki son vaxtlar bu barədə təbliğat çox genişlənibdir, - bunları görür. Amma bu, təkcə bizə qarşı deyil. Həmin təbliğat həm bizə, həm də Türkiyəyə qarşıdır.

Bizim bu dərin köklərimiz, dostluğumuz, qardaşlığımız həmişə - keçmişdə də, Azərbaycan müstəqillik əldə edəndən sonra da - bəzi dairələr tərəfindən rahatsızlıqla qarşılanır. Ona görə də gərək biz daha sıx əməkdaşlıq edək.

Təbiidir ki, Azərbaycan torpaqlarının hamısı Azərbaycana məxsusdur. Hətta indi Ermənistan ərazisində olan torpaqların da böyük bir qismi Azərbaycana məxsusdur. Zəngəzur tamamilə Azərbaycan torpağıdır. Vaxtilə orada yaşayanların tam əksəriyyəti, çoxu azərbaycanlılar olublar. Amma Sovet hakimiyyəti qurulandan sonra, 1920-ci ildə Sovet İttifaqına daxil olan Cümhuriyyətlərin sərhədləri qurulanda belə bölüblər. Azərbaycan torpaqlarının bir qismini Ermənistana veriblər. Dağlıq Qarabağda da bir muxtar, yəni özəl vilayət yaradaraq, gələcəkdə Azərbaycanı partlatmaq üçün onu oraya bir bomba kimi qoyublar.

Siz bunu bilməlisiniz, tarixçisiniz, gərək biləsiniz, - sovet dövründə uzun illər Dağlıq Qarabağı Ermənistana bağlamaq istədilər. Mən vaxtilə 14 il Azərbaycana rəhbərlik etmişəm. O dövrdə də, ondan əvvəl də çox vaxt, dəfələrlə Ermənistan millətçiləri, ekstremistləri Moskva qarşısında təkliflər qaldırıblar, oraya yazılar göndəriblər ki, "Dağlıq Qarabağ Ermənistanındır, orada ermənilər çoxluq təşkil edir, o, Ermənistana bağlı olmalıdır". Biz o vaxt bunların qarşısını almışıq. Şəxsən mən özümə şərəf hesab edirəm ki, Azərbaycana 14 il başçılıq edəndə bu məsələnin qarşısını bir neçə dəfə almışam.

1977-ci ildə Sovetlər İttifaqının yeni konstitusiyası, ana yasası yaranırdı. Bilirsiniz ki, Sovetlər İttifaqının ilk konstitusiyası 1936-cı ildə yaranmışdı, ona "Stalin konstitusiyası" deyirdilər. Amma 1977-ci ildə ölkədə hakimiyyət dəyişdiyinə, müəyyən dəyişikliklər olduğuna görə yeni bir konstitusiya, ana yasası yaratmaq prosesi başlandı və bununla əlaqədar böyük bir komissiya yaradıldı. Həmin komissiyanın başında Sovetlər Birliyinin o vaxtkı rəhbəri Brejnev dururdu. Mən də bu komissiyanın üzvü idim. Biz ayda bir dəfə toplaşırdıq, gələn təklifləri müzakirə edirdik. Bir neçə dəfə təkliflər gəldi ki, "Dağlıq Qarabağı Ermənistana

verməк lazımdır". Bunu həm Ermənistanda, həm də Dağlıq Qarabağda bəziləri, həm də - Moskvada ermənilər çoxdur - onlar etmişdilər.

Bizim dərdimiz bundan ibarətdir ki, Türkiyənin də lobbisi hələ çox zəifdir. Mən bir çox ölkələrin timsalında bunu deyə bilərəm. Amma Azərbaycanın heç lobbisi olmayıbdır. Çünki əvvəllər Azərbaycan müstəqil dövlət deyildi.

Mən o vaxt gördüm ki, konstitusiya komissiyasında çoxları bu qərarı qəbul etmək istəyirlər. Mən bir dəfə, iki dəfə böyük etiraz etdim. Sonra isə gedib Brejnevlə bu məsələ barədə iki-üç dəfə baş-başa danışdım ki, siz nə edirsiniz? Əgər belə olsa, onda biz Sovetlər İttifaqının tərkibindən çıxırıq. Mən bu gün bunu bəyan edirəm.

Bax, bu cür cəsarətli addımlarla biz bunların qarşısını aldıq.

1982-ci ilin sonunda məni buradan Moskvaya böyük bir işə apardılar. Mən oraya gedərkən buradakılara bir-iki məsləhət verdim. Dedim, birincisi məsələ odur ki, Dağlıq Qarabağ problemini hər gün diqqətinizdə saxlayın. Çünki Azərbaycana qarşı ola biləcək ən təhlükəli hal budur. Doğrudur, bir neçə il burada mənim həmin məsləhətlərimə baxdılar, amma get-gedə unutdular. 1988-ci ildə Sovetlər İttifaqında müəyyən proseslər getdi, ermənilər bundan istifadə etdilər.

İş burasındadır ki, mən də tarixçiyəm. Amma mən tarixçidən çox siyasətçiyəm. Çünki mənim həyatım 18-19 yaşımdan siyasətlə bağlı olubdur.

1988-ci ildə bu məsələ başlandı. Mən 1987-ci ildə Siyasi Büronun üzvü idim. O dövrdə bu məsələ Siyasi Büroda qalxanda mən onun qarşısını alırdım. Sovetlər birliyinin tarixində mən Siyasi Büronun üzvü olan ilk azərbaycanlı, türk idim. Ondan əvvəl heç kəs olmamışdır. İndi bəziləri deyirlər ki, Heydər Əliyev kommunist, Siyasi Büronun üzvü olubdur. Sizə açıq deyirəm, mən bununla fəxr edirəm. Nə üçün fəxr edirəm? Çünki bir var ki, türk gəlib Azərbaycanda, yaxud türk gəlib Türkiyədə otursun, bir də var ki, türk gəlsin, dünyanın ən böyük imperiyalarından birinin başında otursun. O, gedib orada türk dilini dəyişmir, türk, azərbaycanlı olaraq qalır, ancaq öz millətinin mənafeyini qoruyur. Mən də orada millətimin mənafeyini beş ildən çox qorudum. Amma sonra mən anladım, son illər orada mənim işim çətinləşmişdi. Nə üçün? Qorbaçov hakimiyyətə gələndə biz ona kömək etdik. Amma sonra mən gördüm ki, müsəlman, türk xalqlarına münasibət dəyişir.

Əvvəllər də bu məsələdə ikili standart var idi. Məsələn, Sovetlər İttifaqının tərkibində 15 cümhuriyyət var idi. Müsəlman, türk Cümhuriyyətlərinə münasibət bir cür idi, amma o birilərinə münasbət daha yaxşı idi. Biz bunları yaşamışıq. Mən bunların hamısını yaşamışam və həmişə də bunlarla mübarizə aparmışam.

Yenə də deyirəm, ikili standart həmişə olubdur, amma xüsusən Qor-

baçovun vaxtında müsəlman, türk ölkələrinə qarşı daha da gücləndi. Ona görə də mən onunla konfliktə getdim. Yəni qovğa etmək istəmirdim, mən bu məsələlər etiraz etdim. Onlar anladılar ki, Siyasi Büro üzvlərinin hamısı öz millətlərindəndi, "içimizdə bir nəfər adam bizə mane olur". Ona görə onlar da istəmədilər, mən də istəmədim. Mən istefaya getdim. Amma onu bilin, mən istefaya gedəndən 25 gün sonra ermənilər Fransanın "Humanite" qəzetində bəyanat verdilər ki, "Qorbaçovla razılaşdırılıbdır, Dağlıq Qarabağ Azərbaycandan alınıb Ermənistana verilir".

O zaman mən heç bir vəzifədə yox idim. Sizin ölkədə indi bir nəfər millət vəkili bu gün millət vəkilidir, sabah yox, amma o, siyasətdə var. Yaxud, bir nəfər bu gün Baş bakandır, sabah yox, amma yenə də siyasətlə məşğul olur. Cümhurbaşkanı da belə. Amma Sovetlər Birliyində, kommunist rejimində elə idi ki, sən o böyük yerdən getdin - daha yoxsan, hər şeydən məhrumsan.

Ona görə də o vaxt bu məsələ qalxanda çox çalışdım ki, Qorbaçovla, başqaları ilə görüşüm, onlara anladım ki, siz bu xalqları fəlakətə aparırsınız. Amma təsəvvür edin, 20-25 il bir yerdə işlədiyimiz adamların heç birisi ilə görüşə bilmədim. Mən heç onlarla telefonla da danışa bilmədim.

Sonra da ədalətsizlik oldu. Həm Azərbaycanın rəhbərləri respublikanı idarə edə bilmədilər, həm də, təbiidir ki, həmişə olduğu kimi, ermənilərə daha çox yardım etdilər, nəinki azərbaycanlılara. Bütün bunlar hamısı bu hadisələrə gətirib çıxardı.

Bilirsiniz ki, altı ildir atəşkəs yaratmışıq, məsələni sülh yolu ilə həll etmək istəyirik. Türkiyə Minsk qrupunun üzvüdür. Bilirsiniz ki, mən son vaxtlar Ermənistan Prezidenti ilə də bir neçə dəfə görüşmüşəm. Amma bu, asan məsələ deyil. Nə üçün? Çünki onlar torpaqlarımızı işğal ediblər, ona görə də öz şərtlərini diqtə edirlər, bizim şərtlərimizi qəbul etmirlər. Gərək ortada bir hakim olsun, desin ki, bu şərt ədalətlidir, bu şərt ədalətsizdir. Bu da dünyada yoxdur.

Onu da bilin ki, bizim mübarizəmiz davam edəcəkdir. Azərbaycanın torpaq bütövlüyü tam bərpa ediləcək, ölkəmizin suverenliyi təmin olunacaq və Azərbaycan inkişaf edəcəkdir. Siz görürsünüz ki, Azərbaycan son illər inkişaf edir.

Siz Bakı-Ceyhan əsas ixrac neft kəməri barədə danışdınız. 1994-cü ilin sentyabr ayında biz ilk müqaviłə bağladıq və həmin müqavilədə Bakı-Ceyhan əsas ixrac kəmərinin yaradılması nəzərdə tutulmuşdu. Amma altı il lazım oldu ki, Bakı-Ceyhan neft kəmərini gətirib bu mərhələyə çatdıraq.

Keçən ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşündə son sənədi imzaladıq. Həmin sənədə Amerika Prezidenti Bill Klinton da imza atdı. Ondan sonra Türkiyə də, Azərbaycan da, Gürcüstan da həmin sənədi öz parlamentlərində təsdiq etdilər. İndi o vaxtdan altı, yeddi, səkkiz ay keçib. İndi bu işləri də aparmaq o qədər asan deyildir. Biz bu sahədə də çox çalışırıq. Çünki bu işə yenə də mane olmaq istəyənlər var. Yəni indi boru kəmərinin inşasına başlamaq lazımdır. Bunun kommersiya şərtləri vardır. Mən indi bunu açmaq istəyirəm, buna mane olanlar vardır. Mən bu işlə hər gün məşğul oluram.

Təbiidir ki, bu, tarixi bir hadisədir. Çünki həm Azərbaycandakı, həm də Orta Asiyanın bir sıra ölkələrindəki yataqlardan hasil ediləcək neftin Gürcüstandan, Türkiyədən keçərək Aralıq dənizinə getməsi böyük bir hadisədir. Bu, bizim üçün, bu işdə çalışan dünyanın böyük şirkətləri üçün lazımdır. Bu kəmərin Türkiyədən keçməsinin, demək olmaz ki, Türkiyəyə xeyri yoxdur. Türkiyə və bir sıra ölkələr bundan pul götürəcəklər. Amma bu, əsas deyildir. Əsas odur ki, bu kəmərin xalqlarımızın təhlükəsizliyi və bir sıra digər məsələlər üçün böyük əhəmiyyəti vardır.

Güman edirəm, bir halda ki, 5-6 il bu mübarizəni davam etdirib həmin işi bu səviyyəyə çatdırmışıq, indən sonra da bunu edəcəyik.

Türkiyənin iş adamları Azərbaycanda çalışırlar. Azərbaycanda heç bir ölkədən Türkiyənin iş adamları qədər iş adamları yoxdur. Türkiyənin böyük elçisi bir dəfə mənə dedi ki, Azərbaycanda beş min türkiyəli iş adamı vardır. Onlar ölkəmizdə iş görürlər və görəcəklər.

Əsas iş odur ki, biz Azərbaycanın neft yataqlarının birgə işlənilməsinə dair imzalanmış müqavilələrdə Türkiyəyə böyük yer verdik. 1994-cü ilin ilk neft müqaviləsində Türkiyənin 1,75 faiz payı vardı. Müqavilə imzalanandan sonra mən Azərbaycanın hissəsindən 5 faiz Türkiyəyə verdim. Başqa ölkələrdən mənim əleyhimə qalxdılar ki, nə üçün bunu Türkiyəyə verirsiniz? Biz həmin hissəni Türkiyəyə verdik və onun payı 6,75 faiz oldu. Ondan sonra yeni müqavilələr imzalandı. Yeni açdığımız "Şahdəniz" yatağında böyük qaz ehtiyatları vardır. Mən bu yatağın imkanlarını bilirdim, ona görə də Türkiyəni həmin müqaviləyə saldım. Türkiyə oradan 10 faiz hissə götürdü. İndi gərək ki, Türkiyənin Azərbaycandakı bütün müqavilələr üzrə payı 36 faizdir. Bu da az deyil.

Bilirsiniz ki, dünyanın ən böyük şirkəti olan Amerikanın "Ekson" şirkəti hər yerdə neft çıxarır. Yaxud, "Şevron", "Bi-Pi", "Bi-Pi" Amerikanın iki şirkətini - "Amoko" və "Arko" şirkətlərini alıb əlinə keçirdi. Amma Türkiyənin "Türk petrolları" şirkəti kiçik bir şirkətdir. Mən onu gətirib bu böyük şirkətlərin səviyyəsinə qaldırdım. Başa düşürsünüz?

Bu, ən böyük hadisədir. Bilirsiniz, iş adamının gəlib burada bir ticarət, yaxud fabrik yaratması da önəmlidir. Amma bu işlərin isə ən azı 100 il gəliri və əhəmiyyəti vardır. Eyni zamanda, bu sahədə həm Azərbaycanın, həm də Türkiyənin və başqa ölkələrin iş adamlarının işləməsi üçün problemlər də vardır. Bu problemlər bir tərəf-

dən təbiidir. Çünki biz keçid dövrünü yaşayırıq. Amma digər tərəfdən də ayrı-ayrı məmurların, təşkilatların - demək istəmirəm ki, bu işə mane olurlar, - bəziləri mane olmaq, bəziləri şəxsi fayda götürmək istəyirlər. Bu, sizin üçün də məlum olan bir məsələdir. Belə problemlər var, amma onları da həll edəcəyik. Siz bunların heç birindən narahat olmayın. Türkiyə ilə Azərbaycanın əlaqələri Azərbaycan üçün birinci yerdədir.

Mən belə başa düşdüm ki, siz türkdilli ölkələr üzrə dövlət nazirisiniz. Bu sahədə işləmək lazımdır. Türkdilli ölkələrin dövlət başçılarının son dəfə zirvə görüşü Bakıda oldu və qərar qəbul etdik ki, bundan sonrakı toplantı İstanbulda keçirilsin. Bakıda ilk dəfə müzakirə etdik ki, 1992-ci ildən bizim bu təşkilat var, amma onun daimi katibliyi, yəni bir qərargahı yoxdur. Burada bu barədə qərar qəbul olundu. Həmin qərarı mən təklif etdim. Təkliflər verildi ki, bu qərargah Bakıda, Daşkənddə olsun. Mən dedim ki, gərək bu, İstanbulda olsun. Çünki bu işlərin hamısının başında Türkiyə durur. Sizə deyim, əgər Türkiyə bundan sonra diqqət yetirməsə, bu işlər zəifləyə bilər. Bu sahədə Azərbaycanın mövqeyi məlumdur. Amma siz çalışın ki, başqa ölkələri də fəallaşdırasınız.

Abdulhaluk Mehmet Çay: Hörmətli Cümhurbaşkanı, Siz haqlısınız, onun daimi qərargahı olmalıdır. Bunun üçün türkdilli cümhuriyyətlər arasında parlament birliyinin yaradılması mütləq lazımdır. Yəni türkdilli ölkələrin dövlət başçılarının birliyindən əlavə, parlament birliyinin də olması vacibdir. Zənn edirəm ki, bu, ikitərəfli əlaqələrimizdə daha çox fayda verəcəkdir. Mən məclis başkanımız hörmətli Yıldırım Akbulutla bu barədə söhbət etmişəm. Yaxın günlərdə onların belə bir təşəbbüsü olacaqdır.

Heydər Əliyev: Hər halda təşəbbüs çox vaxt sizdən olmalıdır.

Qədri Ecvet Tezcan (Türkiyənin Azərbaycandakı səfiri): Cənab Prezident, icazənizlə, hörmətli Cümhurbaşkanımız, Əhməd Necdət Sezərin nümayəndəsi Tacan İldem onun başsağlığını Sizə çatdırmaq istəyir. Eyni zamanda, İlhan Yıtıbaşoğlu Xarici İşlər nazirinin adından Sizə başsağlığı vermək istəyir.

Tacan İldem (Türkiyə Prezidentinin nümayəndəsi, səfir): Cənab Prezident, Cümhurbaşkanımız hörmətli Əhməd Necdət Sezər Zatialinizə hörmət və ehtiramını çatdırmağı mənə tapşırmışdır. Mən bunu söyləməkdən çox məmnunluq duyuram. Cümhurbaşkanımızı, eyni zamanda, Əbülfəz Elçibəyin vəfatı ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verməyi məndən xahiş edibdir.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezərlə telefonla danışmışam. Onun adından mənə bir daha başsağlığı verdiyinizə görə təşəkkür edirəm.

İlhan Yıtıbaşoğlu (Türkiyənin

Xarici İşlər nazirinin nümayəndəsi, səfir): Hörmətli Prezident, Xarici İşlər naziri İsmayıl Cem bu kədərli günündə Sizə başsağlığı verməyi mənə həvalə etmidir. O, özü buraya gəlməyi çox istəyirdi. Amma bu gün cənab Yasir Ərəfatla görüşü olduğuna görə gələ bilmədi. Öz adımdan və nazirimizin adından Əbülfəz Elçibəyin vəfatı ilə əlaqədar duyduğumuz kədəri Sizinlə bölüşməyi özümüzə borc bilirik.

Heydər Əliyev: Təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 24 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

"Qalatasaray" futbol klubunun UEFA superkuboku uğrunda yarışda parlaq qələbəsi məni ürəkdən sevindirdi.

Bu qələbə münasibətilə sizi və qardaş türk xalqını təbrik edir, sevincinizə qoşulur, "Qalatasaray" futbolçularına yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 27 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!
Əziz qardaşım!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASI BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ CƏNAB YILDIRIM AKBULUTA

Hörmətli cənab Sədr!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ 9-CU PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Əziz dostum və qardaşım!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİNİN MÜAVİNİ CƏNAB MƏSUD YILMAZA

Hörmətli cənab Məsud Yılmaz!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CƏNAB İSMAYIL CEMƏ

Hörmətli cənab nazir!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASI QURU QÜVVƏLƏRİNİN KOMANDANI, ORDU GENERALI CƏNAB ATİLLA ATƏŞƏ

Hörmətli cənab Atilla Ateş!

Azərbaycan Respublikasının keçmiş Prezidenti, Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əbülfəz Elçibəyin vəfatı münasibətilə göndərdiyiniz başsağlığı məktubunuzla əlaqədar olaraq Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 30 avqust 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti Heydər Əliyev 7 sentyabr 2000-ci il tarixdə Sentyabrın 6-8-də Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Himayəsi altında keçirilmiş minilliyin zirvə görüşündə Türkiyə Prezidenti Əhməd Necdət Sezərlə görüşmüşdür.

Prezidentlər hər iki tərəfi maraqlandıran məsələləri müzakirə etmişlər.

QARSDAKI QAFQAS UNİVERSİTETİNİN ELMİ ŞURASININ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ FƏXRİ DOKTOR ADININ VERİLMƏSİ MÜNASİBƏTİLƏ ÇIXARDIĞI QƏRAR

8 sentyabr 2000-ci il tarixdə Qarsdakı Kafkas Universitetinin Elmi Şurası 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, uzun illər yüksək dövlət vəzifələrində çalışdığı zaman xalqının rifahı və ölkəsinin inkişafı naminə göstərdiyi səylərə, Sovetlər Birliyinin süqutundan sonra Azərbaycan dövlət quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərə görə Türkiyə-Azərbaycan əlaqələrinin könüllü memarı, müdrik dövlət xadimi Heydər Əliyevə ümumi türk tarixi üzrə Fəxri doktor adının verilməsi barədə yekdilliklə 08/25 saylı qərarı qəbul etmişdir.

CNN TÜRK TELEVİZİYA KANALININ ƏMƏKDAŞLARINA

CNN türk televiziya kanalının yaradılmasının birinci ildönümü münasibətilə sizi ürəkdən təbrik edirəm.

XXI əsrə qədəm qoyduğumuz bir zamanda qlobal rabitə və informasiya mübadiləsi məsələləri həyatımızın mühüm amilinə çevrilmişdir. Dünyada baş vermiş hadisələr barədə tez, dəqiq və obyektiv informasiya çatdırılmasına bu gün bütün bəşəriyyət böyük ehtiyac duyur.

CNN televiziya kanalı bu sahədə çox səmərəli fəaliyyət göstərir. Türkiyənin qabaqcıl media strukturu olan Doğan Media Holdinq və CNN televiziya kanalının bir il bundan əvvəl birgə yaratdıqları CNN türk televizliya kanalı Türkiyə ilə bərabər balkanlar, Qafqaz və Orta Asiya regionunda xəbər mübadiləsinin sürətləndirilməsi, xalqların yaxınlaşması, onlar arasında əlaqələrin artırılması kimi nəcib işə xidmət edir.

Əminəm ki, böyük bir regiona yayımlanmaq məqsədi daşıyan CNN türk televiziya kanalı özünün operativ və obyektiv informasiyası ilə auditoriyasını gündən-günə genişləndirəcək, tamaşaçı kütləsinin rəğbətini qazanacaqdır.

Fəaliyyətinizin birinci ildönümü ilə bağlı bu əlamətdar günd sizin hamınıza möhkəm cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 9 oktyabr 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!
Əziz dostum!

Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsinin ildönümü münasibətilə sizə və qardaş Türkiyə xalqına ən səmimi təbriklərimi və xoş arzularımı yetiririəm.

Sizin Azərbaycana bu yaxınlardakı səfəriniz zamanı aramızda olan görüşləri məmnuniyyətlə xatırlayıram. Görüşlərimiz Azərbaycan ilə Türkiyə Respublikası arasında dostluq, qardaşlıq və həmrəyliyin güclü və sarsılmaz olduğunu sübut etdi.

77 il ərzində böyük Mustafa Kamal Atatürkün ideyalarına daim sədaqət nümayiş etdirən cəsur və qəhrəman türk xalqının gərgin əməyi, öz dövlətini inkişaf etdirmək əzmi, ardıcıl və yenilməz səyi nəticəsində Türkiyə Respublikası inkişaf edərək dünyanın qabaqcıl ölkələri sırasına qoşulmuşdur. Cümhuriyyət dövründə keçilən şərəfli yol türk xalqına insan hüquqlarının, vicdan, söz azadlığının bərqərar olduğu dünyəvi və hüquqi dövlət bəxş etmişdir.

Türkiyənin keçdiyi tarixi nailiyyətlər yolu, qazandığı zəngin təcrübə gənc müstəqil dövlət olan Azərbaycan üçün böyük örnəkdir.

Mən Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına böyük əhəmiyyət verirəm və ölkələrimizin tarixi dostluq, qardaşlıq və əməkdaşlıq münasibətlərinin getdikcə genişlənməsini və möhkəmlənməsini yüksək qiymətləndirirəm. Əminəm ki, qırılmaz millimənəvi köklərlə bağlı olan xalqlarımız tarixən bir yerdə olduqları kimi, indi də və gələcəkdə də birgə addımlayacaqlar. İnanıram ki, ölkələrimizin uğurla inkişaf edən mehriban dostluq münasibətləri və geniş işbirliyi xalqlarımızın qarşısında duran çətinliklərin aradan qaldırılmasına, dövlətlərimizin inamla irəliləməsinə kömək edəcəkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edib sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, Türkiyə xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram. Bayramınız mübarək olsun!

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2000-ci il.

TÜRKİYƏ BMM-NİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR İZGİYƏ

Hörmətli cənab sədr.

Türkiyə BMM-nin sədri seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Azərbaycan ilə Türkiyə arasında dərin tarixi köklər olan dostluq və qardaşlıq münasibətlərinə böyük əhəmiyyət verirəm. Əminəm ki, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri xalqlarımızın rifahi naminə daim genişlənəcək və inkişaf edəcədir.

Sizə möhkəm can sağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2000-ci il.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR İZGİYƏ

Hörmətli cənab sədr!

Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsi günü münasibətilə sizi, Türkiyə Böyük Millət Məclisinin üzvlərini və bütün qardaş türk xalqını səmimiyyətlə salamlayır və təbrik edirəm.

Böyük öndər Mustafa Kamal Atatürkün zəkası, iradəsi və uzaqgörənliyi ilə yaranmış Türkiyə Cümhuriyyəti 77 illik şanlı bir yol keçmiş, bu yol türk xalqına böyük nailiyyətlər gətirmişdir.

Biz Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yolu, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində əldə etdiyi böyük nailiyyətləri yüksək qiymətləndirir və Azərbaycan üçün örnək hesab edirik.

Türkiyə Respublikasında hüquqi və dünyəvi dövlət qurulmasında, demokratiyanın, vətəndaş cəmiyyətinin inkişafında, insan haqlarının qorunmasında Türkiyə Böyük Millət Məclisinin rolunu xüsusi qeyd etmək istərdim. Uğurla fəaliyyət göstərən Türkiyə Böyük Millət Məclisi öz cümhuriyyətinə və xalqına mühüm xidmətlər göstərmişdir.

Əminəm ki, dövlətlərimiz və xalqlarımız arasında olan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri sırasında parlamentlərimiz arasında olan sıx əlaqələr getdikcə genişlənəcək, xalqlarımızın rifahına və əmin-amanlığına, regionumuzda və bütün dünyada sülhün və sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Bayramınızı təbrik edərkən sizə bir daha möhkəm cansağlığı və səadət, ölkənizə əmin-amanlıq və daimi tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2000-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli cənab Baş nazir!

Türkiyə Respublikasının milli bayramı - Cümhuriyyət elan edilməsinin 77-ci ildönümü ilə əlaqədar olaraq sizi, qardaş Türkiyənin hökumətini və xalqını səmimi qəlbdən təbrik edirəm.

Türk dünyasının öndəri, böyük Mustafa Kamal Atatürkün 77 il öncə qurduğu və ucaltdığı Türkiyə Cümhuriyyəti təkcə türk xalqının deyil, həm də bəşəriyyətin tarixində ən şanlı və önəmli bir hadisə olmuşdur.

Türkiyə Cümhuriyyəti Avropa və Asiyanın, Şərqlə Qərbin sintezindən əmələ gəlmiş və bütün müsəlman Şərq aləmi üçün örnək Cümhuriyyəti olmuşdur.

Türkiyə Cümhuriyyətinin 77 ildə iqtisadi inkişaf və ümumi tərəqqi yolunda əldə etdiyi böyük nailiyyətlər, onun Qərbin qabaqcıl texnologiyalarına yiyələnərək dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevrilməsi Azərbaycan xalqında və şəxsən məndə böyük iftixar hissi doğurur.

Əminəm ki, birgə səylərimiz sayəsində qardaş xalqlarımız arasında uğurla inkişaf edən iqtisadi əlaqələr və işbirliyi bundan sonra daha da genişlənəcək və dərinləşəcək, qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın ümumi rifahına və əmin-amanlığına, regionda iqtisadi yüksəlişin, sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Cənab Baş nazir, bir daha sizə möhkəm cansağlığı və səadət, qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 oktyabr 2000-ci il.

2000-ci İL MAYIN 16-da BAKI ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN SƏRƏNCAMI

1. 2000-ci il mayın 16-da Bakı şəhərində Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təmənnasız hərbi yardım haqqında Müqavilə;

2) Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Baş Qərargahı arasında maliyyə yardımı haqqında Protokol.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndinin 1-ci yarımbəndində göstərilən sənədin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Türkiyə Respublikasının hökumətini xəbərdar etsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 21 oktyabr 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ VƏ TÜRKİYƏ RESPUBLİKASI BAŞ QƏRARGAHI ARASINDA MADDİ-TEXNİKİ TƏCHİZATIN HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2000-ci il iyulun 1-də İzmir şəhərində imzalanmış Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Baş Qərargahı arasında maddi-texniki təchizatın həyata keçirilməsi haqqında protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndində göstərilən protokolun həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 21 oktyabr 2000-ci il.

MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ CƏNAB AKKAN SUVERƏ

Hörmətli Akkan Suver!

3-cü Avrasiya iqtisadi zirvə görüşünə dəvətinizə görə sizə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Bu gün regionumuzun zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin, Transxəzər qaz boru kəmərinin çəkilişi, böyük tarixi İpək yolunun bərpası kimi qlobal iqtisadi layihələrin həyata keçirilməsi Avrasiya regionuna marağı son dərəcə artırmaqdadır. Xüsusi strateji əhəmiyyət kəsb edən həmin layihələr ölkəmizin rifahı və çiçəklənməsi, eyni zamanda regionumuzda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunması məqsədlərinə xidmət edir.

Çox məmnunam ki, regional əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi məsələləri Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin daim diqqət mərkəzindədir. Əminəm ki, Avrasiya iqtisadi zirvə görüşləri xalqlarımız və ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi işinə bundan sonra da mühüm töhfələr verəcəkdir.

3-cü Avrasiya iqtisadi zirvə gö-

rüşünün iştirakçılarını ürəkdən salamlayır, işinizdə uğurlar diləyir, qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti

Bakı şəhəri, 28 oktyabr 2000-ci il.

TÜRKİYƏNİN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ ÖLKƏNİN AZƏRBAYCANDAKİ SƏFİRLİYİNİN DÜZƏLTDİYİ RƏSMİ QƏBULDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Sizi, qardaş türk xalqını Türkiyə Cümhuriyyətinin 77-ci ildönümü münasibəti, həm Türkiyə üçün, həm də bizim üçün çox böyük əhəmiyyəti olan bayram münasibətilə ürəkdən təbrik edirəm, türk xalqına səadət, tərəqqi, sülh və əmin-amanlıq arzulayıram.

Türk xalqının böyük, çoxəsrlik tarixi vardır. Bu tarixin də çox əhəmiyyətli mərhələləri var. Amma XX əsrdə türk xalqı üçün ən böyük hadisə 1923-cü ildə böyük Mustafa Kamal Atatürkün iradəsi, siyasi müdrikliyi, qəhrəmanlığı ilə yaranan Türkiyə Cümhuriyyəti olmuşdur. Bəşər tarixində Türkiyə Cümhuriyyətinin yaranması və onun 77 il yaşaması böyük bir hadisədir. Böyük Mustafa Kamal Atatürkü biz bu gün minnətdarlıq hissi ilə xatırlayırıq. Türk xalqı kimi, Azərbaycan xalqı da ona daim minnətdar olacaqdır. Böyük Atatürk Türkiyə Cümhuriyyətini yaratdı, onu yaşatdı, inkişaf etdirdi və etibarlı əllərə verdi. Türkiyə Cümhuriyyəti böyük Atatürkdən sonra onun ideyalarına, qoyduğu yola, yaratdığı Cümhuriyyətə sadiq qalmışdır və heç şübhə yoxdur ki, daim sadiq olacaqdır.

Türkiyə Cümhuriyyətinin tarixində bəzi mərhələlərdə mürəkkəb proseslər olmuşdur. Amma türk xalqı, qəhrəman türk ordusu bütün bu proseslərin qarşısını almış, Türkiyə Cümhuriyyəti yaşamış, yaşayır və yaşayacaqdır.

Türkiyə Cümhuriyyəti indi dünyanın ən böyük, iqtisadi cəhətdən inkişaf etmiş, demokratik dəyərlərlə yaşayan ölkələrindən biridir. Türkiyə Cümhuriyyəti dünya birliyində öz yerini tutmuşdur və dünyada gedən proseslərə bilavasitə təsir etmək gücünə və imkanına malikdir.

Bizim üçün Türkiyə Cümhuriyyəti, türk xalqı qardaşdır, dostdur və bizi birləşdirən tellər qədim tarix ilə bərabər, müasir dövrdə də sarsılmazdır, qırılmazdır.

Azərbaycan dövlət müstəqilliyini bəyan edəndə dünyada ölkəmizin müstəqilliyini tanıyan ilk dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Biz bu günlərdə Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya aktının 9-cu ildönümünü bayram etdik. Ötən 9 il ərzində Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, ölkəmizin daxili, çətin proseslərdən uğurla keçməsində, respublikamızın iqtisadiyyatının inkişaf etməsində, dövlətimizin dünya birliyində özünəlayiq yer tutmasında Türkiyə Cümhuriyyəti həmişə Azərbaycanın yanında olmuş, ölkəmizə qardaşlıq yardımı göstərmiş və bu gün də göstərir.

Azərbaycanın düçar olduğu Ermənistan təcavüzü və erməni silahlı qüvvələrinin müxtəlif səbəblərdən respublikamızın ərazisinin 20 faizini işğal etməsi və bu işğal nəticəsində bir milyondan çox vətəndaşımızın qaçqın və köçkün olması, çadırlarda yaşaması bizi incidən, narahat edən qədər Türkiyəni, türk xalqını da incidir, narahat edir. Biz bu çətinlikləri bir yerdə keçiririk. Ermənistanın təcavüzünün qarşısının alınmasında, bu münaqişənin sülh yolu ilə həll olunmasında biz daim Türkiyə Cümhuriyyətinin, türk xalqının dəstəyini hiss edirik.

Türkiyə Cümhuriyyəti bəyan edibdir ki, əgər Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasa, Türkiyə ilə heç bir əlaqə qura bilməz. Bunu dünya dövlətləri içərisində yalnız Türkiyə Cümhuriyyəti elan edibdir. Biz bunu yüksək qiymətləndiririk. Amma bizə göstərilən dəstək, dostluq, qardaşlıq münasibəti təkcə bununla bitmir. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bütün beynəlxalq təşkilatlarda biz bir yerdəyik, eyni mövqedən çıxış edirik. Mövqelərimiz isə sülh, ədalət, müstəqillikdir.

Türkiyə Cümhuriyyətinin ən böyük nailiyyəti ondan ibarətdir ki, o, 77 il yaşayaraq, bir çox düşmən qüvvələrlə dəfələrlə rastlaşaraq öz müstəqilliyini qorumuş, saxlamış, möhkəmləndirmiş, güclü ordu yaratmışdır və indi Türkiyə Cümhuriyyəti yenilməz bir qaladır. Bu, bizdə iftixar hissi doğurur. Çünki Türkiyə bizim ən yaxın dostumuz, qardaşımızdır. Qardaşın, dostun nailiyyətini həmişə dost, qardaş qiymətləndirə bilər. Biz bunu yüksək qiymətləndiririk.

Burada hörmətli səfir keçən il bu bayramın keçirilməməsinin səbəblərini qeyd etdi və Türkiyədə baş vermiş zəlzələ haqqında danışdı. Mən təşəkkür edirəm ki, o günlər siz, yəni bütün türk xalqı, Türkiyə Cümhuriyyəti Azərbaycanın Türkiyə ilə nə qədər dost, qardaş olduğunu bir daha müşahidə etdiniz. Biz yardımları etdik. Neftayırma zavodunda böyük yanğını söndürdük. Əlimizdən gələn nə mümkündürsə, etdik. Hətta burada çox gözəl xatırlandı ki, sadə insanlar Türkiyə Cümhuriyyətinin səfirliyinin qarşısında hərə öz yardımını təklif edirdi. Amma eyni zamanda bu, tamamilə təbii bir haldır. Çünki bizim münasibətlərimiz elədir ki, başqa cür ola da bilməz.

Mən zəlzələdən bir müddət sonra Türkiyəyə getdim. Zəlzələ baş vermiş o yerləri əziz dostum və qardaşım Sü-

leyman Dəmirəl ilə bərabər gəzdim. Zəlzələdən zərər çəkmiş insanlarla görüşdüm, onlara ruh verdim. Bizim onlarla bir yerdə olduğumuzu bildirdim. Oraya yenə müəyyən yardımlar apardım. Orada gördüm ki, türk insanı nə qədər dözümlüdür, mətindir, hər cür fəlakətin içindən qəhrəmanlıqla çıxan bir insandır, xalqdır.

Türkiyə Cümhuriyyəti böyük bir iqtisadi potensiala malikdir. Təbiidir ki, həmin o vurulan yaraları Avropa Birliyinin, başqa ölkələrin yardımı ilə qısa müddətdə sağaltdı və bəlkə də, indi o zəlzələdən az iz qalıbdır.

Bizim münasibətlərimizdə çox əhəmiyyətli cəhətlər vardır. Onların hamısını burada deməyə ehtiyac yoxdur. Çünki bunu Azərbaycanda da, Türkiyədə də bilirlər. Ancaq Azərbaycan Xəzər dənizinin, su hövzəsinin neft və qaz yataqlarının, bütün enerji resurslarının işlənilməsi və dünyaya açılması tədbirlərinə başlayanda, yəni ölkəmizin neft strategiyasını həyata keçirəndə yenə də biz Türkiyə Cümhuriyyəti ilə bir yerdə idik. O illər xatirimdədir. Hələ 1993-cü ildə, biz, sadəcə, bəzi müqavilələri bağlamağa hazırlaşanda mən hörmətli Süleyman Dəmirəllə, Türkiyənin 9-cu Cümhurbaşkanı ilə dəfələrlə danışıqlar aparırdım, məsləhətləşirdik. İlk müqaviləni 1994-cü il sentyabrın 20-də imzalayanda biz bir yerdə idik.

Xatirimdədir, o vaxt Türkiyə Baş nazirinin müavini, vaxtilə kənd təsərrüfatı naziri işləmiş mənim çox yaxın dostum Nəcməddin Cöhəri idi. Mən Naxçıvanda işləyəndə hörmətli Süleyman Dəmirəl Naxçıvana yardım edirdi. Biz orada bir "Həsrət körpüsü", "Ümid körpüsü" tikdik. O vaxt Naxçıvan blokadada idi. İndi də həmin vəziyyətdədir, amma o vaxt bu bölgə çox çətin vəziyyətdə yaşayırdı. Hökumət qərar qəbul etmişdi və hörmətli Nəcməddin Cöhəri Türkiyənin Kənd Təsərrüfatı naziri kimi daim bizə yardım göstərirdi. Sonra isə mən Azərbaycanın Prezidenti olanda, 1994-cü ildə hazırlanan müqavilədə onun da imzası var, o da bu müqavilədə iştirak edibdir. Bu işləri o vaxtdan biz bir yerdə görürük.

Burada hörmətli səfir Bakı-Ceyhan neft kəmərini xatırladı. Bakı-Ceyhan kəməri, həqiqətən, bir əfsanədir, əsrlər boyu yaşayacaqdır. Bunun təməlini biz 1994-cü ildə qoyduq. Ancaq nə qədər bunun əleyhinə çıxanlar, bizə təzyiq göstərənlər, mane olmaq istəyənlər vardır. Ona görə də bu layihənin reallaşacağına çox şübhələr yaranmışdı: olacaq, ya olmayacaq? Nə vaxt Türkiyəyə gəlirdimsə, - bunu bir neçə dəfə demişəm, - bütün qəzetçilər, jurnalistlər bir sual verirdilər: Bakı-Ceyhan kəməri olacaq, ya olmayacaq? Mən onlara deyirdim ki, Bakı-Ceyhan kəməri olacaqdır və siz də bunu görəcəksiniz.

Ondan sonra, 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü qeyd edəndə biz ilk dəfə Bakı-Ceyhan kəməri haqqında Ankara bəyannaməsini imzaladıq. Türkiyə

Cümhuriyyətinin Prezidenti hörmətli Süleyman Dəmirəl, Gürcüstanın, Azərbaycanın, Qazaxıstanın, Özbəkistanın Prezidentləri o bəyannaməni imzaladılar. Amma yenə də bizə mane olurdular. Yenə də çətinliklər vardı. Ondan sonra biz işləri sürətləndirdik. Ötən ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşündə son saziş imzaladıq. Bakı-Ceyhan layihəsi barədə sazişi biz imzaladıq. Amma eyni zamanda Amerika Birləşmiş Ştatlarının Prezidenti hörmətli cənab Bill Klinton da bu sazişə imzasını qoydu. Bu da son deyildi, bundan sonra yeni problemlər yarandı. Bu problemlər kommersiya problemləri idi, bir sıra başqa problemlər idi. Bunları da həll etdik.

Bu günlərdə mən Amerika Birləşmiş Ştatlarının prezidenti, hörmətli cənab Bill Klintondan bu münasibətlə təbrik məktubu aldım. Çox məmnunam ki, bizim gördüyümüz işləri o, yüksək qiymətləndirir. Xüsusən onu da unutmayıbdır ki, Bakı-Ceyhan neft kəmərini reallaşdırmaq üçün mən bu ilin martında Gürcüstana, Tbilisiyə getdim və orada bəyan etdim ki, Bakı-Ceyhan neft kəmərindən Azərbaycana çatan tarifləri Gürcüstana hədiyyə verirəm. Ona görə ki, Gürcüstanın buna ehtiyacı vardır. Əgər bunu mən etməsəydim, bu müqaviləni, son qərarı qəbul etmək mümkün deyildi. Yəni görürsünüzmü, biz nə qədər çətinliklərdən keçirik. Bu sazişi oktyabrın 17-də Azərbaycanda imzaladıq, oktyabrın 18-də Tbilisidə, oktyabrın 19-da isə Ankarada imzaladıq. Bu problem artıq qurtarmışdır. Güman edirəm ki, mənə bu barədə daha sual verən olmayacaqdır.

Mən iftixar hiss keçirirəm ki, biz - müstəqil Azərbaycan Respublikası bütün təzyiqlərə, maneələrə sinə gərdik, tutduğumuz yolla getdik, vədimizi yerinə yetirdik və Xəzər dənizi bölgəsi, həmin bu Bakı-Ceyhan kəmərinin keçəcəyi ölkələr üçün, Azərbaycan üçün böyük tarixi əhəmiyyətə malik olan bir iş gördük. Gələcək nəsillər bunu daha da yüksək qiymətləndirəcək və bizim nəsillərə minnətdarlığını bildirəcəklər.

Böyük Mustafa Kamal Atatürkün dediyi "Yurddа sülh, cahanda sülh!" sözləri Azərbaycan üçün də müqəddəs bir şüardır. Biz də istəyirik ki, yurddа, cahanda sülh olsun. Biz bunu daha çox istəyirik, ona görə ki, ödkəmiz Ermənistanın təcavüzündən hələ xilas ola bilməmişdir. Ancaq mən bu gün bəyan edirəm ki, apardığımız sülh danışıqları və Türkiyə Cümhuriyyətinin bu sahədə bizimlə bərabər fəaliyyəti, ATƏT-in Minsk qrupunun həmsədrləri - Rusiya, ABŞ və Fransa nümayəndələri və bu dövlətlərin başçıları, başqa beynəlxalq təşkilatların iştirakı ilə biz bunu həll edəcək və buna nail olacağıq. Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir. Ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq və yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz yerlərinə qayıdacaqlar.

Mən bu gün Türkiyə Cümhuriy-

yətinin 77-ci ildönümü ilə bağlı keçirilən bayramda bütün bu illər ərzində. Azərbaycan müstəqillik əldə etdiyi andan bu günə qədər türk xalqının, Türkiyə Cümhuriyyətinin bizimlə bərabər olduğunu qeyd etdim. Ancaq bu bayram günü təkcə Bakı-Ceyhan layihəsində deyil, bütün sahələrdə Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd edirəm. Yeni seçilmiş Prezident hörmətli Əhməd Necdət Sezər xarici ölkələrə ilk səfərini Azərbaycana etdi. Bu, Mustafa Kamal Atatürk ideyalarına sadiqliyin nümunəsidir. Türkiyə ilə Azərbaycan arasında olan dostluğun, doğrudan da, nə qədər yüksək səviyyədə olmasını göstərir. Yeni seçilmiş Prezidentlə də indi bizim yaxın dostluq və qardaşlıq əlaqəmiz vardır. Hörmətli Baş nazir Büləndl Ecevitlə və digər hökumət başçıları və üzvləri ilə də biz daim təmasdayıq və bərabər işləyirik.

Nəhayət, bu bayram günü mən böyük minnətdarlıq hissi ilə xatırlayıram ki, Türkiyə Cümhuriyyətinin Atatürk Beynəlxalq Sülh Mükafatını almaq mənə nəsib oldu. Ankarada bütün hökumət və məclis üzvlərinin, ordu generallarının iştirakı ilə keçirilmiş böyük bir mərasimdə hörmətli Süleyman Dəmirəl bu mükafatı mənə təqdim edərkən dediyim sözləri bir də təkrar etmək istəyirəm. Mən həyatımda çox mükafatlar almışam. Həm keçmiş Sovetlər İttifaqının ordenlərini, medallarını və müxtəlif mükafatlarını, həm də bir çox başqa ölkələrin orden və medallarını almışam. Belə mükafatlarım çoxdur. Təbiidir ki, mən bununla fəxr edirəm. Amma məni ən çox sevindirən və məndə ən böyük iftixar hissi doğuran Mustafa Kamal Atatürk Sülh Mükafatını almağım olmuşdur.

Bunların hamısı bizim son illər, tarixi nöqteyi-nəzərdən qısa zamanda birgə əldə etdiyimiz nailiyyətlərdir. İqtisadi əlaqələrimiz də çox genişdir. Bu barədə hörmətli səfir danışdı. Ancaq bundan da geniş, indikindən də yaxşı olmalıdır. Bunu da biz edəcəyik. Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə, ölkəmizdə islahatlar həyata keçirildikcə, respublikamızda özəlləşdirmə prosesi getdikcə geniş sahibkarlıq, sahibkarlar təbəqəsi yarandıqca, bu iqtisadi əlaqələrdə yeni-yeni uğurlar olacaqdır. Mən buna əminəm. Yəni bu barədə bizim hələ görüləsi çox böyük işlərimiz vardır.

Bu bayram günündə mən qardaş türk xalqına uğurlar arzulayıram. Sizi, qardaş türk xalqını, Türkiyə Cümhuriyyətini bu bayram münasibətilə bir daha təbrik edirəm və hamınıza da cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

"Azərbaycan" qəzeti, 1 noyabr 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEV

Türkiyə Cümhuriyyətinin yaradılmasının 77-ci ildönümü münasibətilə göndərdiyiniz səmimi məktuba görə Sizə ürəkdən təşəkkür edirəm.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq münasibətlərinin və bütün sahələrdəki işbirliyinin gələcəkdə xalqlarımızın rifahı naminə daha da genişlənəcəyinə əmin olduğumu bildirirəm.

Türkiyə Cümhuriyyəti hökuməti və şəxsən öz adımdan Zati-alilərinizə ən xoş arzularımı yetirirəm.

Büləndl Ecevit,
Türkiyə Cümhuriyyətinin Baş naziri
31 oktyabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏDƏN GƏLMİŞ MÜŞAHİDƏÇİLƏRİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 4-də Prezident sarayında Türkiyə Böyük Millət Məclisinin deputatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının üzvü Necati Çətinqayanın rəhbərliyi ilə bu ölkədən gəlmiş müşahidəçilərdən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Hörmətli qonaqları mehribanlıqla qarşılayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz, öz vətəninizə xoş gəlmisiniz! Çox məmnunam ki, bizim dost, qardaş Türkiyənin Böyük Millət Məclisindən belə mötəbər nümayəndə heyəti gəlibdir və seçkilərdə müşahidəçi olacaqdır. Sizin əldə etdiyiniz demokratiyadan biz nə qədər istifadə edə bilmişik, onu görəcəksiniz. Bizə nəyisə öyrədəcəksiniz, biz nəyisə öyrənəcəyik. Ona görə sizin ölkədən, Türkiyədən belə mötəbər heyətin gəlməsi bizim üçün xüsusilə əhəmiyyətlidir. Təşəkkür edirəm.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə təşəkkür edən **Necati Çətinqaya** dedi:

- Hörmətli Prezidentim, demokratiyanın ən gözəl örnəklərindən biri olan parlament seçkiləri ilə əlaqədar Bakıya gəlmişik. Öz vətənimizdə olduğu kimi, bizi səmimi qəbul etdiyiniz üçün Sizə bütün həmkarlarım adından ehtiramımı ərz edirəm.

Sizin söylədiyiniz kimi, həqiqətən biz bir millət, iki dövlətik. Bizdə və qardaş Azərbaycanda belə bir atalar sözü var: Ət dırnaqdan ayrılmaz.

Heydər Əliyev: Doğrudur.

Necati Çətinqaya: Biz ətlə dırnaq kimiyik, bir-birimizdən ayrılmağımız mümkün deyildir. Buna heç kim inanmaz. Onun üçün sizin məsələləriniz, Azərbaycanın problemi bizim məsələmizdir, problemimizdir. İstədik ki, bu imtahanda sizinlə bə-

rabər olaq. qardaş Azərbaycan demokratiyanın bu çox önəmli qapısını açarkən və XXI əsrə girərkən bütün həmkarlarım və türk xalqı adından deyirəm və inanıram ki, sabah Azərbaycan bu imtahanı çox demokratik və gözəl verəcəkdir. Bu, xalqın getdikcə demokratikləşməsi sahəsində və Azərbaycanın gələcəyi üçün son dərəcə önəmli bir imtahandır. Dünəndən bəri görürük ki, sabah hər tərəfdə vətəndaşlar rahatlıqla, heç bir əngəl olmadan səs verməyə gedəcəklər, öz borclarını yerinə yetirəcəklər.

Təbiidir ki, bu, Sizin təcrübəniz, gərgin əməyiniz nəticəsində yaratmış olduğunuz bir şəraitdir. Buraya gələrkən Böyük Millət Məclisinin sədri hörmətli Ömər İzginin, bütün partiya sədrlərinin ayrı-ayrı salamlarını və ehtiramlarını sizə gətirmişəm. Xahiş edirəm, qəbul edəsiniz.

Heydər Əliyev: Təşəkkür edirəm.

Necati Çətinqaya: Bu gün buraya sabahkı günü görmək üçün gəlmişik. Buraya Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasından, ATƏT-dən və Avropa Şurasından, müxtəlif ölkələrdən nümayəndə heyətləri gəlmişlər. Sabah nümayiş ediləcək demokratiya ilə Azərbaycandakı inkişafın nə şəkildə olduğu görünəcəkdir. Məhz bu demokratiya Sizin memarı olduğunuz, öndərliyinizlə qorunub möhkəmlənmiş, 9 il müstəqil olan Azərbaycanın inkişafını bütün dünyaya nümayiş etdirəcəkdir. Sabah Azərbaycandakı inkişafı, demokratiyanı müşahidə edəcəyik.

Demokratiya insan həyatında son dərəcə önəmli rol oynayır. Dünya ölkələrində, Müstəqil Dövlətlər Birliyi ölkələrində demokratiya ayaq açıbdır. Amma qardaş olan bir ölkədə bu, bizim üçün daha gözəl hadisədir.

Cənab dəyərli Prezidentim, Sovetlər Birliyinin dağılmasından sonra yaranmış dost və qardaş cümhuriyyətlərin, xüsusilə Azərbaycanın bu günə gəlməsində Sizin böyük zəhmətiniz vardır. Biz buraya hər gəlişimizdə bunu müşahidə edirik.

Altı ay bundan öncə buraya gəlmişdik, bizi qəbul etmişdiniz. Cənab İhsan Doğramacı ilə də gəlmişdik. Hər gəlişimizdə gözəl işlərin şahidi oluruq. Bakıda, Azərbaycanda həqiqətən iqtisadi sahədə fövqəladə inkişafı görürük. Bu önəmli inkişaf Zati-alilərinizin çox böyük təcrübəsinin və göstərdiyi aydın yol ilə xalqın hərəkət etməsinin nəticəsidir. Bunlar Sizin qardaşlarınızı da son dərəcə məmnun edir. İstəyimiz Qafqazda inkişaf edən bu qardaş ölkəni günəş kimi parlamasıdır. Bunu qəlbən istəyirik. İnşallah, Zati-alilərinizin lideri ilə bunu Azərbaycan, hamımız və bütün dünya görəcəkdir. Bunu görmək hamımızın arzusudur. Çünki Azərbaycan nə qədər inkişaf edirsə, qardaşları o qədər məmnun olacaqdır. Azərbaycanın birinci qardaşı Türkiyədir. Ona görə də, inşallah, bu gözəl

günləri qısa zamanda görməyi Allah bizə nəsib edəcəkdir. Bu yolda Sizə cansağlığı, səadət, uzun ömür diləyirik ki, Azərbaycan bunları qısa zamanda görsün.

Türkiyə hər sahədə sizin yanınızdadır. Türkiyə Qarabağ məsələsinin Zati-alilərinizin düşündüyü kimi həll olunmasına tərəfdardır. Siz necə düşünürsünüzsə, biz də elə düşünürük. Soyqırım məsələsi tamamilə uydurmadır, saxtadır. Keçmişi ortaya qoyaraq olmamış şeyləri göstərmək əsl həqiqəti dünyaya göstərməmək deməkdir. Bu gün Azərbaycanın bir çox yerlərini haqsız şəkildə işğal edən Ermənistan həmin yerləri boşaltmayınca, bizim onları işğalçı kimi tanımağımızı, Azərbaycanın və Türkiyənin haqlı olduğunu bütün dünya bilir.

Çünki ədalətsizliyə görə bu qədər insan - bir milyona yaxın qaçqın və məcburi köçkün yerinə-yurduna, evinə-eşiyinə, bağına-bağçasına, doğulduğu torpaqlara həsrətdir. Dünya bunu görməlidir və işğalçı qüvvələrin XXI əsrə getməsinə yol verilməməlidir. Həmin torpaqlar öz sahiblərinə, qardaş Azərbaycan qaçqınlarına qaytarılmalı və onlar geri dönməlidir.

Hörmətli Prezidentim, iki qardaş ölkə dünyanın gözü qarşısında siyasi sahədə həqiqətən çox gözəl şəkildə, çiyin-çiyinə hərəkət etmişdir. Son illər ticarət sahəsində bir zəifləmə baş verdi. İnanıram ki, yenə də Sizin diqqətiniz bu məsələni həll edəcəkdir. Yəni digər dünya ölkələri ilə müqayisədə, bizim iqtisadi əlaqələrimizdə zəifləmə meylləri görünür. İnanırıq ki, bu sahədə mövcud olan bəzi problemləri həll edəcəksiniz.

İndiyədək 20 neft müqaviləsi imzalanıbdır. Bunun içində Türkiyənin yüzdə dörd faiz payı vardır. Bu da Zati-alilərinizin tərəfindən edildi. Amma bunu daha da artırmaq olar. Çünki biz iqtisadi baxımdan bir-birimizlə bağlı olmalıyıq. Zati-alinizin qarşısında bunları söyləməyi lüzumsuz hesab edirəm. Çünki Siz bu sahədə fövqəladə təcrübəyə maliksiniz. İki qardaş ölkənin bir-birinə dəstək verməsi Azərbaycan ilə Türkiyənin qısa zamanda daha da inkişafına səbəb olacaqdır.

Heydər Əliyev: Amma yüzdə dörd faiz deyil, yüzdə otuz beş, otuz altıdır. 1994-cü ildə müqavilə hazırlanarkən Türkiyənin payı 1,75 faiz idi. Müqavilə imzalanandan sonra mən Azərbaycanın payından 5 faiz Türkiyəyə verdim. Beləliklə, birinci müqavilədə 6,75 faiz oldu. Ondan sonrakı müqavilələrdə, məsələn, "Şahdəniz"də, - orada böyük qaz ehtiyatları var, - Türkiyənin payı 10 faizdir. Başqa müqavilələrdə də var, hamısı birlikdə 35-36 faizdir. Görün, 1,75 faizdən haraya qaldırdım.

Necati Çətinqaya: Hörməili Cümhurbaşkanım, bunların hamısı Sizin qayğınızla olmuşdur, inşallah, yenə də böyük diqqət və dəstəyinizlə Bakı - Tbilisi - Ceyhan boru xətti də qısa zamanda gerçəkləşəcəkdir. Bunun gerçəkləşməsi Azərbaycan nefti-

nin dünyaya daşınmasını təmin edəcəkdir. Bu da iqtisadi baxımdan böyük canlanmaya səbəb olacaqdır.

Azərbaycanda, Bakıda ticarətlə məşğul olmaq, buraya sərmayə qoymaq istəyən digər türk iş adamları da Azərbaycan iqtisadiyyatına faydalar vermək istəyirlər. Bu, iki ölkə üçün yararlı olacaqdır.

Siz bunları çox yaxşı bilirsiniz. Mən bunu təkrar demək istəyirəm. Bu sahədə bizə göstərdiyiniz dəstəyə görə təşəkkür edirik. Qardaş ölkənin hörmətli Cümhurbaşkanı Heydər Əliyevin adı Türkiyədə hər kəsin ürəyində sevinc yaradır və öz ölkəsinin Prezidenti kimi sevgi bəsləyirlər.

Sizin məsələniz bizim məsələmizdir. Sizin inkişafınız bizi məmnun edir. Sabah göstərəcəyiniz demokratiya havası Azərbaycanın XXI əsrdə güclü bir ölkə kimi qədəm qoyacağını təsdiqləyəcəkdir. Sabah keçiriləcək parlament seçkilərinin Azərbaycan xalqına xeyirli olmasını, bu ölkənin XXI əsrə daha güclü, demokratik bir ölkə kimi daxil olmasını arzulayıram.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə bütün həmkarlarım, xalqım adından Sizə bir daha təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Sizin Azərbaycana gəlməyinizdən bir daha məmnun olduğumu bildirmək istəyirəm. Siz, dost, qardaş Türkiyənin nümayəndələri, təbiidir ki, həmişə olduğu kimi, indi də Azərbaycan dünya qarşısına imtahan verdiyi zaman da bizim yanımızdasınız. Mən bunu çox yüksək qiymətləndirirəm.

Azərbaycan gənc dövlətdir. Biz doqquz il bundan öncə müstəqilliyimizi bəyan etmişik. Ancaq doqquz ildə Azərbaycan çox ağır, çətin yollar keçibdir və beş il bundan öncə biz ilk Konstitusiyamızı qəbul edə bildik. Beş il bundan öncə müstəqil dövlətin birinci parlamentini, Milli Məclisini seçə bildik. Beş il ötübdür. Yeni parlament seçirik. Bu, böyük hadisədir. Yəni müstəqil dövlət, müstəqilliyimizi gücləndirmişik, möhkəmləndirmişik, parlament demokratik seçilib, öz işini sona çatdırıbdır. İndi yeni parlament seçilir.

Təbiidir, qısa müddətdə demokratiyanın hamısını mənimsəmək olmaz. Demokratiya elə bir şey deyil ki, haradasa var, götür, istifadə et. Ya bir avtomobildir, get, al, istifadə et. Yaxud da bahalı evdir, paltardır, filandır. Demokratiya insanın beynində psixoloji dəyişiklik deməkdir. Əgər səhv etmiriəmsə, sizin ölkə 50 ildir demokratiya yolu ilə gedir. Elədir, yoxsa yox?

Necati Çətinqaya: Bəli.

Heydər Əliyev: İndi sizin ölkə çox demokratik ölkədir. Seçkiləriniz də demokratik keçir. Amma tez-tez seçkilər edirsiniz. Biz beş ildən bir edirik, siz bəzən iki ildən bir edirsiniz. Bu da sizin xüsusiyyətinizdir. Təbiidir. Bunların hamısını normal qiymətləndiririk. Ancaq bir var 50

il, bir də var 9 il yox, 5 il. Ona görə də bu reallığı bilmək lazımdır. Siz bu reallığı bilirsiniz. Çünki biz birbirimizə çox yaxınıq, millətimizin mentalitetini, xüsusiyyətini, mənəvi dəyərlərini, adətlərini, ənənələrini çox yaxşı bilirik. Çünki bunların əksəriyyəti eynidir. Siz bunu yaxşı bilirsiniz. Amma bəzi Qərb ölkələri, hansının ki, 200 illik demokratiya tarixi var, bəzi adamlar, müşahidəçilər hesab edir ki, Azərbaycanda da belə olmalıdır. Bu, mümkün deyildir.

Keçmiş Sovetlər İttifaqının 15 müttəfiq respublikasının indi hamısı müstəqildir. Heç biri hələ o səviyyəyə gələ bilməz. Amma biz bu yol ilə gedirik. Başqa yolumuz yoxdur. Başqa yol da olmayacaqdır. Əsas budur.

Mən bu gün dörd-beş saatdır bütün nümayəndə heyətləri ilə görüşürəm. Ona görə görüşləri bir saat etmirəm, yarım saat da çox olur. Ona görə siz də orada gözləməli oldunuz. Çox ölkələrdən adamlar gəlibdir. ATƏT-dən 200 adam gəlibdir. Ondan əlavə, Avropa Şurasından adamlar gəlib, ATƏT-in Parlament Assambleyasından gəlib, Amerika Birləşmiş Ştatlarının Demokratiya İnstitutundan böyük bir dəstə gəlibdir. Bundan əlavə, Rusiyadan, Müstəqil Dövlətlər Birliyindən bir dəstə gəliblər. Hətta İrandan da gəliblər. Biz bunu müsbət qiymətləndiririk. Çünki gəlsinlər, görsünlər. Bir var görmədən, haradasa, Qərb ölkəsində yazırlar ki, Azərbaycanda demokratiya yoxdur, filandır, filandır. Amma qoy gəlsin, görsün!

Doğrudur, görənlərin bəzisi obyektiv, ədalətli olmur. Ancaq necə də olsa, bir hissəsi obyektiv, ədalətli olur. Ona görə biz müşahidəçilərin gəlməyinə çox şadıq, sevinirik və sizin gəlməyinizə xüsusi sevinirik.

Mən dəfələrlə demişəm ki, Azərbaycan müstəqil dövlət kimi bütün sahələrdə Türkiyənin tarixi nailiyyətlərindən təcrübə götürməlidir. Atatürkdən təcrübə götürməlidir. Ondan sonrakı dövrdən təcrübə götürməlidir. Çünki hər bir yeni dövlət özü heç bir şey icad etmir. Dünyada mövcud olan dövlətlərin sistemindən bəhrələnir.

Məsələn, biz demokratiya yolu ilə gedəndə təcrübə üçün bir var Fransa, bir var İngiltərə, bir var İtaliya, yaxud Amerika, bir də var Türkiyə. Bizim dilimiz, dinimiz, tariximiz, kökümüz birdir. Yəni bizim xalqlarımızın mentaliteti birdir. Ona görə də sizin ölkədən təcrübəni götürmək bizim üçün daha realdır və daha da faydalıdır, nəinki başqa bir ölkədən. Təbiidir, o ölkələrin təcrübəsindən də istifadə edirik. Amma Türkiyənin cümhuriyyət dövrünün inkişafı, - bu günlərdə 77-ci ildönümünü bayram etdik, - Azərbaycan üçün əsas təcrübə mənbəyidir və örnəkdir. Ona görə də siz həm müşahidə edəcəksiniz, həm də bizə kömək edəcəksiniz. Baxacaqsınız, harada nə qüsurlarımız var. Sonra onları bizə deyəcəksiniz ki, gələcəkdə nə etmək lazımdır, onu bilək.

Mən heç də iddia etmirəm ki, seçkilərdə demokratiyanın zirvəsinə çatacağıq. Yox. Ancaq böyük bir addım atacağıq. Biz də istəyirik ki, o addımla ölkəmizdə demokratiyanın inkişafı təmin olunsun. İkincisi də başqa ölkələr görsünlər ki, bəli, biz irəliyə böyük addım atdıq. Zaman lazımdır ki, yenə də bir addım ataq. Buna zaman lazımdır.

Türkiyə - Azərbaycan münasibətləri elədir ki, bunun haqqında saatlarla danışmaq olar. Amma bəzən düşünürsən ki, heç danışmağa da ehtiyac yoxdur. Çünki o qədər məlumdur, o qədər dostluq əlaqələri vardır.

Məsələn, son vaxtlar bizi, Türkiyəni daim narahat edən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsidir. Bu, bizim əsas problemimizdir. 12 il bundan öncə Ermənistan Azərbaycana təcavüz edibdir. Sovetlər Birliyinin içərisində olduğumuz son dörd ildə Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. Azərbaycan müstəqillik əldə edəndən sonra, 1993-cü ilə qədər bu torpaqların işğalı davam edibdir. Biz 1994-cü ildə müharibəni dayandırdıq, atəşkəs sazişi imzaladıq. Məsələni sülh yolu ilə həll etmək istəyirik. Amma indiyə qədər həll edə bilməmişik. Çünki Ermənistan bu barədə qeyri-konstruktiv mövqe tutur. Ermənistan torpaqlarımızı işğal edibdir. Ona görə də üstünlüyündən sui-istifadə edir və elə tələblər ortaya qoyur ki, biz bunu qəbul edə bilmərik. Dağlıq Qarabağa müstəqillik statusu istəyirlər. Biz bunu edə bilmərik.

Bütün bu dövrdə, əvvəldən indiyə qədər Türkiyə həmişə Azərbaycanla bir yerdədir. Yəni Azərbaycanın bu problemi eyni zamanda Türkiyənin problemidir. Türkiyənin bu barədə dəstəyi, köməyi həmişə bizim üçün böyük bir şeydir. Ona görə də bütün beynəlxalq təşkilatlarda məsələlər müzakirə olunan zaman Türkiyə bizim yanımızdadır, bizim istəyimizə səs verir.

Ermənilər indi soyqırım məsələsini ortaya çıxarıblar. Bu, uydurma bir şeydir. Bu, yalandır. Amma erməni lobbisi, erməni diasporu o qədər güclüdür ki, məsələn, Amerika kimi böyük bir dövlətin Konqresinə təsir edirlər. Orada müzakirələr gedəndə biz burada çox böyük təlaş içində idik. Mən açıq etirazlar bildirdim ki, heç bir soyqırım yoxdur. Əksinə, həmişə ermənilər türkləri qırıbdır. Azərbaycanda nə qədər qırğınlar ediblər. 1905-ci ildə, 1918-ci ildə, elə indi 12 ildir bu qırğınları edirlər. Bizim torpaqlarımızı işğal ediblər.

Amma orada, Amerikada deyirlər, nə bilim, Azərbaycanda bir adamın hüququ pozuldu. Bir şəxsin hüququnun pozulması da, təbiidir ki, olmamalıdır. Amma burada bütün xalqın hüququ pozulubdur. Millətin hüququ pozulubdur. Bir milyon insanın hüququ pozulubdur, onlar evindən, torpağından məhrum olublar, çadırlarda yaşayırlar. Dünya buna qiymət vermir, indi ədalət yoxdur. Çünki ədalət olsa, gərək Amerika Konqresi bizi dəstəkləsin. Amma əksinə, 1992-ci ildə Amerika Konqresi Azərbaycana qarşı ayrı seçkili qərar - 970-ci düzəlişi qəbul edibdir. Guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ona görə də Amerikanın Azərbaycana hər cür yardımına qadağan qoyulubdur. İndi Ermənistan, Gürcüstan yardım alır, Orta Asiya ölkələri, Ukrayna yardım alır, amma biz almırıq. İş bu yardımda deyildir. Bu illər yardımsız da yaşamışıq. Amma iş bunun siyasi mənasındadır. Həmin 907-ci düzəlişin müəllifi, onu Konqresdə keçirən konqresmen Smit indi də soyqırım haqqında layihənin müəllifidir.

O, layihəni əvvəlcə yardımçı komitədən keçirdi, sonra da Konqresin müzakirəsinə çıxardı. Allaha şükür olsun ki, orada müzakirədən çıxarıldı. Amma mən dünən bildim ki, indi buna Fransa parlamenti baxmaq istəyir. Türkiyə çox ciddi təkzib veribdir. Mən televiziya ilə dinlədim. Hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezər bəyanat veribdir. Digər hökumət nümayəndələri də bəyanat veriblər.

Ermənilər, görürsünüz, orada alınmadı, burada etmək istəyirlər, burada alınmasa, orada etmək istəyirlər. İndi bunları hər yerdə dəstəkləyirlər. Bilirsiniz, ədaləti dəstəkləmirlər. Ona görə də Azərbaycan və Türkiyə bu barədə eyni vəziyyətdədir. Ona görə də bizim bir yerdə olmağımız həm Türkiyə üçün, həm Azərbaycan üçün ən əsas məsələdir. Biz bir yerdəyik, bir yerdə də olacağıq.

Məsələn, Bakı - Ceyhan neft boru kəmərini həyata keçirmək üçün altı ildir çalışırıq. Nə qədər çətinliklər, nə qədər təzyiqlər oldu. Ancaq əvvəldən dedim, məsələni axıra qədər də çatdırdıq. Bunun böyük iqtisadi əhəmiyyəti vardır. Xəzər dənizindən neft çıxarılacaq, miqdarı da çox olacaqdır. Bunların hamısı Gürcüstan ərazisindən keçib Türkiyəyə gedəcək və Aralıq dənizinə çıxacaqdır. Türkiyə özü bundan istifadə edəcəkdir. Təbiidir ki, o, dünya bazarına da çıxaracaqdır.

İndi böyük bir qaz yatağı kəşf etmişik. O yataq var idi. Orada bir neçə şirkətlərin, o cümlədən Türk Petrolları Şirkətinin də 10 faiz payı vardır. Oradan bir trilyon kubmetrdən artıq qaz alınacaqdır. Məsələn, biz ildə 30 milyard kubmetr qaz ixrac edə biləcəyik. Bunu da birinci növbədə Türkiyəyə etmək istəyirik. Bir-iki ildən sonra bu, mümkün olacaqdır. İndi Türkiyə bəzi yerlərdən qaz alır. Siz Rusiyadan "mavi axın" xətti çəkirsiniz. Bilmirəm, "mavi axın" xətti olacaq, ya olmayacaqdır. Şəxsən mən buna o qədər də inanmıram. Ancaq edirsiniz-edin, öz işinizdir. Amma qazımızı Türkiyəyə verəndə artıq bu, etibarlı olacaqdır.

Məsələn, Türkmənistanın çoxlu qazı var. O istəyir ki, bir neçə bazara çıxarsın. Amma Rusiya onu istənilən vaxt bağlayır. Heç yerə çıxara bilmir. Bilirsiniz ki, anlaşma var idi. Biz onu 1998-ci ildə Ankarada imzaladıq. Türkmənistan Prezidenti ilə Türkiyənin Prezidenti imzaladılar ki, qaz borusu buradan, Xəzərdən,

Azərbaycandan, Gürcüstandan keçib Türkiyəyə gəlsin. Amma sonra bunu etmədilər. Çünki Türkmənistana mane oldular, o da bunu etmədi. İndi bilmir bu qazı hara çıxarsın. Bizə də mane olmaq istəyənlər, bizə də təzyiq etmək istəyənlər var idi. Biz öz iradəmizdən dönmədik. Demək, bax, bunlar bizi daha da bağlayacaqdır.

Bunlar təkcə iqtisadi məsələ deyildir. Bunlar bizi bir-birimizlə əsrlər boyu bağlayacaqdır. Bu, eyni zamanda bölgədə təhlükəsizliyi təmin edəcəkdir. Bir çox başqa məsələləri də demək olar. Ona görə də əlaqələrimiz dostluq, qardaşlıq əlaqələridir. Bu əlaqələr əbədidir. Bunu heç kəs sarsıda bilməz. Erməni xalqına qarşı heç bir soyqırım olmayıbdır. Əksinə, ermənilər türkləri, azərbaycanlıları qırıbdır.

Mən Ərzurumda, İqdırda olanda vaxtilə ermənilərin qırdığı türklərin məzarlarını gördüm. İqdırda bir abidə də ucaldılıbdır.

Həqiqət bundan ibarətdir.

Biz də burada Türkiyənin şəhidlərinə, - 1918-ci ildə türk qardaşlarımız şəhid olmuşlar, - onların şərəfinə böyük abidə ucaltmışıq.

Necati Çətinqaya: Cənab Prezident, getdik, gördük.

Heydər Əliyev: Onlar nə üçün şəhid olublar? Onlar gəlib Azərbaycanı ermənilərdən xilas edirdilər. Azərbaycanı ermənilərdən qoruyurdular. Ona görə də canlarını verdilər, həlak oldular. Əgər ermənilər bizə hücum etməsəydilər, onlar bizi qırmasaydılar, buna ehtiyac yox idi. Demək, onlar soyqırım ediblər.

Məsələn, bilirsiniz, Xocalı Qarabağda şəhərdir. Ermənilər orada bir gecənin içində insanların hamısını qırıblar. Uşaqlara da, qadınlara da imkan verməyiblər ki, çıxsınlar. Soyqırım budur. Özü də bu, 1992-ci ildə olan soyqırımdır. Amma onlar 85 il bundan öncəki, özü də olmayan bir məsələni ortaya atırlar. Bu məsələdə biz sizinləyik. Heç nə ola bilməz. Siz də bizimləsiniz.

Bir sözlə, sizin gəlməyinizdən çox məmnunam. Çox təşəkkür edirəm. Hesab edirəm ki, siz çox faydalı iş görəcəksiniz. Həm bizim demokratiyaya qiymət verəcəksiniz, həm də bizə kömək edəcəksiniz.

"Azərbaycan" qəzeti, 5 noyabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN MİLLİ TƏHSİL NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 2-də Prezident sarayında Türkiyənin Milli Təhsil naziri Mətin Bostançıoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Mən güman edirəm ki, siz burada artıq lazım olan işləri görmüsünüz. Mən bundan çox məmnunam ki, siz Azərbaycana səfər etmisiniz. Dedilər ki, siz sabah Türkiyəyə dönürsünüz.

Ölkələrimiz arasındakı əlaqələr bütün sahələrdə daim irəli gedir, inkişaf edir. Xüsusən təhsil həm Türkiyə üçün, həm də bizim üçün vacib olan bir sahədir. Ona görə də sizin səfərinizi çox əhəmiyyətli hesab edirəm və güman edirəm ki, burada faydalı işlər görə bilmisiniz.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin Milli Təhsil naziri **Mətin Bostançıoğlu** dedi:

- Hörmətli Cümhurbaşkanım, dünən səfərdən qayıtmısınız, yorğunsunuz. Nümayəndə heyətimizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm.

Heydər Əliyev: Amma yorğun deyiləm. Dünən gecə səfərdən gəlmişəm, bu gün səhərdən isə iş yerimdəyəm, çalışıram.

Mətin Bostançıoğlu: Çox gözəl. Sizinlə Türkiyəyə səfəriniz zamanı hörmətli Cümhurbaşkanım Süleyman Dəmirəl ilə birlikdə görüşdük. Beynəlxalq Atatürk Sülh Mükafatını aldığınız gündə də bərabər olduq. İsparta Universitetində və Beynəlxalq Atatürk Sülh Mükafatını aldığınız zaman söylədiyiniz nitqləri heyranlıqla izlədim. Sizi tanıyırdım, amma o nitqlərinizdən sonra mənim qəlbimdə böyük bir iz buraxdınız.

Heydər Əliyev: Çox sağ olun. Təşəkkür edirəm.

Mətin Bostançıoğlu: Bundan çox şadam. Mən hesab edirəm ki, biz Azərbaycana bir qədər gec gəlmişik. Amma nümayəndə heyətimizin tərkibi çox genişdir. Təhsil naziriniz Misir Mərdanov ilə görüşüb bu günə qədər görülən, bundan sonra görüləcək işlərdən danışmışıq. Çünki bilirik ki, ölkələrin gələcəyi təhsil sahəsinin inkişafından çox asılıdır.

Buraya gəlməzdən öncə, Azərbaycanda baş vermiş zəlzələdən bir üzüntü duyduq. Hətta zəlzələ baş verərkən ziyarətimizi təxirə salmaq fikrindən daşındıq. Bu acıları hamımız birgə yaşamalıyıq, bu zəlzələnin acılarını bərabər qarşılamalıyıq deyə, düşündük və proqramımızı həyata keçirdik.

Mən həyatını itirən azərbaycanlı qardaşlarımıza Tanrıdan rəhmət, yaralananlara şəfa diləyirəm.

Mən Bakıda zəlzələdən iki təhsil müəssisəsinin zərər çəkdiyini öyrəndim. Hörmətli təhsil nazirinizə dedim ki, həmin iki məktəbin təmirini biz öz üzərimizə götürək. Sağ olsunlar, buna razılıq verdilər. Biz hər iki məktəbi ən qısa zamanda təmir edib istifadəyə verəcəyik.

Heydər Əliyev: Çox sağ olun. Bu, yaxşı təşəbbüsdür.

Mətin Bostançıoğlu: Cənab Prezident, hörmətli nazir həmkarım ilə birlikdə bir müqavilə imzalamışıq. Bu, təhsil sahəsində əməkdaşlığa aiddir. Daha öncə mövcud olan müqavilə üzrə də çalışmalarımızı davam

etdirəcəyik. ancaq indiki müqavilədə iki maddə var ki, onlar çox önəmlidir. Bunlardan birincisi ibtidai sinif şagirdləri üçün müştərək tarix kitablarının yazılmasıdır. Türkdilli dövlətlərin müştərək tarix kitabının yazılması işi davam etməkdədir.

Amma biz ibtidai təhsil üçün də tarix kitabının hazırlanması barədə qərar vermişik. İkincisi isə, təhsil üçün texnologiyanın bütün imkanlarından yararlanmaq məsələsidir. Yəni Türkiyədə hər hansı bir universitetdə professorun keçdiyi dərsi Azərbaycan Dövlət Universitetində və ya Azərbaycan İqtisad Universitetində tələbələrin dinləyə bilməsi, yaxud Azərbaycandakı bu universitetlərdə aparılan dərsin eyni anda Türkiyədəki tələbələrin dinləyə bilməsi həmin bu texnologiya vasitəsilə mümkün olacaqdır.

İndi internet təhsilin həyatına daxil olmuşdur. Bu sahədə də birlikdə təcrübələrimizi qarşılıqlı surətdə öyrənmək, Türkiyədə təhsil alacaq tələbələrin çalışmalarını təmin etmək dünən imzaladığımız müqavilənin ən önəmli maddəsidir. Daha bir maddə də var ki, bih yeni açılacaq otelçilik və turizm məktəblərinə təlim və texnika baxımından hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Hörmətli Cümhurbaşkanım, Sizin təhsilə nə qədər önəm verdiyinizi bilirik. Apardığınız islahatlardan xəbərdarıq. Ümumiyyətlə, iki qardaş dövlət, Sizin söylədiyiniz kimi, "Bir millət, iki dövlət" olan Azərbaycandakı və Türkiyədəki uşaqların birlikdə təhsil almaları yaxşı olardı. Bu, hər iki ölkə üçün faydalıdır.

Türkiyə 1918-ci ildə də, ondan sonra da müstəqilliyini tələb edən Azərbaycanın daim yanında olmuşdur. Mən Türkiyəyə Sizin etdiyiniz səfərlər barədə danışmaq istəyirəm. Siz Azərbaycana rəhbərlik etdiyiniz vaxtdan ölkəniz çox irəli gedib və gədəcəkdir.

Siz Azərbaycana rəhbərlik edəndən sonra aparılan islahatlar bütün azərbaycanlıları, işğal altında olan torpaqlardan zorla çıxarılmış qaçqınları, başqa ölkələrdə yaşayan azərbaycanlıları sevindirir və müasir mədəniyyətə qovuşdurur, bundan sonra da qovuşduracaqdır. Mən buna inanıram.

Sizə bir daha təşəkkür edirəm. Azərbaycan üçün nə iş görməyimizi əmr edərsinizsə, milli təhsil naziri kimi, yerinə yetirməyə hazır olduğumu nəzərinizə çatdırıram.

Hörmətli Mətin Bostançıoğluna minnətdarlığını bildirən Azərbaycan Prezidenti **Heydər Əliyev** dedi:

- Təşəkkür edirəm. İlk öncə onu deyim ki, İspartada Süleyman Dəmirəl adına Universitetdə birlikdə olmağımızı yaxşı xatırlayıram. Orada gözəl bir mərasim keçdi. Siz də çox gözəl nitq söylədiniz. Hörmətli Süleyman bəy də, hörmətli Rauf Denktaş da, mən də nitq söylədik. Mən həmin günü həyatımda çox maraqlı bir gün hesab edirəm. Türkiyənin bir neçə universitetində olmuşam. Hər dəfə də çox yaxşı təəssüratlarım olubdur. Həmin gün biz İspartada Süleyman Dəmirəl adına Universitetdə olduq. Bu universitet 20 ildir, bəlkə də bundan az bir zamanda yaranıbdır. Amma həm binaları, həm də fakültələri nə qədər genişdir, böyükdür. Bunlar hamısı məni çox sevindirdi və heyran etdi.

Türkiyədə universitetlər, bəlkə də, Azərbaycandan sonra yaranıbdır, ancaq sürətlə çoxalırlar. Bu da təbiidir. Çünki Türkiyənin 65 milyon əhalisi vardır. Əksəriyyəti gənclərdir. Bizim millətimiz beladir ki, uşaqları çox yaradırıq və onlar hamısı təhsil almalıdır. Təkcə orta təhsil yox, ali təhsil, universitet təhsili almalıdır. Mən o görüşü xatırlayıram. Çox məmnunam ki, sizinlə ondan sonra burada, Azərbaycanda görüşürük.

Əgər xatırlayırsınızsa, mən sizi o vaxt dəvət etdim ki, gəlin, Azərbaycanı görün. Çünki sizin oradakı nitqiniz mənə çox böyük təsir bağışladı.

Beynəlxalq Atatürk Sülh Mükafatının mənə verilməsi mərasimində hökumətin bütün üzvləri, dövlət adamları, ordu rəhbərləri - hamı orada idi. Mən çox həyəcanlı idim. Çünki xatirinizdədirsə, mən o vaxt dedim ki, indiyə qədər həyatımda çox mükafatlar, dövlət nişanları almışam. Ancaq Beynəlxalq Atatürk Sülh Mükafatı mənim üçün hamısından əzizdir. Bu sözü bu gün də deyirəm, təsdiq edirəm. Bu mükafat hamısından əzizdir. Çünki böyük Atatürkün adı bizim üçün çox əzizdir. Böyük Atatürkün bütün türk dünyasına verdiyi töhfələr bizim üçün əzizdir. Atatürkün ən böyük heykəli bugünkü Türkiyə Cümhuriyyətidir. Bu Atatürkə olan ən böyük abidədir, ən böyük heykəldir. Belə olan halda Atatürk adını daşıyan mükafat təbiidir ki, hər bir mükafatdan üstündür. Çox məmnunam ki, siz də həmin mərasimdə olmusunuz və mənim sözlərimi eşitmisiniz. Mən qəlbimdən gələn sözləri həyəcanla, çox böyük dostluq, qardaşlıq hissiyyatları ilə salonda olanlara çatdırdım.

Burada gördüyünüz işlər diqqətəlayiqdir. Hesab edirəm ki, çox faydalı işlər görmüsünüz, müqavilə bağlamısınız və burada haqqında danışdığınız maddələr çox əhəmiyyətlidir. Məsələn, müştərək tarix dərsliyi yaratmaq çox vacibdir.

Bilirsiniz, bizim xalqlarımız öz qədim köklərindən, əcdadlarından indiyə qədər, əsrlər boyu tarixin bir çox mərhələlərindən keçibdir. Türkiyə ilə Azərbaycan arasında olan yaxınlıq türkdilli dövlətlər içərisində heç bir ölkəyə məxsus deyildir. Ancaq bu, iki ölkəyə, Türkiyəyə və Azərbaycana məxsusdur. Bizim dilimiz də eynidir. Müştərək tarix haqqında kitab yazılarkən onu Türkiyədə də, Azərbaycanda da hər bir insan tərcüməsiz oxuyacaqdır.

Bu ona görə lazımdır ki, hər halda vaxtilə tarix bizim ölkədə siyasətin təsiri altında olubdur. Siyasətin yox, daha doğru desək, ideologiyanın təsiri altında olubdur. İdeologiya hansı məsələləri lazım bilibsə, onlar da tarixdə öz əksini tapıb, hansını la-

zımı bilməyibsə, onlar öz əksini tapmayıbdır.

Məsələn, mən bir neçə ildir ki, Azərbaycanın həqiqi tarixinin yaranması haqqında məsələlər qaldırmışam. Bizim akademiyanın elmi-tədqiqat institutları işləyirlər, bu barədə kitablar yazıblar, indi də yeni kitablar təqdim edirlər. Ancaq hesab edirəm ki, bu elə bir işdir ki, bunun üzərində daim çalışmaq lazımdır. Tarix, yəni tarix kitabları gərək həqiqəti əks etdirsin. Hansısa hökmdarın dövründə, yaxud hansısa bir quruluşda tarix kitabı kiminsə istəyi ilə, kiminsə xoşuna gəlmək üçün yazılanda tarix pozulur.

Mənə belə gəlir ki, insanlar, gələcək nəsillər bizim XX əsrdə gördüyümüz dərdləri daha görməyəcəklər və Türkiyə ilə Azərbaycan əbədi olaraq bir-biri ilə bərabər olacaqdır. Ona görə də bizim gənclərimiz, gələcək nəsil xalqlarımızın tarixini gərək olduğu kimi bilsinlər. Nə o tərəfə, nə də bu tərəfə dartıb əymək olmaz. Amma vaxtilə bizdə belə şeylər olubdur. Ona görə də bizim yeni yazılan tarix kitabına çox ehtiyacımız vardır. Sizin bu barədə imzaladığınız müqavilədəki maddə də çox əhəmiyyətlidir.

Türkiyə və Azərbaycan universitetlərinin böyük təcrübələri vardır. Amma bilirsiniz ki, Azərbaycandakı universitetlərin hamısı, ümumiyyətlə, təhsil, - həm orta, həm də ali təhsil - vaxtilə sovet ideologiyası, sovet sistemi əsasında qurulubdur. Bunun da kökü keçmiş rus imperiyasından gəlibdir.

Mən açıq demək istəyirəm ki, biz öz təhsilimizi pisləməməliyik. Çünki 70 ildə Azərbaycanda nə varsa, hamısını insanlar yaradıblar, azərbaycanlılar yaradıbdır. Əgər azərbaycanlılar təhsil almasaydılar, yüksək ixtisaslara yiyələnməsəydilər, onlar bunu edə bilməzdilər. Məsələn, bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanda savadsızlıq ləğv olunubdur. Azərbaycanda savadı olmayan adam yoxdur. Bu, bu gün deyil, 20, 30 il bundan qabaq olubdur. Yaxud da Azərbaycanda icbari orta təhsil olubdur.

Misir Mərdanov: (Azərbaycanın Təhsil naziri): Cənab Prezident, 60-cı illərdə Azərbaycanda icbari orta təhsil olubdur.

Heydər Əliyev: 60-cı illərdə icbari orta təhsil o deməkdir ki, hər bir uşaq gərək mütləq onillik orta təhsil alsın. Təbiidir ki, ondan sonra isə ali təhsil almaq hamı üçün vacib deyildir. Orta təhsil zamanı kim daha çox biliyə malik olubdur, o, gedib ali təhsil ala bilər. Amma orta təhsil icbari olubdur. Bu gün də icbaridir. Elədirmi?

Misir Mərdanov: Bəli, cənab Prezident.

Heydər Əliyev: Bunlar hamısı bizim təhsilin nailiyyətləridir. Ona görə, təbiidir ki, sistem dəyişə bilər. Biz islahatlar aparırıq, çünki istəyirik ki, bizim təhsil sistemimiz beynəlxalq təhsil sisteminə uyğun olsun. Məsələn, yəni burada, Azərbaycan Dövlət Universitetində, eyni zamanda hansısa inkişaf etmiş başqa bir ölkənin universitetində təhsil almış adam nəinki

dünya səviyyəsində, yəni o prinsiplər səviyyəsində olsun ki, burada çalışan adam orada da çalışa bilsin.

Biz bu islahatları aparırıq və bundan sonra da aparacağıq. Bu da Türkiyə ilə Azərbaycan arasındakı təhsil sisteminin bir-birinə daha da yaxın olmasını təmin edəcəkdir. Çünki sizin ölkədə olan universitetlər Qərb sistemi əsasında qurulubdur. Bəlkə də tam elə deyil. Ancaq yenə də deyirəm, bizim universitetlər, məktəblər Sovetlər İttifaqının dövründə mövcud olan sistem əsasında qurulubdur. Burada elə bir problem yoxdur. Yəni təhsil təhsildir. Kim təhsil, bilik alırsa, nə cür alır, haradan alır, nə alır, onun o qədər əhəmiyyəti yoxdur. Əsas odur ki, insanları biliklərdirək, hazırlayaq.

İndi elmi-texniki tərəqqi inkişaf edibdir. Siz də qeyd etdiniz, internet sistemi, yaxud da başqa sistemlər artıq bütün hər yerə, o cümlədən məktəblərə, universitetlərə daxil olubdur və yeni bir keyfiyyət yaranıbdır. Biz vaxtilə təhsil alanda bunların heç biri yox idi, belə şeyləri heç təsəvvürümüzə gətirə bilməzdik. Hər şeyi yazırdıq, hesablayırdıq. Mühasiblərin - sizdə də mühasib deyirlər - bir hesablama çötkəsi var idi. Bilmirəm, türkcə buna nə deyirlər. Bir, iki, üç, dörd sayırdıq. Sizin mühasiblərdə var idi?

Mətin Bostançıoğlu: Bəli.

Heydər Əliyev: Bundan başqa bir alət yox idi. O da ancaq mühasiblərdə var idi. Amma biz hamımız yazırdıq, neçənin üstünə neçə gəl. Neçə olacaqdır? Neçəyə zərb elə, neçə olacaqdır, nə olacaqdır? Hamımız belə yaşamışıq, belə təhsil almışıq. Amma indi bizim gənclər üçün asanlaşıbdır. Eyni zamanda gənclər gərək bunu mənimsəsinlər, bilsinlər və ondan faydalı istifadə etsinlər. Ona görə də sizin universitetlər ilə bizim universitetlər arasında bu sahədə əməkdaşlığın çox böyük əhəmiyyəti vardır.

Bilirəm ki, bizim gənclərin böyük bir hissəsi Türkiyədə təhsil alır. Təxminən nə qədərdir?

Misir Mərdanov: Cənab Prezident, iki min nəfər təhsil alır.

Heydər Əliyev: Bəs Türkiyədən nə qədər gənc Azərbaycanda təhsil alır?

Misir Mərdanov: O da təxminən iki min nəfərə yaxındır.

Heydər Əliyev: Bu da çox yaxşı haldır. Çünki bizim həm təhsil sistemimizi, həm də insanlarımızı bir-birinə daha da yaxınlaşdırır.

Beləliklə, hesab edirəm ki, Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdəki əlaqələr ilə müqayisədə bizim təhsil sahəsində əlaqələrimiz daha da yaxşı vəziyyətdədir.

Sizin Azərbaycana səfəriniz çox əhəmiyyətlidir. Mən çox məmnunam ki, siz faydalı iş görmüsünüz və lazımi protokol imzalamısınız.

Respublika rəhbərliyinə bir daha təşəkkürünü bildirən cənab **Mətin Bostançıoğlu** dedi:

- Hörmətli Cümhurbaşkanım, çox sağ olun. Həmkarım Misir Mərdanovla qardaş kimi çalışırıq və bun-

dan sonra da belə çalışacağıq.

Mən Azərbaycana gələndə hava limanından Bakı şəhərinə daxil olana qədər küçələrdən asılmış "Keyfiyyət tələb edilsin" mövzusunda reklamlarla rastlaşdım. Bundan çox məmnun oldum.

İndi bütün dünyada millətlər yarışırlar. Universitetlər arasında keyfiyyət yarışı əsl yarışdır. Hərçənd ki, biz keyfiyyət tələb edirik, - buna da inanırıq, - onda bu keyfiyyəti təmin etməyimiz gərəkdir. Burada, dünyanın hər yerində oxuyan tələbələr gərək iş sahibi ola bilsinlər.

Bildiyiniz kimi, iki minə yaxın azərbaycanlı tələbə Türkiyədə, bir o qədər də Azərbaycanda təhsil alır. Türkiyə universitetlərində oxuyub məzun olan tələbələrimizin elə təhsil almaları gərəkdir ki, burada iş sahibi ola bilsinlər. Azərbaycan universitetlərində təhsil alan tələbələrimiz də gərək Türkiyədə, dünyanın dörd bir yanında iş sahibi ola bilsinlər. Bunun üçün universitetlərdə təhsilin keyfiyyətinə fikir verməliyik. Bu keyfiyyəti yaratdıqda hər iki ölkənin inkişafını əldə etmiş olarıq.

Mən bu gün Azərbaycan Dövlət Universitetini, dünən isə Azərbaycan Dövlət İqtisad Universitetini ziyarət etdim. Orada professorlarla görüşdüm, biz çox dəyərli fikir mübadiləsi apardıq. Bizim hörmətli professorumuz Küncar Bardaros onlarla yenidən görüşüb söhbət edibdir. İki ölkənin uşaqları, ölkələrimizin gələcəyini təmsil edən gənclərimiz üçün nə iş görmək lazımdırsa, biz onu birlikdə həyata keçirməliyik. Mən Təhsil naziri, hörmətli Misir Mərdanovla bu işləri görəcəyəm. Biz bu sahədə sizin əmrlərinizi gözləyirik.

Heydər Əliyev: Çox sağ olun. Mən bütün bunlardan çox məmnunam. Bu işlərdə sizə uğurlar arzulayıram.

"Azərbaycan" qəzeti, 3 dekabr 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Türkiyə Böyük Millət Məclisinin sədri vəzifəsinə seçilməyim münasibətilə mənə göndərdiyiniz səmimi təbrik məktubuna görə təşəkkür edirəm.

Ölkələrimiz və parlamentlərimiz arasında mövcud olan sıx dostluq münasibətlərinin gələcəkdə daha da artacağına inanıram. TBMM başqanı olaraq, səlahiyyət müddətim dövründə bu məqsədi yerinə yetirmək üçün ciddi səylər göstərəcəyəm.

Hörmətli Prezident, fürsətdən istifadə edərək, Zati-alilərinizə cansağlığı, qardaş Azərbaycan xalqına rifah və xoşbəxtlik arzulayır, ən dərin ehtiramımı sizə çatdırıram.

Hörmətlə,

Ömər İzgi,
Türkiyə Böyük Millət Məclisinin sədri
"Azərbaycan" qəzeti, 9 dekabr 2000-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər tərəfindən 2000-ci il iyulun 11-də Bakı şəhərində imzalanmış Birgə Bəyanat təsdiq edilsin.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti,
Bakı şəhəri, 12 dekabr 2000-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 13-də Prezident sarayında Türkiyənin Enerji və Təbii Ehtiyatlar nazirinin müavini Yurdakul Yigitgüdənin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Xoş gəlmisiniz. Mənə məlumat veriblər ki, siz Dövlət Neft Şirkətində məsələlərin hamısını müzakirə etmisiniz və eyni fikirdəsiniz. Ona görə, qısaca nələri demək istəyirsinizsə, buyurun.

Prezident Heydər Əliyevə minnətdarlıq edən **Yurdakul Yigidgüdən** dedi:

- Hörmətli Cümhurbaşkanım, bizi qəbul etdiyiniz üçün təşəkkürümüzü bildiririk. Hörmətli Cümhurbaşkanımız Əhməd Necdət Sezərin Sizə salamlarını gətirmişəm. Eyni zamanda, icazənizlə, Azərbaycanda baş vermiş zəlzələ ilə əlaqədar onun başsağlığını, habelə apardığımız məqsədli işbirliyinin uğurla həyata keçirilməsinə dair məktubunu Sizə yetirmək istəyirəm.

(Cənab Yigitgüdən Türkiyə Prezidenti Əhməd Necdət Sezərin məktubunu respublikamızın rəhbəri Heydər Əliyevə təqdim etdi).

Bildiyiniz kimi, Sizin böyük dəstəyiniz sayəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi məsələsi sürətlə irəliləyir. Biz Azərbaycanın "Şahdəniz" yatağından çıxarılacaq qazın alınması barədə müzakirələrə başlamışıq. Amma Sizin kimi, bizim Cümhurbaşkanımız da müzakirələrin yavaş getməsindən narahatdır. Ona görə də biz bir araya gələrək işlərimizi sürətləndiririk və qarşıdakı günlərdə təkrar görüşəcəyik. Əgər bizə Sizin başqa təlimatlarınız varsa, onları da müzakirə edəcəyik.

Gördüyünüz kimi, biz bundan sonra da eyni dildə danışacağıq. Aramızda heç bir fərq yoxdur. Ona görə də heç kim bizə yanlış fikir söyləyə

bilmir. Çünki biz bir-birimizin sözlərini qarşılıqlı anlayırıq. Təbiidir ki, Sizin verdiyiniz böyük dəstəyin sayəsində. Sağ olun.

Heydər Əliyev: Eyni dildə ifadəsini iki cür başa düşmək olar. Onsuz da biz ayrı dildə danışmırıq. Amma mən sizin eyni dildə danışmaq fikrinizdən anlayıram ki, yəni eyni fikirdəsiniz. Mən bundan çox məmnunam. Siz də bilirsiniz, bizim Azərbaycanın xalqı da, Türkiyə Cümhuriyyətinin xalqı da bilir ki, biz 5-6 ildir ki, Bakı-Ceyhan boru xəttinin yaranması üçün nə qədər çox işlər görmüşük, nə qədər problemlərlə rastlaşmışıq. Amma bunların hamısını aradan qaldırmışıq. İndi bu kəmərin inşaatı lazımdır və bilirsiniz ki, bizim Dövlət Neft Şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə birlikdə bəzi sponsorları arayırlar. Siz də, biz də, hesab edirəm ki, bu da elə bir çətin məsələ deyildir. Bunların hamısı olacaqdır.

Siz eyni zamanda qaz məsələsini müzakirə etmisiniz.

Natiq Əliyev: (Azərbaycan Dövlət Neft Şirkətinin Prezidenti): Cənab Prezident, bəli. Bu məsələ də müzakirə olunubdur. Bildiyiniz kimi, biz son zamanlar Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə məşğul idik. Parisdə, Vaşinqtonda danışıqlar keçirdik. Bunu şirkətlərlə yenidən müzakirə etdik. Bu məsələdə müsbət nəticələr vardır. Eyni zamanda paralel olaraq "Şahdəniz" layihəsinin əsas investoru "Bi-Pi" şirkəti Türkiyə tərfi ilə Ankarada danışıqlar aparıbdır. Ancaq hələ bir nəticəyə gəlməyiblər. Ona görə də bu gün biz belə qərara gəldik ki, iki-üç gün ərzində Dövlət Neft Şirkətinin mütəxəssisləri, ekspertləri Ankaraya gedib danışıqlara başlayacaqlar. Biz Transxəzər boru xətti və sair məsələlər üzərində işləyirik. Hesab edirəm ki, 5-6 gün ərzində sənədlərin layihələri hazır olacaqdır.

Heydər Əliyev: Bunu etmək lazımdır. Çünki Türkiyənin həmişə qaza böyük ehtiyacı olubdur. Bilirəm, gələcəkdə hələ nə qədər ehtiyacı olacaqdır.

Biz Xəzər dənizi, Azərbaycan, Gürcüstan üzərindən Türkiyəyə Türkmənistan qazının nəqlinin tərəfdarıyıq. Biz İstanbulda bu barədə saziş imzalamışıq. Orada mənim də imzam vardır. Türkmənbaşının da imzası vardır. Prezident Şevardnadzenin də imzası vardır. Prezident Süleyman Dəmirəlin də imzası vardır. Hətta Prezident Klintonun da imzası vardır. Amma ondan sonra Türkmənistan bu barədə mövqelərini müəyyən edə bilməyibdir və biz də bundan asılı qalmışıq. Yəni biz tərəfdən burada problem yoxdur. Gürcüstan tərəfdən, Türkiyə tərəfdən problem yoxdur. Əsas problem qazın sahibi tərəfdəndir.

Bu məsələni həll edin. Yəni bunları bir-birinə bağlamaq lazım deyildir. Əgər Transxəzər qaz borusu məsələsi həll ounursə, biz bunu dəstəkləyirik və buradan qaz keçirməyə hazırıq. Yox, əgər bu, naməlum vəziyyətdə qalacaqsa, onda, bizim özümüzün layihəmiz vardır və bunu həyata keçirməyə hazırıq.

Yurdakul Yigidgüdən: Cənab Prezident, biz də eyni fikri söyləyirik. Əgər onlar problemi həll edərlərsə, biz ilk addımı atmağa hazırıq. Biz Xəzərdən başlayaraq Azərbaycan, Gürcüstan üzərindən Türkiyəyə çəkiləcək xəttə hazırıq. Yalnız danışıqları gücləndirməyə qərar vermişik. Qarşıdakı günlərdə Valeh Ələsgarov Türkiyəyə gələcəkdir və bunu daha faydalı olaraq müzakirə edəcəyik. Çünki hər iki tərəf bir-birini yaxşı tanıyır. Yanvar ayı başa çatanadək bu işi bitirmək istəyirik.

Heydər Əliyev: Bəli, bunu o vaxtdan gec saxlamaq olmaz. Bitirmək lazımdır. Çünki bizim də işlərimiz vardır. Biz 2002-ci ildə qaz ixrac edə bilərik. Amma 2002-ci ilə nə qalıbdır? 2000-ci il bitdi, 2001-ci il, 2002-ci il. Biz o vaxt ixraca hazır olacaq qazı saxlaya bilmərik.

Məsələn, ola bilər, biz nefti dəmir yolu ilə, başqa yollarla ixrac edək. Amma qaz belə ola bilməz. Türkiyəyə qaz lazımdır, biz də qaz satırıq. Özü də biz konkret söhbət edirik.

Yurdakul Yigidgüdən: Cənab Prezident, bizim hörmətli Cümhurbaşkanımız eyni sözü söyləyir. Deyir ki, bunu iki ay ərzində bitirəcəyinizi mənə söz vermişdiniz. Oktyabr, noyabr ötdü, amma iş bitmədi. Deyir ki, bu nə işdir? Ona görə də biz bu işi gücləndirməyi qərara almışıq. Şirkətlərin ayırd edə bilmədiyi məsələləri dövlət olaraq biz həll edəcəyik.

Heydər Əliyev: İran bizdən çox-lu qaz almaq istəyir. Əgər bu məsələ gecikssə, biz məcbur olacağıq ki, onlarla danışıq aparaq. Mən sizə hər şeyi açıq deyirəm. Çünki bu elə şeydir ki, biz buna zəhmət çəkmişik. "Şahdəniz" yatağı barədə 1996-cı ildə imzalanmış müqavilə vardır. İndi 2000-ci ildir. Beş il keçibdir. Qaz vardır. Onun çəxarılması, ixrac edilməsi bir-iki ilin içərsində mümkün olan şeydir. Burada iki şey vardır. Tranxəzər borusu olmursa, onda bilavasitə Azərbaycan, Gürcüstan, Türkiyə bunu edər. Əgər buna da maneə olarsa, bizim güney tərəfə də ixrac etməyə imkanımız vardır.

Yurdakul Yigidgüdən: Biz hər kəslə apardığımız standart anlaşmanı şirkətlərə də göndərmişik. Biz bu anlaşmanı imzalamağa hazırıq. Onların bəzi düşüncələri vardır. İmkanımız vardır ki, bir araya gələk. Təbii ki, bizim istəyimiz Azərbaycanın bütün dünyaya qaz satmasıdır.

Mən keçən həftə Brüsseldə idim. Avropa komissiyası ilə bu məsələni müzakirə edirdim. Yəni çəkiləcək növbəti borunun Türkiyə üzərindən İtaliyaya çatdırılması və bununla da İtaliya, İspaniya və Fransa kimi ölkələrin qaz ehtiyaclarının ödənilməsi məsələsini. Biz bütün bunları onlara başa saldıq. Birlikdə qısa zamanda bu işi həll edəcəyimizə inanıram.

Heydər Əliyev: Biz bilirik ki, in-

di Rusiyada qaz ehtiyatları azalır. Avropanın qaza çox ehtiyacı vardır. Şimal dənizində, Norveç yataqlarında qaz ehtiyatı azalır. Bu, böyük dünya probleminə çevrilir. Xəzər dənizində başqa sektorlarda da qaz var, amma Azərbaycan sektorunda çoxdur. "Abşeron" yatağından "Şahdəniz"dən də çox qaz gözləyirik. Ona görə də bizim bu işimizin böyük perspektivi vardır. Buna tələbat da vardır.

Tələbat ona görə vardır ki, Avropanın çox hissəsi Rusiyadan qaz alır. Amma onlarda qaz azalır. Şimal dənizindən qaz alırlar, orada qaz azalır. Demək, tələbat çoxdur. Amma bizim məqsədimiz birinci növbədə, Türkiyəni qazla təmin etməkdir. Çünki dostuq, qardaşıq, bu işlərə bir yerdə başlamışıq, bir yerdə çalışırıq. Türkiyənin buna ehtiyacı vardır.

Yurdakul Yigidgüdən: Ona görə də hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezər ilk dəfə Azərbaycana səfər etdi və bu barədə xüsusi açıqlama verdi.

Heydər Əliyev: Tamamilə doğrudur.

Yurdakul Yigidgüdən: Biz müzakirələrə başladıq. Hesab edirəm ki, şirkətlərin təraddüdlərini qısa zamanda aydınlaşdırarıq.

Heydər Əliyev: Çox gözəl. Mən çox təşəkkür edirəm ki, hörmətli dostum Cümhurbaşkanı Əhmət Necdət Sezərin məktubunu gətirmisiniz. Mən görürəm, burada eyni fikirlər əks olunubdur. Mən də bu məktuba cavab göndərərəm. Ancaq cavabım aydındır. Mən sizə deyirəm, biz hər şeyə hazırıq. Biz tərəfdən heç bir problem yoxdur.

"Azərbaycan" qəzeti, 14 dekabr 2000-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 22-də Prezident sarayında Türkiyə Cümhuriyyətinin Dövlət naziri Əbdülxalıq Çayı və Səhiyyə naziri Osman Durmuşu qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Prezident **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Mən sizin bu münasibətlə respublikamıza səfərə gəlməyinizi yüksək qiymətləndirirəm. Çünki ölkəmizdə belə bir klinik xəstəxananın yaranması bizim üçün çox əhəmiyyətlidir. Siz də - Dövlət naziri və Səhiyyə naziri buna xüsusi əhəmiyyət vermisiniz, zəhmət çəkib buraya gəlmisiniz. Bu, Türkiyə dövlətinin, hökumətinin Azərbaycana olan diqqətini və qayğısını bir daha nümayiş etdirir. Xəstəxana ilə tanış olanda da biz bütün sözləri dedik, amma mən oradan gələndən sonra belə bir təəssüratdayam ki, daha çox söz demək olardı. Mən istəmirəm ki, yeni xəstəxananı həddindən artıq tərifləyim. Amma tərifləməyə əsas var. Ona görə ki, xəstəxana, həqiqətən, ən yüksək dünya standartları səviyyəsindədir. Mən bəzi səbəblərdən son iki il içərisində bir neçə xəstəxanada gördüm. Doğrudur, bundan öncə mən ömrümdə bircə dəfə 1987-ci ildə Moskvada infarkt keçirmişdim, xəstəxanaya düşmüşdüm. O dövrdə orada da çox böyük, müasir xəstəxana var idi. Amma ondan sonra heç bir xəstəxanada müalicə olunmamışdım. Bilirsiniz ki, son vaxtlar mənim başıma bəzi hadisələr gəldi, bir sıra xəstəxanalarda müalicə aldım, ona görə də gördüklərimlə bunu müqayisə etməyə imkan var. Birincisi, bir daha demək istəyirəm ki, bu klinik xəstəxanada inşaat işlərini çox keyfiyyətli aparıblar. Mənim inşaat barədə narahatlığım yox idi, ancaq avadanlıq sarıdan bir az narahat idim. Düzdür, mən dedim ki, biz bunun üçün pul ödəmirik, ancaq gərək ən yüksək səviyyəli avadanlıq olsun. Mənə dedilər ki, avadanlıq "Simens" firmasına məxsusdur. Doğrudan da, gördük ki, "Simens" çox gözəl avadanlıq istehsal edib. Məsələ burasındadır ki, dünyada hər şey, o cümlədən tibbi texnika inkişaf edir. İki il bundan əvvəl alınan şey artıq bu gün köhnə hesab olunur. İki il sonrakı avadanlıq isə indikindən fərqli olacaqdır. Hesab edirəm ki, indiki avadanlığımız çox yaxşıdır və bu avadanlıq hələ çox illər bizə xidmət edəcəkdir. Mən orada da dedim, bu avadanlığı bizim tibb heyətinin gücü ilə istənilən səviyyədə işlətmək çətindir. Ona görə də mən çox məmnun oldum ki, türkiyəyə xüsusi həkim və şəfqət bacısı qrupları, tibb heyəti göndərilib. Məni çox maraqlandırırdı ki, onlar nə səviyyədə hazırlanıblar. Səhiyyə nazirləri Əli İnsanov və Osman bay mənə həmişə deyirdilər ki, narahat olmayın, yaxşı hazırlayırıq. Amma doğrusu, bir az şübhəm var idi. Amma bu şübhə aradan qalxdı, hər şey çox gözəldir.

Təbiidir ki, sizin ölkənin həkimləri, cərrahları, tibb işçiləri gəlib burada işin təşkilinə yaxından kömək göstərməlidirlər. Eyni zamanda, buraya qəbul olunacaq işçilər təcrübə keçməlidir və bunu türkiyədən gələn adamlar etməlidir. Beləliklə, bu klinik xəstəxana inşaatına, şəraitinə, avadanlığına görə yox, kompleks halda müasir xəstəxana olacaq və xalqımıza, millətimizə xidmət edəcəkdir. Vaxtilə bu məsələ - klinik xəstəxananın yenidən qurulması məsələsi qaldırılanda hörmətli dostum Süleyman Dəmirəl bu barədə öz fikirlərini bildirdi. Mən özüm də bu barədə fikirləşirdim. Bilirsiniz, vəsait olmayan yerdə belə şeyləri həll etmək çətindir. Amma yaxşı ki, bu məsələni həll etdik. Mən sizə bir daha təşəkkür edirəm. Çox sağ olun. Mən bütün bunlardan çox məmnunam. Eyni zamanda, məmnunam ki, siz respublikamıza gəlmisiniz, görüşürük, söhbət edirik. Bu da lazımdır, çünki səfərlər üçün bir səbəb, vasitə,

hadisə lazımdır. Bizim hidrometeoroloqların məlumatına görə, bu gün yağış yağacağı və havanın soyuq olacağı gözlənilirdi. Mən mühafizə xidmətinin işçilərinə deyirdim ki, əgər yağış yağsa, insanlar bundan əziyyət çəkməyəcək ki? Amma görünür, allah bizim tərəfimizdədir. Bu gün səhər pəncərədən baxıb gördüm ki, günəşli, gözəl bir hava var. Bu da bizə yardımçı oldu. Sizə bir daha təşəkkür edirəm.

Türkiyə respublikasının dövlət naziri **Əbdülxalıq Çay** dövlətimizin başçısına səmimi qəbul üçün təşəkkür edərək dedi:

- Möhtərəm Cümhurbaşkanım!

Xəstəxananın açılışı münasibətilə hörmətli nazirimiz Osman Durmuş bəylə biz yenidən bu gözəl dost, qardaş azərbaycana gəldik. Bu xəstəxananın azərbaycan vətəndaşlarına, bakı əhalisinə yüksək səviyyədə tibbi xidmət göstərəcəyinə inanırıq. Səhiyyə nazirimiz azərbaycanlı həkimlərin ixtisasının artırılması sahəsində əlindən gələn hər şeyi edir. Biz TİKA, yəni türk işbirliyi və inkişaf agentliyi vasitəsilə bütün sahələrdə təhsil verməyə və texniki yardım göstərməyə çalışırıq. Bu il TİKA-nı mənim başçılıq etdiyim nazirliyin tabeliyinə keçirəcəyik və maliyyə baxımından daha da gücləndirəcəyik. 7 il ərzində müxtəlif Avrasiya ölkələrindən olan 29 min adama texniki sahələrdə təlim keçmişik. Ən axırda Azərbaycandan mərkəzi bankın bir qrup əməkdaşı və Səhiyyə nazirliyinin göndərdiyi həkimlər bizdə xüsusi kurs keçdilər.

Hörmətli Cümhurbaşkanım!

Biz islam inkişaf bankı ilə müqavilə bağlamışıq. Bu müqaviləyə görə afrikanın müsəlman ölkələri üçün TİKA-nın nəzdində bir təlim mərkəzi yaratmaq fikrindəyik. Beləliklə, Türkiyə həm Avrasiya, həm də Afrika ölkələrinə elm, texnika və mədəniyyət sahələrində yardım göstərəcəkdir. Noyabr ayında möhtərəm Prezidentimiz Əhməd Necdət Sezərlə birlikdə dörd orta Asiya respublikasında rəsmi səfərdə olduq, bu ölkələrlə texniki yardım məsələlərini müzakirə etdik. Təbii ki, bu sırada Azərbaycanı və Gürcüstanı da nəzərdə tuturuq. Gələn ay mən Gürcüstana gedəcəyəm. Bu ölkələrlə qarşılıqlı iqtisadi komissiyalar yaradılması məsələsi ortaya çıxıbdır. Biz inanırıq ki, ikitərəfli əlaqələri bu komissiyalar vasitəsilə daha da inkişaf etdirə bilərik. Buna görə də bu barədə Zatialiniz Türkiyə-Azərbaycan qarşılıqlı İqtisadi Komissiyasının həmsədrinə müvafiq göstəriş versə, çox yaxşı olardı.

Möhtərəm Cümhurbaşkanım!

Keçən ay biz İstanbulda bir konqres təşkil etdik, Türkdilli dövlətlərlə olan 7-8 illik münasibətlərimizi nəzərdən keçirdik. Türkiyə tərəfi olaraq biz bu münasibətlərə öz gözümüzlə baxdıq. Harada xəta, harada yanlış olduğunu, bunları düzəltmə yollarını araşdırdıq. Bu, çox böyük bir toplantı oldu. Onun nəticələrini də yaxın vaxtlarda sizə təqdim edəcəyik. Belə qərara gəldik ki, bu işi ayrı-ayrı Türkdilli dövlətlərdəki iqtisadçılarla, mütəxəssislərlə, müvafiq qurumlarla birlikdə gözdən keçirməyə ehtiyac var. Beləliklə, qarşıdakı 10-15 illik perspektivdə türkdilli dövlətlər arasında həyata keçiriləcək layihələri müəyyənləşdirəcəyik. Zənnimcə, biz bu işi gələn ilin fevral-mart aylarında başa çatdıra biləcəyik. Bu arada Türkiyə-Azərbaycan qarşılıqlı İqtisadi Komissiyasının iclaslarını keçirsək, daha çox fayda əldə etmiş olarıq. Yəqin ki, siz də təsdiq edərsiniz ki, 90-cı illərin siyasəti bir az tələskən şəkildə formalaşmışdır. O dövrdə tam mənası ilə şüurlu bir siyasət yürüdülməmişdir. Halbuki biz bunun çox yaxşı, düşünülmüş siyasətə çevrilməsini arzu edirik. Hazırda Gürcüstandan başlayaraq qırğızıstana qədər olan coğrafiyada bəzi sıxıntılar mövcuddur. Biz bu çətinliklərin aradan qaldırılması üçün birlikdə düşünməli və müvafiq qərarlar qəbul etməliyik. Bu sahədə şəxsən sizin dəstəyinizə böyük ehtiyac duyuruq. Siz kömək etsəniz, biz hər cür çətinliyin öhdəsindən gələrik. Sizin də bizə bir əmriniz varsa, onu da yerinə yetirməyə hazırıq.

Heydər Əliyev: Gözəl fikirlərdir, gözəl təkliflərdir. Mən bunları tamamilə dəstəkləyirəm. Sizin dediyiniz bir sözlə də razıyam ki, TİKA-nın təlim mərkəzini qurmaq çox yaxşı olar. İndi siz bu işi daha da yaxşılaşdırmaq istəyirsiniz. Mən buna çox sevinirəm. Türkdilli dövlətlər həmişə TİKA-ya böyük ümidlər bəsləyiblər. Buna görə də həmin təşkilatın işini elə səviyyəyə çatdırmaq lazımdır ki, müstəqil Türkdilli dövlətlər ona daha çox inansınlar, daha çox arxalansınlar. Sizin fikirləriniz çox gözəldir, mən bunları dəstəkləyirəm.

Əbdülxalıq Çay: Möhtərəm Cümhurbaşkanı! Biz TİKA vasitəsilə keçən il tədbirlərə başlamışıq. İkitərəfli görüşlərimiz olmadığı üçün sizə bu barədə məlumat verə bilməmişik. Bunlar kiçik və orta miqyaslı sənaye müəssisələri şəbəkəsinin genişləndirilməsi, sənaye zonalarının qurulması, Azərbaycan iqtisadiyyatına investisiya qoymağa hazır olan türk iş adamlarının təsbit edilməsi, ortaq müəssisələr yaradılması və onların maliyyə problemlərinin həlli üçün "Xalq bankı" kimi bankların cəlb edilməsidir. Məsələn, biz bunların bir qismini türkmənistanda həyata keçirmişik. Orada xüsusi anket sorğusu vasitəsilə həllinə ehtiyac duyulan məsələləri müəyyənləşdirdik. Türkmənistan heyətini dəvət edərək Anteb, Kayseri, Sivas, Çorum, Əskişəhər, Dənizli, Bursa, İzmir kimi vilayətlərə apardıq və oralardakı təcrübəni onlara göstərdik. Türkmənistana investisiya qoymaq istəyən firmaları təsbit etdik. Bu ilin may ayında isə "Xalq bankı"nın köməyi ilə Aşqabadda son dərəcə faydalı bir toplantı keçirdik. İş adamları bir-birini tanıdı. Biz siyasətçilər onları bir araya gətirdik, sonra meydandan çəkildik.

Qalan müzakirələri özləri apardılar. Zənnimcə, bu təcrübəni yaymaq lazımdır. Çünki kiçik və orta miqyaslı müəssisələr hər hansı bir ölkənin həyatında çox mühüm rol oynayırlar. Belə müəssisələr olmasa, bir sənayeləşməsini gerçəkləşdirmək mümkün deyildir. Biz TİKA kanalı ilə bunu Azərbaycanda da həyata keçirmək istəyirik. əgər biz Türkiyə-Azərbaycan qarşılıqlı İqtisadi Komissiyasının həmsədri ilə birlikdə bu cür toplantı keçirsək, bunların hamısını gündəliyə çıxaracağıq. İnanıram ki, bundan hər iki ölkə ümumi mənfəət götürəcəkdir.

Heydər Əliyev: Mən sizinlə tamamilə şərikəm. Fikirlərinizi dəstəkləyirəm və biz bərabər işləyəcəyik.

Əbdülxalıq Çay: Çox sağ olun.

Səhiyyə naziri **Osman Durmuş:** Möhtərəm Cümhurbaşkanı!

Səhiyyə sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı bundan sonra da davam edəcəkdir. Bizim mütəxəssislərimiz yeni açılan xəstəxanaya müəyyən fasilələrlə gəlib-gedəcək, azərbaycanlı həmkarlarına lazımi kömək göstərəcəklər. Mən bu məsələləri hörmətli həmkarım əli insanovla müzakirə etmişəm. Burada olduqları müddət ərzində mən bizim həkimlərin maaşlarını saxlayacağam. Ancaq bakıda uzun müddət qalmaları da mümkün deyildir. əlbəttə, azərbaycanlı həkimlər öz işlərini müstəqil görənə qədər onlara kömək edəcəklər, sonra da ara-sıra gelib-gedəcəklər. Amma bəzi sahələr, məsələn, ürək cərrahiyyəsi gzrə mütəxəssislərin uzun müddətə ezam etmək mümkündür. Bizim həkimlər burada işlədikləri müddət ərzində hörmətli nazir onlara kömək etməlidir.

İxtisasını artırmaq istəyənləri Türkiyəyə aparmağa hazırıq. Cənab nazir on nəfərlik daha bir qrup göndərmək istəyir. Mümkündür. Əgər təlimin müddətini qısa hesab edirlərsə, uzada bilərik. Onları ikinci müddət üçün də dəvət edə bilərik. Xülasə, biz onu istəyirik ki, bu xəstəxana kənara möhtac olmasın, əksinə, kənardan buraya müalicəyə gəlsinlər. Adamları müalicə eləsin, pul qazansın, özü-özünü maliyyələşdirsin, dövlətə yük olmasın. İndi Türkiyədə də bir çox xəstəxanalar dövlətə möhtac olmadan işləyirlər. əgər bakıdakı xəstəxananı həmin səviyyəyə çatdırsaq, çox yaxşı olar. Biz bakıda tibb ixtisası üzrə oxuyan tələbələrin gəlib türkiyədəki xəstəxanalarda təcrübə keçməsini də təmin edə bilərik. Bir sözlə, nə lazımdırsa, eləməyə hazırıq.

Heydər Əliyev: Çox gözəl. Mən bunlarla razıyam. Hamısını dəstəkləyirəm. Mən dostum Süleyman Dəmirəli də dəvət etmişdim. O da söz vermişdi ki, gələcəkdir. Amma iki gün bundan əvvəl telefon edərək, Türkiyədə bəzi məsələlər olduğunu bildirdi və dedi ki, indi gəlməyə imkanı yoxdur.

Əbdülxalıq Çay: Əfəndim, hörmətli Süleyman Dəmirəl həm də fələstində sülh danışıqları aparan heyətə daxildir. Oraya da gedib-

gəlir, bəlkə ona görə...

Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri **Qədri Ecvet Tezcan** dövlətimizin başçısına müraciətlə dedi:

- Möhtərəm Cümhurbaşkanımı

İcazənizlə, mən bir şey demək istəyirəm. Siz çox gözəl bir şeyi təkrar söylədiniz, dediniz ki, Türkiyə Prezidenti əhməd Necdət Sezər birinci xarici səfərini Azərbaycana həsr etdi. İndi qarşıdan yeni millenium, yeni minillik gəlir. Xahiş edirik ki, bu milleniumda ilk xarici səfərinizi Türkiyəyə edəsiniz.

Heydər Əliyev: Mən Türkiyəyə o qədər gedib-gəlmişəm ki... Amma sizin yeni Cümhurbaşkanı buraları heç görməmişdi.

Qədri Ecvet Tezcan: Sizin üçün darıxmışıq.

Heydər Əliyev: Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATLARINI QƏBUL ETMİŞDİR

Türkiyənin Azərbaycandakı səfiri **Qədri Ecvet Tezcan** dövlətimizin başçısına müraciətlə dedi:

- Cənab Prezident, mən bizim dinimizin ən qiymətli bayramı olan Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin - Liviya, Özbəkistan, Pakistan, Misir, Səudiyyə Ərəbistanı, İran, İraq, Türkmənistan, Qazaxıstan və Türkiyənin səfirləri adından Sizi təbrik edir və bizi qəbul etdiyinizə görə öz minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, bu bayram başqa əlamətdar günə təsadüf etmişdir. Dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəyliyi günüdür. Eyni zamanda qarşıdan yeni il gəlir. İcazə versəydiniz, mən bütün bunlarla bağlı Sizi və bizim üçün çox dəyərli olan Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Siz çox dərin və mənalı fikirlər söylədiniz. Həqiqətən, bizim dinimizdə Ramazan ayının, bu bayramın xüsusi yeri vardır. Əgər kimin imkanı varsa, səhhəti buna yol verirsə, Ramazan ayında oruc tutmaq insana iki mənada çox böyük fayda verir. Bunun birincisi, insanın dünyada ən çətin olan hallardan biri ilə, öz nəfsi ilə mübarizə aparmasıdır. İkincisi isə dünyada kasıb insanların nə vəziyyətdə olduqlarını başa düşməkdir.

Amma bizim dinimiz, sadəcə, mərasimlərdən ibarət deyildir. Bizim dinimiz ürəkdədir. Düşünürəm ki, təkcə bizim dinimizdə Allahla bəndə arasında heç bir elçiliyə ehtiyac yoxdur. Dinimiz insanlara o qədər sevgi, məhəbbət, hörmət bəsləyən bir dindir ki, bütün ömrümüzü etiqad etmədən keçirsək belə, son nəfəsimizdə kəlmeyi-şəhadətimizi deməklə, bütün digər müsəlmanların sahib olduqları savablardan yararlanmaq imkanı əldə etmiş oluruq. Cənab Prezident, bir olan Allah dünyada bütün insan-

ların birliyini, onların yaşaması üçün bütün nemətlər istər.

İslam dininin gözəl bir tərəfi də budur ki, həmişə insan sevgisindən, rifahından, dinlərin dözümlülüyündən - tolerantlığından danışır. Biz hamımız bilirik və Siz də öz nitqlərinizdə dəfələrlə demisiniz ki, Azərbaycan gənc dövlətdir. Amma Azərbaycan xalqında, azərbaycanlılarda qədim olan bir xüsusiyyət vardır. Bu da insanların bütün dinlərə dözümlülüyü, tolerantlığı, insanlara xoş arzularıdır.

Bu gün hamımız bilirik ki, Azərbaycanda yaşayanlar təkcə müsəlmanlar deyildir. Burada yəhudilər də, xristianlar da yaşamaqdadırlar. Amma onların hamısı eyni şəraitdə, bir-birinə hörmət etməklə, Sizin başçılıq etdiyiniz məmləkətdə əmin-amanlıq və sakitlik içərisində yaşamaqdadırlar.

Cənab Prezident, Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, digər müsəlman ölkələri də dünyəvi dövlətlərdir. Yəni bizdə din və siyasət bir-birindən ayrıdır. Amma insanlar dinsiz yaşaya bilməzlər. Din insanları birləşdirən, böyüyün kiçiyə, kiçiyin böyüyə hörmətlə, ehtiramla yanaşmasını öyrədən ən önəmli amildir.

Cənab Prezident, Siz qeyd etdiniz ki, sovetlər dövründə din tiryək hesab edilmiş, belə təbliğ olunmuşdur. Əgər dinin insanlara nə səbəbə göndərildiyini daxilən, həqiqi mənada başa düşməsək, ondan kənara çıxmağa, yəni fanatikliyə, radikallığa yol versək, cəhd etsək, bu, doğrudan da insanları yolundan azdırar, mədəniyyətdən, tərəqqidən, xoşbəxtlikdən - bütün nemətlərdən təcrid edər. Bu mənada dindən danışmaq istəyən, bəlkə də, ilahiyyatçı olmalıdır. Hər kəsin bu barədə danışması ilə din düzgün gedə bilməz. Heç bir din insanlara əzab vermək üçün yaradılmamışdır. Bu dinlərin də ən gözəli mənim, Sizin və burada əyləşən insanların dinidir. Burada 8 milyon azərbaycanlı, dünyada isə bir milyard müsəlman bu dinə etiqad edir.

Cənab Prezident, mən dünyanın çox yerində olmuşam. Amma Sizin qədər gözəl nitqə malik bir Prezidentin yanında danışmaq mənim üçün çətindir.

Cənab Prezident, sözümün sonunda arzum budur ki, ev-eşiklərindən didərgin düşmüş Azərbaycan vətəndaşları gələcəkdə bu bayramı öz doğma yurdlarında, el-obasında keçirsinlər. Allah onlara bu günü nəsib etsin.

Cənab Prezident, qarşıdakı minillikdə insanlara uğurlar, sülh, rifah, əmin-amanlıq şəraitində yaşamağı arzulayıram. Bizi qəbul etdiyinizə görə Zati-alinizə bir daha təşəkkür edir, Azərbaycan xalqına layiq olduğu xoş günlər, rifah və əmin-amanlıq diləyirəm. Sağ olun.

Heydər Əliyev: Hörmətli səfir, təşəkkür edirəm. Siz bu bayramın fəlsəfəsini çox dərindən izah etdiniz. İslam dininin dəyərləri haqqında mühüm fikirlər söylədiniz. Mən bunların hamısı ilə tam razıyam. Güman edirəm ki, hamımız razıyıq. Azərbaycan xalqına arzularınıza görə sizə təşəkkür edirəm. Sağ olun.

"Azərbaycan" qəzeti, 29 dekabr 2000-ci il.

2001

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKSOYUN XÜSUSİ TOPLANTISININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 16-da Prezident sarayında Türksoy təşkilatının xüsusi toplantısında iştirak edən Türkdilli ölkələrin nümayəndələrini qəbul etmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** qonaqları səmimiyyətlə qarşılayaraq dedi:

- Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi qəlbdən salamlayıram. Türksoy təşkilatına daxil olan ölkələrin mədəniyyət nazirlərinin xüsusi görüşü keçirilir. Məmnunam ki, bu görüş Azərbaycanda olur. Mən sizin toplantıya təbrik məktubu göndərmişəm. Güman edirəm ki, məktubum sizə çatıbdır.

Türksoy barədə çox danışmışıq. Ancaq bu gün mən onu deyə bilərəm ki, Türkdilli dövlətlər birliyi yarananadan indiyə qədər Türksoy təşkilatı hamıdan çox iş görmüş bir təşkilatdır. Bu da müəyyən qədər təbiidir. Mənim öz dilimizdə danışmağıma etiraz etmirsiniz? Çünki bəzən biz Mərkəzi Asiya dövlətlərində yığışanda rus dilində danışırıq. Orta Asiya nümayəndələri etiraz etmirlər ki, öz dilimizdə danışım? Bəli, bu təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir. Çünki 70 illik Sovet hakimiyyəti dövründə, bundan da öncə, təəssüflər olsun ki, Türkdilli ölkələrin bir-biri ilə əlaqələri ya zəif olubdur, ya da olmayıbdır. Bəzən də Sovetlər İttifaqında yaşayan Türkdilli xalqlar üçün qadağan olubdur. O vaxt Sovetlər İttifaqında belə bir anlayış mövcud idi ki, vahid sovet xalqı vardır. Bütün millətlər də var, ancaq vahid sovet xalqı da. Biz, məsələn, Mərkəzi Asiyada olan qardaşlarımızla daim əlaqədə idik, bir ölkənin tərkibində idik. Biz həmişə bir-birimizlə rusca danışırdıq və tarixi keçmişimizi, mədəniyyətimizi, onların dərin köklərini heç vaxt araşdırmırdıq. Amma indi biz müstəqillik əldə edəndən sonra və Türkiyə Cümhuriyyəti də bu sahədə çox dəyərli təşəbbüslərlə çıxış edəndən sonra Türkdilli dövlətlər birliyi yaranıbdır. Bu birliyin də, yenə də deyirəm ən əsas özəklərindən biri Türksoy

təşkilatıdır. Mən sizin gördüyünüz işləri yüksək qiymətləndirirəm. Arzu edirəm ki, bu işləri bundan sonra da davam etdirəsiniz. Çünki həm bugünkü nəsillər, həm də gələcək nəsillər üçün hələ çox iş görmək lazımdır ki, bu itirilmiş dövrü, zamanı, onilliklərı bərpa edək. Yəni onu bərpa etmək mümkün deyil, o dövrdə itirdiklərimizi indi qısa bir zamanda yaratmaq lazımdır. Mən sizi təbrik edirəm və arzu edirəm ki, işlərinizi bu cür davam etdirəsiniz. Siz dövlət başçılarından daha zirəksiniz. Çünki biz, deyək ki, altı dəfə görüşmüşük. Amma siz on beş dəfə görüşmüsünüz. Ancaq bu da təbiidir. Çünki dövlət başçılarının bir çox problemləri vardır. Onların ildə bir dəfə görüşməsi bəzən bəs edir. Bu görüşlərdə biz, təbiidir ki, mədəniyyət, elm, tarixi keçmişimiz haqqında da çox fikir mübadiləsi aparırıq. Amma eyni zamanda bu görüşlərin iqtisadi əməkdaşlıq tərəfi də vardır. Bu da çox əhəmiyyətlidir. Amma siz isə, bir də qeyd edirəm bizim Türkdilli xalqların ən incə və ən vacib işi ilə məşğulsunuz. Ticarət bu gün də, sabah da var. Bu, ola bilər ki, Türkdilli, başqa dilli dövlətlə olsun - ticarət elə ticarətdir. Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti var, nə də milli kökü var. Amma mədəniyyətin, dilin, milli dəyərlərin, ənənələrin bunların böyük tarixi və dərin kökləri vardır. Bizim ədəbiyyatımız, musiqimiz, tarixi köklərimizi sübut edən əsərlərimiz - bunların hamısı təbiidir ki, çox böyük əhəmiyyətə malikdir. Məsələn, biz keçən il "Kitabi Dədə-Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün Türkdilli dövlətlərdən, təkcə Türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi Dədə-Qorqud" haqqında, demək olar ki, bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri ata qorqud deyir, digəri dədə qorqud deyir.

Yaxud da ki, bir neçə il bundan öncə biz yenə də hamımıza mənsub olan Füzulinin yubileyini keçirdik. Çox dəyərli bir hadisə oldu. Toplaşdıq. Mən Azərbaycanda keçirilənləri deyirəm. Qazaxıstanda da, Özbəkistanda da çox gözəl tədbirlər keçirilibdir. Qırğızıstanda "Manas"ın min illik yubileyini keçirdik. Türkmənistanda da belə tədbirlər olmuşdur. Ona görə də sizin gördüyünüz işlər xalqlarımız üçün ən dəyərli işlərdir. Bu münasibətlə sizə təşəkkür edirəm, sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır. Türkiyə Respublikasının Mədəniyyət naziri **İstemihan Talay** dövlətimizin başçısına müraciətlə dedi:

- Sayın Cümhurbaşkanım. Bizi qəbul etdiyiniz üçün öz adımdan və

Türksoy ailəsinə mənsub Mədəniyyət nazirləri adından sizə öz minnətdarlığımızı bildiririk. Bu gün səhər toplantımıza göndərdiyiniz təbrik məktubu həqiqətən hər birimizə yol göstərəcək özəlliklər daşıyır. Bu gün bizi qəbul edərkən söylədiyiniz fikirlər bizə çox şeyləri anlatdı və gələcəyimizi işıqlandıran və onu bizə yol göstərən bir iradə olaraq dəyərləndiririk. Əvvəldən indiyədək, hər zaman Türksoy-a ən böyük dəstəyi siz verdiniz. Hörmətli Süleyman Dəmirəllə birlikdə siz Türksoy-un daim uğurlu fəaliyyət göstərməsi üçün bizi dəstəklədiniz. Polad Bülbüloğlu qardaşım da təşkilatın baş direktoru olaraq sizin verdiyiniz təlimatları və ən gözəl şəkildə yerinə yetirdi. Bu gün səkkiz yaşı tamam olan Türksoy türk xalqları arasındakı bir mədəniyyət və sənət Körpüsü olaraq özünü təsdiq etmişdir. Bundan sonra da bu çalışmalar ən gözəl şəkildə, sizin bizə verdiyiniz təlimatlar əsasında yerinə yetiriləcəkdir. Biz sizi, sadəcə, Azərbaycanın dəyərli Cümhurbaşkanı deyil, eyni zamanda Türk Dünyasının çox dəyərli böyüyü olaraq sayqı ilə salamlayırıq və sonrakı fəaliyyətimizdə də bizə ən böyük dəstəyi verəcəyinizə inanırıq. Bu duyğularla öz adımdan və həmkarlarım adından sizi təkrar sayqı ilə salamlayıram.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Çox sağ olun. Yenə də bir söz demək istəyən varmı?

Polad Bülbüloğlu: Hörmətli və əziz Prezidentimiz! Bir qayda olaraq, hər nazir bir hədiyyə verməsin deyə, biz Türksoy ailəsi adından sizə kiçik hədiyyə vermək istəyirik. Bu da Türksoy-un Bakıda keçirilən toplantısından və sizinlə bugünkü görüşümüzdən bir yadigar olacaqdır. Bu, sizin üçün Türkiyədə xüsusi sifariş edilmiş, qızıldan düzəldilmiş nimçədir. İcazənizlə, onu sizə təqdim edirik.

Heydər Əliyev: Gözəl əsərdir. Elə Türksoy əsas vəzifəsi də mədəniyyət əsərləri yaratmaqdır. Bu da mədəniyyət əsərinin bir nümunəsidir. Təşəkkür edirəm. Çox sağ olun.

Polad Bülbüloğlu: Hörmətli Prezidentimiz, Türkdilli ölkələrin dövlət başçılarının gələcək zirvə toplantısını Türkiyədə keçirmək planlaşdırılır.

Heydər Əliyev: Bəli, İstanbulda keçiriləcəkdir.

Polad Bülbüloğlu: Bizim dostlarımız, nazirlər bu gün belə bir təklif irəli sürdülər. Türksoy-un gözəl bir rəsm sərgisi var. Biz bu gün Bakıda həmin sərgini açdıq. Həmin sərgidə yüzdən çox əsər nümayiş etdirilir. Biz Türk Dünyasının gənc rəssamlarını dəvət edirik, onlara şərait yaradırıq. Onlar yeni əsərlər yaradırlar. Bu əsərləri hədiyyə olaraq Türksoy-a verirlər. Beləliklə, üç dəfə keçirilən belə tədbirlər nəticəsində Türk Dünyasının gənc rəssamlarının 100-dən çox gözəl əsəri toplanmışdır. Türkiyənin hörmətli Mədəniyyət naziri söz verir, İstanbulda yaxşı bir salon tapacaq ki, orada sərgi təşkil edək. Biz dövlət başçılarını oraya dəvət edə bi-

lərik və icazə versəniz, orada bizim ölkələrimizin hərəsindən bir sənətçinin iştirakı ilə 50 dəqiqəlik, 1 saatlıq konsert təşkil edə bilərik. Siz bizi dəstəkləsəniz, bunu edə bilərik.

Heydər Əliyev: Mən sizi dəstəkləyirəm. Təbiidir ki, hər bir belə hadisə əhəmiyyətlidir və bizi birbirimizə daha da yaxınlaşdırır. Münasibətlərimizi daha da səmimi, isti edir. Ona görə də mən nəinki etiraz etmir, bunu dəstəkləyirəm. Ancaq bu işdə təşəbbüs yenə də Türkiyə tərəfindən olmalıdır. Çünki Türkdilli dövlətlərin başçılarının son zirvə görüşü Bakıda keçdi. O vaxt qərara gəldik ki, bundan sonrakı görüş İstanbulda, Türkiyədə keçəcəkdir. Türkiyə hökuməti bunun nə vaxt keçirilməsi haqda fikir söyləsə, təbiidir ki, başqa ölkələrin də prezidentlərinin fikrini öyrənib hamı üçün münasib bir gün müəyyən edilməlidir. Mən bu tədbirdə iştirak etməyə, İstanbula getməyə hazıram. Sizin oradakı sərginiz də, əlbəttə, zirvə görüşünü daha da gözəlləşdirəcəkdir. Sizə bir daha təşəkkür edirəm. Mən çox məmnunam ki, siz Azərbaycandasınız, Bakıdasınız. Bizim həyatımızı görmüsünöz. Güman edirəm, əvvəllər, yəni keçən illərdə Azərbaycanda olanlar iki il, üçdörd il bundan öncəki vəziyyəti müqayisə edib deyə bilərlər ki, indi ölkəmiz müstəqillik yolu ilə gedir. Baxmayaraq ki, böyük çətinliklərlə üzləşibdir. Bilirsiniz ki, Azərbaycan indiyə qədər Ermənistanla hərbi münaqişədədir və baxmayaraq ki, altı il bundan öncə atəşkəs haqqında razılığa gəlmişik, saziş imzalamışıq, sülh danışıqları aparırıq, hələki buna nail ola bilməmişik. ərazimizin 20 faizi Ermənistan Silahlı qüvvələrinin işğalı altındadır. Bu torpaqlardan zorla çıxarılmış bir milyon soydaşımızın əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır. Bütün bu çətinliklərə baxmayaraq, başqa problemlərimiz də vardır. Hər bir ölkədə keçid dövrünün problemləri vardır. Məsələn, Türkiyə 80 ilə yaxındır ki, bir Cümhuriyyət kimi inkişaf edir - onun 75 illiyini 1998-ci ildə bayram etdik. Türkiyənin özündə də problemlər vardır. Ancaq biz, yeni müstəqillik əldə etmiş və xüsusən demokratiya yolunu seçmiş, bazar iqtisadiyyatına keçmiş ölkələr, həm iqtisadiyyatda, həm sosial sahədə, həm mədəniyyətdə, həm də cəmiyyətdə böyük dəyişikliklər aparırıq. Bu dəyişikliklər də əzab-əziyyətsiz ola bilməz. Bu dəyişikliklərin hər biri əgər gələcəkdə mösbət nəticə verəcəksə də, keçid dövründə bunun çətinlikləri və bəzən də mənfi təsiri var.

Bütün bunlara baxmayaraq, Azərbaycan inkişaf edir. Bizdə iqtisadiyyat da, mədəniyyət də inkişaf edir. Mədəniyyət xadimlərinə münasibət də çox yaxşıdır. Prezident kimi mən onlara qayğı da göstərirəm - maaşlarını da artırıram, başqa şeylər də edirəm ki, mədəniyyət yaşasın. Nə olursa-olsun, mədəniyyət, incəsənət yaşamalıdır. Bizim bir çox fabriklərimiz var, vaxtilə çox yaxşı işləyirdilər. Bunlarda on minlərlə insan çalışırdı, oradan maaş alıb ailəsini saxlayırdı. İndi fabriklər, zavodlar o qədər işləyə bilmir. Biz başqasını yaradacağıq. Yaxud da onları işlətməyə yol tapacağıq. Amma mədəniyyət, incəsənət, ədəbiyyat elədir ki, dayana bilməz, gərək həmişə inkişaf etsin. Ona görə də biz Azərbaycanda başqa sıxıntılarımıza, problemlərimiza baxmayaraq, mədəniyyətə, incəsənətə, ədəbiyyata - bütün bu sahələrə xüsusi diqqət göstəririk. Ona görə də bunlar həm yaşayır, həm də inkişaf edirlər. Güman edirəm, bu müddətdə təkcə bunları yox, bizim Bakıda olan dəyişiklikləri də görmüsünz, yaxud da görəcəksiniz ki, bir müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət kimi Azərbaycan daim irəli gedir. Mənim sizə deyəcəyim sözlər bu qədərdir. Qalan məsələləri özünüz həll edirsiniz. çox sağ olun. Cümhurbaşkanlarınıza, prezidentlərinizə, hökumətlərinizə və xüsusən mədəniyyət, incəsənət xadimlərinə - yazıçılara, şairlərə, rəssamlara mənim salamımı, hörmət və ehtiramımı çatdırın.

BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!
Əziz qardaşım!

Ölkənizin Avropa Şurası üzvlüyünə qəbul edilməsi xəbərini məmnunluqla qarşıladım. Biz dost və qardaş Azərbaycanın demokratiya və insan hüquqları sahəsində uğurlu inkişafının məntiqi nəticəsi kimi beynəlxalq miqyasda layiq olduğu yeri tutmaq üçün daha bir mərhələnin müvəffəqiyyətlə keçməsindən qürur duyuruq.

Ölkələrimiz arasında müstəsna və yaxın əlaqələrin Avropa Şurası çərçivəsində də davam edəcəyini vurğulamaq istəyirəm.

Bu münasibətlə yüksək şəxsiyyətinizə, dost və qardaş Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

Hörmətlə,

Əhməd Necdət Sezər,
Türkiyə Respublikasının Prezidenti
Ankara, 18 yanvar 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR TƏRƏFİNDƏN 2000-ci İL İYULUN 11-də BAKI ƏHƏRİNDƏ İMZALANMIŞ BİRGƏ BƏYANATIN TƏSDİQ EDİLMƏSİ

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Dost və qardaş Azərbaycanın Avropa Şurasına çoxdan gözlədiyimiz üzvlüyünün gerçəkləşməsindən bö-

yük xoşbəxtlik duyuram. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə layiq olduğu mövqeyə çatması üçün göstərdiyi səyləri Türkiyə, bu günə qədər olduğu kimi, bundan sonra da dəstəkləməkdə davam edəcəkdir.

Sizə ən xoş arzularımı və dərin ehtiramımı bildirirəm.

Hörmətlə,

Büləd Ecevit,
Türkiyə Respublikasının Baş naziri
Ankara, 18 yanvar 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 20-də Prezident sarayında Türkiyənin Xarici İşlər nazirinin birinci müavini Osman Faruq Loğoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimi qarşılayan Prezident **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Hörmətli Loğoğlu, siz Azərbaycanda səfir oldunuz və çox yaxşı işlər gördünüz. Yəqin o vaxtdan ölkəmizə gəlməmisiniz.

Osman Faruq Loğoğlu: Cənab Prezident, üç ildir Azərbaycana gəlməmişəm.

Heydər Əliyev: Üç ildir gəlməmisiniz. Üç ildən sonra gəlmisiniz, güman edirəm ki, sizin üçün də maraqlıdır ki, bu üç ildə Azərbaycanda nə var, nə yox, nə dəyişilib, ya da dəyişilməyibdir. Hesab edirəm ki, dəyişilibdir. Mən sizin səfərinizdən çox məmnun olduğumu bildirirəm.

Təbiidir ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bizim müxtəlif səviyyələrdə daim görüşlərimizin, danışıqlarımızın aparılmasını tələb edir. Buna görə də sizin təşəbbüsünüzü, Azərbaycana gəlişinizi mən bəyənirəm və yüksək qiymətləndirirəm. Xoş gəlmisiniz.

Osman Faruq Loğoğlu: Sayın Cümhurbakanım, çox təşəkkür edirəm. Böyük fasilədən sonra təkrar Azərbaycana gəlməyimdən çox məmnunluq və şərəf duyuram. Məni və başçılıq etdiyim nümayəndə heyətini belə bir gündə qəbul etdiyiniz üçün Sizə minnətdarıq. Azərbaycan xalqının dərdinə şərik çıxır, şəhidlərinizi hörmətlə yad edirik, onlara Allahdan rəhmət diləyirik. Bu hüznlü, eyni zamanda qəhrəmanlıq günündə azərbaycanlı qardaşlarımızla birlikdə olduğumuzu bildirmək istəyirəm.

Buraya Türkiyə Xarici İşlər nazirliyinin xüsusi təmsilçisi kimi gəlmişəm. Türkiyə prezidenti hörmətli Əhməd Necdət Sezərin, Baş nazir Büləd Ecevitin, Xarici İşlər naziri İsmayıl Cemin Sizə ən səmimi salamlarını, hörmət və sevgilərini çatdırmaq istəyirəm.

Dünən dövlətimizin başçısı Əhməd Necdət Sezər tərəfindən qəbul edildim. O, tezliklə Sizi Türkiyədə görməkdən böyük şərəf duyacağını bildirdi. Bu səbəblə - Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə Türkiyənin təbriklərini Sizə yetirmək istəyirəm. Türkiyədə biz bundan qürur duyuruq. Azərbaycan qarşısına çıxan bütün əngəlləri qısa bir vaxtda aradan qaldırmış, Avropa Şurasının üzvü olmuşdur. Əminik ki, Avropa Şurasında özünə layiq yer tutacaqdır. Türkiyə həmişə ölkənizlə bir olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında mövcud olan əlaqələrin əhəmiyyətini bilən və bunun vacibliyinə inanan bir şəxs kimi, bu əməkdaşlığın bütün sahələrdə daha da inkişaf edəcəyinə əminəm. İcazə versəydiniz, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə Türkiyə Prezidenti Əhməd Necdət Sezərin göndərdiyi təbrik məktubunu, aprelin 26-27-də türkdilli dövlətlərin İstanbulda keçiriləcək zirvə toplantısında iştirak etmək üçün Zati-alinizə dəvətini təqdim edərdim.

Hörmətli Prezident, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümüzü bildiririk. Sizə xoşbəxtlik diləyir, cansağlığı arzulayırıq.

Heydər Əliyev: Təşəkkür edirəm. Əvvəla, sizin Azərbaycana səfərinizdən çox məmnunam. Mənim dostlarımın - hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezərin, hörmətli Baş nazir Büləd Ecevitin və hörmətli Xarici İşlər naziri İsmayıl Cemin mənə yetirdiyiniz salamlarına görə çox məmnunam və təşəkkür edirəm. Xahiş edirəm, mənim salamlarımı, hörmət və ehtiramımı, sayğımı hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezərə, hörmətli Baş nazir Büləd Ecevitə, hörmətli Xarici İşlər naziri İsmayıl Cemə, bütün dostlarımıza, - orada mənim dostlarım çoxdur, onların hamısına, - çatdırasınız. Güman edirəm ki, bu görüş hər iki tərəf üçün faydalı olacaqdır.

Azərbaycanın Avropa Şurasına daxil olması ilə əlaqədar təbriklərinizi və hörmətli Cümhurbaşkanının şəxsi təbrikini mənə təqdim etdiyinizə görə çox məmnunam və bu təbrikə görə çox təşəkkür edirəm. Eyni zamanda qeyd etmək istəyirəm ki, biz dörd il Avropa Şurasının üzvlüyünə namizəd, - siz buna yedək deyirsiniz, - olmuşuq. Bu dörd il müddətində Avropa Şurasına daxil olmaq prosedurlarından keçmişik. Bilirsiniz ki, son 4-5 ayda da bu prosedurlar çox sərt olmuşdur. Biz Avropa Şurasında namizəd kimi fəaliyyətə başlayandan son dəqiqəyə qədər, yəni Azərbaycanın yanvarın 17-də Avropa Şurasına qəbul olunması gününə qədər Türkiyənin, ölkənizin Xarici İşlər Nazirliyinin və Türkiyənin Avropa Şurasındakı təmsilçilərinin dəstəyini, köməyini həmişə hiss etmişik. Birinci növbədə Türkiyə dövlətinə, Xarici İşlər Nazirliyinə arxalanmışıq. Çünki bilirsiniz ki, əngəllər də var idi. Biz hiss edirdik ki, Ermənistanla Azərbaycanın eyni vaxtda Avropa Şurası-

na üzv qəbul olunması məsələsində ölkəmizə qarşı ədalətsizliklər də var.

Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir, təcavüzkardır.

Ermənistanın Avropa Şurasına qəbul olunması üçün Azərbaycanın qarşısına qoyulduğu qədər şərtlər irəli sürülmədi. Yəni biz belə bir gərgin mübarizədən sonra Avropa Şurasına daxil ola bildik. Ancaq bu mübarizədə də yenə Türkiyə Cümhuriyyəti, onun hökuməti, Xarici İşlər nazirliyi və Türkiyənin Avropa Şurasındakı təmsilçiləri həmişə bizə yardımçı oldular. Mən bu münasibətlə iki dəfə sizin hörmətli Xarici İşlər naziriniz İsmayıl Cem ilə də danışmışdım. O da Avropa Şurasında bu beynəlxalq təşkilatların rəhbərləri ilə danışmışdır. Ona görə də indi artıq Avropa Şurasının üzvü olaraq, Türkiyənin bu məsələdə də Azərbaycana çox böyük yardım göstərdiyini qeyd edirəm və buna görə təşəkkür edirəm.

Bilirəm ki, biz geniş söhbət aparacağıq. Ancaq indi mətbuatın burada olmasından istifadə edərək onu demək istəyirəm ki, son vaxtlar bəzi ölkələrdə Türkiyənin vaxtilə soyqırımı etməsi haqqında fikirlər irəli sürülür, qərar qəbul edilir. Bu, Türkiyəni narahat etdiyi, incitdiyi kimi, bizi də incidir. Mən dünən bizim deputatlarımızı Avropa Şurasına yola salarkən bu mövzuya da toxundum. Dedim ki, bizə dəyən daş Türkiyəyə dəyən daşdır. Türkiyəyə dəyən daş Azərbaycana dəyən daşdır. Ona görə də biz bunu bütün Türk Dünyasına, o cümlədən Azərbaycana qarşı bir ədalətsizlik kimi qiymətləndiririk.

Mən bir neçə dəfə demişəm və bu gün də bəyan etmək istəyirəm ki, Azərbaycan dövləti bütün bu qərarlara etirazını bildirir, onların tamamilə ədalətsiz olduğunu bəyan edir. Bu tarixi biz də az bilmirik, yaxşı bilirik. Bilirik ki, ermənilər türklərə, o cümlədən azərbaycanlılara qarşı soyqırımı ediblər. Amma türklərin ermənilərə qarşı soyqırımı olmayıbdır. Ona görə də mən, fürsətdən istifadə edib, prezident kimi Azərbaycan dövlətinin bəyanatını bir daha elan edirəm.

Güman edirəm ki, bu məsələlər barəsində indi geniş fikir mübadiləsi aparacağıq.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏLİ JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Parisdə onun üçün ayrılmış iqamətgahda türkiyəli jurnalistlərin - TRT, TGRT televiziyalarının və "Sabah" qəzeti müxbirlərinin suallarına cavab vermişdir.

Sual: Cənab Prezident, Prezident Jak Şirak ilə görüşünüzdə Fransa parlamentinin "erməni soyqırımı" barədə qəbul etdiyi sənədlərə öz mənfi münasibətinizi bildirmisiniz. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Bəli, mən dedim ki,

Azərbaycan dövləti belə bir qərarın qəbul olunmasına etiraz edir. Azərbaycanda xalq bundan çox narahatdır. Biz çox təəccüb edirik ki, siz nə üçün belə bir qərar çıxarmısınız?

Jak Şirak cavab verdi ki, bu məndən də, Baş nazirdən də asılı deyildir. O, daha sonra əlavə etdi ki, fransada yaxın vaxtlarda seçkilər keçiriləcək, ona görə də siyasətçilər səs toplamaq üçün bunu ediblər, lakin mən senatda və milli məclisdə qəbul olunmuş bu sənədləri dəstəkləmirəm.

Cənab Jak Şirak dedi ki, mən Türkiyənin ən yaxın dostuyam. Hələ 20 il bundan əvvəl Fransa ilə Türkiyə arasında dostluq münasibətlərin yaradılmasında çox işlər görmüşəm və bu gün də Türkiyənin dostuyam.

Sual: Cənab Prezident, Fransa Prezidenti həmin sənədlərə imza atıb-atmayacağı barədə bir söz söyləmidi?

Cavab: Xeyr, bu barədə bir söz demədi. Mən bilmirəm ki, o, həmin sənədləri imzalayacaq, yoxsa yox.

Sual: Cənab Prezident, Türkiyənin bəzi qəzetlərində sizin bu rəsmi səfəriniz zamanı Fransa senatının və Milli Məclisinin "erməni soyqırımı" barədə qəbul etdiyi sənədlərə öz mənfi münasibətinizi bildirməməyiniz haqqında tənqidi xəbərlər verilibdir. Bu haqda nə deyərdiniz?

Cavab: Bunlar yanlış xəbərlərdir. "Erməni soyqırımı"na dair sənədlərin qəbul edilməsindən xəbər tutan kimi mən bəyanatlar verdim, öz etirazımı və mənfi münasibətimi bildirdim. Mən bunu bir neçə dəfə etmişəm. Bu gün də Prezident Jak Şirak ilə görüşüm zamanı mən bu məsələyə öz mənfi münasibətimi bildirdim.

Jurnalist: Cənab Prezident, çox sağ olun.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident,
Əziz dostum və qardaşım!

Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə sizə minnətdarlığımı bildirirəm.

Avropanın bu mötəbər və nüfuzlu təşkilatına ölkəmizin daxil olması yolunda qardaş Türkiyənin dəstəyini yüksək qiymətləndirirəm. Əminəm ki, Avropa Şurası çərçivəsində əməkdaşlığımız ölkələrimiz arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı üçün daha geniş imkanlar açacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 5 fevral 2001-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli Cənab Baş nazir!

Ölkəmizin Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə sizə minnətdarlığımı bildirirəm.

Azərbaycanın Avropa Şurasına daxil olmasında qardaş Türkiyənin dəstəyini yüksək qiymətləndirirəm. Ümidvaram ki, Avropa Şurası sıralarında əməkdaşlığımız xalqlarımızın və ölkələrimizin rifahına yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 5 fevral 2001-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CƏNAB İSMAYIL CEMƏ

Hörmətli Cənab İsmayıl Cem!

Ölkəmizin Avropa Şurasına üzv qəbul olunması münasibətilə səmimi təbrikinizə görə sizə minnətdarlığımı bildirirəm.

Əminəm ki, Avropa Şurası sıralarında əməkdaşlığımız xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 5 fevral 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev fevralın 12-də Prezident sarayında Türkiyənin Bakıdakı səfiri Qədri Ecvet Tezcanı qəbul etmişdir.

Dövlətimizin başçısı səfiri səmimiyyətlə salamlayıb hal-əhval tutdu.

Səfir Qədri Ecvet Tezcan səmimi qəbul üçün respublikamızın rəhbərinə müraciətlə dedi:

- Cənab Prezident, çox sağ olun, Sizə minnətdaram. Bu qədər gərgin işləməyinizə baxmayaraq, vaxt tapıb məni qəbul etdiyinizə görə Sizə öz razılığımı bildirmək istəyirəm.

Sizinlə çoxdandır ki, görüşmürəm. Mən həmişə Türkiyədən nümayəndə heyətləri gələrkən Sizinlə görüşürəm. Vaxt olmadığına görə indiyə qədər Sizinlə görüşə bilməmişəm. Əvvəla, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən, həmçinin bu münasibətlə Milli Məclisin deputatlarına, Azərbaycanın ziyalılarına, siyasi partiyalarına, Azərbaycan haqqında düşünən və bunun üçün öz səylərini əsirgəməyən hər bir insana təbriklərimi çatdırmaq istəyirəm. Təbiidir ki, bu, Sizin başçılıq etdiyiniz insanların səylərinin nəticəsidir.

Məndən soruşsanız, deyərdim ki, əslində, Azərbaycan Avropanın həmişə ayrılmaz bir hissəsi olmuşdur. Bu, yeni bir şey deyildir. Bu, reallıqdır və həmiş reallıq təsdiqləndi.

Həyatımda Sizin kimi güclü yaddaşa malik ikinci bir şəxsiyyət görməmişəm. Yəqin ki, yadımızdadır. Ramazan bayramı münasibətilə Siz bizi - müsəlman ölkələrinin səfirlərini qəbul edərkən də mən demişdim ki, başa vurduğumuz əsrdən də əvvəl bu məmləkətdə ilk teatr olmuş, ilk qəzet çıxmışdır, ilk dəfə latın əlifbasını biz azərbaycanlılardan götürmüşük. Cümhuriyyət fikri, cümhuriyyət, demokratiya nədir - türk və islam dünyasında ilk dəfə bunları biz Azərbaycandan götürmüşük. İslam dünyasında ölüm hökmü ilk dəfə Sizin başçılıq etdiyiniz ölkədə ləğv edilmişdir.

Cənab Prezident, daha bir məsələ haqqında danışmaq istəyirəm. Azərbaycanda başqa dinlərə və dillərə mənsub olan insanlara xoş münasibət onu göstərir ki, Azərbaycan Avropa ailəsinə mənsub və ondan da artıq bir ölkədir. Ona görə də mən ölkənizin Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasını təbii hesab edirəm.

Mən Türkiyə Prezidenti Əhməd Necdət Sezərin adından, Türkiyə hökuməti adından Zati-alinizə minnətdarlığımızı bildirmək istəyirəm ki, son vaxtlar ermənilərin yenidən qaldırdıqları uydurma "soyqırımı" məsələsinə Siz həmişə kəskin münasibətinizi bildirirsiniz. Son dəfə Parisdə olarkən, orada Jak Şirakla görüşərkən bu məsələni tam kəskinliyi ilə qaldırğınızı bilirik. Təbiidir ki, təkcə bu deyildir. Bu barədə Azərbaycan Respublikası Milli Məclisi qərar qəbul edib, Xarici İşlər Nazirliyi, siyasi partiyalar, buradakı cəmiyyətlər, - istər Qadınlar Cəmiyyəti olsun, istərsə Yazıçılar Birliyi olsun, - münasibətlərini bildiriblər. Azərbaycanın şəhərlərindən, kəndlərindən qəsəbələrindən səfirliyimizə hər gün müxtəlif məktublar, Azərbaycan xalqının həmişə türk xalqının yanında olduğunu bildirən bəyanatlar gəlir. İcazənizlə, bununla əlaqədar mən Sizə - Azərbaycanın dövlət başçısına təşəkkürlərimi bildirərdim. Türk milləti, Anadolu Türkiyəsinin insanları bilirlər ki, onların ən yaxın dostları azəri qardaşlarıdır. Bu, təbiidir.

Cənab Prezident, Zati-alinizə deyəcəyim başqa bir söz Türkiyə Cümhuriyyətinin başçısı hörmətli Əhməd Necdət Sezərin önümüzdəki ayda Sizi Türkiyədə görmək məqsədilə göndərdiyi dəvəti bir daha çatdırmaqdır. Türkiyə Sizin üçün darıxmışdır. Mən bir-iki dəfə demişəm ki, Türkiyədə Sizi gözləyirlər, xalqımız Sizi gözləyir. Ona görə, Allah qoysa, bu ziyarəti də yaxın vaxtlarda gerçəkləşdi-

rəcayik.

Cənab Prezident, bu barədə Sizin tapşırıqlarımızı dinləmədən öncə, Zati-alinizə bir təklifimi bildirmək istəyirəm. Təbiidir ki, uydurma "soyqırımı" ilə bağlı Siz müntəzəm olaraq, bundan üç, dörd, beş ay əvvəl də bizim diqqətimizi çəkmişdiniz. Buraya gələn bütün nümayəndə heyətlərinə - nazirlərə, onların müavinlərinə söyləmişdiniz ki, bu təhlükəli işdir, onun qarşısını almaq lazımdır.

Bu uydurma "soyqırımı"na Türkiyədə də, Azərbaycanda da insanlar öz münasibətlərini bildirirlər. Hayküy qaldırılır, səfirliklər qarşısında etiraz mitinqləri keçirilir. Bunlar olmalıdır, bu öz yerində. Amma digər tərəfdən də, tarixçilər həqiqi mənada bu məsələyə münasibətlərini bildirməlidir. Mən güman edirəm ki, Azərbaycanda da kifayət qədər tarixçi var, Türkiyədə də. Lakin Türkiyə tarixçilərinin öz münasibətlərini bildirməsi kifayət deyildir. Biz Gürcüstandan da, Rusiyadan da, İrandan da, başqa yerlərdən də tarixçiləri dəvət etməliyik. Qarşıdakı aylarda onları İstanbulda, yaxud da başqa bir yerdə cəm edib, bu barədəki fikirlərini, mülahizələrini öyrənək, bu günə qədər apardıqları araşdırmaları, əsərlərini çap edərək həqiqətləri bütün dünyaya yayaq. Tarixçi alimlər öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər.

Mən bunu Ankara ilə də razılaşdırmışam. Əgər məsləhət bilsəniz, bu barədə bir iş görmək olar.

Daha iki məsələyə toxunmaq, Sizin məsləhətinizi öyrənmək və tapşırıqlarınızı almaq istərdim.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsindən sonra, yəqin ki, deputatlarımız arasında da əməkdaşlıq artacaqdır. Əslində bu əlaqələr var, lakin bundan sonra daha da genişlənəcəkdir. Əgər Siz məsləhət görürsünüzsə, Azərbaycan parlamentinin Avropa Şurasına gedən nümayəndə heyətini öz başçısı ilə birlikdə Türkiyəyə dəvət edək. Onlar bizim parlament nümayəndə heyəti ilə sıx əlaqələr yaratsınlar, təcrübə mübadiləsi etsinlər. Düşünürəm ki, belə birgə iş üçün şərait yaratmaq lazımdır.

Hörmətli cənab Prezident, Sizin və bizim parlamentlərdəki Xarici İşlər komissiyaları dörd ildir ki, görüşmürlər. Bu da çox vacibdir.

Heydər Əliyev: Milli Məclisdə Beynəlxalq münasibətlər komissiyası var.

Qədri Ecvet Tezcan: Bizdə də eyni komissiya vardır. Bu komissiyalar da bir araya gəlib əməkdaşlıq etsələr, düşünürəm ki, bundan da yaxşı nəticə əldə edə bilərik. Bir-iki məsələ də var ki, bu barədə sonra danışacağıq. Çox sağ olun.

Heydər Əliyev: Hörmətli səfir, əvvəla, Azərbaycanın Avropa Şurasına qəbul olunması münasibətilə təbriklərinizə görə sizə təşəkkür edirəm. Hörmətli Prezident Əhməd Necdət Sezərin, hörmətli Baş nazir Büləncd Ecevitin, hörmətli Xarici İşlər

naziri İsmayıl Cemin təbriklərini almışam, bizim qəzetlərdə dərc olunubdur. Siz tərəfdən daim təbriklər alırıq. Ən çox təbrikləri Türkiyədən alırıq. Burada da təəccüblü bir şey yoxdur, bu, təbiidir. Çünki bizim Avropa Şurasına daxil olmaq prosesimiz o qədər də asan olmamışdır. Türkiyə daim çalışırdı ki, biz bu qanuni haqqımızı alaq. Bildirmək istəyirəm ki, bütün bu prosesdə, - yəni keçən ilin yayında Avropa Şurası Parlament Assambleyası qərar qəbul etdi, ondan sonra Nazirlər Komitəsində gedən proses bir neçə ay çəkdi, - bütün bu dövrdə Türkiyənin Strasburqdakı səfiri və ölkənizin Xarici İşlər naziri hörmətli İsmayıl Cem bu barədə çox böyük fəaliyyət göstərdilər.

Mən bir neçə dəfə hörmətli İsmayıl Cemlə telefonla danışdım. O da orda Şvimmerlə və başqaları ilə əlaqəyə girmişdi. Yəni burada bizə konkret praktik köməklər olmuşdur. Bunların hamısına görə təşəkkür edirəm. Yəni mən sizin təkcə təbriklərinizə görə yox, Türkiyə hökumətinin, dövlətinin Azərbaycana göstərdiyi yeni bir qardaşlıq yardımına görə təşəkkür edirəm.

Siz doğru deyirsiniz ki, Azərbaycan Avropanın bir hissəsidir, bəlkə də Avropada olan ölkələrdən də çox Avropaya aid bir dövlətdir. Ancaq təəssüf ki, ədaləti sübut etmək çox çətindir. "Soyqırımı" məsələsinə mən indi toxunacağam. Soyqırımı olmadığı halda, meydana belə bir məsələ atıblar və böyük ölkələr də buna uyublar. Eləcə də Azərbaycan haqqında. Azərbaycan haqqında belə bir qeyri-obyektiv, ədalətsiz fikirlər yayırdılar ki, Azərbaycan Avropa Şurasına layiq deyildir. Mən bunu dəfələrlə demişəm.

Bilirsiniz ki, Avropa Şurasından buraya çoxlu nümayəndə heyətləri gəldi. Mən onların hamısına demişəm ki, siz bu ikili standartlardan əl çəkin. Siz Azərbaycana qarşı ikili standart tətbiq edirsiniz. Cənubi Qafqazın başqa ölkələri ilə müqayisədə Azərbaycanın avropalılıqda, demokratiyada fərqi yoxdur. Bəlkə də bəzi şeylərdə biz onlardan üstünük. Necə olur ki, onlar Avropa Şurasına asanlıqla qəbul edilir, amma Azərbaycanın qarşısında çoxlu şərtlər qoyursunuz? Hər dəfə yeni bir şərt qoyursunuz. Mən o qədər boğaza yığıldım ki, Avropa Şurasından bir dəfə də nümayəndələr gələndə dedim ki, biz Avropa Şurasına üzv olmaq istəmirik. Siz bunu da bilirsiniz. Dedim ki, istəmirik, çıxıb gedin. İndiyə qədər Avropa Şurasına üzv olmadan yaşamışıq, bundan sonra da yaşayacağıq.

Dünyada 200-ə qədər dövlət Birləşmiş Millətlər Təşkilatında təmsil olunmuşdur. Bunlardan 41 dövlət Avropa Şurasının üzvü idi, ikisi də qəbul edildi, oldu 43 üzv. Qalanları dövlət deyilmi, yaşamırmı? Yaşayırlar. Hətta, bax, bu dərəcəyə qədər mən onlara kəskin sözlər deməyə məcbur oldum.

Avropa Şurasına qəbul olunduq. Əlbəttə ki, bu, böyük nailiyyətdir və

bizim üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz çalışdıq ki, ədaləti sübut edək, ədaləti nümayiş etdirək. Yenə də deyirəm, biz Avropa Şurasında təmsil olunmadan da yaşaya bilərik. Müstəqil dövlət kimi on ildir ki, Avropa Şurasında olmadan yaşamışıq. Bundan sonra da yaşayarıq.

İş bundadır ki, indi dünyada ədalət çox hallarda pozulur. Ədalətsizlik var. Elə ona görə də mən indi "soyqırımı" haqqında danışacağam. Bilirsiniz ki, son illərdə ermənilər "soyqırımı" məsələsini Türkiyəyə qarşı vaxtaşırı qaldırıblar. Bu məsələ hər dəfə qalxanda Azərbaycan bununla əlaqədar bəyanat veribdir. Şəxsən mən bəyanat vermişəm. Bizim Milli Məclis hələ iki il bundan öncə bəyanat verdi, qərar qəbul etdi. Xarici İşlər Nazirliyimiz bəyanat verdi.

Bu dəfə Fransada bu proses başlayanda, mən bir neçə dəfə rəsmi bəyan etmişəm ki, heç bir soyqırımı olmayıbdır. Bu, Türkiyəyə qarşı ədalətsizlikdir və biz buna etiraz edirik. Yəni bu barədə Azərbaycanın mövqeyi dəyişməzdir. Həqiqətən, siz düz deyirsiniz, bu məsələdə dövlət də, xalq da və cəmiyyətin bütün təbəqələri də eyni fikirdədir. Burada həmrəylik tamamdır. Nə üçün? Çünki bu, birincisi, tarixin təhrif olunmasıdır, ədalətsizlikdir.

Dünyada ədalətsizlik çoxdur. Avropanın bir hissəsi, NATO-nun üzvü, iqtisadi cəhətdən inkişaf etmiş, böyük hərbi potensiala malik olan Türkiyə kimi bir dövlətə, Avropada çox mühüm bir yer tutan Türkiyə kimi bir dövlətə diasporuna, Ermənistana görə bu cür ədalətsiz qərar qəbul etmək, təbiidir ki, bizim hamımızı incidir.

Bəziləri bunu anlamırlar. Bəlkə də indi bəziləri deyirlər ki, türk dünyası buna etiraz etməlidir. Amma bilmirəm. Orta Asiyada olan türkdilli dövlətlərdəki insanlar bunu anlayırlarmı? Məni bağışlasınlar, heç nə demək istəmirəm. Ancaq bunu biz bilirik. Çünki biz də bunu görmüşük. Ermənilər həm Türkiyəyə, həm də Azərbaycana qarşı soyqırımı ediblər. Bir də ki, indi türk dünyası böyükdür, amma türk dünyasında Türkiyə ilə Azərbaycan qədər bir-birinə yaxın, bir-birinə bağlı başqa bir ölkə yoxdu. Bunların hamısına görə mən bir dəfə dedim ki, Türkiyəyə dəyən daş, bizə dəyən daşdır.

Mən yanvar ayının 24-də Parisdə olarkən, - bu ölkəyə rəsmi səfərə getmişdim, - Prezident Jak Şirakla çox geniş söhbətim oldu. Əsas məsələləri, bizim özümüzə aid olan məsələləri müzakirə etdik, Ermənistan - Azərbaycan münaqişəsi, onun sülh yolu ilə həll olunması barədə, - onlar Minsk qrupunun həmsədridir, - müzakirələr apardıq. Ondan sonra mən ona dedim ki, siz nə üçün belə bir qərarın qəbul olunmasına yol verirsiniz? Fransa kimi böyük bir ölkədə belə qərarın qəbul edilməsi, birincisi, ədalətsizlikdir, tarixi təhrif etməkdir.

Bir də ki, sizin Türkiyə ilə, Ermənistanla nə işiniz var? O, mənimlə çox səmimi danışdı. Dedi ki, mən bunun əleyhinəyəm. Mən 20 il bundan öncə Türkiyənin dostu olmuşam, bu gün də Türkiyənin dostuyam. O, mənə dedi ki, Baş nazir də bunun əleyhinədir. Biz bunun əleyhinəyik. Amma bu, bizim daxili siyasətimizlə bağlı olan bir məsələdir. Mən ona dedim, yaxşı, - onda o qərar hələ imzalanmamışdı, - bunu imzalamamağa sizin imkanınız var. O, mənə baxdı və heç nə demədi. Ancaq mən ona dedim ki, biz indi mətbuat nümayəndələri ilə görüşəcəyik. Mətbuat nümayəndələri ilə görüşəndə dedi ki, Prezident Heydər Əliyev bu məsələni qaldırıbdır. Onun narazılığını, narahatçılığını mən bilirəm. Azərbaycan vətəndaşlarının, bu xalqın narahatlığını bilirəm. Bu məsələ bizim siyasi həyatımızla bağlıdır və sair. Bunların hamısı mətbuatda yazılıbdır.

Sonra isə, bilirsiniz ki, Strasburqda biz Avropa Şurasına qəbul olunandan sonra, yanvarın 25-də orada böyük bir mətbuat konfransı keçirildi. Konfransda yenə də bu məsələ qalxdı. Bu məsələni qaldıranda mən dedim ki, "erməni soyqırımı" uydurma bir şeydir, yalandır, heç bir əsası yoxdur. Fransa və Türkiyə böyük dövlətdir. Amma Fransanın Türkiyənin daxili işinə qarışmağa haqqı yoxdur. Mən bunu Strasburqda dedim. Bunun cavabı olaraq Koçaryan dedi ki, indi bizim hamımız vahid Avropadayıq, demokratiya var, ona görə də məsələni belə qoymaq olmaz. Mən yenə də bunu cavabsız qoymadım. Dedim, bilirsiniz, əgər sizin dediyinizə görə bu hadisə 85 il öncə olubsa da, onda nə demokratiya vardı, nə də Avropa Şurası. Bu məsələyə o vaxtın qanunları ilə baxmaq lazımdır, indiki qanunlarla yox.

Yəni bundan artıq, kəskin sözlər demək mümkün deyildir. Mən bunların hamısını demişəm. Bu gün də yenə bəyan edirəm ki, bizim xalqımız, millətimiz, Azərbaycan dövləti Fransanın bu hərəkətlərinə etiraz edir, Fransanın bu mövqeyini qəbul etmir. Güman edirəm, Fransa özü də anlayacaqdır ki, o, birincisi, bununla heç nəyə nail olmayacaqdır. İkincisi, bu barədə səhv etdiyini özü anlayacaqdır.

Ancaq siz bilirsiniz ki, erməni diasporu Avropa ölkələrində, Amerikada çox güclüdür. Məsələn, mən Şirakla bu barədə danışarkən o, mənə dedi ki, bilirsinizmi, Fransada 600-700 min erməni yaşayır. Onların da siyasətə, seçkilərə təsiri vardır. Hətta o mənə dedi ki, erməni diasporunun böyük bir qrupu Fransa senatının binası qarşısında çadır qurubdur. Çadırda gecə-gündüz otururlar, gələn deputatları oraya dartırlar, onlarla danışırlar. Ya onlara söz verirlər, ya da məcbur edirlər ki, qərara səs verin. O, mənə dedi ki, burada çoxlu türk də yaşayır, - nə qədər yaşadığını demədi və mən də bunu bilmirəm, - amma, nədənsə, türklər bu cür hərəkət etmirlər. Bu da həqiqətdir, biz bunu da bilməliyik.

İndi arada belə bir söhbət gəzir ki, guya Almaniyada da bu məsələyə baxacaqlar. Bilmirəm və inanmıram ki, Almaniya bu işə baxsın. Amma Almaniyada erməni çox deyildir. Lakin Almaniyada 3 milyon türk var. İndi əgər Almaniya bundestaqı bu məsələyə baxsa və 3 milyon türk də orada səsini çıxarmasa, onda gəlin özümüz özümüzü günahlandıraq. Başa düşürsünüzmü?

Bu barədə bizim mövqeyimiz aydındır. Bundan sonra da əlimizdən gələni edəcəyik, heç narahat olmayın. Biz sizinlə bir yerdəyik və bir yerdə də olacağıq.

Mən Türkiyəyə dəvət olunduğuma görə təşəkkür edirəm. Bu dəvəti, doğrudan da, çoxdan, hörmətli cənab Prezident Sezər burada, Azərbaycanda olanda almışdım. Amma sonra bunun vaxtını müəyyən etməmişdik. Nəhayət, sizinlə birlikdə vaxtını müəyyən etdik.

Martın 12-də mən Türkiyədə, Ankarada olacağam. Sizə də telefonda bir neçə dəfə demişəm ki, mənim oraya getməyə böyük ehtiyacım var. Siz dediniz ki, ölkənizdə bunu istəyirlər, amma mən, bəlkə də, daha çox istəyirəm. Çünki birincisi, Türkiyə üçün darıxmışam, ikincisi isə, bir çox məsələlər var ki, orada müzakirə etməliyik. Elə birincisi, "soyqırımı" haqqında, ikincisi, Ermənistan - Azərbaycan münaqişəsi haqqında. Görürsünüz, ermənilər axır zamanlar müxtəlif hərəkətlər edir, işlər görürlər. Bu barədə biz birlikdə nə edə bilərik? Bakı - Ceyhan layihəsi haqqında - bunu artıq gecikdirmək olmaz. Azərbaycandan təbii qazın Türkiyəyə ixrac olunması - bunu da gecikdirmək olmaz. Mən deyərdim ki, Türkiyənin müəyyən dairələrinin bu işə münasibətləri bir az soyuqdur.

Bakı - Ceyhan kəməri haqqında qərar olmayanda iki gündən bir Bakı - Ceyhan deyirdilər. İndi qərar da var, hər bir şey də var. Amma elə bil ki, Türkiyədə bunu yaddan çıxarıblar. Ona görə də mənim konkret fikirlərim var. Bu barədə biz orada nəinki danışmalıyıq, eyni zamanda bəzi layihələr hazırlanıbdır, bunları orada həll edəcəyəm.

Bakı - Ceyhan xəttinə maraq da artır. Çünki, məsələn, ABŞ-ın "Şevron" şirkəti Qazaxıstanda çoxlu neft hasil edir və Xəzər dənizinin Qazaxıstan sektorundakı "Kaşaqan" yatağındakı əsas işin görülməsi bu şirkətə həvalə olunubdur. Həmin şirkət mənə məktub yazıbdır ki, Bakı - Tbilisi - Ceyhan neft kəmərinin tikintisinə qoşulmaq istəyir. Həmin məsələni müzakirə etmək üçün bu yaxınlarda onların nümayəndəsi mənim yanıma gələcəkdir. Bunun özü çox yaxşı haldır. Çünki bəziləri belə hesab edirlər ki, Qazaxıstan bu işə qoşulmasa, Bakı - Ceyhan neft kəməri rentabelli olmayacaq və sair. Amma heç biz demədən "Şevron", - düzdür, ABŞ-ın "Ekson" şirkətinin burda mövqeyi bir qədər doğru deyil, - amma "Şevron" şirkəti kənardan gələrək bu işə qoşulur.

Doğrudur, "Şevron"un burada da, həm neft, həm də qaz yataqlarında böyük perspektivləri vardır. Xüsusən indi "Abşeron" yatağında iş aparırlar və yaxşı göstəricilər əldə edirlər. Güman edirəm ki, biz orada çox yaxşı, böyük bir yataq açacağıq. Ona görə də bu məsələlərin həmisini biz gərək konkretləşdirək, vaxtı itirməyək. Yoxsa 2001-ci il başlayıb, bir qədər də keçəcək, görəcəksən ki, il bitdi.

Tarixçilərin əməkdaşlığı yaxşı fikirdir. Bu işlə məşğul olan Azərbaycan tarixçiləri var. Mən mütləq göstəriş verərəm, bizim tarixçiləri toplayarlar, onların içərisindən gərək bu işi yaxşı bilən adamları tapsınlar. Gürcüstan tarixçilərini də cəlb etmək lazımdır. Çünki Gürcüstan tarixçiləri Qafqazı daha yaxşı bilirlər. Ola bilər Rusiyadan da bəzi tarixçilər cəlb olunsun. Ancaq bilirsinizmi, bəzən onlarda da obyektiv münasibət olmur. Bunu biz Sovetlər İttifaqı vaxtında görmüşük. Hətta Sovetlər İttifaqı vaxtında Cənubi Qafqazın tarixini yazmaq istəyirdik, Moskvada üç respublikanın tarixini yazmaq istəyirdilər. Orada tarixçilər bir-biri ilə o qədər mübahisə etdilər ki, bunu edə bilmədilər. Çünki biri bir konsepsiyaya, digəri isə başqa konsepsiyaya tərəfdar idi. Çoxları da Ermənistanın tərəfində idi. Amma Gürcüstanda bu barədə həm yaxşı arxiv sənədləri var və eyni zamanda yaxşı tarixçilər də vardır. Ona görə də mən bu barədə Prezident Şevardnadzе ilə də danışaram, bizim tarixçilərə göstəriş verərəm, sizin tarixçilərlə də siz danışarsınız, bir qrup hazırlayarıq ki, oturub bu barədə bir fikrə gəlsinlər. Biri var danışmaq, söz demək, fikrə gəlmək - bunlar öz yerində. Amma ortaya tarixi sənədlər qoymaq lazımdır.

Parlamentlərarası komissiyaların əlaqələrini yaratmaq düzgün məsələdir. Mən heç bilmirdim ki, bu komissiyaların üzvləri dörd ildir ki, görüşmürlər. Hesab edirəm ki, indi, Avropa Şurasına tam üzv olduğumuz halda gərək Türkiyə və Azərbaycanın deputatları orada sıx əlaqədə işləsinlər. Mən dedim və bir də təkrar edirəm ki, Türkiyənin oradakı səfiri bu dörd il içərisində daim bizə çox böyük dəstək veribdir, çox kömək edibdir. Biz ondan razıyıq. Amma indi bir yerdə işləməliyik. Ona görə də bunu təşkil etmək, bir yerdə toplaşmaq lazımdır. Düşünmək lazımdır, mən bizim Milli Məclisdən xahiş edərəm, siz də onlarla danışarsınız görək, bunu necə təşkil edək, harada görüşsünlər. Ola bilər, Türkiyəyə getsinlər, orada görüşsünlər və ətraflı danışsınlar. Bu, həm də Beynəlxalq münasibətlər komissiyasının Türkiyə Böyük Millət Məclisinə bir ziyarət olar. Eyni zamanda bu barədə bir proqram hazırlayarlar. Bu da çox yaxşı fikirdir, bunu həyata keçirmək lazımdır.

"Azərbaycan" qəzeti, 13 fevral 2001-ci il.

ANKARA UNİVERSİTETİNİN ELMİ ŞURASININ PREZİDENT HEYDƏR ƏLİYEVƏ FƏXRİ DOKTOR ADININ VERİLMƏSİ HAQQINDA QƏRARI

Ankara Universiteti Elmi Şurası beynəlxalq münasibətlərin tələtümlü və gərgin bir dönəmində, son dərəcə müdriklik tələb edən vəzifəsində türk dostu kimi hər zaman Türkiyəni dəstəkləyən və hər vasitə ilə Türkiyənin beynəlxalq aləmdəki önəmini ifadə edən, daim "Bir millət, iki dövlət" olaraq gördüyü Türkiyə və Azərbaycan arasındakı dostluğun inkişafı, iki ölkə arasındakı qardaşlığın strateji müttəfiqliyə çevrilməsi sahəsindəki xidmətlərinə, böyük dövlət adamı keyfiyyətinə və təcrübəsinə malik olduğuna, Azərbaycanda və dünyanın ən qarışıq bölgələrindən biri olan Qafqazda sabitliyin bərqərar olması nəticəsində ölkəsinin və bölgənin Avropa ilə inteqrasiyası sahəsində əldə etdiyi uğurlara görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə beynəlxalq münasibətlər sahəsində Fəxri doktor adı verilməsi barədə 1742 saylı qərarı yekdillikle qəbul etmişdir.

27 fevral 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ III RƏSMİ SƏFƏRİ

12-17 mart 2001-ci il

PREZİDENT HEYDƏR ƏLİYEVİN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏSİ

- Mənim Türkiyəyə rəsmi səfərim Sizə məlumdur, elan olunubdur. Keçən il Türkiyənin yeni seçilmiş Prezidenti Hörmətli Əhməd Necdət Sezər Azərbaycanda rəsmi səfərdə olduğu zaman məni Türkiyəyə rəsmi səfərə dəvət etmişdir. Mən də indi bu dəvətihəyata keçirirəm.

Təbiidir ki, bizim orada bir çox görüşlərimiz, danışıqlarımız olacaqdır. Birinci növbədə, Prezidentlə, Baş nazirlə, Baş nazirin müavinləri ilə, Baş Qərargah rəisi ilə və başqa şəxslərlə. Dövlətlərarası, hökumətlərarası bir neçə sənədlər hazırlanıbdır. Onlar imzalanacaqdır. Azərbaycan qazının Türkiyəyə ixrac edilməsi haqqında saziş imzalanacaqdır. Bakı-Ceyhan neft kəməri haqqında elə bir problem yoxdur. Sadəcə, biz orada bu işlərin təşkil edilməsi barəsində fikir mübadiləsi aparacağıq. Ancaq bu işlər gedir. Yəni yeni bir sənədin icad edilməsinə ehtiyac yoxdur. Bütün sənədlər hazırlanıbdır. İndi mühəndis-layihə işləri aparılır. Mən Böyük Millət Məclisində millət vəkillərinə xitab edəcəyəm. Proqramda başqa görüşlər də var.

Türkiyə bizim üçün dost, qardaş ölkədir. Bizim əlaqələrimiz həmişə yüksək səviyyədə olubdur. Bu gün də yüksək səviyyədədir. Ancaq eyni zamanda belə rəsmi səfərlər, işgüzar səfərlər hər dəfə hansısa məsələlərin həll olunmasını tezləşdirir, yaxud da onun üçün şərait yaradır. Amma bunlarla bərabər, fikir mübadiləsi də çox əhəmiyyətlidir.

Təbiidir ki, mən Türkiyənin dövlət-hökumət başçıları ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması problemləri haqqında fikir mübadiləsi aparacağam. Çünki biz bu illər ərzində Türkiyə ilə daim məsləhətləşmələr, fikir

mübadiləsi aparmışıq. Çünki Ermənistanın Azərbaycana təcavüzü zamanından indiyə qədər Türkiyə Azərbaycanı həmişə dəstəkləyibdir. Baxmayaraq ki, son vaxtlar bir neçə ölkələrdə Türkiyəyə qarşı müxtəlif mənfi hərəkətlər meydana çıxıbdır.

Türkiyənin keçmişdə, 1915-ci ildə guya ermənilərə qarşı soyqırım etməsi haqqında hətta bəzi ölkələrin parlamentlərində qərarlar qəbul olunubdur. Bunlar hamısı Türkiyəyə təsir etmək məqsədi daşıyır. Ancaq Türkiyə bizimlə olan münasibətlərinə sadiqdir və bunu dəfələrlə deyibdir.

Güman edirəm, bu dəfə də təsdiq ediləcək ki, Azərbaycanın torpaqları işğaldan azad olmasa, yəni Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından çıxmayana qədər Türkiyə Ermənistanla heç bir əlaqə, yəni nə diplomatik əlaqələr, nə də iqtisadi əlaqələr qurmayacaqdır. Bunu dəfələrlə bəyan ediblər. Amma bu barədə həm danışmaq lazımdır, həm də bizim bu mövqelərimizi dünyaya bir daha bəyan etmək lazımdır. Başqa işlər də olacaqdır. Bilirsiniz ki, bizim ölkələrimizin çox qarşılıqlı əməkdaşlıq işləri var. Ona görə də indi hamısını deməyə ehtiyac yoxdur. Amma mən əsas məsələləri Sizə dedim.

Sual: Cənab Prezident, Dağlıq Qarabağla bağlı Türkiyədən hər hansı bir təklif gözləmək olarmı?

Cavab: Danışacağıq. Görək...

Sual: Cənab Prezident, Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem təşəbbüslə çıxış etmişdi ki, Ermənistan və Azərbaycan Prezidentləri Türkiyənin vasitəçiliyi ilə bir görüş keçirsinlər. Bu, nə qədər realdır və Siz buna necə baxırsınız?

Cavab: Biz heç vaxt buna etiraz etməmişik. Birincisi, Türkiyə Minsk qrupunun üzvüdür və Minsk qrupunun fəaliyyətində həmişə fəal iştirak edir. Ancaq Bilirsiniz ki, Ermənistan buna razı deyil və razı ola bilməz. Çünki Ermənistan Türkiyəni həmişə onlara qarşı qeyri-obyektiv mövqedə günahlandırır.

Sual: Cənab Prezident, Rusiya mətbuatı yazır ki, Azərbaycan Türkiyəyə qaz satılması məsələsində çox güzəştlər edir.

Cavab: Heç bir güzəşt etməmişik. Azərbaycanın qazı Türkiyəyə dünya bazar qiymətləri ilə satılacaqdır və burada heç bir güzəşt yoxdur. Yəqin ki, kimsə bunu uydurur.

Sual: Cənab Prezident, Siz Faruq Loğoğlunu qəbul edəndə demişdiniz ki, Türkiyə "Şahdəniz" və Bakı-Ceyhan layihələrinin həyata keçirilməsini bir qədər ləngidir. Bu problem aradan qaldırıldımı?

Cavab: Ləngitmə var idi. Amma indi bir halda ki, biz sənədləri imzalayacağıq, deməli, aradan qaldırılır.

Sual: Cənab Prezident, bu sazişi imzalanarsa, Sizcə, Transxəzər qaz kəməri layihəsi reallığını itirirmi?

Cavab: O, bizdən asılı deyildir. Biz dəfələrlə demişik: əgər Türkmənistan əvvəlki mövqeyinə qayıtsa, heç vaxt buna etiraz etməyəcəyik.

Sual: Cənab Prezident, deyilənə görə, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində müddətsiz fəaliyyət rejiminə keçir. Amma indiyə qədər dəfələrlə bəyan edirdiniz ki, 2000-ci, yaxud 2001-ci ildə bu münaqişənin həlli qarşımıza məqsəd kimi qoyulmuşdu.

Cavab: Bilirsiniz, Azərbaycanda indi hərə bir söz deyir. Mən indiyə qədər görülən bütün işlər haqqında Milli Məclisdə hesabat verdim. Birincisi, Minsk qrupunun indiyə qədər verdiyi əsas təkliflər mətbuatda dərc olundu. Hər kəs onunla tanış oldu və bu gün də tanış olmağa imkanı var.

İkincisi də, son illərdə gedən bütün proseslər haqqında geniş izahat verdim. Orada bildirdim ki, görülən bütün bu işlər Azərbaycanın qarşıda qoyduğu vəzifəni hələ indiyə qədər yerinə yetirməyə imkan verməyibdir. Bu vəzifə də ondan ibarətdir ki, Ermənistan Silahlı Qüvvələri işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və yerindən-yurdundan didərgin düşmüş insanlar öz yerlərinə qayıtmalıdır. Əsas prinsip budur. Ancaq heç bir təklif almadım. Mən deyirdim, bəlkə bizim bilmədiyimiz bir şey varsa, kimsə deyər. Mənim bu müraciətim tam səmimi xarakter daşıyırdı. Bu gün də bunu təsdiq edirəm. Səmimi idi. Əgər kim bizim indiyə qədər gördüyümüz işlərdən əlavə, o işlərdən daha da səmərəli təkliflər irəliyə sürə bilərsə, Azərbaycanın Prezidenti kimi mən, birincisi, minnətdar olacağam, ikincisi də, əlbəttə, bu, bizim ümumi işimizə kömək edəcəkdir.

Amma təəssüflər olsun ki, heç bir konkret təklif yoxdur. Hərə bir söz deyir. Yəqin Sizin - müxalifət televiziyalarının da işiniz elə bundan ibarətdir ki, gedirsiniz, ona mikrofon verirsiniz, sən nə deyirsən, buna mikrofon verirsiniz və onları da gətirib axşam göstərirsiniz. Daha da çox qarmaqarışıqlıq yaradırsınız. Amma mən bunun da müsbət nəticəsini görürəm. Bu, nədən ibarətdir? Ondan ibarətdir ki, Siz əsasən müxalifətlə işləyirsiniz, onlara xidmət edirsiniz. Mən dünən axşam ANS televiziyasına da, SPASE televiziyasına da baxmışam. Ancaq onlara xidmət edirsiniz. Başqa bir şey yoxdur.

Jurnalist: Cənab Prezident, onlarla görüşmək daha asandır.

Heydər Əliyev: Çünki onlar boş-boş sözlər danışırlar. Sizə də lazımdır ki, efirdə bir şey verəsiniz. Amma heç bir yeni təklif verən yoxdur. İndi Siz ortaya atmısınız ki, guya Namazovla Zülfüqarov bir təklif veriblər. Mən çox təəccüblənirəm. Ancaq burada bir məsələ var. Əgər belə bir təklifi bu işin içində olmayan adamlar versəydilər, elə sizin hər gün gedib müsahibə aldığınız partiya rəhbərləri versəydilər, bu, məni təəccübləndirməzdi. Çünki mən Milli Məclisin iclasından sonra gördüm ki, onlar bu problemin həll olunması yollarından, bu problemin mürəkkəbliyindən çox uzaq bir məsafədə durub-

lar, anlamırlar. Ancaq tənqid etməklə, şayiələr yaymaqla, uydurmalarla məşğuldurlar. Dünən deyirlər ki, ortaya atdıqları bu təklif milli konsepsiya olacaqdır. Ona görə də əgər belə adamlar olsaydı, mən buna təəccüblənməzdim.

Ancaq bu iki şəxs yeddi il mənim yanımda işləyiblər. Mən hələ Azərbaycanda hakimiyyətə gəlməzdən əvvəl Tofiq Zülfüqarov bu işlə məşğul olan adamdır. Dəfələrlə danışıqlar aparan adamdır və nazir müavini kimi ayda bir dəfə, iki ayda bir dəfə Moskvaya gedirdi, bir həftə orada qalırdı, Kazimirovun rəhbərliyi altında, qayıdıb gələndə deyirdi ki, bu cümləni buraya qoyduq, bu cümləni də buraya qoyduq. Başqa heç bir şey yox.

O, sonra Xarici İşlər naziri idi. Bu işlərin hamısını bilir. Yəni o mənada bilir ki, indiyə qədər Minsk qrupu tərəfindən hansı təkliflər olub və bizim onlara münasibətimiz nə təhər olubdur. Doğrudur, Namazov danışıqlar prosesində iştirak etməyibdir. Sadəcə, mənim köməkçim kimi, danışıqlarda, qapalı danışıqlarda da oturubdur,- indi Dilarə Seyidzadə yazan kimi, o da yazıbdır, bəlkə Dilarə Seyidzadə ondan yaxşı yazır, - bu məsələnin müzakirəsində onun başqa bir rolu olmayıbdır.

Bilirsiniz, indi bunlar camaatı aldadırlar ki, biz bir konsepsiya meydana çıxarmışıq.

Bu konsepsiya nədən ibarətdir? Siz bu şeylərə başınızı sındırmayın, vaxt itirməyin. Bu konsepsiya ondan ibarətdir ki, birincisi, biz mərhələli həll təklifini qəbul edirik. İkincisi, əgər bu olmasa, müharibə edirik. Müharibə etmək üçün də lazımdır ki, iqtisadiyyatı qaldıraq, ordunu gücləndirək, islahatlar keçirək, demokratiyanı inkişaf etdirək, bunları edək, onları edək. Amma düşünmürlər ki, bu işlərin çoxu görülübdür. Ordu quruculuğu gedir və mən demişəm, bizim güclü ordumuz vardır. İslahatlar gedir, öz nəticəsini verir. Əgər bu islahatlar getməsəydi, hamınız belə yaşaya bilməzdiniz.

Azərbaycan öz iqtisadi göstəricilərinə görə Müstəqil Dövlətlər Birliyi içərisində on irəlidə gedən ölkələrdən biridir. Bunu biz demirik. Bunu dünya bankı deyir. İndi bunlar deyirlər ki, iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Əlbəttə ki, iqtisadiyyatı inkişaf etdirmək bundan sonra da lazımdır. İndiyə qədər görülən işlər Azərbaycan iqtisadiyyatını biz istədiyimiz səviyyəyə qaldırmayıbdır. Ancaq keçən il ümumi daxili məhsul 10 faiz artıbdır və 1996-cı ildən başlayaraq hər il artır. Sənaye istehsalı artır, kənd təsərrüfatı istehsalı artır, özəlləşdirmə prosesi gedir. Amma bunun vaxtı var. 10 faiz artırmaq olar, amma 10 dəfə artırmaq olmaz. Bu adi şeyləri bilməyən adamlar, yaxud bilərək, qəsdən insanları çaşdırmaq istəyən adamlar bu cür fikirləri ortaya artırlar. Siz də bunlara uyursunuz. Özlərini guya böyük siyasi xadim hesab edən mü-

TANK C
GIOC
GPC





xalifət partiyalarının rəhbərləri bir yerə yığışıb deyirlər ki, nəhayət, ağıllı bir təklif gəlibdir, biz bunun tərəfdarıyıq. Ancaq o mənada ki, Siz oradan iqtidarın gördüyü işləri çıxarın, - yaxşı, əgər onları çıxarsan, orada nə qalacaqdır, - qalanı ilə biz razıyıq. Bilirsiniz, bu, cəfəngiyyatdır.

Yenə də deyirəm, guya orada iki əsas məsələ var. Birincisi, mərhələ-mərhələ həll, ikincisi, müharibə. Mən mərhələ-mərhələ həll barədə Milli Məclisdə dedim. 1997-ci ilin sentyabr ayında bu təklif bizə rəsmi təqdim olunubdur. Onu da mətbuatda dərc etmişik. Biz onu qəbul etdik, baxmayaraq ki, orada heç də hər şey bizim üçün yararlı deyildi, məqbul deyildi, amma Ermənistan onu qəbul etmədi. Mən bunu neçənci dəfədir izah edirəm. Sonra Ermənistanın keçmiş Prezidenti ilin sonunda bunu qəbul etmək fikrinə gəldi. Bunu həyata keçirən zaman müqavimətlə rastlaşdı, istefaya getməyə məcbur oldu. Müqavimət göstərənlər bu gün hökumətin başındadırlar.

Bu təklif dörd il bundan qabaq müzakirə olunubdur, həyata keçirilməyibdir və onlar bunu qəbul etməyiblər. İndi bunu Amerikanın kəşfi kimi, bir ixtira kimi ortaya qoymaq olarmı? O ki qaldı müharibəyə, müharibə heç vaxt istisna olunmayıbdır. Müharibəni nə vaxt lazım olsa, etmək olar.

Bilirsiniz, mən Parisdə idim. Bunları bilmirdim. Gəldim, bir, iki-üç gündür burada televiziyaya baxanda, bir şey- Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri yadıma düşdü. Çoxlarınız cavansınız, bəlkə onu oxumamısınız, səhnədə görməmisiniz.

Şeyx Nəsrullah adamlarını bir şəhərə göndərir ki, gedin, orada xəbər verin ki, Şeyx Nəsrullah buraya gəlir, ölüləri dirildəcəkdir. Cəlil Məmmədquluzadənin fikri nə idi? Bu, yüksək fəlsəfi məna daşıyan bir əsərdir. Mənim aləmimdə bu, Azərbaycan ədəbiyyatının, dramaturgiyasının, yaxud da Azərbaycan ictimai-fəlsəfi fikrinin yaratdığı ən yüksək dəyərli əsərlərdən biridir. Cəlil Məmmədquluzadə göstərmək istəyirdi ki, bizim o vaxtkı insanlar nə qədər avamdırlar. Şeyx Nəsrullahın xəbərini eşidən kimi, biri gəldi ki, mən qardaşımı dirildəcəyəm. O biri gəldi ki, mən atamı dirildəcəyəm. Biri gəldi ki, arvadımı dirildəcəyəm, nə bilim, bu birisini, o birisini dirildəcəyəm. Sonra Şeyx Nəsrullah gəldi. Cəlil Məmmədquluzadə orada gözəl bir obraz - kefli İsgəndər obrazı yaratmışdır. Kefli İsgəndər birinə deyir ki, sənin qardaşını dirildəndə, gəlib sənə deyəcək ki, mənim arvadımı almısan. O birisinə deyir ki, sənin atanı dirildəndə, gəlib sənə deyəcək ki, mənim malımı dağıtmısan. Onu deyəndə, bunu deyəndə, axırda hamı deyir ki, yox, heç kəsi diriltmək lazım deyildir.

İndi bu, niyə mənim yadıma düşübdür? Bax, bu təklifi verənlər təx-

minən Şeyx Nəsrullaha bənzəyirlər. Sizin hər gün ətraflarında fırlandığınız müxalifət partiyalarının rəhbərləri, yaxud da başqaları, hansılar ki, bunların bu təklifinə biri deyir, çox əlverişlidir, ən əlverişlidir, biri deyir, bəli, bunu qəbul etmək olar, onlar da mənim xatirimə həmin avam camaatı salırlar.

Jurnalist: Cənab Prezident, Siz kefli İsgəndər deyəndə, kimi nəzərdə tutursunuz?

Heydər Əliyev: Burada kefli İsgəndər var. Bilirsiniz, ona görə də avam olmaq lazım deyil. Xalqı aldatmaq lazımı deyildir. Necə deyərlər, o təkliflər, prinsiplər dəfələrlə müzakirə olunubdur. Əgər biz onun hansını həyata keçirə bilsəydik, keçirə bilərdik. Yenə də deyirəm, meydana çıxmış iki nəfər böyük strateqlər yeddi ildir bu işin içindədirlər və yaxşı bilirlər ki, biz bunları nə vaxt, nə cür həyata keçirmək istəmişik və mümkün olmayıbdır. Amma kənarda olanları qınamıram.

Biz eyni zamanda mərhələ-mərhələ həll təklifini dərc etdik. Sonra mən Milli Məclisdə dedim ki, biz bunu qəbul etdik, amma Ermənistan qəbul etmədi. Sonra qəbul etdi və buna görə də Ter-Petrosyan öz vəzifəsindən imtina etdi. Bundan sonra belə bir şeyi gətirib ortaya çıxarasan və yenə də deyəsən ki, biz bunun əsasında iş görə bilərik- nə deyim, bundan ba ağılsız iş ola bilərmi?

Siz sədəlövh olmayın. Biz indiyə qədər nə mümkündür etmişik. Bu gün də edirik, sabah da edəcəyik. Elə bir yol yoxdur ki, biz onu sınaqdan keçirməyək. Elə bir təklif yoxdur ki, biz ona baxıb öz fikrimizi deyə bilməyək. Əgər indiyə qədər biz bunları edə bilməmişiksə, səbəb odur ki, Ermənistan qeyri-konstruktiv yol tutur. Minsk qrupu, beynəlxalq təşkilatlar isə bu işlə məşğul olaraq Ermənistanı konstruktiv yola gətirməyə məcbur etmirlər, ya da edə bilmirlər. Məsələ bundadır. Ona görə səmərəli işlərlə məşğul olun. Vaxtı belə şeylərə itirməyin və camaatı daçaşdırmayın.

Mən Türkiyədə bütün bu məsələlər haqqında ətraflı məsləhətləşəcəyəm. Yəni onlar hər şeyi bilirlər.

Sual: Cənab Prezident, İranın Prezidenti Xatəmi Qarabağ münaqişəsinin həllində Tehranın vasitəçiliyini irəli sürübdür. Ermənistan buna tam razı olubdur. Bəs, Azərbaycan necə?

Cavab: Bilirsiniz, əgər Sizin xatirinizdədirsə, İran bir dəfə vasitəçilik edibdir. 1992-ci ildə Azərbaycan nümayəndə heyəti ilə Ermənistan nümayəndə heyəti Tehrana getmişdi ki, guya orada İran vasitəçilik etsin. Onlar Tehranda olduğu zaman Ermənistan Silahlı Qüvvələri Şuşanı işğal ediblər. Siz bunu bilirsiniz, yoxsa yox? Bəlkə də bilmirsiniz. Gedin, onları oxuyun.

Sual: Hörmətli Cümhurbaşkanım, Baş Qərargah Rəisi və digərləri ilə görüşlərinizdə Azərbaycanla Türkiyə arasında hərb sahəsində iş birliyinə dair anlaşma gündəmdə olacaqmı?

Cavab: Bilirsiniz, Biz Türkiyənin bütün dövlət orqanlarının rəhbərləri ilə, o cümlədən Baş Qərargah Rəisi ilə çox sıx əlaqədəyik, dostluq, əməkdaşlıq əlaqəsindəyik. Nə mümkündür, onu edirik və edəcəyik.

Sual: Cənab Prezident, dediniz ki, biz həmişə...

Heydər Əliyev: Sən haranı təmsil edirsən?

Jurnalist: "Faktor" qəzetini.

Heydər Əliyev: O qədər qəzet var, heç bilmək olmur.

Sual: Siz dediniz ki, biz həmişə sülh yolunu tutmuşuq və sülh tərəfdarıyıq. Əgər sonda Ermənistan tərəfi sülhlə razılaşmasa, biz hansı mövqeni tutacağıq? Müharibə edəcəyikmi, yoxsa, məsələ necə olacaqdır?

Cavab: Mən sənə deyirəm ki, biz müharibə etməyə həmişə hazır olmalıyıq. Bizim ordumuz müharibə etmək üçün günbəgün, ilbəil öz gücünü artırır. Amma müharibə etmək, Sizin üçün gedib orada söhbət etmək deyildir.

Sual: Cənab Prezident, Ermənistan tərəfi rəsmən bəyan etdi ki, əgər Azərbaycan müharibə edərsə, Ermənistan Azərbaycanın daha yeddi rayonunu da ələ keçirəcəkdir. Ali baş komandan kimi nə deyə bilərsiniz?

Cavab: Onlar hər şey deyə bilərlər. Sağ olun.

MUSTAFA KAMAL ATATÜRKÜN MƏQBƏRƏSİNİN ZİYARƏTİ

Prezident Heydər Əliyev Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün qəbrini hörmət və ehtiramla ziyarət etdi, əklil qoydu.

Atatürkün xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Prezident Heydər Əliyev burada xatirə kitabına ürək sözlərini yazdı:

"Türk Dünyasının iftixarı, Türkiyə Cümhuriyyətinin yaradıcısı, qurucusu böyük Atatürkün qəbrini yenidən ziyarət etməkdən məmnuniyyət hissi duyuram.

Böyük Atatürkün qəbri qarşısında baş əyirəm, onun şəxsiyyətinə, qoyduğu irsə Azərbaycan xalqının daimi hörmət, ehtiramını bildirirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
12 mart 2001-ci il".

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN TƏKBƏTƏK GÖRÜŞÜ

Martın 12-də Çankaya köşkündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin təkbətək görüşü ol-

muşdur.

Ali qonağı Ankarada səmimiyyətlə salamlamaqdan çox məmnun olduğunu bildirən prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Müstəqil Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul olunması münasibətilə ölkəmizin rəhbərini ürəkdən təbrik edən cənab Əhməd Necdət Sezər böyük dövlətçilik təcrübəsinə malik Prezident Heydər Əliyevin müdrik siyasəti və liderliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri yüksək qiymətləndirdi.

Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin böyük sürətlə inkişaf etməsindən məmnun qaldığını bildirən cənab Sezər beynəlxalq təşkilatlarda Azərbaycan ilə Türkiyənin eyni mövqedən çıxış etməsindən, bir-birini daim dəstəkləməsindən razılıqla söhbət açdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Prezident Heydər Əliyevin səylərini yüksək qiymətləndirən prezident Əhməd Necdət Sezər bildirdi ki, Türkiyə bu münaqişənin aradan qaldırılmasında Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.

Rəsmi səfərə dəvətə və dost ölkədə ona göstərilən qonaqpərvərliyə görə Türkiyə xalqına və əziz dostu, qardaşı Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən Prezident Heydər Əliyev xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin əbədi, sarsılmaz olduğunu vurğuladı və bu əməkdaşlığın Azərbaycan Respublikasının, Türkiyə Cümhuriyyətinin dövlət siyasətinin əsasını təşkil etdiyini bildirdi.

İldən-ilə inkişaf edən, demokratiya içərisində yaşayan Türkiyə Cümhuriyyətinin Azərbaycan üçün dost, qardaş ölkə olduğunu bir daha nəzərə çarpdıran Respublikamızın Rəhbəri Heydər Əliyev prezident Əhməd Necdət Sezərin xaricə ilk rəsmi səfərini Azərbaycana etməsinin Respublikamızda böyük rəğbətlə qarşılandığını vurğuladı.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, uğurla aparılan islahatların müsbət nəticələrindən danışan Prezident Heydər Əliyev, eyni zamanda ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən ətraflı söhbət açdı.

Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır, dözülməz şəraitdə

yaşadığını xatırladan, bu münaqişənin aradan qaldırılması üçün Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa aparılan danışıqlardan bəhs edən Dövlətimizin Başçısı Heydər Əliyev ATƏT-in Minsk qrupunun üzvü olan Türkiyənin bu sahədə Respublikamızı daim dəstəkləməsinə görə bir daha razılıq etdi.

Görüşdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanması üçün görülən işlər, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixrac edilməsi, Naxçıvan Muxtar Respublikasının qarşılaşdığı problemlərin həllinə Türkiyənin yaxından kömək göstərməsi məsələləri barədə ətraflı müzakirələr aparıldı. Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində payı olan qardaş ölkənin şirkətlərinin yaxından iştirak etməsindən məmnunluqla söhbət açıldı.

Prezident Heydər Əliyev Türkiyə ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini vurğuladı, dost, qardaş ölkələrimiz arasında münasibətlərin daha da sıxlaşdırılmasının vacib olduğunu bildirdi.

Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün bağlanmış müqavilələrin həyata keçirilməsində Türkiyə şirkətlərinin də yaxından iştirak etdiyini xatırladan Respublikamızın Rəhbəri yaxın vaxtlarda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanacağından məmnunluqla söhbət açdı.

"Şahdəniz" yatağından çıxarılacaq təbii qazın ixracı ilə əlaqədar aparılan danışıqların müsbət nəticələr verməsindən razılıqla bəhs edən Dövlətimizin Başçısı bildirdi ki, həmin qazın çox hissəsinin Türkiyəyə nəql edilməsi barədə imzalanacaq sənədlərə əsasən, biz dost ölkəyə ildə 6 milyard kubmetr qaz verəcəyik. Yaxın gələcəkdə isə Azərbaycan Türkiyəyə ildə 15-20 milyard kubmetr qaz sata bilər.

Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatların uğurlarından danışan Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də ətraflı söhbət açaraq dedi ki, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır, yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın çoxu uzun illərdən bəri çadırlarda ağır, dözülməz şəraitdə yaşayır.

Bu münaqişənin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin - ABŞ-ın, Fransanın, Rusiyanın səylərinin daha da artırılmasının vacib olduğunu nəzərə çarpdıran Dövlətimizin Başçısı Heydər Əliyev apardığı birbaşa danışıqlardan bəhs etdi, Minsk qrupunun üzvü olan Türkiyənin bu sahədəki dəstəyinin də böyük əhəmiyyət daşıdığını bildirdi.

Cənab Əhməd Necdət Sezərin Respublikamızda keçirilmiş son Parlament seçkilərini yüksək qiymətləndirməsindən məmnun qaldığını, müstəqil Azərbaycanın başarı dəyərlərə sadiq olduğunu söyləyən Prezident Heydər Əliyev ölkəmizin Avropa Şurasına üzv qəbul olunması üçün Türkiyənin göstərdiyi dəstəyə görə minnətdarlıq etdi. Eyni zamanda Türkiyə Cümhuriyyətinin tezliklə Avropa Birliyinə tam hüquqlu üzv qəbul edilməyinə ümidvar olduğunu bildirdi.

Bir millət, iki dövlət olduğumuzu, xalqlarımızın tarixi qardaşlıq əlaqələrinin böyük əhəmiyyət daşıdığını vurğulayan Respublikamızın Rəhbəri bir daha bildirdi ki, layiq görüldüyü beynəlxalq Atatürk Sülh Mükafatını indiyədək aldığı bütün mükafatlardan üstün tutur.

Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türkdilli xalqların tarixindəki rolunu, Azərbaycanda Atatürk irsinə xüsusi maraq göstərildiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev Respublikamızda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzaladığını və Azərbaycan Prezidentinin bu mərkəzin fəxri sədri olduğunu bildirdi.

Prezident Əhməd Necdət Sezər ölkələrimiz arasında mədəni və elmi əlaqələrin yüksək səviyyədə olmasından razılıqla söhbət açdı, Azərbaycanda Atatürk Mərkəzinin yaradılmasına görə Dövlətimizin Başçısına təşəkkür etdi və böyük təcrübəyə malik görkəmli dövlət xadimi Heydər Əliyevin bu mərkəzin fəxri sədri olmasından qürur duyduğunu bildirdi.

Səmimilik və dostluq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

PREZİDENT HEYDƏR ƏLİYEVİN VƏ PREZİDENT ƏHMƏD NECDƏT SEZƏRİN RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCAN-TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜ

Martın 12-də Çankaya köşkündə Prezident Heydər Əliyevin və Prezident Əhməd Necdət Sezərin rəhbərliyi ilə Azərbaycan-Türkiyə nümayəndə heyətlərinin görüşü olmuşdur.

Dövlətimizin Başçısını səmimi qəlbdən salamlayan, onun dəvətini qəbul edərək Ankaraya səfərə gəldiyinə görə Respublikamızın Rəhbərinə bir daha minnətdarlığını bildirən cənab Əhməd Necdət Sezər Türkiyənin Prezidenti seçildikdən sonra Azərbaycana etdiyi ilk ziyarəti, zəngin dövlətçilik təcrübəsinə malik əziz dostu, qardaşı Heydər Əliyev ilə keçirdiyi görüşləri, apardığı danışıqları həmişə məmnunluqla xatırladığını vurğuladı.

Dəvətə, yüksək qonaqpərvərliyə və səmimi sözlərə görə minnətdarlıq edən Prezident Heydər Əliyev cənab Əhməd Necdət Sezərin ölkəmizə ilk

rəsmi səfərinin Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynadığını bildirdi və bunu dost, qardaş Türkiyənin Azərbaycana diqqətinin daha bir təzahürü kimi qiymətləndirdi.

Dövlətimizin Başçısı Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda yaranmış böyük dəyişiklikləri çox yüksək dəyərləndirən dost ölkənin rəhbəri gənc, müstəqil Azərbaycan Respublikasının Avropa Şurasının tam hüquqlu üzvü seçilməsini də məhz onun müdrik siyasətinin uğurlu nəticəsi olduğunu bildirdi, bu münasibətlə Prezident Heydər Əliyevi bir daha ürəkdən təbrik etdi.

Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində aparılan islahatları yüksək qiymətləndirən Türkiyə Rəhbəri Respublikamızda keçirilmiş son Parlament seçkilərinin Azərbaycanın demokratiya yolu ilə inamla irəliləməsinin gözəl nümunəsi olduğunu söylədi.

Daha sonra Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etməsindən məmnunluqla söhbət açan cənab Sezər Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda dost, qardaş ölkələrimizin eyni mövqedən çıxış etməsinin, bir-birini daim dəstəkləməsinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün Prezident Heydər Əliyevin ardıcıl səylərindən razılıq hissi ilə bəhs edən Türkiyə Prezidenti Dövlətimizin Başçısını əmin etdi ki, onun ölkəsi bu münaqişənin həll edilməsində Azərbaycanın mövqeyini bundan sonra da dəstəkləyəcəkdir.

Ölkələrimizin iqtisadi əməkdaşlığının ildən-ilə daha da genişlənməsindən məmnunluqla söhbət açan Prezident Sezərin fikrincə, Azərbaycan-Türkiyə birgə iqtisadi komissiyasının fəaliyyətinin gücləndirilməsi vacibdir.

Naxçıvan ilə Türkiyə arasında yaradılmış əlaqələrin əhəmiyyətindən danışan cənab Əhməd Necdət Sezər bildirdi ki, Muxtar Respublikanın problemlərinə Türkiyə böyük diqqət yetirəcəkdir.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı görülən hazırlıq işlərinin vəziyyətindən və zəngin "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə nəqli barədə əldə olunmuş razılıqdan məmnunluqla bəhs edən dost ölkənin Prezidenti dedi ki, bütün bunlar regional əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaratmaqla yanaşı, həm də bölgədə sabitliyin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Prezident Heydər Əliyev Türkiyə ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini vurğuladı, dost, qardaş ölkələrimiz arasında münasibətlərin daha da sıxlaşdırılmasının vacib olduğunu bildirdi.

Xəzərin Azərbaycan sektorunda-

kı yataqların birgə işlənilməsi üçün bağlanmış müqavilələrin həyata keçirilməsində Türkiyə şirkətlərinin də yaxından iştirak etdiyini xatırladan Respublikamızın Rəhbəri yaxın vaxtlarda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşasına başlanacağından məmnunluqla söhbət açdı.

"Şahdəniz" yatağından çıxarılacaq təbii qazın ixracı ilə əlaqədar aparılan danışıqların müsbət nəticələr verməsindən razılıqla bəhs edən Dövlətimizin Başçısı bildirdi ki, həmin qazın çox hissəsinin Türkiyəyə nəql edilməsi barədə imzalanacaq sənədlərə əsasən, biz dost ölkəyə ildə 6 milyard kubmetr qaz verəcəyik. Yaxın gələcəkdə isə Azərbaycan Türkiyəyə ildə 15-20 milyard kubmetr qaz sata bilər.

Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatların uğurlarından danışan Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də ətraflı söhbət açaraq dedi ki, Ermənistan Silahlı Qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi hələ də işğal altındadır, yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın çoxu uzun illərdən bəri çadırlarda ağır, dözülməz şəraitdə yaşayır.

Bu münaqişənin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin - ABŞ-ın, Fransanın, Rusiyanın səylərinin daha da artırılmasının vacib olduğunu nəzərə çarpdıran Dövlətimizin Başçısı Heydər Əliyev apardığı birbaşa danışıqlardan bəhs etdi, Minsk qrupunun üzvü olan Türkiyənin bu sahədəki dəstəyinin də böyük əhəmiyyət daşıdığını bildirdi.

Cənab Əhməd Necdət Sezərin Respublikamızda keçirilmiş son Parlament seçkilərini yüksək qiymətləndirməsindən məmnun qaldığını, müstəqil Azərbaycanın bəşəri dəyərlərə sadiq olduğunu söyləyən Prezident Heydər Əliyev ölkəmizin Avropa Şurasına üzv qəbul olunması üçün Türkiyənin göstərdiyi dəstəyə görə minnətdarlıq etdi. Eyni zamanda Türkiyə Cümhuriyyətinin tezliklə Avropa Birliyinə tam hüquqlu üzv qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi.

Bir millət, iki dövlət olduğumuzu, xalqlarımızın tarixi qardaşlıq əlaqələrinin böyük əhəmiyyət daşıdığını vurğulayan Respublikamızın Rəhbəri bir daha bildirdi ki, layiq görüldüyü beynəlxalq Atatürk Sülh Mükafatını indiyədək aldığı bütün mükafatlardan üstün tutur.

Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türkdilli xalqların tarixindəki rolunu, Azərbaycanda Atatürk irsinə xüsusi maraq göstərildiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev Respublikamızda Atatürk Mərkəzinin yaradılması haqqında sərəncam imzaladığını və Azərbaycan

Prezidentinin bu mərkəzin fəxri sədri olduğunu bildirdi.

Prezident Əhməd Necdət Sezər ölkələrimiz arasında mədəni və elmi əlaqələrin yüksək səviyyədə olmasından razılıqla söhbət açdı, Azərbaycanda Atatürk Mərkəzinin yaradılmasına görə Dövlətimizin Başçısına təşəkkür etdi və böyük təcrübəyə malik görkəmli dövlət xadimi Heydər Əliyevin bu mərkəzin fəxri sədri olmasından qürur duyduğunu bildirdi.

Səmimilik və dostluq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

14 mart 2001-ci il

- Zati-aliləri, Türkiyə Cumhuriyyətinin Prezidenti Hörmətli Əhməd Necdət Sezər!

Hörmətli dostlar, qardaşlar!

Mən Sizin hamınızı səmimi qəlbdən salamlayıram, Azərbaycan xalqının ən xoş arzularını sizə çatdırıram.

Məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə təşəkkürümü bildirirəm və bu səfəri Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etməsi üçün çox əhəmiyyətli hesab edirəm.

Hörmətli Prezident, Siz bizim burada görəcəyimiz işlər haqqında məlumat verdiniz. Ona görə də mənim bütün bunları təkrar etmək fikrim yoxdur, ancaq bunu bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələr indiyə qədər dostluq, qardaşlıq əlaqələri olubdur və bundan sonra da belə olacaqdır.

Bizim əlaqələrimizin təməli budur və bunun əsasında iqtisadi, ticarət, elm, mədəniyyət və başqa sahələrdə olan əməkdaşlıqdır. Bunların hamısı indi, demək olar ki, yüksək səviyyədədir. Ancaq bu əlaqələr bundan sonra daha da yüksəlməlidir. Ona görə də biz buraya gəlməklə həm Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının bizim üçün çox əhəmiyyətli olduğunu bir daha nümayiş etdiririk. Eyni zamanda ölkələrimizin daha da birgə işbirliyinin inkişaf etdirilməsi üçün lazımi tədbirlər görülməsini istəyirik. Mənim buradakı səfərim üçün tərtib olunmuş proqram bunların hamısına imkan verir. Ona görə də mən çox məmnunam ki, qarşımızda duran bütün vəzifələrin yerinə yetirilməsi üçün biz mümkün olan işləri görəcəyik.

Cənab Prezident, təbiidir, Sizin dediyiniz mövzuların hamısı - həm Bakı-Ceyhan əsas ixrac neft kəmərinin inşası, həm Azərbaycan qazının Türkiyəyə ixrac edilməsi və iqtisadi, ticarət əlaqələri bizim üçün çox əhəmiyyətlidir. Ancaq bizim üçün ən vacib və ən əhəmiyyətli olan Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi məsələsidir. Bu, həm Türkiyə,

həm Azərbaycan, həm də bütün Qafqaz ölkələri üçün çox əhəmiyyət kəsb edir. Azərbaycan üçün bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, Azərbaycan artıq 12 ildir ki, Ermənistan ilə hərbi münaqişədədir. Bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri müəyyən səbəblərdən Azərbaycan torpaqlarının 20 faizini işğal edib və işğal olunmuş bu torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlılar zorla çıxarılıb, didərgin düşübdür və indi onlar çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Hörmətli cənab Prezident!

Siz Bakıda olarkən respublikamızın paytaxtında yerləşmiş bir qrup köçkünün vəziyyətini özünüz gördünüz. Amma siz gördünüz hamısından yaxşısı idi. Çadırlarda yaşayan qaçqınların vəziyyəti onlardan qat-qat pisdir. Ona görə də Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məsələsi bizim qarşımızda duran əsas məsələdir. Neçə illərdir ki, Türkiyə ilə Azərbaycan bu sahədə sıx əməkdaşlıq edir. İndiki mərhələdə bu münaqişənin sülh yolu ilə həll olunması istiqamətlərini müəyyən etmək üçün bizim Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti, hökuməti ilə danışıqlar, məsləhətləşmələr aparmağa çox böyük ehtiyacımız vardır. Mən çox ümid edirəm ki, bizim buradakı görüşlərimiz, danışıqlarımızda bu məsələnin müzakirəsi əsas yer tutacaqdır. Biz bu məsələni həll etmək üçün Türkiyədən lazımi dəstəklər alacağıq.

Cənab Prezident, məni bu rəsmi səfərə dəvət etdiyinə görə bir daha sizə minnətdarlıq edirəm. Bütün qardaş, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Təşəkkür edirəm.

BİRGƏ BƏYANAT

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Əhməd Necdet Sezerin dəvəti ilə 2001-ci il martın 12-16-da Türkiyədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı cənab Heydər Əliyevi Xarici İşlər naziri V.Quliyev, Baş nazirin Müavini A.Şərifov və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər əsnasında iki Prezident arasında təkbətək danışıqlar aparılmış, ayrıca olaraq iki ölkənin heyətləri arasında danışıqlar keçirilmişdir. Səmimilik şəraitində keçən danışıqlarda Türkiyə ilə Azərbaycan arasında mövcud olan ikitərəfli münasibətlərin bütün sahələrdə inkişaf perspektivləri müzakirə olunmuş və hər iki ölkə üçün maraq kəsb edən regional və beynəlxalq məsələlərlə bağlı ətraflı fikir mübadiləsi həyata keçirilmişdir.

Tərəflər dost və qardaş olan iki dövlət arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu məmnuniyyətlə qeyd etmiş, mövcud olan yaxın münasibətlərin regionun digər ölkələri üçün də nümunə ola bilməsi arzusunu bir daha ifadə etmişlər.

Tərəflər region dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin zor işlətməklə dəyişdirilməsinə qarşı yönəldilmiş və dövlətlərin təhlükəsizliyini, ərazi bütövlüyünü təhlükə altına alan insan hüquqları və azadlığının əsaslarının, demokratik prinsiplərin və ictimai dəyərlərin pozulmasına yönəldilmiş təcavüzü, separatist hərəkətləri və terrorizmin bütün forma və təzahürlərini pislədiklərini və bu təhlükəyə qarşı mübarizədə birgə fəaliyyətlərini inkişaf etdirmək əzmində olduqlarını bir daha təsdiq etmişlər.

Tərəflər Ermənistan Respublikasının Azərbaycan torpaqlarını işğal altında saxlamasının qəbuledilməz olduğunu vurğulayaraq, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu qeyd etmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını tezliklə və qeyd-şərtsiz tərk etməsinin, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtmalarının təmin edilməsini bir daha qeyd etmişlər.

Tərəflər Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasının regionun bütün ölkələrinin maraqlarına xidmət edəcəyini və bu istiqamətdə maneə təşkil edən

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi beynəlxalq hüququn imperativ prinsipləri əsasında ən qısa zamanda sülh yolu ilə həll edilməsinə nail olunmasının vacibliyini vurğulamışlar.

Tərəflər regionda mövcud olan vacib problemlərin həll olunması üçün konstruktiv təkliflərin irəli sürülməsi əvəzinə, region ölkələrinin bir-birinə münasibətdə yeni gərginlik yarada biləcək, mehriban qonşuluq prinsiplərinə uyğun olmayan siyasət aparmasının doğru olmadığını, Qafqazda həqiqi sülhün və əməkdaşlıq şəraitinin təmin olunması baxımından belə siyasətə son qoyulmasının vacib əhəmiyyət kəsb etdiyini vurğulamışlar.

Tərəflər Qafqazda sülhün və sabitliyin bərqərar olmasına yönəldilmiş səyləri dəstəklədiklərini bir daha qeyd edərək, bu çərçivədə Qafqazda sabitlik paktı təşəbbüsünün irəliyə aparılması ilə bağlı əməkdaşlıq etməyə qərarlarını ifadə etmişlər.

Türkiyə tərəfi dost və qardaş Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması ilə əlaqədar məmnuniyyət hissi keçirdiyini bir daha qeyd etmiş, Azərbaycan tərəfi isə bu müddət ərzində göstərdiyi həmrəyliyə və əməkdaşlığa görə Türkiyəyə öz təşəkkürünü bildirmişdir.

Tərəflər BMT, ATƏT, NATO, Avro-Atlantik Əməkdaşlıq Şurası və buna bənzər digər beynəlxalq təşkilatlar çərçivəsində olduğu kimi, Avropa Şurası tərkibində də əməkdaşlıq etməyi və qarşılıqlı fəaliyyətlərini

gücləndirmək istiqamətində niyyətlərini bir daha qeyd etmişlər.

Tərəflər 2001-ci il aprelin 26-27-də İstanbulda keçiriləcək türkdilli dövlət başçılarının zirvə görüşünün üzv ölkələr arasındakı ortaq tarix, mədəniyyət və dil birliyinə, dostluq, bərabərlik və qarşılıqlı mənafelərə əsaslanan yüksək səviyyəli münasibətlərin və əməkdaşlığın gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıdığını bildirmişlər.

Tərəflər Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi ilə bağlı görülən işlərin səviyyəsindən, bu səpgidə boru xəttinə kapital qoyuluşunu həyata keçirəcək sponsorlar qrupunun yaradılmasından, əsaslı mühəndis işlərinin ümidverici vəziyyətindən və ümumi mühəndis işlərinin 2001-ci ilin may ayı ərzində başlanmasının nəzərdə tutulmasından məmnun qaldıqlarını ifadə etmişlər.

Tərəflər, həmçinin Xəzər dənizi hövzəsindəki neftin Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsilə ixrac edilməsinin region ölkələrinə yeni iqtisadi imkanlar yaratmaqla yanaşı, bölgədəki sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini, Avropa başda olmaqla Qərb bazarlarının enerji nəqli təhlükəsizliyinə müsbət təsir göstərəcəyini vurğulamışlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN ŞƏRƏFİNƏ DÜZƏLDİLMİŞ RƏSMİ QƏBULDA HEYDƏR ƏLİYEVİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin Prezidenti Hörmətli dostum, qardaşım Əhməd Necdət Sezər!

Hörmətli dostlar, cənablar, xanımlar!

Mən Sizi Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram və millətimizin Sizə olan ən xoş arzularını və istəklərini çatdırmaqdan məmnuniyyət hissi duyuram.

Hörmətli Prezident, məni Türkiyəyə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edirəm. Bu səfərin Azərbaycan üçün, düşünürəm ki, eyni zamanda Türkiyə üçün, Azərbaycan-Türkiyə əlaqələri üçün çox əhəmiyyətli olduğunu yüksək qiymətləndiririəm. Bizə göstərilən bu qonaqpərvərliyə görə, dostluğa görə, mehribanlığa görə öz adımdan və mənimlə buraya gələn böyük heyət adından təşəkkür edirəm.

Eyni zamanda onu da düşünürəm ki, Türkiyə Sizin vətəniniz olduğu kimi, bizim də vətənimizdir. Ona görə də burada güman edirəm ki, başqa bir qarşılanma ola bilməzdi. Biz Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına hədsiz məhəbbət hissi ilə yaşayırıq. Bu məhəbbət hisslərinin dərin kökləri var. Bu, bizim tarixi keçmişimizdir. Bu, bizim dilimizdir. Bu, bizim milli-mənəvi dəyərlərimizdir. Bu, bizim dinimizdir. Ən əsası isə, Azərbaycanın Türkiyəyə keçmişdə də, bu gün də olan məhəbbəti və sevgisidir.

Biz Türkiyənin əldə etdiyi böyük nailiyyətləri iftixar hissi ilə izləyirik. Bu nailiyyətlər ilbəil yüksəlir, artır. Bunların əsasını təşkil edən isə Türkiyə Cümhuriyyətinin yaranması və Türkiyə Cümhuriyyətinin yaradıcısı böyük öndər Mustafa Kamal Atatürkdür. Məhz buna görə də mən Türkiyəyə rəsmi səfərimi ilk öncə böyük Atatürkün qəbrini ziyarət etməklə başladım. Hər dəfə Atatürkün qəbrini ziyarət edərkən, o şəxsin bəşər tarixində nə qədər böyük rol oynadığını bir daha, bir daha xatırlayıram.

Eyni zamanda düşünürəm ki, əgər Mustafa Kamal Atatürk vaxtilə, Osmanlı imperiyası dağılandan sonra Cümhuriyyəti qurmasaydı və Cümhuriyyətin gələcək yollarını müəyyən etməsəydi, güclü türk ordusu qurmasaydı, güclü türk əsgəri yaratmasaydı, Türkiyə rəqibləri, düşmənləri əhatəsində olduğu halda, bu qədər yüksək inkişaf edə bilməzdi. Bizdə məmnuniyyət hissi doğurur ki, sonrakı nəsillər böyük Atatürkün yolu ilə gedərək Türkiyəni inkişaf etdiriblər. Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən biridir. İqtisadi cəhətdən inkişaf etmiş, demokratiya prinsipləri, bazar iqtisadiyyatı prinsipləri ilə yaşayan bir dövlət, bir ölkədir. Bunlar hamısı bizim üçün, Azərbaycan xalqı üçün bir tərəfdən iftixar hissi doğurur, ikinci tərəfdən də təcrübə mənbəyidir.

Biz, Azərbaycan gənc müstəqil ölkəyik. Bu ilin sonunda Azərbaycanın müstəqilliyinin, istiqlaliyyətinin 10-cu ili tamam olur. Tarixi nöqteyi-nəzərdən 10 il o qədər də böyük zaman deyildir. Amma əgər dünyada gedən prosesləri nəzərə alsaq, bizim bölgədə baş vermiş hadisələri nəzərə alsaq, 10 il Azərbaycanın müstəqil yaşaması böyük hadisədir, tarixi hadisədir. Biz müstəqilliyimizi əldə edəndən Türkiyənin dəstəyini, dayağını hiss etmişik. Əziz dostum, hali, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir. Bizim müstəqilliyimizi başqa ölkələr də, başqa dövlətlər də tanıyıblar, bəyanatlar veriblər. Amma Türkiyənin onlardan fərqi ondan ibarətdir ki, Azərbaycanın müstəqilliyini, istiqlaliyyətini tanıyaraq, eyni zamanda müstəqil dövlətin yaşaması üçün, inkişaf etməsi üçün ona həmişə qardaşlıq yardımı etmiş, qardaş kimi Azərbaycanın yanında olmuşdur. Bütün bunlar bizi keçmişdə olduğu kimi, bu gün də Türkiyə ilə sıx bağlayıbdır. Ona görə də hər dəfə Türkiyəni ziyarət etmək mənim üçün böyük bir xoşbəxtlikdir.

Mənimlə bərabər buraya böyük nümayəndə heyəti gəlibdir. Bir çox nazirlər, Milli Məclisin bir qrup deputatı buradadır. Onların hamısı Türkiyəyə böyük həvəslə gəliblər. Bəlkə də bu qədər böyük heyətin buraya gəlməsi bəzilərini təəccübləndirər. Ancaq bunun səbəbi ondan ibarətdir ki, biz istəyirik bütün sahələrdə əlaqələrimizin inkişaf etməsi üçün yeni addımlar ataq.

Mən böyük qürur hissi duyuram ki, XXI əsrin əvvəlində, üçüncü minilliyin əvvəlində Türkiyəyə rəsmi səfər etmək mənə nəsib olubdur. Bu gün burada hörmətli Prezident ilə, hörmətli Baş nazir ilə apardığımız

danışıqlar Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrini əhatə edibdir. Bu da bizim üçün, Azərbaycan üçün çox faydalıdır. Hər bir məsələ meydana çıxanda biz Türkiyə ilə məsləhətləşməyi vacib hesab edirik. Ona görə də bu gün danışıqlarımızın bir hissəsi Türkiyə-Azərbaycan iqtisadi, mədəni əlaqələrinin inkişaf etdirilməsinə, bir sözlə, bütün sahələrdə əlaqələrin inkişafına həsr olunubsa, digər hissəsi Azərbaycanın böyük dərdi olan Dağlıq Qarabağ probleminin, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məsələsinə həsr edilibdir.

Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Ermənistanın təcavüzünə məruz qalmışdı. Bilirsiniz ki, 1988-ci ildə Ermənistan Azərbaycan torpaqlarına, yəni Azərbaycanın ayrılmaz bir hissəsi olan, qədim torpağı olan Dağlıq Qarabağa torpaq iddiası ilə çıxış etmiş və sonra bu, hərbi münaqişəyə, müharibəyə çevrilmişdi. Müharibə böyük itkilərə gətirmişdi. Müxtəlif səbəblərdən, Ermənistana bəzi dövlətlərin etdiyi yardıma görə və Azərbaycanda da buraxılmış bəzi nöqsanlara görə bu savaşda, bu müharibədə Ermənistan Azərbaycan torpaqlarının bir qismini işğal edibdir. Öncə Dağlıq Qarabağı, ondan sonra isə onun ətrafında olan yeddi böyük rayonu işğal edibdir. Beləliklə, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. Özü də bu gün yox, dünən yox, bir çox illərdir ki, bu torpaqlardan bir milyondan artıq Azərbaycanlı zorla çıxarılıb və qaçqın vəziyyətdə çadırlarda yaşayırlar.

Həm Ermənistan-Azərbaycan münaqişəsi, müharibəsi dövründə, həm də atəşkəs yarananda sonra sülh danışıqlarının aparılmasında Türkiyə mühüm rol oynayıbdır. 1992-ci ildə ATƏT Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Minsk qrupu yaradıbdır. Türkiyə Minsk qrupunun üzvüdür və onun üzvü kimi, Azərbaycanın dostu kimi bu illər çox faydalı işlər görmüşdür. Ancaq təəssüflər olsun ki, bizim gördüyümüz bütün işlər, o cümlədən Minsk qrupunun həmsədrləri olan ölkələrin - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın son illərdə həyata keçirdiyi tədbirlər heç bir nəticə verməyibdir. Ermənistan işğal etdiyi torpaqlardan çıxmır. Azərbaycanın qaçqınları çadırlarda yaşayır. Bunların hamısı bizim üçün həm maddi, həm də mənəvi zərbədir.

Hörmətli Prezident, mən Sizə minnətdaram. Siz burada bəyan etdiniz ki, hüquq normaları, beynəlxalq hüquq prinsipləri, təəssüflər olsun ki, çox dövlətlər tərəfindən pozulur. Dünyada ikili standartlar var və Azərbaycan bu ikili standartlardan çox əziyyətlər çəkir. Ermənistan Azərbaycanın torpaqlarını işğal etdiyi halda, Amerika Birləşmiş Ştatlarının Konqresi hələ 1992-ci ildə Azərbaycana hər bir yardımın göstərilməsinə embarqo qoymuşdur. Eyni zamanda işğalçı Ermənistan hər il Amerika Birləşmiş Ştatlarından böyük yardım alır və xüsusən 100 milyon dollara qədər pul alır. Biz bu ədalətsizlikləri görürük və siz də görürsünüz.

Məsələn, son vaxtlar Türkiyəyə qarşı edilən ədalətsizliklər bizi sarsıdır, bizi incidir. Erməni diasporunun gücünə görə bəzi ölkələrin Parlamentlərində Türkiyənin vaxtilə guya ermənilərə qarşı soyqırımı etməsi haqqında qərarlar çıxarıblar. Biz belə qərarlara, belə fikirlərə daim öz etirazımızı bildirmişik.

Hələ 1998-ci ildə Amerikada bu məsələ Konqresdə qaldırılan kimi, Azərbaycanın Milli Məclisi, Azərbaycanın dövləti öz etirazını bildirdi. Son vaxtlar Fransa Parlamentinin belə bir qərar çıxarması bizi hiddətləndirdi. Bizim Parlament xüsusi bəyanat verdi. Dövlət Başçısı kimi mən bu hərəkəti pisləidm və bu qədər ədalətsizliyə qarşı öz iradəmi göstərdim. Hətta yanvar ayında Parisdə olarkən, Fransanın Prezidenti Jak Şirak ilə danışarkən ona dedim ki, Siz nə üçün belə ədalətsizlik edirsiniz? Biz buna qarşı çıxırıq. Bu, Türkiyə kimi bir dövlətə, türk xalqına, o cümlədən bütün türkdilli xalqlara olan ədalətsizlikdir. Biz bu gün də öz iradəmizi göstəririk.

Yəni bax, bu iki faktla nümayiş etdirmək olar ki, dünyada ikili standartlar mövcuddur və bunlar Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması üçün lazımi tədbirlərin görülməsinin qarşısını alır. Hesab edirəm ki, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa kimi böyük dövlətlər Ermənistana təsir göstərə bilərdilər ki, o, bu danışıqlarda konstruktiv mövqe tutsun və işğal olunmuş torpaqları azad etsin. Ondan sonra isə Dağlıq Qarabağın statusu haqqında danışıqlar aparmaq olar. Ancaq təəssüflər ki, bunu etməyiblər. Biz bu barədə geniş fikir mübadiləsi apardıq və mən bundan çox məmnunam.

Hörmətli Prezident, Siz burada Bakı-Ceyhan boru xətti haqqında bugünkü durumu bildirdiniz və Azərbaycanın "Şahdəniz" yatağından alınacaq qazın Türkiyəyə ixrac edilməsi haqqında anlaşmanın imzalanması barədə bəyanat verdiniz. Mən çox məmnunam. Çünki biz 1994-cü ildən Azərbaycanın neft strategiyasını həyata keçirərək, Bakı-Ceyhan boru xəttinin yaranması üçün Türkiyə, Azərbaycan birlikdə çalışmışıq və bunu sona çatdırmışıq. İndi bunu daha da irəliyə aparmalıyıq və bu boru xəttini inşa edib, tikib istismara verməliyik. Xəzər dənizindəki "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından ildə 50-60 milyon ton neft ixrac etmək olar. Amma Azərbaycan dünyanın böyük neft şirkətləri ilə 20 müqavilə imzalayıbdır. Təsəvvür edin, oradan nə qədər neft hasilatı, qaz hasilatı gözlənilir. Ona görə də bəlkə gələcəkdə Bakı-Ceyhan yetərli olmayacaq, ikincisini də yaratmaq lazım olacaqdır. Bunu eyni zamanda qaz haqqında da deyə bilərəm. Biz 6 milyard kubmetr qazın Türkiyəyə satılması haqqında saziş imzaladıq. Ancaq gələcəkdə bunu 10 milyarda, 15 milyarda, 20 milyarda da çatdırmaq olar və Türkiyənin bu barədə ehtiyaclarını təmin etmək olar. Bu sahə Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin əsas sahəsidir. Ancaq bütün başqa sahələrdə də biz əlaqələrimizi inkişaf etdirmişik və bundan sonra inkişaf etdirməyə çalışacağıq.

Müstəqil dövlət kimi Azərbaycan on ildə ağır bir yol keçibdir. Bilirsiniz ki, bir tərəfdən, Ermənistanın təcavüzü, ikinci tərəfdən, Azərbaycanın daxilində ictimai-siyasi səbitliyin pozulması, ayrı-ayrı silahlı dəstələrin hakimiyyət uğrunda mübarizə aparması, hakimiyyətin bir neçə dəfə dəyişdirilməsi, nəhayət, 1993-cü ildə vətəndaş müharibəsinin başlanması, görün, Azərbaycana nə qədər böyük zərbələr vurubdur.

Mən Sizə bildirmək istəyirəm ki, indi Azərbaycanda ictimai-siyasi sabitlik yaranıbdır. Ermənistanın təcavüzünə, bir milyon qaçqının ağır vəziyyətdə yaşamasına baxmayaraq, Azərbaycan iqtisadi cəhətdən ilbəil inkişaf edib və inkişaf etməkdədir.

Azərbaycan demokratiya yolu ilə gedir. Biz hər şeydə gəncik. Müstəqil dövlət kimi də gəncik, demokratiya yolu ilə gedən dövlət kimi də, bəzər iqtisadiyyatı yolu ilə gedən dövlət kimi də gəncik. Hər yerdə gəncik. Amma bizim qardaşımız var. Türkiyə bu yolu on illərlə keçibdir. Türkiyənin böyük təcrübəsi var. Biz bu təcrübədən də istifadə edirik. Dünya təcrübəsindən də istifadə edirik. Biz bu yol ilə gedirik, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir və bundan sonra da gedəcəkdir. Mən çox məmnunam ki, Türkiya bu yolu çoxdan tutubdur. Atatürkün vəsiyyətlərini yerinə yetiribdir və Türkiyə hüquqi dövlətdir, demokratik dövlətdir və dünyəvi dövlət kimi yaşayacaqdır. Çünki dünyəvilik Türkiyəni Avropa ilə, Azərbaycan ilə birləşdirən əsas amillərdən biridir.

Azərbaycan Avropa Şurasına qəbul olundu. Bu, bizim üçün tarixi hadisədir. Siz bilirsiniz ki, bizim oraya qəbul olunmağımıza çox böyük maneələr törədirdilər. Amma yenə də bizim dörd il daimi mübarizəmizdə yanımızda Türkiyə olubdur. Türkiyənin dövləti, hökuməti, Türkiyənin Avropa Şurasındakı təmsilçiləri olub, biz həmişə onların dəstəyini, yardımını hiss etmişik və bunlar da Azərbaycanın Avropa Şurasına qəbul olunmasına kömək edibdir və nəhayət, biz buna nail olmuşuq.

İndi biz yeni təşkilatda bir yerdəyik. Deməli, biz öz işlərimizi daha da bərabər apara bilərik. Təsadüfü deyil ki, Azərbaycanın Avropa Şurasında olan təmsilçiləri, Milli Məclisin Deputatları da bu gün buradadırlar. Onlar gəlib böyük Millət Məclisində görüşlər keçiriblər, Türkiyənin təmsilçiləri ilə danışıblar və birgə fəaliyyət göstərmək haqqında razılıq əldə ediblər.

Beləliklə, bizim indiyə qədər, on il müddətində keçdiyimiz yol çox uğurludur. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı inkişaf edibdir. Ancaq bu, son mərhələ deyildir. Dünya inkişaf edir. Biz dünya ilə ayaqlaşmalıyıq. Onun üçün də Türkiyənin qazandığı nailiyyətlərdən faydalanaraq, Türkiyənin təcrübəsindən istifadə edərək, Azərbaycanın müstəqil dövlətini yaşadacaq və inkişaf etdirəcəyik.

Keçmiş Sovetlər Birliyinə mənsub olan ölkələr üçün müstəqilliyi əldə etmək çətinlik törətmədi. Çünki Sovetlər İttifaqı dağıldı. Onun dağılmasının səbəbləri də məlumdur. Təbiidir ki, 15 müttəfiq respublika öz müstəqilliyini elan etdi. Bu, bizim üçün tarixi hadisədir ki, 70 illik arzumuza çatdıq. Ancaq müstəqilliyi qorumaq, saxlamaq və əbədi etmək, müstəqilliyi o şəkildə qazanmaqdan daha da çətindir. Siz Azərbaycanın bu çətinliklərini bilirsiniz. Mən bu barədə bir daha, bir daha Sizə məlumat verdim.

Əmin ola bilərsiniz ki, Azərbaycanın müstəqilliyi bizim həyatımızın mənasıdır. Azərbaycan Prezidenti kimi mənim həyatımın mənasıdır. Azərbaycanın müstəqilliyi bundan sonra daha da möhkəmlənəcək, yaşayacaq və müstəqil dövlət bir daha keçmişdəki vəziyyətə düşməyəcəkdir. Biz bu yolda Türkiyə ilə həmişə bir yerdə olmuşuq, bir yerdə olacağıq. Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Biz bu dostluğa sadiqik və sadiq olacağıq. Bu dostluğu inkişaf etdirmək üçün bütün sahələrdə əməkdaşlığımızı, işbirliyimizi daha da inkişaf etdirəcəyik. Güman edirəm ki, mənim buraya rəsmi səfərim zamanı bu məsələlərin gələcəyi haqqında işlər görürük və görəcəyik. Beləliklə də, XXI əsrin başlanğıcında əsrin gələcəyi üçün, gələcək nəsillər üçün faydalı işləri bir yerdə görəcəyik. Mən Türkiyədə olmağımdan bir daha məmnun olduğumu bildirmək istəyirəm. Bu, həmişə mənim üçün sevinc gətirir.

Hörmətli Prezident, məni dəvət etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Azərbaycanın buraya gəlmiş bütün heyətinə göstərilən qayğıya, diqqətə və qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

Rica edirəm, badələrimizi Türkiyənin şərəfinə qaldıraq!

Atatürk Türkiyəsinin şərəfinə qaldıraq!

Türkiyə-Azərbaycan dostluğunun şərəfinə qaldıraq!

Bu dostluğun sarsılmazlığının, əbədiliyinin şərəfinə qaldıraq!

Əziz dostlar, Sizin şərəfinizə qaldıraq!

Hörmətli Prezident, bu badəni Sizin şərəfinizə qaldırıram!

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 12-də, onun üçün ayrılmış iqamətgahda Cənlı köşkdə Türkiyə Respublikasının Baş naziri Büləncd Ecevit ilə təkbətək görüş keçirmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan Baş nazir Büləncd Ecevit Prezident Heydər Əliyev ilə hər bir görüşdən çox məmnun olduğunu bildirdi.

Respublikamızın rəhbərinin dost və qardaş ölkəyə səfərlərinin çox böyük əhəmiyyət daşıdığını vurğulayan cənab Ecevit əmin olduğunu bildirdi ki, Prezident Heydər Əliyevin Türkiyəyə bu rəsmi səfəri ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ açacaqdır.

Səmimi sözlərə görə Baş nazirə minnətdarlığını bildirən Prezident Heydər Əliyev Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə ildən-ilə inkişaf etməsindən məmnun qaldığını söyləyərək bildirdi ki, qardaş ölkəyə budəfəki rəsmi səfərinə böyük əhəmiyyət verir.

Prezident Heydər Əliyev və Baş nazir Bülənd Ecevit Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasının zəruriliyini bir daha vurğuladılar. Onlar Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dair bağlanmış müqavilələrin həyata keçirilməsində Türkiyə şirkətlərinin yaxından iştirak etməsindən razılıqla söhbət açdılar. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin yaxın vaxtlarda başlanacaq inşası ilə əlaqədar görülən işlər, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixrac edilməsi, Naxçıvan Muxtar Respublikasının problemlərinin həllinə Türkiyənin yaxından kömək göstərməsi məsələləri barədə geniş müzakirələr apardılar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması prosesi ətrafında fikir mübadiləsi edildi. Baş nazir Bülənd Ecevit bu münaqişənin nizama salınması sahəsində Prezident Heydər Əliyevin ardıcıl səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini bildirdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının perspektivləri, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi edildi.

Prezident Heydər Əliyev Türkiyənin Baş naziri Bülənd Eceviti Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI HÜSEYN KIVRIKOĞLU İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 13-də onun üçün ayrılmış iqamətgahda Camlı köşkdə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu Generalı Hüseyn Kıvrıkoğlu ilə təkbətək görüş keçirmişdir.

Respublikamızın rəhbərini səmimiyyətlə və mehribanlıqla salamlayan, Ankaraya rəsmi səfərə gəldiyinə görə dövlətimizin başçısına təşəkkür edən cənab Kıvrıkoğlu Azərbaycan-Türkiyə hərtərəfli əməkdaşlığının, strateji tərəfdaşlığının möhkəmlənməsində və inkişaf etməsində görkəmli dövlət xadimi Heydər Əliyevin xüsusi xidmətləri olduğunu bildirdi.

Səmimi sözlərə görə cənab Kıvrıkoğluna minnətdarlıq edən Prezident Heydər Əliyev Türkiyə ilə bütün sahələrdə əlaqələrin daha da sıxlaşdırılmasına Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini nəzərə çarpdırdı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması ilə əlaqədar ATƏT-in Minsk qrupunun fəaliyyəti, aparılan birbaşa danışıqların gedişi, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev cənab Hüseyn Kıvrıkoğlunu Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ, MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASININ SƏDRİ DÖVLƏT BAXÇALI İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 13-də onun üçün ayrılmış iqamətgahda Camlı köşkdə Türkiyə Respublikası Baş nazirinin muavini, Dövlət Naziri, Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı ilə təkbətək görüş keçirmişdir.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən Dövlət Baxçalı əmin olduğunu söylədi ki, bu səfər Azərbaycan-Türkiyə əməkdaşlığının daha da möhkəmlənməsində və inkişaf etməsində mühüm rol oynayacaqdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində müvəffəqiyyətlə həyata keçirilən islahatların qardaş ölkədə rəğbətlə qarşılandığını vurğulayan Dövlət Baxçalı, Azərbaycanla bütün sahələrdə əlaqələrin sıxlaşdırılmasına Türkiyənin həmişə xüsusi diqqət yetirdiyini nəzərə çarpdırdı.

Azərbaycan-Türkiyə münasibətlərinin durmadan inkişaf etdirilməsində Prezident Heydər Əliyevin böyük zəhməti olduğunu söyləyən Dövlət Baxçalı martın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə imzalanmış sənədlərin qardaş ölkələrimizin bir sıra sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsi üçün xüsusi əhəmiyyət daşıdığını bildirdi.

Səmimi sözlərə görə Dövlət Baxçalıya minnətdarlıq edən respublikamızın rəhbəri Heydər Əliyev dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin sürətlə inkişaf etməsindən məmnun qaldığını nəzərə çarpdırdı.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbaycanda hüquqi, demokratik, dünyəvi

dövlət quruculuğu sahəsində görülən işlərdən, uğurla həyata keçirilən islahatların müsbət nəticələrindən danışan Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı söhbət açdı.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirakı, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası ilə əlaqədar görülən hazırlıq işləri, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev cənab Dövlət Bəxçalını Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, ANA VƏTƏN PARTİYASININ SƏDRİ MƏSUD YILMAZ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 13-də onun üçün ayrılmış iqamətgahda Camlı köşkdə Türkiyə Respublikası Baş nazirinin müavini, Ana Vətən Partiyasının sədri Məsud Yılmaz ilə təkbətək görüş keçirmişdir.

Dövlətimizin başçısını səmimi qəlbdən salamlayan, Türkiyəyə rəsmi səfərə gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Məsud Yılmaz Prezident Heydər Əliyev ilə hər bir görüşdən böyük şərəf duyduğunu nəzərə çarpdırdı.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə uğurla həyata keçirilən islahatların Türkiyədə böyük maraq doğurduğunu vurğulayan cənab Məsud Yılmaz xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsində Azərbaycan Prezidentinin böyük xidmətləri olduğunu bildirdi.

Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin hazırkı vəziyyətindən razı qaldığını vurğulayan Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Türkiyəyə bu rəsmi səfəri dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ açacaqdır.

Türkiyədə keçirdiyi görüşləri, apardığı danışıqları yüksək dəyərləndirən dövlətimizin başçısı Heydər Əliyev martın 12-də Çankaya köşkündə imzalanmış sənədlərin ölkələrimizin bir çox sahələrdə əlaqələrinin daha da sıxlaşdırılmasına güclü təkan verəcəyinə əmin olduğunu bildirdi.

Görüşdə ölkəmiz üçün ən ağrılı

problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, torpaqlarımızın 20 faizinin hələ də işğal altında olmasından, bir milyondan artıq vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşamasından və Prezident Heydər Əliyevin apardığı birbaşa danışıqlardan da bəhs edildi.

Söhbət zamanı ölkələrimizin iqtisadi, ticarət əlaqələrinin gələcəkdə daha da genişləndirilməsi və inkişaf etdirilməsinin vacibliyi vurğulandı, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirak etməsindən razılıqla bəhs olundu, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına hazırlıqla əlaqədar görülən işlər, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə müzakirələr aparıldı.

Prezident Heydər Əliyev cənab Məsud Yılmazı Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ANA VƏTƏN PARTİYASININ ÜZVÜ OLAN AZƏRBAYCANLILARLA GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 13-də onun üçün ayrılmış iqamətgahda Camlı köşkdə Türkiyə Respublikası Baş nazirinin müavini, Ana Vətən Partiyasının sədri Məsud Yılmazla təkbətək görüşdən sonra həmin partiyanın üzvü olan azərbaycanlılarla da görüşüb səmimi söhbət etdi.

Soydaşlarımız dövlətimizin başçısını səmimiyyətlə, mehribanlıqla salamladılar, görkəmli dövlət xadimi Heydər Əliyev ilə görüşdən şərəf duyduqlarını bildirdilər. Hazırda Qarsda yaşayan soydaşlarımız respublikamızın rəhbərinə məlumat verdilər ki, onlar əslən Gəncə şəhərindəndirlər.

Bu məlumatdan çox məmnun qaldığını vurğulayan Prezident Heydər Əliyev dedi ki, Gəncə ilə Qars əsrlərdən bəri çox yaxın olublar. Çünki Qarsda yaşayan insanların bir çoxu Gəncədən gəliblər.

Soydaşlarımız Prezident Heydər Əliyevin Qarsa səfərini həmişə tarixi bir hadisə kimi xatırladıqlarını nəzərə çarpdırdılar və dövlətimizin başçısına Qarsa yenidən gələcəyini səbirsizliklə gözlədiklərini bildirdilər. Onlar Qars və Ərzurum Universitetlərinin Prezident Heydər Əliyevi fəxri adlara layiq gördüklərini söylədilər.

Naxçıvanda yaşayarkən Qarsa səfər etdiyini vurğulayan respublikamızın rəhbəri, vaxt tapan kimi, Qarsa və Ərzuruma səfər edəcəyini bildirdi.

Görüşdə Ana Vətən Partiyasının sədri Məsud Yılmaz iştirak edirdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYİL CEM İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı, martın 13-də, onun üçün ayrılmış iqamətgahda Camlı köşkdə Türkiyə Respublikasının Xarici İşlər naziri İsmayıl Cem ilə təkbətək görüş keçirmişdir.

Ölkəmizin rəhbərini mehribanlıqla salamlayan, onunla yenidən görüşməkdən şərəf duyduğunu söyləyən İsmayıl Cem Prezident Heydər Əliyevin diqqət və qayğısı sayəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsindən çox məmnun qaldığını bildirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin liderliyi sayəsində beynəlxalq aləmdə özünəməxsus yer tutan gənc, müstəqil Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul olunması münasibətilə ölkəmizin rəhbərini təbrik edən cənab İsmayıl Cem bu tarixi hadisənin Türkiyədə də böyük rəğbətlə qarşılandığını nəzərə çarpdırdı.

Başəri dəyərlərə sadiq olan Azərbaycanın Avropa Şurasına qəbul edilməsinin xalqımızın həyatında həqiqətən tarixi hadisəyə çevrildiyini xatırladan Prezident Heydər Əliyev Türkiyənin bu sahədə rolunu və dəstəyini məmnunluqla qeyd etdi, ölkələrimizin Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda əlaqələrinin daha da möhkəmləndirilməsinin zəruriliyini vurğuladı.

Cənab İsmayıl Cem martın 12-də Çankaya köşkündə Azərbaycan və Türkiyənin dövlət başçılarının iştirakı ilə imzalanmış sənədlərin dost, qardaş ölkələrimiz arasında əlaqələrin sıxlaşdırılmasına yeni, güclü təkan verəcəyinə əmin olduğunu bildirdi.

Respublikamız üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, torpaqlarımızın 20 faizinin hələ də işğal altında olmasından, yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq vətəndaşımızın əksəriyyətinin çadırlarda ağır şəraitdə yaşamasından bəhs edən dövlətimizin başçısı münaqişənin həlli ilə əlaqədar ATƏT-in Minsk qrupunun fəaliyyətindən və aparılan birbaşa danışıqlardan ətraflı söhbət açdı.

Cənab İsmayıl Cem bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün Prezident Heydər Əliyevin ardıcıl səylərinin Türkiyə tərəfindən dəstəkləndiyini nəzərə çarpdırdı.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Türkiyə şirkətlərinin yaxından iştirakı, əsas ixrac boru kəmərinin inşasına hazırlıqla əlaqədar görülən işlər, "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixracı, regionda və beynəlxalq aləmdə vəziyyət, hər iki ölkəni maraqlandıran bir

sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

Respublikamızın rəhbəri Heydər Əliyev cənab İsmayıl Cemi Azərbaycana dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ÖMƏR İZGİ İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərin ikinci günü, martın 13-də Böyük Millət Məclisinə gəldi.

Böyük Millət Məclisinin sədri Ömər İzgi respublikamızın rəhbərini parlamentin binası önündə səmimiyyətlə, mehribanlıqla qarşıladı.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev ilə Türkiyə Böyük Millət Məclisinin sədri Ömər İzgi arasında görüş oldu.

Cənab Ömər İzgi dövlətimizin başçısı Heydər Əliyevin Türkiyəyə rəsmi səfərinin böyük uğurla keçməsindən məmnunluq duyduğunu vurğuladı.

Ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində müvəffəqiyyətlə həyata keçirilən islahatları, son illər respublikamızda baş vermiş müsbət dəyişiklikləri yüksək dəyərləndirən cənab Ömər İzgi Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv seçilməsi münasibətilə Prezident Heydər Əliyevi bir daha ürəkdən təbrik etdi.

Səmimi sözlərə və qonaqpərvərliyə görə cənab Ömər İzgiyə təşəkkürünü bildirən dövlətimizin başçısı Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin hazırkı vəziyyətindən razılıqla bəhs etdi, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsinin vacib olduğunu nəzərə çarpdırdı.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün aparılan danışıqlardan söhbət açan respublikamızın rəhbəri Heydər Əliyev Türkiyənin bu sahədə Azərbaycana göstərdiyi dəstəkdən razılıq etdi.

Görüşdə beynəlxalq aləmdə və regionda vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

Respublikamızın rəhbəri Heydər Əliyev görüşdən sonra parlamentin iclas salonuna gəldi. Böyük Millət Məclisinin deputatları Dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar.

Azərbaycan Prezidenti Heydər Əliyev Böyük Millət Məclisində geniş nitq söylədi.

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin hörmətli Böyük Millət Məclisi!

Hörmətli millət vəkilləri!

Hörmətli sədr!

Hörmətli xanımlar və cənablar!

Mən Sizi Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram, Sizə, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bütün gələcək işlərinizdə uğurlar diləyirəm.

Böyük Millət Məclisində yenidən Millət vəkillərinə xitab etmək imkanı aldığıma görə, mənə bu, nəsib olduğu görə çox xoşbəxtəm və buna görə təşəkkür edirəm. Siz bilirsiniz ki, Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri, hörmətli Əhməd Necdət Sezərin dəvəti ilə mən dünən Türkiyəyə rəsmi səfərə gəlmişəm. Türkiyəyə səfər etmək mənim üçün yeni bir şey deyildir. Ancaq hər dəfə Türkiyəyə gələndə özümü çox bəxtiyar hiss edirəm, özümü öz vətənimdəki kimi hiss edirəm, özümü qardaşlarımın arasında hiss edirəm.

Dünən və bu gün biz Türkiyə-Azərbaycan dostluğu, qardaşlığının və bu dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox səylər göstərdik, hörmətli Prezident cənab Əhməd Necdət Sezərlə, hörmətli Baş nazir cənab Büləvd Ecevitlə görüşlər keçirdik. Bu gün mən Baş nazirin müavinləri hörmətli Dövlət Baxçalı və hörmətli Məsud Yılmazla, Baş Qərargah rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə, Türkiyənin Xarici İşlər naziri hörmətli İsmayıl Cemlə də ayrıca görüşlər keçirdim. Bütün bu görüşlərimizin, danışıqlarımızın əsas məqsədi, yəni ana xətti Türkiyə-Azərbaycan əlaqələrini daha da yüksək səviyyəyə qaldırmaqdan ibarətdir.

Ötən illər bizim ölkələrimiz, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri artmaqda davam edir. Biz artıq Türkiyə-Azərbaycan strateji tərəfdaşlıq əlaqələri səviyyəsinə gəlib çatmışıq. Bu, dövlətlərarası əlaqələrdir. Ancaq xalqlarımız arasındakı əlaqələrin tarixi də çox böyükdür və onun qiyməti də bundan artıqdır. Çünki biz eyni köklərə mənsub olan xalqlarıq. Eyni milli-mənəvi dəyərlərə, eyni dilə, eyni dinə mənsub olan xalqlarıq. Biz hamımız bir kökdən gəlirik. Ona görə də bizim hamımızın fikri, zəkası bu köklərlə bağlıdır. Biz Azərbaycanda xalqlarımızın mənsub olduqları bu kökləri, milli-mənəvi dəyərləri yüksək qiymətləndiririk və bu dəyərlərə, bu tarixə daim sadiq olduğumuzu mən bir daha bəyan edirəm.

Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr yaranıbdır. Dediyim kimi, bu əlaqələr ilbəil inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə gəlib çatıbdır.

Bizim üçün, Azərbaycan üçün, gənc, müstəqil bir ölkə üçün bunun

çox böyük əhəmiyyəti vardır. Çünki biz tarixən Türkiyəyə bağlıyıq. XX əsrdə də, hələ Azərbaycanda Sovet hakimiyyəti qurulmazdan əvvəl də Türkiyə ilə bizim əlaqələrimiz çox sıx olubdur və çox anlarda biz bir yerdə olmuşuq. Sonra isə Azərbaycan dövlət müstəqilliyini əldə edəndə Türkiyə Azərbaycanın istiqlaliyyətini dünyada tanıyan ilk dövlət olmuşdur və Azərbaycana o vaxtdan daim dəstək vermişdir və dəstək verməkdə davam edir.

Biz 70 il bir-birimizdən ayrı düşmüşük. Biz Sovetlər Birliyində yaşamışıq, Türkiyə isə müstəqil dövlət olaraq öz yolu ilə gedib, inkişaf edibdir.

Hər xalqın, hər dövlətin özünəməxsus nailiyyətləri də var, itkiləri də. Ancaq Türkiyə o illərdə də bizim üçün həmişə cazibədar olmuşdur. O illərdə Türkiyə ilə birbaşa əlaqələrimiz olmasa da, biz həmişə Türkiyənin həyatını diqqətlə izləmişik, Türkiyəni sevmişik, qəlbimizdə saxlamışıq və Türkiyə ilə qovuşmaq arzusu ilə yaşamışıq və nəhayətdə, on il bundan öncə biz qovuşmuşuq.

XX əsrdə Osmanlı imperatorluğu dağıldıqdan sonra Türkiyə böyük, şərəfli bir yol keçibdir. Mən bu gün böyük məmnuniyyət hissi ilə bu məclisə, Böyük Millət Məclisinə xitab edirəm və Böyük Millət Məclisinin 80 illik tarixinə öz hörmət və ehtiramımı bildirirəm. 80 il... müstəqil dövlət, Türkiyə Cümhuriyyəti və Türkiyə Cümhuriyyətinin bütün həyatının məsələlərini həll edən Böyük Millət Məclisi...

Cümhuriyyət qurulandan sonra Türkiyə böyük yol keçmiş, inkişaf etmiş, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən biri olmuşdur. Güclü, qüdrətli dövlət, demokratik, hüquqi, dünyəvi dövlət olmuşdur. Dünyada özünəməxsus olan yerini tutmuşdur. Bunlar hamısı bizdə, Azərbaycanda, hər bir azərbaycanlıda böyük iftixar hissi doğurur. Eyni zamanda Türkiyənin Cümhuriyyət dövründə yaşadığı həyat bizim üçün örnəkdir, bizim üçün təcrübə mənbəyidir. Bunları deyərkən, təbiidir ki, Türkiyə Cümhuriyyətinin hansı ağır şəraitdə yarandığını unutmaq olmaz. Biz Azərbaycanda bunu yüksək qiymətləndiririk.

Bütün Türk dünyasının böyük şəxsiyyəti, böyük oğlu, bəşər tarixinin meydana çıxardığı ən böyük insanlardan biri Mustafa Kamal Atatürkün iradəsi ilə 1923-cü ildə yaranmış Türkiyə Cümhuriyyəti o qədər güclü təməl əsasında qurulub ki, artıq 72 ildir ki, Cümhuriyyət kimi yaşayır, inkişaf edir. Türkiyədə bunu hamı qiymətləndirir. Amma bilməlisiniz ki, biz qardaş, dost olaraq bunun qədrini bəlkə də Sizdən çox bilirik, bunu qiymətləndiririk.

Biz Azərbaycanda çox məmnunuq ki, türk xalqı, Türkiyə Cümhuriyyəti yaranandan Mustafa Kamal Atatürkün qoyduğu yolla gedib və bu yol da həmişə ona uğurlar gətiribdir. Məndən soruşanda ki, Böyük Atatür-

kün türk xalqına qoyub getdiyi irs nədən ibarətdir, mən deyirəm ki, bu irs o qədər böyükdür ki, hamısını əhatə etmək mümkün deyildir. Ancaq, ən böyük irs onun yaratdığı, qurduğu, yaşatdığı və bu gün uğurla yaşayan Türkiyə Cümhuriyyətidir. Eyni zamanda Böyük Atatürkün Türk Xalqına qoyduğu böyük irs qəhrəman, yenilməz Türk ordusudur. Türk əsgəridir. Məhz həm iqtisadi inkişafına görə, həm hərbi qüdrətinə, imkanlarına görə Türkiyə bu 70 ildə ən ağır, çətin dövrlərdən keçərək yaşayıb, inkişaf edib və Türkiyənin əleyhinə olan düşmən qüvvələrin hamısının qarşısını uğurla alıbdır.

Bu gün Türkiyənin tarixi haqqında Sizə çox söz deməyim, bəlkə də, qəribə gələr. Çünki Siz bunu məndən yaxşı bilirsiniz. Ancaq mən bunları ona görə söyləyirəm ki, Azərbaycan xalqının qəlbində olan hissiyyatları Sizə çatdırım və biləsiniz ki, Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə təkcə Türkiyə Cümhuriyyəti üçün deyil, bütün Türk dünyası üçündür, Azərbaycan üçündür.

Biz Türkiyənin bugünkü yüksək durumda olmasından çox böyük məmnunluq hissi duyuruq və hesab edirik ki, Türkiyə bundan sonra da qarşısında duran vəzifələrin hamısını uğurla həyata keçirəcəkdir və tutduğu yol ilə, demokratiya yolu ilə, insan haqlarının qorunması yolu ilə, hüquqi dövlət yolu ilə, bazar iqtisadiyyatı yolu ilə müvəffəqiyyətlə irəliləyəcəkdir.

Azərbaycan gənc, müstəqil dövlətdir. Siz bilirsiniz ki, 1918-ci ildə Azərbaycan ilk dəfə dövlət müstəqilliyini əldə etmiş, ancaq o vaxt o dövlətin yaşaması mümkün olmamış, 23 aydan sonra süqut etmişdir. Müstəqillik əldə etmək olar. Osmanlı imperatorluğu dağıldığı zaman Türkiyə Cümhuriyyəti yaratmaq mümkün oldu. Amma onu yaşatmaq, onu inkişaf etdirmək onun yaradılmasından da çətin idi. Siz bunu etmisiniz. Siz bunu etmisiniz ona görə ki, Siz Mustafa Kamal Atatürkün irsinə, vəsiyyətlərinə, onun qoyduğu yola sadiq olmusunuz.

Biz 70 ildən sonra, 1991-ci ilin sonunda Azərbaycanın müstəqilliyini elan etdik. Bu o zaman idi ki, Sovetlər Birliyi dağılırdı. Nəhayət, Sovetlər Birliyinin dağılması haqqında bəyanat verildi. Sovetlər Birliyinin daxilində olan 15 bərabər hüquqlu, müttəfiq respublikanın hər biri öz istiqlaliyyətini elan etdi. Azərbaycan da elan etdi.

Ancaq Azərbaycan öz istiqlaliyyətini elan edərkən çox ağır, çətin şəraitdə yaşayırdı. Ermənistan 1988-ci ildən, hələ Sovetlər İttifaqının daxilində olduğumuz zaman, Azərbaycana qarşı torpaq iddiası ilə çıxış etmiş, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı öz əlinə keçirməyə cəhd göstərmiş və nəticədə, sonra müəyyən uğurlar əldə etmiş, müharibə başlanmışdır. 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini elan edəndə torpaqlarının bir qismi artıq Ermənistan tərəfindən işğal olunmuşdu və ölkəmizdə müharibə gedirdi. Belə bir zamanda müstəqilliyi elan edəndən sonra onu qoruyub saxlamaq, təsəvvür edirsinizmi, nə qədər çətin, nə qədər də ağır bir iş olubdur. Bu illərdə biz çox böyük sınaqlardan keçdik, böyük təhlükələrdən qurtardıq. Ancaq müstəqilliyimizi qoruduq, saxladıq və möhkəmləndirdik. Amma Azərbaycanda bir söz var: gətirmədi. Yəni biz müstəqillik əldə edəndə Sovetlər Birliyinə daxil olmuş başqa cümhuriyyətlərdə sabitlik var idi. Amma bizdə sabitlik yox idi. Eyni zamanda, Ermənistanla da savaş var idi. Bunlar Azərbaycana çox böyük zərbələr vurdu.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəbləri də ondan ibarətdir ki, birincisi, Ermənistana daha çox yardım edildi. Sovetlər Birliyi zamanında, ondan sonra da bir neçə ölkədən, Erməni Diasporundan yardım edildi, amma Azərbaycana heç bir yardım olunmadı.

İkincisi, Ermənilər o zaman Dağlıq Qarabağı ələ keçirmək üçün daxildə olan bütün ziddiyyətləri aradan qaldırdılar. Hamısı bir ideya ətrafında - ermənicə buna "miatsum" deyirlər, yəni Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi, - birləşdilər. "Miatsum-miatsum" deyərək ermənilərin hamısı birləşdi. Amma Azərbaycanda, təəssüf ki, xalq birləşə bilmədi, hakimiyyət uğrunda mübarizələr getdi. 1988-ci ildən 1993-cü ilə qədər dörd dəfə hakimiyyət dəyişildi. Azərbaycanda bəzi siyasi qüvvələr silahlı dəstələr yaratdılar və bu silahlı dəstələrin hamısını səfərbər edərək cəbhəyə göndərmək, torpaqları müdafiə etmək əvəzinə, Azərbaycanın içərisində hakimiyyət mübarizəsi və ziddiyyətlər başladı. Bunlardan da Ermənistan çox məharətlə istifadə etdi.

Bunların hamısı son olaraq 1993-cü ilin İyun ayında Azərbaycanda vətəndaş müharibəsi yaratdı. Vətəndaş müharibəsi həm Azərbaycanın içərisində getdi, - çünki bu da Cümhurbaşkanı olmaq istəyir, o da Cümhurbaşkanı olmaq istəyir, o birisi də Cümhurbaşkanı olmaq istəyirdi, - ayrı-ayrı silahlı dəstələr bir-biri ilə vuruşmağa başladı. O biri tərəfdən isə Azərbaycanın bəzi bölgələrində bundan istifadə edərək separatçılar baş qaldırdılar. Məsələn, güney bölgəsində talışlar bir "Talış Cümhuriyyəti" yaradıb Moskvaya müraciət etdilər ki, biz Rusiyaya qatılmaq istəyirik. Yaxud da ki, Azərbaycanın quzeyində Ləzgilər vardır, onlar da bir Cümhuriyyət yaratmağa çalışdılar. Belə bir çətin vəziyyət, vətəndaş müharibəsi 1993-cü ilin iyun ayında meydana çıxdı.

Ancaq biz xalqımızı birləşdirə bildik və vəziyyətin öhdəsindən gəldik. Amma bununla da iş bitmədi. Ondan sonra, 1994-cü ildə, əllərində hələ silahlı dəstələr olan bəzi insanlar çevriliş etmək istədilər, - onda Prezident, Cümhurbaşkanı artıq mən

idim, - amma xalq qalxdı, buna imkan vermədi.

1995-ci ilin mart ayında yenə də bir silahlı dəstə, bizim Daxili İşlər nazirliyinin silahlı dəstəsi çevriliş etmək istədi. Onun da qarşısını aldıq. Təsəvvür edin, 1991-ci ilin sonunda biz istiqlaliyyət əldə etmişik, amma 1995-ci ilə qədər də hələ dövlət çevrilişi cəhdləri ilə rastlaşmışıq. Təbiidir ki, bunlar Azərbaycanın iqtisadiyyatına da zərər verdi və Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə imkanlar yaratdı. Nəticədə Azərbaycan torpaqlarının 20 faizi Ermənistan tərəfindən işğal olundu.

Bu ağır müharibə zamanı - 1994-cü ilin may ayında biz Ermənistanla atəşi dayandırmaq haqqında anlaşma imzaladıq. O vaxtdan yeddi ildir ki, atəş yoxdur. Amma barış da yoxdur. Biz məsələni barış, sülh yolu ilə həll etmək istəyirik. Ancaq ermənilər özlərinin üstünlüyündən, - yəni bizim torpaqlarımızı işğal edib-lər və işğal olunmuş torpaqlardan bir milyon azərbaycanlını zorla çıxarıblar, onlar çadırlarda yaşayırlar, təsəvvür edin, evini, eşiyini, hər şeyini itirmiş insan 7-8 il insan çadırda yaşasın, - istifadə edərək konstruktiv mövqe tutmurlar.

Doğrudur, beynəlxalq təşkilatlar qə-rarlar qəbul ediblər. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Qətnamələr qəbul edibdir ki, Ermənistan işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır. Amma Ermənistan bunu etmir.

ATƏT 1992-ci ildə Minsk Qrupu yaradıbdır. Türkiyə də Minsk Qrupunun tərkibindədir. Minsk Qrupu Ermənistan-Azərbaycan münaqişəsini sülh, barış yolu ilə həll etmək üçün yaradılıbdır. İndi Minsk Qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, bir də Fransadır. Onlar da indiyə qədər bir iş görə bilməyiblər. Yəni bir neçə təklif irəli sürüblər, biz onları qəbul etmişik, amma Ermənistan qəbul etməyibdir.

Biz dəfələrlə Amerika Birləşmiş Ştatlarına da, Rusiyaya da, Fransaya da, digərlərinə də demişik ki, Siz Ermənistana yardımlar edirsiniz. Amerika Azərbaycana embarqo qoyubdur.

Demişik ki, Siz Ermənistana yardımlar edirsiniz, Ermənistana Siz təsir edin ki, beynəlxalq hüquq normalarına tabe olsun, işğal edilmiş torpaqlardan çıxsın və biz Dağlıq Qarabağın da statusunu beynəlxalq hüquq normaları prinsipi əsasında həll edək. Ancaq onlar da bunu etmirlər.

Bilirsiniz ki, son vaxtlarda mən Ermənistan Prezidenti Koçaryanla bir çox görüşlər keçirmişəm. 15 görüş keçirmişəm, çünki bunu bizə məsləhət gördülər. Amerika da, Rusiya da, Fransa da, digərləri də məsləhət gördülər ki, Siz bir görüşün, bəlkə bu görüşlər bir şey verdi. İndi görüşürük, heç bir şey əldə etmək mümkün olmur. Amma eyni zamanda hər biri deyir ki, Ermənistan və Azərbaycan Prezidentləri hansı razılığa gəlsələr, biz onu dəstəkləyəcəyik. Amma razılığa gəlmək də mümkün deyildir. Çünki Ermənistan bizim torpaqlarımızı işğal edibdir, öz şərtlərini qoyur. Amma biz də o şərtləri qəbul edə bilmərik.

Biz bax, belə bir dövr yaşamışıq. Amma bütün bunlara baxmayaraq, biz 1995-ci ildə Azərbaycanda daxili sabitlik yaratdıq. Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələri aradan götürdük. Ətəkəsi təmin etdik və Azərbaycanda 1995-96-cı illərdən ictimai-siyasi sabitlik hökm sürür.

O vaxtdan ötən illər bizə imkan verdi ki, artıq Azərbaycanın iqtisadiyyatı ilə məşğul olaq. Çünki Azərbaycan öz dövlət müstəqilliyini elan edəndə bəyan edibdir ki, demokratiya yolu ilə gedəcək və biz bu yolla gedirik. Azərbaycan hüquqi dövlət quracaq - biz hüquqi dövlət qururuq. Azərbaycanda vicdan azadlığı, söz azadlığı, mətbuat azadlığı təmin olunacaq biz bunu etmişik. Azərbaycan dünyəvi dövlət olacaq - biz bunu bəyan etmişik. Bu yolla gedirik, bu yoldan da heç vaxt dönməyəcəyik.

Mən Sizə iki şeyi demək istəyirəm. Birincisi, Azərbaycan öz müstəqilliyini bundan sonra heç vaxt əldən verməyəcək və ikincisi, tutduğu yol ilə, demokratiya yolu ilə, hüquqi dövlət, dünyəvi dövlət qurmaq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə irəliləyəcəkdir. Belə çətin, ağır bir vəziyyətdə biz 1996-cı ildən Azərbaycanda iqtisadiyyatı inkişaf etdirməyə başladıq. Sizin vaxtınızı alıb rəqəmlər göstərmək istəmirəm. Ancaq bizim həyata keçirdiyimiz islahatlar - iqtisadi islahatlar, hüquqi islahatlar, sosial islahatlar, siyasi islahatlar, özəlləşdirmə, bunlar hamısı birlikdə Azərbaycanda iqtisadiyyatın inkişafını təmin edibdir. Əgər 1996-cı ilə qədər Azərbaycanda iqtisadiyyat il-bəil aşağıya düşürdüsə, enirdisə, yəni hər il keçən ildəkindən aşağıda olurdusa, 1996-cı ildən hər il qalxır.

Biz Azərbaycanın neft strategiyasını yaratdıq. Bilirsiniz ki, 1994-cü ildə Azərbaycan böyük bir müqavilə imzaladı və o müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının - "Azəri", "Çıraq", "Günəşli" yataqlarının 11 şirkət ilə birlikdə işlənilməsinə başladıq. Bu, dünyada çox böyük əks-səda yaratdı və buna "Əsrin Müqaviləsi" adı verdilər. Biz bu işə başladıq, biz artıq 1997-ci ildə neft hasil etdik. İndi onu Bakı-Supsa neft borusu ilə Qara dəniz sahilinə, Gürcüstanın Supsa limanına, bir də Rusiyanın Novorossiysk limanına ixrac edirik.

Ancaq biz o vaxt müqaviləni imzalayanda əsas ixrac borusu kimi Bakı-Ceyhan nəzərdə tutmuşduq. Ötən illərdə biz bu barədə işlər görmüşük. Bilirsiniz ki, artıq bütün anlaşmalar imzalanıbdır və Bakı-Tbilisi-Ceyhan neft borusunun indi inşası başlanır. Yəqin ki, beş-altı ay tayiha-mühəndis işləri gedəcək, ondan sonra inşaat başlayacaqdır. Dediyim həmin neft yatağından, yalnız oradan gələcəkdə 60 milyon ton neft hasil olunub ixrac ediləcəkdir.

Türkiyə bu məsələdə həmişə bizimlə bərabər olubdur. Birincisi, Bakı-Ceyhan neft borusu həm iqtisadi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən Türkiyə üçün də, bizim üçün də önəmli olubdur. Çünki bu amillər strateji nöqteyi-nəzərdən bir-birinə bağlı olubdur. Amma birinci müqavilə imzalananda orada Türkiyənin payı çox az idi - 1,75 faiz. Sonra Türkiyə dedi ki, bizim payımızı artırın. Hörmətli xanım Tansu Çillər mənə o vaxtlar bu barədə müraciət etdi, heyət göndərdi. Mən qərar qəbul etdim, Azərbaycanın payından 5 faiz Türkiyəyə verdik.

Amma bununla da iş bitmədi. Sonra ikinci müqavilə. "Şahdəniz" yatağı var. Biz bilirdik ki, orada çoxlu qaz ehtiyatı var, amma bu qədər olduğunu bilmirdik. Bir müqavilə imzaladıq. Mən onda Türkiyəni dəvət etdim. Dedim, gəlin, burada sərmayə qoyun, 10 faiz də siz götürün. Həmin o müqavilədə Türkiyənin 10 faiz payı var. Ondan sonra yenə iki müqavilədə Türkiyənin böyük payı var. 1994-cü ildə olan 1,75 faiz paydan mən Türkiyənin payını 35 faizə qaldırdım. İndi "Türk petrolları" Azərbaycanda işləyən böyük bir neft şirkəti olubdur.

Türkiyə Azərbaycana təxminən 460 milyon dollara qədər sərmayə qoyubdur. Amma birinci müqavilədəki həmin 6,75 faiz payından 160 milyon dollar gəlir alıbdır. Biz hələ təzə-təzə gəlir almağa başlamışıq və gəlir alınacaqdır.

Beləliklə, indi Azərbaycanda neft strategiyası çox yüksəklərə qalxıbdır. 20 müqavilə imzalanıbdır. Bunların hamısı üçün təxminən 60 milyard dollar sərmayə qoyulacaqdır və nə qədər neft, nə qədər qaz alınacaq - indi bunu demək mümkün deyildir. Çünki əgər biz "Şahdəniz" yatağından təxminən 400 milyard kubmetr qaz almaq istəyirdiksə, indi onun ehtiyatı 1 trilyon kubmetrdən artıq olubdur. Ona görə də indi Azərbaycan təkcə neft yox, həm də təbii qaz ölkəsidir.

Biz düşündük, bu qazı nə edək? Qazı da Türkiyəyə ixrac etmək lazımdır. Çünki birincisi, Türkiyənin buna ehtiyacı var, ikincisi, "Şahdəniz" yatağında Türkiyənin payı var. Ona görə də Türkiyəyə ixrac etmək lazımdır. Mən məmnunam ki, bizim apardığımız işlər artıq sona çatdı. Biz dünən anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqqında anlaşma ki, Azərbaycanın qazı yenə də Gürcüstan üzərindən Türkiyəyə gələcəkdir. İlkin anlaşmaya əsasən, 6 milyard kubmetr qaz gələcəkdir. Amma sonra bunu 15-20 milyard kubmetrə qaldırmaq olar.

Mənə vaxtilə deyirdilər ki, Türkiyənin 50 milyard kubmetr qaza ehtiyacı var. İndi bunun böyük bir hissəsini Azərbaycan təmin edəcəkdir. Təbiidir ki, Azərbaycan bundan gəlirlər götürəcəkdir. Türkiyə özünə məxsus paydan gəlirlər götürəcəkdir. Amma eyni zamanda Türkiyənin eh-

tiyacları təmin olunacaqdır. Bu, bizim neft strategiyamızın nəticəsidir və Azərbaycana artıq son beş ildə təxminən 6 milyard dollar sərmayə qoyulubdur. Bilirsiniz, bəlkə Sizin üçün 6 milyard dollar bir şey deyildir. Çünki Sizin ölkəniz böyükdür. Amma əgər bizim büdcəmiz 850 milyon dollardan ibarətdirsə, təsəvvür edin, 6 milyard dollar sərmayə Azərbaycan üçün nə qədər böyük bir işdir! Bunun 50 faizi enerji sektoruna qoyulubdur. Amma 50 faizi isə başqa sektorlara qoyulubdur.

Bizim iqtisadiyyatın inkişaf etdirilməsində islahatların mühüm rolu oldu. Biz torpaqları kəndlilərə payladıq. İndi kənd təsərrüfatı məhsulları sahəsində - ət, süd, yağ - bizim problemimiz yoxdur. Kəndli özü bilir nə edir və məhsul da artır. Özəlləşdirmə keçirdik. Bütün ticarət özəlləşdirildi. Başqa sahələrin çoxu özəlləşdirildi. İndi böyük fabriklər, zavodlar özəlləşdiriləcəkdir.

İndi Azərbaycanda ticarətin 98 faizi özəl sektora məxsusdur. Kənd Təsərrüfatı istehsalının 98 faizi özəl sektordadır. Sənaye istehsalının 40 faizi özəl sektordadır.

Nəqliyyatda yük daşımalarının təxminən 60 faizi özəl sektordadır. Biz birinci beş ili itirdik, çünki bu işləri görə bilmədik. Amma son beş il içərisində irəlilədik və bunun nəticəsində bizim iqtisadiyyatımız inkişaf etdi.

Məsələn, keçən ilin, 2000-ci ilin göstəricilərini götürsək, ümumi daxili məhsul 11 faiz artıbdır. O cümlədən Kənd Təsərrüfatı məhsulları istehsalı 9 faiz, sənaye istehsalı təxminən 6 faiz artıbdır. Əgər keçmişdə istehsal ildə 20-25 faiz azalırdısa, indi biz beş ildir ki, onu ilbəil artırırıq. Amma Azərbaycanın potensialı böyükdür. Əgər biz torpaqlarımızı işğaldan azad etsək, bir milyon qaçqını, köçkünü yerlərinə qaytara bilsək və bu müharibə şəraitindən qurtula bilsək, Azərbaycanın iqtisadiyyatı çox inkişaf edəcəkdir. Türkiyənin yaxın dostu, qardaşı kimi Azərbaycan bütün sahələrdə daim

Türkiyə ilə bir olacaqdır, əlaqədə olacaqdır.

Türkiyə-Azərbaycan Müştərək İqtisadi Əlaqələr Komissiyası var. Mən o komissiyaya daxil olan nazirlərin hamısını buraya gətirmişəm. Onlar bu gün səhər böyük bir toplantı keçirdilər. Aldığım bilgilərə görə, çox yaxşı toplantı olubdur. Sahəb istanbulda iş adamları ilə görüşəcəklər. Orada da bizim iqtisadi əlaqələrin, yəni özəl sektorla olan iqtisadi əlaqələrin nə yolla, nə cür inkişaf etdirilməsi məsələlərinə baxacaqlar.

Ancaq mənim Sizə dediklərim həyatımızın müsbət cəhətləridir. Amma mənfi cəhətlər də çoxdur. Ən mənfisi odur ki, biz hələ ki, insanların hamısının yaşayışını lazımi səviyyəyə qaldıra bilməmişik. Bizdə yoxsullar da, çox ağır maddi vəziyyətdə yaşayan insanlar da var. Bazar iqtisadiyyatı eyni zamanda bizim cəmiyyətdə təbəqələşdirmə əmələ gəti-

ribdir. Bəziləri zənginləşib, bəziləri orta səviyyədə yaşayır. Amma bəziləri çox ağır vəziyyətdə yaşayırlar. Bizim qarşımızda duran vəzifə bu məsələni həll etməkdir. İnanıram ki, biz bunları edirik və edəcəyik.

Biz bütün əlaqələrimizdə Türkiyə ilə birlikdəyik. Türkiyə bizim üçün həm dostdur, həm qardaşdır, həm dayaq nöqtəsidir, həm də arxadır. Bilirsiniz ki, bizim Qafqaz bölgəsində vəziyyət çox yaxşı deyildir. Çünki biz, Azərbaycan qonşu Ermənistanla savaşdayıq. Digər qonşularımızla münasibətlərimizdə çox problemlər var. Ona görə dünyada bizim bir nömrəli müttəfiqimiz, bir nömrəli dostumuz Türkiyədir. Bizim Türkiyənin köməyinə ehtiyacımız var. Yəni iqtisadi nöqteyi-nəzərdən bizim problemimiz yoxdur. Bu işlər ilbəil gedir və gedəcəkdir. Ancaq siyasi nöqteyi-nəzərdən, strateji nöqteyi-nəzərdən və Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması baxımından Türkiyənin yardımına çox ehtiyacımız var. Mən dünən də, bu gün də apardığım danışıqlarda vəziyyəti açıq şəkildə dedim.

Mən son dəfə Parisdə Ermənistan Prezidenti ilə görüşdüm. Sonra biz - Şirak, Koçaryan və mən birlikdə görüşdük, bəzi variantlara baxdıq. Amma biz o variantların heç birisini qəbul edə bilmirik. Bu, təkcə Azərbaycan üçün deyil, Türkiyə üçün də böyük təhlükədir, bütün Qafqaz üçün də təhlükədir. Ona görə də Minsk qrupunun üzvü kimi, eyni zamanda bizim dostumuz, qardaşımız kimi Türkiyə ilə birgə fəaliyyətdə olmalıyıq.

Bəzi ölkələrin onlara etdiyi yardıma, dəstəyə görə, diasporunun güclü olduğuna görə, son vaxtlar ermənilər, - bizdə bir söz var, - artıq çox qudurublar. Bilmirəm, sizdə bu söz var, yoxsa yox?

Yerdən səslər: Bəli, var.

Heydər Əliyev: Var. Məsələn, Fransanın Parlamentində Türkiyənin onlara qarşı "Soyqırımı" haqqında qərar çıxarıblar. Yaxud da, Amerikanın Parlamentində Klintonun dövründə bu məsələ iraliyə gedirdi. Hakimiyyət dəyişdiyinə görə bir az dayandı. Başqa ölkələrin, İtaliyanın Parlamentində qərar çıxarıblar. Biz bunların hamısına etirazımızı bildirmişik. Mən hər dəfə bəyanatlar vermişəm. Azərbaycanın Parlamenti - Milli Məclisi Bəyanatlar veribdir. Fransanın son qərarı bizi çox hiddətləndirdi, narahat etdi. Ona görə də biz Bəyanatlar verdik, etirazımızı bildirdik.

Mən Parisdə olarkən Fransanın Prezidenti Jak Şirakla təkbətək görüşəndə ona öz etirazımı bildirdim. Dedim, Siz nə edirsiniz, bunu nə üçün edirsiniz? Sonra mətbuat konfransında ona sual verdilər. O da dedi ki, Prezident Heydər Əliyev bu barədə öz narazılığını, narahatlığını, etirazını mənə bildiribdir. Ancaq bu, təkcə məndən asılı olan bir şey deyildir, Parlamentin işidir, filandır. Doğrudan da o mənə təkbətək görüşdə deyib ki, 20 ildir Türkiyənin dostuyam. Bu, mənim əlimdən gəlmir, yəni bunun qarşısını ala bilmirəm. Nə qədər səmimidir, səmimi deyil, bilmirəm. Amma o, bu sözləri mənə dediyinə görə, mən də Sizə çatdırıram. O, bu sözləri mənə deyibdir.

Məsələn, Strasburqda biz Avropa Şurasına qəbul olunanda orada soyqırımı haqqında sual verdilər. Sualı Azərbaycan qəzetçisi vermişdi. Koçaryan buna anlaşılmaz cavab verdi. Mən isə dedim, Fransa böyük dövlətdir, istədiyi qərarı çıxara bilər. Amma Türkiyə də böyük dövlətdir. İndiki zamanda heç bir dövlətin başqa dövlətin daxili işlərinə qarışmaq haqqı yoxdur. Fransa bunu nə üçün edir? Fransa Beynəlxalq hüquq normalarını pozur.

Mətbuat Konfransında Koçaryan dedi ki, biz indi Avropa Şurasındayıq, demokratiyadayıq. Ona görə bu, mümkündür.

Mən ona cavab verdim, dedim ki, bilirsiniz, birincisi, mümkün deyildir. İkincisi, əgər Siz hesab edirsiniz ki, 85 il bundan öncə guya Türkiyə ermənilərə qarşı soyqırımı edibdir - amma etməyibdir - o vaxt nə Avropa Şurası var idi, nə də demokratiya var idi. O vaxt olan şeyləri bu günün meyarları ilə ölçmək olmaz. Mən ona belə cavab verdim. Yəni biz Türkiyənin yanındayıq, Türkiyə ilə bir yerdəyik. Amma eyni zamanda mən bunu da bildirmək istəyirəm ki, bu qərarların Türkiyə üçün heç bir təhlükəsi yoxdur. Heç narahat olmayın. Türkiyə böyük dövlətdir. Türkiyənin güclü ordusu var.

Bilirsiniz ki, 1921-ci il Qars anlaşması var, onu Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan imzalayıblar və o anlaşmanın 80 ili tamam olur. Bu gün mənə məlumat veriblər, Ermənistanda bəzi daşnaklar məsələ qaldırırlar ki, Qars anlaşmasını ləğv etmək lazımdır. Türkiyənin doğu hissəsi Ermənistanındır, Ermənistana verilməlidir. Naxçıvan Ermənistana verilməlidir və sair. Yəni onlar bəzi yerlərdən dəstək aldıqlarına görə bu cür yollara gedirlər. Belə bir zamanda biz daha da birləşməliyik, daha da bir yerdə olmalıyıq, bunların hamısına lazımi cavablar verməliyik.

Biz hesab edirik ki, ermənilərə qarşı heç bir soyqırımı olmayıbdır. Amma ermənilər həm Türkiyədə, həm də Azərbaycanda soyqırımı ediblər. 1918-ci ildə ermənilər Azərbaycanda azərbaycanlıları qırırdılar. Əgər o vaxtlar Kazım Qarabəkir Paşa Naxçıvana gəlməsəydi, Türkiyənin Qafqaz Ordusu Bakıya gəlməsəydi, bəlkə də, ermənilər azərbaycanlıların hamısını soyqırımı ilə yox edəcəkdilər. Həqiqət budur. Gəlin, biz açıq danışaq. Biz bu tarixi dünyaya çatdıra Bilmirik, amma onlar edirlər.

İndi dost söhbəti edirik, bəlkə də Sizin vaxtınızı alıram. Məsələn, Şirak mənə nə dedi? dedi ki, bilirsiniz, burada, Fransada 600-700 min erməni yaşayır. Onlar Fransa Parlamentinin qarşısında çadır qurublar,

oraya gələn parlament üzvlərini o qədira dartırlar. Onlar da kimlərdən səs almaq istəyirlərsə, - bu yaxınlarda seçki olacaqdır, - o adamlarla danışırlar. Sonra da gedib "Soyqırıma" səs verirlər. Ancaq o, mənə dedi ki, Fransada çoxlu Türk də vardır, olduqca çoxdur. Amma türklər heç bir şey etmirlər.

Amerikada erməni diasporu var. Görürsünüz, onlar hər dəfə həm Azərbaycan, həm də Türkiyə məsələsini Konqresdə qaldırırlar. Amma Amerikada nə qədər türk var. Bəs, niyə birləşmirlər? Bizim xalqlarımızın bir çatışmayan cəhəti ondan ibarətdir ki, gücümüzü birləşdirmirik. Biz bu məsələlərdə irəliyə düşmürük. Onlar isə irəliyə düşür və dünyanı, ictimaiyyəti aldadırlar.

Amma bunlara baxmayaraq, hesab edirəm ki, haqq-ədalət bizim tərəfimizdədir. Türkiyənin tərəfindədir, Azərbaycanın tərəfindədir və bundan sonra da belə olacaqdır. Sadəcə, biz bu hadisələrdən nəticə çıxarmalıyıq və gücümüzü artırmalıyıq, təbliğatımızı artırmalıyıq və dövlətlərimizi qorumalıyıq. Burada yenə də Türkiyə, Türkiyə, Türkiyə öndədir.

Əziz dostlar!

Biz Azərbaycanda türkdilli dövlətlərin tarixinə, Türkiyənin tarixinə, Azərbaycan-Türkiyə əlaqələrinin tarixinə böyük əhəmiyyət veririk. Xüsusən Böyük Atatürkün irsinin öyrənilməsinə, araşdırılmasına, elmi cəhətdən tədqiq edilməsinə çox böyük önəm veririk. Təbiidir ki, bu barədə Türkiyədə çox işlər görülübdür. Amma hesab edirəm ki, Böyük Atatürkün yaratdığı və bugünkü nəsillərə, gələcək nəsillərə qoyduğu irs elə böyük xəzinədir ki, bu araşdırmalar hələ yüz il bundan sonra da getsə, onun hamısını elm, kitab vasitəsilə, başqa yollarla meydana çıxarmaq mümkün olmayacaqdır. Ona görə də mən fərman vermişəm və Azərbaycanda Atatürk irsinin və türk xalqlarının tarixinin araşdırılması üçün yeni bir mərkəz yaratmışam. Bu mərkəzin Fəxri Prezidenti Azərbaycan Prezidentidir.

Güman edirəm ki, biz bu sahədə də imkanlarımızı birləşdirməliyik.

Azərbaycanda çox böyük alimlər var, Türkiyədə çox böyük alimlər var. Onlar öz səylərini, güclərini birləşdirməlidir. Biz bundan sonra da Türkiyənin, Azərbaycanın tarixi, Türkdilli Dövlətlərin tarixi haqqında və xüsusən, Atatürkün irsi haqqında daha böyük əsərlər yaradıb bugünkü nəsillərə və gələcək nəsillərə çatdırmalıyıq.

Əziz dostlar!

Mən çox məmnunam ki, bu gün mənə bu kürsüdən xitab etmək nəsib olubdur. Bu, mənim üçün ən xoşbəxt günlərdən, dəqiqələrdən biridir. Çünki Türkiyənin Böyük Millət Məclisi keçmişdə də bizim hafizəmizdə ən yüksək bir qurum kimi qalıbdır. Mən gənc vaxtlarımda Türkiyənin Böyük Millət Məclisi haqqında kitablarda oxuyurdum. Heyranlıqla oxuyurdum, eyni zamanda düşünürdüm ya Rəbb, mən nə vaxtsa bunu görəcəyəm, yoxsa, yox? Amma mən bunu gördüm. 1997-ci ildə mən burada, Sizin qarşınızda xitab etdim. İndi mənə Siz yenə bu imkanı verdiniz. Bunlara görə təşəkkür edirəm.

Bizim parlamentlərarası əlaqələr inkişaf etməlidir. Biz bu barədə hörmətli sədrlə söhbət etdik. Mən onu və Böyük Millət Məclisinin nümayəndə heyətini Azərbaycana dəvət etdim.

Azərbaycan Milli Məclisinin sədri də buraya dəvət olunubdur. O da gələcəkdir. Yəni bu imkanlardan da istifadə etmişik və istifadə edəcəyik.

Bir sözlə, Türkiyə-Azərbaycan dostluğu əbədidir, sarsılmazdır. Azərbaycan xalqı bu dostluğu, bu qardaşlığı yüksək qiymətləndirir və bunu özü üçün ən önəmli bir hal hesab edir. Biz bu dostluğa sadiq olacağıq. Biz həmişə Sizinlə bir yerdə olacağıq. İnanıram ki, Siz də həmişə Azərbaycanla bir yerdə olacaqsınız, Azərbaycanın təklənməsinə yol verməyəcəksiniz. Azərbaycanın ağır problemlərinin həlli, xüsusən Azərbaycanın Ermənistan işğalından qurtulması üçün öz imkanlarımızdan istifadə edəcəksiniz. Mən Sizə bir daha təşəkkür edirəm və deyirəm:

Yaşasın Türkiyənin Böyük Millət Məclisi!

Yaşasın Türkiyə Cümhuriyyəti!

Yaşasın Böyük Atatürkün yolu ilə gedən Türk Xalqı, Türkiyə Cümhuriyyəti!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATLARI İLƏ GÖRÜŞÜ

Azərbaycan Prezidenti Heydər Əliyev martın 16-da öz iqamətgahında - Camlı köşkdə Türkiyə Böyük Millət Məclisinin deputatları Əli Günər, Aslan Haydar və Osman Gəzəgərlə görüşdü.

Dövlətimizin Başçısı millət vəkillərini səmimiyyətlə salamladı.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən **Əli Günər** dedi:

- Hörmətli Cümhurbaşkanım, Sizi görməkdən hədsiz məmnunuq və çox şadıq. Biz bu görüşdən böyük şərəf duyur, daha da sevinirik. Allah Sizi başımız üstündən əsirkə etməsin.

Mən bir neçə dəfə Bakıya gəlmişəm. Siz Naxçıvanda olan zaman da bizim əlaqələrimiz var idi. Mən Böyük Millət Məclisində İğdırdan seçilmiş millət vəkiliyəm. Aslan bəy də Qarsdan seçilmiş millət vəkilidir.

Heydər Əliyev: Sən Qars millət vəkilisən?

Aslan Haydar: Bəli.

Əli Günər Cənab Prezident, İldırım Turan bizim Bələdiyyə Başkanımız idi. Həsən İpək də işləyir.

Heydər Əliyev: Həsən İpək kaymakam idi.

Əli Günər Bəli, onda kaymakam idi. Sonra İzmirdə Vali müavini ol-

du. Osman bəy də buradadır.

Heydər Əliyev: Osman bəy Qarsda əmniyyət müdiri idi.

Əli Günər: Bəli. Sonralar o, Bakıda oldu.

Aslan Haydar: Hörmətli Cümhurbaşkanım, mənim atam Borçalıdandır. Görüşümüzdən çox məmnun oldum. Siz həmişə fəxr etdiyimiz, iftixar duyduğumuz insansınız. Azərbaycanın ayaq üstə möhkəm durması millət vəkili kimi bizləri və Türkiyə Cümhuriyyətini məmnun edəcəkdir. Biz hər yerdə söyləyirik ki, əgər Sizin barmağınız qanasa, bizim ürəyimiz qanayar. Onun üçün də bizlər Sizin əmrinizi gözləyirik, canla-başla hazırıq. İğdırla Qars bir-biri ilə bağlıdır, İğdır Qarsdan ayrılmışdır.

Əli Günər: Atamız qarsdır.

Aslan Haydar: Bəli. Oradakı problemimiz, Şərq qapısının problemi Azərbaycanın da problemi olduğu üçün, biz qapının açılmasına yol verə bilmərik. Həqiqətən Azərbaycanın, bizim soydaşlarımızın torpaqları işğaldan azad edilməyincə, o qapının açılmaması üçün əlimizdən gələn hər şeyi edəcəyik. Bunun üçün çalışırıq. Bu fikirləri Sizin Ankara Universitetindəki məzmunlu nitqinizdə də duyduq. Amma şəxsi fikrim kimi söyləyirəm. Türk dənizi içində ada olan bir ovuc erməni, hesab edirəm ki, bir gün daşan dənizin içində boğulacaqdır. Mən proqramı pozub çıxışımı uzatmaq istəmirəm. Biz ancaq söhbət etmək vəsiləsi ilə buraya gəldik. İnşallah, gələcək günlərdə yenidən görüşəcəyik. Bizə əmirləriniz olsa, hazırıq. Bütün soydaşlarımıza, qardaşlarımıza Sizin şəxsinizdə hörmət və məhəbbətimizi bildiririk. Çox təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Türkiyə Azərbaycanın qardaşıdır. Azərbaycan da Türkiyənin qardaşıdır. Siz Böyük Millət Məclisində var idiniz. Mən orada bütün bu sözləri demişəm. Təkrar etməyə ehtiyac yoxdur. Amma Türkiyənin doğu hissəsində - Qars, İğdır, Ərzurum və başqa şəhərlərdə - Azərbaycandan köçmüş adamlar çoxdur. Orada yerli adamlar da elə azəri soyköklüdürlər. Ancaq Azərbaycandan da köçmüş adamlar çoxdur. Mən bunlara təkcə Qarsda, İğdırda rast gəlmirəm. Onlar İstanbulda da, Ankarada da, başqa yerlərdə də çoxdur. Hətta Avropada da var. Məsələn, mən Brüsseldə getmişdim. Orada məni qarşılamağa çox azərbaycanlılar gəldi. Onların 90 faizi İğdırdan idi. Yaxud İsveçrədə, Avropanın başqa yerlərində də var.

Sizin bölgə Türkiyənin çox önəmli bir bölgəsidir. Çünki indi erməni problemi haqqında danışanda, ermənilər hesab edirlər ki, guya o torpaqlar onlarınkıdır, vaxtilə guya soyqırımı edəndə erməniləri orada qırıblar, oradan qovublar. Bunları Siz bilirsiniz. Bilmirəm, indi Qarsa, İğdıra neçə, amma bilirəm ki, keçmişdə Fransadan, filandan Ərzuruma çoxlu turist gələrdi. Onlar qayıdanda oradakı qəbirlərin, guya erməni

qəbirləri olduğunu deyərdilər. Sonra Qarsda Ani adlı yer var. Bilirsiniz. Ermənilər hesab edirlər ki, guya ora onların qədim paytaxtıdır. Ona görə siz bu barədə cəbhənin önündəsiniz. Təbiidir ki, öz vəzifələrinizi yerinə yetirməlisiniz.

Mən bunu bir neçə dəfə açıq demişəm, son vaxtlar Avropa ölkələrində "soyqırımı" haqqında qəbul olunan qərarlara görə hiss etdik ki, burada, Türkiyədə ermənilərə qarşı bir az yumşalma əmələ gəlibdir. Ancaq mən Bakıda da dedim, buradakı görüşlərimdə də dedim. Qars qapısının açılması, o biri qapının açılması məsələsi yeni bir şey deyildir. Bunu hələ bir-iki-üç il bundan öncə hörmətli dostum Süleyman Dəmirəl mənə söyləmişdi.

Deyir ki, mən Qarsa getmişdim. Orada gəlib mənə deyirlər ki, Siz bu qapını açın, biz ticarət edək. Özü də mənə dedi ki, bunların hamısı azərilərdir. Mən də dedim ki, Siz qəpik-quruşdan ötrü bizim böyük bir siyasətimizi pozmaq istəyirsiniz. Süleyman Dəmirəl də, digərləri də dəfələrlə demişdilər. Bu dəfə mən yenə görüşdüm - Cümhurbaşkanı Əhməd Necdət Sezər, Baş nazir Büləndd Ecevit, başqaları, hamısı deyir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çıxmayınca, Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə ola bilməz. Yəni nə ticarət ola bilər, nə diplomatik əlaqələr ola bilər, nə də sərhədlər açıla bilər. Ona görə də siz sərhəddəsiniz, bu məsələdə çox bərk durun. Çünki orada bəzi adamlar anlamırlar. Bilirsiniz, onların başını pul daha da qatır. Onlar dövlət adamlarına deyirlər ki, qapını açın, nə üçün qapını açmaq istəmirsiniz? Bilirsiniz ki, İğdırda da bir qapı var. Bəziləri orada demişdilər ki, qapını açın. Ancaq belə ola bilməz. Mən bilirəm ki, bu, ola bilməz.

Ziyarətim zamanı apardığım bütün danışıqlarda biz bir daha eyni fikirdə olduq ki, bu, ola bilməz. Biz - Türkiyə və Azərbaycan gərək birlikdə, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmasını təmin edək. Azərbaycanın torpaq bütövlüyünü təmin edək. Öz torpaqlarından zorla çıxarılmış bir milyondan artıq azərbaycanlı doğma yerlərinə qayıtmalıdır. Ondan sonra, təbiidir, başqa məsələlər də ola bilər. Türkiyə ilə Ermənistan arasında qapı da açıla bilər, sərhəd də açıla bilər.

Türkiyənin Ermənistanla böyük sərhədi var. Əgər bu sərhəd açıq olsaydı, ermənilər həm Türkiyə ilə, həm də başqa yerlərlə ticarət edə bilsaydilər, onlar belə çətin iqtisadi vəziyyətdə olmazdılar. İndi onların Mehri bölgəsində İranla kiçik, 42 kilometrlik sərhədləri var. Oradan böyük ticarət edirlər.

Mənim xatirimdədir, Ermənistanın keçmiş Prezidenti Ter-Petrosyan bir neçə dəfə demişdi ki, əgər İran ilə Ermənistan arasındakı o qapı iki gün bağlansa, Ermənistan boğulacaqdır.

İndi görün, bunun nə qədər böyük əhəmiyyəti var. Ermənistanda iqtisadiyyat çox pisdir, vəziyyətləri ağırdır. İnsanların çoxu oradan çıxıb gedir. Özlərinə başqa ölkələrdə - Rusiyada, Avropada, Amerikada yer axtarırlar. Heç vəhclə, heç vaxt imkan verməк olmaz ki, burada Türkiyə onlarla hansısa bir əlaqədə olsun. Yenə deyirəm, Siz orada cəbhənin önündəsiniz və millət vəkilisiniz, Sizin səsiniz var. Siz bu səsinizdən istifadə etməlisiniz.

Aslan Haydar: Hörmətli Cümhurbaşkanım, vaxtımız keçir, amma bir şey söyləməк istəyirəm. Səlcuq sultanı Alp Arslanın dövründən ermənilər türkün gücünü bilirlər. Sizin dediyiniz kimi, biz Qarsdayıq. İğdır, Qars, Ərdahan, Ərzurum Ermənistan ilə sərhəddə yerləşir.

Ümumiyyətlə, Azərbaycanda, Qarabağda, Xocalıda daim soyqırıma məruz qalan türklər olmuşlar. Biz bunların araşdırılması üçün Böyük Millət Məclisinə təkliflər verdik, müzakirələr apardıq. İndi vaxtın azlığından tam söyləyə bilmirik. Amma biz Böyük Millət Məclisində bunu təfərrüatı, tarixi faktlarla hazırladıq, sübut etdik və Allah nəsib edərsə, bütün dünyaya çatdıracağıq. Bir ovuc erməni türk millətinin tayı deyildir. Amma bir atalar misalı var: oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Onlar tarix boyu belə olublar. Fürsət düşən kimi, dünyaya car çəkirlər. Ona görə də, buyurduğunuz kimi, biz bunları bilən insanlarıq.

Sizin siyasi təcrübənizə də bələdik. Allah Sizi üstümüzdən əskik etməsin. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan, - bu, Sizin sözünüzdür, həmişə söyləyirik, - bir millətin iki dövlətidir. İnşallah, hər şey yaxşı olacaqdır. Bizim də könlümüz, Sizin də könlünüz rahatdır. Biz buna əminik. Sizə çox təşəkkür edirik.

Heydər Əliyev: İndi Gəncə ilə Qars qardaşlaşmış şəhər oldu. Biz anlaşma imzaladıq. Ona görə də Gəncə və Qars bir-birinə çox yaxın olmalıdır. Bu da bizim əlaqələrimizi artırmalıdır. Mən də Qarsa gələcəyəm. O vaxt Naxçıvanda yaşayanda Qarsda bir neçə dəfə oldum. Qarsda Qafqaz Universiteti var. Onlar mənə Fəxri Doktor adı veriblər. Mən həmin universitetdə olmalıyam, Qarsı görməliyəm. 1992-93-cü illərdən sonra Qarsı görməmişəm. Deyirlər, İğdır da çox gözəlləşib, dəyişibdir. Mən 1992-ci ildə İğdırda olanda, ora bir kənd idi. Amma biz orada Naxçıvan ilə dostluq qapısını açdıq. İndi orada ticarət gedir. Həm naxçıvanlılar gəlir götürür, həm də iğdırlılar. İndi İğdır böyük şəhər olubdur. Mən keçmişdə xəritədə baxırdım, kitablardan oxuyurdum. Mənim fikrimdə İğdır böyük bir şəhər idi. Amma 1992-ci ildə Naxçıvandan ilk dəfə İğdıra gələndə bir kənd gördüm. Amma indi inkişaf edibdir. Qars da çox dəyişilibdir. Mən Sizə uğurlar arzulayıram.

Əli Günər: Hörmətli Cümhurbaşkanım, təbii, bizim boynumuza çox iş düşür, yəni boynumuzda böyük

yük var. Azərbaycanın Dağlıq Qarabağ torpağını ermənilər işğal etmişlər, indi torpaqlar işğal altındadır. Türkiyə bunu bilir. Ermənilər o torpaqları işğal edib, indi də deyir ki, Ağrıdağ da, Qars da mənimdir. Əgər biz desək bura bizimdir, ora bizimdir, onda dünya ayağa qalxar. Onların istəklərini gözündə qoymaq lazımdır.

Azərbaycanlı qardaşlarımızla, Naxçıvanla əlaqələrimiz həqiqətən, çox yaxşıdır. Bilirsiniz ki, Qars üç yerə - Qars, Ərdahan, bir də İğdıra bölündü. Sizin və cənab Süleyman Dəmirəlin vasitəsi və iştirakı ilə İğdırda qardaşlıq körpüsü açıldı.

Heydər Əliyev: Həm körpünü açdıq, həm də İğdırın yaxşı olması üçün mən çox səylər göstərdim. Hörmətli Süleyman Dəmirəldə dəfələrlə dedim ki, İğdır ayrılmalıdır. Çünki Qarsla İğdır arasında 200 kilometrdən çox məsafə var. Çox böyük ərazidir. Qarsda keçirilən təntənələrdə gəlib iştirak etdim. Xatirinizdədir.

Əli Günər: Bəli. Həqiqətən bu körpü açıldıqdan sonra qardaşlarımız, vətəndaşlarımız 70 illik həsrətə son qoydular.

Cənab Prezident, Qarabağ məsələsi bizim içərimizdə bir yaradır. Mən Bakıya çox gəlib gedirəm. Qaçqınların vəziyyətini görürəm. Əzab çəkirik. Görün, bir ovuc erməni bizim başımıza nə oyunlar açır. Amma İnşallah, zaman gələcək, həqiqət bizim olacaqdır. Biz əl-ələ verərək, birbirimizə səmimi olaraq, niyyətimizə çatacağıq.

Hazırda İğdırdakı körpü vasitəsilə faydalı ticarət həyata keçirilir. Mən iki gündən bir Naxçıvanda oluram. Elə bil öz kəndimə gedirəm. Naxçıvanda hər kəs bizimlə dostdur. Naxçıvanın rəhbəri də buradadır. Biz onunla bu gün görüşdük.

Cənab Prezident, mazut gətirilməsi daha da azalıbdır. Cəmi 15 min ton gəlir. Biz bunu tam yarıya bölürük. Yəni yarısını sizinkilərə, yarısını da bizimkilərə veririk.

Heydər Əliyev: Mən Baş nazir Büləпd Ecevitlə bu barədə danışdım. Naxçıvanın başçısı Vasif Talıbov da həmin bunu Baş nazirə söylədi, oradakı, sərhəddəki işin vəziyyəti barədə ona məlumat verdi ki, indi sən dediyin məsələlər çözülsün. Çünki bunlar sizin üçün də lazımdır, Naxçıvan üçün də lazımdır. Biz bunları etdik.

Əli Günər: Hörmətli Cümhurbaşkanım, çox gözəl. Millət vəkili kimi, bizim bir təklifimiz də var. Xüsusi bir sənəd olsa, yaxşı olar. Yəni şəxsiyyəti təsdiq edən sənədlə vətəndaşlar Naxçıvana getsin, Naxçıvandan da bizə gəlsinlər. Naxçıvanda çoxlu meyvə var.

Heydər Əliyev: Naxçıvanda meyvələr tökülüb qalır. Amma sizin gömrük imkan vermir ki, onlar gətirib burada satsınlar. Mən bunları bilirəm. Qarsda meyvə yox, Ərzurumda meyvə yox. Meyvə bircə İğdırdadır. Türkiyədə hər yerdə deyirlər ki, İğdırın əriyi ən ləzzətli ərikdir. Amma Ordubad əriyi, Naxçıvan əriyi o

qədərdir ki, Qarsı da, Ərzurumu da, İğdırı da - hamısını təmin edə bilər. Amma orada sizin tərəf bir az problemlər yaradıbdır. Mən onu Baş nazir Büləndi Ecevitə dedim.

Əli Günər: Hörmətli Cümhurbaşkanım. Çox təşəkkür edirik. Sizə hörmət və ehtiramımızı bir daha bildiririk. Biz Sizin çörəyinizi çox yemişik. Siz də gəlin, bizə qonaq olun. Sizi İğdırda gözləyirik.

Heydər Əliyev: Gələcəyəm. İğdırda olacağam.

Əli Günər: Siz bizim böyük Babamızsınız. Allah Sizə uzun ömür, cansağlığı versin. İnşallah, Qarabağ məsələsi də həll olunacaqdır. Ondan sonra hər kəs böyük fərəhlə öz evində oturub, Sizə dualar edəcəkdir.

Aslan Haydar: Hörmətli Cümhurbaşkanım, Sizi Qarsda görməkdən şərəf duyacağıq.

Heydər Əliyev: Çox sağ olun. İğdırlılara, qarslılara salam söyləyin.

Osman Gəzəgər: Möhtərəm Cümhurbaşkanım, Allah Sizə cansağlığı, uzun ömür versin. İnanırıq ki, Azərbaycanın ən əsas problemi tezliklə həll olunacqdır. Sizə dərin minnətdarlığımızı bildiririk.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN SABİQ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı martın 13-də, Ankarada onun üçün ayrılmış iqamətgahda - Camlı Köşkdə dost ölkənin keçmiş Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Dövlətimizin başçısı özünün əziz dostu, qardaşını böyük hörmət və ehtiramla qarşıladı.

Azərbaycan Prezidenti Heydər Əliyev ilə görüşdən çox məmnun qaldığını bildirən Süleyman Dəmirəl dedi:

- Hörmətli Prezident, Siz öz Vətəninizə Xoş Gəlmisiniz. Türkiyəyə Sizin rəsmi səfəriniz ölkəmizdə böyük rəğbət doğurmuşdur. Türkiyə Böyük Millət Məclisindəki nitqinizdə Siz bölgədəki coğrafi-siyasi vəziyyətə son dərəcə gözəl təhlil verdiniz, onun parametrləri və Azərbaycan-Türkiyə əlaqələrinin daha da genişləndirilməsi haqqında öz dəyərli fikirlərinizi bildirdiniz.

Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir. Xalqlarımızın dostluğu əbədidir və bu dostluğu heç bir şey poza bilməz. Cənab Prezident, Türkiyə parlamentində söylədiyiniz nitqinizdə bu barədə fikirlərinizi eşitmək məni hədsiz məmnun etdi.

Çox təəssüf ki, Azərbaycanın da, Türkiyənin də bir sıra çətinlikləri vardır. Bu çətinliklərin bir qismi tarixi, digər qismi isə coğrafi səbəblərdən, qalan hissəsi isə gündəlik həyatdan irəli gəlir. Amma mən əminəm ki, biz bu çətinlikləri birlikdə aradan qaldıra biləcəyik.

Cənab Prezident, mən bu gün Sizi təkrarən Ankarada görməkdən çox məmnunam. Sizin əvvəlki söhbətlərinizdə də dediyiniz kimi, qarşılıqlı rəsmi səfərlərin müntəzəm davam etdirilməsi vacibdir. Azərbaycanın sevinci bizim sevincimizdir, məlalı bizim məlalımızdır.

Cənab Prezident, bir daha bildirirəm ki, bu gün Siz Türkiyə Böyük Millət Məclisində çox dəyərli bir nitq söylədiniz, bir sıra məsələləri çox gözəl anlatdınız. Türkiyə vətəndaşlarına müraciətlə dediyiniz sözlər də çox dəyərli idi.

Böyük Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti çox çətin mərhələlərdən keçmişdir, indi böyük inkişaf yolu ilə gedir.

Türkiyə Cümhuriyyəti yeni müstəqillik qazanmış türkdilli ölkələrin müstəqilliyinin əbədi olacağına əmindir. Türk dünyasında altı yeni dövlətin bayraqları dalğalanır. Bu isə bizdə böyük qürur doğurur.

Cənab Prezident, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük uğurlar qazanır. Mən Sizin ölkənin son dövrdəki iqtisadi göstəricilərinə bir daha nəzər saldım. Azərbaycan böyük inkişaf yolundadır və bu, məni çox məmnun edir. Hazırda Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Bu, məni çox sevindirir. Dünyanın bir çox ölkələrinin iş adamları Azərbaycana sərmayə qoyurlar. Əminəm ki, qarşıdakı illərdə Azərbaycan daha böyük uğurlara nail olacaqdır. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması tarixi bir hadisədir.

Mən əziz dostumu, böyük, qardaş dövlətin müdrik rəhbərini Ankarada qarşılamaqdan hər zaman duyduğum sevinci bu gün bir daha təkrar duyuram. Türkiyəyə xoş gəlmisiniz!

Səmimi sözlərə görə Süleyman Dəmirələ təşəkkürünü bildirən Azərbaycan Prezidenti Heydər Əliyev dedi:

- Əziz dostum, qardaşım. Mən də Türkiyə üçün, xüsusən də Sizi görmək üçün çox darıxmışdım. Mən bu gün Böyük Millət Məclisindəki nitqimdə dedim ki, Türkiyəyə hər dəfə gəlmək bizim üçün böyük bir sevincdir, böyük xoşbəxtlikdir.

Əziz dostum, son illər Azərbaycanda Sizin köməyinizlə çox işlər görülmüşdür. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə sıx əlaqələr yaranmasında Siz böyük xidmətlər göstərmisiniz. Azərbaycan xalqı bunu heç vaxt unutmur və unutmayacaqdır. Siz mənim əbədi dostumsunuz.

Böyük Millət Məclisindəki nitqimə və Azərbaycanın bugünkü durumuna verdiyiniz qiymət, respublika-

mızın 2000-ci ildə əldə etdiyi nailiyyətlər haqqında dediyiniz sözlər, təbiidir ki, məni daha da ruhlandırır. Bütün bunlar məni daha da həvəsləndirir ki, daha da çox işlər görək. Siz yaxşı bilirsiniz ki, bundan da çox nailiyyətlər əldə etməyə imkanlarımız vardır. Biz Sizinlə bu barədə dəfələrlə danışmışıq, söhbət etmişik.

Mən bu gün Böyük Millət Məclisində dedim, indi bir daha qeyd edirəm ki, Türkiyə-Azərbaycan dostluğu əbədidir. Onu, heç bir şey ilə qırmaq olmaz. Azərbaycanın müstəqilliyi, istiqlaliyyəti əbədidir. Bu müstəqilliyi heç bir qüvvə sarsıda bilməz. Biz bu müstəqilliyi möhkəmləndirmişik. Bu ilin sonunda müstəqilliyimizin 10 illiyini qeyd edəcəyik. Tarixi nöqteyi-nəzərdən 10 il o qədər də çox bir zaman deyildir. Amma bu 10 ildə dünyada, bizim bölgədə və Azərbaycanda nələr olduğunu bir-birinin üstünə qoysaq, ötən 10 il böyük bir tarixdir. Biz bu tarixi yaşamışıq. Bu tarixin acılarını da, çətinliklərini də yaşamışıq, amma xoş günlərini də görürük. Lakin bilirsiniz ki, problemlərimiz də vardır və biz bu problemlərin aradan qaldırılmasına çalışırıq və çalışacağıq.

Siz həm Baş nazir, həm də Prezident olduğunuz zaman Azərbaycana çox yardımlar etmisiniz. Biz Sizinlə çox sıx əməkdaşlıq etmişik. Xalqımız, dövlətimiz, millətimiz Sizi bu gün də sevir. Ona görə də bu gün Türkiyədə Sizinlə bir daha görüşmək mənim üçün böyük bir xoşbəxtlikdir. Güman edirəm, vaxt tapıb Azərbaycana da gələcəksiniz, biz orada da görüşəcəyik. Çünki əlaqələrimiz olmayanda, görüşə bilməyəndə darıxıram. Allaha şükürlər ki, qismət oldu, mən buraya gəldim və bu axşam Sizinlə bir yerdəyik. Məndən Nəzmiyyə xanıma da salam söyləyin.

Süleyman Dəmirəl: Əziz dostum, Siz mənə çox böyük şərəf verdiniz. Nəzmiyyə xanımın da Sizə çox böyük salamları vardır.

Heydər Əliyev: Xahiş edirəm, mənim hörmət və ehtiramımı Nəzmiyyə xanıma bildirəsiniz. Əmin olun ki, Azərbaycan Sizi sevib, bu gün də sevir, gələcəkdə də sevəcəkdir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar, bölgədə vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

Cənab Süleyman Dəmirəl görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlara ürəkdən sevindiyini bir daha nəzərə çarpdırdı. O, əmin olduğunu bildirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində öz həllini tapacaqdır.

Görüşdə Azərbaycan-Türkiyə strateji tərəfdaşlıq əlaqələrinin perspektivləri, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də söhbət getdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "SABAH" QƏZETİNƏ MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev elə həmin gün öz iqamətgahında - Camlı köşkdə Türkiyənin "Sabah" qəzetinin siyasi şərhçisi Füsun Mutluya müsahibə vermişdir.

Sual: Cənab Prezident, Sizi görməkdən çox məmnunam. Vaxtınızı çox almaq istəmirəm. Biliram ki, işiniz çoxdur. Bir zaman Türkiyə Azərbaycanı qardaş hesab edirdi. Sizin parlamentdəki nitqinizi eşitdim, indi Türkiyənin qardaşı Siz olmusunuz. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Yox, mən bunu qəbul edə bilmərəm. Türkiyə bizim üçün qardaşdır. Mən Böyük Millət Məclisində qəlbimdən gələn sözləri dedim.

Jurnalist: Çox gözəl çıxış etdiniz.

Heydər Əliyev: Xoşunuza gəldimi?

Jurnalist: Çox xoşumuza gəldi, ürəkdən bəyəndik.

Sizdən bir məsələni də soruşmaq istəyirəm. Siz bir neçə il Dəmirəl ilə işbirliyi qurdunuz, Bakı-Ceyhan yolunda xeyli işlər görməyə səy göstərdiniz. İndi isə Hörmətli Sezər ilə birlikdəsiniz. Dəmirəl ilə Sezər arasında hansı fərqlər var və bu barədə nə deyə bilərsiniz?

Cavab: Sən bu sualı mənə nə üçün verirsən? İnsanları heç vaxt müqayisə etmək olmaz. Mən bu barədə bir fikir söyləmək istəmirəm. Mən Dəmirəl ilə 30 il bundan öncə tanış olmuşam. Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Dəmirəl Türkiyədə Baş nazir idi. Sonra da Cümhurbaşkanı oldu. Bu il Azərbaycanın müstəqilliyinin 10 ili tamam olacaqdır, bu dövr ərzində Türkiyənin başında Dəmirəl durubdur. Müəyyən bir vaxt rəhmətlik Özal da olub, amma o, 1993-cü ildə vəfat etdi.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığında eyni zamanda insanlar arasında olan münasibətlərin də əhəmiyyəti var. Mən Süleyman Dəmirəl ilə keçmişdən yaxın dost olmuşam. Mən Naxçıvanda çalışanda, Naxçıvan blokada da olanda Süleyman Dəmirəl və rəhmətlik Turqut Özal oraya çox diqqət göstərirdilər. Ancaq Süleyman Dəmirəl Baş nazir olduğu üçün o, Naxçıvana daha da çox diqqət göstərirdi.

Məsələn, Sizə məlum olan "Həsrət körpüsü"nü o vaxtlar yaratdıq. Bu, Naxçıvanın xilası demək idi. Naxçıvan qaranlıqda idi, elektrik enerjisi, filanı yox idi. Qısa bir zamanda

Türkiyədən Naxçıvana ilk dəfə elektrik xətti çəkildi. Hələ mən Naxçıvanda olarkən rəhmətlik Turqut Özal məni buraya dəvət etdi. Mən Naxçıvanın rəhbəri olanda Süleyman Dəmirəl ilə Naxçıvanı yaşatmaq üçün çalışdıq. Onlar bu işdə bizə çox yardım etdilər. Ona görə də bizim bu dostluğumuzun, iş birliyimizin,

əməkdaşlığımızın tarixi böyükdür.

Mən 1993-cü ildə Azərbaycanın Cümhurbaşkanı olanda biz daim əlaqədə olmuşuq. Dostuq. Mənim bu dostluğum əbədidir. Mən gəlib burada Süleyman Dəmirəl ilə görüşdüm, çox məmnun oldum. Ancaq dövlətlərin başında heç kəs daim durmur. Konstitusiya var. Konstitusiyaya görə hörmətli Süleyman Dəmirəlin müddəti tamam oldu, yeni adam seçildi. Böyük Millət Məclisi hörmətli Əhməd Necdət Sezəri Cümhurbaşkanı seçdi. Mən onu öncə, Konstitusiya Məhkəməsində olduğu zaman bir dəfə görmüşdüm, ancaq qısa. Mən çox məmnunam ki, o, xarici ölkələrə ilk rəsmi səfərini

Azərbaycana etdi. Yəni Türkiyənin yeni seçilmiş 10-cu Prezidenti də, 9-cu Prezidenti və Türkiyənin başında olan başqa insanlar kimi, Azərbaycana çox önəm verir. Mən də bunu çox yüksək qiymətləndirdim, bizim xalqımız da çox yüksək qiymətləndirdi.

Biz orada çox gözəl danışıqlar apardıq və anlaşmalar imzaladıq. O, məni Türkiyəyə dəvət etdi. İndi də mən Türkiyəyə gəldim. Buradakı görüşlərimdən çox məmnunam. Hörmətli Cümhurbaşkanı ilə çox gözəl danışıqlarımız oldu. Bilirsiniz ki, Baş nazir ilə də təxbətək danışdım. Baş nazirin müavinləri ilə, Baş Qərargah Rəisi ilə danışdım. Bu gün də Ankara Universitetinə getmişdik. Hörmətli Cümhurbaşkanı Sezər yenə də mənimlə idi, bərabər idik. Ona görə də, demək, bizim dostluq əlaqələrimiz davam edir.

Sual: Cənab Prezident, Sizcə Türkiyə bölgənin sabitliyi üçün önəmli oyunçudurmu?

Cavab: Bəli, bu gün də, gələcəkdə də Türkiyə Qafqazda sabitlik üçün, sülh üçün önəmli bir yer tutur.

Sual: Yəni Dəmirəldən sonra heç bir azalma yoxdur?

Cavab: Yox, yox. Mən buna inanmıram.

Sual: Siz bir ara Bakı-Ceyhana Türkiyənin soyuq yanaşdığını söyləmişdiniz. İndi vəziyyət necədir?

Cavab: İndi yaxşıdır.

Sual: Siz müsahibələrinizin birində demişdiniz ki, mən Türkiyənin daxili işinə qarışmıram. Türkiyə Misirdən də, Rusiyadan da təbii qaz alır. Türkiyə Azərbaycandan əvvəlcə 2 milyard kubmetr qaz alacaqdır?

Cavab: Sonra 6 milyard kubmetr olacaqdır. Ondan sonra isə 15-20 milyard kubmetrə çıxacaqdır. Bu, olacaqdır.

Sual: Bu, nə vaxt ola bilər?

Cavab: Ola bilər, bu, 2008-ci ildə olsun.

Sual: "Abşeron"dan da qaz alacaqsınız?

Cavab: Bəli, "Abşeron"dan da. Amma "Şahdəniz" yatağı yetərlidir. Yəni biz oradan 50 il, ildə 30 milyard kubmetr qaz ixrac etsək, o, yenə də tükənməyəcəkdir.

Sual: Cənab Prezident, biz təbii qazı Sizdən ucuz alacağımız təqdirdə

Misirə, Rusiyaya ehtiyacımız qalmayacaqdır. Yəni Sizdən 15-20 milyard kubmetr təbii qaz alsaq, demək, onda onlara ehtiyac yoxdur. Çünki bizə yaxşı qiymətə verəcəksiniz.

Cavab: Mən bunu bilmirəm.

Sual: Qiyməti açıqlamaq istəmirsiniz?

Cavab: Bunu açıqlamağın nə əhəmiyyəti var? Qiymət Türkiyə üçün də, bizim üçün də uyğundur.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN NTV TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Prezidenti Heydər Əliyev martın 15-də Ankarada öz iqamətgahında Türkiyənin NTV televiziya kanalının əməkdaşları İrfan Sapmaz və Didəm Tuncaya müsahibə verdi.

Sual: Hörmətli Cümhurbaşkanım, əvvəlcə Sizə çox təşəkkür edirik ki, qiymətli vaxtınızdan bizə də ayırdınız.

Siz dörd gündür, bazar ertəsindən indiyədək Türkiyədə görüşlər keçirirsiniz. Doqquzuncu Cümhurbaşkanı Süleyman Dəmirəl ilə çox yaxın bir əlaqəniz vardı. Amma Ankarada Cümhurbaşkanı Sezərin ilk dəfə qonağı oldunuz. Qısaca olaraq Sizin Türkiyəyə səfərinizə münasibətinizi bildirməyi rica edirik. Süleyman Dəmirəlin Cümhurbaşkanlığından ayrılması Türkiyə-Azərbaycan əlaqələrinə təsir etdimi? Bu barədə fikirlərinizi bilmək istərdik.

Cavab: Təşəkkür edirəm. Birincisi, mən çox böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, Türkiyənin 10-cu Cümhurbaşkanı hörmətli Əhməd Necdət Sezər bu vəzifəyə seçiləndən sonra xarici ölkəyə ilk səfərini Azərbaycana etdi. Bu, təbiidir. Çünki Türkiyə üçün Azərbaycan çox yaxın dost, qardaş ölkədir. Azərbaycan üçün də belədir. Bunu da həm mən, eyni zamanda bizim xalqımız, millətimiz çox yüksək qiymətləndirdi. O, məni Türkiyəyə dəvət etdi. Mən də bu dəvəti qəbul etdim və artıq indi, ayın 12-dən buradayam.

Türkiyənin Cümhurbaşkanı ilə mənim çox maraqlı, çox əhəmiyyətli, iki ölkə üçün, təkcə iki ölkə üçün yox, ümumiyyətlə, Qafqazdakı məsələlərimiz, o cümlədən Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması yolları barədə çox danışıqlarımız, çox əhəmiyyətli söhbətlərimiz oldu. Mən bundan çox məmnunam.

Bilirsiniz ki, başqa görüşlərim də oldu. Ancaq mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə də görüşdüm. Dünən axşam onunla görüşdüm, söhbət etdik. Mən heç vaxt dostu unutmaram. Süleyman Dəmirəl ilə mənim dostluğumun 30 ildən artıq bir tarixi var. Yəni bu, keçmişdəndir.

Sual: Hörmətli Süleyman Dəmirəlin Cümhurbaşkanlığından ayrıl-

ması Türkiyə-Azərbaycan əlaqələrinə təsir etdimi?

Cavab: Bilirsiniz, əlbəttə, mən dostum Süleyman Dəmirəlin ayrılmasını istəmirdim. Mən həmişə səmimi insanam. İstəmirdim, ancaq Sizin Konstitusiyanız vardır. Heç kəs Konstitusiyanın əleyhinə çıxa bilməz. Ona görə də mən hesab edirəm ki, Türkiyə dövləti öz Konstitusiyasına həmişə sadiq olmalıdır. Amma Süleyman Dəmirəl də bunu tamamilə real qəbul edir, yəni onun da bu barədə bir problemi yoxdur və kefi də çox yaxşıdır. Onu çox sağlam gördüm.

O, indi Cümhurbaşkanlığından ayrılıbdır. Ancaq dünya problemləri ilə, Azərbaycanın problemləri ilə çox məşğul olur. Yəni hər şeyi öyrənir, bilir, o cümlədən bizim Türkiyə-Azərbaycan əlaqələrinin daha da yaxın olmasını, daha da yaxşı olmasını istəyir. O deyir ki, bu əlaqələr mənim vaxtımdakından daha da yaxşı olsun. O, bunu istəyir. Bir də təbiidir ki, biz onunla 7-8 il birlikdə Ermənistan-Azərbaycan münaqişəsinin çözülməsi məsələləri barəsində çalışmışıq, bir yerdə məsləhətləşmişik. Biz bu problem haqqında danışdıq, söhbət etdik.

Sual: Cənab Prezident, Türkiyə ilə Azərbaycan arasında hərbi sahədə əməkdaşlığı yetərli hesab edirsinizmi və bu əlaqələr hansı səviyyəyə qədər inkişaf etdirilə bilər?

Cavab: Mən o qədər yetərli görmürəm. Mənim arzum, istəyim daha çoxdur. Ancaq indi nə mümkündür, odur.

Sual: Hörmətli Cümhurbaşkanım, ziyarətiniz zamanı bu sahədə irəliyə doğru addımlar atılması üçün söhbətləriniz oldumu?

Cavab: Bilirsiniz, Türkiyə təhsil sahəsində Azərbaycan ordusuna çox yaxşı yardımlar edir. Mən buna görə minnətdaram.

Məsələn, Rusiya ilə Ermənistan arasında hərbi müttəfiqlik, ittifaq yaranıbdır ki, əgər Rusiyaya hansı bir dövlət hücum etsə, Ermənistan ona yardım edəcəkdir, Ermənistana etsə, Rusiya ona yardım edəcəkdir. Amma iş bir bunda deyildir. İş ondadır ki, Rusiya Ermənistanda böyük hərbi bazalar saxlayır, silahlar saxlayır. Son vaxtlarda hətta Gürcüstandan çıxarılan 70 tankı da Ermənistana yerləşdirdi. Təxminən 29-a qədər ən modern hərbi təyyarəni, MİQ-29-ları aparıb orada yerləşdiribdir. S-300 raketləri yerləşdiribdir. Ona görə də burada vəziyyət fərqlidir.

Sual: Cənab Prezident, Türkiyə ilə Azərbaycan arasında hərbi anlaşma olmasını söyləmək istəyirsiniz?

Cavab: Əlbəttə, yaxşı olardı.

Sual: Türkiyədə Bakı-Ceyhan neft kəməri layihəsinə marağın azaldığını düşünmürsünüz ki?

Cavab: Bilirsiniz, mən son vaxtlar bir az buna diqqətin azaldığını hiss etdim. Ona görə də bu barədə bəyanatlar verdim. Eyni zamanda biz hələ əvvəllərdə də danışmışdıq ki, Azərbaycanda böyük təbii qaz ehtiyatları olacaqdır. İlk öncə onun Türkiyəyə satılması lazımdır. Bizim məmurlarımızın bu barədə danışıqlarından gördüm ki, Türkiyədə buna əngəl etmək istəyən bəzi bürokratlar vardır. Ona görə də mən bu barədə bir-iki açıqlama verdim. Amma hər şeyi çözdük, anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqqında anlaşma ki, ilkin olaraq Azərbaycanın 6 milyard kubmetr təbii qazı Türkiyəyə satılacaqdır. Ondan sonra bu, artıb ildə 15-20 milyard kubmetrə çatacaqdır.

Sual: Hörmətli Prezident, Bakı-Ceyhan boru xətti layihəsinin həyata keçib-keçməməsi 2002-ci ilin iyun ayında mühəndis-layihə işlərinin tamamlanması ilə ortaya çıxacaqdır. Sizcə, bu layihənin gerçəkləşməmək ehtimalı varmı?

Cavab: Güman edirəm, gerçəkləşəcəkdir.

Sual: Hörmətli Cümhurbaşkanım, cənab Pauell həm sizi, həm də Ermənistanın Dövlət Başçısını Dağlıq Qarabağ problemi ilə əlaqədar aprelin 3-də Amerika Birləşmiş Ştatlarına dəvət etmişdir. Oraya gedəcəksinizmi?

Cavab: Əlbəttə, gedəcəyəm.

Sual: Məsələnin çözülməsinə ümidiniz varmı?

Cavab: Bilirsiniz, biz 1994-cü ildə Ermənistanla Azərbaycan arasında müharibəni dayandırdıq. Atəşkəs haqqında Saziş imzaladıq. O vaxtdan bu işi sülh yolu ilə həll etmək istəyirik. Bunun üçün də ATƏT-in Minsk qrupu var. Orada 12 dövlət, onun içində Türkiyə də vardır. Amma Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika, Fransa var. Onlar da çalışdılar. Amma onların verdikləri təkliflərin çoxunu Ermənistan qəbul etmədi. Son olaraq, birini də biz qəbul etmədik. Ona görə sonra iki Cümhurbaşkanının təkbətək danışması problemi meydana çıxdı. Biz də 15 dəfə görüşüb danışmışıq. Son dəfə də Parisdə görüşdük. Siz bilirsiniz. Sonra bu görüşə Şirak da qatıldı.

İndi mən hiss edirəm ki, Minsk qrupunun həmsədrləri- həm Amerika, həm Rusiya, həm də Fransa birbiri ilə daha da yaxınlaşıblar və bu məsələnin çözülməsi üçün çalışırlar. Ancaq onlar belə deyirlər: Ermənistan və Azərbaycan Prezidentləri hansı qərara gəlsələr, biz o qərarı dəstəkləyəcəyik və onun həyata keçirilməsinə yardım edəcəyik.

Amma qərara gəlmək də çox çətindir, çünki Ermənistan Azərbaycan torpaqlarının iyirmi faizini işğal edibdir. Orada silahlı qüvvələrini saxlayır. İşğal olunmuş torpaqlardan 1 milyon azərbaycanlı zorla çıxarılıb, çadırlarda yaşayırlar. Ona görə də Ermənistan şərtlərini daha da sərtləşdirir. Biz öncədən belə danışmışdıq ki, hər iki tərəfdən kompromis olmalıdır. Amma onlar istəyirlər ki, Azərbaycan tərəfdən daha çox kompromis olsun, nəinki Ermənistan tərəfindən. Ona görə də əgər doğrudan da bu iş ədalətli getsəydi, dünyada

ədalət olsaydı və beynəlxalq hüquq normaları hər bir yerdə qorunsaydı, belə bir şey olmazdı.

Sual: Sizcə, Amerikanın bu məsələ ilə bağlı araya girməsi, bu problemin çözümü yolunda çalışmaları nəticə verə bilərmi?

Cavab: Amerika indi yox, çoxdan araya giribdir. Bu, tamamilə normal bir şeydir.

Sual: Hörmətli Prezident, Siz Fransaya getməzdən əvvəl parlamentdə aparılan müzakirələrdə bəzi müxalifət dairələri bu məsələnin ancaq müharibə yolu ilə həll edilə biləcəyini söylədilər.

Cavab: Sən neçə illərdir Azərbaycanda yaşayırsan. Azərbaycanda müharibəni görmüsən. Mənim yaddaşım yaxşıdır. Sən Şuşanın işğal olunmasını gözünlə görmüşdün və mənə söylədin. Xatırlayırsanmı?

İrfan Sapmaz: Bəli, yaxşı xatırlayıram. Siz onda Naxçıvandaydınız.

Heydər Əliyev: Bəli, 1992-ci ildə Naxçıvanda sən bunu mənə söylədin.

Müharibəni həmişə etmək olar. Ancaq indi dünyada heç kəs müharibəni dəstəkləmir. Bu, birincisi. İkincisi, müharibə harada olacaqdır? Müharibə Azərbaycan torpağında olacaqdır, Ermənistan torpağında yox. Müharibə Azərbaycan torpaqlarını işğaldan azad etmək üçün olacaqdır. Ermənistan gəlib Azərbaycan torpaqlarında oturubdur. Ona görə də müharibə heç vaxt proqramdan çıxmır. Ancaq nə vaxt lazımdır, lazım deyil... Sən Azərbaycanda yaşayırsan, müharibənin nə olduğunu bilməyən bəzi adamlar bunu deyəndə mən anlayıram. Amma vaxtilə, müharibə zamanı Azərbaycanın daxilində sabitliyi pozub hakimiyyət uğrunda, iqtidara gəlmək uğrunda mübarizə aparan adamlar deyəndə... Surət Hüseynov tankların, topların bir qismini cəbhədən çıxarıb Bakıya hücum etdi ki, Cümhurbaşkanı olsun. Xalq Cəbhəsinin rəhbərləri də özlərini qorumaq üçün cəbhə bölgəsindən qüvvələrin bir qismini çıxardı və bundan Ermənistan faydalandı, Azərbaycanın torpaqlarını işğal etdi. Yəni müharibə edib, müharibədə uduzan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, yaradan, ondan sonra qaçıb 4-5 il gizlənən adamlar indi yenə "müharibə, müharibə" deyirlər.

Sual: Siz Cümhurbaşkanı olduğunuz üçün müharibənin ağırlığı birinci növbədə Sizin üzərinizə düşəcək...

Cavab: Bəli, onlar müharibə deyirlər. Amma onlar müharibə edən deyillər. əgər müharibə olsa, bu müharibəni mən etməliyəm. Müharibəni onlar etməyəcək. Doğrudur, deyirlər hamımız müharibəyə gedəcəyik. Amma mən də demişəm ki, bir-iki avtobus tutacağam, onların hamısını avtobusa birinci qoyacağam. Hərəsinə də bir avtomat verəcəyəm. Getsinlər irəliyə. Ondan sonra da başqaları getsin.

Sual: Hörmətli Cümhurbaşkanım, Fransadakı görüşləriniz zamanı Dağlıq Qarabağa xüsusi status verilməsini qəbul etməyiniz barədə bəzi iddialar vardır. Bunlar doğrudurmu?

Cavab: Ermənistan bunu qəbul etmir.

Sual: Azərbaycan qəbul edir?

Cavab: Biz veririk, onlar qəbul etmir.

Sual: Cənab Prezident, Kipr məsələsi barədə soruşmaq istəyirəm. Türkiyə ilə Azərbaycanın hər zaman dost və qardaş ölkə olduqlarını siz hər dəfə ifadə edirsiniz. Şimali Kipr Türk Cümhuriyyətini nəyə görə tanımırsınız?

Cavab: Bilirsiniz, hər bir türk mənim üçün əzizdir, ya Türkiyədədir, ya Kiprdədir, ya digər yerdədir. Çünki biz bir kökdən əmələ gəlmiş qardaş millətlərik, dostlarıq. Ona görə də mənim başım öz işlərimlə məşğuldur. Kipr işləri ilə siz məşğul olun.

Sual: Gələcəkdə bunu tanımağı planlaşdırırsınızmı?

Cavab: Sağlıq olsun, əgər biz Ermənistan-Azərbaycan müharibəsini bitirsək, ölkəmizin torpaq bütövlüyünü təmin edə bilsək, ondan sonra hər şey ola bilər.

Sual: Cənab Prezident, Siz bu gün müayinədən keçdinizmi və hazırda sağlamlığınız necədir?

Cavab: Bununla çox maraqlanırlar. Mənim sağlamlığımı siz necə görürsünüz?

İrfan Sapmaz: Çox yaxşı görürük.

Heydər Əliyev: Sən məni tez-tez görürsən. Bu gözəl xanım ilk dəfə görür. Sən necə görürsən?

Didəm Tuncay: Cənab Prezident, çox sağlam görünürsünüz.

Heydər Əliyev: Demək, mən sağlamam. Dişlərimdə problemlər var. Ondan ötrü Gülhanəyə getdim. Bilirsiniz ki, mənim həkimlərim türklərdir, onlar Gülhanənin həkimləridir.

Didəm Tuncay: Cənab Prezident, müsahibə üçün çox sağ olun. Təşəkkür edirik.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "TRT" TELEVİZİYASINA MÜSAHİBƏSİ

Haluk Koç: Bu gün bizim çox önəmli bir qonağımız var - dost və qardaş ölkə Azərbaycanın Cümhurbaşkanı hörmətli Heydər Əliyev. Cənab Əliyevdən bazar ertəsi günündən bu yana keçirdiyi görüşlər, imzalanmış anlaşmalar və son hadisələr barədə soruşacağıq.

Çox hörmətli Heydər Əliyev, bizə vaxt ayırdığınız üçün çox-çox təşəkkür edirik. Sizi görməkdən çox məmnunuq. İndi suallarıma keçmək istəyirəm.

Heydər Əliyev: Sağ olun.

Sual: Biz bilirik ki, Siz Azərbaycandan Türkiyəyə gəlməmişdən öncə bir çox fikirlər söyləmisiniz. Xüsusilə Türkiyənin Bakı-Ceyhan boru xətti və təbii qaz anlaşması sahəsində bir

az yavaş davrandığını söyləmişdiniz.

Cavab: Söyləmişdim.

Sual: İndi düşüncələrinizi dəyişdirdinizmi? Yəni görüşlər keçirdiniz və anlaşmalar imzalandı. Bundan sonra müəyyən dəyişikliklər varmı?

Cavab: Mən o sözləri demişdim ki, dəyişiklik olsun. Ona görə də dəyişiklik oldu.

Sual: Cənab Prezident, nələr oldu, bunu bilmək istəyirdik?

Cavab: Birincisi, biz Azərbaycanın təbii qazının Türkiyəyə nəqli və satılması haqqında anlaşmalar imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqqında anlaşma imzaladıq. Bu, çox önəmlidir. Çünki Azərbaycan gələcəkdə böyük qaz ehtiyatlarına malik bir ölkə olacaqdır. Bu qazı ixrac etməlidir. Biz bunu keçmişdən də bilirdik. Çünki bu, yeni bir şey deyildir.

Biz "Şahdəniz" yatağından qaz alacağıq, hətta orada konsorsium yaradı - mən o konsorsiumu 1996-cı ildə yaratmışam - Türkiyənin "Türk petrolları" şirkətini oraya qatdım. 10 faiz "Türk petrolları" şirkətinin idi. Ona görə də hesab edirdim ki, qaz öncə Türkiyəyə getməlidir. Əvvəllər də bu barədə görüşlərimiz var idi. Sonra bu işi kimsə bir az əngəlləmək istəyirdi. Amma onların qarşısı alındı. Artıq hər şey həll olundu. İndi biz çalışacağıq ki, o boru xətləri, platformalar, filanlar olsun və qaz Türkiyəyə gələcəkdir. İlkin miqdar 6 milyard kubmetrdir. Amma gələcəkdə ildə 15-20 milyard kubmetr qaz verə bilərik. Mənə deyiblər ki, Türkiyənin 50 milyard kubmetr qaza ehtiyacı var. Beş-altı ildən sonra, bəlkə, onun yarısını biz verə bilərik.

Sual: Cənab Prezident, "Şahdəniz"dəki ehtiyatlar vermək istidiyiniz miqdarda yetərlidirmi?

Cavab: Çox... Bizim indi qazdığımız quyuların nəticələrinə görə orada 1 trilyon kubmetr qaz var. Amma bizim neftçilər, o işləri bilən adamlar deyirlər ki, ondan da artıq olacaqdır. Yəni bu işlə məşğul olan adamlar həmişə minimum deyirlər, maksimum demirlər. Çünki sonra onları suçlamasınlar ki, sən niyə belə dedin, amma belə olmadı.

Sual: Neçə illərdir Bakı-Ceyhan boru kəməri barəsində çox danışılır və indiyədək bir çox sənədlər imzalanmışdır. Amma hələlik həyata keçməmiş kimi görünür. bu barədə danışıqlar oldumu?

Cavab: Bu, asan bir şey deyildir. Bunu bilməlisiniz. Biz 1994-cü ildə ilk müqavilə imzalayanda orada Bakı-Ceyhan haqqında yazılıbdır. Amma Bakı-Ceyhan üçün mənim başıma nə işlər gəldiyini bilirsiniz. Çevriliş etmək istədilər, terror etmək istədilər, filan etmək istədilər ki, Bakı-Ceyhan baş tutmasın, ümumiyyətlə, müqaviləni pozsunlar. Çünki o müqavilə Azərbaycanın bütün qaz və neft yataqlarının gələcəkdə işlənilməsinə yol açırdı. Biz 1994-cü ildə 11 şirkət ilə bir müqavilə imzaladıq, indi isə 16 dövlətin 32 neft şirkəti ilə 20 müqavilə imzalamışıq. Bütün

bu layihələrin həyata keçirilməsinə 60 milyard dollar sərmayə qoyulacaqdır. Ona görə heç də hər ölkə bunu istəmir. Bakı-Ceyhanın birbaşa əleyhinə çıxanlar var idi. Çünki biz neft çıxarırıq, amma hansı ölkənin ərazisindən ixrac olunsa, o, fayda götürəcək, qazanc götürəcəkdir. Ona görə də bizim seçdiyimiz bu yola qarşı çıxanlar var idi.

Sual: Kimlər qarşı çıxdı?

Cavab: Başqa ölkələr.

Sual: Cənab Prezident, Rusiyanın bölgədə izlətdiyi siyasət var. Xüsusilə Cənubi Qafqazda hazırda bir az fərqli siyasət aparır. Bakı-Ceyhan boru xətti sahəsində Qazaxıstana Rusiyanın bir təzyiqi oldu. Bu barədə xəbərlər eşidildi. Amma bu, xoş qarşılanmadı. Ümumiyyətlə, Rusiyanın bu sahədəki siyasətini necə qiymətləndirirsiniz?

Cavab: Bilirsiniz, təbiidir, hər bir ölkə istəyir ki, - indi neft dünyada ən önəmli bir şeydir, - öz ölkəsinin milli mənafelərini həyata keçirsin. Ona görə də Rusiyanı bu barədə suçlamaq olmaz.

İndi Qazaxıstan çıxardığı nefti bir boru xətti ilə Rusiya ərazisi ilə Qara dənizdəki Novorossiysk limanına göndərir. Amma yenə də o tankerlər sizin ərazidə olan boğazdan keçir. Ona görə də, əlbəttə, Rusiyanın bu cür mövqeyi tamamilə məntiqidir. Yəni buna bir şey demək olmaz. Hərə özü üçün çalışır.

Sual: Siz Ankaraya gəldiyiniz günlərdə İranın Prezidenti Moskvada idi. Oradakı görüşlərin birində də Xəzərin statusu məsələsi müzakirə olundu. Xəzərin dibi ilə bağlı məsələ çox önəmlidir. Rusiya, Türkmənistan, Azərbaycan, İran, Qazaxıstan bu məsələni necə həll edəcəksiniz? Ümumiyyətlə, bu, necə olacaqdır?

Cavab: Biz artıq bunu işləyirik. 1997-ci ildən biz həmin o ilk müqavilədən neft alırıq, ixrac edirik. Bakı-Supsa kəməri ilə Gürcüstanın Qara dənizdəki limanına ixrac edirik. Biz bu işdə öndəyik. Bu prinsip ki var, Xəzər dənizinin dibindən onun mineral ehtiyatlarını çıxarmaq üçün hər bir sahilyanı ölkənin öz sektoru olsun, bunu ilk öncə biz irəli sürmüşük. Biz ancaq öz sərhədlərimiz içində çalışırıq. Başqa yerə çıxmırıq. Sərhəd prinsipi də keçmiş zamanlardan müəyyən olunubdur. Amma bunu digərləri qəbul etmirdilər. Heç Qazaxıstan da qəbul etmirdi. İran da qəbul etmirdi. Rusiya da qəbul etmirdi. Amma bizim 1994-cü ildən apardığımız işlər artıq bu məsələni o yerə çıxardı ki, Rusiya bunu qəbul etdi. Qazaxıstan da qəbul etdi. Qazaxıstanla Rusiya arasında bir anlaşma imzalandı.

Yanvarın 9-da Rusiyanın Prezidenti Putin Azərbaycana gəlmişdi. Orada da bir anlaşma imzaladıq ki, Xəzər dənizinin mineral ehtiyatlarının işlənilməsi üçün prinsiplər olsun.

Sizə dedim, biz öz sektorumuzla bağlı 20 müqavilə imzalamışıq. Onlar hamısı öz sektorumuzdadır. Artıq bu prinsipi Rusiya da tanıdı, bunu qəbul

etdi və bizimlə anlaşma imzaladı. Qazaxıstan da imzaladı. Güman edirəm, Türkmənistan da bu yolla gedəcəkdir. Amma İran bununla razı deyildir. Çünki İran hesab edir ki, Xəzər dənizinin ətrafındakı beş ölkənin hər birinə iyirmi faiz çatmalıdır. Amma coğrafi nöqteyi-nəzərdən bu, mümkün deyildir.

Sektor nə deməkdir? Sektor o deməkdir ki, Xəzər dənizi boyunca, hər ölkənin sərhədinin güneyi və qüzeyindən xətt çəkilir. Bir də ki, Xəzər dənizinin orta xətti var. Həmin üç xəttin içində olan hissə bizim sektorumuzdur. Amma İran Xəzər dənizinin güney tərəfində kiçik bir yerə malikdir. Xəzər dənizindən hərəyə iyirmi faiz vermək - bunu necə etmək olar? Bu, mümkün deyildir.

Sual: Son görüşmələrdən sonra İran bu prinsiplərlə razılaşacaqmı?

Cavab: Onu bilmirəm. Mənim Moskvadakı görüşlərdən o qədər məlumatım yoxdur. Çünki mən buradayam.

Sual: Hörmətli Prezident, Türkiyədəki təmaslarınız içərisində ən önəmli məsələlərdən biri də Dağlıq Qarabağ problemidir. Bununla bağlı Türkiyənin rəhbərləri ilə görüşdünüz. Bu arada çox maraqlı bir məlumağ gəldi. Amerika Birləşmiş Ştatları həm Ermənistan tərəfi, həm də sizi Floridaya dəvət edir. Aprelin 3-də, Paris görüşlərinin davamı kimi, bir görüş planlaşdırılır. Bu, Sizə məlumdurmu?

Cavab: Məlumdur, mən bunu bilirəm.

Sual: Erməni lobbisi və Ermənistandakı bəzi adamlar deyir ki, Dağlıq Qarabağla bağlı görüşlərdə, danışıqlarda Türkiyə olmasın, əgər olarsa, heç bir nəticə olmayacaqdır. Siz bu məsələnin çözümündə Türkiyədən nə gözləyirsiniz?

Cavab: 1992-ci ildə ATƏT tərəfindən Minsk qrupu yaranıbdır. Məhz Ermənistan-Azərbaycan münaqişəsiin çözülməsi üçün. ona daxil olan 12 dövlətdən biri də Türkiyədir. Ona görə 1992-ci ildən indiyə qədər, təxminən doqquz ildir ki, bu işin içindədir. Amma işlərin çoxunu həmsədrlər aparır. İndi Türkiyənin bu işin içində olmasına etiraz etmək yanlış bir şeydir.

Sual: Amerikadakı görüşlərdən nə gözləyirsiniz?

Cavab: Mən hər bir görüşdən, toplantıdan gözləyirəm ki, Ermənistan-Azərbaycan münaqişəsi sona çatsın, Azərbaycanın işğal olunmuş torpaqları işğaldan azad edilsin, bir milyon qaçqın öz yerinə dönsün. Amma siz bilməlisiniz ki, işğal olunmuş həmin o 20 faiz torpaqlarımızda hər şey ermənilər tərəfindən dağıdılıbdır. Yaşayış evləri, xəstəxanalar, kitabxanalar, yollar, nə bilim, filanlar, filanlar. Və oralara qayıdan insanlar dağılmış yerlərdə olacaqlar. Amma yenə də onların arzusu odur ki, çadırlarda yaşamaqdırsa, gedim, doğma torpağımda çadırda yaşayım. Sonra da orada həyatımı qurum.

Amma eyni zamanda da həm-

sədrlər, xüsusən Amerika bizə belə bir vəd verir, söz verir ki, əgər bu məsələ çözülsə, onda onlar dünyanın maliyyə mərkəzlərindən - Dünya Bankından, Beynəlxalq Valyuta Fondundan, habelə Avropa Birliyindən, digər yerlərdən pullar toplayacaqlar və bərpa işlərini aparmaq üçün, yəni orada insanların yaşayışını təmin etmək üçün işlər görəcəklər. Təbiidir, bu da bir ilə ola bilməz. Bu, bir neçə il çəkəcəkdir. Amma əsas odur ki, biz bu işi başlayaq. Mən bunu gözləyirəm.

Sual: Fransada Koçaryanla həll edilməyən məsələləri Amerikada çözə biləcəyinizi düşünürsünüzmü. Çünki bildiyimizə görə, Fransadakı görüşlərdə bəzi məsələləri Koçaryan qəbul etmək istəmədi və görüş nəticəsiz oldu. Amerika Birləşmiş Ştatlarındakı görüş də buna bənzər olacaq, yoxsa nəsə dəyişiklik olacaqdır?

Cavab: Bilirsiniz, Fransadan sonra Amerika Birləşmiş Ştatlarının bu işi davam etməsi onu göstərir ki, onlar məsələnin çözülməsinə müəyyən təsir etməlidirlər.

Sual: Cənab Prezident, indi isə Türkiyə-Azərbaycan əlaqələri barədə sual vermək istəyirəm. Bu əlaqələr Sizin gəlişinizdən sonra hansı səviyyəyə qalxacaqdır, bundan sonra nələr olacaqdır?

Cavab: Azərbaycan müstəqilliyini elan edəndən Türkiyəni yaxın dost, qardaş bir ölkə kimi hesab edibdir. Mən bunu Böyük Millət Məclisindəki nitqimdə dedim. Biz bu fikirlərlə yaşayırıq, bu fikirlərlə də əlaqələrimiz qurulubdur və qurulur. Amma lazımdır ki, bunu daha da yüksəklərə qaldıraq. Yəni bunun dərəcəsi yoxdur. Nə qədər yüksəyə qaldırsaq, həm Türkiyə üçün, həm də Azərbaycan üçün o qədər əhəmiyyətli olacaqdır. Ona görə də mənim Türkiyəyə budəfəki rəsmi səfərim, hesab edirəm ki, Türkiyə-Azərbaycan əlaqələrinin daha da inkişaf etməsi üçün böyük bir təməl yaradır. Çünki mən burada həm cümhurbaşkanı ilə, həm baş bakan ilə, baş bakan yardımçıları ilə, baş qərargah rəisi ilə, digərləri ilə danışıqlar apardım, Böyük Millət Məclisində öz fikirlərimi söylədim. Təbiidir ki, bu, irəliyə doğru yeni bir addımdır.

Sual: Cənab Prezident, Sizin səhhətinizi çox yaxşı görürürük. Bunu indi bütün türk xalqı da görür. Sağlamlığınız barədə bir probleminiz varmı?

Cavab: Sən ki bunu görürsən?

Haluk Koç: Biz Sizi çox sağlam görürük. Bu gün müayinədən keçdiyinizi də bilirik.

Heydər Əliyev: Mən bu gün müayinədən keçmirdim. Sadəcə, bu gün dişlərimə baxırdılar. Sizin dişləriniz necədir, həkim yanına gedirsiniz, yoxsa yox?

Haluk Koç: Əlbəttə, gedirik.

Heydər Əliyev: Mən də.

Sual: Cənab Prezident, sabah Türkiyədən ayrılırsınız. Son mesajınız varmı?

Cavab: Mən Türkiyədə olmağım-

dan çox məmnunam, çox bəxtiyaram və Türkiyəni dost, qardaş ölkə kimi sevirəm və sevəcəyəm. Türkiyənin indi bəzi problemləri var - iqtisadi problemlər, filanlar, bu problemlərin tezliklə çözülməsini arzu edirəm. Türkiyə xalqına daha da gözəl həyat və Türkiyə dövlətinə daha da çox güc, daha da çox inkişaf arzulayıram.

İlaluk Koç: Cənab Prezident, proqramımızda iştirak etdiyinizə görə Sizə təşəkkür edirəm. Sizi yaxşı niyyətlərlə Azərbaycana yola salırıq.

Beləliklə, bugünkü qonağımız Azərbaycanın Cümhurbaşkanı Heydər Əliyev idi. Cənab Heydər Əliyev ilə görüşdük, müəyyən məsələlər barəsində ondan bilgilər aldıq. Heydər Əliyev türk-azəri dostluğunun inkişafı yolunda bundan sonra önəmli məsafələr qət edəcəyimizi söylədi. Hörmətli Əliyev aprelin 3-də Amerika Birləşmiş Ştatlarına gedir. Paris görüşlərinin davamı kimi, orada görüşlərdə nələr olacaq, bu barədə hələ bir şey bilinmir. Ancaq Qarabağ probleminin çözümü üçün önəmli ola biləcək bir görüş ərəfəsində Türkiyədən ayrılır.

"Azərbaycan" qəzeti, 25 mart 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "Sİ-EN-EN TÜRK" TELEVİZİYASINA MÜSAHİBƏSİ

Taha Akyol: Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirəm. Siz Böyük Millət Məclisindəki nitqinizdə Türkiyədə özünüzü vətəninizdəki kimi hiss etdiyinizi söylədiniz. Türk xalqı Sizi ikinci bir Türkiyənin cümhur başqanı kimi görür. Sizin dediyiniz kimi, "Biz bir millət, iki dövlətik". "Si-En-En Türk" televiziyasına müsahibə verməyə razı olduğunuz üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Mən ilk sualımı Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı vermək istəyirəm. Bilirsiniz ki, bu sahədə bir canlanma vardır. Siz Azərbaycanın Avropa Şurasına üzv qəbul olunması münasibətilə Parisə getdiyiniz zaman prezident Jak Şirak ilə də görüşdünüz, bu məsələ barədə müzakirələr apardınız. Bundan sonra ABŞ-ın Xarici İşlər naziri Pauell Sizi Amerikaya dəvət etdi. Jak Şirakla və Koçaryanla görüşləriniz nə yerdə qaldı ki, Siz məhz bunun üçün Amerikaya gedəcəksiniz?

Heydər Əliyev: Mən ən öncə bildirmək istəyirəm ki, Türkiyədə "Si-En-En" kanalı açılan zaman təbrik məktubu göndərmişdim və sizə uğurlar arzulamışdım. İndi çox sevinirəm ki, siz bu kanalda çox uğurla çalışırsınız. Sizin bütün bu işlərin başında

duran hörmətli Aydın Doğan böyük işlər görür. Ona görə də mən ona salamlarımı, ehtiramımı çatdırıram.

Türkiyənin Böyük Millət Məclisində millət vəkillərinə xitab etmək mənim üçün tarixi bir hadisədir. Çünki Böyük Millət Məclisinin nə qədər böyük həm tarixi, həm də əhəmiyyəti olduğunu orada söylədim. Bir neçə məsələlər haqqında danışdım. Ancaq indi bizi, Azərbaycanı, təkcə Azərbaycanı yox, Türkiyəni də, Qafqazı da ən çox narahat edən problem Ermənistan - Azərbaycan münaqişəsidir. Bu münaqişənin yaşı çoxdur. Artıq 12 ildir ki, ermənilər Azərbaycanın Dağlıq Qarabağ hissəsini əlinə keçirmək üçün təcavüzə başlayıblar və bu təcavüz nəticəsində müxtəlif səbəblərə görə ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal ediblər. Bəli, ərazimizin 20 faizini işğal ediblər və işğal olunmuş yerlərdən bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan çıxarılıbdır, qaçqın olubdur və çadırlarda yaşayırlar.

Sual: Cənab Prezident, Siz bunları Jak Şiraka anlatdırandan sonra o, bir söz demədi?

Cavab: Mən bunu bütün dünyaya anlatmışam. Dünyada o yer yoxdur ki, bunu anlatmayam. Mənim Jak Şirakla görüşüm birinci dəfə deyildi. Mən onunla 15 dəfə görüşmüşəm və hər dəfə də ona anlatmışam.

Sual: Sizin Jak Şirakla son görüşünüz Fransa parlamentinin "erməni soyqırımı" barədə qərar qəbul etməsi baxımından da önəmli idi. Orada Ermənistanın daşnak cümhur başqanı Koçaryan da var idi. Siz bir milyon azərbaycanlının ermənilər tərəfindən silah gücü ilə yurdlarından didərgin salındığını söylədiyiniz zaman Jak Şirak heç bir şey demədi?

Cavab: Bilirsiniz, onlar artıq buna öyrəniblər. Dünyada ikili standartlar var. Ona görə də bir yerdə hərəkəti qanuni hesab edirlər, digər yerdə yox. Məsələn, beynəlxalq hüquq var, bir dövlət o biri dövlətin torpağını işğal edə bilməz. Sərhədini poza bilməz, təcavüz edə bilməz. Hər bir dövlətin ərazi bütövlüyü Birləşmiş Millətlər Təşkilatı tərəfindən qorunur. Bunlar yazılıb, bütün sənədlərdə var, hər yerdə var, hamı bunu deyir. Amma hərə öz ölkəsi üçün bunu istifadə edir. Onu görə bu, Şirak üçün yeni bir şey deyildir.

Sual: Siz Şirakdan prinsipial mövqe - ikili standartlılıq mövqeyi yox - yəni "Azərbaycana müdaxilə olunmuşdur, Ermənistan təcavüzkardır" şəklində bir mövqe gördünüzmü?

Cavab: Bilirsiniz, mən bunu ona demişəm. Özü də Ermənistanın Prezidenti Koçaryanın yanında demişəm. Ancaq onlar bu şeylərə fikir vermirlər. 1992-ci ildə Minsk qrupu yaranıbdır ki, Ermənitsan - Azərbaycan münaqişəsi çözülsün. Minsk qrupunun üç həmsədri var - Rusiya, Amerika, Fransa.

Doğrudur. Minsk qrupuna 12 dövlət daxildir. O cümlədən Türkiyə

də Minsk qrupunun üzvüdür. Amma Minsk qrupuna üç həmsədr rəhbərlik edir. Mən Klinton ilə bu barədə 7 il müzakirə aparmışam, 15-16 dəfə görüşmüşəm və bunların hamısını demişəm. Yaxud, Rusiyanın keçmiş Prezidenti Yeltsinlə, - ola bilər, sayını da itirmişəm, - neçə dəfə görüşmüşəm. Yeni Prezident Putinlə görüşmüşəm.

Sual: Cənab Prezident, Siz Amerikanın məsələyə bu qədər qatılmasını, diqqət yetirməsini, Pauellin xüsusi təşəbbüsü ilə Sizi Amerikaya dəvət etməsini necə qarşılayırsınız?

Cavab: Bilirsiniz, bu, yeni bir şey deyildir. Yəni mən Amerikada 1994-cü ildən başlayaraq həm Amerikanın prezidenti Klintonla, həm Xarici İşər naziri Olbraytla və həm də digər adamlarla dəfələrlə görüşmüşəm və anlaşmalar imzalamışıq. Onlar hər dəfə deyiblər ki, bu məsələnin çözülməsinə yardım edəcəklər. Amma yardım etməyiblər. İndi mən belə hiss edirəm ki, Minsk qrupunun həmsədrləri bir az hərəkətə gəlmək istəyirlər. Yəni Prezident Jak Şirak apardığı danışıqları həm prezident Buşla, həm də Putinlə telefonda məsləhətləşibdir. Mən də, Koçaryan da Fransada olduq. Əgər Pauell dəvət edibsə... doğrudan, mən burada səfərdə olmuşam, hələ eşitməmişəm, amma birinci məlumatı siz vermisiniz. Ancaq bilirəm ki, onlar hazırlaşırdılar.

Sual: Cənab Prezident, aprelin 3-də Floridada Sizin və Koçaryanın bir araya gəlib Qarabağ məsələsinin həll edilməsi üçün uzun məsafə qət edərək Amerikaya gedəcəyinizdən məmnun oldunuzmu?

Cavab: Mən məmnunam. Mən hər bir fürsətə məmnunam. Hər bir fürsət mənə imkan verir ki, Azərbaycana təcavüz olunması haqqında fikirlərimi çatdırım. Amerikada indi yeni hökumətdir, yeni Prezidentdir. Yeni adamlardır, onlar da bilməlidirlər. Amma hamısının bir fikri var: Ermənistan və Azərbaycan Prezidentləri bir araya gəlsinlər, bir şeylə razılaşsınlar, ikisi də nəyi qəbul etsə, Amerika da, Fransa da, Rusiya da onu qəbul edəcəkdir. İş bundadır ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edibdir. Ona görə də o, bizim qarşımıza şərtlər qoyur. Mən o şərtləri qəbul edə bilmərəm. İndi görək Amerikada bu şərtlər nə olacaq, biz o şərtlərin hansını qəbul edə bilərik, hansını onlar qəbul edə bilər.

Sual: Cənab Prezident, Siz Koçaryanla görüşlərinizdə hər hansı modellər üzərində dayanırsınızmı?

Cavab: Bir neçə model olubdur. Hətta 1999-cu ildə, hesab edirəm ki, biz normal model üzərində razılaşdıq. Amma 1999-cu ilin sonunda Koçaryan bundan qaçdı.

Bəli, 1998-ci ildə Minsk qrupunun bir təklifi var idi. Ter-Petrosyan onu qəbul etmişdi. Amma Ter-Petrosyanın ətrafında olanlar onun əleyhinə qalxdılar və o, istefa verdi.

Sual: Qarabağ məsələsi ilə, Qafqaz və enerji məsələləri ilə bağlı şəxsən Siz çox təcavüzlərə məruz qaldınız. Sizi çevrilişlə devirmək istədilər, sui-qəsdlə rastlaşdınız. Sonra anlaşıldı ki, Moskva Yeltsinin zamanında Ermənistana bir milyard dollarlıq silah yardımı etdi. Rusiyanın yeni lideri Putin gəlib Sizinlə görüşdü. Rusiyanın mövqeyində bir dəyişiklik görürsünüzmü? Rusiya Azərbaycana yaxınlaşırmı?

Cavab: Bilirsiniz, Rusiya Azərbaycana yaxınlaşmaq istəyir. Çünki Azərbaycan öz coğrafi-strateji vəziyyətinə görə, öz potensialına görə Qafqazda xüsusi yer tutur. Ona görə də Rusiya istəyir ki, Azərbaycan ilə əlaqələri yaxşı olsun, daha da yaxşı olsun.

Ermənistana bir milyard dollar dəyərində silah vermişdilər. Satmamışdılar, onlara vermişdilər. Mən bunu ilk dəfə 1997-ci ilin mart ayında Yeltsinə deyəndə, o, hirsləndi ki, bunu edəcəyəm, asacağam, kəsəcəyəm. Amma üç aydan sonra mən onunla görüşdüm. Gördüm, o, başqa bir hava çalır. Biz belə deyirik, başqa bir mahnı oxuyur. Ondan sonra biz bir neçə dəfə səylər göstərdik.

Putin Prezident oldu. Putin mənə dedi ki, bu işi çox yaxşı bilir, necə olduğunu bilir. Putinin belə bir fikri var idi ki, bir iş görsün. Amma orada ordu var, filan var. Sonra Putin dedi ki, artıq bu, arxada qaldı. Mən tələb edirdim ki, siz o silahları geri alın. Amma o dedi ki, artıq o silahları geriyə almaq mümkün deyildir, silahlar haradadır, heç biz də bilmirik.

Sual: Hörmətli Cümhurbaşkanı, Rusiyanın bugünkü lideri Putin Azərbaycana yaxınlıq göstərir. Təbii ki, bunun da Qafqaz, enerji, təbii qaz, neft boru xətləri ilə bağlı səbəbləri var. Eyni zamanda da Ermənistanın Xarici İşlər naziri Oskanyan demişdir ki, biz Rusiya ilə strateji ittifaq yaratmışıq. Rusiyanın bu mövqeyi sizi təmin edirmi? Rusiya Ermənistanla Azərbaycan arasında bitərəf mövqe tutaraq məlum problemi, münaqişəni həll etməyə çalışırmı?

Cavab: Rusiyanın Ermənistanla hərbi ittifaq yaratmasına biz etiraz edirik. Mən bunu dəfələrlə söyləmişəm. Rusiyanın Ermənistanda hərbi bazalar, əsgəri hissələr saxlamasına biz etiraz edirik. Mən bunu Putindən öncə Yeltsinə də demişəm, Putinə də demişəm.

Sual: Bu etirazınızı söyləyəndə Putin nə dedi?

Cavab: Bilirsən, onların hamısı bir şey deyir. Deyirlər ki, bunlar Azərbaycana qarşı deyildir. Deyirəm, bəs kimə qarşıdır? Deyirlər ki, NATO-ya qarşıdır. Deyirəm, NATO haradadır? Deyirlər ki, NATO sizin Bakıda olan sərhədinizdədir. NATO Türkiyədədir. Bax, mən bu sözləri sizə açıq deyirəm. Çünki mən bunu dəfələrlə söyləmişəm.

Sual: Yeltsin və sonra Putin açıqca dedilər ki, Ermənistandakı rus əsgəri qüvvələri Türkiyədəki NATO-ya qarşıdır?

Cavab: Elədir.

Sual: Siz indi Ermənistanda həyata keçirilən siyasətin iki-üç il əvvəlki dövrlə müqayisədə gücləndiyini, yaxud zəiflədiyini görürsünüzmü?

Cavab: Ermənilər siyasətdə güclüdürlər. Çünki onların diasporu çox güclüdür. Onları dəstəkləyənlər güclüdür. İqtisadi cəhətdən Ermənistan çox pis bir haldadır. Onun əhalisinin bir qismi Ermənistanı tərk edib gedibdir. Orada iqtisadi vəziyyət çox çətindir. Ona görə onlar da istəyir ki, bu problem çözülsün. Ermənistanı dəstəkləyən dövlətlər də istəyir çözülsün. Təkcə ona görə yox ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilsin. Ona görə ki, Ermənistan boğulmasın. Ermənistan bir-iki ilə boğulacaqdır.

Sual: Həqiqətən, Ermənistan iqtisadi baxımdan çox pis vəziyyətdədir. Amma son vaxtlar bir təşəbbüs oldu. Ermənistan, İran və Yunanıstan arasında həm siyasi, həm də iqtisadi işbirliyi haqqında qərarlar var, onlar görüşdülər. Siz bunu necə qarşılayırsınız?

Cavab: Mən bunu necə qarşılaya bilərəm. Mən çox təəssüflənirəm ki, bizim yaxın qonşumuz İran Ermənistanla bu qədər geniş ticarət edir, geniş ilişkilər qurur.

Sual: Ermənistanın nəfəs borularından biri də İrandır...

Cavab: Bəli, Ermənistanın nəfəs borularından biri də İrandır. Keçmiş Prezident Ter-Petrosyan bir dəfə demişdi ki, əgər İran ilə ticarət əlaqələrimiz iki gün kəsilsə, biz boğulacağıq. O, bunu demişdi. Tamamilə doğru deyirsən. Özü də ən böyük nəfəs borularından biridir. Ancaq onlar bunu edirlər.

İndi gördünüz, İranın Prezidenti Moskvaya getdi. Bu, tarixdə birinci dəfə olan bir şeydir. Yəni 22 il bundan öncə ki, Xomeyni hakimiyyətə gəldi, indiyə qədər ilk dəfədir ki, İranın Prezidenti Moskvaya getdi. Ondan öncə də şah bir dəfə getmişdi. Yəni İran ilə Rusiya arasında əlaqələr həmişə gərgin olmuşdur.

Sual: Cənab Prezident, anlayıram ki, İranın siyasəti, yəni həm Ermənisanı dəstəkləmək, həm də Rusiya ilə yaxın əlaqələr qurmaq siyasəti sizi narahat edir. Elədirmi?

Cavab: Təbiidir ki, bu, narahat edir.

Sual: Bu il ərzində, yaxud önümüzdəki bir-iki il içərisində Qarabağ probleminin çözülməsinə, həll edilməsinə ümidiniz varmı?

Cavab: Bilirsiniz, mən həmişə ümidlə yaşayıram. Qaçqınlarla görüşürəm, mənim qəlbim ağrıyır. Təkcə görüşəndə yox, sizə səmimi deyirəm, gecələr yata bilmirəm. Çünki bir milyon insan çadırlarda, qarın, yağışın altında yaşayır. Ona görə də mən bu məsələni çözmək istəyirəm və bunun üçün də çalışıram. Mənim bütün çalışmalarımın, demək olar ki, 70 faizi bu məsələdən ötrüdür. Dünyada o təşkilat, o dövlət yoxdur ki, mən onlarla bu işləri müzakirə etməyim. İndi bir savaş yolu qalıbdır. Azərbaycanda bu savaş yolunu ortaya atanlar var. Amma hesab etmirəm ki, bu gün savaş məqbul bir şeydir. Yəni yenidən savaş etmək doğru yoldur.

Sual: Siz Məclisdəki nitqinizdə dediniz ki, Türkiyə ilə münasibətləriniz strateji tərəfdaşlıq xarakteri daşıyır.

Cavab: Biz belə bir şey imzalamışıq. 1997-ci ildə Türkiyə ilə Azərbaycan arasında anlaşma imzalanıbdır ki, Türkiyə-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır.

Sual: Bu, sizi təmin edirmi? Türkiyənin Azərbaycana verdiyi dəstək sizi təmin edirmi?

Cavab: Siyasi tərəfdən, bəli.

Sual: Siyasi tərəfdən aydındır. Siyasətdən başqa, məsələn, iqtisadi, sosial sahələrdə necə, təmin edirmi?

Cavab: Bunu siz bilirsiniz.

Sual: Cənab Prezident, çox diplomatik cavab verdiniz. Bu, uzun illərin diplomatı Heydər Əliyevin cavabıdır. Mən Sizin fikrinizi bilmək istəyirəm. Bunu hörmətli cümhur başqanına, Baş nazirə söyləmisiniz?

Cavab: Bu günlər hörmətli Cmhurbaşkanı ilə də, hörmətli Baş nazir ilə də, hörmətli baş qərargah rəisi ilə də əlaqələrimiz barədə çox geniş danışıqlarımız, müzakirələrimiz olubdur. Cümhurbaşkanı ilə təkbətək üç saat söhbət etmişik.

Sual: Siz bunu açıqlamaq istəmirsiniz?

Cavab: Yox.

Sual: Amma məmnunsunuzmu?

Cavab: Danışıqlardan məmnunam. Amma nəticəsi nə olacaqdır.

Sual: Növbəti dəfə Sizinlə müsahibə zamanı nəticə barədə soruşacağam.

Cavab: Onda soruşarsan.

Sual: Cənab Prezident, Azərbaycanın Türkiyəyə 2 milyard kubmetrdən 6 milyard kubmetrədək təbii qaz satması barədə anlaşma imzalandı. Siz bundan son dərəcə məmnunsunuz. Türkiyənin Rusiyadan qaz almasından narahat olmuşdunuz. İndi, həmin narahatlığınız aradan qalxdımı?

Cavab: Bilirsiniz, mən Türkiyənin işinə qarışmaq istəmirəm. Amma Türkiyənin qaza böyük ehtiyacı vardır. Mən dünən axşam Türkiyə televiziyasında baxdım ki, Enerji naziri Cümhur Ərsümər Misirdən buraya qaz gətirmək istəyir. Rusiyadan alır, Misirdən alır, Azərbaycandan alır, bəlkə də bunlar Türkiyə üçün lazımdır. Mən bunu normal görürəm. Amma hesab edirəm ki, hamısından öncə Türkiyə Azərbaycan qazı gətirməlidir. Təkcə iqtisadi nöqteyi-nəzərindən yox, həm də strateji nöqteyi-nəzərindən.

Sual: Cənab Prezident, Azərbaycan qazı Türkiyəyə ucuz qiymətə satılacaqdır?

Cavab: Mən ticarət işləri ilə məşğul olmuram. Təbii, dünya bazar qiymətləri ilə olacaqdır.

Sual: Azərbaycandan Türkiyəyə həm Bakı-Ceyhan boru kəməri ilə neft gəlməsi, həm də ayrı bir kəmərlə təbii qaz gəlməsi məsələsi artıq qə-

tiləşdi.

Cavab: Bəli, artıq Bakı-Ceyhan məsələsində bir problem yoxdur. Yəni bütün anlaşmalar imzalanıbdır. İndi, sadəcə, layihə-mühəndis işləri gedir. Bir də bunun inşası ilə məşğul olacaq şirkətlər para toplamaqla məşğuldurlar. Son vaxtlar Türkiyədə bu məsələdə bir az soyumuşdular. Mən ona görə Bakıda bir-iki dəfə bu barədə tənqid etdim, yəni narahatlığımı bildirdim. Amma burada bizim danışıqlarımızda hər şey çözüldü. İndi elə bir problem yoxdur.

Məsələn, burada qaz haqqında anlaşma imzaladığımıza görə, Gürcüstanın Prezidenti mənə təbrik məktubu göndəribdir. Çünki bu, Gürcüstan üçün də çox önəmlidir. Təbii qaz barədə anlaşma imzaladıq. Həm hökumətlərarası anlaşma, həm də 6 milyard kubmetr qazın alqı-satqısı haqqında anlaşma imzaladıq. Mən demişəm, biz gələcəkdə Türkiyəyə 15-20 milyard kubmetr qaz verə bilərik.

Sual: Bilirsiniz ki, Bakı-Ceyhan neft boru xətti sahəsində konsorsium yaranmışdır. Burada Türkiyə və Azərbaycanın da payı vardır. Bu konsorsium tərəddüd edir. İndi həmin konsorsium Bakı-Ceyhan boru xətti ilə bağlı mövqelərini dəyişibdir. Bu məsələdə təbii qaz haqqında anlaşmanın rolu oldumu? Çünki onlar çıxarılacaq qazın satılmasını istəyirlər. Bu bölgədə də ən çox qaz ala biləcək ölkə Türkiyədir.

Cavab: Deyə bilmərəm ki, onun bir rolu oldu. Çünki biz bundan öncə Bakı-Ceyhanı həll etmişik. Bilirsiniz, konsorsiumda bəzi şirkətlər var ki, Bakı-Ceyhanın olmasını istəmirlər. Amma ən böyük şirkətlər bunu istəyirlər. Ona görə də mən burada bir problem görmürəm. Bu, baş tutacaqdır. Təbiidir ki, çox ölkələr bunun olmasını istəmirlər. Amma siz deyirsiniz ki, bəzi şirkətlər kəmərin Rusiyadan keçməsini istəyirdilər. Rusiyadan o qədər yox, amma Bakı-Supsa borusu var, onlar istəyirdilər ki, o borunu bir az da genişləndirək. İndi biz onunla 5-6 milyon ton neft göndəririk. Deyirdilər ki, məsələn, 15-20 milyon ton da neft göndərilə bilər, 2-3 ildən sonra isə Bakı-Ceyhanı başlayarıq. Amma mən dedim ki, yox. Bakı-Ceyhan indi başlanmalıdır. Onların bəziləri dedilər ki, gəlin, İrandan çəkək, çünki İran yolu daha ucuzdur, İrandan körfəzə məsafə azdır, daha da ucuz başa gələr. Bunu həm Amerika qəbul etmədi, həm də hesab edirəm ki, biz 1994-cü ildə Bakı-Ceyhanın təməlini qoymuşuq. Mən altı ildir bu təməli inkişaf etdirirəm. Ona görə bu, mənim əsərimdir.

Sual: Cənab Prezident, həqiqətən də, Bakı-Ceyhan boru xəttinin ərsəyə gəlməsində Sizin çox böyük əməyiniz olmuşdur. Siz bu yolda çox təhlükələrlə qarşılaşdınız. Doğrudur ki, bu, sizin əsərinizdir. Mən Xəzərin statusu ilə bağlı soruşmaq istəyirəm. Bu məsələdə ciddi problemlər var. Xüsusilə İranla, Türkmənistanla Sizin aranızda problemlər var. Xəzərin statusu məsələsi həm Azərbaycan üçün çox önəmli, həm də Qazaxıstan neftinin, Türkmənitan qazının Xəzərdən keçərək Türkiyəyə gəlməsi baxımından da önəmlidir. Bu məsələ həll olunurmu?

Cavab: Bilirsiniz, Xəzərin hüquqi statusunu müəyyən etmək üçün bir çox il lazımdır. Amma mən hesab edirəm ki, - biz bu yol ilə gedirik, - ilk öncə, Xəzərin dibindəki mineral ehtiyatlar, yəni təbii qaz, neft yataqlarının işlənilməsi ilə məşğul olmaq lazımdır. Çünki orda gəmiçilik də var, balıqçılıq da var, ekoloji problemlər də var, başqaları da var. Bunlar hamısı var. Bunların hamısını birdən çözmək mümkün deyildir.

Bütün ölkələr buna etiraz etdiyi zaman, hələ 1994-cü ildə Azərbaycan Xəzər dənizində öz sektorunda, - Sovetlər Birliyi zamanı Xəzər dənizi təkcə Sovetlər Birliyinə məxsus idi, ona görə də bunu respublikalar arasında sektorlara bölmüşdü, - bu işləri başlayıbdır. 1994-cü ildə biz birinci müqaviləni imzaladıq. İndi 20 müqavilə imzalamışıq. Biz öz sərhədlərimizdən çıxmırıq. Nə yaxşı ki, Rusiya bu prinsipi qəbul etdi, yəni o, Qazaxıstanla bir anlaşma imzaladı. Putin Azərbaycana, Bakıya gələndə bizimlə də bir anlaşma imzaladı. Düşünürəm ki, Türkmənistan da bu prinsipin tərəfində olacaqdır.

Sual: Yəni Türkmənistan təbii qazının Azərbaycandan Türkiyəyə gəlməsi mümkün olacaqdır?

Cavab: Onu deyə bilmərəm. O, bundan fərqli bir şeydir. Yəni bir var ki, sektor prinsipini qəbul etmək...

Məsələn, biz Rusiya ilə Xəzər dənizindən istifadə olunmasının prinsipləri haqqında bir anlaşma imzaladıq. Bu prinsiplər də odur ki, hər ölkənin sektoru var - onun ərazisindən Xəzərin orta xəttinə qədər. Biz bu barədə Rusiya ilə anlaşma imzaladıq.

Sual: Bunu Qazaxıstan da qəbul edir?

Cavab: Qazaxıstan da imzalayıbdır.

Sual: Amma İran qəbul etmir?

Cavab: İran bunu qəbul etmir. İran deyir ki, Xəzəri beş bərabər hissəyə bölmək lazımdır. Bu da mümkün deyildir.

Sual: Cənab Prezident, demək, Xəzər dənizinin istifadəsi sahəsində Azərbaycan, Rusiya və Qazaxıstan eyni prinsipdə olduğuna görə Qazaxıstan neftinin Bakıya, oradan da Türkiyəyə gəlməsində bir problem olmayacaqdır?

Cavab: Bu, fərqli şeydir. Çünki Rusiya istəmir ki, Qazaxıstan nefti buraya gəlsin. Rusiya etiraz etmir ki, Qazaxıstan öz sektorunda neft çıxarsın. Amma onu necə ixrac etsin, bu, digər problemdir. Onun buraya dəxli yoxdur. Məsələn, biz Rusiya ilə sektor prinsipi barədə anlaşmanı imzalayanda heç bir öhdəlik götürmədik ki, biz nefti haradan, hansı ölkədən, hansı marşrutla, hansı yolla ixrac edəcəyik.

Sual: Cənab Prezident, indi mənə bildirdilər ki, Rusiya hava yollarına məxsus bir təyyarə çeçen olduq-

ları güman edilən iki kişi tərəfindən qaçırılmışdır. Təyyarə Səudiyyə Ərəbistanının Mədinə şəhərində yerə enmişdir. Orada nə olacağını göracəyik. Siz Çeçenistan məsələsi haqqında nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz, ola bilər, bu kiçik bir hadisədir, elə böyük bir hadisə deyildir. Dünyada belə hadisələr çox olub. Amma Çeçenistan problemi, təbiidir ki, böyük bir problemdir. Burada yenə iki prinsip bir-biri ilə zidd gəlir. Yəni bir tərəfdən beynəlxalq hüquq var, hər dövəltin torpaq bütövlüyü təmin olunmalıdır. Rusiya öz torpaq bütövlüyünü təmin edir. Ona görə o, çeçenlərə müstəqillik vermək istəmir. Çeçenlər də deyir ki, biz müstəqil olmaq istəyirik. Ona görə 5-6 ildir savaş gedir. Görürsünüz, savaş hələ nə vəziyyətdədir.

Sual: Cənab Prezident, Sizinlə müsahibə aparacağımız televiziyada elan etdikdən sonra mənə çox sayda telefon zəngi oldu. İnsanlar Sizə sevgilərini, hörmət və ehtiramlarını ifadə edirlər. Bunu izləyicilərimiz adından Sizə çatdırmaq istəyirəm.

İrandan keçməklə Azərbaycana gedən türk sürücülərindən Azərbaycana daxil olduqda ayaqbasdı, keçid pulu və s. çox para alırlar. Mənə bu barədə o qədər telefon zəngi oldu ki, Sizə sual vermək məcburiyyətində qaldım. Azərbaycan ilə Türkiyə arasında bu işləri daha asan etmək mümkündürmü?

Cavab: Bizim Türkiyə ilə əlaqələrimiz çox yüksək səviyyədədir. Sürücünün gedib-gəlməsi elə bir şey deyildir. Birincisi, bu, problem deyildir. İkincisi, bu məsələ Cümhurbaşkanı səviyyəsində olan problem deyildir. Mən Baş nazirə əmr vermişəm, o, bu işlərlə məşğul olur.

Jurnalist: Aydındır, əmr verdinizsə, məsələ həll olunacaqdır. Sizin bu təşəbbüsünüzü alqışlayırıq.

Cənab Prezident, son olaraq Azərbaycan haqqında soruşmaq istəyirəm. Azərbaycan Cümhurbaşqanın yardımçısı vəzifəsi yaratmaq istəyiniz söylənilir...

Cavab: Bu, yanlış şeydir, belə bir şey yoxdur. Bunu kimsə uydurub. Kimsə yanlış bir şey ortaya atır. Bilirəm, bizdə müxalifətdə onlar bəzən belə uydurma şeylər deyirlər. Siz onlara inanmayın.

Taha Akyol: Cənab Prezident, bizi qəbul etdiyiniz üçün, dəyərli açıqlamalar verdiyiniz üçün Sizə çox təşəkkür edirəm. Həqiqət də çox önəmli açıqlamalar verdiniz. "Si-En-En Türk" televiziyası vasitəsilə türk xalqına söyləyəcəyiniz nəsə varsa, buyurun.

Heydər Əliyev: Mən təşəkkür edirəm. Bu fürsətdən istifadə edib, qardaş türk xalqına, Türkiyənin vətəndaşlarına öz hörmət-ehtiramımı, sevgi-məhəbbətimi bildirirəm. Türkiyəyə sülh, əmin-amanlıq və rifah arzulayıram.

Taha Akyol: Cənab Prezident, Sizə bir daha təşəkkür edirik.

"Azərbaycan" qəzeti, 25 mart 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN "SAMAN YOLU" TELEVİZİYASINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz iqamətgahında - Camlı köşkdə Türkiyənin "Saman Yolu" televiziya kanalının müxbiri Məlih Meriçə müsahibə vermişdir.

Jurnalist: Hörmətli Cümhurbaşkanım, əvvəlcə, həm Türkiyəni, həm də Azərbaycanı narahat edən bir məsələ barədə soruşmaq istəyirəm. Ermənilər öncə Azərbaycanın mühüm torpaqlarını işğal etmişlər, sonra soyqırımı haqqında uydurma iddiaları ilə dünyanı ayağa qaldırdılar, indi də Qars Anlaşmasını ittiham edən sözlər söyləməyə başladılar. Bu, həm Türkiyədə, həm də Azərbaycanda çox ciddi narahatlıq doğurur. Sizcə, ermənilər nə etmək istəyirlər, bütün bunların arxasındakı niyyət nədən ibarətdir?

Cavab: Ermənilər uzun illər, əsrlər "Böyük Ermənistan" iddiası ilə yaşayırlar. Onlar həmişə təcavüzkar olublar, indi də təcavüzkardırlar. XX əsrin sonunda onların ən böyük təcavüzü Azərbaycan torpaqlarına olubdur. Azərbaycanın qədim və ayrılmaz bir hissəsi olan Dağlıq Qarabağı Ermənistana bağlamaq iddiasındadırlar. Bunun da nəticəsində, bilirsiniz ki, böyük münaqişə başlayıbdır və 12 ildir davam edir. Baxmayaraq ki, bu illərdə Azərbaycan öz səsini hər yerdə - Birləşmiş Millətlər Təşkilatında, ATƏT-in Zirvə Görüşlərində, İslam Konfransı Təşkilatında, böyük dövlətlər ilə danışıqlarda qaldırıb, amma ermənilər buna tabe olmurlar.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi var ki, Ermənistan işğal olunmuş torpaqlardan öz silahlı qüvvələrini qeyd-şərtsiz çıxarmalıdır. Amma Ermənistan bunu çıxarmır. Eyni zamanda dünyada beynəlxalq hüquq normaları var. Bu hüquq normaları 1975-ci ildə Finlandiyada ATƏT yaranarkən onun sənadində bir daha öz əksini tapıbdır. Bu, ondan ibarətdir ki, heç bir ölkənin torpaq bütövlüyü pozula bilməz, onun sərhədləri pozula bilməz. Bunların pozulması, təbiidir ki, beynəlxalq hüquq normalarının pozulması deməkdir.

Bütün dövlətlərin, həm Birləşmiş Millətlər Təşkilatına daxil olan dövlətlərin, həm də ATƏT-ə daxil olan dövlətlərin gözü qarşısında Ermənistan beynəlxalq hüquq normalarını pozur. Heç kəs də Ermənistanı qınamır. Əksinə, bizi dəvət edirlər ki, siz çalışın, Ermənistanla bir dil tapın, məsələləri həll edin. Biz də məsələləri həll etmək istəyirik. Ona görə də 1994-cü ilin may ayında biz atəşkəs haqqında Sazişi imzaladıq. O vaxtdan döyüşlər yoxdur. Amma eyni zamanda sülh də yoxdur. Azərbaycanın torpaqlarının iyirmi faizi Ermənistanın işğalı altındadır. Bu torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıbdır. Bilirsiniz

ki, indi çadırlarda yaşayırlar. Sizin televiziya bir neçə dəfə həmin o çadır şəhərciklərində olubdur, oradakı vəziyyəti bilirsiniz. Bunu həm Türkiyəyə, həm də digər ölkələrə, hansılara ki, sizin televiziyanın verilişləri yayımlanır, göstərmisiniz.

Ermənistan özü gücsüz bir dövlətdir. İqtisadi cəhətdən çətin bir dövr yaşayır. Onun iqtisadiyyatı inkişaf etmir. Əksinə, geriyə gedir. İnsanların çoxu Ermənistanı buraxıb Rusiyaya, Amerikaya, Fransaya, başqa ölkələrə gedirlər. Ermənistanın əhalisi hər ay azalır. Amma buna baxmayaraq, ermənilərin dünyada böyük diasporu vardır. Məsələn, Amerikada, Fransada, bütün ölkələrdə var.

Sual: Hörmətli Prezident, bu barədə Türkiyədə də çox danışılır. Bu diaspor Ermənistandakı ermənilərin xeyrinədir, yoxsa zərərinədir?

Cavab: Onlar hesab edirlər ki, faydasınadır. Ermənistan da hesab edir ki, faydasınadır. Onlar böyük dövlətlərə təsir edirlər. Məsələn, Fransaya təsir etdilər, Fransanın parlamenti "soyqırımı" haqqında qərar çıxardı. İndi bu işi Amerikada aparırlar. Keçmişdən də aparırdılar, indi də aparırlar. Belə bir qərar Rusiya parlamentinə də çıxarıldı, amma Rusiya bunu qəbul etmədi.

Bu diaspor indi Böyük Ermənistan haqqında düşünür. Ermənistanın bu diaspor ilə birlikdə "soyqırımı" məsələsini qaldırması nə deməkdir? Birincisi, o deməkdir ki, onlar Türkiyənin doğu hissəsində olan torpaqlara iddia edirlər ki, bunlar Ermənistanındır. İkincisi, guya 1915-ci ildə türklər ermənilərı qırıblar. İndi onlara pul, təzminat vermək lazımdır. Yəni bunlardan ötrü edirlər.

Mən Böyük Millət Məclisində dedim. Bu qərarların heç biri Türkiyə üçün problem yarada bilməz. Türkiyə böyük dövlətdir, müstəqil dövlətdir, Türkiyənin daxili işinə heç kim qarışa bilməz. Tarixdə nə olubdur, nə olmayıbdır, qoy onu tarixçilər araşdırsınlar.

Sual: Hörmətli Cümhurbaşkanım, bu problemin həlli üçün beynəlxalq prinsiplər var. Erməni diasporu deyir ki, onlar sülh istəyirlər. Amma Ermənistan, bir tərəfdən, Azərbaycanın tarixi torpağını işğal etmişdir, digər tərəfdən isə, Qars Anlaşmasına qarşı çıxaraq başqa bir torpağa gözünü dikmişdir. Görünür, onların beynəlxalq dəstəyi vardır. Ermənilərin Azərbaycan və Türkiyə torpaqlarında gözü vardır. Yaxın gələcəkdə sülhə olan ümid doğrulacaqmı?

Cavab: Ermənilər bu işləri edirlər. Düşünmürəm ki, onlar bu işlərə nail ola bilərlər. Ermənilər heç vaxt Türkiyənin torpaqlarının bir metrini də özlərinə ala bilməzlər.

Mən Qars Anlaşması haqqında Böyük Millət Məclisində söylədim. Orada bu məsələni daşnaklar qaldırırlar. Bu gün oxudum ki, Ermənistanın prezidenti bəyanat verib ki, bu, Ermənistan dövlətinin mövqeyi

deyildir. Ancaq Qars Anlaşması var və bunu heç kəs poza bilməz. Bunu Rusiya imzalayıbdır, Türkiyə imzalayıbdır, Azərbaycan imzalayıbdır... Bunu heç kəs poza bilməz.

Sual: Cənab Prezident, Amerika Qarabağ probleminin həllinə dair səylərini artırır. Bu, səmərəli olacaqmı?

Cavab: Mən 7 ildən artıqdır ki, Azərbaycanın Cümhurbaşkanıyam. Bu müddətdə Amerika ilə daim müzakirə aparıram. Amerikanın keçmiş prezidenti Klinton ilə bir çox görüşlər Keçirmişəm. Xanım Olbrayt ilə görüşlər keçirmişəm.

Amerika Rusiya ilə, Fransa ilə bərabər ATƏT-in Minsk qrupunun həmsədridir. Onların nümayəndələri Ermənistana, Azərbaycana gəliblər. Bilirsiniz, onlar bizim haqlı olduğumuzu etiraf edirlər. Amma eyni zamanda deyirlər ki, biz Ermənistanı məcbur edə bilmirik. Amma məcbur etməyə imkanları var. Çünki Amerika Azərbaycana yardım üçün embarqo qoyubdur, Ermənistana yardım edir. Hələ Ermənistana başqa kanallardan da yardım olunur. Ermənistana Rusiya yardım edir. Orada Rusiyanın böyük əsgəri bazası, qoşunu var. Onlar orada otururlar və ermənilər də orada özlərinə iş alırlar, işləyirlər. Belədir.

Sual: Hörmətli Prezident, Ermənistandan kənarda yaşayan insanlar çalışırlar, güclüdürlər. Amma ən mühüm olan Türkiyənin və Azərbaycanın güclü və qüdrətli olmasıdır. Hazırda Türkiyə iqtisadi sıxıntılar keçirir. Bunun Azərbaycana təsiri oldumu?

Cavab: Biz bunu hiss etmədik. Yəni bunun bizə mənfi təsirini görmədik. Amma bilirəm ki, bu, Türkiyədə problemlər yaradıbdır. Ancaq düşünürəm ki, Türkiyə elə bir ölkədir, elə bir dövlətdir, hökumətdir ki, bunların hamısının öhdəsindən gələcəkdir. Bu böhran keçib gedəcəkdir.

Mən dünən dinləyirdim. Dövlət naziri televiziyada danışırdı. O dedi ki, bu məsələni 2-3 aya çözəcəyik. Güman edirəm, çözəcəklər.

Sual: Cənab Prezident, 9-cu Cümhurbaşkanı Süleyman Dəmirəl ilə çox yaxşı münasibətləriniz var idi. Hər zaman söylənilirdi ki, əgər Süleyman Dəmirəl Cümhurbaşkanlığından gedərsə, bu münasibətlər necə olacaq. İndi həmin dövr keçdi, yəni Cümhurbaşkanı Əhməd Necdət Sezərdir və Sizin onunla müzakirələriniz oldu. Əlaqələrinizdə hər hansı bir problem varmı və Türkiyə-Azərbaycan əlaqələri irəliyə doğru gedirmi?

Cavab: Hesab edirəm ki, Türkiyə-Azərbaycan əlaqələri yolundadır. Bu, şəxslərdən o qədər də asılı deyildir. Təbiidir ki, Süleyman Dəmirəl Azərbaycan öz müstəqilliyini elan edəndən Türkiyənin başında olan bir şəxsdir. O zaman, Azərbaycanın ağır dövrlərində o, həm Türkiyənin Baş naziri kimi, həm də sonra Türkiyənin Cümhurbaşkanı kimi Azərbaycan ilə çox əlaqəli, bağlı olubdur. Bu,

təkcə mənə görə deyildir.

Mənimlə Süleyman Dəmirəlin dostluğunun 30 ildən çox tarixi vardır. Ona görə də Süleyman Dəmirəl Türkiyənin Cümhurbaşkanı kimi Azərbaycana daim qayğı göstərdiyinə görə, diqqət göstərdiyinə görə Azərbaycanda sevilibdir, bu gün də sevilir. Mənimlə şəxsi dostluğu təbiidir ki, bu əlaqələri daha da yüksəklərə qaldırıbdır. Amma Türkiyənin Konstitusiyası var. Konstitusiyaya görə 7 ildən sonra Cümhurbaşkanı dəyişir. Yeni

Cümhurbaşkanı seçildi. Hörmətli Əhməd Necdət Sezər çox yaxşı bir insandır. Mən və xalqımız çox yüksək qiymətləndiririk ki, o, Cümhurbaşkanı seçiləndən sonra xarici ölkəyə ilk səfərini Azərbaycana etdi. Yəni Azərbaycanın Türkiyə üçün nə qədər önəmli olduğunu dünyaya göstərdi və məni Türkiyəyə dəvət etdi. Mən gəldim, burada çox gözəl görüşlər keçirdik, bütün məsələlər haqqında çox səmimi danışdıq. Yəni mən hiss etmirəm ki, Cümhurbaşkanı dəyişəndən sonra Azərbaycan-Türkiyə münasibətlərində bir dəyişiklik olsun.

Mən dünən axşam hörmətli Süleyman Dəmirəl ilə görüşürdüm. Oturduq, çox söhbət etdik. Onun da arzusudur, deyir ki, gərək Türkiyə ilə Azərbaycan arasında əlaqələr bundan sonra daha da isti olsun, daha da yaxın olsun, ölkələrimiz daha da dost olsun. Onun arzusu belədir. çünki o, 40 ildən çoxdur Türkiyənin siyasi həyatında böyük rol oynamış adamdır. Cümhurbaşkanıdır, yaxud Cümhurbaşkanı deyil - onun üçün Türkiyənin mənfəəti və Azərbaycanın mənfəəti çox önəmlidir. Amma məni sevindirən odur ki, bəzən insanlar qısqanır, filan edir. Yox, Süleyman Dəmirəl bu barədə yüksəkdə duran insandır.

Sual: Hörmətli Cümhurbaşkanım, iki xalq olaraq bizim tarixi birliyimiz vardır. Hər şeyimiz birdir. Amma bunlar yetmir. Dövlətlərin bir-biri ilə səmimi əlaqələr qurması üçün xalqların strateci əməkdaşlıq qurmaları lazımdır. Siz Türkiyə-Azərbaycan münasibətlərini sağlam strateci dostluğa çevirmək üçün və bu yolda irəliyə aparmaq üçün Türkiyə hökumətinin hansı addımlar atmasını gözləyirsiniz?

Cavab: Bilirsiniz, biz 1997-ci ildə böyük bir Anlaşma imzalamışıq. Orada yazılıbdır ki, Türkiyə-Azərbaycan əlaqələri dostluq, qardaşlıq və strateci tərəfdaşlıq əlaqələridir. Bu, çox yüksək bir şeydir. Biz Azərbaycanda çalışırıq ki, əlaqələr belə olsun. Türkiyə də bunu edir. Ancaq indi sənə söyləyim ki, mən Türkiyədən daha nələri istəyirəm. Mən bunu Türkiyənin Cümhurbaşkanına da deyirəm.

Sual: Cənab Prezident, Türk xalqına, Türkiyəli iş adamlarına nə söyləmək, arzulamaq istərdiniz?

Cavab: Türk xalqına söyləmək istəyirəm ki, Türkiyənin hər bir vətəndaşını Azərbaycanda qardaş kimi sevirlər. Mən də Türkiyəni sevirəm.

Ona görə də Türkiyənin daha da güclü olmasını, iqtisadi cəhətdən daha da inkişaf etməsini hər birimiz arzu edirik. çünki Türkiyə nə qədər güclü olsa, Türkiyənin iqtisadiyyatı nə qədər yüksək olsa, bu, Azərbaycan üçün də önəmlidir. Mən bu fürsətdən istifadə edib, Türk xalqına bu arzularımı bildirmək istəyirəm və hesab edirəm ki, bu arzuları həm Türk xalqı istəyir, həm də Azərbaycan xalqı istəyir.

İstəyirəm ki, Türkiyənin iş adamları Azərbaycana sərmayə gətirsinlər. Bilirsiniz, Azərbaycan müstəqillik əldə edəndən sonra ilk dövrlər bizim əlaqələrimizdə ticarət əlaqələri çox önəmli idi. Bu gün də önəmlidir. Buradan bunu gətirdin, oradan onu gətirdin, satdın - belə şeylər. Amma indi Azərbaycanda islahatlar həyata keçirilir. Ticarət özəlləşibdir, torpaq özəlləşib, inşaat özəlləşib - hər şey özəlləşibdir. Ancaq hələ Azərbaycanda özəlləşdirilmək üçün böyük fabriklər, zavodlar var. Kiçik iş adamları öz işlərini görürlər. Amma böyük iş adamları gətirib Azərbaycana sərmayə qoysunlar. Həm özləri mənfəət götürsünlər, həm də Azərbaycanda istehsalı qaldırsınlar. Yəni indi bizim qarşımızda duran məsələ Azərbaycanda istehsalı qaldırmaqdır ki, istehsal artsın və məhsulu ixrac etsin.

Məsələn, keçən il bizim ixracımız idxalımızdan çox olubdur. Bu, ilk dəfədir.

Sual: Bu, çox ciddi məsələdir.

Cavab: Bəli, bu, belədir. "Türk Petrolları" şirkətini Azərbaycana cəlb etdik. Bizim birinci müqavilədə onların 1,75 faiz payları var idi. Sonra qardaş olaraq Azərbaycanın payından onlara 5 faiz verdim, 6,75 faiz oldu. İndi həmin o paydan 160 milyon dollar gəlir götürüblər. Amma sonrakı müqavilələrə də mən Türkiyəni qatdım. Məsələn, "Şahdəniz" müqaviləsinə. Azərbaycanın neft müqavilələrində Türkiyənin 35 faiz payı var. Təxminən 430 və ya 450 milyon dollara qədər sərmayə gətiriblər. Amma lazımdır ki, başqa sahələrə də sərmayə gətirsinlər. Mən Türkiyəli iş adamlarına bunları arzu edirəm.

Sual: Hörmətli Prezident, Siz təbii qaz məsələsi barədə, sanki, bir az da şikayət etdiniz, fərqli danışdınız. Türkiyə təbii qaz sahəsində digər alternativ layihələr həyata keçirməklə əsas etibarilə nəyi itirir?

Cavab: Onu itirir ki, Türkiyədə bəzi bürokratlar qazı dost, qardaş ölkədən almağı əngəlləyirdilər. Amma başqa ölkədən alır. Türkiyənin qaza ehtiyacı çoxdur. Türkiyə hər yerdən qaz ala bilər. Ancaq birinci növbədə Azərbaycandan qaz almalıdır. Ona görə də şikayətlər etdim. Ancaq bu şikayətlər lazım imiş. Artıq biz qazın Türkiyəyə satılması üçün hökumətlərarası anlaşma imzaladıq.

Sual: Hörmətli Cümhurbaşkanım, son sualımı verməmişdən öncə bildirirəm ki, Sizin də dediyiniz kimi, Süleyman Dəmirəl Azərbaycanda necə sevilirsə, Türkiyədə də insanlar,

xalq Sizə çox böyük hörmətlə yanaşır. Mən çox məmnunam ki, Sizinlə müsahibə aparıram.

Siz Türkiyədə müayinədən keçdiniz. Sizin sağlamlığınız necədir?

Cavab: Sağlamlığım yaxşıdır.

Sual: Həkimləriniz nə deyirlər?

Cavab: Həkimim türk həkimidir. Sağlamlığım yaxşıdır. Hər şey də yaxşıdır.

Mən martın 4-5-6 Parisdə oldum. Martın 12-dən buradayam. Aprelin 1-də də Amerikaya gedirəm. Baxın, bir ay içərisində bu işləri kim görə bilər?

Jurnalist: Hörmətli Cümhurbaşkanım, çox sağ olun. Bizə vaxt ayırdığınız üçün təşəkkür edirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ ANKARA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMU TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyətinin Prezidenti, Zati-aliləri, əziz dostum, qardaşım Əhməd Necdət Sezər!

Ankara Universitetinin hörmətli rektoru!

Hörmətli senatorlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən, Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin dəvəti ilə mart ayının 12-də Türkiyə Cümhuriyyətinə rəsmi səfərə gəlmişəm. Bu, mənim Türkiyəyə ilk səfərim deyildir. 1992-ci ildən etibarən mən dəfələrlə Türkiyəyə gəlmişəm. Rəsmi səfərlər də, işgüzar səfərlər də olmuşdur. Sadəcə, görüşmək arzusunda olduğuma görə də gəlmişəm. Bunların hamısı mənim üçün qiymətlidir. Amma, həyat inkişaf etdiyi kimi, insanların dünyaya baxışı da inkişaf edir və hər yeni atılan addım, təbiidir ki, əvvəlkindən daha önəmli olur. Ona görə də mən bu səfəri çox yüksək qiymətləndirirəm.

Birincisi, ona görə ki, burada biz hörmətli Prezident, əziz dostumla bərabər çox ətraflı, dərin məzmunlu görüşlər keçirdik, danışıqlar apardıq. Türkiyə-Azərbaycan əlaqələrinin bugünkü vəziyyəti və gələcəyi haqqında fikirlərimizi paylaşdıq və bir daha hər ikimiz eyni fikri ifadə etdik ki, Türkiyə-Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Bunlar dostluq, qardaşlıq əlaqələridir. Bunlar dərin tarixi köklərimizlə, millimənəvi dəyərlərimizlə bağlı əlaqələrdir. Bir dilə, bir dinə, bir mədəniyyətə mənsub olmağımızla bağlı əlaqələrdir. Bir millət, iki dövlət əlaqələridir. Əgər beynəlxalq, uluslararası dildə danışsaq, strateji tərəfdaşlıq əlaqələridir. Bu həm Türkiyə, həm də Azərbaycan üçün çox önəmlidir. çünki dünya ağır bir dövr yaşayır. Dünyada çox mürəkkəb proseslər gedir. Bu proseslərin bir qismi də, balkə də ən ağırı, Türkiyə də daxil olmaqla, bizim bölgəmizdə - Qafqazda

gedir. Burada həm savaş, həm münaqişələr, həm də çox həll ediləsi məsələlər vardır. Bütün bu proseslərdə, təbiidir ki, Türkiyə və Azərbaycan həmişə yan-yana, bərabər olmuş, bir yolla getmişlər. Mən məmnuniyyətlə deyə bilərəm ki, bu gün biz bu yolumuzun nə qədər doğru, düzgün olduğunu bir daha təsdiq etdik.

Bütün başqa görüşlər də mənim üçün əhəmiyyətli idi. Xüsusilə Türkiyənin çox hörmətli, mötəbər Böyük Millət Məclisində, millət vəkillərinə, yəni xalqın təmsilçilərinə müraciətim və orada fikirlərimi izah etməyim mənim üçün çox əhəmiyyətli idi.

Türkiyədə olduğum bu günlər mənim üçün də, Azərbaycan xalqı üçün də əzizdir. Bizim buradakı görüşlərimiz, danışıqlarımız televiziya vasitəsilə hər gün Azərbaycana çatdırılır. Oradan mənə daim məlumat verirlər ki, xalqımız, millətimiz bunları böyük ruh yüksəkliyi ilə, heyranlıqla, həvəslə izləyirlər. Hamı da bundan məmnundur. Çünki biz dövlət adamları ilə bərabər, xalqımız da bu qardaşlığın nə qədər əhəmiyyətli olduğunu bilir, anlayır və istəyir.

Buradakı danışıqlarımızın əsas mövzularından biri Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik yaratmaqdan ibarətdir. Bu barədə Türkiyənin də, Azərbaycanın da təşəbbüsü olmuşdur. Bu, xalqlarımız üçün, Qafqaz üçün, balkə də, bütün dünya üçün çox önəmlidir. Ancaq bizim üçün, yəni Azərbaycan üçün bunun daha böyük əhəmiyyəti vardır. çünki bilirsiniz ki, 1988-ci ildən Ermənistan-Azərbaycan münaqişəsi başlayıbdır. 1988-ci ildə Ermənistan Azərbaycanın qədim torpağı, ayrılmaz hissəsi olan Dağlıq Qarabağı öz əlinə keçirmək üçün iddialarla çıxış etmişdir. O vaxtlar Azərbayan da, Ermənistan da Sovetlər Birliyinin tərkibində olmuşlar. Ancaq, təəssüflər olsun ki, Sovetlər Birliyinin hökuməti, onun rəhbərləri o vaxt ədalət yolu ilə getmirdilər. Ermənistana daha da çox dəstək verirdilər, Azərbaycana yox.

Sonra isə Azərbaycanın daxilində sabitliyin olmaması, xalqın birləşmək iradəsinin çatmaması, ölkənin belə ağır vəziyyətdə olduğu vaxtda ayrı-ayrı insanların hakimiyyət mübarizəsi ilə məşğul olması və silahlı dəs-tələrdən istifadə etməsi, təbiidir ki, o zaman bizim xalqımızı müəyyən qədər parçalamışdı. Bundan məharətlə istifadə edən ermənilər, əksinə, daxildəki bütün ziddiyyətlərin, ixtilafların hamısını kənara qoyaraq birləşmiş, Dağlıq Qarabağı ələ keçirmək üçün çalışmışlar. Məhz bu səbəblərdən azərbaycan torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğal olunmuş, bu torpaqlardan bir milyondan artıq Azərbaycanlı - sizin qardaşlarımız, bacılarınız yerindən-yurdundan zorla çıxarılmış, didərgin düşmüşdür və artıq 7-8 ildən çoxdur ki, çadırlarda yaşayırlar.

Biz 1994-cü ildə müharibəni dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Məsələni sülh, barış yolu

ilə həll etməyə çalışdıq. Bunun özü, hesab edirəm ki, böyük hadisə idi. Çünki müharibə nəticəsində həm qan tökülür, həm şəhidlər verilirdi, həm də ki, təəssüflər olsun, Azərbaycanın torpaqları əlindən çıxmışdı.

Artıq 1994-cü ildən sülh danışıqları gedir. Bu danışıqları da ATƏT-in yaratdığı Minsk qrupu aparır. Minsk qrupu 12 dövlətdən ibarətdir. Onlardan biri də Türkiyədir. Minsk qrupunun həmsədrləri var. Bunlar Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Onların vasitəsilə, Türkiyənin bu işdə çox fəal iştirakı ilə biz sülh danışıqlarını aparırıq. Ancaq çox təəssüflər olsun ki, hələ indiyə qədər müsbət nəticə əldə edə bilməmişik. Yəni, əsas nəticə də ondan ibarət olmalıdır ki, sülh yaransın, Azərbaycanın ərazi bütövlüyü təmin Edilsin, yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə qayıtsınlar, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı beynəlxalq hüquq əsasında təmin olunsun. Əsas məqsədimiz bundan ibarətdir.

Ermənilər isə həmişə torpaq iddiası ilə yaşayırlar, siz bunu bilirsiniz. Osmanlı imperatorluğu dövründə guya ermənilərə qarşı soyqırımı edilməsi haqqında son vaxtlar bəzi ölkələrdə çıxarılan qərarlar tamamilə əsassız, uydurma, yanlış şeylərdir. Mən bunu Böyük Millət Məclisində də demişəm, bu gün də deyirəm - bu, olmayıbdır, bunu sadəcə, uydurublar.

Əgər o dövr, yaxud ondan sonrakı vaxt barədə danışsaq, əksinə, ermənilər azərbaycanlılara, türklərə qarşı soyqırımı ediblər. Məsələn, Dağlıq Qarabağ savaşında Ermənistanın silahlı qüvvələri, Rusiyanın 366-cı alayının iştirakı ilə, - bu alay onda Dağlıq Qarabağda yerləşirdi, - Xocalı şəhərinin əhalisini bir gecənin içərisində qırdılar. Budur soyqırımı. Əgər onlar 85 il bundan əvvəlki "soyqırımı" haqqında danışırlarsa, bu isə indi, XX əsrin sonunda ermənilər tərəfindən azərbaycanlılara, türklərə qarşı edilən soyqırımıdır. Ona görə də soyqırımı haqqında danışmağa onların haqqı yoxdur. Soyqırımı haqqında danışmağa bizim haqqımız var.

Bununla onu demək istəyirəm ki, təəssüflər olsun, ermənilər Amerika Birləşmiş Ştatlarındakı, Fransadakı, Avropanın başqa ölkələrindəki diasporundan istifadə edərək, bax, bu cür qərarlar da çıxarda bilirlər. Onlar bizim sülh danışıqlarımızda da ədalət mövqeyində durmurlar. Torpaqlarımızı işğal etdiklərinə görə, bizim üçün uyğun olmayan şərtlər irəli sürürlər. Təbiidir ki, bu şərtləri də biz qəbul edə bilmirik. Ona görə də sülh danışıqları uzanır.

Bilirsiniz ki, yanvar ayında mən Parisdə olarkən Ermənistan Prezidenti Koçaryanla iki dəfə görüşdüm. Sonra Fransa Prezidenti Jak Şirak vasitəsilə, onunla bərabər, üçümüz bir yerdə görüşdük. Ancaq bu görüşlər də o qədər böyük nəticə vermədi. İndi, - düşünürəm ki, televiziyadan siz artıq bilirsiniz, - Amerika Birləşmiş Ştatlarının hökuməti Azərbaycan Prezidentini və Ermənistan Prezidentini ABŞ-a dəvət edibdir. Aprelin 3-də Floridada bizim aramızda danışıqlar olacaqdır. Kolin Pauell bu təşəbbüsdədir. Ancaq Prezident Buş da bu işlə məşğuldur. Onların tərəfindən bizə verilən məlumata görə, bu görüş təkcə ABŞ-ın yox, həm də Minsk qrupunun həmsədrləri olan Rusiyanın, Fransanın təmsilçilərinin iştirakı ilə keçiriləcəkdir. İndi mən oraya getməliyəm. Arzu edirəm ki, biz orada irəliyə doğru hansısa addım ata bilək. Ermənistanla-Azərbaycan arasında sülh yarada bilək. Əsas da ondan ibarətdir ki, işğal edilmiş torpaqlarımız azad olunsun.

Bunları mən sizə, sadəcə, məlumat kimi deyirəm. Ancaq eyni zamanda demək istəyirəm ki, bu mövzu bizim hörmətli Cümhurbaşkanı ilə danışıqlarımızın əsas hissəsini təşkil edibdir. Çünki biz həmişə Türkiyə ilə bərabər olmuşuq. İndi də məsələnin həllinin bu mərhələsində yenə də Türkiyə ilə məsləhətləşmək, dövlət başçısı ilə, hökumət başçıları ilə fikir mübadiləsi aparmaq bizim üçün çox lazımdır.

Mən bütün səfər haqqında danışmaq istəmirəm. Ancaq bu mövzunu sizə çatdırıram ki, görün, bizim bu görüşlərimizin, Türkiyəyə mənim rəsmi səfərimin Azərbaycan üçün nə qədər böyük əhəmiyyəti var.

Başqa məsələlər barədə də danışdıq. Məsələn, Bakı-Ceyhan neft boru xətti, - bilirəm ki, Türkiyədə bu, hamını maraqlandıran məsələdir, - haqqında da hər şeyin hazır olduğunu müəyyən etdik. Proqram tərtib olunubdur. Həmin proqram üzrə iş gedir. Bakı-Ceyhan boru xətti çəkiləcək, başa çatacaqdır. Azərbaycan nefti Türkiyəyə gələcək və buradan Ağ dənizə, Aralıq dənizinə çatdırılacaqdır.

Bilirsiniz ki, Azərbaycanda böyük qaz ehtiyatları vardır. Son vaxtlar biz onun Türkiyəyə satılması haqqında danışıqlar aparırdıq. Bu, görüşlər, danışıqlar nəticəsində Azərbaycanın təbii qazının Türkiyəyə satılması haqqında burada anlaşmalar imzalandı. Başqa çox əhəmiyyətli məsələlər də oldu. Ona görə də mən bu səfərimdən çox məmnunam.

Bu səfərimin daha bir, özü də çox önəmli nöqtəsi mənim Ankara Universitetinə gəlməyim, bu universitetin mənə böyük hörmət göstərməsi, məni universitetin Fəxri doktoru adına layiq görməsidir. Mən bundan qürur hissi duyuram. Çox fəxr edirəm və Ankara Universitetinin senatorlarına, rektoruna, bu qərarı çıxaranların hamısına səmimi qəlbdən təşəkkürümü bildirirəm. Çox sağ olun.

Ankara Universiteti Türkiyənin ən hörmətli, ən böyük universitetlərindən biridir. Mən əvvəlcə də bilirdim, ancaq məlumat gələndə ki, mənə Fəxri doktor adı verilibdir, təbiidir Ankara Universitetinin tarixi ilə bir də tanış oldum. Bu, məni çox sevindirdi. çünki bütün başqa nailiyyətləri, uğurları ilə yanaşı, Ankara

Universitetinin ən böyük iftixar mənbəyi ondan ibarətdir ki, o, Böyük Mustafa Kamal Atatürkün qəbul etdiyi qərarla Türkiyədə yaradılmış ilk universitetlərdən biridir.

İkincisi, ondan ibarətdir ki, Ankara Universiteti Böyük Atatürkün vəsiyyətlərini yerinə yetirir. Çünki mən orada oxuyuram... "Həyatda ən həqiqi mürşid elmdir". Mustafa Kamal Atatürkün bu sözləri Türkiyədəki bütün universitetlər, elm adamları, o cümlədən Ankara Universiteti üçün vəsiyyətdir. Yəni bu, o yoldur ki, həmin yolla getmək lazımdır. Ankara Universiteti də bu yolla gedir.

Ankara Universiteti ilə Azərbaycan arasındakı əlaqələr də məni çox sevindirir. Çünki rektor artıq söylədi ki, Azərbaycandan burada 150 tələbə təhsil alır, 7 müəllim dərs deyir. Bu da çox önəmlidir.

Ankara Universiteti Azərbaycanın Universitetləri ilə elm və təhsil sahəsində əlaqələr yaradıbdır. Bakı Dövlət Universiteti, - bu universitetin 81 yaşı vardır, - 1919-cu ildə yaranıbdır və çox böyük təhsil ocağıdır. Ondan sonra, dediniz ki, Naxçıvan Universiteti və Lənkəran Universiteti, Elmlər Akademiyası ilə əlaqələr yaradıbdır.

Azərbaycan Elmlər Akademiyası çox böyük bir elm mərkəzidir. Bilirsinizmi, bu, vaxtilə Sovetlər Birliyinin yaratdığı bir qurumdur. Yəni Türkiyə kimi dövlətlərdə keçmişdə də, indi də belə bir mərkəz elm mərkəzi, Elmlər Akademiyası olmayıbdır. Bu, keçmiş Rus İmperatorluğundan qalmış ənənədir. Amma Sovetlər Birliyində Elmlər Akademiyası ən yüksək Elm Mərkəzi idi. Sovetlər Birliyinin müsbət və mənfi cəhətlərinin hamısını biz bilirik, mənfi cəhəti daha çoxdur, nəinki müsbət cəhəti. Ancaq elm sahəsində çox işlər görübdür. Məsələn, hələ keçmişdən mövcud olan Elmlər Akademiyasının sonralar inkişaf etməsi, Sovetlər Birliyinə daxil olan 15 müttəfiq respublikanın hər birində, - onlardan biri də Azərbaycan idi, - Akademiyanın yaradılması. Azərbaycanda Elmlər Akademiyası 1945-ci ildə yaranıbdır və o, çox işlər görübdür. Doğrudur, indi, keçid dövründə onun problemləri vardır. Amma biz bu problemlərin də hamısını çözəcəyik. Mən çox məmnunam ki, Ankara Universiteti Azərbaycanın Elmlər Akademiyası ilə bağlıdır. Çünki Azərbaycanda Elmlər Akademiyası təhsillə məşğul deyildir.

Onlar elmi tədqiqatlarla məşğuldur. Buna görə də bu əlaqələr çox əhəmiyyətli və önəmlidir.

Azərbaycanda elm adamları, elm mərkəzləri, universitetlər Türkiyə ilə, Türk dünyası ilə bağlı olan bir çox məsələlər barədə araşdırmalar, tədqiqatlar aparırlar. Bunlar öz yerində.

Mənim təşəbbüsümlə Azərbaycanda Böyük Atatürkün irsinin öyrənilməsi, araşdırılması mərkəzi yaradılıbdır. Bu mərkəz müstəqil bir təşkilat olacaqdır. Həm Elmlər Akademiyasının, həm də ölkəmizin bütün universitetlərinin bu sahədə ən bilikli adamları buraya toplaşacaqdır. Mən də - Azərbaycan Prezidenti də bu mərkəzin Fəxri başqanıyam. Güman edirəm ki, bu, mərkəz Azərbaycan ilə Türkiyə arasında tarixi əlaqələrin nə qədər sıx olduğunu bir daha elmi-nöqteyi nəzərdən araşdıracaq və meydana çıxardacaqdır. Bu, geniş işbirliyi yaratmaq üçün bir daha imkanlar verəcəkdir.

Mən çox məmnunam ki, sizin universitet Azərbaycan Elmlər Akademiyası ilə birbaşa bağlıdır. Ona görə də mən arzu edirəm ki, Ankara Universiteti mənim başqanlıq etdiyim mərkəzlə Atatürk irsinin araşdırılması, türk xalqlarının tarixinin və tarixi birliyinin tədqiq olunması sahəsində də iş görsün.

Bilirsinizmi, əziz dostlar, mən həyatımda çox mükafatlar almışam. Burada həyatım haqqında qısa məlumatlar verildi, hər halda, həyatımda çox işlər də görmüşəm, çox problemlərlə də rastlaşmışam. Ancaq mükafatlar çox almışam, həm Sovetlər Birliyinin, həm də bir çox ölkələrin mükafatlarını almışam. Bu mükafatlar içərisində mənim üçün ən yüksək mükafat 1999-cu ildə Türkiyə tərəfindən verilmiş Atatürk Beynəlxalq Sülh Mükafatıdır. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm və bu adı həyatımın sonuna qədər böyük fəxrlə daşıyacağam.

Universitetlər də mənə çoxlu belə fəxri adlar veriblər. Məsələn, 250 illik tarixi olan Moskva Dövlət Universiteti üç ay bundan öncə, - heç mənim bundan xəbərim olmayıbdır, - mənə oranın Fəxri Doktoru adını veribdir. Məni Moskvaya dəvət ediblər ki, gedib onu alım. əgər gedə bilməsəm, onlar özləri Azərbaycana gələcəklər.

Mən vaxtilə Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, bütün Sovetlər Birliyinin elm və təhsil işlərinə başçılıq edirdim. O vaxt Sovetlər Birliyində 800-dən artıq universitet, elmlər akademiyası və sair var idi. Mən onlarla çox yaxın təmaslarda olmuşam. Amma o vaxtlar onlar bu adı verməyiblər. Çünki Sovetlər Birliyi zamanı belə şeylər bir qədər qadağan idi. Amma neçə illərdir ki, mən oradan ayrılmışam, - indi mən Azərbaycan kimi müstəqil bir dövlətin başçısıyam, - amma 250 illik tarixi olan Moskva Dövlət Universiteti mənə Fəxri Doktor adı veribdir.

Mən Türkiyədə də bəzi universitetlərdən bu adı almışam. Ancaq Ankara Universitetinin, Böyük Atatürkün qərarı ilə yaradılmış universitetin və bu qədər inkişaf etmiş bir təhsil ocağının, bu qədər çoxlu kadrlar hazırlamış universitetin Fəxri Doktoru adı mənim üçün çox yüksəkdir. Bir də ona görə ki, Türkiyənin bir çox dövlət adamları sizin universitetin məzunudur, - millət vəkilləri, nazirlər. Amma Türkiyənin bugünkü 13-cü Cümhurbaşkanı, mənim əziz dostum və qardaşım Əhməd Necdət

Sezər də sizin universitetdə təhsil alıbdır.

Buradan həyata atılıbdır və siz ona o qədər yaxşı bilik vermisiniz və burada o qədər yaxşı təhsil alıbdır ki, artıq bu gün gəlib Türkiyənin Cümhurbaşkanı səviyyəsinə çatıbdır.

Ona görə də mən bu gün burada hörmətli Cümhurbaşkanı ilə bir yerdə olmağımdan çox məmnunam. Əziz dostum, mən sizi də təbrik edirəm ki, sizin təhsil aldığınız bir universitet indi bu qədər yüksək səviyyədədir. Düşünürəm ki, Cümhurbaşkanı kimi siz təhsil aldığınız bu universitetə daha çox yardım edəcəksiniz.

Əziz dostlar, mən sizə bir daha təşəkkür edirəm. Əmin ola bilərsiniz ki, Ankara Universitetinin Faxri Doktoru adını şərəflə daşıyacağam. Bu, mənim üzərimə böyük vəzifələr qoyur. O da ondan ibarətdir ki, Türkiyə və Azərbaycan arasında elm, təhsil sahəsində əlaqələrin inkişaf etməsində daha çox işlər görək. Əmin ola bilərsiniz ki, mən bunu da edəcəyəm. Sizin hər birinizi Azərbaycanda görməkdən məmnun olacağam.

Sizə təşəkkür edirəm. Universitetə, hamınıza - universitetin həm müəllimlərinə, həm də tələbələrinə cansağlığı, səadət və yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

D

aha sonra Prezident Heydər Əliyev azərbaycanlı rəssamın Bakının mənzərəsi təsvir olunmuş tablosunu Ankara Universitetinə hədiyyə edərək dedi:

- Bilirsiniz ki, Azərbaycan rəssamları çox gözəl sənətkarlardır. Onların bir qismi indi burada, Türkiyədə çalışır. Burada həm dərs deyirlər, həm də gözəl əsərlər yaradırlar. Belə böyük rəssamlardan biri də Bakının bir mənzərəsini təsvir edibdir. Mən bu tablonu universitetə hədiyyə edirəm. Güman edirəm ki, o, özünün mötəbər yerini tutacaqdır və siz Azərbaycanı, Bakını bu rəsm əsəri ilə daha da yaxından tanıyacaqsınız.

Nüsrət Aras: Çox təşəkkür edirəm, sayın Cümhurbaşkanım. Təqdim etiyiniz tablo bu gündən sonra senator salonumuzda qalacaqdır.

Heydər Əliyev: Bu onun pasportudur, pasportsuz olmaz. Bu da ki, son iki-üç ildə, xüsusən Atatürk Sülh Mükafatının mənə verilməsi zamanı mənim buradakı təmaslarım, Türkiyə-Azərbaycan əlaqələri haqqında kitabdır. Bunu da sizə təqdim edirəm. Sağ olun.

Nüsrət Aras: Sağ olun, çox təşəkkür edirəm.

SƏFƏRDƏN DÖNƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRLƏ GÖRÜŞ

Prezident Heydər Əliyev Binə hava limanında jurnalistlərə müsahibə verdi:

- Axşamınız xeyir olsun. Hər halda mənim səfərim barəsində Sizin xəbəriniz var. Çünki Türkiyənin bütün televiziya kanalları mənim ora-

dakı görüşlərimi, söhbətlərimi, çıxışlarımı verirdi. Həm də, deyəsən, bizim televiziya da bunları oradan alaraq veribdir. Ona görə bu barədə mənim bir bəyanat verməyimə ehtiyac yoxdur.

Ancaq, sadəcə, onu demək istəyirəm ki, bu, çox uğurlu bir səfərdir. Çox lazımlı idi, çox vacib idi. Bu səfər bir neçə ay idi ki, düşünülürdü və vaxtı gəlib çatanda da bunu mən həyata keçirdim. Həm Türkiyə üçün, həm də Azərbaycan üçün vacib bir səfər idi. Hesab edirəm ki, bu Türkiyə-Azərbaycan əlaqələrinin, dostluq-qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin bundan sonra inkişaf etməsi üçün yeni bir mərhələ oldu. Ona görə mən bu səfərimdən çox məmnunam. Hesab edirəm ki, Türkiyənin Prezidenti, Baş naziri və başqaları da mənim səfərimdən razıdır. Ümumiyyətlə, mənim Türkiyədə olmağım, nitqlərim, görüşlərim böyük maraq doğurmuşdu və orada hamı Azərbaycana çox böyük məhəbbət hissi ilə danışırdı. Mənə məlumat verirdilər.

Sual: Cənab Prezident, Siz Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah Rəisi ilə görüşdünüz. Yaxın vaxtlarda Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq, hərbi müttəfiqlik barədə sazişə və ya hər hansı bir pakt imzalana bilərmi?

Sual: Bilirsinizmi, mən orada görüşlərin çoxunu təkbətək, məxfi keçirmişəm. Ona görə də siz anlamalısınız ki, mən bu barədə sizə heç bir şey deyə bilmərəm.

Sual: Türkiyədə olarkən "Nərgiz TV" kanalına müsahibənizdə Siz dediniz ki, yaxşı olardı, Türkiyənin hərbi bazaları Azərbaycanda yerləşdirilsin. Sizcə, bu nə zaman reallaşdırıla bilər?

Cavab: Mən demişəm bunu?

Sual: Sizə sual verildi, dediniz ki, əlbəttə, yaxşı olar.

Cavab: Yaxşı olar də...

Sual: Cənab Prezident, aprelin 3-də Amerika Birləşmiş Ştatlarında Ermənistan Prezidenti ilə görüşünüz gözlənilir. Sizin Türkiyəyə səfərinizdən sonra Ermənistanda böyük narahatçılıq var ki, Azərbaycanda hərbi əhval-ruhiyyə yüksəlib, Azərbaycan Prezidenti Türkiyədə sərt çıxış edibdir. Bütün bunlardan sonra, Amerika Birləşmiş Ştatlarında Ermənistan Prezidenti ilə danışıqlardan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi dönüş gözləyirsinizmi?

Cavab: Mən dəfələrlə sizə demişəm ki, bu məsələnin həlli olunması üçün hər bir görüşdən nəsə gözləyirəm. Bizim bu yaramız hər halda bağlanmalıdır, belə vəziyyətdə qala bilməz. Kimsə daxildə maraqlıdır ki, bu, daim belə qalsın, bundan öz məqsədləri üçün istifadə etsinlər, yaxud da bəzi dövlətlər var, hansılar ki, elə istəyirlər burada nə sülh olsun, nə də müharibə, bundan öz məqsədləri üçün istifadə etsinlər. Ona görə də belə görüşlərdən mən heç vaxt qaçmıram və belə görüşləri həmişə, lap kiçik bir irəliləyiş də olsa, lap irəlilə-

yiş olmasa da, əhəmiyyətli hesab edirəm. Bu barədə sizin məlumatınız var. Hər halda ABŞ-ın Dövlət Departamenti bəyanat veribdir, sonra Kolin Pauell mənə məktub göndəribdir. Orada ilk dəfə olaraq, bütün bu dövrdə ilk dəfə olaraq, Minsk qrupu həmsədrlərinin üçü bir yerdə iki Prezidentlə danışacaq. Çünki indiyə qədər, adətən, daim həmsədrlərin nümayəndələri gəlirdilər Ermənistana, ondan sonra Azərbaycana, yaxud Azərbaycana, sonra Ermənistana.

Orada nə danışırdılar, biz bilmirdik, burada nə danışırdılar, onlar bilmirdi. Yaxud nə isə deyirdilər, nə isə demirdilər... Amma indi bütün üç ölkənin, yəni ABŞ, Rusiya, Fransanın yüksək səviyyəli nümayəndələri orada olacaqlar. bilirsiniz ki, görüşü Kolin Pauell açacaqdır. Ona görə hesab edirəm ki, bu, çox böyük bir hadisədir. Hər halda,

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması dövründə indiyə qədər belə hadisə olmayıbdır.

Sual: Cənab Prezident, bildirilir ki, Robert Koçaryan Paris danışıqlarında hansısa güzəştlərə meylli olub və son anda mövqelərini bir az qətiləşdiribdir. ABŞ-dakı görüşlər Paris görüşlərinin davamımı olacaqdır. Yəni həmin variantların müzakirəsi olacaq, yoxsa hansısa yeni təkliflər müzakirə edilə bilər?

Cavab: İndi hər şey olacaqdır. Məsələ təkcə onda deyil ki, görüşlərin quyruğundan tutub getmək lazımdır.

Sual: Cənab Prezident, bu müddətdə Türkiyə mətbuatı yeni variantın olduğu barədə məlumatlar yayırdı. Bu cür məlumatlar doğrudurmu?

Cavab: Bilmirəm, mən oxumamışam.

Sual: Cənab Prezident, belə fikirlər də yayılır ki, həmsədr ölkələrin birində, Fransada danışıqlar oldu, Amerika Birləşmiş Ştatlarından sonra bu, Rusiyaya qayıdacaqdır. Yəni problemin əsas həlli Rusiyadakı danışıqlardan gözlənilə bilər, Rusiyanın vasitəçiliyi böyük rol oynayacaqdır. Sizin fikriniz?

Cavab: Bilirsiniz, vallah, bizim bu qəzetçilər, müxbirlər, - mən demişəm də, bir şeylə məşğul olmalıdırlar, təbiidir, - biri bir şey uydurur, o birisi başqa şey uydurur. Bu uydurma şeylərə mən nə cavab verim? Siz hamınız bilməlisiniz, - bir halda ki, burada bizim televiziyamız var, siz varsınız, hər yerə yayacaqsınız, - mən yeddi ildən artıqdır ki, gecə-gündüz bu məsələ ilə məşğul oluram. Mən məsələni həll etmək istəyirəm. harada həll olunacaq, nə təhər həll olunacaqdır? Əgər Amerikada həll olunacaqsa - yaxşı, Fransada həll olunacaqsa - yaxşı, Rusiyada həll olunacaqsa - yaxşı, fərq onda deyil ki, harada həll olunacaqdır. Əsas odur ki, həll olunsun. İndiki mərhələnin əhəmiyyətli cəhəti ondan ibarətdir ki, belə düşünürəm, artıq üç ölkənin Prezidenti bu barədə özləri bir-biri ilə danışıblar. Yəni əvvəllər,

məsələn, Minsk qrupunun həmsədrlərini təmsil edənlər gəlirdilər, ən yuxarıda dururdu, məsələn, Xarici İşlər nazirləri. Amma indi bilirəm - Şirak, Buş, Putin bir-biri ilə danışıblar və qarşıdakı görüş onların üçünün danışıqlarının, məsləhətləşmələrinin nəticəsində meydana gəlibdir.

Sual: Cənab Prezident, İran Prezidenti Xatəmi Rusiyaya səfər etdi və orada iki ölkə arasında Xəzərin statusu məsələsi müzakirə olundu, müəyyən razılıq da əldə edildi. Bir çox müşahidəçilər yazırlar ki, bu razılaşmadakı məqamlar Rusiya ilə Azərbaycan arasındakı razılaşmaya nisbətən başqa-başqadır. Siz buna necə baxırsınız?

Cavab: Onu mən oxumamışam, eşitmişəm. Ancaq burada narahatedici bir şey yoxdur. İran Prezidenti ilk dəfə Rusiyaya səfər etdi. Zaman keçdikcə görürəm ki, biz 1994-cü ildə nə qədər cəsarətli, uzaqgörən və dövlətimizin mənafeyinə xidmət edən addım atmışıq. Deyə bilərəm ki, özümüzü odun içinə atmışdıq. Onda heç kəs bunları qəbul etmirdi. Əksinə, bizə dalbadal bəyanatlar verirdilər ki, işi dayandırmaq lazımdır və sair. Amma biz iş gördük, sübut etdik ki, bundan başqa yol yoxdur. Bu baxımdan da Rusiya Prezidenti Vladimir Putin Azərbaycanda səfərdə olduğu zaman bizim ikimizin - Prezident Putinin və mənim imzaladığımız sənəd çox böyük əhəmiyyət kəsb edir.

Sual: Cənab Prezident, İran Prezidentinin Moskvaya səfəri zamanı belə bir fikir də səslənib ki, Xəzərin dibi ilə hər hansı bir kəmərin keçirilməsi mümkün deyildir. Ekspertlər də belə bir fikir söyləyirlər ki, bütün bunlar Qazaxıstanın Bakı-Ceyhan kəmərinə qoşulmasının qarşısını almaq üçündür. Belə bir qərar Bakı-Ceyhan kəmərinin rentabelliyinə təsir göstərə bilərmi?

Cavab: Bilirsinizmi, mən bunu əvvəllər də demişəm, Türkiyədə də demişəm - Bakı-Ceyhan kəmərinin rentabelliyinə heç bir şey təsir göstərə bilməz. Nə üçün? Çünki biz 1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalayanda bilirdik ki, Xəzərdəki sektorumuzun başqa yerlərində neft, qaz yataqları var. Amma heç bilmirdik ki, məsələn, ehtiyatlar əldə edəcəyik. Amma buna baxmayaraq, biz məhz "Azəri", "Çıraq", "Günəşli" yataqlarından hasil olunacaq neft üçün Bakı-Ceyhan neft kəmərini həmin o müqaviləyə salmışıq. Başa düşürsünüzmü? Ona görə də həmin bizim bu üç yataq ki, var, ilk müqavilədə əksini tapıbdır, Bakı-Ceyhan kəməri üçün tamamilə yetərlidir. Oradan 50-60 milyon ton neft çıxarılacaq və bu, Bakı-Ceyhan kəmərini tam rentabelli edir.

İndi məsələn, "Şevron" şirkəti özü gəldi, müraciət etdi və kəmərin tikintisinə qoşuldu. Orada on faiz pay götürdü. Nə üçün? Çünki "Şevron" bizim "Abşeron" yatağından çox böyük hasilat gözləyir. Həm neft, həm də qaz hasilatı. Bunu biz də gözləyirik.

Məsələn, Abşeron yatağı... Mən hər dəfə deyirəm, bizim alimlər, geo-

loqlar indiyə qədər 50 ildə ki, Xəzəri tədqiq ediblər, onlara hamımız minnətdar olmalıyıq. Çünki çox böyük işlər görüblər. Amma bu işləri o vaxtlar həyata keçirmək mümkün olmayıbdır və buna o vaxt, Sovetlər vaxtında ehtiyac olmayıbdır. İndi, Azərbaycanın müstəqilliyi zamanı bu yataqlar ölkəmizin ən böyük sərvətidir. Məsələn, biz bilirdik ki, "Abşeron" yatağında həqiqətən çox neft ehtiyatı var. "Şahdəniz"i bilirdik. Bizim adamlar proqnoz vermişdilər ki, orada 400 milyard kubmetr qaz olacaqdır.

1996-cı ildə biz müqaviləni hazırladıq, o vaxt burada neft sərgisi keçirilirdi. Mən bunu bir dəfə demişəm, bəlkə bir dəfə də deməyə ehtiyac var. Bəziləriniz portretini qəzetlərdə səvə-səvə verirsiniz, yaxud da telefon bağlantısı edirsiniz ki, Rəsul müəllim, bu məsələ necədir, onun da şəklini vurursunuz ekrana, əgər o, doğrudan da neftçidirsə, nefti biləndirsə, - sonra getdi kitab yazdı, - və Azərbaycanın mənafeyini yüksək tutursa, nə üçün hər şey hazır olanda gəlib dedi ki, mən bu müqavilənin imzalanmasının əleyhinəyəm. Nə üçün? Sən mənə de. Sübut edə bilmədi. Yox, qardaş, burada geoloqlar, mühəndislər, alimlər var... Biz bunu bir neçə dəfə müzakirə etmişik, o özü də bu müzakirədə iştirak edibdir. Deməк, bu nə idi? Təxribat idi. Sadəcə, Azərbaycanda bu işi ləngitmək idi.

Mən bir dəfə demişəm. Dövlət Neft Şirkətinin bütün rəhbərlərini topladım, bəziləri də onun keçmiş dostları idi. Hamısı durdular onun üzünə, dedilər ki, sən bir şey bilmirsən.

Xoşbəxt Yusifzadə açıq-aydın dedi ki, sən bilmədiyin sözü niyə danışırsan. Burada 400 milyard kubmetr qaz var. Bizim "Bi-Pi" şirkəti ilə, başqaları ilə də gördüyümüz iş hamin 400 milyard kubmetr üçün idi. 400 milyard kubmetr bizim üçün böyük bir rəqəm idi. Amma indi qazılan quyulardan alınan nəticələr göstərir ki, həmin yataqda bir trilyon kubmetrdən artıq qaz ehtiyatı vardır. O da hələ son həddi deyildir. Başa düşürsünüzmü?

Ona görə də Bakı-Ceyhan kəməri barəsində heç bir narahatçılıq yoxdur. Doğrudur, Siz bilirsiniz ki, axır zamanlar bunu bir balaca əngəlləmək istəyirdilər. Mən də bir neçə dəfə bu barədə bəyanatlar verdim. Sizin kimi müxbirlər orada məndən soruşurdular ki, nə üçün belə bəyanatlar verdiniz? Dedim ki, mən bəyanatlar verməsəydim, bu gün bu məsələləri həll etməyəcəkdik. Orada da hər şeyi həll etdik. Bakı-Ceyhanı da həll etdik. Azərbaycan qazının Türkiyəyə satılmasını da. Bunu da orada, Türkiyədə bürokratlar, təbiidir ki, aşağı səviyyədə əngəlləmişdilər. Ancaq mən getməmişdən qabaq danışdım, adamları oraya göndərdik. İndi biz sənəd imzaladıq - oraya 6 milyard kubmetr ilkin qaz verəcəyik. Ondan sonra, - mən orada dedim, - 15 milyard, 20 milyard kubmetr də qaz verə bilərik. Bunlar böyük işlərdir. Bu, təkcə iqtisadi məsələ deyildir. Bu, təhlükəsizlik məsələsidir, strateji məsələdir. Ona görə də qazaxıstan neftinin o boru xətti ilə

gəlməsi yaxşı olar. Amma gəlməməsi barədə qoy, Qazaxıstan düşünsün. Yəni Xəzəmi ilə Putin arəsindakı anlaşma bizi narahat etmir. Qoy Qazaxıstan fikirləşsin, görsün nə edəcək.

Sual: Cənab Prezident, GUÖAM dövlətləri arasında müstəqilliyi ən möhkəm olan ölkə Azərbaycan hesab olunur. Çünki Moldovada Sovet hakimiyyətini istəyən kommunistlər hakimiyyətə gəliblər, Ukraynada Kuçmanın istefası tələb edilir, eyni zamanda şüarlar Sovet hakimiyyətinin bərpa olunması ilə bağlıdır. Gürcüstanda vəziyyət gərginləşdirilir. Bundan sonra Siz bu qurumun perspektivini necə görürsünüz?

Cavab: Bilirsinizmi, qurum bu gün biri olar, səbah digəri. Biz bu qurumu yaratmışıq və hesab edirəm ki, bu qurum da yaşayacaqdır. Ancaq indi Siz görürsünüz, Moldovada kommunistlər hakimiyyətə gəldilər, Ukraynada vəziyyət ağırdır. Gürcüstan, gürcü xalqı bizim çox gözəl dostumuzdur. Gürcüstan Prezidenti mənim şəxsi dostumdur. Mən orada olan vəziyyəti ürək ağrısı ilə izləyirəm və lazım olan köməyi edirəm - orada vəziyyət belədir. Amma Azərbaycan müstəqilliyini gözləyir, qoruyur.

Bunu anlayın. Başa düşürsünüz... Mən sənə demirəm, sənin televiziyaya gətirib çıxartdığın adamları deyirəm. Bunu anlayın. Mən bunu Türkiyənin Böyük Millət Məclisində də dedim. Dedim ki, Sovetlər İttifaqı dağılan zaman müstəqilliyi əldə etmək, bu, heç bir problem deyildi. Çünki Sovetlər İttifaqı dağılırdı, 1922-ci ildə Sovetlər İttifaqını biz yaratmışıq, onun yaradıcılarından biri də Azərbaycan olubdur. Düzdür, onda 15 Respublika deyildi, cəmisi 6 respublika idi. Ondan sonra o birilər də gəlib, 15 respublika olmuşdu. Sovetlər İttifaqı dağılırdı, ondan sonra deyəcəksən ki, yox, mən müstəqil olmuram, nə edəcəksən?

Mən bunu dəfələrlə demişəm, çünki bəziləri döşünə döyür ki, biz müstəqillik uğrunda mübarizə aparmışıq, nə bilim, xalq azadlıq hərəkatı aparmışıq, müstəqillik əldə etmişik. Bu cür yalan danışmaq olmaz. Azərbaycanda xalq hərəkatı olubdur. Azərbaycan xalqı qəlxıbdır, Dağlıq Qarabağ məsələsində o vaxt SSRİ rəhbərliyinin Azərbaycana qarşı ədalətsizliyinə görə. Ancaq deyirlər ki, nə bilim, biz buranın müstəqilliyini əldə etdik.

Bunların hamısı yalan şeylərdir. Tamamilə yalan şeylərdir. Ona görə də mən bunu Türkiyədə Böyük Millət Məclisində dedim, o vaxt, məsələn, Qazaxıstanda bir hərəkat olmuşdu, müstəqillik əldə etdi? Özbəkistanda, yaxud da Türkmənistanda, hamısında. Yaxud, elə həmin kommunistləri seçən Moldovada?

O vaxt SSRİ dağıldı, hamı müstəqilliyini elan etdi. Amma müstəqilliyi qoruyub saxlamaq bu müstəqilliyi əldə etməkdən min qat çətindir. Çünki onu, sadəcə, tarixi vəziyyət ortaya çıxarmışdı. Amma sonra bizim başımıza nə işlər gəldi? 1991-ci ildə, 1992-ci ildə, 1995-ci ilin həmin mart hadisələri, - 17-si martda idi də, onlar hücum etmişdilər, - ondan qabaq, 1994-cü ildə oktyabr hadisələri. Ondan da qabaq, 1993-cü ildə və-

təndaş müharibəsi, o vaxt da məni buraya gətirdilər. Bizim müstəqilliyimiz möhkəmdir.

Bir qurum ola bilər, o birisi ola bilməz - bunun o qədər əhəmiyyəti yoxdur. Biz öz ölkəmizin müstəqilliyi, öz xalqımızın mənafeyi üçün düşünürük. Bunun üçün hansı ölkə ilə bizim əlaqələrimiz faydalıdırsa, biz o ölkələrlə əlaqə saxlayırıq, hansı qurumda olmaq bizim üçün faydalıdırsa, biz onlarla əlaqə saxlayırıq.

Sual: Cənab Prezident, Xatəmi Moskvada olarkən Putinlə razılığa gəlibdir ki, Moskva İrana silah ixracına başlayacaqdır. Sizcə, bu, regionda hərbi balans üçün nə qədər təhlükəlidir?

Cavab: Bilirsən, bu, nə səndən asılıdır, nə məndən. Bu, onların özlərinin işidir.

Sual: Cənab Prezident, Türkiyə Prezidenti Əhməd Necdət Sezər bildirdi ki, Sizinlə danışıqlarda Naxçıvanla bağlı məsələlər də müzakirə olunacaqdır. Nə məsələlərdir, yəni Naxçıvanla bağlı belə bir ciddi problem varmı?

Cavab: Bilirsiniz, Naxçıvanla bağlı problemin biri odur ki, - təəssüflər olsun, hamınız Naxçıvanı unutmusunuz, - 1991-ci ildən Naxçıvan blokada şəraitindədir. Düşünməyin ki, mən Naxçıvanlı olduğuma görə bunu deyirəm. Nə qədər mərd insanlardır ki, orada ağır şəraitdə yaşayırlar. Mən üç il orada yaşadım, gördüm. Burada, şəkidə bir gün elektrik enerjisi olmadı, hamınız tökülüb getdiniz oraya. Sən də deyirsən telefon bağlantısında danışan xatirədir, de görüm... Xaçmazda nə olubsa.., nə bilim, onun adı yadımdan çıxıbdır.

Bilirsiniz, biz Naxçıvanda elektrik enerjisi olmadan yaşadıq. O xalq yaşadı, səsini də çıxarmadı. Doğrudur, mən o vaxtlar Naxçıvanı vəziyyətdən müəyyən qədər çıxardım. Çünki mənim Türkiyə ilə əlaqələrim var idi. Türkiyədən elektrik xətti çəkdik. Ondan sonra mən bir neçə dəfə Tehrana getdim. Onlarla da mənim keçmiş əlaqələrim vardı. Onlar da Naxçıvana hörmət etdilər və indiyə qədər də edirlər. Düzdür, axır zamanlar bizim borcumuza görə Naxçıvanın elektrik enerjisini kəsmişdilər. O barədə danışıqlar apardıq, hər şeyi yerinə qoyduq.

Bilirsiniz, Naxçıvan Azərbaycanın böyük bir hissəsidir. Orada 400 min nəfərə qədər adam yaşayır. Özü də vaxtilə həmin Mehri rayonu ilə Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayıranlar bunu məqsədlə ediblər. İndi Naxçıvanla Azərbaycan arasında təyyarə əlaqəsindən savayı başqa bir şey yoxdur. Bir də İran ərazisindən bir az avtomobillər işləyir. Təbiidir ki, məsələn, əgər o vaxt, 1992-ci ildə, o ağır vəziyyətdə Naxçıvanda körpünü təkməsəydik, - əlbəttə ki, Türkiyə tikirdi, amma bizimlə bir yerdə, - insanlara oradan çıxış verməsəydik, onlar orada boğulardı. Amma biz bu işləri gördük.

Buna baxmayaraq, Naxçıvanın yenə də çox problemləri vardır. Məsələn, Naxçıvanın Başçısı Vasif Talıbov da orada idi, onun bir neçə təklifi, xahişi vardı. Mən yazılı şəkildə Büləndəcevitə verdirdim, sonra başqalarına çatdırdım. Türkiyə də Naxçıvanın bu vəziyyətdə olmasını bilir və Türkiyə ən ağır vəziyyətdə olan Naxçıvanın problemləri ilə, təbiidir ki, məşğul olur və bundan sonra da məşğul olacaqdır.

Sual: Türkiyənin Naxçıvana verəcəyi elektrik enerjisinin həcminin artırılması barədə razılıq əldə olundumu?

Cavab: Bu barədə biz danışmamışıq. Bu, elə bir şey deyildir. "Azərenerji" və başqaları danışırlar. Prinsip etibarilə əvvəldən, 1992-ci ildən mən buna nail oldum. İndi onların özlərinin də o bölgədə bəzən elektrik enerjisi az olur. Naxçıvana verilən elektrik enerjisini bəzən artırırlar, bəzən azaldırlar. Bu, problem deyildir. Naxçıvanlılar elektrik enerjisi cəhətdən yenə də ağır şəraitdə yaşayırlar. Enercini fasilələrlə alırlar. Amma biri də səsini çıxarmır. Çünki bilir ki, bundan artıq bir şey yoxdur.

Sual: Cənab Prezident, qarşıdakı ABŞ görüşləri neçə gün davam edəcək? Xarici mətbuatda Kemp Devid danışıqlarını paralel gətirərək proqnozlaşdırırlar ki, Robert Koçaryanla Sizin görüşünüz çox uzun çəkəcəkdir, yəni uzunmüddətli danışıqlar olacaqdır.

Cavab: İndi bunu demək olarmı? O xaricilər də, Sizin kimi, gərək bir şey yazsınlar. Yazırlar, deyirlər. Oraya gedib baxacağıq. Bir gün lazım olacaqsa, bir gün, iki gün lazım olacaqsa, iki gün.

Sual: Cənab Prezident, Siz Türkiyə Böyük Millət Məclisindəki nitqinizdə ermənilər haqqında çox sərt ifadələr işlədirdiniz. Hətta belə bir ifadə də işlətdiniz ki, ermənilər qudurubdur. Bütün bunlar Sizin qarşıdakı danışıqlarınıza müəyyən təsir göstərə bilərmi?

Cavab: Siz bilirsiniz də, ermənilər buna möhkəm reaksiya veriblər. Düz demişəm də. Siz onu bilməlisiniz ki, bu sözləri demək üçün insanda cəsarət, hünər lazımdır. Onu bilməlisiniz. Mən havadan demirəm, bu sözü deyəndə bilirəm ki, onun arxasında nə var. Bilirəm, nə reaksiya olacaqdır. Amma mən o sözü ki, deyirəm, onu deməliyəm. Özü də bir var ki, məsələn, heç bir vəzifə tutmayan adam, yaxud qəzet işçisi, müxbir, yaxud da müxalifətdən gündə bir bəyanat verən adamlar desinlər, onlar heç bir məsuliyyət daşımır axı. Amma mən Dövlət Başçısıyam, Prezidentəm. Mən məsuliyyət daşıyıram. Amma bu məsuliyyətimi daşıyaraq və bilərək ki, belə ifadənin işlədilməsi, bəlkə, o qədər də yaxşı deyil, amma mən bunu etdim. Çünki bilirsiniz də, onlar hansı yollara gediblər. Ona görə.

Sual: Cənab Prezident, Ter-Petrosyana yaxın qüvvələr deyirlər ki, Dağlıq Qarabağ barəsində ermənilər o şərtlə razılaşa Bilər ki, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın öz himni, gerbi, bayrağı olmalıdır və ona yüksək özünüidarəetmə statusu verilməlidir. Bu, indiki halda problemin həllinə təsir göstərə bilər. Sizin fikrinizcə, Robert Koçaryan bu güzəştə razılıq verə bilərmi, bunu gözləmək olarmı?

Cavab: Bilirsiniz, mən indi bir şey deyə bilmərəm. Elə münaqişənin mərhələli həlli barədə ikinci təklifdə.

- hansını ki, Ter-Petrosyan qəbul etmişdi, - bunların hamısı vardı.

Sual: Cənab Prezident, müharibə olacağı təqdirdə Türkiyə Azərbaycana yardım edəcəkmi?

Cavab: Baxırıq. Sualınız, sözünüz yoxdur ki? Bəs niyə soruşmursunuz ki, "Gülhanə"yə getdiniz, yoxsa yox?

Sual: Cənab Prezident, sağlamlığımız indi necədir? Türkiyə televiziyasında dediniz ki, özünüzü çox yaxşı hiss edirsiniz. Müayinədən keçdinizmi?

Cavab: Bilirsiniz, normal şəraitdə yaşayan hər bir insan gərək ildə iki dəfə özünü yoxlatdırsın ki, birdən, qəflətən bir xəstəlik çıxmasın.

Mən 1990-cı ildə Moskvadan gəlib Naxçıvana gedəndən 1999-cu ilə qədər nə bir həkimə müraciət etdim, nə də özümü yoxlatdım. Bilirsiniz ki, 1999-cu ilin yanvar ayında məndə əvvəlcə bronxit əmələ gəldi və gecə böyük çətinlik yaratdı. Getdim "Gülhanə"yə, orada iki həftə məni müalicə etdilər. Ondan sonra başa düşdüm ki, yox, mən səhv edirəm. Mən əvvəllər Moskvada işləyəndə, - Baş nazirin Birinci müavini kimi, Səhiyyə naziri Bayramov mənə bağlı idi. Mən onlardan tələb edirdim, o vaxt bütün əhalini hər il dispanserizasiyadan keçirmək barədə proqram var idi, onu biz ortaya atmışdıq və həyata keçirmək istəyirdik. Çünki bu, insanların sağlamlığını qoruyur. Düzdür, bunu axıra çatdıra bilmədik, mümkün olmadı.

Mən bu işlərlə məşğul olmuşam, amma öz səhhətimə fikir verməmişəm. O da 1999-cu ildəki hadisəyə gətirib çıxardı. Orada məni müalicə etdilər. Onlar xahiş etdilər ki, Türkiyədə olan vaxtlarda gəlin. Çünki biz Sizi müalicə etmişik, burada hər şey var, nə bilim, rentgendir, filandır. Gəlin, baxaq. Mən də getdim, yoxladılar və mənə dedilər ki, Azərbaycanda Sizi qarşılayan bütün müxbirlərə deyin ki, hər şey yaxşıdır. Amma mənim dişlərimin bir az müalicəyə ehtiyacı vardı, onları da müalicə etdirdim. İndi hər şey yaxşıdır.

Sual: Cənab Prezident, bir sual da vermək istəyirik. Siz dünya bankının nümayəndəsi ilə görüşünüzdə...

Cavab: Bunu neçən dəfə məndən soruşdun. Bu, bilirsən nəyə oxşayır? "Məşədi İbəd"də hambalın bir abbasını istəməyinə oxşayır. Buradan gedəndə sən bu sualı mənə vermisən. İndi beş gündən sonra gəlmişəm, o hambal kimi deyirsən... Aldın cavabını.

Sual: Cənab Prezident, bugünkü "Exo" qəzetində Maqsud İbrahimbəyov belə bir məqalə ilə çıxış edibdir ki, əgər Azərbaycan hərb yolu ilə öz torpaqlarını azad etməyə cəhd göstərsə, ermənilər əks-hücumla Bakıya girə bilər. Bu barədə nə düşünürsünüz?

Cavab: A kişi, hər adam nə istəyir, deyə bilər. İndi mən o barədə nə düşünüm? Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XII İŞGÜZAR SƏFƏRİ

25-27 aprel 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ DÖVLƏT BAXÇALI İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 25-də İstanbulda onun uçun ayrılmış iqamətgahda - "Çırağan" otelində Türkiyə Baş nazirinin müavini, Dövlət naziri Dövlət Baxçalı ilə görüş keçirmişdir.

Ali qonağı səmimiyyətlə salamlayan, İstanbula işgüzar səfərə gəldiyinə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən Dövlət Baxçalı Respublikamızın Rəhbərinin Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşündə iştirak etməsindən böyük şərəf duyduğunu söylədi.

Səmimi sözlərə görə minnətdarlıq edən Prezident Heydər Əliyev Türkdilli Dövlətlərin Başçılarının İstanbulda keçirilən Zirvə görüşünün xalqlarımızın dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsində mühüm rol oynayacağına ümidvar olduğunu bildirdi, türkdilli ölkələrin və xalqların birliyinin daha da möhkəmləndirilməsini tarixi zərurət kimi qiymətləndirdi.

Türkiyə Baş nazirinin müavini görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində əldə olunmuş uğurlardan, ölkəmizin iqtisadiyyatında baş vermiş müsbət dəyişikliklərdən məmnunluqla söhbət açdı. O, xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli əməkdaşlığımızın ildən-ilə möhkəmləndirilməsində zəngin dövlətçilik təcrübəsinə malik Prezident Heydər Əliyevin böyük xidmətləri olduğunu söylədi.

Demokratik inkişaf, bazar münasibətləri yolunu seçmiş Azərbay-

canda görülən işlərdən danışan Prezident Heydər Əliyev ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Respublikamızın ərazisinin 20 faizinin işğal altında qalmasından, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs etdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair ABŞ-ın Florida Ştatının Ki Uest şəhərində Amerika Administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən də söhbət açıldı.

Cənab Dövlət Baxçalı bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasında Türkiyənin bundan sonra da Azərbaycanın mövqeyini dəstəkləyəcəyini bildirdi.

Söhbət zamanı Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsindən, hasil ediləcək neftin və qazın dünya bazarlarına ixracı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər haqqında fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev Dövlət Baxçalını Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN RESPUBLİKASINI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CEM İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 25-də İstanbulda onun üçün ayrılmış iqamətgahda - "Çırağan" otelində Türkiyənin Xarici İşlər naziri İsmayıl Cem ilə görüşmüşdür.

Respublikamızın Rəhbərini səmimiyyətlə salamlayan İsmayıl Cem Azərbaycan Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşündə iştirakından məmnunluq duyduğunu və onunla yenidən görüşməyinə şad olduğunu bildirdi.

İsmayıl Cem Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşünün xalqlarımızın və ölkələrimizin dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsinə təkan verəcəyinə ümidvar olduğunu söylədi.

Səmimi sözlərə görə İsmayıl Cemə minnətdarlığını bildirən Prezident Heydər Əliyev türkdilli ölkələr və xalqlar arasında dərin tarixi kökləri olan əlaqələrin inkişafında və genişləndirilməsində Türkdilli Dövlətlərin Başçılarının Zirvə görüşlərinin böyük əhəmiyyət daşıdığını vurğuladı.

Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşlərinin müntəzəm keçirilməsində Türkiyənin rolunu və saylərini yüksək qiymətləndirən Prezident Heydər Əliyev İstanbul Zirvə görüşünün uğurla başa çatacağına

əmin olduğunu bildirdi.

Görüş zamanı dost və qardaş ölkələrimiz arasında əməkdaşlıq barədə söhbət aparıldı və ikitərəfli əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi və inkişaf etdirilməsi lüzumu bir daha vurğulandı.

Prezident Heydər Əliyev Respublikamızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən və bu münaqişə nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğundan, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşımızın çadırlarda ağır, dözülməz şəraitdə yaşadığından ürək ağrısı ilə danışdı.

Prezident Heydər Əliyev ABŞ-ın Florida ştatının Ki Uest şəhərində Amerika Administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən söhbət açdı.

Cənab İsmayıl Cem münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupunun üzvü kimi Türkiyə Respublikasının öz səylərini daha da artıracağını bildirdi.

Görüşdə regionda və beynəlxalq aləmdə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barəsində də fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏNİN PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN GÖRÜŞÜ

Aprelin 26-da Çırağan sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.

Ali qonağı salamlamaqdan çox məmnun olduğunu bildirən Prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün İstanbula gəldiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını və təşəkkürünü bildirdi.

Sammitdə Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışını və nitqini böyük diqqətlə dinlədiyini nəzərə çarpdıran cənab Sezər Dövlətimizin başçısının Türkdilli Ölkələrin Birliyinin daha da möhkəmləndirilməsi üçün irəli sürdüyü təklifləri, verdiyi tövsiyələri yüksək dəyərləndirdi.

Böyük dövlətçilik təcrübəsinə malik Prezident Heydər Əliyevin rəhbərliyi sayəsində son illər Azərbaycanda yaranmış müsbət dəyişiklikləri maraqla qarşıladığını söyləyən Prezident Əhməd Necdət Sezər dost və qardaş ölkələrimiz arasında qurulmuş əlaqələrin böyük sürətlə inkişaf etməsindən məmnun qaldığını bildirdi.

İstanbula səfərə dəvətə və dost

ölkədə ona göstərilən yüksək qonaqpərvərliyə görə Türkiyə xalqına və Prezident Əhməd Necdət Sezərə dərin minnətdarlığını ifadə edən dövlətimizin Başçısı Heydər Əliyev Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasından razılıqla bəhs etdi.

Xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan əlaqələrimizin ildən-ilə daha da inkişaf etməsinin çox vacib olduğunu vurğulayan Respublikamızın Rəhbəri ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair ABŞ-ın Florida ştatının Ki Uest şəhərində ABŞ Administrasiyasının vasitəçiliyi, ATƏT-in Minsk qrupu həmsədrlərinin, Azərbaycan və Ermənistan Prezidentlərinin iştirakı ilə keçirilən görüşlərdən danışdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində Prezident Heydər Əliyevin səylərini yüksək dəyərləndirən cənab Əhməd Necdət Sezər dedi ki, ATƏT-in Minsk qrupunun üzvü kimi Türkiyə bu münaqişənin aradan qaldırılmasında fəallığını daha da artıracaqdır və Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcəkdir.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz ehtiyatlarının işlənilməsi və dünya bazarlarına çıxarılması, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşası məsələləri barədə müzakirələr aparıldı.

Mehribanlıq və səmimi dostluq şəraitində keçən görüşdə Azərbaycan-Türkiyə əlaqələrinin daha da inkişaf etdirilməsi, beynəlxalq aləmdə, bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

- Hörmətli cənab Sədr!
Hörmətli Dövlət Başçıları!
Xanımlar və cənablar!

2000-ci ilin aprel ayında, düz bir il əvvəl Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmiş VII Zirvə görüşünün təşkilatçısı və ev sahibi kimi, Sizi dünyanın ən gözəl şəhərlərindən biri olan İstanbulda, qonaqpərvər Türkiyə torpağında Türkdilli Dövlətlərin başçılarının VII Zirvə görüşünün işə başlaması münasibətilə səmimi qəlbdən salamlayıram.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əsası 1992-ci ildə Ankarada qoyulmuş bu Zirvə görüşümüz artıq gözəl bir ənənəyə çevrilmişdir.

Mən belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, indiki Zirvə görüşünün bizim çoxtərəfli əməkdaşlığımızın inkişafı, regionumuzda sülhün, sabitliyin, təhlükəsizliyin və etimadın möhkəmləndirilməsi istiqamətində mühüm əhəmiyyəti olacaqdır.

VII Zirvə görüşünün hazırlanması və təşkilində Türkiyə Respublikasının Prezidenti Hörmətli Əhməd Necdət Sezərin böyük zəhmətini yüksək qiymətləndirirəm.

Ümumiyyətlə, 1992-ci ildən başlayaraq harada keçirilməsindən asılı olmayaraq, Türkiyə Cümhuriyyəti Zirvə görüşlərimizin təşkilində mühüm rol oynayır və Türkdilli Dövlətləri yaxınlaşdırmaq baxımından öz üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirir. Bunun üçün Türkiyə dövlətinə və xalqına səmimi təşəkkürümü bildirirəm.

Ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlığın inkişafına göstərdikləri diqqət və qayğıya görə Qazaxıstan Respublikasının Prezidenti hörmətli Nursultan Nazarbayevə, Qırğızıstan Respublikasının Prezidenti hörmətli Əsgər Akayevə,

Özbəkistan Respublikasının Prezidenti hörmətli İslam Kərimova, Türkmənistan Prezidenti hörmətli Saparmurad Niyazova minnətdarlığımı bildirirəm.

Məlumdur ki, görüşlərimizin əsas məqsədi xalqlarımızın sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyini həyata keçirməkdir. Eyni coğrafi regionda yaşamağımız, eyni köklərə malik olmağımız bizi birbirimizə daha da yaxınlaşdırır, strateji əməkdaşlığımızı zərurətə çevirir.

2001-ci il Türkdilli Dövlətlərin Başçılarının Zirvə görüşünün üzvü olan ölkələrdən beşi üçün xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Azərbaycan dövlət müstəqilliklərinin 10 illik yubileyini qeyd edirlər. Mən bu böyük tarixi hadisə münasibətilə Qardaş Ölkələrin Başçılarını və xalqlarını ürəkdən təbrik edir, onlara daim sülh, sabitlik, tərəqqi və çiçəklənmə arzulayıram.

Müstəqilliyimizin əldə edilməsindən sonra Türkiyə və Azərbaycan arasında əlaqələr genişlənməkdə davam edir. Biz artıq Türkiyə-Azərbaycan strateci tərəfdaşlıq münasibətlərini möhkəmləndiririk.

Ancaq xalqlarımız arasında əlaqələrin tarixi çox qədimdir və onlar bizim üçün çox dəyərlidir. Çünki biz eyni kökə mənsub xalqlarıq, eyni milli-mənəvi dəyərləri, eyni dili, eyni dini paylaşırıq. Keçmişimiz bir olduğu kimi, gələcəyə aparan yollarımız da eynidir. Bütün bunlar bizi yaxınlaşdırır, doğmalaşdırır.

Biz Türkiyənin nail olduğu inkişafdan və onun dünya birliyindəki nüfuzundan böyük məmnunluq duyuruq və inanırıq ki, Türkiyə bundan sonra da Atatürk yolu ilə, demokratiya, insan haqlarının qorunması, hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatı yolu ilə uğurla irəliləyəcəkdir.

Biz XX əsrin son yetmiş ilini bir dövlət tərkibində yaşadığımız qardaş Qazaxıstan, Qırğızıstan, Özbəkistan

və Türkmənistanla ikitərəfli və çoxtərəfli əlaqələrimizi daha da genişləndirmək, müstəqilliyin yaratdığı imkanlardan faydalanaraq daha böyük işbirliyi qurmaq əzmindəyik.

VII Zirvə görüşü bir daha təsdiq edir ki, tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi bizim strateci əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa əsas verir.

Mən Zirvə görüşünün işinə bir daha uğurlar arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ VII ZİRVƏ GÖRÜŞÜNDƏ PREZİDENT HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Cənab sədr,
Hörmətli Dövlət Başçıları,
Xanımlar və cənablar!

Qardaş Türkdilli Dövlətlərin Başçılarına, nümayəndə heyətlərinin üzvlərinə, bütün qonaqlara İstanbul şəhərində öz işinə başlayan VII Zirvə görüşü münasibətilə Azərbaycan xalqı adından bir daha ən səmimi salamlarımı və xoş arzularımı çatdırıram.

Görüşümüzün uğurla keçəcəyinə və qarşıya qoyulmuş məqsədlərə çatacağına, ölkələrimizin və xalqlarımızın əməkdaşlığı, işbirliyi yolunda mühüm addıma çevriləcəyinə ümidvar olduğumu bildirirəm.

Türkiyə Cümhuriyyətinin Prezidenti, dostum və qardaşım Əhməd Necdət Sezərə, Türkiyə hökumətinə və xalqına bu mühüm görüşün ev sahibliyini öz üzərinə götürdükləri üçün ürəkdən minnətdarlığımı bildirirəm.

Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, Türkdilli Dövlətlərin Başçılarının 1992-ci ildə keçirilmiş ilk, Ankara görüşündən ötən illər ərzində qarşılaşdığımız bütün çətinliklərə baxmayaraq birliyimiz inkişaf edib, möhkəmlənibdir.

Keçən illər ərzində ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında bir çox sahələrdə əlaqələr genişlənib, əməkdaşlığımız artıq öz səmərəsini göstərməyə başlayıbdır.

Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv siyasi dialoq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq, xalqlarımız üçün isə ictimai tərəqqi və rifah əsri olacaqdır. Bütün bunlara biz, əldə etdiyimiz tarixi nailiyyətlərin - milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmlənməsi nəticəsində nail olacağıq.

Bu gün toplaşdığımız VII Zirvə görüşü bir daha təsdiq edir ki, müstəqillik qazandıqdan sonra xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq birinci növbədə ortaq mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli mənəvi dəyərlərimizin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün aydın perspektivlər açmışdır.

Türkdilli Dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensiallı olan insan resurslarına malikdirlər. Xalqlarımızın çoxəsrlik dövlətçilik ənənələri, zəngin mədəniyyəti, yüksək humanist keyfiyyətləri vardır.

Hələ keçən əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun və çətin mübarizələrdən sonra yalnız XX əsrin sonunda bu istiqamətdə böyük irəliləyişlərə nail olduq. Şübhəsiz, indiki şəraitdə Türkdilli Dövlətlərin Başçılarının qarşılıqlı əməkdaşlığı və ardıcıl təması bu sahədəki uğurlarımızı daha da artıracaqdır.

Bizim Zirvə görüşlərimiz nəticəsində bir sıra nəcib ənənələrin əsası qoyulmuşdur. Onların sırasında dahi şəxsiyyətlərimizin, milli mədəniyyətlərimizin korifeylərinin, bəşər sivilizasiyasının inciləri sayılan möhtəşəm eposlarımızın əlamətdar ildönümlərini, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələri birlikdə bayram etməyimiz əhəmiyyətli yer tutur.

"Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin əsasən Türkdilli Dövlətlərin Başçılarının Zirvə görüşü çərçivəsində bayram edilməsi, bu görüşlərin əhatə dairəsini daha da genişləndirmişdi.

Belə yubiley tədbirlərinin birlikdə qeyd olunmasında əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bütün dünyaya bir daha nümayiş etdirməkdir.

Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə, biz inandırıcı şəkildə göstəririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunus İmrənin, Füzulinin, Məxtumqulunun, Mahmud Qaşqarinin, Abayın və bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil, onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir.

Sarsılmaz tarixi tellərlə bağlılığımızla bərabər, məqsəd və vəzifələrimizin, qarşılaşdığımız problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir.

Dərin razılıq hissi ilə qeyd etmək istəyirəm ki, 1992-ci ildən başlayaraq, sıra ilə qardaş dövlətlərimizin paytaxtlarında keçirilən zirvə görüşləri nəticəsində keçən müddət ərzində Türkdilli Dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyəli çoxlu görüşlər keçirilmiş, danışıqlar aparılmış, dost ölkələrimizə qarşılıqlı səfərlər olmuş, bir sıra mühüm dövlət-

lərarası sazişlər imzalanmışdır.

Bu sazişlər dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir.

Türkdilli Dövlətlərin Başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Bu isə bir çox çətin və mürəkkəb məsələlərin birgə səylərlə həll olunmasına kömək edir. Bunun nəticəsidir ki, ölkələrimiz bir sıra iri beynəlxalq layihələr çərçivəsində uğurla əməkdaşlıq edirlər.

Bu gün hamımızı birləşdirən belə nəhəng layihələrdən biri də Xəzər hövzəsindəki enerji daşıyıcılarının hasil edilməsi və onları dünya bazarına çıxaracaq infrastrukturların yaradılmasıdır.

1994-cü ildən başlayaraq, Azərbaycanın ardıcıl surətdə həyata keçirdiyi enerji strategiyası nəticəsində dünyanın iri neft şirkətlərinin təmsil olunduğu Konsorsium ilə məşhur "Əsrin müqaviləsi" imzalanmış və Xəzər hövzəsi enerji ehtiyatlarının işlənilməsi üzrə uzunmüddətli beynəlxalq əməkdaşlıq bölgələrindən birinə çevrilmişdir. Məhz bundan sonra karbohidrogen ehtiyatlarının aşkara çıxarılması üçün göstərilən səylər Qazaxıstanda və Türkmənistanda da zəngin yataqların olduğunu təsdiq etmişdir.

Beləliklə, Azərbaycanın bu siyasəti nəticəsində Xəzər hövzəsi bu gün bütün dünyanın diqqətini özünə cəlb edən ən cazibədar və perspektivli enerji mənbələrindən biri olan coğrafi-siyasi regiona çevrilmişdir.

Xəzəryanı dövlətlərin hər birinin enerji ehtiyatları ilə zəngin olan öz sektoru və buradan irəli gələn bütün hüquq və imkanları vardır. Biz bu imkanlardan istifadə edərək, birgə çoxtərəfli layihələrin həyata keçirilməsində fəal iştirak etməklə Xəzər hövzəsini iqtisadi tərəqqi zonasına çevirər, dünya iqtisadi sistemində öz layiqli yerimizi tutarıq. Ümidvaram ki, İstanbul görüşü bu əməkdaşlığa yeni güclü təkan verəcəkdir.

Şübhə yoxdur ki, ölkələrimizin malik olduğu zəngin təbii sərvətlər və əlverişli coğrafi mövqe iqtisadi fayda ilə yanaşı, dövlətlərimizə həm də böyük siyasi üstünlüklər qazandırır.

Enerji resurslarının birgə hasilatı, dünya bazarlarına çıxmaq üçün neft və qaz kəmərlərinin çəkilişi dövlətlərimizin mənafeyini dünyanın inkişaf etmiş ölkələrinin mənafeyi ilə birləşdirəcək və regionun təhlükəsizliyinin, sabitliyinin və tərəqqisinin təminatçısına çevriləcəkdir.

Diqqətəlayiq haldır ki, beynəlxalq əməkdaşlığımızın nümunəsi sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı möhtəşəm layihənin reallaşdırılması 1998-ci il oktyabrın 29-da, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi zamanı imzalanmış Ankara bəyannaməsi ilə başlanmışdır.

1999-cu ilin noyabrında, ATƏT-in Sammiti zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə əlaqədar imzalanmış tarixi İstanbul sazişi ölkələrimizin gələcək inkişafı, regionumuzun təhlükəsizliyi və çiçəklənməsi yolunda böyük uğur sayılmalıdır.

Türkdilli Dövlətlərin iqtisadiyyatının dirçəlməsində mühüm rolu olan TRASEKA və Böyük İpək Yolunun bərpası layihələrini xüsusi qeyd etmək lazımdır. TRASEKA proqramını yerinə yetirib Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizini reallığa çevirməklə, biz həm iqtisadi inkişaf və yeni iş yerlərinin açılması üçün imkan yaradır, həm də regionumuzda sülh və sabitlik şəraitini möhkəmləndiririk.

Tarixi Böyük İpək Yolunun bərpasına dair 1998-ci il sentyabrın 7-8-də Avropa Birliyinin himayəsi altında Bakıda dünyanın 32 dövlətinin və 15 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilmiş Beynəlxalq Konfransın böyük əhəmiyyəti olmuşdur.

Böyük İpək Yolunun bərpa edilməsi, TRASEKA proqramının həyata keçirilməsi nəticəsində Avropa İttifaqı məkanından başlayaraq, Qafqaz və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyayadək uzanan nəqliyyat dəhlizi Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirəcəkdir. Bu layihənin reallaşmasında Türkdilli Dövlətlər açar rolunu oynayır.

1999-cu ilin aprelində Amerika Birləşmiş Ştatlarının Senatında İpək Yolu ölkələrinin Dövlət Başçılarının, Amerika Birləşmiş Ştatları Administrasiyasının yüksək səviyyəli nümayəndələrinin, konqresmenlərin iştirakı ilə keçirilən Konfrans bizim məqsəd birliyimizi, Böyük İpək Yolunun bərpasında fəal iştirak etmək arzusunda olduğumuzu bir daha təsdiq etdi.

XX əsrin sonu dünyanın coğrafi-siyasi mənzərəsini dəyişdirmiş hadisələrlə əlamətdardır. Xalqlarımızın müstəqilliyini əldə etməsi, demokratik inkişaf yolunu seçərək irəliləməsi tariximizdə yeni səhifələr açır.

Qardaş Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanla bərabər, Azərbaycan da bu il müstəqilliyinin 10 illik yubileyini qeyd edir. Mən böyük iftixar hissi ilə bildirirəm ki, Azərbaycan Respublikası ötən illər ərzində müstəqilliyini və suverenliyini qorumuş, dünya birliyinə inteqrasiyasını müvəffəqiyyətlə davam etdirmişdir.

Bir sıra çətinliklərə baxmayaraq, Azərbaycan dünyanın mötəbər beynəlxalq təşkilatlarından biri olan Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmuş və bununla da Ümumavropa ailəsinə həqiqətən mənsubluğunu təsdiq etmişdir.

Lakin sadalanan uğurlarla yanaşı, yeni müstəqil dövlətlər həllini tapmamış, bu və ya digər şəkildə onların müstəqilliyi və suverenliyini təhlükə altına qoya biləcək problemlərlə də üzləşirlər.

Dünyada separatizm, terrorizm, dini ekstremizm təhlükəsi hələ də

azalmamış, əksinə, artmışdır. Məhz qonşu Ermənistanın hərbi təcavüzü, Azərbaycana qarşı haqsız ərazi iddiaları nəticəsində 1988-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yaranmışdır.

Əvvəlcə keçmiş Sovet rəhbərliyinin, sonrakı dövrdə isə dünya birliyinin laqeydliyi üzündən artıq 10 ilə yaxındır ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Doğma torpaqlarından qovulmuş bir milyondan artıq Azərbaycanlı hələ də qaçqın kimi çadır şəhərciklərində ağır və dözülməz şəraitdə yaşayır.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası hələ 1993-cü ildə münaqişə ilə əlaqədar dörd qətnamə qəbul etmişdir. Qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən qeyd-şərtsiz, dərhal çıxarılmasının tələb olunmasına baxmayaraq, Ermənistan bugünədək həmin qətnamələri yerinə yetirmir.

Azərbaycan tərəfi ardıcıl surətdə sülhsevər siyasət yeridərək, münaqişənin dövlətlərin ərazi bütövlüyü, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı və beynəlxalq hüququn digər norma və prinsiplərinə uyğun şəkildə ədalətli həllinə, işğal olunmuş ərazilərimizin azad edilməsinə, qaçqınların və köçkünlərin doğma yurdlarına qayıtmasına çalışır.

1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıb və ona əməl olunur. ATƏT-in Minsk qrupu, onun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa məsələnin sülh yolu ilə həlli istiqamətində çalışırlar. Lakin Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməməsi, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması münaqişənin aradan qaldırılmasına imkan vermir.

Münaqişənin həllində irəliləyiş əldə edilməsi məqsədi ilə son iki ildə Ermənistan Prezidenti ilə Azərbaycan Prezidenti arasında birbaşa görüşlər keçirilmişdir. Sülhə nail olmaq üçün qarşılıqlı kompromislərə gedilməsi zərurəti bildirilmişdir.

Son zamanlar Azərbaycan Prezidenti ilə Ermənistan Prezidenti arasında danışıqlar prosesi intensivləşmişdir. 2001-ci il yanvarın 25-26-da və martın 4-5-də Parisdə Fransa Prezidenti Jak Şirakın vasitəçiliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi məsələsi müzakirə edilmişdir.

2001-ci il aprelin 3-6-da Amerika Birləşmiş Ştatlarının Florida ştatının Ki Uest şəhərində Dövlət katibi Kolin Pauellin təşəbbüsü və iştirakı, ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan Prezidentləri arasında müzakirələr davam etdirilmişdir. Danışıqlar sona çatdıqdan sonra Azərbaycan və Ermənistan Prezidentləri Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş ilə Vaşinqton şəhərində görüşmüşlər. Növbəti sülh danışıqları cari ilin iyun ayında İsveçrədə olacaqdır.

Ümid edirik ki, sülh danışıqları nəhayət öz bəhrəsini verəcək, biz məsələnin ədalətli həllinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, qaçqın və köçkünlərin öz yerlərinə qayıtmasına nail olacağıq.

Ermənistanın Azərbaycana hərbi təcavüzü xalqımıza böyük zərbələr vurmuşdur. Biz bu münaqişəni aradan qaldırmaq üçün var qüvvəmizlə çalışırıq. Hesab edirəm, bizim düşdüyümüz vəziyyətdən hamı nəticə çıxarmalıdır. Hər bir hərbi təcavüzün qarşısı vaxtında alınmalıdır və dünya birliyi belə təhlükələri aradan qaldırmaq üçün qəti tədbirlər görməlidir.

Separatizmin, terrorizmin, dini ekstremizmin qarşısını almaq üçün dünya birliyi, eləcə də Türkdilli Dövlətlər Birliyi səmərəli birgə fəaliyyət göstərməlidirlər.

Bu təhlükələr isə yalnız Cənubi Qafqazda deyil, digər regionlarda da mövcuddur. Ötən ildən başlayaraq ayrı-ayrı dini ekstremist qruplaşmaların Mərkəzi Asiyada, ilk növbədə isə Özbəkistanda və Qırğızıstanda fəallaşmaları, onların separatçı və terrorçu fəaliyyətləri nəticəsində baş vermiş insan tələfatı və qarşıdurma Azərbaycanda da haqlı narahatlıqla qarşılanmışdır.

Bütün bunlar bir daha göstərir ki, biz terrorizmə, dövlətlərin ərazi bütövlüyünü və sərhəd toxunulmazlığını pozan barışmaz separatizmə, dini ekstremizmə qarşı bundan sonra da birgə mübarizə aparmalı, bu sahədə səylərimizi birləşdirməliyik.

Diqqətinizə çatdırmaq istəyirəm ki, ATƏT-in İstanbul Sammitində Azərbaycan Respublikası ilk dəfə olaraq, Cənubi Qafqazda təhlükəsizlik və sabitlik paktının qəbul edilməsi barədə təkliflə çıxış etmişdi. Bizim təşəbbüsümüz regionun xarici hərbi qüvvələrdən azad edilməsi, təcavüz və etnik təmizləmə siyasətinin aradan qaldırılması, separatizm və terrorizmin qarşısının alınmasına yönəlmişdir.

Biz regionda sabitliyin və sülhün bərqərar olmasına gətirib çıxaracaq Qafqaz paktının yaradılması haqqında Türkiyə Cümhuriyyətinin səylərini alqışlayırıq. Bu təkliflərin həyata keçirilməsi üçün imkan və səylərimizi birləşdirməliyik. Baş verə biləcək təhlükələrin qarşısını yalnız bu yolla ala bilərik.

Hörmətli Dövlət Başçıları,

Xanımlar və cənablar,

Görüş zamanı hazırlanmış İstanbul bəyannaməsinin bütün müddəalarını bütövlükdə dəstəkləyirik.

Biz Türkdilli Dövlətlərin Başçılarının Zirvə görüşlərinin daimi katibliyinin yaradılması və onun iqamətgahının Türkiyədə yerləşdirilməsi fikrini bəyənirik.

Əminəm ki, Türkdilli Dövlətlər Birliyinin VII İstanbul Zirvə görüşü bizim dostluq və qardaşlığımızın möhkəmlənməsinə, Türkdilli Dövlət-

lər və xalqlar arasında çoxtərəfli əlaqələrin inkişaf etməsinə qiymətli töhfə verəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ QƏBULDA PREZİDENT HEYDƏR ƏLİYEVİN NİTQİ

- Hörmətli Cümhurbaşqanı Əhməd Necdət Sezər,

Hörmətli Cümhurbaşkanları,

Hörmətli qonaqlar,

Xanımlar və cənablar!

Buraya, VII Zirvə görüşünə toplaşmış Cümhurbaşkanları mənə təklif etdilər ki, onların adından və öz adımdan bir neçə kəlmə söz deyim. Mən bu səlahiyyəti çox məmnunluqla qəbul etdim. Çünki hər dəfə Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı haqqında və Türkiyə Cümhurbaşkanları haqqında söz demək mənim qəlbimdən gəlir. Öncə bildirmək istəyirəm ki, Türkdilli Dövlətlərin Başçılarının VII Zirvə görüşü artıq sona çatmaqdadır və biz hamımız, yəni buraya toplaşmış Cümhurbaşkanları, Məclis Başqanı, nümayəndə heyətlərinin digər üzvləri bu Zirvə görüşünün təşkilindan və aparılmasından çox məmnunuq.

Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşünün əsası 1992-ci ildə Türkiyənin təşəbbüsü ilə Ankarada qoyulmuşdur. 9 il keçib və biz bu gün çox böyük məmnunluq hissi ilə deyə bilərik ki, ötən illərdə nə qədər çətin və ağır proseslər olsa da, Türkdilli Dövlətlər inkişaf edib-lər, öz dövlət müstəqilliklərini qoruyublar, suverenliyini qoruyublar və Türkdilli Dövlətlər Birliyi daha yüksək zirvələrə çatıbdır. Türkdilli Dövlətlər Birliyinin təməli Türkiyədə qoyulmuşdur və ötən 9 il ərzində bu birliyin yaşaması üçün, işbirliyimizin genişləndirilməsi üçün və xalqlarımızın bir-birinə yaxınlaşdırılması üçün Türkiyə Cümhuriyyətinin, türk xalqının, Türkiyənin böyük xidmətləri olmuşdur.

Türkdilli Dövlətlər Birliyinə qatılmış hər bir ölkə bərabər hüquqludur, ancaq Türkiyə bu birliyin daha da güclü olmasını, daha da inkişaf etməsini təmin edən ən qabaqcıl ölkədir. Biz hər dəfə Türkiyəyə gələndə böyük məmnunluq hissi duyuruq və türk qardaşlarımızla görüşərkən özümüzü çox bəxtiyar hiss edirik. Bizi sevindirən odur ki, Türkiyə Cümhuriyyəti 1923-cü ildən, Cümhuriyyət yaranandan indiyə qədər çox sürətlə inkişaf edibdir və dünyanın ən böyük dövlətlərindən biri kimi son illərdə həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə dünya birliyində öz yerini tutubdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürk elə bir Cümhuriyyət yaradıbdır ki, o, daim yaşayacaq, daim inkişaf edəcəkdir.

Bizi ən çox sevindirən də odur ki, türk xalqı, Türkiyə Cümhuriyyəti, Türkiyənin aparıcı qüvvələri Atatürkün vəsiyyətlərinə sadiqdirlər və Türkiyəni Atatürkün qoyduğu yolla irəliyə aparırlar.

Biz bu görüş zamanı - dünən Türkiyəyə gələndən indiyədək burada böyük qonaqpərvərlik, sevgi, məhəbbət və dostluq hissləri görürük. Bu da bizim hamımızı çox məmnun edir. Bütün bunların təşkilatçısı, yaradıcısı türkiyənin Cümhurbaşkanı, bizim əziz dostumuz, qardaşımız Əhməd Necdət Sezərdir. Ona görə də biz hamımız əziz dostumuz, qardaşımız, Cümhurbaşkanı Əhməd Necdət Sezərə qəlbimizdən gələn hissləri və ən xoş arzularımızı, təşəkkürümüzü bildiririk və ona gələn illərdə də, - Cümhurbaşkanlarılığının birinci il-dönümü sona çatıb, - yeni-yeni uğurlar arzulayırıq. Bizim hamımız Türkiyə hökumətinə, Türkiyənin rəhbərlərinə, Türkiyə xalqına öz sevgi və məhəbbətimizi bildiririk və bizə göstərilən qonaqpərvərliyə görə dərin təşəkkürümüzü ifadə edirik. Türkiyə bizim üçün ikinci vətəndir. Ona görə də Türkiyədə olarkən hər birimiz özümüzü öz vətənimizdə hiss edirik.

Mən rica edirəm, bu badələri türk xalqının şərəfinə, Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə hökumətinin şərəfinə və Türkiyənin hörmətli Cümhurbaşkanı, əziz dostumuz Əhməd Necdət Sezərin şərəfinə, əziz dostlar, Sizin şərəfinizə qaldıraq.

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ YEDDİNCİ ZİRVƏ GÖRÜŞÜNDƏ PREZİDENT HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezər,

Hörmətli Cümhurbaşkanları,

Hörmətli Məclis Başqanı!

Mən hesab edirəm ki, bizim çox gərgin iş şəraitində keçirdiyimiz Türkdilli Dövlətlərin Başçılarının VII Zirvə görüşü çox böyük nailiyyət əldə edib və biz bu gün məmnunluq hissi ilə deyə bilərik ki, Türkdilli Dövlətlər Birliyi bundan sonra da öz fəaliyyətini genişləndirəcəkdir. Hörmətli Cümhurbaşkanı, Siz burada hər şeyi dediniz, ona görə də təkrar etməyə ehtiyac yoxdur. Mən, sadəcə, bildirmək istəyirəm ki, buradakı görüşümüz çox yüksək səviyyədə keçdi. Hörmətli Cümhurbaşkanı, Sizə, Türkiyənin bu toplantıda iştirak edən dövlət adamlarına, dövlət orqanlarına Zirvə görüşünün çox yüksək səviyyədə hazırlanması və keçirilməsinə görə bir daha təşəkkürümü bildirirəm. Bizə çox gözəl qonaqpərvərlik göstərilibdir. Buna görə mən Türkiyənin daim qonaqpərvər ölkə olduğunu bir daha təsdiq edərək, Azərbaycan Respublikası adından təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bildirirəm ki, Türkdilli Dövlətlər Birliyinin üzvü olaraq Azərbaycan öz üzərinə düşən vəzifələri bundan sonra da daim yerinə yetirəcək

və Türkdilli Ölkələrin işbirliyinin daha da genişlənməsi və qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni edəcəkdir. Mən bir daha sizə təşəkkür edirəm. Ümidvaram ki, VII Zirvə görüşünə, Aşqabada biz yeni-yeni nailiyyətlərlə gedəcəyik.

Təşəkkür edirəm.

İSTANBUL BƏYANNAMƏSİ

Aprelin 27-də Türkdilli Ölkələrin Dövlət Başçıları İstanbul bəyannaməsini imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Əsgər Akayev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Türkmənistan Prezidenti Saparmurad Niyazov və Özbəkistan Respublikası Ali Məclisinin Sədri Erkin Xəlilov 2001-ci il aprelin 26-27-də İstanbulda Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşünü keçirmişlər.

Dövlət Başçıları,

- aralarındakı tarix, mədəniyyət və dil birliyinin əhəmiyyətini, dostluq, hüquq bərabərliyi və qarşılıqlı mənafelərə hörmət ruhunda bütün sahələrdə dövlətlərarası münasibətlərin və əməkdaşlığın mövcud yüksək səviyyəsini qeyd edərək;

- öz müstəqilliyinin 10-cu ildönümünü qeyd edən Azərbaycanın, Qazaxıstanın, Qırğızıstanın, Türkmənistanın və Özbəkistanın siyasət, iqtisadiyyat, sosial həyat, hüquq sahəsində və digər sahələrdə mühüm islahatlar apardıqlarını, demokratikləşdirmə, insan haqlarının təmin olunması və bazar iqtisadiyyatı infrastrukturunun yaradılması prosesində xeyli tərəqqi olduğunu və bunun onların dünya birliyinə inteqrasiyasına kömək etdiyini vurğulayaraq;

- dünya birliyi ilə mövcud hərtərəfli münasibətləri möhkəmləndirmək səylərinin müstəqillik, suverenlik, təhlükəsizlik, ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq, zor işlətməmək və zor işlətməklə hədələməmək, iqtisadi və digər təzyiq üsulları tətbiq etməmək prinsipləri əsasında davam etdiriləcəyini bildirərək;

- milli iqtisadiyyatların möhkəmləndirilməsi, o cümlədən təbii ehtiyatlardan səmərəli istifadə olunması yolu ilə öz xalqlarının rifahını yüksəltməyə çalışaraq və bu baxımdan regional əməkdaşlığın rolunu və əhəmiyyətini dərk edərək;

- Türkdilli Dövlətlərin Başçılarının müntəzəm surətdə keçirilən görüşlərinin faydasını nəzərə çarpdıraraq və Ankara, İstanbul, Bişkek, Daşkənd, Astana və Bakıda keçirilmiş Zirvə toplantılarının bəyannamələrinin əhəmiyyətini vurğulayaraq;

- Birləşmiş Millətlər Təşkilatı nizamnaməsinin məqsəd və prinsiplərinə, Helsinki yekun aktının və ATƏT-in digər əsas sənədlərinin müddəalarına sadiq qaldıqlarını təsdiqləyərək;

- Türkdilli Ölkələrin potensialını nəzərə alaraq və dostluq, mehriban qonşuluq, qarşılıqlı fayda və hüquq bərabərliyi ruhunda əməkdaşlığa XXI əsrdə yeni təkan verilməsinin zəruriliyinə diqqəti cəlb edərək, perspektivləri qeyd edərək və maraq doğuran beynəlxalq və regional məsələlər barədə fikir mübadiləsi apararaq bəyan edirlər:

1. Dövlət Başçıları Türkdilli Ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərin müsbət inkişafını məmnunluqla bildirərək və bu münasibətləri qarşılıqlı surətdə faydalı əsasda və hüquq bərabərliyi əsasında müxtəlif sahələrdə daha da genişləndirməyin və dərinləşdirməyin zəruriliyini qeyd edərək, İstanbul Zirvə görüşünün bu istiqamətdə əhəmiyyətini vurğulamışlar.

2. Dövlət Başçıları demokratiyaya, insan haqlarına, sekulyarizmə, sosial ədalətə və bazar iqtisadiyyatına sadiq olduqlarını təsdiqləmişlər.

3. Dövlət Başçıları tarixi, dil və mədəni əlaqələrin möhkəmləndirilməsinə və bu istiqamətdə işin gücləndirilməsinə tərəfdar olduqlarını, Türksoy-un təhsil və mədəniyyət sahəsində fəaliyyətinin müsbət töhfə verdiyini bildirmiş və bu təşkilatın fəaliyyətini bundan onra da təşviq edəcəklərini vurğulamışlar.

4. Dövət Başçıları Böyük İpək Yolunun bərpasının, regionda turizmin və iqtisadiyyatın inkişafına kömək edəcək hərtərəfli regional və beynəlxalq əməkdaşlığın inkişafı sahəsində işləri sürətləndirməyin zəruriliyini vurğulamışlar.

Bununla əlaqədar olaraq, Dövlət Başçıları müasir nəqliyyat sistemlərinin rolunu qeyd etmiş, həmin sahədə sazişə və layihələri həyata keçirmək məqsədi ilə fəal əməkdaşlığı davam etdirməyin zəruriliyini təsdiqləmişlər.

5. Dövlət Başçıları Türkdilli Ölkələrin mədəni və tarixi irslərini qoruyub saxlamaq sahəsində səylərin davam etdirilməsinə tərəfdar çıxmış və türk dünyasının ümumi dəyərlərini ortaya çıxarmaq, habelə xalqları yaxınlaşdırmaq üçün kütləvi informasiya vasitələri və ictimai təşkilatlar arasında əməkdaşlığın zəruriliyini təsdiqləmişlər.

6. Dövlət Başçıları türkdilli xalqlar arasında dostluğu möhkəmləndirmək məqsədi ilə təhsil sahəsində sıx əməkdaşlığı dərinləşdirməyin vacibliyini təsdiqləmişlər.

7. Dövlət Başçıları təbii ehtiyatların, o cümlədən neft və qazın hasilatının və istifadəsinin vacibliyini təsdiqləmiş və bununla əlaqədar olaraq nəzərə çarpdırmışlar ki, onlar öz ölkələrinin karbohidrogen xammalının dünya bazarlarına göndərilməsi üçün "Şərq-Qərb" enerji daşıyıcıları dəhlizinin gerçəkləşdirilməsində və istismarında əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Dövlət Başçıları bildirmişlər ki, regionun müştərək enerci layihələrinin həyata keçirilməsi işində beynəl-

xalq və özəl maliyyə təşkilatlarını bundan sonra da təşviq edəcəklər.

8. Dövlət Başçıları ətraf mühitin mühafizəsinə çox böyük önəm verərək, regionda, xüsusən Aral dənizi bölgəsində ekoloji vəziyyətin yaxşılaşdırılması üçün təxirəsalınmaz tədbirlər görülməsinə çağırmışlar.

9. Dövlət Başçıları Türkdilli Ölkələr arasında ticarət-iqtisadi əlaqələri genişləndirmək məqsədi ilə ikitərəfli və çoxtərəfli layihələrin, xüsusən sənaye, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və turizm sahəsində layihələrin hazırlanmasının və həyata keçirilməsinin əhəmiyyətini vurğulamışlar.

10. Dövlət Başçıları öz ölkələrinin və regionun iqtisadi inkişafında kiçik və orta müəssisələrin rolunu nəzərə çarpdıraraq, onlar üçün lazımi kadrlar hazırlamaqdan ötrü texniki əməkdaşlığın əhəmiyyətini qeyd etmiş və sahibkarlar və biznesmenlərlə əməkdaşlığa əlverişli şərait yaradılmasına tərəfdar olduqlarını bildirmişlər.

11. Dövlət Başçıları ayrı-ayrı türkdilli ölkələr arasında mülki aviasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsini dəstəklədiklərini bildirmişlər.

12. Dövlət Başçıları parlamentlər, mərkəzi və yerli hakimiyyət və idarəetmə, özünüidarə orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi əhəmiyyət vermişlər.

13. Dövlət Başçıları qlobal və regional sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi sahəsində BMT-nin, ATƏT-in və digər beynəlxalq təşkilatların səylərini dəstəklədiklərini bildirərək, mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə sadiq qaldıqlarını və bu baxımdan geniş əməkdaşlığın zəruriliyini vurğulamışlar.

Dövlət Başçıları Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə prosesini dərinləşdirməyin zəruriliyinə tərəfdar olduqlarını bildirmiş, qeyd etmişlər ki, bu forum regionda sülh və sabitliyin təmin edilməsinin mühüm vasitəsidir.

Dövlət Başçıları beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə ATƏT və İslam Konfransı təşkilatı arasında əlaqələrin faydalı olduğunu nəzərə çarpdırmışlar.

14. Dövlət Başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi haqqında müvafiq qətnamələrini və ATƏT-in qərarlarını dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışlar.

15. Dövlət Başçıları regional və qlobal sülhə, dövlətlərin ərazi bütövlüyünə, müstəqilliyinə, təhlükəsizliyinə, habelə sabitliyinə və Konstitusiya quruluşuna qorxu törədən terrorizm və separatizmin hər cür formalarını və təzahürlərini pisləmişlər.

Dövlət Başçıları beynəlxalq terrorizmlə, habelə radikal və separatçı cərəyanlarla və narkotik maddələr, silah qaçaqmalçılığı kimi sərhədaşırı cinayətlərlə birgə mübarizənin vacibliyini vurğulamış, bu mübarizədə ikitərəfli və çoxtərəfli səviyyələrdə, habelə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək əzmində olduqlarını təsdiqləmişlər.

16. Dövlət Başçıları narkotiklərin və prekursorların qanunsuz istehsalı və satışının artması meylini nəzərə çarpdıraraq, öz ölkələrinin ərazisindən həmin maddələrin qanunsuz tranziti üçün istifadə edilməsindən narahat olduqlarını bildirmiş və narkotik maddələr qaçaqmalçılığı ilə mübarizədə daha sıx əlaqələndirməni təmin etmək, müntəzəm informasiya mübadiləsi üçün məlumat bankı yaratmaq işlərinə başlamaq haqqında razılığa gəlmişlər.

Dövlət Başçıları beynəlxalq terrorizm, narkotik maddələr və silah qaçaqmalçılığı, mütəşəkkil cinayətkarlıq və qanunsuz miqrasiya ilə mübarizədə əməkdaşlığın vacibliyini vurğulamışlar.

Dövlət Başçıları BMT-nin narkotiklərə beynəlxalq nəzarət proqramı da daxil olmaqla, dünya birliyinin bütün təşəbbüslərinə kömək göstərmək əzmində olduqlarını bildirmişlər.

17. Dövlət Başçıları Əfqanıstandakı vəziyyətdən dərin narahatlıq keçirdiklərini bildirmiş və münaqişənin sülh yolu ilə tezliklə həlli üçün beynəlxalq birliyin göstərdiyi səyləri dəstəklədiklərini bəyan etmişlər.

18. Dövlət Başçıları İstanbul Zirvə görüşünün türkdilli ölkələr arasında mövcud münasibətləri və əməkdaşlığı möhkəmləndirəcəyinə, regional sülhün, sabitliyin, təhlükəsizliyin, iqtisadi inkişafın və iştirakçı ölkələrin xalqlarının tərəqqisinin təmin edilməsi işinə sanballı töhfə verəcəyinə əmin olduqlarını bildirmiş və səmimi qəbula, qonaqpərvərliyə görə türk xalqına və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərə təşəkkür etmişlər.

19. Dövlət Başçıları VII Zirvə görüşünü 2002-ci ildə Aşqabad şəhərində keçirməyi qərara almışlar.

2001-ci il aprelin 27-də İstanbul şəhərində hər biri türk və rus dillərində olmaqla altı nüsxədə tərtib edilmişdir, bütün mətnlər eyni qüvvəyə malikdir.

Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyev

Qazaxıstan Respublikasının Prezidenti
Nursultan Nazarbayev

Qırğızıstan Respublikasının Prezidenti
Əsgər Akayev

Türkiyə Respublikasının Prezidenti
Əhməd Necdət Sezər

Türkmənistan Prezidenti
Saparmurad Niyazov

Özbəkistan Respublikası Ali Məclisinin Sədri
Erkin Xəlilov

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN MƏTBUAT KONFRANSINDA ÇIXIŞI

- Hörmətli cənab Prezident Əhməd Necdət Sezər!

Hörmətli Prezidentlər!

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Türkdilli Ölkələrin Dövlət Başçılarının VII Zirvə görüşü başa çatdı və tam əsasla demək olar ki, VII Zirvə görüşü bu birliyin zəruri olduğunu və gələcəkdə də inkişaf edəcəyini bir daha nümayiş etdirdi.

Türkdilli Dövlətlər Birliyi 1992-ci ildə Ankarada yaranan zamandan indiyə qədər Azərbaycan Respublikası bütün Zirvə görüşlərində iştirak edib, bu Zirvə görüşlərinin çox əhəmiyyətli olduğunu bildiribdir və Türkdilli Dövlətlər Birliyinə öz töhfələrini vermişdir.

Mən hesab edirəm ki, İstanbulda iki gün ərzində bizim keçirdiyimiz görüşlərin hamısı çox səmərəli, çox faydalı olmuşdur. Tam qətiyyətlə demək olar ki, VII Zirvə görüşü uğurla başa çatmışdır. Bu vəsilə ilə mən Türkiyə Cümhuriyyətinin Prezidenti, VII Zirvə görüşünün ev sahibi, hörmətli Əhməd Necdət Sezərə və onunla bərabər bu toplantının hazırlanmasında və keçirilməsində xidmət göstərmiş bütün dövlət, hökumət adamlarına təşəkkürümü bildirirəm.

Biz Türkiyənin, türk xalqının, Türkiyə Cümhuriyyətinin nə qədər qonaqpərvər olduğunu və türkdilli dövlətlərin birləşməsi üçün nə qədər böyük səylər göstərdiyini bu günlər bir daha müşahidə etdik. Bu, şəxsən məndə, bütün Azərbaycan xalqında böyük qürur hissi doğurur. Türkiyə Cümhuriyyətində, qardaş türk torpağında, böyük Mustafa Kamal Atatürkün Cümhuriyyətində yenidən olmaq və yenidən təmaslarda olmaq, burada türkdilli dövlətlərin gələcək problemləri haqqında müzakirələr aparmaq bizim üçün çox önəmlidir.

Bizə göstərilən qonaqpərvərliyi ifadə etmək üçün bu sözlər yetərli deyildir. Bu qonaqpərvərliyi həm dostumuz, qardaşımız Əhməd Necdət Sezər tərəfindən, həm bütün dövlət və hökumət nümayəndələri tərəfindən, həm də Türkiyə xalqı tərəfindən hiss edirik. Ona görə mən səmimi qəlbdən, içimdən gələn duyğularla təşəkkür edirəm, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, qardaş türk millətinə yeni-yeni uğurlar arzulayıram. Təşəkkür edirəm.

Əhməd Necdet Sezər: Hörmətli Cümhurbaşkanım, təşəkkür edirəm.

Dəyərli mətbuat nümayəndələri, əgər suallarınız varsa, hörmətli Cümhurbaşkanları onları cavablandıra bilərlər.

Sual: Mənim sualım Türkmənistanın Cümhurbaşkanı hörmətli Türkmənbaşıyadır. Hörmətli Cümhurbaşkanımızın açıqlamasından anladıq ki, Bakı-Ceyhan layihəsi bu görüşdə gündəmə gəlmişdir. İkinci önəmli layihə də vardır. O da Türkmənistan qazını Türkiyə üzərindən dünya bazarlarına çıxaracaq Transxəzər layihəsidir. İki il öncə Aşqabadda hörmətli Türkmənbaşı Türkiyənin Enerji naziri cənab Ərsümərlə "Mavi axın" layihəsi barədə müzakirə aparmış və Türkmənistan qazının Türkiyə üzərindən dünya bazarlarına çıxmasını əngəlləməyəcəyini söyləmişdi. Bilmək istəyirik ki, Transxəzər layihəsi gündəlikdə dururmu?

Saparmurad Niyazov: Suala görə Sizə çox təşəkkür edirəm. Tutaq ki, Siz bazara gedirsiniz və görürsünüz ki, iki yerdə yaxşı alma satılır, almanın qiyməti bir yerdə 100 dollar, o biri yerdə 300 dollardır. Onların keyfiyyəti eyni olduğu halda, Siz hansını alarsınız? İndi özünüz diqqət yetirin, Türkmənistan qazı Türkiyəyə gətirilərkə sərhəddə onun dəyəri 75 dollar olacaqdır. Qara dəniz vasitəsilə "Mavi Axın"la Türkiyə sahillərinə gələn qazın dəyəri isə 120 dollar olacaqdır. Türklər, qazın Sizə, Sizin xalqınıza, dövlətinizə lazım olan marşrutunu seçin. Ona görə də siyasəti bir yana qoysaq, görərik ki, reallıq belədir.

Qoy, Türkiyə rəhbərliyi seçsin. Bu, onun işidir. Mən Ərsüməri danladıqda deyir ki, qoy, kim qaz satmaq istəyirsə, bizdə, Türkiyənin sərhədində satsın. Bir sıra beynəlxalq şirkətlər, o cümlədən Rusiya, İtaliya şirkətləri Qara dəniz vasitəsilə qaz kəməri inşa etmək və onu Türkiyənin sərhədlərinə çəkmək istəyirlər. Bütün xərclər təxminən 2-3 milyard dollar olacaqdır. Bu pullar sıravi türk istehlakçısının alacağı qazın qiymətinə daxil ediləcəkdir. Qaz kəmərinin inşası zamanı xarici şirkətin çəkdiyi xərclər də qazın qiyməti vasitəsilə ödənilməlidir. Ona görə qazın qiymətindəki fərq də məhz bundan irəli gəlir.

Qaz kəməri iqtisadi problemdən çox, siyasi problemə çevrilir. Biz bitərəf dövlətik, siyasətlə beynəlxalq təşkilatlar, BMT vasitəsilə məşğul oluruq.

Mayın 13-15-də Kiyevdə biz Ukraynaya beş il ərzində hər il 50 milyard kubmetr qaz satılması haqqında müqavilə bağlayacağıq. Biz Türkmənistanın Özbəkistanla sərhədində beş il ərzində 50 milyard kubmetr qaz satılması haqqında Rusiya ilə də danışıqlar aparırıq. İranla bağladığımız müqaviləyə uyğun olaraq, bu ölkəyə 25 il ərzində hər il 12 milyard kubmetr qaz satacağıq. Qiymət təyin edilib və biz indi İrana ildə 5 milyard kubmetr Türkmənistan qazı satırıq və bu, gələcəkdə 12 milyard kubmetrə çatdırılacaqdır. Türkmənistan qazı üçün bazar var, odur ki, rəqabət də olmalıdır. Biz qaz bazarında heç kəsə qısqanclıq etmirik. Nursultan Abişeviç burada, yanımda əyləşibdir. O, öz ölkəsinin ərazisi ilə, Rusiya vasitəsilə Ukraynaya gedən 50 milyard kubmetr qazın qiymətinin təxminən 12 faizini əslində müftə alır. İndi biz Ukraynaya 30 milyard kubmetr qaz satırıq, bunun 10 milyard kubmetrini

isə qazın öz ərazisindən tranzitinin dəyəri olaraq Rusiya götürür. Ona görə də qaz kəməri hansı ölkələrdən keçirsə, bu, onlar üçün sərfəlidir.

O ki qaldı Türkiyəyə, biz ona istənilən həcmdə qaz satmağa həmişə hazırıq, amma onlar marşrutu özləri seçməlidir.

Sual: Hörmətli Cümhurbaşkanım, Türkdilli Ölkələrin Dövlət başçılarının VII Zirvə görüşü keçirildi. Ötən doqquz ildə ölkələr arasındakı əlaqələri yetərli hesab edirsinizmi? Bu görüşdə ümumi türk dili məsələsində və birlik yaradılması sahəsində hansı addımlar atıldı?

Əhməd Necdet Sezər: Doğrusu, Zirvə görüşlərində bu məsələləri tam həll etmək mümkün deyildir. Təkcə mən yox, hörmətli Cümhurbaşkanları da bu fikirdədirlər. Amma hər topiantıda bu məsələ daha da irəliyə gedir. Gələcəkdə iqtisadi sahədən əlavə, digər sahələrdə də əməkdaşlıq edəcəyimizə inanıram.

Sual: Bu sualımı hörmətli Dövlət Başçılarının hamısına yönəltmək istəyirəm. Uzun illərdir, xüsusən son aylarda erməni lobbisi dünya ictimaiyyətini "erməni soyqırımı"na inandırmaq üçün fəaliyyət göstərir. Qardaş Türk Cümhuriyyətləri olaraq bu Zirvə görüşündə Türkiyəyə dəstək baxımından hər hansı bir qərara gəldinizmi? Ümumiyyətlə, erməni lobbisinin Türkiyə dövlətinin əleyhinə yönəlmiş bu fəaliyyətini necə dəyərləndirirsiniz?

Heydər Əliyev: Mənim bu barədə fikirlərimi burada, Türkiyədə bilirlər. Amma yenə, bir də deyərəm. Ancaq istərdim ki, digər Cümhurbaşkanları da bu məsələyə öz münasibətlərini bildirsinlər. Mütləq deyəcəyəm, amma digər Cümhurbaşkanlarından sonra.

Nursultan Nazarbayev: Mən hamının adından da olsa, demək istəyirəm ki, bu məsələ gündəliyə daxil edilməmişdi və müzakirə olunmadı. Belə siyasi mövqeni açıqlamaq üçün məsələni öyrənmək, onun tarixindən agah olmaq, vadaredici səbəbləri bilmək lazımdır. Belə hazırlıq olmadığına görə, biz bu problemi müzakirə etmədik.

Heydər Əliyev: Mən bu suala cavab vermək istəyirəm. Amma bilirsiniz ki, mən mart ayında burada rəsmi səfərdə olarkən, bu barədə Azərbaycan dövlətinin, Azərbaycan xalqının münasibətini Türkiyənin Böyük Millət Məclisində bildirmişəm.

Bu sualı verən adama təşəkkür edirəm. Bu gün fürsətdən istifadə edib, demək istəyirəm ki, son illər dünyada erməni lobbisi tərəfindən Türkiyəyə qarşı aparılan ədalətsiz siyasətə biz həmişə etiraz etmişik, onu təkzib etmişik. Son illərdə Azərbaycan Milli Məclisi, Parlamenti və Azərbaycan Dövləti guya 1915-ci İldə Türkiyədə ermənilərə qarşı "soyqırımı" olması haqqında erməni lobbisinin apardığı işlərə və bəzi ölkələrin qəbul etdikləri qərarlara etiraz etmiş, biz bəyanatımızı bildirmişik və bu iddiaların əsassız olduğunu bildirmişik. Erməni lobbisinin Türkiyəyə qarşı apardığı bu təxribat siyasətini biz eyni zamanda Azərbaycana qarşı aparılan siyasət kimi qəbul edirik.

Bəzi ölkələrdə erməni lobbisi o qədər güclü, yəni sayca çox olmasa da, təəssüf ki, müxtəlif dövlət orqanlarında, parlamentlərdə guya 1915-ci ildə ermənilərə qarşı "soyqırımı" törədilməsi haqqında qərarlar qəbul etdirə bilmişdir. Bu barədə Fransa Senatı fevral ayında qərar qəbul edərkən, Azərbaycan Parlamenti və Azərbaycan Dövləti, Azərbaycan Prezidenti olaraq şəxsən mən buna qəti etirazımızı bildirdik və bizim Parlamentin adından Fransa Parlamentinə bəyanatımızı göndərdik.

Mən bütün Azərbaycan Dövləti adından deyirəm ki, Türkiyə tərəfindən ermənilərə qarşı soyqırımı edilməyibdir. Bu uydurma şeydir. Yanvar ayında Strasburqda, Azərbaycan Avropa Şurasına qəbul olunduğu zaman mən bunu, Azərbaycanın mövqeyini orada bəyan etdim. Biz Azərbaycan olaraq, bütün türkdilli dövlətlərin maraqlarının müdafiə edilməsi üçün həmişə hazırıq və erməni lobbisi tərəfindən Türkiyəyə qarşı aparılan bu siyasətin qarşısının alınması üçün öz imkanlarımızdan istifadə edirik və bundan sonra da istifadə edəcəyik. Təşəkkür edirəm.

Sual: Cənab Prezident Heydər Əliyev, Siz Türkdilli Dövlətlər Birliyinin gələcəkdə siyasi quruma çevrilməsinə necə baxırsınız?

Heydər Əliyev: Mən sualınıza cavab verdim. Ancaq onu deyə bilərəm ki, Türkdilli Dövlətlər Birliyinin tam siyasi bir xarakter alması haqqında fikrimiz yoxdur.

Nursultan Nazarbayev: Türk dünyası, türkdilli dövlətlər tarixi reallıqdır. İndi bu, dünya sivilizasiyasına öz töhfələrini vermək istəyən türkdilli xalqlardan və altı müstəqil dövlətdən ibarətdir. Biz özümüzü yenicə dərk etməyə başlamışıq, mədəni, tarixi, mənəvi istiqamətdə yaxınlaşırıq. Bizim hər birimiz öz daxilimizdə və öz aramızda qapanıb qalmaq istəmirik. Birliyimiz hansısa yerli problemlərə, kiminsə əleyhinə, yaxud kiminsə xeyrinə yönəldilməyibdir. Ona görə də bu gün biz ilk növbədə vahid iqtisadi, mədəni və mənəvi əməkdaşlıq məkanı yaradılmasına çalışırıq. Əgər kimsə düşünürsə ki, indi biz əl-ələ verib hər hansı bir tərəfi tənqid etməyə, bu və ya digər mövqe tutmağa başlayacağıq, onda ümumtürk əməkdaşlığından tezliklə heç nə qalmaz.

Biz hamımız Birləşmiş Millətlər Təşkilatının üzvüyük, dünyada mövcud olan bütün münaqişəli məsələlərin məhz bu təşkilat tərəfindən həll edilməli olduğu barədə öz üzərimizə öhdəliklər götürmüşük. Ona görə də sənədlərdə biz bütün münaqişəli problemlər haqqında BMT-nin qərarlarını dəstəkləmişik. BMT-nin prinsipləri dövlətlərin müstəqilliyindən, hüquq bərabərliyindən, ərazi bütövlüyündən, daxili işlərə qarışmamaqdan ibarətdir. Biz onlara əməl edirik.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev martın 30-da Prezident sarayında Türkiyənin Dövlət naziri Əbdülxalıq Çayın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dost ölkədən gəlmiş qonaqları səmimiyyətlə qarşılayan dövəltimizin başçısı **Heydər Əliyev** dedi:

- Hörmətli Dövlət naziri!

Hörmətli qonaqlar!

Mən sizi səmimi qəlbdən salamlayıram və çox məmnunam ki, mənim Türkiyəyə rəsmi səfərimdən sonra Türkiyə-Azərbaycan Müştərək İqtisadi Komissiyasının toplantısı Azərbaycanda keçirildi. Mənə dedilər ki, bu, neçə ildir keçirilmir.

Elədir, yoxsa yox?

Abid Şərifov (Baş nazirin müavini): Cənab Prezident, üç ildən çoxdur.

Heydər Əliyev: Üç ildən çoxdur. Sən günahkarsan.

Abid Şərifov: Bəli.

Heydər Əliyev: Çünki bizim tərəfdən sənsən.

Qədri Ecvet Tezcan: (Türkiyənin Azərbaycandakı səfiri): Cənab Prezident, bizdən də mən günahkar oldum.

Heydər Əliyev: Sən günahkarsan. Gəlin, belə danışaq ki, bundan sonra daha heç kəs günahkar olmasın. Bu işi bir plana salaq. Bir ildə, çox da olmaz, heç olmasa, iki dəfə - bir dəfə Azərbaycanda, bir dəfə də Türkiyədə keçirək.

Mən bundan çox məmnunam. Xüsusilə ona görə məmnunam ki, mənim Türkiyəyə rəsmi səfərimdən sonra bu iş daha da sürətlə getməyə başladı.

Mən bu fürsətdən istifadə edib, bir də bildirmək istəyirəm ki, Türkiyəyə rəsmi səfərim Azərbaycanda, xalqımızda, millətimizdə çox böyük maraq, çox böyük ruh yüksəkliyi oyatmışdır. Yəni biz Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının sarsılmaz, əbədi olduğunu bir daha nümayiş etdirdik. Türkiyədəki bütün görüşlər, danışıqlar, mənim Böyük Millət Məclisindəki görüşüm, sonra Ankara Universitetindəki görüşüm, başqa görüşlər - hamısı Azərbaycanda çox diqqətlə izlənilibdir. Televiziyada bir neçə dəfə verilib və xalqımız da bundan çox böyük məmnuniyyət hissi duyur, çox sevinir. Çünki mən orada, Böyük Millət Məclisində dedim ki, Türkiyə Azərbaycanın ən yaxın dostu - qardaşıdır. Ona görə də bu, təkcə mənim əhval- ruhiyyəm deyil, bizim xalqımızın fikridir. Mən bunu orada xalqımızın fikirini ifadə edərək demişəm. Hesab edirəm, bu, - orada da dedim, - bizim dostluq-qardaşlıq əlaqələrimizin gələcəyi üçün yeni bir mərhələ kimi qəbul oluna bilər,

Hörmətli Dövlət naziri, mən sizə xüsusi təşəkkür edirəm. Çünki mən

orada olanda Siz həmişə mənimlə birlikdə olmusunuz. Yəni Sizin üzərinizə daha da çox əziyyət düşübdür. Çox təşəkkür edirəm. Ancaq eyni zamanda Siz Dövlət naziri kimi, bütün türk dövlətləri işi üzərində çox çalışmısınız.

Amma bu da çox böyük vəzifədir. Yəni böyük işdir. Çünki keçmiş Sovetlər İttifaqına daxil olan və hazırda müstəqillik əldə etmiş türkdilli respublikaların işbirliyi, onların birlikdə olması çox əhəmiyyətlidir.

Mən hörmətli Prezident cənab Əhməd Necdət Sezərin dəvətini məmnuniyyətlə qəbul etmişəm. Gərək ki, aprel ayının 25-də, ya 26-da İstanbulda türkdilli dövlət başçılarının görüşü olacaqdır. Onu da keçirəcəyik. Mən çox məmnunam ki, bu, təxirə salınmır. Çünki biz burada son görüşü, "Dədə Qorqud"un yubileyini də keçirdik, qərara gəldik ki, gələn görüş İstanbulda olsun. Bu da artıq müəyyən olubdur və çox gözəl bir haldır.

Mənə Baş nazir məlumat verdi, siz burada iqtisadi əlaqələr haqqında çox işləmisiniz, çalışmısınız, olan nailiyyətləri də, qüsurları da qeyd etmisiniz. Bu, təbiidir. Çünki heç bir iş qüsursuz olmur. Amma biz həmişə arzu edirik ki, işlərimizdə uğurlar daha çox olsun, nəinki qüsurlar. Güman dirəm ki, bu işbirliyi davam etdikcə, uğurlar daha çox, qüsurlar daha az olacaqdır. Mən sizə bir daha təşəkkür edirəm ki, Azərbaycana gəlmisiniz və Müştərək Komissiyanın iclasını burada keçirmisiniz.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin Dövlət naziri **Əbdülxalıq Çay** dedi:

- Hörmətli Cümhurbaşkanım, hər şeydən əvvəl, nümayəndə heyətimizi qəbul etdiyinə görə Sizə çox təşəkkür edirik.

Hörmətli Cümhurbaşkanımız cənab Əhməd Necdət Sezərin və hörmətli Baş nazir Büland Ecevitin, Baş nazir müavini Dövlət Baxçalının salamlarını Sizə çatdırmaqdan böyük şərəf duyuram.

Müştərək İqtisadi Komissiyanın 1997-ci ildən bəri keçirilməyən toplantısını təşkil etmək üçün biz Bakıya gəldik. Zati-aliniz Ankarada olarkəq komissiyanın toplantıları ilə bağlı məlumat vermişdim. Burada xeyli böyük, onillik dövrün işlərini gördük. On il ərzində qardaş cümhuriyyətə nə verə bilmişik, nə işlər görə bilərik, nələrin görülməsi lazımdır, hansı işlərdə qüsurlar olmuşdur - bunlar barədə geniş müzakirələr apardıq. Cənab Prezident, Müştərək İqtisadi Komissiyanı toplayaraq gələcək illərdə, 5-10-20 il sonra əlaqələrimizin hansı istiqamətdə aparılması barədə proqram hazırlamaq sahəsində fikir mübadiləsi etdik. Müştərək Komissiyanın Bakıdakı toplantısı türkdilli cümhuriyyətlər arasında birinci oldu.

Bu ilin aprel ayında həm Qırğızıstanda, həm Özbəkistanda, həm də Türkmənistanda, may ayında Qazaxıstanda, iyun ayında da Gürcüstan-

da toplantılar keçirəcəyik. Biz bu çərçivədə ölkələrimiz arasındakı əlaqələri sağlam, hüquqa uyğun sazişhalına gətirmək istəyirəik.

Cənab Prezident, biz Türkiyə ilə Azərbaycan arasında iqtisadi sahədə əməkdaşlıqla bağlı cənab Abid Şərifova, hörmətli Baş nazir Artur Rəsizadə ilə, Səhiyyə naziri Əli İnsanovla görüşdük. Mətbuat nümayəndələri çıxdıqdan sonra bəzi məsələlər barədə Zati-alinizə məlumat verməyə çalışacağam.

Biz Türkiyə olaraq Azərbaycanı ana vətənimiz, yurdumuz, dövlətimiz, ölkəmiz kimi görürük, bu şəkildə qiymətləndiririk. Zati-alinizi öz Cümhurbaşkanımız kimi görürük və bundan da şərəf duyuruq. Bunu açıqlamağa ehtiyac da yoxdur. Bu əlaqələrin daha sağlam təməllər əsasında qurulması üçün qarşılıqlı, şəxsi dostluqlardan çox, hökumətlərarası, dövlətlərarası hüquq anlaşmaların olmasının zəruriliyi baxımından biz bu Müştərək İqtisadi Komissiyasının toplantısını əhəmiyyətli sayırıq. Hörmətli Cümhurbaşkanımız Sezər Orta Asiya cümhuriyyətlərinə etdiyi səfərlər zamanı türkdilli ölkələrin dövlət başçılarından müştərək iqtisadi komissiyaların toplantısının keçirilməsini xahiş etmişdi. Ona görə də bu işə böyük önəm veririk.

Mən bir məsələni dəyərləndirərək çıxışımı bitirmək istəyirəm. Buraya 32 nəfərlik nümayəndə heyəti ilə gəlmişik.

Nümayəndə heyətinə Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri istiqamətləndirən Xarici İşlər nazirliyinin, Xarici Ticarət Müstəşarlığının, Türkiyə İnkişaf Agentliyinin (TİKA), Enerji və Təbii Ehtiyatlar nazirliyinin və s nümayəndələr daxildir. Biz azəri qardaşlarımızla birlikdə bu məsələləri müzakirə edərək bəzi problemlərin həllinə çalışmışıq. Lazım olarsa, bu problemlər barədə gələcəkdə də söhbətlər aparacağıq, görüşlər keçirəcək, önəmli olan məsələlər müzakirə edəcəyik və gələcəyə problemli məsələ qoymayacağıq. Cənab Prezident, məqsədimiz bundan ibarətdir.

Zati-alinizin Türkiyəyə rəsmi səfəri zamanı tibbi qaz barədə imzalanmış anlaşmaya görə, Türkiyə olaraq Sizə təşəkkürümüzü bildiririk. Bunun istər Azərbaycan üçün, istərsə də Türkiyə üçün xeyirli və uğurlu olmasını diləyirəm.

Azərbaycanın ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə əlaqədar Azərbaycan xalqının qəbul edə biləcəyi çözümün Türkiyənin də qəbul edəcəyini burada açıq ifadə etmək istəyirəm. Çünki düşünürük ki, Qarabağ problemi Azərbaycan qədər Türkiyənin də məsələsidir. Keçiriləcək görüşlərdə çözümün sülh yolu ilə həll olunmasını arzu edirik. Müharibə ən son çarədir. Azərbaycanın sabitliyini pozmayan, gələcək nəsillərin önündə, tarix önündə uzüağ ölacaq bir şərəfli anlaşma ilə bu işin sona çatması ən böyük arxzumuzdur.

Türkiyə olaraq bu sahədə azərbaycanlı qardaşlarımızın və Zati-alinizin sonra qədər dəstəkçisi olduğumuzu burada bir daha söyləmək istəyirəm.

Hörmətli Cümhurbaşkanım, Naxçıvan məsələsi barədə də bir-iki kəlmə demək istəyirəm. Novruz bayramı ilə əlaqədar Qars, İğdır, Ağrı bölgəsinə getmişdim. "Dilucu" sərhəd qapısına qədər geidik. Naxçıvan ilə bağlı məsələlərin əlaqələndirilməsi də mənim nazirliyimə tapşırılıbdır. Zati-alinizin hörmətli Baş nazir Ecevitə göndərdiyi məktubu da naxçıvanlı qardaşlarımızla dəyərləndirdik. Bu çərivədə yollar arayırıq. Mən bu sahədə lazım olan bilgiləri cənab Abid Şərifova verdim. Çünki biz Naxçıvanın probelmi bu problemimiz kimi görürük. İnşallah, bu toplantıda sonra, Türkiyəyə qayıtdıqdan sonra muxtar respublikanın rəhbərləri ilə Naxçıvanla bağlı müzakirələr aparacağıq və məsələləri həll edəcəyik. Mən bunları bildirmək istəyirəm. Bir çox məsələlər var. Hörmətli mətbuat nümayəndələri gedəndən sonra onları Zati-alinizə bildirmək istəyirəm.

Heydər Əliyev: Sağ olun. Təşəkkür edirəm. Ermənistan-Azərbaycan münaqişəsi barədə biz Türkiyədə də çox danışdıq. Mən Böyük Millət Məclisində də böz fikirlərimi söylədim. Təbiidir ki, bu, həm Azərbaycanın problemidir, həm də Türkiyənin problemidir. Sizin fikirləriniz, burada söylədiyiniz fikirlər bizim fikirlərimiz eynidir, üst-üstə düdşür.

Bilirsiniz ki, mən aprel ayınınlda, yəni bir gündən sonra Amerikaya, özü də çox uzaq bir yerə, Amerikanın ən güneyində olan Floridaya gedirəm. Orada Minsk qrupunun həmsədrləri, ATƏT-in Baş katibi, Amerika Birləşmiş Ştatlarının Dövlət katibi, başqaları - hamımız bir yerdə bu məsələyə baxacağıq.

Ancaq təbiidir ki, çox ağırvə çox da çətin bir məsələdir. Çünki ermənilər öz tələblərindən geriyə çəkilmirlər. Biz də öz tələblərimizdən geriyə çəkilə bilmərik. Azərbaycanın orpaq bütövlüyü bizim üçün əsas şərtlərdən biridir. Biz hansısa bir başqa məsələdə, ola bilər, nə iləsə razı ola bilək. Amma təbiidir, biz Azərbaycanın torpaq bütövlüyünü pozulması ilə razı ola bilmərik.

Doğrudur, indi onlar Dağlıq Qarabağı işğal ediblər. Onun ətrafında bizim yeddi inzibati rayonumuzu da işğal ediblər.

Ərazimizin, torpağımızın beşdə bir hissəsi ermənilərin işğalı altındadır. Bir milyondan artıq insanın çoxu köçkün vəziyfətində çadırlarda yaşayır. Biz bu dərdləri neçə ildir,

7-8 ildir ki, çəkirik və bu dərdlərdə təkcə Türkiyə bizim yanımızdadır. Bu dərdi bir yerdə çəkirik. Ancaq biz də o fikirdəyik ki, məsələnin sülh yolu ilə həll edilməsinə nail olmaq lazımdır. Doğrudur, indi Azərbaycanda müharibə əhval-ruhiyyəsi, yəni ordunun gücü ilə, silah gücü ilə torpaqların azad edilməsi əhval-ruhiyyəsi daha çoxdur, nəinki sülh

yolu ilə. Ancaq mən hesab edirəm, hələ ki, məsələnin sülh yolu ilə həll edilməsi imkanları tükənməyibdir. Biz bu barədə işləməliyik, çalışmalıyıq və qarşımızda duran görüşlərdə də mən bunu edəcəyəm.

Mən bu gün xarici məlumatları oxuyurdum. Sizin ölkənin Xarici İşlər naziri hörmətli İsmayıl Cem Vaşinqtonda həm Xarici İşlər naziri ilə, həm də vitse-prezident Dik Çeyni ilə görüşüb, danışıqlar aparıbdır. Təbiidir ki, Türkiyə-Amerika əlaqələri haqqında. Eyni zamanda o, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi haqqında da danışıqlar aparıbdır. Mən çox məmnunam. Eyni zamanda şübhə etmirdim, çünki bu, belə də olmalı idi. Mən bu gün bu məlumatı alanda çox məmnun oldum. Hər halda, mənim Amerikaya indiki ziyarətim çox vacib bir məsələdir. Görək, sonu nə təhər olacaqdır. Ancaq biz öz prinsiplərimizdən heç vaxt çəkilməmişik və çəkilməyəcəki.

Keçirdiyiniz işlərə görə bir daha təşəkküo edirəm. Xahiş edirəm, mənim salamlarımı və hörmət-ehtiramımı hörmətli Prezident cənab Əhməd Necdət Sezərə çatdırasınız, hörmətli Baş nazir cənab Büləd Ecevitə çatdırasınız, hörmətli Baş nazir müavini cənab Dövlət Bəxçalıya və başqa dostlarıma, qardaşlarıma çatdırasınız.

"Azərbaycan" qəzeti, 31 mart 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN NÜMAYƏNDƏSİNİ QƏBUL ETMİŞDİR

30 aprel 2001-ci il

Qonağı səmimiyyətlə qarşılayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Mən iki gün bundan öncə Türkiyədə idim. Bilirsiniz ki, orada türkdilli ölkələrin dövlət başçılarının VII zirvə görüşü keçirildi. Mən bunu artıq dəfələrlə demişəm, bir də bildirmək istəyirəm ki, görüş çox yüksək səviyyədə keçdi, çox faydalı oldu. Türkiyə Cümhuriyyəti, Türkiyə Cümhurbaşkanı, Türkiyənin hökuməti və bütün dövlət adamları bu zirvə görüşünün hazırlanmasında və çox yaxşı keçirilməsində böyük işlər görmüşlər. Mən onlara təşəkkürlərimi bildirdim. Təbiidir ki, bu görüşlər hər dəfə türkdilli dövlətlərin bir-birinə inamını bir daha artırır.

Biz uzun illər, əsrlər boyu bir-birimizdən ayrı düşmüşük. İndi yaxşınlaşırıq. Türkdilli dövlətlər birliyinin əsası 1992-ci ildə Ankarada qoyulubdur, doqquz il keçibdir. Bəzən düşünmən olar ki, doqquz il keçib, nə üçün bu yaxınlaşma tam baş verməyibdir? Ancaq əgər əsrlər boyu bir-birlərindən ayrı düşüblərsə, doqquz il o qədər də böyük bir zaman deyildir. Amma başlıcağı ondan ibarətdir ki, biz yaxınlaşırıq, bir-birimizdə daha da çox işbirliyi yaratmaq istəyirik. Biz bir-birimizin mədəniyyətini, tarixi köklərini, milli-mənəvi dəyərlərini daha çox öyrənirik və onların nə qədər oxşar olduğunu, hamısının bir kökdən gəldiyini bir daha görürük. Yəni bu, bizim üçün də lazımdır, amma gələcək nəsillər üçün daha çox lazımdır. Ona görə mən hesab edirəm ki, İstanbul zirvə görüşü çox uğurlu oldu.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını dildirən korpus generalı **Hurşit Tolon** dedi:

- Hörmətli Cümhurbaşkanım, bütün türk dünyasında əzbərlənmiş, çox yaxşı bilinən və çox sevilən bir sözünüzü qarşınızda ərz etmək istəyirəm. Siz hər zaman "biz bir millət, iki dövlətik" deyirsiniz.

Heydər Əliyev: Elədir.

Hurşit Tolon: Bu, uzun əsrlərdir bir-biri ilə görüşməyi gözləyən, bunu arzulayan toplumların vahid millət halına gəlməsi üçün çox önəmli müdrik kəlamdır. Biz bunu yüksək dəyərləndiririk və bu sözü söylədiyiniz üçün çox sağ olun.

Heydər Əliyev: Sağ olun. Mən çox məmnunam ki, siz Azərbaycana gəlmisiniz. Mənə Müdafiə naziri məlumat veribdir ki, bir yerdə işləmisiniz və güman edirəm, bu işlər öz nəticəsini verəcəkdir.

Hurşit Tolon: Cənab Prezident, hörmətli nazirin Zati-alinizə ərz etdiyi kimi, illərdən bəri gəlməyi, görməyi gözlədiyim bu çox gözəl ölkənizdə olmağımdan duyduğum məmnunluq sonsuzdur. Bunu hüzurunuzda ərz etmək istəyirəm. Xüsusilə vacib dövlət işlərindən vaxt ayıraraq məni və dostlarımı qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Baş qərargah rəisimiz, ordu generalı Hüseyn Kıvrıkoğlu Zati-alinizə öz dərin hörmət və ehtiramını çatdırmağı məndən xahiş etmişdir. Bunu söyləməkdən, ifadə etməkdən məmnunam.

Mən buraya səfərimin səbəbi barədə məlum verəmək istəyirəm. Neçə illərdən bəri silahlı qüvvələrimiz arasında davam edən hərbi təhsil və işbirliyi proqramı vardır. Hökumətimiz tərəfindən həmin proqramın gerçəkləşməsi üçün bu il də müəyyən ehtiyat ayrılmışdır. Türkiyə və Azərbaycan silahlı qüvvələrinin həmin ehtiyatdan müştərək şəkildə istifadə etməsi barədə hörmətli nazirinizlə birlikdə şənbə günü burada protokol tərtib etdik. Tezliklə bunun həyata keçirilməsinə başlayacağıq.

Mən dördüncü gündür ki, Azərbaycandayam və buraya ilk dəfədir gəlirəm.

Heydər Əliyev: İlk dəfə?

Hurşit Tolon: Hörmətli Cümhurbaşkanım, bəli, ilk dəfədir. Burada gördüklərimi hüzurunuzda səmimiyyətlə ərz etmək istəyirəm. Təbii ki, gəlmədən, getmədən, görmədən, yaşamadan, xəyalən insanın təsəvvür etdiyi ilə əsl gerçəyin fərqini bilmək çətindir. Mən burada əsl reallığı bir daha canlı şəkildə gördüm. Xüsusilə

Azərbaycan Silahlı Qüvvələrinin son 4-5 il ərzində qazandığı uğurları, - bunu təqdir etmək zatidövlətinizə aiddir, - yüksək qiymətləndirirəm. Üç gün içərisində korpus qərargahına getdim, orada bilgi aldım. Onun tərkib hissəsi olan diviziyanı gördüm, oradakı çalışmaları izlədim və məlumat aldım. Bir də yeni təşkil edilən sinifləri ziyarət etdim. Qarşıdan gələn il son dərəcə mühüm olan müxtəlif ixtisaslar üzrə zabitlər oradan məzun olacaqlar. Bu il məzun olacaq hərbi məktəbin müdavimləri, hərbçilər orduya gedəcəklər və təbii, bu da çox böyük əhəmiyyət daşıyacaqdır.

Hörmətli Cümhurbaşkanı, mən bu gün hərbi məktəbdə oldum. Sonra hərbi Akademiyaya gedəcəyəm. İnanıram ki, möhkəm təməl üzərində hərbi məktəbin yaradılması, üstəlik, yeni siniflərin təhsilə başlaması Azərbaycan Silahlı Qüvvələrinin gələcəyi üçün çox önəmli olacaqdır. Bu, bir, beş, on diviziya yaratmaqdan daha önəmli bir məsələdir. Gənc müdavimləri gördüm, təhsillərini izlədim, çalışmaları haqqında məlumat aldım. Mən bir türk övladı olaraq onlar kimi qürur duydum.

Heydər Əliyev: Çox sağ olun. Təşəkkür edirəm.

Əvvəlcə, hörmətli Baş qərargah rəisi Hüseyn Kıvrıkoğluna məndən salamlar, sayğılar. Onun mənə çatdırdığınız salamına görə təşəkkür edirəm.

Mən son dəfə, mart ayında Türkiyədə rəsmi səfərdə olarkən hörmətli Hüseyn Kıvrıkoğlu ilə bizim çox ətraflı söhbətimiz, danışıqlarımız oldu. Ümumiyyətlə, mənim Türkiyənin dövlət başçıları ilə, hökumət başçıları ilə - hamısı ilə çox sıx əlaqəm var. O cümlədən Baş qərargah rəisi ilə dostluq əlaqələrim xüsusi xarakter daşıyır. Ona görə də mənim salamlarımı ona çatdırarsınız. Hörmət, ehtiramımı çatdırarsınız. Sizin ordunuza uğurlar arzumu çatdırarsınız.

Hurşit Tolon: Baş üstə.

Heydər Əliyev: Mən hər dəfə demişəm. Türkiyənin ən böyük sərvəti onun silahlı qüvvələridir, ordusudur. Dəfələrlə demişəm ki, Atatürk gedəndən sonra xalqa iki böyük irs qoyubdur. Birincisi, yaratdığı Türkiyə Cümhuriyyəti, ikincisi, yaratdığı silahlı qüvvələr. Təbiidir, çox irslər qoyubdur. Amma bu ikisi Türkiyəni yaşadan, Türkiyəni inkişaf etdirən və Türkiyənin bu gün dünyanın bütün dövlətləri içərisində böyük yer tutmasına səbəb olan amillərdir.

Bizim silahlı qüvvələrimiz gəncdir və siz də ilk dəfə Azərbaycandasınız. Ona görə də sizin aldığınız təəssüratlar, dediyiniz fikirlər mənim üçün çox əhəmiyyətlidir. Çünki mən daim düşünürəm ki, bizim silahlı qüvvələrimiz daha da güclənsir. Ancaq qəlbimdə bəzən belə duyğular yaşayır ki, hələ bəlkə istəyim qədər güclənməyibdir. Ona görə hər bir addım, təbiidir ki, məni sevindirir.

Təbiidir, bu barədə danışarkən Azərbaycanda olan zabitlərinizin, sizi təmsil edən insanların burada təhsil işini aparmasının çox əhəmiyyətli olduğunu bilirəm. Çox yüksək səviyyədədir. Elə bunun özü bizim silahlı qüvvələrin indiki səviyyəyə gəlməsində xüsusi rol oynayır.

Sizin nümayəndələriniz, - indi Zəki paşadır, ondan öncə Sadıq paşa idi, ondan da öncə Əngin paşa idi, - hamısı burada, qardaş ölkədə hesab edirəm ki, səmimi çalışırlar. Bəlkə də burani öz ölkələri kimi qəbul edirlər, səmimi çalışırlar. Mənim də onlarla bilavasitə təmaslarım var. Ona görə də mən bu işləri işləyirəm, balarəm. Ancaq indi siz ilk dəfə gəlmisiniz. Sizin təəssüratlarınız, təbiidir ki, mənim üçün çox əhəmiyyətlidir və olan fikirləri daha da çox təsdiq edir.

Hurşit Tolon: Hörmətli Cümhurbaşkanı, sağ olun. Əvvəlcə, türk silahlı qüvvələrinin burada çalışan təmsilçiləri barədə lütf etdiyiniz xoş sözlər üçün onların adından Sizə təşəkkürümü bildirirəm.

Mən bu gözəl, dost və qardaş ölkəyə ilk dəfə gəldim. Əslində, üzgünəm, çünki çox gecikmişəm. Amma proqramlar belə idi. 1990-cı ildən indiyə qədər Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahında müxtəlif vəzifələrdə çalışaraq Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi, güclənməsi, yenidən qurulması sahəsində atılan addımları yaxından izləyənlərdənəm. Bir az öncə hüzurunuzda ərz etdiyim kimi, yerində görmədən, yerində tam izləmədən inkişafın dərinliyini və düzgünlüyünü anlamaq asan olmur. Amma hüzurunuzda bir daha ərz edə bilərəm ki, 1996-2001-ci illər arasındakı vaxtda yeni bir sistem əsasında çox işlər görülmüş, çox önəmli bir məsafə qət edilmişdir. Bunu təqdir etmək zatidövlətinizə aiddir. Bu, sadəcə bir məktəb qurmaq deyil, bir sistem yaratmaq baxımından çox önəmlidir. Çünki bu sistem əski sistemi bütünlüklə dəyişir. NATO-ya inteqrasiya olunmaq üçün bu sistem faydalıdır. Bütün bunlar müəyyən zaman içərisində edilmişdir. Mən burada bunu izlədim.

İnşallah, bu ilin avqustunda gənc müdavimlər, hər yerdə zati-dövlətinizin sözlərinə hazır olan hərbçilər, zabit olacaq, onlar topçu, tankçı və s. kimi ixtisaslara yiyələnəcəklər və gələcəkdə çox güclü, dinamik ordu formalaşacaqdır. Bunların hamısı zatidövlətinizin sayəsində olacaqdır.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 2 may 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN JANDARM QÜVVƏLƏRİ BAŞ KOMANDANINI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev mayın 1-də Prezident sarayında Türkiyənin Jandarm Qüvvələrinin Baş komandanı, ordu generalı Aytac Yalmanı qəbul etmişdir.

Qonağı səmimi salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Hörmətli ordu generalı, xoş gəlmisiniz. Azərbaycanı ziyarət etməyinizdən çox məmnunam. Xüsusən ona görə ki, siz Azərbaycanı ilk dəfə ziyarət edirsiniz.

Səmimi qəbul üçün Azərbaycan Prezidentinə təşəkkürünü bildirən **Aytac Yalman** dedi:

- Bəli, hörmətli cənab Prezident, bu mənim Azərbaycana ilk ziyarətimdir.

Heydər Əliyev: Bilirəm. Bizim Daxili İşlər naziri mənə məlumat veribdir ki, burada xeyli işlər görmüsünüz, amma görüləsi işlər də çoxdur.

Aytac Yalman: Hörmətli Prezident, daha da çox işlər görəcəyik. Bundan sonra da görüləsi işimiz çoxdur.

Heydər Əliyev: Bəli, görülməli işlər çoxdur.

Bizim Daxili İşlər nazirliyi və Türkiyənin Jandarm Qüvvələri arasında yaranmış əlaqələr çox əhəmiyyətlidir. Biz buna çox böyük önəm veririk. Mən indiyə qədər görülən işləri müsbət qiymətləndirirəm. Ancaq siz dediniz ki, görüləsi işlər də çoxdur. İndiyə qədər görülən işlər, bizim daxili qoşunların bəzi problemlərinin həll edilməsində yardımçı olubdur. İndiki səfəriniz, təbiidir ki, sizin üçün əhəmiyyətli olduğu kimi, bizim üçün də çox əhəmiyyətlidir. Ona görə mən çox məmnunam.

Aytac Yalman: Hörmətli Prezident, çox təşəkkür edirəm. Əvvəla, çox qiymətli vaxtınızı ayırıb məni qəbul etdiyinizə görə Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Həqiqətən, vətəninizdə, icazə versəydiniz deyərdim ki, mənim də vətənimdə - Azərbaycanda olduğuma görə çox məmnunam. Bu gözəl ölkənizdə, Zati-alinizlə, belə kamil, yüksək səviyyəli insanlarla görüşməkdən çox məmnun və bəxtiyar olduğumu ifadə etmək istəyirəm. Öz adımdan, məmləkətim adından bildirirəm ki, mənim bu səfərim dost və qardaş Azərbaycan üçün çox müsbət nəticələr verəcəkdir və mən buna möhkəm əminəm.

Mən 1992-ci ildən bu günə qədər gerçəkləşən tədbirlərin nəticələrini görmək imkanı əldə etdim. Zati-alinizin buyurduğu kimi, həm fiziki, həm də mənəvi hazırlıq mənasında çox mühüm işlər görülmüşdür. Amma bu günə qədər görülən işlərdən fərqli bir məqamı da gördüm, daha böyük nəticələr əldə olunduğunu müşahidə etdim. Xüsusi məktəbdə dörd il təhsil alan məzunların sonra Daxili Qoşunlar üçün kadr hazırlayan məktəbdə təkrar təhsilə cəlb ediləcəyini öyrəndim. Bu, kadr hazırlığına, təhsil sahəsinə daha yaxşı, fərqli münasibəti göstərir. Məndə belə bir fikir yarandı ki, beləliklə, Azərbaycanda təhsil məsələsi daha geniş miqyasda, daha dürüst həll olunur. Bu iş yeni proqram və üsulla daha mükəmməl aparılacaqdır. Bütün bunların hamısı faydalıdır.

Mən Türkiyəyə dönməmiş göstəriş verdim, hazırlıq görməyə başladıq.

Mütəxəssislərimiz Azərbaycana gələcək, yüksək səviyyəli zabitlər hazırlanmasında iştirak edəcəklər.

Gələcəkdə hansı işlər görmək mümkündürsə, onları birlikdə yerinə yetirəcəyik.

Heydər Əliyev: Çox gözəl, çox məmnunam. Bir neçə gün bundan öncə mən sizin vətəninizdə - Türkiyədə idim. Oradada Türkdilli Dövlətlər Birliyinin VII zirvə görüşü keçirildi.

Aytac Yalman: Mən onu izləyirdim.

Heydər Əliyev: İzləmisiniz. Zirvə toplantısı çox yüksək səviyyədə keçdi. Türkiyə Cümhuriyyəti və Cümhurbaşkanı hörmətli Əhməd Necdət Sezər VII zirvə görüşünü yaxşı hazırlamışdılar və onu çox mütəşəkkil, yüksək səviyyədə keçirdilər. Bizim hamımız bu görüşün iştirakçısı idik. Amma Türkiyə ev sahibidir. Çünki bütün əziyyət, bütün işlər Türkiyənin üzərində idi. Mən hesab edirəm ki, Türkdilli Dövlətlər Birliyinin varlığı çox əhəmiyyətlidir. Biz ildən-ilə irəli gedirik. Doğrudur, bəlkə də nailiyyətlərimiz bir o qədər böyük deyil, ancaq irəliyə gedirik. Lakin türkdilli dövlətlər içərisində Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr xüsusi əhəmiyyət daşıyır. Deyə bilərəm ki, bu, bəzi dövlətlərlə münasibətlərdən fərqlənir. Bu da təbiidir. Çünki biz həmişə Türkiyə ilə daha yaxın olmuşuq. Türkiyə də Azərbaycanla daha yaxın olubdur. Tarixən belə olubdur. Ona görə də biz bu əlaqələrə, görüşlərə, toplantılara çox böyük əhəmiyyət veririk.

Sizin sahənizdə, yəni Jandarm Qüvvələri, Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlıq da çox əhəmiyyətlidir. Çünki bizim Daxili İşlər nazirliyinin Daxili Qoşunları keçmiş sovet dövründə yaranmış qoşunlardır. Onların çoxu hələ ki, keçmiş prinsiplərə əsasən işləyirlər. Ancaq biz indi yeni dövrdə yaşayırıq, müstəqil dövlətik. Ona görə də indi Daxili Qoşunların qarşısında duran vəzifələr keçmişdə, sovet dövründə olan vəzifələrdən çox fərqlidir.

Sizin təcrübəniz çoxdur. Ona görə də sizin təcrübənizin bizə verilməsi, təhsil işlərinin aparılması və digər yardımların edilməsi bizim üçün əhəmiyyətlidir. Buna görə də mən sizə təşəkkür edirəm. Jandarm Qüvvələrinin komandanı, ordu generalı kimi sizin Azərbaycana gəlməyiniz, ölkəmizi ziyarət etməyiniz, bu məsələlərlə şəxsən tanış olmağınız və lazımi tədbirlər görməyiniz onu göstərir ki, siz Türkiyə-Azərbaycan əlaqələrinə xüsusi əhəmiyyət verirsiniz.

General Usubov da hər dəfə mənə bu əməkdaşlıqdan razılığını bildirir. Güman edirəm ki, bu dəfə görülən işlər daha da əhəmiyyətli olubdur. Yəqin ki, biz bu barədə də söhbət edəcəyik.

"Azərbaycan" qəzeti, 2 may 2001-ci il.

2001-ci İL FEVRALIN 28-də BAKI ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bakı şəhəri, 8 may 2001-ci il.

1. 2001-ci il fevralın 28-də Bakı şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında təməmnasız hərbi yardım haqqında;

2) Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında maliyyə yardımı haqqında Protokol.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti

2001-ci İL MARTIN 12-də ANKARA ŞƏHƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA İMZALANMIŞ SƏNƏDLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2001-ci il martın 12-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış aşağıdakı sənədlər təsdiq edilsin:

1) Azərbaycan Respublikasının Vergilər nazirliyi ilə Türkiyə Respublikasının Maliyyə nazirliyi arasında əməkdaşlıq haqqında Protokol;

2) Azərbaycan Respublikasının Maliyyə nazirliyi ilə Türkiyə Respublikasının Maliyyə nazirilyi arasında əməkdaşlıq haqqında Protokol;

3) Azərbaycan Respublikasının Ədliyyə nazirliyi ilə Türkiyə Respublikasının Ədliyyə nazirilyi arasında əməkdaşlıq haqqında Protokol;

4) Azərbaycan Respublikasının Mədəniyyət nazirliyi və Türkiyə Respublikasının Mədəniyyət nazirliyi arasında mədəni əməkdaşlıq haqqında Protokol.

2. Azərbaycan Respublikasının Vergilər Nazirliyi bu Sərəncamın 1-ci bəndinin 1-ci yarımbəndində, Azərbaycan Respublikasının Maliyyə nazirliyi bu Sərəncamın 1-ci bəndinin 2-ci yarımbəndində, Azərbaycan Respublikasının Ədliyyə nazirliyi bu Sərəncamın 1-ci bəndinin 3-cü yarımbəndində və Azərbaycan Respublikasının Mədəniyyət nazirliyi bu Sərəncamın 1-ci bəndinin 4-cü yarımbəndində göstərilən sənədlərin həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseslərin yerinə yetirilməsi haqqında Türkiyə Respublikası tərəfini xəbərdar etsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
"Azərbaycan" qəzeti, 13 may
2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 13-də Prezident sarayında Türkiyə Xarici İşlər nazirinin müavini, səfir Yigit Alpoğlanı qəbul etmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** qonağı səmimiyyətlə qarşılayaraq dedi:

- Azərbaycana xoş gəlibsiniz. Mən çox məmnunam ki, Ankarada, sonra İstanbulda olarkən, yəni Prezidentlə, Xarici İşlər naziri ilə danışıqlar apararkən siz də bizimlə bərabər idiniz və bu danışıqlarda çox fəal iştirak edirdiniz.

Hörmətli Prezident Əhməd Necdət Sezər doğum günümü təbrik etmək üçün mənə telefon etmişdi. Eyni zamanda mənə dedi ki, siz buraya gələcəksiniz, sizinlə bəzi məsələləri müzakirə edəcəyik, onun bəzi fikirlərini mənə çatdıracaqsınız.

Birincisi, onu demək istəyirəm ki, mən son vaxtlarda iki dəfə Türkiyədə olmağımdan çox məmnunam. Hesab edirəm, mənim mart ayındakı rəsmi səfərim çox uğurlu keçdi və Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsi üçün yeni bir addım oldu. İkinci dəfə isə İstanbulda olmağımı, yəni türkdilli ölkələrin dövlət başçılarının toplantısını da çox əlamətdar hadisə hesab edirəm. Çünki bəzən bu toplantı alınmır, bəzən vaxtı keçir, filan olur. İndi bəzi dəyişikliklər olduğuna görə də mən narahat idim ki, necə olacaq. Amma bir il keçəndən sonra İstanbulda vaxtında toplaşdıq. Çox da gözəl təşkil olunmuşdu. Xatirinizədir, bunu mən orada həm toplantıdan sonra, həm də ziyafətdəki nitqimdə söylədim. Çox gözəl təşkil olunmuşdu. Mən çox məmnunam. Hesab edirəm ki, bütün digər cümhur başqanları da məmnundurlar. Yaxşı da mətbuat konfransı keçirdik. Biz orada bir bəyanat imzaldıq və bu, türkdilli dövlətlərin gələ-

cəkdə bir-birinə daha da yaxınlaşması üçün çox əhəmiyyətlidir.

Mən dəfələrlə demişəm ki, bunda Türkiyənin rolu çox böyükdür. Çünki Türkiyə bu işin əsasını qoyandır. Türkiyə bu birliyin təşəbbüskarıdır. İndi də əgər hamımız toplaşırıqsa, Türkiyənin ətrafında toplaşırıq. Ona görə mən çox məmnunam. Bakıya dönəndən sonra mən hörmətli Prezident Əhməd Necdət Sezərə telefon edib bunları demişdim. Eyni zamanda orada sizinlə başqa məsələləri də müzakirə etmişdik. Yenə də deyirəm, cümhurbaşkanı mənə söylədi ki, siz buraya gəlirsiniz. Çox məmnunam. Çünki siz həm Ankarada, həm də İstanbulda bizim görüşlərimizdə bilavasitə iştirak etdiniz və biz məsələləri birlikdə təhlil edirdik. Buyurun.

Prezident Heydər Əliyevə səmimi qəbula görə təşəkkürünü bildirən Türkiyə Xarici İşlər nazirinin müavini **Yigit Alpoğlan** dedi:

- Hörmətli Prezidentim, sağ olun. Hər şeydən əvvəl, sizi doğum gününüz münasibətilə təbrik edirəm. Mayın 10-u sizin doğum gününüz olduğunu bilirdim. Bununla bağlı sizə çoxlu salam gətirmişəm. Bizim Prezidentimiz Əhməd Necdət Sezər sizə sevgilərini, salamlarını, hörmət və ehtiramını, xoş diləklərini göndərdi. Mənim nazirim də sizə xoş arzularını bildirdi. İnşallah, burada yaxşı danışıqlar aparacağımızı söylədi.

Sizə bir salam da var. O da Ərtan Paşadan. Ərtan Paşa ilə mən görüşə bilmədim.

Heydər Əliyev: Onun qardaşı sizin Qazaxıstandakı səfirinizdir.

Yigit Alpoğlan: Bəli, onun qardaşı orada böyük elçidir. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündən sonra cərrahiyyə əməliyyatı keçiribdir. İndi müalicə olunur.

Heydər Əliyev: Onu bilirəm.

Yigit Alpoğlan: Mən dünən Gülhanə xəstəxanasında oldum, səfirimizi ziyarətə getmişdim. Orada Ərtan Paşaya, onun ailəsinə, xanımına buraya gələcəyimi söylədim. Dedim ki, bir istəyiniz, sözünüz varsa, çatdıraram. Onlar da ad gününüz münasibətilə sizə səmimi təbriklərini çatdırmağı xahiş etdilər, hörmətlərini bildirdilər. Mən bunları sizə çatdırmaq istəyirdim.

Heydər Əliyev: Çox sağ olun.

Yigit Alpoğlan: Hörmətli Cümhurbaşkanım, dediyiniz kimi, Türkiyədə sizinlə olan görüşlərdən böyük məmnuniyyət duyanlar vardır. Biz iki qardaş dövlət, eyni millətik. Bu mənada Türkiyədə hər kəs sizə, Azərbaycana kömək, yardım, dəstək verməyə hazırdır. Biz son dərəcə məmnunuq ki, işbirliyimiz bu sahədə də davam edir və fikir mübadiləsində biz çox böyük fayda görürük. Məni də buraya bu iş üçün göndərdilər. Sizə bəzi məsələləri ərz edəcəyəm. Bilgilər verəcəyəm. Sizin tapşırıqlarınızı da Ankaraya çatdıracağam. Onlar məndən xəbər gözləyirlər.

Heydər Əliyev: Biz çox yaxşı işbirliyi qurmuşuq. Mən sizin yanınızda hörmətli nazir İsmayıl Cemə də söyləmişdim. Sonra hörmətli Prezident Sezərə də söyləmişdim ki, bizim bəzi işlərimizin daha da səmərəli getməsi üçün belə imkanlardan istifadə edilməsi lazımdır.

Yigit Alpoğlan: Doğrudur.

Heydər Əliyev: Məsələn, lazım olanda oradan siz, ya digər bir adam gəldiniz. Yaxud da ki, mən buradan kimisə göndərim. Gözləməyək ki, biz nə vaxt görüşəcəyik, məsələləri o vaxt müzakirə edəcəyik. Ona görə də biz o vaxt söyləmişdik. Mən çox məmnunam ki, bu, həyata keçirilir. İndi biz sizinlə bir neçə məsələləri müzakirə edəcəyik.

"Azərbaycan" qəzeti, 15 may 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "MƏRMƏRƏ QRUPU" VƏQFİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

14 may 2001-ci il

Prezident Heydər Əliyev ilə yenidən görüşməsindən böyük şərəf duyduğunu bildirən "Mərmərə qrupu" Vəqfinin sədri **Akkan Suvar** dedi:

- Çox hörmətli Cümhurbaşkanımız!

Əziz şərəf başqanımız!

Zati-aliləri Heydər Əliyev!

Sözlərimə başlamazdan öncə, doqquzuncu Cümhurbaşkanımız, çox hörmətli Süleyman Dəmirəlin salamlarını, hörmət və ehtiramını Sizə yetirirəm.

Heydər Əliyev: Çox sağ olun.

Akkan Suvar: Yeni yaşa qədəm qoyduğunuz bu günlərdə Sizə uzun ömür diləyir, ad gününüzü təbrik edirik.

Heydər Əliyev: Çox sağ olun.

Akkan Suvar: Məlumunuz olduğu kimi, ötən ilin may ayından Zati-dövlətinizə bu salonda keçən ilin hesabatını vermişdik. Bu gün də icazənizlə, 2000-ci ilin may ayından indiyə qədər gördüyümüz işlər barədə məlumatı Sizə çatdırmaq istəyirəm. Çünki Siz bizim şərəf başqanımızsınız.

Heydər Əliyev: Buyurun.

Akkaq Suvar: Möhtərəm Prezidentimiz, "Mərmərə Qrupu" Vəqfi olaraq çalışmamızı üç əsas istiqamətdə həyata keçiririk. Birincisi, milli sahədə gördüyümüz işlərdir. Bunlara misal olaraq aylıq toplantılarımızı göstərə bilərik. Türkiyənin siyasi, sosial həyatı ilə bağlı hər ay keçirdiyimiz toplantılarda ölkənin gündəlik həyatını müzakirə etməyə çalışdıq. Dövlət nazirimiz hörmətli Yüksəl Yalova, Dünya Bankının Türkiyə təmsilçisi Ajay Çibber, Cümhuriyyət Xalq Partiyasının yeni baş katibi Deniz Baykal və başqaları builki toplantılarımızda çıxışlar etdilər.

Keçən il Sizi ziyarət edəndən sonra vəqfimizin 15 illiyini qeyd etdik. Bu yubileyimizdə İstanbulun bələdiyyə başqanı, valisi, İstanbuldan

olan millət vəkilləri, iş adamları iştirak etdilər. Bildirirəm ki, bu gözəl günümüzdə azərbaycanlı qardaşlarımız da bizi yalqız buraxmadılar. Milli Məclisin deputatı, xalq yazıçısı Anarın rəhbərliyi ilə deputatlar Aslan Abbasov, Asya Manafova, professor Vaqif Arzumanlı, jurnalist Ramiz Əsgər və hörmətli professor Vaqif Qasımov tədbirimizə təşrif buyurdular və bizi sevindirdilər. Sizin qarşımızda onlara bir daha təşəkkür edirəm.

Hər il olduğu kimi, bu il də İstanbulda din işləri başqanımız Məhəmməd Nuri Yılmazın rəhbərliyi ilə "Dinlərarası dialoq" adlı iftar yeməyimizi yunan, erməni patriarxlarının, musəvi xaxamının və başqalarının iştirakı ilə gerçəkləşdirdik. Ona aid ingilis dilində nəşr olunmuş qəzeti Sizə vermək istəyirəm.

(Cənab Akkan Suvər qəzetin bir nüsxəsini Prezident Heydər Əliyevə təqdim etdi).

Çox hörmətli Cümhurbaşkanımız, işimizin ikinci istiqamətini təşkil edən beynəlxalq sahədəki fəaliyyətimizin ən böyüyü Üçüncü Avrasiya İqtisadi Zirvə Toplantısı və Avrasiya Qadınlar Konqresi idi. Ötən il bunları uğurlu nəticə ilə sona çatdırdıq. Avrasiya ölkələri ilə yanaşı, orta Avropa ölkələrini də özündə birləşdirən zirvə toplantımızda 32 ölkədən 192 nəfər iştirak etdi. Onların 17 nəfəri nazir idi.

Böyük minnətdarlıq hissi ilə qeyd edirəm ki, bizim bu toplantımıza zati-dövlətinizin hər zaman yüksək önəm verən mesajınız hamımızı şərəfləndirdi. Bizə verdiyiniz dəstəyə görə Sizə öz adımdan və həmkarlarım adından minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm.

Azərbaycanın nümayəndə heyəti bu zirvə toplantısında bizi şərəfləndirdi. Hüzurunuzda xanım Zəhra Quliyevaya, hörmətli İslam Tağıyevə, Rəfiqə Hüseynzadəyə, Asya Manafovaya, Zeynəb Xanlarovaya, Mələk Bayramovaya, Xalid Niyazova və Vaqif Qasımova təşəkkürlərimi bildirirəm.

Üçüncü Avrasiya iqtisadi zirvə toplantısında Cümhurbaşkanımız, hörmətli Əhməd Necdət Sezərin həyat yoldaşı Səmra Sezərin himayəsində Avrasiya Qadınlar Təşkilatı da gerçəkləşdirildi. Hörmətli Zəhra Quliyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanın qatıldığı bu zirvə toplantısı uğurla başa çatdı.

Dəyərli Cümhurbaşkanımız!

İşimizin üçüncü istiqaməti isə Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələrimizin möhkəmlənməsidir. Siz bilirsiniz, noyabr ayında Belarusda keçirilən seçkilər zamanı "Mərmərə Qrupu" Vəqfinin iki təmsilçisi BMT tərəfindən müşahidəçi kimi Minskə göndərilmişdi. Bu, bizim üçün ilk məsul işdir və bunun sevincini Zati-alinizlə paylaşırıq.

Keçən ilin noyabrında Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda keçirilən illik sessiyasında iştirak edərək, ölkəmizi təmsil etməkdən şərəf duyuruq. Vəqfimizin insan haqları platforması çərçivəsində bu il türk-yunan qadınlarının barış toplantısı keçirilmişdir. Bolqarıstanın əski cümhurbaşkanı hörmətli Jelyu Jelev vəqfimizi ziyarət etmişdir. Moldovanın, Rumıniyanın, Albaniyanın, Bolqarıstanın, Türkiyənin əski Cümhurbaşkanları və Yunanıstanın əski Baş naziri Balkan klubu yaratmaq arzusunda olduqlarını bildirmiş, sivil təşkilat kimi "Mərmərə Qrupu" Vəqfinin ona rəhbərlik etməsini istədiklərini söyləmişlər.

Əziz Cümhurbaşkanım, bütün bunlarla yanaşı, vəqfimizin insan haqları platforması, mədəniyyət qrupu qadınlarla bağlı bir sıra proqramları həyata keçirir. Vəqfin İstanbul qrupu rəhbərindən hər il 120 qadına 3 aylıq təlim kursları keçilir.

Əziz şərəf başqanımız!

Bu il noyabrın 8-9-10-da 4-cü Avrasiya İqtisadi Zirvə Toplantısını keçirəcəyik. Əgər imkanınız olsa, təşrif buyurmağınızı, imkanınız olmasa, mesajınızla bizi şərəfləndirməninizi istərdik. Arzu edirik ki, həmişə olduğu kimi, Azərbaycan nümayəndə heyətini yanımızdan görməkdən sevinc hissi duyaq. Bu il keçiriləcək zirvə toplantısında Hindistanın da nümayəndələri iştirak edəcəklər. Həmin tarixdə gerçəkləşdirəcəyimiz Avrasiya Qadınlarının İkinci Konqresinə həm mesajınızı gözləyirik, həm də yüksək nümayəndə heyətinin bu tədbirdə iştirak etməsinə icazə verməyinizi istərdik.

Yeri gəlmişkən, bir təşəkkürümü də ərz edim. Bu da Sizin şəxsinizdə Azərbaycan alimlərinə olan minnətdarlığımdır. Onlar mənə doktor adı verdilər. Mən bunu şəxsi adıma deyil, bütün Türkiyə adına qəbul edirəm. Siz bu doktorluq adını bütün Türkiyəyə verdiniz. Sizə bir daha minnətdarlığımı bildirirəm.

Hörmətli Prezidentim, gözəl xəbərimiz də vardır. Vəqfimiz "Heydər Əliyev Kültür Mərkəzi"nin yaradılması barədə böyük həvəslə qərar qəbul etmişdir. "Heydər Əliyev Kültür Mərkəzi"nin təşkili üçün sənədlər əldə edilməsi barədə bizə yardım göstərməyiniz rica olunur.

Siz şərəf başqanımız olduğunuz üçün tam məlumatınız olsun deyə, birillik hesabatımızı Zati-dövlətinizə ərz etdik. Siz bizə güvənirsiniz. Biz də Sizlərə layiq xidmətlər göstərməyə çalışırıq. Bizi qəbul edib dinlədiyiniz üçün Sizə öz adımdan və həmkarlarım adından ən dərin sayğılarımızı bildirir, doğum gününüzü bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Hörmətli dostlar, siz mənim yaxın dostlarımsınız. Bir neçə ildir ki, bizim bu dostluğumuz daha da möhkəmlənir.

Mənim doğum günümü təbrik etdiyinizə görə sizə təşəkkür edirəm. Mən sizin təbrik məktubunuzu almışam. İndi burada şəxsən də bu sözlə-

ri dediniz. Təşəkkür edirəm. Çalışacağam ki, sizin arzularınızı və istəklərinizi bundan sonra da yerinə yetirim. Nə qədər ki, yaşayacağam, o qədər də çalışacağam.

Mənim əziz dostum, qardaşım, Türkiyənin 9-cu Cümhurbaşkanı Süleyman Dəmirəldən gətirdiyiniz salama, hörmət və ehtirama görə də təşəkkür edirəm. Məlumdur ki, "Mərmərə Qrupu" Vəqfinin iki şərəf başqanı vardır. Birincisi, hörmətli Süleyman Dəmirəldir, ikincisi də məni seçmisiniz. Mən bunu özüm üçün böyük şərəf hesab edirəm. Sizin vəqfdə böyük bir toplantıda nitq edən zaman vəqfiniz haqqında, mənə göstərdiyiniz hörmət və ehtirama, məni şərəf başqanı seçdiyinizə görə öz minnətdarlığımı bildirmişdim. Bu gün minnətdarlığımı bir daha bildirirəm.

Siz gördüyünüz işlər haqqında burada mənə məlumatlar verdiniz. Mən bəzi bilgiləri alıram. Amma indi siz tam şəkildə bunu mənə verdiniz. Bu bilgilərdən görünür ki, "Mərmərə Qrupu" Vəqfi həqiqətən çox böyük işlər görür. İndi elan etdiyiniz böyük nailiyyətlərə görə sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, vəqfiniz bundan sonra da bu cür çalışacaqdır. Ən önəmlisi odur ki, "Mərmərə Qrupu" Vəqfi Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etməsində böyük rol oynayır.

Türkiyədə müxtəlif vəqflər çoxdur. Onların bir çoxu ilə Azərbaycanın yaxınlığı var. Amma sizin vəqf kimi Azərbaycana diqqət, qayğı və maraq göstərən başqası yoxdur. Ona görə də mən çox sevgi-məhəbbətlə sizi qəbul edirəm və gördüyünüz işlər məni sevindirir. Güman edirəm ki, bundan sonra da işlər hələ çoxdur, görüləcəkdir.

Mənim Türkiyəyə mart ayındakı rəsmi ziyarətim, hesab edirəm ki, çox uğurlu oldu. Mən təxminən bir həftə Türkiyədə oldum. Hörmətli prezident, əziz dostum Əhməd Necdət Sezər ilə, Baş nazir, hörmətli Bülənd Ecevitlə, Baş nazirin müavini Dövlət Baxçalı ilə, Baş Bərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə və digərləri ilə çox ətraflı danışıqlar apardıq.

Böyük Millət Məclisində yenidən, Türkiyənin 550 millət vəkilini toplamış belə bir parlament xitab etməyim mənim üçün böyük şərəfdir. Siz bilirsiniz ki, mən də bundan lazımi qədər istifadə etdim. Mən orada hər bir qeyi açıq-aydın söylədim, həm də Azərbaycan haqqında, həm də Türkiyə-Azərbaycan əlaqələri haqqında.

Eyni zamanda indi ermənilərin, erməni diasporunun Türkiyəyə qarşı apardığı təbliğata və erməni lobbisinin Türkiyəyə ədalətsiz iddialarına qarşı Azərbaycanın, həm xalqın, həm dövlətin, həm də bütün siyasi-ictimai qurumların - hamısının birlikdə fikirlərini Böyük Millət Məclisinin toplantısında millət vəkilləri qarşısında elan etdim.

Nəhayət, qısa zamandan sonra İstanbula gəldim, sizinlə yenə görüşdük. Orada türkdilli ölkələrin dövlət başçılarının görüşü keçirilirdi. Bu, məni çox sevindirdi. Çünki bir il bundan öncə aprel ayında bu toplantı Azərbaycanda keçirilmişdi və biz burada "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini birlikdə qeyd etdik. Eyni zamanda türkdilli ölkələrin dövlət başçılarının növbəti zirvə görüşünü keçirdik. Düz bir ildən sonra, yenə də aprel ayında bu zirvə görüşünün keçirilməsi məni çox sevindirdi. Çünki sizdə hakimiyyət dəyişikliyi olmuşdu.

Mən bilirəm ki, bəzən türkdilli ölkələrin başqanlarını bir yerə yığmaq o qədər asan olmur. Ona görə yox ki, istəmirlər, ona görə ki, hərənin bir proqramı var, hərənin bir işi var. Bir gün birinə münasib deyil, o biri gün o birisinə münasib deyildir. Mənim bu ay və gələn ay o qədər böyük proqramlarım var ki, birini oradan deyirlər, birini buradan deyirlər. Bu gəlir bunun üzərinə düşür, o gəlir onun üzərinə düşür. Mən birinə, yəni bir hökumətə, dövlətə, təşkilata deyəndə ki, buraya gələ bilmərəm, deyirlər ki, biz beş cümhurbaşkanı ilə razılaşdırmışıq, sən gəlməsən bu, pozulacaqdır. Amma mən bunu da poza bilmərəm. Yəni bizim işimizdə belə çətinliklər var. Təkcə məndə yox, belə çətinliklər hamıda var. Amma Türkiyə, hörmətli Əhməd Necdət Sezər vaxtı çox gözəl seçmişdi və yaxşı danışıqlar aparmışdı. Bizim hamımız, türkdilli ölkələrin dövlət başçıları toplaşdıq. Orada iki gün gözəl müzakirələr keçirildi və hesab edirəm ki, bunun bizim Türkdilli Dövlətlər Birliyinin daha da inkişaf etməsi üçün çox böyük əhəmiyyəti oldu.

Mən çox məmnunam ki, orada sizinlə də görüşdüm, söhbət etdik. Siz demişdiniz, Azərbaycana gələcəksiniz. Amma mən fikirləşirdim ki, bəlkə gəlməyəcəksiniz. İşiniz olacaqdır. Amma gəlmisiniz. Mənə dedilər ki, üç gündür buradasınız. Azərbaycanı yenidən gördünüz. Bizim həyatımızı görürsünüz, insanlar necə yaşayır, onu görürsünüz.

Mənə dedilər ki, sizə Təfəkkür Universitetində Fəxri doktor adı veriblər. Mən sizi bu münasibətlə də təbrik edirəm və çox sevinirəm. Siz Fəxri doktor adına çoxdan layiqsiniz. Bəlkə də bir universitetdə yox.

Mən Türkiyənin universitetlərinin çoxunda Fəxri doktor adını almışam. Amma indi sayını itirmişəm. Bir neçəsi də mənə çoxdan Fəxri doktor adı veribdir. Məsələn, Ərzurum Atatürk Universitetidir, Bilkənd Universitetidir və başqaları.

Akkan Suvar: Sizə İspartada Süleyman Dəmirəl adına Universitet də Fəxri doktor adı veribdir.

Heydər Əliyev: Mən aldıqlarımı demirəm, aldıqlarımı almışam. Amma bundan sonra da alacağam.

Akkan Suvar: İnşallah.

Heydər Əliyev: Bu dəfə Ankarada olanda Ankara Universitetində aldım. Aldıqlarımı çox almışam. Mən 7-8 universitetin Fəxri doktoruyam.

Təbiidir ki, bu da Azərbaycana Türkiyənin universitetləri tərəfindən göstərilən yüksək qiymətdir. O cümlədən mənim şəxsiyyətimə və gördüyüm işlərə verilən qiymətdir. Mən bunlara görə də təşəkkür edirəm.

Mən sizin vəqfə bir daha uğurlar arzulayıram. Bizim tərəfimizdən nə lazımsa, bundan sonra da edəcəyik ki, vəqfiniz yaşasın, inkişaf etsin. Xüsusən, Azərbaycanla Türkiyə əlaqələrinin inkişaf etməsi üçün bundan sonra daha da çox iş görsün...

Akkan Suvar: Möhtərəm Cümhurbaşkanım, hörmətli Şamil Ayrım vəqfimizin qurucularından biri, Ali Məsləhət Şurasının üzvü, eyni zamanda Türkiyə Böyük millət Məclisinin deputatıdır.

Heydər Əliyev: Yaxşı tanıyıram. Mənim əski dostumdur.

Akkan Suvar: Çox gözəl. Siz İstanbulda olarkən hörmətli Koray Böyükasar bizimlə birlikdə idi. O, "Mərmərə Qrupu" Vəqfinin İcra Şurasının üzvüdür.

Hörmətli Vaqif Qasımovu isə tanıyırsınız.

Heydər Əliyev: O da sizin ailədəndir.

Akkan Suvar: Çox düz buyursunuz. Şamil Ayrımın Sizə deyəcəyi gözəl sözləri var. O, eyni zamanda Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri ilə Türkiyə parlamentinin NATO-dakı nümayəndə heyətinin üzvüdür.

Heydər Əliyev: Buyurun.

Şamil Ayrım: Hörmətli Cümhurbaşkanım, əvvəlcə çox təşəkkür edirəm. Sizi doğum gününüz münasibətilə təbrik edir, uzun ömür arzulayıram. İnanıram ki, Azərbaycan Sizin kimi liderin sayəsində Ermənistanla olan problemlərini sülh yolu ilə ən qısa zamanda çözəcəkdir.

Mən Sizin Amerikadakı görüşlərinizi istər İnternet vasitəsilə, istərsə də qəzetlər vasitəsilə çox yaxından izləyirdim. Sizin oradakı çıxışlarınızı, ikili görüşlərinizi çox həssaslıqla dinləyirdim. İnanıram ki, önümüzdəki mərhələdə Azərbaycan çox gözəl addım atacaqdır. Çünki digər liderlərlə müqayisədə Sizin zəngin təcrübəniz vardır. Bu problemin sülh yolu ilə aradan qaldırılmasını səmimi qəlbdən arzu edirik. İnşallah, bu, olacaqdır.

Akkan bəyin dediyi kimi, mən Türkiyə parlamentinin NATO-dakı nümayəndə heyətinin üzvüyəm. Bu ayın sonunda, mayın 27-də Vilnüsdə NATO-nun toplantısı olacaqdır. Mən parlament sədrinin müavini Ziyarət Əsgərovla da görüşdüm. O da NATO-nun toplantısında iştirak edəcəkdir.

Azərbaycanın bu tədbirdə iştirak etməsi son dərəcə önəmlidir. Biz Türkiyə olaraq, bunu ən yaxından dəstəkləyirik. Orada nəticə əldə etməyimiz lazımdır. Gücümüz çatan qədər əlimizdən gələni edəcəyik. İstərdik, bunu biləsiniz.

Sizin vaxtınızı çox almaq istəmirəm. Bildirirəm ki, Azərbaycanla bağlı ən doğru işləri görmək üçün ziyarətə gəldim. Biz həmkarlarımızın

fəaliyyətini ürəkdən dəstəkləyirik. Sizin bu qədər dəstək verməyiniz, şəxsinizdə azərbaycanlı qardaşlarımızın dəstək verməsi bizim üçün çox önəmlidir. Ona görə də göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri kimi üzərimə nə düşərsə, Azərbaycana hər zaman hər cür dəstəyə hazıram. Əlbəttə, Türkiyə hökumətinin yeritdiyi siyasət çərçivəsində səmimi duyğularımızla həmişə Sizin yanınızdayıq. Bizi qəbul etdiyiniz üçün Sizə bir daha hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev: Sən mənim əsgi dostlarımdansan.

Şamil Ayrım: Bəli.

Heydər Əliyev: Həm Böyük Millət Məclisində, həm də başqa yerlərdə çox işlər görürsən və xüsusən, Azərbaycan ilə Türkiyə arasındakı dostluğun möhkəmləndirilməsində çox böyük işlər görürsən.

Siz Naxçıvanda Hüseyn Cavidin abidəsinin açılışına da gəldiniz. Mən onda çox sevindim. Çünki Hüseyn Cavid təkcə Azərbaycanın yox, həm də Türkiyənin böyük yazarı, alimi idi. Sən bilirsən, onun cənazəsini, yəni nəşini mən hələ 1981-ci ildə Sibirdən gətirtmişdim. Çünki Cavidi 1938-ci ildə oraya sürgün etmişdilər. Orada vəfat etmişdi və onu orada dəfn etmişdilər. Mən onu aradım, tapdım, gətirdim. Mən sənə o vaxt da söylədim, əlbəttə, məmnun oldum. Çünki o, böyük bir şəxsiyyət idi. Onda söylədilər ki, onu burada torpağa verək - Bakıda şərəfli adamlar üçün Fəxri xiyaban var, bilirsiniz. Mən isə dedim yox. Onu Naxçıvanda torpağa vermək lazımdır. Çünki onun vətəni Naxçıvandır, orada doğulubdur. Mənə dedilər yox, Naxçıvan kiçik bir yerdir. Anıma o böyük bir adamdır. Dedim, bizim Fəxri xiyabanda böyük adamlar çoxdur. Amma Naxçıvanda qəbiristanlıqda yox, şəhərin mərkəzində ona bir abidə ucaldıb nəşini oraya qoysaq, bu, daha yaxşı olacaqdır. Mənim bu təklifim qəbul edildi. Baxmayaraq ki, etiraz edənlər çox idi. Amma görün, həyat nə cür oldu.

Mən ondan sonra Moskvaya işləməyə getdim. Orada çalışdım. Sonra da bilirsiniz ki, mən bütün işlərdən kənar oldum. 1990-cı ildə isə Sovetlər Birliyi Azərbaycana hərbi təcavüz etdiyinə görə mən buna etiraz etdim, Kommunist Partiyasından çıxıb buraya gəldim. Məni burada da yaşamağa qoymadılar. Naxçıvana getdim. Məni Naxçıvanda xalq çox hərarətlə qarşıladı. Amma soruşdum, Hüseyn Cavidin qəbri mən dediyim kimi yaradılıbdır, yoxsa yox? Dedilər ki, yox. Bəs haradadır? Oradadır, üstündə bir daş var. Mən evimdən çıxdım, - mitinq var idi, Naxçıvanın hər yerindən 50 minə qədər insan toplaşmışdı, - mitinqə getməmişdən öncə dedim, mən Hüseyn Cavidin məzarını ziyarət edəcəyəm. Gəldim, çox pis bir vəziyyətdə gördüm. Çox məyus oldum.

Naxçıvanda çalışan zaman istədim ki, orada bir türbə, abidə yara-

dım. Ancaq onda imkanım, param yox idi. Naxçıvan blokadada idi. Yaşamaq mümkün deyildi, elektrik işığı yox, filan yox. Amma buraya gələndən sonra imkanlarım oldu və onu etdim. Çox gözəl abidə yarandı, sənninlə bir yerdə açdıq. İndi ora ziyarətgah olubdur. Müqəddəs bir yer kimi insanlar oraya ziyarətə gedirlər.

Şamil Ayrım: Bəli. Doğrudur.

Heydər Əliyev: Amma bir şey də etdim. Onun xanımını da, oğlunu da - xanımının nəşini buradan apardım, oğlu da İkinci dünya müharibəsi zamanı Naxçıvanda vəfat etmişdi, orada dəfn olunmuşdu, - orada dəfn etdirdim. Üçü də bir yerdə. Bu, mənim vətəndaşlıq borcum idi, bunu da etdim.

Bunu ona görə bir də söyləyirəm ki, çox məmnunam ki, siz o vaxtlar oraya gəldiniz. Bir yerdə bu işi gördük. Elə bir bu deyil axı. Mən hər dəfə Türkiyəyə gələndə sizinlə görüşürəm. Bilirəm ki, siz Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsi üçün çox işlər görmüsünüz. Buna görə də sizə çox təşəkkür edirəm.

Şamil Ayrım: Hörmətli Cümhurbaşkanım, sağ olun.

Akkan Suvar: Biz bu gün oğlunuz İlham bəyi də ziyarət edəcəkdik. Amma yox idi, görüşə bilmədik. Ona aid iki xatirə hədiyyəmiz var. Biz onu vəqfimizin üzvü seçdik. Onun üzvlük hədiyyəsi ilə, eyni zamanda mənim bir hədiyyəm də var. O da boks ilə bağlıdır. Çünki mən Türkiyədə uzun illə Boks Federasiyasının vitse-prezidenti olmuşam.

Heydər Əliyev: Siz onunla görüşmək istəyirsinizsə, mən deyərəm. O, bizim Milli Olimpiya Komitəsinin Prezidentidir. Azərbaycanda idmanın inkişaf etməsi üçün yeni-yeni idman mərkəzləri tikir. Dünən axşam mənə söylədi ki, şəhərdən bir az uzaqda Maştağa qəsəbəsi var, orada idman mərkəzi yaratmaq istəyir, səhərdən oraya gedəcəkdir. Ola bilər, oraya getmiş olsun. Amma əgər siz istəyirsinizsə, mən ona indi telefon edərəm. Onunla da görüşərsiniz.

Akkan Suvar: Çox məmnun olardıq. Onun hədiyyələrini də özünə təqdim edərdik.

Heydər Əliyev: Özünə verərsiniz.

Akkan Suvar: Cənab Prezident, Sizdən bir xahişimiz var. Bizim zirvə toplantımızda plaketləri Süleyman bəy təqdim edirdi. Amma Vaqif Qasımovun plaketini isə bizim şərəf başqanımız kimi Sizin təqdim etməyinizi istəyirik. O, üç ildir xidmətlər göstərir. Bu plaketi qarşımızda Vaqif bəyə versəniz, çox sevinərdik.

Heydər Əliyev: Sizə təqdim edim?

Akkan Suvar: Yox. Vaqif bəyə.

Heydər Əliyev: Vaqif bəyə təqdim edərəm. Mən əskidən, keçmişdən burada Vaqif bəylə çalışmışam. O, burada vəzifələrdə çalışıbdır. İndi son illərdir sizinlə bərabər çox önəmli işlər görür. Ona görə vəqfin bu plaketini sizin şərəf başqanı kimi çox böyük məmnuniyyətlə ona təqdim edirəm.

(Prezident Heydər Əliyev "Mərmərə Qrupu" Vəqfinin plaketini vəqfin Avrasiya iqtisadi zirvənin Baş katibi Vaqif Qasımova təqdim etdi).

Vaqif Qasımov: Cənab Prezident, çox sağ olun. Mənə bu plaketin ilk dəfə verilməsində Sizin nüfuzunuzun çox böyük rolu olmuşdur. Sizə dərin minnətdarlığımı bildirirəm.

Akkan Suvar: Hörmətli Cümhurbaşkanım, Siz İstanbulda "Konrad" otelini ziyarət etmişdiniz. Siz oranı sevirsiniz.

Heydər Əliyev: "Konrad" çox gözəl oteldir. Oradan hər yer görünür.

Akkan Suvar: Biz bu rəsm əsərini Azərbaycanın böyük övladı, Cümhurbaşkanımız və şərəf başqanımız Zati-alilərı Heydər Əliyevə doğum günü münasibətilə səmimi diləklərlə hədiyyə edirik. Bu, bizim tanınmış rəssamımız Taner Ercan bəyin çəkdiyi rəsm əsəridir. Bunu böyük məmnuniyyətlə Sizə təqdim edirik.

Heydər Əliyev: Çox gözəl rəsmdir. Təşəkkür edirəm. Siz mərkəz yaratmaq istəyirsiniz?

Akkan Suvar: Bəli.

Heydər Əliyev: Mən buna etiraz edə bilmərəm. Amma eyni zamanda deyə bilmərəm ki, yaradın. Bu, sizin işinizdir. İstəsəniz, yaradarsınız, istəməsniz, yaratmazsınız. Təşəkkür edirəm.

"Azərbaycan" qəzeti, 15 may 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRK DÜNYASININ GÖRKƏMLİ OĞLU, DÜNYA ŞÖHRƏTLİ ALİM, XALQIMIZIN BÖYÜK DOSTU İHSAN DOĞRAMACINI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev mayın 24-də Prezident sarayında ölkəmizdə qonaq olan türk dünyasının görkəmli oğlu, dünya şöhrətli alim, xalqımızın böyük dostu, Bilkənd Universitetinin idarə heyətinin sədri, professor İhsan Doğramacını, onun həyat yoldaşı Ayser Doğramacını və oğlu, Bilkənd Universitetinin rektoru Əli Doğramacını qəbul etmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** qonaqları mehribanlıqla və səmimilikle qarşılayaraq dedi:

- Azərbaycana xoş gəlmisiniz. Mən həmişə sizi görəndə çox xoşbəxt oluram. Mən bilirəm ki, əlinizə çəlik almağın səbəbi var. Zəhmət çəkib buraya gəlmisiniz. Doğrudan da, mənim ürəyim istəyir ki, siz buraya gələsiniz. Ancaq bu qədər yolu keçib zəhmət çəkmək məni bir az incidir. Daha yaxşı olardı ki, mən Ankaraya gəlim, sizinlə görüşüm.

Səmimi qəbul üçün dərin təşəkkürünü bildirən **İhsan Doğramacı** dedi:

- Bu ayın 10-cu günü, Sizin ad gününüz münasibətilə buraya gəlməyi planlaşdırmışdıq. Fəqət ondan iki gün öncə təsadüfən ayağımın baş bar-

mağını itirmişəm. Bu da gənclik çağlarımdakı səhvim üzündən baş vermişdir. Bununla bağlı həkimlər başqa yerə getməyi mənə yasaq etdilər. Onun üçün Sizi ziyarət edə bilmədim.

Heydər Əliyev: Bu, təbiidir.

İhsan Doğramacı: Mən Sizin üçün çox darıxmışam. Həkimlərdən izin aldıqdan sonra ilk səfərimi buraya etdim. Çox şadam ki, məni qəbul etdiniz. Hər zaman dediyim kimi, bura mənim ikinci vətənim deyil, iki vətənimdən biridir.

Heydər Əliyev: Elədir.

İhsan Doğramacı: Onun üçün mən burada özümü öz vətənimdə hiss edirəm. Əlinin də, bəlkə eşitmisiniz, bir il bundan əvvəl xərçəng xəstəliyindən müalicəsini Nyu-Yorkda etdilər.

Heydər Əliyev: Bununla əlaqədar mən sizə bir neçə dəfə zəng etmişdim.

İhsan Doğramacı: Elədir, eşitmişdiniz. Onun müalicəsini Nyu-Yorkda etdilər. Allaha şükür, indi yaxşıdır.

Heydər Əliyev: Çox gözəl. Əli xəstələnəndə mən sizə bir neçə dəfə zəng etdim. Hətta Nyu-Yorka da sizə zəng vurdum.

İhsan Doğramacı: Bəli, zəng etdiniz. Siz Ankarada olarkən biz Sizi Nyu-Yorkda televiziya vasitəsilə seyr edirdik. Səfir dedi ki, Prezidentimiz onun ad gününü keçirməyə izin verməz. Ona görə də mən Sizinlə görüşəcəyimiz bu günü gözləyirdim.

Heydər Əliyev: Ankaraya gələndə mən sizi soruşdum, səfir mənə dedi ki, siz Nyu-Yorkdasınız.

İhsan Doğramacı: Amma ondan daha öncə Qurban bayramı ilə əlaqədar bir tədbirimiz var idi. Mən proqramı ona görə hazırlamışdım. Sonra Siz gec gəldiniz.

Heydər Əliyev: Elədir. Hər halda xoş gəlmisiniz, səfa gətirmisiniz.

İhsan Doğramacı: Xoş gününüz olsun.

Heydər Əliyev: Yenə də deyirəm, sizinlə görüşümdən çox məmnunam. Çünki mənim çox əziz dostum, qardaşımsınız. On il müddətində bizim aramızda yaranmış bu dostluq və qardaşlıq əlaqələri o qədər möhkəmdir, mənim üçün o qədər əzizdir ki, hər dəfə sizi görməkdən məmnun oluram.

Ya burada, ya da Ankarada. Ancaq mən onu da unutmuram ki, mən Klivlenddə cərrahiyyə əməliyyatı keçirən zaman siz Türkiyədən təyyarə ilə 18 saat uçub, Çikaqodan keçib gəlmişdiniz. Klivlenddə oldunuz, bir yerdə olduq. Orada mənim doğum günümü bir yerdə qeyd etdik.

İhsan Doğramacı: Mən həyatımda çox mükafatlar almışam. Amma Sizinlə dostluğumu özüm üçün ən böyük mükafat hesab edirəm. Mənim üçün bundan yüksək mükafat ola bilməz.

İcazə verməydiniz, ad gününüz münasibətilə Sizə bu hədiyyəni təqdim edərdim.

İhsan Doğramacı Azərbaycan

Respublikasının qızıl təbəqədən hazırlanmış xəritəsini və Prezident Heydər Əliyevin kiçik barelyefini göstərərək dedi:

- Əfəndim, bu, Azərbaycan torpağıdır, bu da cənab Heydər Əliyevdir. Bunlar qızıldan hazırlanmışdır. Hədiyyənin üzərindəki bu sözləri oxumaq istəyirəm:

"Bu torpaqların yetirdiyi ən böyük dövlət adamı Heydər Əliyevə sağlıq, uzun ömür və böyük uğurlar arzulayıram.

İhsan Doğramacı".

Heydər Əliyev: Çox sağ olun.

Elə sizi görməyimin özü mənə mükafatdır, hədiyyədir.

Amma siz mənim üçün xüsusi bir hədiyyə hazırlamısınız.

Siz həm çox təcrübəli, həm də orijinal adamsınız. Ona görə sizin hədiyyələriniz həmişə xüsusi xarakter daşıyır.

İhsan Doğramacı: Bu, səmimi bir hissdir, ifadə edirik. Bunun maddi qiyməti, bəlkə də, çox deyil, amma mənəvi qiyməti var.

Heydər Əliyev: Yox, maddi qiyməti bizim kimi adamlar üçün əhəmiyyətli deyildir. Əsas onun mənəvi tərəfidir, mənasıdır.

İhsan Doğramacı: Bunlar çox səmimi sözlərdir. Allah Sizə ömür vesin. Yalnız Azərbaycan üçün deyil, bütün türkdilli ölkələr üçün.

Heydər Əliyev: Bəli, çox gözəl sözlər yazmısınız. Amma mən gərək bundan sonra da çalışam ki, o sözlərə layiq olam.

İhsan Doğramacı: Əfəndim, dünən yox, srağagün mən Sizi televiziyadan seyr etdim.

Heydər Əliyev: İndi bizim televiziyanın verilişlərini Türkiyədə yayımlayırlar.

İhsan Doğramacı: Bəli, Avropa Şurasının nümayəndə heyəti burada idi. Həmin nümayəndə heyətinə Almaniyadan olan bir nəfər rəhbərlik edirdi. O, almanca danışdı. O birilər də ingilis dilində, Fransadan olan nümayəndə isə fransız dilində danışdı. Fəqət Sizin onlara verdiyiniz cavablar çox mükəmməl, çox xoş idi. Cavablarınızdan birində 10 il bundan əvvəl sovetlərdə "ehkam"dan bəhs edilirdi. Siz dediniz ki, Avropada da "ehkam" olubdur. Almaniyada "nasizm", "faşizm" - onlar ehkam deyildimi? Onlar dedilər ki, bizdə sərbəstlik idi, demokratiya vardı. Siz dediniz ki, "...düzdür, amma bəs faşizmə, nasizmə nə deyərsiz".

Ekologiya söhbəti də çox yaxşı oldu.

Heydər Əliyev: Çox gözəl mövzu idi.

İhsan Doğramacı: Təbii, həmişəki kimi iftixar hissi keçirdim.

Heydər Əliyev: Çox sağ olun. Mən çox məmnunam ki, siz bunu çox diqqətlə dinləmisiniz.

İhsan Doğramacı: Sonra Ermənistan mövzusunda da çox gözəl cavab verdiniz. Dediniz ki, onlar bizim ərazimizi işğal ediblər. Yəni onu demək istədiniz ki, əgər lazım gəlsə, qeyri-sülh yolu ilə bu münaqişəni

həll edə bilərsiniz. Sizdən bu məlumatları aldılar.

Heydər Əliyev: Bəli, aldılar. "Ehkam" məsələsi beladir ki, onlar gəlmişdilər ki, söhbət edək. Amma mənə dedilər ki, bizim sizə suallarımız var. Mən də onlarla zarafat etdim. Dedim ki, Avropa Şurasına daxil olmaq üçün biz dörd il imtahanlardan keçmişik.

İhsan Doğramacı: Düzdür, belə də dediniz.

Heydər Əliyev: Dedim ki, biz imtahanlardan keçmişik, bütün imtahanları da vermişik. Ona görə də Avropa Şurasına qəbul olmuşuq. İndi Avropa Birliyi gəlibdir. Siz də bizi imtahan etmək istəyirsiniz. Dedim ki, suallarınızı verin. Hər halda çalışaram ki, burada da imtahandan keçim.

İhsan Doğramacı: Amma onlar bu imtahandan yaxşı qiymət almadılar.

Heydər Əliyev: Onu da deyim ki, o sualları ki, mənə verdilər, bu, həmin məsələlər haqqında fikirlərimi deməyə yaxşı imkan yaratdı.

İhsan Doğramacı: Çox yaxşı oldu.

Heydər Əliyev: Əgər o olmasaydı, mənim onlara "mühazirə" oxumağım yaxşı olmazdı.

İhsan Doğramacı: Onların özləri məruzə istədilər.

Heydər Əliyev: Onların hər bir sualı mənə imkan verdi ki, bu suallardan istifadə edib fikrimi bildirim.

İhsan Doğramacı: Orada hər millətdən - İtaliyadan, Yunanıstandan, Fransadan, Finlandiyadan nümayəndələr vardı. Hamısı orada idi.

Heydər Əliyev: Elədir. O "ehkam" məsələsini heç gözləmirdi. O sualların da heç birisini gözləmirdim. Nə bilirdim ki, mənə elə suallar veriləcək. Dedim, "ehkam" doğrudur. Biz 70 il "ehkam"ın içərisində yaşamışıq. Dedim ki, sizdə də ehkam olubdur. Faşizm ehkamı içərisində yaşamısınız. Ehkam təkcə bizimki deyil, həm də sizinkidir. Sizinki bizimkindən də təhlükəlidir.

İhsan Doğramacı: Çox düzgün demisiniz. Onlar gözləmirdilər belə sözbət alınsın.

Heydər Əliyev: Dedim ki, Almaniyada da faşizm vardı, İtaliyada da, İspaniyada da vardı. Nümayəndə heyətində italyanlar da, almanlar da vardı.

Çox yaxşı danışığımız oldu. Ekologiya haqqında da. Çünki ekologiya indi çox böyük bir problemdir.

İhsan Doğramacı: Dediniz ki, onların çox sevdikləri qara kürü tükənəcəkdir. Yaxşı balıqların nəsli kəsiləcəkdir.

Heydər Əliyev: Dedim ki, Xəzər dənizi indi beş ölkəyə mənsubdur. Hərə də bir tərəfdən balıq tutur, o biri tərəfdən də dənizi çirkləndirirlər. Yəni beş il belə getsə, onda sizin ən çox sevdiyiniz qara kürünü görməyəcəksiniz.

İhsan Doğramacı: Bəli.

Heydər Əliyev: Çox məmnunam ki, siz Azərbaycanla həmişə maraqlanırsınız. Azərbaycan televiziyası bu yaxın zamanlarda Türkiyəyə yayımlanmağa başlayıbdır.

İhsan Doğramacı: Harada olursa-olsun, istər televiziyada, istər Avropanın qəzetlərində olsun, mən Azərbaycan haqqında söhbət gedən materiallarla maraqlanıram.

Heydər Əliyev: Çox gözəl, çox gözəl.

Ayser xanım da, maşallah, çox yaxşıdır. Onu həmişə olduğu kimi, çox gözəl görürəm. Heç dəyişilmir. Heç sən də dəyişilmirsən, o də dəyişilmir.

İhsan Doğramacı: Mən bir az topal olmuşam. Amma həkimlər mənə dedilər ki, bu çəliyi iki həftədən sonra atacaqsan. Mənim də iki həftə gözləməyə səbrim çatmır, indi atmaq istəyirəm.

Heydər Əliyev: Əli də, maşallah, çox yaxşıdır. Heç deməzsən ki, xəstə olubdur. Yaxşı müalicə etdirmisiniz.

İhsan Doğramacı: Müalicə yaxşı oldu.

Əli Doğramacı: Çox sağ olun. Sizin verdiyiniz mənəvi dəstək sağalmağım üçün mənə qüvvət verdi. Təşəkkür edirəm.

Heydər Əliyev: Sağ olun. Çox sağ olun.

Əziz dostum, mən sənə və Ayser xanıma və bütün ailənizə bir daha təşəkkür edirəm. Bəzi adamlar doğum gününü böyük hadisə hesab edirlər. Amma mən bunu adi bir hadisə hesab edirəm. Mən burada kimisə dedim ki, mənim bir dəfə doğum günüb olubdur, Naxçıvanda. Orada biz çox ağır şəraitdə yaşayırdıq.

İhsan Doğramacı: Siz doğum günü deyirsiniz, biz isə anadan olma günü deyirik. Anadoluda doğum günü deyirlər.

Heydər Əliyev: Keçmişdə mən 50,55,60 yaşlarında olanda səhər işə gedirdim, unudurdum ki, mənim anadan olan günümdür. İşdən hər dəfə evə dönəndə xanımım, qızım məni qarşılayırdılar. Qapını açırdılar, qızım deyirdi ki, ata, səni təbrik edirəm.

İhsan Doğramacı: Ad günündür.

Heydər Əliyev: Yox, demirdi ad günündür, deyirdi təbrik edirəm. Deyirdim, nə üçün təbrik edirsən? O mənə deyirdi ki, bu gün sənin anadan olan günündür. Görürdüm ki, evdə xanımım müəyyən şeylər hazırlayıbdır. Mən heç bir qonaq, filan dəvət etməzdim. Amma həyatımda bir dəfə anadan olduğum günü qeyd etmişəm. O da Naxçıvanda. Biz orada çox ağır şəraitdə yaşayırdıq. Mənim də 70 yaşım tamam olmuşdu. Orada mənim ətrafımda olan adamlar dedilər ki, gəlin, bunu bir yerdə oturub qeyd edək. Dedim ki, mənda belə bir adət olmayıbdır, etməyəcəyəm. Dedilər ki, sən böyük vəzifələrdə olmusan, ona görə də olmayıbdır. Amma indi burada sadə adamlar toplaşıbdır. Toplaşdıq, ondan bir gün öncə Bakıdan da çox adam gəlmişdi.

İhsan Doğramacı: Naxçıvana?

Heydər Əliyev: Naxçıvana, məni təbrik etməyə. Məcbur oldum, onda

bir məclis düzəltdilər, Naxçıvanda da bir-iki yaxşı müğənni, mahnı oxuyanlar vardı. Naxçıvanın da özünəməxsus musiqisi var. Amma bundan başqa heç bir şey olmayıbdır. Yəni bununla onu demək istəyirəm ki, bu, mənim üçün böyük bir təntənə, filan deyildir. Amma siz oradan buraya gəlməyinizlə məni şərəfləndirdiniz. Çox sağ olun, təşəkkür edirəm.

Mən sizə demişəm, 85 yaşınızı bayram etdik.

İhsan Doğramacı: İndi 90 yaşını gözləyirik.

Heydər Əliyev: İndi 90-nı gözləyirsiniz? 4 il qalıbdır. 4 ildən sonra Azərbaycanda, yenə də...

İhsan Doğramacı: Yenə də Siz Prezidentsiniz.

Heydər Əliyev: Bəli, mən Prezidentəm. Əlbəttə ki, mən ömrümün axırına qədər Prezidentəm.

İhsan Doğramacı: Sizin sağlığınız, varlığınız Azərbaycan üçün, hər birimiz üçün bir nemətdir.

Heydər Əliyev: Ona görə də siz nə qədər yaşayacaqsınızsa, mən də o qədər yaşayacağam.

İhsan Doğramacı: Həyatda daim nikbin olmaq əsas şərtdir.

Heydər Əliyev: Elədir.

İhsan Doğramacı: Mən bütün həyatım boyu nikbin olmuşam.

Heydər Əliyev: Mən də nikbinəm. Baxmayaraq ki, mən həyatda, bilirsiniz, çox çətin yollardan keçmişəm, amma həmişə nikbin olmuşam. Heç vaxt ruhdan düşməmişəm. Ona görə dörd ildən sonra Azərbaycanda yubiley keçirərik. Ondan sonra da o yubileyi keçirəcəyik.

İhsan Doğramacı: İnşallah.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Azərbaycana xoş gəlmisiniz. Sizin bu günlərdə Azərbaycanda olmağınızdan çox məmnunam. Mən bilirəm ki, siz bu günlər Azərbaycan Silahlı Qüvvələrinin, ordumuzun bəzi hissələrində olmusunuz. Buna görə təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri bütün sahələri əhatə edir, Allaha şükürlər olsun ki, bütün sahələrdə inkişaf edir.

Mən bu ilin mart ayında Türkiyədə rəsmi səfərdə olarkən Türkiyədə bir çox görüşlər keçirdim. Təbiidir ki, hörmətli Prezident Əhməd Necdət Sezərlə, Baş nazir, hörmətli Bülənd Ecevitlə, Baş nazirin müavinləri ilə, Baş Qərargah rəisi, hörmətli Hüseyn Kıvrıkoğlu ilə və digərləri ilə görüşlər keçirdim. Böyük Millət Məclisində nitq söylədim. Mən orada da, başqa görüşlərimizdə də Azərbaycanın Türkiyə ilə əlaqələrinə nə qədər qiymət verdiyimizi və bu əlaqələrin bizim üçün nə qədər əziz olduğunu bir daha bəyan etdim. Yəni bəlkə bunları təkrar etməyə o qədər də ehtiyaz yoxdur. Çünki Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bizim Türkiyə ilə əlaqələrimiz xüsusi xarakter, prioritet xarakter daşıyır. Yəni bu, strateji əməkdaşlıq xarakteri daşıyır. Amma eyni zamanda bunları vaxtaşırı deməklə, insanlara, cəmiyyətə, millətimizə çatdırmaqla biz bu dostluğu, qardaşlığı daha da möhkəmləndiririk.

Bizim Türkiyə ilə əməkdaşlığımızın bir sahəsi də budur ki, siz artıq bir neçə ildir, Azərbaycan Silahlı Qüvvələrinə təlim məsələsində yardım edirsiniz. Mən bunu çox yüksək qiymətləndirirəm. Yəni biz bu sahədə ancaq Türkiyə ilə əməkdaşlıq edirik. Başqa heç bir ölkə ilə bu sahədə əməkdaşlığımız yoxdur. Hesab edirəm ki, sizin həm baş qərargah rəisinin, həm də ondan aşağı vəzifələrdə olan, çalışan insanların vaxtaşırı Azərbaycana gəlməsi, buradakı işlərin vəziyyəti ilə tanış olması bizim üçün çox əhəmiyyətlidir. Ona görə təşəkkür edirəm və çox məmnunam ki, siz buradasınız və mən də sizinlə görüşürəm.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının əməliyyat rəisi, korpus generalı **Köksal Karabay** dedi:

- Hörmətli Cümhurbaşkanım, sağ olun. Mən bugünkü böyük bayramınızı ürəkdən təbrik edirəm. İnşallah, bu bayram illərlə yaşayacaqdır.

Cənab Prezident, Sizin çox gözəl bir kəlamınız var: Biz bir millət, iki dövlətik. Biz hər şeyi bu şəkildə düşünürük və işbirliyimiz də bu çərçivədə həyata keçirilir.

Mən beş il bundan öncə, Engin Paşa burada attaşe olarkən Bakıya gəlmişdim. Beş ildən sonra, indi Azərbaycanda istər iqtisadi, istər siyasi sahədə, istərsə də silahlı qüvvələrdə çox böyük inkişaf gördüm. Türkiyə və Azərbaycan vətəndaşları Sizin söylədiyiniz kimi, böyük bir millət olaraq, birgə çox gözəl çalışmışlar, böyük inkişaf əldə etmişlər. Türkiyə ilə Azərbaycanın qardaşlığı hər zaman davam edəcəkdir.

Cənab Prezident, mən hörmətli baş qərargah rəisimizin salamlarını, hörmət və ehtiramını Sizə çatdırıram. Çox sağ olun.

Mən bizə göstərilən qonaqpərvərlik və səmimi qəbul üçün də Sizə dərin minnətdarlığımızı bildirirəm.

Heydər Əliyev: Çox təşəkkür edirəm. Sizin bu fikriniz mənim üçün çox əhəmiyyətlidir. Çünki Azərbaycan bir müstəqil dövlət kimi gəncdir və ordumuz da, silahlı qüvvələrimiz də gəncdir.

Siz bilirsiniz ki, Azərbaycan keçmişdə Sovetlər Birliyində olanda hər bir cümhuriyyətin, - Sovetlər Birliyinə 15 cümhuriyyət daxil idi, o cümlədən Azərbaycan, - öz ordusu yox idi. Bir ordu var idi - sovet ordusu. Azərbaycanın da hansı ki, orduda

xidmət etmək yaşına çatan vətəndaşları gedib orada xidmət edirdilər. Amma bəzi azərbaycanlılar da hərbi məktəblərdə, akademiyalarda təhsil alıb, sovet ordusunun müxtəlif yerlərində xidmət edirdilər. Biz ildə 60-70 min gənci sovet ordusuna göndərirdik. Onda orduda iki, üçillik xidmət müddəti var idi. Ancaq hərbi ali məktəblərdə oxumaq və peşəkar hərbçi olmaq, xidmət etmək - azərbaycanlılarda buna maraq o qədər də çox deyildi. Məsələn, burada, Azərbaycanda sovet ordusunun bir çox böyük hissələri dururdu. Amma hamısında başqa millətlərin nümayəndələri xidmət edirdi, içində bir-iki nəfər azərbaycanlı var idi.

Məsələn, indi görürsünüz, general Ağahüseynov çox az-az insanlardan biridir ki, o vaxtlar orduda müxtəlif yerlərdə xidmət etmişdir. Sonra da Berlində, Stalinqradda hava hücumundan müdafiə qüvvələrində xidmət edibdir. Sonra mən Azərbaycana rəhbərlik edən zaman dedim ki, bir azərbaycanlı da gəlsin. Ondan öncə bizim həmin o sahə üzrə bir generalımız vardı - Hüseyn Rəsulbəyov, o da burda hava hücumundan müdafiə qüvvələrində xidmət edirdi. Bunlar çox az idilər. Elə bizim müdafiə nazirimiz də o azlıqların içində olan bir adamdır ki, gedib Moskvada Hərbi Akademiyanı bitirmişdi, haradasa xidmət edirdi.

Mən o vaxt Azərbaycana rəhbərlik edəndə çox düşünürdüm ki, nə üçün azərbaycanlılardan elm adamları var, mədəniyyət adamları var, alimlər var, mühəndislər var, yəni bütün sahələrdə - sənayedə, başqa sahələrdə çalışan çox dəyərli insanlarımız var, amma orduda yoxdur? Ona görə də çalışırdım ki, bizim Azərbaycanın gənc insanlarını hərbi məktəblərə daha çox cəlb edim. Çünki birincisi, onların özündə o qədər həvəs yox idi. İkincisi, bir neçə çətinliklər də var idi. Hərbi məktəbdə oxumaq üçün gərək rus dilini biləydin. Rus dilini isə bizdə bilənlər çox idi, amma bilməyənlər də çoxdur. Demək, əgər rus dilini bilmirsə, o, hərbi məktəbə girə bilməzdi. Siz bilirsiniz ki, gərək fiziki hazırlıq olsun. Orada komissiyalar, filanlar baxırdılar. Üçüncüsü də, bəziləri rus dilini azçox bilirdi, fiziki hazırlığı da var idi, amma bizimkiləri o qədər də qəbul etmirdilər. Mən bu işlərlə çox məşğul olurdum.

İndi mənə dedilər, siz hərbi litseydə, Naxçıvanski adına Hərbi Məktəbdə olmusunuz. Mən onu 70-ci illərdə yaratdım. O vaxtlar bu, Sovetlər Birliyində ilk şey idi. Moskvadan mənə çox iradlar tutdular ki, bu, nəyə lazımdır, nə istəyirsən? Yəni bunlar hamısı Sovetlər Birliyinin Müdafiə Nazirliyinin tərkibində olmalıdır. Amma mən bunu Müdafiə Nazirliyinin xaricində yaratdım. Onlar da dedilər ki, bu, qanunsuzdur. Moskvadan bir neçə dəfə gəldilər, araşdırdılar. Məni məcbur edirdilər ki, bunu bağlayım. Dedim, olmaz. Bunu nə üçün etdim? Çünki onillik məktəbdir, məqsədim yeddinci sinifdən sonra buraya gələn uşaqlara üç il ərzində həm rus dilini öyrətmək, həm də hərbi peşəyə həvəs oyatmaq, onları fiziki cəhətdən hazırlamaq, sonra isə hərbi ali məktəblərə göndərmək idi.

Burada iki hərbi məktəb var idi. Biri Ümumkomandirlər Məktəbi, biri də Hərbi Dənizçilik Məktəbi idi. Hərbi Dənizçilik Məktəbi Sovetlər Birliyində öz səviyyəsinə görə ikinci yerdə duran məktəb idi. Biri Leninqradda idi, ikincisi burada. Başqa yerlərdə də var idi. Amma bu, çox güclü bir məktəb idi. Mən məktəblərə getdim, görüm, burada nə qədər azərbaycanlı var. Ümumkomandirlər Məktəbinə ildə 350 nəfər daxil olunurdu. Neçə azərbaycanlı qəbul olunurdu - 15-20 nəfər. Qalanları kim idi - SSRİ-nin digər millətlərindən. Sonra Hərbi Donanma Məktəbinə getdim ki, görüm orada ildə neçə azərbaycanlı qəbul olur. Bir, ya iki nəfər... Bəs müəllimlərdən kim var? İki-üç nəfər. Dedim ki, belə şey olmaz, gərək azərbaycanlılar da daxil olsunlar. Amma mənə deyirdilər ki, azərbaycanlılar imtahan verə bilmirlər. Ona görə də mən bu litseyi yaratdım ki, bundan gələcəkdə istifadə edək. Amma burada çalışdığım son illərdə, - mən Moskvaya 1982-ci ildə getdim, - artıq buradakı hərbi məktəblərin kursantlarının 50 faizindən çoxu azərbaycanlılar idi. Hətta Moskvadan şikayət edirdilər ki, siz bu məktəbləri əlinizə keçirmisiniz. Şikayət edirdilər.

Təbiidir, mən o vaxtlar birincisi, istəyirdim ki, azərbaycanlılar hər yerdə olsun. İkincisi də, düşünürdüm ki, nə vaxtsa bizə öz milli ordumuz lazım olacaqdır. Ona görə də mən bu işləri etdim. İndi görünür ki, bunları düz etmişəm. İndi bunlar lazımdır.

Bizim milli ordu yarananda kadrlarımız olmamışdır. O kadrlar, hansılar ki, Rusiyanın məktəblərində oxumuşlar, gəlmişlər, amma bir qismi də gəlməmişdir. Sonra bilirsiniz ki, Azərbaycanda sabitlik olmamışdı. Ermənistan ilə savaş gedirdi. Ona görə də bu dövr çox çətin, ağır bir dövr idi. Amma indi biz sizin yardımınızla bu işlərlə məşğul oluruq. Mənə belə gəlir ki, siz həmin hərbi məktəblərdə oldunuz, gördünüz. Hər halda indi beş ildən sonra gəlib gəyişikliklərə görürsünüz, sizin qiymətiniz mənim üçün çox əhəmiyyətlidir, önəmlidir. Çünki mən çox sıxılıram. Nazirə də deyirəm, bunu etmədin, onu etmədin. Amma siz gəlib deyəndə ki, beş il müddətində inkişaf var, bu, məni sevindirir. Amma mən yenə də narazıyam. Yenə də hesab edirəm ki, bu, yetərlidir. Yetərli deyil, hələ çox iş görmək lazımdır.

Köksal Karabay: Hörmətli Cümhurbaşkanım, biz Müdafiə nazirliyinizlə çox gözəl işbirliyi həyata keçiririk. Hər şeyi bir gündə etmək mümkün deyil, insanı yetişdirməyin özü zaman, vaxt tələb edir. Amma bu gün Azərbaycanın ordusu var. Dünya standartlarına uyğun hərbi məktəbi

var, bu il ilk məzunları olacaqdır. Hərbi məktəblərdə Azərbaycanın özünün müəllimləri var. Bu, gələcəkdə daha da gözəl olacaqdır. Azərbaycanın Hərbi Akademiyası var. Ali təhsilli hərbçilər yetişdirir. Azərbaycanın Milli Təhlükəsizlik nazirliyinin akademiyası var. İnşallah, bu il Azərbaycanda piyadalar, topçular, tankçılar üçün məktəblər yaradacağıq. Bunlar daxili qoşunlar, sərhəd qoşunları və Müdafiə nazirliyinə bağlı hərbi hissələr üçün də olacaqdır. Azərbaycanın komandirləri var, gözəl silahlı qüvvələri var. Ümumiyyətlə, hər şey bəllidir. Sizin söylədiyiniz müstəqil ordu quruldu. Amma təbii ki, inkişafın sərhədi yoxdur.

Ona görə də biz bu gözəl işbirliyimizi davam etdirəcəyik. Amma indi Sizin söylədiyiniz kimi, Azərbaycan hər şeyə milli ordusu, məktəbləri ilə başladı. Biz də bundan böyük iftixar, qürur duyuruq. Mən burada olarkən qardaş ölkədəki gözəl inkişafdan çox sevindim, məmnun oldum.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm.

Əldə etdiyimiz bütün bu nailiyyətlərə görə, bizə göstərilən yardıma görə mən Türkiyə Cümhuriyyətinə təşəkkür edirəm. Türkiyə ordusuna, xüsusən, Baş Qərargah rəisinə, sizlərə, generalınıza - hamısına təşəkkür edirəm. Güman edirəm ki, bu işbirliyi bundan sonra daha da sürətlə davam edəcəkdir.

Dediniz ki, bu gün bayram günüdür. Bəli, bu da tarixi bir gündür. Səkkiz il bundan öncə mənim Azərbaycana rəhbərlik, başkanlıq etməyim günüdür. Doğrudur, mən hesab etmirəm ki, bu, böyük bir hadisədir. Çünki mən keçmişdə də, sovet vaxtında Azərbaycana 14 il rəhbərlik etmişdim. Ancaq 1993-cü ildə Azərbaycan dağılırdı. Bunu bilirsiniz. Dağılırdı, parçalanırdı. Ola bilərdi ki, Azərbaycan olmasın. Amma xalq məni tələb etdi, əldim. Çox böyük imtahanlardan keçdik, sınaqlardan keçdik. İndi Azərbaycan müstəqil bir dövlət kimi ayaq üstə möhkəm dayanır. Siz dediyiniz kimi, iqtisadi cəhətdən inkişaf edir, hər şey inkişaf edir. Bundan sonra da inkişaf edəcəkdir.

"Azərbaycan" qəzeti, 17 iyun 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 5-də Prezident sarayında Türkiyənin Dövlət naziri Əbdülxalıq Çayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan respublikamızın rəhbəri Heydər Əliyev Türkiyənin Dövlət naziri ilə yenidən görüşündən məmnunluğunu

ifadə etdi.

Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinə toxunan dövlətimizin başçısı Heydər Əliyev Xaçmaz rayonunda yaradılmış Azərbaycan - Türkiyə Toxumçuluq və Araşdırma Təsərrüfatlarının bu əlaqələrin inkişafına daha bir nümunə olduğunu vurğuladı və təsərrüfatın yaradılmasına yaxından kömək etdiyinə görə Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyinə (TİKA) təşəkkürünü bildirdi.

Səmimi qəbul üçün minnətdarlıq edən Türkiyənin Dövlət naziri Əbdülxalıq Çay yeni təsərrüfat imkanlarından məhsul bolluğu yaradılması və əhalinin məşğulluğu sahəsində əhəmiyyətindən söhbət açdı.

Görüşdə iştirak edən Azərbaycanın Kənd Təsərrüfatı naziri İrşad Əliyev respublikamızın rəhbərinə məlumat verdi ki, yeni təsərrüfatda Azərbaycanda və Türkiyədə yetişdirilən taxıl sortlarından istifadə edilməsinin yüksək səmərəsi olmuşdur. Nazir bildirdi ki, bu il ölkəmizdə taxıl istehsalının 1 milyon 750 min tona çatdırılacağı gözlənilir. Bu yüksək göstərici, əsasən, akademik Cəlal Əliyevin yetişdirdiyi yüksək məhsuldarlığa malik buğda sortları hesabınadır. Eyni zamanda Prezident Heydər Əliyevin rəhbərliyi altında aqrar islahatların uğurlarına daha bir sübutdur.

Prezident Heydər Əliyev son illər sovet dövründə Azərbaycanda o qədər də geniş yer verilməyən taxılçılığın inkişafını torpağın əsl sahibinə çevrilmiş kəndlinin sərbəst surətdə istədiyi məhsulu əkib-becərməsi üçün yaradılmış əlverişli şəraitlə əlaqələndirdi. Qeyd olundu ki, indi elmi əsaslarla yetişdirilən məhsuldar sortlar hesabına ölkəmizin taxıla olan tələbatı ödənilir.

Yerli sortlarla Türkiyə sortlarının yanaşı əkilməsini və sınaqdan çıxarılmasını təqdirəlayiq hal kimi dəyərləndirən Prezident Heydər Əliyev bloklarda şəraitində yaşayan Naxçıvanda yetişdirilən kənd təsərrüfatı məhsullarının Türkiyə ərazisində sağışına yaradılan şəraitə görə qardaş ölkənin dövlət və hökumət rəhbərlərinə təşəkkürünü bildirdi.

Söhbət zamanı Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyinin Azərbaycanda görəcəyi işlər və digər məsələlər barəsinə də geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ CÜMHURİYYƏTİ QURU QOŞUNLARININ KOMANDANINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 17-də Prezident sarayında Türkiyə Cümhuriyyəti Quru Qoşunlarının komandanı, ordu generalı Atilla Atəşi qəbul etmişdir. Dövlətimizin başçısı **Heydər Əliyev** qonağı salamlayaraq dedi:

- Hörmətli general, hörmətli dos-

tanımız!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Mən sizin Azərbaycana səfərinizdən Çox məmnunam. Çünki Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri bütün sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində də inkişaf edir. Təbiidir ki, sizin azərbaycana gəlməyiniz və buradakı vəziyyətlə tanış olmağınız bizim əməkdaşlığımızı daha da irəli aparmağa imkan verəcəkdir. Səmimi qəbul üçün təşəkkür edən Türkiyə Cümhuriyyəti Quru Qoşunlarının komandanı, ordu generalı **Atilla Ataş** dedi:

- Möhtərəm Prezident, sizə məlum olduğu kimi, mən qardaş Azərbaycan respublikasının Müdafiə naziri general-polkovnik Səfər Əbiyevin dəvəti ilə Azərbaycana gəlmişəm. Təbii ki, burada, sizin sərrast ifadənizlə desəm, "bir millət, iki dövlət"dən biri olan Azərbaycanda olmaqdan böyük şərəf duyuram. Hədsiz məşğul olmağınıza baxmayaraq, vaxt tapıb məni qəbul etdiyiniz üçün sizə son dərəcə minnətdaram. Bu səfər zamanı biz həm nazir Əbiyevlə ölkələrimiz arasında müdafiə və ordu quruculuğu sahəsində fikir mübadiləsi aparmaq, həm də burada işləyən dostlarımızın fəaliyyətini görmək imkanı əldə etdik. Vaxt tapıb məni qəbul etdiyiniz üçün bir daha təşəkkürümü bildirirəm. Azərbaycan Prezidenti **Heydər Əliyev** qonağa təşəkkür edərək dedi:

- Çox sağ olun. Bu günlərdə Türkiyənin Prezidenti hörmətli Əhməd Necdət Sezər Azərbaycana gəldi. O, Türkiyə Prezidenti seçildikdən sonra ilk xarici səfərini Azərbaycana etdi. Biz bunu gözləyirdik, bu səfərdən çox sevindik. Gördük ki, ölkələrimiz arasındakı münasibətlər eyni səviyyədə davam edir. Möhtərəm Prezident Sezər burada bəyan etdi ki, şəxsiyyətlər dəyişsə də Türkiyə-Azərbaycan münasibətləri dəyişməyəcək. Dövlət öz siyasətini dəyişməz. Türkiyə ilə bizi çox qüvvətli tellər bağlayır. Onlar heç vaxt qırıla bilməz, əksinə, daha da möhkəmlənə bilər.

Səmimi sözlərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən ordu generalı **Atilla Ataş** dedi:

- Möhtərəm Prezident, siz son dərəcə təcrübəli siyasətçi və dövlət adamı kimi hər zaman bu həqiqətləri dilə gətirirsiniz. Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər birtərəfli deyil, çoxşaxəlidir. Bütün sahələrdə - siyasi, iqtisadi, hərbi sahələrdə möhkəm əməkdaşlüümız mövcuddur. Qardaş Azərbaycanı ziyarət etmək bizim üçün həqiqətən bəxtiyarlıqdır. Mənə belə bir imkan verdiyiniz üçün sizə bir daha dərin təşəkkürlərimi bildirirəm.

Heydər Əliyev: Siz Azərbaycana ilk dəfə gəlirsiniz?

Atilla Ataş: Bəli.

Heydər Əliyev: Türkiyə ordusunun Baş Qərargah rəisi hörmətli Hüseyn Kıvrıkoğlu Azərbaycanda olmuşdur. O, keçmişdə bir dəfə hörmətli Süleyman Dəmirəllə bərabər

gəlmişdi. O, Azərbaycanı tanıyır. İndi siz də gəlib tanış oldunuz.

Atilla Ataş: İcazə versəniz, hörmətli Kıvrıkoğlunun sizə salamlarını yetirərdim.

Heydər Əliyev: Çox sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 19-da Prezident sarayında Türkiyənin Kənd Təsərrüfatı naziri professor, doktor Hüsnü Yusif Gökalpın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin rəhbəri Heydər Əliyev dedi:

- Hörmətli nazir!

Hörmətli qonaqlar! Azərbaycana xoş gəlmisiniz. Hər belə səfər türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsi üzün zox fayda verir. Mən sizin bu səfərinizi yüksək qiymətləndirirəm. Bilirəm ki, burada bir zox işlər görmüsünüz, müştərək komissiyanın iclasını kezirmisiniz. Mən sizin proqramınıza baxdım.

İrşad Əliyev /azərbaycanın Kənd Təsərrüfatı naziri/: Cənab Prezident, Türkiyənin nümayəndə heyətindən və bizim yerli adamlardan ibarət qruplar rayonlara gedəcəklər. Biz Bakıda işçi komissiyasının iclasını kezirdik və protokol imzaladıq.

Heydər Əliyev: Hansı rayonlara gedəcəklər?

İrşad Əliyev: Cənab Prezident, sabah burada müəyyən işlər görüləcək, qonaqlarımız kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan texnika ilə,

Respublikamızın elmi araşdırma mərkəzləri ilə tanış olacaqlar.

Heydər Əliyev: Rayonlara gedəcəksiniz, yoxsa yox?

İrşad Əliyev: Bəli, qonaqlarımız Xaçmaz, Quba, Qusar rayonlarını ziyarət edəcəklər.

Heydər Əliyev: Türkiyənin hörmətli Dövlət naziri yaxınlarda Bakıya səfəri zamanı Xaçmaza getmişdi. Orada çox gözəl birgə Kənd Təsərrüfatı müəssisəsi vardır. Türkiyə ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsindəki əməkdaşlığın böyük əhəmiyyəti vardır. Çünki biz bir zox baxımdan eyni iqlim şəraitindəyik və eyni bitkilər becəririk. Sizdə də, bizdə də heyvandarlıqla məşğul olurlar. Biz vaxtilə böyük miqdarda pambıq əkirdik, isteshal edirdik, indi çox azalıbdır. Çoxlu üzüm istehsal edirdik. Çünki kezmişdə Sovetlər İttifaqına şərab istehsal etmək üçün çoxlu özüm lazım idi. İndi bu da azalıbdır. Biz əvvəllər az taxıl əkirdik. Çünki SSRİ dövründə, Sovetlər İttifaqı dövründə ixtisaslaşdırma var idi və harada nə əkiləcəyi qabaqcadan planlaşdırılırdı.

Yəqin siz bilirsinz, indi biz artıq hər şeyi özəlləşdirmişik, kəndlilər,

fermerlər onlar özün nə əlverişlidir, onu da əkirlər. Bu, həm onlar üçün, həm də bizim özün faydalıdır. Onlar əkdikləri şeydən gərək qazanc, fayda götürsünlər. Amma onların əkdikləri, becərdikləri, eyni zamanda bizə lazımdır. Mən hesab edirəm ki, bizdə kənd təsərrüfatı sahəsi, bəlkə də, hələ istədiyimiz səviyyəyə gəlib zatmayıbdır. Ancaq bu yol - torpaq islahatı, özəlləşdirmə, torpağın, heyvanların, hər şeyin kəndlilərə verilməsi bizi zox irəli aparır. Sizin bu sahədə təcrübəniz zoxdur. Çünki sizdə hez vaxt torpaq dövlətə mənsub olmayıbdır, ümumiləşdirilməyibdir, kolxoz, sovxoz olmayıbdır. Amma bir vaxt sizdə dövlət təsərrüfatları da var idi. Bilmirəm, indi var, yoxdur.

Hüsnü Yusif Gökalp: Cənab Prezident, var.

Heydər Əliyev: Çünki mən Naxçıvanda yaşayarkən oradan avtomobil ilə Ankaraya gedəndə görmüşəm. Gərək ki, aralıqda bir dövlət təsərrüfatı var, mən orada olmuşam, hələ bir gecə də onların otelində qonaq qalmışam. Amma bizdə dövlət təsərrüfatı daha yoxdur. Biz hamısını dağıtdıq. Mən təşəkkür edirəm ki, siz vaxt tapıb respublikamıza gəlmisiniz. Hər halda sizin təcrübəniz və buradakı müşahidələriniz bizim üzün çox əhəmiyyətlidir.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Türkiyənin Kənd Təsərrüfatı naziri **Hüsnü Yusif Gökalp** dedi:

- Hörmətli Cümhurbaşkanım, çox sağ olun. Bizi qəbul etdiyiniz üzün sizə təşəkkür edirəm. Bizim nümayəndə heyətimizin tərkibində Türkiyənin Kənd Təsərrüfatı və Xarici İşlər nazirliklərinin nümayəndələri, millət vəkilləri, özəl sektorun 20-yə qədər təmsilzisi vardır. Biz Azərbaycan Kənd Təsərrüfatı nazirinin dəvəti ilə Bakıya səfər etmişik və buraya gəldiyimiz andan etibarən özümüzü ölkəmizdəki kimi hiss edirik.

Azərbaycan ilə Türkiyə iki qardaş ölkədir. Sizin Türkiyə Böyük Millət Məclisindəki gözəl nitqinizdə dediyiniz hər bir söz mənim yaxşı yadımdadır. Biz Türkiyə parlamentində sizin dəyərli nitqinizi böyük maraqla dinlədik.

Biz uzun illər sizin rəhbərliyiniz sayəsində Azərbaycanın Kənd Təsərrüfatında qazanılmış inkişafı gördük və 1969-cu ildən sonra görülmüş işləri yada saldıq, Bakıdakı Şampan zavoduna getdik, bu zavodla yaxından tanış olduq. Mən bir mütəxəssis kimi dünyanın əksər ölkələrini gəzmişəm və gəzirəm, amma belə bir gözəl zavodu heç bir yerdə görməmişəm, lakin burada gördüm. Həmin zavod sizin ölkənin aqrar sənayesi üzün bir örnəkdir. Siz 1978-ci ildə bu zavodun tikilməsinə qərar vermisiniz və belə bir gözəl müəssisə iki il ərzində tikilib tamamlanmışdır. Biz eyni zamanda Azərbaycanda bitkiçilik, heyvandarlıq, toxumçuluq, kənd təsərrüfatının mexanikləşdirilməsi sahələrində olan yenilikləri gördük.

Sizin ölkədə bitki, heyvan xəstəlikləri ilə çox həssaslıqla mübarizə aparırlar. Azərbaycanda kənd Təsərrüfatı sahəsində əldə edilmiş nailiyyətlər çox önəmlidir. Respublikanızda bir sıra məhsulların xarici ölkələrə ixrac edilməsi də zox əhəmiyyətlidir. Biz də Türkiyədə kənd təsərrüfatı ilə bağlı görülən bütün işlərə çox önəm veririk.

Cənab Prezident, sizin ölkədə iş görən türkiyəli iş adamları ilə, və azərbaycanlı qardaşlarımızla bizim zox faydalı görüşlərimiz oldu. Biz çox əhəmiyyətli bir protokol imzaladıq. Həmin mərasimdə həm azərbaycanlı, həm də türkiyədən gələn iş adamları iştirak edirdilər. Hörmətli nazirinizlə biz orada zıxış etdik, onların ehtiyaclarını ödəyəcəyimizə və onlara geniş imkanlar yaradacağımıza söz verdik. Mərasimdə iş adamları da çıxış etdilər və onlara göstərilən qayğıdan razılıqla söhbət açdılar. Türkiyədən gəlib burada 7-8 ildən bəri ticarətlə məşğul olanlar var. Onlar da həmin mərasimdə çıxış etdilər və bir sıra məsələlərə toxundular. Hörmətli nazirinizə təşəkkür edirəm ki, iş adamlarına çox gözəl cavablar verdi. İmzaladığımız protokolda kənd təsərrüfatı sahəsində biliklərin artırılması, torpaqdan daha səmərəli istifadə edilməsi, uyğun toxum yetişdirilməsi məsələləri öz əksini tapıbdır. Biz qərara almışıq ki, iki qardaş ölkənin alimləri və mütəxəssisləri birlikdə araşdırmalar aparsınlar. Biz bu işə xüsusi önəm veririk. Bu gün Avropada bir sıra heyvan xəstəlikləri mövcuddur. Çox şükür ki, Türkiyədə heyvan xəstəlikləri yoxdur. Biz xəstəliklərin qarşısını vaxtında almaq özün zox önəmli tədbirlər görürük. Türkiyənin bəzi bölgələrində mövcud olan dabaq xəstəliyini dərhal nəzarət altına almışıq. Biz azərbaycanlı həmkarlarımızla bu sahədə də birgə işlər görməyi qərara almışıq. Türkiyədə çox gözəl bir institut var. Orada çox yaxşı tədqiqatlar aparılır. Hörmətli nazirinizlə biz sabah bir sıra elmi-tədqiqat institutlarında olacağıq. Dövlət naziri Əbdülxalıq Çay TİKA-nın başkanı ilə bir həftə öncə buraya gəlmişdi. Türkiyədə yetişdirilən bəzi toxumların azərbaycanda tətbiq edilməsi üçün müəyyən işlər görülür. Bu, mənim Azərbaycana ikinci səfərimdir. Mən 1997-ci ildə də buraya gəlmişdim. O zaman Bakıda bir çox universitetləri ziyarət etdim, konfranslarda çıxış etdim, Azərbaycan universitetləri ilə Türkiyə universitetləri arasındakı tələbə mübadiləsinin inkişaf etdirilməsi, dərslərin səviyyəsinin yüksəldilməsi məsələlərindən danışdım. Öz gözlərimlə gördüm ki, o gündən indiyə qədər, ötən üç il altı ayda Azərbaycanda zox gözəl inkişaf var. Mən bundan çox böyük fərəh duydum.

Dünən mən millət vəkillərimizlə birlikdə heç kimə xəbər vermədən - burada mətbuat nümayəndələri var, onların xəbərləri olacaq - küçələri gəzdik. Hətta gedib bir yerdə oturub çay içdik. Çox məmnun oldum, ifti-

xar hissi keçirdim. Mən sevgili azərbaycanlılara dərin minnətdarlığımı bildirirəm. Son iki ildir biz Türkiyədə kənd təsərrüfatı sahəsində köklü dəyişikliklər aparırıq, islahatlar həyata keçiririk. Biz özəl sektoru kənd təsərrüfatına cəlb etmək istəyirik. Dövlətin əlində olan bəzi sahələri onlara verməyə çalışırıq. Türkiyədə 38 dövlət təsərrüfatı vardır, onların təməli Atatürk dövründə qoyulmuşdur. O zaman Atatürk bunları toxumçuluğu, heyvandarlığı inkişaf etdirmək məqsədi ilə qurmuş, yaratmışdı. Amma indi onların fəaliyyəti tamamlandı. Biz inkişafa çatdıqdan sonra mən dedim ki, torpağı özəlləşdirib dövlət təsərrüfatı ilə özəl sektorun birgə istifadəsinə verək. Fikrimcə, torpağın üzərində çoxlu binalar tikməkdənsə, kənd təsərrüfatını daha da dirçəltmək lazımdır. Bir sıra böyük şirkətlər bu sahədə işə başladılar. "Qoç" şirkəti Şərqi anadoluda heyvandarlığın inkişafında çox böyük rol oynayacaq bir mərkəz yaradır. Eləcə də digər böyük şirkətlər bir sıra işlər görürlər. Biz elmi mərkəzləri də özəl sektora veririk. Cənab Prezident, sizin bəhs etdiyiniz və gedib gördüyünüz dövlət təsərrüfatı bizim böyük təsərrüfatlarımızdan biridir.

Heydər Əliyev: Elədir.

Hüsnü Yusif Göxalp: Bilirsiniz ki, həmin təsərrüfat çox strateji yerdə - Türkiyənin Ermənistanla, İranla və Azərbaycan ilə sərhədində yerləşir. Biz orada çox mühüm bir layihə həyata keçiririk. İnşallah, onun yüksək səviyyədə azılışını edəcəyik.

Mən Naxçıvan barədə də bir neçə söz demək istəyirəm biz oraya nümayəndə heyətləri göndərdik, təhsilin, elmin vəziyyəti ilə tanış olduq, bir çox işlərə kömək etmək istəyirik. Bu sahədə heç bir sıxıntı olmayacaqdır. Çox dəyərli Prezidentim, mən hörmətli Cümhurbaşqanımızın, Baş nazirimizin və Milliyətçi Hərəkat Partiyasının sədri, Baş nazirin müavini Dövlət Baxçalının sevgilərini, məhəbbətlərini, salam və ehtiramlarını Sizə çatdırıram. Sizin söylədiyiniz kimi, biz eyni millətin iki dövlətiyik. Sizin fikirləriniz biz nazirlər üçün hər zaman örnək olmuşdur və bu, davam edəcəkdir.

Keçən dəfə mən Azərbaycana gələndə Gəncəyə qədər getdim. Gəzdiyim yerlərdə çox gözəl şeyləri gördükcə, sizin nələr etdiyinizi, sanki, əzbərləmişəm. Qoyduğunuz bünövrədən bu millət dünən də bəhrələnib və bu gün də bəhrələnir. Bizim buradakı səfirimiz böyük səylə çalışır. Azərbaycanın Ankaradakı böyük elçisi də gözəl çalışır. Hörmətli nazirinizlə dostluğumuz, çox yaxın qardaşlığımız var. Çox təşəkkür edirəm, sağ olun. Bizi qəbul etdiyiniz üçün Sizə minnətdarıq.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN BAŞ QƏRARGAH RƏİSİ HÜSEYN QIVRIQOĞLUNU QƏBUL ETMİŞDİR

Dövlətimizin başçısı **Heydər Əliyev** hörmətli qonağı mehribanlıqla salamlayaraq dedi:

- Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi hörmətli Cənab Hüseyn Qıvrıqoğlu, mən Sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Azərbaycanın müdafiə naziri Səfər Əbiyevin dəvətini qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə Sizə təşəkkür edirəm.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, strateji əməkdaşlıq münasibətləri ilbəil inkişaf edir. Biz bütün sahələrdə çox geniş əməkdaşlıq edirik. Bizim dostluğumuz, qardaşlığımız, dəfələrlə dediyimiz kimi, həm gündən-günə möhkəmlənəcək, bərkiyəcək, həm də əbədi olacaqdır. Bizim buna heç də şübhəmiz yoxdur. Ancaq eyni zamanda bunun özü bir prosesdir. Bu prosesdə gərək daim hansısa hərəkətverici qüvvələr olsun. Ona görə də həm Türkiyədən Azərbaycana Cümhurbaşkanının, nazirlərin, başqa şəxslərin və xüsusilə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin - Sizin səfəriniz eyni zamanda Azərbaycandan Türkiyəyə Azərbaycan Prezidentinin səfəri, başqa dövlət adamlarının səfərləri - bunlar həmişə bizim əlaqələrimizi daha da surətdə inkişaf etdirməyə şərait yaradır.

Türkiyə Respublikası ilə Azərbaycan arasındakı əlaqələrin bir hissəsi də bizim hərbi sahədəki əməkdaşlığımızdır. Biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan Ordusunun formalaşmasında, təhsil-təlim işlərinin təşkilində və müasir tələblərə cavab verən səviyyəyə çatmasında Türkiyə Silahlı Qüvvələrinin çox böyük rolu vardır. Biz bunu çox yüksək qiymətləndiririk. Güman edirəm ki, Sizin bu səfəriniz zamanı bizim gələcək işlərimiz haqqında da fikir mübadiləsi aparacağıq. Bu da ondan ibarətdir ki, bu əlaqələr daha da inkişaf etməlidir və genişlənməlidir. Buna görə də mən Sizin bu səfərinizi çox yüksək qiymətləndirirəm.

Sizin səfəriniz ərəfəsində və Azərbaycanda olduğunuz zaman "Türk ulduzları"nın Azərbaycan səmasında görünməsi də çox əlamətdar bir hadisədir. Çünki birincisi, Azərbaycanda heç vaxt belə şey görünməmişdir. İkincisi, bu, Türkiyə Silahlı Qüvvələrinin, xüsusilə Hərbi Hava Qüvvələrinin nə qədər yüksək səviyyədə, dünyanın ən yüksək standartları səviyyəsində olmasını nümayiş etdirdi və etdirir. Eyni zamanda bu, Azərbaycan xalqının, bizim millətimizin, vətəndaşlarımızın böyük sevgisinə və məhəbbətinə səbəb olubdur. Güman edirəm ki, Siz də Türkiyədə Azərbaycan televiziyası ilə bu hadi-

səni izləyirsiniz. Bilirsiniz ki, bizim böyük dənizkənarı Milli parkımız vardır. Onun uzunluğu 4 kilometrdir. Böyük bir Azadlıq meydanımız vardır. Bunlar bir yerdədir və tamamilə adamla dolu idi. Mən deyə bilərəm ki, heç vaxt Azərbaycanda belə şey olmamışdır. Azərbaycanda belə bir söz var: "İynə atsan, yerə düşməzdi". Amma təkcə oralarda yox, şəhərin bir çox yerlərində bu hadisəni müşahidə edirdilər. Məsələn, bizim işçilərimizin bəziləri oraya gedə bilmədiklərinə görə, bu binanın 12-ci mərtəbəsinə qalxıb oradan "Türk ulduzları"nın uçuşlarına baxırdılar.

Yaxud da Şəhidlər xiyabanı şəhərin yüksək nöqtəsindədir, bu uçuşları oradan seyr edirdilər. Şəhərin bir çox yerlərindən həmin uçuşlar ser edilmişdir. Yalnız Azadlıq meydanına və Milli parka toplaşmış adamların sayı demək olar ki, bir milyondan artıq olardı. Bakının hər yerindən insanlar burada toplaşmışdılar. Əgər Bakıda 2-2,5 milyon insan yaşayırsa, demək olar ki, onun yarısı orada idi.

Yenə də deyirəm, bu, Azərbaycanda çox böyük maraq doğurubdur. İnsanlar bunu bir bayram kimi qəbul ediblər. Özlərini daha da güclü hesab ediblər. Eyni zamanda bu hadisə Türkiyə və Azərbaycanın əlaqələrinin bütün sahələrdə çox yüksək səviyyədə olduğunu nümayiş etdirmişdir. Bu təşəbbüsünüzə görə Sizə təşəkküo edirəm. Doğrusu, Siz Azərbaycana əvvəlcədən dəvət olunmuşdunuz. Ancaq Sizin bu təşəbbüsünüz, - bunu son günlər bildik, - çox gözəl bir təşəbüs oldu. Ona görə də Sizin bu səfəriniz daha da təntənəli keçir və keçəcəkdir.

Bu gün bizim Sizinlə hələ görüləsi işlərimiz var. Birincisi, biz bir çox məsələlər barəsində təkbətək danışıqlar aparacağıq. 5-6 dəqiqədən sonra burada Sizin şərəfinizə xüsusi bir mərasim keçiriləcəkdir. Daha sonra biz birlikdə Azərbaycanın ali hərbi məktəbinin ilk buraxılışında, yəni gənc zabitlərin ilk dəstəsinin bu ali məktəbi bitirib ordu sıralarında getməsi mərasimində iştirak edəcəyik.

Mən Sizi bir daha salamlayıram və təşəkkürümü bildirirəm.

Hüseyn Qıvrıqoğlu: Cənab Prezident çox sağ olun. Əvvəlcə məni qəbul etdiyiniz üçün Sizə öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm. Türkiyə Respublikasının Prezidenti cənab Əhməd Necdət Sezərin və ölkəmizin Baş naziri cənab Bülənd Ecevitin hərarətli salamlarını çatdırmaq istəyirəm. Dost və qardaş Azərbaycanda Sizinlə üçüncü dəfə birlikdə olmaqdan duyduğum məmnuniyyəti xüsusi qeyd etmək istəyirəm. İlk dəfə Azərbaycana 1998-ci ilin mayında gəlmişdim. Daha sonra təyyarə limanının açılışında birlikdə olduq. Bu isə Azərbaycana üçüncü səfərimdir. Təyyarə limanından buraya gələnə qədər yol boyu gördüyüm dəyişikliklər və tərəqqi məni çox məmnun etdi. İnanıram ki, qardaş Azərbaycan qısa müddət ərzində daha sürətlə inkişaf edərək layiq olduğu səviyyəyə çatacaqdır. Türkiyə ilə Azərbaycan bir millət - iki dövlətdir. Bizim silahlı qüvvələrimiz də son dərəcə yaxın və faydalı əməkdaşlıq edirlər. Bu əməkdaşlığın konkret bir nümunəsini bu gün hərbi məktəbdə keçiriləcək mərasim zamanı görəcəyik.

Biz Azərbaycan Ordusunu NATO standartları səviyyəsinə qaldırmaq sahəsində görülən işləri diqqətlə izləyir və təqdirlə qarşılayırıq. Mən ürəkdən inanıram ki, bu gün ilk məzunlarını buraxan hərbi məktəbin təşkili Azərbaycan üçün son dərəcə uğurlu addımdır.

İnanıram ki, Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində böyük uğurlara nail olacaqdır. Çünki bir ölkədə və bölgədə sülh, əmin-amanlıq ordunun və iqtisadiyyatın inkişafından asılıdır. Azərbaycan bu işdə də böyük məsafələr qət etmişdir və həmin istiqamətdə irəliləməyə davam edəcəkdir. Bizim ən böyük arzumuz bölgədə sülhə nail olmaqdır, bölgənin sülh və əməkdaşlıq bölgəsi halına gəlməsidir. Bunu bölgədəki milli ordular təmin edə bilər. Bu baxımdan, mən Azərbaycan Ordusunun möhkəmlənməsini təqdirlə qarşılayıram. Türkiyə Silahlı Qüvvələri Azərbaycan Ordusunun inkişafına bundan sonra da kömək edəcəkdir.

Məni qəbul etdiyiniz üçün Sizə bir daha təşəkkür edirəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Türkiyə Respublikasının Prezidenti hörmətli Əhməd Necdət Sezərdən və Baş nazir hörmətli Bülənd Ecevitdən mənə gətirdiyiniz salamlara görə təşəkkür edirəm. Rica edirəm, mənim salamlarımı, hörmət və ehtiramımı onlara çatdırasınız, bütün türk vətəndaşlarına çatdırasınız. Bir daha Sizə təşəkkür edirəm. İndi isə hesab edirəm ki, biz başqa bir mərasimə getməliyik. Ondan sonra Sizinlə geniş söhbət aparacağıq.

Hüseyn Qıvrıkoğlu: İcazənizlə, mən "Türk ulduzları" eskadrilyası barədə Sizə bir neçə söz söyləmək istəyirəm. Dünən bir milyon insan Azadlıq meydanında, bütün Azərbaycan xalqı isə televiziya qarşısında "Türki ulduzları"nın məharətini seyr etdi. Eyni şəkildə Türkiyədə də 65 milyon insan televiziya vasitəsilə bu hadisəyə baxdı. Çünki televiziyalar canlı yayım vasitəsilə 22 dəqiqə ərzində bunları göstərdi. Mən özüm də kabinetimdə otuzaraq bütün bunlara tamaşa etdim. Buradakı azərbaycanlı qardaşlarımız kimi, Türkiyədəki vətəndaşlarımız da çox həyəcanlandılar, hətta bəzilərinin gözlərində sevinc yaşları da göründü. Mən öz pilotlarımla və onların komandirləri ilə qürur duyuram. İnşallah, onlar bu gün də eyni müvəffəqiyyəti əldə edəcəklər.

Heydər Əliyev: Sağ olun.

"Azərbaycan" qəzeti, 26 avqust 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı, hörmətli cənab Hüseyn Qıvrıqoğlu bu gün Azərbaycana rəsmi səfərinə başlamışdır. Mən bu münasibətlə hörmətli dostumuz, qardaşımız cənab Hüseyn Qıvrıqoğlunu ürəkdən salamlayıram və ona "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Türkiyə Cümhuriyyəti ilə müstəqil Azərbaycan arasındakı əlaqələr bütün sahələri əhatə edir. Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu əlaqələr gündən-günə inkişaf edir, genişlənir, xalqlarımızı, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırır və hər iki tərəfə fayda verir. O cümlədən bir neçə il bundan qabaq Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri ilə Azərbaycanın Silahlı Qüvvələri arasında da gözəl əlaqələr təşəkkül tapıb və bu əlaqələr indi yüksək səviyyədədir.

Türkiyə Cümhuriyyəti bizim üçün dost, qardaş ölkədir. bizim əlaqələrimizin strateji əməkdaşlıq xarakteri daşıyır. Azərbaycan öz müstəqilliyini əldə edəndən müstəqil bir dövlət kimi ölkəmizə ən yaxın, ən səmimi, ən dotyana əlaqələr saxlayan Türkiyə Cümhuriyyətidir.

Biz Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsinin onuncu ildönümünə hazırlaşırıq. Bu ilin oktyabr ayında biz bunu bayram edəcəyik. Bu on il ərzində Türkiyə ilə Azərbaycanın əlaqələri sürətlə inkişaf edibdir. Xüsusi qeyd edirəm ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edən kimi, Türkiyə ölkəmizin müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. Ancaq bizim əlaqələrimiz təkcə bu on ilin çərçivəsində deyildir. Türkiyə ilə Azərbaycan xalqlarının əlaqələrinin çoxəsrlik tarixi vardır.

Biz bir kökdənik. Bizim adət-ənənələrimiz, milli-mənəvi dəyərlərimiz eynidir, yaxud bir-birinə çox bənzərdir. Biz bir dildə danışırıq. Bir dinə məxsusuq və eyni mənəvi dəyərlərdən istifadə etmişik və edirik. Əcdadlarımız, bizdən öncə yaşamış nəsillər bu dostluğu, qardaşlığı daim inkişaf etdiriblər. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr artıq xalqlar arasındakı əlaqələrlə bərabər, dövlətlər arasında əlaqələr səviyyəsinə çatmışdır. Azərbaycan ilə Türkiyə arasınja münasibətlər həm Azərbaycanla Türkiyənin qarşılıqlı surətdə faydalı əlaqələrini təşkil edir, eyni zamanda beynəlxalq aləmdə, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində Türkiyə ilə Azərbaycan həmişə bərabərdirlər, həmişə eyni mövqedən çıxış edirlər. bu da Azərbaycanın xarici siyasətinin həyata keçirilməsi üçün çox mühüm amillərdən biridir.

Azərbaycan hələ dövlət müstəqilliyini əldə etməzdən öncə Ermənistanın silahlı qüvvələri tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Ancaq o

vaxt, hələ Azərbaycan müstəqil dövlət olmadığı bir zamanda, SSRİ tərkibində olarkən yenə də bizim Türkiyədəki qardaşlarımız Azərbaycanla yaşamış, ölkəmizin bu çətin problemlərini diqqətlə izləmiş və bizə mənəvi dəstək olmuşlar.

Ermənistan-Azərbaycan münaqişəsinin həl olunması üçün Türkiyə-Azərbaycan dostluğu və əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün 1992-ci ildə yaranmış ATƏT-in Minsk qrupunun üzvüdür və bu çərçivədə, təkcə bu çərçivədə yox, bütün beynəlxalq təşkilatların zirvə görüşlərində Türkiyənin cümhurbaşkanı, başqa nümayəndələri daim Azərbaycanın mövquyini müdafiə ediblər, ölkəmizi dəstəkləyiblər, məsələnin sülh yolu ilə həll olunması üçün çalışırlar və Ermənistanın təcavüzkar, işğalçı olduğunu bütün dünyaya daim bəyan edirlər.

Bizim bu əlaqəcərimizin içərisində Türkiyə ilə Azərbaycan arasındakı hərbi sahədə əməkdaşlıq da xüsusi yer tutur. Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndə onun ordusu yox idi. Ümumiyyətlə, Azərbaycan əsrlər boyu müxtəlif imperiyaların tərkibində olduğuna görə, öz milli ordusunun yaranmasında çox böyük çətinliklər çəkibdir.

Məlumdur ki, tarixdə Azərbaycanın böyük sərkərdələri olmuş, ölkəmizin böyük ordusu olmuş, insanlarımız vuruşmuşlar, döyüşmüşlər və Azərbaycan torpaqlarını müdafiə etmişlər. Ancaq son iki əsrdə Azərbaycan bütün bunlardan məhrum olmuşdur. Ona görə də bizdə ordu quruculuğu təcrübəsi olmamış, yaxud da ki, çox az olmuşdur. Azərbaycanın problemləri xüsusilə ondan ibarət olmuşdur ki, ölkəmiz həladövlət müstəqilliyini əldə edəndən bir neçə il öncə, SSRİ tərkibində olarkən Ermənistanın silahlı qüvvələri ilə üz-üzə durmuş, döyüşlər aparmış və öz torpağını qorumağa çalışmışdır. Belə bir şəraitdə Azərbaycanın Milli Ordusunun yaranması çox çətin bir proses olmuşdur, ancaq Azərbaycan xalqı, Azərbaycanın qəhrəman, cəsur insanları, gəcləri Azərbaycan torpağının müdafiəsi üçün döyüşüblər, vuruşublar, qan töküblər, şəhid olublar.

Amma bununla yanaşı, bizim dövlətimizə nizami ordu lazım idi. Biz bu nizami ordunu yaratmağa başlamaq üçün birincisi, təcrübə lazımdır. İkincisi, zabit heyəti hazırlamaq üçün mütəxəssislər, kadrlar lazımdır. Gənc əsgərləri döyüşə hazırlamaq, yaxud onlara əsgəri xidmətini həyata keçirməyi öyrətmək, təlim və təhsil vermək lazım idi. Bütün bunlara görə də biz Türkiyə Cümhuriyyəti ilə dostluq, qardaşlıq əlaqələrimizə əsaslanaraq, Türkiyənin Silahlı Qüvvələrinin təcrübəsindən istifadə etmişik və edirik. Türkiyənin Silahlı Qüvvələri də Azərbaycanda ordunun, ölkəmizin milli ordusunun yaranması, onun səviyyəsinin yüksəldilməsi, zabit kadrlarının hazırlanması, bizim

ordu hissələrinin təşkil olunması, təkmilləşdirilməsi sahəsində artıq bir çox illərdir ki, Azərbaycan ilə əməkdaşlıq edir və ölkəmizə yardım göstərir. Bütün bu dostluq, qardaşlıq yardımına görə, Azərbaycana və xüsusilə milli ordumuzun yaranmasına göstərilən köməyə görə biz Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına və onun silahlı qüvvələrinə hədsiz dərəcədə minnətdarıq.

Türkiyə Cümhuriyyətinin Ordusu, Silahlı Qüvvələri dünyanın ən böyük dövlətlərinin silahlı qüvvələrinin qarşısında durmağa qadirdir. Türkiyə Silahlı Qüvvələrinin tarixi Türkiyə Cümhuriyyətinin yaranması ilə sıx bağlıdır. Təbiidir ki, türk xalqı keçmişdə və Osmanlı imperatorluğu vaxtında da böyük qəhrəmanlıq nümunələri göstərmişdir. Ancaq bugünkü türk ordusu, Türkiyənin bugünkü silahlı qüvvələri Türkiyənin xilas olmasında və bu ölkədə 1923-cü ildə cümhuriyyət yaranmasında böyük xidmətlər göstərmişdir. Məlumdur ki, Birinci dünya müharibəsindən sonra Osmanlı imperatorluğu süqut edərkən Türkiyəni müxtəlif istiqamətlərdən dağıtmaq, parçalamaq cəhdləri var idi. Ancaq türk xalqı və xüsusilə türk əsgəri çətin və ağır döyüşlər, qurtuluş savaşı apararaq Türkiyəni xilas etmişdir. Həm Türkiyə Silahlı Qüvvələriin yaradıcısı, həm də Türkiyə Cümhuriyyətinin yaradıcısı, başçısı dünyanın ən böyük şəxsiyyətlərindən biri olan Mustafa Kamal Atatürk olmuşdur.

Artıq 78 ildir ki, Türkiyə Cümhuriyyəti yaşayır, inkişaf edir, iqtisadi cəhətdən dünyanın inkişaf etmiş ölkələrinin sırasındadır. Böyük Mustafa Kamal Atatürk tərəfindən qoyulmuş, yaranmış və formalaşmış Türkiyə Silahlı Qüvvələri bu gün çox yüksək səviyyədədir.

Türkiyə Silahlı Qüvvələrinin Türkiyə Cümhuriyyətində xüsusi rolu və yeri vardır. Türkiyə Silahlı Qüvvələri həm Türkiyənin bütövlüyünü, dövlətçiliyini qorumaq, saxlamaq yolunda, həm də Türkiyəyə zərbələr vurmaq istəyən müxtəlif terrorçu və təxribatçı qüvvələrin qarşısının alınması yolunda böyük xidmətlər göstərmişdir və bu gün də göstərir.

Mən deyə bilərəm ki, böyük Mustafa Kamal Atatürk yeni Türkiyə, Türk Cümhuriyyəti yaratmışdır. Böyük Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrini yaratmışdır. Məmnuniyyət hissi doğurur ki, türk xalqı, Türkiyənin Silahlı Qüvvələri böyük Mustafa Kamal Atatürkün yolu ilə inamla gedirlər və onun yoluna, onun şəxsiyyətinə daim sadiqliyini nümayiş etdirirlər.

Biz dost və qardaş olaraq Türkiyə Cümhuriyyətinin nailiyyətlərinə sevinirik və onun daha da inkişaf etməsini arzulayırıq. Dost və qardaş olaraq Azərbaycan xalqı Türkiyə Cümhuriyyətinin belə qüdrətli, əzəmətli, müasir tələblərə uyğun olan ordusunun, silahlı qüvvələrinin varlığından iftixar hissi keçirir. Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq çox yaxşı nəticələr verir. Bu da xüsusilə ondan ibarətdir ki, biz birincisi, Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin təcrübəsindən istifadə edirik. İkincisi, Azərbaycanın Silahlı Qüvvələri üçün yeni, müasir tələblərə uyğun kadrların hazırlanmasında onların yardımından istifadə edirik. Eyni zamanda ordumuzda müasir tələblərə uyğun struktur dəyişikliklər aparmaq və ordunu müasir standartlara çatdırmaqda Türkiyə Silahlı Qüvvələrinin yardımından istifadə edirik. Bütün bunlara görə, hörmətli cənab Hüseyn Qıvrıqoğlu, mən Sizə və Sizin simanızda bütün türk xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyənin Silahlı qüvvələrinə Azərbaycan xalqının, Azərbaycan dövlətinin təşəkkürünü və minnətdarlığını bildirirəm. Əmin ola bilərsiniz ki, bizim bu əlaqələrimiz, dostluğumuz, qardaşlığımız daim inkişaf edəcəkdir və əbədi olacaqdır.

Türkiyə Silahlı Qüvvələrinin nə qədər qüdrətli, yüksək standartlara malik olmasının biz dünən şahidi olduq. "Türk ulduzları"nın Azərbaycana gəlməsi və Azərbaycan səmasında uçuşlar etməsi hər bir azərbaycanlıda böyük iftixar hissi doğurmuşdur. Azərbaycanda insanlar heç vaxt belə hadisənin şahidi olmamışdılar, heç vaxt bunu görməmişdilər. bu mərasim haqqında bizim televiziyada məlumatlar verilməndən sonra insanlar buna çox maraq göstərmişlər. Birincisi, ona görə ki, bu cür təyyarələrin elə gözəl uçuşlarını onlar heç vaxt görməmişdilər. Onu görmək arzusunda idilər. İkincisi, ona görə ki, Türkiyə Silahlı Qüvvələrinin, "Türk ulduzları"nın böyük məharətlə Azərbaycanın səmasında, Bakı üzərində uçuşlar keçirməsi hər bir azərbaycanlıda böyük iftixar hissi doğururdu. Söyləyirlər ki, insanlar şəhərin hər tərəfindən bunu müşahidə etmişlər. Bizim Milli park və Azadlıq meydanı adamlarla dolu idi. Azərbaycanda bir söz var: "İynə atsan, yerə düşməzdi". Ancaq təkcə oradan yox, şəhərin müxtəlif hündür nöqtələrindən bu uçuşları müşahidə ediblər. Çünki onların uçuşlarını hər yerdən görmək mümkün idi.

Bu, hər bir insanda böyük sevinc hissi doğurmuşdur. Söyləyirlər ki, insanlar sevincdən göz yaşları tökürdülər. Bu hadisə bir daha dostluğumuzun, qardaşlığımızın rəmzi olmaqla bizim hamımızda böyük iftixar hissi doğurdu ki, Türkiyə Cümhuriyyəti belə silahlı qüvvələrə malikdir. Ona görə də mən bu münasibətlə sizə təşəkkür edirəm. Rica edirəm, mənim təşəkkürümü və minnətdarlığımı bizim qardaşlarımıza, türk şahinlərinə, "Türk ulduzları"na çatdırasınız. Mən onlara gələcəkdə də yeni-yeni uğurlar arzulayıram.

Bütün bu dostluğa, qardaşlığa, strateji əməkdaşlığa yüksək qiymət verərək Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı hörmətli Hüseyn Qıvrıqoğlu Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublika-

sının ən yüksək hərbi ordeni ilə təltif olunmuşdur. Hörmətli dostum, qardaşım, mən bu fərmanımla bir daha Azərbaycan dövlətinin Türkiyə Cümhuriyyətinə, onun dövlətinə, xalqına nə qədər böyük hörmət, ehtiram bəslədiyini nümayiş etdirirəm. Eyni zamanda bizə göstərilən yardımı yüksək qiymətləndiyini bildirirəm.

Azərbaycan Prezidenti Heydər Əliyev "Azərbaycan bayrağı" ordenini, Prezident fərmanını və ordenin vəsiqəsini Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hüseyn Qıvrıqoğluna təqdim etdi.

"Azərbaycan" qəzeti, 26 avqust 2001-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ "2001-Cİ İLİN DÖVLƏT ADAMI MÜKAFATI" VERİLMƏSİ QƏRARI

Ankarada yerləşən "İpək yolu" vəqfi idarə heyətinin yekdil rəyinə əsasən 2001-ci il 18 iyun tarixli fərmanı ilə avqust ayının 1-dən etibarən Azərbaycan latın əlifbasına keçilməsi, mətbuatın, təhsilin, rəsim yazışmaların, çıxışların Azərbaycan dilində olması, Azərbaycanın latın əlifbası ilə dünyaya açılması, İpək yolunda əlifba dil birliyinin təmin edilməsi, türkdilli dövlətlər arasında "türkcə dil körpüsü"nün qurulması, "dildə, fikirdə, işdə birlik" şüarının həyata keçirilməsi, "Bir millət, iki dövlət" kəlamı ilə Türkiyə və Azərbaycanın sıx yaxınlaşdırılması, əlifba və dil birliyindən çıxış edərək, "türk birliyinin" təmin edilməsi sahəsində böyük fəaliyyətinə görə Azərbaycan Respublikasını Prezidenti Heydər Əliyevə "2001-ci ilin Dövlət Adamı Mükafatı" verilməçsi qərar alınmışdır.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 6-da Prezident sarayında Türkiyənin "Doğan Holdinq" qrupunun rəhbəri Aydın Doğanı, onun müavini Tufan Darbaşı, qrupun idarə heyətinin üzvü Taylan Biqdeli, "Hürriyyət" qəzetinin baş redaktoru Ərtoğrul Özkök, "Milliyyət" qəzetinin baş redaktoru Mehmet Yılmazı, "Petrol ofisi" anonim şirkətinin baş direktoru Ərtoğrul Tuncəri, "Türk Bank" idarə heyətinin üzvü Tayfur Bayaziti qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan Prezident **Heydər Əliyev** dedi:

- Hörmətli Aydın Doğan!

Hörmətli qonaqlar!

Siz Azərbaycana xoş gəlmisiniz. Mən sizin bu səfərinizdən çox məmnunam.

Hörmətli dostum Aydın Doğan, mən Sizi bir neçə dəfə Azərbaycana dəvət etmişdim. İmkanınız olmayıbdır. Amma indi imkan tapıb mənim bu dəvətimi yerinə yetirmək üçün Azərbaycana səfər etdiyinizə görə təşəkkür edirəm. Sizinlə barabər, Türkiyə mətbuatının görkəmli şəxsiyyətləri gəliblər. İndi demokratik ölkələrdə mətbuat çox böyük yer tutur. Mən bilirəm ki, mətbuatın Türkiyədə nə qədər həm hörməti var, həm gücü var, həm də təsir imkanları var. Təbiidir ki, burada da "Doğan Holdinq" qrupunun öz yeri var.

Sizin holdinq son illərdə çox inkişaf edibdir, böyüyübdür. Təkcə mətbuat sahəsində yox, bir neçə başqa iqtisadi sahələrdə də. Ona görə indi Türkiyədə siz çox böyük yer tutan bir holdinqsiniz.

Mən hesab edirəm ki, sizin Azərbaycanla yaxından tanış olmağınız çox lazımdır. Çünki Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri xüsusi əhəmiyyət daşıyır. Yəni onun xüsusi yeri vardır. Bizim ölkəmiz Türkiyəyə ən yaxın dost, qardaş ölkədir. Buna görə də bizim ölkəmizi görmək, ölkəmizin problemləri ilə tanış olmaq, sadəcə, insanları görmək, təbiidir ki, sizin kimi böyük informasiya, yaxud təbliğat imkanlarına malik olan holdinq üçün Azərbaycan haqqında daha da doğru, düzgün, ədalətli yazılar verməyə, yaxud da proqramlar hazırlamağa imkan verəcəkdir.

Biz bu il Azərbaycanın istiqlaliyyətinin, müstəqilliyinin 10-cu ilini qeyd edirik, bayram edirik. Bu, ilin sonunda olacaqdır. Ancaq bu il elə 10-cu il yubiley ilidir. Bu sırada sizin buraya gəlməyiniz də çox əhəmiyyətlidir. Təəssüflər olsun ki, şəxsən siz Azərbaycana birinci dəfədir gəlirsiniz. Azərbaycan beş-on il bundan öncə nə durumda olub, indi nə durumdadır, onu güman edirəm ki, Türkiyədən baxaraq müqayisə edə bilərsiniz. Amma burada olan dostlarımızdan yəqin əvvəllər Azərbaycanda olmuş şəxslər var, yoxsa elə hamınız birinci dəfədir gəlmisiniz?

İrfan Sapmaz ("Hürriyyət" qəzetinin Azərbaycandakı müxbiri): Cənab Prezident, Ərtoğrul Özkök əvvəllər Bakıya gəlmişdir.

Heydər Əliyev: Mən dost sözlərimi deyirəm, indi sizin hamınızın gəlməyinizdən çox məmnunam. İmkan dairəsində bizim həyatımızı görəcəksiniz. Bizim on illik müstəqillik dövründə yaşadığımız dövrə və indi hansı vəziyyətə gəlib çatmağımıza fikir verə bilərsiniz. Bizim bu on ildə çox böyük problemlərimiz olubdur. Siz belə bir hadisəni ötən yüzilliyin 20-ci illərinin əvvəllərində yaşamısınız. Osmanlı imperatorğunu dağılandan sonra Türkiyə Cümhuriyyətinin yaranması və onun inkişaf etdirilməsi, Türkiyəni bugünkü günə, yəni dünyanın həm demokratik, həm hüquqi, həm də hər cəhətdən çox inkişaf etmiş ölkəsi səviyyəsinə gətirmək üçün böyük bir tarix yaşamısınız.

Biz 1998-ci ildə Ankarada Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi münaçibətilə toplaşmışdıq. Siz bir formasiyadan, yəni bir ictimai-siya-

si, yaxud iqtisadi formasiyadan digərinə keçməmisiniz. İmperiya dağılıb. Allaha şükürlər olsun ki, böyük öndər Mustafa Kamal Atatürkün və silaşdaşlarının sayəsində, onun yerində cümhuriyyət yaranıbdır. Amma türk ordusu o vaxt da olubdur, sonra da olubdur. Yaxud Türkiyənin iqtisadiyyatı. Təbiidir, o vaxtlar Osmanlı imperatorluğu dünyanın yarısını götürmüşdü, ona görə də iqtisadiyyatı daha yüksək idi. Ondan sonra, bütün bunlar əldən gedəndən sonra yenidən inkişafa başladı. Ancaq siz dünyada artıq sübut olunmuş iqtisadiyyat yolu ilə, yəni bazar iqtisadiyyatı yolu ilə getmisiniz. Sizin quruluşunun sosialist quruluşu, kommunist quruluşu olmayıbdır. ona görə də siz bu dövrü şəxsən görməsəniz də, sizin ölkəniz biz yaşadığımız dövrü yaşamayıbdır.

Amma bizim ölkəmiz, məsələn, 200 il bundan öncə Rusiya imperatorluğuna daxil olubdur. Biz 120-130 il çar Rusiyasının, ondan sonra 70 il Sovetlər Birliiynin tərkibində olmuşuq. Doğrudur, biz o vaxt buna imperatorluq demirdik. Çünki o vaxt hesab olunurdu ki, sosialist sistemi dünyada ən mütərəqqi, ədalətli bir sistemdir. Ancaq eyni zamanda 15 müttəfiq Cümhuriyyəti özündə birləşdirərək onların müstəqilliyini allərindən almaq, böyük bir dövlət qurmaq - bu da imperatorluğun bir formasıdır. Ona görə biz 1917, 1920, 1922-ci illərdə böyük sınaqlardan keçmişik. Ondan qabaq rus imperatorluğunun müstəmləkəsi olmuşuq. Ondan sonra Sovet hakimiyyətinin qurulması çox böyük proses olubdur. Çünki insanın mülkiyyətini əlindən alıblar, torpağını əlindən alıblar, fabrikini, hər şeyini əlindən alıblar. Şəxsi mülkiyyət yasaq olubdur. Hamısı dövlət mülkiyyəti, ümumi mülkiyyət olubdur. Amma o da ağır bir dövr idi. Çünki insanlar onların ədadlarının, babalarının bundan öncə torpaqları əmlakı, filanı əllərindən vermək istəmədilər və bir yerə yığışıb kolxoz olmaq, sovxoz olmaq istəmirdilər. Hətta ondan sonra söhbət gedirdi, başqa ölkələrdə də belə deyirdilər ki, Sovetlər Birliyində hər şeyi toplayırlar, ümumiləşdirirlər. Demək, ailələr də ümumiləşdiriləcəkdir, qadınlar da ümumiləşdiriləcəkdir. O zaman belə söhbətlər var idi.

Biz 70 il bu dövrü yaşamışıq. Biz həmişə bu dövrə də ədalətli münasibət göstəririk. Onun faciələri də olubdur, qara səhifələri də olubdur. Çox itkilər də vermişik. Amma eyni zamanda, bu dövrdə bunlarla bərabər, Azərbaycan çox inkişaf edibdir. Artıq 1991-ci ildə, Sovetlər İttifaqı dağılandan sonra, son imperatorluq dağılandan sonra Azərbaycan müstəqilliyini elan edəndə onun böyük potensialı var idi. İqtisadi potensialı, elmi potensialı, milli potensialı var idi. Bunlar var idi. Ancaq bunlar hamısı köhnə, əski sistem üzərində qurulmuşdu. İndi bunu yeni sistem üzərində qurmaq lazımdır, bu dövr də çox çətin, ağır dövrdür.

Əgər nəzərə alsaq ki, bu dövrdə Azərbaycan Ermənistanla müharibə aparmaq məcburiyyətində olubdur, - çünki hələ sovetlər dövründə, 1988-ci ildə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ torpağını əlinə keçirmək üçün iddia edibdir və sonra müharibə başlayıbdır, - onda təsəvvür edə bilərsiniz ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman nə qədər ağır bir durum içində idi. Ondan sonra, təbiidir ki, işləri daha da sürətlə aparmaq olardı. Bir tərəfdən Azərbaycan bu xaosdan, əsarətdən azad oldu, müstəqil oldu, ancaq ikinci tərəfdən, təəssüflər olsun, bu vəziyyətdən, bu durumdan və Ermənistan-Azərbaycan savaşından istifadə edən ayrı-ayrı qruplar özlərinə silahlı dəstələr yaratdılar, burada hakimiyyət uğrunda mübarizə apardılar. Ona görə də biz müstəqilliyi əldə edəndən sonra bu problemlərlə rastlaşmasaydıq, bəlkə bu on il ərzində daha da çox irəliyə getmiş olardıq.

Müstəqillik əldə edəndən 1995-96-cü illərə qədər biz Azərbaycanda belə ağır problemlərlə üzləşmişik. Yəni biz bir tərəfdən Ermənistanla müharibə aparmışıq və təəssüflər olsun ki, torpaqlarımızın 20 faiz Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur, şəhidlər vermişik, qan tökülübdür, ikinci tərəfdən də daxildə sabitlik olmayıbdır. Nəinki sabitlik olmayıbdır, burada ayrı-ayrı qruplar silahlı dəstələr düzəldib hakimiyyət uğrunda mübarizə aparıblar. Bunlar hamısı da 1992-ci ilin əvvəlində hakimiyyətin dəyişilməsinə gətirdi. 1992-ci ildən isə burada Xalq Cəbhəsi hakimiyyəti var idi, onlar bir il hakimiyyətdə olduqları zaman Azərbaycanı vətəndaş müharibəsi vəziyyətinə gətirib saldılar. Azərbaycan artıq parçalanırdı. Onun qarşısı alındı. Xalq onun qarşısını aldı. Xalq birləşdi.

Amma 1994-cü ildə yenə bir dəstə burada silahlı çevriliş cəhdi göstərdi. Bunun da qarşısını xalq aldı. 1995-ci ildə başqa bir silahlı dəstə hücum edirdi, bizim orduya hücum edirdi, bizim Daxili İşlər Nazirliyinə hücum edirdi. Yenə də çevriliş cəhdi ilə. Təbiidir ki, biz onda da öz gücümüzü göstərdik, qan töküldü, amma dövləti qoruyub saxladıq. Sonra da terror, filan hadisələri olmuşdur. Ona görə də bizim bu on ildəki həyatımız Sovetlər Birliyi dağıldıqdan sonra müstəqillik əldə edən başqa cümhuriyyətlərin həyatından fərqlidir.

Məsələn, Orta Asiya ölkələrini götürün. Orada heç bir belə problem olmayıbdır. Onların bir problemi olubdur ki, sosialist sistemindən yeni sistemə necə keçsinlər. Onu da özləri nə cür istəyir, o cür də keçirlər. Amma bizim belə problemlərimiz olubdur. Bunlara görə də sizin Azərbaycanı görməyiniz, Azərbaycanın həqiqətlərini, reallığını bilməyiniz lazımdır. Çünki Türkiyədən Azərbaycana baxanda, ayrı-ayrı adamlar onu müxtəlif cür görür. Tam əksəriyyəti Azərbaycanı olduğu kimi görür. Amma bəzilərinin də, onun göz-

lüyü qaradır, yaxud da nədirsə, onlar, aydın görə bilmir, açıq görə bilmirlər. Mən bu barədə çox deyə biləram. Ancaq qısaca olaraq bu sözləri sizə dedim ki, mən nə qədər məmnunam, siz gəlmisiniz.

Təbiidir ki, buraya iş adamları çox gəlir. Biz çox böyük işlər aparırıq. Bilirsiniz ki, bizim neft sahəsində çox böyük işlərimiz var. Biz Türkiyənin neft şirkətlərini də buraya qatdıq. Onların burada artıq bir neçə müqaviləyə çox önəmli yerləri var. Biz yeddi ildir çalışırıq ki, Bakı-Ceyhan boru xəttini həyata keçirək. Artıq bunu da etdik. Artıq Bakı-Ceyhan tikilir. Mən hər dəfə Türkiyəyə gələndə "Hürriyyət", "Milliyyət", "Sabah", nə bilim, o birisi, bu birisi qazetlərin mənə birinci sualları bu olubdur: Bakı-Ceyhan nə vaxt olacaqdır? Olacaqdır, olmayacaqdır? Hər dəfə deyirdim, olacaq, olacaq, olacaqdır. Amma son dəfə gələndə gördüm, bunu soruşmurlar. Mən dedim, nə üçün soruşmursunuz ki, Bakı-Ceyhan nə vaxt olacaqdır?

O vaxtlar Türkiyədə qəribə bir durum var idi. Uşaq da Bakı-Ceyhan deyirdi, qadın da Bakı-Ceyhan deyirdi, yaxud, bir siyasət adamı da Bakı-Ceyhan deyirdi. Biz bunu çözəndən sonra artıq bu proseslər dayanıbdır. Çox gözəl. Yəni biz bunu etdik. Sübut etdik ki, biz bunu edə bilərik.

İndi biz buradan Türkiyəyə qaz vermək istəyirik. Çünki bizim böyük təbii qaz yataqlarımız açılıbdır. Mən mart ayında Ankarada olarkən Azərbaycan ilə Türkiyə arasında bu barədə anlaşma imzaladıq. İndi Gürcüstan ilə də imzalamalıyıq. Çünki qaz boru xətti gərək Gürcüstandan keçsin. Bakı-Ceyhan da oradan keçir. Onu da bu yaxınlarda edəcəyik, qaz da verəcəyik.

Yəni iqtisadi əlaqələrimiz genişdir. Amma, təbiidir ki, burada iş adamları Azərbaycanı görür. Amma mətbuat adamlarının görməsi daha önəmlidir. Bax, bunlara görə mən sizə təşəkkür edirəm. Güman edirəm ki, burada olduğunuz zaman Azərbaycanın bugünkü varlığını görəcəksiniz. Sizə yardımçılıq edərlər ki, mənim bu qısa sözlərimin əsasında daha da geniş bilgilər versinlər ki, Azərbaycan bu on ildə hansı yolu keçibdir. Təşəkkür edirəm.

Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən **Aydın Doğan** dedi:

- Möhtərəm Cümhurbaşkanımız!

Sizə Cümhurbaşkanımız deyirəm. Çünki Sizin hər zaman dediyiniz kimi, biz iki ayrı dövlət olsaq da, bir millətik. Bu mənada Türkiyə türklərinin də cümhurbaşkanısınız.

İlk və yeganə türk olaraq Sizin keçmiş Sovetlər Birliyində Siyasi Büroya qədər yüksəlmənizi, rəhbərlikdə üçüncü adam hesab olunan səviyyəyə qalxmağınızı bizlər çox böyük sevinc hissi ilə izləyirdik və qürur duyurduq. Çox çətin olsa da, o vaxtlar Azərbaycana və türkdilli cümhuriyyətlərə etdiyiniz böyük xidmətləri bilir və Sizin o işlərinizi diqqətlə izlə-

yirdik.

1993-cü ildə çox çətin bir vaxtda, Azərbaycanın parçalanaraq məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda Azərbaycana rəhbərlik etməyə başladınız. Sizin rəhbərliyinizlə keçid dövrünü yaşayan Azərbaycan üçün ən vacib olan sabitliyi, əmin-amanlığı ölkənizə bəxş etdiniz.

1994-cü ildə "Əsrin müqaviləsi"ni imzalamaqla Bakı-Ceyhan layihəsinin həyata keçirilməsi üçün ilk əzmkar addımlar atdınız. Siz bu işlərdə Türkiyəyə çox böyük önəm verərək, Türkiyəyə və türklüyə olan sevginizi bir daha bəyan etdiniz. Türkiyə-Azərbaycan strateji əməkdaşlığının inkişafına daim diqqət yetirdiniz.

Möhtərəm Cümhurbaşkanımız!

Sizin Türkiyə-Azərbaycan dostluq əlaqələrinin inkişafına verdiyiniz töhfə çox böyükdür. Mənim bu qısa çıxışımda Sizin böyük işləriniz haqqında məlumat verməyim çox çətindir.

Sizin Azərbaycanda latın əlifbasının tətbiq edilməsi ilə bağlı fərmanınız və bu istiqamətdə apardığınız işlər ən yüksək qiymətə layiqdir.

"Türk ulduzları"nın Bakıdakı uçuşlarını Azadlıq meydanında bir milyondan çox insanın sevgi ilə seyr erməsi xatirələrdən uzun müddət silinməyəcəkdir. Bu tədbirlər nəticəsində Türkiyə xalqında və Azərbaycan xalqında oyanmış ülvi hisslər Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının əyani təzahürüdür.

Sahibi olduğumuz kütləvi informasiya vasitələri daim Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi istiqamətində çalışmışdır. Lakin bundan sonra bu qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi məqsəd ilə daha çox işlərin görülməsinin zəruriliyini hiss edir və bu istiqamətdə işlərimizin daha da gücləndirilməsinin vacibliyini ifadə etmək istəyirəm.

Möhtərəm Cümhurbaşkanımız!

Çıxışımın sonunda bizi bura dəvət etdiyiniz üçün, gərgin iş rejiminizə baxmayaraq, bizə vaxt ayırdığınız üçün Sizə öz təşəkkürümü bildirir, Azərbaycan naminə, bütün türk dünyası naminə göracəyiniz o böyük işlərdə Sizə müvəffəqiyyətlər və cansağlığı arzu edirəm. Çox sağ olun.

Heydər Əliyev: Əziz dostum, çox sağ olun. Sizin dediyiniz çox önəmli sözlərə görə təşəkkür edirəm.

Ancaq bir şeyi də qeyd etmək istəyirəm. Təbiidir ki, biz bir kökdən olan millətik. Türk dili həm bizim dilimizdir, həm Anadolu türklərinin dilidir, həm də Özbəkistanın, Qazaxıstanın, Türkmənistanın, Qırğızıstanın, başqalarının dilidir.

Ancaq bizim bu köklərdən ayrılan ayrı-ayrı budaqlar o dilləri müəyyən qədər özünəməxsus şəkildə formalaşdırmışdır. Amma siz burada sırf Azərbaycan dilində danışdınız. Bu, mənim üçün çox əhəmiyyətlidir. Çünki yenə də deyirəm, onsuz da biz bir-birimizi anlayırıq. Mənim üçün Türkiyədə kiminləsə danışmaq problem deyildir. Mən Böyük Millət Məc-

lisində bir saat yarım çıxış etdim. Güman edirəm ki, orada olan millət vəkillərinin 99 faizi mənim dediklərimi 99 faiz anladı.

Eləcə də buraya Türkiyədən Cümhurbaşkanları gəlir, Baş nazirlər gəlir. Onlar Anadolu türkcəsində danışır və hamı da anlayır. Amma onlardan fərqli olaraq, siz tamamilə Azərbaycan dilində danışdınız. Bu da çox sevindirici haldır. Doğrudan da, bu, Sizin Azərbaycana olan qardaşlıq, dostluq münasibətlərini göstərir.

Mən latın əlifbasına keçilməsinə çoxdan çalışırdım. Ancaq istəyirdim əvvəlcə insanlar buna alışsınlar. Gördüm ki, bu proses bir az uzanır. Onda mən iyun ayında fərman verdim ki, avqustun 1-dən bütün Azərbaycanda qəzetlər, kitablar latın əlifbasında çıxsın və dövlət orqanlarında bütün yazı işləri latın əlifbası ilə getməlidir. Çoxları dedi ki, bu, mümkün deyildir. Çünki insanların çoxu bunu öyrənməyiblər, bilmirlər.

Bizim müxalifət qəzetlərimiz çoxdur. Sizdə də qəzetlər elə müxalifət kimi bir şeydir. Ancaq sizin müxalifətçiliyiniz burada olsaydı, mən Allaha çox şükür edərdim. Mən istərdim ki, sizin qəzetlərin müxalifətçiliyi bizim qəzetlərdə olsun. Onda Allaha çox şükür edərdim. Ancaq onlar özlərini daha çox türk, yaxud Türkiyəyə yaxın hesab edərək, - bizdə deyirlər ki, Roma papasından da çox katolik olmaq istəyirlər, bələləri var, - qəzetlərdə məni tənqid etməyə başladılar ki, Heydər Əliyev bunu ona görə etdi ki, o, bizim qəzetləri diz çökdürmək, yəni bağlatmaq istəyir. Çünki xalq bu əlifbanı bilmir, bizim qəzetləri oxuya bilməyəcəklər. Onların da qəzetdən başqa heç bir şeyləri yoxdur. Elə qəzetlə yaşayırlar, qəzetlə müxalifətçiliklərini həyata keçirirlər. Belə şeylər çox yazıldı. Ancaq mən düşündüm ki, başqa hallarda olduğu kimi, bu yazıqlar, bu zavallılar burada da özlərini nə qədər ağılsız göstərdilər.

Mən xalqı irəliyə aparmaq istəyirəm. Mən istəyirəm xalq kiril əlifbasından qurtarsın. Amma onlar məni günahlandırırlar ki, sən bunu niyə edirsən. O biri tərəfdən də deyirlər ki, biz daha çox türkük, nəinki sən. Amma mən onlara, xalqa izahatlar verdim.

Mən 1929-cu ildə ilk dəfə məktəbə getmişəm. Onda Azərbaycanda latın əlifbası idi. Azərbaycanın latın əlifbasına keçməsi Türkiyədən bir neçə il öncə olubdur. Hətta mən sizə deyə bilərəm, Azərbaycanın böyük bir yazarı var, Mirzə Fətəli Axundov. O, Azərbaycanda, demək olar ki, müasir ədəbiyyatın əsasını qoyanlardandır. Yəni dünyəvi teatrın əsasını qoyanlardandır. O, 1860-cı illərdə Azərbaycanda ərəb əlifbasından latın əlifbasına keçmək haqqında təkliflər irəli sürmüşdü. Burada bir neçə adamlarla bu barədə danışıq aparmışdı. O vaxtlar bizdə hər şey İstanbuldakı təcrübə ilə ölçülürdü. Sonra o, İstanbula gedirdi. Orada nitq söyləyib və sübut edibdi ki, latın

əlifbasına keçmək lazımdır. Gərək bizim xalqlarımız, yəni türk xalqları ərəb əlifbasından azad olsun. Həmin vaxt orada mollalar, ülamələr, filanlar hamısı toplaşıblar və onu oradan qovublar. Bu, tarixi bir hadisədir. Bu, 1863-cü ildə olubdur.

Sonra, burada Sovet hakimiyyəti olan zaman, hələ 1922-ci ildə Azərbaycanın ərəb əlifbasından latın əlifbasına keçməsi üçün komissiya yaradılmışdı. Onlar çalışıblar və 1924-cü ildən Azərbaycanda tədricən latın əlifbasına keçirildi.

1926-cı ildə burada ilk Türkoloji qurultay olubdur. Sizdə məşhur bir Köprülüzadə vardı. O, İkinci dünya müharibəsindən sonra Xarici İşlər naziri də olmuşdur.

Aydın Doğan: Fuad Köprülü.

Heydər Əliyev: Biz burada Köprülüzadə deyirdik. O da dilçi idi və 1926-cı ildə burada Türkologi qurultayda iştirak edibdir. Türkiyə latın əlifbasına hamıdan sonra keçibdir. Ona görə deyirəm ki, mən 1929-cu ildə ilk dəfə məktəbə gedəndə latın əlifbası idi. Mən onda ərəb əlifbasını görmədim. Yəni cəmi 4-5 il içində latın əlifbası tamamilə öz yerini tutdu.

Mən on il məktəbdə oxudum, məktəbi latın əlifbası ilə bitirdim. Mən 1939-cu ildə məktəbi latın əlifbası ilə bitirdim, 1940-cı ildə Azərbaycan kiril əlifbasına keçdi. Mənim üçün bu da problem olmadı. Çünki mən o vaxt rus dilini çox yaxşı bilirdim. Ona görə bu, mənim üçün problem olmadı.

Ancaq deyə bilmərəm ki, insanlar üçün problem oldu. 1920-ci illərdə latın əlifbasına keçəndə də belə problem olmamışdı. 1940-cı ildə kiril əlifbasına keçəndə də o qədər problem olmamışdı. Ona görə mən bunu həyatımın təcrübəsindən, Azərbaycan xalqının tarixindən bilirdim ki, sadəcə, fərman vermək lazımdır, məcburiyyət qoymaq lazımdır. Kimsə bir az gecikər, bu, böyük şey deyildir. Əsas odur ki, məsələni həll edəsən. Həll elədik və təbiidir ki, bu da bizi daha da yaxınlaşdırır. İndi bizim adamlar sizin qəzetləri daha da yaxşı oxuyacaqlar. Siz də bizim qəzetlərimizi daha da yaxşı oxuya biləcəksiniz.

Sizin bu sözlərinizə görə bir daha təşəkkür edirəm. Amma latın əlifbası haqqında bəzi əlavə məlumatları sizə söyləməyi borc hesab edirəm.

Sizin təcrübəniz böyükdür. Çünki keçmişdə Sovetlər Birliyində Azərbaycanda belə açıq mətbuat olmayıbdır. Dövlət televiziyası, dövlət qəzeti, - müxalifət yox, başqa fikirli adam yox, - insanlar belə yaşayıblar. İndi Azərbaycan müstəqil olandan sonra, demokratiya yolu ilə gedəndən sonra söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı bütün azadlıqlar verilibdir. 1995-ci ildə biz Konstitusiyanı qəbul etdik və bunların hamısını yazdıq. Amma gərək bundan da ağıllı istifadə edəsən.

Bilirsiniz, hərdən olur, insanı bir şeyə məcbur edirsən ki, sən bunu yemə, olmaz. O da fikirləşir ki, bu nədir, mən bunu yeməyim. Amma

ona icazə verirsən ki, gəlsin yesin, birdən elə yeyir ki, qarnı partlayır. Bu, həyatda da belədir. İndi bizdə mətbuat, yəni müstəqil mətbuat formalaşır. Bundan sonra da formalaşacaqdır. Ancaq siz bu yolu keçmisiniz və sizin təcrübəniz, əlbəttə ki, bizim üçün önəmlidir.

Birincisi, ona görə ki, siz böyük təcrübəyə maliksiniz. İkincisi də ona görə ki, siz sərbəst qəzet, sərbəst televiziya nə cür olmalıdır, bunu nümayiş etdirirsiniz, yaxşı göstərirsiniz. Amma təəssüflər olsun ki, bizdə hələ bəziləri o qədər yeyirlər ki, qarınları partlayır. Bu barədə bizim sizin təcrübənizdən istifadə etməyə ehtiyacımız var. İndi nə mümkündür, siz burada söyləyərsiniz.

Bundan sonra bizim əlaqələrimiz daha da genişlənəcəkdir. Biz "Hürriyyət" qəzeti ilə güclü ittifaq qurduq. Yadımdadır, mən Türkiyəyə gedəndə İstanbulda böyük toplantı keçirdik. Bütün qəzetçilərlə görüşdüm. Baxmayaraq ki, hər dəfə gələndə məni hava limanında 40-50 qəzetçi qarşılayır, suallar verirdilər. Amma biz böyük toplantı keçirdik ki, orada sərbəst söhbət aparaq. Onlar nə istəyirlər, soruşsunlar, mən nə istəyirəm, onlara deyim. Ancaq bu, azdır. Bunları daha da çox etmək lazımdır. Ona görə də sizin bu ziyarətiniz çox önəmlidir.

Aydın Doğan: Möhtərəm Cümhurbaşkanım, sağ olun. Təşəkkür edirəm.

Hörmətli Cümhurbaşkanım, biz də burada mətbuat haqqındakı qənaətlərimizi Sizə ayrıca söyləyəcəyik.

Heydər Əliyev: Sağ olun.

Bizim Azərbaycanın ilk universiteti var Bakı Dövlət Universiteti. O, 1919-cu ildə yaranıbdır, böyük tarixi var və çox da yüksək təhsil verən univesitetdir. Universitetin Elmi Şurası qərar qəbul edibdir ki, Sizə, hörmətli Aydın Doğana Bakı Dövlət Universitetinin fəxri doktoru adını versinlər. Nəyə görə? Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsində göstərdiyi böyük xidmətlərə görə və bütün başqa sahələrdə Azərbaycan-Türkiyə əlaqələrinə göstərdiyi böyükxidmətlərə görə. Saat dörddə orada, universitetdə bütün professorlar, müəllim heyəti toplaşacaqlar və Sizə fəxri doktor adını verəcəklər. Güman edirəm ki, Siz də bunu qəbul edəcəksiniz.

Aydın Doğan: Möhtərəm Cümhurbaşkanım, mən böyük məmnuniyyət və şərəflə qəbul edərəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "SNN-TÜRK" TELEKANALINA MÜSAHİBƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyənin "SNN-TÜRK" televiziya kanalının müxbiri Gürkan Zənginə müsahibə vermişdir. Respublika ictimaiyyətinin böyük marağını nəzərə alaraq,

həmin müsahibənin mətnini oxuculara təqdim edirik.

Müxbir: Sayın Cümhurbaşkanı, on il əvvəl Azərbaycana gələrkən tamamilə başqa Azərbaycan görmüşdülər. Amma indi tamamilə başqa Azərbaycan görünür. İndi neft sahəsində yeni, böyük oyun oynanmaqdadır. Tanınmış siyasətçi kimi, Sizcə, bu oyunda Azərbaycanın yeri nədir və bu oyunda Azərbaycanın yolunu necə görürsünüz, Azərbaycanın gələcəyinə necə baxırsınız?

Heydər Əliyev: Sizin söylədiyiniz bu on il Azərbaycanın müstəqillik dövrüdür. 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edib və müstəqil dövlət kimi yaşayır. Ancaq təəssüflər olsun ki, bu müstəqil dövlət kimi yaşayıb inkişaf etmək üçün böyük çətinliklərlə, problemlərlə rastlaşmışıq. Birincisi, sizə məlumdur ki, siz 1991-ci ildə buraya gələndə Ermənistanla Azərbaycan arasında savaş gedirdi. Ermənistan Azərbaycanın torpaqlarının bir qismini artıq işğal etmişdi. Bu savaş ondan sonra da davam etdi. 1994-cü ilin may ayında biz bu savaşı dayandırdıq, atəşkəs haqqında anlaşma imzaladıq. Təbiidir ki, bu münaqişə Azərbaycanın müstəqillik dövründə yaşamasına çox böyük problemlər yaradıbdır. Atəşi dayandırdıqsa da, atəşkəs əldə etdiksə də, işğal olunmuş torpaqlardan çıxarılan insanlar çox ağır durumda yaşayırlar. Bir milyondan artıq Azərbaycan vətəndaşını işğal olunmuş torpaqlardan bilirsiniz ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir, - çıxarıbdır, onlar çadırlarda yaşayırlar. Yəni bu, bizim üçün həm siyasi problemdir, həm mənəvi problemdir, həm də iqtisad problemdir. Çünki çadırda yaşayan insanın, birincisi, yaşayışı necə olur, onu bilirsiniz. İkincisi, onlar işləmirlər. Onları yaşamaq lazımdır. Ona görə də, bax, bu problemlər Azərbaycanın inkişafını geriyə salan problemdir. Amma təkcə bu olsaydı, yenə də şükür edərdik.

Təəssüflər olsun ki, Azərbaycanda o vaxt da, siz gördüyünüz vaxtda da sabitlik olmamışdı, ictimai-siyasi vəziyyət daha da korlanmışdı və bu, davam edirdi. Baxmayaraq ki, biz atəşkəsi dayandırdıq. Baxmayaraq ki, biz burada dövləti gücləndirdik. Çünki artıq 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan dağılırdı. Biz onu qonuduq, saxladıq. Amma xalqın gücü ilə, xalq birləşdi. Ancaq sonra isə, 1994-cü ildə bəzi qanunsuz silahlı dəstələr yenidən Azərbaycanda çevriliş etməyə çalışdılar. Dövləti, hakimiyyəti, Prezidenti devirməyə çalışdılar. Biz bunun da qarşısını aldıq. Amma iş bununla da bitmədi.

1995-ci ildə yeni bir çevriliş həyata keçirmək cəhdi oldu. Bizim polisdə xüsusi təyinatlı dəstə var idi. Ola bilsin, bu sizdə də var. Yəni bunlar daha da güclü polis işçiləridir, silahları da çoxdur. Bunun rəhbəri bizim Daxili İşlər nazirinin müavini

idi. Bunları əlinə keçirdi, hakimiyyəti əlinə almaq istədi. Ancaq təkcə o deyildi. Burada müxalifətdə olan bütün partiyalar onu dəstəklədi, onunla birləşdi və bəzi xarici ölkələrdən də ayrı-ayrı dəstələr bunları dəstəklədilər. Bunda hərənin öz marağı var idi ki, bu fürsətdən istifadə edib hakimiyyətə gəlsin. Digər xarici qüvvələrin marağı o idi ki, istədikləri insanı hakimiyyətə gətirsinlər. Ancaq bunun da qarşısını aldıq.

Sonra burada Prezidentə qarşı, mənə qarşı bir neçə terror cəhdləri oldu. Allah bizi bundan da qorudu.

Sual: Yəni on il ərzində rahatlıq olmadı, amma buna rəğmən Azərbaycan hər şeyi qoruyub saxladı?

Cavab: Bəli. Ancaq 1995-96-cı illərdən sonra sabitliyi təmin etdik. Bir tərəfdən atəşin dayandırılması, ikinci tərəfdən, sabitliyin təmin edilməsi bizə imkan verdi ki, Azərbaycanın iqtisadi problemləri ilə, sosial problemləri ilə məşğul olaq və məşğul olduq. Biz buna nəyin nəticəsində gəlib çıxdıq?

Azərbaycanın sovetlər dövründən çox böyük iqtisadi potensialı var idi. Təəssüflər olsun ki, o iqtisadi potensial 1988-89-cu illərdən başlayaraq ilbəil dağıldı və artıq 1995-ci ildə bu, əslində, tamamilə dağılmışdı. Amma bu potensialın bir hissəsi yenə qaldı. Biz isə artıq sosialist sistemində yaşamaq istəmirdik. Müstəqillik əldə edəndən sonra biz müstəqil dövlət kimi, dünyanın başqa dövlətləri kimi demokratik dövlət, hüquqi dövlət, dünyəvi dövlət qurmaq istəyirdik, ikinci tərəfdən də bazar iqtisadiyyatı yolları ilə getmək lazım idi. Amma bu da asan bir şey deyildi. İctimai, iqtisadi, siyasi formasiyanın dəyişməsi çox ağrılı bir prosesdir. Ancaq biz bu yol ilə getdik və bu gün də gedirik. Bunun üçün bir çox islahatlar keçirdik. Bu islahatların əsası da özəlləşmədir.

Məsələn, biz kənd yerlərində torpağı özəlləşdirdik, kəndlilərə verdik. Amma bilirsiniz, keçmişdə kəndlinin heç bir şəxsi mülkiyyəti olmamışdır. Hamısı dövlət mülkiyyəti, ümumi mülkiyyət, kolxoz-sovxoz mülkiyyəti idi. Çox şey dağıldı, amma bir-iki ildən sonra kəndlilər ayaq üstə qalxdılar. Hər adam öz torpağından daha da yaxşı, səmərəli istifadə etməyə başladı. Beləliklə, bizdə kənd təsərrüfatı qalxdı.

Bilirsiniz ki, bizim neft kimi böyük sərvətimiz vardır. Keçmişdə də, 150 il bundan öncə dünyada sənaye üsulu ilə ilk dəfə neft Azərbaycanda çıxarılmışdır. Keçmişdə bu neft ancaq Sovetlər İttifaqına məxsus idi. İndi bu, bizim özümüzündür. Amma gənc müstəqil dövlət kimi, xüsusən dənizdən neft çıxarmaq üçün müasir, modern texnikamız-texnologiyamız yox idi. Ona görə də biz dünyanın böyük neft şirkətlərini buraya dəvət etdik. 1994-cü ildə böyük bir müqavilə imzalandı. Ona "Əsrin müqaviləsi" adı verildi. Orada da biz Bakı - Ceyhan boru xəttinin əsasını qoyduq. Bu şirkətlərin Azərbaycana gəlməsi, təbiidir ki, Azərbaycanda böyük bir təbəqənin iş yeri almasına, maaşların artmasına yardım etdi.

Sonra biz özəlləşdirməyə başladıq. Məsələn, ticarət tamamilə özəlləşdi. İndi sən mağazaları görürsən.

Ancaq 1991-ci ildə bunu görə bilməzdin. Çünki onda hələ sovet sistemi davam edirdi. Mağazaları özəlləşdirdik, təkcə mağazaları yox, kiçik müəssisələri özəlləşdirdik. İndi artıq orta və böyük müəssisələri özəlləşdirdik. Bu da, təbiidir ki, bir tərəfdən, ikinci tərəfdən də, əgər özəl müəssisə, təşkilat şəxsi mülkiyyətdirsə, onu daha da yaxşı işlədir, daha da yaxşı iş görürlər.

Bir də ki, dünya ölkələri ilə sərbəst ticarətə başladıq. Məsələn, Türkiyədən buraya çox iş adamları gəldi. Bu gün də var. İndi mənə deyirlər ki, burada Türkiyədən gəlmiş 5 mindən artıq insan yaşayır. Başqa ölkələrdən gəldilər, ticarət başladı. Bunların nəticəsində biz insanların maaşlarını qaldırdıq, sosial məsələlərini həll etdik və belə bir duruma gəlib çatdıq. Ancaq mən hələ bunu da yetərli görmürəm. Biz bu işin başlanğıcındayıq.

İndi sən soruşdun ki, Azərbaycanın gələcəyini necə görürəm. Azərbaycanın imkanları böyükdür. Azərbaycan bir neçə ildən sonra iqtisadi cəhətdən bundan daha da güclü, insanların yaşayışı, rifahı daha da yaxşı və başqa sahələrdə də hər şey yaxşı olacaqdır.

Sual: Cənab Prezident, İran Xəzər dənizində Azərbaycana güc göstərdi. Bu barədə çətinlik yarandı. Amma sonra hər şey yoluna düşdü. Qarşıda Sizin İrana səfəriniz vardı. Sentyabrın 17-də İrana gedəcəksiniz. Bu sahədə İrana nə mesaj göndərirsiniz, nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz, mənim İrana rəsmi səfərimə gəldikdə, İranın yeni Prezidenti cənab Xatəmi hələ dörd il bundan öncə məni İrana dəvət etmişdi. Mən də onu dəvət etmişdim. Çünki İran qonşu ölkədir. Bizim quruda 750 kilometr sərhədimiz vardır. Təkcə bu deyil. İranda çoxlu azərbaycanlılar yaşayır. Keçmişdə bizim müştərək dəyərlərimiz olubdur. Ona görə də İran bizim üçün yaxın ölkədir.

Mən keçmişdə orada olmuşam. İranın keçmiş Cümhurbaşkanı da burada olmuşdur. Ancaq yeni Cümhurbaşkanı seçilməmişdən əvvəl mən o dəvəti almışdım, ancaq müəyyən səbəblərə görə həyata keçirə bilməmişdim. O da mənə söz verdi ki, öncə sən gəl, sonra da mən gəlim. Nəhayət, biz bunu sentyabrın 17-nə təyin etdik. Yəni mənim İrana bu səfərim 2-3 il bundan öncə planlaşdırılmış bir səfərdir. Bu, heç bir ekstremal hadisə ilə bağlı deyildir.

Sual: Məlum hadisə ilə əlaqədar getmirsiniz?

Cavab: Yox, yox, yox. Bu, öncədən planlaşdırılmışdı.

Mənim bu səfərim geniş xarakter daşıyacaqdır. Çünki biz orada bir neçə anlaşma imzalayacağıq. Dövlətlərarası bir anlaşma imzalayacağıq. Bir neçə sahələrdə anlaşmalar imza-

layacağıq. Bizim İran - Azərbaycan müştərək iqtisadi komissiyamız vardır. Necə ki, Türkiyə ilə var, İran ilə də var. Onlar daim işləyirlər. Biz onları dinləyəcəyik ki, nə iş görüblər, bundan sonra nə iş görə biləcəklər. Bir sözlə, məqsəd İran ilə Azərbaycan arasında olan əlaqələri həm iqtisadi sahədə, həm də digər sahələrdə daha da inkişaf etdirməkdən ibarətdir. O ki qaldı həmin hadisəyə, bu, gözlənilməz bu hadisədir. Çünki biz 1994-cü ildə ilk müqaviləni imzalayanda hələ heç bir Xəzəryanı ölkə Xəzərdə nə var, nə yox - bilmirdi. Onda heç kəs demirdi ki, Xəzərin statusu lazımdır, ya lazım deyildir. Biz müqaviləni imzalayandan 6-7 ay sonra bu problem qalxdı ki, Xəzərin hüquqi statusu olmalıdır. Yəni Xəzərdə hansı ölkə nə iş görə bilər. Amma biz də nəyə əsaslanırıq? Sovetlər vaxtı Xəzər iki ölkəyə mənsub olubdur. Biri Sovet İttifaqı, biri də İran. Sovet İttifaqının İran ilə sərhədi çox cənubda, yəni güneydə olubdur. Çünki yuxarıda Rusiya, Qazaxıstan, o tərəfdə Türkmənistan, burada Azərbaycan var, İran isə aşağıdadır, yəni Xəzərin lap güney tərəfindədir. O sərhədi də sovetlər vaxtı SSRİ ilə, yəni Sovetlər İttifaqı ilə İranın sərhədi kimi tanımışdılar və qoruyurdular. İndi Sovetlər İttifaqı yoxdur.

Amma Sovet hökuməti o vaxt, 1970-ci ildə Xəzərin neft-qaz ehtiyatlarının istifadə edilməsi üçün onu sektorlara bölmüşdür. Biz öz bölməmizdə çalışırıq, başqa yerə keçməmişik. Ancaq indi İran deyir ki, yox, belə olanda İrana az pay düşür. Xəzər beş ölkəyə bərabər bölünməli, hərəsinə 20 faiz düşməlidir. Amma bu da coğrafi nöqteyi-nəzərdən mümkün deyildir. Çünki Xəzərin sahilində hansı ölkənin sərhədi varsa, oradan - bir də Xəzərin orta xətti var, orta xəttə qədər bu ölkənin olur. O birisi tərəfdən orta xəttə qədər o ölkənin olur. Rusiya, Qazaxıstan ilə belə anlaşmalarımız var. Amma İran deyir yox, gəlin toplaşaq, Xəzəri beş yerə, hər bir ölkə üçün 20 faiz bölək, ondan sonra çalışaq. Amma bunu necə etmək, onlar bunu deyə bilmirlər. Orada bizim üç neft yatağımız var. 1998-ci ildə BM şirkəti və bir çox şirkətlər ilə anlaşma imzalamışıq ki, orada işləsinlər. Onlar üç ildir orada çalışırlar. Yəni onlar hələ oranı öyrənirdilər, geofiziki işlər aparırdılar. İndi də geofiziki işlər aparırlar. Amma İran hesab edir, bir halda ki, Xəzərin statusu hələ müəyyən olunmayıb, İran özünə 20 faiz götürür. O, 20 faiz götürəndə də, gəlib Türkmənistanın və Azərbaycanın payının üzərinə çıxır.

Sual: Siz səfər zamanı Tehranda bunlar barədə danışacaqsınız?

Cavab: Danışacağam. Bunu danışmışıq və danışacağıq. Ona görə də əgər elə olsa, yenə də həmin yataqlar İrana düşmür, İranın olmur. Amma indi belə ediblər. Hər halda danışacağıq.

Sual: Sizcə, bir uzlaşma formulu varmı?



AZERBAYCAN
CUMHURBAŞKANI
EKSELANS
HAYDAR ALİYEV
HOŞGELDİNİZ
MARMARA GRUBU



EXIT

TÜRK DİLİ KONUŞAN ÜLKEL
KÜLTÜR BAKANLARI DAİMİ KON
VIII. DÖNEM TOPLANTIS
BAKÜ 6 - 8 KASIM 1996

IIN
VI
VI САММИТ ГЛАВ
ТЮРКОЯЗЫЧНЫХ ГОСУД
БАКУ-2000

Cavab: Uzlaşma formulu odur ki, gərək biz, beş ölkə Xəzərin bölünməsi problemlərini çözək. Bunu çözmədən heç kəs heç bir şey deyə bilməz. İndi kimsə burada güc işlədirsə, bu, beynəlxalq hüquq normalarından kənardır.

Sual: Cənab Prezident, bu günlərdə "Türk ulduzları" Bakı səmasında uçuşlar keçirdilər. Bu, Sizin İrana mesajınızmı idi? Belə bir şeyə izin verdiniz, Azərbaycan xalqı da bunu Azadlıq meydanında seyr etdi.

Cavab: Bilirsiniz, İran hesab edir ki, İrana mesajdır. Ancaq Türkiyənin Baş Qərargah rəisi hörmətli Hüseyn Qıvrıkoğlunun Azərbaycana dəvəti iki ay öncə olmuşdu. Bu dəvət proqramında da "Türk ulduzları"nın buraya gəlməsi var idi. Amma gəlib bu vaxta düşdü. İndi dünyada da, orada da deyirlər ki, bu, İrana bir mesajdır. İndi kim nə cür anlayır, qoy o cür anlasın.

Sual: Cənab Prezident, İran, Türkiyə, Rusiya - böyük neft ehtiyatı olan müstəqil Azərbaycan dövlətinin başçısı kimi bu böyük oyunçular arasında bu incə siyasəti necə həyata keçirirsiniz? Bunun formulu nədir?

Cavab: Burada hələ Türkmənistan da vardır. Onu unutmayın. Türkmənistan da türk dövlətidir. Azərbaycan da türk dövlətidir. İran da, Azərbaycan da, Türkmənistan da, Qazaxıstan da müsəlman ölkələridir. Ancaq sən özün dedin ki, bu, incə siyasətdir. İndi həmin incəliyi yolunu axtarır.

Sual: Bu incəliyin yolu nədir? Hər kəs bunun yolunu axtara bilmir.

Cavab: Taparıq.

Sual: Cənab Prezident, bu barədə çox adam düşünür. Bakı - Ceyhanla bağlı son durum necədir? Heydər Əliyev olaraq, könlünüz rahatdırmı? Bu iş artıq yolundadırmı?

Cavab: Tamam rahatdır. Çünki biz Bakı - Ceyhanı bir neçə dəfə müzakirə etdik. Buna mane olanlar çox idi. Ancaq 1999-cu ilin sonunda İstanbulda, ATƏT-in zirvə görüşündə bir anlaşma imzaladıq. Ondan sonra isə kommersiya, ticarət məsələləri çözdük. Artıq Bakı - Ceyhan inşa olunmağa başlayıbdır.

Sual: Bakı - Ceyhan boru xəttindən keçəcək neftə tam təminat varmı?

Cavab: Buna tam təminat vardır.

Sual: Qazaxıstan neftinə ehtiyac yoxdurmu?

Cavab: Qazaxıstan nefti gəlsə də olar, gəlməsə də. Gəlsə, daha yaxşı olar. Amma Qazaxıstan deyir ki, gələcəkdir.

Sual: Bu sahədə Qazaxıstanla görüşlərinizi davam etdirirsinizmi?

Cavab: Biz elə bir görüş keçirmişik. Bəzən ayrı-ayrı ölkələrdə mən Nazarbayevlə görüşürəm. Yəni toplantı olan bir yerdə. Məsələn, İstanbulda da biz bir yerdə idik. Bir ay bundan öncə Soçidə görüşdük. Elə bir problem yoxdur. Onsuz da indi Qazaxıstan bizim tankerlərlə və buradan dəmir yolu ilə təxminən üç-

dörd milyon ton neft ixrac edir. İndi hələ Bakı - Ceyhan yoxdur. Tankerlər nefti buradakı terminala gətirir, dəmir yolu oradan götürüb Batumiyə aparır. Oradan yenə də tankerlərə vurulur. Amma Bakı - Ceyhan olanda neft buraya gələcək, buradan boru ilə Ceyhana gedəcəkdir.

Sual: Cənab Prezident, Dağlıq Qarabağ problemi ilə bağlı Ki-Vestdə, Parisdə, Soçidə Koçaryan ilə görüşmüsünüz. Bu görüşlər yenə davam edəcəkmi?

Cavab: Davam edəcəkdir.

Sual: Bir anlaşma əldə olunmasına ümidiniz varmı?

Cavab: İnsan ümidsiz yaşaya bilməz. Ümid var. Ancaq bu, o qədər də asan deyildir.

Sual: Siz Azərbaycan olaraq, torpaqları işğaldan azad edəcəksiniz. Bəs qarşı tərəf nə deyir?

Cavab: Qarşı tərəf deyir ki, Dağlıq Qarabağ "müstəqil bir cümhuriyyətdir", on iki ildir ki, Azərbaycandan "ayrılıb", indi Dağlıq Qarabağ Azərbaycana yenidən qatıla bilməz. Onlar belə deyirlər.

Sual: Belə olan halda, yəqin ki, danışıqlar çox çətin olur?

Cavab: Çox çətin. Amma problem təkcə Dağlıq Qarabağ deyildir. Dağlıq Qarabağ kiçik bir bölgədir. Münaqişə başlanmazdan əvvəl orada 160 min insan yaşayırdı. Onun da 23-24 faizi azərbaycanlı, digərləri isə ermənilər idi. Yəni ora böyük bir yer deyildir. Amma bizi daha da çox narahat edən həm Dağlıq Qarabağdır, çünki bizim torpağımızdır, həm də Dağlıq Qarabağın ətrafında bizim işğal olunmuş yeddi böyük rayonumuzdur.

Dediyimiz bir milyon insan, azərbaycanlı oradan çıxarılıbdır. Dağlıq Qarabağda cəmi 40 min azərbaycanlı yaşayırdı, amma digərləri o biri bölgələrindən çıxarılıblar. Bizim məqsədimiz birinci mərhələdə o rayonları işğaldan azad etmək, insanları yerinə qaytarmaq, ondan sonra da Dağlıq Qarabağ məsələsini çözüb bunu Azərbaycan torpağı kimi sona çatdırmaqdır.

Sual: Bakı - Ceyhan kəmərinin Ermənistandan keçməsi barədə ermənilər Amerika Konqresinə, ABŞ Prezidentinə məktub yazdılar. Ermənilər belə bir şey söyləyirlərmi ki, biz işğaldan vaxt keçirik, amma neft kəməri Ermənistan ərazisindən keçsin. Bu barədə danışırlarmı?

Cavab: Birincisi, artıq bu, gecdir. Hər şey həll olunubdur. Fikir dəyişilə bilməz. İkincisi də, o vaxtlar, yəni hələ Bakı - Ceyhan haqqında 1995-1996-cı illərdə danışıqlar gedən zaman Amerikadan bəzi senatorlar belə şeyləri qaldırıblar. Biz isə deyirdik ki, əgər bu məsələ çözülsə, bizim üçün fərqi yoxdur, bunu da edə bilərik. Amma onlar buna razı olmadılar.

Sual: Doğrudur, artıq çox gecdir. Boru xətti Gürcüstan ərazisindən keçəcəkdir. Yəni hər şey bitdi?

Cavab: Bəli, bu məsələlər bitdi.

Sual: Siz Sovetlər Birliyinin

yüksək vəzifələrində çalışmış insanlardan birisiniz. Sizin sayənizdə Azərbaycanda sabitlik yaranıbdır. Çox önəmli və bu gün də davam edən böyük rolunuz vardır. Heydər Əliyev olaraq, Sizdən sonra Azərbaycanda nə olacağını deyə bilərsinizmi?

Cavab: Mən özüm hələ varam. Düşünürəm ki, mən bir çox il Azərbaycanda Cümhurbaşkanı olacağam, yaşayacağam. Mənim buna heç şübhəm yoxdur. Ona görə də mən gələcək haqqında o qədər də çox düşünmürəm. Çünki onu o vaxt düşünmək olar ki, məsələn, hesab edəsən ki, bir ildən sonra olmayacaqsan. Amma, yox, Allah məni həmişə saxlayıbdır, bundan sonra da saxlayacaqdır.

Sual: Biz Sizin oğlunuz İlham Əliyev ilə görüşdük. Ondan soruşduq ki, deyirlər, Heydər Əliyev oğlunu varisliyə hazırlayır və bu barədə nə deyə bilərsiniz?

Heydər Əliyev: İlham sizə nə dedi?

Jurnalist: O dedi ki, mən həqiqətən də atamın oğluyam.

Heydər Əliyev: Bilirsiniz, mən bir dəfə demişəm, onlar məndən inciyirlər. Bizim müxalifət dünyada ən küt müxalifətdir.

Sual: Nəyə görə?

Cavab: Çünki Türkiyədə də müxalifət var. Amma müxalifətlə iqtidar arasında bir iltifat da var. Elədirmi? Parlamentdə o da sözünü deyir, bu da sözünü deyir. Məsələn, siz televiziyada işləyirsiniz. Qəzetlər var. Hörmətli Aydın Doğan sabah buraya gələcəkdir. Onun böyük holdinqi var. Amma qəzetlər o tərəfi də tənqid edir, bu tərəfi də tənqid edir. Ancaq tənqidin də bir çərçivəsi var. Təhqir yoxdur, yanlış yoxdur, böhtan yoxdur. Mən Türkiyənin qəzetlərini görürəm. Amma burada İrfan Sapmaz yaxşı bilir, hər sabah "Yeni Müsavat" qəzetini aç, orada 5-6 məqalə mənim əleyhimədir. Onlardan biri də mütləq mənim oğluma aiddir. Bugünkü qəzetdə də var. Hər gün. Heydər Əliyev bu gün getdi, sabah getdi. İki gün bundan öncə yazıblar ki, Heydər Əliyevin sağlamlığında problemlər vardır. Nə üçün? Çünki o, Amerikaya getməli idi, getmədi. Mənim Amerikaya getmək planım yoxdur. Amma onlar özləri bunu uydururlar. Sonra, niyə getmədi, buna cavab verir.

Deyirlər ki, Heydər Əliyev, ola bilər, İrana getməsin. Nə cür ola bilər, getməsin? Mənim bir çox başqa səfərlərim var. Yaxşı, mən bir ay bundan öncə Soçidə idim. Ondan əvvəl, mart ayında Türkiyədə idim, başqa yerlərdə idim. Bütün planında olan səfərlərə də gedəcəyəm. Ancaq mən hesab etmirəm ki, cümhurbaşkanı dünyanı gəzməlidir. Ölkənin içində daha da çox olmalıdır ki, işləri görsün.

Sual: Cənab Prezident, yeri gəlmişkən, soruşmaq istəyirəm. Çünki iddialardan biri də sağlamlığınızla bağlıdır. İndi sağlamlığınız necədir?

Cavab: Çox yaxşıdır. Sən məni nə cür görürsən?

Sual: Mən yaxşı görürəm. Bilmirəm, həkimləriniz nə deyir?

Cavab: Həkimlər səndən yaxşı görürlər.

Sual: Azərbaycan üçün demokratiya sahəsində nə işlər görülmüşdür?

Cavab: Bilirsiniz, Azərbaycanda bu gün üçün yetərincə demokratiya vardır. Məsələn, burada 500-600 qəzet çıxır. Türkiyədə belə deyildir. Türkiyədə 10-15 qəzet var. Onlar da böyük qəzetlərdir. Burada kimin pulu var, gedib qəzet çıxarır, kefi də nə istəyir, onu da yazır. Əgər hər gün Cümhurbaşkanının adına, ünvanına, yəni onun əleyhinə yalanlar yazılırsa, bu, demokratiya deyilmi? Bəziləri gəlib mənə deyir ki, siz buna necə dözürsünüz? Bunları məhkəməyə verək, bunları bağlayaq, nə bilim, cəzalandıraq. Mən deyirəm, yox. Bu, demokratiya deyilmi? Bundan artıq nə demokratiya ola bilər?

Burada nə qədər partiya var. Sizdə, Türkiyədə bu qədər partiya yoxdur. Üç-dörd partiya var. Bu partiyalarda toplaşırlar, nə lazımdır edirlər. Hər gün də yazırlar ki, biz aksiyalar keçirəcəyik, mitinqlər, toplantılar keçirəcəyik. Heydər Əliyev hökumətini devirəcəyik. Yaxşı, əgər bunlar demokratiyadan danışırlarsa, hansısa hakimiyyəti zorla devirmək antidemokratik bir şeydir. Amma bir dəfə Heydər Əliyev hakimiyyətini devirməyə çalışdılar.

İndi bizdə müxalifət kimdir? Bir qrup adam. Əvvəllər yaranmış Xalq Cəbhəsi indi parçalanıbdır. Bir neçə partiya elan olunubdur və bir-biri ilə vuruşurlar. Başqa bir müxalifət qüvvə yoxdur. Onlar 1992-ci ildə bir dəfə iqtidara gəldilər. Bir il içərisində Azərbaycan dağıldı, vətəndaş müharibəsi başladı, onlar hamısı qaçıb gizləndi. Onlar xalqla birlikdə məni buraya dəvət etdilər. Onlar özləri. Mən bura gəlmək istəmirdim. Xalq məni istəyirdi.

Bakıdan mənim yanıma, Naxçıvana gündə beş-altı nümayəndə heyəti gəlirdi ki, Heydər Əliyev, Azərbaycan yanır, gəl. Dedim ki, mən buradan, Naxçıvandan heç bir yerə çıxmayacağam. Həqiqətən, mənim qərarım belə idi ki, mən həyatımın sonuna qədər doğulduğum yerdə yaşayacağam. Çünki mən istəmirəm ki, gəlim, özümü belə əziyyətlərə salım. Amma sonra mərhum Əbülfəz Elçibəy mənə dörd gün telefon etdi. Dörd gün. Hər gün təyyarəni Naxçıvana göndərir, mən gəlmirdim, təyyarə geri qayıdırdı. Həmin İsa Qəmbər ki, var - onda məclis sədri idi, mənə hər gün telefon edirdi. Burada Baş nazir Pənah Hüseynov var idi. Hər gün mənə telefon edirdi ki, Heydər Əliyev, gəl.

Nəhayət, mən gəldim. Ona görə yox ki, mən burada hakimiyyəti almə alım. Gəldim ki, görüm burda nə var, bu ölkə niyə belə dağılır. Mənim bu millətin üzərində zəhmətim var. Bunu unuda bilmərəm. Uzun illər bu ölkəni saxlamışam, inkişaf etdirmişəm.

Siz dediyiniz kimi, mən altı il Moskvada ən yüksək vəzifədə çalışaraq Azərbaycana qayğı göstərmişəm. Gəldim görüm, axı, bura niyə dağılır. Bura dağılanda, bizim hamımız dağılacağıq, Azərbaycan olmayacaqdır. Gəldim buraya, doğrudan da, elə idi. Mənimlə beş gün danışıqlar apardılar ki, parlamentin sədri istefa vermişdi, Baş nazir də istefa vermişdi. Mən buna razı olmadım, istəmədim.

Olaylar Gəncədə başlamışdı, bilirsiniz. Son olaraq, gördüm ki, əgər mən bu işə qatılmasam, bura dağılacaqdır. Onda söylədim ki, mən Gəncəyə getməliyəm, oradakı vəziyyətə baxmalıyam. Amma oraya gedəni də öldürürdülər. Mən belə bir riskə getdim. Orada o adamla, - hansı ki, Prezident olmaq istəyirdi, sonra mənə qarşı da çevriliş cəhdi etdi, - danışdım, gördüm ki, gənc, ağılsız bir insandır, amma əlində hər şey var. Silah bunun əlində, ordu bunun əlində - hər şey bunun əlində, dağıdacaqdır. Gəldim, burada dedim ki, mən bu məsuliyyəti üzərimə götürürəm, parlamentin başkanı oluram. Mən burada Əbülfəz Elçibəylə bərabər çalışdım. İki gündən sonra Əbülfəz Elçibəy bu binadan gecə gizlincə qaçdı, Naxçıvanda Kələki kəndi var, təyyarə ilə uçub oraya getdi. Mən burada tək qaldım. Nə Prezident vardı, nə Baş nazir. Təkcə mən idim, parlamentin sədri.

Bilirsiniz, belə bir zamanda, belə bir dövrdə mən gəldim, bunları xilas etdim. Amma bunlar mənə təşəkkür etmək əvəzinə, özləri məni dəvət etmişdilər, - iki aydan sonra müxalifət oldular. İndi də həmin müxalifət varmı? Yoxdur. Ancaq onlardır. Yenidən hakimiyyətə gəlmək istəyirlər. Yaxşı, gəlsinlər, ola bilər. Ancaq məni hədələyirlər ki, onlar burada mənə çevriliş edəcəklər, nə edəcəklər. Əgər gücləri var idisə, o vaxt hakimiyyət onların əlində idi, dayanaydılar. Mən buna imkanı vermərəm. Mən hakimiyyəti bu yolla heç kəsə vermərəm.

Sual: 2003-cü ildə yenidən namizədliyinizi verəcəksiniz?

Cavab: Bəli, 2003-cü ildə də namizədliyimi verəcəyəm və hesab edirəm, xalq mənə yenə də etimad göstərəcəkdir.

Sual: Cənab Prezident, son sualımı vermək istəyirəm. Bu, tarixi baxımdan vacib olduğuna görə soruşacağam. 1914-cü ildə, Birinci dünya müharibəsi zamanı Yaxın Şərq xəritəsi ingilislər tərəfindən yenidən cızıldı. O zaman bunu böyük oyun adlandırdılar. Doğrudur, ondan sonra da xəritələr cızılıbdı. 1989-1990-cı illərdən sonra Qafqazda, Orta Asiyada, Balkan bölgəsində xəritələr yenidən cızıldı. Böyük oyun bu tərəflərə gəldi. İndi Xəzər hövzəsində çox böyük oyun davam etməkdədir. Xəzər bölgəsi də Yaxın Şərqə dönə bilərmi, qarışarmı? Təcrübəli insan kimi, Siz irəliyə baxarkən nəyi görürsünüz?

Cavab: Mən düşünmürəm ki, elə bir şey ola bilər. Düşünmürəm. Mən düşünmürəm. Doğrudur, burada problemlər var. Amma mən düşün-

mürəm ki, elə bir şey olsun.

Qafqazda əsas iki məsələ vardır. Birincisi, Ermənistan - Azərbaycan münaqişəsini çözmək, ikincisi də Gürcüstan - Abxaziya problemini çözmək. Əgər onlar çözülsə, Qafqazda rahatlıq olacaqdır.

Xəzər dənizində də, güman edirəm ki, beş dövlət bir araya gəlib qərar qəbul edəcəyik. Ona görə belə şey düşünmürəm.

Müxbir: Hörmətli Cənab Prezident, Azərbaycan Sizə çox şey borcludur. Müsahibəyə görə çox təşəkkür edirəm. Çox sağ olun.

"Azərbaycan" qəzeti, 13 sentyabr 2001-ci il.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

Əziz dostum və qardaşım!

60 illik yubileyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Siz bütün ömrünüz boyu vətənə, xalqa sədaqətlə xidmət etmisiniz. Bu gün qardaş Türkiyənin dövlət başçısı kimi ölkənizin çiçəklənməsi və tərəqqisi yolunda məqsədyönlü və ardıcıl səylər göstərirsiniz.

Qədim tarixi kökləri ilə bir-birinə bağlı olan qardaş xalqlarımız arasında əbədi və sarsılmaz dostluğun, sıx əməkdaşlığın, ölkələrimizin strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi sahəsində xidmətləriniz böyükdür və çox dəyərlidir.

Aramızda yaranmış dostluq münasibətlərini əziz tutur və yüksək qiymətləndirirəm.

Bir daha Sizi təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, dost və qardaş Türkiyənin rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 sentyabr 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm Prezidentim!

Xəzər regionunun bu gün haqqında ən çox danışılan və "Azəri", "Günəşli", "Çıraq" yataqlarındakı zəngin ehtiyatları ən əvvəl Azərbaycan, sonra isə bölgə və dünya iqtisadiyyatına təqdim edəcək "Əsrin müqaviləsi"nin beşinci ildönümü mərasimlərində iştirak və hörmətli prezidentimizi təmsil etmək məqsədilə 1999-cu ildə gözəl ölkənizə gəlmişdim.

Hər şeydən öncə, bu müqaviləyə əsasən qurulmuş konsorsiumda dövlət şirkətlərimizdən Türkı Petrolları Anonim Ortaqlığı vasitəsilə Türkiyənin də yer almasına böyük dəstək və təşviqlərinizi əsirgəmədiyiniz üçün Zati-alinizə, Azərbaycanın bütün əlaqədar dövlət idarəçilik orqanlarına, Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına təşəkkürümüzü bildirmək istəyirəm.

Türkiyə 1994-cü ildən etibarən payçısı olduğumuz bu layihə və konsorsiuma bu günə qədər göstərilmiş qayğı, diqqət, maraq və həyəcanımızdan daha çox Azərbaycanda mövcud olmanın, bu dost və qardaş ölkənin yüksəlişində iştirak etmənin iftixarını yaşamaqdadır.

Əsas ixrac neft boru kəmərinin Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə həyata keçirilməsi Azərbaycan, Gürcüstan və Türkiyə Prezidentlərinin qərar və dəstəkləri ilə gerçəkləşdirilmişdir.

Azərbaycan xalqı bu gün əlamətdar bayramlarından birini - "Neftçilər günü"nü qeyd edir. Azərbaycanın dövlət müstəqilliyini qazanmasından sonra Zati-aliniz tərəfindən 20 sentyabr 1994-cü ildə imzalanmış tarixi "Əsrin müqaviləsi" öz bəhrələrini verməkdədir.

Möhtərəm Prezidentim!

Zati-alinizi və bütün neftçilərinizi həm qardaş Azərbaycan, həm də Türkiyə üçün mühüm bir bayram olan 20 sentyabr "Neftçilər günü" münasibətilə səmimi qəlbdən təbrik edir, müdrik idarəçiliyiniz altında bu tarixi müqavilənin hələ neçə-neçə xoşbəxt illərə çatmasını, Azərbaycanın iqtisadiyyatında, yüksəlişində mühüm rol oynamasını arzu edirəm.

Professor, doktor
Əbdülxalıq Mehmət Çay
Türkiyə Cümhuriyyətinin Dövlət naziri

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab Heydər Əliyev!

"Neftçilər günü" münasibətilə türk millətı və şəxsim adından ürəkdən gələn təbriklərimlə birlikdə Sizə cansağlığı və səadət arzulayır, qardaş Azərbaycan xalqının rifahı naminə ən yaxşı diləklərimi və yüksək ehtiramlarımı bildirirəm.

Zəki Çakan,
Türkiyə Cümhüriyyətinin Enerji və Təbii Ehtiyatlar naziri
Ankara, 14 sentyabr 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Cənab Prezident!

Müstəqil Azərbaycan dövlətinin milli neft sənayesinin bayramı - "Neftçilər günü" münasibətilə Sizi və şəxsinizdə fədakar Azərbaycan neftçilərini ürəkdən təbrik edirəm.

Əminəm ki, Sizin başsağlığınız və həyata keçirdiyiniz neft strategi-

yası Azərbaycan dövlətinin iqtisadi qüdrətinin yüksəldilməsində çox önəmli yer tutur və inanıram ki, gələcəkdə daha böyük və mühüm nəticələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, istəklərinizdə uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

M.Əli Türkoğlu,
Türkiyə Petrolları Anonim Şirkətinin Prezidenti
Ankara, 17 sentyabr 2001-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

20 sentyabr tarixini neftçilərin bayramı kimi elan etməyiniz Azərbaycanın ən böyük gəlir mənbəyini şərəfləndirmək mənası verir. Bağladığımız çox gözəl müqavilələr nəticəsində bu nəhəng sərvəti xalqınızın istifadəsinə verdiniz.

Neft güc deməkdir, neft pul deməkdir, qısası, Allahın bağışladığı bir sərvətdir. Neft sahəsində Zati-alinizin əldə etdiyi nailiyyətlərə qiymət vermək üçün söz tapmaq mümkün deyildir.

Ən xoş arzularımla neftçilərin bayramını təbrik edir, Sizə öz dərin hörmətimi bildirirəm.

Professor, doktor **Güntəkin Köksal,**
"Pet Holding"in İdarə Heyətinin sədri
Ankara, 11 sentyabr 2001-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "2001-Cİ İLİN MÜDRİK DÖVLƏT ADAMI" SEÇİLMƏSİ

1993-cü ildən fəaliyyət göstərən Ankara İş Qadınları Cəmiyyəti iki qardaş ölkə arasında dildə də birliyi təmin etmək məqsədi ilə böyük bir addım ataraq 2001-ci ilin avqustun 1-dən etibarən latın əlifbasına keçilməsi ilə əlaqədar verdiyi tarixi qərara görə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi "2001-ci ilin müdrik dövlət adamı" seçmişdir.

16 sentyabr 2001-ci il

TƏŞƏKKÜR MƏKTUBLARI

20 sentyabr - Türkiyənin "Doğan Holding" qrupunun rəhbəri Aydın Doğan Prezident Heydər Əliyevə Azərbaycanda olduğu müddətdə onun başçılıq etdiyi nümayəndə heyətini qəbul etdiyinə görə təşəkkür məktubu göndərmişdir.

***

27 sentyabr - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər ad günü münasibətilə göndərdiyi təbrik məktubu və etdiyi telefon zənginə görə Heydər Əliyevə təşəkkür məktubu göndərmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ 2001-Cİ İL ÜÇÜN "TÜRK DÜNYASININ XÜSUSİ MÜKAFATI" VERİLMƏSİ BARƏDƏ QƏRAR

Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin (TÜRKSAN) İdarə Heyəti Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il üçün Türk Dünyasının Xüsusi Mükafatına layiq görülməsi barədə yekdillikllə qərar qəbul etmişdir.

10 oktyabr 2001-ci il

SƏMİMİ TƏBRİKLƏR

17 oktyabr - Türkiyə Cümhuriyyətinin Baş naziri Büland Ecevit, Azərbaycanın milli müstəqilliyinin 10-cu ildönümü münasibətilə Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

***

18 oktyabr - Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Azərbaycanın milli müstəqilliyinin 10-cu ildönümü münasibətilə Heydər Əliyevə təbrik məktubu göndərmişdir:

***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Cənab Prezident!

Əziz dostum!

Qardaş Azərbaycanın milli müstəqilliyinin onuncu ildönümünü şəxsən öz adımdan və türk milləti adından ən səmimi arzularla təbrik edirəm.

Azərbaycan on illik qısa bir müddət ərzində bölgədə baş verən bütün çətinliklərə sinə gələrək, tarixi təcrübəsi, mükəmməl insan potensialı və yeritdiyi qəti siyasət sayəsində müstəqilliyini və respublika quruluşunu inkişaf etdirmiş, beynəlxalq ictimaiyyətin sayılan bir üzvü kimi layiq olduğu yeri tutmuşdur. Bu müvəffəqiyyətin qazanılmasında uca şəxsiyyətinizin dərin təcrübəsi və müdrik rəhbərliyi, şübhəsiz, böyük rol oynamışdır.

Azərbaycan müstəqilliyini yenidən əldə etdikdən sonra ölkələrimiz arasında qurulan əlaqələrin sürətlə inkişaf edərək, hər sahədə yüksək səviyyəyə çatması əməkdaşlığımızın və həmrəyliyimizin təminatıdır. Bütün dünyada nümunə olan əlaqələrimizin bu möhkəm təməllər əsasında dərinləşərək daha da inkişaf edəcəyinə əminəm.

Türk milləti Qafqazda azadlıq abidəsi kimi yüksələn qardaş Azərbaycanın on ildə nail olduğu Azərbaycan xalqının uca şəxsiyyətinizin

rəhbərliyi altında daha neçə onilliklər əmin-amanlıq şəraitində bayram etməsini ürəkdən arzu edir.

Dəyərli qardaşım!

Fürsətdən istifadə edərək, uca şəxsiyyətinizin sağlamlığı və xoşbəxtliyi, qardaş Azərbaycan xalqının rifahı və əmin-amanlığı naminə ən xoş arzularımı çatdırıram.

Əhməd Necdət Sezər
Türkiyə Cümhuriyyətinin
Prezidenti.
18 oktyabr 2001-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev oktyabrın 21-də Prezident sarayında Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** hörmətli qonağı və onu müşayiət edən şəxsləri səmimiyyətlə qarşılayaraq dedi:

- Hörmətli cənab nazir!

Azərbaycana xoş gəlmisiniz. Sizi və sizinlə bərabər Türkiyədən Azərbaycana gəlmiş qonaqların hamısını səmimi qəlbdən salamlayıram və bu görüşdən çox məmnunam. Türkiyə ilə Azərbaycan arasında qardaşlıq əlaqələri daim inkişaf edir. Bundan ötrü hər iki tərəfdən çox işlər görülür. Ancaq belə görüşlər, məsləhətləşmələr, bəzi məsələlər haqqında mövqelərin müəyyənləşdirilməsi də çox vacibdir. Yəni bu bizim əlaqələrimizin əsas istiqamətlərindən biridir. Ona görə də mən sizin Azərbaycana səfərinizi qiymətləndirirəm. Ümidvaram olduğumu bildirmək istəyirəm ki, biz sizinlə həm Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr haqqında, onların gələcəyi barədə söhbət edərik. Bir də ki, indi dünya çox qarmaqarışıqdır. Dünyada nə var, nə yox, nə proseslər gedir, Türkiyə buna necə baxır, Azərbaycan necə baxır, nə edirik, nə etməliyik... Təbiidir ki, bunlar barədə də müəyyən qədər yikir bölüşməsi edəcəyik. Mən sizi bir də salamlayıram.

Səmimi qəbul üçün Prezident Heydər Əliyevə təşəkkürünü bildirən **İsmayıl Cem** dedi:

- Sayın Cümhurbaşkanım!

Öncə sayğılarımızı Sizə bildirəmk istəyirəm. Bizə vaxt ayırdığınıza görə çox sağ olun. Həmişəki kimi, iki qardaş ölkə arasında çox faydalı görüşlərin gerçəkləşməsinə daha bir imkan yaratdınız. Mən əvvəlcə hörmətli prezidentimiz Sezərin dərin hörmət və ehtiramını Sizə çatdırmaq istəyirəm. Hörmətli Baş nazirimizin sayğılarını və ehtiramını Sizə yetirirəm.

Azərbaycanla Türkiyə arasındakı münasibətlər, haqəqətən, hər kəsə örnək olacaq səciyyə daşıyır. Birbirimizi həmişə qardaş bilmişik və bir-birimizə arxa olmuşuq. Bunu, əlbəttə ki, daha yüksək səviyyədə davam etdirəcəyik. Ölkələrimiz arasında həmişə çox yaxşı ikitərəfli əlaqələr olmuşdur. İkitərəfli əlaqələrimizə son vaxtlar "Şahdəniz" layihəsini daxil edilməsi ilə iqtisadi əməkdaşlığın daha da inkişaf etməkdədir. Bundan böyük məmnunluq duymaqdayıq.

Buyurduğunuz kimi, dünyada qarışıq bir dövr yaşanmaqdadır. 11 sentyabr hadisələri, bunun ardınca Əfaqnıstanda, habelə Gürcüstanda hadisələr baş verməkdadir. Mən bunlar haqqında sizin çox dəyərli fikirlərinizin, təcrübənizin, baxışlarınızın Türkiyə nöqteyi-nəzərindən həmişə çox faydalı olduğu düşüncəsindəyəm. Bu görüşümüzdə həmin məsələləri Sizin dəyərləndirməyiniz, bu barədə Sizinqənaətiniz bizim üçün çon dərəcə əhəmiyyətlidir. İcanənizlə, bunlar haqqında Sizin fikirlərinizi bilməuk istərdik.

Dünyada baş vermiş son hadisələr baxımından, adətən, insanları, mədəniyyətləri üz-üzə qoymaq istəyənlərlə qarılaşmaqdayıq. Bunların qarşısını almaq, bunlara mane olmaq, məncə, həm Azərbaycanın, həm də Türkiyəni vəzifəsidir. Bununla bağlı biz Türkiyə olaraq bir təşəbbüs göstərdik. İslam Konfransı Təşkilatı ilə Avropa Birliyi arasında mədəniyyətlərin uyarlığına dair böyük bir toplantı keçirilməsini təklif edirik.

Bu toplantını İstanbulda keçirmək fikrindəyik. Bunu daha öncə İslam Konfransı təşkilatının bəzi üzvləri ilə, bu beynəlxalq təşkilatın baş katibi ilə görüşümüzdə müzakirə etdik. Onlar mənə çox cəsarət verdilər, məni dəstəklədilər.

Dünən Avropa Birliyində bu beynəlxalq təşkilatın üzvü olmaq istəyən ölkələrin həmin təşkilatın üzvləri olan ölkələrin təmsilçilərinin birgə toplantısı keçirildi. Biz Türkiyənin bu təklifini orada ətraflı bildirdik. Təşəbbüsümüz çox bəyənildi, dəstəkləndi, Avropa Birliyinin üzvü olan ölkələrin toplantıda çıxış edən təmsilçilərinin hamısı təklifimizə tərəfdar oldular. Avropa Birliyinin fəaliyyətdə olan sədri bu məsələni birlikdə həyata keçirməyin, gerçəkləşdirməyin zəruriliyini bəyan etdi. Belə bir təşəbbüsün həyata keçirilməsində Azərbaycanın iştirak etməsi, öz töhfəsini verməsi bizim üçün son dərəcə önəmlidir. Bu məsələlərdə Zati-alinizin iştirakını arzu etmək istəyirik.

Yenə son hadisələrlə bağlı biz Azərbaycanla, Orta Asiyadakı türk cümhuriyyətləri ilə birlikdə qardaş Əfqanıstan xalqına bir yardım göndərmək məsələsini Ankarada bu ölkələrin hörmətli səfirləri ilə müzakirə etdik. Belə ir təşəbbüsü birlikdə göstərmək münasibətinizi bilmək istəyirik. Həm ikitərəfli əlaqələrimizlə, həm dünyada baş verən hadisələrlə, həm də qadaş ölkələrimizin birlikdə görə biləcəyi işlərlə bağı Sizin düşüncələrinizi bilmək bizim üçün çox əhəmiyyətlidir.

Hörmətli Xarici İşlər nazirinizə,

azərbaycanlı qardaşlarımıza təşəkkür etmək istəyirəm.

Heydər Əliyev: Sizə təşəkkür edirəm. Birincisi, Cümhurbaşkanı hörmətli Əhməd Necdət Sezərdən mənə gətirdiyiniz salama görə, Baş nazir hörmətli Büləndi Ecevitdən gətirdiyiniz salama görə təşəkkürümü bildirirəm. Rica edirəm ki, mənim qardaşlıq salamlarımı, ən xoş arzularımı Cümhurbaşkanına və Baş nazirə yetirəsiniz. Bütün Türkiyə xalqına mənim hörmətimi, ehtiramımı, sevgimi, məhəbbətmi bir daha bəyan etmək istəyirəm.

Mən bir də qeyd edirəm ki, Azərbaycan müstəqil bir dövlət kimi, - siz bilirsiniz ki, bu günlərdə biz dövlət müstəqilliyimizin əldə olunmasının 10-cu ildönümünü bayram etdik və sizlərdən də çox gözəl təbrik məktubları aldıq, həm cümhurbaşkanından, Baş nazirdən və həm də sizdən, bunlara görə təşəkkür edirəm, - Türkiyə ilə ən yaxın dostluq, əməkdaşlıq edir. Yəni biz bir yerdəyik, bərabərlik və bundan sonra da birlikdə olacağıq. Ona görə də biz daim bu əlaqələrimizi bütün sahələrdə - həm iqtisadi, həm siyasi, həm mədəni sahələrdə inkişaf etdirməyə çalışırıq və çalışacağıq. Son illər bizim iqtisadi əlaqələrimizdə ən önəmli yer tutan Azərbaycanın Xəzər dənizindəki neft-qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə, o cümlədən "Türk petrolları" şirkəti ilə birlikdə işlənilməsi və enerji daşıyıcılarının dünya bazarına çıxarılması məsələsidir. Bu məsələ, - bilirsiniz ki, biz sizinlə birlikdə 4-5 ildir çalışırıq, - o qədər də asan bir iş olmadı. Çox ağır, çətin və mürəkkəb yol keçdik, artıq bunu keçmişik. Bakı-Ceyhanla bağlı bütün sahələrdə sazişləri, anlaşmaları imzaladıq. İndi artıq əməli işə başlanıbdır. "Şahdəniz" neft yatağından qazı ilk növbədə Türkiyəyə, Ərzuruma, ixrac olunaraq ondan sonra da, güman edirəm ki, dünya bazarlarına çıxarılacaqdır. Bu barədə də biz sizinlə çox faydalı əməkdaşlıq etdik. Mart ayında mən sizin ölkədə rəsmi səfərdə olduğum zaman biz Türkiyə ilə Azərbaycan arasındakı sazişi, anlaşmanı imzaladıq. Sonra Gürcüstanla danışıqlarımız getdi. Bilirsiniz ki, ötən ayın sonunda Gürcüstan Prezidenti, hörmətli Eduard Şevardnazde də Azərbaycana gəldi. Bütün bu danışıqlara son qoyduq, anlaşmaları i mzaladıq.

Beləliklə, gələcəkdə hər iki ölkə üçün bu iki böyük proqramın əsasını qoyduq. İndionun inşaat işlərinə başlayırıq. Güman edirəm ki, müəyyən edilən vaxtda - 2004-cü ildə Bakı-Ceyhan neft boru kəməri işə düşəcək, neft Ceyhana, qaz isə Ərzuruma çatdırılacaqdır. Bunlar hesab edirəm ki, bizim qardaşlıq, dostluq, əməkdaşlıq fəaliyyətimizdə əsas nəticələrdən biridir. Çünki bütün əlaqələrin yaranmasında iqtisadi əməkdaşlış, iqtisadi əsas, təbiidir ki, həlledici xarakter daşıyır.

Başqa sahələrdə də biz sizinlə daim əməkdaşlıqdayıq. İndi dünyada

yeni problemlər ortaya çıxıbdır. Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarına qarşı edilən terror çox dəhşətli hadisədir. Biz bu terror hadisəsini dərhal pislədik və terrorçuların araşdırılması, yaxalanması və ümumiyyətlə, beynəlxalq terrora qşarşı mübarizənin aparılması və bu bəlaya son qoyulması üçün öz imkanlarımızı təqdim etdik. Bu barədə Amerika Birləşmiş Ştatları ilə, sizin hamımızla bir alyansdayıq, bu işdə iştirak edirik və bundan sonra da iştirak edəcəyik.

Türkiyənin terrorla mübarizədə çox böyük təcrübəsi vardır. Amma yaxşı olardı ki, nə terror olaydı, nə də təcrübə olaydı. Təəssüflər olsun ki, son illərdə, yəni son 40-50 ili götürsək, terror ayrı-ayrı ölkələrə artıq çox böyük ziyan verir və bu ölkələrə sabitliyi pozur. Ümumiyyətlə, dövlətçiliyə çox böyük təhlükələr yaradır. Siz neçə il, 10 il, 15 il terrorla mübarizə apardınız və terrorun qraşısını aldınız. Amma nə qədər şəhidlər verdiniz. Bunları bütün dünya bilir. Biz bunu daha da yaxşı bilirik. Çünki orada olan şəhidlər bizim şəhidlərimizdir. Ancaq təəssüflər olsun, bu gün demək lazımdır ki, bunu dünyanın çox ölkələrində anlaya bilmirdilər. O cümlədən bizim başımıza gələn işləri. Siz də bilirsiniz ki, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı torpaq idiası ilə çıxış edib, hərbi təcavüz edibdir. Amma bu təcavüzün özü də terrordan başlayıbdır.

Ermənilərin keçmişdə Türkiyənin müxtəlif ölkələrdəki səfirliklərinə etdikləri terrorlar, Türkiyə diplomatlarının qətlə yetirilməsi - bunların hamısı bizim hafizəmizdədir. Amma bəziləri bunu unudur. 1918-ci ildə Azərbaycanda ilk xalq cümhuriyyəti yaranandan sonra Azərbaycanın liderlərinin bəzilərinə qarşı terror edənlər də erməni daşnak qüvvələri idi.

Məsələn, bizim o illər Baş nazir olan Fətəli xan Xoyskini Tiflisdə öldürmüşdülər. Sonra bizim başqa bir liderimizi Orta Asiyada, Buxarada öldürmüşdülər. Yaxud da ki, Berlində Tələt paşanı öldürmüşdülər. Bunların hamısı tarixdən bizə məlumdur. Kimin terrorçu olduğu da bizə məlumdur. Ancaq 1988-ci ildən Azərbaycana qarşı, yenə də deyirəm, bu torpaq idiası, bu hərbi təcavüzün terrordan başlayıbdır. O vaxtdan indiyə qədər bu terrorla mübarizə aparırıq. Bu tərəfdən onlar bizimlə müharibə edib, bəzi səbəblərdən torpaqlarımızın bir qismi işğal olunubdur. İkinci tərəfdən də Azərbaycanda bir çox terror hadisələri baş veribdir. Azərbaycanda metropoliteni iki dəfə partlatdılar. Sonradan biz onu araşdırdıq, bunu edənlər Ermənistanda hazırlanıb göndərilmiş qüvvələr idi. Burada dəmir-yol vaqonlarını partlatdılar, insanları qətlə yetirdilər. Avtobusları partlatdılar, başqa bir çox belə şeylər etdilər.

Avropa Şurasının son toplantısında Azərbaycanın nümayəndə heyəti 32 fakt gətirdi ki, son zamanlar Ermənistan terrorçuları Azərbaycana

qarşı nə qədər terror aktları ediblər. Ona görə də biz terrorun nə olduğunu bilirik. Digərlərindən daha da yaxşı bilirik. Sizin kimi, biz də bilirik. Biz terrordan ən çox zərər çəkmiş ölkələrdən biriyik. Amma təəssüf ki, digər ölkələrdə, Avropada terror olmadığına, yaxud az olduğuna görə, bunun təhlükəli olduğunu o qədər də anlaya bilmirdilər. İndi Amerika kimi böyük bir dövlətə, ömründə belə şeylər görməmiş bir ölkədə, müharibə görməmiş bir ölkədə, mqtisadi cəhətdən, hərbi cəhətdən, hərbi cəhətdən böyük potensiala malik olan ölkədə belə bir dəhşətli terror hadisəsi meydana çıxdı. Təbiidir ki, bu bizi dəhşətləndirdi. Ancaq bu, artıq bütün dünyanı da oyatdı ki, terror adı bir şey deyildir. Siz də, biz də bunun nə qədər təhlükəli olduğunu bilirik. Ona görə də biz terrorla mübarizəyə qoşulmuşuq və axıra qədər çalışacağıq ki, terror tamamilə aradan götürülsün.

Təbiidir ki, bu barədə biz müəyyən fikir mübadiləsi apara bilərik. Amma bununla yanaşı, bizim öz dərdimiz var. Öz dərdimiz də odur ki, bizim torpaqlarımız 1989-cu ildən Ermənistanın işğalı altındadır. Hələ Sovetlər Birliyinin içərisində Ermənistan və Azərbaycan bir-birinə qardaş cümhuriyyətlər kimi yaşadığı zaman ermənilər Azərbaycana qarşı bu separatçı hərəkətlərini başladılar. Hələ 1989-cu ildə Sovet hökumətinin qərarı ilə Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb birbaşa Moskvaya tabe etdilər. Bununla Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının təməlini qoydular, əsasını qoydular. Sonra müharibə başladı. Müharibə zamanı da bir tərəfdən Ermənistana çoxlu yardımlar edildi, - bunun səbəbləri məlumdur, - ikinci tərəfdən də, Azərbaycanın daxilində sabitlik olmadı, hakimiyyət uğrunda mübarizə, çəkişmə getdi. O vaxt ermənilərin hamısı birləşdi. Amma Azərbaycanda parçalanma başladı. Bundan da Ermənistan istifadə etdi. Onlar bizim torpaqlarımızı işğal ediblər. Bir milyondan artıq bizim soydaşımız çadırlarda yaşayır.

Bu, bizim problemimizdir. İndi dünyada böyük bir problem meydana gələndə bu probdenm unudula bilər. Amma gərək bu da unudulmasın. Bunların hamısı paralel getsin. Bu barədə də biz sizinlə əməkdaşlıq edirik. Sizin dəstəyiniz bizim üçün çox əhəmiyyətlidir və bundan sonra da biz sizə arxalanırıq. minsk qrupu, onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, - Türkiyə də Minsk qrupunun üzvüdür, - neçə vaxtdır məsələni sülh yolu ilə həll etmək istəyirlər. Amma hələ ki, həll edilə bilmir. Yeddi ildir biz müharibəni, savaşı dayandırmışıq. Atəşkəs var, amma sülh yoxdur. Ona görə də problemlərimiz çoxdur. Bu problemlərin həll olunması üçün bizim tez-tez görüşməyimizə böyük ehtiyac var. Bu baxımdan da sizin Azərbaycana bu səfərinizi mən bir daha yüksək qiymətləndirirəm.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

Əziz dostum, qardaşım!

Qardaş Türkiyə Cümhuriyyətinin milli bayramı - Respublika elan edilməsi günü münasibətilə Sizi və dost Türkiyə xalqını ürəkdən təbrik edirəm.

Biz tarixi-milli kökləri eyni olan, zəngin mənəvi dəyərlərə malik xalqlarımızın dostluğunu, əməkdaşlığını hər şeydən uca tuturuq. Bir millətin iki dövləti olaraq ölkələrimizindaim birbirinə göstərdiyi qarşılıqlı dəstəyi, inam və etimadı yüksək qiymətləndiririk.

Böyük Atatürkün yolu ilə irəliləyən Türkiyə Cümhuriyyətinin uğurları bizi həmişə sevindirir. Bu gün qardaş Türkiyənin dünya birliyində layiqli yer tutması, beynəlxalq aləmdə qazandığı nüfuz və hörmət qəlbimizifftixar hissi ilə bürüyür.

Dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi, demokratiyanın bərqərar olunması sahəsində ölkənizin son dövrlərdə qazandığı nailiyyətlərdə Sizin rolunuz böyükdür.

Əziz qardaşım!

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkiyəyə əmin-amanlıq və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SƏFİRİNİN ETİMADNAMƏSİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 27-də Prezident iqamətgahında Türkiyə Respublikasının ölkəmizdə Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmuş Əhməd Ünal Çeviközün etimadnaməsini qəbul etmişdir.

Səfir **Əhməd Ünal Çeviköz** öz etimadnaməsini dövlətimizin başçısına təqdim edərək dedi:

- Çox hörmətli Cümhurbaşkanı!

Türkiyə Cümhuriyyətinin səfiri olaraq Azərbaycana gəlməyimdən böyük qürur duyuram. Azərbaycan müstəqillik qazandıqdan sonra keçən bu on ildə Sizin sayənizdə çox yüksək inkişaf etmiş, beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Mən bu gözəl ölkənizə daha öncə bir neçə dəfə gəlmişəm. Hər gəlişimdə Azərbaycanın daha da gözəlləşdiyinin, inkişafının şahidi olmuşam. Qarşıdakı müddətdə Azərbaycanın yeni addımlar atacağına və daha da yüksək inkişaf etmiş ölkə halına gələcəyinə əminəm. Belə bir vaxtda Sizin ölkənizdə səfir kimi çalışmaq mənim üçün çox böyük şərəfdir.

Hörmətli Cümhurbaşkanı, Türkiyənin səfiri kimi Azərbaycanda çalışmağım üçün mənə böyük bir inam verdiyinizə görə Sizə təşəkkür edirəm. Biz eyni millətin müstəqil və azad iki ölkələriyik. Ölkələrimiz ara-

sında böyük inama və gücə dayanan və son dərəcə inkişaf etmiş qardaşlıq əlaqələri vardır.

Mən səfir kimi çalışacağım müddətdə bu gözəl əlaqələrin daha da irəliyə getməsi üçün əlimdən gələni edəcəyəm. Bu fəaliyyətim sırasında mənə ən böyük dəstəyi başda Zati-alilərniz olmaqla, qardaş Azərbaycan xalqı və nazirləri verəcəklər.

Hörmətli Cümhurbaşkanı, Azərbaycanın irəliləməsində, inkişafında Zati-alilərinizin əməyi, ardıcıl siyasəti böyük və əvəzsiz rol oynamışdır. Eyni zamanda Azərbaycan xalqının müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət olmasının və beynəlxalq dəyərlərə sahib çıxmasının təməlini qoymusunuz. Biz ölkənizə qarşı olan hər cür əngəllərdən narahatıq. Sevinclərimizi paylaşdığımız qədər, üzüntülərinizə və acılarınıza da candan yanır, onların aradan qaldırılmasına həmişə dəstək veririk.

Bu gün Azərbaycanın parlaq gələcəyinə ən böyük əngəl Ermənistanla olan münaqişədir. Azərbaycanın ərazi bütövlüyü pozulumuş, beynəlxalq hüquq normalarına zidd olaraq bir milyondan çox Azərbaycan vətəndaşı zorla öz doğma yurdlarından çıxarılmasıdır. Dağlıq Qaradağ probleminin həlli üçün Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarını tərk etməsi bir şərtdir. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına gətirib çıxaracaq hər hansı qərarın qəbul olunması mümkün deyildir. Türkiyə Cümhuriyyəti bu günə qədər hər sahədə olduğu kimi, bu məsələdə də Azərbaycana daim dəstək vermişdir və bundan sonra da Dağlıq Qarabağ probleminin ədalətli həllinə dəstək verməkdə davam edəcəkdir. Mən də bu sahədə üzərimə düşən hər bir işi yerinə yetirməyə çalışacağam.

Hörmətli Cümhurbaşkanı, bizim Cümhur başkanımız hörmətli Əhməd Necdət Sezərin Azərbaycan xalqına və Zati-alinizə ən səmimi salamlarını yetirirəm.

Bizi qəbul etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm və öz etimadnaməmi Sizə təqdim edirəm.

Azərbaycan Prezidenti **Heydər Əliyev** səfirə müraciətlə dedi:

- Hörmətli cənab səfir!

Sizi Türkiyə Cümhuriyyətinin Azərbaycanda Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə təbrik edirəm, sizə gələcək işlərinizdə uğurlar arzu edirəm.

Bizim xalqlarımızın əlaqələri qədim köklərə bağlıdır. Bənzər ənənələrə, adətlərə, bənzər milli-mənəvi dəyərlərə bağlıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra onun istiqlaliyyətini ilk tanıyan Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında ötən on il ərzində dostluq, qardaşlıq əlaqələri yaranıb və bu əlaqələr inkişaf edibdir.

Biz Türkiyədə də, Azərbaycan da da deyirik ki, bir millət, iki dövlətik. Bu, tam həqiqətdir. Türkiyə Azərbaycan üçün ən yaxın ölkədir və

bizim xalqlarımız arasındakı əlaqələr, dediyim kimi, çox böyük tarixə malikdir. On il içərisində bu əlaqələr sürətlə inkişaf edibdir. Azərbaycanın müstəqil dövlət kimi, demək olar ki, bütün dövlətlərlə əlaqələri inkişaf edir. Amma əlaqələrin ən çox inkişaf etdiyi, genişləndiyi ölkə Türkiyə Cümhuriyyətidir. Bizim həm siyasi, həm iqtisadi, həm mədəni, həm elmi, həm də insani əlaqələrimiz daim genişlənir və daim inkişafdadır. Bu da iki dövlətin və bizim xalqlarımızın qəlbindən gələn arzularla bağlıdır.

Türkiyə Azərbaycanın müstəqilliyini tanıyandan indiyə qədər, on il içərisində, Azərbaycanın problemləri ilə həmişə yaxından maraqlanıbdır və bizə qardaşlıq yardımı göstəribdir. Xüsusən, Ermənistanın Azərbaycana etdiyi təcavüzlə və Azərbaycan torpoqlarının işğal olunması ilə əlaqədar Türkiyə daim bizim yanımızda olubdur.

Bütün beynəlxalq təşkilatlarda həmişə Azərbaycanın mövqelərini müdafiə edibdir. Bizim ikitərəfli əlaqələrimiz həm də beynəlxalq təşkilatlarda müştərək mövqedən çıxış etməyimizlə, öz mövqelərimizi razılaşdırmağımızla da bağlıdır. Türkdilli dövlətlər birliyində biz çox uğurla əməkdaşlıq edirik və bu əməkdaşlıq da təbiidir ki, gələcəkdə öz bəhrələrini verəcəkdir.

Ötən illərdəki iqtisadi əlaqələrimiz çox əhəmiyyətlidir. Amma bunların içərisində hamısından əhəmiyyətlisi, bilirsiniz ki, Azərbaycanın zəngin təbii sərvətlərinin dünya bazarlarına çıxarılması üçün neçə ildir hazırladığımız, indi artıq inşasına başladığımız Bakı-Tbilisi-Ceyhan neft kəməridir. Bununla bərabər, indi Azərbaycanın "Şahdəniz" yatağından çıxarılacaq qazın Türkiyəyə ixrac edilməsi ilə əlaqədar Türkiyə Cümhuriyyəti və Gürcüstanla sazişlər imzalamışıq və bunu da həyata keçirməyə başlamışıq. Güman edirəm ki, bu böyük layihələrin həyata keçirilməsi həm bizim iqtisadi əlaqələrimizi, həm siyasi əlaqələrimizi möhkəmləndirəcək, həm də bölgəmizdə sülhün, təhlükəsizliyin təmin olunmasına kömək edəcəkdir.

Biz Türkiyə Cümhuriyyətinin keçdiyi böyük yolu həmişə xüsusi məhəbbətlə xatırlayırıq. Böyük Atatürk tərəfindən yaradılmış Türkiyə Cümhuriyyəti 78 ildir ki, inkişaf edir. Türkiyə Cümhuriyyəti dünyanın böyük dövlətləri içərisində özünə layiq yerini tutub və Türkiyədə hüquqi, demokratik, dünyəvi dövlət yaranıbdır. Böyük Atatürkün ənənələri Türkiyədə - xalqda, millətdə, cəmiyyətdə və dövlətdə yaşayır. Hesab edirəm ki, bu, Türkiyənin həm bu günü üçün, həm də gələcəyi üçün əsas şərtdir.

Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti Əhməd Necdət Sezər Cümhurbaşkanı seçilən kimi ilk səfərini Azərbaycana etdi. Bir tərəfdən, bu, təbiidir. Amma eyni zamanda onu göstərir ki, bəli, Türkiyə üçün Azərbaycandan yaxın bir ölkə yoxdur.

Təbiidir ki, mən də hörmətli dostum Əhməd Necdət Sezərin dəvəti ilə Türkiyə Cümhuriyyətinə gəldim, çox gözəl görüşlərimiz oldu. Mən Böyük Millət Məclisində çıxış etdim və biz çox yaxşı danışıqlar apardıq, bəyanat imzaladıq. Ancaq bu son mərhələdə olandır. Keçən illərdə də doqquzuncu cümhur başkanı hörmətli Süleyman Dəmirəl ilə, Türkiyənin Baş nazirləri ilə, nazirlərlə, başqa vəzifəli şəxslərlə Azərbaycan arasında əlaqələr həmişə olubdur. Azərbaycana ziyarətlər olubdur, Azərbaycandan Türkiyəyə ziyarətlər olubdur. Bunlar hamısı ötən onillik dövrdə Türkiyə-Azərbaycan əlaqələrinin çox gözəl və parlaq tarixidir. Biz bu tarixlə fəxr edirik. Güman edirəm ki, on il içərisində keçdiyimiz yol bizim əlaqələrimizi elə bağlayıbdır ki, bunlar daimi olacaq, əbədi və sarsılmaz olacaqdır.

Mən sizi yaxşı tanıyıram. Bilirəm ki, siz Azərbaycanı və bölgəni çox yaxşı tanıyırsınız. Ona görə hesab edirəm ki, sizin Türkiyə Cümhuriyyəti tərəfindən Azərbaycana fövqəladə və səlahiyyətli səfir təyin olunmağınız Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin daha da genişlənməsi, sıxlaşması üçün mühüm şərtlərdən biridir.

Siz dəfələrlə Azərbaycanda olmusunuz. Əmin ola bilərsiniz ki, siz burada dostluq, qardaşlıq, mehribanlıq münasibəti ilə əhatə olunacaqsınız. Siz fəaliyyətiniz üçün bütün dövlət orqanlarının, o cümlədən Azərbaycan Prezidentinin yardımına həmişə əmin ola bilərsiniz. Beləliklə, birlikdə bizim əlaqələrimizi inkişaf etdirəcəyik, genişləndirəcəyik.

Mənim qardaşlıq salamımı, hörmət və ehtiramımı aziz dostum, Cümhurbaşkanı Əhməd Necdət Sezərə çatdırmağınızı xahiş edirəm. Bu gün sizi qəbul edərkən, bütün Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına öz dostluq, qardaşlıq hissiyyatlarımı və Azərbaycan xalqının bu dostluğa, qardaşlığa daim sadiq olduğunu bildirmək istəyirəm. Sizi bir daha təbrik edirəm.

Sonra respublikamızın rəhbəri ilə Türkiyə səfiri arasında səmimi söhbət oldu.

Prezident **Heydər Əliyev** səfirdən soruşdu:

- Azərbaycanda özünüzü necə hiss edirsiniz?

Əhməd Ünal Çeviköz: Cənab Prezident, cox yaxşı hiss edirəm, cox qürur və şərəf duyuram. Azərbaycanda çalışmaq hər bir səfir üçün böyük şərəfdir.

Heydər Əliyev: Mən bir də deyirəm, cox məmnunam və hesab edirəm ki, sizin səfirliyiniz dövründə Türkiyə-Azərbaycan əlaqələri daha sürətlə inkişaf edəcəkdir. Yəni bizim əlaqələrimizdə heç bir problem yoxdur. Dostuq, qardaşıq, bir-birimiz üçün hər şey açıqdır.

Ancaq eyni zamanda biz bir yerdə də dura bilmərik. Biz gərək daim irəliyə gedək, daim inkişaf edək, əlaqələrimizi daim genişləndirək. Ona görə də güman edirəm, qarşıdakı illərdə biz sizinlə cox səmərəli əməkdaşlıq edəcəyik. Yəni Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün bir səfir kimi sizinlə cox səmərəli əməkdaşlıq edəcəyik.

Əhməd Ünal Çeviköz: Hörmətli Cümhurbaşkanım, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə heç bir problem yoxdur. Son dərəcə mükəmməl əlaqələrimiz mövcuddur və iqtisadi sahədəki əlaqələrimiz daim irəliləməkdədir. Bəli, biz dayanmamalıyıq, bu əlaqələri daha da irəliyə aparmaq üçün daim çalışmalıyıq. Mən fəaliyyətim dövründə bunun üçün çalışacağam.

Türkiyə daim Azərbaycanın yanında olmuşdur. Beynəlxalq təşkilatlara üzv olmasında, Avropa Şurasına qəbul edilməsində Azərbaycana ən böyük dəstəyi Türkiyə vermişdir.

Sizin də dediyiniz kimi, qarşıdakı illərdə həyata keçirilməli cox əhəmiyyətli layihələr vardır və bunların başında Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və "Şahdəniz" qazının Türkiyəyə çatdırılması durur. Biz Gürcüstan, Azərbaycan və Türkiyə arasında "Şahdəniz" qazı barədə saziş imzalanmasından məmnunuq. Türkiyə Böyük Millət Məclisi bu işin tamamlanmasını çox yüksək dəyərləndirir. Zənn edirəm ki, bunun tamamlanması barədə xəbəri Sizə çatdırmaq şərəfinə ən qısa zamanda nail olacağıq.

Heydər Əliyev: Bəli, biz bunu gözləyirik.

Əhməd Ünal Çeviköz: Hörmətli Cümhurbaşkanım, Azərbaycanda fəaliyyət göstərəcəyim müddətdə mənə ən böyük dəstəyi başda Zati-alilərinizolmaqla, qardaş Azərbaycanın nazirlərindən görəcəyimdən bir daha cox böyük şərəf duyacağam.

Heydər Əliyev: Buna heç şübhə etmə. Burada özünüzü Türkiyədəkindən də yaxşı hiss edəcəksiniz. Hesab edirəm ki, sizinlə bərabər Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı nailiyyətlər əldə edəcəyik.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "İLİN DÖVLƏT ADAMI" SEÇİLMƏSİ QƏRARI

Türkiyə Sənayeçilər və İşadamları Vəqfi Xəzər Dənizinin zəngin ehtiyatlarının türk dünyasına açılmasında, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, "Şahdəniz" yatağından çıxarılacaq təbii qazın Türkiyəyə nəqli üçün Bakı-Ərzurum boru kəmərinin reallaşmasında, habelə "Bir millət, iki dövlət" olan Türkiyə ilə Azərbaycanın əməkdaşlığının inkişafında misilsiz xidmətlərinə görə Azərbaycan Prezidenti Heydər Əliyevi "İlin Dövlət Adamı" seçmişdir.

27 noyabr, 2001-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN "ENKA" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 28-də Prezident sarayında Türkiyənin "Enka" şirkətinin fəxri prezidenti Şarık Taranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları mehribanlıqla salamlayan dövlətimizin başçısı Heydər Əliyev vaxt tapıb ölkəmizə gəldiklərinə görə onlara təşəkkür etdi, "Enka" şirkəti tərəfindən Bakıda tikilmiş yeni aeroportun açılışında cənab Şarık Taranı görmədiyini vurğulayaraq dedi ki, sizə Azərbaycana sərmayə qoymağı məsləhət bilirəm.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən "Enka" şirkətinin fəxri prezidenti Şarık Tara aeroportun açılışı zamanı cərrahiyyə əməliyyatı keçirdiyini söylədi. O, rəhbərlik etdiyi şirkətin fəaliyyətindən və gələcək planlarından danışaraq dedi ki, biz Azərbaycanda bir çox işlər görmək istəyirik. Yaxın Şərqdə, Avropada, Orta Asiyada və digər bölgələrdə iş görürük, milyonlarla dollar sərmayə qoymuşuq. Dekabrın axırlarında Moskvada Avropanın ən böyük və gözəl konsert salonlarından birini təhvil verəcəyik və açılış mərasimində Prezident Putin, Moskvanın meri Lujkov da iştirak edəcəklər.

Şirkətin rəhbəri İqtisadi İnkişaf Nazirliyində keçirilən görüşdə bəzi məsələləri müzakirə etdiyini söylədi, Azərbaycanda sənayenin bir sıra sahələrində fəaliyyət göstərmək istəyini nəzərə çarpdırdı.

Avropanın ən böyük elektrik stansiyalarının "Enka" tərəfindən inşa olunduğunu, Türkiyədə Amerika şirkəti ilə birgə 3800 meqavat gücə malik stansiyanın tikintisinə 2,2 milyard dollar vəsait xərclədiyini bildirən qonaq dedi ki, biz Azərbaycana sərmayə qoymağa hazırıq. Sumqayıtdakı 400 meqavatlıq istilik-elektrik stansiyasını yenidən qurmaq niyyətimiz var. Cənab Prezident Azərbaycanda Siz varsınız. Ona görə hamımız düşünürük ki, bizim burada iş görməyimiz böyük şərəfdir.

Şarık Tara Avropanın tikinti şirkətlərinin Türkiyədən 15 il geri qaldığını, texnoloci baxımdan özlərinin çox irəliyə getdiyini vurğulayaraq, indiyədək Türkiyədən xaricə 146 min işçi qüvvəsi göndərdiyini bildirdi. Sonra şirkətin rəhbəri özünün şəxsi məktubunu dovlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti **Heydər Əliyev** qonağa təşəkkür edərək dedi:

- Bunlar çox böyük işlərdir. Çox gözəl fikirlərin var, gördüyün işlər haqqında məlumat verdin. Mən əvvəl də bilirdim, indi də dedin ki, Rusiyada çox işlər görmüsən. Rusiyada hələ sovet dövləti vaxtından işləməyə başlamısan, Petrovski passajı sən bərpa etmisən. Mən onda Moskvada

yaşayırdım. Onda Moskvada dedilər ki, türklər necə gözəl inşaatçıdırlar. Biz hamımız türkük, ona görə mən bunu açıq danışmalıyam. Keçmişdə belə hesab edirdilər ki, türk heç bir şey bacarmır, heç bir şey edə bilməz. Türkünkü, nə bilim, qoyun saxlamaqdır, filandır, filandır. Rusiyada türklər barədə belə fikirlər çox idi. Bəzən bir adam pis iş edəndə deyirdi ki, sən türksən, nəsən. Yəni pis adam kimi hesab edirdilər. Amma o vaxt sən gəldin Petrovski passacı bərpa etdin, ondan sonra Türkiyə Moskvada ad çıxarmağa başladı. İndi də Moskvada çox binalar tikmisən. Ona görə mən çox məmnunam. Çünki mən hər dəfə Moskvada olanda eşidirəm ki, bunu "Enka" şirkəti edib, bunu türk edibdir. Bu, bir türk kimi məni sevindirir.

Dövlətimizin başçısı daha sonra dedi ki, məktubu mütləq oxuyacağam və fikrimi deyəcəyəm. Sən böyük iş adamısan. Azərbaycan sənin öz vətənindir, Türkiyə ilə Azərbaycana fərq yoxdur. Ona görə burada iş görməlisən, yatırım qoymalısan. Rusiyada, digər yerlərdə yatırım qoyursan, onlara fayda verirsən. Bu yatırımı buraya qoy, həm özün fayda götür, həm də Azərbaycan, qardaşların fayda götürsün. Azərbaycanda görüləcək işlər nə qədər böyük olsa da, başqa ölkələrdə gördüyün işlərin yanında kiçik bir şeydir. Məsələn, 400 meqavatlıq stansiya bizim üçün işdir, amma "Enka" üçün o qədər də böyük deyildir.

2002

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN BAKIDAKI SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 11-də Prezident sarayında Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviközü qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev dost ölkənin diplomatını səmimiyyətlə salamlayaraq hal-əhval tutdu, Bakıda nə vaxtdan səfir vəzifəsində çalışdığını soruşdu.

Vaxt ayırıb onu qəbul etdiyinə görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən **Əhməd Ünal Çeviköz** dedi:

- Hörmətli Cümhurbaşkanım, Sizə etimadnaməni 27 noyabrda təqdim etmişəm. Artıq ay yarıma yaxınlaşıbdır. Bu müddət ərzində Azərbaycan hökumətinin hörmətli nazirləri ilə tanışlıq görüşləri keçirmişəm. Onlar Azərbaycandakı inkişafı, hazırlanmaqda olan qanunlar barədə mənə məlumat verdilər. Mən də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin irəliləməsi üçün çalışmağa hazır olduğumu, bu sahədə başda Zati-aliniz olmaqla mənə dəstək verəcəyinizə əmin olduğumu söylədim. Görüşdüyüm nazirlər də mənə dəstək verəcəklərini söylədilər. Bu da məni çox məmnun etdi.

Türkiyənin böyük elçisi kimi

Azərbaycanda çalışmaq çox böyük şərəfdir. Amma gördüm ki, bu, mənim üçün həqiqətən şərəflə bərabər, həm asan, həm də zövqlü bir iş olacaqdır. Belə dəstək aldığım üçün çox məmnunam.

Cənab Prezident, sağ olun. Bütün bunlarda Sizin çox böyük payınız vardır.

Heydər Əliyev: Mən heç başqa cür düşünə bilməzdim. Sizə bu qədər dəstək verilməsi məni heç təəccübləndirmir. Bunlar hamısı təbiidir. Bu, Azərbaycan ilə Türkiyə arasında olan dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələridir və hər bir nazir, yaxud başqa vəzifəli şəxs - təkcə onlar yox, bizim vətəndaşlarımızın əksəriyyəti, - Türkiyəyə çox böyük məhəbbətlə, sevgi ilə münasibət göstərirlər. Onların hər biri Türkiyə ilə Azərbaycan arasında əlaqələrin daha da inkişaf etməsi üçün əlindən gələni etməyə hazırdır. Ona görə mən sizinlə görüşəndə də dedim ki, heç də narahat olmayın, sizin burada işiniz çox asan, qolay olacaqdır.

Mən o vaxt da demişdim, indi də deyirəm, əgər bir çətinliyiniz olsa, mən buradayam.

Əhməd Ünal Çevikөz: Çox təşəkkür edirəm.

Hörmətli Cümhurbaşkanım, bilirsiniz ki, 2002-ci il yanvarın 14-ü ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının onuncu ildönümüdür. Biz bunu Türkiyə - Azərbaycan əlaqələrinə layiq şəkildə keçirmək üçün bir proqram hazırlamışıq. Azərbaycan Atatürk Mərkəzi yanvarın 14-də Milli Elmlər Akademiya sında elmi konfrans təşkil edəcəkdir. Konfransda çıxış etmək üçün Türkiyədən də məruzəçilər gələcəklər.

Bu, ortaq bir elmi konfrans olacaq və biz orada Türkiyə - Azərbaycan əlaqələrinin on ilini dəyərləndirəcək, tarixi, sosial, iqtisadi, siyasi və hərbi əlaqələr barədə müzakirələr aparacağıq. Həmin gün axşam bu yubileyi təntənəli şəkildə qeyd etmək üçün bir mərasim keçirməyi nəzərdə tutmuşuq.

Zati-alileri, vaxt tapıb həmin tədbirdə iştirak etsəniz bizi şərəfləndirər və məmnun edərsiniz.

Heydər Əliyev: Çox məmnunam. Mən bilirəm ki, ölkələrimiz arasında diplomatik əlaqələr qurulmasının onuncu ildönümüdür. Bu, bizim üçün çox əziz bir gündür. Çünki Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkədir və Azərbaycanla diplomatik əlaqə quran ilk ölkədir. Bu, bizim üçün çox əhəmiyyətlidir. Amma digər tərəfdən də bu, Türkiyədir, başqa dövlət deyil. Ona görə sizin proqramınızdan çox məmnunam.

Çox məmnunam ki, mənim təşəbbüsümlə və sərəncamımla yaranmış Azərbaycan Atatürk Mərkəzi artıq fəaliyyət göstərir. O vaxt mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilməndən sonra düşündüm ki, bunu etmək lazımdır və buna da böyük ehtiyac varmış.

Mən çox böyük bir professoru həmin mərkəzə başqan təyin etdim.

O, bizim parlamentin deputatıdır. Orada başqa adamlar da var. Onlara çox qədim, gözəl bir bina vermişəm.

Əhməd Ünal Çevikөz: Hörmətli Cümhurbaşkanım, biz o binanı gördük, mərkəzin rəhbəri ilə birlikdə ziyarət etdik. Binanın təmiri ilə bağlı bir layihə hazırlanıbdır. İnşallah, bu layihəni altı ay müddətində başa çatdırmaq istəyirlər.

Heydər Əliyev: Onlara büdcədən vəsait ayırdım ki, oranı tezliklə təmir etsinlər. Bina çox gözəl, çox qədim, memarlıq əsəri olan bir binadır. Mən vaxtilə, keçmişdə o binada olmuşam. O neçə vaxt idi ki, boş qalmışdı. Kimlərsə onu ələ keçirmək istəyirdi, mən qoymurdum, deyirdim ki, bu bina dövlətə lazım olacaqdır. Sonra da bizim oldu. Atatürk Mərkəzi yarananda sonra düşündük ki, ona hansı binanı verməliyik. Bildirdilər ki, həmin bina bir az köhnəlibdir, xarabləşıbdır. Dedim, bu çətin məsələ deyil, vəsait verəcəyik, düzəldəcəklər. Vaxtilə bu binanı çox gözəl tikiblər. Çox yaxşıdır.

Əhməd Ünal Çevikөz: Bəli, çox gözəl binadır. Hazırda oranı təmir edirlər və altı ay ərzində bitirəcəklər. Atatürk Mərkəzi yarananda bəri ilk fəaliyyətinə bazar ertəsi günü yanvarın 14-də keçiriləcək elmi konfransla başlayacaqdır. Bu da bizə çox böyük məmnunluq və şərəf verir.

Heydər Əliyev: Çox gözəl. Çalışaram, ayın 14-də axşamkı proqramınızda - hər halda mən proqramıma baxaram, olum. Çünki bu, bizim üçün əlamətdar bir gündür.

Əhməd Ünad Çevikөz: Cənab Prezident, bizə böyük şərəf vermiş olarsınız.

Heydər Əliyev: Sizdə, Ankarada, İstanbulda yenə də qar yağır?

Əhməd Ünal Çevikөz: Türkiyə çox ağır bir dövr yaşadı, İstanbul, Ankara on ildə ilk dəfədir ki, belə ağır qış yaşayır. Qar artıq ərimməyə başlayıbdır, yollar açılıbdır. Azərbaycana da bir az qar yağdı, iki gün yağdı, sonra kəsdi.

Çox şükür, hər şey normal vəziyyətə düşdü. İndi yollar açılıbdır, təyyarə də işə düşübdür. Bilirsiniz ki, İstanbuldan Bakıya iki gün təyyarə gələ bilmədi. Bu məni çox üzdü, insanların gediş-gəlişini ləngitdi. Ancaq sonra insanlar Azərbaycandan Ankaraya gedə bildilər.

Bilirsiniz ki, Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədəki işbirliyi ilə bağlı anlaşmanın hazırlanması başa çatdırıldı. Anlaşmanın mətni üzərində müzakirələr aparılıbdır və sonra onun imzalanmasının tarixi müəyyənləşdiriləcəkdir. Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədəki işbirliyi anlaşması qaçaqmalçılığa, terrorizmə qarşı birgə mübarizə aparmaq barədə, eyni zamanda Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin mühafizəsi ilə bağlı bir sıra məsələləri özündə əks etdirir. Biz düşünürük ki, bu, çox faydalı bir anlaşma olacaqdır.

Heydər Əliyev: Biz bu gün Tür-

kiyə - Azərbaycan diplomatik əlaqələrinin qurulmasının onuncu ildönümünü qeyd etməyə başladıq. Bu münasibətlə Türkiyənin böyük elçisi Azərbaycan Prezidenti ilə görüşür. Bu tədbir bundan sonra da davam edəcəkdir.

Əhməd Ünal Çeviköz: Çox sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Əziz qardaşım!

Ölkələrimiz arasında diplomatik əlaqələr qurulmasının 10-cu ildönümü münasibətilə şəxsən öz adımdan və bütün türk xalqı adından Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycanın müstəqilliyini yenidən qazanmasından sonra ölkələrimiz arasında yaranan əlaqələrin ötən on ildə sürətlə genişlənərək bütün sahələrdə yüksək bir səviyyəyə çatması əməkdaşlıq və münasibətlərimizin gələcəkdə də inkişaf edəcəyinə ən sağlam təminatdır.

Türk xalqı Azərbaycanla münasibətlərimizin ötən on ildə sürətlə irəliləməsindən, Qafqazda sabitlik və əmin-amanlıq amili kimi yüksələn qardaş Azərbaycanın Zati-alinizin güclü liderliyi altında əldə etdiyi müvəffəqiyyətlərdən qürur duymaqdadır.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Əhməd Necdət Sezər
Türkiyə Respublikasının
Prezidenti.
Ankara, 14 yanvar 2002-ci il.

AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DİPLOMATİK ƏLAQƏLƏR YARADILMASININ ON İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Hörmətli Cənab səfir!

Xanımlar və Cənablar!

Sizin hamınızı Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr qurulmasının onuncu ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

Bu bayram xüsusi xarakter daşıyır. Adətən, biz, hər ölkənin bayramını qeyd edirik. Öz ölkəmizin, dost ölkələrin bayramlarını qeyd edirik. Amma indi hər iki ölkə bir bayramı qeyd edir. Bu, Türkiyə üçün də bayramdır, Azərbaycan üçün də bayramdır. Çünki iki dövlətin bir-biri ilə diplomatik əlaqələr qurması bayramdır.

Azərbaycan on il bundan öncə öz dövlət müstəqilliyini əldə etdi. Bu, bizim çoxəsrlik tariximizdə olduqca böyük bir tarixi hadisədir. Müstəqilliyi elan edən kimi, təbiidir ki, dünya ölkələrinə Azərbaycanı müstəqil dövlət kimi tanıtmalı idik. Bilirsiniz ki, bu özü də böyük bir prosesdir. Əvvəlki vaxtlarda dediyimiz kimi, bu gün də deyirik ki, çox böyük xoşbəxtlikdir ki, Azərbaycanın müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Bu, eyni zamanda təbii bir haldır. Çünki bizim xalqlarımızı bağlayan dərin köklər var. Həqiqətən, 1918-ci ildə də Azərbaycan müstəqilliyini elan edən kimi, ölkəmizi ilk olaraq Türkiyə tanımışdı. Bu dəfə də belə olmuşdur. Ancaq eyni zamanda, Türkiyənin bu addımı Azərbaycanın bütün dünya ölkələri tərəfindən tanınmasına böyük təkan verdi. Qısa bir müddətdə Azərbaycan müstəqil dövlət kimi tanındı. İndi on ildir ki, müstəqil dövlət kimi yaşayır.

On il içərisində Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı böyük sınaqlardan keçibdir. Doğrudur, bizim dostluq, qardaşlıq əlaqələrimizdə on ildə heç bir problem olmayıbdır. Çünki bizim dostluğumuz çox sağlam təməllər, dərin tarixi köklərimiz üzərində qurulubdur. Güman edirəm ki, belə də olmalı idi. Əminəm ki, bundan sonra da heç bir problem olmayacaqdır. Amma buna baxmayaraq, on il içərisində Azərbaycan öz müstəqilliyini qoruyub saxlamaq üçün böyük sınaqlardan keçdi.

Bütün bu mərhələlərdə də Türkiyə Cümhuriyyəti həmişə Azərbaycanın yanında olubdur, Azərbaycana dəstək veribdir və beynəlxalq aləmdə Azərbaycanın problemlərinin həll olunmasında ölkəmizə həmişə dayaq olubdur.

Bizim Azərbaycan üçün ən ağrılı məsələ Dağlıq Qarabağ məsələsi, Ermənistan - Azərbaycan münaqişəsi, onun həll olunmasıdır. Bü münaqişənin həll olunmasında da Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti elə bu münaqişə başlayandan Azərbaycana həmişə dəstək veribdir. Baxmayaraq ki, o vaxt hələ Azərbaycan müstəqil deyildi, sadəcə, öz mənəvi dəstəyi ilə Azərbaycana yardım edibdir. Azərbaycan müstəqil dövlət olandan sonra isə bu, artıq bizim dövlətimizə verilən dəstək olubdur. İndi də bu ağır və çətin məsələnin həll olunması yollarının axtarılmasında Türkiyə Cümhuriyyəti Azərbaycana yaxından yardım edir, Azərbaycanla bir yerdədir, Azərbaycanın mövqelərini həmişə dəstəkləyib və əminəm ki, bundan sonra da dəstəkləyəcəkdir.

On il biz müstəqil dövlətlər kimi bir-birimizlə əlaqədə inkişaf etmişik. Heç şübhə yoxdur ki, bu, gələcək üçün böyük bir əsasdır. Biz gələcəyin çox möhkəm təməlini qoymuşuq. Əminəm ki, bu təməl üzərində böyük bir Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı abidəsi yaradılacaqdır. Bu abidə gələcək illərdə də, gələcək əsrlərdə də Türkiyə - Azərbaycan dostluğunun, qardaşlığının yenilməz rəmzi olacaqdır.

Bir daha sizi təbrik edirəm.

14 yanvar 2002-ci il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!
Əziz dostum, qardaşım!

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələr qurulmasının 10-cu ildönümü münasibətilə sizi və dost Türkiyə xalqını ürəkdən təbrik edirəm.

Azərbaycanın müstəqilliyinin ilk olaraq qardaş Türkiyə Respublikası tərəfindən tanınmasını yüksək qiymətləndirirəm və bundan qürur duyuram.

Qədim tarixi köklərlə bir-birinə bağlı olan ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətləri ötən on il ərzində daim inkişaf etmiş və möhkəmlənmişdir.

Əminəm ki, dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri daha da genişlənərək, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Ümidvaram ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə ədalətli həllinə nail olmaq üçün Türkiyə dövləti öz səylərini bundan sonra da davam etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

Heydər Əliyev,

Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 15 yanvar 2002-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV NYU-YORKDA TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CEMİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 31-də Nyu-Yorkda, onun üçün ayrılmış iqamətgahda Türkiyənin Xarici İşlər naziri İsmayıl Cemi qəbul etmişdir. Dövlətimizin başçısını mehribanlıqla salamlayan İsmayıl Cem Prezident Heydər Əliyevin diqqət və qayğısı sayəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsindən çox məmnun qaldığını söylədi, respublikamızın Prezidenti ilə Nyu-Yorkda keçirdiyi bu görüşün çox böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı. Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin hazırkı vəziyyətindən razı qaldığını bildirən Prezident Heydər Əliyev xalqlarımızın iradəsinə söykənən, strateji tərəfdaşlıq xarakteri daşıyan Azərbaycan - Türkiyə əməkdaşlığının daha da möhkəmləndirilməsinin çox vacib olduğunu vurğuladı. Prezident Heydər Əliyev və Xarici İşlər naziri İsmayıl Cem Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi, hasil edilən neftin və qazın dünya bazarlarına nəqli, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəmərinin perspektivləri barədə ətraflı müzakirələr apardılar. Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişi barədə müzakirələr aparıldı.

Cənab İsmayıl Cem bildirdi ki, Türkiyə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün öz səylərini daha da artırmağa həmişə hazırdır.

Görüşdə Nyu-Yorkda keçirilən Dünya İqtisadi Forumunun beynəlxalq terrorizmə, təcavüzkar separatizmə qarşı mübarizənin daha da gücləndirilməsində xüsusi əhəmiyyəti vurğulandı, Azərbaycanın və Türkiyənin bu mübarizədə Amerika Birləşmiş Ştatları ilə ilk gündən eyni koalisiyada olduğu nəzərə çarpdırıldı.

Söhbət zamanı dünyada və regionda vəziyyət, ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi edildi.

"Azərbaycan" qəzeti,
7 fevral 2002-ci il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XIII İŞGÜZAR SƏFƏRİ

29 aprel 2002-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏYƏ YOLA DÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Azərbaycan və Gürcüstan Prezidentlərinin zirvə görüşündə iştirak etmək üçün aprelin 29-da Türkiyənin Trabzon şəhərinə yola düşmüşdür.

Prezident **Heydər Əliyev** yola düşməzdən əvvəl hava limanında kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə vermişdir:

- Xoş gördük sizi. Tez-tez görüşürük. Mənim səfərimin də məqsədini, səbəbini, yəqin ki, bilirsiniz. Artıq mətbuatda verilibdir ki, biz - Türkiyə, Gürcüstan və Azərbaycan Prezidentləri bölgədə təhlükəsizlik məsələlərini müzakirə etmək üçün, indi işlərimizdə çox mühüm yer tutan Şərq-Qərb dəhlizinin, Bakı - Tbilisi - Ceyhan neft ixrac kəmərinin, Bakı - Ərzurum qaz kəmərinin təhlükəsizliyini təmin etmək üçün və əsasən, beynəlxalq terrorizmlə mübarizə barəsində səylərinizi birləşdirmək üçün, bölgədə və ümumiyyətlə, ölkələrimizdə təhlükəsizliyi təmin etmək üçün bu görüşə toplaşırıq. Bu görüş Trabzondadır. Mən oraya gedirəm. Orada Türkiyənin Prezidenti, Gürcüstanın Prezidenti, bir də mən görüşüb söhbət edəcəyik.

Sual: Cənab Prezident, orada hansısa sənədlər imzalanacaqmı?

Cavab: Bəli, bir sənəd imzalanacaq. Onu Daxili İşlər nazirləri imzalayacaqlar.

Sual: Cənab Prezident, Trabzon görüşü regionda yeni güc mərkəzi yaratmaq təşəbbüsü kimi də qiymətləndirilir. Bu barədə Sizin fikrinizi bilmək olarmı?

Cavab: Bilirsiniz, belə şeyləri şişirtməyin. Yeni güc mərkəzi, filan... Hər kırda şeyi götürüb rəng verirlər. Bu, sadəcə, regionla əməkdaşlıqdır.

Bunların hamısı bir məqsədə yönəldilibdir - sülh, təhlükəsizlik yaransın, indi də ən aktual olan beynəlxalq terrorizmə, narkotiklərin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, silah qaçaqmalçılığı ilə mübarizə, insan alveri ilə mübarizə - bunlar çox mühüm məsələlərdir.

Bunları hər ölkə aparır. Amma müəyyən regionlarda biz işlərimizi əlaqələndirəndə, bir-birimizə yardım edəndə bu işlər daha da uğurla gedir.

Sual: Cənab Prezident, Bakı - Tbilisi - Ceyhan neft ixrac kəmərinin təhlükəsizliyi məsələsi, əsasən, hansı aspektlərdə müzakirə olunacaqdır?

Cavab: Bilirsiniz, burada elə bir müzakirə olunası şey yoxdur. Bakı - Tbilisi - Ceyhanın təhlükəsizliyini boru xəttinin keçdiyi ölkələr - Azərbaycan, Gürcüstan, Türkiyə təmin edəcək, bunların hərəsi bu vəzifəni öz üzərinə götürübdür. Burada başqa bir aspekt yoxdur. Məsələn, mən fərman vermişəm, böyük bir komissiya yaratmışam, Baş nazir bu komissiyanın sədridir. Orada bizim bütün dövlət orqanları təmsil olunublar. Onlar lazımi tədbirlər hazırlayıb həyata keçirəcəklər ki, biz həm Bakı - Tbilisi - Ceyhan boru xəttinin, həm də Bakı - Tbilisi - Ərzurum kəmərinin təhlükəsizliyini təmin edək.

Sual: Cənab Prezident, növbəti sammitin Tehranda keçirilməsinə Putinin münasibətini Sizdən öyrənmək istəyirik.

Cavab: Belə şey yoxdur, necə yəni Tehranda keçirilməsi? Tehranda keçirilməsi haqqında qərar qəbul olunmadı ki.

Sual: Putin təklif etdi ki, Tehranda keçirilsin.

Cavab: Onu Putin təklif etmədi, sən səhv edirsən. Onu İranın Prezidenti cənab Xatəmi təklif etdi. Putin də buna razılıq verdi və bizim də heç birimiz etiraz etmədik. Ancaq iş bundadır ki, biz o bəyannaməni qəbul edə bilmədik. Bəyannamə qəbul edilmədiyinə görə də sammitin harada keçiriləcəyi barədə qərar da qəbul olunmadı.

Sual: Mübahisəli yataqlarda işlərin dayandırılması ilə bağlı məsələ qaldırılıb, sammitdə heç bir nəticə əldə edilmədiyinə görə, Türkmənistan Prezidenti belə bir təşəbbüs irəli sürübdür ki, bu məsələlər əvvəlcə ikitərəfli danışıqlarla tənzimlənməlidir. Siz bunu necə qiymətləndirirsiniz?

Cavab: Bilirsiniz, həmin görüşdə bəzi sərt ifadələr işlənilibdir. Ancaq buna o qədər də fikir verməyin. Sonra, sammitin axırında Türkmənistan Prezidenti Saparmurad Niyazov mənimlə danışıqlarda təklif etdi ki, biz nümayəndələrimizi müəyyən edək, qoy onlar görüşsünlər, danışıqlar və ikitərəfli danışıqlar aparaq. Mən də buna razılıq verdim.

O ki qaldı, siz "mübahisəli yataqlar" ifadəsi işladirsiniz, mən orada ona cavab vermişəm. Gərək ki, bizim mətbuat nümayəndələri orada vardı. Bir də təkrar etmək istəyiram, orada bu məsələ qalxanda mən dedim ki, gərək biz əvvəl Xəzər dənizində

sektorların sərhədlərini müəyyən edək. Sərhədlər müəyyən ediləndən sonra hansısa yataqlar ola bilər ki, onlar heç mübahisəli olmasın. Hər iki tərəf danışar ki, bu yataqlarda birgə iş aparılsın. Ola bilər, kimsə desin ki, yox, bu, mənimdir, digəri desin ki, mənimdir. Onda bu mübahisə olacaqdır. Mübahisəli yatağı müəyyən etmək üçün gərək mütləq sektorların sərhədləri müəyyən olunsun.

Sual: Cənab Prezident, İrana səfəriniz nə vaxt reallaşacaq?

Cavab: İnşallah, reallaşacaqdır.

Sual: Cənab Prezident, sahibkarlarla görüşdə bildirmisiniz ki, yekun qərar müşavirədə veriləcəkdir. Amma artıq bir neçə məmur vəzifəsindən kənarlaşdırılmışdır.

Cavab: Nə olsun ki, hələ bəlkə başqaları da uzaqlaşdırıldı.

Sual: Cənab Prezident, Siz indi səfərinizdə Bakı - Axalkalaki - Qars dəmir yol xətti ilə bağlı hər hansı bir söhbət aparacaqsınızmı? Çünki Gürcüstan ərazisində müəyyən problemlər var. Bir də ki, ABŞ Prezidenti Corc Buş bəyanatında Türkiyəni Ermənistanla münasibətlər yaratmağa çağırmışdır. Bununla bağlı nə deyə bilərsiniz?

Cavab: Bilirsiniz, Axalkalaki dəmir yoluna bizim o qədər marağımız yoxdur. O, Gürcüstanın öz daxili işidir. Biz bu işlərə qarışmaq istəmirik.

O ki qaldı ABŞ Prezidenti Buşun Türkiyəyə müraciətinə, Türkiyəyə çox müraciətlər olubdur. Bu barədə Türkiyənin şərtləri var. O bu şərtlərdən geri çəkilməyib və heç vaxt da geri çəkilməyəcəkdir. Mən buna əminəm.

Sual: Cənab Prezident, MDB Kollektiv Təhlükəsizlik Şurasının katibi indiki üçtərəfli görüşlə bağlı bildirir ki, bu, təhlükədir və şuranın növbəti iclasında bu məsələyə münasibət bildiriləcəkdir. Sizcə, MDB-nin Təhlükəsizlik Şurası nədən ehtiyat edir?

Cavab: Mən bunu eşitməmişəm. Bunu deyən kimdir?

Sual: İnternet saytlarında bununla bağlı məlumat vardır.

Cavab: Mən eşitməmişəm. İnanmıram ki, onlar bunu böyük bir təhlükə hesab etsinlər.

Sual: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarının hərbi mütəxəssisləri artıq Gürcüstandadırlar. Sizin Trabzondakı görüşünüzdə Bakı - Tbilisi - Ceyhan boru xəttinin təhlükəsizlik məsələlərinin müzakirəsində ABŞ-ın iştirakı ola bilərmi?

Cavab: Burada ABŞ-ın iştirakına nə ehtiyac var? Əgər biz Bakı - Tbilisi - Ceyhan boru xəttini də qoruya bilməyəcəyiksə, onda biz nəyik ki, başqa bir ölkə gəlsin, burada bizə yardım etsin? Buna ehtiyac yoxdur.

Sual: Siz Dünya Azərbaycanlılarının birinci qurultayında bildirmişdiniz ki, diasporla işləyən bir təşkilat yaradılacaqdır. Bu barədə iş gedirmi?

Cavab: Yaradacağıq. Bu yaxınlarda yaradacağıq.

Sağ olun.

TÜRKİYƏ RESPUBLİKASI, AZƏRBAYCAN RESPUBLİKASI VƏ GÜRCÜSTAN RESPUBLİKASI PREZİDENTLƏRİNİN TRABZON ZİRVƏ GÖRÜŞÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər!

Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadzel

Xanımlar və cənablar!

Sizi səmimi qəlbdən salamlayıram.

Qonşu və dost ölkələrimizin dövlət başçılarının bu görüşünü yüksək səviyyədə təşkil etdiyi üçün, bizə göstərilən qonaqpərvərliyə görə Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum Əhməd Necdət Sezərə minnətdarlığımı bildirirəm.

Ümid edirəm ki, region ölkələrinin dövlət başçıları arasında belə görüşlərin keçirilməsi bölgədə sülh və sabitliyə xidmət edir, iqtisadi inkişafa və tərəqqiyə təkan verir. Biz artıq bir müddətdir ki, Rusiya, Gürcüstan, Azərbaycan və Ermənistanın daxil olduğu "Qafqaz dördlüyü"nün mütəmadi görüşlərini keçiririk. Bir neçə gün bundan əvvəl Xəzəryanı dövlətlərin başçıları ilk zirvə görüşünə toplaşmışdılar. Bu görüşdə biz mövcud problemlərin həlli üçün, əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsi üçün region dövlətlərinin birgə səylərinin nə qədər vacib olduğunu bir daha yəqin etdik. Mən Türkiyə, Gürcüstan və Azərbaycan Prezidentlərinin bugünkü toplantısına da qarşılıqlı dialoqun yeni bir təzahürü kimi yanaşıram və Trabzon görüşünün işinə uğurlar arzulayıram.

Türkiyə, Gürcüstan və Azərbaycan tarixən həmişə sıx əlaqədə olublar. Xalqlarımızın çoxəsrlik tarixində heç vaxt nifaq və qarşıdurmaya yol verilməyibdir. Yeni şərait, yeni siyasi reallaqlar bizə bu tarixi ənənələri daha da inkişaf etdirmək üçün gözəl imkan yaradıbdır. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra digər region dövlətləri ilə bir sırada Türkiyə və Gürcüstanla da sıx qarşılıqlı əlaqələr və əməkdaşlıq yolunu tutublar. Biz bu gün həm ikitərəfli qaydada, həm də beynəlxalq qurumlar çərçivəsində uğurla əməkdaşlıq edirik. Ona görə də haqlı olaraq düşünürük ki, həyata keçirmək əzmində olduğumuz mühüm iqtisadi layihələr təkcə regionun simasını dəyişdirməyəcək, həm də xalqlarımızı və dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıracaq, demokratik proseslərə daha böyük vüsət verəcəkdir. Bu, eyni zamanda, regionun sabitliyinə və iqtisadi rifahına xidmət edəcəkdir.

Enerji daşıyıcılarının hasilatı və nəqli sahəsindəki əməkdaşlığımız qarşılıqlı iqtisadi münasibətlərimizdə mühüm yer tutur. 1994-cü ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər də-

nizinin mineral resurslarından istifadə olunması sahəsində ciddi uğurlar əldə edilmişdir. Bakı - Supsa və Bakı - Novorossiysk boru kəmərlərinin istifadəyə verilməsi, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəməri və Bakı - Tbilisi - Ərzurum qaz kəməri layihələrinin reallaşması bu gün Şərq-Qərb enerji dəhlizi ideyasının birgə səylərimizlə gerçəkliyə çevrildiyini göstərməkdədir. Digər tərəfdən, regionumuzun irimiqyaslı nəqliyyat qovşağı olması da qarşılıqlı əməkdaşlığımız və dünya iqtisadi sisteminə inteqrasiyamız üçün mühüm şərtdir. Torpaqlarımızdan keçən tarixi ipək yolunun bərpası Türkiyənin və Cənubi Qafqaz regionunun əhəmiyyətini daha da artırmışdır. Nəticədə ticarətin inkişafına, təbii ehtiyatların istifadəsi və nəqlinə, sivil və demokratik cəmiyyət quruculuğuna, mənəviyyatların və mədəniyyətlərin dialoquna yeni imkanlar açılmışdır.

Bu gün xalqlarımız və ölkələrimiz böyük inkişaf perspektivləri qarşısındadır. Lakin təəssüflər olsun ki, həm dünya miqyasında, həm də regionda cərəyan edən bir sıra proseslər bu ictimai və iqtisadi tərəqqini ləngidir. Hətta bir sıra hallarda qarşımıza qoyduğumuz məqsədlərin həyata keçirilməsinə ciddi təhlükə törədir. Bunu deyərkən mən, ilk növbədə beynəlxalq terrorizmi, təcavüzkar separatizmi, mütəşəkkil cinayətkarlığı, dövlətlərə və xalqlara qarşı çevrilmiş digər ağır cinayətləri nəzərdə tuturam. Əgər bizim regionda bütün bu ağrılı proseslər baş verməsəydi, əgər Cənubi Qafqaz münaqişələr meydanına çevrilməsəydi, bu gün üzləşdiyimiz mənzərə tamamilə fərqli olardı. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və torpaqlarımızın beşdə bir hissəsinin işğal altında olması, qonşu Gürcüstanın ərazi bütövlüyünün pozulması, habelə regionda mövcud olan bir sıra digər problemlər sürətli iqtisadi inkişafın, qarşılıqlı fayda prinsiplərinə əsaslanan əməkdaşlığın imkanlarını məhdudlaşdırır. Öz həllini tapmamış münaqişələr, ilk növbədə isə artıq on dörd illik bir tarixə malik olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regionda qeyri-sabitliyin, ən böyük amilidir.

Bütün bunlara baxmayaraq, biz beynəlxalq xarakterli böyük iqtisadi layihələri həyata keçiririk. Bu layihələrin ideyadan reallığa çevrilməsi qarşımıza bir sıra yeni vəziyyətlər qoyur. Bu da Şərq-Qərb enerji və nəqliyyat dəhlizinin tam təhlükəsizliyinin təmin olunmasıdır. Biz birgə səylərimizlə etibarlı təhlükəsizlik sisteminin yaradılmasına nail olmalıyıq. Enerji və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin təmin edilməsi üçün həm üçtərəfli əməkdaşlıq, həm də beynəlxalq qurumlarla və maraqlı olan dövlətlərlə əlaqələr yaradılması çox zəruridir. Çünki həyata keçirdiyimiz layihələr yalnız Türkiyə, Azərbaycan və Gürcüstanda deyil, beynəlxalq birliyin üzvü olan bir çox dövlətlərdə də iqtisadi baxımdan maraq doğurur.

Müasir mərhələdə terrorizmlə mübarizə ayrı-ayrı dövlətlərin milli təhlükəsizliyini, beynəlxalq miqyasda təhlükəsizliyi təmin etmək üçün mühüm şərtdir. Azərbaycan Respublikası, əvvəllər olduğu kimi yenə də beynəlxalq birliyin bu istiqamətdəki səylərini tam şəkildə dəstəkləyir. Biz qarşıya qoyulmuş məqsədlərdən asılı olmayaraq, terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyirik. 2001-ci il 11 sentyabr hadisələrindən sonra Azərbaycanın dərhal, qeyd-şərtsiz və tərəddüdsüz olaraq antiterror koalisiyasına qoşulması və beynəlxalq terrorizmə qarşı mübarizəyə öz töhfələrini verməsi bu məsələyə münasibətdə mövqeyimizin nə qədər ardıcıl və prinsipial olduğunu bir daha göstərir. Beynəlxalq terrorizmlə mübarizənin hədəfi yalnız ayrı-ayrı terror təşkilatları və qrupları deyil, bütünlükdə bu dəhşətli bəlanı doğuran səbəblər və mənbələr olmalıdır. Məmnunluq hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Respublikası beynəlxalq terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni ticarəti, çirkli pulların yuyulması, silah qaçaqmalçılığı və insan alveri ilə mübarizə sahəsində qəbul edilmiş bütün əsas beynəlxalq sənədlərin iştirakçısıdır. Eyni zamanda, bu cinayətkar əməllərlə mübarizəni həyata keçirən beynəlxalq universal və regional təşkilatlar da Azərbaycan Respublikası ilə fəal əməkdaşlıq edirlər. Nəticə etibarilə, bizim birgə səylərimiz BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı kimi beynəlxalq təşkilatlar çərçivəsində daha səmərəli nəticələrin əldə olunması təmin edir.

Regionun siyasi sabitliyinin və iqtisadi inkişafının əsas şərtlərindən biri regional təhlükəsizliyin təmin olunmasıdır. Bu isə ilk növbədə mövcud regional münaqişələrin dinc yolla nizama salınması və yalnız bundan sonra bütün sahələrdə hərtərəfli əməkdaşlığın həyata keçirilməsi sayəsində mümkündür. Türkiyə, Gürcüstan və Azərbaycan son illərdə regional əməkdaşlığın əyani nümunəsini yaratmışlar. Biz Trabzon görüşünə həmin əməkdaşlığı daha da möhkəmləndirmək niyyəti ilə gəlmişik. Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında üç dövlət arasında imzalanacaq saziş və niyyətimizin konkret təzahürüdür.

Sülhün və sabitliyin qorunub saxlanması, ümumbəşəri dəyərlərin və prinsiplərin ardıcıl şəkildə həyata keçirilməsi, iqtisadi və sosial tərəqqinin əldə olunması regionumuzun gələcək inkişafı ilə bağlı əsas vəzifələrimizdir. Bu vəzifələrin yerinə yetirilməsi hər üç dövlətin bundan sonra da siyasi, iqtisadi, sosial, mədəni, hüquqi sahələrdə, demokratiyanın inkişafı, əsas insan hüquq və azadlıqlarının qorunması sahələrində əməkdaşlığını zərurətə çevirir.

Ümidvaram ki, Türkiyə, Gürcüs-

tan və Azərbaycan Prezidentlərinin Trabzon görüşü bu çoxtərəfli və çoxşaxəli əməkdaşlığımızın mühüm bir mərhələsi olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞÜ

Aprelin 29-da Trabzonda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər ilə görüşü olmuşdur.

Respublikamızın rəhbərini səmimi salamlayan Prezident Əhməd Necdət Sezər onun dəvətini qəbul edərək Türkiyə, Azərbaycan və Gürcüstan dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Trabzona gəldiyinə görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirdi.

Dost və qardaş ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da genişlənməsindən və dərinləşməsindən çox məmnun qaldığını söyləyən Prezident Əhməd Necdət Sezər Türkiyə Respublikasının Azərbaycan Respublikasına münasibətdə siyasətini heç vaxt dəyişməyəcəyini nəzərə çarpdırdı.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının, uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşayan bir milyondan Azərbaycan vətəndaşının doğma yurdlarına qayıtmasının zəruriliyini vurğulayan Prezident Əhməd Necdət Sezər bildirdi ki, ATƏT-in Minsk qrupunun üzvü kimi Türkiyə bu problemin həlli istiqamətində öz səylərini əsirgəməyəcəkdir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bu ilin iyun ayında İstanbulda keçiriləcək zirvə görüşündən söhbət açan, Azərbaycan Prezidenti Heydər Əliyevə toplantıda iştirak etmək barədə rəsmi dəvət göndərdiyini söyləyən Türkiyə Prezidenti dövlətimizin başçısını bu sammitə bir daha dəvət etdi.

Türkiyə, Azərbaycan və Gürcüstan Prezidentlərinin zirvə görüşünə dəvətə, səmimi qonaqpərvərliyə görə minnətdarlığını bildirən Prezident Heydər Əliyev Trabzon sammitində iştirak etməsindən məmnun olduğunu nəzərə çarpdırdı.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində görülən işlərdən söhbət açan dövlətimizin başçısı Azərbaycanın haqq işinin qardaş Türkiyə tərəfindən daim təstəklənməsi razılıqla vurğulandı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunmasından, bir milyondan çox vətəndaşın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır şəraitdə

yaşamasından bəhs edən Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, ATƏT-in Minsk qrupunun üzvü olan Türkiyə bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün öz səylərini daha da artıracaqdır.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə Prezidentlər ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi, Xəzərin Azərbaycan sektorundakı zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli, Şərq - Qərb, enerji dəhlizinin, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəmərinin, Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin təhükəsizliyinin təmin olunması məsələlərinin müzakirəsinə geniş yer ayırdılar.

Görüşdə bölgədə vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər!

Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze!

Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

Türkiyə - Gürcüstan - Azərbaycan regional işbirliyi ilə əlaqədar toplantımız başa çatdı. Hesab edirəm ki, Trabzon görüşü uğurla başa çatıb və biz bölgəmiz üçün çox əhəmiyyətli məsələləri müzakirə etdik və nəticədə hökumətlərimiz arasında müvafiq saziş imzalandı. Bu, bizim bölgəmizdə yeni bir hadisədir. Bu, eyni zamanda bizim bölgəmizdə Türkiyənin, Gürcüstanın və Azərbaycanın bütün başqa sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində, beynəlxalq terrorizm ilə mübarizə sahəsində və xüsusən, Şərq - Qərb dəhlizinin təhlükəsizliyinin təmin edilməsi sahəsində üçtərəfli əməkdaşlığının təməlini qoymuşdur. Hesab edirəm ki, biz çox dəyərli iş görmüşük və bu əməkdaşlığımız həm ölkələrimiz üçün, həm də bölgəmiz üçün çox əhəmiyyətli olacaq, bu bölgədə üç dövlətin əməkdaşlığının yeni mərhələsini müəyyən edəcəkdir.

Beynəlxalq terrorizmlə mübarizə indi bütün bəşəriyyətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, Türkiyə, Gürcüstan və Azərbaycan ötən il sentyabrın 11-də baş vermiş hadisələrdən sonra beynəlxalq terrorizmə qarşı yaranmış koalisiyaya, alyansa dərhal qoşulmuşlar və bu mübarizəyə öz töhfələrini vermişlər. Bölgəmizin təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda ölkələrimizin hər birinin milli təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır. Bu sahədə çox problemlər var. Biz bu barədə

hörmətli Cümhurbaşkanı Sezərlə, hörmətli Prezident Şevardnadze ilə həm üçtərəfli görüşlərimizdə, həm də ikitərəfli görüşlərimizdə çox ətraflı müzakirələr apardıq.

Ən əsası ondan ibarətdir ki, bizim fikirlərimizin eyni olduğunu bir daha təsdiq etdik. Bütün bu məsələlər içərisində bizim üçün daha böyük önəm kəsb edən bölgəmizdə Bakı - Tbilisi - Ceyhan, Bakı - Tbilisi - Ərzurum boru xətlərinin mühafizəsinin, təhlükəsizliyinin təmin olunmasıdır. Bildiyiniz kimi, bizim bu sahədə 1994-cü ildən indiyə qədər gördüyümüz işlər və birgə səylərimiz öz nəticələrini veribdir. Ancaq Bakı - Tbilisi - Ceyhan əsas neft ixrac kəmərinin inşasına başlanır.

Güman edirəm ki, bu, 2004-cü ildə, ən geci 2005-ci ildə sona çatacaq və biz Xəzər dənizindən hasil etdiyimiz neftin Türkiyənin Ceyhan limanına çatdırılmasının və dünya bazarlarına göndərilməsinin şahidi olacağıq. İnanıram ki, həmin bu böyük hadisənin açılışında da biz birlikdə iştirak edəcəyik. Eləcə də Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin açılışında.

Bizim Xəzər dənizində kəşf etdiyimiz "Şahdəniz" qaz yatağı çox zəngindir. Orada onilliklərlə böyük miqdarda hasil oluna biləcək təbii qaz var. Biz bu yataqda işləməyə başlayarkən və xüsusən son nəticələri aldığımız zaman məhz Türkiyə ilə əlaqələr yaratdıq və onun qaza olan ehtiyacını təmin etmək məqsədi ilə Azərbaycan qazının Türkiyəyə nəql olunmasını təklif etdik. Türkiyə Cümhuriyyəti bizim bu təklifimizi məmnuniyyətlə qəbul etdi və biz işə başlamışıq. Ümid edirəm ki, Azərbaycanın Xəzər dənizindəki "Şahdəniz" qaz yatağından çıxarılacaq qaz 2004-cü ildə Türkiyəyə axacaq, Türkiyənin müxtəlif bölgələrini təbii qazla təmin edəcəkdir. Biz gələcəkdə təbii qazın Türkiyə ərazisi ilə Avropaya nəql edilməsini də nəzərdə tuturuq.

Beləliklə, biz böyük layihələr həyata keçiririk və yaxşı nəticələr əldə etmişik. Onların təhlükəsizliyinin təmin edilməsi indi bizim gündəliyimizdə duran əsas məsələlərdən biridir. Bu məsələlər də burada, Trabzon zirvə görüşündə müzakirə olundu. Biz fikir mübadiləsi apardıq, eyni səylərimizin birləşdirilməsi haqqında qərar qəbul etdik. Bundan sonra birlikdə əməkdaşlıq edəcəyik, irəliyə gedəcəyik.

Beləliklə, Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərin təşəbbüsü ilə ilk dəfə Trabzonda toplanmış zirvə görüşü çox əhəmiyyətlidir və çox uğurla başa çatıbdır. Ümidvaram ki, burada təməlini qoyduğumuz iş gələcəkdə davam edəcək, ölkələrimiz üçün, xalqlarımız üçün çox faydalı olacaqdır.

Mən Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərə bu böyük təşəbbüsə görə, Trabzon zirvə görüşünün çox yüksək

səviyyədə təşkil olunmasına görə, burada yaranmış işgüzar şəraitə görə, bizə göstərilən gözəl qonaqpərvərliyə görə təşəkkür edirəm. Əziz qardaşım Əhməd Necdət Sezərə, qardaş türk xalqına sevgi-məhəbbətimi bildirirəm və sülh, əmin-amanlıq, rifah diləyirəm. Sağ olun.

Sonra Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze jurnalistlərin suallarına cavab verdilər.

Sual: May ayında Reykyavikdə NATO-nun zirvə toplantısı zamanı Azərbaycan, Türkiyə və Ermənistan Xarici İşlər nazirlərinin də görüşü olacaqdır. Azərbaycan Prezidenti Heydər Əliyev, bu üçtərəfli görüşdən nə gözləyir?

Heydər Əliyev: Biz hər bir görüşdən bir nəticə gözləyirik. Reykyavikdə Türkiyə, Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin görüşü Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə olacaqdır. İndiyə qədər belə görüşlər olmayıbdır. Ancaq indi belə üçtərəfli görüş də baş verir. Biz buna etiraz etmirik. Biz bu görüşdə iştirak edəcəyik və bir də qeyd edirəm, hər bir görüşdən bölgəmizdə sülhün, təhlükəsizliyin təmin olunması üçün faydalanmaq istəyirik və xüsusən Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını - Azərbaycan torpaqlarının beşdə biri onların işğalı altındadır - və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, yerindən-yurdundan didərgin düşmüş bir milyondan artıq azərbaycanlının, çadırlarda yaşayan insanların öz yerlərinə, yurdlarına qayıtmasını istəyirik. Bu istiqamətdə biz illər boyu çalışırıq, mübarizə aparırıq.

Əgər Reykyavik görüşü bu barədə bizə fayda verəcəksə, biz bundan çox məmnun olacağıq.

Sual: Bakı - Tbilisi - Ceyhan neft kəmərinin və Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin reallaşması üçün hər hansı problem varmı?

Heydər Əliyev: Mətbuat nümayəndələri mənə Bakıda, Azərbaycanda da çox sual verirlər. Gəlmişəm, burada da öz jurnalistlərimiz mənə belə sual verir. Heç bir problem yoxdur. Amma bununla demək istəmirəm ki, hər şey rəvan gedir. Problemlər olubdur, biz onların qarşısını almışıq. Burada Türkiyənin mətbuat nümayəndələri əksəriyyət təşkil edirlər. Onlar bilirlər ki, 5-6 il bundan öncə mən Türkiyəyə gələndə hamı soruşurdu ki, Bakı - Tbilisi - Ceyhan boru xətti olacaq, ya olmayacaq? Çünki şübhələr çox idi və buna əsas da vardı. Ona görə ki, bu layihənin həyata keçirilməsinə böyük maneə var idi.

Özü də çox güclü iqtisadi maneələrdən maneələr var idi. Ancaq biz bu gün fəxr edə bilərik ki, bu maneələrin hamısının qarşısını aldıq, ağır, çətin yoldan keçdik, sınaqlardan çıxdıq. İndi Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin inşası artıq re-

aldır. Üç dövlət - Azərbaycan, Gürcüstan, Türkiyə öz parlamentlərində bizim hökumətlərarası sazişlərimizi təsdiq ediblər. İndi maliyyə məsələləri həll olunur. Bunlar da müsbət həll edilməkdədir. Ancaq bu o demək deyil ki, problem yoxdur. Problem var, problem də olacaqdır. Hətta biz Bakı - Tbilisi - Ceyhanın xəttini tikib istismara verəndən sonra da problem olacaqdır. Çünki yenə də deyirəm, buna qısqanclıq edən, buna mane olmaq istəyən, bunun əleyhinə olan qüvvələr var və onlar da yaşayırlar və yaşayacaqlar. Ancaq hamınızı əmin edirəm ki, biz bu işin ən ağır dövrünü keçirmişik. İndi isə işin ikinci mərhələsindəyik. Güman edirəm ki, bu mərhələ bizim üçün əvvəlki mərhələdən daha da asan olacaqdır. Arxayın ola bilərsiniz, hər şey yaxşı olacaqdır.

Sual: Bu gün burada mühüm bir saziş imzalandı. Amma məlumdur ki, Gürcüstanda da, Azərbaycanda da münaqişə ocaqları var. Azərbaycanın məlum Dağlıq Qarabağ problemi var. Bu baxımdan əgər gələcəkdə sazişin həyata keçirilməsində hər hansı bir problem olarsa, yəni ixrac boru kəmərlərinin təhlükəsizliyində problemlər olarsa, növbəti bir koalisiya yaradılması gözlənilə bilərmi? Bu koalisiya hansı məsələlərin tənzimlənməsi ilə məşğul ola bilər?

Heydər Əliyev: Mən bu sualı daha çox anladım. Ona görə də mən cavab verim, qardaşlarım da hazırlaşsınlar.

Əgər gələcəkdə bu boru xətlərinin təhlükəsizliyi ilə bağlı bir hadisə baş verərsə, - mən sualı belə anladım,- biz nə edəcəyik? Birincisi, biz burada razılaşmışıq ki, boru xətlərinin təhlükəsizliyini hər dövlət öz ərazisində təmin edəcəkdir. Bu, bizim hər birimizin öz ərazimizdə olan vəzifəmizdir. Güman edirəm ki, biz bunların öhdəsindən gələcəyik. Mən hesab etmirəm ki, elə bir şərait yaransın və biz bundan ötrü koalisiya yaratmalı olaq. Ancaq təbiidir ki, biz bu işləri həmişə birlikdə aparırıq, məsləhətləşirik, işlərimizi əlaqələndiririk və bunu gələcəkdə də edəcəyik.

Hər hansı bir hadisə meydana çıxarsa, yenə də məsləhətləşəcəyik, bir-birimizin fikrini öyrənəcəyik və ümumi səylərimizlə bunları həll edəcəyik.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 3-də Prezident sarayında Türkiyənin Ədliyyə naziri Hikmət Sami Türkün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dost ölkənin Ədliyyə nazirinin Bakıya səfərinin Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı üçün əhəmiyyətli olduğunu, əlaqələrimizin

daha da genişləndirilməsinin vacibliyini bildirdi.

Respublikamızın rəhbəri Trabzonda Türkiyə, Gürcüstan və Azərbaycan prezidentlərinin görüşündən danışaraq, bölgəmizdə təhlükəsizlik, beynəlxalq terrorizmlə mübarizə, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin təhlükəsizliyinin təmin olunması ilə bağlı çox ətraflı müzakirələr aparıldığını, daxili işlər nazirlərinin xüsusi saziş imzaladıqlarını nəzərə çarpdırdı.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab Hikmət Sami Türk Prezident Heydər Əliyevin söylədiyi "Biz bir millət, iki dövlətik" kəlamının müdrikliyini Bakıda olduğu iki gün müddətində bir daha hiss etdiyini vurğuladı.

Prezident Əhməd Necdət Sezərin və Baş nazir Büləndt Ecevitin ölkəmizin rəhbərinə səmimi salamlarını, hörmət və ehtiramını və Azərbaycan xalqına ən xoş diləklərini çatdıran Hikmət Sami Türk Bakıda sərbəst güləş üzrə 45-ci Avropa çempionatının açılış mərasimində iştirak etdiyini bildirərək dedi ki, idmançılar salona daxil olanda Azərbaycan güləşçilərindən sonra ən çox alqışlanan Türkiyənin komandası oldu. Bu da iki ölkənin bir-birini nə qədər çox sevdiyini göstərən çox gözəl bir əlamətdir. Bunu ölkəmə qayıdandan sonra da xatırlayacağam.

O, bildirdi ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə kimi Türkiyə respublikamızla bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə daim xüsusi diqqət yetirmiş, Azərbaycan ilə Türkiyə arasında indiyədək yüzdən çox saziş imzalanmışdır. Nazir bildirdi ki, Bakıya səfəri zamanı Türkiyə ilə Azərbaycan arasında hüquqi və ticarət sahələrində ədliyyə yardımı haqqında saziş imzalanmışdır. İki ölkənin mütəxəssislərinin beynəlxalq standartlara uyğun hazırladığı bu sazişdə anlaşılmazlıq yaranan hallarda tərəflərin dinlənilməsi, məhkəmə qərarlarının qarşılıqlı tanınması və digər məsələlər öz əksini tapmışdır.

Keçən il Türkiyə ilə Azərbaycanın ədliyyə nazirlikləri arasında əməkdaşlıq protokolunun imzalandığını və onun reallaşdırılması üçün proqramın təsdiqləndiyini vurğulayan nazir bildirdi ki, bütün bunlar iki ölkə arasındakı əlaqələrin sağlam və hüquqi təməl əsasında inkişaf etdiyini göstərir.

O, hazırda 1500-ə yaxın türk firmasının Azərbaycana təxminən 1,5 milyard dollarlıq sərmayə qoyduğunu, Prezident Heydər Əliyevin rəhbərliyi altında respublikamızda bütün sahələrdə görülən işləri təqdirlə izlədiklərini və dəstəklədiklərini vurğulayan cənab Hikmət Sami Türk dedi ki, ölkələrimiz demokratiya, insan haqlarına hörmət, hüququn aliliyi, sərbəst bazar iqtisadiyyatı prinsipi ilə yaşayan dövlətlərdir. Azərbaycan Sizin müdrik rəhbərliyinizlə bu sahədə irəliyə çox addımlar atmışdır. Avropa Birliyinə üzv olmaq istəyən

ölkə kimi Türkiyə indi Konstitusiyasında və qanunlarında dəyişikliklər aparır, bəzi islahatlar keçirir.

Ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığından, Ermənistan-Azərbaycan münaqişəsindən söhbət açan nazir dedi ki, beynəlxalq hüquqa zidd olaraq, Azərbaycanın torpaqları Ermənistan tərəfindən işğal edilmişdir. Biz münaqişənin sülh yolu ilə həllini istəyirik və bu sahədə ATƏT-in üzvü kimi Türkiyə üzərinə düşən işləri fəal yerinə yetirir. Ermənistan bu torpaqları tərk etməsə, Azərbaycan xalqının qəbul edəcəyi qərar əldə olunmasa, Türkiyə ilə Ermənistan əlaqələrinin yaranması mümkün olmayacaqdır. Biz hər zaman Azərbaycanlayıq.

Hikmət Sami Türk Trabzon zirvə görüşünü yüksək qiymətləndirdi və dedi ki, cənab Prezident, Türkiyə üçün əhəmiyyətli olan layihələrin gerçəkləşdirilməsində Sizin şəxsi zəhmətinizi, rolunuzu bilirik və buna görə Sizə təşəkkür edirik.

Türkiyə-Azərbaycan əlaqələri haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev ölkələrimiz arasında yaranmış səmimi dostluq, qardaşlıq münasibətlərinin ilbəil möhkəmləndiyini vurğulayaraq bildirdi ki, ədliyyə sahəsindəki əməkdaşlıq həm Türkiyənin, həm də Azərbaycanın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə aiddir. Azərbaycan hüquqi, demokratik, dünyəvi dövlət qurmaq yolunda çox işlər görmüşdür. Bu gün dövlət quruculuğu yüksək səviyyədədir və dövlətin hüquqi əsasda qurulması bizim əsas prinsiplərimizdən biridir.

Türkiyənin Avropa Birliyinə daxil olmaq istəyini Azərbaycanın dəstəklədiyini bildirən respublikamızın rəhbəri dedi ki, biz arzu edirik Türkiyə qarşısına qoyduğu məqsədə nail ola bilsin. Türkiyənin hüquqi dövlət quruculuğu sahəsində böyük təcrübəsi vardır. Ona görə əməkdaşlığımızda bu təcrübədən faydalanmaq, istifadə etmək lazımdır. Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır və buna heç kəs heç bir şey edə bilməz. Biz bundan sonra da birlikdə irəliyə gedəcəyik.

Cənab Hikmət Sami Türk Prezident Heydər Əliyevi qarşıdan gələn ad günü münasibətilə təbrik etdi, ona möhkəm cansağlığı, taleyüklü işlərində uğurlar arzuladı və xatirə hədiyyəsi təqdim etdi.

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALININ AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

7-8 may 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALI İLƏ GÖRÜŞÜ

Mayın 7-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Respublikası Baş nazirinin müavini, Dövlət naziri Dövlət Baxçalı ilə təkbətək görüşü olmuşdur.

Hörmətli qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək respublikamıza rəsmi səfərə gəldiyinə görə cənab Dövlət Baxçalıya təşəkkürünü bildirdi.

Cənab Dövlət Baxçalının respublikamıza səfərini Türkiyə - Azərbaycan dostluğunun və qardaşlığının inkişaf etdirilməsində əlamətdar bir hadisə kimi dəyərləndirən Prezident Heydər Əliyev ölkələrimizin bütün sahələrində əməkdaşlığının hazırkı vəziyyətindən razılıqla söhbət açdı. Azərbaycana rəsmi dəvətə, göstərilən qonaqpərvərliyə və vaxt tapıb onları qəbul etdiyinə görə respublikamızın Prezidenti Heydər Əliyevə dərin təşəkkürünü, hörmət və ehtiramını bildirən cənab Dövlət Baxçalı Bakıda keçirdiyi görüşlər, apardığı danışıqlar barədə məlumat verdi.

Prezident Heydər Əliyevin Türkiyə Respublikasına səfərinin qardaş ölkədə həmişə tarixi hadisə kimi dəyərləndirildiyi, bu səfərlərin Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əməkdaşlığın sürətlə inkişaf etdirilməsində mühüm rol oynadığını nəzərə çarpdıran cənab Dövlət Baxçalı qardaş ölkələrimizin münasibətlərinin dövlətimizin başçısının "Biz bir millət, iki dövlətik" - anlayışı çərçivəsində gündən-günə möhkəmlənməsindən çox məmnun qaldığını söylədi. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sa-

həsində aparılmış danışıqlardan bəhs edən respublikamızın rəhbəri Heydər Əliyev Azərbaycanın haqq işinin müdafiə edilməsində qardaş Türkiyənin göstərdiyi daimi dəstəkdən razılıqla söhbət açdı.

Prezident Heydər Əliyevin bu münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətindəki zəhmətinin Türkiyə Respublikasında həmişə yüksək dəyərləndirildiyini vurğulayan Dövlət Baxçalı bir daha bildirdi ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll edilməyincə, işğal olunmuş Azərbaycan torpaqları azad edilməyincə Türkiyə Ermənistanla heç bir əlaqə qurmayacaqdır. Bu məsələnin həllində Türkiyə həmişə Azərbaycanın yanında olacaqdır.

Azərbaycanda Prezident Heydər Əliyevin rəhbərliyi ilə aparılan demokratik islahatların gedişinin və əldə olunan uğurların qardaş Türkiyədə böyük maraqla izlənildiyini nəzərə çarpdıran cənab Dövlət Baxçalı ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının ildən-ilə daha da möhkəmlənəcəyinə əmin olduğunu bildirdi.

Görüşdə Azərbaycan - Türkiyə əməkdaşlığının perspektivləri, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT BAXÇALININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 7-də Prezident sarayında Türkiyənin Baş nazirinin müavini, Dövlət naziri Dövlət Baxçalını və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Hörmətli qonaqları səmimiyyətlə qarşılayan dövlətimizin başçısı **Heydər Əliyev dedi:**

- Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini hörmətli Dövlət Baxçalı!

Türkiyə Cümhuriyyəti hökumətinin hörmətli nazirləri!

Hörmətli qonaqlar!

Hamınız Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Türkiyə kimi, Azərbaycan da sizin vətəninizdir. Ona görə deyirəm ki, öz vətəninizə gəlmisiniz.

Hörmətli dostum, siz Azərbaycana ilk dəfədir gəlirsiniz və bu gəlişiniz də mənim dəvətim nəticəsində olubdur. Mən sizi bir müddət bundan öncə dəvət etmişdim. Çox məmnunam ki, siz imkan tapıb mənim bu dəvətimi həyata keçirmisiniz, indi Azərbaycanda ziyarətdəsiniz.

Hörmətli Dövlət Baxçalı, mənim dəvətimi qəbul etdiyinizə görə, Azərbaycana rəsmi ziyarətə gəldiyinizə

görə sizə səmimi qəlbdən təşəkkür edirəm. Hesab edirəm ki, sizin bu ziyarətiniz Türkiyə - Azərbaycan dostluğunun və qardaşlığının inkişaf etdirilməsində əlamətdar bir hadisədir.

Biz bu gün sizinlə təkbətək, yaxud sizin dillə desək, baş-başa, çox yaxşı söhbət etdik. Çox səmimi, dostyana, qardaşyana söhbət etdik. Təbiidir ki, Türkiyə - Azərbaycan məsələlərini, yaxud da ölkələrimizi maraqlandıran başqa məsələləri müzakirə etmək üçün bir saat, iki saat, üç saat azdır. Biz gərək saatlarla, günlərlə söhbət edək. Ancaq biz indi protokoldan çıxdıq. Ona görə ki, söhbətimiz çox səmimi və çox mehriban idi, eyni zamanda çox əhəmiyyətli idi.

Mən söhbət zamanı dedim, bir də bildirmək istəyirəm ki, Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələri Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra sürətlə - hər gün, hər ay, hər il inkişaf edir. Bu, təbiidir. Bu, həm Türkiyənin istəyidir, türk xalqının istəyidir, həm də Azərbaycanın istəyidir, Azərbaycan xalqının istəyidir. Ölkələrimiz xalqlarımızın tarixi kökləri, qədim dostluq-qardaşlıq əlaqələri üzərində, milli-mənəvi dəyərləri, ənənələri üzərində dövlətlərarası əlaqələri qurublar. Biz iki dövlət baş-başa verib bu əlaqələri inkişaf etdiririk. Bir millət, iki dövlət - bu, artıq həqiqətə çevrilibdir. Belə də var və bu da bizim əlaqələrimizin əsas forması olubdur.

Siz burada çox görüşlər keçirmisiniz. Görüşlər zamanı Türkiyə - Azərbaycan əlaqələrinə aid bir çox məsələləri müzakirə etmisiniz. İndi onlara yenidən qayıtmaq lazım deyildir. Biz, demək olar ki, sizinlə əsas məsələləri danışdıq. Burada hamı, mətbuatda da bilməlidir ki, bizim apardığımız söhbətlər içərisində əsas yeri Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsi tutdu. Bu barədə çox ətraflı danışdıq, fikir mübadiləsi apardıq, yaranmış vəziyyəti təhlil etdik ki, nə etmək lazımdır ki, biz bu məsələni həll edək. Biz bu məsələ barəsində daim Türkiyənin dəstəyindən bəhrələnmişik. Türkiyə ilə məsləhətləşmişik, bunun həll edilməsində Türkiyə ilə bərabər olmuşuq.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən Türkiyə Azərbaycanın problemlərinə böyük maraq göstərir. Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi elə o vaxt, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndə də mövcud idi. O vaxtdan Azərbaycan Türkiyə ilə bu barədə əməkdaşlıq edir. Bizim əməkdaşlığımız da çox əhəmiyyətli nəticələr verir və bu gün də biz vaxtımızı əməkdaşlığın indi də gələcəkdə hansı yollarla aparılmasına sərf etdik.

Mən sizinlə bu barədə apardığım danışıqlardan çox məmnunam. Çox məmnunam ki, siz Azərbaycana çox böyük diqqət göstərirsiniz. Azərbaycanın məsələləri, problemləri ilə yaxından maraqlanırsınız və bizimlə bərabər Ermənistan - Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsinin həll olunması üçün çalışırsınız. Siz də bu fikri irəliyə sürdünüz ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız sülh yolu ilə həll edilə bilər. Mən bu fikri dəfələrlə təhlil etmişəm, yoxlamışam və yenə də bu fikrə gəlmişəm ki, biz indi də məsələni sülh yolu ilə həll etməyə çalışmalıyıq. Biz bu məsələdə sizinlə eyni fikirdə olduq və mən bundan çox məmnunam. Bundan sonra da əməkdaşlıq edəcəyik və bu barədə də sizinlə danışıqlar apardıq.

Başqa elə bir məsələ yoxdur. Bizim ölkələrimiz arasında heç bir problem yoxdur. Bir problem var - dostluğu, qardaşlığı daha da yüksəklərə qaldırmaq. Biz bunu da birlikdə edirik. Bir də təkrar edirəm, sizin ziyarətiniz bizim bu işimizdə çox əhəmiyyətli yer tutur və güman edirəm ki, öz nəticələrini verəcəkdir. Buyurun.

Səmimi sözlərə görə minnətdarlığını bildirən Türkiyə Baş nazirinin müavini, dövlət naziri **Dövlət Baxçalı** dedi:

- Hörmətli Cümhurbaşkanım!

Zati-alinizin dəvəti ilə Azərbaycana gəldiyimiz üçün, bu gün bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

Azərbaycana ilk dəfədir gəlirəm. Burada hökumətinizin səlahiyyətli şəxsləri ilə çox önəmli ikitərəfli görüşlər keçirmişik. Nümayəndə heyətimizdə olan nazir həmkarlarımız buradakı nazir həmkarları ilə ikitərəfli görüşlər keçirmişlər. Ziyarətimizin ikinci günündə çox əhəmiyyətli, çox gözəl görüşlər olmuşdur. Bu gün də bizi qəbul etdiyiniz və Zati-alinizin Azərbaycan - Türkiyə əlaqələri barədə dəyərləndirmələrinə görə təşəkkür edirəm.

Zati-alinizin ifadə etdiyi kimi, Türkiyə ilə Azərbaycan arasında başlanmış olan və davam edən çoxyönlü əlaqələr vardır. Bu əlaqələr Zati-alinizin Türkiyəyə həyata keçirdiyiniz ziyarətlər, Türkiyənin cümhurbaşkanının və digər nümayəndələrin Azərbaycana ziyarətləri sayəsində çox gözəl inkişaf etmişdir. Biz inanırıq ki, Türkiyə ilə Azərbaycan Zati-alinizin "Bir millət, iki dövlət" anlayışı çərçivəsində bu dostluq və qardaşlıq əlaqələrini çox yüksək səviyyədə inkişaf etdirməyi arzulamaqdadır. Azərbaycanın sabitlik şəraitində inkişafında Türkiyənin həmişə yanımızda olacağına əmin olamağınızı istəyirik. Azərbaycan üçün Türkiyə vardır.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan üçün çox önəmli bir məsələdir. Zati-alinizin bu münaqişənin sülh yolu ilə həlli istiqamətindəki zəhmətini hər kəs bilir. Ancaq demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi çözülmədən Türkiyə - Ermənistan əlaqələrində heç bir normallaşma ola bilməz. Bizim üçün Türkiyə ilə Ermənistan arasındakı əlaqələr Dağlıq Qarabağ məsələsinin ədalətli həlli ilə bağlıdır, ermənilərin işğal etdiyi Azərbaycan torpaqlarından çıxması ilə bağlıdır.

İnanıram ki, Türkiyə Azərbaycanın bu əsas məsələsinin həlli sahəsində bütün xidmətləri ilə Azərbaycanın yanında olacaqdır.

Hörmətli Cümhurbaşkanım, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

Xoş sözlərə görə hörmətli qonağa minnətdarlıq edən Prezident **Heydər Əliyev** dedi:

- Hörmətli nazirlərimizin bir sözü var, yoxsa yox?

Hörmətli dostum, mən Sizə bu ziyafətinizə görə bir daha təşəkkür edirəm. İndi sizin dediyiniz dəyərli sözlərə görə təşəkkür edirəm. Ümid edirəm ki, Azərbaycanla sizin yaxından ilk tanışlığınız Azərbaycana olan marağınızı artıracaq və Azərbaycana yenə də gələcəksiniz. Mən sizi yenə də Azərbaycana dəvət edirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN BAŞ MÜŞAVİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 29-da Prezident sarayında Türkiyə Baş nazirinin Baş müşaviri, keçmiş Dövlət naziri, Xoca Əhməd Yasəvi adına Beynəlxalq Türk-Qazax Universitetinin İdarə heyətinin sədri Namiq Kamal Zeybəki qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonağı səmimiyyətlə salamlayaraq hal-əhvalat tutdu, onunla tanışlığının on ilinin tamam olduğunu vurğuladı.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən Namiq Kamal Zeybək dedi ki, cənab Prezident, ürəyimiz daim Azərbaycanda, Sizin yanınızdadır. Hörmətli Süleyman Dəmirəl hələ o zaman mənə demişdi ki, cənab Heydər Əliyevi çoxdan tanıyıram, çox ağıllı bir insandır. Görəcəksən, Azərbaycan onu özünə rəhbər seçəcək, Azərbaycanın Cümhurbaşkanı olacaqdır.

Qonaq Bakıdakı Asiya Universitetinin Fəxri doktoru adına layiq görüldüyü barədə də məlumat verdi.

Respublikamızın rəhbəri Heydər Əliyev cənab Süleyman Dəmirəl ilə şəxsi tanışlığının tarixindən söhbət açaraq, Naxçıvanda olarkən Türkiyənin rəhbərləri ilə telefon danışıqlarından, Naxçıvan ilə Türkiyə arasında tikilmiş dostluq körpüsünün əhəmiyyətindən bəhs etdi, 1992-ci ildə Prezident Turqut Özal və Baş nazir Süleyman Dəmirəl, eləcə də Namiq Kamal Zeybək ilə görüşünü xatırladı, onların Naxçıvana göstərdikləri yardımları heç vaxt unutmayacağını söylədi.

Dövlətimizin başçısı hörmətli qonağı Fəxri doktor adı alması münasibətilə təbrik etdi, onun digər universitetlərin də fəxri doktoru adına layiq olduğunu bildirdi, Türkiyə-Azərbaycan əlaqələrinin yaranması və inkişafındakı rolunu vurğuladı, Türkiyədən böyük Atatürk haqqında aldığı ilk gözəl kitabın müəllifinin də

məhz o olmasını yüksək qiymətləndirərək dedi: Azərbaycanın Prezidenti kimi mən bilirəm ki, ölkəmiz hələ müstəqilliyini əldə etmədiyi bir vaxtda, Azərbaycanda Türkiyəyə sevgi-məhəbbət hər gün artdığı bir vaxtda Namiq Kamal Zeybək mədəniyyət naziri kimi çox işlər görmüşdür. Bunları Türkiyədə unutsalar da, biz, unutmarıq, şəxsən mən unutmaram.

Xoş sözlərə görə minnətdarlıq edən, Azərbaycanda əldə olunan nailiyyətləri yüksək qiymətləndirən **Namiq Kamal Zeybək** dedi:

- Cənab Prezident, Allah sizə uzun ömür versin ki, Azərbaycanda hər şey gözəl olsun. Azərbaycanda Sizin kimi görkəmli CümhurC başkanı olduğu üçün biz çox sevinirik. Sizin zəkanız bizə də lazımdır. Allaha şükür edirik ki, Sizi bizə vermişdir, uzun müddət Azərbaycanın rəhbəri olmağınızı arzulayırıq. Bu, Türkiyə və Azərbaycan üçün vacibdir və bunu söyləməkdən fəxr duyuruq. Mən özümü təkcə Türkiyə vətəndaşı yox, həm də Azərbaycan vətəndaşı kimi hiss edirəm. Siz nə əmr edərsinizsə, onu yerinə yetirməyə hazıram.

Prezident Heydər Əliyev qonağa müraciətlə dedi ki, ölkəmizdə həmişə çox istənilən, arzu olunan və sevilən bir şəxs kimi Azərbaycanda həmişə yeriniz vardır. Ümidvaram ki, kimin hansı vəzifə tutmasından asılı olmayaraq, bu əlaqələrimiz, dostluğumuz həm şəxsi münasibətlərimiz naminə, həm də Türkiyə-Azərbaycan dostluğu naminə davam edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 5-də Prezident sarayında Türkiyənin Enerji və Təbii Qaynaqlar naziri Zəki Çakanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev Bakıda keçirilən növbəti neft-qaz sərgisini böyük hadisə kimi qiymətləndirərək vurğuladı ki, indi Azərbaycan dünyanın böyük neft mərkəzlərindən birinə çevrilib və biz buna dövlət müstəqilliyini əldə edəndən sonra qısa müddətdə nail ola bilmişik. Azərbaycan 1994-cü ildə əsası qoyulmuş yeni neft strategiyasını həyata keçirməyə başlayandan Türkiyə ölkəmizlə bu sahədə əməkdaşlıq edir. Çıxarılan neftin Türkiyə vasitəsilə dünya bazarlarına çatdırılması işi ilə o vaxtdan məşğuluq və indi layihə uğurla həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri artıq reallaşıbdır və bu yaxın günlərdə onun inşasına başlayacağıq.

Respublikamızın rəhbəri 1996-cı ildə "Şahdəniz" yatağı haqqında müqavilə imzalandığını xatırladaraq dedi ki, bu yataqda ən azı bir trilyon kubmetr qaz var. Oradan çıxarılacaq qazın nəqlinə dair Türkiyə ilə saziş imzalanıb və indi həyata keçirilir. Bunlar hamısı Türkiyə-Azərbaycan

iqtisadi əməkdaşlığını, ümumiyyətlə, ölkələrimiz arasında bütün sahələrdə əlaqələri inkişaf etdirməkdən ötrüdür. Biz Türkiyə ilə dostluğumuz, əməkdaşlığımız baxımından üzərimizə düşən öhdəlikləri yerinə yetiririk.

Səmimi qəbula görə təşəkkür edən nazir Zəki Çakan beynəlxalq neft-qaz sərgisində iştirakından və Prezident Heydər Əliyevlə yenidən görüşməsindən böyük şərəf duyduğunu söyləyərək dedi ki, Sizin ölkələrimiz arasında əlaqələrin yaranmasında və inkişafındakı əməyinizi Türkiyə dövləti heç vaxt unutmayacaqdır. Sizin rəhbərliyinizlə Azərbaycan qısa bir müddətdə nüfuzlu ölkəyə çevrilmişdir. Azərbaycanda sabitliyin yaranmasında və ölkənin inkişafındakı rolunuz bütün dünya tərəfindən təqdir edilməkdədir.

Türkiyə iş adamlarının və şirkətlərinin ölkəmizdəki fəaliyyətindən, Azərbaycanın yeni neft və qaz strategiyasının əhəmiyyətindən söhbət açan nazir vurğuladı ki, Bakı-Tbilisi-Ceyhan layihəsi əsrin layihəsidir. Azərbaycan Prezidentinin möhkəm iradəsinin nəticəsi olan bu layihənin gerçəkləşməsi yolunda heç bir problem yoxdur və olmayacaqdır.

Qəbulda iştirak edən Türkiyə Böyük Millət Məclisinin deputatı Şamil Ayrım Prezident Heydər Əliyevə müraciətlə dedi ki, həm Azərbaycan üçün, həm də Türkiyə üçün son dərəcə vacib olan Bakı-Tbilisi-Ceyhan boru xətti layihəsinin həyata keçirilməsindən ötrü gördüyünüz nəhəng işlər bizi son dərəcə məmnun etmişdir. Sizə uzun ömür diləyirik. Sizin dəstəyinizlə Türkiyə-Azərbaycan əlaqələrinin daha da irəliyə gedəcəyinə inanırıq. Hər dəfə Azərbaycana gələrkən böyük dəyişikliklər, inkişaf görürük. İnşallah, Azərbaycanın rifahı daha da yüksələcəkdir.

Nazir Zəki Çakan bildirdi ki, Baş nazir Büləndi Eceviti Amerika Birləşmiş Ştatlarına səfərdə müşayiət edərkən vitse-prezident Dik Çeyniyə Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bağlı ətraflı məlumat vermişdir. Onlar layihənin son dərəcə əhəmiyyətli olduğunu və bunu gələcəkdə də dəstəkləyəcəklərini bildirirlər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XIV İŞGÜZAR SƏFƏRİ

24-27 iyun 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının on illiyi münasibətilə QİƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitində iştirak etmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iyunun 26-da Ankarda Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə onun iqamətgahında təkbətək görüşü olmuşdur.

Ölkəmizin başçısını mehribanlıq və səmimiyyətlə salamlayan Türkiyə Prezidenti Əhməd Necdət Sezər Prezident Heydər Əliyev ilə yenidən görüşməyindən məmnunluq duyduğunu bildirdi.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının onilliyi ilə əlaqədar yubiley sammitində Azərbaycan Prezidentinin iştirakından razılıqla söhbət açan cənab Sezər region ölkələri arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə bu təşkilatın töhfəsini yüksək dəyərləndirdi.

Qardaş Türkiyə torpağında göstərilən böyük hörmət-izzətə, yüksək qonaqpərvərliyə görə Prezident Əhməd Necdət Sezərə minnətdarlığını bildirən dövlətimizin Heydər Əliyev QİƏT-in zirvə görüşündə iştirakından, Türkiyədə keçirdiyi çoxsaylı görüşlərdən məmnun olduğunu bildirdi.

Dost və qardaş ölkələrimizin əməkdaşlığının bütün sahələrdə genişlənməkdə və dərinləşməkdə olmasından razılıq hissi ilə söhbət açan prezizentlər qarşılıqlı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinin yüksəldiyini məmnuniyyətlə qeyd etdilər.

Ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətlərinin gündən-günə genişləşməsindən bəhs edən Prezidentlər həyata keçirilən irimiqyaslı regional

layihələrdə Azərbaycanın və Türkiyənin birgə fəal iştirakından razılıq hissi ilə danışdılar.

Görüşdə Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarının işlənilməsi və karbohidrogen ehtiyatlarının Avropa bazarlarına nəqli sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı barədə, Bakı-Tbilisi-Ceyhan əsas, ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşması yolunda qarşıda duran vəzifələr haqqında ətraflı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Prezient Heydər Əliyev ölkəmizin qarşılaşdığı ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlardan, Azərbaycan və Ermənistan Prezidentlərinin birbaşa görüşlərindən bəhs etdi. Türkiyə Prezidenti Əhməd Necdət Sezər nizamlama prosesində öz ölkəsinin Azərbaycanı bundan sonra da həmişə dəstəkləyəcəyini bildirdi.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALINI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 27-də Ankarada onun üçün ayrılmış iqamətgahda - Camlı köşkdə Türkiyə Baş nazirinin müavini, Dövlət naziri Dövlət Baxçalını qəbul etmişdir.

Prezident Heydər Əliyevi mehribanlıqla salamlayan Dövlət Baxçalı Azərbaycana rəsmi səfərini, dövlətimizin başçısı ilə görüşlərini razılıq hissi ilə xatırlayaraq, respublikamızın rəhbəri ilə yeni görüşündən məmnun olduğunu bildirdi.

Görüşlərin, təmasların dost qardaş ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı üçün zəruri olduğunu nəzərə çarpdıran Dövlət Baxçalı dedi ki, Türkiyə Azərbaycan ilə əlaqələrin daha da sıxlaşdırılmasına daim xüsusi diqqət yetirir.

Səmimi və xoş sözlərə görə təşəkkürünü bildirən Prezident Heydər Əliyev qardaş xalqlarımızın iradəsinə uyğun olaraq, Azərbaycan - Türkiyə münasibətlərinin daim inkişaf etməsindən, ölkələrimizin bir-birinə dəstəyindən razılıq hissi ilə danışdı.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən Prezident Heydər Əliyev münaqişə nəticəsində torpaqlarımızın 20 faizinin işğal edildiyini, bir milyon-

dan çox soydaşlarımızın doğma yurd-yuvasından zorla qovularaq, çadır şəhərciklərində çox ağır və dözülməz şəraitdə yaşadıqlarını bir daha xatırlatdı, münaqişənin sülh yolu ilə həllinin Azərbaycanın tərəfdarı olduğunu vurğuladı.

Münaqişənin aradan qaldırılması sahəsində Azərbaycan Prezidentinin səylərini yüksək qiymətləndirən Dövlət Baxçalı bildirdi ki, qardaş Türkiyə Azərbaycanın haqq işini bundan sonra da dəstəkləyəcəkdir.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin inkişafı, regiondakı vəziyyət və tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ MƏSUD YILMAZI QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 27-də Ankarada onun üçün ayrılmış iqamətgahda - Camlı köşkdə Türkiyə Baş nazirinin müavini, Dövlət naziri Məsud Yılmazı qəbul etmişdir.

Dövlətimizin başçısını səmimi-qəlbdən salamlayan Məsud Yılmaz Azərbaycan Prezidenti Heydər Əliyev ilə hər bir görüşdən böyük şərəf duyduğunu söylədi.

Xalqlarımızın iradəsindən doğan və strateji tərəfdaşlıq xarakteri daşıyan Türkiyə - Azərbaycan əməkdaşlığının daha da möhkəmləndirilməsində, Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri və Bakı - Tbilisi - Ərzurum qaz kəməri kimi regional layihələrin reallaşmasında Azərbaycan Prezidenti Heydər Əliyevin xüsusi xidmətləri olduğunu vurğuladı.

Dost və qardaş ölkələrimiz arasında bütün sahələrdə möhkəm təməl üzərində qurulmuş əlaqələrin gündən-günə inkişaf etməsindən razı qaldığını söyləyən Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Türkiyəyə bu işgüzar səfəri dostluq, qardaşlıq, strateji tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsi və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Prezidenti Türkiyədə keçirdiyi görüşləri, apardığı danışıqları yüksək dəyərləndirdi.

Görüşdə ölkəmiz üçün ən ağır problem olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi də diqqət mərkəzində oldu.

Söhbət zamanı regionda vəziyyət, hər iki ölkəni maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN SABİQ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 27-də Ankarada onun üçün ayrılmış iqamətgahda - Camlı köşkdə Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl ilə görüşmüşdür.

Dövlətimizin başçısı özünün əziz dostu və qardaşını çox böyük hörmət və ehtiramla qarşıladı.

Əziz dostu və qardaşı, Azərbaycan Prezidenti ilə hər bir görüşdən çox böyük sevinc duyduğunu söyləyən cənab Süleyman Dəmirəl respublikamızın rəhbərini Türkiyədə bir daha salamlamaqdan məmnun qaldığını bildirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işləri böyük rəğbətlə izlədiyini vurğulayan cənab Süleyman Dəmirəl məhz Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sahəsində Azərbaycan - Türkiyə münasibətlərinin ildən-ilə daha da möhkəmlənməsindən çox məmnun qaldığını vurğuladı.

Görüşdə beynəlxalq aləmdə vəziyyət, Azərbaycan - Türkiyə əməkdaşlığının perspektivləri, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması, Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri, Bakı - Tbilisi - Ərzurum qaz kəməri layihələrinin həyata keçirilməsi sahəsində görülən işlər və ölkəmizi maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI HÜSEYN KIVRIKOĞLU İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Türkiyədə səfərdə olan Azərbaycan Prezidenti Heydər Əliyevin iyunun 27-də Ankarada Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Kıvrıkoğlu ilə təkbətək görüşü olmuşdur.

Azərbaycan Prezidentini mehribanlıqla və səmimiyyətlə salamlayan cənab Hüseyn Kıvrıkoğlu Prezident Heydər Əliyev ilə yenidən görüşməyindən məmnun olduğunu bildirdi.

Ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafından razılıq hissi ilə söhbət açan general Kıvrıkoğlu Azərbaycan - Türkiyə əlaqələrinin genişlənməsində və dərinləşməsində dövlətimizin başçısının xüsusi xidmətləri olduğunu vurğuladı.

Səmimi sözlərə görə minnətdarlığını bildirən Prezident Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında möhkəm dostluq və qardaşlıq təməli üzərində qurulmuş strateji tə-

rəfdaşlıq münasibətlərinə böyük əhəmiyyət verdiyini bildirdi.

Söhbət zamanı Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində görülən işlər, Azərbaycan və Ermənistan Prezidentlərinin birbaşa danışıqları, bölgədəki vəziyyət barədə fikir mübadiləsi aparıldı.

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ HÜSEYN KIVRIKOĞLUNA "ŞÖHRƏT" ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

27 iyun 2002-ci il

- Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi, ordu generalı Hüseyn Kıvrıkoğlu!

Hörmətli generallar!

Türkiyə Silahlı Qüvvələrinin hörmətli nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

Mən bu gün, bu dəqiqələrdə böyük bir həyəcan hissi keçirirəm. Bunun səbəbi məlumdur. Mən ilk dəfə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının binasındayam və Türkiyə Silahlı Qüvvələrinin ən yüksək generallarının, komandanlarının qarşısında nitq söyləyirəm.

Siz bilirsiniz ki, mənim də gəncliyim hərbi işdə keçibdir. Mən də əsgər olmuşam, müxtəlif pillələrdən keçmişəm, general olmuşam. Ona görə də hərb işi, bəlkə də Cümhurbaşqanları vəzifəsində olan bəzi başqa adamlardan fərqli olaraq, mənə daha da yaxındır. Mən hərb işinin, orduda xidmətin nə olduğunu çox gözəl bilirəm. Bunu, sadəcə, bir dövlət xadimi, siyasəti bilən adam kimi yox, öz həyatımda, öz gəncliyimdə keçirdiyim hissiyyatlarla bilirəm.

Bilirsiniz ki, mən Sovetlər Birliyində doğulmuş, böyümüş və həm hərb işində, həm də dövlət işində böyük vəzifələrə gəlmiş adamam. Mən 14 il Azərbaycan Cümhuriyyətinə rəhbərlik etmişəm, ondan sonra isə Moskvada, Kremldə dünyanın super dövlətlərindən olan Sovetlər Birliyi kimi dövlətin başında duran bir neçə kişidən biri olmuşam. Siyasi Büro üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olmuşam. Sizə dost kimi bildirməliyəm ki, rus imperiyasının tarixində ilk dəfə türk, müsəlman ölkəsindən olan bir adam kimi mən belə yüksək vəzifədə çalışmışam. Bu, tarixdir. Bu da mənə nəsib oldu. Amma rus imperiyası da dağıldı. Sovet imperiyası da dağılıbdır. Bundan sonra belə imperiyalar olmayacaq və yəqin belə bir hadisə də olmayacaqdır. Bu, tarixdə qalacaqdır.

Mən bunları özüm haqqında məlumat vermək üçün demirəm. Mən sizdən bu barədə üzr istəyirəm. Ona görə deyirəm, bildirəm ki, hərbi iş mənim üçün nə qədər əziz, doğma olan bir işdir.

Sovetlər Birliyində yaşayan bizim bir çox insanların hafizəsində, beynində türk ordusu ən güclü bir ordu kimi qalmışdı. Təbiidir, vaxtilə biz Türkiyənin tarixini də yaxşı öyrəndik. Osmanlı imperatorluğunun tarixini də öyrəndik. Amma sonra, Sovetlər Birliyi zamanı Türkiyə Cümhuriyyəti var idi. Böyük öndər Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti var idi. 1920-ci illərdə Türkiyə ilə Sovetlər Birliyi arasında münasibətlər hətta dostluq münasibətləri idi. Hətta o vaxt Mustafa Kamal Atatürklə Sovetlər Birliyinin başında olan Lenin arasında əlaqələr var idi. İndi bunlar yoxdur.

Azərbaycanlı kimi, türk kökündən olan insanlar kimi bizim həmişə Türkiyəyə xüsusi münasibətimiz və xüsusi marağımız olubdur. Ona görə də Türkiyəni daha çox öyrənmək, Türkiyəni daha çox bilmək və xüsusən, türk ordusunu daha çox tanımaq istəyi olubdur. Mən isə bu sahədə böyük imkanlara malik idim. Yəni sizə dediyim kimi, həyatımın müəyyən dövrlərinə görə.

Məndə o vaxt da belə düşüncələr var idi və bu gün də var ki, türk ordusu, Mustafa Kamal Atatürk tərəfindən yaradılmış və onun yolu ilə gedən, onun vəsiyyətlərinə əməl edən, bunları yerinə yetirən türk ordusu həmişə güclü, qüdrətli bir ordu olubdur. Bax, bütün bunlara görə də mən sizinlə bugünkü görüşümdə həm böyük sevinc hissi keçirirəm, həm də həyəcan keçirirəm.

Mənim kimi insanı təəccübləndirmək çətindir. Sadəcə, mənim yaşıma görə. Ancaq Türkiyədə hər dəfə ordunu çox nizam-intizamlı, qanunqaydalı, Vətənə sədaqətli, millətinə, dövlətinə sədaqətli bir ordu kimi gördükcə, mənim qəlbim həmişə qürur hissi keçirir. Bu hissiyyatlarla mən fikrimi bu gün sizinlə bölüşürəm. Mən çox məmnunam ki, belə imkan mənə verilmişdir və bu imkandan da istifadə edirəm. Əgər düzünü desək, bəlkə də bu görüşün təşəbbüskarı mən özüməm.

Bilirsiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən bəri onun yaxın dostu, qardaşı və dayağı Türkiyədir. Bu əlaqələrin 10 illik tarixi sizə məlumdur. Yəni 10 ildir ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycanda keçmiş Sovet Ordusundan bir şey qalmamışdır. Yəni müstəqil Azərbaycan Sovet Ordusu sistemində ordusunu qura bilməzdi. Baxmayaraq ki, ilk illərdə Azərbaycan dövləti bu sistemdən istifadə etməyə məcbur idi. Ancaq bu sistemdən istifadə edərək bir, iki, üç, dörd, beş ilə yeni bir milli ordu, Azərbaycan milli ordusu yaratmaq fikri bizi düşündürmüşdür. Bunu da Türkiyə ilə, Türkiyə Cümhuriyyəti ilə bir yerdə etməyə başladıq. Türkiyə Cümhuriyyətinin bu sahədə Azərbaycana yardımının çox böyük əhəmiyyəti olmuşdur.

Bilirsiniz ki, mən 1993-cü ildə Azərbaycanda Prezident seçildim. O

vaxt Azərbaycandakı ağır vəziyyət - vətəndaş müharibəsi, sosial-iqtisadi böhran, hakimiyyət böhranı sizə məlumdur. Azərbaycan dağılırdı, parçalanırdı və xalq o vaxt, Naxçıvanda olduğum zaman məni Bakıya dəvət etdi. Sonra da Azərbaycanın Prezidenti seçildim. Bir neçə il sonra Türkiyənin böyük elçiliyindən gəlib mənə dedilər ki, Türkiyə ilə Azərbaycan arasında anlaşma var ki, Türkiyə Azərbaycanda ordu qurmaq üçün yardım etsin, biz də bunu edirik. Türkiyə ordusundan olan 60-70 nəfər artıq 6 aydır ki, gəlib, burada gözləyirlər ki, onlardan nə vaxt istifadə edəcəklər.

Bilirsiniz ki, 1992-ci ildə Əbülfəz Elçibəy və Xalq Cəbhəsi hakimiyyətə gələndə özlərini Türkiyənin ən böyük dostu kimi bəyan etmişdilər. Böyük türkçülər kimi bəyan etdilər. Ancaq Türkiyənin böyük elçisi bunu mənə söyləyəndə, təbiidir, mən təəccübləndim. Əgər Azərbaycan bunu xahiş edibsə, Azərbaycan, həqiqətən, Türkiyə ilə dost, qardaşdırsa, Türkiyə hökuməti öz yardımını göstərib öz ordusundan zabitlər, əsgərlər ayırıb göndəribsə, niyə belə olmalıdır?

Mən ondan soruşdum ki, nə üçün belədir?

Dedi ki, sizdən əvvəl hakimiyyətdə olan Xalq Cəbhəsi hökuməti idi. Müdafiə naziri deyirdi yox, Türkiyənin yardımı lazım deyil, biz Rusiyadan yardım alacağıq, bizə Rusiya yardım edəcəkdir. Digəri deyirdi ki, yox, bizə Türkiyə lazımdır. O birisi deyirdi ki, yox, Türkiyə lazım deyil, biz İrandan yardım alacağıq. Başqası deyirdi ki, yox, ayrı yerdən yardım alacağıq. Onlar bir araya, bir fikrə gələ bilmirdilər. Biz cümhurbaşkanına dedik, cümhurbaşkanı da bunların arasında qalmışdı. Müdafiə naziri bura çəkirdi, daxili işlər naziri ora çəkirdi, Baş nazir ayrı tərəfə çəkirdi. Biz də gözləyirdik ki, bizdən nə vaxt istifadə edəcəklər.

Bunu çoxları bilmir, amma mən bilməyənlərə xatırladıram, istəyirəm bilsinlər. O mənə dedi ki, biz onları geriyə qaytarırıq, Türkiyəyə göndəririk. Mən dərhal dedim, yox, mənə imkan verin, 10-15 gün möhlət verin, bu işləri araşdırım. Biz bu işi davam etdirməliyik və etdik. O vaxtdan indiyə qədər Azərbaycanda milli ordunun, Azərbaycan ordusunun yaranmasında Türkiyə Silahlı Qüvvələri, onların müxtəlif idarələrinin, müxtəlif hissələrinin nümayəndələri fəaliyyət göstərirlər və ordunun həm təlim məsələsində, həm də hərbi məktəblər yaradılması məsələsində, bütün başqa məsələlərdə biz bu yardımı alırıq.

Keçən ilin avqust ayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi, ordu generalı Hüseyn Kıvrıkoğlu mənim dəvətimlə Azərbaycana rəsmi səfərə gəlmişdi. Amma bu ziyarət, bu səfər adi bir şey deyildi. Onlarla bərabər, Azərbaycana "Türk ulduzları" da gəldi. Biz Türkiyənin yardımı ilə yaradılmış ali hərbi məktəbin açılışında iştirak etdik. Gördük ki, gözəl bir ali hərbi məktəb yaranıbdır. Artıq onların məzunları var. Artıq orada zabitlər hazırlanır, bir çox mütəxəssislər hazırlanır.

Ona həm texniki yardım, həm maliyyə yardımı, həm təhsil yardımı, həm də başqa yardım göstərilmişdir.

Bunları burada sadalamaq fikrində deyiləm. Ancaq bu yardımların nəticəsində çox yüksək səviyyəli, yəni nümunə olan yüksək ali hərbi məktəb yaranıbdır. Biz orada olduq, hər şeyə baxdıq. Sonra orada böyük bir meydanda onlar öz fəaliyyətlərini nümayiş etdirdilər.

"Türk ulduzları" da bütün Azərbaycanı həyəcana gətirdi. Amma təkcə Azərbaycanı yox, çox ölkələrdə həyəcan yaratdı. Bəzilərində qorxu yaratdı ki, bu nədir, Türkiyənin təyyarələri gəlib Azərbaycanda oturacaqdır, Azərbaycana yardım edəcəkdir və sairə başqa şeylər edəcəkdir. Belə günlər yaşadıq. Biz bunu heç vaxt unutmuruq. Amma bu bir, iki, üç gün idi. Bizim Türkiyənin Silahlı Qüvvələri ilə əməkdaşlığımız, həmfikirliyimiz bununla məhdudlaşmır. Dediyim kimi, 1993-cü ildən mən Azərbaycanın Cümhurbaşkanı seçiləndən bu günə qədər Türkiyə ilə bizim əməkdaşlığımız, - hansı ki, indi strateji əməkdaşlıq xarakteri alıbdır, - bütün sahələrdə, xüsusən, bizim ordu quruculuğu sahəsində davam edir.

Bu gün Azərbaycanda güclü ordu var. Bizim generallardan soruşanda, ola bilər, onlar öz işlərini tərifləmək üçün bunu daha da yüksək qiymətləndirsinlər. Amma mən bunu Türkiyənin Azərbaycandakı hərbi attaşesindən soruşuram. Hörmətli Kıvrıkoğlu oraya çox yaxşı insanlar göndərir. Onlar da çox canla-başla, sədaqətlə xidmət edirlər. Zəki paşa var idi. O, qəflətən həyatdan getdi. İndi onun yerinə digər general gəlibdir, çox gözəl xidmət edir. Mən onlarla təkbətək görüşürəm, soruşuram ki, ordumuz necədir, hərbi hissələrdə işlər necədir. Mən bu məlumatları onlardan alıram. Onlardan aldığım məlumatlar və özümün məlumatlarım əsasında deyə bilərəm ki, - güman edirəm, siz də bunu təsdiq edərsiniz, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının hörmətli rəisi də təsdiq edər - bu gün artıq Azərbaycan ordusu 4-5 il bundan əvvəlki ordu deyildir. Bizim güclü ordumuz var və biz ordumuzu daha da gücləndirəcəyik.

Hər bir dövlətin güclü ordusu olmalıdır. Biz gənc, müstəqil dövlətik. Bizim ən böyük problemimiz odur ki, 1989-cu ildən Ermənistanla Azərbaycan arasında savaş başlayıbdır. Ermənilər iddia edirlər ki, Azərbaycanın qədim torpağı olan Dağlıq Qarabağı guya Ermənistana birləşdirmək istəyirlər. Bəzi səbəblərdən hələ 1991-ci ildə onlar Dağlıq Qarabağı işğal etdilər. Bundan sonra Azərbaycanın daxilində sabitlik olmadığına görə və Azərbaycanın daxilindəki müxtəlif qüvvələr hərəsi özünə bir silahlı dəstə düzəldib hakimiyyət uğrunda

mübarizə apardığı zaman ermənilər bu fürsətdən istifadə etdilər və Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlı zorla çıxarılıbdır, başqa bölgələrdə çadırlarda yaşayırlar.

Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycanın sərhədlərinin toxunulmazlığı pozulubdur. Beynəlxalq hüquq normaları pozulubdur. Beynəlxalq təşkilatlar - Birləşmiş Millətlər Təşkilatı qətnamələr qəbul edib ki, Ermənistan işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxsın. Amma onlar bunu yerinə yetirmirlər.

Biz danışıqlar aparırıq. Bilirsiniz ki, 1992-ci ildə ATƏT-in tərkibində Minsk qrupu yaranıbdır. Onun həmsədrləri Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa bizimlə bərabər bu məsələni sülh yolu ilə həll etmək, çözmək üçün çalışırlar. Bizə yardım etməyə çalışırlar. Amma onlar da hələ heç bir şey edə bilməyiblər. Bir sözlə, bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan çox vətəndaşımız çadırlarda qaçqındır. Ona görə də biz, təbiidir, işğal olunmuş torpaqları azad etməliyik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik, təmin etməliyik. Yerindən-yurdundan didərgin düşmüş insanları öz torpağına, elinə-obasına qaytarmalıyıq. Doğrudur, ondan sonra da onların həyatı çətin olacaqdır. Çünki işğal olunmuş torpaqlarda hər şey dağıdılıbdır. Orada torpaqlardan başqa heç bir şey qalmayıbdır. Yüz illərlə tikilən evlər, fabriklər, xəstəxanalar, məktəblər, kitabxanalar, mədəniyyət sarayları və sairə və sairə - hamısı ermənilər tərəfindən dağıdılıbdır. Yəni torpaqlar azad olunandan sonra da hələ neçə illər bu işlər görülməlidir.

Mən bu gün sizin qarşınızda da deyirəm. Biz sülh tərəfdarıyıq. Məsələni ancaq və ancaq sülh yolu ilə həll etmək istəyirik. Ancaq bu mümkün olmasa, təbiidir ki, bütün imkanlardan istifadə edib, torpaqlarımızı azad etməliyik. Ona görə də bizim ordumuz daha da güclü olmalıdır. Biz dövlət kimi bunun üçün öz üzərimizə düşən vəzifəni həll edirik və bunun üçün də biz Türkiyə Cümhuriyyəti ilə, Türkiyənin silahlı qüvvələri ilə çox gözəl əməkdaşlıq edirik. Bizə bu əməkdaşlığın faydası böyükdür və bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir.

Türkiyənin güclü ordusunun olması hər bir azərbaycanlıda böyük qürur hissi yaradır. Mən söylədim, Türkiyənin ordusu Türkiyənin ən böyük nailiyyətidir. Bunun da əsasını böyük öndər Mustafa Kamal Atatürk qoymuşdur. Azərbaycanda biz Atatürkün bütün türk dünyası üçün nə qədər böyük şəxsiyyət olduğunu xalqımıza bildirmişik.

Mən çox məmnunam ki, iki il bundan öncə mənə burada "Mustafa Kamal Atatürk Adına Beynəlxalq Sülh Mükafatı" verilmişdi. Mən bununla fəxr edirəm. Mənim medallarım, ordenlərin çoxdur. Amma Mustafa Kamal Atatürkün adına olan beynəlxalq sülh mükafatı mənim üçün çox əzizdir və çox yüksəkdir.

Mən Bakıda böyük bir mərkəz - Azərbaycanda Atatürk Mərkəzi yaratmışam. Atatürkün həyatı, onun yaratdığı Türkiyə Cümhuriyyətinin tarixi və xüsusən, Türkiyə Cümhuriyyətinin qəhrəman ordusunun tarixi böyük araşdırmaların mövzusudur. Bundan əsərlər yaradılmalıdır. Çünki bunlar təkcə sizin üçün yox, bugünkü nəsillər üçün yox, gələcək nəsillər üçün də çox dəyərlidir, çox lazımlıdır.

Biz türk ordusu ilə fəxr edirik. Azərbaycanda türk ordusuna böyük sevgi, məhəbbət həmişə yaşayır. Şəxsən mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün türk xalqı qarşısında xidmətləri əvəzsizdir. Yəni o qədər böyükdür ki, ona qiymət vermək çətindir. Amma bunların içərisində onun iki böyük xidməti var. Birincisi, Türkiyə Cümhuriyyətinin yaranması, ikincisi, türk ordusunun yaranmasıdır. Türkiyə Cümhuriyyətinin ordusu keçmiş ordudan, keçmiş dövrdəki ordudan fərqlidir. Orduda belə bir sistemin yaranması, əlbəttə, sizin ölkənizin sərvətidir. Eyni zamanda, sizin üçün fəxrdir və Azərbaycan üçün də fəxrdir.

Təbiidir, hər bir ordunun rəhbərliyindən çox şey asılıdır. Amma türk ordusunda elə bir sistem yaranıbdır ki, burada rəhbərlər dəyişdikcə ordu zəifləsin - belə bir şey yoxdur. Ordu irəliyə gedir. Amma silahlı qüvvələrin hər bir rəhbəri də öz dövründə böyük işlər görməlidir. Əziz dostum Hüseyn Kıvrıkoğlu mənə burada baş qərargah rəislərinin şəkillərini göstərdi və bildirdi ki, Fevzi Çakmak 20 il baş qərargah rəisi olmuşdur. Eladirmi?

Hüseyn Qıvrıqoğlu: Doğrudur.

Heydər Əliyev: Amma indi sizdə qanun var, hər kəs dörd il xidmətini edir. Sizin ordu üçün, mən hesab edirəm ki, bu da bir müasir sistemdir. Ancaq bu dörd ildə kim nə iş görür? Dörd il o qədər böyük dövr deyil, amma az da deyildir. Dörd ilin içərisində çox şey etmək olar.

Son dörd ilin içərisində Türkiyə Cümhuriyyəti ilə, onun silahlı qüvvələri ilə əməkdaşlığımızda, iş birliyimizdə baş qərargah rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə daim yaxın əlaqəmiz olmuşdur. Bu əlaqələr nəticəsində görüşlərimiz də, danışıqlarımız, söhbətlərimiz də olubdur. Mən hər dəfə Türkiyəyə gələndə mütləq baş qərargah rəisi ilə görüşürəm. Onu öncə də, sonra da Azərbaycana dəvət etmişdim, gəlmişdi.

Dörd il müddətində görmüşəm ki, əziz dostum Hüseyn Kıvrıkoğlu Türkiyə ordusunun, Mustafa Kamal Atatürk ordusunun ən dəyərli yüksək generallarından biridir və baş qərargah rəisi vəzifəsini şərəfli yerinə yetirən bir insandır. Təkcə Türkiyə ordusunda gördüyü işlərdən yox, NATO sistemində və dünyanın başqa orduları ilə yaranmış iş birliyində, o

cümlədən türk dünyasına mənsub olan dövlətlərin, ölkələrin silahlı qüvvələri ilə iş birliyində və başqa sahələrdə çox gözəl örnək olubdur. Mən bunu Azərbaycandan görürəm.

Ona görə də mən hesab edirəm ki, hörmətli Hüseyn Kıvrıkoğlu Türkiyə Silahlı Qüvvələrində şərəflə, namusla, sədaqətlə, vətənə bağlı hissiyyatlarla indiyə qədər xidmət etdiyi kimi və dörd il baş qərargah rəisi vəzifəsini şərəflə yerinə yetirdiyi kimi, ömrünün sonuna qədər də bu duyğularla Türkiyə Cümhuriyyətinin yaşaması, inkişaf etməsi üçün Türkiyədə Silahlı Qüvvələrin daha da inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Hörmətli Hüseyn Kıvrıkoğlu bir il bundan öncə Azərbaycanda rəsmi səfərdə olduğu zaman mən cümhurbaşkanı olaraq onu Azərbaycanın yüksək ordeni - "Azərbaycan bayrağı" ordeni ilə təltif etdim. İndi isə Türkiyəyə səfər edərək və düşünərək, bilərək ki, sizin qanunlara görə hörmətli baş qərargah rəisi bir müddətdən sonra öz vəzifəsindən ayrılacaqdır, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi hörmətli Hüseyn Kıvrıkoğlunu Azərbaycanın digər ordeni - "Şöhrət" ordeni ilə təltif etmişəm. Artıq burada bu barədə məlumatlar verildi.

Mən hesab edirəm ki, Azərbaycanın iki yüksək dövlət mükafatı - "Azərbaycan bayrağı" ordeni və "Şöhrət" ordeni ordu generalı Hüseyn Kıvrıkoğlunun döşündə parıldayaraq, Azərbaycan ilə Türkiyə arasında Azərbaycan Silahlı Qüvvələri ilə Türkiyə Silahlı Qüvvələri arasında olan dostluq-qardaşlıq əlaqələrini daim nümayiş etdirəcək və bu əlaqələrimiz sarsılmaz olacaqdır, əbədi olacaqdır.

Mən hörmətli Hüseyn Kıvrıkoğlunu vəzifədən ayrılandan sonra istədiyi zaman ailəsi ilə bərabər Azərbaycana dəvət edirəm. Azərbaycan onun doğma evidir. Azərbaycanın, Azərbaycanın cümhurbaşkanının çox istədiyi şəxsi qonağı olacaqdır. Güman edirəm ki, hörmətli Hüseyn Kıvrıkoğlu da mənim bu arzularımı unutmayacaq və imkan dairəsində yerinə yetirəcəkdir. Mən isə hər zaman Türkiyəyə gələrkən heç vaxt dostlarımı unutmuram. Hamısı ilə görüşürəm. Mən Türkiyədə olmayanda da, belə əlaqələri davam etdirirəm, eləcə də bizim hörmətli Baş Qərargah rəisi ilə.

Bəlkə də Azərbaycan Cümhurbaşkanı kimi bu sözlərin bəzilərini burada deməyə o qədər də ixtiyarım çatmır. Çünki mən Azərbaycanın Prezidentiyəm. Amma mən eyni zamanda Azərbaycanı və Türkiyəni bir-birindən ayırmıram, ona görə də bu sözləri deyirəm.

Əziz dostum, mən Sizə cansağlığı arzu edirəm. Sizin ailənizə səadət və xoşbəxtlik arzu edirəm. Ümidvaram ki, Mustafa Kamal Atatürkün əsgəri olaraq Siz Türkiyənin Silahlı Qüvvələrində daim xidmətdə olacaqsınız və bundan sonra da Türkiyə - Azərbaycan dostluq, qardaşlıq və birgə əməkdaşlıq əlaqələrinin inkişafına xidmət edəcəksiniz. Sağ olun. Sizin hamınıza təşəkkür edirəm.

YÜKSƏK MÜKAFATLARIN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ PREZİDENT HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

27 iyun 2002-ci il

- Hörmətli professor, əziz dostum İhsan Doğramacı!

İhsan Doğramacı fondunun mənə təqdim etdiyiniz bu qızıl medalına, mükafatına görə sizə təşəkkür edirəm. Siz bunu mənim sülh yaratmaq sahəsində fəaliyyətimə yüksək qiymət olaraq verdiniz. Həqiqətən, mən sülh adamıyam. Mən istəyirəm ki, insanlar arasında sülh olsun, millətlər arasında sülh olsun, dövlətlər arasında sülh olsun, barış olsun. Siz barış deyirsiniz. Böyük öndər Mustafa Kamal Atatürkün çox müdrik sözləri - "Yurdda sülh, cahanda sülh" sözləri bizim hamımız üçün bir örnəkdir. Amma onu da deyim ki, böyük Mustafa Kamal Atatürk "sülh" demişdir, "barış" deməmişdir. Əgər siz, həqiqətən, Türkiyə Cümhuriyyətinin banisi, bütün türk dünyasının öndəri unudulmaz Mustafa Kamal Atatürkün dili ilə danışmaq istəyirsinizsə, onda çalışın sülh sözündən istifadə edin.

Sülh hamıya lazımdır. Çünki Azərbaycanın Dağlıq Qarabağ hissəsinə iddia edən qonşu Ermənistan 1988-ci ildən Azərbaycana hücum, təcavüz edibdir. Öncə bu, Azərbaycan ilə Ermənistan arasında müəyyən bir münaqişənin yaranması kimi meydana çıxıbdır. O vaxtlar hələ Azərbaycan da, Ermənistan da Sovetlər Birliyinin daxilində idi, müstəqil, bağımsız deyildilər. Amma sonra Sovetlər Birliyi dağıldı, Azərbaycan da, Ermənistan da öz dövlət müstəqilliyini əldə etdi. Ancaq münaqişə davanmadı. Çünki ermənilər müxtəlif ölkələrin yardımından istifadə edərək, - siz də, biz də, hamımız, ermənilərin kim olduğunu, nə olduğunu və dünyanın hansı qüvvələrindən faydalandıqlarını yaxşı bilirik, - Azərbaycan torpaqlarının bir qismini işğal etdilər. Böyük müharibə getdi, qan töküldü, şəhidlər verdik.

Bilirsiniz ki, 1993-cü ildə Azərbaycanda gərgin bir daxili vəziyyət yarandı, sabitlik tamam pozuldu və vətəndaş müharibəsi başlandı. Azərbaycan dağılmaq təhlükəsi qarşısında idi. O vaxt xalq məni Azərbaycana Prezident seçdi. Ondan sonra mən də Ermənistanla müharibəni davam etdirdim. Ancaq müharibəni davam etdirərək, mən eyni zamanda düşünürdüm ki, müharibənin sonu belə olacaqdır - biz torpaqlarımızı geri almağa çalışıb irəliləyəcəyik, ermənilər başqa yerlərdən qüvvə toplayıb, yenidən gəlib bizi sıxışdıracaqlar. Ona görə də sülhün yaranması o vaxtlar ən zəruri bir qərar kimi meydana çıxdı.

1994-cü ilin may ayında hər iki

tərəf Ermənistanla Azərbaycan arasında sülh yox, - bizim aramızda sülh yoxdur, -sadəcə, atəşi dayandırmaq, atəşkəs elan etmək haqqında qərar qəbul etdik. Atəşkəsi elan etdik. O vaxtdan indiyə qədər, 8 ildir ki, biz atəşkəs rejimində yaşayırıq. Burada müsbət hal ondan ibarətdir ki, Ermənistan qoşunları ilə Azərbaycan qoşunları arasına hansısa bir ölkənin sülhü mühafizə qoşunlarını gətirmədik. Biz ermənilərlə ilk dəfə eyni fikirdə olduq ki, özümüz burada atəşkəs rejimini təmin edək. 8 ildir ki, bu atəşkəs rejimini təmin edirik. Müharibə yoxdur, qan tökülmür, şəhidlər vermirik. Məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Biz sülh istəyirik, ancaq işğal olunmuş torpaqlarımızın azad edilməsi şərti ilə. Ərazi bütövlüyümüzün, sərhədlərimizin bərpa olunması şərti ilə. Ermənilər tərəfindən işğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxardılıb və 9-10 ildir ki, çadırlarda yaşayırlar. Onların öz yerlərinə-yurdlarına qaytarılması şərti ilə. Bu şərtlərlə biz Ermənistanla sülh sazişi bağlamağa hazırıq və danışıqlar aparırıq.

Danışıqlar çətin keçir. Bunda bizə ATƏT, onun yaratdığı Minsk qrupu yardım edir. Minsk qrupunun həmsədrləri var - Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa, Türkiyə də Minsk qrupunun tərkibindədir. Biz Türkiyənin yardımını, təbiidir ki, daim hiss edirik və bu məsələnin həll olunmasında Türkiyə ilə məsləhətləşirik. Dünən də mən Türkiyə Cümhuriyyətinin hörmətli Prezidenti, əziz dostum Əhməd Necdət Sezər ilə görüşdüm və iki saat danışdım. Onda da məhz məsələnin sülh yolu ilə həlli barədə məsləhətləşmələr apardıq.

Ona görə mən mükafatı bu mənada qəbul edirəm ki, atəşkəs yaratdıq, atəşi dayandırdıq, top atılmır, tüfəng atılmır, bomba partlamır, insanlar şəhid olmur. Ancaq məqsədimizə də nail olmamışıq. Mən bu gözəl mükafatı qəbul edərək, arzumu-istəyimi bildirirəm və sizi əmin edirəm ki, əsas məqsədimiz, mənim əsas məqsədim Azərbaycanın işğal olunmuş torpaqlarını azad etmək və bölgədə Ermənistanla Azərbaycan arasında sülh yaratmaqdır.

Sonra Türkiyə Sənayeçiləri və iş adamları Vəqfinin (TÜSİAV) sədri Vəli Sarıtorpağa söz verildi. O "Üstün xidmət və başarı mükafatı"nı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Türk iş adamlarının, türk iş dünyasının təqdim etdiyi bu plaket, bu hədiyyə mənim üçün çox qiymətlidir. Ən öncə, bunu təqdim edərkən mənim dostum Vəli Sarıtorpağın çox gözəl nitqi məni olduqca ruhlandırdı. Həqiqətən, o, mənim həyatımın bəzi anlarını burada düzgün, doğru xatırladı. İnsan yaşayır, bizim kimi insanlar, mənim kimi də insan yaşayır. Amma dünənki günüm budur. Sonra da özü, yaxud da onun dostları keçmişdən bəzi anları xatırladanda, insan öz-özünə düşünür ki, əcəba, mən bu imişəm?

Bəli, bu sözlərin hamısını deyəndə mənim qəlbimdəki sarı simlərə toxundunuz. Siz bilirsiniz sarı sim nədir? Azərbaycanda tar aləti var. Tarın bir neçə simi var. O simlərdən biri sarı simdir. Tar çalan simin birində çalır, sarı simə keçəndə insana daha da çox təsir edir. Ancaq bu sözləri deməklə, eyni zamanda, onu da bildirmək istəyirəm ki, mən nə qədər çox yol keçmişəmsə, nə qədər çox işlər görmüşəmsə, nə qədər böyük xidmətlər görmüşəmsə, xalqımın, millətimin, türk millətinin qarşısında bütün vəzifələrimi hələ yerinə yetirməmişəm. Ona görə də ömrümün sonuna qədər borclu qalacağam. Qoy mənim borclu qalmağımı,- indidən deyirəm, - xalqımız bağışlasın. Çünki nə mümkündürsə, onu etmişəm və edirəm.

Bizim indiki həyatımızda özəl sektorun inkişaf etməsi, iqtisadiyyatın inkişaf etməsi iş adamlarının fəaliyyətindən asılıdır. Bizim kimi keçmiş sovet rejimində yaşayan insanlar üçün bu, indi daha da aydın görünür. Çünki keçmişdə bizdə bu sistem yox idi. Artıq bir neçə ildir ki, bizim ölkədə, xalqımız da özəl sektorun, iş adamlarının xalq, millət üçün, dövlət üçün nə qədər əhəmiyyətli olduğunu anlayır və hiss edirlər. İndi sizin vəqf, təşkilat mənim gördüyüm işləri bu qədər qiymətləndirdiyinə görə təşəkkür edirəm və sizi əmin edirəm ki, daim sizinlə işbirliyində olacağam.

***

Ankara İşgüzar Qadınlar Cəmiyyətinin (ANİKOD) sədri xanım Sərpil Tınaz Akçar "İlin Dövlət Adamı" mükafatını dövlətimizin başçısına təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Həyatda belə bir qayda var ki, kişilər qadınlara hədiyyə verirlər. Gərək evdə xanıma hədiyyə verəsən, qonşu qadına da, çalışdığın yerdə də qadınlara hədiyyə verəsən, əgər ayrı bir sevdiyin qadın varsa, ona da hədiyyə verəsən. Görürəm xoşunuza gəlir, gülürsünüz. Deməli, buradakı kişilərin hədiyyə verdiyi çoxlu qadın var. Məndə isə tərsinədir, qadınlar mənə hədiyyə verirlər. Mən belə hesab edirəm ki, bu, çox qiymətli hədiyyədir. Qadınlar Cəmiyyətinin mənə "İlin dövlət adamı" mükafatı verməsi mənim üçün çox əzizdir. Çünki qadınlar çox tələbkar olurlar. Bilirsiniz ki, bəzən qadınlar çox incəliklərə varırlar. Qadınların nəvazişi var. Bilmirəm siz necə deyirsiniz, biz nəvaziş deyirik. Gərək qadına həmişə hörmət edəsən, qoymayasan nədənsə incisin. Ruslarda bir söz var. Mən çalışacağam ki, onu türk dilinə tər-

cümə edəm. Onlar deyirlər ki, qadınlar kapризli olurlar. Sizdə də kapриз deyirlər? Mən də bayaqdan çalışıram ki, bunu tərcümə edəm. Qadınlar şıltaq olurlar. Kişilərin əlacı yoxdur, onlar qadınların şıltaqlığına dözməlidirlər. Dözməsələr, işləri yaxşı getməyəcək. Güman edirəm, mənim qadınlar haqqında olan hissiyyatlarım hər bir kişidə var. Ancaq bir dövlət başçısı kimi, siyasət adamı kimi mən həmişə həyatımda, keçdiyim yolda dövlət işində, hökumət işində, elm işində, mədəniyyət işində qadınlara hörmət etmişəm. Qadınların rolunu yüksəltmək, onlara öz istedadlarını daha da açmaq üçün imkanlar vermək mənim həmişə vəzifəm olmuşdur. - Azərbaycandakı qadınlar, mən dəfələrlə demişəm, bunu bilirəm, - məndən çox razıdırlar. Hətta hesab edirəm ki, onlar məni sevirlər.

Əziz Tınaz xanım! Xahiş edirəm, sizin xanımların hamısına mənim təşəkkürümü çatdırın və deyin ki, Azərbaycanın Cümhurbaşkanı kimi mən həmişə qadınların dayağı olmuşam, bundan sonra da olacağam.

***

Sonra Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin (TÜRKSAV) sədri Yəhya Akəngin Prezident Heydər Əliyevə Vəqfin "Türk dünyasının 2001-ci il xüsusi mükafatı"nı təqdim etdi.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

-Türk Dünyası Yazıçılar və Sənətçilər Vəqfinin indi təqdim etdiyi bu hədiyyə mənim üçün çox qiymətlidir. Çünki bizim hamımızın birliyimizi yaradan, təmin edən bir məsələyə həsr olunmuşdur. Azərbaycanda yazarlara çox yüksək qiymət verilir. Azərbaycanda həm keçmişdə olan yazarlara, həm də indi bizimlə yaşayan, yaxud da ki, XX əsrdə yaşamış yazarlara həmişə böyük hörmət olmuşdur.

Yazarlar Azərbaycanda bizim xalqımızın, cəmiyyətimizin ən hörmətli insanlarıdır.

Siz bilirsiniz ki, əgər son vaxtları götürsək, "Kitabi-Dədə Qorqud"un böyük bir yubileyini keçirdik. Bütün türk dünyasını Bakıya topladıq. Türkdilli ölkələrin Cümhur aşqanları ilə, o cümlədən Türkiyənin 9-cu Cümhurbaşkanı Süleyman Dəmirəllə bunu etdik və bizim bir kökdən, bir dildən olduğumuzu bütün dünyaya göstərdik.

Məhəmməd Füzulinin 500 illik yubileyini keçirdik. Azərbaycanda da, Türkiyədə də- hər yerdə keçirdik. O, bizim türk dünyasının böyük, müştərək şairidir. Böyük izlər qoymuşdur. Belələri çoxdur.

Yunus İmrə bizim üçün Füzuli qədər, Nizami qədər qiymətli bir şairdir. Onun yaratdığı əsərlər bütün türk xalqları üçün qiymətlidir, əzizdir. Türk xalqlarının bu yolları keçməsində Yunus İmrə kimi böyük bir şairin yaradıcılığının, təbiidir ki, təsiri çox olmuşdur.

Yazarlar yazırlar. Dövlət adamlarının borcu bu yazarlara imkan yaratmaqdır ki, onlar daha da çox yazsınlar. Vaxtilə, gənc ikən mən Türkiyə yazarları ilə çox maraqlanırdım. Orta məktəb illərində Rəşad Nuri Güntəkinin "Çalı quşu" əsərini mən bir neçə dəfə oxumuşam. Bilmirəm siz onu xatırlayırsınız, yoxsa yox. Onu bir neçə dəfə oxumuşam. Tofiq Fikrətin, Əbdül Haq Hamidin şerləri Azərbaycanda bizim dilimizdə əzbər idi. Sonra, İkinci dünya savaşın zamanı onların əsərlərinin hamısını yasaq etdilər.

Bu gün də bizim yazarlarımız bir-biri ilə əlaqədədirlər, birlikdə çalışırlar.

Millət üçün bir çox şey lazımdır. Ancaq millətin, xalqın yaşaması üçün ən önəmlisi onun dilidir. Bizim hər birimizin, Anadolu türkəsində danışan, Orta Asiyada olan, Azərbaycanda olan türklərin hamısının ən böyük nailiyyəti odur ki, dilimizi qoruduq, saxladıq, yaşatdıq.

Dili danışırsan, amma gərək insanlar bilgi alsınlar, əlifba olsun. Azərbaycanın başına bu barədə çox bəlalar gəlibdir. Türkiyədə olduğu kimi, keçmişdə bizdə ərəb əlifbası olub. Ancaq 1925-1926-cı illərdə, baxmayaraq ki, Sovet hakimiyyəti olubdur, Azərbaycan latın əlifbasına keçibdir. Bəli, Mustafa Kamal Atatürk dedi ki, hamı latın əlifbasına keçsin - həmin sözlər o vaxt deyilmişdir.

1926-cı ildə Azərbaycanda ilk türkoloji qurultay keçirilmişdir. Bütün türk millətinin alimləri, dilçiləri, filoloqları Bakıya toplaşmışdılar. O cümlədən Türkiyənin böyük alimi Fuad Körpülüzadə bu qurultayın fəal iştirakçılarından biri olubdur. Bilirsiniz, sonradan o sizdə Xarici İşlər naziri olmuşdur. 1926-cı ildə Bakıda türkoloji qurultayda qərar qəbul olundu ki, bütün türkdilli xalqlar latın əlifbasına keçsin. Amma 1939-cu ildə latın əlifbasını bizim əlimizdən aldılar, kiril əlifbasına keçdilər. Bilirsiniz, bir əlifbadan o birinə keçmək çox çətindir. Bizim 1939-cu ildən bəri yazılan kitablarımız hamısı kiril əlifbası ilədir. İndi yeni yazılan kitablar isə latın əlifbası ilədir. Alimlər, yazarlar deyirlər ki, 2-3 ildən sonra bizim kitablarımızı heç kim oxumayacaq, onların hamısını yandırmaq lazımdır. Yeni nəsil onları oxuya bilməyəcəklər.

İndi bizdə təkcə birinci sinifə gedənlər deyil, onuncu sinifdəkilər də latın əlifbası ilə oxuyurlar.

Bizim başımıza çox bəlalar gəlib. Dövlət başçısı kimi mən bunların hamısını bilirəm. Keçmişdən də bilirəm, şəxsən bu işlərin şahidi olmuşam. Mən bunları bilərək, qəti qərar qəbul etmişdim. Hələ 2001-ci ildə yox, ondan əvvəlki vaxtlarda məcbur edirdim ki, latın əlifbasına keçək. Çünki bunu birdən etmək olmaz ki, bu gün bir əlifba, sabah o biri əlifba

olsun. Böyük hazırlıq işləri gördük, mən fərman verdim. İndi Azərbaycanda hər yerdə latın əlifbasıdır. Əmin ola bilərsiniz, bunun təməlini biz elə qoymuşuq ki, bundan sonra heç bir qüvvə bizim əlifbamızı dəyişə bilməyəcəkdir. Yüz illərlə bizim latın əlifbamız yaşayacaq və millətimiz bir-birinin yazılarını asanlıqla oxuyacaqlar.

Bütün dövlət işləri Azərbaycan dilində aparılır. On ildir biz müstəqilik. Amma inanırsınız, keçmişdə 70 il bizim idarələrimizdə bütün işlərimiz rus dilində aparılıb. Ona görə insanların çoxu buna öyrənmişdi. Amma mən bu haqda fərman vermişəm. Bütün dövlət orqanlarında yazışmalar hamısı yalnız latın əlifbası ilə, Azərbaycan dilində olmalıdır.

Dilimizi qoruyub saxlamaq, mədəniyyətimizi qoruyub saxlamaq, ulu babalarımızdan qalan milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq bizim vəzifəmizdir.

Biz - Türkiyə də, Azərbaycan da dünyəvi dövlətik, hüquqi, demokratik dövlətik. Dünyəvi dövlətlər kimi həm milli-mənəvi dəyərlərimizi - hansılar ki, bizim köklərimizdən gəlir,- yaşatmalıyıq. Onlar yaşamasa, bizim köklərimiz quruyacaqlar. Eyni zamanda, biz ümumi bəşəri dəyərləri qəbul edirik. Ümumi bəşəri dəyərlərlə milli-mənəvi dəyərlərimizin sintezi ilə indi Türkiyənin də, Azərbaycanın da yeni bir mədəniyyəti yaranır. Ona görə mən belə hesab edirəm ki, biz Avropa ilə birləşirik. Biz Avropadayıq, buradan heç bir yerə gedə bilmərik. Türk dünyası yaşayır, yaşayacaq, siz, əziz türk qardaşım, düz dediniz ki, yüz il də yaşayacaq, min illər yaşayacaq. Ancaq türk dünyasının xalqları ümumi bəşəri dəyərləri, Avropa dəyərlərini öz milli-mənəvi dəyərləri ilə birləşdirəndə daha da zəngin olacaqlar.

Biz demokratiya yolunu tutmuşuq, hüquqi dövlət yolunu tutmuşuq, dünyəvi dövlət yolunu tutmuşuq. Bu yolla da gedəcəyik.

ANKARADA AZƏRBAYCAN SƏFİRLİYİ ÜÇÜN TİKİLMİŞ BİNANIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

- Türkiyə Prezidenti əziz dostum, hörmətli Əhməd Necdət Sezər!

Hörmətli dostlar, qardaşlar, xanımlar və cənablar!

Sizin hamınızı Azərbaycan Respublikasının Türkiyədə, Ankarada səfirlik binasının açılması münasibətilə təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu gözəl bina Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin daha sürətlə inkişaf etməsində və Ankarada Azərbaycanın xarici siyasətinin təbliğ olunmasında, başqa diplomatik missiyalar ilə əlaqələr qurmasında böyük uğurlar gətirəcəkdir.

Bilməlisiniz ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən anda onun müstəqilliyini ilk tanıyan Türkiyə Cümhuriyyəti olmuşdur. Türkiyə Cümhuriyyəti o andan Azərbaycanla həmişə bir olmuş, gənc müstəqil bir dövlət kimi Azərbaycana addım atmaq, yerimək, yaşamaq, inkişaf etmək sahəsində lazım olan bütün işlərə öz yardımını göstərmişdir və göstərir. İndi bizim dünyanın bir çox ölkələrində səfirliklərimiz var. Ancaq sizə açıq deyim, biz gənc dövlətik, o qədər də vəsaitimiz yoxdur. Ona görə də bir çox ölkələrdə biz hələ də daimi səfirliyimizi açа bilməmişik. Bu səbəbdən də biz öz diplomatik fəaliyyətimizi həyata keçirmək üçün bəzi dövlətlərin, o cümlədən Türkiyənin ayrı-ayrı ölkələrindəki səfirliklərindən istifadə edirik.

Bu, xaricdə birinci səfirlik binasıdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra tikib, inşa edib və bu gün biz açılışa toplaşmışıq. Ona görə bu, bizim üçün böyük hadisədir. Ümid edirəm ki, gələcək illərdə Azərbaycan səfirlikləri olan bütün ölkələrdə öz binalarını tikəcəkdir. Ancaq Azərbaycanın Türkiyədəki, Ankaradakı səfirliyinin binası yenə də birincidir. Necə ki, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan birinci ölkədir, eləcə də Azərbaycanın xarici ölkələrdəki səfirliyinin birincisi Ankaradadır.

Mən bizim qardaş, dost Türkiyə Cümhuriyyətinin hökumətinə, dövlətinə və bizə bu işdə yardım edənlərin hamısına təşəkkür edirəm. Eyni zamanda, bu gün buraya toplaşmış bizim dostlarımıza da çox təşəkkür edirəm. Mən çox məmnunam ki, bu hadisə münasibətilə Türkiyə Cümhuriyyətinin Prezidenti başda olmaqla, Baş nazirin müavini hörmətli Dövlət Bахçalı, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, başqa nazirlər, millət vəkilləri və çox tanınmış digər şəxslər də buradadırlar. Biz bunun əhəmiyyətini anlayırıq. Bu, sadəcə, gəlib bu binanı görmək, ya da bu mərasimdə iştirak etmək deyildir. Bu, Türkiyənin bütün dövlət orqanlarının hamısının Azərbaycana olan dostluq, qardaşlıq münasibətinin təzahürüdür. Mən bunlara görə də sizə təşəkkür edirəm.

Biz buraya, bu binaya daxil olanda divarda Azərbaycanın Türkiyədə ilk səfiri, elçisi işləmiş İbrahim Əbilovun portretini gördük və burada, Türkiyədə səfir təyin olunması ilə əlaqədar ona verilmiş etimadnaməni gördük. Burada bir cəhətə fikir vermək istəyirəm.

Azərbaycan ilk dəfə 1918-ci ildə öz müstəqilliyini elan etdi, Azərbaycanda Xalq Cümhuriyyəti yarandı. Xalq Cümhuriyyəti 23 ay fəaliyyət göstərdi və bu, Şərq aləmində, müsəlman aləmində, ilk demokratik respublika idi. Ancaq o vaxt Sovet Rusiyasının ordusu Qafqaza gəldi və Azərbaycanın ilk müstəqil dövlətini dağıtdı. Ondan sonra Azərbaycanda Sovet hakimiyyəti yarandı. Amma Sovet hakimiyyəti yaranan zaman ilk iki ildə sosialist-kommunist ideologi-

yası ilə yaşayan insanlar, bəlkə də o ideologiya ilə yaşamayan, amma buna məcbur olanlar Azərbaycanı müstəqil saxlamaq istəyirdilər. Artıq 1921-ci ildə Azərbaycanda Sovet hakimiyyəti var idi. Sovet hakimiyyəti vaxtı yeganə səfir İbrahim Əbilov Azərbaycan Respublikasından Türkiyəyə göndərilibdir.

Tarixçilər bunu yaxşı bilir. Bu barədə çox böyük kitablar yazılıbdır ki, İbrahim Əbilov Mustafa Kamal Atatürkün yaxın dostu olubdur, onunla çox yaxşı əməkdaşlıq edibdir və hələ o vaxt Azərbaycanın Türkiyə ilə əlaqələrini yaratmağa çalışıblar. Təbii ki, sonrakı dövrdə bunlar pozulubdur. Ancaq illər keçdi, on illər keçdi. 1991-ci ildə Sovetlər İttifaqı dağıldı. Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi və indi 11-ci ildir ki, Azərbaycan xalqı öz müstəqil dövlətində yaşayır, öz taleyinin sahibidir, öz torpaqlarının sahibidir.

İndi gənc dövlət kimi bizim problemlərimiz var, onları həll edirik. Ancaq uğurlarımız da var. Mənim əziz dostum, hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezərin təşəbbüsü və onun başçılığı ilə dünən İstanbulda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşü çox yüksək nəticələr verdi. Beş ildir ki, "Üç dənizin əfsanəsi" konfransı, Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi haqqında konfrans keçirilir və biz yenə də hörmətli dostum Əhməd Necdət Sezərin başçılığı ilə o konfransda iştirak etdik, istədiyimiz sözləri dedik.

Bildirdik ki, əgər beş il, yaxud on il bundan öncə Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi - siz ona Ağ dəniz deyirsiniz - ölkələrinin əlaqələri əfsanə idisə, indi bu əfsanə deyildir. Azərbaycanın, Türkiyənin və Gürcüstanın apardığı böyük işlər nəticəsində Azərbaycanda hasil olan neft, özü də böyük miqdarda hasil olan neft iki boru ilə ixrac edilir. Bakı - Novorossiysk Qara dənizə çıxır, tankerlər yenə də Bosfor boğazından keçir. Bakı - Supsa Gürcüstan limanına gedir. Oradan tankerlər yenə də Qara dənizdən, Bosfor boğazından keçir. Ancaq ən böyük layihə Bakı - Tbilisi - Ceyhan layihəsidir.

Biz 1994-cü ildən bu layihənin həyata keçirilməsi üçün çalışırdıq və bu gün də çalışırıq. Ancaq indi bu, reallıqdır. Bakı - Tbilisi - Ceyhan əsas ixrac kəmərinin inşasına başlanır. İnşaat işləri 2005-ci ildə qurtaracaq. İki min kilometrdən artıq boru xətti Xəzər dənizindən Aralıq dənizinə, Ceyhana uzanacaq, Xəzər nefti, Azərbaycan nefti Aralıq dənizinə, Ağ dənizə axacaq və biz o günü də görəcəyik. Mən dünən bunu dedim, bu gün də əziz dostum Əhməd Necdət Sezərin hüzurunda deyirəm ki, biz o vaxt sizinlə birlikdə və digər cümhur başqanları ilə oraya, Ceyhana gedəcəyik və bu işin bitməsini bayram edəcəyik.

Mən bununla onu demək istədim ki, bizim problemlərimiz çoxdur. Biz haddən çox çətin problemlərlə məşğuluq. Məsələn, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə. Ermənilər torpaqlarımızın 20 faizini işğal ediblər. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı zorla çıxarılıb, on ildir çadırlarda yaşayırlar. Təsəvvür edin, 8-9 il bundan öncə çadırda doğulmuş uşağın doğum yeri çadırdır, səhradır. Bizim belə bir ağır problemimiz var.

Ermənistan ilə sülh danışıqları aparırıq. Amma onlar vaxtilə müəyyən səbəblərdən Azərbaycan torpaqlarını işğal etdiklərinə görə və bəzi dünya dairələrində erməni lobbiləri tərəfindən dəstək aldıqlarına konstruktiv mövqe tutmurlar və biz məsələnin sülh yolu ilə həllinə nail ola bilmirik. Bu, bizim ən böyük problemimizdir. Amma bunu da həll edəcəyik, digər problemləri də həll edəcəyik.

Mən bunları deyərkən həmişə düşünürəm ki, Türkiyə Cümhuriyyəti ilə əbədi, sarsılmaz dostluğumuz, qardaşlığımız bütün bu problemlərin həll olunmasında bizim üçün böyük bir dayaqdır. Bunlara görə mən bir daha təşəkkür edirəm. Sizin hamınıza cansağlığı arzu edirəm. Qardaş türk xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni uğurlar arzulayıram.

Futbol haqqında demişəm, bu gün Türkiyə futbolçuları qazanacaq, ondan sonra Almaniya ilə finalda oynayacaq və finalda qazanacaqdır. Mən bunu istəyirəm.

Səfirliyə xatirə olaraq bir rəsm əsəri verirəm. Götürün, burada yerləşdirin. Sağ olun, təşəkkür edirəm.

BİLKƏND UNİVERSİTETİNDƏ İHSAN DOĞRAMACININ ABİDƏSİNİN AÇILIŞ MƏRASİMİ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Əziz dostum, qardaşım İhsan Doğramacı!

Hörmətli nazirlər, millət vəkilləri, rektorlar, professorlar, tələbələr!

Xanımlar və cənablar!

Mən sizi Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından səmimi qəlbdən salamlayıram və sizə, sizin simanızda qardaş türk xalqına Azərbaycan xalqının ən dərin sevgisini və məhəbbətini çatdırıram.

Mən üçüncü gündür ki, Türkiyədəyəm və həm beynəlxalq xarakterli, həm də dövlətlərimizə aid olan bir çox məsələlərlə məşğul oluram. Biz dünən Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezərlə və digər ölkələrin Prezidentləri ilə Qara Dəniz İşbirliyi Təşkilatının onuncu ildönümünü qeyd etdik və təşkilatımızın qarşısında duran gələcək vəzifələr haqqında danışdıq. Sonra 5 il davamlı olaraq İstanbulda keçirilən "Üç dənizin əfsanəsi" - Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, - konfransında iştirak etdik. Bir neçə ikitərəfli görüşlər keçirdik və axşam Ankaraya gəldim. Bu gün də Ankara proqramının birincigünü, birinci saatıdır. Bu saat da mənim üçün, Azərbaycan xalqı üçün və əmin ola bilərəm ki, bütün türk xalqı üçün, Türkiyə üçün çox əhəmiyyətli olan bir hadisəyə

həsr edilmişdir. Bu hadisə də dünyada artıq məşhur olan bizim Bilkənd Universitetindəki bu gözəl görüşdür, gözəl mərasimdir.

Mən Bilkənd Universitetində keçmiş illərdə də olmuşam. Hər dəfə Bilkənd Universitetinə gələrkən, burada görüşlər keçirərkən bu universitetin böyük sürətlə inkişaf etdiyini, genişləndiyini görmüşəm. Bu gün yenə də buraları tanımıram. Tanıyıram, yəni inana bilmirəm ki, belə qısa bir zamanda burada bu qədər böyük işlər görülübdür və Bilkənd Universiteti böyük elm mərkəzi, böyük təhsil mərkəzi olaraq inkişaf edir. Mən görürəm ki, Bilkənd Universitetinin professorları, müəllimləri, tələbələri Türkiyənin çox dəyərli insanları ilə bərabər bu mərasimə toplaşıblar. Ona görə də mən Bilkənd Universitetinə, onun tələbələrinə, müəllimlərinə, burada çalışan bütün insanlara öz hörmət və ehtiramımı bildirirəm. İnanıram ki, Bilkənd Universiteti bundan sonra daha da sürətlə inkişaf edəcəkdir və İhsan Doğramacının burada, bu torpaqda saldığı toxumlar əsrlər boyu böyük çinarlar kimi yüksəlib səmaya qalxacaqdır.

Əziz dostum İhsan Doğramacı haqqında burada gözəl sözlər deyildi. Mən də onun haqqında az sözlər deməmişəm. Ancaq fərq ondadır ki, burada nitq söyləyənlərin hamısı İhsan Doğramacını on illərlə tanıyır, onunla bir yerlə çalışıblar, yaxud da ki, təhsil alıblar. Ancaq mən isə İhsan Doğramacı ilə ilk dəfə cəmi on il bundan öncə tanış olmuşam.

Azərbaycan hələ müstəqillik almamışdı. O dövrdə mən Moskvada bütün yüksək vəzifələrdən kənarlaşdırılandan sonra və çox böyük təzyiqlər altında olduğuma görə doğulduğum torpağa - vətənim Naxçıvana getdim. Orada yaşayırdım və oradan ilk dəfə mən Naxçıvan Özəl Cümhuriyyətinin, yəni Muxtar Cümhuriyyətinin rəhbəri kimi Ankaraya gəldim və ilk dəfə İhsan Doğramacının universitetində - Bilkənddə də oldum, ilk dəfə onu gördüm. Ancaq o, məni elə qarşıladı, - Azərbaycanın tarixi haqqında, xalq haqqında, Naxçıvan haqqında, Azərbaycanın başqa bölgələri haqqında mənimlə elə söhbətlər etdi, elə dərin bilgilər nümayiş etdirdi ki, mən heyran oldum. Bilirsiniz ki, mən də çocuq deyiləm. Bizim yaşımızla İhsan Doğramacının yaşı arasında o qədər böyük fərq yoxdur. Mənim yaşım onunkundan bir qədər azdır. Ancaq ola bilər ki, həyatım onunkundan daha da gərgin olub, daha da qarışıqlı olubdur. Ona görə mən də dünyanı bilirəm, insanları tanıyıram, hər şeyi bilirəm. Azərbaycanda olan insanları tanıyıram. Digər yerlərdə Azərbaycanı tanıyan insanlarla da çox görüşlərim, söhbətlərim olmuşdur. Ancaq İhsan Doğramacının Azərbaycan haqqında bilgiləri məni heyran etdi. Əlbəttə, alimdə bilgi olur, buna görə də alimdir, onun vəzifəsi odur ki, öyrənsin, oxusun, kitablar yazsın. Ancaq məni heyran edən təkcə bu bilgi deyildi,

onun qəlbində olan duyğulardı, qəlbində olan sevgi, məhəbbət idi. Mən gördüm ki, hər şeyi nə qədər gözəl bilir və keçmişdə burada nə qədər xidmətlər göstərib və indi də, artıq bizim ölkələrimiz müstəqillik əldə edəndən sonra da göstərmək istəyir.

Mən sizin vaxtınızı bəlkə bir az alıram, amma sizin üçün nə fərqi var, gözəl bir yerdə oturmusunuz, gedib orada, kafedrada işləməkdənsə, burada oturub söhbət etmək yaxşıdır. Ondan sonra İhsan Doğramacı ilə mənim aramda belə qeyri-adi dostluq yarandı. Güman edirəm, heç onun da iradəsindən, mənim də iradəmdən asılı olmayan, ancaq içimizdən gələn hissiyatlar göstərdi ki, biz, sanki yüz ildir dostuq, bir-birimizi tanıyırıq.

İhsan Doğramacının çox böyük xüsusiyyətləri var. Məsələn, Azərbaycanda ləhcələr var- Bakı ləhcəsi, Naxçıvan ləhcəsi, Gəncə ləhcəsi, Qarabağ ləhcəsi, başqa yerin ləhcəsi...

Bu ləhcələrin hamısını bilir. Bizim adamların çoxu bunu bilmir. Mən sizə deyim, mən dilçi deyiləm, linqvist deyiləm. Ancaq mən də, hər halda bilgili adamam. Amma bunları mən də onun qədər bilmirəm.

Bizim dilimiz birdir axı, türk dili, Azərbaycan dili eyni dildir. Yəqin ki, siz məni tam anlayırsınız. Eladirmi? Azərbaycanda biz keçmişdə türk dilini çox sevdiyimizə görə, amma türklərlə bir təmasımız, yəni bir danışığımız olmadığına görə, insanlar hansısa bir türklə görüşəndə, onunla bir neçə kəlmə türk dilində danışmaq istəyirlər. Məsələn, biz "gəlirəm" deyirik, türklər isə "geliyorum", "geliyorum" deyirlər.

Biz Türkiyə ilə yenidən tanış olanda mən də bir-iki belə kəlmə işlətdim ki, hiss etsinlər- mən türk dilini də bilirəm. O mənə dedi ki, belə deyil, bunu Naxçıvanda bu cür deyirlər, Bakıda belə deyirlər, Gəncədə belə deyirlər, Anadolu Türkiyəsində belə deyirlər, Türkiyənin doğusunda belə deyirlər, batıda- İstanbulda belə deyirlər. Dedim, bəli, doğudakı dil çox aydındır, amma İstanbuldakı ləhcəni siz bir az xorlamısınız, o qədər yaxşı deyil.

Mən bir dəfə söhbət edirdim. Dedim ki, məsələn, biz, mənim kimi yaşlı adamlar İhsan Doğramacı ilə, başqa yaşlı adamlarla danışanda bir-birimizi yaxşı başa düşürük. Türk dilində, Azərbaycan dilində bu sözlər dəyişilməyibdir. Ancaq türk dilində bir-iki islahatlar keçirilibdir, ona görə də bəzi sözlər dəyişilibdir, daha çox Avropa sözləri götürülübdür. Məsələn, "siyasət" sözü var, onu "politika" etmisiniz. "Siyasət" yaxşı bir sözdür. Nə fərqi var, "siyasət" ərəb sözüdür, "politika" Avropa sözüdür. Bu öz işimizdir. Amma bir dəfə zarafat edəndə dedim ki, bilirsənmi nə üçün belə olubdur? Dedi ki, nə üçün? Dedim, çünki sizdə dil islahatı keçirilənə islahatınızın qurum genel başqanı erməni olmuşdur- Akop Dilaçar. Onu tanıyırsınızmı? Görürəm, tanımırsınız. Amma o tanıyır. Ermə-

ni Akop, özünü türk kimi qələmə vermək üçün də deyibdir ki, Akop Dilaçar. O, islahat keçiribdir. Bu tarixdən çox danışmaq olar.

İhsan Doğramacını mən çox sevdim. Təkcə mən yox, Azərbaycana dəvət etdim, gəldi, bizim xalqımız, millətimiz, onu sevdi. Təsadüfi deyildir ki, İhsan Doğramacının 80 illik yubileyini biz Azərbaycanın böyük bir teatrında - Opera və Balet Teatrı, 1911-ci ildə Bakıda Avropa üslubunda tikilmiş teatrdır,- birlikdə, təntənəli şəkildə keçirdik. Mən onu, "Şöhrət" ordeni ilə təltif etdim. Sonra, gələcək nədir? Bildirdim ki, 85 illik yubileyinizi Azərbaycanda qeyd edəcəyik, ondan sonra 90 illik yubileyinizi, daha sonra 100 illik yubileyinizi edəcəyik. Özü də yubileyi mən edəcəyəm. 85 illik yubileyini etdik. İndi 87 illiyində də heykəl açırıq, 90-a bir şey qalmayıb ki... Papağını fırladacaqsan, bir də görəcəksən ki, 3 il keçdi, İhsan Doğramacının 90-cı ili də gəldi. Mən buna əminəm. Çünki, deyə bilərəm ki, mən 10 il bundan əvvəl gördüyüm İhsan Doğramacı ilə indikinin heç bir fərqi yoxdur. Onun çox gözəl səhhəti var, özünü gözəl saxlayır.

Mən bir neçə kəlmə onun şəxsiyyəti haqqında demək istəyirəm. İhsan Doğramacı hesab edirəm ki, türk dünyasının ən nadir şəxsiyyətlərindən biridir. Bəlkə də İhsan Doğramacı o qədər də siyasət adamı deyildir. Ancaq elm adamı kimi, insanlara təhsil vermək, məktəblər açmaq, universitet açmaq və xalqı inkişaf etdirmək - bu, hər bir siyasətin əsas məqsədidir. Biz, siyasət adamlarının proqramı nədir?

İqtisadiyyatı inkişaf etdirmək ki, insanlar yaxşı yaşasın, bilik, təhsil alsınlar.

Türkiyə Cümhuriyyətinin tarixi bizə çox məlumdur. Bu gün biz Türkiyə Cümhuriyyətinin qurucusu, böyük öndər Mustafa Kamal Atatürkü mütləq dərin minnətdarlıq hissi ilə yad etməliyik. Çünki məlumdur ki, Osmanlı imperatorluğu dağıldığı zaman, ayrı-ayrı ölkələr Türkiyəni hər tərəfdən dağıtmağa çalışan zaman Mustafa Kamal Atatürk kimi bir şəxs meydana çıxdı və türk xalqını fəlakətlərdən xilas etdi. Bu, böyük fəaliyyət idi, böyük xidmət idi. Ancaq təkcə bu olsaydı, bəlkə də az olardı. Ondan sonra cümhuriyyətin qurulmasını, onun inkişaf etməsini təmin etdi. Osmanlı qanun-qaydasından sonra Türkiyədə dünyəvi, demokratik, Avropa tipli dövlət qurmaq - həddən ziyadə çətin bir iş idi. Amma böyük Mustafa Kamal Atatürk və onun silahdaşları, ona sadiq olan insanlar, sonra isə onun işinin davamçıları bunun öhdəsindən gəldilər. O vaxt Türkiyədə insanların tam əksəriyyəti savadsız idi. Məktəb, təhsil, bilik lazım idi. Düşünürəm ki, əgər səhv etmirəmsə, İstanbul Universitetindən savayı Türkiyədə başqa Universitet yox idi. Bilmirəm, doğru deyirəm, yoxsa yox? Təkcə İstanbul Universiteti idi. Başqa universitet

yox idi. Ancaq sonrakı dövr nəyə gətirib çıxardı? İndi Türkiyədə Universitetlərin sayı nə qədərdir, bilmirəm. Ancaq iş onun sayında deyil. Ondadır ki, hər bir universitetdə Türkiyə gəncləri, türk millətinin gələcəyi, təhsil, bilik alır və ölkənin dünya ölkələri ilə ayaqlaşmasına, yəni onlarla bərabər inkişaf etməsinə şərait yaratması üçün əsas yaranır. Buna görə də, İhsan Doğramacının fəaliyyətini qiymətləndirəndə biz onun elm, təhsil, bilik, səhiyyə sahələrində xüsusi xidmətlərini qeyd etməliyik. Onun ictimai fəaliyyətini xüsusi qiymətləndirməliyik.

İhsan Doğramacı Türkiyədə hər yerdə tanınan, hər yerdə sevilən bir insandır. Bunun üçün gərək sənin gözəlliyin, yaxuddakı başqa bir keyfiyyətin yox, gərək çox keyfiyyətlərin olsun ki, onlara görə xalq səni qəbul etsin. Ola bilər ki, dövlət qəbul etsin. Ancaq xalq qəbul etməsin. İhsan Doğramacını xalq türk millətinin, türk dünyasının dəyərli bir insanı, nadir şəxsiyyəti kimi tanıyır, hörmət edir və bundan sonra da ona hörmət edəcəkdir.

Mən Bilkənd Universiteti ilə tanış olanda bir də nəyi gördüm? Universitet yeni yaranmışdı. Amma gördüm ki, Azərbaycandan burada nə qədər professorlar, alimlər, sənətçilər var. Mən məəttəl qaldım. Təkcə Azərbaycandan deyil, digər xarici ölkələrdən gələnlər də var idi. Güman edirəm, etiraf edərsiniz ki, Azərbaycanda elm, təhsil çox inkişaf etmişdir. Bizim ali təhsilimiz çox yüksək olmuşdur, çox dəyərli professorlarımız, alimlərimiz var. Onların bir qismini İhsan Doğramacı buraya gətirdi. Onlar burada o qədər gözəl şərait, münasibət gördülər ki, artıq heç Azərbaycana dönmək istəmirdilər. Deyirdilər ki, biz sona qədər elə İhsan Doğramacı ilə bir yerdə olacağıq. Yəni o bilirdi, haradan nə götürmək, nə etmək lazımdır ki, Bilkənd Universiteti təkcə Türkiyənin içərisindən yox, beynəlxalq aləmdən, hər ölkədən faydalınsın.

Gedirsən bağa, orada gözəl bir meyvə görürsən, dərib götürürsən, keçirsən o biri bağa, orada da çox meyvə var, amma ən gözəlini dərib götürürsən, o birisini dərib götürürsən, sonra görürsən ki, torban doludur, hamısı da gözəl meyvələrdir. İndi İhsan Doğramacının Bilkənd Universiteti də təxminən buna bənzəyir.

Məni bir şey təəccübləndirir. Vaxtilə biz Azərbaycanda böyük şairimiz, - o, bütün türk millətinin şairidir- Məhəmməd Füzulinin 500 illik yubileyini keçirməyə hazırlaşırdıq. İhsan Doğramacı dedi ki, bunu Türkiyədə də etmək lazımdır. Dedim, edək. Çünki bu, bizim müştərək şairimizdir, özü də çox dəyərli şairimizdir. Azərbaycanda biz bunu etdik, ondan sonra İhsan Doğramacı bizi buraya dəvət etdi. Buraya gəldik, 9 ayın içərisində gözəl bir konsert salonu yaratdı. Mən ona baxdım, heyran oldum. Bilirsiniz ki, mən Sovetlər İttifaqında Siyasi Büronun üzvü, o

vaxtkı Nazirlər Sovetində,- siz buna baş bakanlıq deyirsiniz,- sədrin birinci müavini olmuşam. Yəni sizin dediyiniz kimi, SSRİ-nin yönəldicilərindən, rəhbərlərindən, 3-4 kişidən biri mən olmuşam. Mən Sovetlər Birliyi kimi bir ölkədə böyük inşaat işləri görmüşəm. Məsələn, sürətlə bir fabrik, başqa bir bina tikmək lazım olurdu. Ancaq İhsan Doğramacının belə imkanları ilə 9 ayın içərisində, Füzulinin yubileyini keçirmək üçün belə gözəl konsert salonu tikmək bizi heyran etdi. Biz gəldik buraya, bizim sənətçilər gəldilər. Biz, Türkiyənin dəyərli insanları - 9-cu Cümhurbaşkanı Süleyman Dəmirəl, bakanlar, başqaları... Burada böyük yubiley keçirdik. Çox belə misallar demək olar.

Bir də deyirəm, bir insanda bir çox keyfiyyətlər toplaşıbsa, o adi bir insan deyildir. İhsan Doğramacı bir insan kimi çox böyük bir qəlbə malik, çox xeyirxah, adamlara yardım etmək istəyən, xalqını inkişaf etdirmək istəyən bir insandır. Bir alim kimi, böyük alimdir. İctimai xadim kimi böyük ictimai xadimdir. Dünya miqyasında tanınır, beynəlxalq təşkilatlarda, uluslararası konfranslarda ən gözəl yerlərdə dayanır və ona hamı hörmət edir. Ona görə də mən, deyə bilərəm ki, İhsan Doğramacı ilə biz, - buraya Türkiyə də daxildir, Azərbaycan da daxildir, güman edirəm ki, türkdilli başqa dövlətlər də daxildir, - hamımız daim qürur hissi keçirə bilərik.

İnsanların sağlığında, adətən, onların heykəlləri yaranmır. Düzdür, indi bəzi ölkələrin cümhur başqanları var, hər küçədə özünə bir heykəl yaradır, bu, o qədər də normal hal deyildir. Mən İhsan Doğramacıya dedim ki, Ömər Eldarov çox böyük sənətçidir, heykəltəraşdır. Siz incimərsiniz, mən sizə deyim ki, Türkiyədə heykəltəraşlıq sənəti çox zəif olubdur. Sizdə çox az heykəllər var. Bakıya gələrsiniz, hər küçədə bir heykəl var. Amma heykəllər bizim böyük adamlaradır, - şairlərə, bəstəkarlara, sənətçilərə. Siyasi xadimlərə, siyasət adamlarına heykəl qoymurlar.

Amma görürsən ki, bir şair 5-6 kitab yazıbdır, onun heykəli var. Bu, belədir, nə etmək olar?

İhsan Doğramacı istəmirdi ki, onun sağlığında belə bir heykəl olsun. Mən isə belə düşündüm ki, hər bir qanunda, qaydada istisna da var. İstisna o halda olur ki, o qərarı qəbul etmək üçün əsas olsun. Hesab edirəm ki, burada bu istisna halı var və belə bir qərarın qəbul edilməsi üçün əsas var. Mən şəxsən təcrübəli bir adam kimi və insanların sağlığında onlara heykəl qoyulmasının əleyhinə olan adam kimi, bu halda İhsan Doğramacının özünün yaratdığı Bilkənddə onun sağlığında heykəlinin qoyulmasını tamamilə əsaslı hesab etmişəm. Buna görə də, mən bu qərara səs vermişəm və bu gün Ankarada mənim proqramımda birinci tədbir bu heykəlin açılışıdır. Ona görə də mən buraya gəlmişəm və sizin qarşınızda ürəyimdə olan sözləri deyirəm.

Əziz dostum İhsan Doğramacı! Bu gözəl heykəl yaşayacaq, əsrlər boyu yaşayacaq. Güman edirəm ki, sən də çox yaşayacaqsan. Mən də sənlə bir yerdə çox yaşayacağam. Biz birbirimizə söz vermişik, gərək sözümüzə sadiq olaq. Ancaq gözəl heykəltəraş Ömər Eldarovun çox gözəl sənəti olan bu heykəl daim türk xalqının insanlıq, elm, mədəniyyət rəmzinə çevriləcəkdir. Əsrlər keçəcək, yeni nəsillər gələcək, Bilkənd Universiteti yaşayacaq. Burada yeni-yeni insanlar həm çalışacaq, həm də təhsil alacaqlar. Amma hər kəs bu heykəlin yanından keçəndə baş əyəcək və İhsan Doğramacıya minnətdarlığını bildirəcək. Bu sözləri deyəndə, mən əlavə edirəm ki, üç ildən sonra Bakıda, Azərbaycanda İhsan Doğramacının 90 illik yubileyini biz təntənə ilə bayram edəcəyik, ondan sonra 100 ilə qədər bir proqram yapacağıq. Mən bu hadisə münasibətilə bütün türk xalqını təbrik edirəm. Bilkənd Universitetinin bütün professor, müəllim və tələbələrini təbrik edirəm. Türkiyənin elm, bilik, təhsil adamlarını təbrik edirəm. Sizi təbrik edirəm və hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram və bir də onu demək istəyirəm ki, bizim bugünkü görüşümüz, bu hadisə və burada dayanan bu heykəl Türkiyə və Azərbaycanın, bir millət, iki dövlətin əbədi, sarsılmaz dostluğunun yeni bir abidəsidir. Onun yeni bir rəmzidir. Sağ olun.

"Azərbaycan qəzeti" 2002-ci il

QARS ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN VƏ BULVARIN AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

-Əziz dostlar!
Əziz bacılar, qardaşlar!
Əziz qarslılar!
Hörmətli xanımlar və cənablar!

Mən bir neçə gündür ki, Türkiyə Cümhuriyyətində ziyarətdəyəm. İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının onuncu ildönümünü qeyd etdik. Orada həmin ölkələrin başqanları, heyətləri ilə qarşıda duran vəzifələri müəyyən etdik. Ancaq sonra mən Türkiyə Cümhuriyyətinin Prezidenti, əziz dostum, Əhməd Necdət Sezərin dəvəti ilə Ankaraya işgüzar səfərə gəldim və orada,- ola bilər sizə televiziyadan, yaxud da radiodan məlumdur-bir çox işlər gördük. Türkiyənin hörmətli Cümhurbaşkanı ilə çox səmərəli, çox əhəmiyyətli danışıqlar apardıq, digər dövlət və hökumət başçıları ilə danışıqlarımız oldu. Mən bu görüşlərimdən və Ankarada gördüyümüz işlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Ancaq mən də və Türkiyə tərəfi də belə məsləhət bildik ki, bu ziyarət proqramında mən Qarsı da ziyarət edim. Çünki Qars Türkiyənin çox gözəl bir guşəsidir. Eyni zamanda, müasir dünyada yaranmış vəziyyətə görə Qars böyük strateji əhəmiyyət daşıyır.

Ancaq mənim Qarsa gəlmək istə-

yim, yalnız bundan ibarət deyildir. Qars bizim üçün, azərbaycanlılar üçün tarixən çox məşhur və çox doğma, çox əziz bir diyar olubdur.

Uzun illər Sovet hakimiyyəti hökm sürdüyünə görə, Azərbaycan xalqı qardaş türk xalqı ilə tarixi köklərindən gələn əlaqələrini istədiyi kimi qurub inkişaf etdirə bilməmişdir.

Biz bir kökdən olan xalqlarıq, millətlərik, türk millətləriyik, türk xalqlarıyıq. Türk dünyasının tarixi o qədər qədim, o qədər zəngindir ki, əsrlər keçdikcə türk kökündən bir çox xalqlar yaranmışdır - Osmanlı türkləri, Orta Asiyada yaşayan özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, tatarlar, azərbaycanlılar və digərləri. Bizim hamımızın bir kökümüz, bir dilimiz, bir dinimiz var. Çox qədim, müştərək adət-ənənələrimiz, mənəvi dəyərlərimiz var.

Bizim xalqlarımızın böyük şəxsiyyətləri, alimləri, yazarları bugünkü nəsil üçün gözəl irs qoyub gedibdir. Onlar bizim xalqlarımızın çoxəsrlik tarixini yazıblar, yaradıblar.

Dədə Qorqud deyəndə, türk dünyasına mənsub olan hər bir xalq deyir ki, bu, mənimdir. Türkiyədə ona Ata Qorqud deyirlər, Azərbaycanda Dədə Qorqud deyirik. Bəli, bizim hamımız o kökdənik. Təsadüfi deyildir ki, biz iki-üç il bundan öncə böyük Dədə Qorqudun Azərbaycan dilində yazdığı dastanların 1300 illik tarixini bir yerdə, türkdilli ölkələrin Cümhurbaşkanları, digər nümayəndələr ilə birlikdə Bakıda bayram etdik. Belə faktlar çoxdur. Bunları siz də bilirsiniz, bizim xalqlarımızın hamısı da yaxşı bilir.

Yenə də bildirmək istəyirəm ki, azərbaycanlılar üçün Qarsın xüsusi yeri var. Çünki, birincisi, coğrafi nöqteyi-nəzərdən biz bir-birimizə yaxınıq. İkincisi də, keçmişdə bizim aramızda sərhəd olmayıb və biz daim bir-birimizlə əlaqədə olmuşuq. Ancaq eyni zamanda Qars da, türk xalqı da, Azərbaycan xalqı da son əsrlərdə çox böyük sınaqlardan keçiblər, çox böyük məhrumiyyətlərə məruz qalıblar. Öz torpaqlarını qoruyub saxlamaq üçün savaşa qalxıblar, döyüşüblər, vuruşublar, şəhidlər veriblər. Ancaq zaman-zaman torpaqlarının bəzilərini itirməsinə baxmayaraq son olaraq yenə də özlərinin torpaqlarında, özlərinin doğma yerlərində yaşamaq haqqını qəhrəmanlıq, rəşadət və cəsarət nümunələri ilə qazanıblar.

Qarsın tarixi məlumdur. Əgər XIX əsri götürsək, Qars bir neçə dəfə əldən-ələ keçibdir. 1877-1878-ci illərdə Rusiya - Türkiyə savaşında Qarsı və bu bölgəni ruslar ələ keçiriblər. Rusiya burada hakim olubdur. Tarixdən bilirsiniz, türklərin başına hansı bəlalar gəlibdir. Burada olan türkləri yerlərindən didərgin salıblar, çıxarıblar, qırıblar, kəndləri yandırıblar. Bura ermənilər, yunanları, digər millətlərdən olan insanları köçürüblər.

Bunları türk xalqının əlindən almağa çalışıblar. Təəssüflər olsun ki, o vaxt Rusiya imperatorluğunun

Türkiyəyə qarşı olan bu təcavüzkar münasibəti Qarsın bir neçə il onların əlində qalmasına səbəb olubdur. Ancaq türk xalqı bununla razılaşa bilməyibdir.

Məlumdur ki, 1918-ci ildə böyük öndər Mustafa Kamal Atatürkün əmri ilə Türkiyənin böyük sərkərdəsi Kazım Qarabəkir Paşa və onun başçılıq etdiyi qoşunlar rus ordusunun hissələrini buradan çıxarıb, Qarsı azad edib və hər il oktyabr ayının, səhv etmiriəmsə 30-u Qarsın qurtuluş günüdür. Elədirmi? O gündən Türkiyə Cümhuriyyəti böyük Atatürkün başçılığı ilə öz torpaqlarının sahibi olub və türklərin tarixi məkanı olan Qars bütün faciələrdən keçərək, yenə də onların məkanı olubdur.

Siz tarixi yaxşı bilirsiniz. Bu torpaq türk torpağıdır. Əgər tarixin hansısa anlarında hansısa güclü dövlətlər müəyyən səbəblərdən bu torpaqda hakim olubsa, bu haqsızlığa Allah da razı olmayıbdır. Amma əsas odur ki, türk əsgəri, türk xalqı heç vaxt öz torpağının başqalarının tapdağı altında qalmasına razı olmayıbdır.

Onu da qeyd etmək istəyirəm ki, Kazım Qarabəkir Paşa təkcə Qarsın xilaskarı deyildir. O, eyni zamanda həmin illər öz qoşunları ilə Naxçıvana gəldi. Ermənilər Naxçıvanda azərbaycanlıları qırdılar və o vaxtkı türk ordusunun hissələri Kazım Qarabəkir Paşanın başçılığı ilə Naxçıvana gəldilər. Naxçıvanlılara, azərbaycanlılara, türklərə qardaş yardımı göstərdilər və orada ermənilərı darmadağın etdilər. Bunu da heç kəs unutmur.

Türkiyə Naxçıvanda bir məscid tikibdir, onun adı Kazım Qarabəkir Paşa məscididir. Hörmətli vali mənə xatırlatdı ki, 1999-cu ildə üç-dörd gün idi ki, burada vali vəzifəsinə yenicə başlamışdı, onda Naxçıvana gələrək, bizim keçirdiyimiz həmin mərasimdə iştirak etmişdir. Xatirinizdədir, o vaxt biz Kazım Qarabəkir Paşanın qızını, İstanbul Universitetinin professorunu dəvət etmişdik. O da orada bizimlə bərabər idi. Yəni xalq, Azərbaycan xalqı heç bir şeyi unutmur və unutmayacaqdır.

Burada siz Ermənistanla sərhəddəsiniz. Ermənilər daim iddia edirlər ki, bu torpaqların, bəlkə də, hamısı onlarınkıdır. Ağılsız adamlardır... Ancaq təəssüflər olsun ki, belə fikirlər olur, yaşayır. Ermənilər indi yenə də Türkiyəyə torpaq iddiası ilə qalxıblar. Guya türklər ermənilərə qarşı vaxtı ilə "soyqırımı" ediblər, ermənilərı qırıblar. Tamamilə yalandır. Burada, Qarsın bu torpağının altında indi də qazıb tapa bilərsiniz, nə qədər günahsız türklər ermənilər tərəfindən öldürülübdür, yandırılıbdır. Tarix, faktlar göstərir ki, ermənilər südəmər uşaqları tüfənglərin süngüsünə keçirib öldürürdülər. Qadınları soyundurub qovurdular, sonra öldürürdülər. Bizim türk xalqımıza qarşı belə faciələr törədirdilər...İndi də burada torpaq iddiası edirlər. Onlar heç vaxt buna nail ola bilməzlər. Türkiyənin torpaqları Türkiyənindir.

Türkiyə güclü bir dövlətdir. Türkiyənin güclü ordusu, qəhrəman ordusu var. Mən Türkiyənin dostu, qardaşı kimi bilirəm ki, əgər kim indi Türkiyə torpağına bir addım atarsa, onun cavabını elə verəcəklər ki, o da, onun ata-babası da bunu heç vaxt unutmayacaqdır.

Mən demirəm ki, millətlər bir-birinə daim düşmən olmalıdır. Yox. Ancaq belə faciələri də unutmaq olmaz. Yadımdadır, iki-üç il bundan öncə biz Azərbaycanda eşitmişdik ki, burada Qarsda bəziləri deyirlər ki, sərhədləri açın, ermənilərlə ticarət edək. Mənim dostum, Türkiyənin 9-cu Cümhurbaşkanı Süleyman Dəmirəl buraya gəlmişdi, qayıtdıqdan sonra mənə telefon etdi. Bildirdi ki, orada bəzi adamlar mənə belə sözlər dedilər, mən isə dedim ki, üç-beş quruşdan ötrü biz millətimizin mənafeyini heç kəsə təslim edə bilmərik. Bu mudrik sözlər, hesab edirəm ki, hər birimiz üçün, o cümlədən, Qarsda yaşayan vətəndaşlar üçün də, bizim üçün də həmişə örnək olmalıdır. Biz bunu heç vaxt unutmamalıyıq.

Onu da bilirsiniz ki, ermənilər Azərbaycana qarşı torpaq iddiası ilə hələ 1988-ci ildə qalxdılar. Azərbaycanın qədim torpağı Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə onlar hərbi təcavüzə başladılar. Bu hələ Sovet hökuməti dövründə idi, amma təəssüflər olsun ki, o vaxt Sovet hökumətinin Moskvada oturan başçıları ermənilərə daha da çox dəstək verdilər və onların qarşısını almadılar. Azərbaycanda isə bəzi səbəblərdən öl-kənin daxilində sabitlik olmadığına görə ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət uğrunda çəkişmələrinə görə Azərbaycanın qəhrəman oğulları öz torpaqlarının müdafiəsi üçün tam səfərbər edilə bilmədi. Bunun nəticəsində ermənilər Azərbaycan torpaqlarının 20 faizini işğal etdilər.

Dağlıq Qarabağ kiçik bir yerdir. Onun ərazisi cəmi dörd min kvadratkilometrdir. Orada keçmişdən ermənilər də, azərbaycanlılar da yaşayıblar. Amma son vaxtlarda orada ermənilər daha çox olub, azərbaycanlılar az. Əhalisinin sayı 150-160 min nəfər idi, yəni böyük bir yer deyildir. Amma ermənilər oranı Azərbaycandan qoparıb Ermənistanla birləşdirmək istədilər. Müharibə başlandı. Müharibədə bəzi səbəblərdən, Azərbaycanın torpaqlarının nəinki Dağlıq Qarabağ bölgəsi, həm də onun ətrafında olan ən gözəl Qarabağ torpaqları ermənilər tərəfindən işğal olundu və indiyədək işğal altındadır. İşğal olunmuş torpaqlarından bir milyon azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən zorla çıxarıldı. Onlar artıq on ilə yaxındır ki, çadırlarda yaşayırlar. Çünki Azərbaycanda onlar üçün yeni evlər tikmək, şərait yaratmaq mümkün deyildir. İkincisi də, onlar öz torpaqlarına, öz elinə, öz obasına dönməlidirlər. Biz belə ağır bir durumdayıq.

1994-cü ilə qədər müharibə davam edirdi. 1994-cü ildə biz, Ermənistanla Azərbaycan atəşkəs elan etdik. O vaxtdan müharibə yoxdur. Atəş yoxdur, döyüşlər yoxdur, şəhidlər yoxdur. Ancaq eyni zamanda, torpaqlarımız da işğal altındadır. Bir milyon azərbaycanlı indiyə qədər çadırlarda yaşayır.

Bu, beynəlxalq hüquq normalarına ziddir. Birləşmiş Millətlər Təşkilatının bir neçə qətnaməsi vardır ki, Ermənistan silahlı qüvvələri gərək Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxsın. ATƏT-in qərarları var. Başqa dövlətlərin bu barədə qərarları var. Ancaq ermənilər bütün bunlara məhəl qoymur, bunları yerinə yetirmirlər. Dünyada çox güclü olan erməni lobbisi - Amerika Birləşmiş Ştatlarında, Avropada, Fransada və digər ölkələrdə olan erməni lobbisi kiçik Ermənistanı müdafiə edir.

Biz o ildən, yəni 1994-cü ildən məsələni sülh yolu ilə həll etmək istəyirik. Danışıqlar aparırıq, beynəlxalq təşkilatlarda danışıqlar aparırıq. Böyük dövlətlər - Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa bu işə başçılıq edir. Biz bu məsələlərin çözülməsində Türkiyə Cümhuriyyəti ilə daim bir yerdəyik, məsləhətləşirik. İndi mən Ankarada olarkən yenə də çox böyük məsləhətləşmələr apardım. Çünki biz yenidən müharibə etmək istəmirik. Doğrudur, bizim xalqımızın içərisində müharibəni başlayıb, nəyin bahasına olursa-olsun, nə qədər şəhidlər verməli olsaq da, torpaqlarımızı azad etmək fikirləri də çoxdur. Ancaq cümhurbaşkanı kimi mən düşünürəm ki, müharibə etmək indi düzgün yol deyildir. Biz məsələni sülh yolu ilə həll etməliyik. Onun üçün də Ermənistanı məcbur etməliyik ki, Azərbaycan torpaqlarından çəkilsin.

Ermənistan kiçik bir ərazidir. İqtisadiyyatı çox ağır vəziyyətdədir. Ermənistanın əhalisi hər ay oranı tərk edib dünyanın bir çox ölkələrinə - Amerikaya, Avropaya, Rusiyaya gedir. İndi Ermənistanda heç iki milyon adam yoxdur. Keçmişdə dörd milyon əhalisi vardı. İqtisadiyyatı çox zəifdir. Ona görə də mən hesab edirəm ki, Ermənistan bu iqtisadi çətinliklər içərisində boğularaq, mütləq məsələnin sülh yolu ilə həll olunmasına razılıq verəcəkdir. Biz Azərbaycan torpaqlarını döyüşsüz, savaşsız, müharibəsiz, sülh yolu ilə azad edəcəyik. Burada Türkiyə bizim arxamızdır, bizimlə bərabərdir. Türkiyə Ermənistanın qarşısında məsələni belə qoyubdur: Ermənistan Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmayana qədər, Azərbaycan torpaqları azad edilməyənə qədər Türkiyə Ermənistanla sərhədlərini açmayacaq və onunla heç bir iqtisadi, siyasi əlaqəsi olmayacaqdır. Türkiyənin bu siyasəti Ermənistana böyük bir təzyiqdir. Çünki əgər Ermənistan doğru yola gəlsə, işğal edilmiş Azərbaycan torpaqlarından çıxsa, onda Türkiyə ilə Azərbaycan birlikdə məsləhətləşməklə, Türkiyənin Ermənistanla sərhədləri müəyyən mənada açılsa, onda, əlbəttə ki, Ermənistanın dünyaya çıxışı olacaq, iqtisadiyyatı inkişaf edə-

cəkdir. Ancaq indi Türkiyə Azərbaycanla bərabərdir. Türkiyənin Cümhurbaşkanı bunu dünən də bəyan edibdir və Türkiyə dövlətinin digər başçıları da bildiriblər ki, ermənilər Azərbaycan torpaqlarını azad etməyincə, Türkiyə ilə Ermənistan arasında heç bir əlaqə ola bilməz, sərhədlər qapalı olaraq qalacaqdır.

Biz yalnız inanırıq. Çünki bu bizim üçün çox böyük dəstəkdir, çox böyük yardımdır. Güman edirəm ki, Türkiyə və Azərbaycan bu məsələni birlikdə həll edəcəkdir.

Mən Qarsa ilk dəfə on il bundan öncə, 1992-ci ilin fevral ayında gəlmişəm. Onda mən Naxçıvanda yaşayırdım. O vaxt Azərbaycanda durum çox ağır idi. Naxçıvan blokadada idi, indi də blokadadır. Amma o vaxt orada yaşayış çox pis idi. O zaman mənim köhnə dostum Süleyman Dəmirəllə, mən onunla hələ 1968-ci ildən, ilk dəfə Türkiyənin Başbakanı seçilən zaman Bakıya gəldiyi vaxtdan tanış idim,- telefon əlaqələrim var idi. O Azərbaycana, Naxçıvana yardım edirdi. O, məni dəvət etdi. Qarsın valisi məni Naxçıvanla sərhəddə qarşıladı, avtomobillə Qarsa gəldim. Buradan Süleyman Dəmirəlin təyyarəsi ilə Ankaraya getdim. Onda Qarsı gördüm. Geriyə dönəndə yenə də Qarsdan keçdim.

Sonra, 1993-cü ildə İğdırın ildönümü ilə əlaqədar orada mərasim vardı. Hörmətli Süleyman Dəmirəl oraya gəlmişdi. Mən də Naxçıvandan gəlmişdim. Orada bərabər olduq. Sonra birlikdə buraya gəldik. Xatirimdədir, burada böyük bir toplantı vardı. Baş bakan Süleyman Dəmirəl böyük nitq söylədi. Onda siz burada şəkər fabrikasının, sement fabrikasının tikilməsi haqqında sözlər deyirdiniz. Dünən mən dostum Süleyman Dəmirəldən soruşdum ki, indi şəkər fabrikası varmı? Dedi ki, var. Sement fabrikası varmı? Dedi, var. Amma nə var, nə yox - onu mən bilmirəm. Gözlərim onu görür ki, bu illər ərzində Qars çox dəyişilib, çox inkişaf edibdir. Burada böyük, gözəl binalar, küçələr, gözəl yerlər görürəm. Qars inkişaf edir və etməlidir. Çünki Qars Türkiyənin, təkcə Türkiyənin yox, Azərbaycanın da bu nöqtədə ən önəmli bir şəhəridir, yeridir.

Bilirəm ki, 1918-1920-ci illərdə, Azərbaycanda Sovet hakimiyyəti quruldan zaman azərbaycanlıların bir qismi Sovet hökumətindən qorxub qaçaraq Türkiyəyə gəlmişdilər. Onların bir çoxu Qarsda yerləşmişdi. Borçalı mahalından, İrəvan tərəfdən, Qarabağdan, Gəncədən və başqa yerlərdən...Mən çox vaxt Qarsdan olan adamlarla görüşürəm. Mənə söyləyirlər ki, babaları Qarabağdadır, Gəncədədir, İrəvandadır, Boçalıdadır. Bunları mən bilirəm. Bilirəm ki, burada Qarsda azəri köklü insanlar az deyil, çoxdur. Biz hamımız türkük. Amma mən nitqimin əvvəlində də dedim ki, zaman, tarix, yüz illər bəzilərimizin adını dəyişdirib, bir cür qoyubdur. Biz azərbaycanlıyıq, buradakılar türklər, - Gürcüstanda Axıska türkləri var, onları da o vaxt sürgün etdilər. Orta Asiyada özbəklər, qazaxlar var. Mən belə başa düşürəm ki, indi burada da Azərbaycandan gəlmiş adamlar var. Ləhcəmiz də birbirinə yaxındır. Mənə deyirlər ki, Qars ləhcəsi Azərbaycan ləhcəsinə daha yaxındır. Bilmirəm doğrudur, yoxsa yox? Hər halda, mən tam Azərbaycan ləhcəsində danışıram və güman edirəm ki, dediyim sözlərin hamısını siz anlayırsınız. Yəni bunun üçün o qədər də böyük çətinlik yoxdur. Çünki bizim hamımız birik, hamımız bir millətik. Mən demişəm: "Biz - Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətik". Bir məsələni də sizə deyim, hörmətli vali də danışdı. Bilirsiniz ki, biz 1994-cü ildən böyük layihələr üzərində işləyirik və Azərbaycan neftini dünya bazarına çıxarmağa çalışırıq. Amma biz bunu Türkiyədən çıxarmaq haqqında, Bakı - Tbilisi - Ceyhan boru xəttinin çəkilməsi haqqında qərar qəbul etdik. 1994-cü ildə bu qərarı qəbul edərkən, buna inanmırdılar, bunu xəyal hesab edirdilər. Çünki bəzi dövlətlər bunu istəmirdi. Azərbaycan neftinin Xəzər dənizindən çıxarılan neftin digər istiqamətlərdən getməsini istəyirdilər. Ancaq biz öz qərarımızda sona qədər durduq. Bu layihəni hazırladıq. Bakı - Tbilisi - Ceyhan layihəsi hazırdır və biz inşaata başlayırıq. 2005-ci ildə inşaat qurtaracaq, Azərbaycan nefti - Xəzər dənizindən 2000 kilometr uzunluğunda olan boru xətti ilə Aralıq dənizində Türkiyənin Ceyhan limanında tankerlərə doldurulacaqdır. Bu boru da buradan sizin yanınızdan keçəcəkdir. Güman edirəm ki, bunun sizə də faydası çox olacaqdır.

Biz bir qaz kəməri də çəkirik. Azərbaycanda böyük qaz yataqları var. İlkin olaraq qərara aldıq ki, həmin qazı Bakıdan Ərzuruma gətirək. O işə də başlamışıq. O da 2004-cü ildə bitəcəkdir. Ərzuruma gedən boru xətti də buradan keçəcəkdir və siz təbii qaz alacaqsınız. Bunların hamısı Türkiyə ilə Azərbaycanı elə tellərlə bir-birinə bağlayır ki, bundan sonra yüz il də, min il də bizi heç kəs ayıra bilməyəcəkdir.

Mən sizə təşəkkür edərəm ki, siz burada mənim adıma bir park və bulvar yaratmısınız. Çox sağ olun, mən bundan çox məmnunam. Əgər siz mənim şəxsiyyətimə, mənim fəaliyyətimə, Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsində xidmətlərimə belə qiymət verirsinizsə, mən sizə təşəkkürümü və minnətdarlığımı bildirirəm. Sağ olun, hamınıza cansağlığı arzulayıram.

Burada - Qarsda Azərbaycan konsulluğu yaranacaqdır. Cümhurbaşkanı Əhməd Necdət Sezərlə mən bu barədə danışdım və onun da razılığını aldım. Sağ olun.

"Azərbaycan qəzeti" 5 iyul 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVƏ QAFQAZ UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

-Hörmətli cənab rektor!

-Hörmətli professor, müəllimlər, tələbələr!

-Hörmətli xanımlar və cənablar!

Məni Qafqaz Universitetinin Fəxri doktoru adına layiq gördüyünüzə, senatın qərarı ilə bu adı verdiyinizə görə və nəhayət, bu dəqiqələrdə Fəxri doktorluq diplomunu, bütün sənədlərini və bu əbanı, mantiyanı mənə təqdim etdiyinizə görə sizə səmimi qəlbdən təşəkkür edirəm.

Burada hava isti olduğuna görə, izin versəniz, mən bunu çıxardaram ki, sonra sizinlə rahat danışa bilim.

Əziz dostlar, insan cəmiyyətində hər bir iş, hər bir sənət qiymətlidir. Ancaq tarix boyu belə olub, indi də belədir və gələcəkdə də belə olacaqdır ki, müəllimlik sənətindən, yəni insanları təhsilləndirmək, sizin sözünüzlə desək, eyitimləşdirmək sənətindən uca sənət yoxdur. Bizim Azərbaycanda artıq 10 illərlə belə bir adət var- insanlar insanlara müraciət edəndə, hörmət əlaməti olaraq, müəllim deyirlər. Çünki müəllim həqiqətən də, böyük hörmətə layiqdir. Cürbəcür adlar var. Siz burada çox yaxşı bir kəlmə işlədirsiniz "sayın". Deyirsiniz sayın Heydər Əliyev, bununla da işinizi bitirirsiniz. Bizim Azərbaycanda hakimiyyətdə olmuş adamlar bir vaxt icad etdilər ki, onlar bəydirlər. Onlar bir-birinə bəy deyirlər. Türkiyədə bəy sözü işlənir. Bu Türkiyənin qədim dövrlərindən gəlir. Amma bilməlisiniz ki, Azərbaycanda xüsusi titul olubdur. Yəni hər adama bəy deyilə bilməzdi. Gərək o, bəy nəslindən olaydı. Məsələn, Sovetlər İttifaqı qurulmamışdan əvvəl çox məşhur ailələrdən, zadəgan ailələrindən çıxanlara bəy deyirdilər. Onların babası, babasının babası, onun da babası bəy olmuşdur, bəy ailəsindən olmuşdur. Onun böyük mülkü olmuşdur, böyük işləri olmuşdur. Ona görə də o vaxt cəmiyyətdə bəy ən yüksək titul hesab edilirdi. Ancaq indi bu sözü ucuzlaşdırmaq olmuz.

Burada rektor mənim tərcümeyihalımı söyləyəndə dedi. Mən 1987-ci ildə Moskvada Siyasi Bürodan və hökumət başçılığından uzaqlaşdırıldım. Bunun da səbəbi o idi ki, mən o vaxt orada Qorbaçovun və onun tərəfdarlarının qarşısında, Qarabağ məsələsinin ermənilərin xeyrinə həll olunmasının qarşısında böyük bir qaya kimi durmuşdum. Mənim Siyasi Büroda olmağım ermənilərdə böyük bir dəhşət yaratmışdı. Çünki rus imperatorluğunun tarixində və sovet imperiyasının tarixində Moskvada müsəlman, türk, azərbaycanlı heç vaxt Siyasi Büroda olmamışdı. Tale məni o yüksək vəzifəyə apardı və mən də orada öz xalqımın - Azərbaycan xalqının,

təkcə Azərbaycan xalqının yox, müsəlmanların və türk dünyasının mənafeyini, imkanım çatan qədər, müdafiə etməyə çalışırdım.

Ermənilər heç vaxt qəbul edə bilmirdilər ki, Siyasi Büroda türk var. Amma Sovet hakimiyyəti qurulanda orada erməni olmuşdur. Hətta o vaxt mən Siyasi Büroda olarkən, mənim əleyhimə işlər gedəndə Ermənistanın böyük bir şairi yazmışdı ki, nə qədər ki, Siyasi Büroda erməni xalqının düşməni olan türk - Heydər Əliyev oturub, biz Qarabağ məsələsini həll edə bilməyəcəyik.

Buna görə də mən vəzifədən kənarlaşdırıldım. Amma sözüm onda deyil. Bunları sizə söyləməkdə məqsədim budur ki, mən məcbur olub Bakıya gəldim, orada da yaşamaq mümkün olmadı, gəldim Naxçıvana. Amma Naxçıvanda nə gördüm? Qarmaqarışıqlıq, pozulmuş iqtisadiyyat. Sabitlik yox, qanun-qayda yox, Sovet hakimiyyəti yıxılıb, amma onun yerinə kim və nə gəlir, mənim deyirdi. Küçələrdən çıxmış adamlar, Xalq Cəbhəsinin təşkil etdiyi insanlar orada artıq hakim idilər. Amma çoxusu da savadsız adamlar idi, yəni hörmətsiz adamlar idi. Onlar bəy olanda, bəs əsl bəy kim olmalı idi? Amma təkcə bir-birilərinə demirlər. Məsələn, küçədə gedir, biri orada alma satır, ona deiyr ki, Əli bəy, bu almanın kiloqramı neçəyədir? Hər almasatan bəy olmaz axı! Elədirmi? Ümumiyyətlə, inanmıram ki, almasatan bəy olsun. Bəylər alma bağları yaradıblar. O bağları sonra dağıdıblar, bu bağlara xidmət edənlər də məhsulunu aparıb satıblar. Ona görə mən bu "bəy" sözünü qəbul etməmişəm və heç vaxt da qəbul etməyəcəyəm. Mən bəy olmamışam, bəy deyilam və bəy də olmayacağam. Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək müəllimdir. Ona görə Azərbaycanda biz bunu həmişə belə düşünmüşük. Mən də uzun illər, sovet dönəmində də Azərbaycanın başçısı olduğuma, indi 9 il də müstəqil Azərbaycanın Prezidenti olduğuma görə, cəmiyyətimizin hansı təbəqəsinin nə qədər hörmətə malik olduğunu şəxsən belə düşünürəm. Bu gün müəllimlərin, tələbələrin iştirakı ilə sizdən aldığım bu fəxri ad da müəllimlərin mənə verdiyi mükafatdır.

Bilirsiniz, mən dövlətdən çox mükafatlar almışam. Həm sovet dövlətindən, həm digər dövlətlərdən mənim çox ordenlərim var. Əgər onların hamısını taxsam, döşümə yerləşməyəcək. Amma müəllimlərdən alınan mükafat, müəllimlərdən alınan qiymət hamısından üstündür.

Üzr istəyirəm, mən Naxçıvanda orta məktəbdə oxumağımı xatırlayıram. Çox yaxşı oxuyurdum - bu sözümə görə məni bağışlayın, özümü tərifləmirəm. Hər halda, bizim sinifdə oxuyanların içərisində hamıdan yaxşı oxuyurdum. O vaxt belə deyildi. İndi görürsən, uşağı məktəbə göndərirlər, onun atası arxasınca gedir, anası gedib baxır ki, uşağı necə

oxuyur. Burada da belədir, eladirmi? Hər halda, bizdə belədir. Amma mənim nə atam, nə anam heç vaxt bilməmişdilər ki, məktəbdə hansı dərsi oxuyuram, hansı fəndən nə qiymət alıram. Ancaq həmişə, gecə-gündüz çalışmışam ki, yaxşı oxuyuum. Özü də o vaxt Naxçıvanda elektrik işığı yox idi, bunu bilin. Neft lampası var idi. Yəqin ki, keçmişdə burada da olub, sizdə də həmişə elektrik işığı olmayıbdır.

Burada onu görənlər var, yoxsa yox? Biz ona neft lampası, çıraq deyirik. Amma bir var çilçıraq, o, dövlətlilərin çırağıdır. Bir də var ki, adi çıraq, içində bir az neft, başında da şüşə olur və şüşə də tez-tez sınırdı. Pulumuz yox idi ki, gedib ikinci şüşə alaq. Qəzet kağızı ilə şüşəni yamaqlayırdıq ki, ondan istifadə edə bilək. Mən belə oxumuşam. Ancaq mən müəllimlərimə minnətdar olmuşam, müəllimlərimi indiyə qədər xatırlayıram.

Bu günlərdə mən Naxçıvana getmişdim. Orada bir neçə gün keçirdim. Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını artıq dəyişibdir. Ancaq bir müəllimim yaşayır. Onun yüz yaşı var. Adı da Lətif Hüseynzadədir. O, mənə Azərbaycan dili, ana dili dərsi deyirdi. Mən o vaxt bizim indi qəbul etdiyimiz latın əlifbası ilə Azərbaycan dilini, ana dilini öyrənirdim, Azərbaycan ədəbiyyatını öyrənirdim. Mən müəllimimi bu dəfə də gördüm, çox sevindim. O, tarixi də çox bilən adamdır. Xatırlayıram, hələ bir neçə il bundan öncə mən Naxçıvanda onunla görüşəndə mənə ilk dəfə dedi ki, - mən onsuz da bilirdim və bu gün meydanda da dedim, - əgər 1918-ci ildə türk ordusu Naxçıvana gəlməsəydi, Kazım Qarabəkir Paşanın ordusu və özü Naxçıvana gəlməsəydi, ermənilər Naxçıvanda azərbaycanlıların çoxunu qıracaqdılar. Bu adam azərbaycanlılara qarşı soyqırımın şahididir, Kazım Qarabəkir Paşanı görmüş adamdır. Çox sevindim ki, müəllimim indi də sağlamdır. Yaxşı söhbət etdik, danışdıq. Mən dörd gün Naxçıvanda oldum, ancaq müəllimimlə görüşüm qədər ləzzət verən, məni verən, məni sevindirən heç bir şey olmadı. Güman edirəm, hər biriniz bunu eləməyə bilərsiniz, çünki hər biriniz məktəbdə oxumusunuz, müəlliminiz olubdur. Bu, sizin üçün yeni bir şey deyildir. Ancaq mən öz həyatımdan danışıram.

Bir halda ki, siz məni Fəxri doktor etmisiniz, bunları sizə deyərək, bir daha sizə - Qars Qafqaz Universitetinin müəllimlərinə, professorlarına, burada gənc nəslin təhsil alması və inkişaf etməsi üçün xidmət göstərən insanların hamısına hörmət və ehtiramımı bildirirəm.

Qafqaz Universitetinin yaranması çox böyük hadisədir. On il bundan öncə burada universitet yox idi. Mən ilk dəfə 1992-ci ilin fevral ayında

Naxçıvandan Ankaraya gedərkən burada Qarsda olmuşam. Sonra, 1993-cü ildə əziz dostum Süleyman Dəmirəllə bir dəfə də Qarsda olmuşam. Qarsın çoxlu problemləri vardı. İşsizlər vardı, sənaye az idi, Qarsda bu gün gördüyüm görünüş yox idi. Universitet də yox idi. Türkiyənin 9-cu Cümhurbaşkanı, əziz dostum Süleyman Dəmirəl çox müdrik bir insandır. Xalqını sevən, xalqına sədaqətli insandır. Türk xalqının qarşısında onun böyük xidmətləri var, güman edirəm ki, bunları saymaqla qurtarmaq olmaz. Amma onun xidmətlərinin içərisində biri də odur ki, məhz burada, Qarsda Qafqaz Universitetinin yaranması haqqında qərar çıxarılmasının təşəbbüskarı olubdur.

Universitet yaranıb və on ildə bu qədər inkişaf edibdir. Mən sizin universitet şəhərciyinə baxdım, on il içərisində bu qədər binalar tikmisiniz, özünüz üçün belə gözəl şərait yaratmısınız.

Sizin Universitet indi, bəlkə də, başqa ölkələrdə 50 il tarixi olan universitetlərdən də üstün səviyyədədir. Amma Qafqaz Universitetinin Qarsda yaranmasının həm də böyük siyasi əhəmiyyəti var. Mən bilirəm ki, Türkiyənin bu doğu bölgəsindən,- biz şərq deyirik, siz doğu deyirsiniz,- insanlar daha çox Türkiyənin batı bölgəsinə gedirlər. Çünki orada yaşayış şəraiti yaxşıdır, pul qazanmaq buradan asandır, burada yaşayış çətindir. Təkcə burada deyil, ümumiyyətlə, bu bölgədə belədir. Vaxtilə belə olubdur ki, Türkiyə Cümhuriyyətinin doğu bölgəsi o qədər inkişaf etməyibdir. Ona görə də burada - Qarsda Qafqaz Universitetinin yaranması ilə bu bölgədə olan gənclərin daha İstanbula, İzmirə, yaxud başqa şəhərlərə gedib təhsil almalarına ehtiyac qalmır. Onlar burada, yaşadıqları bölgədə universitet təhsili alır və bəlkə də çoxu elə burada yaşayacaqdır.

Bilirsiniz ki, Qars xüsusi, tarixi bir şəhərdir. Mən bu gün parkın açılışında bu barədə çox danışdım, təkrar etmək istəmirəm, məsələn dünyada çox şəhərlər var ki, onların adlarını heç kəs tanımır. Amma Qarsı keçmiş Sovetlər Birliyi məkanında, demək olar ki, hamı tanıyır. Tək orada yox, bəlkə də, bütün Şərq aləmində Qars tanınır. Nə üçün tanınır? Çünki Qars keçmiş müharibələrdə də, 1877-1878-ci illər Rusiya - Türk müharibəsində, Birinci Dünya Müharibəsi qurtarandan sonrakı müharibədə də alovun - odun içində olubdur. Qars qaladır. Yenilməz qaladır. Hamı Qarsı belə tanıyır.

Azərbaycanda Qars haqqında çox yüksək fikirlər var və bizim tarixçilərimiz, alimlərimiz Qars haqqında çox gözəl şeylər yazıblar. Bizim böyük yazıçılarımız, şairlərimiz, o cümlədən Azərbaycanın ən böyük şəxsiyyətlərindən biri Cəlil Məmmədquluzadə də vaxtilə bir müddət Qarsda yaşayıbdır. Qars 1877-1878-ci illər Rusiya - Türkiyə müharibəsindən sonra rusların əlinə keçəndə türkləri buradan çıxarıb, ermənilər, yunan-

ları buraya gətirib doldurdaraq, əhalinin tərkibini dəyişməyə çalışırdılar. O vaxt rus imperatorluğu bu bölgədə rus dilini bilən adamlardan da istifadə etmək istəyirdi.

Bir tarixi anı da yadınıza salmaq istəyirəm ki, o vaxt çox böyük bir alim Sankt - Peturburqda, Londonda təhsil almış bir insan, azərbaycanlı İsasultan Şahtaxtlı burada - doğrudur, rus imperatorluğunun idarəsində - çalışıbdır. Ancaq o, -bu, tarix kitablarında var, - burada öz qardaşlarına, öz millətinə, öz türk xalqına xidmət etməyə çalışırmış. Yəni belə tarixi anlar çoxdur. Azərbaycan üçün Qars çox cəlbedici bir yer olmuşdur.

Böyük öndər Mustafa Kamal Atatürkün başçılığı ilə aparılan qurtuluş savaşının bir hissəsi olaraq Qars tamamilə azad edildikdən sonra, Qars türk diyarı kimi bərpa olunmuş, türklər öz yerlərində yerləşmişdir. Düşünürəm və inanıram ki, bu torpaq, qədim əsrlərdən, min illərdən də çox türklərə məxsus olan bu yer bundan sonra daim türk torpağı olacaqdır.

Bunlara görə Qarsda Qafqaz Universitetinin böyük bir siyasi əhəmiyyəti var.

On ildə siz çox iş görmüsünüz. Sizin gördüyünüz işləri mən yüksək qiymətləndirirəm. Azərbaycanın Universitetləri ilə də əlaqələriniz yaxşıdır. Naxçıvan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, Gəncə Dövlət Universiteti ilə əlaqələriniz,- mən burada filmlərdən də gördüm,- yaxşıdır. Amma bundan da yaxşı olmalıdır.

Biz daim bir-birimizlə əlaqədə olmalıyıq, bir-birimizlə təcrübə mübadiləsi aparmalıyıq, bir-birimizə yardım etməliyik. Burada sizin üçün yaxın yer Naxçıvan Muxtar Respublikasıdır. Mən demirəm ki, təkcə Naxçıvan Dövlət Universiteti ilə əlaqə saxlayın. Amma sizin Azərbaycana yaxın yolunuz Naxçıvandır.

Mən təkliflər eşitdim ki, Qarsda Azərbaycanın konsulluğu açılsın. Bunu mən Türkiyənin Cümhurbaşkanı, hörmətli Əhməd Necdət Sezər ilə müzakirə etdim, razılaşdıq və güman edirəm ki, biz diplomatik yollarla bu məsələni həll edəcəyik və burada Azərbaycanın konsulluğu olacaqdır. Mən Bakıya gələn kimi hava yolunun açılması məsələsini də araşdıracağam, baxacağam, nə mümkündürsə edəcəyik ki, hava yolu açılsın. Bu, bölgə üçün də lazımdır, Azərbaycan üçün də lazımdır. Bunu mütləq edəcəyik. Əgər gələcəkdə başqa məsələlər də olsa, onları da həll edəcəyik.

Bəzən bu məsələlərin həll olunması bürokratik- bu, sizdə də var,- "bürokrasi" deyirsiniz,- adamların əlində ləngiyir. Ancaq bizim də borcumuzdur ki, bürokratik əngəlləri aradan qaldıraq və məsələləri həll edək. Mən sizə söz verirəm ki, həll edəcəyik.

Burada - Qarsda olarkən bir tarixi hadisəni də xatırlatmaq istəyirəm.

1920-ci ildə Qarsın qurtuluş savaşı oldu. Ancaq anlaşmalar lazım idi ki, torpaqlar, sərhədlər müəyyənləşdirilsin. O vaxt, 1921-ci ilin mart ayında Moskvada Türkiyə ilə Rusiya arasında bu bölgə haqqında Moskva anlaşması imzalanıbdır. Onun çox böyük əhəmiyyəti vardı. Orada sərhədlər müəyyən edilib. Türkiyənin indiki sərhədlərini müəyyən etdi, - Rusiya bu anlaşmanı Türkiyə ilə imzalayıb, bu torpaqları əvvəllər onlar iddia etmişdilər, əllərinə keçirmişdilər,- deməli, bu məsələ çözüldü. Amma bir başqa məsələ də, Naxçıvan haqqında məsələ də çözüldü. Çünki Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Azərbaycan xalqının ən qədim tarixi, memarlıq abidələri Naxçıvandadır.

Naxçıvana gedənlər orada Mömünə Xatın məqbərəsini görüblər. 800 il bundan öncə Atabəylər hökmdarlarından Cavan Pəhləvan həmin məqbərəni tikdiribdir.

Onun yaradıcısı məşhur Azərbaycan memarı, bütün Şərq aləmində, müsəlman aləmində məşhur olan Əcəmi Əbubəkr oğlu Naxçivani idi. Amma təkcə bu deyil, orta əsrlərdə, ondan sonra da bir çox abidələr yaranıbdır. Naxçıvan bir vaxt Azərbaycan Atabəylər dövlətinin paytaxtı olubdur.

Amma ondan sonrakı bir hadisə də var. Bu məsələlərin tamamilə çözülməsi üçün 1921-ci ilin oktyabrında yeni bir müqavilə imzalanıbdır. Bu, Qarsda imzalanıbdır. Buna Qars anlaşması deyirlər. Bu anlaşmanı imzalayanlar Türkiyə, Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiyadır. Bu anlaşma ilə sərhədlər bir daha təsdiq olunubdur və yenə də Naxçıvan haqqında orada xüsusi müddəalar var: Naxçıvan Azərbaycanındır və Naxçıvanın statusunda heç bir dəyişiklik ola bilməz. Yəni Naxçıvan özəl Cümhuriyyətdir, o, başqa bir dövlətə verilə bilməz. Bu barədə Türkiyənin öz sahibliyi var. Ona görə də Türkiyə Naxçıvan üçün qarant rolu oynayıbdır. Çünki bilirsiniz ki, Naxçıvan vaxtilə, 1920-ci ildə sərhədlər bölünərkən, Ermənistana verilmiş Azərbaycan torpağı vasitəsilə Azərbaycanın əsas ərazisindən ayrılıbdır. Bu, indi bizə çox böyük problemlər yaradıbdır.

Mən buraya gələndə soruşdum ki, Qarsda anlaşma harada imzalanıbdır. O binanı mənə göstərdilər. Biz Türkiyə hökuməti ilə danışacağıq, orada bir lövhə asılmalıdır ki, 1921-ci ilin oktyabr ayında burada, Qarsda belə bir anlaşma imzalanıbdır. Bu, mütləq olmalıdır. Çünki Qars anlaşmasının bu bölgə üçün, Azərbaycan və Türkiyə üçün çox böyük əhəmiyyəti var.

Bunları deyərkən yenə o sözə qayıdıram ki, Qarsda Qafqaz Universitetinin yaranması həm də siyasi xarakter daşıyır.

Biz bu gün dostluq və qardaşlıqdan çox danışdıq. Nitqimi sona çatdıraraq onu demək istəyirəm ki, Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı

yaşayır və yaşayacaqdır. Mən beşinci gündür ki, Türkiyədəyəm. Xarici səfərlərə gedəndə mən bu qədər uzun müddət heç bir ölkədə olmuram. Amma Türkiyəyə gələndə ondan ayrılıb Azərbaycana qayıda bilmirəm.

Biz bu on ildə, Azərbaycanın müstəqilliyi dövründə Türkiyə - Azərbaycan dostluğunu yüksəklərə qaldırmışıq. Amma bu belə işdir ki, biz heç vaxt rahat olmamalıyıq, heç vaxt arxayın olmamalıyıq. Çünki bunu istəməyənlər var. İçəridə də - Azərbaycanda da, Türkiyədə də bəzi adamlar istəmir. Amma başqa dövlətlər də buna çox paxıllıq, qısqanclıqla, bəzən də düşmənçiliklə baxırlar. Ona görə də bizim bu dostluğumuz, qardaşlığımız qorunmalıdır. Onun qorunması üçün də inkişaf etməlidir, daim inkişafda olmalıdır, dayanmamalıdır. Əmin olun ki, Azərbaycan xalqı bu hisslərlə yaşayır. Azərbaycanın Prezidenti Heydər Əliyev indiyə qədər bu yolla gedib və bundan sonra da gedəcəkdir.

Yaşasın Türkiyə Cümhuriyyəti, Atatürk Türkiyə Cümhuriyyəti!

Türkiyə - Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun!

"Azərbaycan" qəzeti 2002-ci il

DÖVLƏTİMİZİN BAŞÇISININ ŞƏRƏFİNƏ VERİLƏN ZİYAFƏTDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

-Hörmətli vali!

Hörmətli bələdiyyə başqanı!

Hörmətli dostlar, qardaşlar, bacılar, xanımlar və cənablar!

Mən təşəkkür edirəm ki, siz Qarsa ayağım dəyən dəqiqədən mənə və məni müşayiət edənlərə çox gözəl qonaqpərvərlik, hörmət göstərirsiniz. Hamısından əzizi odur ki, qardaşlıq münasibəti göstərirsiniz. Hər bir qonağa hörmət etmək olar və lazımdır. Bəzən bu, protokolun tələbidir. Amma dərin hissiyyatlarla, duyğularla, qardaşlıq hissiyatları ilə göstərilən münasibət ən yüksək protokol münasibətindən çox-çox dəyərlidir. Mən məhz burada belə münasibəti sizdən hiss etdim. Bu, Azərbaycan xalqına olan dostluq, qardaşlıq münasibətidir. Mən sizə təşəkkür edirəm.

Bizim bugünkü günümüz hələ davam edir. Ancaq Türkiyə - Azərbaycan dostluq və qardaşlıq əlaqələrinə yeni bir səhifə yazır. Biz indiyə qədər belə səhifələri çox yazmışıq, kitablar doldurmuşuq. Amma bir-birimizə o qədər yaxınıq, o qədər sıx əlaqələrimiz var ki, hələ bundan sonra da yeni səhifələr, vərəqələr, kitablar yazılacaqdır. Bugünkü görüş də bu gözəl kitabların gözəl bir səhifəsidir. Mən sizə bir daha təşəkkür edirəm.

Rica edirəm, qədəhlərinizi Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı şərəfinə. Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə Cümhuriyyətinin Cümhurbaşkanı, əziz dostum, qardaşım Əhməd Necdət Sezərin şərəfinə qaldırasınız. Sağ olun.

"Azərbaycan" qəzeti, 5 iyul 2002-ci il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Cənab Prezident!

Əziz dostum!

Futbol üzrə Dünya çempionatında Türkiyə milli yığma komandasının uğurla çıxış edərək bürünc medal qazanması münasibətilə sizi və bütün qardaş türk xalqını ürəkdən təbrik edirəm.

Türkiyə yığma komandasının bu qələbəsindən duyduğunuz sevinc payını sizinlə bölüşərək böyük şərəf, fərəh və qürur hissi keçiririk.

Çempionatın bütün oyunlarını yüksək qələbə əzmi ilə keçirmiş Türkiyə futbolçularına ən səmimi təbriklərimizi yetirir, onlara yeni-yeni uğurlar arzulayırıq.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 iyun 2002-ci il.

TÜRKİYƏ MİLLİ YIĞMA KOMANDASININ FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATINDA ÜÇÜNCÜ YER TUTMASI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TƏBRİKİ

Mən bir neçə gün idi ki, Türkiyədə idim. Türkiyə futbol komandasının Braziliya komandası ilə Dünya çempionatında oyununu bu ayın 26-da Ankarada biz böyük həyəcanla seyr edirdik, dinləyirdik. Bilirəm ki, Azərbaycanda hamı televiziya qarşısında idi və Türkiyədə də, demək olar ki, heç kəs işləmirdi, ancaq televiziya qarşısında oyunu seyr edirdi.

Biz bu oyunu böyük həvəslə, həyəcanla, ümidlə seyr edirdik. Mən isə oyundan öncə öz arzularımı bildirərək, belə bir proqnoz verdim ki, Türkiyə futbol komandası Braziliyanı udacaq, sonra finala çıxacaqdır və Almaniya komandası ilə oynayacaqdır. Ola bilər ki, Almaniya komandasını da udsun və dünya çempionu olsun. Bəziləri buna bir az inanmırdılar, ancaq məndə böyük inam var idi. Bu inama görə də mən bu sözləri demişdim və bu inamla da həmin matçı seyr edirdim. Ancaq matç bizi bir az məyus etdi. Çünki Braziliya 1:0 hesabı ilə uddu. Amma mən şəxsən məyus olmadım. Çünki türk futbolçuları çox gözəl, cəsarətlə oynayırdılar.

Çox gözəl futbol nümayiş etdirdilər. Bir qol - mən hesab edirəm ki, Braziliya futbolçuları tərəfindən çox

uzaq məsafədən vurulan bir qol oyunun bütün müqəddəratını həll etdi. Beləliklə, oyun Braziliyanın xeyrinə qurtardı.

Ancaq yenə də biz ümidlə yaşayırdıq. Bu barədə mən şəxsən hər gün düşünürdüm. Bu gün də futbol matçını artıq Ankarada yox, Bakıda sona qədər seyr etdim. Əvvəldən axıra qədər məndə böyük bir sevinc hissi vardı. Çünki Türkiyə futbolçuları çox yüksək futbol nümunəsi göstərdilər. Çox gözəl oynadılar.

Məlumdur ki, Koreya futbolçuları güclüdürlər, bu komanda çox güclüdür. Əgər nəzərə alsaq ki, oyun da Koreyada, onların meydanında gedirdi, onda düşünmək olar ki, Türkiyənin futbolçularına nə qədər iradə və ustalıq, məharət lazım idi ki, onlar bu oyunu udsunlar. Uddular... Oyunun ilk hissəsində 3:1 hesabı ilə irəlidə idilər, biz çox sevinirdik. Mən heç düşünmürdüm ki, bu hesab dəyişilə bilər. Ancaq oyunun sonunda Koreya futbolçuları həddindən artıq canfəşanlıq etdilər, çox çalışdılar, hücuma keçdilər və bir qol da vurdular. Amma bu, məsələni həll etmədi. Türkiyənin futbol komandası Koreya kimi güclü futbol komandasını 3:2 hesabı ilə uddu.

Mən bu qələbə münasibətilə Türkiyə futbol komandasını səmimi qəlbdən təbrik edirəm, onlara uğurlar arzulayıram. İlk dəfədir ki, 3-cü yerə çıxırlar. Bunun özü böyük nailiyyətdir. Əlbəttə, biz istərdik ki, 1-ci yer, 2-ci yer olsun. Ancaq gərək biz reallıqdan da uzaqlaşmayaq. Çünki Dünya çempionatında dəfələrlə yüksək nəticələr göstərən futbol komandaları yenə də bu dünya çempionatının iştirakçıları idilər. Mən hesab edirəm ki, belə bir vəziyyətdə bu, çox böyük qələbədir.

Mən Türkiyə futbol komandasını ürəkdən təbrik edirəm. Qardaş Türkiyə xalqını, Türkiyə Cümhuriyyətini ürəkdən təbrik edirəm. Bu qələbə Türkiyə vətəndaşları kimi, Azərbaycan vətəndaşlarını eyni dərəcədə sevindirir. Çünki məlumdur ki, Seneqal komandası ilə oyunda bu matçı Azərbaycanda nə qədər böyük həyacanla seyr edirdilər. Matç qurtarandan sonra şəhərdə, bütün küçələrdə və meydanlarda əllərində Türkiyə və Azərbaycan bayraqları olan insanlar bir-birlərini təbrik edirdilər, qucaqlayırdılar, öpürdülər və bunu bizim hamımızın qələbəsi hesab edirdilər. Güman edirəm ki, bu gün də belədir.

İndi Daxili İşlər naziri mənə məlumat verdi ki, şəhərdə artıq əllərində bayraqlar olan insanlar, gənclər çoxdur, bayram edirlər. Bu, bayramdır. Türkiyə xalqının da, Azərbaycan xalqının da bayramıdır. Bu, təbii ki, bütün türk dünyasının böyük qələbəsidir. Biz bir-birimizdən ayrı deyilik. Təbiidir, meydanda oynayanlar bizim türk qardaşlarımızdır. Amma bu uğura, bu qələbəyə bizim hamımız birlikdə sevinirik, həm Türkiyə Cümhuriyyətinin, həm də Azərbaycan Respublikasının vətəndaşları sevinir.

Mən bir də səmimi qəlbdən təbrik edirəm. Üçüncü yeri qazanmaq Türkiyə futbolçuları üçün çox böyük nailiyyətdir. Ümidvaram ki, bu cür yüksək futbol texnikasını mənimsəmiş futbolçular gələcəkdə daha da böyük nəticələr nümayiş etdirəcəklər. Bu, bayramdır, təbrik edirəm və Türkiyə xalqına yeni-yeni uğurlar arzulayıram. Türkiyə futbolçularına yeni-yeni qələbələr arzulayıram.

Sağ olun.

"Azərbaycan" qəzeti, 30 iyun 2002-ci il.

Prezidenti
6 iyul 2002-ci il. "Azərbaycan" qəzeti.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 22-də Prezident sarayında Türkiyənin Dini İşlər İdarəsinin rəisi Mehmet Nuri Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonağı və onu müşayiət edən şəxsləri salamlayaraq, onların yenidən Azərbaycana gəlmələrindən çox məmnun olduğunu vurğuladı.

Səmimi qəbul üçün dövlətimizin başçısına təşəkkürünü bildirən Mehmet Nuri Yılmaz dedi ki, hörmətli Cümhurbaşkanım, hər dəfə Azərbaycana gəldikdə ölkənizin daha da inkişaf etdiyini görürük. Bu dəfə də Bakını gəzdik, həqiqətən, ölkənizdə böyük inkişaf olduğunu müşahidə etdik. Təbiidir ki, Zati-alinizin rəhbərliyi sayəsində Azərbaycan daha da irəli gedəcək, inkişaf edəcəkdir. Allahdan Sizə cansağlığı, gələcəkdə də uğurlar əldə etməyinizi arzulayırıq. Azərbaycanın indi qarşılaşdığı ən böyük çətinlik torpaqlarınızın bir hissəsinin işğal edilməsi və bir milyona qədər insanın qaçqın durumunda olmasıdır. Dağlıq Qarabağ problemi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Türk milli komandasının futbol üzrə 17-ci Dünya çempionatında üçüncü yerə çıxması münasibətilə göndərdiyiniz nəzakətli təbrik məktubuna görə Sizə təşəkkürümü bildirirəm.

Türk xalqının bu böyük sevincinin qardaş Azərbaycan xalqı tərəfindən də bölüşdürülməsi xoşbəxtliyimizi daha da artırmışdır.

Fürsətdən istifadə edərək, səmimi qəlbdən Zati-alinizə cansağlığı və səadət, dost və qardaş Azərbaycan xalqına rifah və tərəqqi naminə ən xoş diləklərimi yetirirəm.

Əhməd Necdət Sezər
Türkiyə Respublikasının

həll edildikdən sonra qaçqınlığın aradan qaldırılması nəticəsində Azərbaycanın inkişafına mane olan əngəl aradan qaldırılacaqdır.

Bizim buraya gəlməyimiz Tbilisidəki beynəlxalq toplantı keçirilməsi ilə bağlıdır. Bu toplantı çox yararlı oldu və şeyxin dəvəti ilə Azərbaycanı ziyarət etməyi qərara aldıq. Əslində, Azərbaycan türkdilli cümhuriyyətlər içərisində ən çox dəyər verdiyimiz ölkədir. Həm ölkənizi ziyarət etmək, həm də dini məsələlərlə bağlı şeyxülislamla və cənab Rafiq Əliyevlə görüşlər keçirmək məqsədilə gəlmişik. Onlarla görüşlərimiz çox yararlı oldu. Burada bizim din xadimlərimiz xidmət etməkdədirlər. Yeni qəbul etdiyiniz qanuna uyğun olaraq, bunları bir əsasa bağlamaq lazımdır. Bununla bağlı bir anlaşma hazırladıq. İnşallah, yaxın vaxtlarda, Türkiyədə imzalayıb həyata keçirəcəyik.

Cənab Mehmet Nuri Yılmaz daha sonra dedi ki, biz hər cür fanatizmin əleyhinəyik. Azərbaycanda xidmət göstərən din xadimlərinin də buna mühüm diqqət və həssaslıq göstərmələrini istəyirik. İlahiyyat fakültəsində həm Türkiyədən, həm də Azərbaycandan dərs deyən müəllimlər, məscidlərdə xidmət edən din xadimləri çox diqqətlə seçilməlidir. Din insanlara düzgün anladıldıqda ölkələr inkişaf edər. Lakin din xurafata bürünmüş halda insanlara anladılarsa, o vaxt hər bir ölkə geri qala bilər. Biz Türkiyədə və Azərbaycanda din anlayışları arasında fərq olmadığını görürük və bundan da məmnunluq duyuruq.

Prezident Heydər Əliyev qonağa təşəkkür edərək xatırlatdı ki, Türkiyə ilə bizim aramızda dostluq, qardaşlıq əlaqələri çox yüksək səviyyədədir. Biz bunu qiymətləndiririk. "Biz bir millət, iki dövlətik" demişik və işlərimizi bu prinsiplər əsasında qururuq və bundan sonra da quracağıq.

Cəmiyyətdə dinin rolu haqqında söylədiyiniz fikirlər tamamilə doğrudur. Türkiyə ilə Azərbaycan arasındakı fərq ondan ibarətdir ki, Türkiyədə din heç vaxt yasaq olmayıbdır. İnsanlar həmişə dinə inamlarını, etiqadlarını həyata keçiriblər və dindən ayrılmayıblar. Amma Sovet hakimiyyəti qurulandan sonra, təkcə Azərbaycanda deyil, Sovetlər İttifaqının bütün ərazisində din yasaq edildi, onunla mübarizə aparıldı. Ona görə də dini idarələrin hamısı ya dağıdıldı, ya da məhv oldu. Amma din insanların qəlbində yaşadı, nəsildən-nəslə keçməklə yaşadı.

Sovet İttifaqı dağılandan, Azərbaycan müstəqilliyini əldə edəndən sonra insanlara vicdan azadlığı, yəni din azadlığı verildi. Ötən on il ərzində Azərbaycanda bu siyasət həyata keçirilir. Doğrudur, bundan mənfi hallar üçün istifadə etmək istəyən qüvvələr də var. Yaxud da ki, ayrı-ayrı ölkələrdən Azərbaycana dini fanatizmi, dini ekstremizmi yaymaq istəyənlər də var.

Məlumdur ki, dünyada dindən

istifadə edərək terrorizmlə məşğul olan qüvvələr də var. Buna görə də dini ekstremizm, eyni zamanda terrorizmlə də bağlanıbdır. Bu da müxtəlif ölkələrdə həm insanlara, xalqlara həm də dövlətlərə çox zərər verir. Biz çalışmalıyıq ki, ölkələrimizdə xalqlarımızın vicdan azadlığını təmin edərək, eyni zamanda xaricdən, yaxud da daxildən ayrı-ayrı qüvvələr tərəfindən dini fanatizmin, ekstremizmin və bunun altında terrorizmin həyata keçirilməsi hallarına yol verməyək.

Bu işi biz Azərbaycanda aparırıq və aparacağıq. Bu, bizim üçün əsas məsələlərdən biridir.

Ancaq məlumdur ki, sizin də bəzi din xadimləriniz ayrı-ayrı dairələrlə əlaqədə olaraq öz planlarını həyata keçirmək istəyirlər. Lakin Türkiyədə bunun qarşısı çox ciddi alınır. Biz bunu bilirik.

Respublikamızın rəhbəri vurğuladı ki, bizim müstəqil dövlətdə din dövlətdən ayrıdır. Din dövlətin işinə qarışa bilməz. Dövlət də dinin işinə qarışa bilməz. Ancaq təəssüflər olsun, bəziləri istəyir ki, Azərbaycanda idarəetmə işləri dini qaydasında olsun, yaxud da burada islam dövləti yaransın. Bunlar xəyaldır, kim belə düşünürsə, bu yollara getmək istəyirsə, o, böyük risk edir. Çünki bunların qarşısını biz kəskin şəkildə alacağıq. Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət yaradırıq. Biz heç vaxt imkan vermərik ki, yaratdığımız bu gənc dövlətin xarakteri hansısa qüvvələr tərəfindən dəyişdirilə bilsin. Bu məsələlərdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq, bir-birinə yardım etmək zəruridir. Sizin imzalayacağınız sənəd bu məqsədləri həyata keçirməyə yönəlibsə, mən bunu dəstəkləyirəm.

Prezident Heydər Əliyev dedi ki, biz xalqımızın mənəvi dəyərlərinin inkişafı üçün dindən də istifadə etməyə çalışmalıyıq. İndi bu da çox vacibdir, aktualdır.

Biz dünyəvi dövlət quraraq, eyni zamanda, imkan verə bilmərik ki, milli-mənəvi dəyərlərimiz tapdalansın və millətimizə, milli-mənəvi dəyərlərimizə yabançı olan hansısa dəyərlər tətbiq olunsun. Təəssüf olsun ki, gənclər arasında belə işlər görməyə çalışan qüvvələr də vardır. Ona görə də gənclərin tərbiyəsinə diqqət yetirmək lazımdır. Gənclərimiz həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olmalıdır. Bu da həm sizin, həm də bizim vəzifəmizdir.

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI CƏNAB HİLMİ ÖZKÖKƏ

Hörmətli Hilmi Özkök!

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, bu yüksək vəzifədə fəaliyyətiniz dövründə dost və

qardaş ölkələrimiz arasında hərbi əməkdaşlıq sahəsində yeni-yeni nailiyyətlər əldə edəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 5 avqust 2002-ci il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV "AKSOY HOLDİNQ" ŞİRKƏTİ İDARƏ HEYƏTİNİN SƏDRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 5-də Prezident sarayında Türkiyənin "Aksoy Holdinq" Səhmdar Şirkətinin İdarə Heyətinin sədri, İstanbuldakı "Konrad" otelinin sahibi Ərdal Aksoyu qəbul etmişdir.

Qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev İstanbulda onunla görüşünü xatırladı.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən cənab Ərdal Aksoy əvvəllər də Bakıya gəldiyini, çox gözəl şəhərimizlə tanış olduğunu, lakin dövlətimizin başçısını narahat etmək üçün onunla görüşmədiyini söylədi.

Prezident Heydər Əliyev dedi ki, son günlər Türkiyə parlamenti çox işlər gördü. 16 saat toplantı olubdur. Avropa Birliyi ilə əlaqədar olan qərarların hamısı qəbul edilibdir. Eyni zamanda noyabrın 3-də erkən seçki keçiracəksiniz. Bu, ölkəniz üçün xeyirli olsun. Elə olsun ki, bu seçkidən sonra qurulmuş hökumət daha güclü olsun. Bu qərarlarınız Türkiyə üçün, həqiqətən, çox lazımlı idi. Amma bunu neçə vaxtdır qəbul etmək mümkün olmurdu.

Parlamentdə qəbul edilmiş qərarların çox əhəmiyyətli olduğunu bildirən qonaq vurğuladı ki, əhalinin 80 faizi Avropa ilə işbirliyi qurmaq istəyir. Ümumiyyətlə, bu işlərin nə olduğunu əhaliyə anlatmaq lazım idi. Keçən həftə bizim üçün tarixi bir həftə oldu.

Azərbaycan Prezidenti bu münasibətlə qonağı təbrik edərək dedi ki, mən istərdim siz Azərbaycanla daha yaxın əlaqələr quracaqsınız, əgər burada bir iş görmək istəsəniz, görə bilərsiniz. Biz Bakı - Tbilisi - Ceyhan boru xəttinin maliyyələşdirmə məsələsini artıq həll etdik. Bu, çox böyük məsələ idi. 2 milyard 900 milyon dolların bir hissəsini Türkiyə öz üzərinə götürür. Amma böyük bir hissəsini də Azərbaycan üzərinə götürür. Azərbaycan Dövlət Neft Şirkəti layihənin 25 faizini maliyyələşdirir. Bir həftə bundan öncə mən fərman imzaladım. İndi biz hazırlaşırıq ki, bu təməl daşı qoymağın gününü müəyyən edək və Bakı - Ceyhanın inşası başlasın.

Ərdal Aksoy dövlətimizin başçısına müraciətlə vurğuladı ki, Siz olmasaydınız, bu layihə baş tutmazdı. İnanın, bu, Türkiyə üçün tarixi bir layihədir. Azərbaycan və Türkiyə qardaşdır, amma bu layihədə Sizin yeriniz tamamilə başqadır. Bu layihə Sizin sayənizdə gerçəkləşdi. İnşallah, bundan sonra qaz kəməri də çəkiləcəkdir.

Prezident Heydər Əliyev bildirdi ki, Azərbaycanda neft layihələri uğurla həyata keçirilir. Biz nefti çıxarıb burada saxlamayacağıq, onu satmaq üçün dünya bazarı lazımdır. Boru kəməri çəkmək üçün yollar çoxdur. Amma mən 1994-cü ildə qərar qəbul etmişəm ki, bu, ancaq Bakı - Tbilisi - Ceyhan olacaq və bunun üzərində də 8 ildir çalışıram. Çoxları buna inanmırdı, hətta bəziləri indi də inanmır ki, bəlkə bu, baş tutmayacaqdır. Maliyyə məsələlərində bizim problemlərimiz var idi. Amma yolunu tapdıq, onu da həll etdik. Bu, Türkiyə üçün, Gürcüstan üçün, təbiidir, Azərbaycan üçün tarixi bir hadisədir və əsrlər boyu yaşayan bir şeydir. Bu, bizim ölkələri bir-birinə daha da sıx bağlayır.

Ərdal Aksoy dövlətimizin başçısına müraciətlə dedi ki, cənab prezident, bütün türk milləti Sizə minnətdardır. Bu, həm siyasi, həm də iqtisadi baxımdan tarixi bir layihədir və inşallah, Sizin sayənizdə tam həyata keçiriləcəkdir.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!

Tarsus şəhəri yaxınlığında avtomobil qəzası nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 avqust 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 19-da Prezident sarayında Türkiyənin Dövlət naziri Rəşad Doğrunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev hörmətli qonaqları salamlayaraq, onların ölkəmizə gəlməsindən məmnun qaldığını bildirdi və dedi ki, siz burada çox faydalı işlər görmüsünüz, bir neçə nazirlə görüşmüsünüz, bizim kənd təsərrüfatına yardımlar etmisiniz. Buna görə çox sağ olun, təşəkkür

edirəm.

Dövlət naziri Rəşad Doğru səmimi qəbula görə minnətdarlığını bildirdi, nümayəndə heyətinin üzvlərini Prezident Heydər Əliyevə təqdim etdi. O, Bakıda türk iş adamı tərəfindən tikilmiş ticarət mərkəzinin açılışı, ayrı-ayrı nazirlərlə keçirdikləri görüşlər barədə danışdı. Xaçmaz və Quba rayonlarına səfərini xatırlatdı. Türkiyə İqtisadi İnkişaf Agentliyi (TİKA) vasitəsilə Azərbaycana 15 ədəd kənd təsərrüfatı maşını verdiyini vurğuladı.

Azərbaycan Baş nazirinin müavini Abid Şərifovla görüşdə uzunmüddətli iqtisadi işbirliyinə dair müzakirələr aparıldığını bildirən **Rəşad Doğru** dedi: Cənab Prezident, mən dövlət naziri kimi çalışdığım 6 ay ərzində Azərbaycana hər dəfə gələndə daha gözəl işlər görülməsinin şahidi olur və bundan sonra sevinc duyuram. Azərbaycanda gedən çox gözəl inkişaf 70 milyonluq türk xalqını məmnun edir.

O, Naxçıvana ziyarətini, oradakı görüşlərini də xatırlatdı, Prezident Heydər Əliyevin təşəbbüsü ilə beynəlxalq hava limanının tikiləcəyindən məmnun qaldığını söyləyərək vurğuladı ki, biz hər zaman Azərbaycanın, qardaşlarımızın yanındayıq. Sizin "Biz bir millət, iki dövlətik" müdrik sözünüz bizim üçün örnəkdir. Biz bu istiqamətdə çalışırıq və bütün sahələrdə Sizinlə bərabər olacağıq.

Prezident **Heydər Əliyev** xoş sözlərə görə qonağa təşəkkür etdi, nümayəndə heyətinin səfərinin səmərəli olduğunu bildirərək dedi:

- Bu işlər həm məni, həm sizi, həm də görüşdüyümüz insanları sevindirir, Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə yardım edir. Biz hər görüşdə bunun üçün bir addım atırıq. Sizin bu işlə məşğul olmadığınız məni sevindirir.

Siz bu vəzifəyə gələndən Azərbaycana qayğı, diqqət göstərməyinizi görürəm. Bilin ki, bu qayğıya, diqqətə Azərbaycanda yüksək qiymət verirk və sizin bu cür dost münasibətinizi şəxsən mən yüksək qiymətləndirirəm. Dövlət naziri kimi Rəşad Doğrunun ilk dəfə birbaşa Türkiyədən Naxçıvana getdiyini, orada çox işlər gördüyünü də bilirəm və bunu yüksək dəyərləndirirəm.

Dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikasına səfərindən bəhs etdi. Naxçıvandan Türkiyəyə meyvə aparılması üçün müəyyən edilmiş kvotanın az olması barədə orada jurnalistin verdiyi sualı yada salaraq dedi:

- Gərək bizim aramızda kvota olmasın. Körpünü tikmişik ki, xalqımız o tərəfə, bu tərəfə rahat gedib-gəlsin. Mən Naxçıvanda işləyəndə, o körpünün tikilməsində nə qədər zəhmət çəkdiyimi bilirlər. Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl Baş nazir idi. O, çox zəhmət çəkdi. 1992-ci il mayın 28-də, yəni bizim istiqlaliyyət günündə o körpünü təntənə ilə açdıq. Biz ona "Həsrət", "Ümid" körpüsü deyirik. Ondan Naxçıvan əhalisi çox istifadə edir. Çünki bilirsiniz ki, Naxçıvan blokadadadır.

Azərbaycan Prezidenti Naxçıvanın bol, ləzzətli meyvələrinin Bakıya gətirilməsinin çətin olduğunu və bunun Türkiyəyə aparılması üçün daha yaxşı şərait yaradılmasının zəruriliyini söyləyərək bildirdi ki, Naxçıvana yardım etmək lazımdır. Çünki Naxçıvan qapalıdır. Mən sizin yardımınızı qiymətləndirirəm. Oradan elektrik enerjisi verirsiniz, başqa yardımlar edirsiniz. Amma bu məsələyə də baxın.

Prezident Heydər Əliyev cənab Rəşad Doğrunun türkdilli dövlətlər üzrə Dövlət naziri vəzifəsində işgüzar adam olduğunu vurğuladı və dedi ki, mən təkcə Azərbaycan üçün yox, bütün türkdilli dövlətlər üçün bunun əhəmiyyətini bilirəm. Çünki türkdilli dövlətləri Türkiyənin ətrafında daha da yaxınlaşdırmaq lazımdır. Bu da şəxsiyyətdən çox asılıdır.

Rəşad Doğru Naxçıvandan gediş-gəlişin asanlaşdırılması üçün çox işlər gördüyünü, bəzi problemlərin aradan qaldırıldığını bildirdi, adambaşına məhsulların aparılmasının 200 kiloqramdan 400 kiloqrama çatdırılacağını söylədi.

Türkiyənin Dövlət naziri Rəşad Doğru Prezident Heydər Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli Pənab Prezident!

Tarsus şəhəri yaxınlığında avtomobil qəzası nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 19 avqust 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MƏRMƏRƏ QRUPU VƏQFİNİN NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 23-də Prezident sarayında Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suvərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları salamlayaraq dedi:

- Mən sizə təşəkkür edirəm ki, vaxtınızı sərf edib Azərbaycana gəlmisiniz və referendumun gedişini müşahidə edəcəksiniz. Sizin Azərbaycanla, xüsusilə mənimlə çox ya-

xın dostluq əlaqələriniz, yaqin ki, sizi bu dəfə Azərbaycana gətirən əsas səbəblərdən biridir. Mən buna görə sizə təşəkkür edirəm, çox sağ olun. Ancaq eyni zamanda, siz mənim çox yaxın dostlarımsınız. Şəxsən çox məmnunam ki, mənə yenə də dostlarımla görüşmək nəsib oldu.

Mən Türkiyədə olanda bəzən görüşürdük. Azərbaycana gəlirsiniz, çox sağ olun, görüşürük. Bunların hamısı lazımdır. Çünki dostlar görüşməlidir, danışmalıdır. Görüşmək, danışmaq olmasa, bəzən dostluq əlaqələri də soyuyur. Düzdür, bizim əlaqələrimiz soyumaz, çünki dostluğumuz böyükdür, dərindir. Doğrudur, bəzi böyük tədbirlərinizdə iştirak etməyə məni dəvət edirsiniz, lakin vaxt olmur, gələ bilmirəm. Amma gərək bir dəfə xüsusi olaraq sizin vəqflə bağlı Türkiyəyə, İstanbula gələm. Axı, mən sizin vəqfin fəxri başqanlarından biriyəm. Ona görə gəlməliyəm, bu, mənim borcumdur. Amma siz də görürsünüz ki, bizim işlərimiz olduqca çoxdur, ona görə də imkan edə bilmirəm. Bir müddət əvvəl mən İstanbulda, Qara Dəniz İş Birliyinin toplantısında oldum, sizinlə görüşdüm. Amma vəqfi ziyafət etməyə imkanım olmadı. Çünki Ankaraya getdim. Orada bir çox işlər vardı, oradan da Qarsa getdim, yəqin ki, eşitdiniz. Qarsdakı Qafqaz Universiteti mənə Fəxri doktor adı veribdir.

Düzdür, Türkiyədə bir çox universitetlər mənə Fəxri doktor adı veriblər, hələ almamışam. Ancaq Qarsa getdim, çünki Qars mənim üçün çox əhəmiyyətli bir yerdir. Mən Naxçıvanda yaşayanda Türkiyəyə İğdırdan, Qarsdan keçib gəlirdim. Qarsın Azərbaycanla əlaqələrdə də xüsusi yeri var. Bilirsiniz ki, məşhur Qars müqaviləsi var, 1921-ci ilin oktyabr ayında Qarsda Rusiya, Azərbaycan, Türkiyə, Gürcüstan, bir də Ermənistan tərəfindən imzalanıbdır. Bu müqavilə Azərbaycan, Ermənistan, Türkiyə sərhədlərinin müəyyən edilməsi haqqındadır. O vaxt ermənilər iddia edirdilər ki, Türkiyənin şərqində olan torpaqlar guya onlara məxsusdur. Bizim bəzi başqa torpaqlara da iddia irəli sürürdülər. Bu baxımdan Qars müqaviləsi çox əhəmiyyətli bir sənəddir. Bunu çoxları unutmuşdu tarixdə qalmışdı. Amma mən Naxçıvanda işləyəndə bu bölgənin problemləri ilə məşğul oldum, Naxçıvanı qorumaq lazım idi. Mən bilirdim ki, Qars anlaşması var. 1992-ci ilin fevral ayında Ankaraya gəldim. Orada Qars anlaşması haqqında mətbuata geniş məlumat verdim. Beləliklə, bu anlaşma yenidən gündəliyə çıxdı.

Xatirimdədir ki, Moskvada buna çox mənfi reaksiya verdilər. Naxçıvanda bir dəfə televiziyaya baxırdım. Moskvadan Qars müqaviləsinə aid bir veriliş verdilər. Axırda isə bildirdilər ki, bu müqavilənin heç bir hüquqi qüvvəsi yoxdur, hətta Qars müqaviləsinin mətnini elə studiyadaca yandırdılar. Amma onu yandırmaq mümkün deyil, bu müqavilə o vaxt həmin dövlətlər tərəfindən imzalanıb, hər dövlət tərəfindən ratifikasiya olunub və ümumdünya, beynəlxalq təşkilatlarda qeydə alınıbdır, onu pozmaq mümkün deyildir. Səmimi qəbula görə minnətdarlıq edən Mərmərə Qrupu Vəqfinin sədri Akkan Suvar nümayəndə heyətinin üzvlərini dövlətimizin başçısına təqdim edərək dedi:

. Möhtərəm Cümhurbaşkanımız, yenidən Sizin hüzurunuzda olduğumuz və fəxri sədrimiz kimi Sizə vəqfimizin ötən ilki fəaliyyəti barədə hesabat təqdim etdiyimiz üçün böyük sevinc duyuruq. Sözlərimə başlamazdan əvvəl, Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəlin salamını və ehtiramını Sizə çatdırmaqdan bəxtiyarlıq duyduğumu bildirmək istəyirəm. Buraya qədəm qoyduğumuz ilk andan gördük ki, sanki köhnə Bakı yox olmuş, yeni Bakı yaranmışdır. Tərtəmiz küçələri və işıqları ilə şəhər tanınmayacaq dərəcədə dəyişmiş, son dərəcə gözəlləşmişdir. Doğrudur, Bakını tanıya bilmədik. Sizin hüzurunuzda Bakının bələdiyyə rəisini ürəkdən təbrik edirik.

Dəyərli Cümhurbaşkanımız, Siz böyük bir iş gördünüz və Azərbaycan televiziyasının Türkiyəyə yayımını təşkil etdiniz. Bu, bizim Azərbaycanla olan əlaqələrimizin qüvvətlənməsinə, artmasına böyük təkan verir. Türkiyədə, demək olar, hamı hər axşam Azərbaycan televiziyasına baxır. Bu barədə dost-tanışdan çox eşitmişəm. Sizə deyim ki, bu, çox gözəl bir iş oldu. Nəticədə həm Sizi televiziyada görmək, həm də on il bundan əvvəlki hadisələrin ildönümlərini seyr etmək türk ziyalılarına çox ləzzət verir.

Buraya gəlişimin bir səbəbi də keçiriləcək referendumla bağlıdır. Dünyada çox az ölkə var ki, Konstitusiyada dəyişiklik aparmaq üçün öz xalqının ayağına gedir. Məsələn, bizim ölkəmizdə belə şeyləri məclisdə həll edirlər.

Parlament üzvləri əl qaldırmaqla Konstitusiyada istənilən dəyişikliyi edə bilərlər. Ancaq Siz bunun ən gözəlini həyata keçirirsiniz. Bizdən fərqli olaraq, bunu xalqın müzakirəsinə verirsiniz. Bu münasibətlə biz Zati-alinizin şəxsində bütün azərbaycanlı qardaşlarımızı təbrik edirik. Bu, demokratiya üçün çox böyük xeyirxahlıq, insan haqlarına böyük hörmət nümunəsidir.

Vəqfin sədri Azərbaycan Prezidentinin Türkiyəyə səfərinin çox uğurla keçdiyini xatırladaraq vurğuladı ki, Siz Türkiyədə çox az dövlət başçısına göstərilən bir səmimiyyət, hörmət və qardaşlıq duyğuları ilə qarşılandınız. Bu, türk millətinin həm Zati-alinizə olan məhəbbətinin, həm də qardaş Azərbaycana bəslədiyi duyğuların parlaq təzahürü idi. Başqa bir hadisə də Türkiyədə çox böyük əks-səda doğurdu. Türkiyə futbol komandası dünya birinciliyində üçüncü yer qazandıqda, Türkiyə Prezidenti və Baş naziri də daxil olmaqla,- bunu tam səmimiyyətlə söyləyirəm,- heç

kimdən səs-səmir çıxmazdan əvvəl Siz türk millətinə təbrik göndərirsiniz. O, Türkiyə televiziyaları tərəfindən dəfələrlə göstərilirdi. Xüsusilə, "qardaşım Əhməd Necdət Sezər" kəlmələri ilə başlayan və "bu zəfər yalnız Türkiyənin deyil, bütün türk dünyasınındır" sözləri ilə davam edən təbrikiniz Türkiyədə çox böyük reaksiya doğurdu.

Cənab Akkan Suvar vəqfin fəaliyyətindən söhbət açaraq dedi ki, ötən il biz BMT-nin keçirdiyi toplantılarda Türkiyəni qeyri-hökumət təşkilatı kimi təmsil etmişik. Keçən il Özbəkistanda keçirilən Prezident seçkilərində mən BMT tərəfindən müşahidəçi kimi iştirak etdim. 2001-ci ildə 10 nəfərlik bir heyətlə Sofiyada səfərdə olduq. Bolqarıstanın Prezidenti, Baş naziri, parlamentin sədri, Xarici İşlər naziri, habelə keçmiş Prezident Jelyu Jelev tərəfindən qəbul edildik. Bütün bu görüşlərdə Zati-alinizin bizim vəqfin fəxri sədri olduğunu vurğuladıq.

Bundan əlavə, 2001-ci ildə 4-cü Avrasiya İqtisadi Zirvəsini və Dünya İdarəçi Qadınlar Forumunu uğurla keçirdik. Bu mühüm tədbirlərə göndərdiyiniz təbrik məktublarınıza görə Sizə minnətdarlığımızı bildirirəm.

Mərmərə Qrupu Vəqfi keçən il Türkiyənin ən nüfuzlu 125 qurumu ilə birlikdə "Avropa Birliyinə -bəli!" kampaniyasını təşkil etmişdir. Bu kampaniya çox böyük uğurla başa çatmış və bildiyiniz kimi, Türkiyə Böyük Millət Məclisi Avropa Birliyinə üzv olmaq üçün lazım olan bütün qadınları təsdiq etmişdir. Vəqfimiz Türkiyədəki mühüm bir tədbirdə də təşəbbüskar kimi çıxış etmişdir. Ölkənin ən nüfuzlu qurumları ilə birlikdə Türkiyə Etika Dərnəyini yaratmışıq. Bu dərnək hazırda və gələcəkdə ölkəmizdə mühüm məsələlər barədə doğru və dürüst qərarlar qəbul olunmasına nəzarət edəcək bir mexanizm rolunu oynayacaqdır.

Müntəzəm olaraq aylıq toplantılarımızı da keçirmişik. Bu toplantılarda Süleyman Dəmirəl, Tansu Çillər, Məsud Yılmaz, Rusiya və Çin səfirləri, hərbçilər, Milli Təhlükəsizlik Şurasının üzvləri, Konstitusiya Məhkəməsinin sədri, tanınmış qurumların rəhbərləri iştirak etmişlər.

Bu il sentyabrın 26-28-də İstanbulda keçirəcəyimiz 5-ci Avrasiya İqtisadi Zirvəsinə Zati-alinizin təbrik məktubu göndərəcəyinə, yüksək səviyyəli Azərbaycan nümayəndə heyətinin bu tədbirdə iştirak edəcəyinə ümid edirik. Bundan başqa, oktyabrın 17-dən 19-dək keçiriləcək "Türkiyə və qonşu ölkələrin qadın parlament üzvlərinin sülh və əməkdaşlıq konfransı"da yüksək səviyyəli nümayəndə heyətinin iştirakını da ürəkdən arzulayırıq.

Vəqfin sədri daha sonra dedi: Böyük Atatürkün latın əlifbasını qəbul etmək barədə 9 avqust 1928-ci il tarixli qərarının və Zati-alinizin Azərbaycanda latın əlifbasına keçmək haqqında 9 avqust 2001-ci il tarixli fərmanının xoş təsadüf nəticəsində eyni günə düşməsi münasibətilə idarə heyətimizin Azərbaycandan gələn deputatlarla iyunun 15-də İstanbulda keçirdiyi birgə iclasın qərarına əsasən, Siz Azərbaycana və türk dünyasına bu günədək bacarıqla rəhbərlik etdiyinizə görə yekdilliklə 2002-ci ilin "Baş müəllim Atatürk" mükafatına layiq görülmüsünüz.

Sizi təbrik edirik. Latın əlifbası yolunda atdığınız bu böyük addım münasibətilə Sizə və şəxsinizdə azərbaycanlı qardaşlarımıza bir daha təbriklərimizi yetirir, mükafatı qəbul etməyinizi xahiş edirik.

Bu, İstanbuldakı məşhur "Yıldız Porselen"də əllə hazırlanmışdır. Kənarları qızıl işləməlidir. Burada "Baş müəllim Atatürk ödülü" sözləri yazılmışdır.

Prezident **Heydər Əliyev** vəqfin sədrinə təşəkkür edərək dedi: Vəqfin işləri haqqında verdiyiniz məlumat məni çox sevindirdi. Türkiyədə vəqflər çoxdur, hər kəs vəqf yarada bilər, ona görə də bəzən başa düşmək olmur ki, bu necə, böyük, dəyərli vəfdir, yoxsa adi bir vəqfidir.

Sizinlə İstanbulda tanış olanda məni öz vəqfinizə dəvət etdiniz. Böyük bir mərasim keçdi, nitq söylədik, ziyafət də verdiniz. Orada çox adam var idi, mən onda hiss etdim ki, sizin vəqfiniz, həqiqətən, çox dəyərli işlər görmüşdür, Türkiyədə böyük hörmətə malik olan vəqfdir. O vaxt siz məni fəxri sədr seçdiniz və bundan çox məmnun oldum. Son dövrlərdə, xüsusən də keçən il gördüyünüz işlər haqqında verdiyiniz məlumat fəxri sədri olduğum bu vəqfin fəaliyyətinə məndə böyük ehtiram yaratdı. Çünki, doğrudan da, siz böyük işlər görürsünüz. Bütün bunlar məni çox sevindirir. Mən arzu edirəm ki, vəqfiniz bundan sonra daha da genişlənsin, yalnız Türkiyədə deyil, bütün dünyada fəaliyyətini genişləndirsin. Türkiyə Cümhuriyyətinə, xalqına fayda versin və Türkiyə ilə Azərbaycanın dostluq və qardaşlıq əlaqələrinin inkişafına yeni-yeni töhfələr versin.

Mənim sizin vəqfin fəxri sədri seçilməyim, ilk növbədə, Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi və genişləndirilməsi üçün yeni bir vasitədir.

Mən 9 ildir Azərbaycanın Prezidentiyəm, bu müddətdə Türkiyə ilə əlaqələrimiz çox inkişaf edibdir. Bu, həm Azərbaycan xalqının iradəsidir, həm də Prezident kimi mənim iradəmdir. Mən bu xətti bundan sonra da aparacağam.

Biz bundan sonra da əlaqələrimizin daha da canlı olması üçün yeni-yeni imkanlar axtarıb tapmalıyıq. Çünki dünyada çox böyük dəyişikliklər əmələ gəlir, hər ay, hər il dəyişir. Biz bütün bu dəyişikliklərlə ayaqlaşmalıyıq.

Siz mənə "Baş müəllim Atatürk" mükafatını verdiniz. Bu, böyük bir mükafatdır. Siz bilirsiniz ki, mən Atatürk adına Beynəlxalq Sülh Mükafatı laureatıyam. Onu mənə Ankarada təqdim etdilər. İndi isə siz məni baş müəllim adlandırırsınız. Mən bunu

məmnuniyyətlə qəbul edirəm, çünki Atatürkün ideyalarını yaymaq, təbliğ etmək və xalqımıza çatdırmaq, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm. Bu, bir siyasi xadim, lider və Prezident kimi mənim fəaliyyətimdə çox mühüm yer tutur. Təsadüfi deyil ki, mən Azərbaycanda Atatürk Mərkəzi yaratdım. Siz bunu bilirsiniz, orada böyük işlər görüləcəkdir.

Türkiyə Cümhuriyyətinin yaradıcısı Atatürk elə bir şəxsiyyətdir ki, onun haqqında nə qədər danışsan, yenə də azdır. Atatürkün həyatını, fəaliyyətini daim öyrənmək lazımdır. Bizdəki Atatürk Mərkəzi bu işləri də görəcəkdir. Atatürkün indiyə qədər Azərbaycanla əlaqədar dediyi sözləri, gördüyü işləri, naməlum qalan cəhətləri aşkara çıxaracaqdır.

Belə çıxır ki, mən də bu sahədə öyrətmənlik, müəllimlik etməliyəm. Baş müəllim kimi, gərək başqa müəllimlərə də öyrədim ki, Atatürkün ideyalarını necə həyata keçirmək lazımdır. Mənə təqdim etdiyiniz bu hədiyyə də çox qiymətlidir. O mənada yox ki, bunun müəyyən maddi dəyəri var. O mənada ki, siz Azərbaycanın cümhurbaşkanı kimi məni Atatürklə bir yerdə təsvir edibsiniz və gözəl ornament içində göstəribsiniz.

Mən sizə təşəkkür edirəm. Düzdür, mənim Atatürklə yan-yana şəklim olmayıbdır. Çünki mən Atatürkün yanında olmamışam, özüm də öz şəklimi Atatürkün şəklinin yanına qoya bilmərəm. Amma siz bunu etmisiniz. Çox təşəkkür edirəm.

Bir sözlə, mən Mərmərə Qrupu Vəqfinin fəaliyyətindən çox razıyam. Gördüyünüz işləri çox yüksək qiymətləndirirəm. Güman edirəm ki, bundan sonra daha böyük işlər görəcəksiniz. Mən vəqfin fəxri sədri olmağımdan iftixar duyuram.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev avqustun 28-də Prezident sarayında Türkiyənin dənizçilik məsələləri üzrə Dövlət naziri Ramazan Mirzəoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev dövlət nazirini və onu müşayiət edən şəxsləri səmimiyyətlə salamlayaraq dedi ki, Türkiyənin hər bir nümayəndəsinin Azərbaycana gəlməsi bizim üçün çox əhəmiyyətlidir. Hökumət üzvlərinin gəlməsi isə təbiidir ki, ölkələrimiz, dövlətlərimiz, hökumətlərimiz arasında əlaqələri daha da inkişaf etdirir.

Türkiyə böyük gəmiçilik ölkəsidir. Çünki Türkiyənin, demək olar hər tərəfi dənizdir, okeandır. Azərbaycan Xəzər dənizində gəmiçilikl həmişə məşğul olubdur, Ancaq Xəzə qapalı dənizdir. Sonralar Xəzər dənizindən Volqa-Don kanalı ilə Qara dənizə, başqa dənizlərə çıxış olubdur

Bizim gəmilərin də bir qismi elə Qara dənizdə, yaxud da başqa dənizlərdə daha çox üzür, nəinki Xəzərdə. Çünki burada onların daşıması üçün o qədər də yük yoxdur.

Azərbaycan gəmiləri Türkiyənin limanlarından istifadə edir. Ona görə də bu sahədə də əməkdaşlığımızı inkişaf etdirmək lazımdır.

Səmimi qəbula görə minnətdarlıq edən Ramazan Mirzəoğlu bu günlərdə keçirilmiş referendumun Azərbaycan xalqı üçün uğurlu olmasını, faydalı nəticələr verməsini arzulayaraq dedi ki, Bakıda olarkən dənizçilik sahəsində əməkdaşlıq məsələləri barədə Baş nazirin müavini Abid Şərifovla, Nəqliyyat naziri Ziya Məmmədovla, Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirovla çox faydalı müzakirələr apardıq. Sizin gəmilərin bizim limanlardan istifadə etməsi, təmir işlərinin İstanbuldakı Tuzla tərsanəsində həyata keçirilməsi haqqında yekdil qərara gəldik. Bakı çox əhəmiyyətli limandır. Sizin arzu edəcəyiniz təqdirdə, onun genişlənməsi işlərinə kömək edə bilərik. Bizim fikrimizcə, bu, həm Azərbaycana, həm də Türkiyəyə çox xeyir verə bilər.

Biz Türkiyə olaraq, Sizin belə bir fikrinizə çox böyük əhəmiyyət veririk ki, Xəzər dənizi qapalı hövzə olsa da, onun Volqa-Don kanalı vasitəsilə bütün dünyaya çıxışı vardır. 1994-cü ilə qədər bu yoldan fəal şəkildə istifadə edilmiş, daha sonra bir qədər zəifləmişdir. Qarşıdakı illərdə Türkiyə Xəzər dənizi vasitəsilə ildə 2 milyon ton buğda, pambıq, metal daşıyacaqdır. Həmin yolu bağlamaq beynəlxalq hüquq normalarına ziddir. Bu barədə biz Rusiya ilə müzakirələr aparacağıq. Rusiyanın bütün gəmiləri bizim Qara dənizdəki və Mərmərə dənizindəki boğazlardan keçir. Türkiyə limanlarından istifadə edir, Volqa-Don kanalı da eyni şəkildə bütün dövlətlərin gəmilərinə, ilk növbədə də Xəzər hövzəsi ölkələrinin gəmilərinə açıq olmalıdır. Bu su yolunu bağlamaq haqsızlıqdır. Bunu qəbul etmək mümkün deyildir. Ona görə də Türkiyə bu sahədə lazımi tədbirləri görəcəkdir.

Dövlət naziri daha sonra vurğuladı ki, Türkiyə Azərbaycanın işğal olunmuş rayonlarının dərhal boşaldılmasını, qaçqınların öz yurd-yuvalarına qayıtmasını tələb edir. Biz Azərbaycanın ərazi bütövlüyünün qorunmasına böyük əhəmiyyət veririk və bunun sülh yolu ilə həyata keçirilməsini arzulayırıq.

Bütün bunlarla yanaşı, Türkiyə ilə Azərbaycan arasında mədəni və iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inkişaf etdirilməsi zəruridir və bu sahədə Sizin apardığımız siyasət bizi son dərəcə məmnun edir.

Prezident Heydər Əliyev bildirdi ki, Volqa-Don kanalı ilə Xəzər dənizindən Qara dənizə çıxış bizim üçün çox əhəmiyyətlidir. 1994-cü ilə qədər bu sahədə heç bir problem olmayıbdır. Sonra Rusiya bu rejimi çox şərtləşdirdi. Rusiya indi bir sıra şərtlər irəli sürür.

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Başirov məlumat verdi ki, biz üç ay əvvəldən Rusiya hökuməti sədrinin adına teleqram göndəririk. Bundan sonra onlar gəmilərin adları göstərilməklə xüsusi cədvəl üzrə buraxılmasına icazə verirlər ki, bu da ildə 10 gəmidən artıq olmur. Xəzərdə İranın cəmi 4, Türkmənistanın 3 yük gəmisi var. Lakin onlar Qara dənizə çıxa bilmirlər.

Qazaxların hələlik yük tankerləri yoxdur, almaq fikrindədirlər. Rusiya Həştərxan limanından 6 yük gəmisini Dağıstanın balansına keçiribdir. Hazırda Mahaçqaladan İrana yük daşıyırlar. İndi onlar Ukraynadan alınmış 100 min ton metalı İrana daşımaqla məşğuldurlar. Bu yüklər yalnız Rusiyanın gəmiləri ilə daşınır. Bizim gəmilərə yük vermirlər.

Cənab Ramazan Mirzəoğlu xatırlatdı ki, Türkiyənin boğazlarından, on milyon insanın yaşadığı İstanbuldan Rusiyanın 150 min tonluq tankerləri keçir. Bizim buna heç bir etirazımız yoxdur. Amma eyni şəkildə Türkiyə gəmiləri də Xəzər dənizinə gəlməlidir. Bu məsələdə ədalətli olmaq lazımdır. Bu birtərəfli ola bilməz. Biz bunu tələb edəcəyik, onlarla danışıq aparacağıq. Bunu Xəzər hövzəsi ölkələri - Azərbaycan, Qazaxıstan, Türkmənistan da etməlidir.

Prezident Heydər Əliyev dedi ki, o biri ölkələrin gəmiləri yoxdur, Xəzərdəki gəmilərin 90 faizi Azərbaycanındır. Yükləri Azərbaycan gəmiləri daşıyıbdır. Yəni gəmiçilik, əsasən, Azərbaycanda olubdur. Hətta Həştərxanda da o qədər olmayıbdır.

İndi vəziyyət dəyişibdir. Qonşu ölkələr də gəmilər alırlar. Ancaq gərək nə qədər gəmi alsınlar ki, onların donanması Azərbaycanınkı qədər olsun. Biz onların gəmilərinin də yük daşımasına etiraz etmirik. Hamı Volqa-Don kanalından istifadə etməlidir. Buna məhdudiyyət qoymaq olmaz.

Referendumla bağlı təbriklərinizə görə sizə çox təşəkkür edirəm. Bu, çox əhəmiyyətli bir tədbir idi. Çünki biz Konstitusiyamızda dəyişiklikləri ancaq referendum vasitəsilə həyata keçiririk. Bunu Milli Məclisdə edə bilmərik. Referendumu keçirdik, xalq da bizi dəstəkləndi. Referenduma çıxarılan məsələləri həll etdik. Mən də bundan çox məmnunam. Xalq bir daha Azərbaycanın iqtidarına öz münasibətini, öz etibarını göstərmiş oldu.

Dağlıq Qarabağ məsələlərinə gəlincə, Türkiyə həmişə bu işdə bizimlə bərabərdir. Biz də çalışırıq ki, münaqişəni sülh yolu ilə həll edək. İşğal olunmuş torpaqlar azad edilsin. Bir milyondan artıq insanımız qaçqın-köçkün vəziyyətindədir, onlar öz yerlərinə qayıtsınlar. Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Biz bu işlə ciddi şəkildə məşğuluq. Bilirsiniz ki, mən avqustun 14-də Ermənistan - Azərbaycan sərhədində, Naxçıvan bölgəsində Ermənistan Prezidenti Koçaryanla görüşdüm. Biz 4 saat söhbət etdik, danışıqlar apardıq. Danışıqları davam etdirmək

lazımdır. Münaqişəni sülh yolu ilə həll etmək o qədər də asan deyil, amma mümkündür. Biz bu danışıqları aparırıq və bundan sonra da aparacağıq. Mən də məmnunam ki, Türkiyə bu məsələlərdə Azərbaycanın mövqeyini müdafiə edir, bizimlə birlikdədir, Azərbaycanı dəstəkləyir. Buna görə də biz həmişə Türkiyəyə minnətdar olduğumuzu bildiririk.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 5-də Prezident sarayında Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviközü qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev səfiri səmimiyyətlə salamlayaraq hal-əhval tutdu. Səfirin məzuniyyətdə olduğunu bildiyini söyləyən dövlətimizin başçısı ona bildirdi ki, mən isə məzuniyyətə çıxa bilmirəm, doqquz ildir ki məzuniyyətsiz işləyirəm.

Bilirəm ki, ölkənizdə erkən seçkilərə hazırlıq gedir. Arzu edirəm ki, seçkilər yaxşı nəticələr versin. Türkiyədə güclü bir hökumət yaransın.

Səmimi qəbul üçün təşəkkür edən Əhməd Ünal Çeviköz dedi ki, hörmətli Cümhurbaşkanım, bildiyiniz kimi, Böyük Millət Məclisi noyabrın 3-də Türkiyədə parlament seçkiləri keçirilməsi barədə qərar vermişdir. Məclis uzun müzakirələrdən sonra bəzi qanunlar da qəbul etmişdir. Bu, fövqəladə əhəmiyyətli hadisə, Türkiyənin Avropa Birliyinə üzvlüyünə qəbul məsələsi barədə müzakirələr başlanandan bəri atılan önəmli addımlardır. Eyni zamanda biz həmişə vurğulayırıq ki, atılan bu addımlar, qəbul olunan qanunlar Türkiyənin daha müasir mədəniyyətlər səviyyəsinə qalxması üçün vətəndaşlarımızın daha çağdaş, daha demokratik yaşamaları üçün görülmüş tədbirlərdir. Bunları Avropa Birliyinə üzv olmaq üçün etmirik.

Noyabrın 3-dəki parlament seçkilərindən sonra Türkiyə Cümhuriyyətinin 58-ci hökuməti qurulacaqdır. Mən məzuniyyətdə olduğum zaman Azərbaycanda avqustun 24-də keçirilən referendumun nəticələri açıqlandı. Bu referendum ilə Azərbaycanın Konstitusiyasında edilən dəyişikliklərin ölkəniz üçün xeyirli olmasını arzulayıram.

Hörmətli Cümhurbaşkanım, Azərbaycanın, Qafqazın və bütün bölgənin ən önəmli layihəsi olan "Əsrin müqaviləsi" ilə gündəliyə çıxardığımız Bakı - Tbilisi - Ceyhan neft ixrac boru xəttinin təməlinin qoyulması mərasimi olacaqdır. Sizin dəvətinizi hörmətli cümhurbaşkanımıza çatdırdım.

Bilirsiniz ki, hazırda Cənubi Afrika Respublikasında keçirilən zirvə toplantısı ilə əlaqədar hörmətli Əhməd Necdət Sezər Türkiyədə deyildir. O bu günlərdə Türkiyəyə dönəcəkdir. Hörmətli Cümhurbaşkanımızın və nümayəndə heyətimizin Bakıya gəl-

məsinin vaxtı tezliklə müəyyən ediləcəkdir. Bu dəvət üçün Sizə çox təşəkkür edirəm. Həqiqətən, sentyabrın 18-də keçiriləcək təməlqoyma mərasimi, Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir-birinə daha da bağlayacaq boru xətti bütün Qafqaz üçün çox əhəmiyyətli addım olacaqdır.

Daha sonra diplomat oktyabrın 14-də İstanbulda EKO təşkilatının zirvə toplantısının keçirildiyini vurğuladı, öz ölkəsinin rəhbərinin dəvətini Prezident Heydər Əliyevə çatdırdı.

Prezident Heydər Əliyev səfirə təşəkkürünü bildirərək dedi ki, mən çox arzu edirəm, Türkiyədə seçkilər çox uğurlu keçsin və Türkiyənin vətəndaşları güclü bir hökumətin yaranmasına öz səsləri ilə kömək etsinlər. Güman edirəm, belə də olacaqdır.

Biz, nəhayət, Bakı - Tbilisi - Ceyhan boru xəttinin təməlini qoyacağıq. Mən hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezərə məktub göndərdim və telefonla da danışdım. O da çox məmnun oldu və bildirdi ki, mütləq gələcək, bu işdə iştirak edəcəkdir. Bu, təkcə bizim işimiz deyil, üç ölkənin işidir. Düzdür, Azərbaycan bunun təməlini qoyandır. Amma bu boru xətti üç ölkəni - Azərbaycan, Gürcüstan və Türkiyəni böyük bir məsafədə, təxminən iki min kilometrlik məsafədə bir-birinə bağlayan kəmərdir. Bilirsiniz ki, biz bu barədə nə qədər çox problemlərlə rastlaşdıq və bir çox problemləri həll etdik.

Bakı - Ceyhanın bir hissəsini Azərbaycan maliyyələşdirir, bir hissəsini də şirkətlərin özləri maliyyələşdirəcəkdir. Buna mane olmaq istəyənlər də var. Bilirsiniz ki, Cənubi Afrikada keçirilən sammitdə Bakı - Ceyhan layihəsinin əleyhinə çıxışlar olubdur. Qəzetlər bunu tez götürüb hər yerdə dərc ediblər. Ancaq heç kəs indiyə qədər bizə mane ola bilməyib, bundan sonra da mane ola bilməyəcəkdir. Biz bunu edəcəyik və ayın 18-də bir yerdə kəmərin təməlini qoyacağıq. Mənim buna heç bir şübhəm yoxdur. Təbiidir ki, bu, böyük hadisə olacaqdır və boru xətti tikilməyə başlayacaqdır.

Ondan sonra biz burada bir mərasim də keçirəcəyik. "Azəri", "Çıraq", "Günəşli" yataqlarının istismar olunmasının ikinci fazasının başlanması haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə konsorsium arasında anlaşma imzalanacaqdır. Hesab edirəm, bu da çox mühüm anlaşmadır. Çünki ikinci fazanın başlanması neftin hasilatının güclü artması məsələsidir. Neft hasilatı artmasa, boru boş qalacaqdır.

Ona görə bu da çox mühüm hadisədir. Güman edirəm, bizim Dövlət Neft Şirkəti və konsorsium üç Prezidentin hüzurunda bunu da edəcəklər. Bu tədbirləri bir yerdə keçirəcəyik. Çox məmnunam ki, üç Prezident yenə də bir araya gələcək, görüşəcəyik, bir də söhbət edəcəyik. Bunun da çox böyük əhəmiyyəti vardır.

Bizim başqa işlərimizin hamısı normal gedir. Mən oktyabr ayında EKO-nun toplantısına gələcəyəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sentyabrın 10-da Prezident sarayında Türk Sənayeçi və İş Adamları Vəqfinin (TÜSİAV) sədri Vəli Sarıtoprağın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Sizin Azərbaycana gəlişinizdən çox məmnunam. Proqramınıza baxdım, burada bir çox görüşlər keçirirsiniz və keçirmək istəyirsiniz. Təhsil Nazirliyində, Milli Elmlər Akademiyasında və başqa yerlərdə də görüşlər keçirmək istəyirsiniz. Bizim Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında da maraqlı işlər var.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə minnətdarlığını bildirən və bu görüşdən böyük şərəf duyduğunu vurğulayan cənab **Vəli Sarıtorpaq** dedi:

- Möhtərəm Cümhurbaşkanım. Sizinlə son dəfə iyunun 27-də Ankarada görüşdük. Siz orada çox gözəl bir nitq söylədiniz. Türk Sənayeçi və İş Adamları Vəqfinin bütün üzvləri Sizə hörmət və ehtiramlarını, salamlarını göndərdilər. Sizə cansağlığı, uzun ömür diləyirlər. Qardaş Azərbaycan xalqına da salamlarını çatdırmağı mənə həvalə etdilər.

Biz Sizə minnətdarıq, Sizi sevirik. Sizin cızdığımız yolla biz də getməyə çalışırıq. Sizin səyinizlə Azərbaycan ilə Türkiyə arasında əlaqələr gündən-günə möhkəmlənir.

Siz bizim çox sevdiyimiz dövlət adamısınız, türk dünyasının öndəri, böyüyüsünüz. Siz Sovet İttifaqının Siyasi Bürosuna qədər yüksələn yeganə türk insanısınız. Həyatınız daim mücadilə içində keçmişdir. Sizə hörmətimiz, sevgimiz sonsuzdur. Biz, türk iş adamları Sizə dərin minnətdarıq. Bizə şərait yaradırsınız, yardımçı olursunuz.

Türk Sənayeçi və İş Adamları Vəqfinin 60 nəfərlik idarə heyətinin səs çoxluğu ilə Zati-alinizi dörd minə yaxın üzvü olan vəqfimizin fəxri sədri seçdik. Digər fəxri sədrimiz Sizin yaxın dostunuz hörmətli Süleyman Dəmirəldir. İcazənizlə, fəxri sədrlik plaketini Sizə təqdim edim. Allah Sizə uzun ömür versin, Sizi türk dünyasının başının üstündən əskik eləməsin. Bir hədiyyəmiz də var. Onu Sizin yaxın dostunuz İhsan Doğramacı göndəribdir.

Vəli Sarıtorpaq plaketi və İhsan Doğramacının hədiyyəsini dövlətimizin başçısına təqdim etdi.

Prezident Heydər Əliyev qonağa təşəkkür edərək dedi ki, Türk Sənayeçi və İş Adamları Vəqfi, həqiqətən, Türkiyədə çox tanınmış, çox böyük işlər görən bir vəqfdir. Sizin fəaliyyətiniz haqqında mənim məlumatım var. Siz xüsusən təhsil sahəsinə çox fikir verirsiniz, kompüterləşmə işi ilə

də çox məşğulsunuz. Ona görə sizin vəqfə mənim böyük hörmətim var.

Məni üç il ardıcıl olaraq ilin dövlət adamı seçmisiniz. İndi də məni fəxri sədr seçdiniz. Buna görə də təşəkkür edirəm. Mənim haqqımda dediyiniz sözlərə görə, həyatımı, keçmişimdəki mücadilələrimi də yaxşı bildiyinizə və çox düzgün qiymətləndirdiyinizə görə sizə xüsusi təşəkkür edirəm.

Siz Azərbaycanın dostlarısınız, mənim dostlarımsınız. Azərbaycanda sizin həmişə xüsusi yeriniz var və bu səfərinizə görə də çox məmnunam ki, siz vaxtınızı ayırıb Azərbaycana gəlmisiniz. Güman edirəm, Azərbaycanda, Bakıda çox dəyişiklikləri görəcəksiniz. Siz son dəfə Azərbaycanda nə vaxt olmusunuz?

Vəli Sarıtorpaq: - Cənab Prezident, 1992-ci ildə, rəhmətlik Turqut Özal sağ olarkən nümayəndə heyətinin tərkibində gəlmişdim. Sonra burada "Türkiyə - Azərbaycan iqtisadi işbirliyi imkanları" mövzusunda keçirilən toplantıda Ankara iş adamlarının rəhbəri kimi iştirak etdim. Artıq 8 il idi ki, gəlmirdim. Səkkiz ildən sonra bu gün Bakını gəzdim, gördüm, heyran oldum. Azərbaycan, Bakı çox inkişaf etmişdir. Yeni tikilən binalar, görkəmli obyektlər çoxdur. Azərbaycan tamamilə Qərb ölkəsi kimi olmuşdur. Bakıda hər şeyi tapmaq olur. Dünyanın harasında nə varsa, Bakıda da var. Təbiidir ki, bunların hamısı Sizin sayənizdə olmuşdur. Sizin necə çalışdığınızı, işlədiyinizi bilirəm. Siz böyük bir dövlət adamısınız, Azərbaycan üçün böyük bir şanssınız. Allah Sizə uzun ömür versin, Sizi türk dünyasının başı üstündən əskik etməsin.

Mən həm də Naxçıvanın Ankarada fəxri konsuluyam.

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCAN RESPUBLİKASINA I İŞGÜZAR SƏFƏRİ

17-18 sentyabr 2002-ci il

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ölkəmizə işgüzar səfərə gəlmiş Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezəri sentyabrın 17-də Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə təkbətək görüşü oldu.

Ali qonağı hörmətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev onun dəvətini qəbul edərək, Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin tikintisinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün Bakıya səfərə gəldiyinə görə Prezident Əhməd Necdət Sezərə təşəkkürünü bildirdi.

Qardaş ölkənin dövlət başçısının Azərbaycana səfərini yüksək qiymətləndirən respublikamızın Prezidenti Bakı - Tbilisi - Ceyhan kəmərinin tikintisinin başlanması mərasimində birgə iştirak edəcəklərindən məmnunluqla söhbət açdı.

- Prezident Heydər Əliyev "Əsrin müqaviləsi"nin reallaşması çərçivəsində əsas mərhələ olan ixrac boru kəmərinin tikintisinə başlanmasının siyasi, iqtisadi, mədəni, humanitar sahədə xüsusi əhəmiyyət daşıdığını vurğuladı.

Azərbaycana səfərə dəvətə və yüksək qonaqpərliyə görə minnətdarlığını bildirən, 2002-ci ilin iyun ayında İstanbulda və Ankarada Prezident Heydər Əliyev ilə keçirdiyi görüşləri və apardığı danışıqları yüksək qiymətləndirən Prezident Əhməd Necdət Sezər dövlətimizin başçısı ilə yenidən görüşmək imkanından çox məmnun qaldığını söylədi.

Türkiyə Prezidenti Bakı - Tbilisi

- Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılmasında, eləcə də Xəzərin Azərbaycan sektorundakı enerji ehtiyatlarının dünyanın nüfuzlu dövlətlərinin iri neft şirkətləri ilə birgə işlənilməsi, hasil olunan neftin dünya bazarına ixracı sahəsində Prezident Heydər Əliyevin müstəsna xidmətlərini, cəsarətli və qətiyyətli addımlarını yüksək qiymətləndirdi. Cənab Əhməd Necdət Sezər Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin də reallaşacağına əmin olduğunu bildirdi.

Azərbaycan - Türkiyə əməkdaşlığının möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan Prezidentlər bölgədə mövcud olan problemlər barədə geniş fikir mübadiləsi apardılar, qardaş ölkələrimizin bütün məsələlər barədə eyni mövqedə olduqlarını bir daha nəzərə çarpdırdılar.

Ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrinin strateji xarakter daşıdığını, Azərbaycan ilə Türkiyənin qardaşlığının əbədi və sarsılmaz olduğunu bir daha vurğulayan dövlət başçıları bildirdilər ki, hər iki dövlət iqtisadi, siyasi, sosial, mədəni və humanitar sahədə əməkdaşlığın daha da inkişafı üçün öz səylərini əsirgəməməlidir.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə bölgədə vəziyyət və hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə də müzakirələr aparıldı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

Sentyabrın 17-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin və Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin nümayəndə heyətlərinin iştirakı ilə görüşü keçirilmişdir.

Dövlətimizin başçısı **Heydər Əliyev** Türkiyə Prezidentinə və onu müşayiət edən nümayəndə heyətinin üzvlərinə müraciətlə dedi:

- Hörmətli Cümhurbaşkanı!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Qardaş ölkəmiz Türkiyədən Azərbaycana hər dəfə hər bir heyətin gəlməsi bizim üçün böyük hadisədir. Cümhurbaşkanının gəlməsi, onlarla bərabər nümayəndə heyətinin gəlməsi ən böyük hadisədir. Mən buna görə çox təşəkkür edirəm.

Hörmətli Cümhurbaşkanı, təşəkkür edirəm ki, siz mənim dəvətimi qəbul etmisiniz, gəlmisiniz və sizinlə bərabər 8 il bundan öncə başladığımız işin son mərhələsini tamamlayacaq, yəni Bakı - Tbilisi - Ceyhan boru xəttinin inşasının başlanmasını təməlini qoyacağıq. Biz bu işi bir yerdə aparmışıq və 1994-cü ildə müqaviləni imzalayanda orada yazmışdıq ki, Xəzər nefti buradan Türkiyə

yə gedəcəkdir, Ceyhana gedəcəkdir. Gürcüstandan keçib gedəcəkdir.

Bilirsiniz, bu illər bizim problemlərimiz olubdur. Onun əleyhinə çıxanlar, ona mane olmaq istəyənlər olubdur. Ancaq biz bu maneələrin hamısını aşmışıq, bu günə gəlmişik. İndi layihə hazırdır, hər şey hazırdır, sabah təməli bir yerdə qoyacağıq. Ona görə, hesab edirəm ki, bu, Türkiyə üçün də, Azərbaycan üçün də çox böyük bir işdir, böyük bir layihədir və bizim ölkələrimizi birbirinə təkcə iqtisadi cəhətdən yox, siyasi cəhətdən bağlayan bir boru xəttidir. Cənubi Qafqazda təhlükəsizliyin yaranması üçün çox böyük bir amildir. Ona görə bunun mənası təkcə ondan ibarət deyil ki, buradan neft harasa gedəcəkdir. Bu, böyük iqtisadi məsələdir, amma mənası daha da böyükdür.

Hesab edirəm ki, biz başqa işlərdə də, amma xüsusən bu işdə həmişə bir yerdə olmuşuq, bir yerdə çalışmışıq və bir yerdə də bunun təməl daşını atmalıyıq. Biz sonra bunun inşasını Azərbaycanda, Gürcüstanda aparacağıq. Siz də "Botaş" şirkəti vasitəsilə Türkiyədə aparacaqsınız. Gün o gün olacaq ki, 2005-ci ildə kəmər hazır olacaq. Biz gəlib sizinlə ona buradan baxıb, sonra uçub Ceyhana gedəcəyik. Ceyhanda neftin oraya gəlməsini görəcəyik və bayram edəcəyik.

Xoş gəlmisiniz!

Dövlətimizin başçısına minnətdarlıq edən Prezident Əhməd Necdət Sezər dedi:

- Çox hörmətli Cümhurbaşkanı!

İki ildən sonra yenidən Azərbaycanda, Bakıda olmaqdan böyük məmnuniyyət hissi duyuram. Buraya gəldiyiniz andan bizə göstərdiyiniz böyük qonaqpərvərliyə görə öz adımdan və nümayəndə heyəti adından Sizə dərin təşəkkürümü bildirirəm.

Ötən illər ərzində Trabzonda və İstanbulda Sizinlə iki dəfə bir yerdə olduq. Bir az öncə təkbətək görüşdə oktyabrın 14-də İstanbulda keçiriləcək EKO-nun zirvə toplantısında iştirak edəcəyinizi də məmnuniyyətlə öyrəndim. Təxminən bir aydan sonra yenidən bir yerdə olacağıq.

Sizin də qeyd etdiyiniz kimi, istər ölkələrimizin, istərsə də bölgədə yaşayan xalqların sabitliyi və təhlükəsizliyinə böyük kömək olacaq. Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin sabah təməlini qoyacağıq. Uzun illər davam edən bu işin son nöqtəyə çatmasında ən böyük pay sahiblərindən biri Sizin kişiliyiniz, şəxsiyyətinizdir. Bu baxımdan bölgə xalqları bu iqtisadi layihənin həyata keçirilməsində göstərdiyiniz qayğı və dəstəyə görə həmişə Sizə minnətdarlıq hisslərini bildirəcəklər. Buna əmin ola bilərsiniz.

Siz bu böyük layihə barədə "Üç dənizin əfsanəsi" konfransında demişdiniz ki, arzularınız var. Artıq bu, arzu, xəyal deyildir. Çünki Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəməri xəyal olmaqdan çıxdı və artıq gerçəkləşdi. Həqiqətən sabah bunun

real gerçəkliyini gözlərimizlə görəcəyik. İnşallah, bundan sonra digər xəyalların da reallaşması üçün çalışacağıq. Azərbaycan və Türkiyə indi xəyal kimi görünən digər bir layihəni, bir az öncə haqqında söhbət etdiyimiz Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin tikintisini həyata keçirəcəkdir. Bu layihəni də həyata keçirmək üçün hər iki tərəfin böyük fəaliyyət göstərəcəyinə inanıram.

Heydər Əliyev: Təşəkkür edirəm. Hörmətli Cümhurbaşkanı, biz Sizinlə indi təkbətək söhbət etdik, bir çox məsələlər haqqında fikir mübadiləsi apardıq. Həmişə olduğu kimi, bu dəfə də fikirlərimiz eynidir və Türkiyə - Azərbaycan əlaqələri, yaxud bizim bölgədə olan problemlərin hamısı barədə eyni dünyagörüşümüz, eyni baxışlarımız var. Bu da Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin təzahürüdür. Biz bu əlaqələri çox yüksək qiymətləndiririk. Onların bütün sahədə, sosial, mədəni sahədə, humanitar sahədə daim inkişaf etməsi üçün biz öz səylərimizi göstəririk və bundan sonra da göstərəcəyik. Dəfələrlə demişəm - bizim dostluğumuz əbədidir, sarsılmazdır. Bu, belə də olacaqdır. Mən hər dəfə bunu təsdiq edirəm. Çünki zaman keçdikcə kimsə düşünər ki, bəlkə bu, belə deyildir. Ona görə bu, elə bir şeydir ki, bunu ardıcıl surətdə təsdiq etmək lazımdır ki, xalq da bilsin, dünya da bilsin, dövlətlər də bilsin.

Əhməd Neclət Sezər: Hörmətli Cümhurbaşkanı, təbii, ölkələrimiz arasında, iki qardaş ölkə arasında siyasi sahədə heç bir problem yoxdur. Ancaq iqtisadi və ticarət əlaqələri yetərli səviyyədə deyildir. Bunu inkişaf etdirmək məcburiyyətindəyik. Bunu inkişaf etdirmək üçün də hər iki tərəfin müştərək fəaliyyət göstərməsi vacibdir. Mən keçən ilin statistikasına baxdım. 2001-ci ilin ticarət həcmi ilə 2002-ci ilin ticarət həcmi arasında on bir faiz azalma var. Bildiyiniz kimi, Türkiyə iş adamlarının burada qoyduğu sərmayə 23 milyon dollar həcmindədir. Bunun daha da artırılmasını istəyirik, iş adamlarımızı buna çağırırıq. Ancaq iş adamlarımızın xarici sərmayənin təşviqi, vergi, gömrük sistemləri, hətta nəqliyyat və bank sistemində müəyyən sıxıntılı anları vardır. Biz bu sıxıntıların aradan qaldırılması üçün buraya mütəxəssislər göndərib bu sahədə müəyyən işlərə yardımçı ola bilərik.

Heydər Əliyev: Ola bilər. Ancaq demək istəyirəm ki, Bakı - Tbilisi - Ceyhan boru xətti ilə əlaqədar sabah terminalı görəcəyik. Türkiyənin "Tekvem" şirkəti 70 milyon dollarlıq bir müqavilə əldə edibdir. Orada işləyəcəkdir. Digər şeylər də var.

Abid Şərifov (Baş nazirin müşaviri): cənab Prezident, "Şimal" elektrik stansiyasına boru xəttinin tikilməsini də biz Türkiyə şirkətinə vermişik.

Heydər Əliyev: Verilib, nə qədərdir?

Abid Şərifov: Haradasa 50 milyon dollara yaxındır. Amma bilavasitə Sizin göstərişlərinizə istər Naxçıvanda hava limanının yenidən qurulması - təxminən 22-23 milyon dollar həcmində - istərsə də Vayxır Su Elektrik Stansiyası da...

Heydər Əliyev: Türk iş adamlarına verilibdir.

Abid Şərifov: Bəli.

Cənab Cümhurbaşkanı, demək istəyirəm ki, o türk şirkətləri ki Azərbaycanda ihalə ilə pul qazanılır, bu, siz söylədiyiniz rəqəmə girmir. Bakı - Qazıməmməd yolunu da türk şirkəti tikir.

Heydər Əliyev: Mən gördüm, gözəl bir yol çəkilir. Türk şirkəti çəkir. Nə qədərdir, 40 milyon?

Abid Şərifov: Cənab Prezident, 27 milyon dollardan çoxdur.

Heydər Əliyev: Burada 27 milyon dollarlıq yol tikirlər. İndi mənə xatırlatdı. Mən 20 gün bundan öncə Naxçıvanda hava limanının tikilməsinə qərar verdim. Təxminən 20-22 milyon dollar həcmində işi Türkiyənin şirkəti - hansı ki, bizim Bakı hava limanını tikibdir - o görəcəkdir. Bunu tapşırdım. Sonra orada bizim böyük bir çay var, stansiya tikirik. Onun bir hissəsi tikilib, digər hissəsi də tikiləcəkdir. Orada həcm təxminən nə qədərdir?

Abid Şərifov: 22-23 milyon dollar.

Heydər Əliyev: 22-23 milyon. Sən o şirkətə dedin, yoxsa?..

Abid Şərifov: Cənab Prezident, layihə tamamlanıbdır, bu ayın 30-dək hər şey başa çatacaqdır.

Heydər Əliyev: Onu da verdik.

Əhməd Necdət Sezər: Hörmətli Cümhurbaşkanı, mənim demək istədiyim budur ki, xarici sərmayənin təşviqi əsasında vergi, gömrük, nəqliyyat və bank sistemlərində çağdaş iş adamlarının sərmayəsi daha da artacaqdır. Bu çatışmazlığın aradan qaldırılması vəziyyətində türk sərmayəçiləri buraya daha çox gələcəklər. Bunları demək istəyirəm.

Heydər Əliyev: Doğru deyirsiniz, onları etmək lazımdır. Ancaq biz Türkiyənin böyük şirkətlərinə iri layihələr veririk. Kiçik şeylər, gedib bir mağaza açmaq və sairə yox. Bu yaxınlarda bir türk iş adamı Bakıda böyük bir ticarət mərkəzi açdı. Gərək ki, sizin nəzir də gəlmişdi.

Abid Şərifov: Bəli, ticarət mərkəzi açıldı.

Heydər Əliyev: Böyük ticarət mərkəzi açdı. Bilmirəm, orada nə qədər mağaza, filan var. Hörmətli nəziriniz də onun açılışına gəlmişdi. Hətta mənə dedilər ki, Tatlısəs də gəlib orada mahnı oxumuşdur. Mən görməmişəm, amma görənlər deyir ki, çox böyük ticarət mərkəzidir. Bunu da türk iş adamı etdi.

Abid Şərifov: Cənab Prezident, icazənizlə bir məlumatı da Sizin diqqətinizə çatdırardım. Biz hörmətli türkiyəli nazirlə belə bir protokol imzalamışıq ki, iki-üç ay içində Türkiyə tərəfi 5 illik proqram hazırlasın. Biz bunu müvafiq nazirliklərlə razılaşdırdıqdan sonra Sizə təqdim

edəcəyik. Bu, Türkiyə ilə Azərbaycan arasında uzunmüddətli iş proqramıdır. Bunu düşünürük, inşallah, edəcəyik.

Əhməd Necdət Sezər: Hörmətli Cümhurbaşkanı, növbəti görüşlərimizdə danışacağıq. Amma son olaraq demək istəyirəm ki, nəqliyyatçılardan dövlət yol haqqı alınır. İndi Türkiyədən gələn malların doxsan faizini İran maşınları daşıyır. Çünki İran maşınlarından yol haqqı alınmır. Bu sahədə Rusiya və İrana güzəşt mövcuddur. Biz heç nə istəmirik, o güzəşti aradan qaldırın, hər şey yetər. Əgər bu olarsa, bizim yükdaşıyan şirkətlər də bu haqqı tanıyacaqlar.

Heydər Əliyev: Bu problemlər nə qədər olacaqdır? Söylə görüm, nədir bu problem, hər dəfə qaldırılır? Siz nə üçün bunu həll edə bilmirsiniz? Mən başa düşə bilmirəm.

Abid Şərifov: Cənab Prezident, söhbət ondan gedir ki, biz İran yük maşınlarından vergilər tutmurduq. Bu, Naxçıvana gedən bizim yük maşınları üçün problem yaratmamaq məqsədi ilədir. Bir il əvvəl Türkiyə tərəfi bizə öz məsələhətlərini verdi. Mən də Sizə məruzə etdim. Artıq on gün əvvəl Siz o fərmana imza atmısınız. Yəqin ki, oktyabr ayının 1-dən İran tərəfindən də eyni cür vergilər tutulacaqdır.

Siz nəqliyyatla əlaqədar İstanbulda da mənə tapşırmışdınız. Biz orada müvafiq nazirliklə görüş keçirdik. Mən Sizə məruzə etmişdim. Bir neçə problem var, ancaq düşünürəm ki, biz bunu ilin sonunadək həll edəcəyik. İstər humanitar yüklərin Avropadan Əfqanıstana daşınmasında, istərsə də başqa problemlər. Biz bu barədə müvafiq nazirliklərlə işləyirik və Türkiyənin ölkəmizdəki səfirinə də söyləmişik. Bunlar gələn ilin büdcəsinə salınacaqdır.

Heydər Əliyev: Bu, hər şeyə cavabdehdir.

Əhməd Necdət Sezər: Biz sərhədə daxil olanlardan 10 dollar həcmində gömrük pulu alırıq. Ümumiyyətlə, iş adamları 45-50 dollara yaxın pul ödəyirlər. Burada isə bu verginin həcmi 250 dollara çatır.

Heydər Əliyev: Hörmətli Cümhurbaşkanı, mən bu məsələləri anlayıram. Buna sonra baxarıq.

Yaxşı, başqa bir sözünüz yox dursa, biz sabah böyük bir mərasimdə olacağıq.

Məmməd Əliyev: (Azərbaycanın Türkiyədəki səfiri): Möhtərəm Prezident, icazənizlə bir məsələni demək istəyirəm.

Hörmətli Cümhurbaşkanı Əhməd Necdət Sezər, Türkiyə tərəfi Azərbaycandan gələnlərdən 50 dolları almasa, çox yaxşı olar. Türkiyədə Kipr ə gedənlərdən bunu almırlar. İndi qərar qəbul ediblər, Türkiyədən çıxan hər adamdan 50 dollar alırlar. Bu, xüsusilə Türkiyədən Naxçıvana gələn adamların qarşısını alır. Əgər Türkiyə tərəfi Kiprə gedənlərdən olduğu kimi, Naxçıvana, Azərbaycana gələnlərdən də bunu almasa, çox yaxşı olar.

Əhməd Necdət Sezər: Bəli, biz bunu türk puluna çevirdik. Türkiyədən haraya gedirlər getsinlər, bunu alırıq.

Məmməd Əliyev: Hörmətli Cümhurbaşkanı, bunu almasanız daha yaxşı olar.

Heydər Əliyev: Yaxşı, sağ olun.

BAKI - TBİLİSİ - CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Türkiyə Cümhuriyyətinin Prezidenti Zati-aliləri hörmətli Əhməd Necdət Sezər!

Gürcüstanın Prezidenti Zati-aliləri hörmətli Eduard Şevardnadze!

Amerika Birləşmiş Ştatlarının Energenitka naziri hörmətli Spenser Abraham!

Hörmətli xanımlar və cənablar, qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda səmimi qəlbdən salamlayıram və bu böyük əhəmiyyət kəsb edən layihənin həyata keçirilməsi münasibətilə bura toplaşanlara təşəkkür edirəm.

Bizim hamımızı, o cümlədən uzaq ölkələrdən Azərbaycana gəlib bu gün bizimlə birlikdə bu şənliyi bölüşənləri buraya toplayan Bakı - Tbilisi - Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlaması üçün təməl daşının atılması mərasimidir. Bu böyük layihə artıq bütün dünyada məşhurdur və dünya ictimaiyyəti bir çox illərdir ki, bu layihəni müzakirə edir.

Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında, 1994-cü il sentyabr ayının 20-də Azərbaycanda, Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarının müştərək işlənilməsi üçün Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur. Bu müqavilə dünyaya səs saldı və təsadüfi deyildir ki, ona "Əsrin müqaviləsi" adı verildi. Biz bu müqaviləni imzalayarkən, təbiidir ki, "Azəri" - "Çıraq" - "Günəşli" yataqlarından gələcəkdə ildə 50 milyon tondan artıq neft hasil edilməsini nəzərdə tutmuşduq. Ancaq hasil olan neft dünya bazarlarına çıxarılmalıdır. Bunun üçün müxtəlif yollar var idi, müxtəlif marşrutlar var idi. Ancaq biz Azərbaycan olaraq öz dostlarımızla - Türkiyə Cümhuriyyəti ilə, Gürcüstanla və təbiidir ki, bu layihədə iştirak edən şirkətlərlə birlikdə gələcəkdə hasil olunacaq neft Bakı - Tbilisi - Ceyhan boru xətti ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çatdırmağı qərara aldıq.

Bu qərarın özü də çox mübahisələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı - Tbilisi - Ceyhan marşrutu ilə

getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana mane olurdular. Çünki neftin sahibi bizik və neft də haradan ixrac etmək birinci növbədə bizim hüququmuz idi. Bizə çox təzyiqlər etdilər. O vaxt Azərbaycanda ictimai-siyasi vəziyyət o qədər də sabit deyildi. 1993-cü ildə burada vətəndaş müharibəsi baş vermişdi. Biz onların qarşısını aldıq və müqaviləni imzaladıq. Ancaq müqaviləni imzalayanda hətta bizim daxilimizdə belə yüksək vəzifəli şəxslər var idi ki, onlar müxtəlif xarici xidmət orqanlarına qulluq edirdilər, bu müqavilənin pozulması haqqında öz fikirlərini söyləmişdilər.

Bunu demək sizin üçün maraqlıdır. Çünki 1994-cü il sentyabrın 20-də biz müqaviləni imzaladıq. Ondan bir gün sonra Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından böyük cinayət etmiş 4 nəfəri qaçırdılar. Ondan bir həftə keçdi, Azərbaycan parlamenti sədrinin müavininə terror etdilər, onu öldürdülər. Bu terrorlarla bizi qorxutmaq istədilər. Ancaq biz qorxmadıq. Onlar isə bu işlərini davam etdirirdilər. O vaxt məcburiyyət qarşısında mənimlə burada Baş nazir vəzifəsində çalışan Surət Hüseynov kimi bir şəxs oktyabr ayının 4-də Azərbaycanda silahlı dövlət çevrilişi etməyə başladı. Biz bunun qarşısını aldıq. Birinci növbədə, xalqın bizə dəstəyi ilə, xalqın köməyi ilə, 1995-ci ilin mart ayında yenidən silahlı dövlət çevrilişi etmək istədilər, qarşısını aldıq. Ondan sonra bəzi yerlərdə terror aktları törətmək, körpünü partlatmaq, təxribat etmək istədilər. Zərər çəkdik, amma qarşısını aldıq.

Bilirəm ki, məhz o zaman, Bakı - Tbilisi - Ceyhan layihəsi irəliyə sürüləndə mənim dostum Gürcüstan Prezidenti Eduard Şevardnadzeyə terror etdilər və o, möcüzə sayəsində sağ-salamat qurtardı.

Bütün bunların hamısı və bizə göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəlmişdi ki, birincisi, bizim neft müqaviləsini - bu işə Xəzər dənizində ilk dəfə başladıq - qəbul etmək istəmirdilər. İkincisi isə, Bakı - Tbilisi - Ceyhan boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik.

1999-cu ildə "Çıraq" yatağından ilk neft aldıq. Biz onu əvvəl Bakı - Novorossiysk kəməri ilə Rusiyanın Qara dənizdəki Novorossiysk limanı vasitəsilə nəql edirdik. Ancaq bununla bərabər, biz Qərb martşuru ilə Bakı - Supsa neft kəmərini tikirdik və onu tezliklə istifadəyə verdik. İndi o vaxtdan indiyə qədər hasil edilən neft məhz bu kəmərlə - Qərb xətti ilə nəql olunur.

Ancaq bunların hamısı ilkin neftdən ötrü idi. Bizim nəzərdə tutduğumuz böyük neft üçün isə, yenə də deyirəm, Bakı - Tbilisi - Ceyhan lazım idi. Biz ardıcıl surətdə bu layihənin üzərində işləyirdik, çalışırdıq.

bütün imkanlarımızdan istifadə edirdik. Türkiyə, Gürcüstan, Azərbaycan burada bərabər idi, birlikdə hərəkət edirdi, bu işlə birlikdə məşğul idi. Ancaq əgər Amerika Birləşmiş Ştatları hökumətinin bizə, Azərbaycana bu barədə köməyi, daimi dəstəyi, məsləhətləri olmasaydı, təbiidir ki, biz buna nail ola bilməzdik.

Təsadüfi deyil ki, 1999-cu ilin noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşündə biz -Türkiyə, Gürcüstan, Azərbaycan və Qazaxıstan Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəmərərinin inşasına başlamaq üçün anlaşma imzaladıq. Bundan əlavə, bəyanat imzaladıq və Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton öz dövləti adından bu bəyanata qoşuldu, öz imzasını qoydu. Bu da Bakı - Tbilisi - Ceyhan boru xəttinin tikilməsinin reallığına gətirib çıxardı.

Mən bu qısa tarixi sizə deməliyəm. Çünki bilməlisiniz ki, burada 8 il müddətində biz nə işlər görmüşük və hansı çətinliklərdən çıxmışıq. Hansı müqavimətlərin, maneələrin qarşısını almışıq.

Nəhayət, son dövrdə Bakı - Tbilisi - Ceyhan boru xəttinin inşa edilməsi haqqında bir neçə aydır proseslər gedir. Onun maliyyələşdirilməsi məsələsində də problem var idi. Ancaq onlar da həll olundu. İndi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, BP bu işlərə başçılıq edir. Onlar artıq bütün planları hazırlayıblar. Ona görə də bizi buraya təməl daşının qoyulmasına dəvət ediblər.

Mən sizə bildirmək istəyirəm ki, Bakı - Tbilisi - Ceyhan boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil. Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışıqlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük.

Bu yaxın vaxtlarda İstanbulda "Üç dənizin əfsanəsi" adlı konfrans keçirildi. Orada əfsanə haqqında söhbət gedirdi. Mən orada nitq söylədim, dedim, siz burada əfsanədən danışırsınız. Amma mən sizə demək istəyirəm ki, bu, xəyal deyil, əfsanə deyil, üç dəniz- Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi birləşəcəkdir. Bunu birləşdirən də Türkiyə, Gürcüstan, Azərbaycan, onların həyata keçirdikləri bu layihə və Amerika Birləşmiş Ştatlarının bu məsələyə daimi dəstəyi olmuşdur. Ona görə indi xəyaldan gerçəkliyə gəlib çatmışıq.

Buraya nə qədər vəsait qoyulacaq, nə işlər görüləcək - bu barədə sizə məlumatlar veriləcəkdir. Mən bunu demək istəmirəm. Ancaq onu demək istəyirəm ki, bütün bu layihələr Azərbaycanın iqtisadiyyatının inkişafına yönəldilibdir. Bu gün burada "Azəri - Çıraq - Günəşli" yataqlarının işlənilməsinin ikinci fazası haqqında da sənəd imzalanacaqdır. Bu, o deməkdir ki, artıq buraya çox böyük investisiya gələcək, işlər sürətlə gedəcəkdir. Çünki biz hesab edirik ki,

2005-ci ildə Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəməri tamamilə hazır olacaq və biz hamımız birlikdə buradan Türkiyənin Ceyhan limanına gedəcək və orada Azərbaycan neftinin, Xəzər neftinin Ceyhan limanından yola salınmasının şahidi olacağıq.

Dediyim kimi, Bakı - Tbilisi - Ceyhan layihəsinin maliyyələşdirilməsində bəzi problemlər var idi. Azərbaycan bu işə öz payını verdi, biz onun maliyyələşdirilməsinin 25 faizini öz üzərimizə götürdük. Qalan hissəsi ayrı-ayrı şirkətlər arasında bölünübdür. Ancaq maraqlısı budur ki, bu layihəyə 2.5 faizlə "Eni" şirkəti qoşulubdur. Sonra "Total" şirkəti qoşulubdur. Mənə bu gün dedilər ki, 2.5 faizlə Yaponiyanın "İtoçu" şirkəti qoşulubdur və bir də Yaponiyanın "İnpeks" şirkəti məhz dünən 2.5 faizlə buna qoşulubdur. Bu, nə deməkdir? O deməkdir ki, bu boru xəttindən təkcə Azərbaycan yox, hamı istifadə etmək istəyir.

Vaxtilə İstanbulda Nazarbayev də imzasını qoyub və bildiribdir ki, Qazaxıstan da bu boru xəttindən istifadə edəcəkdir. İndi mən bilirəm ki, xarici şirkətlər Qazaxıstanda çox işləyirlər. Onların bizim Bakı - Tbilisi - Ceyhan layihəsinə qoşulması və sərmayə qoyması onu göstərir ki, doğrudan da, Xəzərin başqa sektorlarından neft Bakı - Tbilisi - Ceyhan kəməri ilə ixrac olunacaqdır.

Ancaq mən sizə deyirəm ki, təxminən 2007-2008-ci illərdə "Azəri-Çıraq-Günəşli" yataqlarından 50 milyon ton neft hasil olunacaqdır. Ancaq Xəzər dənizində bizim başqa yataqlarımız da var. Biz bir çox şirkətlərlə əməkdaşlıq edirik. 30 ölkənin şirkətləri ilə 21 müqavilə imzalamışıq, iş aparırıq. Əlbəttə, onlar da neft hasil edəcəklər. Biz onlarla birlikdə çalışırıq. Ona görə gələcəkdə hətta Bakı - Tbilisi - Ceyhanın tutumu çatmayacaqdır. Ya onu genişləndirmək, ya da ikinci boru lazım olacaqdır.

Mənim dediyim bu sözlər gələcək üçündür və bu işlər bizim xalqımızın gələcəyi üçündür. Bizim bu işlərimiz yalnız və yalnız Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra mümkün olubdur. Siz bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt neft Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz bunun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik. İstədiyimiz ölkələr ilə əlaqələr qururuq və belə işlər görürük. Amma ikinci boru da növbədədir. 1 trilyon kubmetr ehtiyatı olan "Şahdəniz" yatağından Bakı - Tbilisi - Ərzurum qaz kəməri də çəkiləcəkdir.

Beləliklə, boru kəmərlərinin sayı artır. Təbiidir ki, bunlar çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil. Hesab edirik ki, bizim gördüyümüz işlər, Bakı - Tbilisi - Ceyhan siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əminamanlığın, təhlükəsizliyin təminatçısı ola bilər. Bu boru xətti, bu polad boru Azərbaycanı, Gürcüstanı, Türkiyəni bir-biri ilə daha da sıx birləşdirəcəkdir.

Biz dost ölkələrik. Türkiyə bizim üçün dost, qardaş ölkədir. Gürcüstan bizim üçün dost, qardaş ölkədir. Eləcə də biz onlar üçün dost, qardaş ölkəyik. Biz çox əlaqələr saxlayırıq. Ancaq bu əlaqələrimizi, necə deyərlər, daha möhkəm tellərlə bağlayırıq. Bu tellərdən biri də Bakı - Tbilisi - Ceyhan kəməri olacaqdır. Mən şübhə etmirəm ki, Amerika Birləşmiş Ştatları bu məsələlərdə bizi bundan sonra da dəstəkləyəcəkdir. Ona görə mən bu mərasimdə Türkiyə Cümhuriyyətinə, onun Prezidenti hörmətli Əhməd Necdət Sezərə təşəkkür edirəm. Gürcüstana, onun Prezidenti hörmətli Eduard Şevardnadzeyə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarına, onun Prezidenti cənab Corc Buşa təşəkkür edirəm.

Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz ötən il sentyabrın 11-də ABŞ-da baş vermiş dəhşətli terror hadisələrindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika - Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq.

Dünən hörmətli nazir ilə söhbət edəndə o, Prezident Buşdan mənə səmimi salamlar, çox xoş sözlər çatdırdı. Bütün bunlara görə, ümumiyyətlə, Bakı - Tbilisi - Ceyhan boru xəttinin reallaşmasına dəstəyinə görə Amerika Birləşmiş Ştatlarına, onun xalqına və Prezident cənab Buşa təşəkkürümü bildirirəm.

Əziz dostlar!

Əziz qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram, hamınıza cansağlığı arzu edirəm. Bakı - Tbilisi - Ceyhan irəliyə gedəcək, gedəcək, gedəcəkdir.

BAKI - TBİLİSİ - CEYHAN ƏSAS İXRAC BORU KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN YEKUN SÖZÜ

- Hörmətli xanımlar və cənablar! Dostlar!

Biz bu gün tarixi bir gün yaşayırıq. Tarixi bir hadisənin şahidiyik. Bu tarixi biz yazırıq. Bugünkü nəsillər, Azərbaycan, Türkiyə, Gürcüstan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Norveç, Fransa, İtaliya və digər dövlətlər, hamımız bir yerdə böyük bir tarix yazırıq. Bunların hamısı gələcək nəsillər üçündür. Şübhə yoxdur ki, gələcək

nəsillər bizim gördüyümüz bu işlərdən bəhrələnərək, daha da firavan yaşayaraq, ölkələrimizdə, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu şəraitində, vətəndaş cəmiyyəti şəraitində yaşayaraq bunların bəhrələrini görəcəklər.

Bu gün burada Amerika Birləşmiş Ştatlarının Prezidenti cənab Buşun təbrik məktubunu dinlədik. Mən Prezident Buşa bizim bugünkü maraqlarımıza göstərdiyi diqqətə görə çox təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Prezident Buş daim bizimlə, Bakı - Tbilisi - Ceyhanla olacaqdır.

Fransa Prezidenti hörmətli Jak Şirak bizə təbrik məktubu göndərmişdir. Biz onu burada çox diqqətlə dinlədik. Çox mehriban, dostluq ruhunda yazılmış, yəni məzmunca bizə inamla dolu bir təbrik məktubudur.

Mən Prezident cənab Jak Şiraka təşəkkürümü bildirirəm və onu əmin etmək istəyirəm ki, biz bu işdə dayanmayacağıq, irəliyə gedəcəyik və Fransanın dəstəyini daim hiss edəcəyik.

Biz Böyük Britaniyanın Baş naziri Toni Bleyerin təbrik məktubunu dinlədik. Mən təşəkkür edirəm. Burada, təbiidir ki, bir çox şirkətlər iş görür. Ancaq bu şirkətlərin içərisində BP bildiyimiz kimi, özünəməxsus yer tutubdur və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə, eyni zamanda, Bakı - Tbilisi - Ceyhan layihəsi ilə əlaqədar yaradılmış şirkətə rəhbərlik edir. Ona görə də burada Böyük Britaniyanın mühüm iqtisadi maraqları var. Əmin ola bilərsiniz ki, o maraqlar yerinə yetiriləcəkdir.

Mən Böyük Britaniyanın Baş naziri cənab Toni Bleyerə təşəkkür edirəm. Onu əmin edirəm ki, Azərbaycan - Böyük Britaniya əməkdaşlığı bundan sonra da davam etdiriləcəkdir.

Biz Norveç Krallığının Baş naziri cənab Xyel Maqne Bunnevikin təbrik məktubunu dinlədik. Biz Azərbaycanın neft strategiyasını həyata keçirməyə başlayandan, 1994-cü ildən bəri Norveç və onun "Statoyl" şirkəti bizimlə bərabərdir və çox səmərəli əməkdaşlıq edir. Ona görə bizə göndərdiyi təbrik üçün hörmətli Baş nazirə təşəkkür edirəm və ümidvaram ki, bizim bu əməkdaşlığımız gələcəkdə də davam edəcəkdir.

Nəhayət, sizin hamınıza - Bakı - Tbilisi - Ceyhan boru xəttində çalışacaq insanlara, azərbaycanlılara, xarici ölkələrin Azərbaycanda işləyən vətəndaşlarına cansağlığı, xoşbəxtlik və böyük uğurlar arzu edirəm. Sağ olun.

PREZİDENTLƏRİN GƏLƏCƏK NƏSİLLƏRƏ MÜRACİƏTİNİN MƏTNİ

Azərbaycan Respublikasının paytaxtı Bakı şəhəri, 18 sentyabr 2002-ci il.

Bu gün biz, üç müstəqil dövlətin rəhbərləri - Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev, Gürcüstan Prezidenti Eduard Amvrosiyeviç Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər Bakı - Tbilisi - Ceyhan neft boru kəmərinin təməl daşını qoyaraq, sizə, xalqımızın gələcək nəsillərinə müraciət edirik.

Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir.

Layihənin həyata keçirilməsi və istismar zamanı hazırda başa çatdırılan bu sahədə əldə etdiyi müasir elmi-texnoloji nailiyyətlərin tətbiq ediləcəyi mütərəqqi mühəndislik üsullarından istifadə olunması nəticəsində Şərq-Qərb enerji dəhlizi keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaqdır. Bu proseslərdə Azərbaycan, Böyük Britaniya, İtaliya, Fransa və Səudiyyə Ərəbistanının neft şirkətləri xüsusi rola malikdirlər.

Buna görə, bu tarixi əhəmiyyətli hadisənin ən aparıcı amili ondan ibarətdir ki, müxtəlif dilə, adət-ənənələrə mənsub olan insanlar dostluq, qardaşlıq və həmrəylik şəraitində qlobal səviyyədə sivil əməkdaşlıq edirlər.

Əminik ki, Bakı - Tbilisi - Ceyhan boru kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək, regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqımızın rifahı yüksələcəkdir.

Sizə sülh, əmin-amanlıq və firavanlıq arzulayırıq.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev

Gürcüstan Prezidenti Eduard Şevardnadze

Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ XV İŞGÜZAR SƏFƏRİ

13-16 oktyabr 2002-ci il

İSTANBULDA MƏTBUAT KONFRANSINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Hörmətli mətbuat nümayəndələri!

Mən sizi salamlayıram. Sizinlə görüşümdən məmnun olduğumu bildirirəm. Bilirsiniz ki, mən Türkiyəyə hörmətli Prezident Əhməd Necdət Sezərin dəvəti ilə, İqtisadi Əməkdaşlıq Təşkilatının VII zirvə görüşünə iştirak etmək üçün gəlmişəm.

Dünən bizim görüşlərimiz oldu. Bildirmək istəyirəm ki, bu görüşlər çox səmərəli keçdi. Biz İƏT-in fəaliyyətini təhlil etdik, müasir vəziyyəti müzakirə etdik və ölkələrimiz arasında, təşkilata daxil olan ölkələr arasında iqtisadi və başqa əlaqələrin inkişaf etməsi üçün müəyyən fikirlər söylənildi, müəyyən təkliflər irəliyə sürüldü. Bu gün isə mən İstanbulda olmağımdan istifadə edərək Türkiyənin iş adamları ilə görüşmək arzusunda olmuşdum. Onu da burada lazımi təşkilatlar etdilər. Türkiyənin, demək olar ki, çox hörmətli iş adamları, bilmirəm 200, yaxud 250-300 nəfər toplaşmışdı. Biz görüşdük, söhbət etdik, Türkiyə - Azərbaycan iqtisadi əlaqələri haqqında məruzələr dinlədik. Ondan sonra isə Türkiyənin 9-cu Prezidenti hörmətli Süleyman Dəmirəl nitq söylədi. Sonra mən fikirlərimi söylədim.

Mən bu görüşdən çox məmnunam. Çünki həqiqətən Türkiyənin çox böyük iş adamları ilə səmərəli danışıqlar apardıq. İndi Azərbaycanda hansı işləri görmək mümkündür - o barədə məlumatlar verildi. Eyni zamanda, Türkiyənin iş adamlarının indiyə qədər Azərbaycanda gördükləri işlər haqqında da məlumatlar verildi. Çünki bəzən ayrı-ayrı insanlar belə bir fikir yaratmaq istəyirlər ki, guya son zamanlar Azərbaycanda Türkiyənin iş adamlarına istənilən qədər iş verilmir, yaxud iş yoxdur. Bunlar hamısı yanlış şeylərdir. Sadəcə, Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrini müəyyən qədər ləkələmək

üçün bu sözləri ortaya atırlar.

Mən təkrar etmək istəmirəm. Orada rəqəmlər deyildi. Beş minə qədər türk iş adamı daim Azərbaycanda işləyir, böyük layihələr həyata keçirilir, Bakı - Tbilisi - Ceyhan, Bakı - Tbilisi - Ərzurum layihələri nəhəng layihələrdir. Onlardan əlavə, çoxlu başqa işlər də görülür. Ona görə də güman edirəm ki, heç kəs belə yollarla Türkiyə - Azərbaycan dostluq, qardaşlıq əlaqələrinə xələl gətirə bilməz.

Mən çox iş adamlarını Azərbaycana dəvət etdim. Söz verdilər, gələcəklər və yeni-yeni işlərə başlayacağıq.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr daim inkişaf edir. Biz son vaxtlar çox böyük işlər gördük. Məsələn, nəhayət, Bakı - Tbilisi - Ceyhan layihəsinin inşasına başladıq. Sentyabrın 18-də Bakıda onun təməlqoyma mərasimini keçirdik. Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti hörmətli Eduard Şevardnadze və Azərbaycan Prezidenti orada iştirak etdilər. İşə başlamışıq və güman edirəm ki, uğurla başa çatacaqdır.

Bakı - Tbilisi - Ərzurum qaz kəməri haqqında da lazımi tədbirlər görülür. Orada bir balaca gecikmələr var, onlar o qədər də əhəmiyyətli deyildir. Biz onun da inşasına başlayacağıq. Beləliklə, iki böyük layihənin, tarixi əhəmiyyəti olan layihələrin iqtisadi əhəmiyyəti məlumdur. Azərbaycanın Xəzər dənizindən hasil olan neft - orada olduqca çox böyük neft ehtiyatları var - Bakı - Tbilisi - Ceyhan ilə Türkiyənin Ceyhan limanına axacaq, dünya bazarlarına gedəcəkdir. Bu kəmərin ömrü çox uzundur. Güman edirəm ki, XXI əsrə mütləq öz fəaliyyətini davam etdirəcək və XXII əsrə də keçə bilər. Çünki Xəzərdə bildiklərimiz sərvətlərin çox olduğunu göstərir, amma hələ bilmədiyimiz şeylər də var. Ona görə bunun gələcəyi çox böyükdür.

Eləcə də "Şahdəniz" qaz yatağı. İndi orada 1 trilyon kubmetr qaz ehtiyatı olduğu bildirilir. Ancaq bu, ilkin məlumatdır və adətən, ehtiyatlı davranırlar, çox böyük rəqəm demək istəmirlər. Düşünürəm ki, orada qaz daha da çoxdur. Amma təkcə orada deyil, Xəzərin başqa yerlərində də zəngin qaz yataqlarımız var. Ona görə Azərbaycan böyük qaz ölkəsi kimi dünyaya qaz ixrac edəcəkdir. Güman edirəm, gələcəkdə biz Türkiyənin ərazisi ilə qaz kəmərini Avropaya da aparacağıq. Çünki bilməlisiniz ki, indi Avropada istifadə olunan qazın mənbələri get-gedə azalır. Avropa yeni qaz mənbələri arayır və bu baxımdan yenə də Xəzər hövzəsi mühüm yer tutur.

Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür, iqtisadiyyat sürətlə inkişaf edir. Bizim bir böyük problemimiz - Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi indiyə qədər həll olunmayıbdır. Bu da Azərbaycanı yaralayıb və bu yara indiyə qədər bizim bədənimizdədir. Torpaqlarımızın 20 faizi Ermənistan

silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan 1 milyonundan artıq azərbaycanlı zorla çıxarılıb, onların tam əksəriyyəti çadırlarda yaşayır. Ümumiyyətlə, çadırda yaşamaq çox çətindir. Amma bir-iki-üç il buna dözmək olar, çadırda 10 il yaşamaq isə dəhşətli bir şeydir. Ancaq bizim insanlar buna dözürlər və ümid bəsləyirlər ki, məsələ sülh yolu ilə həll olacaqdır.

Bəli, biz də bu ümidlə yaşayırıq, çalışırıq. Bu barədə çox işlər görürük. Həm ATƏT-in Minsk qrupu vasitəsilə, həm də başqa beynəlxalq təşkilatların vasitəsilə sülh danışıqları aparırıq. Ancaq sülh danışıqları uzandığına görə Azərbaycanda insanların səbri tükənir və bəziləri müharibə etmək, savaş, müharibə yolu ilə torpaqları azad etmək fikirlərini daha da çox irəli sürürlər. Belə əhval-ruhiyyə indi Azərbaycanda keçən illərə nisbətən daha da çoxdur. Bunun da əsası var. Dediyim kimi, nə qədər dözmək olar? Ancaq bizim dövlətin siyasəti belədir ki, hələ məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Burada imkanlar hələ tükənməyibdir, imkanlar var. Biz bu sahədə öz işimizi aparırıq.

Bu böyük ağır problemin olmasına baxmayaraq, Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulubdur və artıq fəaliyyət göstərir. Azərbaycanda insan haqları qorunur, insan azadlıqlarının hamısı təmin olunubdur. Azərbaycanda bazar iqtisadiyyatı hökm sürür. Bizim iqtisadiyyatda əldə etdiyimiz nailiyyətlər, əsasən, bazar iqtisadiyyatının nəticəsidir. Bizim 1994-cü ildə irəliyə sürdüyümüz neft strategiyası həyata keçirilir və onun nəticəsində Azərbaycana xarici investisiya cəlb edilibdir. Neft sahəsinə təxminən 6 milyard dollar investisiya cəlb olunubdur. Amma 1993-cü ildən indiyə qədər Azərbaycana təxminən 10 milyard dollara qədər investisiya qoyulubdur. Onun içərisində xarici investisiya da var, daxili investisiya da var.

Biz gələn ilin büdcəsini hazırlamışıq, normal büdcədir. Bəzi sahələrdə - büdcədən təmin olunan təbəqələrin maaşları artırılacaqdır. Bir çox başqa sosial məsələləri həll etmişik və həll edirik. Azərbaycanda vəziyyət belədir. Mən daha çox vaxt almaq istəmirəm. Əgər indi kimin sualı olsa, mən cavab verməyə hazıram.

İSTANBULDA TÜRKİYƏNİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

- Türkiyənin 9-cu Prezidenti, əziz dostum-qardaşım, hörmətli Süleyman Dəmirəl!

Hörmətli nazirlər!

Dəyərli iş adamları!

Xanımlar və cənablar!

Sizin hamınızı səmimi qəlbdən salamlayıram və Türkiyədə başqa bir məsələ ilə əlaqədar olduğum halda burada, "Çırağan" sarayında Türkiyənin dəyərli iş adamları ilə görüşümdən həddən ziyadə məmnun olduğumu bildirmək istəyirəm.

Bilirsiniz ki, mən İƏT təhkilatının zirvə görüşündə iştirak etmək üçün Türkiyəyə, İstanbula gəlmişəm. Biz dünən çox iş gördük. Türkiyə Cümhuriyyətinin Prezidenti hörmətli Əhməd Necdət Sezərin sədrliyi ilə İƏT-in VII zirvə görüşü öz işini apardı və tamamladı. Türkiyə hökuməti İƏT-in növbəti zirvə görüşünə sədr seçildi, İƏT-ə başçılıq edəcəkdir. Ümidvaram ki, Türkiyə Cümhuriyyəti İƏT-ə çox böyük önəm verdiyinə görə təşkilat gələn illərdə ölkələrimiz arasında əlaqələrin inkişaf etməsində yeni uğurlar qazanacaqdır.

Mən ayrıca olaraq hörmətli Prezident Əhməd Necdət Sezərlə görüşdüm. Türkiyə - Azərbaycan əlaqələri haqqında və onun daha da inkişaf etdirilməsi haqqında geniş söhbət apardıq. Hər dəfə olduğu kimi, bu dəfə də bizim görüşümüz dostluq, qardaşlıq, mehribanlıq şəraitində keçdi. Mən bu işləri qurtarandan sonra yeni bir işə başlamışam. Burada siz mənə yardımçı olduğunuza görə təşəkkür edirəm.

Mən buraya gələrkən bildirmişdim ki, Türkiyənin iş adamları ilə görüşmək arzusundayam. Keçən dəfə Prezident Əhməd Necdət Sezər Bakıda olarkən danışdığım zaman ona bildirmişdim. Mənim bu arzum qəbul edilmişdir və çox məmnunam ki, bu işin təşkilatçıları, bizim gözəl insanlarımız, dostlarımız çox çalışıblar, yaxşı bir görüş hazırlayıblar.

Burada yaxşı çıxışlar söylənildi. Hörmətli Süleyman Dəmirəl, hər dəfə olduğu kimi, çox geniş, dərin mənalı, çox əhəmiyyətli çıxış etdi. Əziz dostum, Azərbaycan haqqında, Azərbaycanın artıq 11 ildir keçdiyi əziyyətli müstəqillik yolu haqqında, bu yolda əldə etdiyimiz uğurlar haqqında, şəxsən mənim fəaliyyətim haqqında xoş sözlərə görə, izahatlara görə sizə təşəkkür edirəm. Bildirmək istəyirəm, indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycan öz dövlət müstəqilliyini qoruyacaq, saxlayacaq, möhkəmləndirəcək, inkişaf etdirəcək və demokratik, hüquqi, dünyəvi, güclü bir Azərbaycan olacaqdır.

Bu yolda biz həmişə dost, qardaş Türkiyə Cümhuriyyəti ilə, türk xalqı ilə bir yerdə olmuşuq. Azərbaycan dövlət müstəqilliyini elan edəndən sonra Türkiyə ilk olaraq bu müstəqilliyi tanımışdır. Biz yenicə doğulmuş bir çocuq, bəbə kimi hələ ayaqlarımızı ata bilmirdik, ancaq Türkiyə bizim qolumuzdan tutmuşdu, bizə yardım etmişdi və öz təcrübəsini bizə göstərmişdi. Mən bunu dəfələrlə demişəm, böyük Atatürkün yaratdığı Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yol, əldə etdiyi nailiyyətlər Azərbaycan üçün həmişə örnək, nümunə olubdur. Biz çalışmışıq ki, bundan səmərəli is-

tifadə edək və ölkəmizi yeni bir müstəqil yol ilə aparaq. Biz buna nail ola bilmişik.

Burada hörmətli Süleyman Dəmirəl dedi, bizim qarşımızda çox çətinliklər də olmuşdur, çevriliş cəhdləri də olmuşdur, Azərbaycanda vətəndaş müharibəsi də olmuşdur. Azərbaycan parçalanırdı. Ancaq xalqımız öz iradəsini göstərdi və biz bunların hamısının qarşısını aldıq. İndi Azərbaycan rahat bir yola çıxıbdır. Doğrudur, bizim problemimiz var. Ermənistan - Azərbaycan münaqişəsi və Azərbaycan torpaqlarının işğal olunması problemi var. Bu, başqa bir problemdir. Amma belə bir ağır problemi olmağına baxmayaraq, Azərbaycan böyük iqtisadi inkişaf yoluna çıxmış və inkişaf etmişdir.

Burada bizim Türkiyə tərəfindən çıxış edən dostlarımız, bizim iqtisadi inkişaf nazirimiz və xüsusən hörmətli Süleyman Dəmirəl əldə etdiyimiz nailiyyətlər haqqında danışdılar. Mən bu barədə vaxt almaq istəmirəm. Ancaq onu demək istəyirəm ki, biz çox çətin bir şəraitdə nailiyyətlər əldə etmişik.

İndi Azərbaycan inkişaf edən bir ölkədir. İqtisadiyyatı inkişaf edir. Təbiidir, Azərbaycanın böyük problemləri var. Birincisi Dağlıq Qarabağ problemidir. Torpaqlarımızın 20 faizi işğal altındadır. 8 ildən çoxdur ki, atəşkəs şəraitində yaşayırıq.

Hələ ki, müharibə yoxdur. Ancaq sülh, barış da yoxdur. Bir milyondan artıq vətəndaşımız qaçqındır, köçkündür, çadırlarda yaşayır. Onlar işləyə bilmirlər, iş yerləri yoxdur. Biz onları yaşatmalıyıq. Amma çadırlarda yaşamaq nə qədər çətindir, bunu bilirsiniz. İki - üç il bir hadisə ilə əlaqədar çadırda yaşamaq olar.

Amma 10-11 il çadırda yaşamaq... İndi bizdə uşaqlar var, çadırlarda doğulub, böyüyüb, çadırda məktəbə gedirlər. İnsanlar çadırda evlənir, ailə qururlar. İnsanlar çadırda həyatdan gedirlər. Bilirsiniz nə qədər ağır, çətin şəraitdə yaşayırlar. Ancaq dözürlər. İnanırlar ki, məsələ sülh yolu ilə həll olunacaqdır.

İndi vaxt yoxdur, bu, böyük bir məsələdir, bu barədə demək istəmirəm. Bu, çox çətindir. Ermənistan bizim torpaqlarımızı işğal etdiyinə görə Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəyir. Biz isə öz qədim torpaqlarımızı itirə bilmərik. Onlar işğal etdikləri torpaqları azad etməlidirlər. Dünyada bir ölkə yoxdur, bir beynəlxalq təşkilat yoxdur ki, bu məsələni ədalətlə müzakirə etsin, desin ki, sən günahkarsan, sənin başqa ölkənin torpağını işğal etməyə haqqın yoxdur, sən buradan çıxmalısan.

Prezident kimi mənə deyirlər ki, gedin Ermənistanın Prezidenti ilə danışın, razılaşın. Bunu Amerika deyir, ATƏT də deyir. Türkiyə də deyir, Avropa Birliyi də deyir. Hamısı deyir ki, onlarla razılaşın, hansı razılığı əldə etsəniz, biz də ona razı olacağıq, bu işdə sizə kömək edəcəyik. Mən razılaşa bilmirəm. Çünki niyə? O, torpaqları işğal edib məndən

tələb edir. Əvvəla, onun tələbini yerinə yetirə bilmirəm. Bəs nə olsun? Müharibə edək?! Artıq bizim xalqımızda müharibə əhval-ruhiyyəsi qalxır - gedək müharibə edək, ya da məhv olaq. Amma bu da doğru yol deyildir. Baxmayaraq ki, bizim xalqımızda belə fikirlər artıq çox geniş yayılıbdır. Mən bir cümhurbaşkanı kimi bunu məqbul hesab etmirəm, bunun qarşısını alıram. Amma təsəvvür edin, belə şəraitdə yaşamaq nə qədər çətindir.

Bütün bunlara baxmayaraq, Azərbaycan inkişaf edir. Bu inkişafda da Türkiyə ilə bizim iqtisadi əlaqələrimiz həmişə xüsusi yer tutubdur. İlk illərdə biz özəl sektor nədir bilmirdik, başqa şeylər bilmirdik. Biz 70 il kommunist rejimində yaşamışıq. Hər şey ümumi, dövlətin idi, şəxsi mülkiyyət ola bilməzdi. Ona görə də biz bir neçə il ağır fikirləşmə yolu ilə gedirdik. Çoxları deyirdi ki, yox, onu dəyişdirmək olmaz. Onu düşünürdülər ki, hər şey batacaqdır. Mən isə düşünürdüm, yox, risk etmək lazımdır, dəyişdirmək lazımdır. Hələ 1995-ci ildə mən torpaq islahatı keçirdim. Ondan iki il sonra torpağı kəndlilərə payladım, bütün heyvanları payladım. Kolxozları, sovxozları dağıtdım. İlk il çətinliklər oldu. İndi bizdə aqrar sektor, kənd təsərrüfatı çox inkişaf edibdir. Biz özümüzü taxılla təmin edirik. Əti, südü, başqa şeyləri əvvəllər Rusiyadan gətirirdik. İndi hamısı Azərbaycanda var. Azərbaycanın kəndində özəl sektor inkişaf edir.

Biz özəlləşdirmə keçirdik. Ticarət tamamilə özəl sektordadır. İndi Azərbaycanda ticarət çox gözəldir. Sizin mağazalarda olan şeyləri gedib orada da ala bilərsiniz. Sizdə nə yoxdursa, gəlin oradan alın. Ticarət özəl oldu, nəqliyyat da belə oldu. Qısa bir zamanda böyük dəyişikliklər əldə etdik.

Süleyman bəy elektrik şəbəkəsindən danışdı. Burada "Barmek" şirkətinin rəhbəri oturubdur. Siz bəzi şeyləri bilmirsiniz. Biz elektrik enerjisini hasil edirik, insanlara veririk, pulunu ala bilmirik. Biz özümüz 6 milyard kubmetr qaz hasil edirik. 4 milyard kubmetr Rusiyadan alırıq.

Əhaliyə, insanlara qaz veririk, amma pulunu ala bilmirik. Pulunu vermirlər. İndi təsəvvür edin, biz dövləti nə cür saxlayırıq. Çox sağ olsun, Hüseyn Arabul gəldi, dedi ki, mən bu ağır işi götürəcəyəm. Mən dedim, bu, çox ağırdır, ola bilər, sonra qaçdın. Amma hələ ki, qaçmayıbdır və görürəm, hələ qaçmayacaqdır. "Bakıelektrikşəbəkə"ni ona verdik. Çox çətin işlədir. Ancaq indi satılan enerjinin 49 faiz dəyəri ödənilir. Amma biz 8-10 faiz yığa bilirdik.

İndi "Sumqayıtelektrikşəbəkə"ni götürübdür. Sonra nə iş görəcəksən, 3 ildə 80 faizə çatdıracaqsan? Çox yaxşı, təşəkkür edirəm.

Bax, budur, Türkiyə şirkətinin, türk iş adamının Azərbaycanda ölkəmiz üçün gördüyü çox önəmli iş. Bəl-

kə Türkiyə iş adamlarının Azərbaycanda indiyə qədər gördüyü işlərdən ən önəmlisi budur. Çünki bilirsiniz, nə qədər elektrik enerjisi işlədirik. Bakı böyük şəhərdir. İki milyon əhalisi var. Bizdə metropoliten işləyir, başqa şeylər var. Nə qədər elektrik enerjisi gedir, bizim nə qədər vəsaitimiz gedirdi. İndi isə büdcəyə nə qədər vəsaitimiz gələcəkdir. Güman edirəm ki, belə iş adamları Azərbaycana bundan sonra daha da çox gələcəkdir.

İndiyə qədər Azərbaycana gələn adamlar çox iş görüblər. Onların hamısına təşəkkür edirəm. Əgər bu işlər olmasaydı, indi Azərbaycanda, məsələn, inşaat, ticarət və digər şeylər bu səviyyədə ola bilməzdi. Ancaq mən istərdim ki, Türkiyənin iş adamları gəlib istehsala sərmayə qoysunlar.

Bir şey istehsal edək. Mən çox gəlib-gedirəm, amma onu az görürəm. Onu görməyə çox çalışıram. Ancaq bir dəfə deyirlər Sabançı Amerikadadır, bir dəfə deyirlər İngiltərədədir, mən onu görə bilmirəm. İndi Allah nəsib edib ki, burada görüşmüşük, bir yerdə oturmuşuq. Amma o, Azərbaycana heç ayağını qoymayıbdır.

Hörmətli Sabançı, indi mən bu insanların yanında, televizyaın qarşısında sizə müraciət edirəm. Birincisi, siz mənim şəxsi qonaqım, dostum kimi Azərbaycana gəlin. Azərbaycana baxın, görün. Heç bir iş görməsəniz də, gəlin, orada görünün.

Beləliklə, indi Türkiyə-Azərbaycan iqtisadi əlaqələri bu yerə gəlib çatıbdır. Biz bu mərhələyə gəlmişik. O xırda işlər, məsələn, restoranlar, mağazalar, inşaatlar - bunlar hamısı çox yaxşıdır. Bizə çox yardım etdi və hərtərəfli mənfəət götürdük. İş adamları da mənfəət götürdü, Azərbaycan da bir çox şeyləri öyrəndi. Bizim inşaatçılar Türkiyədən gələn inşaat şirkətlərindən çox şey öyrəndilər. İndi öyrəniblər, özləri şəhərdə 20 mərtəbəli evlər tikirlər. Bu, böyük hadisədir və bizim əməkdaşlığımızın, dostluğumuzun nəticəsidir. Amma bundan sonra daha geniş iş görmək lazımdır.

Bizim neft sektorunda gördüyümüz işlər haqqında burada danışıldı. Çox məmnunam ki, hörmətli Süleyman Dəmirəl də bu barədə danışdı və nə qədər əhəmiyyətli olduğunu dedi. Ancaq bir neçə kəlmə demək istəyirəm.

Mən 1994-cü ildən Türkiyəyə gəlirəm. Türkiyəyə hər dəfə gələndə hamı mənə sual verirdi: Bakı-Ceyhan, Bakı-Ceyhan. Mən özüm də Bakı-Ceyhanı düşünürdüm. Amma bilirdim ki, Bakı-Ceyhanı həyata keçirmək nə qədər çətin işdir. İndi isə Bakı-Ceyhanı soruşmurlar. Heç kəs soruşmur. Çünki Bakı-Ceyhan var.

Ancaq bilməlisiniz, mən Bakı-Ceyhan üçün çox ağır yollardan keçdim. Bağışlayın, bəlkə də yükün çoxu mənim üstümə düşdü. Mən idim bu işi aparan, mən idim bu işi görən. Mən Amerika, Avropa neft şirkətlərinə sübut etməliydim ki, Bakı-Ceyhanı həyata keçirmək lazımdır. 1994-cü ildə "Əsrin müqaviləsi"ndə bu, göstərilmişdi, imzalanmışdı. Amma biz sonra Bakı-Supsa ixrac boru xəttini tikdik. 1999-cu ildən indiyə qədər Bakı-Supsa ilə təxminən 25 milyon ton neft ixrac olunubdur. Şirkətlər dedilər ki, Bakı-Ceyhan çox baha olacaq, çətin olacaq, gəlin Bakı-Supsanı genişləndirək və neft Bakı-Supsa vasitəsilə göndərək. Mən dedim, olmaz.

Hörmətli Süleyman bəylə danışdım, dedim, siz bildirin ki, tankerlər Bosfordan daha buraxmayacaqsınız. Yoxsa Bakı - Supsanı genişləndirəndə yenə də Bosfordan keçməlidir. Bosfordan nə qədər keçər? Bizim məqsədimiz o idi ki, bu boru xətti Türkiyədən keçsin, Ceyhana getsin, tankerlər daha dənizdən keçməsin, Bosfordan keçməsin, gəlib nefti Ceyhandan götürsünlər. Mənim bu mübarizəm həmin Qərb şirkətləri ilə, bunlar ki, pulu, hər şeyi qoyurlar, onlarla idi. Onlar öncə deyirdilər ki, olmaz. Bakı - Novorossiysk kəməri var, oradan nəql edək. Ondan da qurtardıq, bundan da qurtardıq. Sonra dedilər ki, pul yoxdur. Pul da tapdıq, filan etdik və 1998-ci ildə Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə Ankarada bəyannaməni imzadıq. Türkiyə Cümhuriyyəti, Azərbaycan Cümhuriyyəti, Gürcüstan, Qazaxıstanı da qatdıq və bəyannamə imzalandı. Ondan sonra, 1999-cu ilin noyabr ayında ATƏT-in İstanbuldakı zirvə görüşündə Cümhurbaşkanı Süleyman Dəmirəl, Cümhurbaşkanı Nursultan Nazarbayev, Cümhurbaşkanı Heydər Əliyev son olaraq sazişi imzaladıq. Amerikanın Cümhurbaşkanı Bill Klinton da ona öz imzasını qoydu. Ondan sonra biz bu işləri apara bildik.

Artıq indi inşaata başlamışıq. Mən çox məmnunam ki, "Botaş" şirkəti Türkiyədə inşaatı başlayıbdır. Bizim şirkətlər də - həm Azərbaycan ərazisində, həm də Gürcüstan ərazisində işə başlayıbdır. Düşünürəm ki, 2004-cü ildə olmasa da, 2005-ci ildə Bakı - Tbilisi - Ceyhan tamam olacaq və biz Ceyhan limanına gedib Azərbaycan neftinin oraya çatmasını görəcəyik.

Bakı - Tbilisi - Ərzurum qaz kəməri barədə. Öncə heç kəsin ağlına gəlməzdi ki, Azərbaycanda bu qədər təbii qaz olacaq və biz onu çıxaracağıq. Amma bu da oldu və anlaşmaları yenə burada imzalamışıq. İş gedir. Bir az problemlər var, bir balaca gecikir. Türkiyə tərəfdə problemlər var. Bizim şirkətlərdə də - yəni bizim deyəndə, oradakı şirkətlərin hamısı Avropanın, Amerikanın şirkətləridir - problemlər var. Ancaq onları da həll edəcəyik və güman edirəm ki, 2006-cı ildə "Şahdəniz" qaz yatağından qaz Ərzuruma çatacaqdır və Türkiyə ondan istifadə edəcəkdir.

Biz bu qədər böyük işlər görmüşük. Bunlar təkcə iqtisadi məsələ deyildir. Bunlar bizim ölkələrimizi polad tellərlə bir-birinə bağlayır. Bu, bizim daim bir yerdə olduğumuzu tə-

min edir. Bu, bizim daim bir yerdə olduğumuzu göstərir. Bakı - Tbilisi - Ceyhan 10,20 il üçün deyil, 100 illər üçündür. Bilin ki, Xəzər dənizində neft hələ XXII əsrədək olacaqdır. İndi görün, nə qədər vaxt üçün biz belə layihələr hazırlamışıq. Ona görə bizim bu işlərimiz, təbiidir ki, başqa işlərimiz də çox yüksək qiymətə layiqdir. Ancaq bu işlər böyük işlərdir.

Biz çalışmalıyıq ki, hər bir iş adamına, Türkiyənin iş adamına Azərbaycanda imkan yaradaq ki, gəlib iş görsünlər. Amma indi rəqabət daha da artıbdır. Əgər beş il bundan qabaq belə bir rəqabət yox idisə, indi rəqabət var. Çünki iş görmək istəyənlər çoxdur. Şərq ölkələrindən, Qərbdən gələnlər çoxdur. Azərbaycanın öz yerli iş adamları artıq yaranıbdır, onlar iş görürlər. Bu rəqabət nəticəsində iş almaq lazımdır. Mən istərdim ki, Türkiyənin iş adamları bunu da nəzərə alsınlar.

Bilirsiniz, Türkiyə ilə Azərbaycanın dostluğu, qardaşlığı iqtisadi əlaqələrlə bağlı deyildir. Bizim dostluğumuzun, qardaşlığımızın dərin kökləri var. Bizim xalqlarımız qədimdən birdir, biz bir millət, iki dövlətik. Ona görə də bizim dərdimiz birdir, bizim sevincimiz birdir, qəmimiz, kədərimiz birdir, bayramımız birdir - hamısı birdir.

Türkiyə qüdrətli bir dövlətdir. Dünyanın böyük dövlətlərindəndir. Türkiyə demokratik dövlətdir və demokratiyanı müsəlman aləmində inkişaf etdirən ilk dövlətdir. Türkiyənin böyük iqtisadi potensialı var. Türkiyənin güclü ordusu var. Türkiyə bizim üçün dayaqdır, arxadır. Mən inanıram ki, Türkiyə bundan sonra da böyük öndər Atatürkün yolu ilə gedərək böyük nailiyyətlər əldə edəcəkdir. Əmin ola bilərsiniz ki, Azərbaycan daim Türkiyənin yanında olacaqdır. Azərbaycan bir müstəqil dövlət kimi demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edəcəkdir, inkişaf etmiş dövlətlər səviyyəsinə qalxacaqdır. Bu da Türkiyə - Azərbaycan dostluğunu bir-birinə daha da bağlayacaqdır. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, dönməzdir, sarsılmazdır.

Yaşasın, Türkiyə Cümhuriyyəti!
Yaşasın, türk xalqı!

TÜRKİYƏNİN MİLLİ BAYRAMI ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

30 oktyabr 2002-ci il

- Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Sizi Türkiyə Cümhuriyyətinin qurulmasının 79-cu ildönümü münasibətilə təbrik edirəm, qardaş türk xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

Türkiyə Cümhuriyyətinin qurulması XX əsrin ən böyük tarixi hadisələrindən biridir. Birinci dünya müharibəsindən sonra, Osmanlı imperiyasının dağılmasından sonra, dünyada yaranmış ağır bir şəraitdə, Türkiyə üçün çox çətin bir dövrdə Türkiyənin böyük insanları - böyük Mustafa Kamal Atatürk və onun silahdaşları 1923-cü ildə Türkiyə Cümhuriyyətini qurmuşlar. Bu, böyük tarixi hadisədir, ona görə ki, bir çox əsrlər Osmanlı imperiyasının dövlət sistemi şəraitində yaşamış xalq artıq özünün hansı yolla getməsini o vaxt çox aydın dərk etdi. Bunu edənlər - Atatürk və onun silahdaşları tarixi bir iş görmüşlər.

Çox sevindirici haldır ki, cümhuriyyət qurulandan sonra ilbəil, artıcıl surətdə inkişaf etmişdir. Baxmayaraq ki, dünyada o illər çox ağır proseslər getmiş, Birinci dünya müharibəsinin yaraları hələ sağalmamış faşizm kimi dəhşətli bir cərəyan meydana çıxmışdı, Türkiyə Cümhuriyyəti tutduğu yolla getmiş, yaşamış, inkişaf etmiş, öz prinsiplərini qorumuş, saxlamış və Türkiyə böyük, əzəmətli, qüdrətli bir dövlətə çevrilmişdir.

İkinci dünya müharibəsində Türkiyənin apardığı doğru və düzgün siyasət Türkiyə Cümhuriyyətini bir daha ağır sınaqlardan qorumuşdur. Biz bu gün Türkiyə Cümhuriyyətinin 79-cu ildönümünü bayram edərək, iftixar hissi ilə deyə bilərik ki, Türkiyə dünyada böyük bir dövlətdir, güclü iqtisadiyyata malikdir, demokratik, hüquqi, dünyəvi dövlətdir, dünya birliyində öz yerini tutmuşdur və dünyada gedən proseslərdə fəal iştirak etməkdədir.

Türkiyə Cümhuriyyətinin iqtisadiyyatı, xüsusən, 1970-1980-ci illərdə çox sürətlə inkişaf etmişdir. O illər dünyada, xüsusən, keçmiş Sovetlər İttifaqında Türkiyə möcüzəsi kimi bir anlayış meydana çıxmışdı. Hamı bu möcüzəni anlamaq istəyirdi. Türkiyənin təcrübəsini araşdırırdı, onun təcrübəsindən istifadə etməyə çalışırdı. Bu, sadə bir şey deyildir. Bu, türk xalqının və onun liderlərinin dünyada gedən proseslərlə nə qədər uyğunlaşdığını göstərir. Bazar iqtisadiyyatının inkişaf etdirilməsi sahəsində o illərdə Türkiyədə həyata keçirilən islahatlar böyük bir sıçrayış yaratdı.

Biz həmişə Türkiyə ilə fəxr etmişik. Bəzən Türkiyədən çox uzaq olarkən Türkiyəni yaxından görməyərkən, orada gedən prosesləri çox bilməyərkən də bizim xalqımız, Azərbaycan xalqı həmişə Türkiyəyə, türk xalqına böyük məhəbbət hissləri bəsləmişdir. Bunun səbəbi aydındır. Bizim xalqlarımız bir kökə mənsubdur, çox dəyərli müştərək tarixi keçmişimiz var. Dilimizin, dinimizin, adət-ənənələrimizin eyni, yaxud bənzər olması həmişə bizi doğmalaşdırıbdır. Buna görə, dediyim kimi, xalqımız həmişə Türkiyəyə məhəbbət hissi ilə yaşamış və onunla qovuşmaq arzusunda, həsrətində olmuşdur.

Nəhayət, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən və hətta bu-

nun ərəfəsində Türkiyə ilə Azərbaycan arasında əlaqələr artıq qurulmağa başlamışdır. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmuşdur. Ancaq tanımaq azdır. Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün Türkiyə ilk günlərdən bizə əlindən gələn köməyi etmişdir. Beləliklə, bizim tarixi dostluğumuz, qardaşlığımız, keçmişdə bütün sahələrdə olan çox gözəl əlaqələrimiz indi dövlətlərarası əlaqələr şəklində inkişaf etməyə başlamışdır.

Biz 11 ildir müstəqillik dövrünü yaşayırıq. Bir neçə gün bundan öncə dövlət müstəqilliyimizin 11-ci ildönümünü bayram etdik. Bu illər bizim üçün heç də asan olmayıbdır. Biz ağır, çətin, ancaq şərəfli bir yol keçmişik. Məhz ona görə şərəfli yol keçmişik ki, biz müstəqil dövlət kimi yaşamışıq. Bu, bizim üçün hər şeydən üstün olub və üstündür. Hər şeydən qiymətli olub və qiymətlidir. Müstəqillik dövründə Türkiyə ilə Azərbaycan daim bir yerdə olubdur. Türkiyə Azərbaycana hər cür yardımlarını edibdir.

İndi artıq Türkiyə ilə Azərbaycanı bir-birindən ayırmaq olmaz. Azərbaycanda indi nə qədər Türkiyə vətəndaşı yaşayır və Türkiyədə nə qədər Azərbaycan vətəndaşı yaşayır. Bunu saymaq da mümkün deyildir. Buna ehtiyac da yoxdur. Bu, təbii bir prosesdir. Ancaq iş təkcə bunda deyil, iş ondadır ki, biz dövlətlər olaraq bir-birimizlə sıx bağlıyıq, sıx əlaqədəyik.

Türkiyə Cümhuriyyətinin dünyaya nümayiş etdirəsi çox gözəl nailiyyətləri var: yüksək səviyyədə qurulmuş bazar iqtisadiyyatı demokratik hüquqi dövlət quruluşu, təhsil, səhiyyə və bütün başqa sahələrdə əldə etdiyi nailiyyətlər. Bunlarla yanaşı, Türkiyənin ən böyük nailiyyətlərindən biri də odur ki, onun çox güclü, qüdrətli ordusu var. Türkiyənin ordusu böyük Atatürkün türk xalqına qoyub getdiyi ən böyük nemətlərdən biridir. Türk xalqı öz ordusu ilə fəxr edir. Biz də eyni dərəcədə fəxr edirik. İki il bundan öncə Türkiyə Silahlı Qüvvələri Komandanının rəhbərliyi altında "Türk ulduzları"nın Azərbaycana gəlməsi və burada öz böyük nailiyyətlərini nümayiş etdirməsi, həm Azərbaycan üçün böyük mənəvi dayaq oldu, həm də bütün dünyaya Türkiyənin ordusunun, onun yüksək səviyyədə olan əsgərlərinin qüdrətini bir daha nümayiş etdirdi.

Biz dövlət quruculuğunda, iqtisadiyyatın inkişaf etdirilməsində, ordu quruculuğunda və bir çox başqa sahələrdə Türkiyə ilə çox sıx əməkdaşlıq edirik. Türkiyənin təcrübəsi ötən illərdə bir çox hallarda bizim üçün örnək olmuş və müstəqil dövlət kimi yeni təsisatların yaradılmasında bizə çox gözəl yardım etmişdir. Bütün bunlara görə bugünkü bayram təkcə Türkiyənin bayramı deyil, bizim də bayramımızdır. Bunu başqa cür qiymətləndirmək də mümkün deyildir.

Dostluq, qardaşlıq Azərbaycan

üçün həm bu gün, həm də gələcək illərdə böyük dayaqdır və dayaq olacaqdır.

Ermənistanın Azərbaycana etdiyi təcavüzün nəticəsində Azərbaycanda baş vermiş vəziyyət bizi narahat etdiyi kimi, Türkiyəni də həmişə narahat etmişdir. Türkiyə bu münaqişənin həll olunması üçün ötən illərdə bizimlə bərabər fəaliyyət göstərmişdir. Türkiyə Minsk qrupunun üzvüdür və bu imkandan da çox istifadə etmişdir və bu gün də bizimlə əməkdaşlıq edir. Əminəm ki, Azərbaycanın bu ağrılı problemlərinin həll olunmasında Türkiyə Azərbaycana öz yardımını heç vaxt əsirgəməyəcək və Azərbaycanla bir yerdə olacaqdır. Məhz bunların nəticəsində biz Ermənistan - Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə nail olacağıq və nəyin bahasına olursa-olsun, Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyik, işğal olunmuş torpaqları azad edəcəyik. Uzun illər çox ağır vəziyyətdə yaşayan vətəndaşlarımızı öz yerlərinə-yurdlarına qaytaracağıq.

Mən bu gün sizinlə birlikdə bu bayramı qeyd etməyə çox böyük hisslərlə gəlmişəm. Çox böyük qardaşlıq hissləri ilə sözlərimi deyirəm və sizin hamınızı, bütün türk xalqını, Türkiyə Cümhuriyyətini, hökumətini bir daha ürəkdən təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə XXI əsrdə də həmişə irəlidə gedən ölkələrdən biri olacaq və Türkiyə - Azərbaycan dostluğu, qardaşlığı daimi, əbədi və sarsılmaz olacaqdır.

Bayramınız mübarək olsun!

MƏKTUB VƏ TELEQRAMLARIN QISA XÜLASƏSİ

18 oktyabr 2002-ci ildə Müstəqillik günü münasibətilə Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevə təbrik məktubu göndərmişdir.

***

23 oktyabr 2002-ci ildə Türkiyə Prezidenti Əhməd Necdət Sezər Xəzər dənizində "Merkuri-2" gəmisində baş vermiş qəza nəticəsində insan tələfatı ilə əlaqədar Heydər Əliyevə başsağlığı məktubu göndərmişdir.

***

26 oktyabrda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin Milli bayramı - Respublikanın elan edilməsi günü münasibətilə Türkiyə Prezidenti Əhməd Necdət Sezərə, Baş nazir Bülənd Ecevitə, TBMM-nin sədri Ömər İzgiyə təbrik məktubları göndərmişdir.

***

5 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki parlament seçkiləri nəticəsində qələbə qazanmış və yeni hökuməti

təkbaşına formalaşdıracaq Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayib Ərdoğan ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

***

5 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədəki parlament seçkiləri nəticəsində TBMM-də təmsil olunacaq digər partiyanın - Cumhuriyət Xalq Partiyasının sədri Dəniz Baykal ilə telefon söhbəti aparmış və onu təbrik etmişdir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN GÖRKƏMLİ İŞ ADAMI SAKİP SABANÇININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 11-də Prezident sarayında Türkiyənin "Sabançı holdinq" şirkətinin idarə heyətinin sədri Sakip Sabançının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə qarşılayaraq dedi:

-Hörmətli Sabançı!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimi qəlbdən salamlayıram. Mənim xahişimlə Azərbaycana belə böyük qrupda gəlməyinizi çox yüksək qiymətləndirirəm.

Hörmətli Sabançı ilə son vaxtlar bir neçə dəfə danışıqlarımız, görüşlərimiz olmuşdur. Mən onu Azərbaycana dəvət etmişdim. Ancaq nəyi isə gözləyirmiş. İndi artıq həm özü gəlib, həm də özü ilə bərabər Azərbaycana çox mötəbər insanlar, Türkiyənin hörmətli iş adamlarını gətiribdir. Bu, Azərbaycan üçün çox böyük hadisədir. Çünki Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyədən Azərbaycana kiçik, orta böyük çox iş adamı gəlibdir. Amma indi gələn ən böyük iş adamlarında: biri Sabançıdır. Ümumiyyətlə, Türkiyədə Sabançıya bərabər ikinci iş adamı yoxdur. Ona görə bunu heç müqayisə etməyə ehtiyac yoxdur. Mən bu səfəri qiymətləndirirəm, bizim ictimaiyyət də buna çox böyük əhəmiyyət verir.

Mən sizi Türkiyədə dəvət edəndən sonra və məlum olanda ki, Azərbaycana gələcəksiniz, sizin bu səfərinizə böyük maraq var idi. Nəhayət, siz bunu həyata keçirdiniz. Ancaq mən burada bir məna da görürəm. Görünür ki, Sabançı 3 noyabr seçkilərinin keçməsini gözləyirmiş ki, məclis seçilsin və ondan sonra Azərbaycana gələsiniz.

Sakip Sabançı: Onda daha yaxşı olacaqdı.

Heydər Əliyev: Onda daha yaxşı olar. Mən bilirəm ki, siz bu seçkilərin nəticəsini bəyənmisiniz.

Sakip Sabançı: Bəyənmişəm.

Heydər Əliyev: Bəyənmisiniz və

demisiniz ki, daha da yaxşıdır ki, indi Türkiyədə bir partiya iqtidarda olaçaqdır. Bu, sizin sözlərinizdir, qəzetdə yazmışdılar, mən oxudum. Mən düşünürəm, yəqin, siz gözləyirdiniz ki, Azərbaycana məhz yeni bir parlament, hökumət seçiləndən sonra gələsiniz. Amma baxmayaraq, bilirəm, sizin hökumətdən heç bir asılılığınız yoxdur. Hər bir hökumətin vaxtında, hər bir iqtidarın vaxtında Sabançı Sabançı olaraq qalıbdır. Çox vaxt iqtidarın, hökumətin Sabançıya ehtiyacı olur, nəinki Sabançının hökumətə.

Çünki bazar iqtisadiyyatının qanunu belədir. Sərbəst iqtisadiyyatdır, iş adamı sərbəstdir, heç kəsdən də asılı deyildir. Öz işini normal görür, ölkəsinə mənfəət gətirir, vergiləri verir, büdcəni doldurur və beləliklə də onun müstəqilliyi başqalarına nisbətən daha da çoxdur, yüksəkdir.

Məmnunam ki, siz Türkiyədə yeni bir həyat başladığı zaman Azərbaycana gəlmisiniz. Mən bunu da çox qiymətləndirirəm. Fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyəti və xalqını seçkilərin uğurlu keçməsi münasibətilə bir daha təbrik edirəm. Mən seçkilərdə qalib gələn partiyanın başqanı hörmətli Ərdoğanı dərhal telefonla təbrik etdim, ona uğurlar dilədim. Müxalifətdə olan, seçkilərdə ikinci yeri tutan partiyanın başqanı hörmətli Dəniz Baykalı da təbrik etdim, ona uğurlar arzuladım. Güman edirəm, yaxın vaxtlarda yeni hökumət yaranacaq və Türkiyə iqtisadi məsələlərin həll olunmasında daha da uğurlu işlər görəcəkdir. Belə bir vaxtda sizin buraya gəlməyiniz onu göstərir ki, Türkiyə-Azərbaycan iqtisadi əlaqələri daha da genişlənəcəkdir.

Siz Azərbaycanı görəcəksiniz, onun bugünkü həyatını görəcəksiniz və burada hansı işləri görəcəksinizsə, təbiidir, onu da özünüz müəyyən edəcəksiniz. Mən sizə təşəkkür edirəm.

Səmimi qəbula görə minnətdarlığını bildirən cənab **Sakip Sabançı:** dedi:

- Hörmətli Prezident, çox sağ olun. Mən bilirəm ki, 35 ildən bəri gözəl bir xalq üçün xidmət göstərirsiniz. Siz bir memar olaraq, bir çox sahələrdə olduğu kimi, ölkənizin irəliyə getməsi üçün də əvəzsiz işlər görmüsünüz. Əgər son on ili keçmiş illərlə müqayisə etsək, yeni ruh insanların gördüyü işi sürətləndirdi. Dövlət müəssisələri vaxtilə çox önəmli və yolgöstərici idi. Bu gün məmləkətinizdə 15-16 ədəd özəl universitet yaratdınız. Dövlətin də universitetləri var idi. Ancaq əskidən yalnız dövlətin universitetləri varkən, rəqabət məsələsi gündəmə gəlmirdi. İndi rəqabət dövrüdür. Müqayisə etsək, dövlət sektorundakı universitetlər özəl sektorlardakı universitetlərlə birlikdə yeniliklər gətirəcəkdir. Hansı sahə olur-olsun, hansı insan idarə edir-etsin, aparılan rəqabət insanlara məmnunluq gətirir.

Mən Zati-alinizi İstanbulda din-

ləyərkən çox təsirləndim. Sonra hörmətli nazir Fərhad bəyi dinlədiyim zaman ayrıca təsirləndim. Sizin enerji sahəsində inkişafınızın hədəflərə çatmasını qiymətləndirərkən tamamilə təsirləndim. Zati-aliniz kürsüdə danışarkən, "Çalışsan da, çalışmasan da mən səni dəvət edəcəm" dediniz. Bu, bir məsələni anladır. Yəni təşəbbüs xeyirlidirsə, insanlığa, ölkələrə fayda verirsə, belə təşəbbüslər həyata keçirilməli, təşviq olunmalıdır. Bu, məhz bunu anladır.

Enerji sahəsində Zati-alinizin rəhbərliyi ilə məmləkətinizdə son ildə görülən işlərə, inkişafa görə Sizə hər kəs mütləq təşəkkür edir və biz də təşəkkürümüzü bildiririk. Arzu edirik ki, uzun illər yaşayın, rəhbərliyiniz davam etsin və iki qardaş ölkə kimi dialoqlarımız daha da yaxşı olsun.

Mən bir eyibli işimi də söyləmək məcburiyyətindəyəm. Bu gözəl məmləkətinizə indiyə kimi gələ bilməmişəm. Bundan çox peşmanam. Amma bu, keçmişdir. İndi irəliyə baxmaq daha yaxşıdır. Artıq ölkəmdə seçkilər başa çatdı. Əvvəllər söyləyirdim ki, partiyalar haqqında qanunları dəyişdirin, seçkilər haqqında qanunu dəyişdirin və ondan sonra seçkilərə gedin. Bu qanunların dəyişməsini bir səbəbə görə istəyirdim. Bu səbəb güclü, davamlı hakimiyyətin gəlməsi idi, buna həsrət idik, bunu gözləyirdik. Bunu partiya liderlərinə anlada bilmədik. Söylədik, söylədik - hamısı havada uçub getdi. Amma xalqımız səs verdi, liderlərin görə bilmədiyi işi xalq gördü. Xalq nə etdi? Təkbaşına güçlü bir hakimiyyət yaratdı. Bu, təşəbbüs yolunu açacaq, evimizin içində, digər məmləkətlərdə görəcəyimiz işlərin, qoyacağımız sərmayələrin yolunu açacaqdır. Bundan hər kəs zövq alırsa, deyirəm ki, irəliyə gedəcəyik.

Qonaqpərvərlik göstərib bizi qəbul etdiyinizə görə, Zati-alinizə bir daha təşəkkürümü bildirirəm. Cənab Prezident, icazənizlə, dəyərli həmkarlarım Sizə öz fəaliyyətləri barədə qısa məlumatlar versinlər. Nihat Gökyigit \"Tekfen holding"in idarə heyətinin sədri\:

- Möhtərəm Prezident, mən buraya yenidən gəlmişəm. Şirkətimiz neft sənayesində Azərbaycanın yüz ildən də artıq olan çox qiymətli təcrübəsindən istifadə edərək, gözəl bir qrup yaratdı, onu müasir texnika, avadanlıqla, tikinti materialları ilə təmin etdik. Bu qrup yaxşı işlər görübdür. Bakı-Supsa boru xəttinin Azərbaycan hissəsini tamamladıq. Eyni zamanda, burada neft sahəsində davamlı işlər görür. Ən önəmlisi isə,

Bakıdakı bir terminalı tikməkdəyik.

Burada ikinci bir iş də görürük. Bayılda sizin gəmi təmiri zavodunuz var. O, sovet vaxtından qalıbdır və köhnəlibdir. Biz onun bir hissəsini aldıq, sərmayə qoyduq və müəyyən xidməti işlər görməyə başladıq.

Heydər Əliyev: O, Dövlət Neft Şirkətinin işləridir?

Nihat Gökyigit: Bəli. İndi daha böyük işlər var. Biz oranı tamamilə bərpa edirik və 25 milyon dollar sərmayə qoyacağıq. Həmçinin, gələcəkdə burada neft şirkətlərinə 120 milyon dollarlıq iş görəcəyik. Mən başqa işləri demirəm, amma yeri gəlmişkən, bir xahiş edəcəyəm. Hər il İstanbulda keçirilən "Üç dənizin hekayəsi" konfransında Siz buna yeni bir ad tapdınız, "Üç dənizin əfsanəsi" dediniz. Biz buna çox sevindik. Amma dediniz ki, Bakı-Tbilisi-Ceyhan əfsanəsi artıq bitdi. Yeni əfsanələr axtarın. Biz də axtarmağa başlamışıq.

Cənab Prezident, hər il iyunun 6-da İstanbulda keçiriləcək toplantımızda Sizin iştirakınızı çox arzu edirik. Bu toplantı dünyadakı ən böyük neft şirkətlərinin inkişafına xidmət edir. Türkiyə və Azərbaycanın iqtisadi inkişafında çox böyük xidmətlər göstərdiniz. Bunlardan biri də İstanbulda hər il keçirilən "Üç dənizin əfsanəsi" adlı konfransda iştirak etməyə qərar verməyinizdir. Təşəkkür edirəm.

Heydər Əliyev: Mən sizin konfransınızı həmişə dəstəkləmişəm. Bunu bilirsiniz. Son dəfə də sizin konfransda iştirak etdim və bundan çox məmnun oldum. Siz konfransın adını "Üç dənizin hekayəsi" qoymusunuz. Mən isə dedim, bu, "Üç dənizin əfsanəsi"dir. Amma biz bu əfsanəyə son qoyduq. Əvvəllər onlar fikirləşirdilər ki, üç dəniz nə olacaqdır. Bakı-Tbilisi-Ceyhan boru xətti ilə biz üç dənizin əfsanəsini qurtardıq. Xəzər dənizini, Qara dənizi və Aralıq dənizini bir-biri ilə bağlayırıq. 15-20 il bundan öncə Türkiyədə, Azərbaycanda heç kəsin ağlına gəlməzdi ki, belə bir şey ola bilər. Amma artıq bu, gerçəklikdir, biz bunu etmişik. İndi sizin şirkətiniz burada terminal tikir. İlk neft bu terminalda toplanacaq, oradan Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə Ceyhan limanına gedəcəkdir.

Nihat Gökyigit: Yeni əfsanə üzərində çalışırıq. Sizin dəstəyinizə böyük ehtiyacımız var.

Heydər Əliyev: Siz elə bir əfsanə tapın ki, o, məni cəlb etsin, oraya gələ bilim.

Nihat Gökyigit: Azərbaycan qazının Türkiyəyə çatdırılması və oradan Avropaya göndərilməsi. Bu da bir əfsanədir, amma həqiqət olacaqdır. Növbəti konfransda bu məsələni müzakirə edəcəyik. Əgər bu konfransa gəlsəniz, çox məmnun olarıq.

Heydər Əliyev: Əgər konfransda bu məsələni müzakirə etsəniz, mən gələrəm.

Sakip Sabancı: Hörmətli Cümhurbaşkanım, bizim bir qərarımız da var. Əgər gəlsəniz, mənim universitetimə, muzeyimə də gedəcəksiniz. Mən də Nihat bəyə qoşularaq deyirəm ki, əgər həmin konfransa gəlsəniz, bundan böyük şərəf duyacağıq.

Heydər Əliyev: İnşaallah.

Zeynalabdin Ensey: \"Türk-Amerika" işbirliyinin rəhbəri\: Möhtərəm Prezident, hamınızı hörmət və ehtiramla salamlayıram. Mən İstanbulda yerləşən bir toxuculuq fabriki-

nin sahibiyəm. Bir ipək fabrikimiz, İzmirdə konteyner zavodumuz da var. Digər sahələrdə də fəaliyyət göstəririk. Mən də Azərbaycana ilk dəfə gəlirəm. Biz digər türkdilli respublikaları gəzdik, amma buraya gəlmək qismət olmamışdı. Amma indi gəlmişəm, Sizinlə görüşməkdən çox məmnunam. Burada bir çox işlər görmək barədə düşüncələrimiz var. Çünki Sizi çox sevirik. Azərbaycan bizim qardaşımızdır. Siz də onun çox hörmətli, sevimli Cümhurbaşkanısınız. Ona görə də Sizi bir daha ehtiramla salamlayıram.

Heydər Əliyev: Mən sizə təşəkkür edirəm ki, Azərbaycana gəlmisiniz və sizinlə bu qədər iş adamları gəlibdir. Mən bunu sadə bir hadisə hesab etmirəm. Bunun nəticəsi olacaqdır. Mən buna inanıram. Bu da Türkiyə iş adamlarının Azərbaycanda iş alması məsələsini daha da irəliyə aparacaqdır.

Mənim İstanbulda Türkiyənin iş adamları ilə görüşməyim, - çox məmnunam ki, siz o görüşdə iştirak edirdiniz, biz bir yerdə söhbət etdik, - bu məqsədi daşıyırdı ki, onları bir daha Azərbaycana dəvət edim, Azərbaycana gəlməyə həvəsləndirim. Onlara bir daha deyim ki, siz Türkiyədə, başqa ölkələrdə iş görürsünüz. Ancaq Azərbaycanda da iş görməyin sizə də, Azərbaycana da faydası var və Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf etməsində çox böyük əhəmiyyəti var.

Mənim cibimdə Sabançının kartı var. Bunu görürsənmi? Sən bunu mənə orada verdin, elədirmi?

Sakip Sabançı: Bəli, görürəm.

Heydər Əliyev: Sən elə bildin ki, mən bunu alıb nə isə edəcəyəm. Cibimdə saxlamışam. Dedim ki, Sabançı Bakıya gələnə qədər bu, mənim cibimdə qalmalıdır. O, gəlsin, burada işlərimizi birlikdə görək.

Nihat Gökyigit: Cənab Prezident, o, özünü elə vermişdir. Yəni artıq buradan qaça bilməz.

Heydər Əliyev: Yox, o, buradadır. Bu, onun pasportudur, mənim cibimdədir. Sizə bir daha təşəkkür edirəm.

MƏKTUB VƏ TELEQRAMLARIN QISA XÜLASƏSİ

18 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin yeni təyin olunmuş Baş naziri Abdullah Gülə təbrik məktubunu göndərmişdir.

***

20 noyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Parlamentinin yeni Sədri Büləd Arınça təbrik məktubunu göndərmişdir.

***

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN "ENKA" ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev noyabrın 28-də Prezident sarayında Türkiyənin "Enka" şirkətinin fəxri prezidenti Şarık Taranın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları mehribanlıqla salamlayan dövlətimizin başçısı Heydər Əliyev vaxt tapıb ölkəmizə gəldiklərinə görə onlara təşəkkür etdi, "Enka" şirkəti tərəfindən Bakıda tikilmiş yeni aeroportun açılışında cənab Şarık Taranı görmədiyini vurğulayaraq dedi ki, sizə Azərbaycana sərmayə qoymağı məsləhət bilirəm.

Səmimi qəbula görə Prezident Heydər Əliyevə dərin minnətdarlığını bildirən "Enka" şirkətinin fəxri prezidenti Şarık Tara aeroportun açılışı zamanı cərrahiyyə əməlliyatı keçirdiyini söylədi. O, rəhbərlik etdiyi şirkətin fəaliyyətindən və gələcək planlarından danışaraq dedi ki, biz Azərbaycanda bir çox işlər görmək istəyirik. Yaxın Şərqdə, Avropada, Orta Asiyada və digər bölgələrdə iş görürük, milyonlarla dollar sərmayə qoymuşuq. Dekabrın axırlarında Moskvada Avropanın ən böyük və gözəl konsert salonlarından birini təhvil verəcəyik və açılış mərasimində Prezident Putin, Moskvanın meri Lujkov da iştirak edəcəklər.

Şirkətin rəhbəri İqtisadi İnkişaf nazirliyində keçirilən görüşdə bəzi məsələləri müzakirə etdiyini söylədi, Azərbaycanda sənayenin bir sıra sahələrində fəaliyyət göstərmək istəyini nəzərə çarpdırdı.

Avropanın ən böyük elektrik stansiyalarının "Enka" tərəfindən inşa olunduğunu, Türkiyədə Amerika şirkəti ilə birgə 3800 meqavat gücə malik stansiyanın tikintisinə 2,2 milyard dollar vəsait xərclədiyini bildirən qonaq dedi ki, biz Azərbaycana sərmayə qoymağa hazırıq. Sumqayıtdakı 400 meqavatlıq istilik-elektrik stansiyasını yenidən qurmaq niyyətimiz var. Cənab Prezident Azərbaycanda Siz varsınız. Ona görə hamımız düşünürük ki, bizim burada iş görməyimiz böyük şərəfdir.

Şarık Tara Avropanın tikinti şirkətlərinin Türkiyədən 15 il geri qaldığını, texnoloci baxımdan özlərinin çox irəliyə getdiyini vurğulayaraq, indiyədək Türkiyədən xaricə 146 min işçi qüvvəsi göndərdiyini bildirdi. Sonra şirkətin rəhbəri özünün şəxsi məktubunu dovlətimizin başçısına təqdim etdi.

Azərbaycan Prezidenti Heydər Əliyev qonağa təşəkkür edərək dedi:

- Bunlar çox böyük işlərdir. Çox gözəl fikirlərin var, gördüyün işlər haqqında məlumat verdin. Mən əvvəl də bilirdim, indi də dedin ki, Rusiyada çox işlər görmüsən. Rusiyada hələ sovet dövləti vaxtından işləməyə başlamısan, Petrovski passacı sən bərpa etmisən. Mən onda Moskvada

yaşayırdım. Onda Moskvada dedilər ki, türklər necə gözəl inşaatçılardır. Biz hamımız türkük, ona görə mən bunu açıq danışmalıyam. Keçmişdə belə hesab edirdilər ki, türk heç bir şey bacarmır, heç bir şey edə bilməz. Türkünkü, nə bilim, qoyun saxlamaqdır, filandır, filandır. Rusiyada türklər barədə belə fikirlər çox idi. Bəzən bir adam pis iş edəndə deyirdi ki, sən türksən, nəsən. Yəni pis adamı kimi hesab edirdilər. Amma o vaxt sən gəldin Petrovski passacı bərpa etdin, ondan sonra Türkiyə Moskvada ad çıxarmağa başladı. İndi də Moskvada çox binalar tikmisən. Ona görə mən çox məmnunam. Çünki mən hər dəfə Moskvada olanda eşidirəm ki, bunu "Enka" şirkəti edib, bunu türk edibdir. Bu, bir türk kimi məni sevindirir.

Dövlətimizin başçısı daha sonra dedi ki, məktubu mütləq oxuyacağam və fikrimi deyəcəyəm. Sən böyük iş adamısan. Azərbaycan sənin öz vətənindir, Türkiyə ilə Azərbaycana fərq yoxdur. Ona görə burada iş görməlisən, yatırım qoymalısan. Rusiyada, digər yerlərdə yatırım qoyursan, onlara fayda verirsən. Bu yatırımı buraya qoy, həm özün fayda götür, həm də Azərbaycan, qardaşların fayda götürsün. Azərbaycanda görüləcək işlər nə qədər böyük olsa da, başqa ölkələrdə gördüyün işlərin yanında kiçik bir şeydir. Məsələn, 400 meqavatlıq stansiya bizim üçün işdir, amma "Enka" üçün o qədər də böyük deyildir.

MƏKTUB VƏ TELEQRAMLARIN QISA XÜLASƏSİ

4 dekabr 2002-ci ildə Türkiyənin Baş naziri Abdullah Gül Azərbaycan Prezidenti Heydər Əliyevə Ramazan Bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV MÜSƏLMAN ÖLKƏLƏRİNİN SƏFİRLƏRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 4-də Prezident sarayında müsəlman ölkələrinin ölkəmizdəki səfirlərini - Nasir Əbdüssəmini \Liviya\, Əbdülqafur Əbdürrəhmanovu \Özbəkistan\, Qalib əl-Təmimini \İraq\, xanım Cihan Əmin Məhəmməd Əlini \Misir\, Əhəd Qəzaini \ İran\, Əli Həsən Əhməd Cəfəri \Səudiyyə Ərəbistanı\, Faiz Məhəmməd Xosonu \Pakistan\, Əhməd Ünal Çeviközü \Türkiyə\, Andar Şuxputovu \Qazaxıstan\ Ramazan bayramı münasibətilə qəbul etmişdir.

Səfirləri səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

Hörmətli səfirlər!

Mən sizi müsəlmanların müqəddəs bayramı - Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Siz, təmsil etdiyiniz ölkələrin hökumətinə və xalqlarına sülh, əmin-

amanlıq, rifah arzu edirəm.

Ramazan bayramı müsəlmanların müqəddəs bayramlarından biridir. Bu bayram həmişə müsəlmanlara xeyir-bərəkət gətirib, sülh, əmin-amanlıq gətirib, dostluq-mehribanlıq gətiribdir. Təəssüflər olsun ki, biz Azərbaycanda bu bayramı yalnız son illər ümummilli bayram, xalq bayramı kimi qeyd edirik. Yəni son illərə qədər belə bayram etməmişik, indi edirik. Keçmiş illərdə Sovet İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da din yasaq edildiyinə görə, bu bayramlar qadağan olunduğuna görə insanlar bunları öz ailəsində, evində, qəlbində bayram ediblər.

Xatirimdədir, mən uşaq idim, valideynlərim oruc tuturdular, bu bayramı da qeyd edirdilər. Biz uşaq kimi bu bayramdan öz bəhrəmizi götürürdük. İndi isə müstəqil Azərbaycanda, müsəlman ölkəsində bu, bizim milli bayramımızdır, dövlət bayramımızdır, xalqın bayramıdır. Biz bunu geniş qeyd edirik.

Biz Azərbaycanda bu bayramı qeyd edərkən, bütün dünyada yaşayan müsəlmanların hamısını təbrik edirik. Bu bayram münasibətilə dünya müsəlmanlarına yaxşı-yaxşı günlər arzulayırıq. Sizi bir daha təbrik edirəm, hər birinizə cansağlığı arzu edirəm.

Özbəkistanın Bakıdakı səfiri **Əbdülqafur Əbdürrəhmanov** səfirlər adından Prezident Heydər Əliyevə müraciət edərək dedi:

-Möhtərəm cənab Prezident!

Əvvəla, artıq dərəcədə məşğul olmağınıza baxmayaraq, bu gün bizi qəbul etməyə imkan tapdığınıza görə Sizə böyük minnətdarlığımı bildirirəm.

Bu gün mənim üzərimə böyük və şərəfli missiya düşübdür. Müsəlman ölkələrinin səfirləri adından Zati-alinizi və Sizin simanızda Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Bu bayram bütün müsəlman aləmi ilə birlikdə Azərbaycanda da geniş qeyd olunur. Bu günlər hər bir müsəlmanın müqəddəs borcu öz yaxınlarına, yaşlı nəslə və ətrafındakı insanlara dərin hörmətlə yanaşmağıdır. Bu bayram zamanı dünyasını dəyişənlərə, yaxın qohumlara və dostlara ehtiram və hörmət bildirilir, məzarlar ziyarət olunur, xeyriyyə tədbirləri keçirilir və hər bir müsəlman kasıblara, kimsəsizlərə və yetim uşaqlara yardım edir.

Qətl və zorakılığı tam inkar edən, xeyirxahlığı və səbri təbliğ edən islam dininin insansevərliyi, demokratikliyi bu bayramda özünü tam mahiyyəti ilə göstərir. Təəssüf ki, yüz minlərlə günahsız insanların ölümünə bais olan ayrı-ayrı qüvvələr öz cinayətlərini ört-basdır etmək üçün islam dinindən istifadə edirlər. Keçən ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarında, habelə başqa ölkələrdə baş vermiş dəhşətli terror aktları ekstremistlər tərəfindən guya islam bayrağı adı altında törədilmişdir. Əslində isə bu əməllər dünya ic-

timaiyyətinin gözündə islam dininə zərbə vurmuşdur. Məhz buna görə, indi islam dininin heç vaxt olmayan ciddi müdafiəyə ehtiyacı var. Birinci növbədə, öz siyasi ambisiyalarını həyata keçirmək məqsədi güdən terrorçulardan müdafiəyə ehtiyacı var. Digər tərəfdən, dinimizin haqsız iddialardan da qorunmağa, siyasətdən və ekstremizmdən uzaq olan Qurani-Kərimin qanunlarının düzgün təhlil edilməsinə ehtiyacı var.

Burada iştirak edən həmkarlarımın fikirlərini ifadə edərək, bildirmək istəyirəm ki, biz Azərbaycanda siyasi və iqtisadi islahatların həyata keçirilməsində böyük nailiyyətlərlə yanaşı, dini sahədə də müsbət meylləri müşahidə edirik. Sizin ölkədə müxtəlif konfessiyaların nümayəndələri üçün tolerantlıq mühiti və qanuni vicdan azadlığı yaradılmışdır. Bütün bu nailiyyətlər Sizin böyük həyat təcrübəniz, beynəlxalq aləmdəki nüfuzunuz, öz vətəninizə və xalqınıza böyük məhəbbətiniz nəticəsində mümkün olmuşdur.

Hörmətli cənab Prezident!

İcazə verin, bu görüşdə iştirak edən həmkarlarım adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edim. Sizə cansağlığı, uzun ömür, ölkənizdə inkişaf və əmin-amanlıq yolunda apardığınız fəaliyyətdə böyük uğurlar diləyirəm. Sizin simanızda bütün Azərbaycan xalqına xoşbəxtlik, sülh və firavanlıq arzu edirəm.

Heydər Əliyev: Cənab səfir, çox dəyərli sözlərinizə, fikirlərinizə görə sağ olun, mən sizə təşəkkür edirəm. Bayram etmək lazımdır. Düzdür, mən burada sizə bayram süfrəsi açmamışam. Mən sizi sözlə təbrik edirəm. Amma bilirəm ki, hər biriniz böyük bayram süfrəsi açmısınız, açacaqsınız, həm özünüz, həm də yaxınlarımızla birlikdə bu bayramı keçirəcəksiniz. Mən də belə edəcəyəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dekabrın 25-də Prezident sarayında Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviközü qəbul etmişdir.

Səfiri səmimiyyətlə salamlayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

-Görürsünüz bizə necə qış gəlib?!

Əhməd Ünal Çeviköz: Hörmətli Cümhur başqanım, deyildiyinə görə 30 ildir Azərbaycanda belə soyuq hava olmamışdır.

Heydər Əliyev: Amma mənə dedilər ki, Türkiyədə də çox güçlü qış var.

Əhməd Ünal Çeviköz: Bəli, Türkiyədə də çox çətin qış keçir. İstanbulda, Ankarada və Şərqi Anadoluda xüsusilə sərtdir.

Heydər Əliyev: Hətta İstanbul-

Ankara yolu bir vaxt bağlanmışdı. Sonra məlumat aldım ki, 7 min kənddə yollar bağlanıbdır.

Əhməd Ünal Çeviköz: Son zamanlar bütün dünyada iqlimdə çox böyük dəyişikliklər vardır. Bu, Türkiyəyə və Azərbaycana da təsirini göstərir.

Heydər Əliyev: Bizdə qış olması lazımdır. Olmasaydı deyərdik, nə üçün bizdə yoxdur.

Əhməd Ünal Çeviköz: Əlbəttə, bunun Azərbaycanda əkinçilik üçün faydalı olduğunu söyləyirlər. O baxımdan, təbii ki, bu, sevindirici haldır.

Heydər Əliyev: Həm əkin üçün, həm təbiət üçün, həm də məşələr üçün - hər şey üçün faydalıdır. Bizdə yaşayış üçün müəyyən çətinliklər yaradır. Ancaq bunlar müvəqqətidir. Amma əsas məsələləri götürsək, bu, təkcə Azərbaycanın əkinçiliyi üçün deyil, bütün təbiəti üçündür. Çünki biz neçə illər idi Azərbaycanda normal qış görmürdük.

Keçmişdə Rusiyada böyük bir artist var idi - Arkadi Raykin, insanları orijinal komik səhnəciklərlə güldürürdü. O, danışırdı ki, keçmişdə nə yaxşı idisə, indi yaxşı deyil. Deyirdi ki, keçmişdə qış qış idi, amma indi qış deyil. Başqa şeylər də deyirdi, amma bunu həmişə deyirdi. Azərbaycanda da belə olmuşdur.

Mən dünən Naxçıvan ilə telefonla danışırdım. Mən uşaqlığımı, gəncliyimi Naxçıvanda keçirmişəm. Orada çox sərt qış olardı, 30 dərəcəli şaxta 20-30 gün davam edərdi. Qarı küçələrdən iki aya təmizləmək mümkün olmurdu. Amma sonra orada da iqlim dəyişdi.

Mən orada gənc vaxtımda olmuşdum, sonra, bilirsiniz, bir müddət Naxçıvanda yaşamağa başladım. Təbii ki, buralara baxanda orada qar vardı, qış vardı. Başqa yerlər kimi deyildi. Amma mən gördüyüm qışı görmədim. İndi mənə deyirlər ki, gördüyün o qış var.

Əhməd Ünal Çeviköz: Naxçıvan Şərqi Anadoluya da yaxın olduğu üçün iqlimi də eynidir. Bu il çox çətin bir qış keçir.

Heydər Əliyev: Bu, keçib gedəcək, amma xeyri çoxdur.

Kefiniz yaxşıdır. Türkiyədə də işlər yaxşı gedir. Yeni hökumət qurulubdur.

Əhməd Ünal Çeviköz: Cənab Prezident, təşəkkür edirəm. Mən bunları Sizə ərz etmək üçün görüşmək istəyirdim. Vaxt ayırıb məni qəbul etdiyinizə görə minnətdaram. Bilirsiniz ki, bu il noyabrın 3-də keçirilən seçkilərdən sonra Türkiyədə yeni, təkpartiyalı hökumət quruldu, yeni parlament seçildi. Son illərdən fərqli olaraq, ilk dəfə bir partiya hökuməti qurdu. Bu hökumətin qurulması, ölkəmizin sabitliyi, parlamentin bəzi qanunları daha yaxşı qəbul etməsi baxımından çox faydalı və mühüm hadisədir.

Bilirsiniz ki, hökumətimiz qurulan kimi, bəzi məsələlərlə qarşılaşdı və gündəminde bunlara əsas yer ayır-

dı. Daxili siyasət sahəsində Türkiyədə davam edən iqtisadi islahatlar amalına fayda verəcək bəzi addımlar atıldı. Dekabrın 13-də Avropa Birliyinin Kopenhagendə keçirilmiş zirvə toplantısının sonunda Türkiyənin Avropa Birliyinə üzv qəbul olunması haqqında danışıqlara başlanması üçün 2004-cü ilin dekabr ayı müəyyən edildi. Təbii, Türkiyə istədiyi nəticəni ala bilmədiyi üçün bu qərardan məmnun deyildir. Ancaq bu qərarın verilməsi Türkiyənin Avropa Birliyinə üzv qəbul olunmasının və Avropa ilə əlaqələrinin qarşısının açıq olduğunu göstərdi.

Avropa Birliyi Türkiyə ilə bağlı bu qərarı qəbul edərkən, Cənubi Kipr ilə bağlı bir qərar da verdi. Biz bu qərarın yanlış olduğunu və problemin həlli üçün yetərli olmayacağını düşünürük. Türkiyə Kiprlə bağlı atacaq addımlarını əvvəldən açıq şəkildə dilə gətirmişdir. Türkiyə Cənubi Kiprin Avropa Birliyinə üzv qəbul edilməsini siyasi və hüquqi baxımdan tanımayacaqdır. Türkiyə bu qərarı tanımadığını və onun əhəmiyyətsiz olduğunu bütün dünyaya açıq şəkildə bəyan etmişdir. Ümid edirik ki, önümüzdəki vaxtlarda Şimali Kipr Türk Cümhuriyyəti ilə Cənubi Kipr arasında müzakirələr davam edəcək və bu məsələnin həlli üçün mühüm addımlar atılacaqdır. Ancaq Avropa Birliyinin verdiyi qərar, Cənubi Kipr bu məsələnin həlli üçün iradə sahibi olmadığı üçün, onu bir az arxayınlaşdıracaqdır. Bunun isə problemin həllinə mühüm fayda verməyəcəyini düşünürük.

Mən yeni hökumətimizin fəaliyyəti, xarici siyasətlə bağlı gördüyü işlər və bəzi başqa məsələlər barədə Sizə məlumat vermək üçün görüşmək istəmişdim.

Cənab Prezident, hökumətimizin xarici siyasəti əvvəlki hökumətlərin həyata keçirdikləri proqramlara tam uyğun şəkildə davam edir. Xüsusilə Qafqazla bağlı siyasətimizin əsasını Siz bilirsiniz. Azərbaycanla, digər türkdilli cümhuriyyətlərlə əlaqələr daim diqqət mərkəzindədir. Azərbaycanın ərazi bütövlüyünün tanınması, işğal altındakı torpaqlarının tezliklə azad olunması, Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünə, beynəlxalq hüquqa hörmət göstərilərək həlli Türkiyənin 58-ci hökumətinin siyasətini təşkil edir. Hesab edirik, bu sahədə əlavə heç bir şərhə ehtiyac yoxdur. Bunları Sizə demək üçün buraya gəldim. Sizi Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə də təbrik edirəm.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm.

Türkiyədə gedən proseslər bizi məmnun edir. İndi, siz buyurdunuz, Türkiyədə ilk dəfə bir partiya əsasında yeni hökumət qurulubdur. Bu, təxminən indiki qışa bənzəyir, 40 ildir belə qış yox idi. İndi belə bir qış gəldi. Sizdə də bilmirəm, neçə illərdir, bir partiya heç vaxt təkbaşına iqtidara gəlməmişdi, indi gəldi. Bu,

hər halda, çox önəmli bir hadisədir. Çünki bir partiya siyasətini düzgün quraraq, Türkiyənin problemlərini daha da uğurla həll edə bilər.

Sizdə illər boyu olan koalision hökumətlər həmişə işlərin müəyyən qədər əngəllənməsinin səbəbi olubdur. Bilirəm, Türkiyədə böyük siyasət adamlarının hamısı uzun illərdən bəri ilk dəfə bir partiyanın iqtidara gəlməsini çox müsbət qiymətləndirirlər. Azərbaycanın Prezidenti olaraq mən də bunu çox müsbət qiymətləndirirəm. Parlamentdə də bu hökumətin bir müxalifəti var. Yəni bu baxımdan da elə bir problemi yoxdur. Həm iqtidarda bir partiya var, həm də müxalifətdə. Qalan partiyalar parlamentdən kənarda qalıblar. Birincisi, yeni hökumət ölkə iqtisadiyyatının inkişafını təmin edəcək, ikincisi, ümumiyyətlə, Türkiyənin bütün problemlərini həll edəcək, onun xarici və daxili siyasətində yeni bir mərhələ açacaqdır. Mən də bunu bəyənirəm və sevinirəm. Mən bu barədə ilk olaraq hörmətli Ərdoğanı təbrik etdim, ona uğurlar dilədim.

Türkiyənin Avropa Birliyinə qəbul olunması ilə əlaqədar gedən prosesi biz sizinlə bərabər izləmişik. Hesab edirdik və bu gün də hesab edirik ki, indiyə qədər gördüyü bütün işlərə görə Türkiyənin Avropa Birliyinə daxil olmağa 2004-cü ilin may ayında qəbul ediləcək 10 dövlətdən daha çox haqqı var. Ona görə də Kopenhagendə qəbul olunan bu qərar sizi məyus etdiyi kimi, bizi də məyus etdi. Həmin qərarın qəbul olunmasından öncə də biz o prosesləri hiss edirdik. Bəzi yerlərdə Türkiyənin əleyhinə bəyanatlar verirdilər. Bu da bizi narahat edirdi. Biz böyük diqqətlə bu prosesi izləyirdik və o mənada ki, sizin kimi, biz də istəyirdik Türkiyə bu dəfə Avropa Birliyinə ilk dövlətlər sırasında qəbul olunsun. Ancaq təəssüflər olsun ki, Kopenhagendə çox böyük ədalətsizlik etdilər. Mən bunu açıq deyirəm. Bəlkə siz bunu deməyə bir az çəkinirsiz. Amma biz çəkinmirik. Burada ikili standartlar tam açıq görünür. Çünki belə qərara heç bir əsas yoxdur. Üstəlik, qərara yunan Kiprini də salırlar ki, o da daxil olmalıdır.

Kipr problemi 28 ildir həll olunmur. Mən son 7-8 ildə Birləşmiş Millətlər Təşkilatının Kipr məsələsinin həlli üçün ciddi bir addım atmasını hiss etmədim. Ancaq indi Cənubi Kipri Avropa Birliyinə qəbul etmək üçün Birləşmiş Millətlər Təşkilatının baş katibi təklif verdi ki, bu məsələni həll etsin. Demək, təklif verdi ona görə yox ki, bu məsələ həll olunsun, xalqlar, doğrudan da, rahatlıq əldə etsinlər. Ona görə ki, yunan Kiprinin Avropa Birliyinə daxil olmasına yol açılsın. Biz burada da ədalətsizlik, ikili standartlar görürük.

Məsələn, bir müddət bundan öncə, Ciskar d'' Estyenin bəyanatı olmuşdur ki, Türkiyə Avropa ölkəsi deyil, Avropa Birliyinə başqaları daxil ola bilməz. Bu, dəhşətli bir şeydir. Bir tərəfdən, onlar böyük döv-

lətlər olaraq və dünyanın siyasətini apararaq, istəyirlər ki, dünyada millətlər, ölkələr arasında sülh, əminamanlıq olsun. Amma digər tərəfdən isə, bu cür bəyanatlar verirlər. İndi görün, onlar nə qədər qatı fikirdədirlər. Əgər belə fikrin varsa da, heç olmasa, bunu açıq demə. Amma o, açıq bəyan edir. Bu da bizi çox narahat etdi və ondan sonra gedən prosesləri gördük. Biz bu məsələdə Türkiyəyə qarşı ədalətsizlik olunduğunu görürük və buna öz etirazımızı bildiririk.

Biz həmişə Türkiyə ilə bir yerdəyik, bir yerdə də olacağıq. Təkcə ona görə yox ki, Türkiyə ilə biz qədim zamanlardan dostuq, qardaşıq. Həm də ona görə ki, son 40 ildə demokratiyanı, bazar iqtisadiyyatını inkişaf etdirən, NATO-nun üzvü olan, Avropada böyük yer tutan Türkiyə Avropa Birliyindən kənarda qalır. Bu qədər də ədalətsizlik olarmı?! Mən də bilirəm, sizin hökumətiniz və hamınız belə düşünürsünüz ki, bu ədalətsizliklər var. Ancaq Türkiyə hökuməti də, dövləti də öz siyasətini davam etdirəcəkdir. Nəhayət, güman edirəm ki, nə qədər ədalətsiz yanaşsalar da, onlar Türkiyənin qarşısını ala bilməyəcəklər.

Biz Kipr barəsində Türkiyəni tamamilə dəstəkləyirik. Siz Kipr barəsində hansı qərar qəbul etsəniz, - bunu siz bizdən daha yaxşı bilirsiniz, - ona yüz faiz tərəfdarıq, dəstəkləyirik və daim dəstəkləyəcəyik. Çünki birincisi, bilirik ki, Türkiyəyə, türk xalqına qarşı, o cümlədən Kipr adasında yaşayan türklərə qarşı ədalətsizlik olubdur. İkincisi də, indi təklif olunan plan məsələni, problemi həll etmir. Sadəcə, müvəqqəti, kosmetik bir şey yaratmağı nəzərdə tutur ki, Cənubi Kipri Avropa Birliyinə daxil etsinlər. Ondan sonra Şimali Kipr də, türklər də çabalayacabalaya qalsınlar. Biz bunu belə anlayırıq, belə başa düşürük. Təbii ki, bu da yolverilməzdir. Türkiyə buna yol verməz. Biz bu məsələdə də Türkiyənin siyasətini yüz faiz dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik. Buna həmişə arxayın ola bilərsiniz.

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məsələsində Türkiyənin indiyə qədər gördüyü işləri biz qiymətləndiririk. Əminik ki, - bunu mənə dəfələrlə deyiblər və buna inanıram, - Türkiyədə hansı partiyanın, hansı hökumətin hakimiyyətə gəlib-gəlməməsindən, Türkiyənin başında kimlərin durmasından asılı olmayaraq, Türkiyə Azərbaycana qarşı olan ədalətsizliklərə həmişə etiraz edibdir və bundan sonra da etiraz edəcəkdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsinə tərəfdar olubdur, bundan sonra da tərəfdar olacaqdır.

Bəzən mətbuatda kimsə nəsə deyir. Bu yaxın zamanlarda bizim mətbuatda yazmışdılar ki, guya Türkiyədə Xarici İşlər naziri nəsə deyibdir.

Sonra dedilər, belə deməyib, təkzib edibdir. Düzü, mən bunları eşidəndə, bilin, Prezident kimi bunlara fikir vermirəm. Bizim bu adamlar dərhal hay-küy salmağa başlayırlar. Xüsusən, müxalifət qəzetləri, bir tərəfdən, özlərini Türkiyənin ən yaxın dostu kimi göstərirlər, o biri tərəfdən də, araşdırmamış hay-küy salırlar. Mən bunlara fikir vermirəm. Çünki mən inanıram ki, belə şey ola bilməz. Hesab edirəm ki, mənim bu inamım heç vaxt itməyəcəkdir. Ona görə bu barədə sizinlə bir yerdəyik. Həmişə - indi də, sabah da sizin dəstəyinizlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həll olunmasında ən həlledici köməyi məhz Türkiyə etməlidir və Türkiyə də edəcəkdir. Mən buna inanıram.

Əhməd Ünal Çeviköz: Hörmətli Cümhurbaşkanım, çox təşəkkür edirəm. Türkiyə ilə Azərbaycanın birbirinə ən böyük dəstəkçi olmasını bilirik. Ancaq bunları Sizdən bir daha eşitmək, Türkiyənin qarşılaşdığı məsələlərdə Azərbaycanın daim onun yanında olduğunu Sizdən bir daha eşitmək bizi çox məmnun etdi. Sizin də vurğuladığınız kimi, Türkiyə də Azərbaycanın problemlərinin həllində ən böyük dəstək verən ölkə olmuşdur. Bu günə qədər olduğu kimi, bundan sonra bu şəkildə davam edəcəkdir.

Bəzi hökumət üzvlərimizin ifadələrinin müəyyən dairələr tərəfindən yanlış başa düşülməsi zehinləri bulandırmışdır. Ancaq bunların tamamilə yanlış olduğunu Sizin də dediyinizi məmnuniyyətlə görürəm.

Dağlıq Qarabağ münaqişəsi ədalətli həll edilməyincə, Ermənistanla əlaqələr barədə Türkiyənin siyasətində heç bir dəyişiklik yoxdur və olmayacaqdır.

Sizin bunları çox yaxşı şəkildə yaxından izləmiş olduğunuzu görmək məni bir daha məmnun etdi. Çox təşəkkür edirəm.

MƏKTUB VƏ TELEQRAMLARIN QISA XÜLASƏSİ

26 dekabr 2002-ci ildə Türkiyənin Xarici İşlər naziri Yaşar Yakış Azərbaycan Prezidenti Heydər Əliyevə yeni il münasibətilə təbrik məktubu göndərmişdir.

2003

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

Yanvarın 7-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.

Hörmətli qonağı səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərini yüksək dəyərləndirdi.

Ədalət və İnkişaf Partiyasının hakimiyyətə gəlməsini, ümumiyyətlə, Türkiyədə baş verən müsbət dəyişiklikləri ürəkdən, qəlbdən izlədiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev qardaş ölkənin nümayəndə heyətinin ölkəmizə bu səfərini Azərbaycan-Türkiyə əlaqələrində xüsusi tarixi əhəmiyyətə malik bir hadisə hesab etdiyini vurğuladı.

Keçən ilin noyabrında Türkiyədə keçirilmiş parlament seçkilərində böyük qələbə qazanaraq təkbaşına hakimiyyətə gəlmiş Ədalət və İnkişaf Partiyasını və onun sədri cənab Rəcəb Tayyib Ərdoğanı ürəkdən təbrik edən respublikamızın Prezidenti Heydər Əliyev bunun Türkiyənin tarixində əlamətdar bir hadisə olduğunu bildirdi.

Demokratiya, bazar iqtisadiyyatı yolunda böyük ənənələrə malik, uzun illərdən bəri NATO-nun üzvü olan qardaş ölkənin yeni hökumətinin fəaliyyətə başladığı qısa müddətdə uğurlu addımlar atdığını nəzərə çarpdıran dövlətimizin başçısı Heydər Əliyev əmin olduğunu bildirdi ki, cənab Rəcəb Tayyib Ərdoğan Baş nazir olandan sonra bu hökumət daha böyük nailiyyətlər əldə edəcəkdir.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ problemləri, Azərbaycanın ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən, yerindən-yurdundan zorla qovulmuş bir milyondan çox vətəndaşlarımızın on ildən bəri çadırlarda ağır vəziyyətdə yaşamasından bəhs edən Prezident Heydər Əliyev bu münaqişənin aradan qaldırılması sahəsində aparılan danışıqlardan söhbət açaraq, Türkiyənin Azərbaycanın haqq işini daim dəstəkləməsini bir daha yüksək qiymətləndirdi.

Səmimi sözlərə və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən cənab Rəcəb Tayyib Ərdoğan respublikamıza səfərindən və Azərbaycan Prezident Heydər Əliyev ilə görüşündən böyük qürur duyduğunu nəzərə çarpdırdı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurları daim diqqətlə izlədiklərini vurğulayan hörmətli qonaq qardaş ölkələrimiz arasındakı tarixi dostluq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əmin olduğunu bildirdi.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsinə toxunan cənab Ərdoğan dedi ki, biz Azərbaycan və Ermənistan Prezidentləri arasında davam edən görüşlərin Azərbaycan barəsində xeyirli bir nəticə ilə bitməsini istəyirik. Biz bu sahədə danışıq'lar prosesini mühüm mexanizm kimi görürük. Amma bu danışıqların hələlik bir nəticə verməməsini təəssüflə qarşılayırıq. Türkiyə Respublikası indiyə qədər olduğu

kimi, Azərbaycana dəstəyini bundan sonra da davam etdirəcək və hər zaman azərbaycanlı qardaşlarımızın yanında olacaqdır.

Görüşdə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşdırılması, bölgədə vəziyyət və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

Prezident Heydər Əliyev cənab Rəcəb Tayyib Ərdoğanı Baş nazir vəzifəsini tutduqdan sonra yenidən Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ RƏCƏB TAYYİB ƏRDOĞAN BAŞDA OLMAQLA TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Dost ölkədən gəlmiş qonaqları səmimiyyətlə salamlayan Prezident Heydər Əliyev dedi:

- Hörməti cənab Ərdoğan!

Hörmətli nazirlər!

Hörmətli qonaqlar!

Siz Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Sizin bu səfəriniz bizim üçün çox əhəmiyyətli və qiymətlidir. Çünki Türkiyədə hökumət dəyişikliyi baş veribdir. Biz Türkiyədə işlərin hamısını daim ürəkdən, qəlbdən Türkiyəyə bağlı olaraq izləmişik. Ona görə də belə bir səfərin indi baş verməsini mən Türkiyə-Azərbaycan əlaqələrindən xüsusi tarixi əhəmiyyətə malik olan bir hadisə hesab edirəm.

Cənab Ərdoğan, keçən il noyabr ayında Türkiyədə keçirilmiş seçkilərdə böyük qələbə qazandığınıza görə, Ədalət və İnkişaf Partiyası böyük qələbə qazandığına görə sizi ürəkdən təbrik edirəm.

Bu qələbəniz sizə Böyük Millət Məclisində çoxsaylı millət vəkillərinin olmasını təmin edib və beləliklə, Ədalət və İnkişaf Partiyası təkbaşına Türkiyədə hökumət təşkil etmək, iqtidarda olmaq imkanı əldə edibdir. Bu, Türkiyənin tarixində çox əlamətdar hadisədir. Biz indi sizinlə söhbət edəndə tarixə bir az nəzər saldıq. Keçmişdə belə hallar çox az olmuşdur. Amma hər dəfə hökumət təkbaşına iqtidarda olan qüvvələr tərəfindən idarə olunarkən Türkiyə yüksəlmiş, inkişaf etmişdir. Ona görə də mən düşünürəm ki, Türkiyə Cümhuriyyətinin vətəndaşları sizə çox səs verərək, sizi bu cür böyük uğurla seçərək, təbiidir ki, sizə böyük ümidlər bəsləyiblər. Güman edirəm ki, sizin partiya və yaratdığınız hökumət bu ümidləri doğruldacaqdır.

Cənab Ərdoğan, mən sizi xüsusi təbrik edirəm. Çünki sizin partiya sədri olmağınız və bu partiyaya böyük uğur qazandırmağınız da qeyriadi hadisədir. İndi siz onun problem-

lərini hamıdan yaxşı bilirsiniz. Sizin hələ indiyə qədər millət vəkili olmaq imkanınız yoxdur, amma belə olan halda da sizin qurduğunuz, yaratdığınız, başçılıq etdiyiniz partiyanın xalq arasında bu cür hörmət qazanması, səs alması şəxsən sizin fəaliyyətinizin çox yüksək qiymətidir. Mən bu münasibətlə sizi təbrik edirəm. Şübhə yoxdur ki, siz millət vəkili olacaqsınız. Güman edirəm, siz Baş nazir də təyin olunacaq, hökumətə başçılıq edəcəksiniz. Ancaq bunlar hamısı qeyri-adi bir prosesdə getdiyinə görə mən buna xüsusi əhəmiyyət verirəm.

Cənab Ərdoğan, qələbə qazandıqdan sonra şəxsən sizin dinamik fəaliyyətinizidə biz Azərbaycanda çox böyük sevgi və məhəbbətlə izləyirik. Mən bunu alqışlayıram. Çünki Türkiyə Cümhuriyyəti dünyanın böyük ölkələrindənbiridir. Türkiyə Cümhuriyyəti inkişaf etmiş bir dövlətdir, demokratik ölkədir, bazar iqtisadiyyatı yolu ilə gedən ölkədir. Uzun illər NATO-nun tərkibində olan bir ölkədir. Belə bir ölkənin hökuməti, təbiidir ki, gərək dinamik olmağa qadir olsun. Sizin ilk addımlarınız, Türkiyənin Avropa Birliyinə daxil olması istiqamətindəki fəaliyyətiniz, Kipr məsələsi ilə əlaqədar fəaliyyətiniz - bunlar hamısı onu göstərir ki, sizin əlinizdə Baş nazir mandatı olanda bu işləri daha çox, daha asanlıqla görəcəksiniz. Mən bütün bunlara görə sizi təbrik edirəm. Bunlar hamısı sevindirici hallardır.

Sizin bu qələbənizi, Türkiyənin indi belə inkişaf yoluna düşməsini biz Azərbaycanda özümüzün belə bir səviyyəyə qalxmağımız kimi qəbul edirik. Çünki Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr, dostluq, qardaşlıq əlaqələri əvvəldən olubdur. Təbiidir, bizim dərin köklərimiz məlumdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə həmişə Azərbaycanın ən yaxın dostu, qardaşı olubdur. Bu gün də belədir. Artıq biz bir-birimiz ilə strateji əməkdaşlıq səviyyəsində əlaqələr həyata keçiririk. Elə bir sahə yoxdur ki, bizim orada əməkdaşlığımız olmasın.

Təbiidir ki, əsas sahələrdən biri də Türkiyə ilə Azərbaycanı bağlayan, Azərbaycanın böyük təbii sərvətlərinin, Xəzər dənizində olan sərvətlərin dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan boru xəttinin məhz Türkiyənin ərazisindən keçirilməsi, Azərbaycanın böyük təbii qaz ehtiyatlarının yenə də Türkiyəyə və Türkiyədən Avropaya çıxarılması haqqında bizim birgə qərarlarımız və bir çox başqa işlərimizdir. Bunlar bizim hələ görəcəyimiz işlərin əsasıdır. Qarşıda çox böyük imkanlar, böyük perspektivlər var. Onlardan da biz birgə istifadə edəcəyik.

Mən sizi bir daha salamlayıram. Xoş gəlmisiniz! Sizin Azərbaycanda az müddətdə olmağınıza baxmayaraq, biz çalışacağıq sizə şərait yaradaq ki, maksimum çox iş görə biləsiniz. Buyurun.

BİRGƏ MƏTBUAT KONFRANSINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

- Hörmətli mətbuat nümayəndələri!

Sizin hamınızı salamlayıram və bildirmək istəyirəm ki, bu gün Türkiyə - Azərbaycan əlaqələrində əlamətdar hadisə baş verir. Türkiyə Cümhuriyyətində keçən ilin noyabrında seçkilərdə uğur qazanmış Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlib və hökumət qurubdur. Partiyanın sədri, bizim hörmətli dostumuz cənab Ərdoğan bir neçə çox mühüm xarici səfərdən sonra Qafqaza, Orta Asiya cümhuriyyətinə səfərlərinə Azərbaycandan başlayıbdır. Mən bu münasibətlə həm dostumuz cənab Ərdoğana, həm də onu müşayiət edən şəxslərin hamısına bir daha təşəkkürümü bildirirəm. Azərbaycana xoş gəlmisiniz! Bu da əlamətdar hadisədir ki, bu səfərlər yenə də Azərbaycandan başlayır. Amma eyni zamanda bu təbiidir, əgər başqa birisi olsaydı, ola bilər ki, onu anlamaq çətin olardı. Bunun səbəbini siz bilirsiniz. Türkiyə və Azərbaycan arasındakı dostluq, qardaşlıq, strateji əməkdaşlıq əlaqələri xüsusi xarakter daşıyır, həyatımızın bütün sahələrini əhatə edir və bu dostluq əlaqələrini Azərbaycanda həmişə yüksək qiymətləndiriblər, bu gün də biz yüksək qiymətləndiririk. Məhz bu dostluq, qardaşlıq əlaqələri Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə edəndən sonra onun inkişafında mühüm rol oynayıbdır. Mən həmişə demişəm, bu gün də deyirəm ki, Azərbaycan öz müstəqilliyini əldə edəndən Türkiyə həmişə Azərbaycanla bərabər olub, bir yerdə olub və Azərbaycanın bütün qayğılarını bölüşdürübdür. Dedim ki, bizim əlaqələrimiz çox yüksək səviyyədədir və həyatın bütün sahələrini əhatə edir. Ancaq hesab edirəm ki, indi Türkiyədə yeni hökumət yaranandan sonra bir partiyanın iqtidarda olması Türkiyə cümhuriyyətinin sürətlə inkişaf etməsinə şərait yaradıb və belə halda, təbii ki, Türkiyə-Azərbaycan əlaqələri də gərək o sürətli inkişafla ayaqlaşsın. Yəni onunla bərabər getməyə qadir olsun.

Güman edirəm ki, biz buna da nail ola biləcəyik. Mən bir daha sizə deyirəm ki, xoş gəlmisiniz. Biz bu gün çox səmərəli danışıqlar apardıq. Cənab Ərdoğanla mən başbaşa, təkbətək danışdıq. Doğrudur, biz reqlamenti pozduq və bir-iki dəfə protokol şöbəsindən gəlib bizə dedilər ki, vaxt keçdi. Amma elə bil ki, biz heç danışmamışdıq. Bizim danışmağımız üçün 1-2 saat azdır. Saatlar lazımdır. İnşallah, bu da olacaqdır. Güman edirəm ki, yaxın vaxtlarda cənab Ərdoğan Türkiyənin Baş naziri olacaq, ondan sonra mənim dəvətim var, dəvətimi qəbul edib yenə də ilk olaraq Azərbaycana səfər edəcəkdir. Proqramı biz onda daha geniş tutacağıq. Bizim daha çox söhbət etməyə, danış-

mağa. Azərbaycanda belə bir söz var, dərdləşməyə vaxtımız olacaqdır.

Sağ olun, mən sizə öz hörmət və ehtiramımı bildirirəm.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKSOY TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN DAİMİ ŞURASININ XIX TOPLANTISININ İŞTİRAKÇILARINI QƏBUL ETMİŞDİR

Azərbaycan Prezidenti Heydər Əliyev fevralın 6-da Prezident sarayında TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurasının XIX toplantısının iştirakçılarını qəbul etmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev qonaqları səmimiyyətlə salamlayaraq, türkdilli dövlətlər birliyi təşəkkül tapdıqdan sonra yaranmış təşkilatlar sırasında TÜRKSOY-u çox əhəmiyyətli qurum kimi səciyyələndirdi. Azərbaycan Prezidenti türkdilli dövlətlər və xalqlar arasında, ilk növbədə, mədəni əlaqələrin inkişafı zərurətindən söhbət açaraq dedi ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın, insani əlaqələrin inkişaf etdirilməsi vacib məsələdir. Ancaq bunların hamısının kökündə mədəniyyət, dil, bizim adət-ənənələrimiz durur. Bizi bir-birimizə bağlayan nədir? Bu, dilimizin eyni köküdən olmasıdır. Düzdür, bəziləri birbirilərini başa düşmürlər. Anıma biz dilimizə görə bir kökdən gəlmiş xalqlarıq.

İkincisi, bizim müştərək mədəniyyətimiz, ənənələrimiz, müştərək mənəvi dəyərlərimizdir. Bunlar türkdilli xalqları həmişə, əsrlər boyu birbiri ilə bağlayıb, birləşdirib, bir-biri ilə yaxınlaşdırıbdır.

Prezident Heydər Əliyev tarix boyu müxtəlif səbəblərdən, o cümlədən imperiyaların əsarətindən sıxıntı çəkən, bəzən inkişafdan qalan türk dillərinin hazırkı dövrdə təkmilləşməsi üçün geniş imkanlar olduğunu söylədi. Dövlətimizin başçısı TÜRKSOY təşkilatının xətti ilə bu istiqamətdə görülən işləri yüksək dəyərləndirdi. RF-nin subyektləri olan Tatarıstan, Başqırdıstan respublikalarının inkişaf perspektivlərinə toxundu, Tuva, Xakasiya, Altay respublikalarında yaşayan xalqların öz soykökünə qayıdışını da müstəqilliyin bəhrəsi kimi qiymətləndirdi, bu respublikalarla bağlı xatirələrini yada saldı. Prezident Heydər Əliyev Türkmənistan nümayəndəsinin Bakıda TÜRKSOY-un XIX toplantısında iştirakını Azərbaycanla Türkmənistan arasındakı dostluq və qardaşlıq əlaqələrinin təzahürü kimi dəyərləndirdi.

Azərbaycanın Mədəniyyət naziri, TÜRKSOY-un Baş direktoru Polad Bülbüloğlu Prezident Heydər Əliyevə bu təşkilatın üzvləri adından müraciətlə dedi:

Hörmətli Prezidentimiz, bu təş-

kilatın başçısı kimi mən bütün həmkarlarım adından Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Biz dəfələrlə demişik ki, türkdilli ölkələrin dövlət başçıları arasında TÜRKSOY-a Sizin xüsusi qayğınız vardır. Siz yeganə ölkə rəhbərisiniz ki, TÜRKSOY-un Bakıda keçirilən toplantısına gəldiniz və orada çıxış etdiniz. Sizin çıxışınız TÜRKSOY-un bütün sənədlərində bizim üçün proqram xarakterini indiyədək saxlayır.

Keçən il TÜRKSOY-un on illiyində Siz bizə təbrik məktubu göndərmişdiniz. Bu təbrik məktubunda da bizim fəaliyyətimizi çox yüksək dəyərləndirmisiniz. Buna görə Sizə öz dərin təşəkkürümüzü bildiririk.

Türkiyənin Mədəniyyət naziri Hüseyn Çelik Bakıya indiki səfəri zamanı gördüyü müsbət yeniliklər və keçirdiyi görüşlər barədə məlumat verərək dedi ki, möhtərəm Prezident, Türkiyəni burada təmsil edən bütün nümayəndələrin Zati-alinizə böyük minnətdarlığı vardır. Siz burada onları hədsiz mehribanlıqla qəbul etmisiniz, himayədarlıq göstərmisiniz. Mən onların adından Sizə təşəkkür etmək istəyirəm. TÜSİAB-ın təmsilçisi olan iş adamlarının da Zati-alinizə belə minnətdarlığı vardır. Onların adından da Sizə təşəkkür etmək istəyirəm. Siz burada onlara qol-qanad vermisiniz. Əminəm ki, Sizin himayənizlə və bizim əzmimizlə ölkələrimiz arasında həm iqtisadi, həm də mədəni əlaqələr daha da inkişaf edəcəkdir.

Qazaxıstanın Mədəniyyət, İnformasiya və İctimai Həmrəylik naziri Muxtar Gül· Məhəmməd Azərbaycana dostluq münasibətlərindən, Başqırdıstanın Mədəniyyət və Milli Siyasət naziri Xələf İşmuratov Bakıda müşahidə etdiyi tərəqqidən, Tatarıstanın Mədəniyyət naziri İldus Tarxanov türkdilli xalqların beynəlxalq əlaqələrində TÜRKSOY-un rolundan söz açdılar.

Millətlərin taleyində dil amilinin mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdıran Prezident Heydər Əliyev görüşdə iştirak edən mədəniyyət nazirlərinə doğma dillərini qorumağı və onun inkişafı üçün hər cür səy göstərməyi tövsiyə etdi.

Dövlətimizin başçısı Azərbaycan dilinin inkişafı üçün mühüm fərmanlar imzaladığını xatırlatdı, doğma dili mükəmməl bilməyin vacibliyini xüsusi vurğulayaraq dedi ki, milləti yaşatmaq və onun keçmişdəki kimi əzilməsi imkanlarının gələcəkdə qarşısını almaq üçün dilimizi qorumalıyıq.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏHMƏD NECDƏT SEZƏRƏ

Hörmətli cənab Prezident!

Bingöl bölgəsində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüzn-

lə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 1 may 2003-cü il

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

Hörmətli cənab Baş nazir!

Ölkənizin cənub-şərqindəki Bingöl bölgəsində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insa tələfatı xəbərini dərin kədər hissi ilə qarşıladım.

Bu faciət ilə əlaqədar Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Heydər Əliyev,
Azərbaycan Respublikasının
Prezidenti
Bakı şəhəri, 1 may 2003-cü il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏDƏ QEYRİ-RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

May, 2003-cü il

TÜRKİYƏNİ SABİQ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 80 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİKİ

Türkiyənin görkəmli siyasi xadimi, Azərbaycanın və xalqımızın böyük dostu, Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl AzərTAcın xüsusi müxbirinə müsahibə verərək regionda və dünyada vəziyyət, Türkiyə - Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında fikir və düşüncələrini söyləmiş, əziz dostu və qardaşı, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik etmişdir. Həmin müsahibəni oxuculara təqdim edirik:

- Hörmətli Heydər Əliyev dostumdur, qardaşımdır, Azərbaycan Respublikasının Prezidentidir. Onunla uzun zamandır ki, tanışıq. Ona böyük sevgim, hörmət və ehtiramım vardır. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir.

O, böyük türk topluluğunun keçmişini, gələcəyini çox yaxşı bilir. Yaxşı bilir ki, bu topluluğun içindəki hər müstəqil dövlət bir qardaşdır. Millət birdir, dövlətlər ayrı-ayrıdır. Türkiyə və Azərbaycan xalqları qardaş millətdir, bir millətdir. Biz bu bir millətin iki dost və qardaq dövlətləriyik. Hörmətli Heydər Əliyev Azərbaycanın ən çətin vaxtında siyasət səhnəsinə çıxmışdır. 1960-80-cı illərdə Azərbaycana böyük xidmətləri olmuşdur.

Bəzi insanlar, siyasi xadimlər ölkələrinə xidmətlər göstərir, amma elə bir gün gəlir ki, belə şəxslərə olduqca böyük ehtiyac duyulur. Yəni bu şəxs olmasa,- "Bu ölkənin taleyi necə olacaqdır?" -deyə düşünəcəksiniz. Məsələn, Çörçill 1939-cu ildə İngiltərənin rəhbərliyində olmasaydı, tarixin gedişi necə dəyişərdi? Çörçill 65 yaşındaydı və o zaman İngiltərədə çoxlu siyasi xadim vardı. Ancaq ehtiyac duyulan şəxs o idi.

Hörmətli Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə gəlmişdir. O zamanı xatırlayın. Azərbaycan müstəqilliyini elan etmişdi. Ölkədə qarışıqlıq yaşanırdı. Bundan sonra Əbülfəs Elçibəy Prezident seçildi. Lakin Əbülfəz Elçibəy sabitlik yarada bilmədi. Yenə də Azərbaycanda qarışıqlıq meydana gəldi: yəni müstəqilliyini əldə edən xalq bayram şənlikləri əvəzinə hakimiyyət uğrunda mübarizə içərisində idi. Belə vəziyyətdə bir adamın ortaya çıxıb "dayanın!" deməsi zəruri idi. Azərbaycan xalqı Heydər Əliyevə böyük ehtiyac duydu. Heydər Əliyev özü gəlib hakimiyyəti ələ almadı. Onu bu yüksək vəzifəyə Azərbaycan xalqı dəvət etmişdir.

O vaxtdan ötən 10 il ərzində Azərbaycan sabitlik içində yaşadı. Mən Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təsirini azaltmaq, bunu əhəmiyyətsiz göstərmək fikrində deyiləm. Onu söyləmək istəyirəm ki, Heydər Əliyev rəhbərliyə gəldiyi zaman artıq Qarabağda olan olmuşdu. Keçən 10 il ərzində bu məsələnin həllində iki yol vardı: birincisi, müharibəni davam etdirmək, Azərbaycanın bütün ehtiyatlarını xərcləmək, ölkəni viran hala gətirmək və ya sülhə, daha doğrusu, atəşkəsə nail olaraq, qan tökülməsinin qarşısını almaq, vaxt qazanmaq idi. Məncə, ən doğru yol seçildi. Atəşkəsə nail olunaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradıldı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı. Hörmətli Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu ölkədə sabitliyin yaradılması: asayişin bərqərar olmasıdır. Bu, asan iş deyildi. Heydər Əliyevə qarşı suiqəsdlər hazırlanırdı. Ancaq Azərbaycan xalqı üçün, mənim qardaşlarım üçün ən vacib şey müstəqil dövlətin yüksələn bayrağıdır. Yüksələn bayraq enməz! Azərbaycan müstəqilliyi güclüdür, əbədidir. Heydər Əliyev öz həyatını təhlükəyə ataraq, Azərbaycandakı qardaş qarşıdurmasına son qoymuşdur.

Heydər Əliyev Azərbaycana demokratik seçkiləri gətirmişdir. Bu il

də seçkilər keçiriləcəkdir. Demokratiya o qədər də asan məsələ deyildir. Kommunist sistemindən, marksist sistemindən bazar iqtisadiyyatına və demokratiyaya keçmək çox çətin bir prosesdir. Heydər Əliyev bu prosesin bünövrəsini qoymuşdur. Zəruri islahatların müəllifidir. Heydər Əliyev Azərbaycanı dünyaya tanıtdı. Azərbaycan BMT, Avropa Şurası, ATƏT, İKT kimi nüfuzlu beynəlxalq təşkilatların bərabər hüquqlu üzvüdür. Azərbaycan bütün dünya tərəfindən tanınır.

Heydər Əliyev "Əsrin müqaviləsi"nin, Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəməri layihəsinin memarıdır. Bu, böyük hadisədir. Torpağın altında yatan sərvət Azərbaycan xalqının rifahına xidmət edəcəkdir. "Zəngin təbii sərvətlərimiz var" deməklə bir şey olmaz. Əhəmiyyətli olanı bu zəngin ehtiyatdan xalqın maddi rifahının yüksəldilməsi üçün istifadə etməkdir.

Hörmətli Heydər Əliyev həm Türkiyə, həm də digər qonşular - Gürcüstan, Rusiya və İranla möhkəm əlaqələr qurmuşdur. Ukrayna ilə, Orta Asiyadakı türkdilli dövlətlərlə sıx münasibətlər yaratmışdır. Azərbaycanın MDB daxilində əhəmiyyətli yeri vardır. Azərbaycan ilə ABŞ arasında çox yaxşı əməkdaşlıq əlaqələri mövcuddur. Prezident Heydər Əliyevin istər Əfqanıstan, istərsə də İraq müharibələri zamanı tutduğu mövqe də çox müsbətdir. Müasir dünyada beynəlxalq aləmdə mühüm rol oynamaq üçün güclü olmaq lazımdır. Daxili siyasi və iqtisadi problemlər yaşayan dövlət beynəlxalq aləmdə də həlledici rol oynaya bilməz. Həm Türkiyə, həm də Azərbaycan daxildə güclü olmalıdır. Həm Türkiyə, həm də Azərbaycan müasir dünyada coğrafi-siyasi baxımdan çox əhəmiyyətli strateji mövqeyə sahibdirlər.

Mən Türkiyə və Azərbaycanın bugünkü əlaqələrini yüksək qiymətləndirirəm. Bunu xüsusi vurğulamaq istəyirəm.

Türkiyədə iqtidara kim gəlirsə-gəlsin, bu iki dost və qardaş ölkə arasındakı əlaqələr həmişə yaxşı olacaqdır. Buna əminəm. Çünki bu əlaqələrin dərin kökləri vardır. Həmin əlaqələrin arxasında xalq dayanır. Azərbaycanın Türkiyədən yaxın, Türkiyənin isə Azərbaycandan yaxın kimi var? Qonşu, qardaş və dost! Bu üç dərin məfhum, məna harada var? Hörmətli Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsi ölkəmiz üçün bir şansdır. İnsanların qiyməti getdikdən sonra deyil, vaxtında, xalqa xidmət etdiyi zaman bilinməlidir. Vəzifədən getdikdən sonra insanlar qiymətləndirmək artıq gecdir. Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.

Hazırda Heydər Əliyev Türkiyədədir. Səhhəti çox yaxşıdır. Bu günlər onunla görüşəcəyəm. Yubileyi günündə ona cansağlığı, uzun ömür, Azərbaycanın və bütün bölgənin inkişafı, tərəqqisi və sülhə qovuşması naminə apardığı səmərəli fəaliyyətində ona uğurlar arzulayıram.

10 may 2003-cü il "Azərbaycan" qəzeti

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR ANKARADA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Mayın 10-da Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Ankarada - Gülhanə Hərbi Tibb Akademiyasında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

Cənab Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevi 80 illik yubileyi münasibətilə təbrik etdi, ona uzun ömür, cansağlığı arzuladı və tezliklə Vətənə qayıdacağına əmin olduğunu bildirdi.

Görüşdə Azərbaycan və Türkiyə arasında ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edildi, regionda və dünyada baş verən hadisələr haqqında fikir mübadiləsi aparıldı.

Səmimilik və dostluq şəraitində keçən görüşün sonunda Prezident Əhməd Necdət Sezər dövlətimizin başçısını ad günü münasibətilə bir daha təbrik edərək, Heydər Əliyevin liderliyi ilə Azərbaycana firavanlıq və yeni-yeni uğurlar dilədi.

11 may 2003-cü il "Azərbaycan" qəzeti.

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN ANKARADA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan, habelə Baş nazirin müavini, Xarici İşlər naziri Abdullah Gül mayın 10-da Ankarada - Gülhanə Hərbi Tibb Akademiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişlər.

Cənab Rəcəb Tayyib Ərdoğan Prezident Heydər Əliyevi yubileyi münasibətilə səmimi qəlbdən təbrik etdi, ona uzun ömür, möhkəm cansağlığı, dost və qardaş Azərbaycanın tərəqqisi naminə fəaliyyətində daha böyük uğurlar arzuladı.

Baş nazir və Xarici İşlər naziri Azərbaycan Prezidentinin səhhətinin yaxşı olmasından, onu gümrah görmələrindən məmnun qaldıqlarını söylədilər.

Prezident Heydər Əliyev xoş sözlərə, ona göstərilən hörmət və ehtirama görə təşəkkür etdi.

Daha sonra təklikdə davam etdirilən söhbətdə ölkəmizi maraqlandıran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.

11 may 2003-cü il "Azərbaycan" qəzeti.

TÜRKİYƏNİN 9-CU PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL ANKARADA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmirəl mayın 10-da Ankarada - Gülhanə Tibb Akademiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

Cənab Süleyman Dəmirəl əziz dostu və qardaşı, Azərbaycan Prezidenti Heydər Əliyevi anadan olmasının 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik etdi, ona can sağlığı, uzun ömür, Azərbaycanın tərəqqisi naminə fəaliyyətində uğurlar arzuladı. O, dövlətimizin başçısının səhhətinin yaxşı olmasından, onu gümrah görməsindən çox məmnun qaldığını vurğuladı.

Prezident Heydər Əliyev onu ziyarət etdiyinə və səmimi təbrikinə görə cənab Dəmirələ təşəkkür etdi, Türkiyədə böyük diqqət, hörmət və ehtiram gördüyünü söylədi.

Azərbaycan Prezidenti Heydər Əliyev və cənab Süleyman Dəmirəl daha sonra söhbəti təklikdə davam etdirdilər.

11 may 2003-cü il "Azərbaycan" qəzeti.

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ RƏİSİ, ORDU GENERALI HİLMİ ÖZKÖK ANKARADA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİ ZİYARƏT ETMİŞDİR

Mayın 10-da Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hilmi Özkök Ankarada - Gülhanə Hərbi Tibb Akademiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi ziyarət etmişdir.

Ordu generalı Hilmi Özkök Prezident Heydər Əliyevi ad günü münasibətilə səmimi qəlbdən təbrik etdi, dövlətimizin başçısının səhhətini yaxşı görməkdən məmnun qaldığını söylədi. O, əmin olduğunu bildirdi ki, Prezident Heydər Əliyev tezliklə Azərbaycana qayıdacaq, həmişəki kimi fəal işə başlayacaqdır. Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığa dair fikir mübadiləsi oldu.

11 may 2003-cü il "Azərbaycan" qəzeti.

SƏMİMİ TƏBRİKLƏR

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Anadan olmağınızın 80-ci ildönümünü səmimi qəlbdən təbrik edirəm.

Gücünü ortaq keçmişimizdən alan yaxın və dostcasına münasibətlərimiz Zati-alinizin uğurlu rəhbərliyi nəticəsində bütün sahələrdə inkişaf edərək bugünkü səviyyəyə çatmışdır.

Ölkələrimiz arasındakı nümunəvi münasibətlər daha da möhkəmlənərək gələcək nəsillərə çatacaqdır.

Bu münasibətlə Zati-alinizə uzun ömür, cansağlığı arzulayır, hörmət və ehtiramımı bildirir, dost və qardaş Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

Rəcəb Tayyib Ərdoğan,
Türkiyə Respublikasının Baş naziri.
10 may 2003-cü il.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Anadan olmağınızın 80-ci ildönümünü ən səmimi arzularla təbrik edirəm.

Ölkələrimiz arasında bütün sahələrdə yüksək səviyyəyə çatmış münasibətlər və xalqlarımızın möhkəm dostluq əlaqələri bölgəmizdə sabitlik və tərəqqiyə də töhfə verməkdədir.

Fürsətdən istifadə edərək, Zati-alinizə uzun ömür, cansağlığı, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq diləyirəm.

Hörmətlə,

Abdullah Gül,
Türkiyə Respublikasının Xarici İşlər naziri və Baş nazirin müavini.
10 may 2003-cü il.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN ÖLKƏMİZDƏKİ SƏFİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev mayın 23-də Prezident iqamətgahında Türkiyənin ölkəmizdəki səfiri Əhməd Ünal Çeviközü qəbul etmişdir.

Türkiyə diplomatı dövlətimizin başçısını səmimiyyətlə salamlayaraq, görüş üçün vaxt ayırdığına görə minnətdarlıq etdi, Prezident Heydər Əliyevin səhhətinin yaxşı olmasından məmnunluğunu vurğuladı. Səfir dedi ki, mayın 10-da Sahil qəsəbəsində ATS-in istifadəyə verilməsində iştirak edirdik və oradan Sizə ad gününüz münasibətilə təbrik göndərdik.

Cənab Əhməd Ünal Çeviköz mayın 23-də baş vermiş əlamətdar hadisə - Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinin təməlinin qoyulması münasibətilə dövlətimizin başçısını təbrik edərək dedi:

-Hörmətli Prezident, yaradıcısı Zati-aliniz olan bu boru kəməri Sizin böyük əməyiniz, qətiyyətiniz və əzmkarlığınız sayəsində reallığa çevrilmişdir. İnşallah, Sizin rəhbərliyiniz və iştirakınızla onun açılışını edərik. Türkiyə Bakı-Tbilisi-Ceyhan layihəsinin gerçəkləşməsində Azərbaycan Prezidenti Heydər Əliyevin həlledici rolunu yüksək qiymətləndirir və Zati-alinizin bütün fəaliyyətini və təşəbbüslərini dəstəkləyir. Xalqımız Sizə həmişə dərin hörmət və ehtiram bəsləyir.

Prezident Heydər Əliyev xoş söz-

lərə görə səfir Əhməd Ünal Çeviközə təşəkkür edərək dedi ki, bu gün Türkiyə Prezidenti hörmətli Əhməd Necdət Sezər, Rusiya Federasiyasının Prezidenti hörmətli Vladimir Putin mənimlə telefonla danışdılar. Bakı-Tbilisi-Ceyhan layihəsinin regionumuz - Azərbaycan, Gürcüstan və Türkiyə üçün böyük əhəmiyyətini qeyd edən Prezident Heydər Əliyev bildirdi ki, Gürcüstanda təməlqoyma mərasimi ilə əlaqədar Prezident Eduard Şevardnadzeya təbrik məktubu göndərmişdir. Azərbaycan Prezidenti vurğuladı ki, bu layihə bizim birgə apardığımız məqsədyönlü siyasətin, gərgin əməyimizin bəhrəsidir.

Dövlətimizin başçısı dedi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Xəzərin zəngin karbohibrogen ehtiyatlarının dünya bazarına çıxarılması üçün mühüm bir vasitadir. Bu layihənin öz müsbət nəticələrini verəcəyinə əmin olduğunu söyləyən Prezident Heydər Əliyev dedi ki, mənim arzum Bakı-Tbilisi-Ceyhanın tikintisini başa çatdırmaqdır və mən mütləq Ceyhana gedəcəyəm.

Görüşdə Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə daha da genişləndirilməsi, regionda vəziyyət, hər iki ölkəni maraqlandıran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Hörmətli Prezident!

Xəzər beynəlxalq neft-qaz sərgi və konfransının 10-cu ildönümü münasibətilə başda Zati-aliləri, hörmətli cənab Prezident Heydər Əliyev olmaqla bütün Azərbaycan xalqını təbrik edirəm.

Möhtərəm Əliyevin liderliyi altında 1994-cü ildən bu yana davam etdirilən və Azərbaycanın neft və təbii qazının Türkiyə üzərindən Qərb bazarlarına daşınmasında əksini tapan enerji strategiyası öz bəhrələrini verməyə başlamışdır.

Bir çox dairələrdə illər boyunca bir röya kimi dəyərləndirilən və Şərq-Qərb enerji dəhlizinin təməlini təşkil edən Bakı - Tbilisi - Ceyhan əsas ixrac neft kəməri layihəsində artıq tikinti mərhələsinə keçilmiş, hər üç ölkədə boruların düzülməsinə başlanmışdır. Xəzər neftini daşıyacaq ilk tankerin 2005-ci ilin birinci yarısında Ceyhanda yüklənməsi nəzərdə tutulur.

Şərq-Qərb enerji dəhlizinin ikinci istiqamətini təşkil edən Bakı - Tbilisi - Ərzurum təbii qaz kəməri layihəsi üzrə fəaliyyət də nəzərdə tutulan təqvim çərçivəsində irəliləməkdədir. Azərbaycan təbii qazının 2006-cı ilin üçüncü rübündə Türkiyəyə çatdırılması planlaşdırılır.

Bu layihələr üzrə işlərin bundan sonra da davam etdirilməsində Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ-ın qətiyyətli və uzaqgörən siyasəti, həmçinin layihələrin icrasında iştirak edən şirkətlərin bilikli və cəsur adamları mühüm rol oynamışdır. Türkiyə istər Bakı - Tbilisi - Ceyhan və Bakı - Tbilisi - Ərzurum boru kəmərlərinin həyata keçirilməsində, istərsə də həmin layihələrə maliyyə qaynaqları təşkil edən "Azəri - Çıraq - Günəşli" və "Şahdəniz" layihələrinin inkişafında Azərbaycanla sıx əməkdaşlıq şəraitində çalışır.

Konfransın 10-cu ildönümü münasibətilə bu müsbət nəticələri və həmçinin gələcəyə istiqamətlənmiş ümidlərimizi dilə gətirməkdən qürur duyuram.

Konfransın bütün Xəzər bölgəsi üçün faydalı olmasını diləyir, bu layihələrin Azərbaycan xalqı ilə birlikdə bütün region ölkələri və xalqlarının rifahına səbəb olacağına inamını bir daha təkrarlamaq istəyirəm.

Əhməd Necdət Sezər,
Türkiyə Respublikasının
Prezidenti.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 3-də Prezident sarayında Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş komandanı, ordu generalı **M.Şener Eruyğuru** və onu müşayiət edən şəxsləri qəbul etmişdir.

Qonaqları səmimiyyətlə qarşılayan dövlətimizin başçısı **Heydər Əliyev** dedi:

- Xoş gəlmisiniz! Sizin gəlməyinizdən çox məmnunam.

Biz Silahlı Qüvvələrimizin hamısını Türkiyə modeli əsasında, Türkiyədən nümunə götürərək qururuq. Burada da sizin nümayəndələr var, onlar bizə kömək edirlər.

Vaxt ayırıb onları qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirən ordu generalı **M.Şener Eruyğur** dedi:

- Hörmətli Cümhurbaşkanım, buraya gəldiyim andan etibarən çox böyük qonaqpərvərlik gördüm. Buna görə də ayrıca təşəkkür edirəm.

Azərbaycana səfərə gəlmək ərəfəsində Baş Qərargah rəisimizi ziyarət edib, onun istəyini də öyrəndim. O, zati-alinizə səmimi salamlarını, hörmət və ehtiramını çatdırmağı xahiş etdi. Mən də bunu ərz etməkdən böyük qürur duyuram.

Heydər Əliyev: Sağ olun.

M.Şener Eruyğur:

- Hörmətli Cümhurbaşkanım, mən 2002-ci ildə Azərbaycanı ziyarət etmişdim. Keçən illər ərzində Azərbaycanda, Bakıda çox gözəl inkişafı görməkdən məmnunluq duydum. Bunu da Zati-alinizə söyləməyi borc bilirəm. İcazənizlə, bəzi məsələlər barədə qısa məlumat verərdim.

Heydər Əliyev: Mən bir-iki kəl-

mə demək istəyirəm. 1992-ci ildə siz Azərbaycanı çox pis vəziyyətdə görmüsünüz.

M.Şener Eruyğur: Bəli.

Heydər Əliyev: 1993-cü ilin əvvəllərində Xalq Cəbhəsi - onlar hakimiyyətdə bir il qaldılar - işləri apara bilmədi.

Sonra bəzi ordu nümayəndələri, Gəncədən bir dəstə gəlib onlara qarşı hücum etdilər.

Mən onda Naxçıvanda idim, orada yaşayırdım. Məni buraya onlar özləri dəvət etdilər. Gəlmək istəmirdim, ancaq sonra fikirləşdim ki, bizim Vətənimizdir, gedim, görüm burada niyə belə hadisələr olur. Gəldim. Əbülfəs Elçibəy qaçdı, dağa getdi, onun orada kəndi var. O biriləri də oraya-buraya.

Burada xaos idi, iqtisadiyyat dağılmışdı. İnsanlar bir-biri ilə pis münasibətdə idilər. Biz işləməyə başladıq.

1994-cü ildə Gəncədən və başqa yerlərdən dövlət çevrilişi etməyə çalışdılar. Silahsız, filansız qarşısını aldıq. Mən televiziya ilə xalqa müraciət etdim. Axşam idi, saat 10-da.

Bir saat sonra buradakı meydan insanlarla dolmuşdu. Onlar bizi müdafiə elədilər, biz də çevriliş cəhdinin qarşısını ala bildik.

Sonra, 1995-ci ildə polkovnik Rövşən Cavadov silah toplamağa başladı. Bakıda bir yerə yağışdılar və bizə ultimatum verdilər ki, hakimiyyətdən getməlisiniz. Hətta o vaxt Moskvadan, başqa yerlərdən jurnalistlər gəlmişdi. Çünki çox maraqlı idi. Hətta bəzi televiziya kanalları deyirdilər ki, hakimiyyət artıq Rövşən Cavadovdadır.

Mən onlarla çox, bir neçə gün danışıq apardım. Hətta Cavadovun atası ilə də görüşdüm, onunla danışıq apardım. Bir şey çıxmadı. Onlar buraya, Prezident sarayına, Milli Məclisə, bizim Müdafiə Nazirliyinə hücum etmək istəyirdilər.

Onda biz silah işlətməyə məcbur olduq. Çünki onlar silahlı idilər. Orada vuruşma oldu. Bilmirəm, 36, ya 40 adam onlardan həlak oldu, təxminən 30-32 nəfər də bizdən həlak oldu. Amma onları tamamilə dağıtdıq. Ondan sonra onların ayrı-ayrı nümayəndələri gəlib burada təxribat etmək istəyirdilər, imkan vermədik.

Belə bir şəraitdə biz 1993-cü ildən iqtisadiyyatla məşğul olurduq. Ancaq bu dediklərim, bizim vaxtımızı çox alırdı. Bu işləri qurtarandan sonra iqtisadiyyatın inkişafına sosial məsələlərə ciddi fikir verməyə başladıq. Mən sizə deyim ki, 1996-cı ildən 2002-ci ilə qədər bütün göstəricilərin hamısı yüksəkdir. Gəlirlərimiz var. Məsələn, 1992-ci ildə Azərbaycanın büdcəsi bilmirəm, deyəsən, təxminən 100 milyon dollar idi. Amma bizim gördüyümüz işlər nəticəsində indi Azərbaycanın büdcəsi 1 milyard 200 milyon dollardır. Bunlar hamısı bizə imkan verdi ki, sosial məsələləri həll edək.

Eyni zamanda, Bakı şəhərinə fikir verək. İndi burada böyük evlər

tikilib, küçələr çox yaxşı vəziyyətdədir. Şəhərdə camaat çox rahat yaşayır, hər şey etmişik. Bunları dedim ki, siz biləsiniz.

M.Şener Eruyğur: Cənab Prezident, mən bunlar barədə hörmətli nazirinizə də bildirdim. Təbiidir, iqtisadi çətinliklər olacaqdır. Hər halda, bu da müəyyən zamandan sonra ötüb keçəcəkdir. İcazə versəniz, qısaca məlumat vermək istəyirəm.

Ölkələrimiz arasında müştərək tarixi mədəni birlik olduğuna görə, biz Azərbaycanla münasibətlərimizə çox böyük əhəmiyyət veririk.

Azərbaycan - Türkiyə əlaqələrində, ilk növbədə, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə əsaslanaraq, iki ölkənin xoşbəxtliyini, rifahını arzulayaraq, əlimizdən gələn hər cür köməyin göstərilməsi ilə bağlı fikirlərimizi Zati-alinizə çatdırmaq istəyirəm. Bu baxımdan böyük əhəmiyyət verdiyimiz bir ölkədə olmağımdan duyduğum məmnunluğu yenidən nəzərinizə çatdırmaq istəyirəm. Ölkələrimiz arasındakı münasibətlərin səviyyəsini göstərmək baxımından Bakı -Tbilisi - Ceyhan neft kəməri və Bakı - Tbilisi - Ərzurum qaz kəməri layihəsi çərçivəsindəki əməkdaşlığımız bütün ölkələr tərəfindən qibtə ilə baxılan səviyyədədir.

Heydər Əliyev: Ərzurum sizin vətəninizdir. M.Şener Ərzuğur: Buna görə də xoşbəxtlik hissləri keçirirəm.

Zati-alinizin dəfələrlə ifadə etdiyi "Bir millət, iki dövlət" müdrik kəlamına biz də ürəkdən şərikik. Azərbaycanın bir hissəsi olan Naxçıvanın inkişafı məsələsinə də biz böyük əhəmiyyət veririk. Sizin də çox yaxşı bildiyiniz kimi, biz Türkiyə Silahlı Qüvvələri olaraq Naxçıvanda da hər cür dəstək və qayğı göstərməyə çalışır, qardaşlarımıza kömək etməkdən qürur və sevinc hissi duyuruq.

Hörmətli cənab Prezident, Sizin çox yaxşı bildiyiniz kimi, 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında baş verən hadisələrdən sonra dünya terrorizm anlayışında yeni bir dövrə daxil olmuşdur. Bu çərçivədə terrorla mübarizədə əməkdaşlıq məsələsində yeni imkanlar açılmışdır.

Amma Türkiyə bundan əvvəlki dövrdə illər boyu terrorizmlə mübarizədə çox vaxt yalqız qalmışdı. Ancaq sentyabr hadisələrinə baxmayaraq, hələ də bu əməkdaşlığın arzu edilən səviyyədə olduğuna inanmırıq. Biz Türkiyə olaraq Birləşmiş Millətlər Təşkilatı tərəfindən terrorun bir tərifinin müəyyənləşdirilməsinin və buna qarşı çıxan ölkələrin müəyyən zamanlarda BMT tərəfindən terroru dəstəkləyən ölkələr kimi ictimaiyyətə təqdim edilməsinin faydalı olacağını düşünürük.

BMT-nin 1373 nömrəli qərarının, heç bir ayrı-seçkilik olmadan, bütün terror fəaliyyətlərinə tətbiq edilməsinin faydalı olacağını düşünürük.

Çox yaxşı bildiyiniz kimi, 2002-ci ilin aprel ayında Trabzonda Azər-

baycan, Gürcüstan və Türkiyə arasında terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərlə mübarizəyə dair əməkdaşlıq sazişi imzalanmışdır.

Siz həmin mərasimdə iştirak edirdiniz. Bu sazişin qüvvəyə minməsinin həmin sahədəki əməkdaşlığa təkan verəcəyinə inanırıq. Mən hörmətli nazirinizlə görüşümdə bildirdim, biz Türkiyə Jandarm Qüvvələri olaraq Qala qəsəbəsindəki fəaliyyətimizi davam etdirəcəyik. Sizin Daxili Qoşunlar komandanını arzu etdiyi zaman Türkiyədə qarşılayıb, imkanlarımız çərçivəsində yardım göstərməyə hazır olduğumuzu Zati-alinizin diqqətinə çatdırmaq istəyirəm.

1993-cü ildən bu yana Azərbaycan Silahlı Qüvvələrinə ləvazimat və təlim sahəsində göstərdiyimiz yardım Sizə məlumdur. İndiyə qədər 1600 nəfərə yaxın azərbaycanlıya Türkiyədə, 25 min nəfərə isə Azərbaycanda təlim keçilmişdir.

Biz bununla bağlı çox böyük, xoşbəxt hisslər keçiririk. Eyni zamanda, 1992-ci illə müqayisədə əsgərlərin hər cəhətdən dəyişdiyini gördükdə sevinc hissləri duyuruq.

Cənab Prezident, vaxtınızı çox almaq istəmirəm, məni qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Prezident Heydər Əliyev vurğuladı ki, Azərbaycan da terrorizmlə çox illərdir mübarizə aparır. Mənim sizə dediyim o iki dövlət çevrilişinə cəhd də elə terrordur, onlar terroristlərdir. Biz onların qarşısını aldıq. Başqa belə hadisələr də olub, biz onlarla qəti mübarizə aparmışıq. Amerikada 11 sentyabr hadisələrindən sonra biz bu işləri daha da gücləndiririk və nəhayət, Amerika İraqı tərksilah etmək üçün başladığı kompaniyada Azərbaycan Amerika - Britaniya koalisiyasının üzvü oldu. Biz bütün sahələrə ciddi fikir veririk. İndi terrorizm çox qorxulu bir hal olduğuna görə, təbiidir ki, daha da ciddi olmaq lazımdır.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN SƏHİYYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyunun 11-də Prezident sarayında Türkiyənin səhiyyə naziri Rəcəb Akdağı və onu müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi ki, Azərbaycanın Səhiyyə nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Səhiyyə nazirliyi arasında çox xoş münasibətlər yaranıbdır. Bu iki nazirlik yaxşı əməkdaşlıq edir. Biz bu sahədə Türkiyədən çox təcrübə götürürük. Ona görə sizin bu gəlişiniz, hesab edirəm ki, əlaqələrin daha da inkişaf etməsinə səbəb olacaqdır. Mən çox məmnunam ki, nəinki Bakıda, həm də bizim qaçqınların məskunlaşdığı yerlərdə olacaqsınız. Bizim qonaqlarımızın bir çoxu Bakıya gəlirlər. Amma Bakıdan savayı, Azərbaycanın başqa bölgələri var. Mən bunu, xüsusən o mənada deyirəm ki, bizim ölkədə bir milyon qaçqın ağır şəraitdə, çadırlarda yaşayır. Onların vəziyyəti ilə tanış olmaq, ona ruh vermək, təbii ki, bizim üçün çox yardım olacaqdır. Mən sizin proqramınıza baxdım. Sizin belə bir ziyarətiniz var. Bu, çox yaxşıdır.

Cənab Rəcəb Akdağ səmimi qəbula görə minnətdarlığını bildirərək vurğuladı ki, hörmətli cümhurbaşkanım, doğrudan da, Azərbaycan və Türkiyə bir millətin iki ayrı dövlətidir.

Azərbaycanı özümüzə qardaş ölkə kimi qəbul edirik. Bizim gəncliyimiz də belə keçmişdir. Siyasətə başladıqdan sonra deyil, siyasətə başlamazdan əvvəl də belə olmuşdur.

Həqiqətən, hər iki ölkə arasında bir çox sahələrdə olduğu kimi, səhiyyə sahəsində də, ciddi işbirliyi vardır. Əslində, artıq bunun bəhrəsini, səmərəsini görmüşük. Mən buraya ziyarətim zamanı bunun bir daha şahidi oldum. Hörmətli səhiyyə nazirinizlə birlikdə bir çox xəstəxananı ziyarət etdik. Mən burada türk həkimlərinin çalışdığı çağdaş bir xəstəxana görməkdən çox məmnun oldum. Onu da söyləməliyəm ki, həqiqətən, Azərbaycanın çağdaş tibbin tələb etdiyi texnologiya sahəsində inkişafı Bakıda gözəl şəkildə həyata keçirilmişdir. Başqa yerləri də ziyarət etdik. Vərəm dispanseri, göz xəstəlikləri xəstəxanası və özəl bir klinika ilə tanış olduq. Bu sahədə qazanılmış nailiyyətlərdən çox məmnun oldum. Əlbəttə, bunun daha da inkişaf etməsi lazımdır. Türkiyədə bir çox azərbaycanlı həkim təhsilini artırır, təcrübə keçir.Bizdən də Azərbaycana gələn həkimlər vardır.

Bundan sonra həm təhsil sahəsində, həm də səhiyyə sahəsində işbirliyinin, əlaqələrin daha da artaraq davam etdirilməsini istəyirik. Bunun üçün də müştərək bir çalışma qrupu təşkil olunur.

Sizin də dediyiniz kimi, Azərbaycan təkcə Bakıdan ibarət deyildir. Qaçqınlar problemi Azərbaycan üçün çox önəmli bir məsələdir. Biz bu sahədə əlimizdən gələn köməyi etməyi arzulayırıq. Hazırda həkimlərimizin bir qrupu çadır düşərgəsinin birindədir, digəri qrupu isə Qızıl Ay Cəmiyyətinin xətti ilə insanların sağlamlığı, xüsusilə vərəm xəstəliyi ilə bağlı gərəkli müalicə işləri görür. Biz də hörmətli nazirinizlə birlikdə həmin yerləri ziyarət edəcəyik.

Mən həkim məsləkdaşlarım adından Sizə təşəkkür edirəm. Bu gün Sizin səhiyyə nazirinizlə danışarkən məlum oldu ki, onların əmək haqlarını artırmısınız. Onlar buna görə böyük məmnuniyyətlərini bildirdilər. Əlbəttə, işləyənlərin maaşlarının artırılması sağlamlıq baxımından son dərəcə önəmlidir. Ölkəm, nazirliyim və nümayəndə heyətim adından Sizə bir daha təşəkkür edirəm.

Prezident Heydər Əliyev dedi ki, dünən sizin Baş nazir ilə telefonla danışırdıq. O, mənə Türkiyədə olan durum barədə məlumat verdi. Sonra Bakı - Tbilisi - Ceyhan haqqında bir-birimizə məlumatlar verdik. Çox məmnun olduq ki, işlər yaxşı gedir. İndi Türkiyədə də vəziyyət yaxşıdır. O, Azərbaycana olan diqqətini, qayğısını bildirdi, bizim işlərimizlə maraqlandı. Mən ona bildirdim, çox məmnun oldu. Dünənki bu danışıq Türkiyə - Azərbaycan əlaqələrinin nə qədər yüksək səviyyədə olmasını göstərir. Eyni zamanda, Türkiyə ilə Azərbaycanın qardaş ölkə kimi daim bir yerdə olacağını göstərir.

Türkiyənin həkimləri çox bilikli həkimlərdir. Bizim mərkəzi klinik xəstəxanamı, bir çox yerləri Türkiyənin həkimləri yaratdılar. Bizim Səhiyyə nazirliyi üçün bir çox işlər görüblər. Mən həmin xəstəxananın yaradılması üçün 30 milyon dollar vəsait verdim. Sonra getdim baxdım, gördüm ki, bunu çox düzgün etmişəm. Çünki çox gözəl xəstəxanadır. Sizin həkimlər də bəzən gəlirlər, orada çalışırlar və nümunə göstərirlər. Bu, sevindirici haldır.

Siz indi təsəvvür edin, Azərbaycanda Türkiyənin həkimlərinə, sağlamlıq işçilərinə nə qədər inam var. Çünki Azərbaycanın cümhurbaşkanı iki dəfədir ki, gedib Gülhanədə müayinə olunur. Hər halda, onlar nə edirlərsə, mən bunu qəbul edirəm. Demək, bu, bizim münasibətlərimizin göstəricisidir.

Mənim üçün dünyada hər yer var. Avropa ölkələrindən, Amerikadan məni daim dəvət edirlər. Ancaq mən hər dəfə deyirəm ki, öz həkimlərim var, lazım olanda gələcəyəm. Bəzən lazım olanda Amerikaya gedirəm. Amma əsas Türkiyədir.

Bunların hamısı birlikdə bizim müstəqilliyimiz dövründə Azərbaycan ilə Türkiyənin münasibətlərinin nə qədər inkişaf etdiyini göstərir. Mən bundan çox məmnunam. Güman edirəm ki, bu istiqamətdə işlər bundan sonra daha sürətlə davam edəcəkdir.

Sizə təşəkkür edirəm. İstəyirəm ki, burada işləriniz yaxşı getsin.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN ƏDLİYYƏ NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 4-də Prezident sarayında Türkiyə Respublikasının ədliyyə naziri Cəmil Çiçəyin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi ki, hörmətli nazir, bizim ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələri var. Bu on il içərisində biz bir çox məsələləri bir-birimizlə məsləhətləşmişik, bəzi qanunları da məsləhətləşib qəbul etmişdik. Ədliyyə sahəsində əməkdaşlıq çox vacibdir və əhəmiyyətlidir. Əməkdaşlıq var, bəzi müqavilələr, protokollar da var. Bu sənədlər vaxtaşırı imzalanıbdır. Ancaq mənə belə gəlir ki, Azərbaycana lazım olan cinayətkarların sizin ölkədə axtarılması, tapılması və eyni zamanda Azərbaycanda sizə lazım olan cinayətkarların tapılması haqqında biz lazımi səviyyədə əməkdaşlığa nail olmamışıq. Güman edirəm, bizim bu görüşlərimizdə, danışıqlarımızda bunların hamısını həll etmək olar. Çox məmnunam ki, siz Azərbaycana gəlmisiniz.

Dost və qardaş ölkənin Ədliyyə naziri Cəmil Çiçək Prezident Heydər Əliyevə müraciətlə dedi ki, hörmətli Cümhurbaşkanı, çox gərgin işinizdən vaxt ayırıb məni və nümayəndə heyətimizin üzvlərini qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Sözümün əvvəlində Türkiyə Prezidenti Əhməd Necdət Sezərin Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına türk milləti və öz adından ən xoş diləklərini, arzularını çatdırmaq istərdim. Mən buraya gələrkən, cənab Sezəri ziyarət etdim, tapşırıqları olub-olmadığını soruşdum. O da mənim vasitəmlə Sizə ən xoş diləklərini yetirməyi tapşırdı.

Biz iki gündür Bakıdayıq. Hörmətli naziriniz çox böyük qonaqpərvərlik göstərdi, bizi yüksək səviyyədə qəbul etdi.

Biz ölkələrimizin Ədliyyə nazirlikləri arasındakı işbirliyini daha da yaxşılaşdırmaq barədə faydalı müzakirələr keçirdik. Ali Məhkəmənin sədri və bir sıra hakimlərlə görüşdük, fəaliyyətləri haqqında məlumat aldıq.

Doğrusu, burada gördüklərim, eşitdiklərim məni son dərəcə məmnun etdi, çox sevindim. Biz Türkiyədə Azərbaycandakı inkişafı həmişə yüksək qiymətləndiririk.

Mən Türkiyənin Böyük Millət Məclisində Zati-alinizin nitqini o vaxt dinlədim. Siz orada çox gözəl təkliflər verdiniz.

Həmin təkliflərdən əlavə, Sizin təbirinizcə demək istəyirəm ki, bir millət, iki dövlət arasında hüquqi sahədə də görüləsi çox önəmli işlərin və addımların olması barədə tövsiyələrinizi biz sözsüz qəbul edirik. Həyata keçirilmiş anlaşmalar da, imzalanmış sənədlər də var. Bunları böyük və birgə səylərlə yerinə yetirməyə çalışırıq.

Keçmişdə bəzi sənədləri imzalamaqla bərabər, Türkiyə seçim əhvalına girdi, hökumət dəyişikliyi oldu. Dəyişikliyə görə bu işi yerinə yetirmək mümkün olmadı. Amma indi Türkiyədə yeni bir dövr başlayıbdır. Digər sahələrdə olduğu kimi, ədliyyə sahəsində də Azərbaycan ilə görəcəyimiz çox işlər vardır. Hesab edirəm, bizim bu ziyarətimiz faydalı oldu. Qayıdandan sonra həmin işlərin icrasına çalışacağıq.

Biz Zati-alinizə dərin hörmətimizi bir daha bildirmək imkanı qazandığımız üçün Sizə xüsusi təşəkkür edirik.

Heydər Əliyev: Sağ olun, təşək-

kür edirəm.

Türkiyənin ədliyyə sistemi, ədliyyə orqanları böyük tarixə və çox böyük təcrübəyə malikdir. Atatürkün vaxtından dünyəvi dövlət prinsipi yaratmaq, ədliyyə işini, məhkəmə işini Avropa standartları, tələbləri səviyyəsinə qaldırmaq və insanların hüquqlarını qorumaq təcrübəsi həqiqətən sizdə var. Çünki siz uzun tarixə malik olan bir dövlətsiniz və artıq neçə ildir ki, dünyəvi dövlət şəraitində yaşayırsınız. Parlament respublikasısınız.

Biz bu yola yeni düşmüşük. Ancaq bu yolu qətiyyətlə gedirik və mütləq axıradək gedəcəyik. Biz uzun müddət sovet ədliyyə sistemində, onun məhkəmə orqanlarında olmuş qanun-qayda ilə işləmişik. İndi insanların beynindən onu çıxarıb daha da mütərəqqi bir şeyi onlara anlatmaq asan iş deyil. Amma biz bunu edirik və nailiyyətlərimiz də var. Təbii ki, hələ görüləsi işlərimiz çoxdur. Biz bunların hamısını edəcəyik.

Ancaq mən onu demək istəyirəm ki, biz sizin ölkənin təcrübəsindən istifadə etməliyik və istifadə edirik. Ancaq bizim ədliyyə orqanlarımız arasında əməkdaşlıq daha da möhkəm, daha da sıx olmalıdır. Sizin keçiyiniz yolu və əldə etdiyiniz nailiyyətləri bizim ədliyyə sistemi bilməlidir və onunla əlaqədar lazımi tədbirlər görməlidir. Bunların hamısının ümumi qanunları, qaydaları var, kitablarda da yazılıbdır və biz bunları bilirik. Ancaq indi bunları həyata keçirmək və insanları məhz bu istiqamətdə yönəltmək, tərbiyə etmək bizim işimizdir. Bu sahədə Türkiyənin yardımına böyük ehtiyacımız var. Güman edirəm ki, bu görüşlərdən sonra siz Azərbaycan ilə daha da yaxından tanış oldunuz, gördünüz.

Belə halda daha da yaxın münasibətlər olacaqdır və siz bizimlə əməkdaşlığı daha da artıracaqsınız.

Cəmil Çiçək: Hörmətli Cümhurbaşkanım, Zati-alinizin də buyurduğu kimi, Türkiyə belə bir hüquqi dövrü 1920-1930-cu illərdə böyük Atatürkün rəhbərliyi ilə gerçəkləşdirdi.

Türkiyə belə bir təcrübəni qardaş Azərbaycan ilə paylaşmaqdan böyük məmnunluq duyur. Keçirdiyimiz görüşlərdə də qarşılıqlı təcrübə və birgə axtarışların yollarını aramağa çalışdıq, bununla bağlı sənədlər imzaladıq.

Ancaq bizim də Azərbaycandan öyrənilməsi çox şeylər vardır.

Mən onu burada gördüm. Bizdə Apellyasiya Məhkəməsi yoxdur, amma Azərbaycanda var. Biz də yaratmaq istəyirik. Ona görə Siz bizdən bir addım öndəsiniz. Eyni zamanda, biz Türkiyədə ombudsman təsisatını yaratmağa çalışırıq.

Heydər Əliyev: Sizdə ombudsman yoxdur?

Cəmil Çiçək: Bizdə yoxdur. İndi yaratmağa çalışırıq. Amma sizdə bir illik təcrübə var. Qardaş ölkədə bu cür təcrübənin olması bizim üçün olduqca yaxşıdır. Yəni Azərbaycandan

öyrəniləsi məlumatlar, təcrübələr var. Ona görə də mən buradan ölkəmə böyük və faydalı bilgilərlə dönəcəyəm. Bu sahədə qarşımıza çıxan problemlər olsa, biz dəyərli məsləkdaşımızı aramaqdan, onunla görüşməkdən məmnun olacağıq.

Heydər Əliyev: Bəs nə üçün Türkiyədə indiyə qədər ombudsman yaranmayıbdır?

Cəmil Çiçək: Biz də bu yaranmadı. Çünki başqa işlərlə məşğul olduq. Bir qanun layihəsi hazırlamışıq və bunu hələ müzakirə edirik. Hələlik bizdə ombudsman yoxdur. Amma indi buna ehtiyacın olduğu düşünülür. Bununla bağlı bizim ölkədə, hüquq dairələrində müzakirələr gedir. Amma Azərbaycanda bir ildir ki, ombudsman yaradılmışdır və fəaliyyəti də yaxşıdır.

Bu, bizim üçün çox önəmli bir təcrübədir. **Heydər Əliyev:** Apellyasiya Məhkəməsini mütləq yaratmaq lazımdır.

Cəmil Çiçək: Bizim Cümhuriyyətin ilk illərindən 1924-cü ilə qədər belə bir məhkəmə var idi. Ancaq 1924-cü ildə ləğv edilmişdir. Bu gün yenidən yaratmaq istəyirik. Türkiyə Böyük Millət Məclisinə qanun layihəsi təqdim etmişik. 1924-cü ildə bu məhkəmənin ləğvinin səbəbi bu məhkəmələrdə çalışan yetərli sayda hakimin olmaması idi. Zati-aliləri, bilirsiniz ki, Anadolu türkləri təhsil almış nəslinin önəmli bir hissəsini Çanaqqala savaşında itirdi. Onların arasında hüquqşünas da, hakim də, mühəndis də var idi. Biz Cümhuriyyəti quranda bu məhkəmələrdə fəaliyyət göstərəcək lazımi səviyyəyə, biliyə sahib, yetərincə hüquqşünas olmamışdır.

Hətta bizim ədliyyəmizin tarixində yazılır ki, o zaman məhkəmələrə təyin ediləcək hakim tapılmadığı üçün işi daha az biliyə sahib olanlar aparmışlar. Ona görə də o vaxt bu məhkəmə ləğv edilmişdir. Aradan illər keçəndən sonra buna ehtiyac duyulduğu önə çıxır.

Biz də hökumət olaraq belə bir məhkəmənin mövcudluğunu vacib bilib Böyük Millət Məclisində məsələ qaldırdıq. Amma Azərbaycanda bu işə başlanılmışdır. Bu da bizim üçün xüsusi təcrübə qaynağıdır.

Heydər Əliyev: Demək, sizin də öyrənməyə ehtiyacınız vardır.

Cəmil Çiçək: Bəli, vardır. Hörmətli Cümhurbaşkanım, hər dövrün öz ehtiyacı vardır.

Heydər Əliyev: Elədir. Lap yaxşı.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏNİN DAXİLİ İŞLƏR NAZİRİNİ QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 8-də Prezident sarayında Türkiyənin Daxili İşlər naziri Abdulkadir Aksunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dost və qardaş ölkənin hörmətli

nümayəndələrini mehribanlıqla qarşılayan Prezident **Heydər Əliyev** dedi:

- Hörmətli nazir, Azərbaycana xoş gəlmisiniz. Mən çox məmnunam. Bizim ölkələrimiz bir-biri ilə dostdur, strateji əməkdaşlıq əlaqələri saxlayır. Ona görə təbii ki, ölkənin rəhbərləri, Prezidentləri ilə yanaşı, Baş naziri, nazirlər və başqa təşkilat rəhbərləri də gərək bir-biri ilə yaxın olsunlar və bir-birinə təcrübəsini öyrətsinlər. Bu barədə Türkiyə bizim üçün birinci, əsas yeri tutur. Mən çox məmnunam ki, Daxili İşlər nazirliyi sistemində də belə bir ənənə yaradılıbdır. Bizim nazirlər, Türkiyənin nazirləri, Azərbaycanın naziri vaxtaşırı görüşürlər, məsələləri müzakirə edirlər və bu da çox yaxşı nəticələr verir. Ona görə mən məmnunam ki, siz bu səfəri etmisiniz. Buyurun. Onlara göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən **Abdulkadir Aksu** dedi:

- Hörmətli Cümhurbaşkanım, əvvəlcə bizi qəbul etdiyiniz üçün öz adımdan və nümayəndə heyətinin adından dərin hörmət və ehtiramımı bildiririk. Mən Cümhurbaşkanı Əhməd Necdət Sezərin, Baş nazir Rəcəb Tayyib Ərdoğanın xüsusi salamlarını Sizə çatdırıram.

Heydər Əliyev: Çox sağ olsunlar.

Abdulkadir Aksu: Mən Sizi sağlam və gümrah görməkdən böyük məmnunluq duyduğumu da bildirmək istəyirəm. Səmimi sözümdür ki, Azərbaycana hər dəfə gələndə inkişaf görürəm. Ötən səfərim təqribən 6 ay bundan əvvəl idi. İndiki Baş nazirimiz ilə birlikdə gəlmişdik və bizi qəbul etmişdiniz. O vaxtdan bu zamanadək Bakıda, Azərbaycanda böyük dəyişikliklər gördüm. Zati-alinizin öndərliyi, rəhbərliyi altında doğrudan da Azərbaycanda gözlə görünən bir şəkildə dəyişiklik, gözəllik, yenilik diqqətə çarpmaqdadır. Buna görə də təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Çox sağ olun.

Abdulkadir Aksu: Mən buraya çox dəyərli həmkarım Ramil Usubovun dəvəti ilə ölkələrimiz arasında mövcud olan işbirliyini müzakirə etmək üçün gəlmişəm. Bizə böyük qonaqpərvərlik göstərdilər. Mən Sizin qarşınızda təşəkkür edirəm və bunu alqışlayıram. Doğrudan da keçən dəfə mən Azərbaycana gələndə tanımaq imkanım az olmuşdu. İndi bir yerdə çox olduq, tanıdım. Çox dəyərli, dəyanətli, bir çox üstün xüsusiyyətlərə sahib bir həmkarım vardır. Sizin hüzurunuzda onu təbrik edirəm.

Aramızda mövcud işbirliyi müqaviləsi və 2002-ci ildə Trabzonda Sizin,- Azərbaycanın, Türkiyənin, Gürcüstanın dövlət başçılarının iştirakı ilə imzaladığımız müqavilə ölkələrimiz arasında terrorla mübarizədə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə, cinayətkar dəstələrə qarşı mübarizədə önəmli bir hüquqi zəmin yaratmışdır. İndi biz həmin hüquqi zəmin üzərində fəaliyyətimizi birlikdə davam etdiririk və əlaqələrimizi daha da irəliyə aparmaq istəyirik. Çünki artıq bu gün bütün dünya bunu gördü və qəbul etdi ki, terrorizmlə mücadilədə mütləq beynəlxalq işbirliyinə ehtiyac vardır. Narkomaniyaya, cinayətkar dəstələrə qarşı, qaçaqmalçılıqla mübarizədə mütləq beynəlxalq işbirliyinə ehtiyac vardır.

Təbii, son zamanlar insan oğurluğu meydana çıxmışdır. Biz bu məsələ üzərində ciddi durmuşuq və bununla bağlı cəza qanunlarımızda dəyişiklik etdik. İnsan oğurluğu ilə bağlı ayrı-ayrı maddələr yazdıq. Bu sahədə qonşu, dost ölkələrlə də anlaşmalar imzaladıq. Azərbaycanla bu sahədə razılıq əldə etmək üçün bir ay bundan əvvəl Xarici İşlər nazirimiz Azərbaycanın Xarici İşlər nazirinə bir məktub çatdırmışdır.

Bu, iki ölkəyə insan oğurluğu ilə bağlı birlikdə çox ciddi mücadilə aparmaq və tədbirlər görmək imkanı qazandıracaqdır.

Hazırda əlaqələrimiz yaxşı zəmində davam edir. Bugünkü görüşümüzdə hər sahədə müzakirə açıldı, sadaladığım məsələlər barədə fikir mübadiləsi aparıldı və nəticədə protokol imzalandı. Ümid edirik ki, dost və qardaş Azərbaycanla sadəcə, təhlükəsizlik sahəsində deyil, iqtisadi, sosial, mədəni sahələrdə də əlaqələrimiz çox yaxşı səviyyəyə çatsın. Biz də buna çalışarıq.

Hörmətli Cümhurbaşkanım, bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Heydər Əliyev: Çox sağ olun.

Beynəlxalq terrorizmlə mübarizə indi dünya, bəşəriyyət üçün çox vacib və aktual vəzifələrdən biridir. Çünki indi elə bir vəziyyət almış ki, o ölkə yoxdur ki, ora terrorizm ziyarət etməsin, ora ayaq açmasın. Məsələn, beş-altı il bundan əvvəlki dövrü götürək, biz belə bir mənzərəni görmürdük.

Amma ABŞ-da 11 sentyabr hadisələrindən sonra və ondan sonra bir neçə çox böyük terror hadisələrindən sonra dünya, bəşəriyyət artıq inandı ki, beynəlxalq terrorizm nəinki ayrı-ayrı ölkələr üçün, bütün dünya, bəşəriyyət üçün çox böyük təhlükədir. Əgər bunun qarşısı alınmasa, lazımi tədbirlər görülməsə, bunlar genişlənəcəkdir.

Məsələn, bilirsiniz ki, bu günlərdə Moskvada iki nəfər qadın özünü öldürdü, onlarla bərabər 15 nəfər öldü, 60 nəfərə qədər adam da yaralandı. Bunlar özlərini ölümə verən insanlardır. Bu, adi məqsəd üçün deyil. Bu, müəyyən terrorçu qrupların həyata keçirdiyi tədbirlərdir. Bunun məqsədi də aydındır. Təkcə bu deyil. Elə bu dövrdə televiziyada baxırsan, məlumat alırsan, iki, üç gündən bir orada partlayış, burada terror, orada adam öldürüblər, dəhşətli bir mənzərə yaranıbdır. Biz Azərbaycan olaraq bütün bu hərəkətlərə qarşı mübarizəni aparmışıq və aparacağıq.

Məsələn, bilirsiniz, biz Amerikanın yaratdığı antiterror koalisiyada lazımi xidmətlərimizi göstərdik və bundan sonra da İraq məsələsi ilə əlaqədar göstərəcəyik. Amma təkcə İraq

məsələsi deyil, burada başqa məsələlər də var. Yəni bizim ölkə terror üçün mümkün olan bir yerdir. Çünki bizim cənubda da kim var bilirsiniz, başqa yerlərdə kim var, bilirsiniz.

Azərbaycanın geniş əlaqələri olubdur. Ona görə biz bu hərəkata qoşulmuşuq. Bu barədə sizinlə bizim hələ təqribən iki il bundan öncə Trabzonda imzaladığımız müqavilə var - biz iştirak edirdik, siz imzaladınız.

Ramil Usubov (Azərbaycanın Daxili İşlər naziri): Bəli, cənab Prezident, biz ikimiz imzaladıq.

Heydər Əliyev: Orada biz, üç Prezidentin Türkiyə, Gürcüstan, Azərbaycan Prezidentlərinin iştirakı ilə terrorizm əleyhinə müqavilə imzalandı. Deməк, biz hələ o vaxt bu hadisəni başqalarından daha da yaxşı görürdük. Ona görə də o vaxt belə bir müqavilə imzaladıq. Bundan sonra da biz Türkiyə ilə daim əlaqədəyik və məsləhətləşmək, bəzi məsələlərdə birgə hərəkət etmək, başqa məsələlər bizim üzərimizə düşübdür. Gərək biz xalqımızı, ölkələrimizi qoruyaq.

Siz bu barədə dediniz ki, protokol hazırlamısınız?

Ramil Usubov: Cənab Prezident, o zaman Trabzonda Sizin verdiyiniz tapşırıqla bağlı müqavilə imzaladıq. İndi onun icrası ilə əlaqədar müzakirələr apardıq və görüş protokolu imzaladıq.

Heydər Əliyev: Lap yaxşı.

Abdulkadir Aksu: Hörmətli Cümhurbaşkanım, imzalanmış müqavilədə göstərilən məsələləri müzakirə etdik və protokol imzaladıq.

Heydər Əliyev: Bəli, biz bir yerdə hərəkət edəcəyik. Türkiyənin də problemləri çoxdur, olduqca çoxdur. Terrorizm Türkiyəni neçə illərdi, on illərdi çox pis vəziyyətə saldı. Orada daim müharibə gedir, insanlar şəhid olur. Nə üçün?

Ölkəni qorumaq üçün, xalqı qorumaq üçün. İndi İraq məsələsi ilə əlaqədar təbiidir ki, Türkiyəyə qarşı terror hərəkətləri daha da artmış olar. Ona görə biz bunu nəzərə alırıq və bizim ölkəmizə Türkiyə ilə əlaqədar hansı bir məlumat gəlirsə, o məlumat sizin tərəfə verilir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏDƏ QEYRİ-RƏSMİ SƏFƏRDƏ OLMUŞDUR

İyul, 2003-cü il

PREZİDENT HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ ZİYARƏTLƏRİ, TÜRKİYƏNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞLƏRİ VƏ QARDAŞ ÖLKƏNİN RƏHBƏRLƏRİNİN AZƏRBAYCANA ZİYARƏTLƏRİ

Tarixi xronika

1. Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 24-dək Türkiyə rəhbərliyinin xüsusi dəvətilə ilk dəfə Türkiyəni ziyarət etmişdir.

2. 1- 5 iyun tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə ikinci dəfə Türkiyədə oldu.

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə 1992-ci il avqust ayının 10-dan 14-ə qədər Türkiyəyə rəsmi səfər etmişdir. Bu onun Naxçıvanda olduğu vaxt ərzində qardaş ölkəyə üçüncü səfəri idi. Məqsəd Türkiyə ilə yaranan əlaqələri daha da möhkəmləndirmək, eləcə də İqdır şəhərinə vilayət statusu verilməsi ilə əlaqədar keçirilən mərasimdə iştirak etmək olmuşdur.

4. 1993-cü ilin aprel ayının 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev Türkiyənin yaxın bölgələrinə dördüncü işgüzar səfərə getmişdir.

5. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev 1993-cü il aprel ayının 19-dan 25-dək Türkiyə Respublikasında beşinci dəfə səfərdə olmuşdur. Heydər Əliyev Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Ankarada və İstanbulda keçirilən matəm mərasimlərində iştirak etmişdir.

6. 8 - 11 fevral 1994-cü ildə

Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etmişdir. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalanmışdır.

7. 9 - 10 iyun 1994-cü ildə Azərbaycan Prezidenti Türkiyədə qısamüddətli I işgüzar səfərdə olmuşdur. Qısa bir müddət ərzində Prezident Süleyman Dəmirəl, Baş nazir Tansu Çillər, Baş nazirin birinci müavini Murad Qarayalçın, Xarici İşlər naziri Hikmət Çətinlə ölkələrimiz arasındakı əlaqələrin daha da sürətlə inkişaf etdirilməsi məqsədi ilə danışıqlar və məsləhətləşmələr aparmışdır. Bununla yanaşı dünyanın bir çox ölkələrinin Xarici İşlər nazirlərinin İstanbulda olmasından istifadə edərək iki gün ərzində Prezidentimiz ABŞ-ın Dövlət Katibi Uorren Kristoferlə, Böyük Britaniyanın Xarici İşlər naziri Duqlas Herdlə, o dövrdə Minsk qrupuna rəhbərlik edən İsveçin Xarici İşlər naziri xanım Marqaret af Uqlasla, Avropa İqtisadi Birliyinin sədri, Yunanıstanın Xarici İşlər naziri Karolos Papuliasla mühüm görüşlər keçirmiş, regionda vəziyyət və Qarabağ probleminin həlli yollarını onlarla müzakirə etmişdir.

8. 18 - 19 oktyabr 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyev Türkiyədə II işgüzar səfərdə olmuşdur. Onun başçılıq etdiyi nümayəndə heyəti Türkiyənin İstanbul şəhərində keçirilən Türkdilli Dövlət Başçılarının II Zirvə toplantısında iştirak etmişdir. Burada türkdilli xalqların hərtərəfli inkişafı və xüsusi ilə də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edən "İstanbul bəyannaməsi" qəbul edilmişdir.

9. 1 - 2 noyabr 1994-cü ildə Prezident Heydər Əliyev Türkiyədə III işgüzar səfərdə olmuşdur. O burada dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubiley tədbirlərində iştirak etmişdir.

10. Türkiyə Respublikasının Baş naziri xanım Tansu Çillər və onu müşayiət edən Türkiyə hökumət üzvlərindən ibarət nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevin dəvəti ilə 12 aprel 1995-ci il tarixində Bakıda qısa müddətli işgüzar səfərdə olmuş və bu səfər əsnasında, Türkiyə Respublikasının Neft Konsorsiumundakı 1,75%-lik payının Azərbaycanın neft payının hesabına 6,75%-ə qədər artırılması haqqında müqavilə imzalanmışdır. Türkiyə Respublikasının payının 6,75%-ə qədər artırılması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb etdi.

11. Türkiyə Respublikasının Baş naziri xanım Tansu Çillərin başçılıq etdiyi nümayəndə heyəti 1995-ci il iyul ayının 10-dan 12-dək Azərbaycan Respublikasında rəsmi səfərdə

oldu. Səfər əsnasında T.Çillər Prezident Heydər Əliyev, Baş nazir, Milli Məclisin sədri, Xarici İşlər naziri və digər rəsmi şəxslər ilə görüşdü. Dostluq və qarşılıqlı anlaşma şəraitində keçən görüşlərdə Azərbaycan ilə Türkiyə arasında ikitərəfli əlaqələrin vəziyyəti hərtərəfli müzakirə edildi, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparıldı. Nümayəndə heyəti Axıxa türklərinin və Azərbaycan ictimaiyyətinin nümayəndələri və həmçinin Bakıda məskunlaşmış qaçqınlarla görüşlər keçirdi. Bu görüşlər də hər iki ölkənin KİV-i vasitəsi ilə geniş işıqlandırıldı ki, bu da qardaş türk xalqının qaçqınlarımızın çətin vəziyyəti ilə tanış olmasına bir daha geniş imkan yaratdı.

12. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycana I rəsmi səfərini etmişdir. Səfər zamanı ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və genişləndirilməsi perspektivləri nəzərdən keçirilmişdir. Süleyman Dəmirələ Azərbaycan EA-nın Fəxri akademiki diplomu təqdim edilmişdir. Prezident Heydər Əliyev və Süleyman Dəmirəl birgə bəyanat imzalamışlar. Bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, bölgədəki ixtilafların aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha aktiv təsir göstərilməsinin vacibliyinə yer verilmiş və bir daha Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi əks etdirilmişdir. Səfər əsnasında həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafı haqqında memorandum, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında televiziya yayımları haqqında əməkdaşlıq müqaviləsi imzalanmış və iki ölkə arasında avtomobil daşımaları haqqında sazişin təsdiq olunması və qüvvəyə minməsi barədə notalar mübadiləsi edilmişdir.

13. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının Baş naziri Məsud Yılmaz və onu müşayiət edən nümayəndə heyəti 1996-cı il aprel ayının 14-dən 15-dək Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur. Məsud Yılmaz Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev tərəfindən qəbul edilmişdir. O, digər rəsmi şəxslərlə də görüşlər keçirmişdir. Səfərin yekunu olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Respublikasının Baş naziri Məsud Yılmaz "Azərbaycan-Türkiyə Birgə Bəyanatı"-nı imzalamışlar.

14. Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələsgərovun

dəvəti ilə Türkiyə Parlamentinin sədri M.Kalemli 1997-ci ilin mart ayının 19-dan 20-dək Bakıda rəsmi səfərdə olmuşdur.

15. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 30 aprel 1997-ci il də Türkiyədə IV işgüzar səfərdə olmuşdur. O İstanbulda keçirilmiş Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etmişdir.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçıları, Dünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Birləşmiş Millətlər Təşkilatının və bir sıra digər beynəlxalq təşkilatların nümayəndələri, Qərb ölkələrinin, o cümlədən ABŞ-ın iş adamları toplantıda iştirak etmişlər. Konfransda ölkəmiz üçün çox önəmli olan və strateji xarakter daşıyan kommunikasiya layihələri, elektrik enerjisi sistemlərinin, habelə Avropa və Asiya qitələrinin bu cür sistemlərinin birləşdirilməsi və Xəzər dənizindən enerji daşıyıcılarının nəqli məsələləri müzakirə olunmuş, fikir mübadiləsi aparılmışdır. Qara dəniz İqtisadi Əməkdaşlığı Təşkilati İşgüzar Şurasının Türkiyə Respublikası Xarici İqtisadi Əlaqələr Şurası ilə birlikdə təşkil etdiyi "Qara dəniz regionunda yeni imkanlar" biznes konfransında çıxış edən Azərbaycan Prezidenti nəzərdə tutulan bütün regional layihələrin həyata keçirilməsi üçün Azərbaycanın əlindən gələni edəcəyini bildirmişdir.

16. Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev 5-8 may 1997-ci il tarixlərində Türkiyə Respublikasına ikinci dəfə rəsmi səfər etmişdir. Səfər iki ölkə arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırmış və müxtəlif sahələri əhatə edən 9 sənəd imzalanmışdır. Bunlardan xüsusi əhəmiyyət kəsb edən və iki qardaş ölkənin gələcək əlaqələrinə təsir göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə" oldu.

17. 13-14 fevral 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə V işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevə Türkiyənin "Nərgiz tv" televiziyasının 1997-ci il üçün "İlin dövlət adamı" mükafatı təqdim edilmişdir.

18. 26 aprel 1998-ci il də Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin dəvəti ilə, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyədə VI işgüzar səfərdə olmuşdur. O Trabzon şəhəri yaxınlığında Dərinər su bəndinin inşasının təməlatma mərasimində iştirak etmişdir. Təməlatma mərasimində iştirak edən Azərbaycanın,

Türkiyənin və Gürcüstanın Prezidentləri ikitərəfli və üçtərəfli münasibətlərin inkişafına dair müzakirələr aparmış və birgə bəyanat qəbul etmişlər.

19. 10 may 1998-ci il də Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin anadan olmasının 75 illik yubileyi ilə əlaqədar Bakıya birgünlük işgüzar səfərə gəlmişdir. İkitərəfli görüş zamanı hər iki tərəfi maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

20. 8-9 sentyabr 1998-ci il tarixlərində Azərbaycan Respublikasında beynəlxalq səviyyədə keçirilmiş tarixi "İpək yolu"nun bərpasına həsr edilmiş və Prezident Heydər Əliyevin sədrlik etdiyi konfransda Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəlin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmiş və ölkələrimiz arasındakı iqtisadi münasibətlərin inkişafında konfransın rolu qeyd edilmişdir.

21. 28-31 oktyabr 1998-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyədə VII işgüzar səfərdə olmuşdur. Onun başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının 75 illiyi münasibəti ilə Türkiyədə keçirilən bayram mərasimlərində iştirak etmişdir. Səfər zamanı Azərbaycan, Qazaxıstan, Gürcüstan, Özbəkistan və Türkiyə dövlət başçıları, habelə ABŞ-ın Enerji naziri tərəfindən Bakı-Ceyhan neft-boru kəmərinin həyata keçirilməsinin vacibliyini əks etdirən Birgə Bəyannamə imzalanmışdır.

22. 17-31 yanvar 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Ankara Gülhanə Hərbi Tibb Akademiyasında müalicə olunmuşdur.

18. May - iyun 1999-cu ildə Azərbaycan Prezidenti Klivlenddən sonra Türkiyədə istirahət etmişdir.

23. 31 oktyabr-2 noyabr 1999-cu il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə VIII işgüzar səfərdə olmuşdur. O, İstanbul şəhərində zəlzələdən zərər çəkmiş bölgə sakinlərinə Azərbaycandan gətirilmiş humanitar yardımı təqdim etmişdir. Səfər əsnasında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevə "Atatürk adına beynəlxalq sülh mükafatı" təqdim olunmuşdur. Çankayada keçirilmiş təntənəli mərasimdə Türkiyə hökumətinin üzvləri, Ankara ictimaiyyətinin, diplomatik korpusun və KİV nümayəndələri iştirak etmişlər.

24. 17 noyabr 1999-cu ildə Türkiyədə IX işgüzar səfərdə olmuşdur. O, İstanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QİƏT) V

Zirvə görüşündə iştirak etmiş, nitq söyləmişdir.

25. 18 - 19 noyabr 1999-cu ildə ATƏT-in İstanbulda keçirilən Zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak etmişdir. Keçirilən toplantıda Dağlıq Qarabağ probleminə dair geniş şərhlə çıxış edən Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev ATƏT-in Qafqaz və Orta Asiyadakı gələcək fəaliyyətinə və Cənubi Qafqazda Təhlükəsizlik və Əməkdaşlıq Paktının yaradılmasına dair əhəmiyyətli təkliflər irəli sürmüşdür. Sammitin ən əlamətdar hadisəsi isə XX əsrin çox mühüm layihəsi sayılan və mübahisəli müzakirələrə səbəb olan Bakı-Ceyhan neft kəmərinin çəkilişinə dair sazişin imzalanması olmuşdur. Həmin sazişi Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti cənab Süleyman Dəmirəl, Gürcüstan Respublikasının Prezidenti, cənab Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti cənab Nursultan Nazarbayev və ABŞ Prezidenti cənab Bill Klinton imzalamışlar. Region və bir sıra dünya dövlətləri üçün böyük iqtisadi və geostrateji əhəmiyyətə malik olan bu müqavilənin imzalanmasında Prezident Heydər Əliyevin səyləri və rolu sammit iştirakçıları tərəfindən xüsusi qeyd edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev İstanbul Zirvə toplantısı zamanı Qazaxıstanın, Moldovanın, Ukraynanın, Ermənistanın, Türkiyənin, Fransanın, ABŞ-ın Prezidentləri, Almaniyanın Kansleri, İsrailin Baş naziri ilə ikitərəfli görüşlər keçirmişdir.

26. 27-28 noyabr 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyədə X işgüzar səfərdə olmuşdur. O, Türkiyənin Ankara şəhərində keçirilən "Təbiətin mühafizəsi və eroziyaya qarşı mübarizə" konfransında iştirak etmişdir. Sonra Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəllə birlikdə onun vətəni olan Sparta şəhərinə getmiş, burada yerləşən Şövkət Dəmirəl adına Kardioloci mərkəzin, "Ülkü" orta məktəbinin, Süleyman Dəmirəl adına "Mədəniyyət və konqres mərkəzi"nin açılışında iştirak etmiş, Süleyman Dəmirəl adına Universitetin Araşdırma və tədqiqat xəstəxanasının təməlinin qoyulması mərasimində olmuş, Süleyman Dəmirəl adına Universitet, klinik xəstəxana və bir sıra təhsil-tədris ocaqları ilə tanış olmuş, vilayətin ictimaiyyəti ilə geniş görüşlər keçirmişdir. Səfər zamanı Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə Süleyman Dəmirəl adına Sparta Universitetinin Fəxri doktoru adı verilmişdir.

27. 9-10 yanvar 2000-ci ildə Azərbaycanın Prezidenti Heydər

Əliyev Türkiyədə XI işgüzar səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Baş nazir Büləndt Ecevit, Baş Qərargah Rəisi Hüseyn Kıvrıkoğlu, Baş nazirin müavini Dövlət Bahçeli ilə görüşmüş və iki tərəfi maraqlandıran məsələlər ətrafında danışıqlar aparmışdır.

28. Azərbaycan Respublikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun dəvəti ilə 2000-ci il fevral ayının 7-də Türkiyə Böyük Millət Məclisinin sədri Yıldırım Akbulut ölkəmizə rəsmi səfərə gəlmişdir. Qonaq səfər zamanı Azərbaycanın Prezidenti Heydər Əliyev ilə görüşmüşdur. Yıldırım Akbuluta BDU-nun Fəxri doktoru adı verilmişdir.

29. 8-9 aprel 2000-ci ildə Türkiyənin Prezidenti Süleyman Dəmirəl Türkdilli Dövlət Başçılarının VI Zirvə görüşündə və "Kitabi-Dədə Qorqud" dastanının 1300 iliyinə həsr olunmuş yubiley təntənələrində iştirak etmək üçün Bakıya gəlmişdir. Səfər zamanı Süleyman Dəmirəl "Koç" bankın, "Şəhidlər xiyabanı"nda türk əsgərlərinin xatirə abidəsinin, türk inşaat şirkətləri tərəfindən ucaldılan çoxmərtəbəli yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir. Prezident Heydər Əliyev tərəfindən Süleyman Dəmirələ Azərbaycanın Fəxri vətəndaşı adı verilmişdir.

30. Türkiyənin Prezidenti Əhməd Necdət Sezər Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə 11-12 iyul 2000-ci ildə Bakıda I rəsmi səfərdə olmuşdur. Onu Xarici İşlər naziri İsmayıl Cem, Baş nazirin müavini, Energetika və Təbii Ehtiyatlar naziri Ersümer və digər rəsmi şəxslər müşayiət etmişlər.

Səfər zamanı Türkiyə Prezidenti Əhməd Necdət Sezər Azərbaycanın Prezidenti Heydər Əliyev ilə təkbətək görüş keçirmişdir. Sonra Azərbaycan və Türkiyə nümayəndə heyətləri arasında geniş tərkibdə görüş olmuş, daha sonra dövlət başçıları birgə bəyanat imzalamışlar.

31. Azərbaycan Prezidenti Heydər Əliyev 12-17 mart 2001-ci ildə Türkiyədə III rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Türkiyənin Prezidenti Əhməd Necdət Sezər, Baş naziri Büləndt Ecevit, Böyük Millət Məclisinin sədri Ömər İzgi, Baş nazirin müavinləri Dövlət Baxçəli və Məsud Yılmaz, Baş Qərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə görüşüb danışıqlar aparmış, parlamentdə çıxış etmişdir. Dövlət başçımıza Ankara Universitetinin fəxri doktoru adı verilmişdir. İki ölkənin başçıları bir sıra beynəlxalq və regional məsələləri müzakirə etmiş, bölgəmizdə mövcud olan problemlər haqqında fikir mübadiləsi aparmışlar. Prezident Heydər Əliyev İstanbul Hərbi Akademisiyanın kursantları qarşısında çıxış etmişdir. Səfər zamanı 9 sənəd imza-

lanmışdır.

Dövlətimizin başçısına Ankara Universitetinin Fəxri doktoru diplomu təqdim edilmişdir.

32. 25-27 aprel 2001-ci il tarixlərində Prezident Heydər Əliyev Türkiyəyə XII işgüzar səfərini etmişdir. O İstanbulda Türkdilli Dövlət Başçılarının VII Zirvə toplantısında iştirak etmişdir. Zirvə iştirakçıları aprel ayının 27-də birgə bəyanat imzalanışlar. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Baş nazirin müavini Dövlət Bəxçəli və Xarici İşlər naziri İsmayıl Cem ilə görüşmüş və danışıqlar aparmışdır.

33. 9-14 iyul 2001-ci ildə Azərbaycan Milli Məclisinin sədri Murtuz Ələsgərov Türkiyədə səfərdə olmuşdur.

34. 6-10 fevral 2002-ji ildə Türkiyə Böyük Millət Məclisinin Sədri Ömər İzgi Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı o, Milli Məclisin Sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Xarici İşlər naziri Vilayət Quliyev ilə görüşmüş, BDU-nun Fəxri doktoru adına layiq görülmüşdür.

35. 29-30 aprel 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə XIII işgüzar səfərdə olmuşdur. O Türkiyə və Gürcüstan Prezidentlərinin Trabzonda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir. Görüş zamanı Azərbaycan, Türkiyə və Gürcüstan arasında "Terrorizm, mütəşəkkil cinayətkarlıq, qanunsuz narkotik və psixotrop maddələrinin qaçaqmalçılığı, qeyri-qanuni yollarla əldə olunmuş vəsaitin yuyulması, silah və insan alveri və digər mühüm cinayətlərlə mübarizə haqqında Müqavilə" imzalanmışdır.

36. 24-27 iyun 2002-ji ildə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə XIV işgüzar səfərdə olmuş, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Zirvə görüşündə iştirak etmişdir. Görüş zamanı Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşmüşdür. 25 iyunda Azərbaycan Prezidenti "Üç Dənizin Əfsanəsi" konfransının açılışında iştirak etmişdir. 26 iyunda Azərbaycan Prezidenti Ankarada Türkiyə-Azərbaycan Dostluq və Əməkdaşlıq Fondunun sədri professor İhsan Doğramacının heykəlinin açılış mərasimində iştirak etmişdir. Həmin gün Prezident Heydər Əliyev Azərbaycan mədəniyyət mərkəzinin və Bakı küçəsinin, Türkiyənin Prezidenti Əhməd Necdət Sezər ilə Azərbaycan səfirliyinin yeni binasının açılışında iştirak etmişdir.

26 iyunda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Prezidenti Əhməd Necdət Sezər ilə görüşmüşdür. Görüşdə bölgədə vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll

edilməsi və bir sıra digər məsələlər müzakirə edilmişdir.

27 iyunda Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Hüseyn Kıvrıkoğlu ilə görüşmüş, ona Azərbaycanın "Şöhrət" ordenini təqdim etmişdir.

Həmin gün Türkiyənin nüfuzlu ictimai təşkilatları və fondları tərəfindən Azərbaycan Prezidentinə yüksək mükafatların təqdim olunmasına həsr olunmuş mərasim keçirilmişdir. Heydər Əliyev Beynəlxalq İhsan Doğramacı Fondunun qızıl medalına, Türkiyə Sənayeçiləri və İş Adamları Fondunun (TÜSİAV) "Üstün Xidmət və Müvəffəqiyyət" mükafatına, Ankara İşgüzar Qadınlar Cəmiyyətinin (ANİKOD) "İlin dövlət adamı" mükafatına, Türk Dünyası Yazıçılar və Sənətçilər Fondunun (TÜRKSAV) "Türk Dünyasının xüsusi mükafatına" layiq görülmüşdür.

27 iyunda Azərbaycan Prezidenti iqamətgahında Türkiyə Baş nazirinin müavinləri Dövlət Bəxçəli, Məsud Yılmazı və Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəli qəbul etmişdir.

37. 17-18 sentyabr 2002-ji ildə Türkiyə Prezidenti Əhməd Necdət Sezər Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlatma mərasimində iştirak etmək üçün Azərbaycanda işgüzar səfərdə olmuşdur. 17 sentyabrda Əhməd Necdət Sezərin Azərbaycan Prezidenti ilə təkbətək görüşü olmuşdur.

38. 13-16 oktyabr 2002-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının VII Zirvə görüşündə iştirak etmək üçün Türkiyədə XV işgüzar səfərdə olmuşdur.

Səfər zamanı 14 oktyabrda Prezident Heydər Əliyev Türkiyənin Prezidenti Əhməd Necdət Sezərlə, 15 oktyabrda İstanbulun "Çırağan" sarayında Türkiyənin iş adamları ilə görüşmüş, nitq söyləmiş, Türkiyənin və bu ölkədə akkreditə olunmuş xarici ölkələrin KİV nümayəndələrilə mətbuat konfransı keçirmişdir.

39. 7-8 yanvar 2003-cü ildə Türkiyədə 3 noyabr 2002-ci il seçkilərində qalib gələn Ədalət və İnkişaf Partiyasının sədri, gələcək Baş nazir Rəcəb Tayyib Ərdoğanın Azərbaycana ziyarət etmişdir. Səfər zamanı ikitərəfli və çoxtərəfli görüşlər keçirilmiş, Ərdoğan Baş nazir olduqdan sonra Azərbaycana rəsmi səfər edəcəyi barədə razılıq əldə edilmişdir.

40. 2003-cü ilin may ayında Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə qeyri-rəsmi səfərdə olmuşdur.

41. 2003-cü ilin iyul ayında Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə qeyri-rəsmi səfərdə olmuşdur.

MÜNDƏRİCAT

TÜRKİYƏNİN RƏHBƏRLƏRİ VƏ İCTİMAİ-SİYASİ XADİMLƏRİ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV HAQQINDA 7

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİMİZİ MÖHKƏMLƏNDİRİR VƏ GENİŞLƏNDİRİR 17

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ I QEYRİ-RƏSMİ SƏFƏRİ 18

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ II QEYRİ-RƏSMİ SƏFƏRİ 36

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN RESPUBLİKASINA İŞGÜZAR SƏFƏRİ 116

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ VIII İŞGÜZAR SƏFƏRİ 138

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ IX İŞGÜZAR SƏFƏRİ 185

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ X İŞGÜZAR SƏFƏRİ 204

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XI İŞGÜZAR SƏFƏRİ 234

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN RESPUBLİKASINA II İŞGÜZAR SƏFƏRİ 265

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCAN RESPUBLİKASINA I RƏSMİ SƏFƏRİ 326

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ III RƏSMİ SƏFƏRİ 413

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XII İŞGÜZAR SƏFƏRİ 499

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XIII İŞGÜZAR SƏFƏRİ 604

TÜRKİYƏ BAŞ NAZİRİNİN MÜAVİNİ, DÖVLƏT NAZİRİ DÖVLƏT BAXÇALININ AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ 617

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ XIV İŞGÜZAR SƏFƏRİ 624

TÜRKİYƏ CÜMHURİYYƏTİ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏRİN AZƏRBAYCAN RESPUBLİKASINA I İŞGÜZAR SƏFƏRİ 683

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN TÜRKİYƏYƏ XV İŞGÜZAR SƏFƏRİ 696

PREZİDENT HEYDƏR ƏLİYEVİN TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ ZİYARƏTLƏRİ, TÜRKİYƏNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞLƏRİ VƏ QARDAŞ ÖLKƏNİN RƏHBƏRLƏRİNİN AZƏRBAYCANA ZİYARƏTLƏRİ 747

Kitabda "AzərTAC"-ın , "Qayıdış. 1990-1993", "Azərbaycan-Türkiyə əlaqələri və Heydər Əliyev" I cild və N.Cəfərovun "Heydər Əliyev" kitablarındakı materiallardan istifadə olunmuşdur.

"Şərq Araşdırmalar Mərkəzi"nin nəşri
№ 8

"HEYDƏR ƏLİYEV VƏ ŞƏRQ"
Türkiyə
(şəkilli)

Naşiri	Hikmət HÜSEYNOV
Nəşriyyatın direktoru	Eldar ƏLİYEV
Mətbəənin direktoru	Səhraf MUSTAFAYEV
Fotoqraf	Rafiq BAĞIROV
Rəssamı	Firuzə SULTANZADƏ
Texniki redaktor	Fərid KƏRİMOV
Redaktor	Barat TALIBOV

Yığılmağa verilib 11.10.2004. Çapa imzalanıb 03.01.2005.
Formatı 70x100 1/16. Ş.ç. v. 47,5. Sifariş № 203.
Sayı 500 nüsxə. Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" mətbəəsi
Bakı, M.Müşfiq küç., 2a